SƏRDAR CƏLALOĞLU

TOTALİTARİZMİN METAMORFOZASI

BAKI - 2010

Marşal Fondu, SOROS Fondu və
Norveçin Azərbaycandakı səfirliyi bu kitabın nəşrinə
maliyyə dəstəyindən imitna etmişlər

Sərdar Cəlaloğlu: «Totalitarizmin metamorfozası»
Bakı, «Qanun» nəşriyyatı, 2010, 576 s.

Kitab keçmiş SSRİ Respublikalarında gedən ictimai siyasi proseslərin elmi-siyasi təhlilinə həsr olunub. Kitaba həmçinin müəllifin bilavasitə mövzu ilə əlaqədər müxtəlif illərdə yazdığı və dövrü mətbuatda çap olunmuş bir neçə məqaləsi daxil edilmişdir.
Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Kitabın üz qabığındakı şəkil Salvador Dalinin «Narsistin metamorfozası» adlı əsərinin illustrasiyadır.

ISBN: 000-0000-000-00-0

© S.Cəlaloğlu, 2010

MÜNDƏRİCAT

Ön söz 5
Introduction 13

TOTALİTARİZMİN METAMORFOZASI

I fəsil: Qara piyardan elmi diskusiyalara doğru: Demokratiyanı necə anlamalı?! 21
II fəsil: Siyasi dissonans: Demokratiya adına demokratiyadan imtina . 59
III fəsil: Demokratlarsız «demokratiya» modeli 91
IV fəsil: Demokratiya ilə avtorizmin arasındakı «BOZ ZONA» 149
V fəsil: Aksiom: Yalnız paralel xətlər kəsişmir 169
VI fəsil: «Ölü xalq»ın dirilən ideyası – dövlətin birinciliyi 205
VII fəsil: Nizamla xaosun vəhdəti və ya sabitliklə sakitliyin əksliyi . 225
VIII fəsil: Qloballaşma: Milli şüurdan bəşəri idraka keçid və ya demokratiyadan liberalizmə doğru 253
IX fəsil: Marksizmdən neomarksizmə keçidin fəsadları 267
X fəsil: «Postsovetlər» haradadır?! 337
XI fəsil: Modernləşmənin fəlsəfəsi və təcrübəsi 425

MƏQALƏLƏR

Azadlıq problemi 471
Demokratikləşmənin bəzi aspektləri 501
Qlobal böhran 509
İnsanlığın tarixi inkişafında yeni era: Pornokratiya 543
«Məhəlli münaqişələr» qlobal siyasətdə vasitə kimi 555
Azərbaycanın sosial-iqtisadi böhranının şüuri problemlərinin etimologiyası 565
Məsləhət görülən ədəbiyyat 571

ÖN SÖZ

XX əsrin axırlarında baş vermiş sosializmin ümumdünya qlobal məğlubiyyətindən sonra dünya dövlətlər sisteminə və beynəlxalq siyasi arenaya çoxlu sayda yeni-yeni müstəqil dövlətlər daxil olmuş və buna paralel olaraq onlar özləri ilə çoxlu sayda yeni beynəlxalq problemlər gətirmişdir. Bu problemlər içərisində zaman-zaman beynəlxalq gündəliyi ciddi şəkildə zəbt edən və demokratik dünyanın nizamını təhdid edən seperatizm, lokal münaqişələr, milli sosial-iqtisadi və siyasi böhranlar, dövlət çevrilişləri, kütləvi miqrasiyalar, qaçqınlıq və köçkünlük, terrorizm, narkoticarət, insan alveri və s. problemləri xüsusi ilə qeyd etmək lazımdır. Bu dövlətlərin hər birinə aid olan özünəxas müxtəlif xüsusi, həm də demək olar ki, hamısı üçün eyni olan ümumi bir problem – keçmişdə yaşadıqları totalitarizmin ağır mirasından imtina edib, yeni demokratik cəmiyyət quruculuğuna başlamaq problemi – xarakterikdir. Yaranmış yeni dövlətlərdə bu gün nə baş verdiyini və bu ölkələrin gələcəkdə dünyaya nə kimi sürprizlər vəd etdiyini bilmədən qloballaşmış dünyada dayanıqlı təhlükəsizliyə, uzunmüddətli sülhə və effektli beynəlxalq əməkdaşlığa nail olmaq mümkün deyil. Oxucuların mühakiməsinə təqdim edilən bu kitab məhz bu məsələyə həsr olunmuşdur.

Öncə haşiyə çıxım ki, uzun müddət yeni, müstəqil, milli dövlətlərdə baş verənlər keçid dövrünün məntiqi ilə izah olunmuş, bu da çox vaxt bu ölkələrin gələcəyi ilə bağlı ümidlərin saxlanmasına stimul vermişdir. Amma 90-cı illərdən başlayan «sosializmdən imtina və bazar iqtisadiyyatına keçid» prosesi kifayət qədər uzun müddət davam etdiyindən onu başa çatmış hesab etməliyik. Beləliklə, artıq keçid dövrü arxada qalmışdır. Buna görə də indi hər hansı bir döv-

lətdə baş verənləri keçid dövrünün məntiqi və fəlsəfəsi ilə izah etmək ciddi səhv olardı.

Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra 60 il ərzində dayanıqlı siyasi sistem kimi mövcud olmuş sosializm cəbhəsinin dağılması sinergizm – mürəkkəb sistemlər – qanunlarına uyğun alternativli çevrilmələrlə müşayət olunur. Sinergizmi öyrənən tanınmış tədqiqatçılardan Q.Haken mürəkkəb sistemlərin əsas qanunauyğunluqlarından biri haqqında yazır: «Əvvəlki vəziyyətdə (tarazlıqda olan vəziyyətdə – S.C.) qeyri-tarazlıq olduqdan sonra yaranan quruluşlar müxtəlif tipli ola bilər». Eyni ilə bu qanunauyğunluğa tabe olaraq sosialist ölkələri, o cümlədən keçmiş sovet respublikaları uzun müddətli tarazlıq halından çıxdıqdan sonra ən müxtəlif istiqamətlərdə inkişaf etməyə başlamışdır. Belə alternativli inkişafın başlıca səbəbi fuluktasiya nöqtəsində – köhnənin dağıldığı, yeninin qurulmağa başladığı nöqtədə – ictimai inkişafa təsir edən paradiqmaların, faktorların müxtəlif olmasıdır. Belə ki, bəzi keçmiş sosialist ölkələrində seperatizm – Azərbaycanda, Gürcüstanda, Moldovada olduğu kimi, bəzilərində etnik və ya dini münaqişələr – Özbəkistanda, Qırğızıstanda, Tacikstanda olduğu kimi, bəzilərində dinc ayrılmalar - Çexoslovakiyada olduğu kimi, bəzilərində qanlı parçalanmalar – Yuqosloviyada olduğu kimi, bəzilərində təbii sərvətlərin zənginliyi – Azərbaycanda, Türkmənistanda və Qazıxstanda olduğu kimi, bəzilərində əksinə, təbiətin yoxsulluğu – Ermənistanda, Bolqarıstanda və Qırğızıstanda olduğu kimi, bəzilərində güclü dövlətçilik təcrübəsinin olması – Rusiya Federasiyasında, Şərqi Avropa ölkələrində olduğu kimi, digərlərində əksinə, milli dövlətçilik ənənələrinin olmaması – Orta Asiya və Cənubi Qafqaz dövlətlərində olduğu kimi; bəzilərində xalqların mentalitetinin demokratikləşməyə əlverişli imkan yaratması – Pribaltika respublikalarında olduğu kimi; bəzilərində əksinə, mane olması – Rusiyada, Belorusiyada, Orta Asiya və Cənubi Qafqaz dövlətlərində olduğu kimi; bəzi ölkələrə Qərbin birmənalı dəstək verməsi – Şərqi Avropa, Pribaltika, Ukrayna və Gürcüstanda olduğu kimi, bəzilərinə belə dəstəyin verilməməsi – Azərbaycan, Rusiya və Orta Asiya dövlətlərində olduğu kimi, yaşanan fərqli situasiya və hallar, eləcə də xarici təsirlər müstəsna

rol oynayaraq, bu ölkələrdən bəzilərini demokratiya, bəzilərini isə avtoritar demokratiya və ya neototalitarizmdən tutmuş yarımfeodal cəmiyyət formalarınadək müxtəlif antidemokratik istiqamətlərdə davam edən inkişaf yoluna salmışdır.

Bununla yanaşı bu ölkələrin siyasi iqtidarlarının da müstəqil və bir-birindən fərqli paradiqmalar əsasında retransformasiya həyata keçirmələri eyni çıxış vəziyyətində olan və hətta eyni məqsədlər izləyən bu siyasi rejimlərdə tamamilə biri-birindən fərqli siyasi inkişaf meylləri yaratmışdır.

Qeyd etdiyimiz kimi, postsosialist və postsovet məkanında baş vermiş dəyişilmələr iki istiqamətdə – demokratikləşmə və antidemokratikləşmə istiqamətində inkişaf edir. Demokratikləşmə istiqamətində gedən proseslər də öz növbəsində iki yolla; həm inqilabi – Gürcüstan və Ukraynada olan məxməri inqilablar kimi, həm də islahatlar yolu ilə – Polşada və Pribaltikada olduğu kimi inkişaf etmişdir. Antidemokratik istiqamətdə inkişafda da fərqli meyllər müşahidə olunur. Rusiya özünün nəhəng təbii resurslarına və hərbi gücünə söykənərək demokratikləşmə ilə bağlı xarici təzyiqlərə ardıcıl müqavimət göstərmiş, aşkar antidemokratiya yolu tutmaqla zaman-zaman ondan fərqli yol tutmağa cəhd edən yaxın qonşularına da təzyiq edərək, onları demokratiya istiqamətində hərəkətdən çəkindirməyə cəhd etmişdir. Rusiyanın açıq-aşkar Gürcüstanın – Abxaziya və Cənubi Osetiya ərazilərini işğal və ilhaq etməsi, Azərbaycana, Ukraynaya, Moldovaya birbaşa və dolayısı ilə hərbi, iqtisadi, siyasi təzyiqlər göstərməsi buna əyani sübutdur. Rusiyanın yaxından dəstəyi ilə Belarus uzun illərdir ki, «deformasiya olmuş sosializm» yolu tutmuşdur. Orta Asiya ölkələri isə Rusiyanın yaxından dəstəyi ilə orta əsrlərin patriarxal həyatını yaşayır. Rusiya və Belarusdan fərqli olaraq bəzi postsovet dövlətlərində isə ABŞ-ın və həm də Qərbin demokratikləşmə ilə bağlı təzyiqləri altında deformasiya olmuş demokratik formalar – bəzi dövlətlərdə formal demokratiya, bəzilərində totalitar demokratiya, bəzilərində avtoritar demokratiya yaranıb. Hansı ölkələrdə ki, xarici təsirlər zəif, daxili resurslar isə azdır, orada köhnənin, hansı ölkələrdə isə, xarici təzyiq kifayət qədər ardıcıl və güclü deyil, resurslar isə yetərincədir, orada yeninin

deformasiyası baş vermişdir. Yeninin deformasiyası nəticəsində isə neototalitar dövlətlər yaranmışdır.

Biz bu kitabda neototalitar cəmiyyətlərin yaranma səbəbləri, formalaşma prosesi və mahiyyəti ilə bağlı tədqiqat aparmağı qarşımıza məqsəd qoymuşuq. Adından da göründüyü kimi, yeni neototalitar cəmiyyətlər yalnız zaman baxımından yeni deyil, həm də yaranma fəlsəfəsinə, formasına və beynəlxalq səviyyədə davranışlarına görə də köhnə totalitar cəmiyyətlərin getdiyi yoldan köklü surətdə fərqlənən yeni yolla irəliləyirlər. Əvvəla, bütün köhnə totalitar cəmiyyətlər müharibələrin, inqilabların, hərbi çevrilişlərin, vətəndaş müharibələrinin, tarixi fürsətdən sui-istifadənin nəticəsi olaraq qısa vaxt kəsimində meydana çıxmışdır. Keçmiş SSRİ, indiki Kuba və Çin Xalq Respublikası sosialist inqilabının, İraq-Suriya-Ərəb Sosialist Dirçəliş Hərəkatının, İran-İslam İnqilabının, Cənubi Amerika xuntaları və Afrikanın totalitar cəmiyyətləri hərbi çevrilişlərin və vətəndaş müharibələrinin, Şərqi Avropa sosialist dövlətləri isə II Dünya müharibəsinin nəticəsində yaranmışdır. Bundan fərqli olaraq, neototalitar dövlətlər yalnız konyuktur islahatlar nəticəsində, uzun vaxt ərzində, beynəlxalq reaksiyaya uyğunlaşaraq, birtərəfli inkişaf proqramları və strategiyaları ilə, daxili və xarici siyasətdə ikili davranış nümayiş etdirməklə formalaşır. Neototalitar cəmiyyətin liderləri beynəlxalq səylərdə demokratiyanın, sülhün, təhlükəsizliyin müdafiəsində aktiv, öz ölkələrinin demokratik inkişafında passiv mövqe tuturlar. Bu dövlətlər beynəlxalq öhdəliklərə yalnız o zaman qoşulurlar ki, artıq ölkədə həmin öhdəliklərin subyektlərini tam sıradan çıxarmağa nail olublar. Belə cəmiyyətlərdə demokratları ya fiziki və mənəvi cəhətdən məhv edirlər, ya onları öz tərəflərinə çəkib, yaratdıqları rejimin dekoruna çevirirlər, ya da ölkəni tərk etmələrinə nail olurlar. Neototalitar cəmiyyətlər köhnə totalitar cəmiyyətlərdən fərqli olaraq aydın siyasi fəlsəfəyə əsaslanmır. Əksinə, üzdə formal demokratik dünyagörüşünə sadiqlik nümayiş etdirir, arxada isə totalitarizmlə bağlı planlarını reallaşdırırlar. Neototalitarizm tərəfdarları bu istiqamətdə birbaşa və aşkar hərəkət etmirlər, sadəcə ictimai inkişafı müxtəlif əyləncələrlə ləngidir və nəticədə zaman özü bu cəmiyyətləri totalitarlaşdırır. Beləliklə, neototalitarizmin bütün

fəlsəfəsi vaxt konyukturasına əsaslanır. Bu tipli rejimlərin başında duranlar bir qayda olaraq demokratikləşmə üçün uzun zamana ehtiyac olduğunu iddia edir və nəticədə əldə etdikləri fürsətdən istifadə edərək istənilən demokratik meylin qarşısını alırlar.

Neototalitar cəmiyyətlərin bir fərqi də liderlərin formal rol bölgüsündə oynadığı rolla bağlıdır. Belə ki, köhnə totalitar cəmiyyətdə liderlər Faşist Almaniyasında Hitlerin və kommunist Rusiyasında Stalinin olduğu kimi, totalitar rejimin təmsilçisi, qoruyucusu və ideoloqu rolunda çıxış edirlər. Neototalitar cəmiyyətlərin liderləri isə bundan fərqli rol oynayırlar. Rejimin rəsmi təmsilçiləri özlərini demokratik ideyaların daşıyıcısı, totalitarizmin əlehdarları kimi beynəlxalq ictimaiyyətə təqdim edir, daxildə isə bütöv bir məmurlar ordusu ilə demokratiyanın hər bir təzahürünə müharibə elan edir və cəmiyyətdə totalitarizmin bərqərar olmasına çalışırlar. Beləliklə, bu dövlətlərdə baş verənlərə formal məsuliyyəti liderlər yox, «naməlum və adsız məmurlar» daşıyır. Buna görə də bu keyfiyyətlərinə görə onların aşkarlanıb neytrallaşdırılması «mümkün» olmur.

Neototalitar cəmiyyətin qurucuları demokratik ideallara qarşı total şəkildə, aşkar, ideoloji mübarizə aparmır, özləri də rəsmən heç bir totalitar ideologiyaya söykənmirlər. Onlar sadəcə ya demokratik anlayışları hissəvi qəbul edir, ya həmin anlayışlara öz «orijinal» izahlarını verir, ya da demokratik formanı məzmunundan ayırmağa cəhd edirlər. Yəni, yalnız demokratiyanın daşıyıcılarına qarşı mübarizə aparır, qara piarla, inkişafın daşıyıcılarını nüfuzdan salmaqla əhalini öz tərəflərinə çəkirlər. Onlar öz nöqsanlarını və inkişafın ləngiməsinin səbəblərini məhz demokratik qüvvələrdə və demokratik proseslərdə axtarırlar. Bu cəmiyyətlərdə bütün proqressiv dəyişilmələr elə neqativ proseslərlə müşahidə olunur ki, istənilən xoşməramlı addım sonda pis nəticə verir. Məsələn, neototalitar cəmiyyətlər beynəlxalq demokratik institutlara üzv olduqdan sonra bu ölkələrdə insan hüquq və azadlıqları sahəsində vəziyyət daha da ağırlaşır. Beynəlxalq təşkilatlar qarşısında götürülmüş öhdəliklərə paralel demokratik qüvvələrə daxili təzyiq qat-qat gücləndirilir.

Neototalitar cəmiyyətlər köhnə totalitar cəmiyyətlərdən həm də onunla fərqlənir ki, köhnə totalitar cəmiyyətlər irəliyə, neototali-

tar cəmiyyətlər geriyə hərəkətdən yaranır. Başqa sözlə, klassik totalitar cəmiyyətlər feodalizmdən və ya kapitalizmdən yeni cəmiyyətə keçiddə, müasir neototalitar cəmiyyətlər isə kapitalizmə qayıdışda meydana çıxır. İrəliyə – gələcəyə istənilən hərəkət universallaşma ilə müşayət olunduğundan müxtəlif köhnə totalitar cəmiyyətlərdə oxşar və çox vaxt eyni proseslər baş vermişdir. Geriyə hərəkət isə orijinallaşma ilə müşayət olunduğundan, neototalitar cəmiyyətlər geriyə hərəkətdə cəmiyyətin və tarixin çıxış nöqtəsinə qədər ən müxtəlif məsafələr qət etmə imkanı olduğundan, müxtəlif ictimai formasiyalara xas, müxtəlif forma və məzmunda – orijinal şəkildə təzahür edirlər. Yəni, sosializmdən geriyə qayıdışda – retransformasiyada bu ölkələrin bazar iqtisadiyyatından tutmuş ibtidai cəmiyyətin müasir formalarına, müxtəlif cəmiyyət tiplərinədək inkişaf imkanları vardır. Bu baxımdan bu siyasi coğrafiyada deformasiyaya uğramış sosializm cəmiyyəti – Belarusda olduğu kimi, yarımfeodal cəmiyyətlər – Özbəkstanda, Qazaxıstanda, Türkmənistanda olduğu kimi və feodalizasiyaya məruz qalmış «vəhşi kapitalist» cəmiyyəti – Azərbaycanda olduğu kimi müxtəlif tip neototalitar cəmiyyətlər meydana çıxıb. Məhz bu cür müxtəlif səviyyəli geridönməyə müqayisəli yanaşdıqda beynəlxalq demokratik ictimaiyyət bir neototalitar dövlətə digərinə nisbətən haqq qazandırır və beynəlxalq güclərin həmin rejimlərə yanaşmasında ikili standart meydana çıxır. Məsələn, çox vaxt Qərb Türkmənistanla müqayisədə Qazaxıstana, İranla müqayisədə Rusiyaya, Belarusla müqayisədə Azərbaycana loyal yanaşır. Bu isə əslində neototalitarizmin daha əlverişli şəkildə bərqərar olmasına və güclənməsinə xidmət edir.

Qeyd edim ki, forma müxtəlifliyinə baxmayaraq, həm köhnə, həm də yeni totalitar cəmiyyətlərin - istər sosialist, istər faşist, istər xunta, istərsə də teokratik rejimlərin - hamısı eyni idarəetmə metodlarından – repressiyalardan, qadağalardan və məcburetmənin digər formalarından istifadə edirlər.

Əgər köhnə totalitar dövlətlər beynəlxalq demokratik ictimaiyyətlə öz aralarında dəmir pərdə çəkib, özünütəcrid yolunu tuturdularsa, neototalitar liderlər əksinə, Qərblə əməkdaşlığa üstünlük verərək keçirici sərhədlər yaradır, demokratik dünya ilə əməkdaş-

lığa cəhd edir, bu zaman demokratik Qərb dünyasında özlərinə dəstək axtarır və çox vaxt buna müvəffəq olurlar. Onlar demokratik ölkələrin müxtəlif güclərini – demokratiya tərəfdarları ilə digər maraqların daşıyıcılarını üz-üzə qoymaqla özlərini sığortalamağa nail olurlar. Bu zaman ölkələrin milli sərvətləri və geopolitika əlverişli siyasi vasitə kimi istifadə olunur.

Neototalitarizm klassik totalitarizm qədər və bəzən ondan da təhlükəlidir. Formalaşma mərhələsində olan totalitar cəmiyyətlər zaman-zaman eyni mövqedən çıxış etməklə və ya eyni birliklərdə birləşməklə yeni siyasi güc kimi çıxış etməyə cəhd edirlər. Belə birliklər isə öz növbəsində böyük totalitar dövlətlərin yaratdığı təhlükələri doğururlar. Rusiyanın İranla, Venesuala ilə işbirliyi, Şanxay təşkilatının, MDB və s. kimi totalitar dövlətlərin yaratdığı qurumların yaranması bu istiqamətdəki axtarışların nəticəsi kimi meydana çıxır.

Qeyd etmək lazımdır ki, iri dövlətlərdə neototalitarizm qonşu kiçik dövlətləri, beynəlxalq təhlükəsizliyi, sülhü, bütünlükdə bəşəriyyəti təhdid etdiyindən bir qayda olaraq aktiv müqavimətlə rastlaşırlar, kiçik dövlətlərdə isə neototalitarizm öz vətəndaşlarına və öz xalqlarına təhlükə törətdiyindən çox vaxt lazımi beynəlxalq müqavimətlə qarşılaşmırlar. Müasir dünya düzənini təhdid edən və qlobal ekoloji böhrandan tutmuş qlobal iqtisadi böhranadək neqativ tendensiyaların mənbələri kimi çıxış edən bu cür halların yaranması dünyanın demokratik toplumunu narahat etməyə bilməz.

Bu kitab bütünlükdə neototalitarizm yolu tutmuş iqtidarların siyasi texnologiyalarına az da olsa aydınlıq gətirmək məqsədi ilə yazılmışdır. Kitabda Azərbaycanın siyasi reallıqları sadəcə nümunə kimi götürülmüşdür. Burada mən, Azərbaycanda formalaşmış mövcud siyasi sistemin və buna uyğun olaraq bütünlükdə neototalitarizmin mahiyyətini Azərbaycan iqtidarının bu ölkədə həyata keçirdiyi strateji siyasətin paradiqmaları əsasında, struktur-funksional təhlil metodu ilə aşkarlamağa cəhd etmişəm. Bu metodun üstünlüyü ondadır ki, sistemli obyektləri – burada Azərbaycan dövlətini, sosial sistemləri - tədqiq edərkən ictimai həyatın müxtəlif formalarının struktur-funksional təhlili, sosial sistemdə struktur tərkib hissələri-

nin – məsələn, siyasi, iqtisadi, hüquqi, idarəetmə sferaları, beynəlxalq əlaqələr və s. – və onların bir-birinə nisbətən rolunun, funksiyasının təbiətinin aşkara çıxarılmasına yardımçı olur. Təhlil zamanı həm də problemin idraki aspektlərini əsas götürmüşəm. Belə ki, hər bir paradiqmanı ifadə edən anlayışın radikal-total və hissəvi anlamlarının qarşılıqlı müqayisəsi ilə nə üçün eyni ad altında müxtəlif siyasi sistemlərin yarandığını izah etməyə cəhd etmişəm. Burada təhlil üçün əsas götürülmüş sistemli dəyişikliklər və struktur tərkib hissələri ilə bağlı müxtəlif paradiqmaların bir-biri ilə əlaqəsini öyrənərkən Azərbaycan iqtidarının ideoloqlarından və əsas simalarından biri – Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin iqtidarın hakimiyyətdə olduğu 16 il ərzində həyata keçirdiyi və gələcəkdə həyata keçirməyi planlaşdırdığı strateji siyasətinə əsas paradiqmalarına həsr etdiyi (16 yanvar 2008-ci il tarixində «Mediaforum» (www.mediaforum.az) saytında yerləşdirilmiş) «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: Modernləşmə xətti» (Bundan sonra məqalə sadəcə «Strategiya» kimi adlandırılacaq) adlı məqaləsinə istinad və bununla yanaşı elmi mənbələrə, siyasi təcrübəyə müraciət edilmişdir.

Bu kitab bütünlükdə neototalitarizm yolu ilə inkişaf edən cəmiyyətlərdə həyata keçirilən siyasi texnologiyalar haqqındadır. Qeyd edim ki, neototalitar cəmiyyətlərdə mahiyyətcə eyni proseslər gedib. Sadəcə, bu ölkələrin iqtidarlarının inkişaf strategiyasının əsas paradiqmaları, onların sıralanma ardıcıllığı və inkişafda həyata keçirilmə vaxtları bir-birindən cüzi dərəcədə fərqlənir.

Kitaba həmçinin son illərdə yazdığım bu və ya başqa dərəcədə nəzərdən keçirilən mövzuya aydınlıq gətirəcək, dövrü mətbuatda və elmi məcmuələrdə çap olunmuş bir neçə məqaləni də daxil etməyi məqsədə müvafiq hesab etdim.

Ümid edirəm ki, dünyanı təhdid edən yeni totalitar gücün yaranmasının qarşısını almaqda, dünyanın demokratik qüvvələrini kompromissiz yol tutacağına bu kitab kiçik də olsa yardım edəcəkdir.

Fürsətdən istifadə edərək, kitabın işıq üzü görməsində mənə göstərdikləri mənəvi dəstək və əməli yardıma görə Taliyət Əlisoya və Rauf Kərimliyə dərin minnətdarlığımı bildirirəm.

INTRODUCTION

After the world-wide global defeat of socialism taken place at the end of XX century, a lot of new independent states have entered into the world states' system and International political arena and at the same time, they have brought a lot of new International problems. It is especially necessary to note separatism, local conflicts, national social-economic and political crises, coup d'etats, mass migrations, state of being a refugee and an IDP, terrorism, trade of drugs, human trafficking and other problems which seriously occupy the International agenda and threaten the order of democratic world among these problems now and again. Each of these states has one self-characteristic different special and the same one problem common for all – the problem of starting new democratic society building by refusing the heavy heritage of totalitarianism they experienced in the past. It is impossible to achieve stable security, long-term peace and effective International cooperation in the globalized world without knowing what has happened in the newly established states today and what kind of surprises these states will promise to the world in future. The book submitted for the judgement of readers is just dedicated to this issue.

Let me explain that the events happened in new, independent and national states for a long time, have been explained with the logic of transitional period and it has mostly given a stimulus for keeping of hopes regarding the future of the country. But as the process "refusal from socialism and transition to market economy" which began in 90s, continued long enough, we must consider it completed. Thus, the transitional period has already passed off. Therefore, it would be a serious mistake to explain the events happened in any state with the logic and philosophy of transitional period.

It must be noted that after the World War II, the disintegration of socialism front existed as a stable political system for 60 years is accompanied with alternative changes corresponding to the laws of synergism – complex systems. Y.Haken, one of well-known researchers studying synergism, writes about one of main objective laws of complex system: “The systems emerged after imbalance exists in the previous condition may be of different types (in balance condition-S.J.)”. In the meantime, subject to these objective laws, socialist countries as well as former Soviet countries have started developing in the most different directions after dropping out of the long-term state of imbalance. The main reason for such alternative development is the diversity of paradigms and factors which influence the public development in fluctuation point – in the point where the old one is collapsed and new one is established. Such as, separatism in some former socialist countries – as in Azerbaijan, Georgia and Moldova, ethnical or religious conflicts in some countries – as in Uzbekistan, Kyrgyzstan and Tajikistan, peaceful separation in some countries – as in Czechoslovakia, bloody collapse in some countries – as in Yugoslavia, richness of natural resources in some countries – as in Azerbaijan, Turkmenistan and Kazakhstan, vice versa, poorness of nature in some countries – as in Armenia, Bulgaria and Kyrgyzstan, strong statehood experience in some countries – as in Russian Federation and Eastern European countries, vice-versa lack of national statehood traditions in others – as in Middle East and South Caucasian countries, creation of favorable opportunity for the democratization of mentality of people in some countries – as in Baltic countries, vice-versa hindering in some countries – as in Russia, Belarus, Middle East and South Caucasian countries, unanimous supporting of some countries by West - as in the countries like Eastern Europe, Baltic, Ukraine and Georgia, non-provision of some countries with such support – as in Azerbaijan, Russia and Middle Asian countries, the experienced different situations and cases as well as foreign influences have played an exceptional role and lead some of these countries to democracy and some of them to authoritative democracy or to the way of development continuing in different antidemocratic directions

beginning from neo-totalitarianism to the forms of semi-feudal society.

Along with it, the retro-transformation implementations of political authorities of these countries on the basis of independent and different paradigms have created the inclinations of quite different political development in these political regimes which are in the same exit condition and even pursue the same goals.

As we note, the changes taken place in post-socialist and post-Soviet space develop in two directions – democratization and anti-democratization directions. The processes going in the democratization process have in its turn developed in two ways – both through revolutionary – like orange revolutions in Georgia and Ukraine and reforms – like in Poland and Baltic countries. There are also observed different inclinations in the development in anti-democratic direction. Russia put up consecutive resistance to foreign pressures concerning democratization by basing upon its huge natural resources and military power, now and then pressured its close neighbors which attempted to take a different course and endeavored to prevent them from the movement towards democracy by taking an open anti-democratic way. The apparent occupation and annexation of Abkhazian and South Ossetian territories of Georgia by Russia as well as putting military, economic and political pressures on Azerbaijan, Ukraine, Moldova and other countries in a direct and indirect way, are visual proofs. Belarus has been taking a "deformed socialism" way with the close support of Russia for a long time. And the Middle Eastern countries are experiencing the patriarchal life of middle ages with the close support of Russia. Unlike Russia and Belarus, in some post-Soviet countries, there have appeared democratic forms deformed under the pressures of both USA and West regarding the democratization – formal democracy in some countries, totalitarian democracy in some of them and authority democracy in the others. The deformation of old system has taken place in the countries where foreign pressures are weak and internal resources are few and the deformation of a new system has taken place in the countries where foreign pressure is not consecutive and strong

enough and have enough resources. As a result of the deformation of a new system, neo-totalitarian states have appeared.

We have set ourselves conducting research on the reasons of the creation, formation process and essence of neo-totalitarian societies as an object. As it seems from its name, new neo-totalitarian societies only move forward on the way which does not only differs from the point of time but also formation philosophy, form and behaviors in International negotiations which substantially differs from the way old totalitarian societies go on. First of all, all of the old totalitarian societies have appeared in a short period of time as a result of wars, revolutions, military coups, and civil wars – abuse of historical opportunity. The former USSR, present Cuba and China People's Republic appeared as a result of socialist revolution, Iraq and Syria appeared as a result of Arabian Socialist Revival Movements, Iran appeared as a result of Islamic Revolution, Southern American juntas and totalitarian societies of Africa appeared as a result of military coups and civil wars but East European socialist states appeared as a result of World War II. Unlike it, neo-totalitarian states are only formed as a result of conjuncture reforms, within a long period of time, conforming to International reaction, with unilateral development programs and strategies and by displaying double behaviors in internal and external policy. The leaders of neo-totalitarian society take an active stand in the protection of democracy, peace and security in International efforts and a passive stand in the democratic development of their own countries. These states join the International obligations only in that case that they have already achieved in taking out the subjects of the same obligations fully. They either annihilate democrats physically and morally or involve and make them the dycor of their regime or achieve in their leaving the country. Unlike old totalitarian societies, neo-totalitarian societies are not based upon the clear political philosophy. On the contrary, they display loyalty to formal democratic world outlook in their presence and realize their plans on totalitarianism in the background. The supporters of totalitarianism do not act directly and apparently in this direction, they simply hinder the public development with different entertainments and as a result, the time itself totalizes these societies. Thus, all philosophy of neo-totalitarianism

is based upon the time conjuncture. The people who manage this type of regimes, as a rule, claim that they need a long time for democratization and as a result, prevent them from democratic tendency by using an opportunity they gained.

One difference of neo-totalitarian societies is that leaders in an old totalitarian society appear as representatives, protectors and ideologists of a totalitarian regime as Hitler did in Fascist Germany and Stalin in Communist Russia. But unlike it, there is carried out role division in neo-totalitarian societies. The official representatives of the regime introduce themselves to International public as the bearers of democratic ideas and opponents of totalitarianism. But they declare war against every appearance of democracy together with all army of officials in the country and try totalitarianism to be restored in the country. Thus, the formal responsibility for the events taken place in the society is not born by the leaders but by "unidentified and nameless officials". Therefore, it becomes "impossible" to detect and neutralize them for these peculiarities.

The builders of neo-totalitarian societies do not fight against democratic ideals totally, apparently and ideologically and don't officially base upon any totalitarian ideology either. They either simply accept democratic conceptions partially or give their "original" explanations to the same conceptions or try to differentiate the democratic form from its content. That is, they only fight against the bearers of democracy and entice the people by black PR and discrediting the bearers of development. They just see their own errors and the reasons for the delay of development in democratic forces and processes. All progressive changes in these societies are accompanied in such negative processes that any step taken for good events, has bad result in the end. For example, after neo-totalitarian societies become members of International democratic institutions, the condition in the field of human rights and freedoms gets more serious. The internal pressure is strengthened more upon democratic forces parallel to the obligations taken before International organizations.

The neo-totalitarian societies differ from the old totalitarian societies for the fact that old totalitarian societies are formed of the

movement forward and neo-totalitarian societies of the movement backward. In other word, classical totalitarian societies appear in the transition from feudalism or capitalism to a new society and modern neo-totalitarian societies in return to capitalism. As any movement forward- to future is accompanied with universality, similar and mostly same processes take place in the old totalitarian societies. And as the movement backward is accompanied with originality, the neo-totalitarian societies emerge typically to different social structures, in different forms and contents – original way by having the opportunity of covering the most different distances till the exit point of the society and history in the movement backward. That is, these countries have chances of development from market economy to modern forms of primitive society and different types of society in the movement backward from socialism – retransformation. From this point of view, there appeared different types of neo-totalitarian societies like in Belarus – socialism society deformed, like in Uzbekistan, Kazakhstan and Turkmenistan - semi-feudal societies, as well as like in Azerbaijan – “wild capitalist” society exposed to feudalization in this political geography. When we just approach this type of different-level return comparatively, International democratic public justifies one neo-totalitarian state in comparison with the other and there appear double standards in the approach of International powers to the same regimes. For example, the West mostly approaches Kazakhstan loyally comparing to Turkmenistan, Russia comparing to Iran and Azerbaijan comparing to Belarus. In fact, it serves the restoration and strengthening of neo-totalitarianism in more favorable way.

I should note that though the diversity of forms, all of both old and new totalitarian societies- either socialist, or fascist, or junta and theocratic regimes use the same methods of governance – all other forms of repressions, prohibitions and compulsions.

If old totalitarian states drew iron curtain between themselves and International democratic public and took the course of self-isolation, on the contrary, the neo-totalitarian leaders create transitional borders by preferring the cooperation with the West, attempt to cooperate with the democratic world, seek for support for themselves

in the democratic Western world at this time and mostly achieve it. They achieve in insuring themselves by putting face-to-face the different forces of democratic countries – supporters of democracy and carriers of interests. This time, the national wealth of the country and geopolitics are used as favorable political means.

The neo-totalitarianism is as dangerous as classic totalitarianism and sometimes, more dangerous than that. The totalitarian societies which are on the eve of shaping, try to appear as new political forces by speaking from the same position at times or by uniting in the same unions. Ands such unions, in their turns, cause dangers which are made by the great totalitarian states. The cooperation of Russia with Iran and Venezuela and the creation of organizations by the totalitarian states like Shanghais organization, CIS and others, appear as a result of searches in this direction.

It must be noted that as neo-totalitarianism threatens the neighboring small states, International security, peace and totally mankind in big states, they, as a rule, meet with active resistance but the neo-totalitarianism does not mostly meet with necessary International resistance as it causes danger for its citizens and its peoples. The emergence of such cases which threaten the order of modern world and appear as the sources of negative tendencies beginning from global ecological crisis to global economical crisis, can't but disturb the democratic community of the world.

This book has been written for the purpose of clarifying the political technologies of authorities which are developing through neo-totalitarianism more. The political realities of Azerbaijan have only been cited as examples. Here, I have tried to investigate the essence of existing political system formed in Azerbaijan and generally neo-totalitarianism in line with it under the paradigms of strategical policy pursued by the authority of Azerbaijan in this country and through the method of structure-functional analysis. The advantage of this method is that while investigating the systemic objects – the state of Azerbaijan, social systems – political system formed in Azerbaijan, the structural-functional analysis of different forms of public life, the spheres of structure compositional parts in social system – for example, political,

economic, legal, management, International relations, etc. - and helps to detect their roles and functions towards each other. I have also assumed the cognitive aspects of the problem as the bases during the analysis. Such as, I have tried to explain the reason why different political systems are created under the same name with the mutual comparison of radical-total and partial meanings of the conception which expresses every paradigm. While studying the correlation of different paradigms with each other over the systemic changes and structural composition parts assumed as bases for the analysis here, there has been referred to the article named "While defining the strategy of future: Line of modernization" (hereinafter referred to as "Strategy") placed in the site "Mediaforum" (www.mediaforum.az) on 16 January 2008, Ramiz Mehdiyev, an academician of Azerbaijan National Academy of Sciences and Head of President's Administration - one of the ideologists and main personalities of the authority of Azerbaijan, dedicated to main paradigms of the strategical policy the authority implemented within its 15 years on power and it plans to implement in the future as well as addressed to scientific sources and political experience.

This book is generally about the political technologies implemented in the societies which are developing through neo-totalitarianism. I should note that there happened the same processes by essence in neo-totalitarian societies. Simply, The main paradigms of the development strategy of the authorities of these countries, their ranking order and times of implementation in the development differ from each other little.

I considered it to be advisable to include some of my recent articles published in the periodical press and scientific journals which would clarify the topic reviewed in this or other degree.

I hope that this book would at least help the democratic forces of the world to take a course without compromise and to prevent new totalitarian force which threatens the world to appear.

By taking a chance, I express my gratitude towards Taliyat Alisoy and Rauf Karimli for the moral and practical aids and support they provided me in the publication of this book.

I FƏSİL

QARA PİARDAN ELMİ DİSKUSİYALARA DOĞRU: DEMOKRATİYANI NECƏ ANLAMALI?!

«Biz, seçimimizi, ümumi rifaha yad olan mühakimələrlə bulanmamış, həqiqi maraqlarımızı sağlam və qərəzsiz anlamağımızla təyin olunduğu qədər xoşbəxt olacağıq»

Hamilton

Dostlarımdan biri masamın üzərinə böyük bir məqalə qoyaraq «Azərbaycan iqtidarının strategiyasına həsr olunmuş məqalədir, istəsəniz tanış olun» deyib gedəndən sonra qeyri-ixtiyari olaraq məqaləni vərəqləməyə, elə ilk abzasdan da sonadək diqqətlə oxumağa başladım.

Yazı müəllifi məqaləsində Azərbaycanda iqtidarın hakimiyyətə gəldiyi gündən bu günədək həyata keçirdiyi siyasi strategiyanın mahiyyətini təqdim etməklə yanaşı müxalifəti intellektual döyüşə – *elmi diskusiyaya* dəvət etmiş, ölkə və beynəlxalq ictimaiyyəti iqtidarın demokratikləşmə kursu götürdüyünə inandırmağa çalışmışdır. Mən də Azərbaycan siyasətində müxalifətdə rol almış şəxs kimi bu polemik çağrıya səs verərək Azərbaycan iqtidarının strateji siyasətinin təhlilinə həsr olunmuş silsilə tənqidi məqalələr yazıb «Hürriyyət» qəzetində çap etdirdim. Amma sonradan bu problemin qlobal əhəmiyyətini, digər postsovet məkanında formalaşmış neototalitar rejimlərin mahiyyətinə aydınlıq gətirilməsində əhəmiyyətini nəzərə alaraq, həmin məqalələr üzərində yenidən işləyib kitab şəklinə saldım.

Haşiyə: Siyasiləşmə prosesində *siyasi diskusiyalar* mühüm əhəmiyyət kəsb edir. Diskusiya nədir və nəyə görə demokratikləşmə üçün siyasi diskusiyalar xüsusilə önəmlidir? Hər şeydən öncə, insan şüurlu varlıqdır və digər canlılardan fərqli olaraq öz arzu və istəklərini fikir şəklində ifadə etməyə meyl edir. *Fikir bildirən istənilən mətn isə diskursdur.* M.Fuko diskursla bağlı yazır: «Diskurs – yalnız arzunu bildirmir, həm də arzu obyektidir». Diskurs sadəcə fərdin arzularını bildirmir, o hər şeydən öncə başqalarına ünvanlanmış, onların istifadəsi üçün nəzərdə tutulmuş fikirləri özündə ifadə edir. Bu baxımdan, diskursda onun müəllifi, onun arzuları və öz diskursu ilə başqalarına ötürmək istədiyi ideyalar önə çıxır. Buradan da cəmiyyət həyatında *müəllifliyin sosial rolu* yaranır. Bəs, müəllif kimdir və onun sosial rolu nədən ibarətdir? Müəlliflə bağlı M.Fuko yazır: «Müəllif diskursu mənimsəmə obyektidir: tamamilə özünəməxsus olduqları mülkiyyət formasıdır…müəllif – az və ya çox başa çatmış formada bərabər şəkildə özünü aşkarladığı ifadə ocağıdır… müəllifin funksiyası diskurs universumunu artikulyasiya, determinə edən və qucaqlayan hüquqi *institutisional* sistemlə bağlıdır». Beləliklə, göründüyü kimi, diskurs onun müəllifinə *cəmiyyət həyatında digərlərindən fərqli status* verir. Birincisi, o xüsusi mülkiyyətçiyə – *fikir mülkiyyətinin sahibinə* çevrilir. Bu isə ona böyük maddi, mənəvi və siyasi sərmayə qazandırır. Buradan da, diskursun mülkiyyət kimi çıxış etməsi *müəlliflik hüququnu* doğurmuşdur. İkincisi, müəllif – öz ətrafına müəyyən sayda insan toplamaq, onları öz təsirində saxlamaq və konkret fəaliyyətə sövq etmək imkanı olan özünəməxsus *güc mərkəzidir.* Belə mərkəzlər əslində hakimiyyətə alternativ kimi çıxış edir və hakimiyyətdəkilərin insanlar üzərində total hakimiyyətini zəiflədir. İranda İmam Xomeyni məhz bu yolla şah rejiminin devrilməsinə nail olmuşdur. Üçüncüsü, müəlliflik xüsusi hüquqi *institusional sistemin,* o cümlədən siyasi sistemin yaranmasını tələb edir ki, bu da hüquq dövləti ideyasının əsasını təşkil edir. Klassik totalitar cəmiyyətlərdə fikir azadlığına – diskursa qarşı dözümsüzlüyün əsasında məhz müəllifin diskurs vasitəsi ilə vətəndaşlara öz arzularını, xüsusən siyasi hakimiyyət, cəmiyyət həyatı və siyasi liderlərlə bağlı arzularını ötürüb, tərəfdər toplayaraq total hakimiyyəti zəiflətmə-

ləri durur. Buna görə də totalitar hakimiyyətlər müəllifliyi məhv etməyə üstünlük verirlər. Ümumiyyətlə, istənilən cəmiyyətdə diskursa xüsusi münasibət mövcud olur və *diskursa laqeyd insan cəmiyyəti yoxdur.* Cəmiyyətlər sadəcə diskursa münasibətlərinə görə bir-birlərindən fərqlənirlər. Cəmiyyətlərin diskursa münasibəti ilə bağlı M.Fuko yazır: «İstənilən cəmiyyətdə diskurs istehsalı eyni zamanda nəzarət olunur, seleksiyaya məruz qalır, o hakimiyyət səlahiyyətləri və onunla bağlı təhlükələri neytrallaşdırmaq, onun hadisələrinin gözlənilməzliyini dəf etmək funksiyası daşıyan müəyyən sayda prosedurların köməyi ilə təşkil olunur və təkrar paylanır… Bunlardan ən aydını və ən adət olunmuşu qadağandır». Müxtəlif cəmiyyətlərdə diskursa dörd cür yanaşmanı ayırd edə bilərik: a) Diskursun *gizlədilməsi* – bu elə diskurslardır ki, onların yayılması, başqalarına ötürülməsi cəmiyyəti təhdid edən proseslərə təkan verə bilər. Məsələn, kütləvi qırğın silahlarının hazırlanması, pulun çapı və s. kimi texnoloji proseslərlə bağlı, o cümlədən kütləvi psixoz və kütləvi həyacana səbəb ola biləcək diskurslar dövlət sirləri rubrikasında siyasi hakimiyyət tərəfindən gizlədilir. Bu üsuldan istənilən siyasi hakimiyyət istifadə edir, yalnız diskursun sirlilik əhəmiyyətinə verdikləri qiymətə görə bir-birindən fərqlənirlər; b) Diskurs üzərində nəzarət – bu *senzura* tətbiq etməklə həyata keçirilir. Bir qayda olaraq siyasi hakimiyyət onun üçün sərfəli olan fikirlərin yayılmasında maraqlı olduğundan belə fikirlərin yayılmasına razılaşmağa paralel onun maraqlarına ciddi zərbə vuracaq, eləcə də ictimai əxlaqa zidd, düşmənçiliyə, irqçiliyə, dini dözümsüzlüyə gətirib çıxaracaq fikirləri filtrasiya etmək məqsədi ilə diskurs üzərində senzura tətbiq edir. Demokratik cəmiyyətlərdə hakimiyyət maraqları, insan hüquq və azadlıqları, hakimiyyətin tənqidi və s. ilə bağlı məsələlərdə senzuranın tətbiqinə yol verilmir, totalitar cəmiyyətlərdə isə əksinə, senzurada prioritet məhz hakimiyyət maraqlarına, xüsusən onun ideoloji əsaslarına zərbə vuracaq diskurslara verilir; c) Diskursun qadağan edilməsi – tiraniya və despotiyanın hökm sürdüyü cəmiyyətlərdə ümumiyyətlə vətəndaşlara diskurs etmək, hər hansı məsələ ilə bağlı, hətta öz şəxsi həyatları ilə, adi həyat qayğıları ilə bağlı fikirlərini bildirmək qadağan edilir. Düşüncə yasağı ilə in-

sanlar öz-özlərində belə düşünməkdən çəkindirilir, onların əvəzinə «dövlət düşünür», insanlar total şəkildə susdurulur. Hətta hakimiyyətdə təmsil olunanlar da belə hüquqlardan məhrum edilir. Belə rejimlərdə hətta seksuallığın diskursunun qadağan edilməsi bunun bariz nümunəsidir. Kommunist və faşist rejimləri bu yolla getmişdir; d) Diskursun inkarı və yalançı diskurs istehsalı – bu forma neototalitar cəmiyyətlər üçün xarakterikdir. Siyasi hakimiyyət həqiqi diskursa qarşı mübarizə aparır, həqiqi diskursa qarşı yalançı alternativ diskurs qoymaqla onu inkar etmək, vətəndaşlarda yanlış düşüncə formalaşdırmaq, həqiqəti təhrif edərək insanları aldatmaq və onları məhz belə yanlış düşüncə ilə idarə etmək məqsədi güdür. Beləliklə, diskursa münasibət yalnız onun müəllifinə və diskurs istehsalına yox, həm də *diskursun müdafiə edilməsinə* yanaşma ilə müəyyən olunur. Diskursun yayılması, onun başqalarına ötürülməsi prosesə çevrilərək *siyasi diskusiyaları* gündəmə gətirir. Totalitar cəmiyyətlərdə diskursun müəllifi və diskurs hədəf seçilirsə, neototalitar cəmiyyətlərdə diskursun ötürülməsi – diskusiya və diskursu dövr etdirənlər, yəni diskusiyaya qoşulanlar əsas hədəfə çevrilir. Belə cəmiyyətlərdə müxalif fikir bildirəndən çox, müxalif fikir eşitmək istəyən və ya müxalif fikri inkişaf etdirənlər təzyiq altına düşür. Bununla da müxalifətlə narazı elektorat arasına sədd çəkilir, müxalif fikir blokadaya alınır, onun cəmiyyətdəki rolu sıfıra endirilir. Diskurs təcrübədə əməli fəaliyyətə səbəb olmadıqca, o həqiqi siyasi diskurs hesab edilə bilməz. Həqiqi siyasi diskursun əməli nəticələrə səbəb olması isə *siyasi dialoqla mümkündür.* Siyasi dialoq diskursa elə münasibətdir ki, bu zaman tərəflər ortaq mövqeyə keçə və əməkdaşlıq edə bilirlər. Məhz neototalitar cəmiyyətlərdə siyasi dialoqa mənfi münasibət bəslənildiyindən istənilən həqiqi diskurs cəmiyyət üçün faydasız və əməli nəticəsiz olaraq qalır.

Diskusiya ictimai həqiqətin aşkarlanma üsullarından biri kimi mövcuddur və digər heç bir üsul onu əvəz edə bilməz. Buna görə də həqiqət əzmi olan hər bir fərd diskursa meyl edir və diskurs edən hər bir şəxs özü üçün qaranlıq qalan həqiqəti aşkarlayır. İnsanlıq tarixi də tərəqqinin məhz bu yolla irəlilədiyini təsdiq edir. M.Fuko «Həqiqətə əzm» adlı kitabında yazır: «Bizim bütün düşüncəmizdən

keçən, necə olmuş və daim *necədirlə* bağlı sual qoyulsa – bu, bizim tariximizin bu qədər əsrlərindən keçmiş həqiqət əzmdir». *Totalitarizm siyasi hakimiyyət həqiqətinin təhrif olunması nəticəsində yarandığından, heç bir totalitar cəmiyyətdə müstəqil həqiqət axtarışına, o cümlədən siyasi həqiqətlər ətrafında diskursa yol verilmir.* Bunun başlıca səbəbi diskursun təbiəti ilə bağlıdır. M.Fukoya görə «diskursivliyin müəyyənləşməsi həmişə özünün sonrakı transformasiyası ilə heterogendir». Başqa sözlə, istənilən diskurs, başlanğıc ideyaların necə olmasından asılı olmayaraq, düşüncə prosesində gec-tez əks fikirlərin doğulmasına gətirib çıxardığından, totalitar cəmiyyətlərdə diskursivliyə meyl edilmir. Buna görə də istənilən totalitar cəmiyyət bir qayda olaraq *fikir plüralizminə* hədsiz qısqanclıqla yanaşmış, əks fikirliliyə dözümsüzlük nümayiş etdirmişdir. Klassik totalitar cəmiyyətlərdə başlanğıcda əks cəbhədəkilərə elan olunmuş müharibə sonra rejimdaxili müxalifətə də tətbiq edilmişdir.

Haşiyə: Diskursa totalitar münasibət keçmiş SSRİ təcrübəsi üçün xarakterik olmuşdur. SSRİ-də hələ Leninin və Stalinin başçılığı altında «ağlar»a qalib gəlməyə müvəffəq olmuş bolşeviklər sonra Kommunist Partiyasında başqa cür düşünən «qırmızılar»ı - Trotski, Buxarin, Martov, Plexanov və başqalarını – fəhlə sinfinə düşmən elan edərək qısa müddət ərzində nəinki yadfikirliliyi ləğv etdilər, həm də onun müəlliflərini və potensial daşıyıcılarını, xüsusən ziyalıları kütləvi repressiyalara məruz qoydular. Bolşeviklər hətta SSRİ-dən xaricə qaçmağa müvəffəq olmuş və orada yazdığı əsərləri ilə bolşevizmi ifşa edən Trotskini yaşadığı Kanadada, II Dünya müharibəsindən sonra soyuq müharibə dönəmində «Azadlıq» radiosunda aktiv antisovet təbliğatı aparan keçmiş SSRİ vətəndaşı Fətəlibəy Düdənginskini Almaniyada yaşadığı mənzildə terror etmişdilər. Onlar hər cür partiyadaxili diskusiyanı partiyaya xəyanət hesab edirdilər, terror və repressiyalar yolu ilə cəmiyyətdə hər hansı müstəqil diskusiyanın qarşısını kəsirdilər. Bununla bağlı çoxsaylı qanunlar, normalar, aktlar, direktivlər, əmrlər və s. mövcud idi. Bununla da bolşeviklər siyasi diskusiya üzərində sərt nizam yaratmağa nail olmuşdular. M.Fuko yazır: «Nizam – diskurs istehsalına nəzarət prinsipidir». Diskursu nəzarət altına alan və fikir plüralizmini ləğv edən

bolşeviklər bununla kifayətlənmədilər, bundan sonrakı mübarizələrini fiziki alternativlərə yönəltdilər. Sov. İKP-nin qurultaylarından birində S.M.Kirovun Baş katibliyə namizədliyini müzakirə etdiklərinə görə əvvəlcə S.M.Kirov DTK tərəfindən terror edildi və sonra bundan bəhanə kimi istifadə edərək, həmin qurultayda iştirak edən bir neçə nəfər istisna olmaqla, bütün nümayəndələr qısa vaxt ərzində müxtəlif adlar altında mühakimə edilərək güllələndilər və bu qurultay Sov.İKP tarixinə də «güllələnlərin qurultayı» kimi düşdü. Sonralar beynəlxalq konvensiyalara qoşulduqdan sonra ayrı-ayrı dissidentlərlə bağlı ciddi «ölçülər» götürülürdü. Onlar ya naməlum şəraitdə yox olur, ya konslaqerlərdə çürüdülür, ya da «ruhi xəstə» adı altında «psixuşka»larda saxlanılırdı. *Başqa cür düşünənlərin cəmiyyətə məhz «dəli» kimi təqdim edilməsi totalitar cəmiyyətlərin xarakterik əlamətlərindəndir.* Bunun ciddi səbəbləri vardır. M.Fuko yazır ki, «lap qədim orta əsrlərdən başlayaraq dəli odur ki, - onun diskursu başqalarının diskursu kimi dövr edə bilməz». Buna görə də totalitar cəmiyyətlərdə də əks fikirliliyin dövr etməsinin qarşısını almağın bir yolu kimi ağıllı insanlara – öz fikirləri ilə cəmiyyəti düşündürə bilənlərə – «dəli» adı qoyaraq onları təcrid etmək və fikirlərinin dövr etməsinin qarşısını almaq ənənə halını almışdır. SSRİ-də düşüncə üzərində total nəzarət dövlət işinə çevrilmişdi. Senzura DTK-dən də sərt və təhlükəli orqan kimi fəaliyyət göstərirdi. Hətta yaradıcı adamların yaradıcılığının sərhədləri də qabaqcadan xüsusi orqanlar tərəfindən dəqiq müəyyənləşdirilir, bundan kənara çıxanlar isə «burjua nökərləri» elan edilərək sıxışdırılırdı. SSRİ-də fərqli fikirlərə yol verməmək bununla məhdudlaşmırdı. İnsanlarda hakim ideologiyaya şübhə yarada biləcək bütöv elm sahələrinin öyrənilməsi və tədrisi qadağan edilmişdi. Kibernetika, Genetika, Seksologiya belə elmlərdən idi. Bu elmlərdə ciddi elmi nailiyyət əldə etmiş alimlər isə kütləvi repressiyaya məruz qalaraq konslaqerlərə göndərilirdi. SSRİ-də dinə və fəlsəfəyə münasibət xüsusən fərqlənirdi. Ateizm – allahsızlıq hakim ideologiyanın tərkib hissəsinə çevrilmişdi. Müstəqil din xadimləri bir sinif kimi məhv edilmiş, fəaliyyətdə olan din xadimləri isə DTK-nin ştatlı əməkdaşları kimi fəaliyyət göstərirdi. Fəlsəfi biliklərə isə dövlət sirləri kimi yanaşılır, onların qorunma-

sında, onlara çıxışa da analoji qaydalar tətbiq edilirdi. Bütün SSRİ üzrə fəlsəfə fənni yalnız Moskvada, həm də bir universitetdə yeganə bir fakültədə öyrənilir, bu fakültənin müəllimləri və tələbələri ciddi DTK nəzarəti altında saxlanılırdı. Digər institutlarda isə fəlsəfə adı altında marksizm-leninizm adlandırılan uydurma təlim tədris edilirdi. Hakim ideologiyaya zidd elmi, fəlsəfi əsərlər ya qadağan edilir, ya da belə əsərlər mərkəzi kitabxanaların qapalı şöbələrində xüsusi nəzarət altında saxlanılırdı. Belə ədəbiyyatla tanışlığa xüsusi qaydalarda total nəzarət altında məhdud sayda tədqiqatçılara imkan verilirdi. Hakim ideologiyanın əsaslarına şübhə yaradacaq əsərlər 270 milyon vətəndaşı, 17 milyon Sov. İKP üzvü olan SSRİ-də bəzən bir neçə yüz nüsxədə yalnız xidməti istifadə üçün çap olunurdu. Bununla kifayətlənməyən hakim qüvvələr hətta öz ideologiyalarının banilərinin əsərlərinə də əl gəzdirirdilər. Belə ki, ya onların bəzi əsərlərini ümumiyyətlə çap etmir, arxivlərdə gizli saxlayır, ya bəzi əsərlərindən yalnız xüsusi hissələr çap olunur, lazım gəldikdə isə həmin hissələrdən bütöv fikirlər, fikirlərdən cümlələr, cümlələrdən sözlər «ixtisar»a salınırdı. Beləliklə, totalitar cəmiyyətlərdə *diskurs azadlığı* dövlət siyasətinin əsas hədəflərindən birinə çevrilmişdi.

Əslində fikir plüralizminə dözümsüzlüyün kökü siyasi hakimiyyətlə ağlın – həqiqət axtarışının ziddiyyətlərinə gedib çatır. Ağıl bir qayda olaraq mütləq həqiqətə cəhd edir, bundan fərqli olaraq siyasi hakimiyyət özünün maraqlarına cavab verən «həqiqəti» vətəndaşlara təqdim etməklə ömrünü uzadır. Buradan da *fikir azadlığı üzərində siyasi basqı* meydana çıxır. Mişel Fuko fikir üzərində basqılarla bağlı yazır: «Basqı klassik dövrlərdən başlayaraq əsl həqiqətdə hakimiyyətlə bilik və seksuallıq arasında fundamental üsuldur, ondan az itki ilə xilas olmaq mümkün deyil; burada qanunları tapdalamaq, qadağaları götürmək, sözə müdaxilə, bütün reallıqları ilə həzzin bərpası və böyük yeni hakimiyyət mexanizmlərinin iqtisadiyyatı lazımdır – həqiqətin ən az aşkarlanması belə siyasətlə şərtlənmişdir». Göründüyü kimi, totalitar cəmiyyətlərdə fikir basqısını ləğv etmək üçün ya ölkənin qanunlarını dəyişdirmək ya da onları pozmaq lazım gəlir. Qanunların dəyişdirilməsi hakimiyyətin səlahiyyətində olduğundan heç vaxt dəyişdirilmir, sadə vətəndaşlara yalnız «qanunları pozmaq»

qalır. Totalitar cəmiyyətlərdə azad fikirliyin qanun pozuntusu kimi dəyərləndirilməsi də buradan qaynaqlanır.

Haşiyə: Neototalitar cəmiyyətlər müasir informasiya azadlığı və dünyanın qloballaşması qarşısında diskursla bağlı köhnə totalitar yanaşmadan imtina edirlər və özlərini *sözdə «diskusiyaya açıq olanlar»* kimi təqdim edirlər. Bu cəmiyyətlərdə fikir və söz azadlığı əsas qanunda fiksə olunur, formal olaraq qanunlarla təminat verilir. Amma bu qanunlardan vətəndaşların faydalanmaması üçün *qeyri-leqal basqı üsulları* tətbiq edilir. Azad fikirlilərə iqtisadi və hüquqi təzyiq, nüfuzdan salma neototalitar cəmiyyətlərin əsas basqı üsullarındandır. Onlar öz ideyalarını monoloq formasında təbliğ edir, geniş kütlə qarşısında aşkar diskusiyalara yol vermir, müxalifətə yalnız öz dairələrində qapalı diskursa imkan yaradırlar. Obrazlı desək, sual verirlər, amma cavabı eşitmək istəmirlər. Çox vaxt isə üçüncü, dördüncü dərəcəli məsələləri xüsusi şəkildə qabardaraq diskusiya predmetinə çevirməklə diskusiyaları mənasızlaşdırırlar. Bir çox hallarda isə diskusiyalara ictimaiyyət arasında nüfuzdan düşmüş şəxsləri qoşurlar. Beləliklə, neototalitar diskurs hakimiyyətdən asılı yalançı diskurs kimi təzahür edir. Belə diskurs isə əsl diskursu əhəmiyyətsizləşdirir. Əsl diskurs haqqında M.Fuko yazır: «Həqiqi diskurs, öz formasının məcburiliyi ilə arzulardan və hakimiyyətdən azad olandır, ona nüfuz edən həqiqətə əzmi aşkar edə bilməz».

Azərbaycan iqtidarının strategiyası ilə bağlı yazılmış məqalədə müəllif yalnız elmi-nəzəri mülahizələrlə kifayətlənməmiş, eyni zamanda çağdaş Azərbaycan siyasi təcrübəsini mövcud elmi-nəzəri qəliblərə salaraq, iqtidarın uzağa gedən proqrama malik olmasını sübut etməyə və bu proqramın həyata keçirilməsində əldə etdikləri *siyasi, iqtisadi, sosial nailiyyətləri* təqdim etməyə cəhd etmişdir. Strategiyada «siyasi mədəniyyətin inkişafının məhz milli amilini eyniləşdirməli, ölkədə tam mənada siyasi dialoq yaranmasını təmin etmək daxili siyasi diskusiyaların başlıca vəzifəsi olmalıdır» tezisi irəli sürülür. Əslində neototalitar cəmiyyətlərdə ictimai fikrin – siyasi mədəniyyətin inkişafını stimullaşdıracaq, siyasi inkişafa təkan verəcək siyasi diskusiyaların aparılmaması və müxalifətlə siyasi dialoqdan imtina ən ciddi problemlərdəndir.

Haşiyə: *Neototalitar cəmiyyətlər üçün xarakterik olan zorakı yolla və seçkilərin ardıcıl olaraq saxtalaşdırılması nəticəsində hakimiyyətin uzurpasiya edilməsi şəraitində siyasi inkişafa yalnız siyasi dialoq vasitəsi ilə nail olmaq mümkündür.* Siyasi diskusiya və siyasi dialoq olmayan cəmiyyətlərdə mövcud münaqişə dərinləşir və yeni-yeni münaqişələr yaranır. Nə üçün konfiliktlərin həll olunmasında siyasi diskusiyalar və siyasi dialoq bu qədər həyati əhəmiyyət daşıyır? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, hər bir siyasətçinin, siyasi qrupun, siyasi strategiyanın birinci vəzifəsi öz siyasi məqsədlərini həyata keçirmək üçün *sosial dəyişilmələrə* nail olmaqdır. Sosial dəyişilmələrin baş vermədiyi istənilən siyasi məkanda gec-tez *qeyri-stabillik, siyasi mobilizasiya – kollektiv zorakılıq* qaçılmazdır. Ona görə də milli və dövlət maraqlarını üstün tutan, vətəndaş qarşıdurmasını arzulamayan, demokratik dəyişilmələrin tərəfdarı olan hər bir siyasətçi siyasi mobilizasiyadan qaçmaq üçün mütləq sosial dəyişilmələrə nail olmalıdır. Neototalitar cəmiyyətlərdə ölkədə sosial dəyişilmələrin baş verməsi ilə bağlı istər iqtidarların, istərsə də müxalifətin proqnozları həqiqətə söykənmir. Belə ki, iqtidarlar belə hesab edir ki, xarici siyasi münasibətlərdə status-kvonu saxlamaqla milli sərvətlərin istismarından gələn, xüsusən neft ölkələrində məhz neftdən gələn gəlirlər *vətəndaşların iqtisadi vəziyyətini yüksəldəcək,* bununla da stabillik qorunacaq. Amma bir çox sosioloqlar, o cümlədən tanınmış mütəfəkkirlər A.Tokvil, Dyurqeym belə hesab edirlər ki, kollektiv zorakılıq cəmiyyətin hər bir üzvünün mövcudluq şərtlərini kəskin olaraq yaxşı istiqamətdə dəyişdiyi hallarda da meydana çıxa bilər. Keçmiş sovet ideologiyasının nəzəri müddəalarından tamamilə imtina etməmiş müxalifətçilər isə hesab edir ki, iqtidarın apardığı sosial siyasət nəticəsində vətəndaşların həyat şəraitinin pisləşməsi ölkədəki konfliktli situasiyasını gərginləşdirəcək, siyasi mobilizasiyaya meyl yaradacaq və nəticədə müxalifət bundan istifadə edərək situasiyanı öz xeyrinə dəyişəcək. Artıq sosiologiyada birmənalı şəkildə qəbul edilmişdir ki, *iqtisadi səbəblər* sosial dəyişilmələrə təkan verən yeganə amil deyil. Müasir siyasi təcrübə göstərir ki, *əhalinin yoxsulluğu onların siyasi şüurluluğu və siyasi aktivliyi ilə tərs mütənasibdir,* yəni insanlar nə qədər var-yoxdan çıxırlarsa,

bir o qədər siyasi həyatda da az iştirak edirlər, yəni ictimai-siyasi həyatda passiv mövqeyə keçməyə məcbur olurlar. Yoxsulluq özünümaarifləndirməni zəiflətdiyindən o artdıqca vətəndaşlar savadsızlaşır, ictimai şüur zəifləyir. Nəticədə bu kateqoriyaya daxil olanlar ölkədə gedən siyasi proseslərə, o cümlədən iqtidarların siyasətinə təsir imkanlarını itirirlər. Bu isə sonda onları öz talelərinə biganəliyə sövq edir və onları ölkədə baş verənlərin tamaşaçılarına çevirir. Sosioloq RBudon öz tədqiqatları nəticəsində sosial nəzəriyyələrin müqayisəli təhlilində belə bir nəticəyə gəlib ki, *yarım-feodal tipli cəmiyyətlərdə istehsal gücləri sistemi və istehsal münasibətləri az və ya çox dərəcədə dəyişikliklərdən qarantiya olunur və hansısa xarici hadisələrin təsiri olmasa, bu cür dəyişikliklərin baş verməsi ciddi problemdir*. Beləliklə, qeyd etdiklərimizdən belə bir nəticəyə gəlirik ki, yarım-feodal tipli müasir neototalitar cəmiyyətlərdə hər hansı xarici hadisələrin təsiri olmadan istehsal münasibətləri və istehsal gücləri sistemində, o cümlədən bu münasibətlər üzərində qurulmuş digər ictimai-siyasi münasibətlərdə, xüsusən hakimiyyət münasibətlərində hər hansı bir dəyişilmələr mümkün deyil. Neototalitar cəmiyyətlərin demokratik gücləri qarşısında belə bir sual durur: xarici faktorların təsiri olmadan sosial dəyişilmələrə necə nail olmaq olar?! Qəbul etsək ki, dünyada *dairəvi səbəbilik prosesləri* hökm sürür, bəs onda *siyasətdə yeniliklər* hansı səbəblərdən meydana çıxa bilər? Sosioloq RBudona görə, *yeni siyasət* bir və ya bir neçə səbəbdən meydana çıxmır. Əksinə, yeni siyasət *fəaliyyətin düyünə düşməsi* prosesindən meydana çıxır. Beləliklə, neototalitar cəmiyyətlərdə yeni siyasət yalnız bu cəmiyyətlərin düyünə düşmüş vəziyyətindən meydana çıxa bilər. Ona görə də neototalitar cəmiyyətlərdə çıxış yolu hər şeydən əvvəl ictimai-siyasi vəziyyəti hərtərəfli təhlil etməklə yeni kursu müəyyənləşdirməkdir. Neototalitar cəmiyyətin demokratik güclərinin yanlışlıqlarından biri də budur ki, onlar belə hesab edir ki, guya münasibətlər sisteminin dəyişilməsi *dəyərlərə ifrat sədaqətlə* mümkündür. Əslində bu baxışın özü məhz problemlərə totalitar baxışdır. Vaxtilə «ideyaya sədaqət» adı altında SSRİ-də on milyonlarla insan məhv edilmiş və insanlar bu düşüncə ilə özlərini fəda etmiş, hətta ata oğulu, oğul atanı «ideyaya sədaqətə» görə

məhv etmişdir. Bu nəzəriyyə M.Veber tərəfindən irəli sürülmüşdür və böyük tərəfdar toplamamışdır. Veberdən fərqli olaraq Marks istehsal münasibətlərində dəyişikliklərin səbəblərini *sinfi ziddiyyətdə* görmüşdür. Lakin bu baxışlar da nisbi həqiqətə əsaslandığından kapitalizmin məhdud bir mərhələsində özünü doğrulda bilər. Artıq antimarksistlər marksistləri bütün cəbhə boyu məğlub edib. Bizə görə siyasi dəyişilmələri izah etmək üçün sosioloq Mark – Klellandın nəzəriyyəsi daha inandırıcıdır. Bu nəzəriyyəyə görə, cəmiyyət sənaye inkişafı mərhələsinə qədəm qoyanda onun vətəndaşları daha çox ciddi şəkildə *nailiyyət ideyasına* əhəmiyyət verirlər. Neototalitar cəmiyyətlərdə «nə üçün xalq müxalifəti müdafiə etmir» sualının cavabı da bu nəzəriyyə ilə izah olunandır. Neototalitar cəmiyyətlərdə iqtidarlar müxalifətin hər hansı, hətta kiçik də olsa, nailiyyət qazanmasına imkan vermir. Hətta müxalifətin proqramlarına uyğun islahatlar həyata keçirərkən başqa vaxt və səbəblər tapırlar. Neototalitar cəmiyyətlərdə iqtidarlar daxili siyasətdə statuskvonun saxlanmasına cəhd etdiyindən özləri də belə nailiyyətlərdən məhrum olur. Buna görə də paralel olaraq həm iqtidar, həm də müxalifət xalqın birmənalı aşkar dəstəyindən məhrum olur. Bu isə xalqın siyasi həyatda iştirakçılığına mənfi təsir edərək demokratiyanın ən vacib şərtlərindən birini – *xalqın iştirakı* şərtini pozur. Sosioloqlar sübut etmişlər ki, sosial proseslər son nəticədə *davranış aktlarının* nəticəsidir. Beləliklə, neototalitar cəmiyyətlərdə nailiyyətlərə gətirən, o cümlədən sosial dəyişilmələr yaradan sosial proseslərə təkan vermək üçün mübahisəsiz bütün siyasi güclərin davranış aktlarını dəyişdirməsi lazımdır. Hansı ki, bu davranış aktlarının dəyişilməsi dünya demokratiyasının qəbul etdiyi anlayış və dəyərlərə əsaslanmalıdır. Bu gün neototalitarizmdən xilas olmaq üçün əsas vəzifə sosial dəyişilmələrə təkan verəcək faktorları müəyyənləşdirməkdir. Bəziləri ümid edir ki, bu, *iqtisadi faktorlar* ola bilər. Yuxarıda da qeyd etdiyimiz kimi, artıq elm sübut edib ki, inqilabi situasiyalar iqtisadi göstəricilərlə heç cür əlaqəli deyil. Bir çoxları isə belə hesab edir ki, yalnız *sosial hüquqların genişlənməsinə* çalışmaqla məqsədə çatmaq olar. Bu tezis də elmi cəhətdən əsassızdır və təcrübədə özünü doğrultmur. Belə ki, təcrübə göstərir ki, çox vaxt *so-*

sial hüquqlar siyasi hüquqların azaldılması hesabına genişləndirilə bilər. Məhz neototalitar cəmiyyətlərdə də iqtidarlar vətəndaşların sosial haqlarını genişləndirmək adı ilə siyasi hüquqları məhdudlaşdırırlar, nəticədə cəmiyyəti özlərinin antidemokratik addımlarına şərik qoşurlar. Belə cəmiyyətlərdə vətəndaşlar sosial haqlarını müdafiə edərkən siyasi hüquqlarından daha az istifadə etməyə məcbur olur. Ona görə də *neototalitar cəmiyyətlərdəki siyasi qüvvələrin siyasi hüquqlardan istifadə cəhdi sosial hüquqların məhdudlaşdırılması ilə baş verir.* Bu da ilk növbədə həmin qüvvələrin özlərini zəiflədir. Sosiologiya həm də sübut edir ki, sosial dəyişilmələrin fundamental prinsipi *fərdi fəaliyyətlərin məcmusunun* nəticəsidir. Bunu nəzərə alan neototalitar cəmiyyətlərin iqtidarları sosial dəyişilmələrə *marqinallaşmış elitanın* vasitəsi ilə nail olmağa cəhd edir. Lakin elm sübut edib ki, marqinallaşmış elita *innovasiyaya istiqamətlənmir* və cəmiyyətdə sosial dəyişilmələr yalnız *cəmiyyətin institutları arasındakı ziddiyyətlərin* həllində baş verir. Əgər bu elmi nəticəni qəbul ediriksə, onda həm də qəbul etməliyik ki, marqinal elita ilə bu cür cəmiyyətlərdə sosial dəyişilmələr həyata keçirmək nonsensdir. Məlumdur ki, neototalitar cəmiyyətlər *qloballaşmanın episentrlərində* yaranır. Bəs qloballaşma şəraitində həyat artımına, o cümlədən siyasi artıma necə nail olmaq mümkündür? Sosioloq S. Hassen təsdiq edir ki, *qlobal birlik çərçivəsində həyat artımı qarşılıqlı asılılıq* tələb edir. Buna görə də neototalitar cəmiyyətlərdə sosial dəyişilmələr iqtidarın müxalifətdən, müxalifətin iqtidardan və hər ikisinin beynəlxalq güclərdən qarşılıqlı asılı fəaliyyət göstərməsini diqtə edir. Buradan gələn nəticə budur ki, *neototalitar cəmiyyətlərdə rəqabət aparan qüvvələr bir-birinin zəiflədilməsinə cəhd edərkən özləri də onunla birgə zəifləyir.* Məhz bu qanunauyğunluğa görədir ki, inkişaf etmiş demokratik ölkələrdə tərəflər bir-birinin gücsüzləşməsindən çox, güclənməsinə çalışır. Neototalitar cəmiyyətlərdə siyasi mobilizasiyanın baş qəhrəmanı *destruktiv kultdur.* Qeyd etmək lazımdır ki, destruktiv kult qrupun bir nəfər tərəfindən avtoritar idarə olunmasından və ya kiçik qrupların *öz inamları üzərində tam nəzarətində* meydana çıxır. Neototalitar cəmiyyətlərdə istər müxalifətdə, istərsə də iqtidarda öz inamları üzərində güclü nəza-

rəti həyata keçirmə və ya liderlər tərəfindən avtoritar idarəolunma bu cəmiyyətlərdə həm iqtidarda, həm də müxalifətdə destruktiv kult meydana çıxarır. Destruktiv kultun xarakterik xüsusiyyəti *üzvlərini aldatmaq*, onların *şüuruna nəzarə*t etmək, onların *davranışlarını məhdudlaşdırmaq* və sair kimi hərəkətlərlə müşayət olunur. Qeyd etmək lazımdır ki, *destruktiv kult sosial dəyişilmələrin başlıca düşmənidir.* Neototalitar cəmiyyətləri anlamaqda konfliktlərə yanaşma müstəsna əhəmiyyət kəsb edir. Konflikt deyəndə nə başa düşməliyik? Uebsterin izahlı lüğətində konflikt belə şərh olunur: *Konflikt - maraqların və inamların elə ayrılmasıdır ki, onları eyni vaxtda həll etmək mümkün deyildir.* Məsələn, hər hansı bir iqtidar həm özü hakimiyyətdə qala və həm də həmin hakimiyyəti müxalifətə verə bilmədiyindən bir qayda olaraq, hakimiyyət məsələsində iqtidarla müxalifət konfliktdə olur. *Konflikt sosial psixologiyanın hərəkətverici qüvvəsi oldugundan netotalitar cəmiyyətlərdə iqtidarlar sosial psixologiyanın inkişafının qarşısını almaq, insanlarda ölkə problemlərinə vətəndaş mövqeyi formalaşmasına imkan verməmək, onların sosial dəyişilmələrdə aktiv iştirakını dəf etmək üçün istənilən üsula əl atmaqdan çəkinmir, o cümlədən sanksiyalaşdırılmamış zorakılıqla konfliktlər mexaniki yolla susdurulur.* Unutmaq olmaz ki, sosial psixologiya yalnız o səviyyəyədək inkişaf etdirilə bilər ki, o artıq sosial dəyişilmələrdə rol ala bilsin. Digər alimlər - J.Rubin, D.Prut, S.Xekim həm də belə hesab edirlər ki, *konflikt - bir çox məsələlərin şüurlu şəkildə təhlilindən imtina edilməsi* deməkdir, əslində neototalitar cəmiyyətlərdə iqtidarla müxalifət arasındakı konfliktlərin böyük əksəriyyətinin kökündə də məhz problemlərin birlikdə təhlilindən şüurlu şəkildə imtina durur. Məhz buna görədir ki, eyni bir məsələyə diametral əks baxışlar yaranır. Unutmaq olmaz ki, *bir çox hallarda eyni bir məsələyə müxtəlif məna verilməsinin özü problemlər meydana çıxarır.* Beləliklə, neototalitar dövlətlərdə sosial dəyişilmələrin baş verməməsinin mühüm səbəbi bəzi ümummilli məsələlərin təhlilindən bu cəmiyyətin siyasi qüvvələrinin şüurlu şəkildə imtina etməsidir. Halbuki, həmin *məsələləri birgə təhlil etməklə konfliktli vəziyyətdən sosial dəyişilmələrə keçid yaratmaq mümkündür.* Çünki məhz konflikt sosial dəyişilmələrin baş verməsi üçün əlveriş-

li zəmindir. Konfliktologiyada konfliktlərin həllində üç strategiya ayird edilir.. Bu strategiyalardan biri mübarizədir. *Mübarizədə məqsəd əks tərəfi öz qərarlarına bağlamaqdır*. Neototalitar cəmiyyətlərdəki güclər yalniz bu strategiyaya üstünlük verir. Buna paralel *«güzəştə getmək» strategiyası izləyən qüvvələr aşkar şəkildə dəstəklənir və belə qüvvələrlə əməkdaşlığa üstünlük verilir.* Bu strategiyanın mənası isə öz iddialarından əl çəkmək, öz tələblərini azaltmaq, aza qane olmaqdır. Bu strategiya ilə neototalitar rejimlər *"cib müxalifəti», «nəzarət olunan vətəndaş cəmiyyəti institutları»* formalaşdırır, onu beynəlxalq ictimaiyyətə ölkənin real demokratik gücləri kimi təqdim etməyə cəhd edirlər. Bununla da həqiqi müxalifəti və vətəndaş cəmiyyəti mənsublarını siyasi səhnədən sıxışdırırlar. *Neototalitar cəmiyyətlərdə iqtidarların həyata keçirdikləri «demokratikləşmə» özü-özü ilə şahmat oynamağa bənzəyir.* Neototalitar cəmiyyətlər bunun əvəzində *«problemlərin həlli»* strategiyasına əl atmırlar.

Neototalitar siyasətçilər *«konflikt naminə konflikt»* imperativinə uyğun siyasət yürüdərək sosial dəyişilmələrə aparan istənilən cəhdi süngü ilə qarşılayırlar. Konfliktlər həm də *insanların qanuni maraqlarını barışdırmaq vasitəsi* olduğundan, neototalitar cəmiyyətlərdə isə bu yol tutulmadığından, sosiologiya elminin sübut etdiyi kimi, sosial konfliktlər bu cəmiyyətləri bir qayda olaraq *xaosa* aparır. Sosiologiya elmi sübut edib ki, konfliktlərin yaranması və inkişiafı hər iki tərəfin marağına cavab verən alternativ olmayanda baş verir. Bu situasiya o zaman yaranır ki, tərəflərdən biri və ya hər ikisi *hədsiz iddialarla çıxış edir və əks tərəfin hər hansı marağını nəzərə almır.* Neototalitarizm *«ikiqat maraqlılıq modelin»dən imtinanın nəticəsi kimi meydana çıxır.* Halbuki, demokratiya tələb edir ki, *problemlərin həlli iştirak edən hər iki tərəfin maraqlarına cavab versin.* Neototalitar cəmiyyətlərdə müxtəlif qüvvələrin siyasəti *sosial kateqorizasiya və sosial identiklik* effektinə əsaslanır. Hər iki effektin mahiyyəti ondan ibarətdir ki, bəzi şəxslər yaxşı başa düşür ki, öz qruplarının, liderlərinin və ya üzvlərinin uğursuzluqları öz qruplarında daha çox müsbət keyfiyyətlər görməyə və başqa qruplarda isə mənfi keyfiyyətlər axtarmağa gətirib çıxaracaqdır. Eyni zamanda öz qruplarına oxşar qrupa qarşı qabaqcadan formalaşmış daha yalnış fikir yü-

rüdə biləcəklər. Buna görə də neototalitar cəmiyyətlərdə tərəflər bir-birini reallığa uyğun olmayan daha mənfi obrazlarda təsəvvür və təsvir edirlər. Başqa sözlə, qara piar təbliğatın yeganə forması kimi dəbdə olur. Neototalitar cəmiyyətlərdə konfliktlərin eskalasiyasının əsasında istər iqtidar tərəfindən, istər müxalifət tərəfindən bir çox amillərin *-sürətli nailiyyət əldə etmə, güclərin qiymətləndirilməsində yanılma, incik müqayisə, normativ konsensusun zəifləməsi, «hər şey və ya heç nə» düşüncəsi və sair – durur.* Qeyd etmək lazımdır ki, heç bir cəmiyyət başqa nailiyyətlər üçün lazım olan vaxtı və enerjini udan sonsuz konfiliktlərə uzun müddət tab gətirə bilməz. Neototalitarizm qərarların qəbulu qaydasına görə də demokratik rejimlərdən fərqlənir. Demokratik cəmiyyətlər üçün *«inteqrativ qərarların qəbul edilməsi»* xarakterikdir**.** Elmdə inteqrativ qərarların qəbul edilməsinin 5 növü mövcuddur: a) Konfliktə səbəb olacaq *resursların artırılması.* Məsələn, parlamentdə mandatlarının sayının artırılması ilə parlament seçkilərində rəqabətdə konfliktləri azaltmaq mümkündür. Amma neototalitar cəmiyyətlərdə monopoliya hökm sürdüyündən mövcud resurslar da əksinə, azaldılır. b) *Qeyri-spesifik kompensasiya***.** Burada tərəflər fərqli maraqlarını təmin edirlər. Neototalitar cəmiyyətlərdə hakimiyyət öz maraqlarını total şəkildə müdafiə etməyə cəhd edir. Hətta ən əhəmiyyətsiz məsələlərdə belə, rəqibin maraqlarının təmin olunmasının qarşısı alınır. v) Qarşılıqlı xidmət. Tərəflərin hər hansı biri üçün vacib olan məsələdə əks tərəfin güzəştə getməsi. Neototalitar cəmiyyətdə iqtidar müxalifəti öz maraqlarına xidmət etdirmək yolu tutur, əvəzində müxalifətə xidmət edə biləcək hətta konstitusion vəzifələrini belə, yerinə yetirmir. q) Uduzmanın azaldılması. Bir tərəf udur, digər tərəf isə az uduzdurulur. Neototalitar cəmiyyətlərdə *«nüfuz defisiti» sindromu* hökm sürdüyündən bu cəmiyyətlərdə iqtidardakılar *«yüzdə-yüz qələbə» formuluna* üstünlük verirlər. Ön sözdə qeyd etdik ki, neototalitarizm tədrici proseslərlə meydana çıxır. Belə proseslərdən biri də *demokratik prosedurların getdikcə daha çox saxtalaşdırılması meylidir.* Neototalitarizm prosedurların saxtalaşdırma həcminə uyğun inkişaf edir və totalitarizmin dərinləşdikcə qələbə göstəriciləri də *«yüz faiz»*ə yaxınlaşır. d) Maraqların birləşdirilməsi

və hər iki tərəfin maraqlarına uyğunlaşdırılmış variantın tapılması. Neototalitar cəmiyyətlərdə tərəflər öz maraqlarını müxtəlif müstəvilərdə təmin etməyə üstünlük verir. Hətta milli məsələlərdə belə, maraqlarını uzlaşdırmağa meyl yaranmır. Bu da daxili həmrəyliyin olmamasını şərtləndirir. Vaxta münasibət sosial dəyişilmələrdə müstəsna rol oynadığından *totalitar təfəkkür vaxtı totallaşdırır.* Onun üçün vaxt əbədiləşir. Nəticədə vaxt konyukturası ictimai həyatı inkişafdan saxlayır. Problemlərin həlli strategiyasında, xüsusən maraqların birləşdirilməsi ilə bağlı inteqrativ qərarlar vaxta görə əhəmiyyət daşıyır. Hansı ki, bu məsələnin həm hədsiz uzadılması, həm də az zaman içərisində həll edilməsinə cəhd effektiv nəticə verir. Neototalitar cəmiyyətlərin liderləri bütün səbəbləri vaxtda axtarır, dəyişilmələr üçün uzun vaxt lazım olduğunu bəhanə gətirir və buna paralel vaxta heç bir qiymət vermir. Qeyd etmək lazımdır ki, neototalitar cəmiyyətlərdə müvəffəqiyyət tərəflərin mövqeyindən çox asılıdır. Bu cəmiyyətlərin demokratik siyasi qüvvələri mövqelərində *sülhsevərliklə yanaşı sərt qətiyyət* nümayiş etdirmədikcə totalitarizm möhkəmlənir. Maraqların birləşdirilməsi ilə bağlı inteqrativ qərarların qəbul edilməsində bu *qərarların qarşılıqlı qəbul edilməsi, qarşılıqlı münasibətlərin vacibliyinin qəbul edilməsi və nəhayət dərk edilən ümumi maraqların* olması durur. Neototalitar cəmiyyətlərdə konfliktlərin yersiz və hədsiz eskalasiya olunmasının qarşısını almaq, tərəflərin bir-birinə təhlükə yaratmaması və kəskin qarşıdurma psixologiyasının zəifləməsinə cəhd etmək lazımdır. Cəmiyyətin problemlərinin həllinə, xüsusən demokratikləşmə probleminə yalnız bir tərəfin, bir qrupun cəlb edilməsi səhvdir. Xüsusən belə vəziyyətdə demokratik güclər risk altına düşür. Riskə birtərəfli qarşılıqlı qəbuledilən qərarın həmin qərarın qəbul edənlərin *qətiyyətinin azalması*, bu məsələ ilə bağlı diskusiyaların yalnız bir tərəfin xeyrinə, digər tərəfin isə ziyanına işləməsi, əks tərəflə gizli ünsiyyətlərin yaranması və sair aiddir. İnteqrativ qərarların nəticəsinə *uduzmaq,* məqsədə cəhdin kifayət qədər inadkar olmaması, vaxt çatışmazlığı, qorxu, ləyaqət və şərəf məsələsi təsir edir. Burada bir çox problemlərin də meydana çıxacağını gözləmək mümkündür. Belə ki, tərəflərdən birinin qərarların qəbul edilməsində öz tələblə-

rini artırması və yaxud əks tərəfə *həvəzsiz güzəştə getməsi* effektiv qərarların qəbul edilməsinə mane olur. Amma unutmaq olmaz ki, yalnız qarşılıqlı xeyirli qərarlar daha uzunmüddətli stabilliyə imkan verir. Digər tərəfdən, belə qərarlar daha geniş birliyin maraqlarına xidmət edir. Neototalitar cəmiyyətlərdə tez-tez demokratik güclərə geri çəkilmək lazım gəlir. Amma *bu elə bir müvəffəqiyyətli geri çəkilmə olmalidir ki, onlara daha əlverişli mövqe tutmaq imkanı versin*.. Demokratik güclər *maksimum qələbə* iddiasından imtina etməli, öz *qələbələrinin müvəffəqiyyətini* isə tərəfdaşları ilə bölüşdürməyi bacarmalıdırlar. Belə cəmiyyətlərdə tərəflər yalnız həll edilməsi mümkün olan, tərəflərin öz siyasətinə yenidən baxmaq imkanı olan və bunu özünə məğlubiyyət kimi qəbul etmədiyi məsələlər həll olunmalıdır. Demokratik güclər iqtidarların *könüllü şəkildə dəyişdirmək istədiyi siyasətdə* iştirak etməlidir. Problemin həllində rəqibin kimliyinə və mövqeyinə, onun imicinə fikir vermədən iştirak edilməlidir. Problemin həllinə girişərkən günahkar axtarmaq və ittihamlardan qaçmag lazim gəlir. Eyni zamanda problemin həllinə girişməklə həmin *problemin məsuliyyətini bölüşdürmək lazımdır*. Burada rəqibə udmağa kömək etməklə yanaşı, özün də udursan. Tərəflərin kimliyindən daha çox problemlərin həllinə daha çox diqqət ayırmaq lazımdır. Neototalitarizmdən xilas olmaq üçün aşağıdakı tezislər rəhbər götürülə bilər: «hakimiyyəti dəyişdirmədən onun siyasətini dəyişdirmək», «hamının qalib gələcəyi yol», «qarşılıqlı güzəşt», «əks tərəfin mövqeyini yox, onun problemə baxışını dəyişdirmək», «ritorikadan imtina», «aşkarlıq», «kiçik addımlarla böyük uğurlara doğru», «təzyiq dilindən inandırma dilinə keçmək», «özünü dəyişdirməklə digərini dəyişdirmək», «öz cəbhəndə qalmaqla əks cəbhə ilə münasibətlər qurmaq», «problem yaratmadan problem həll etmək», «öz ideyalarını başqalarının malına çevirmək» və s. Beləliklə siyasi dialoqda əsas məqsəd *qarşılıqlı maraqların tapılması, ümumi siyasi mövqeyin müəyyən edilməsi, problemlərin müasir həlli üsullarına üstünlük verilməsi, niyyətlərin, məqsədlərin, fəaliyyətlərin razılaşdırılması və sair olmalidir.* Siyasi dioloq qısa olaraq *razılaşma prosesi* və ya *axtarış prosesi* deməkdir. Siyasi dialoqda əsas prinsiplər qeyri-zorakılıq, siyasi iradə, aşkarlıq və qarşılıqlı anlaşma-

dır. «Konstruktivizm»in mahiyyəti isə qarşılıqlı xeyir götürmə, effektlilik və siyasi məqsəd naminə konkret nəticələrə nail olmaqdır. Nəhayət, neototalitar cəmiyyətlərdə iqtidar-müxalifət münasibətlərində kök salmış ənənəvi qarşılıqlı qara piarı – bir-birinə böhtan atma, nüfuzdan salma yarışını və qarşılıqlı etiraf edilməməni elmi-siyasi diskusiyaların əvəzləməsi nəinki demokratik siyasi mədəniyyətin inkişafını, həm də bu cəmiyyətlərdə siyasi həyatda «siyasi prosesin bütün aktorlarının iştirakını təmin etmiş və buna müvafiq olaraq siyasi və ictimai təsisatların inkişafına şərait yaratmış olardı».

Əvvəlcə *strategiya* haqqında. Neototalitar cəmiyyətlərdə bir siyasi qüvvənin və ya yalnız iqtidarın strategiya hazırlamasının özü ictimai inkişaf prosesinin məntiqi ilə ziddiyyət təşkil edir. Birincisi, real ictimai həyat mürəkkəb sistem kimi sinergizm ganunlarina tabe olur. Belə sistemlərə inkişafın alternativli olması və başlanğıc şərtlərin inkişaf prosesində başqa şərtlərlə əvəzlənmə meyli xarakterikdir. Ona görə də başlanğıc şərtlərə əsaslanan ictimai inkişaf strategiyası mürəkkəb sistemlər üçün mənasızdir. K.Manheym də bunu nəzərdə tutaraq yazır: «İstənilən sosioloji və siyasi təhlil konkret vəziyyətə daha çox diqqət ayırmalıdır. Nə üçün strategiya ola bilməz? Çünki heç bir inkişaf başlanğıcda olduğu kimi getmir». Bunun sübutu kimi Manheym kommunist və faşist rejimlərinin hər ikisinin başlanğıcda yalnız iqtisadi inkişaf strategiyası müəyyən etdiklərini, amma çox keçməmiş hər iki halda totalitar siyasi cəmiyyətlər meydana gəldiyini örnək kimi qeyd edir. İkincisi, çoxpartiyalı demokratik sistemdə ayrılıqda hakimiyyətdə olan heç bir siyasi partiya «dövlətin və cəmiyyətin inkişaf strategiyasını» işləyib həyata keçirə bilməz. Belə ki, sosial həyat konkret olmadığından və çoxtərəfli olduğundan sosial inkişafla bağlı özündə mütləq həqiqəti ifadə edən hər hansı bir konkret strategiya hazırlamaq nonsesdir. Emil Faqe «Liberalizm» adlı əsərində yazır: «Sosial orqanizm konkret yox, diskretentdir, simmetrik yox, asimmetrikdir, hissiyat hissələrindən ibarətdir, amma vahid hissi mərkəzə malik deyil». Bu baxımdan hər hansı bir mərkəzin, o cümlədən iqtidarların da asimmetrik və diskretent olan cəmiyyətin inkişafı ilə bağlı konkret və simmetrik inkişaf strategiyası hazırlaması mümkün deyil. Üçüncüsü, cəmiyyət müxtəlif hissiyyat hissələrin-

dən ibarət olduğundan, vahid bir strategiya ən yaxşı halda cəmiyyəti təşkil edən bir-birindən fərqli güclərin ümumi səyi ilə yaradıla bilər. Belə olmadıqda isə F.Fukuyamanın «Tarixin sonu və axırıncı insan» adlı kitabında yazdığı kimi, «onu təşkil edən qruplarda milləti və ya bir-birinin hüququnu etiraf etməyin ümumi hissi olmayan, millətçilik və entrosentrizmin güclü olduğu ölkələrdə demokratiya qalib gələ bilməz». Bu gün neototalitar cəmiyyətlərdə müxalifəti tərəf-müqabil kimi qəbul etməyən iqtidarların apardığı siyasət də bu baxımdan demokratiyaya xidmət edə bilməz. Buna görə də *dövlətin və cəmiyyətin demokratik inkişaf strategiyası yalnız real milli-siyasi güclərin qarşılıqlı razılaşması nəticəsində qəbul edilə bilər.* Əslində demokratiya anlayışının çoxsaylı təyinlərindən biri də siyasi elitaların uzlaşmasıdır. F.Fukuyama da təsdiq edir ki, «liberal demokratiya yüksək sosial bərabərliyə və müəyyənləşən baza prinsipləri ilə bağlı konsensusa çatan ən yaxşı cəmiyyətdə funksiyalaşır». Dördüncüsü, həqiqət nisbi olduğundan hər hansı bir partiyanın və gücün həqiqət hesab etdiyi, onu belə qəbul etməyən insanların mövcud olduğu şəraitdə və siyasi məkanda təcrübəyə tətbiq edilə bilməz. Çünki bu cür «hissəvi həqiqət»in tətbiqi müxtəlif sosial gərginliklər və səhvlərlə müşayət olunur. Leonard Qobxaus «Liberalizm» adlı əsərində yazır: «Həqiqət sosial dəyərdir və heç vaxt düşünmək lazım deyil ki, biz tam və son həqiqətə malikik. Həqiqəti təcrübi yolla fikirlər aləmində və fəaliyyətdə tapmaq olar. Sınaq prosesində külli miqdarda səhv etmək imkanları yaranır. Buna görə həqiqətin azad axtarılması səhvlərlə toxunmuşdur». Beləliklə, hətta iqtidarın ölkənin iqtisadi inkişafı ilə bağlı baxışları həqiqət olsa belə, təcrübədə külli miqdarda səhvlərin meydana çıxmayacağının və həmin səhvlərin inkişafı başlanğıc məqsədindən tamamilə fərqli istiqamətə aparmayacağının heç bir sosial mexanizmi və təminatı yoxdur. Beşincisi, inkişafla bağlı strategiyanın müəyyən edilməsinin mümkünlüyünü şübhə altına alan digər bir səbəb ondan ibarətdir ki, bütünlükdə tərəqqi prosesi ayrı-ayrı qrup və şəxslərdən yox, bir tam kimi bütün cəmiyyətdən asılıdır. Q.De.Rucero «Liberalizm nədir» adlı əsərində yazır: «İctimai tərəqqidə təşəbbüs cəmiyyətə məxsusdur». Əlavə edim ki, müasir qlobal dünya sistemində tərəqqidə təşəbbüs həm

də bütün insanlığa məxsusdur. Bu baxımdan da cəmiyyət plüral, mürəkkəb, abstrakt mövcudluq olduğundan və qlobal dünya qapalı cəmiyyətlərdən fərqli inkişaf yolu keçdiyindən ictimai tərəqqi ilə bağlı təşəbbüsü də kimsə ələ ala bilməz. Altıncısı, demokratiya hakimiyyətin pozucu təsirini azaltmağın digər bir üsulu kimi hakimiyyət dəyişilmələrinin ağıllı həcmdə və vaxtda aparılmasını zəruri hesab edir. Hakimiyyət resursları bir qüvvənin uzun vaxt ərzində hakimiyyətdə qalmasına imkan verdiyindən demokratiya xalq iradəsi ilə qabaqcadan qanunla bunun məhdudlaşdırılmasını tələb edir. Beləliklə, demokratik cəmiyyətdə istənilən siyasi qrup müvvəqqəti olaraq hakimiyyətdə qaldığından onun uzun müddətli inkişaf proqramı – strategiya hazırlayıb həyata keçirmək cəhdi demokratiyaya ziddir. Hətta keçmiş sovetlərdə hakimiyyətin dəyişilməsi gözlənilməsə də Kommunist Partiyası inkişaf proqramlarını beşillik dövr üçün müəyyən edirdi.

Neototalitar cəmiyyətlərin hamısı məhz demokratiya pərdəsi altında meydana çıxır. Neototalitarizmin liderləri demokratiyanın ən geniş yayılmış klassik anlayışlarına müraciət edir, elə buradaca da həmin məfhumlarla bağlı öz orijinal təyinlərini, izahlarını verirlər. Onlar demokratiya haqqında müxtəlif müəlliflərin fikirlərinə ekskurs edir və çox vaxt ən məşhur demokratlardan sitat gətirirlər. Belə sitatlardan biri də A.Linkola məxsus olan – «demokratiya xalq idarəetməsi, xalqın vasitəsi ilə və xalq üçün idarəetmə» tezisidir. Məncə, bu sitatin ayrı-ayrı tərəflərinə neototalitar cəmiyyətlərin necə yanaşmasını öyrənməklə neototalitarizmin anatomiyasını öyrənmək olar. Təhlil etdiyimiz strategiyada deyilir: «Hər hansı diskusiyaya başlamamışdan əvvəl demokratiya anlayışının özünü müəyyənləşdirmək lazımdır». Hər şeydən əvvəl strategiyada bununla bütöv bir teratologiya – möcüzə diskurs - təklif edilir.

Haşiyə: Bir qayda olaraq belə təkliflər heç də həqiqətən demokratiyanı anlamaq üçün yox, onu neototalitarların «anladığı» kimi anlamağı nəzərdə tutur. Çünki yuxarıda qeyd etdiyimiz kimi, neototalitar cəmiyyətlərdə müstəqil diskusiyalar siyasi qəbahət hesab olunur. Məqsəd vətəndaşlara yanlış düşüncə aşılamaq olduğundan, diskusiyalar isə həqiqətə xidmət etdiyindən, iqtidarlar xalqa özləri-

nin demək istədiklərindən başqa fikirləri eşitməyi qadağan edirlər. Əslində «demokratiya anlayışının özünü müəyyənləşdirmək lazımdır» fikri ciddi ideoloji yanaşmadır. Bütün totalitar və neototalitar cəmiyyətlərdə belə yanaşma xarakterikdir. Belə ki, minillik tarixi olan bir məsələnin yenidən gündəmə gətirilməsi və bütün dünya tərəfindən qəbul olunmuş demokratiyanın universal anlayışlarına yenidən baxmaq cəhdi demokratiyanın ümumi qəbul olunmuş mənasının qəbul edilmədiyinin göstəricisidir. Ona görə də neototalitar cəmiyyəti anlamaq üçün hər şeydən əvvəl problemə nəzəri-ideoloji yanaşma tələb edilir. Konkret olaraq neototalitarizmin demokratiyanın nəzəri anlayışına fikir bildirməmişdən öncə ümumiyyətlə ideoloji yanaşma haqqında qısa haşiyəyə çıxmaq istəyirəm. Müasir dövrün mütəfəkkirlərindən olan Karl Manheym «Bizim dövrün diaqnozu» adlı əsərində ideoloji anlamın iki formasını – *hissəvi və radikal total anlamını* ayırd edərək yazır: «Sosial mövcudluq çərçivəsində mövcudluğumuzla bağlı bizim düşüncə situasiyamızı təyin etməkdən ötrü bir sıra mövcud istilah açmadan mümkün deyil… Hissəvi ideoloji anlam haqqında o hallarda danışırıq ki, bu söz onu ifadə etməlidir ki, biz müəyyən «ideyalara» və rəqibin təsəvvürlərinə inanmırıq. Belə ki, onların mövcud faktları az və ya çox dərəcədə şüurlu təhrif etdiyini qəbul edirik. Həqiqəti əks etdirməsi onun maraqlarına uyğun deyildir. Burada söhbət bütün bir təyin şkalasının – şüurlu yalandan həqiqətin yarım dərk edilməsinin instinktiv aşkarlanmasınadək, aldatmadan özünü aldatmayadək – aşkarlanmasından gedir… Onun hissəviliyi radikal-total ideologiya ilə uzlaşdırmaqla üzə çıxır». Qeyd edim ki, neototalitarizmin ideologiyası orjinal totalitar ideologiyadan fərqlənir. Neototalitar baxışlar muxtəlif demokratik anlayışların hissəvi anlamının konqlemeratlarından ibarətdir. Ona görə də neototalitarların demokratiya ilə bağlı verdiyi anlamlar bir qayda olaraq hissəvidir və hissəvi anlamın təyin şkalasının hansı hissəsini ifadə etməsindən asılı olmayaraq, demokratiya haqqında radikal-total ideologiya ilə uzlaşdırma aparmaqla bu baxışların mahiyyətinə varmaq olar.

Neototalizmin ideoloqları təkcə demokratiyaya ümumi öz orijinal «ideoloji baxışlarını» sərgiləmir, həm də siyasi təcrübədə cə-

miyyəti demokratiya haqqında hissəvi ideoloji anlama uyğun inkişaf etdirməyə cəhd edirlər. Neototalitar tərəfdarlarının demokratiyanın hissəvi anlamı haqqında fikirləri qrup anlayışıdır və umumilikdən uzaqdır. Elə K.Manheym adını çəkdiyimiz əsərində xüsusi olaraq qeyd edir ki, «müasir dövrdə istənilən siyasi bilginin nəinki qaçılmaz olaraq partiyalı, həm də hissəvi xarakterli olması aydın olmuşdur». Bu baxımdan neototalitar cəmiyyətlərin liderlərinin demokratiya ilə bağlı verdikləri anlam bir tərəfdən də mütləq partiyalı olur. Neototalitar cəmiyyətin vətəndaşlarında demokratiya haqqında radikal-total ideoloji təsəvvürlərin olmaması və iqtidarın demokratiyanın hissəvi anlamı ilə bağlı baxışları belə bir nəticə çıxarmağa imkan verir ki, bu cəmiyyətlərin iqtidarlarının strategiyasında verilmiş demokratik anlamla heç vaxt demokratik quruluşa keçmək mümkün deyil. Burada fikirlərimi bir qədər də geniş şərh etməyə ehtiyac görürəm. Vaxtilə Foma Akvinalı «Teologiyanın məcmu» adlı əsərində yazırdı: «Ən yüksək şey haqqında ən az bilik, ən aşağı şey haqqında ən dəqiq bilgidən daha xeyirlidir». Məncə, demokratiya ictimai dəyərlər arasında o dərəcədə yüksək yer tutur ki, onun haqqında az da olsa bilgi digər bütün məsələlər, o cümlədən iqtisadiyyat, siyasət, diplomatiya və s. haqqında bütün nəhəng bilgilərdən cəmiyyət üçün çox-çox xeyirlidir. Neototalitar cəmiyyətlərdə vətəndaşlara siyasi biliklər, o cumlədən demokratiya ilə baglı ən az bilgi verilir. Hər şeydən əvvəl qeyd edim ki, hər hansı bir ölkədə demokratikləşməyə nail olmaq istəyənlərin, ilk növbədə demokratiyanın nə olmasını bilmələri vacibdir. Vaxtilə Russo yazırdı ki, «diktaturalara qarşı ən yaxşı mübarizə üsulu diktaturanın nə olmasını bilməkdir». Elə buna görədir ki, *neototalitarizm tərəfdarları vətəndaşların ya demokratiya haqqında bilgisizliyindən və ya yanlış bilgilənmələrindən sui-istifadə edərək niyyətlərinə çatırlar.* Vətəndaşlar üçün demokratiya haqqında ümumi məlumat əldə etmək yetərli deyil, həm də *demokratiyanı anlamaq lazımdır*. E.Fromm «Azadlığa qaçış» əsərində yazır: «Əgər biz faşizmlə mübarizə aparmaq istəyiriksə, biz onu başa düşməliyik». Demokratiya da bu mənada istisna təşkil etmir. Belə ki, *demokratikləşmənin ən yaxşı üsulu elə demokratiyanın nədən ibarət olduğunu aydın şəkildə dəqiq bilməkdən və onu başa düşməkdən keçir.*

Azərbaycan iqtidarının strategiyasında demokratiya haqqında anlam aşağıdakı şəkildə ifadə olunub: «Demokratiya dedikdə hakimiyyət forması başa düşülür və bu baxımdan o çoxluğun hakimiyyətinin legitimləşdirilməsi haqqında təlimdir».

Haşiyə: Bu anlamın nə dərəcədə həqiqətə uyğun olduğunu şərh etməmişdən öncə bir daha xatırlatmaq istərdim ki, dünyada keçmişdə və indi mövcud olan elə bir totalitar cəmiyyət yoxdur ki, onun baniləri demokratiyaya öz hissəvi anlamlarını verməklə öz ölkələrində totalitarizmə keçməsinlər. Doğrudanmı iddia edildiyi kimi, «demokratiya çoxluğun hakimiyyətinin legitimləşdirilməsi haqqında təlimdir»? Bu suala E.Munenin «Personalizmin manifesti» kitabındakı aşağıdakı fikri ilə cavab verməklə kifayətlənmək olar. O, yazır: «Demokratiya özündə müəyyən forma istismarı ifadə edən çoxluğun hakimiyyəti deyil. Demokratiya – sadəcə axtarışdır. Onun təyinatı cəmiyyətdə yaşayan bütün şəxsiyyətlərin azad inkişaf hüququnu və maksimal cavabdehliyini təmin etməkdir. Demokratik ideyaları daxili əlaqədə olduğu eqalitarizmlə bağlamaq səhv olardı». Lakin məsələnin müstəsna mahiyyətini nəzərə alıb, burada «çoxluğun hakimiyyəti məsələsi» ilə bağlı bir qədər geniş təhlil aparmaq yerinə düşərdi.

Çoxluq nədir və onun tarixdə rolu nədən ibarətdir? İnsanların cəmiyyətin və dövlətin həyatında iştirakçılığı mühüm sosial təzahürdür. Demokratiya hamının cəmiyyət həyatında fəal iştirakını tələb edir. *Çoxunluq* belə iştirakçılığın tərəflərindən biri kimi yaranır. Tarixi təcrübə göstərir ki, *demokratiya vasitəli formadan vasitəsiz formaya doğru tərəqqi edir və iştirakçılıq forması demokratiyanın inkişaf səviyyəsini müəyyən edir*. Bütün totalitar və neototalitar rejimlər vasitəli iştirakçılıqdan formal vasitəsiz iştirakçılığa meyllənir. XX əsrin əvvələrində Çar Rusiyasında II Nikolayın manifestindən imtina edən, Çar Dümasının buraxılmasını tələb edən və buna nail olan *bolşeviklər hər bir fəhlənin və kəndlinin dövləti idarə etmə hüququnun olmasını tələb edir və bunu yeni sistemin ən böyük tarixi naliyyəti hesab edirdi*. Amma tarixi təcrübə göstərdi ki, dövlət işi fəhlə işi deyil. Dövlət ən ali şüurun məhsuludur və yalnız yüksək intellektual qabiliyyəti olanlar dövlət işində iştirak edə bilərlər. Yüksək intellekt

isə bütün dövrlərdə, bütün cəmiyyətlərdə həmişə azlıqda təzahür edib.

Demokratik seçimin mahiyyəti seçki yolu ilə dövlət işinə layiq olanları müəyyənləşdirməkdir. Elə Ceferson da demokratiyanı belə dəyərləndirmişdir. O, demokratiya haqqında deyirdi: «Demokratiya - təbii aristokratiyanin seçki yolu ilə müəyyənləşməsidir». Çoxluğun demokratik rolu məhz belə bir seçimi nə dərəcədə düzgün etməsi ilə muəyyənləşə bilər. Buna görə də demokratiya inkişaf etdikcə vasitəsiz iştirakçılıq getdikcə genişlənir. Lakin totalitar cəmiyyətlərdən çıxmış və demokratiyaya keçid ölkələrində vasitəli demokratiya daha geniş tətbiq edilməlidir. Çünki *demokratiyaya hazır olmayan güclü demokratik institutlar formalaşmayan, xüsusən anarxiyaya meylli və demokratik ideyaları qəbul etməyən güclərin mövcud olduğu cəmiyyətlərdə xalqın vasitəsiz demokratik teatrda iştirakı təhlükəli tendensiyalar yaradır. Burada da çoxunluğun tarixi rolu məsələsinə aydınlıq gətirmək lazım gəlir.* Qeyd edim ki, cəmiyyət həyatında çoxluğa üstünlük verilməsi nə qədər mühümdürsə, bir o qədər də təhlukəlidir. Əvvəlcə «cəmiyyətdə çoxunluq necə yaranır» sualına cavab verməyə cəhd edək. Əgər ictimai stratifikasiya piramidasını və buna uyğun ayrı-ayrı sosial təbəqələrdə təmsil olunanların şüur səviyyəsinin uyğunluğunu nəzərdən keçirsək görərik ki, ictimai piramidanın zirvəsindən özülünə getdikcə çoxunluq böyüyür. Və cəmiyyətin əsasında yüz faiz təşkil edir. Bunun əksinə, ictimai şüurluluq getdikcə zəifləyir və bütün insanlar ən aşağı şüur səviyyəsində - kütlə şüurunda yüz faizli çoxunluğu təşkil edir. Buradan da belə çıxır ki, *cəmiyyətdə çoxunluq nə qədər boyükdürsə, onun təmsil etdiyi şüur bir o qədər aşağı səviyyəlidir.* Demokratiya kəmiyyət yox, keyfiyyətdir. Aşağı səviyyəli çoxunluq, yuxarı səviyyəli azlıqdan demokratiya üçün təhlükəlidir. Demokratiya keyfiyyətlə bağlı olduğundan cəmiyyətdəki çoxunluğun hansı keyfiyyətdə olması həlledici məsələdir. Çoxunluq yalnız yüksək ictimai şüura, mədəni səviyyəyə və sosial-iqtisadi təminata malik olduqda demokratiyaya xidmət edə bilər. Hər bir cəmiyyətdə real seçkilər çoxunluğu müəyyən edir, demokratiyanın olub-olmamasını isə həmin çoxunluğun keyfiyyəti üzə çıxarır. Buna görə də hətta ən ideal demokratik seçkilərdə belə, ço-

xunluq əldə etmiş qüvvənin demokratiyaya xidmət edib-etməməsi həmin qüvvənin keyfiyyətindən asılı olur. Məsələn, ötən əsrin 30-cu illərində alman milli sosialistləri seçkilər yolu ilə hakimiyyətə gəlmişdilər, amma bu qüvvənin bəşəriyyətə vurduğu zərbənin nəticələri yalnız nəhəng təbii fəlakətlərin nəticələri ilə müqayisə oluna bilər. Hakimiyyət ictimai piramidanın zirvəsini təşkil etdiyindən, əsl həqiqətdə hakimiyyətdəkilər intellektual səviyyəsinə görə dahiliyə yaxın şüurluluğu təmsil etməlidirlər. Bəs onda ən aşağı şüura malik olanlar ən yüksək şüurluları necə seçə bilərlər? Buradan da meydana çıxan həqiqət budur ki, mütləq çoxunluğun seçimi ən aşağı keyfiyyətli seçimdir. Müasir neototalitar cəmiyyətlərdə seçkilərdə udanların yüz faizə yaxın «qələbə» çalması neototalitarizmin aşağı keyfiyyətli hakimiyyət olmasına uyğundur. İnkişaf etmiş demokratik cəmiyyətlərdə və real demokratik seçkilərdə bunun əksinə səs dağılımı elə paylanır ki, çoxluğ təşkil edən tərəf mütləq çoxluqdan çox-çox az olan *nisbi çoxluğu* təmsil edirlər. Beləliklə, demokratik çoxluq nisbi çoxluqdur və yerdə qalanlara görə mütləq azlıqdır. Demokratik rejimlərdə konsensusa ehtiyac buradan yaranır. Belə ki, azlıq təşkil edən nisbi çoxluq hakimiyyətdə, böyük çoxluğu təşkil edən nisbi azlıq isə hakimiyyətdən kənarda qaldığından hakimiyyətdəkilər konsensusa üstunluk verirlər. Bunu etmədikdə isə çox asanlıqla hakimiyyəti tərk etməyə məcbur olurlar. Bu da seçimin keyfiyyətini yüksəldir. ABŞ-ın əsasını qoyanlar bəlkə də bunu anlayıb *seçənlərin seçilməsi* modeli ilə çoxunluğun mümkün qədər ixtisaslaşmasına əl atıblar. Bu seçki sistemi nə qədər tənqid olunsa da ictimai uğurun yüksək olmadığı çoxunluq hakimiyyətində həqiqəti üzə çıxara biləcək yeganə düzgün yoldur. Bəs demokratiya bütünlükdə çoxunluq problemini necə həll edir? Demokratik cəmiyyətin əsas işi cəmiyyətin əsasının şüur səviyyəsini yüksəltməkdir. Buna görə də demokratiya *ümumi orta təhsilin* səviyyəsini yuksəltməyə xüsusi diqqət ayırır. Neototalitar cəmiyyətlərdə isə əksinə, *xüsusi orta təhsilin* səviyyəsini, xüsusi məktəblərdə, yalnız azlığın təhsil ala biləcəyi yolla yüksəldilməsinə cəhd edirlər. Böyük çoxluq isə mümkün qədər avam vəziyyətdə saxlanılır. Məqsəd düzgün seçim gabiliyyəti olmayan və ya seçimə xüsusi meyl etməyən çoxunluq yaratmaqdır. Təsadüfi deyil ki,

Azərbaycanda keçirilən parlament seçkilərindən birini müşahidə etmiş ATƏT müşahidəçilərinin hesabatlarından birində «Azərbaycan seçicisi seçkinin nə olduğunu bilmir» kimi fikir ifadə edilmişdi. Seçimin nə olduğunu bilməyən çoxunluq isə hec vaxt düzgün seçim edə bilməz. Buna görə də neototalitar cəmiyyətlərdə seçkilər düzgün keçirilmir, səslər ya saxtalaşdırılır ya da verilən səslər həqiqəti ifadə etmir. *Belə tendensiyalarla oxlokratiya, çernikratiya və nəhayət, anarxizm meydana çıxa bilər.* Bu mənada razılaşmaq lazımdır ki, «hətta tərəqqi innovasiya xarakteri kəsb etdiyi, yəni ideyalar, texnologiyalar, biliklər bir nəslin digərini əvəz etməsindən daha tez dəyişdiyi bir şəraitdə belə, bu cür kəskin siyasi hərəkətlər ictimai şüurun ağırlıq mərkəzini radikal inkarlar müstəvisinə doğru dəyişməsinə səbəb olur». Demokratiyada insanların mənəvi keyfiyyəti müstəsna əhəmiyyət kəsb edir. Demokratiya fərddən özünə daha ciddi nəzarət, məsuliyyət, cavabdehlik tələb edir. Məhz belə keyfiyyətlərin yetərincə olmamasına görə cəmiyyətlər neototalitarizmə meyl edir. K.Manheym yazir: «Bütün insanlar rasional özünü ələ almasa və ayrı-ayrı fərdlər texniki inkişafla ayaqlaşmasa, müasir ictimai qurluşu qəza gözləyir». Amma insanların özünü rasional ələ alması üçün onların rasional təbiətinin inkişafına şərait yaratmaq lazımdır, hansı ki, insan azadlıqlarını tələb edir. *Əslində neototalitar cəmiyyətlərdə insan azadlıqlarının qorunması və demokratikləşmənin iqtisadi inkişafa görə ikinci sıraya keçirilməsi, xususən ictimai-siyasi proseslərdə siyasi partiyaların, ictimai təşkilatların yox, «hər bir adamın fərdi iştirakçılığı»nın önə çəkilməsi əslində keçid dövrü cəmiyyətlərinin şüur səviyyəsini nəzərə almadığından, demokratiyadan daha çox oxlokratiyaya, cəmiyyəti radikal inkarlar müstəvisinə doğru sürükləyir və məhz buna görə ki, neototalitar cəmiyyətlərin iqtidarında siyasi vəzifə tutan məmurların hakimiyyətdə fərdi iştirakçılığı son nəticədə radikal inkarçıların elitasını meydana çıxarmışdır.*

Əslində demokratiyanın belə anlamı dünyanın ən nəhəng və qorxunc totalitar dövlətini qurmuş leninçi bolşevizmə məxsusdur. Məhz bu cür anlamla bolşeviklər SSRİ-də hakimiyyətə gəlmiş və 70 il bütün dünyanı təhdid edərək 10 milyonlarla ölkə vətəndaşını məhv etməklə rejimin ömrunu uzatmağa cəhd etmişlər. V.İ.Lenin

«Bütün hakimiyyət sovetlərə» adlı məqaləsində yazır: «Demokratiya çoxluğun hökmranlığıdır». Amma tarixi siyasi təcrübə də sübut etdi ki, demokratiya heç də Leninin anladığı kimi, çoxluğun hakimiyyəti deyil, həm də çoxluğun hakimiyyətində azlığın bütün hüquqlarının qorunması ilə onların mövcudluğuna təminat verilməsidir. *İstənilən cəmiyyətdə çoxluğun hakimiyyəti şərtində azlığın gözardı edilməsi, cəmiyyəti qaçılmaz olaraq həqiqi demokratiyadan yan keçirərək, müxtəlif – «izm»lərə aparır.* SSRİ-də də totalitar cəmiyyətin qurulması məhz bu əsasda baş vermişdir. V.İ.Lenin «Təhdid edən fəlakət və necə onunla mübarizə aparmalı» adlı məqaləsində yazırdı: «Demokrat olmaq o deməkdir ki, işdə xalqın çoxluğunun maraqları ilə hesablaşasan, nəinki, azlığın». Bu müddəa bolşeviklərə imkan vermişdir ki, SSRİ-də digər bütün siyasi partiyaları, dini, siyasi azlıqları kütləvi surətdə məhv edərək totalitar cəmiyyət qursun. Postsovet dövlətlərinə rəhbərlik edənlərin demokratiyanı bu cür hissəvi anlaması da artıq bu gün ayrı-ayrı əlamətləri görünən totalitarizmə gətirib çıxaracağı qaçılmazdır. Burada «çoxluğun hakimiyyəti» anlayışının müxtəlif ideologi sistemlərdə necə həll edilməsini bilmək də vacibdir. Başqa sözlə, bolşevik «çoxunluğu»nun hakimiyyəti ilə demokratik «çoxunluğ»unun hakimiyyəti bir-birindən necə fərqlənir? Bolşevik «çoxunluğ»unun hakimiyyət modeli aşağıdakı kimidir: Böyük çoxluq (fəhlə və kəndli sinfi) + böyük çoxluğun avanqard hissəsi (Kommunist Partiyası) + partiya elitasının hökmranlığı (siyasi hakimiyyət). Elita istənilən çoxunluğun *az bir hissəsini* təşkil edir və bu baxımdan heç bir çoxunluq bilavasitə hakimiyyətdə iştirak edə bilməyəcəyindən öz avanqardı ilə, avanqardı isə elitası ilə hakimiyyəti həyata keçirir. Bu istiqamətdə bolşevik çoxunluğunda *hakimiyyət monopoliyası partokratiya* adlanır. Demokratiya bundan fərqli xətt üzrə inkişaf edən çoxunluq hakimiyyətidir. Bolşevizm çoxunluğunun hakimiyyətindən fərqli olaraq demokratik çoxunluq hakimiyyətində hakimiyyətin monopollaşmasının qarşısını alan bir çox addımlar atılır. Belə ki, əgər hakimiyyəti bir tam kimi qəbul etsək, o nə qədər idarə edən elitanın əlindədirsə, onun çoxunluğunda bilavasitə bir o qədər az hakimiyyət qalır. Əksinə, siyasi elita nə qədər az hakimiyyətə malik olursa, onda onun çoxunluğunda bir o

qədər çox hakimiyyət qalır. Nəzərə alsaq ki, demokratiya bolşevizmdən fərqli olaraq *azlığı etiraf edir* və həm də ona məxsus hakimiyyəti təmsil etmir, belə halda bir tərəfdən rəsmi hakimiyyət elitası daha az hakimiyyətə malik olur, digər tərəfdən hakimiyyət azlığın da təmsil olunduğu qollara ayrılır və paylanır. Çoxunluqda qalan hakimiyyət isə *daxili hakimiyyət* formasında, yəni *insan azadlıqları* kimi reallaşdırılır. Bu baxımdan demokratik çoxunluqda münasibətlər haqqında A.Hayek yazır: «Baxmayaraq ki, fərdiyyəçilik belə hesab edir ki, istənilən idarəçilik demokratik olmalıdır, onun çoxluğun nəhəng qərarları qarşısında kor-koranə əyilməsi yoxdur… o xüsusən demokratiya haqqında gəzən yalan təsəvvürlərin ən taleyüklü və təhlükəlisinə – çoxluğun rəyini gələcək inkişaf üçün həqiqi və vacib qəbul etmək haqqında inama – düşməncəsinə münasibət bəsləyir». Bolşevizmdən fərqli olaraq *demokratik çoxunluq* azlıqla eyni siyasi məkanda hakimiyyəti *konsensus* yolu ilə həyata keçirir. Beləliklə, bolşevik çoxunluğunun hakimiyyətinin demokratik çoxunluq hakimiyyətindən digər bir prinsipial fərqi məhz konsensusdadır. Bolşevizm azlığa barışmaz münasibət göstərir və onları məhv etməyi vacib hesab edir. Demokratiya isə azlıqla *uzlaşmağı*, onlarla birlikdə ictimai inkişafda *əməkdaşlıq zonaları* yaratmağı tələb edir. Məhz bu cür konsensusun olmamasına görə bir çox ölkələrdə çoxunluğun hakimiyyəti totalitarizmin yaranmasına gətirib çıxarmışdır.

Strategiyada yazılır: «Çox vaxt Azərbaycanda diskussiyalar demokratiya, söz və mətbuat azadlığı, bütünlükdə azadlıq konsepti ətrafında aparılır» və müəllif bununla tam razılaşmadıgını bildirir..

Haşiyə: Demokratiyanın radikal-total anlamı birmənalı şəkildə insan azadlıqları ilə bağlıdır. Qeyd etmək lazımdır ki, az-çox demokratiya haqqında fikir söyləmiş elə bir mütəfəkkir, filosof, alim, siyasətçi yoxdur ki, *demokratiyanı azadlıqlarsız* təsəvvür etsin. Əksinə, əksər filosoflar demokratiyanı azadlığın sinonimi kimi işlətmişlər. Bu baxımdan demokratiyanın yeganə vəzifəsi insan azadlıqlarını təmin etmək, onları genişləndirmək və qorumaqdır. Məhz yalnız leninizm bundan fərqli mövqe ortaya qoymuşdur. V.İ.Lenin «Marksizm dövlət haqqında» adlı əsərində yazırdı: «İşdə demokratiya azadlıqları istisna edir». Neototalitar cəmiyyətlərdə demokratikləşmənin həyata

keçirilməsi adı altında insan azadlıqlarına əhəmiyyət verilməməsi və iqtidarlarin azadlıq anlayışını hissəvi anlamda qəbul etməsi ölkədə demokratikləşmənin qarşısında duran çox ciddi maneədir.

Strategiyada demokratiya və azadlıq məsələsi belə qarşılaşdırılır. «Demokratiya təkcə fərdin azadlığı formasında təzahür etməyib, milli identikliyin arxeotiplərinin və ən mühüm amillərinin transformasiyasının təmin edilməsi üçün bünövrə yaradır».

Haşiyə: Məhz demokratiyanı milli məsələ ilə uzlaşdırmağa cəhd neototalitar ideologiyanın spesifik xüsusiyyətlərindəndir. Konkret fərdlə mücərrəd xalq anlayışları klassik totalitarizmin əlində ictimai şüuru azdırmaq və beynəlxalq qınaqlardan qaçmaq üçün mühüm vasitələrdən biri olmuşdur. Neototalitar dövlətlərdə də zaman-zaman bu üsulldan istifadə edilir. BMT-də insan hüquq və azadlıqları haqqında qətnamənin qəbul edilməsinin 50 illiyi ilə bağlı keçirilən tədbirlərin birində Azərbaycanın sabiq dovlət başçısı H.Əliyev xalqın hüquqlarının olmamasına etiraz edərək, beynəlxalq təşkilatların nümayəndələrinə israrla sübut etməyə çalışırdı ki, insan hüquqları dedikdə, ilk növbədə «xalqın hüququ» nəzərdə tutulmalıdır, nəinki ayrı-ayrı fərdlərin. Halbuki beynəlxalq hüququda kifayət qədər xalq hüququ – «milli müqəddəratı təyin huququ», «ərazilərin toxunulmazlığı», «sərhədlərin zorakı dəyişdirilməsinin yolverilməzliyi», genosidi, diskirminasiyanı, deportasiyanı qadağan edən qanunlar və.s. öz əksini tapmışdır. Neototalitar dövlətlərdə müxtəlif maraqları bir-biri ilə qarışdırma, fərdi hüquqlardan söz düşəndə milli hüquqlardan, milli hüquqlardan söz düşəndə isə fərdi hüquqlardan danışmaq ənənəvi hal almışdır. Bu cür yanaşma idarəetmə qüsurlarına haqq qazandırmaq üçün də geniş istifadə olunur. Məsələn, əgər hakimiyyət iqtisadi nöqsanlara görə tənqid olunursa, rejimin tərəfdarları beynəlxalq əməkdaşlıqdakı nailiyyətlərdən söz açır, söz beynəlxalq öhdəliklərin yerinə yetirilməsindəki qüsurlara gəldikdə isə dərhal ölkənin ümumi iç problemləri qabardılır.

Beləliklə, neototalitarizm klassik totalitarizmin bir çox ənənəsini özündə yaşatmaqda davam edir. Neototalitarlar milli kimliyi universal dəyərlərə qarşı qoymaqla geniş xalq kutlələrini onların öz əlləri

ilə tabeçiliklərində saxlamağa cəhd edirlər. Halbuki, azadlıq kimi universal dəyərlər heç vəclə milli identikliyin arxeotiplərinin keçidini təmin edən bünövrə yarada bilməz. Yalnız *insan azadlıqlarını gözardı etməklə milli identikliyə nail olmaq olar və qapalı cəmiyyət qurmaq istəyənlər də adətən fərdi azadlıqlara hissəvi anlam verməklə öz niyyətlərinə çatmaq istəyirlər*. Əslində neototalitar cəmiyyətlərdə demokratiya və azadlığa nihilistik mövqe tutulur. E.Fromm yazır: «Demokratiya nihilizmin gücünə o zaman qalib gələ bilər ki, *insanlarda insanın* qabil olduğu həyata, həqiqətə, azadlığa ən güclü inam – insan şəxsiyyətinin aktiv və spontan realizasiyasının azadlığına tam inam oyada bilsin». Qeyd etmək lazımdır ki, bu, təkcə nihilizmi dəf etmək üçün zəruri şərt deyil. Əslində *insan azadlıqları ilk növbədə hakimiyyətin özbaşınalıqlarını dəf etmək üçün zəruridir.* L.Hobhaus «Liberalizm» adlı əsərində yazır: «Həm məntiqi, həm də daxili olaraq tənqidin birinci obyekti hakimiyyətin özbaşınalığıdır. Təminat verilməli olan ilk azadlıq onunla qanuni rəftar edilməsinin vətəndaş hüququdur». Bu baxımdan hər hansı bir cəmiyyətdə insan azadlıqlarının boğulması iki mənfi tendensiyaya - bir tərəfdən hakimiyyətdəkilərin özbaşınalığına – korrupsiya, rüşvət, vəzifədən sui-istifadə, proteksiya və s., digər tərəfdən qanunun pozulmasına – kriminallaşmanın artmasına səbəb olur.

Demokratiyanın iqtidar strategiyasında digər bir anlamı belə şərh edilir. «Müasir dünyada bu və ya digər məkanda demokratik sistemin nəzəri baxımdan qurulmasında iki anlayış mühüm rol oynayır – «demokratiyaya keçid», «demokratik sistemin möhkəmlənməsi» və «demokratiyanın bərqərar olması». Birinci proses «demokratik hökumət qurulmasına» doğru, ikinci proses «demokratiyanın bərqərar olunmasına» və ya «demokratik rejimin səmərəli fəaliyyətinə» doğru aparır. Əslində birinci halda demokratik rejimin yaradılmasını və fəaliyyətini qanunverici və icra hakimiyyətinin əvəzləməsini və seçkili olmasını nəzərdə tutan demokratik transformasiyanın inistitusional bazasından söhbət gedir. İkinci halda kütləvi şüurun keyfiyyətcə dəyişməsini və cəmiyyətin demokratik dəyərlərə, ənənələrə və təsisatlara hərtərəfli şəkildə yiyələnməsini fərz edən ictimai-siyasi sistem kimi demokratiyanın möhkəmlənməsi nəzərdə tutulur.

Haşiyə: Demokratiyanı *məhdud* hakimiyyət məsələləri ilə məhdudlaşdırmaq və bunu formal hakimiyyət bölgüsü ilə eyniləşdirmək demokratiyanin mahiyyətinə ziddir, əksinə, *demokratiya hakimiyyətin özünün məhdudlaşdırılmasına və formal mahiyyət almasına aparan bir prosesdir*. Qeyd etmək lazımdır ki, ümumi şəkildə demokratikləşmə üç klassik tərkibdən – *demokratlardan,* (fərdlərdən, qruplardan, təşkilatlardan) *demokratik institutlardan* (rəsmi dövlət qurumlarından – parlament, prezidentlik, məhkəmə hakimiyyəti, bələdiyyələr, qeyri-hökumət təşkilatları, siyasi partiyalar və KİV) və *demokratik prosedurlardan* (seçkilər, referendum, siyasi dialoq, xalq üsyanları) ibarətdir. Bu tərkib elementlərindən hər hansı birinin catışmamazlığı və ya hər hansı birinin gözardı edilməsi ən *eybəcər qeyri-demokratik rejimlərin* yaradılmasına səbəb olmuşdur. Demokratiyanın – demokratiyaya keçidin demokratik hökumət qurulması kimi anlamı hissəvidir. Belə ki, bu anlam da leninizmin demokratiyanın hakimiyyət forması olması ilə bağlı məhdud anlamlı ilə üst-üstə düşür. V.İ.Lenin «Dövlət və inqilab» adlı əsərində yazır: «Demokratiya dövlət formasıdır, onun formalarından biridir. Və nəticədə istənilən dövlət kimi özündə insanlardan təşkil olunmuş sistemdir və zorun tətbiqini təqdim edir». Məhz demokratik dövlət formasının bolşevik anlamı keçmiş SSRİ-də zor tətbiqi ilə insan azadlıqlarının boğulmasına və totalitar sovet cəmiyyəti yaradılmasına rəvac vermişdir. V.İ.Lenin idarəetmədə demokratiyanın nədən ibarət olması ilə bağlı özünün «Sovet hökumətinin növbəti vəzifələri» adlı əsərində yazırdı: «*Sovetlərin demokratik və sosialistik xarakteri quid est? (Bu nədir?). Hər kəsi idarə etməkdir*». Hər şeyi idarə edən isə *totalitar cəmiyyət* deməkdir. Bunu əksinə F.Fukuyama Qərb demokratiyasında idarəetmə haqqında qəbul edilmiş müddəa haqqında yazır: «Demokratiyada heç kim idarə etmir». Çünki *demokratiya xalq hakimiyyəti olduğundan, hamı idarəetmədə iştirak edir, sadəcə hakimiyyətdəkilər demokratik prosedurlar əsasında cəmiyyəti, vətəndaşlar isə qanunlar əsasında özünü idarə edir.* A.Hayek «İdrak, rəqabət və azadlıq» adlı əsərində yazır: «Günah öz-özlüyündə demokratiya prinsiplərində yox, onların düzgün tətbiq edilməməsindədir». Belə prinsiplərdən biri *demokratik idarəet-*

mədir. Cəmiyyətdə Leninin dediyi kimi, «hər kəsi idarə etmək cəhdi» totalitarizmin əlamətidir. Əslində demokratik idarəetmə ən az həcmdə idarəetmədir. Akton demokratik prinsiplər haqqında yazır: «Həqiqi demokratik prinsip – heç kəs xalq üzərində hakimiyyət edə bilməz. Bu o deməkdir ki, kimsə onun hakimiyyətini məhdudlaşdıra və yayındıra bilməz. Həqiqi demokratik prinsip – xalqa xoşu gəlməyini etməyə məcbur etmək olmaz. Bu o deməkdir ki, o, xoşuna gəlməyəni heç vaxt etməməlidir. Həqiqi demokratik prinsip – hər bir insan iradəsi o dərəcədə əsarətdən qurtarmalıdır ki, nə qədər mümkündür, bu o deməkdir ki, bütün xalqın azad iradəsi heç nə ilə buxovlanmasın». Bu baxımdan demokratik idarəetmənin hissəvi dar mənada anlaşılması neototalitar idarəçiliyə gətirib cıxarır. Xüsusən, demokratiyanı yalnız dövlət forması və ya idarəetmə forması kimi dərk etmək demokratiya haqqında heç nə bilməmək deməkdir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi demokratiya ilk növbədə demokrat insanların mövcud olduğu toplum deməkdir. Karl Kautski «Demokratiyadan dövlət köləliyinə doğru» adlı əsərində yazır: «İnsan təbiət etibarı ilə yalnız sosial yox, həm də demokratik varlıqdır. Demokratik fəaliyyətə cəhd onun sosial təbiətinin bir tərəfidir ki, öz heyvani əcdadlarından irsən almışdır». Kauitskinin bu fikri ilə tamamilə razıyam və belə hesab edirəm ki, demokratiyanı yalnız Leninin dediyi kimi dövlət forması kimi qəbul etmək həqiqətən də insanları dövlət köləliyinə aparır. Demokratiya hər şeydən oncə şəxsiyyətin movcudluq formasıdır və ondan kənarda insan yalniz fərd olaraq qalır. Demokratiyanı yalnız dövlət forması kimi qəbul etmək, yəni demokratiyanın bu cür hissəvi anlamı son nəticədə *dövlətin məhdud bir qrupun əlinə keçməsinə* və bununla da *vətəndaşları bir nəfərin köləliyinə - avtoratirizmə aparır ki,* bu da adının necə qoyulmasından asılı olmayaraq quldarlıqdan başqa bir şey deyil. *Demokratiya - ilk növbədə hərtərəfli hüquqları olan azad insanların cəmiyyətidir.* Belə cəmiyyətdə insanlar yalnız rasional qanunlara tabe olur. Leo Ştraus «Siyasi fəlsəfəyə giriş» adlı kitabında yazır: «Demokratiya – hamısı və əksəriyyəti yaşlı adamların ləyaqətli olduğu siyasi quruluşdur, ləyaqət müdriklik tələb etdiyindən, bütün yaşlı adamlar və ya ləyaqətlilərin çoxu müdrik olur və ya yaşlıların əksəriyyətinin öz

ağıllarını yüksək dərəcəyə və ya rasional cəmiyyətədək inkişaf etdirən rejimdir». Beləliklə, demokratiya ləyaqətli və müdrik insanların rasional cəmiyyətidir. Mən Karl Marksın nəzəriyyəsini qəbul etməsəm də zaman-zaman onun ayrı-ayrı fikirlərini bölüşdürməyə bilmirəm. K.Marks polis rejimi şəraitində mövcud olan burjua demokratiyası haqqında «Qota proqramının tənqidi» adlı əsərində yazır: «Hətta vulqar demokratiya – polisin icazə verdiyi və məntiqi cəhətdən yolverilməz olan bu çeşid demokratizmdən ölçülməz dərəcədə yüksəkdə durur». Müasir neototalitar dövlətlərdə yalnız polisin icazəsi ilə mövcud olan demokratizm Marksın da dediyi kimi, *ən vulqar demokratiyadan* belə, çox-çox aşağı səviyyədir. *Demokratiyanı ehkama çevirmək, onu dar mənada dövlət forması kimi və ya çoxluğun hakimiyyəti kimi qəbul etmək həqiqi demokratiyanın yaranmasına imkan verə bilməz.* Hətta bu gün neototalitar cəmiyyətlərin iqtidarları səmimi şəkildə bu anlamla demokratikləşməyə cəhd etsə belə, ən yaxşı halda ən eybəcər totalitar cəmiyyət yarada bilər. «Siyasi teologiya»nın müəllifi K.Şmitt yazır: «Möcüzə və ehkamlardan insan ağlında əsaslanmış şübhə və tənqiddən azad olmuş demokratiya siyasi relyativizmin və elmiliyin ifadəsidir». Başqa sözlə, elmi şəkildə demokratiyanın radikal-total anlamı - cəmiyyət, dövlət və fərd haqqında həqiqi bilikdir və demokratiyanın özü siyasətin kardinal problemidir. Bu baxımdan demokratiya anlamında dövlətə, cəmiyyətə və fərdə fərqli yanaşma və ya onlardan hər hansı birinə ikincili qiymət vermək demokratiya haqqında həqiqi bilgiləri təhrif edir və belə bilgilər əsasında yaradılmış bütün totalitar cəmiyyətlər bunun canlı sübutudur. Yuxarıda qeyd etdiyimiz kimi, neototalitarizmin tərəfdarları demokratiyanı formal hakimiyyət bölgüsü anlamında qəbul edir və öz ölkələrində belə bir hakimiyyətin mövcud olmasını demokratiyanın müəyyən mərhələsinə keçildiyinin sübutu kimi təqdim edir. Lakin 70 il SSRİ-də və son 20 il İranda mövcud olan hakimiyyət bölgüsünün mövcud olmasının bu ölkələrdə demokratiyaya gətirib çıxarmadığını nəzərə alsaq, onda qəbul etməliyik ki, demokratiya yalnız formal hakimiyyət bölgüsünü tələb etmir, həm də *xalqı iqtidarların səhvlərindən, hakimiyyətdən sui-istifadələrindən, iqtidardakıları isə öz növbəsində hakimiyyətin pozucu təsirindən və*

hakimiyyət uğrunda mübarizə aparan güclərin qeyri-qanuni, hüquqa zidd təzyiqlərindən qorumaq üçün hakimiyyət gücünü düşünülmüş və ədalətli, proporsional bölməklə onun mərkəzləşməsini – ayrı-ayrı siyasi güclərin və ya fərdlərin monopoliyaya almasının qarşısının kəsilməsini tələb edir. Demokratiya həm də cəmiyyətdə siyasi hakimiyyətin rəsmi dövlət və qeyri-rəsmi dövlət gücləri arasında tarazlaşdırılmış bölünməsini tələb edir. Hakimiyyətin və milli siyasi gücün real bölgüsü hələ demokratik dəyişikliklərə nail olmaq üçün yetərli deyil, çünki demokratiya ayrılma ilə paralel *uzlaşmanı, inteqrasiyanı* və bununla da *qarşılıqlı nəzarəti* tələb edir. «Siyasətçilər özlərinin əvvəllər böldüklərini sonradan birləşdirməkdən başqa heç nə edə bilməzlər» deyimi də məhz buradan qaynaqlanır. Beləliklə, *cəmiyyətdə müxtəlif qütblərdə dayanmış qruplar arasında razılaşma olmadan hər hansı siyasi fəaliyyətə demokratik keyfiyyət vermək mümkün deyil.*

Yuxarıda xatırlatdığımız A.Linkolun demokratiya haqqındakı məşhur deyimini sadə dillə belə ifadə etmək olar. Demokratiya – xalqın iradəsi ilə, xalqın iştirakı ilə, xalq naminə ictimai-siyasi fəaliyyətdir. Demokratiyanın bu üç qızıl şərtindən hər hansı birinin təmin edilməməsi ən təhlükəli ictimai-siyasi prosesləri meydana çıxarır. Belə ki, birinci şərtin - xalq iradəsinin olmadığı yerdə müxtəlif formalı *diktaturalar* yaranır. Tarix göstərir ki, bu günədək mövcud olmuş bütün diktaturalar xalqın iradəsini nəzərə almadan xalqın iştirakı və xalq üçün yaradılmışdır. *Totalitar və neototalitar cəmiyyətlərdə hakimiyyətlər xalq iradəsinin hər hansı formada azad ifadə olunmasına yol vermir. Bunun əvəzində özlərinin iradəsini xalq iradəsi kimi təqdim edirlər.* Vaxti ilə dünyanın ən təhlükəli totalitar dövlətini yaratmış A.Hitler özünün xalqla əlaqəsini hər addımda qabartmaqdan həzz alırdı. Öz xalqına müraciətlərindən birində deyirdi: «Sizin hamınız varsınız, mənimlə varsınız, mən bütünlükdə varam, yalnız sizinlə varam». Öz iradəsini xalqın iradəsi kimi qələmə verən Hitler alman xalqının iradəsini nəzərə almadan faşizmi yaratdı və son nəticədə də ən böyük zərbəni alman xalqı aldı. Beləliklə, bir qayda olaraq *neototalitar liderlərin hərəkətlərinə cavabdeh həmişə bu liderlərə dözən xalqlar olur.* Xalq iradəsi olmadan ictimai həyatın ayrı-ayrı sahələrində ciddi nailiyyətlər əldə edilsə də, son nəticədə bu rejimlər

xalqın əleyhinə yönəlir. İkinci şərtin – siyasi inkişafda xalqın iştirakının təmin edilməməsi *siyasi demaqogiyanı* doğurur, hansı ki, fərdi, qrup və tayfa maraqlarına xidmət edir. Neototalitarizm - demokratik maska naminə edilən klassik siyasi demaqogiyanın məhsuludur. Halbuki, klassik totalitarizm üçün demokratik maskaya bir o qədər də ehtiyac qalmırdı. Üçüncü şərtin – xalq üçün fəaliyyətin olmaması ən müxtəlif *avtoritarizmləri* doğurmuşdur. Hansı ki, bu rejimlərdə siyasi fəaliyyət yalnız avtoritarın tələbatlarını ödəməyə xidmət edir. Həqiqi demokratiya isə yalnız bu üç şərtin birlikdə, düzgün proporsiyada tətbiqində meydana çıxır və yalnız bu halda siyasi fəaliyyət xalqın mənafeyinə xidmət etmiş olur.

Demokratiyanın əsas şərtlərindən biri olan «xalq iradəsi» iki formada – bilavasitə iradə bildirməklə və *dolayısı təmsilçiliklə* ifadə etməklə təzahür edir. *Təmsilçi demokratiyada* bir tərəfdə rəsmi seçkili orqanlar, digər tərəfdə fəaliyyətləri qanunla tənzimlənən ictimai güclər, partiyalar və ictimai təşkilatlar *vasitəli demokratiyanın aktorları* kimi çıxış edir. Beləliklə, xalqın iradəsini qanuni yolla təmsil etməyən hər hansı bir siyasi qüvvə, hətta o yalnız xalqın mənafeyinə xidmət etsə belə, demokratik hesab edilə bilməz və gec-tez həmin fəaliyyətin xalq əleyhinə yönələcəyi qaçılmazdır. Heç vaxt bir qüvvənin, sinfin, hətta o çoxluq təşkil etsə belə, yuxarıda qeyd etdiyim kimi, iradəsi xalq iradəsi kimi qəbul edilə bilməz. Məhz xalq iradəsinin bu cür qəbul edilməsi müxtəlif qrupların özlərini çoxluq təşkil etdiklərindən və ya yalnız rəsmi dövlət seçkili orqanlarının təmsilçiləri olmalarından çıxış edərək, xalq iradəsinin yeganə daşıyıcıları kimi elan etməsi SSRİ-də kommunistlərin, Hitler Almaniyasında faşist rejimlərinin yaradılması ilə nəticələndi. Vaxtilə İ.V.Stalin Sverdlovskdə universitet tələbələri qarşısında leninizmin əsasları haqqında çıxışında deyirdi: «Sovetlər kütlənin bilavasitə təşkil etdiyidir, başqa sözlə, ən demokratik, ən avtoritet təşkilatıdır». Bir qayda olaraq belə «avtoritet təşkilatlar» dünyada analoqu olmayan avtoritar rejimləri yaradır. Xalqın bilavasitə iradə ifadə etməsi müxtəlif siyasi güclərin öz kollektiv iradələrini *kütləvi aksiyalar və referendum*larla reallaşdırması ilə mümkün olur. Demokratiyanın ictimai təsisatlar, partiyalar, KİV və QHT olmadan dövlət və haki-

miyyət qolları kimi anlanması və ictimai güclərin iradəsinin dövlət idarəçiliyində nəzərə alınmaması neotatalitarizmə aparır. Əslində xalq iradəsi cəmiyyəti təşkil edən və bir-biri ilə əks qütblərdə duran ayrı-ayrı güclərin iradələrinin vektorial məcmusu kimi meydana çıxır. F.Engels 21 sentyabr 1880-ci ildə Bloxa yazdığı məktubunda tarixin yaradılmasında xalq iradəsinin rolu haqqında yazır: «Ən müxtəlif iradələrin toqquşmasından ümumi tarixi inkişaf etdirən və həm də xalq iradəsi kimi çıxış edən müxtəlif iradələrin azad ifadəsindən ibarətdir. Tarix elə yaradılır ki, son nəticədə həmişə ayrı-ayrı çoxlu iradələrin toqquşmasından alınır». Bu gün müxalifətin hər hansı bir formada iradə ifadə etmək azadlığına qarşı çıxmaqla və ya cəmiyyətdə müxtəlif güclərin, o cümlədən iqtidarla müxalifət iradələrinin toqquşmasına şərait yaratmamaqla, nəinki ictimai inkişafa nail olmaq olar, əksinə, ən yaxşı halda yalnız *tarixin yaranmasına mane olmaq olar*.

Neototalitar cəmiyyətlərin strategiyasını dəyərləndirərkən haqlı olaraq belə bir sual doğur: Xalqın iradəsi – yəni ayrı-ayrı müxtəlif siyasi güclərin iradəsi həmin strategiyada necə və nə dərəcədə ifadə olunmuşdur? Əgər iqtidarlar xalq təmsilçisi kimi çıxış edən digər ictimai təşkilatların və siyasi partiyaların rəylərini rəsmi şəkildə öz strategiyasında nəzərə almamışsa, onda nə dərəcədə bu strategiya demokratiyaya xidmət edə bilər. Beləliklə, iqtidarın dövlətin və cəmiyyətin inkişafı ilə bağlı hazırladığı strategiyada müxtəlif siyasi qüvvələrin mövqeyinin nəzərə alınmaması həmin strategiyanın *milli və demokratik* keyfiyyət daşımasını şübhə altına alır. Milli və demokratik olmayan heç bir strategiya isə dövlət səviyyəsində həyata keçirilə bilməz.

Demokratiya ictimai-siyasi proseslərdə xalqın iştirakına müccərrəd bir ideya kimi baxmır. Belə ki, iqtidarların həyata keçirmək istədikləri istənilən islahat nə dərəcədə xalqın iştirakını təmin etməsi ilə bağlı müvəffəqiyyətli ola bilər. V.Humboltd «Mədəniyyətin dili və fəlsəfəsi» adlı əsərində yazır: «Mövcud vəziyyətdə düşünülmüş yeni vəziyyətə keçmək üçün imkan daxilində hər bir islahatın insanların ağlına hakim kəsilən ideyalardan yaranmasına cəhd etmək lazımdır». Hər hansı bir cəmiyyətdə iqtidarlı-müxalifətli hamı üçün

demokratikləşmə hakim ideyadırsa, onda bütün islahatlar bu ideyalardan yaranmalıdır. Bu isə islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkədəki bütün siyasi güclərin bu islahatlara cəlb edilməsini zəruri edir. Nəinki islahatlar, hətta milli maraqlara aid olan bütün məsələlər cəmiyyətdəki bütün qüvvələrin iradəsi nəzərə alınmaqla həll edilməlidir. Bu da mutəmadi olaraq iqtidarla müxalifət arasında siyasi dialoqun vacibliyini şərtləndirir.

Bəs neototalitar cəmiyyətlərdə demokratiyanın inkişaf proseslərinin sürətini azaltmaqdan necə xilas olmaq olar? Demokratikləşmə hansı optimal sürətlə və hansı istiqamətə getməlidir ki, neototalitarizmdən demokratiyaya kecid baş versin? Kim bunu müəyyən etməlidir və ya müəyyən edə bilər? Neototalitar cəmiyyətlərdə demokratiyanın nəzəri hissəvi anlamının tətbiqi təcrübədə nələrə səbəb olur? Növbəti fəsil də məhz bu barədədir.

II FƏSİL

SİYASİ DİSSONANS: DEMOKRATİYA ADINA DEMOKRATİYADAN İMTİNA

«Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!»
Cəmaləddin Rumi

«Mən əvvəllər elə başa düşürdüm ki, Allah həqiqətdir, indi başa düşürəm ki, həqiqət Allahdır».
Mahatma Qandi

Neototalitar cəmiyyətlərdə demokratiyanın hissəvi-nəzəri anlamının təcrübədə tətbiqi də ciddi ziddiyyətlərlə müşayət olunur. Klassik totalitar cəmiyyətlərdən fərqli olaraq neototalitar cəmiyyətlər konkret ideoloji sistemə əsaslanmır, əvəzində ardıcıl və sistemli olaraq demokratiyanın bərqərar olmasına müxtəlif vaxtlarda müxtəlif bəhanələrlə müqavimət göstərir. Belə ki, bir tərəfdən beynəlxalq güclərin təzyiqi altında bu ölkələrin iqtidarları demokratikləşmənin vacibliyini sözdə etiraf edir, digər tərəfdənsə demokratiyanın «ziyanları» ilə bağlı ciddi ittihamlar irəli sürür və əməli fəaliyyətlərində demokratiyaya qarşı çıxırlar. Demokratiyanın qüsurları ilə bağlı ilk fikirlər elə demokratiyanın tərəfdarları tərəfindən səsləndirilib. Amma demokratiyanın düşmənlərindən fərqli olaraq bu fikirlər demokratiyanı təkmilləşdirmək, inkişaf etdirmək yanğısından doğub. Demokratiyanı tənqid edən çox geniş yayılmış deyimlərdən birini – «Demokratiya ən təkmil idarəetmə vasitəsi deyil, amma bəşəriyyət

hələ ki, bundan yaxşısını kəşf etməyib» deyimini – neototalitarizmin tərəfdarları «demokratiya ən təkmil idarəetmə vasitəsi deyil» kimi təbliğ edir və buna görə də «başqa idarəetmə daha yaxşıdır» məntiqi ilə neototalitar cəmiyyətlər yaratmağa cəhd edirlər. Demokratiyanın düşmənləri demokratiyanın çatışmazlıqları və demokratikləşmədə meydana çıxan qüsurları məhz demokratiyanı məhv etmək üçün məqsədli şəkildə qabardır və təcrübədə də bundan istifadə etməyə cəhd edirlər.

Təhlil etdiyimiz strategiyaya həsr olunmuş məqalədə deyilir: «Demokratiya xətti Azərbaycan dövlətçiliyinin inkişafının əsas vektoru və milli inkişaf strategiyasının həlledici amilidir». Amma bundan dərhal sonra Qərbin Azərbaycanın demokratikləşməsi ilə bağlı təkliflərinə cavab olaraq yazılır: «Qərbin özünün qanlı yüzilliklər boyu keçdiyi xalqın idarə edilməsi yolu ilə bütün dünyanın getməsini tələb etməsi onun tərəfindən təkəbbürün zirvəsi olardı. Bəlkə də biz liberal demokratiyanı yeganə «həqiqi inam» hesab edirik. Lakin rusiyalıların və çinlilərin əksəriyyəti bu gün həmin fikrə çətin ki, şərik olarlar. Bir sıra başqa ölkələrin vətəndaşları kimi onlar da birinci sıraya təhlükəsizlik və maddi rifah məsələsini qoyurlar».

Haşiyə: Demokratikləşmə tarixində bir çox hallarda qan tökülməsi faktlarını məhz demokratiya ilə əlaqələndirmək neototalitarizmin ideoloqları üçün xarakterikdir. Onlar adi demokratik proseduralarda – seçkilərdə, mitinqlərdə xüsusi hazırlanmış illeqal qrupların əli ilə təxribat törədərək insanların qanını axıdır, sonra da bunu bəhanə edib bu prosedurları məhdudlaşdırmağa cəhd edirlər. Halbuki, demokratiya insansevərliyə əsaslandığından, birmənalı şəkildə qan tökülməsini istisna edir. Onun yolunda tökülən qanları isə demokratikləşməyə müqavimət göstərən düşmənləri tökürlər. Bu baxımdan demokratiyanın qan tökməklə heç bir əlaqəsi yoxdur. Birincisi, «qanlı yüzilliklər boyu» demokratiyanı müstəqillik hərəkatları, irqçilikdən, şovinizmdən, əsarətdən, köləlikdən, istismardan xilas olmaq üçün xalqların apardıqları mübarizələri izlədiyindən təbii olaraq qarşıdurmalar olmuş və qan tökülmüşdür. Məsələ burasındadır ki, dünyanın heç bir xalqı yalnız abstrakt demokratiya üçün qan tökməyib. Çünki qan tökməklə demokratiyaya

nail olmaq mümkün deyil. Bir qayda olaraq, insanlar fərdi, insani, milli və dövlət maraqlarını qoruyarkən tədricən həm də demokratiyaya nail olublar. Qanlı yüzillikləri demokratiya ilə əlaqələndirib ondan imtina etsək, onda gərək müstəqillikdən də imtina edək. Çünki müstəqillik ideyası demokratiyadan fərqli olaraq heç vaxt, heç yerdə qansız ötüşməyib. Köləlikdən və əsarətdən, istismardan və ayrı-seçkilikdən də azad olmaq qanla müşayət olunub. Onda gərək köləliyə, istismara, əsarətə haqq qazandıraq. İkincisi, Qərb istəsə də dünya onun yolunu keçə bilməz. Çünki hər bir xalq özünəməxsus tarixi yolla irəliləyir. Qərbin keçdiyi yol da yalnız ona məxsusdur və bu yol Qərb tarixindən keçərək bu günə gəlib çıxıb. Digər tərəfdən, Qərbin tarixində baş vermiş hadisələrin əksəriyyəti dünyanın başqa yerində baş vermir. Eyni tarixi hadisələri yaşamayan xalqlar eyni yolu keçə bilməz. Qərb öz tarixi yolunu yox, özünün əldə etdiyi nailiyyətlərin yolunu dünyaya təklif edir, hansı ki, bu yol rifah, sülh və əməkdaşlığa gətirib çıxarır. Belə olan halda xalqlar nə üçün bu yolu seçməsinlər? Üçüncüsü, məlum məsələdir ki, Qərb ölkələri rifah və təhlükəsizlik məsələlərində Rusiya və Çindən müqayisə olunmaz dərəcədə qabaqdadır. Çinin və Rusiyanın geridə qalmasının səbəbi isə liberal dəyərlərə arxa çevirmələridir. Bu baxımdan, guya «rifah və təhlükəsizliyi liberal dəyərlərdən birinci yerə qoymaqla» bu ölkələrin düz yol seçməsi ilə bağlı tezisin heç bir elmi əsası yoxdur. Rusiya və Çini nümunə gətirib demokratiyadan üz çevirmək əslində bu ölkələrin getdiyi yolla – totalitarizm yolu ilə getmək niyyətlərindən xəbər verir.

Bir tərəfdən demokratiyanı dövlətin inkişafının əsas vektoru hesab etmək, digər tərəfdən «təhlükəsizlik və maddi rifah məsələsini birinci sıraya qoyan ruslara və çinlilərə» haqq qazandırmaq və guya demokratiyanın qüsurlarını əsas götürüb demokratiyadan imtina ilk növbədə neototalitar cəmiyyətlərin liderlərinin siyasi dissonans vəziyyətindən xəbər verir.

Haşiyə: Qeyd edim ki, neototalitar cəmiyyətlərin liderlərinin hamısı üçün siyasi dissonans vəziyyəti xarakterikdir. Belarusda Lukaşenko, Türkmənistanda Berdımuhəmmədov, Özbəkstanda Kərimov, Rusiyada Medvedev özlərinin antidemokratik mövqelərini

məhz xalqların rifah və təhlükəsizliyi ilə əlaqələndirərək Qərbdən üz döndərmişlər. Ümumiyyətlə, müasir dünyada səhv tendensiyaların biri də Qərblə demokratiya arasında bərəbərlik işarəsi qoymaqdır. Başqa sözlə, demokratiyanın məhz Qərblə bağlanması səhvdir. Xüsusi ilə qeyd etmək lazımdır ki, qeyri Qərb ölkələrinin demokratikləşməsini istəməyən bəzi Qərb «demokratları» da demokratiyanı Qərbin, xüsusən, xristian mədəniyyətinin nailiyyəti hesab edir, başqa mədəniyyətə aid xalqların demokratiyaya yad olması ilə bağlı yanlış mühakimələr irəli sürürlər. Düzdür, etiraf etməliyik ki, Qərb demokratiyadan ən səmərəli və erkən istifadə edən geosiyasi məkandır. Amma demokratik baxışlar Qərbdən çox-çox əvvəllər müqəddəs kitablarda, qədim Şərq filosoflarının əsərlərində, o cümlədən, əksər dünya xalqlarının empirik fəlsəfəsində öz əksini tapıb. Demokratiyanın kökləri təbiətə və ilahi ədalətə gedib çıxır. Psixoloq Leon Festinger «Dissonans nəzəriyyəsinə giriş» adlı əsərində dissonans vəziyyətini yaradan amillərə keçmişin təcrübəsini, məntiqi qeyri-ardıcıllığı və mədəniyyət normalarını göstərir. Qeyd etmək lazımdır ki, neototalitar cəmiyyətlərin keçmiş təcrübəsi əsasən klassik totalitarizm təcrübəsindən ibarətdir. Bununla yanaşı bu cəmiyyətlərdə hakim «mədəni» normalar daha çox patriarxal normalara yaxındır. Məhz buradan da siyasi dissonans yaranır. Siyasi dissonans – eyni bir siyasi qüvvənin şüurunda demokratiyanın qəbul edilməsinin zəruriliyi ilə əməldə ondan imtina etmənin eyni vaxtda meydana çıxmasının təzahürüdür. Neototalitar cəmiyyətlərin liderlərinin liberal demokratiyanı yeganə həqiqi inam hesab etməsi yalnız dırnaq içində həqiqətdir. Əsl həqiqətdə isə neototalitarizm tərəfdarları demokratiyanın ziyanlı olması barədə çoxsaylı «müddəalar»a və bu müddəalarının düzlüyünü sübut edəcək dünya təcrübəsindən «təkzibedilməz faktlar»a əsaslanırlar. Geniş şərh verməmişdən qabaq ümumi şəkildə demokratiyanın ziyanlı nəticələrə səbəb olduğunu iddia edənlərə Hayekin adı çəkilən əsərində yazdığı aşağıdakı fikirlərlə cavab vermək kifayət edər. O, yazır: «Bizim dövrün bütün bəlalarını demokratiyanın adına yazan konservatorlar səhv edirlər. Heç nə ilə məhdudlaşdırılmayan hakimiyyətdən pis heç nə yoxdur. Kiçik bir elitanın əlində olan müasir tiraniya daha dözülməzdir». Əslində

bu günədək dünyanın heç bir mütəfəkkirinin sübut etməyə cəhd etmədiyi və ya edə bilmədiyi demokratiyanın əleyhinə heç bir məntiqi arqument yoxdur. Ən azı ona görə ki, demokratiyanın əleyhinə getmək - xalqın əleyhinə getməkdən, milyonların iradəsini gözardı etməkdən, yalnız öz maraqlarını müdafiə etməkdən başqa bir şey ifadə etmir.

Demokratiya digər bütün dövlət formalarından onunla fərqlənir ki, yalnız demokratiyada dövlətlə vətəndaş effektli şəkildə qarşılıqlı tanınma vəziyyətində olurlar. Hegelin dediyi kimi, «Dövlətlə insanlar bir-birini qarşılıqlı tanımalıdırlar. Başqa sözlə, dövlət vətəndaşın hüququna təminat verəndə və vətəndaş dövlətin qanunlarına tabe olanda qarşılıqlı tanınma yaranır». Demokratiya insan hüquq və azadlıqlarının yeganə mənbəyi olduğundan, onun əleyhinə çıxan iqtidarlar vətəndaşları dövlətin qanunlarına yalnız zorakı metodlarla tabe etdirməyə cəhd edirlər. Buradan da neototalitar cəmiyyətlərdə polis rejiminə zərurət yaranır. Dünya təcrübəsində vətəndaş müharibələrindən, terrorizmdən, siyasi çaxnaşmalardan əziyyət çəkən bütün rejimlərdə, o cümlədən müasir totalitar cəmiyyətlərdə vətəndaşların hüquqa nihilist münasibətini məhz hakimiyyətlərin demokratiyaya münasibəti şərtləndirmişdir. Hələ bizdən çox-çox qabaq Hegel deyirdi ki, «Etiraf edilmə siyasətin mərkəzi problemidir, ona görə də etiraf edilməmə tiraniya, imperializm, azad seçkilərdə uduzmaq qorxusu demokratiyaya müqaviməti stimullaşdırır». Bu gün demokratiyanın əleyhinə işləyən başlıca amil demokratiyanın əleyhdarı olanların hamısının azad, bərabər, ədalətli seçkilərdə rəqabətə davamlı olmamalarını dərk etmələri ilə bağlıdır.

Haşiyə: Demokratiyanın əleyhinə istifadə edilən arqumentlərin bir qrupu da demokratik prosedurların qeyri-təkmilliyi ilə bağlıdır. Məsələ burasındadır ki, istənilən sosial nəzəriyyə təcrübəyə tətbiq edildikdə deformasiyaya məruz qalır. Demokratiya da istisnalıq təşkil etmir. Amma neototalitarizmin tərəfdarları nəzəriyyə ilə praktikanın fərqindən yaranan hallardan nəzəriyyənin əleyhinə istifadə edirlər. Halbuki, demokratiya tərəfdarları praktikanın təkmilləşdirilməsi yolu tuturlar. «Xalq seçməyi bacarmır» adı altında neototalitar cəmiyyətlər ya seçkidən imtina edir, ya da seçkilərə formal

proses kimi baxırlar. Halbuki, seçki demokratiyanın canıdır, seçkisiz demokratiya olmur. Dünyanın heç bir ölkəsində, heç bir tarixi dövrdə seçkisiz demokratiya müşahidə olunmayıb. Müasir qlobal dünyada hakimiyyətin antikonstitusion yollarla, qeyri-zorakı əldə edilməsinin ən populyar, geniş yayılmış vasitələrindən biri seçki saxtakarlığıdır. Seçki saxtakarlığı ilə hakimiyyətin uzurpasiyasına həm ölkə daxilində, həm də xaricdə dövlət çevrilişlərindən fərqli olaraq daha tolerant yanaşıldığından, bir qayda olaraq neototalitar rejimlərdə saxta seçkilərlə hakimiyyəti əldə saxlamaq geniş şəkildə təcrübədən keçirilir. Seçki saxtakarlığına tolerant münasibətin yaranması bir çox hallarda seçkinin qeyri-təkmilliyi, seçki texnikasının zəifliyi, seçicilərin passivliyi, texniki səhvlər və s. əsaslarla bağlıdır. Digər tərəfdən, seçki saxtakarlığının araşdırılması adı altında uzunmüddətli davam edən proseslərlə saxtakarlığa isti-isti obyektiv münasibətin meydana çıxmasına imkan verilmir. Seçki saxtakarlığından dərhal sonra növbəti seçkilərin daha təkmil keçiriləcəyi ilə bağlı bəyanatlar verilərək, narazı tərəflər sakitləşdirilir. Qeyd etdik ki, neototalitar cəmiyyətlərdə demokratiyanın əsas proseduru olan seçkilərə münasibət xüsusi ilə fərqlənir. Bir tərəfdən, neototalitar ölkələrdə iqtidarlar seçkili orqanların sayını, digər tərəfdən, seçkidən kənar hakimiyyət müddətinin uzadılması ilə seçkilərin periodikliyini azaldır, bəzənsə ömürlük prezidentlik institutu yaratmaqla ümumiyyətlə seçkiləri ləğv edirlər. Üçüncü tərəfdən, ən müxtəlif yollarla seçkiləri elə total saxtalaşdırırlar ki, vətəndaşlarda seçkidə iştirak marağı tamamilə sönür. Bu istiqamətdə öncə qanunvericilik bazasının məqsədyönlü şəkildə standartlara uyğun yaradılmaması, qanunlarda manevr etməyə imkan verən boşluqların olması, Seçki Məcəlləsi ilə digər qanunlar arasında ziddiyətlər yaradılması, seçkinin nəticələrinin qiymətləndirilməsində ictimai, beynəlxalq və məhkəmə nəzarətinin minimuma endirilməsi və s. kimi manipulyasiyalar edilir. Neototalitar cəmiyyətlərdə seçkilərin təşkili bir qayda olaraq hakimiyyətin total nəzarəti altında və onun tərəfindən həyata keçirilir və seçki prosesi müxtəlif adlar altında polisin müdaxiləsi ilə təşkil olunur. Seçki prosesinə icra strukturları, hüqüq mühafizə orqanları, xüsusi qoçu dəstələri açıq müdaxilə edir. Höku-

mət qabaqcadan qalib gəlmək şansı böyük olan tərəf müqabillərini müxtəlif adlar altında seçkiyə buraxmır, bununla da azad seçkilərdən imtina edilir. Seçki siyahıları tərtib edilərkən qabaqcadan əks tərəfin elektoratı müəyyən edilərək seçici siyahılarına salınmır, əksinə, seçici siyahılarına çoxlu sayda «ölü» canlar - mövcud olmayan adlar daxil edilir. Vətəndaşların seçkilərlə bağlı maarifləndirilməsi düşünülmüş şəkildə, lazımi səviyyədə qurulmur. Seçkiqabağı şəraitdə təbliğat imkanları, təşviqat və təşkilati işlərdən tərəf müqabillərinə ciddi problemlər yaradılır. Xüsusən opponentlərin resursları məhdudlaşdırılır. Seçkinin saxtalaşdırılmasının birinci mərhələsi seçki prosesində həyata keçirilir. Belə ki, «karusel əməliyyatı» ilə bir adam dəfələrlə seçki hüququndan istifadə edir. Komissiya üzvləri qabaqcadan hazırlanmış bülletenləri seçki qutusuna atır, yaxud da seçki məntəqələrində seçki günü hər hansı bir namizədin xeyrinə açıq təbliğat aparılır. Dövlət müəssisələrində qabaqcadan seçicilərə təzyiq edilərək konkret şəxslərə səs verilməsi tələb edilir. Seçki qurtardıqdan sonra səslərin sayılması prosesində bir şəxsin adına səs verilmiş bülletenlər başqasının adına yazılır və ya həmin bülletenlər qeyri-qanuni olaraq etibarsız elan edilir. Seçki məntəqələrindən əldə edilən nəticələr arzu edilən olmadıqda Dariə Seçki Komissiyasında Seçki Məntəqəsinin protkolları dəyişdirilir. Əgər Dairə Seçki Komissiyasının protokolu arzu edilən deyilsə, onda Mərkəzi Seçki Komissiyası ya həmin protokolu dəyişdirtdirir, ya həmin dairədə müxtəlif qeyri-qanuni əsaslarla təkrar seçki təyin edir, ya da istədiyi şəxsin qalib gəldiyini elan edir. Ölkə məhkəmələri Seçki Məcəlləsinə və qanunlara uyğun seçki saxtakarlığını obyektiv araşdırmır və pozulmuş hüquqlar bərpa edilmir. Bir qayda olaraq, seçki saxtakarlığına əl atmış insanlar qabaqcadan əfv edilir. Beləliklə, göründüyü kimi, seçki saxtakarlığı elmi metodoloji prinsiplərlə çoxmərtəbəli proses kimi həyata keçirilir. Başqa sözlə, saxtakarlıq eyni səviyyədə, eyni vaxtda baş vermir. Müxtəlif vaxtda və müxtəlif mərhələdə baş verən saxtakarlıq isə vahid proses təəssüratı yaratmır və saxtakarlığın nisbi azaldılması təsəvvürü yaradır. Nəticədə ölkə və beynəlxalq ictimaiyyətin reaksiyası da buna uyğun zəifləyir. Saxtakarlığın bu cür mərhələli aparılması həm də saxtakarlığın nəticələrinə qarşı müba-

rizənin effektliliyinə təsir edir. Belə ki, hər bir mərhələdə müxtəlif vaxtlarda saxtakarlığa məruz qalanlar öz səylərini birləşdirə bilmirlər. İlkin mərhələlərdə saxtakarlığa məruz qalanlardan fərqli olaraq belə saxtakarlığa məruz qalmayanlar həmin mərhələdən razılıqlarını ifadə edirlər. Artıq sonrakı mərhələlərdə özləri saxtakarlığa məruz qaldıqda isə, ilkin mərhələdə saxtakarlığa məruz qalanlar tərəfindən dəstəklənmir. Totalitar və neototalitar cəmiyyətlərdə seçki saxtakarlıqlarından geniş istifadə edilməsinə və bütünlükdə demokratiyanın boğulmasına hər şeydən əvvəl istər ölkə qanunlarında, istərsə də beynəlxalq hüquqda bu kimi halların həqiqi hüquqi qiymətinin müəyyən edilməməsi səbəb olur. Seçki saxtakarlığına yol vermiş hakimiyyətlə beynəlxalq güclərin sıx əməkdaşlıq etməsi də ölkə daxilində seçki saxtakarlığına qarşı mübarizəni zəiflədir və effektliliyini azaldır.

Yuxarıda qeyd etdiyim kimi, demokratiyanın əleyhinə az-çox məntiqi görünən bütün iddialar məhfumun olduqca dar anlamda hissəvi dərk edilməsi ilə bağlıdır. Bir çoxları demokratiyanı yalnız hakimiyyət uğrunda mübarizə və ya yalnız dövlət forması kimi və ya hər hansı bir sistemdən başqa sistemə keçidin yolu kimi qəbul edirlər. Lakin demokratiyanın məhz «insanın insan kimi təbii-sosial mövcud olma vəziyyəti» kimi qəbul edilməsi vacibliyinə diqqət etmirlər. Başqa sözlə, demokratiya yalnız istənilən gücün hakimiyyət uğrunda mübarizə vasitəsi deyil, əksinə, ən yaxşıların hakimiyyətə gəlməsi üçün tələb olunan ictimai-siyasi şəraitin yaradılması uğrunda mübarizədir. Buna görə də demokratiya bir tərəfdən insanlardan yaxşı olmağı, digər tərəfdən ən yaxşı şəraitin yaradılmasında iştirakını tələb edir. Məhz bu baxımdan demokratiya yalnız siyasi partiyaların və ya hakimiyyət uğrunda mübarizə aparan ictimai güclərin yox, bütün cəmiyyətin, o cümlədən hər bir vətəndaşın, ilk növbədə hakimiyyətdəkilərin onun uğrunda mübarizə aparmasını tələb edir. Demokratiya cəmiyyət üçün o qədər əhəmiyyətlidir ki, bir qayda olaraq hakimiyyətdəkilərin demokratiyanı genişləndirməsi çox vaxt onların hakimiyyətdən getməsi ilə nəticələnsə də bu, həqiqi demokratiya tərəfdarlarını demokratikləşmədə iştirakdan çəkindirmir. Əgər demokratiya ən yaxşıların hakimiyyətə gəlməsini müəyyən

edirsə, onda heç kəs özünün yaxşı olub-olmamasını xalqdan daha dəqiq müəyyən edə bilməz. Məhz buna görə də ədalətli seçkilər demokratiyanın əsasını təşkil edir. Hakimiyyət uğrunda mübarizə başqalarından yaxşı olmaq uğrunda mübarizə kimi meydana çıxdığından demokratiya kamilləşmənin başlıca stimuluna çevrilir. Kamil insan isə heç vaxt özünün üstünlüyünü özü iddia etməz. Ona görə də demokratiyanın əleyhinə getmək ilk növbədə yalnız özünü başqalarından üstün tutmaqla müstəsna olaraq hakimiyyət daşıyıcısı kimi dərk etməklə bağlıdır. Halbuki Hegelin yazdığı kimi: «Demokratiya – vətəndaşların istisnasız olaraq siyasi hakimiyyətin daşıyıcısı olması deməkdir». Lakin bundan fərqli olaraq neototalitar quruluşlarda vətəndaşların istisnasız olaraq hakimiyyət daşıyıcısı olması qəbul edilmir. Əksinə, bir şəxs, bir ailə və ya tayfa ilahiləşdirilir və hakimiyyət daşıyıcısı kimi alternativsizlik obrazı yaradılır.

Demokratiya yeganə şəraitdir ki, hakimiyyətin legitimliyi vətəndaş tərəfindən müəyyən edilir. Hansı ki, Ali suveren kimi çıxış etmək üçün legitimlik vacib şərtdir. Ali suverenliyin kimə məxsus olması cəmiyyətin tipi, dövlətin forması ilə sıx bağlıdır. Belə ki, teokratik rejimlərdə ali suveren - Allah, monarxiyalarda - monarx, demokratiyada - xalq, liberalizmdə - pozitiv insani keyfiyyətlərin daşıyıcısı olan kamil şəxsiyyətdir. Bu mənada demokratiyanın əleyhinə çıxmaq xalqa məxsus Ali suverenliyi mənimsəməkdir. Hansı ki, istənilən dövlət formasında suverenliyin hər hansı bir şəkildə mənimsənilməsi cinayətdir. Demokratiyada xalqa məxsus suverenliyi yalnız onun razılığı ilə təmsil etmək mümkündür. Onun razılığı isə ilk növbədə onun bu razılığı ifadə etməsi üçün hüquq və azadlıqlara malik olmasını tələb edir. Məhz iqtidarların vətəndaşların hüquq və azadlıqlarını qoruması da bu mənada legitimliyin yeganə mənbəyinə çevirir. Hegel də dövlət legitimliyini elə bu cür təyin edir. Ona görədə «dövlət legitimliyinin yeganə mənbəyi onun fərdlərinin insan kimi istifadə etdiyi hüquqları qorumaq və mühafizə etmək qabiliyyətidir». Təbii ki, belə qabiliyyəti olmayan və bunu istəməyən heç bir hakimiyyət legitim ola bilməz və demokratiyanın əleyhinə çıxış etməyə məcburdur. Göründüyü kimi, demokratiyanın əleyhinə getmək ilk növbədə hakimiyyətlərin özünü legitimsizləşdirir.

Demokratiyaya keçid ölkələrində antidemokratik rejimlər legitimlik problemini seçkilərin nəticələrini saxtalaşdırmaqla ört-basdır etməyə cəhd edirlər. Yalnız həqiqi demokratik hakimiyyətlər xalqın razılığı ilə ona məxsus suverenliyi həyata keçirdiklərindən xalq qarşısında hesabatlıdırlar və təbii olaraq xalqa hesabatlı olmaq istəməyənlər ardıcıl olaraq demokratiyanın əlehdarları kimi çıxış edirlər. Xalqa hesabatlılıq yalnız hakimiyyətin mənbəyi ilə yox, həm də onun həyata keçirilməsi ilə ciddi şəkildə bağlıdır. Belə ki, hesabatsızlıq hakimiyyətdən sui-istifadənin başlıca səbəblərindəndir. Belə rejimlərdə korrupsiyanın çiçəklənməsi, kriminallaşmanın intensivləşməsi, milli maraqların fərdi maraqlara tabe etdirilməsi adi haldır. Özünü demokratiya ilə pərdələmək istəyən bəzi rejimlərdə siyasi demoqogiya dövlət siyasətinə çevrilir. Sabitlik – istənilən rəqabəti inkar edən vəziyyət kimi tətbiq edilən sabitlik – qəbirstanlıq sakitliyi ilə əvəzlənir. Bu baxımdan F.Fukuyama ilə tamamilə razıyam ki, «demokratiyanın qüsurları həmişə göstərir ki, onlar mədəni və iqtisadi mühitlə bağlı baş verən hadisələrlə heç bir vəchlə əlaqədə deyil. Çox vaxt ayrı-ayrı siyasətçilərin səhv qərarları ilə bağlıdır». Şəxslərin səhvlərini demokratiyanın adına yazmaq isə yalnız demokratiyanın düşmənləri üçün xarakterikdir.

Neototalitar cəmiyyətlərin fəxr etdiyi başlıca nailiyyət bu ölkələrdə əldə edilmiş «sabitlikdir». Bu cəmiyyətlərdə sabitlik istənilən sferadakı inkişafın az qala yeganə mənbəyi kimi təqdim edilir və məhz demokratiyanın əleyhinə əsas arqument kimi sabitliyin təmin edilməsi zərurəti göstərilir. Təhlil etdiyimiz strategiyanın əsas paradiqmalarindan biri məhz «sabitlikdən modernləşməyə doğru» kimi müəyyən edilib və bu paradiqma belə əsaslandırılır ki, «sabitlik olmayan şəraitdə demokratiya və vətəndaş cəmiyyəti barəsində hər hansı söhbətlərin mənası yoxdur… sabit siyasi struktur olmadan milli demokratik tranzitin müəyyən edici amillərinin sabit iqtisadi sisteminin olmasını təsəvvür etmək mümkün deyil...

Demokratik prosedurların inkişafının dəyəri istər hüquqi qaydaya, istər bu qədər çətinliklər bahasına əldə edilmiş sabitliyə, istərsə də ölkədə həyata keçirilən iqtisadi xəttin davamlılığına zidd olmamalıdır».

Haşiyə: Neototalitar cəmiyyətlərin ideoloqlarının demokratiyanın əleyhinə uydurma arqumentlərindən biri də «demokratiyanın sabitliklə uyuşmamasıdır». Onlar demokratik prosedurlara gizli və qeyri-qanuni yollarla müdaxilə edərək təxribatlar törədir, asayişi pozur, sonra öz əməllərini demokratiyanın adına bağlayırlar. Unutmaq olmaz ki, Qərbin II Dünya müharibəsindən sonrakı tarixi göstərir ki, sabitliyin həqiqi qarantı demokratiya, demokratiyanın inkişafının yeganə səbəbi sabitlikdir. Amma heç bir neototalitar cəmiyyətdə «sabitlik» olmasına baxmayaraq, demokratiyadan əsər-əlamət yoxdur. Buradan yeganə bir məntiqi nəticə çıxır: Heç bir neototalitar cəmiyyətdə həqiqi sabitlik yoxdur. Qeyd etmək lazımdır ki, neototalitar cəmiyyətin yaradıcıları asayişin pozulmasını, siyasi aktivliyi, konfliktli situasiyaları destabilizasiya kimi təqdim edir və bunlar olmasın deyə kütləvi şəkildə insan hüquq və azadlıqlarını boğmaqla - sakitliyə nail olur və bunu da sabitlik kimi qələmə verirlər. Halbuki, sabitliyin pozulması belə, demokratiyadan imtinaya əsas vermir. Neototalitar cəmiyyətlərdə «sabitlik» termini ya başqa oxşar anlayışlarla eyni mənalı işlədilir ya da onun hissəvi anlamında qəbul edilir. Nümunə kimi təhlil etdiyimiz strategiyada sabitlik - demokratiyanın sabitliyi və ya sabit demokratiya anlayışı ilə qarışdırılır. Mütəfəkkirlərin və elmi tədqiqatçıların sabitlik kimi qəbul etdiyi anlam demokratik sabitlik və ya demokratiyanın sabitliyidir. Amma unutmaq olmaz ki, demokratiyanın sabitliyi üçün əvvəlcə demokratiyanın özü olmalıdır, demokratik sabitlik isə yalnız demokratik yolla əldə edildikdə meydana çıxır. Strategiyada S.M.Lipsetin belə bir fikrinə istinad edilir ki, «millət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları bir o qədər yüksəkdir». Burada iki mühüm məqama diqqət etmək lazımdır. Birincisi, Lipset ayrı-ayrı fərdlərin, qrupların yox, bir tam kimi millətin varlı olmasını, ikincisi bu varlılığın ictimai sakitliyi yox, demokratiyanın sabitlik şansını artırdığını nəzərdə tutur. Bundan fərqli olaraq, cəmiyyətdə ayrı-ayrı adamlar və qruplar nə qədər çox varlanırlarsa, onların cəmiyyəti zorakılıqla sakitlikdə saxlamaq şansları artır və belə cəmiyyətlər neototalitarizmə yuvarlanırlar. Neototalitar cəmiyyətlərdə də demokratiyaya keçid baş verməyibsə, onda bu cəmiyyətlərdəki

«sabitliyi» demokratiyanın sabitliyi kimi təqdim etmək mümkün deyil.

Strategiyada Azərbaycanın gələcək inkişafının xətti modeli belə təqdim edilir. Güclü dövlət – sabitlik – iqtisadi inkişaf – demokratikləşmə. Beləliklə, iqtidarın strategiyasında sabitlik iqtisadi və siyasi inkişafın başlıca şərti kimi qəbul edildiyindən ona öncəlik – prioritetlik verilir. Strategiyada sabitliklə bağlı deyilir: «Sabitlik olmayan şəraitdə demokratiya və vətəndaş cəmiyyəti barədə hər hansı söhbətlərin mənası yoxdur. Sabitlik olmayan Aristotelin dediyi «dövlət vətəndaşların xoşbəxt yaşamaları üçün yaradılmışdır» həqiqətini vətəndaşların başa düşmədiyi ölkədə hüquq bərabərliyinə və şəffaflığa istiqamətlənmiş ictimai şüur formalaşdırmaq çətin məsələdir.

Haşiyə: Neototalitar cəmiyyətlərdə «sabitlik» anlayışının necə anlanılması mühüm əhəmiyyət kəsb edir. Sabitlik termini bir sıra terminlərlə yanaşı konfliktologiyanın terminoloji bazasına daxildir və elmi anlayış olmaq baxımından universal təyin olunandır. Başqa sözlə, sabitlik hər hansı bir qrupun, gücün ayrı-ayrı yozumları ilə yox, məhz universal məna ilə mənimsənilməlidir. Bunun əksinə, bu anlayışın istənilən qeyri-elmi müstəqil interpretasiyası və ya onun hissəvi anlamı sabitlik adı altında ən mənfi proseslərə haqq qazandırır. Bu baxımdan həqiqi sabitlik haqqında yalnız onun total-radikal anlamını mənimsəməklə dəqiq təsəvvür yaranır. Sabitliyin hissəvi anlamı özündə cəmiyyətdəki sakitlik, durğunluq, apolitik vəziyyətləri və ya ictimai güclərin təzyiq altında susdurulmasını ifadə edir. Ç.Rubin, D.Pryut, S.H.Kim birlikdə yazdıqları «Sosial konfliktlər» adlı kitablarında sabitliyin üç mənbəyini göstərirlər: Sərt siyasət tətbiqindən imtina etməyə hazır olmaq, konfliktlərin həlli üsullarını hazırlamaq, təxribatlara qeyri-kəskin reaksiya. Müasir neototalitar cəmiyyətlərin siyasi təcrübəsində göstərilən bu mənbələrin heç biri mövcud deyil. Əksinə, neototalitar cəmiyyətlərin iqtidar nümayəndələrinin mütəmadi olaraq sərt siyasət tətbiq etməyə hazır olduqlarını bəyan etmələri, konfliktlərin həlli üsullarını hazırlamaq əvəzinə digər tərəfi susdurmaq, onları təzyiq altında saxlamaq cəhdi və nəhayət nəinki real təxribatlara, hətta təxribat adı altında istənilən demokratik aksiyalara kəskin reaksiya verməsi onu göstərir ki, elmi

mənada bu ölkələrdə heç bir sabitlik mövcud deyil. Əslində konfliktologiya elmi sabitliyin lehinə ciddi elmi arqumentlər göstərmir. Neototalitar cəmiyyətlərdə sabitlik yaradılması adı altında cəmiyyətdə mövcud qüvvələr arasında konfliktlərin mexaniki yolla dəf edilməsi həyata keçirilir. Belə ki, konfliktologiya elmi konfliktləri sosial psixologiyanın hərəkətverici gücü kimi qəbul etdiyindən stabillik konfliktlərin aradan qaldırması kimi yox, onu yaradan səbəblərin aradan qaldırılması, yəni problemlərin həlli kimi qəbul edilməlidir. Problemlərin həlli – konfliktlərin idarə edilməsinin elə strategiyasıdır ki, burada məqsəd - konfliktdə olan tərəflərin hər biri üçün qəbul hesab edilən razılaşmaya nail olmaqdır. Halbuki, təcrübədə neototalitar rejimlərin iqtidarları sabitliyi yalnız problemləri özlərinin razılaşdığı formada həll kimi anlayır. Konfliktlərin həllində təzyiq, güc tətbiqi, repressiya, nüfuzdan salma, məcburetmə, məhdudlaşdırma cəmiyyətdə yalnız bir tərəfin digər tərəfdən asılılığını yaratmağa gətirib çıxarır ki, bu da cəmiyyət həyatı üçün potensial təhlükə, ictimai inkişafın durğunluğa keçməsinə, sonra isə geriyə hərəkətinə səbəb olur. Məhz demokratiyadan imtina və neototalitarizmə keçid bu cür geriyə hərəkətin təzahürü kimi meydana çıxır. Konfliktlər ictimai inkişafda mühüm rol oynadığından və onlar vətəndaşların qanuni maraqlarının reallaşdırılmasına kömək etdiyindən, konfliktlərin həlli son nəticədə ictimai inkişafa, insanların maraqlarının təmin olunmasına və hüquqlarının qorunmasına gətirib çıxarır. Bu da cəmiyyətdə stabilliyə səbəb olur. Əksinə, insan hüquqlarını pozmaq və vətəndaşların maraqlarını, o cümlədən hakimiyyətə gəlmək maraqlarını tapdalamaqla konfliktlər həll olunmur, əksinə, eskalasiya olunur. Eskalasiya olunmuş konfliktlər potensial gərginliyə və proqnozlaşdırılması mümkün olmayan təhlükələrə aparır. Avropada - bir müddət öncə Fransada, Yunanıstanda baş verən ixtişaşlar məhz ictimai gərginliyin toplanmasının nəticəsində meydana çıxmışdır. Konfliktlər ictimai inkişafa xidmət etməsinə görə konstruktiv və destruktiv formalarda olur. Neototalitar cəmiyyətlərdə yaradılan total sabitlik hər iki konflikti eyni vaxtda sıradan çıxır. Bu da inkişafda durğunluğa səbəb olur. Məhz vaxtilə SSRİ-nin dağılmasının köklü səbəbi uzun illər total sabitliyin təmin edilməsi olmuşdur. Kons-

truktiv konfliktlərdən fərqli olaraq destruktiv konfliktlər xaosa apardığından yalnız belə konfliktlərin boğulması nəticəsində yaranan sabitlik ictimai əhəmiyyət kəsb edir. Stabilliyə oxşar sakitlik isə bir şəxsin və ya qrupun digərləri üzərinə qoymaqla, normativ razılaşmanı – qanun və konstitusiyanı pozur, informasiya qıtlığı yaratmağı tələb edir, fiziki və psixoloji seqreqasiya – «parçala, hökm et!» prinsipini şərtləndirir. Əks tərəflərlə öz arasında fiziki və sosial sədlər qaldırmaqla, hər hansı bir formada əks tərəflə ünsiyyətdən qaçmaqla həqiqi sabitlik yaranmır. Adətən, bu cür üsullar konfliktli vəziyyətdə durğunluq yaradır və konfliktologiya elmi sübut etmişdir ki, konfliktlərin uzun müddət təzyiq altında saxlanılması çox ciddi problemlər yaradır. Konfliktlərdən qaçma cəmiyyətdə həyata keçirilməsi nəzərdə tutulan islahatlarda müvəffəqiyyətsizliyə, düşünülməmiş qərarlar qəbul etməyə, anlaşılmaz və öncədən görünməsi mümkün olmayan halların yaranmasına səbəb olur. Sabitliyin təzyiq və repressiya yolu ilə əldə edilməsinə cəhd ilk növbədə onun məhsuldarlığını aşağı salır və çox vaxt konfliktlərin daha kəskin xarakter almasına səbəb olur. Hansı ki, keçid prosesində olan cəmiyyətlərdə inkişafın bütün vektorlarında problemlər yaradır. Belə yol yumşaq münasibətləri daha sərtlərlə, kiçikləri daha böyükləri ilə, az iştirakçılığı kütləvi iştirakçılıqla əvəzləməyə gətirib çıxarır. Qeyd etmək lazımdır ki, stabillik tərəflərin qarşılıqlı asılılığı ilə xətti xarakter daşımır və stabilliyin azalması konfliktlərin eskalasiyasına səbəb olmur. Məhz bu qanunauyğunluğa görə demokratik cəmiyyətlərdə stabilliyin zəifləməsi ciddi problemə çevrilmir. Qardaş Türkiyədə hər gün PKK terroru, radikal dini qruplaşmaların təxribatları, siyasi partiyaların iqtidar əleyhinə kütləvi çıxışları fövqündə Türkiyə hökumətinin olduqca yumşaq reaksiyası və bunun müqabilində ölkənin sürətlə inkişaf etməsi möhkəm stabilliyin heç bir xüsusi əhəmiyyət daşımadığını sübut edir. Bu baxımdan neototalitar cəmiyyətlərin stabilliyi iqtisadi və siyasi inkişafın başlıca şərti kimi qəbul etməsi də özünü doğrultmur və əksinə, bu ölkələrdə iqtisadi sahədə baş verən qüsurlar, demokratikləşmədə yaranan problemlər məhz total sabitliklə bağlıdır. Ölkədə inkişafa kömək edəcək stabilliyə nail olmaq üçün hər tərəfin razılaşdığı normaların qəbul olunması və hamının ona əməl etməsi

ictimai strukturların sayının artırılması, sosial əlaqələrin coğrafiyasını genişləndirmək üçün əks tərəflərlə əlaqəsi olanların vasitəsi ilə onlarla əlaqəyə girmək, hadisələrə loyallıq, opponentlərə güzəşt, aydın olmayan təhdid, yumşaq cəza tətbiq edilməlidir. Bu vəziyyətin xaosa gətirməməsi üçün mərkəzi hakimiyyətin güclənməsi və milli problemlərdə əks güclərlə əməkdaşlıq sahələrinin yaradılması zəruridir. Neototalitarizmin sabitlik anlayışı rəqabət şəraitinin aradan qaldırılmasına istiqamətlənib. Yuxarıda qeyd etdik ki, neototalitarlar azad seçkilərdə uduzacaqlarından qorxduqlarına görə azad rəqabətin hər hansı təzahürünə qarşı çıxırlar. Qərbin bu günkü iqtisadi inkişafının yeganə səbəbi rəqabət şəraiti yaradan insan hüquq və azadlıqlarının, başqa sözlə, demokratiyanın nailiyyətidir. Rəqabət hər şeydən öncə səhv yolda olan çoxluğun hakim olduğu cəmiyyətlərdə onları düz yola gətirən müxalifətin alternativ güc kimi çıxış etməsidir. Hayek rəqabətlə bağlı yazır: «Rəqabət – azlığın düzlüyünü sübut edən prosesdir, çoxluğun əvvəllər arzu eləmədiyi fəaliyyətlərə meyl etdirir». Beləliklə, demokratiya əleyhdarları məhz opponentin ondan düz yolda olduğunu bildiyindən və rəqabət prosesinin onları ifşa edəcəyindən qorxduqları üçün azad rəqabətdən – demokratik proseduralardan qaçırlar. XIX əsrin axırlarında Çar Rusiyasında islahatlar tərəfdarı kimi tanınan Pyotr Arkadiyeviç Stolipin 1911-ci il Çar Dövlət Dumasının sorğusuna cavab olaraq Dumadakı nitqində deyirdi: «Hakimiyyətdə olan qüvvələrin məsuliyyətdən qorxaraq qaçmalarından böyük günah yoxdur». Bu cəmiyyətlərdə rəqabətdən qaçış iqtisadi və siyasi monopoliyanın yaranmasının əsasında durur. Hakimiyyətlər ictimai həyatın bütün sahələrində monopoliya yaratmaqla formal demokratik institutları saxlayır, əvəzində faktiki neototalitar rejim yaradırlar. Ziddiyyətlər inkişafın mənbəyi olduğundan, bazar iqtisadiyyatı və demokratiya məhz azad rəqabət şəraitində ziddiyyətlərin inkişafını tələb edir. Azad rəqabət bir tərəfdən dövlətin hər hansı müdaxiləsini, o cümlədən, monopoliyanı istisna edir, digər tərəfdənsə belə rəqabətdə hər hansı sakitlik demokratiyanı məhv edir.

Rəqabət şəraitində zaman-zaman gərginliklərin yaranması qaçılmazdır. Amma inkişaf də məhz belə gərginlikdən meydana çıxır.

Ona görə də bu cür gərginliklərdən qaçmaq naminə demokratiyanın əleyhinə çıxmaq, son nəticədə inkişafın əleyhinə çıxmaqla nəticələnir. Hayek yazır: «Liberalizm öz prinsipləri ilə öz təbiətini onu doqmatik sistemə çevrilməyə imkan vermir. Burada birmənalı, birdəfəlik və həmişəlik müəyyən edilmiş norma və qaydalar yoxdur. Əsas prinsip odur ki, həyat fəaliyyətinin bu və ya başqa sahəsini təşkil edərkən biz cəmiyyətin spontan güclərinə maksimal istinad etməliyik və mümkün qədər az məcburetməyə əl atmalıyıq». Bu baxımdan «sabitlik» adı altında iqtisadi və siyasi rəqabətin boğulması iqtisadiyyatda monopoliya, siyasətdə avtoritarizmlə nəticələnir, hansı ki, demokratik sabitlikdən kənarda təmin edilmiş istənilən sabitlik bütün dövlətlərdə eyni nəticələr vermişdir. Nə üçün rəqabətin əleyhinə ağıllı arqument ola bilməz? Çünki cəmiyyətdə rəqabət yaşam uğrunda mübarizənin təzahürüdür. Yaşam uğrunda mübarizə isə təbiətdə mövcud olan həyat uğrunda mübarizənin sosial forması kimi meydana çıxıb. Beləliklə, təbiətdəki həyat uğrundakı mübarizə qanununu kimsə poza bilmədiyi kimi, cəmiyyətdə də kimsə yaşam uğrunda mübarizənin qarşısını ala bilməz və buna görə də ağıllı və düzgün rəqabət yollarının olmadığı cəmiyyətlərdə insanların ağılsız və səhv yollarda rəqabət aparması qaçılmazdır. Məhz buna görə də Hayek yazır ki, «totalitar dövlətin vətəndaşları ideyalara sədaqətdə qeyri-əxlaqi hərəkətlər edirlər» və məncə, heç kəsdə şübhə doğura bilməz ki, totalitar cəmiyyətlər «dəmir sabitliyin» bərqərar olduğu siyasi məkanlardır. Neototalitar cəmiyyətlərdə korrupsiya, rüşvətxorluq və kriminal aləmdə baş verən ağılagəlməz dəhşətli cinayətlər – qeyri-əxlaqi hərəkətlər məhz totalitarizmin mahiyyəti ilə bağlıdır. Bu baxımdan sabitlik naminə demokratiyanın boğulması demokratiya adına aparılsa da, son nəticədə demokratiyanın əleyhinə işləyir və vətəndaşların hər cür qeyri-əxlaqi hərəkətlər etməsinə gətirib çıxarır.

Əslində neototalitar cəmiyyətlərdə sabitlik hakimiyyət üçün əlverişli olan status-kvonun saxlanmasına xidmət edir. F.Fukuyama «Amerika yol ayrıcında» adlı əsərində yazır ki, «istənilən xarici siyasət, o cümlədən, fəaliyyətsizlik və status-kvonun saxlanması risklidir». Əgər qəbul etsək ki, xarici siyasət daxili siyasətin davamıdır və

hər iki siyasət eyni prinsiplərlə müəyyənləşir, onda daxili siyasətdə də fəaliyyətsizlik və sabitlik adı altında status-kvonun saxlanılması cəmiyyətə çox böyük potensial təhlükələr vəd edir. Bəzən neototalitarizmi müdafiə edən yerli və xarici tədqiqatçıların səmimi şəkildə vicdanlı yanılmalarının bir səbəbi də dövlətin ayrı-ayrı tarixi formalarında müəyyənləşmiş prinsipləri universal prinsiplər kimi qəbul etmələridir. Neototalitarizmin ideoloqları demokratiyanın ayrı-ayrı tarixi mərhələlərində müəyyənləşmiş özlərinə lazım olan prinsip və qaydalara müraciət edir və o dövrün, o şəraitin məntiqini əsas götürüb özlərini haqlı kimi göstərirlər. Qədim Yunanıstanda quldarlıq demokratiyası haqqında və şəhər dövlətlərin vəzifələri haqqında Aristotelin dediyi fikirləri olduğu kimi müasir milli dövlətlərə, inkişaf etmiş demokratiyaya və qlobal dünya nizamına tətbiq etmək çox ciddi səhv nəticələrə gətirib çıxarır. Birincisi, Aristotelin «dövlət vətəndaşların xoşbəxt yaşamaları üçün yaradılmışdır» fikri heç də Qədim Yunanstanda bütün insanlara şamil edilmirdi, bu yalnız azad vətəndaşlar haqqında deyilmiş fikir idi. Qulları isə Aristotel «canlı əmək aləti» hesab edirdi. Bu gün də vətəndaşlara tam azadlıq vermədən dövlətin guya onları xoşbəxt etmək cəhdi, ən yaxşı halda hakimiyyətin verdiyi imkanlardan istifadə edən bir qrupu nəzərdə tutur, əhalinin böyük çoxluğu isə qul statusunda dövlətin «xoşbəxt etmək vəzifəsindən» kənarda qalır. İkincisi, orta əsrlərdən başlayaraq «dövlətin insanları xoşbəxt etmək vəzifəsi» haqqında Aristotelin fikirlərindən köklü fərqlənən ideyalar meydana çıxmış və müasir demokratiya quldarlıq demokratiyasından fərqli olaraq həmin münasibətlər üzərində bərqərar olmuşdur. Avropa mütəfəkkirlərindən P.A.Holbax yazırdı: «Dövlət xalqı xoşbəxt etməkdə mehtər kimi yox, ilxıçı kimi çıxış etməlidir». Bu nə deməkdir? Məsələ burasındadır ki, tövlədə ayrı-ayrı axurlara bağlanmış atların necə qidalanması mehtərdən asılıdır, o, birinə az, digərinə çox yem verə bilər. Amma ilxıçı bundan fərqli olaraq yaxşı otlaqda otardığı atlardan hansının necə otlamasını müəyyənləşdirə bilməz. Bu gün neototalitar hakimiyyətlərin dövlətin rolunu hissəvi anlamda qəbul etməsi mehtər siyasəti aparmalarına gətirib çıxarır. Üçüncüsü, neototalitar cəmiyyətlərdə dövlət – xalq kütlələrinin bədbəxtliyi üzərin-

də yalnız idarəedənlərin «xoşbəxtliyini» təmin edir. Dördüncüsü, xoşbəxtliyin universal mənası olmadığından, universal fəaliyyət göstərən dövlətin eyni vaxtda hamının orijinal xoşbəxtliyinə nail olması mümkün deyil. Bizcə, neototalitar cəmiyyətlərdə demokratikləşmənin qarşısında duran ən ciddi problemlər dövlətin xalqı xoşbəxt etməli olması ilə bağlı yaranmış inamlarla bağlıdır. Birincisi, əgər həqiqətən də əldə edilmiş sabitlik və ölkədə həyata keçirilən iqtisadi xətt xalqa xidmət edirsə, onda xalq hakimiyyətini möhkəmləndirən demokratik prosedurlar necə bunlarla ziddiyyət təşkil edə bilər? Yox, əgər sabitlik və iqtisadi xətt demokratik inkişafla ziddiyyət təşkil edirsə, onda bu necə xalqa xidmət edə bilər və belə vəziyyətdə demokratiyanın qarşısının kəsilməsi və mövcud «sabitlik» kimə və nəyə xidmət edir? Neototalitar cəmiyyətlərdə sabitlik həm iqtisadi inkişafın, həm demokratikləşmənin, həm də vətəndaş cəmiyyəti institutlarının formalaşması zəmini kimi götürülür. İctimai sferanın müxtəlif sferalarında baş verənləri eyni bir məntiqlə izah etmək totalitar düşüncəyə xasdır. Buradan da iqtisadiyyatın, demokratiyanın və nəhayət, hakimiyyətin sabitliyi kimi anlayışlar meydana çıxır. Bu günədək mövcud olan sosial inkişaf nəzəriyyələri, fəlsəfi təlimlər, elmi tədqiqatlar bütünlükdə neototalitar cəmiyyətlərdə məqsədli şəkildə yanlış strategiyaların müəyyən edildiyini deməyə əsas verir. Əvvəlcə sabitliklə iqtisadi inkişafın əlaqəsi haqqında. Fransız sosioloqu Raymond Budon «İxtişaş yeri. Sosial dəyişilmələr nəzəriyyələrinin tənqidi» adlı əsərində yazır: «Siyasi mobilizasiya – kollektiv zorakılıq (iqtidarın təbirincə sabitliyin pozulması) ya uzun müddətli iqtisadi yaxşılaşmaya, durğunluğa və ya tənəzzülə uğrayanda və ya cəmiyyətin hər bir üzvünün mövcudluq şərti daha kəskin yaxşı tərəfə dəyişəndə, ya da mövcudluq şərti pisləşəndə, öz-özünə başlayır». Beləliklə, vətəndaşların rifah vəziyyəti ilə kollektiv zorakılıq arasında heç bir əlaqə olmadığından, sabitlik heç bir məna daşımır. İkincisi, nəzərə alsaq ki, inkişaf qanunauyğunluğuna görə tənəzzül tərəqqi ilə növbələşir, onda istənilən iqtisadi inkişafda tənəzzül dövrü sabitlikdən asılı olmadan meydana çıxacaqdır. Üçüncüsü, iqtisadi inkişaf hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırmağa səbəb olmuş müasir Avropada və ABŞ-da zaman-

zaman müşahidə olunan destabilizasiya bir daha göstərir ki, sabitliklə iqtisadi inkişaf arasında heç bir səbəb-nəticə əlaqəsi yoxdur. Əgər istənilən iqtisadi inkişaf da son nəticədə sabitliyi pozursa, onda sabitlik yaratmaqla iqtisadi inkişaf arasında hansı əlaqə ola bilər? Belə halda ya sabitlik varsa, iqtisadi inkişaf imitasiyadır, ya iqtisadi inkişaf varsa, «sabitlik» adı altında repressiv rejim yaradılmışdır. Bəs hansı halda ictimai güclər arasındakı tarazlıq, ölkədə gedən siyasi proseslər sabit vəziyyətdə – dəyişməz olaraq qalır? Bununla bağlı RBudon yazır: «Yarımfeodal tipli cəmiyyətlərdə istehsal gücləri sisteminin və istehsal münasibətlərinin xarici təsir olmadan dəyişilməməsi təminat altına alınıb». Bunu biz Yaxın Şərq, Orta Asiya və Afrika ölkələrinin nümunəsində təsdiqini görürük. Bu siyasi məkandakı yarımfeodal cəmiyyətlərdə həqiqətən də uzun illərdir ki, sabitlik hökm sürür. Nə Səudiyyə Ərəbistanında, nə Kuveytdə, nə Qazaxstanda biz hər hansı bir aşkar konflikt vəziyyəti müşahidə etmirik və bu ölkələrdə sabitlik fonunda sərvət toplanmasından başqa heç bir iqtisadi inkişaf baş vermir. Bu baxımdan «sabitlikdən sonra mütləq iqtisadi və demokratik inkişafın olacağını» söyləmək də həqiqətə uyğun deyildir. Ümumiyyətlə, inkişafın səbəbini müəyyənləşdirmək çox çətindir. Sosial dəyişilmələr nəzəriyyəsinin müəlliflərindən biri olan Nisbet yazır: «Məntiqi və sosioloji nöqteyi-nəzərincə əksər hallarda sonrakı dəyişilmələrin səbəbini axtarmaq əsaslandırılmamışdır». Bu baxımdan sabitliyin də özündən sonra iqtisadi və demokratik inkişafa səbəb olacağı haqqında neototalitar baxışlar məntiqə və sosiologiyaya ziddir. Digər tərəfdən, neototalitar cəmiyyətlər, qeyd etdiyimiz kimi, qlobal iqtisadi münasibətlər zəncirində özünə möhkəm yer tutmağa cəhd edir. Belə olan halda bütünlükdə bu ölkələrin iqtisadi inkişafı dünya iqtisadiyyatında baş verən amillərlə şərtləndiyindən, bu ölkələrdə daxili sabitliklə iqtisadi inkişaf arasında hansısa əlaqə tapmaq mümkün deyil. İqtisadçılar iqtisadi inkişaf səbəblərini endogen və ekzogen olmaqla iki qrupa bölürlər. Endogen səbəblərə bazar iqtisadiyyatı, azad rəqabət, insan azadlıqları, resursların səmərəli istifadəsi, ədalətli bölgü və s. faktorlar aiddir. Ekzogen faktorlara – xarici investisiyalar, kreditlər, dünya bazarında qiymətlər, xammalın ixracının kvotalaşdı-

rılması və s. aiddir. Neototalitar cəmiyyətlərin iddia etdiyi iqtisadi inkişafın səbəbləri ekzogendir, yəni xaricidir. Ona görə də, bu inkişafın daxili səbəblə – stabilliklə əlaqələndirilməsinin əsası yoxdur. Son vaxtlar dünya bazarında neftin qiymətinin tərəddüd etməsi, xarici bankların kreditlərin verilməsini dayandırması neftlə zəngin olan neototalitar dövlətlərin iqtisadiyyatında böhranlı vəziyyət yaratmışdır. Halbuki, bu dövlətlərin iqtidarlarının iddia etdiyi kimi, daxildə sabitlik hələ də qorunmaqdadır. Bu mənada «sabitlik» adı altında demokratikləşmədən qaçmağın heç bir bəhanəsi yoxdur. Yuxarıda qeyd etdiyimiz və hətta iqtidarın özünün etiraf etdiyi kimi, neototalitar cəmiyyətlərdə ictimai həyatın bütün sahələrində monopoliya ciddi problemə çevrilmişdir. Məlumdur ki, monopoliya qapalı proses yaradır. İnkişaf prosesində isə son nəticədə qapalılıq pozulur. Əgər bu cəmiyyətlərdə monopoliya hələ də güclü şəkildə qalırsa, deməli, qapalılıq qalır, qapalılıq qalırsa, deməli dəyişilmə və inkişaf da yoxdur. Onda belə sabitlik kimə və nə üçün lazımdır? Bundan başqa iqtisadi inkişafda təsadüf amili mühüm rol oynayır. Məsələn, dünya bazarında neftin qiyməti durmadan qalxanda neft ölkələrində böyük həcmdə neftdən gələn pul kütləsi daxil olurdu və buna görə də nəhəng iqtisadi göstəricilər meydana çıxırdı, sonra neftin qiyməti kəskin şəkildə düşdüyündən, bu ölkələrin gəlirləri də kəskin surətdə azaldı. Əgər inkişaf təsadüfdən asılıdırsa, onda stabilliyin zəruriliyini necə qəbul etmək olar? «Sabitlikdən iqtisadi inkişafa» paradiqmasının əsassızlığı R.Budonun aşağıdakı fikri ilə bir daha təsdiq olunur. O, yazır: «Mütləq, universal və ya səbəb-nəticə dəyişilmələr qanunu özündə boş konstruksiyanı təqdim edir». Boş konstruksiya ilə dövlətin və cəmiyyətin inkişaf strategiyasını müəyyən etmək olmaz. Sabitliyin iqtisadi inkişafa, iqtisadi inkişafın siyasi inkişafa səbəb olacağı ilə bağlı neototalitar tezis də elmilikdən uzaqdır. Bu günə qədər mövcud olan inkişaf nəzəriyyələrinin iflasa uğraması bunu bir daha sübut edir. R.Budon yazır: «Sosial dəyişilmələrin ümumi nəzəriyyəsi yoxdur və mövcud ola bilməz». Bütün bu deyilənlərdən sonra sabitliyin iqtisadi inkişafla birbaşa əlaqəsinin olmadığı bir şəraitdə istər-istəməz sual doğur, onda sabitlik nəyə lazımdır? Əgər rəqabət inkişafın mənbəyidirsə, onda iqtidarların

rəqabət şəraitini ləğv etməklə yaratdığı sabitlik şəraitində cəmiyyət inkişaf edə bilərmi? Nəyin bahasına olursa-olsun bu ölkələrdə «sabitliy»ə nail olmaq onları hara aparır? Bu suallara digər fəsillərdə cavab verməyə cəhd edəcəyik.

Demokratiyanın təcrübəyə tətbiqində bəhanələrdən biri də «zamanlama» problemidir. Strategiyada yazılır: «Hərtərəfli demokratikləşmək üçün 16 ilin kifayət qədər böyük müddət olmasını güman edənlərin dəlilləri tamamilə əsassız görünür... Braziliyada bu proses ötən əsrin 70-ci illərinin ortalarından həmin əsrin 90-cı illərinin ortalarınadək uzanmışdır. İngiltərədə isə demokratiya təqribən 200 il ərzində qurulmuşdur». Hər hansı bir xüsusi şərh vermədən, bu arqumentin əsassızlığını sübut eləmək üçün strategiyada bir qədər sonra müasir inkişaf tempi ilə bağlı yazılanlara müraciət etmək kifayət edərdi. Strategiyada yazılır: «Tarixin gedişinin sürətləndiyi bir dövrdə vaxtilə onilliklərlə bağlı proseslərin indi cəmi 2-3 ilə başa gəldiyi şəraitdə dəmir pərdələri qaldırmaq milli mənafelərə uyğun deyil».

Haşiyə: Neototalitarizm tərəfdarlarının demokratiyadan qaçmaq üçün istifadə etdikləri bəhanələrdən biri də zamanla bağlıdır. Birincisi, Qədim yunan fəlsəfəsinin müasir dövrədək gəlib çatmış «hər şeyin zamana ehtiyacı var» fikrini neototalitar düşüncə tərsinə anlayır. «Hər şeyin zamana ehtiyacı var» fikri – hər şeyi zamanda hərəkət edən, dəyişən vəziyyətdə qəbul edir. Statik vəziyyətdə və dəyişilməz olan heç nəyin zamana ehtiyacı yoxdur. Belələri zamana laqeyddir, onlar üçün bir anla milyon illər eynidir. Zamana ehtiyacı olan canlı, hərəkətli olanlardır. Həyatın – təbii və sosial həyatın – zamana ehtiyacı var. Ölünün, cansızın zamana heç bir ehtiyacı yoxdur. Demokratiya yalnız dinamikada zaman tələb edir. Yerində sayan cəmiyyətlərin zamana ehtiyacı yoxdur. İkincisi, neototalitar düşüncə heç də hər şeyin zamana ehtiyacı olduğunu qəbul etmir. Kollektiv mülkiyyətin hökm sürdüyü, xüsusi mülkiyyətin qadağan olunduğu kommunist ideologiyasını mənimsəmiş neototalitarizmin tərəfdarları müstəqillik əldə etdikdən dərhal sonra heç bir təcrübələri və nəzəri hazırlıqları olmadan və ideoloji cəhətdən uzun illər əleyhinə mübarizə apardıqları kapitalizmi dərhal tətbiq etdiklərini və bu

sahədə dünyada analoqu olmayan nailiyyətlər qazandıqlarını iddia etməyə paralel, bunun əksinə, hətta kommunist partiyasının demokratik mərkəziyyət, proletar demokratiyası və s. kimi prinsipləri ilə tanış olan və SSRİ-də «xalq hakimiyyəti»nin həyata keçirilməsində iştirak edən kommunist partiyasının keçmiş üzvləri demokratiya üçün hələ uzun vaxtın tələb olunduğunu iddia edirlər. Dünyanın ən pis nümunələrinə söykənməklə özünə bəraət qazandırmaq, pis nümunələri tətbiq etməklə yaxşı nəticələr əldə ediləcəyini iddia etmək məntiqsizlikdir və demokratiyadan imtinanın əlamətidir. Bir qayda olaraq «Qərbdə demokratiya 200 ilə yaranıb, bizə də uzun vaxt lazımdır» arqumenti demokratikləşməni təxirə salıb neototalitarizmə keçidin əsaslandırılmasına və neototalitar liderlərin özlərinə bəraət və vaxt qazandırmalarına hesablanıb. Əgər müasir dövrün tempi ilə İngiltərənin keçdiyi 200 illik sürət arasında müqayisə aparsaq, onda neototalitar cəmiyyətlərin demokratikləşmə üçün 16 illik dövrün hədsiz uzun bir müddət olduğunu deyə bilərik. Xatırladım ki, eyni start vəziyyətindən çıxmış Baltikyanı respublikaları və keçmiş sosialist respublikaları - Polşa, Bolqarıstan, Rumıniya və s. çoxdan demokratikləşməni başlamış və kifayət qədər məsafə qət etmişlər. Çox təəssüf ki, postsovet neototalitar cəmiyyətlər öz saatlarını Rusiya və Çin vaxtı ilə qurmağa üstünlük verirlər. Qeyd etməliyəm ki, demokratikləşmənin qarşısında qaldırılan dəmir pərdələr içərisində «vaxt azlığı» birinci yerdə durur. Halbuki, Marksın ən böyük xidməti vaxtın kapital olmasını kəşf etməsi olmuşdur. Hansı ki, iqtisadi inkişaf strategiyasını izləyən iqtidarlar üçün vaxta israfçı yanaşmaq bağışlanmaz səhvdir. Əslində iqtisadi inkişaf fövqündə demokratikləşməyə uzun vaxt tələb olunmasını demək demokratiyadan qaçmaq istəyən istənilən totalitar liderlər üçün bəhanə olmuşdur. Bu mənada Den Syaopinin Çində həyata keçirilən modernləşmə ilə bağlı söylədiyi fikirlər buna nümunə ola bilər. 1986-cı ildə Pekinin mərkəzi meydanında azadlıq istəyən minlərlə tələbə məhv edildikdən sonra Çinin modernləşməsinin banisi Den Syaopin 30 dekabr 1986-cı ildə tələbə ixtişaşları ilə bağlı söhbətində deyirdi: «Demokratiyanı yalnız tədricən genişlləndirmək olar. Qərbdə olan hər şeyi kopyalaşdırmaq olmaz, bu, yalnız xaosa gətirir». Bu bəlağət-

li çıxışdan 20 il ötmüşdür. Çin nəinki dünyadakı bütün məhsulları kopyalaşdırmışdır, hətta 400 min insanın yaşaya biləcəyi Fransanın paytaxtı Parisin kopyasını da yaratmışdır. Amma Qərbin heç bir demokratik yeniliyini kopyalaşdırmadığından, bu gün də dünyanın totalitar cəmiyyətlərinin başında durmaqdadır. Etiraf etmək lazımdır ki, demokratiya tədricən inkişaf edən prosesdir, lakin başlanmamış bir prosesin tempindən danışmaq nonsensdir. Neototalitar dövlətlər demokratiyaya keçidə başlamadıqları halda bu cəmiyyətlərdə onun tempini müzakirə etmək dəbdədir. Müasir ABŞ və Avropa demokratiyasının yüz illərlə tarixi olduğunu əsas gətirib, neototalitarizm tərəfdarlarının demokratiya üçün tələsmək lazım gəlmədiyini iddia etmələri tamamilə əsassızdır. Velosipedin təkrar kəşf edilməsinin nə qədər mənasız iş olması artıq zərb-məsələ çevrilib. Eləcə də demokratik dövlətlərin keçdikləri tarixi yolu olduğu kimi keçmək eyni dərəcədə mənasızdır. Ağıllı adamlar velosipedi yenidən kəşf etmək əvəzinə onu daha bacarıqla sürməyə cəhd edirlər. Digər tərəfdən, nə üçün postsovet respublikalarına demokratikləşmə üçün Qərbə və ABŞ-a lazım olan qədər vaxt lazım deyil? Birincisi, Amerika dünyada ilk mühacir dövlət idi və milli dövlət quruculuğu ilə köklü fərqlənən tarixi yolla getmişdir və üstündən 200 il keçdikdən sonra indi-indi bir-birinin ardınca inkişaf etmiş demokratik ölkələrdə mühacir dövlət formasına keçid başlayıb. İkincisi, Amerika demokratiyasının çıxış nöqtəsi quldarlıq quruluşu olmuşdur və quldarlığın ləğvi uzun vaxt aparmış və Amerikada milyonların qanı bahasına başa gəlmişdir. Quldarlıq ləğv edildikdən sonra Amerika ayrı-ayrı ştatlar arasında baş verən problemlərlə üzləşmişdir və ştatların federativ dövlətə çevrilməsi istiqamətində çox ciddi səy və zaman tələb olunmuşdur. Sonra Amerikada 30-cu illərin böyük böhranına gətirib çıxaran iqtisadi durğunluğu dəf etmək, ölkəni iqtisadi inkişaf xəttinə salmaq lazım gəlmişdir. Amerika yenidən ayaq üstə durmağa nail olduğu vaxtda II dünya müharibəsi qapını kəsmişdir. II dünya müharibəsindən sonra 60-cı illərin sonuna qədər Amerika daxildə aparteidə qarşı, xaricdə SSRİ ilə rəqabətdə bütün dünya boyu mübarizə aparmalı olmuşdur. İngiltərə də 200 il ərzində bizim qarşımızda durmayan xüsusi problemləri həll edə-edə gəlmişdir. Belə ki, Fransa ilə

100 illik müharibə, sonra Roma Katolik kilsəsinin əsarətindən azad olmaqla dini reformasiya, sonra feodal-burjua inqilabı ilə konstitusiyalı quruluşa keçmə, daha sonra öz imperiyasına qatdığı 50-ə yaxın ölkənin azad olma prosesini yaşama və yenə də II Dünya Müharibəsində əsas tərəflərdən biri kimi çıxış etməsi İngiltərədə demokratikləşmə üçün uzun illər lazım gəlməsinə səbəb olmuşdur.

Postsovet respublikalarında isə demokratiyanın çıxış nöqtəsi sosializm olmuşdur və başqa ölkələrdə uzun illər tələb edən problemlər sosializm tərəfindən həll edilmişdir. Belə ki, SSRİ-də aparteid problemi olmamışdır. Respublika qurluşuna 100 il bundan qabaq sosialist inqilabı nəticəsində keçilmişdir. Yüz il bundan qabaq baş vermiş sosialist inqilabı Amerikada quldarlığın ləğvi ilə bağlı gördüyü işləri görmüşdür. Beləliklə, demək olar ki, sosializmdən demokratiyaya keçid daha az vaxt və səy tələb edir. Amma neototalitar dövlətlər sanki əvvəlcə həll edilməsi on illər tələb edən problemlər yaradıb, sonra onu həll edərək demokratiyaya keçmək strategiyası müəyyənləşdirir. Tarixi qanunauyğunluqlardan biri belədir ki, xalqlar hər şeyi sıfırdan başlamaqdan və ya başqalarının təcrübəsini olduğu kimi təkrarlamaqdan azaddırlar. Xalqlar və mədəniyyətlər bir-birinin son nailiyyətləri üzərində yüksəlir. Bu baxımdan postsovet dövlətlərində demokratikləşməyə nəinki 200 il vaxt sərf edilməməlidir, əksinə, demokratikləşmə sahəsində Qərbin və Amerikanın son nailiyyətlərindən bəhrələnərək, dünyaya yeni demokratik nümunələr təqdim etməlidir. Strategiyada İ.Əliyevin 16 iyun 2005-ci il tarixli «Fövqəladə Ukrayna Dəyirmi Masası» Beynəlxalq Forumunun açılış nitqindən belə bir sitat gətirilir: «Regionumuzun gələcəyi siyasətimizin nə dərəcədə uğurla müasirləşməsindən asılı olacaq. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi, siyasi sistemin cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır». Tamamilə düzgün yanaşmadır. Müasirləşmə siyasəti Qərbin və Amerikanın 200 il bundan qabaqkı vəziyyətini yox, müasir ABŞ və Avropanı nümunə götürməyi tələb edir. Demokratiya təbii sosial proses olduğundan, o təbii şəkildə inkişaf edir. Bu baxımdan həqiqətən demokratikləşmənin postsovet məkanında ləngiməsi təbii amillərlə bağlı olsaydı, demokratiya

əleyhdarlarının arqumentlərinə əks arqument söyləmək çətin olardı. İkincisi, neototalitar cəmiyyətlər sadəcə demokratikləşmə üçün taym-aut tələb etmirlər, onlar həm də demokratikləşmədə zamanın strukturlaşmasında öz iradələrinin nəzərə alınmasını tələb edirlər. Nümunə kimi bununla bağlı strategiyadakı fikirlərə nəzər salaq: «Möhkəm və suveren dövlətçiliyin formalaşması şəraitində Azərbaycan xalqı konsolidasiya olunmuş demokratik cəmiyyətin yaradılması yolu ilə sürəti, müddəti və şərtləri müstəqil şəkildə müəyyən etməyə qadirdir». Əgər bu arqument qəbul edilsə, belə çıxardı ki, amerikanlar da məhz özləri demokratiyanı 200 ilə əldə etməyi planlaşdırmışdılar. Əgər doğrudan da demokratikləşmənin sürətini və vaxtını müstəqil şəkildə müəyyən etmək gücünə malikiksə, onda nə üçün demokratikləşmənin ləngiməsində özümüzü yox, başqalarını və tarixi şəraiti günahlandırırıq. Amma şəxsiyyətin tarixdə rolu həlledici deyil və kimsə tarixin hərəkətini dayandırmaq gücündə deyil. Liderlər onu yalnız ləngidə bilərlər. Neototalitar liderlərin vaxt konyukturası da yalnız buna xidmət edə bilər.

Neototalitar cəmiyyətlərin demokratiyanın əleyhinə əsas arqumentlərindən biri də Vesternizasiyadan – Qərb nümunəsində inkişafdan imtinadır. Strategiyada 23 oktyabr 2007-ci il tarixdə dövlət başçısı İ.Əliyevin Qobustan rayonundakı nitqindən belə bir sitat gətirilir: «Azərbaycanda vətəndaş cəmiyyəti Qərb nümunələrini olduğu kimi tətbiq etməklə qurula bilməz».

Haşiyə: Sonrakı fəsillərdə bununla bağlı daha geniş şərh verəcəyik. Burada qısa şəkildə məhz demokratiyadan imtinanın vesternizasiyadan imtina ilə bağlılığı haqqında. Dünyadakı demokratiyadan yan keçərək inkişaf yolu keçməyə cəhd edən bütün totalitar və neototalitar cəmiyyətlərin hamısı üçün Qərb nümunəsindən imtina xarakterikdir. Yuxarıda gətirdiyimiz Den Syaopinin fikiri ilə bu fikir arasında tam oxşarlığın olması da bunu bir daha sübut edir. Ayrı-ayrı cəmiyyətlərin liderlərinin baxışları arasında fərq olmadığından, təbii olaraq eyni bir fikrin əsasında meydana çıxacaq rejimlər də eyni olmağa məhkumdur. Necə ki, dünyanın hansı qitəsində olmasından asılı olmayaraq bütün kommunist, faşist rejimləri və hərbi xuntalar demək olar ki, eyni olmuşdur, bu gün Rusiya

və Çin liderlərinin fikirlərini bölüşdürən liderlər də öz ölkələrində məhz Rusiya və Çində mövcud olan siyasi inkişaf modelinə uyğun inkişaf modelinə meyllənirlər. Bu rejimlərin bir faciəsi də məhz bundan qaynaqlanır. Belə ki, bu ölkələr Çin və Rusiya kimi nəhəng ərazilərə böyük dövlətçilik təcrübəsinə, nəhəng resurslara, ənənəvi dövlətçiliyə və müstəqil özünü müdafiə gücünə və potensialına və bəşəriyyətə verdiyi töhfələrə bərabər deyillər. Buna görə də iqtisadi əlaqələrinə, milli təhlükəsizliyinə, bütünlükdə mövcudluğuna görə Qərbin və ABŞ-ın müdafiəsinə arxalanırlar. Bu ziddiyyət - düşmən dövlətlərin əhatəsində, ağır şərtlərdə yaşayan kiçik dövlətlərin hegemon dövlətlərin yolu ilə getməyə cəhd etməsi - gec-tez milli fəlakətlə nəticələnməsinə səbəb olacaqdır.

Demokratiya adına demokratiyadan imtinanın başqa bir arqumenti demokratiyanın milli mentalitetə uyğun gəlməsi məsələsi ilə bağlıdır. Strategiyada bu arqumentlə bağlı yazılır: «Sosiomədəni xüsusiyyətlərin siyasətin lokal amillərinin, milli «MƏN» arxeotiplərinin nəzərə alınması demokratik təsisatların və ənənələrin təkmilləşdirilməsində müəyyən daxili transformasiyalara şərait yaradır».

Haşiyə: Burdan da «xalq hələ demokratiyaya hazır deyil, ona görə də demokratiyaya keçməyə tələsmək olmaz» kimi qənaətlər meydana gəlir. Birincisi, neototalitar cəmiyyətlərdə «milli «mən» arxeotiplərinin nəzərə alınması» müddəası nəinki demokratik təsisatların və ənənələrin təkmilləşdirilməsində daxili keçidə şərait yaradır, əksinə, məhz milli şüurda arxeotiplərin nəzərə alınması bu ölkələrin xalqlarını orta əsr patriarxal dövrə qaytarır və traybalizmin yenidən baş qaldırılmasına səbəb olur. İkincisi, strategiyada son hədəf kimi liberalizmə keçid müəyyənləşdirilir. F.Fukuyama liberalizmlə bağlı yazır: «Liberal dövlət universal olmalıdır… universal tarix bütöv xalqları və tarixə qədərki və ya qeyri tarixi olanları kənara atmaqla hazır olmalıdır. Belə ki, onlar onu tarixin mərkəzi sujetinə aparmır». Beləliklə, liberallaşma hədəflərini müəyyənləşdirən iqtidarlar tarixin mərkəzi sujetinə aparmayan tarixə qədərki «milli «mən» arxeotiplərini» nəzərə almaqla nəinki liberalizmə istiqamət götürə bilər, əksinə, tamamilə əks istiqamət götürərdi və neototalitar dövlətlər də bu istiqamətdə inkişaf etməkdədir. Üçüncüsü, bu

ölkələrin iqtidarları mütəmadi olaraq dünyada analoqu olmayan iqtisadi inkişafa nail olmaları ilə bağlı bəyanatlar verirlər. Əgər bu həqiqətdə belədirsə və F.Fukuyamanın «yüksək iqtisadi inkişafa nail olmuş, demək olar ki, bütün cəmiyyətlər öz aralarında, görünüşdə biri-birinə daha çox oxşayırlar, nəinki fərqlənmirlər» fikrini bölüşdürsək, onda bu dövlətlər bütünlükdə Qərb dövlətlərinə oxşamalıdır, nəinki Afrikanın və Asiyanın ən geridə qalmış ölkələrinə. İqtidar strategiyasında universal dəyərlərdən imtina edilməsinin səbəbi də məhz milli məsələ ilə əsaslandırılır. Strategiyada yazılır: «İnkişaf yolu barədə öz təsəvvürlərimiz olmaqla, milli inkişaf strategiyasını müəyyənləşdirmək imkanımız var». Neototalitar iqtidarlar yalnız milli inkişaf strategiyası hazırlamırlar, həm də demokratikləşməni «milli demokratik tranzit» formasında qəbul edirlər və bu ad altında özlərinin bütün antidemokratik addımlarına haqq qazandırırlar.

Demokratiya adına demokratiyadan qaçışın digər bir müddəası demokratiyanın «mənfi» nəticələri ilə əsaslandırılır. Strategiyada belə bir fikir əks olunub. «XXI əsrdə demokratiya ən qısa müddətdə nəinki rejimin dəyişilməsinə, hətta daha geniş miqyas almasına şərait yarada biləcək təhlükəli geosiyasi silaha çevrilir. Biz İraqda, Əfqanıstanda, Kosovoda və başqa bölgələrdə belə halların baş verməsinin şahidiyik».

Haşiyə: Birincisi, demokratiyanın guya gərginliyə səbəb olması ilə bağlı deyilən fikir heç bir əsasa malik deyil. Əgər bu belə olsaydı, ictimai gərginlik Fransada, İngiltərədə, Almaniyada, Skandinaviya ölkələrində Pakistandan, Əfqanıstandan, İraqdan və s. bu kimi demokratiyadan uzaq ölkələrdən daha gərgin olmalı idi. Əksinə, konfliktlərin demokratik həlli məhz onların eskalasiyasının qarşısını alır və konfliktlərin sülh və dinc danışıqlar yolu ilə həll edilməsinə prioritet verir. Nəticədə gərginliyə yol qoymur. Qarabağ münaqişəsi buna bariz nümunədir. Bundan başqa demokratiyanın inkişaf etdiyi Amerikada və Avropada II dünya müharibəsindən sonra heç bir gərginlik yaşanmamışdır. İkincisi, o ki, qaldı adı çəkilən üç müxtəlif dövlətlərdə baş verənlərə, İraqda baş verənlər - Səddam Hüseynin kütləvi qırğın silahı hazırlamağa cəhd etməsi, terrorizmi müdafiə etməsi, beynəlxalq ictimaiyyət qarşısında hesabat verməkdən qaçma-

ğı ilə bağlı meydana çıxmışdır. Əfqanıstandakı hadisələr SSRİ-nin inqilab ixrac etməsi ilə başlamışdır və bu gün də baş verənlər həmin addımın məntiqi davamıdır. Kosova xalqı serblərin genosidinə məruz qalmışdır və beynəlxalq müdaxilə olmasaydı, serblər bütün balkanları qan gölünə çevirəcəkdilər. Göründüyü kimi, bu hadisələrin baş verməsinin heç birinin bu və ya başqa şəkildə bilavasitə demokratiya ilə bağlılığı yoxdur, əksinə, məhz demokratiya həmin hadisələri daha ağır nəticələr verməkdən xilas etmişdir.

Demokratiyadan imtinanın digər bir arqumenti xarici nəzarəti və xarici təsiri qəbul etməməklə bağlıdır. İlk baxışdan bəlkə də bu arqument əsaslı hesab edilə bilər. Həmin arqument haqqında strategiyada yazılır: «Azərbaycanda obyektiv surətdə heç də sadə olmayan proseslər cərəyan edir. Onlar bu və ya digər şəxslər və təşkilatlar tərəfindən getdikcə daha çox diskusiya mövzusuna çevrilir. Çox vaxt bu diskusiyalar demokratiya, söz və mətbuat azadlığı, bütövlükdə azadlıq konsepti ətrafında aparılır. Bizi çox vaxt onda günahlandırırlar ki, guya biz azadlığa adət etməmişik və guya bizə daim kənardan nəzarət edilməsinə ehtiyac var. Lakin demokratik transformasiya ilə Qərbin geosiyasi təsiri arasında hədd qoymaq lazımdır».

Haşiyə: Birincisi, qlobal dünya sistemində yer tutmuş bir ölkədə təsir və təzyiqləri daxili və xarici olmaqla iki yerə bölmək düzgün deyil. E.Töffler və X.Töffler «İnqilabi sərvət» adlı kitablarında yazırlar: «Sərhədlərin keçici olduğu dünyada «xarici» və «bizim» arasında fərq silinir». Bu o deməkdir ki, əgər siyasi təzyiqdən söz gedirsə, xarici və daxili təzyiqlər eyni hüquqi əsasa və eyni gücə malikdir və qlobal sistemdə təzyiq və təsirlər də qlobal xarakterlidir. İkincisi, Qərbin geoiqtisasdi təsirinə qarşı sədd qoymaq fikri ilə qismən razılaşmaq olar. Belə ki, Qərbdə demokratikləşmənin böhranı və Qərbin xarici siyasətinin prioritetlərinin səhv müəyyən edilməsi ilə bağlı fikirlərimdə mən də daha ciddi təşviş keçirirəm və yazdığım məqalələrdə, verdiyim müsahibələrdə dəfələrlə Qərbin və ABŞ-ın yeni müstəqil dövlətlərlə əlaqələrinin qüsurlu olduğunu göstərməyə çalışmışam. Bunu bu ölkələrin siyasətçiləri və müstəqil ekspertləri də dəfələrlə etiraf ediblər. Qərbdə demokratiyanın geriləməsi ilə bağlı elə Qərb mütəfəkkirlərinin yazdığı çoxsaylı ciddi fundamental əsər-

lər də bunu sübut edir. Bunların sırasında O.Şpenqlerin «Avropanın süqutu», J.Lipovetskinin «Boşluq erası», E.Munenin «Personalizmin manifesti», E.Fromun «Azadlıqdan qaçış» və s. kimi əsərləri nümunə göstərmək olar. Neqativ keyfiyyətlərin yoluxucu olması qloballaşma prosesində ilk növbədə Qərbdə demokratikləşmə sahəsində meydana çıxan neqativ keyfiyyətləri prioritet olaraq bizə çatdırır. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin direktoru Xarriet Bebbit demişdir: «Biz öz qüsurlarımızı daha sürətlə qloballaşdırırıq, nəinki xeyirxah əməllərimizi». Töfflerlər də «İnqilabi sərvət» kitablarında yazırlar: «Cinayətkar biznesi dayandırmaq üçün qlobal və çoxtərəfli səy lazımdır». Amma neototalitar tərəfdarlarının qlobal cinayətkar biznesə qarşı yox, məhz demokratiyaya qarşı mübarizə etməsi bir çox mətləblərdən xəbər verir. Üçüncüsü, biz müasir Qərb demokratiyasından yox, müasir Qərbdə demokratiyanın geriləməsindən danışmalıyıq. Çünki demokratiya min illərin sınağından çıxmış elə dəyərlər sistemidir ki, tərəqqinin mahiyyəti ilə sıx bağlı olduğundan, o geriləyə bilməz. Amma demokratiyanın tətbiqində arxayınçılıq, səhvlər, büdrəmələr və ya başqa maraqları demokratiyadan qabağa qoymaq həqiqətən Qərbdə demokratiyanın böhranını yaradıb. Burada yalnız çox qısa şəkildə qeyd etmək istəyirəm ki, demokratiyada qüsurlara görə demokratiyanı yox, onu həyata keçirməkdə mükəlləf olanları ittiham etməliyik. K.Manheym yazır: «Azadlıq formasını və demokratiyanı son on illərdə mövcud olan nadancasına tənqidinə son qoyulmalıdır. Hətta biz etiraf etsək də ki, azadlıq və demokratiya o vaxta kimi qeyri-təkmildir ki, iqtisadi qeyri-bərabərlik sosial imkanın reallaşmasına mane olur, yenə də düşünməmiz məsuliyyətsiz olacaq. Belə ki, onlar özlərində nəhəng nailiyyətləri təqdim edirlər. Hansı ki, onların köməyi ilə ictimai tərəqqiyə nail olunur». Beləliklə, azadlıq və demokratiya ictimai tərəqqinin yeganə lokomotivi olduğundan, onların nadancasına tənqidi ilk növbədə tərəqqiyə mane olur. Əslində qeyri-bərabər iqtisadi şəraitin aradan qaldırılmasının da yeganə yolu azadlıqlardan və demokratiyadan keçir. Bu baxımdan qeyri-bərabər iqtisadi şəraiti nəzərə alıb, demokratiyadan imtina etmək, iqtisadi bərabərlikdən imtina edərək, antidemokratiyaya meyllənmə ilə eyni mənalı olardı. E.Fromm yuxarıda adını

çəkdiyimiz kitabında yazır: «Azadlığa təhlükə, antifaşist adı altında hücum faşizmin öz adından hücum edəndən az olmur». Eyni ilə özünü demokratiya tərəfdarı kimi göstərib, demokratiyaya hücum etmək əsl həqiqətdə antidemokratik olanların demokratiyaya hücumu qədər təhlükəlidir.

Beləliklə, demokratiya adına demokratiyaya qarşı çıxmaq faşizmin və kommunizmin antidemokratik mahiyyəti ilə tam üst-üstə düşür və nəticəsinə görə onlardan daha təhlükəlidir. Qərbdə demokratiyanın geriləməsi ilə bağlı məşhur sosioloq Con Dyui yazır: «Bizim demokratiya üçün ciddi təhlükə başqa totalitar dövlətlərin mövcudluğundan doğmur, təhlükə ondan ibarətdir ki, bizim öz xüsusi istiqamətlənməmizdə başqa dövlətlərdə xarici hakimiyyət yaranmasına gətirib çıxaran zəmin – nizam, eyni formalılıq, liderə bağlı olmaq mövcuddur». Beləliklə, Qərbdə demokratiyanın geriləməsinə gətirib çıxaran nizam – dövlətin total nəzarəti, eyni formalılıq – plüralizmdən qaçma və siyasi güclərin biri-birini kopiyalaşdırması və nəhayət liderizm – avtoritetə istiqamətlənmə, keçid cəmiyyətlərində demokratikləşmənin başlanmasına imkan verməyən amillər kimi çıxış edir.

Neototalitar dövlətlərin təmsilçiləri Qərbin mənfi təsirləri ilə bağlı tənqidlərini təcrübədə tamamilə qüsurlu xarici siyasət – birtərəfli əməkdaşlıq və sosial əyintilər müşayət edir. Belə ki, neototalitar dövlətlərin iqtidarları demokratik transformasiya ilə Qərbin geosiyasi təsiri arasında hədd müəyyənləşdirərkən, Qərbin iqtisadi və geosiyasi maraqlarını qeyri-məhdud təmin edirlər. Demokratiyaya transformasiyada isə həqiqətən də Qərblə öz aralarında dəmir pərdə qaldırırlar. Belə ki, Qazaxstan, Türkmənistan, Azərbaycan, Özbəkstan kimi ölkələr Qərblə birgə nəhəng iqtisadi layihələr, o cümlədən transmilli layihələr həyata keçirsələr də bu iqtidarlar bu günədək Qərbi razı sala biləcək heç bir demokratik islahat həyata keçirə bilməmişdir. Neototalitar memarları müasir qlobal dünya sisteminin «kənardan nəzarətin»in zəruriliyini qəbul etmək istəmir və ya bunun vacibliyi ilə razılaşmırlar. Bu barədə legitimliklə bağlı digər fəsildə geniş şərh verəcəyimdən burada onu qeyd etmək istəyirəm ki, hər bir dövlətin - müasir qlobal dövlətlər sistemində

bütün dünya dövlətlərinin, o cümlədən ABŞ-ın da - kənardan nəzarət edilməsinə ehtiyacı var və bu nəzarət bu gün də ciddi şəkildə həyata keçirilir və beynəlxalq imperativ hüququn bütün müddəaları məhz suveren dövlətlərin bu hüquqa zidd fəaliyyətinə xarici nəzarəti tələb edir. Məhz buna görədir ki, ABŞ-ın ən gizli həbsxanalarında belə, baş verən hadisələr dərhal dünya ictimaiyyətinə çatdırılır və tutulan iradlar Amerika administrasiyası tərəfindən aradan qaldırılır. Amma bundan fərqli olaraq neototalitar dövlətlərin hər hansı bir həbsxanasında xarici nəzarətin təşkil edilməsi ciddi problemə çevrilir. Bu da məhz qlobal dövlətlər sistemi anlamının hissəvi idrakı ilə bağlı meydana çıxır.

Neototalitar rejimlərin liderləri Qərbi demokratikləşmə ilə bağlı təzyiqlərin sonda mədəniyyətlərarası qarşıdurmaya gətirib çıxaracağı ilə hədələyirlər. Bunun klassik nümunəsini təhlil etdiyimiz məqalədəki aşağıdakı fikirlərdən də görmək olar: «Üçüncü demokratik dalğa?! şəraitində xalq hakimiyyəti ətrafında müxtəlif diskusiyalar get-gedə aktual və prinsipial xarakter alır, çünki onlar bir tərəfdən milli dövlətin suveren inkişafının mümkünlüyünü şərtləndirir, digər tərəfdən «azadlıq mayaklarına» bu və ya digər demokratik konseptlər barəsində öz təsəvvürlərini «postavtoritar keçid» ölkələrinə ixrac etmək üçün meydan yaradır. Çox vaxt belə ixrac bu və ya digər milli xüsusiyyətlərin əvəzlənməsi yolu ilə və yaxud Yer kürəsinin bu və ya digər guşəsində demokratiya qurulmasının real mümkünlüyü nəzərə alınmadan baş verir. Bəzən bu cür yanaşma qlobal xarakterli effektləri doğurur ki, bu da son nəticədə «sivilizasiyaların toqquşması» qəbilindən olan qlobal xaos nəzəriyyələrinin yaranmasına gətirib çıxarır. Özlüyündə demokratiya get-gedə daha çox hallarda yeni geosiyasi, daha dəqiqi və daha doğrusu, geosiyasi ekspansiya amili kimi çıxış edir».

Haşiyə: Birincisi, neototalitar cəmiyyətlərin Qərblə hərtərəfli iqtisadi əməkdaşlıq edən bu cəmiyyətlərin hakim qüvvələri bir tərəfdən bunu nailiyyət kimi təqdim edir, digər tərəfdən Qərbin demokratiya istəklərinin arxasında guya geoiqtisadi ekspansiya amilinin durduğunu iddia edirlər. Bu gün demokratiyadan əsər-əlamət olmayan Yaxın Şərq ölkələri ilə sıx geoiqtisadi əlaqələr quran Qərb

bundan fərqli olaraq Baltikyanı, Ukrayna, Gürcüstan və s. ilə tamam fərqli iqtisadi münasibətlərdədir. Elə neft ölkəsi olan kiçik Norveçlə də hansısa böyük dövlət geoiqtisadi ekspansiya dili ilə danışa bilmir. Qərb həqiqətən avtoritar və totalitar cəmiyyətlərlə «geoiqtisadi ekspansiya» siyasəti, bunun əksinə, demokratik dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurur. Bu baxımdan Qərbin «geoiqtisadi ekspansiya» siyasətinə qarşı effektiv vasitə yenə də ölkənin demokratikləşməsidir, nəinki demokratiyanı boğmaqla Qərblə yeni iqtisadi layihələr həyata keçirmək. «Sivilizasiyaların toqquşması» nəzəriyyəsinin meydana çıxmasında demokratiyanı ittiham etmək isə sağlam məntiqlə izah edilməzdir. Belə ki, sosialist cəbhəsini təşkil edən ölkələr süqut etdikdən və dünya iki siyasi qütblülükdən bir qütblülüyə keçdikdən, müxtəlif siyasi sistemlərin qarşıdurması aradan qalxdıqdan sonra dünyanın həll etməli olduğu növbəti problem kimi «səlib yürüşləri»ndən başlayaraq bu günədək mövcud olan sivilizasiyaların toqquşması problemi aktuallaşmışdır və burada demokratiya problemlərin yaradıcısı kimi yox, problemin rasional həlli variantı kimi çıxış edir.

Neototalitarların demokratiyanın əleyhinə istənilən müddəasına strategiyadakı aşağıdakı fikirlərlə cavab vermək məncə kifayətdir. «Liberal demokratik nümunələrin ritorika səviyyəsində tanınması uğur qazana bilməz» və həm də belə ritorika ilə demokratiyaya hücum kiməsə uzunmüddətli uğur qazandıra bilməz.

III FƏSİL

DEMOKRATLARSIZ «DEMOKRATİYA» MODELİ

Demokrat – demokratiya arzulayan, onu formalaşdıran və özü də onunla formalaşan insandır.

F.Fukuyama

Dövlət tərəfindən tanınma uğrunda – hüquq bərabərliyi və azadlıq uğrunda - mübarizə aparmayan insan demokrat ola bilməz.

Sərdar Cəlaloğlu

Demokratiyanı nəzəri-hissəvi anlamda qəbul edən neototalitarizm tərəfdarları onu təcrübədə də hissəvi tətbiq etməyə cəhd edirlər. Yuxarıda qeyd etmişdik ki, demokratiya üç mühüm komponentdən – demokrat insanlardan, demokratik institutlardan - vətəndaş cəmiyyətindən və proseslərdən - demokratik proseduralardan ibarətdir. Bu komponentlərdən hər hansı birinin çatışmazlığı ictimai-siyasi prosesləri asanlıqla antidemokratik istiqamətlərə yönəltməyə imkan verir.

Demokratiya – cəmiyyətin təbii sosial forması və fərdi mövcudluğun təbii sosial vəziyyətidir. Demokratiyanın yeganə məqsədi fərdi azadlıqları tam və hərtərəfli təmin etmək olduğundan, *insan faktoru* demokratiyada müstəsna rol oynayır. İnsan faktoru başqa siyasi dünyagörüşlərində də vacib amil hesab edilmişdir. Məsə-

lən, K.Marks və F.Engels kommunizmin manifestini hazırlayarkən onun üç tərkibindən biri kimi «yeni insan» amilini müəyyən etmişdilər. Marksizm yeni insanın məqsədini «kommunizm quruculuğuna nail olmaq» kimi müəyyənləşdirmişdir, amma bundan fərqli olaraq demokratiyada ictimai həyatda bütün cəhdlər yeni insanın, F.Fukuyamanın təbirincə desək, *«sonuncu adam»ın* yetişməsinə xidmət edir. Beləliklə, *kommunizmə görə, insan cəmiyyətə, demokratiyaya görə isə cəmiyyət insana xidmət etməlidir.*

Haşiyə: Neototalitar cəmiyyətlərin demokratiyanın əleyhinə tutarlı dəlilləri demokratik cəmiyyətlərdə müşahidə olunan qüsurlardır. Bu qüsurları bir neçə qrupa ayırmaq olar: a) geridə qalmış xalqlara görə qüsur hesab edilə biləcək *yeni davranış normaları və həyat tərzi;* Xüsusən insan hüquq və azadlıqlarının kifayət qədər dərinləşməsi istiqamətində meydana çıxan yeni qeyri-ənənəvi hüquq və azadlıqların etiraf edilməsi. Məsələn, inkişaf etmiş cəmiyyətlərdə eynicinslilər arasında nikahın leqallaşdırılması, bəzi ölkələrdə narkotik maddələrin sərbəst satışı və s. kimi klassik ənənələrə uyğun olmayan azadlıqlar neototalitarizmin tərəfdarları üçün demokratiyaya yol verməmək məqsədi ilə cəmiyyətdəki konservativ qüvvələri ələ almaqda olduqca əlverişli bəhanə kimi çıxış edir. b) inkişaf etmiş demokratik cəmiyyətlərdə demokratiyaya zidd proseslərin təzahür etməsi; Təbii ki, istənilən təkmil cəmiyyətdə subyektiv varlıq olan insanların hamısı standart və universal keyfiyyətli olmur. Bəzən belə cəmiyyətlərdə də manyaklar, kriminallar, korrupsionerlər, vəzifədən sui-istifadə halları olur. Bu da təbiidir. Bundan başqa Qərb ölkələrində zorakılığın inkişaf etməsi, xarici siyasətdə başqa dövlətlərə hərbi müdaxilələrə yol verilməsi, ictimai asayişin təmin edilməsində dövlət məmurlarının səlahiyyət hədlərini aşması, terrorizmlə mübarizədə işgəncələrdən, qeyri-qanuni yollardan istifadə və s. demokratiyanın əleyhinə istifadə edilən və demokratiyanın qüsurları kimi təqdim olunan hallardır. c) Qərb demokratiyasında obyektiv səbəblərdən zaman-zaman *böhranlı vəziyyətlərin* yaranması neototalitarizm tərəfdarları üçün demokratiyadan qaçışa bəhanə rolu oynayır. Məsələn, iqtisadiyyatda kapitalizm üçün xarakterik olan dövrü böhranlar, parlamentli respublikalarda

koalision hökumətlərin dayanıqsızlığı, federativ qurluşlarda parçalanmalar və s. d) Qərb demokratiyasının böhranı. Bu gün Qərbdə demokratiyanın böhranından danışarkən ilk növbədə *demokratların azalmasından*, demokratik *dəyərlərin amortizasiyasından* və intellektlərin demokratiyaya inamının itməsindən – demokratik nihilizmdən danışmaq lazım gəlir. Qeyd edim ki, müasir Qərb sosioloqları da bu və ya başqa şəkildə bunu etiraf edirlər. Demokratiyanın qlobal böhranı haqqında bu kitaba əlavə olunmuş xüsusi məqalədə geniş şərh verdiyimizdən burada problemin başqa aspektlərinə toxunmaq istəyirəm.

Strategiyadakı aşağıdakı belə bir fikirlə razılaşmaq lazımdır ki, həqiqətən «demokratik transformasiya ilə Qərbin geosiyasi təsiri arasında hədd qoymaq lazımdır». Həm də təkcə Qərbin yox, digər dövlətlərin, o cümlədən də Rusiyanın postsovet respublikalarına, həm də yalnız xarici geosiyasi təsirləri arasında yox, həm də geoiqtisadi təsirləri arasında hədd qoymaq lazımdır və bu məsələdə iqtidarla müxalifət arasında heç bir fikir ayrılığına yol vermək olmaz. Amma unutmaq olmaz ki, bu hədd qoyularkən demokratik transformasiya üçün zəruri əsasların – yuxarıda adını çəkdiyim komponentlərin hər hansı birinin qarşısında sədd çəkmək son nəticədə neototalitarizmə xidmət edir.

Haşiyə: Demokratların demokratiyanı tənqid etməsi ilə neototalitarların demokratiyanı tənqid etməsi prinsipial olaraq bir-birindən fərqlənir. Demokratlar demokratiyanı inkişaf etdirmək, onu yaymaq, genişləndirmək naminə onun qüsurlarını islah etmək üçün tənqid edir, neototalitarlar demokratiyaya yol verməmək üçün onun qüsurlarından sui-istifadə edirlər. Yuxarıda qeyd etdiyimiz kimi, xüsusi «tənqidə dözümsüz» məqamlarda demokratiyanın ayrı-ayrı komponentləri qarşısında çox ciddi sədlər qoyulur və onların ölkənin tarixi inkişafında yeri və rolu düzgün qiymətləndirilmir. Bütün bunlar - keçmiş sovet ənənələri ilə problemə yanaşma – postsovet respublikalarını böyük sürətlə bu günkü durğunluğa salmışdır. İstər-istəməz sual doğur, məgər neototalitar dövlətlərin iqtidarlarının ən nəhəng nailiyyət hesab elədiyi transnasional layihələr Qərbin xeyrinə ona görə imzalanır ki, iqtidarlar bunlarla Qərbin geosiyasi təsiri ilə de-

mokratik transformasiya arasında hədd qoymağa cəhd etsinlər? Həqiqət bundan ibarətdir ki, müasir dünyada daxili legitimliyi təmin edə bilməyən iqtidarlar beynəlxalq münasibətlərdə özünü «effektli» tərəfdaş kimi göstərməklə, daxili administrasiyada xarici təsiri təmin etməklə legitimlik əldə etməyə üstünlük verirlər və buna görə də hakimiyyətdə qalırlar. Nəticədə, *daxildə nə qədər demokratiya boğulursa, daxili legitimlik bir o qədər zəifləyir, daxili legitimlik nə qədər zəifləyirsə, bir o qədər də xarici legitimlikdən asılılıq yaranır və nə qədər çox belə legitimlik yaranır, bir o qədər ölkə xarici geosiyasi və geoiqtisadi təsirlərə açılır.* Legitimliyin daxili və xarici şərtləri ilə bağlı sonrakı fəsildə geniş şərh verəcəyimizdən burada əlavə izah vermədən iqtidar strategiyasında demokratiya anlamının təcrübəyə tətbiqi ilə bağlı problemin şərhini davam etdiririk.

Qeyd etmək lazımdır ki, demokratiyanın hər hansı bir ölkədə təntənəsi dövlətin təmsilçisi rolunda çıxış edən birinci şəxsdən, siyasi hakimiyyətdən, cəmiyyəti təşkil edən vətəndaş cəmiyyəti institutlarından, beynəlxalq demokratik güclərdən və ayrılıqda hər bir vətəndaşdan asılıdır. *Demokratikləşməyə yalnız müxalifətin və ya hakimiyyətin vəzifəsi kimi baxmaq tamamilə səhv - neototalitar yanaşmadır,* bu baxımdan iqtidarların vətəndaş cəmiyyəti institutlarını məhv etmək cəhdi və ya müxalifətdəkilərin hakimiyyətdəkiləri əsassız nüfuzdan salmaq və ya məsuliyyəti bir-birinin üzərinə yıxmaqla özlərini tarixi məsuliyyətdən xilas etmək cəhdləri, o cümlədən, sadə vətəndaşların və beynəlxalq təşkilatların bitərəf mövqe tutması demokratikləşmə prosesinə ciddi zərbə vurur. Dünya təcrübəsi demokratikləşmədə təşəbbüsün bəzən yuxarılardan – Yeltsinin Rusiyada, Lex Valensanın Polşada, Havelin Çexiyada olduğu kimi, bəzən də aşağılardan - Gürcüstan və Ukraynada olduğu kimi, bəzən də yalnız xarici güclərdən, məsələn, İraq və Əfqanıstanda olduğu kimi - meydana çıxdığını göstərir. Liderlərin demokratikləşmədə marağı olmadığı hallarda – Putinin Rusiyada, Kərimovun Özbəkstanda, Nazarbayevin Qazaxstanda, Türkmənbaşının Türkmənistanda yaratdığı kimi neototalitar rejimlər yaranır.

Haşiyə: Unutmaq olmaz ki, demokratiya *ümumdünya prosesidir* və ayrı-ayrı dövlətlərdə demokratikləşmədə baş verənlər dünya

demokratiyasının problemidir və buna görə də dünyanı narahat etməyə bilməz. Hələ demokratiyanın ümumdünya qələbəsi baş vermədiyi, «kim-kimi» dilemması kəskinliyi ilə bəşəriyyət qarşısında durduğu vaxtlarda - 1915-ci ildə ABŞ-ın o vaxtkı prezidenti Vidro Vilson deyirdi: «Dünyanın heç bir guşəsi demokratiya üçün təhlükəli olmamalıdır». Bu fikirlərin söyləndiyi vaxtdan 100 ildən artıq vaxt keçib. Demokratiya tarixi inkişafa vəsiqə alıb. İndi Vilsonun tezisi qlobal dünyada demokratiyaya qlobal baxışı ifadə etməsi üçün yenidən formalaşdırılmalıdır. Məncə, müasir dövr üçün Vilsonun tezisini belə ifadə etsək daha düz olar: «Dünyanın heç bir güşəsi demokratiya üçün qapalı olmamalıdır». Başqa sözlə, *dünya qloballaşdıqca, demokratiya da qloballaşmalıdır.*

Müasir qlobal dünyada demokrat aktorları üç qismə – milli dövlətlərin iqtidarlarındakı demokratlara, həmin cəmiyyətlərdə müxalifətdəki demokratlara və beynəlxalq demokratlara – bölmək lazım gəlir. Bu demokrat qruplardan hər biri istənilən ölkədə demokratikləşmədə xüsusi rol oynayır və *onlardan hər hansı birinin öz vəzifəsini yerinə yetirməməsi müasir dünyada ayrılıqda götürülmüş heç bir ölkədə demokratikləşməyə keçidə imkan vermir.*

Haşiyə: Demokrat - demokratiyanın memarıdır və demokratsız demokratiya ola bilməz. Buna görə də neototalitarizmin yaranmasında hər bir demokratik qrupun rolunu ayrılıqda nəzərdən keçirmək lazım gəlir. Birincisi, «hakimiyyətdəki demokratlarsız demokratiya olmur» tezisi: Əgər sadə vətəndaşların demokrat olması *fərdi seçimdən asılıdırsa,* hakimiyyətdə demokrat olmaq yalnız və yalnız siyasi hakimiyyətin təbiətindən asılıdır və məmurların demokratik kimliyini rəsmi idarəetmə institutları müəyyənləşdirir, buna görə də *kollektiv seçimə* əsaslanır. Məhz buna görədir ki, dünyanın heç bir demokratik lideri totalitar cəmiyyətdə analoji post tutsa da, demokrat ola bilməz və ya heç bir diktator demokratik cəmiyyətdə diktatorluq edə bilməz. Bu baxımdan *«hakimiyyətdəki demokratlar» dedikdə hakimiyyət institutlarının nə dərəcədə onu təmsil edənlərə demokrat olmaq imkanı verdiyini və ya onları nə dərəcədə diktaturaya meyl etmədən çəkindirmə gücündə olmasını nəzərdə tutmalıyıq, bundan artığı isə «idealistlikdir», fərdi seçimlə şərtlənir və irimiqyaslı*

sosial-siyasi əhəmiyyət daşımadığından, yalnız buna arxayın olmaq olmaz.

Strategiyada hakimiyyəti həyata keçirənlərlə bağlı yazılır: «Çox vaxt demokratiyanın yalnız nümayəndəliyin və xalq hakimiyyətinin bir forması hesab edir, onu həyata keçirənlərin ideya və vəzifələrini nəzərə almırıq». Məncə, bu fikir bütünlükdə politologiya və sosiologiyada bu günədək tamamilə öz həllini tapmamış və əsası A.Q.Tokvil tərəfindən qoyulmuş və zaman-zaman siyasi diskusiya obyektinə çevrilmiş *«idarə edənlərin azadlığı»* və ya *«vəzifəlilərin insan hüquqları»* probleminə bir daha qayıtmağı tələb edir.

Haşiyə: Neototalitar cəmiyyətlərdə hakimiyyət mənsublarının şəxsi hüquq və azadlıqları, vəzifə səlahiyyətləri və imtiyazları ilə bağlı hissəvi anlam *neototalitarizmin hakimiyyət fəlsəfəsinin* əsasında durur. Əslində totalitar düşüncə «xalq hakimiyyətini həyata keçirənlər» anlamını «siyasi hakimiyyəti həyata keçirənlər» anlamı kimi qəbul edir ki, bu da məsələyə neototalitar yanaşmadır: Birincisi, hər bir çoxluğun hakimiyyəti, adından da göründüyü kimi, yalnız çoxluğun hakimiyyətidir və bütöv xalqın hakimiyyəti olmadığından, özünü xalq hakimiyyəti kimi təqdim edə bilməz. İkincisi, nəzərə almaq lazımdır ki, heç bir neototalitar cəmiyyətdə hakimiyyətdə təmsil olunan çoxunluq faktiki çoxunluq deyil, buna görə də bu cəmiyyətlərdə neototalitar çoxunluğu *formal çoxunluq* kimi qəbul etmək lazımdır. Yozef Şumpeter «Kapitalizm, sosializm və demokratiya» adlı əsərində yazır: «Çoxluğun iradəsi çoxluğun iradəsidir, xalqın yox… heç bir liderlik mütləq deyil». Neototalitar liderlər hər şeydən öncə özlərini *mütləq liderlər kimi – alternativsiz lider* olaraq cəmiyyətə qəbul etdirməyə cəhd edirlər. İctimai rəydə manipulyasiyanı gücləndirmək üçün sonradan liderliklərini *əbədiləşdirmə* prosesinə başlayırlar. Sağlığında özünə heykəllər qoydurmaq, adını şəhərlərə, kəndlərə, meydan və küçələrə qoymaq, haqqında cilid-cilid kitablar yazdırmaq, çoxseriyalı filmlər çəkdirmək bu qəbildən olan tədbirlərdəndir. Stalinin keçmiş SSRİ-də, Türkmənbaşının Türkmənistanda, Səddam Hüseynin İraqda özlərini əbədiləşdirmə cəhdləri klassik nümunələrdir və bütün bunların tarixdə müvəqqəti və mənasız olduğunu görə-görə bütün

neototalitar dövlətlərdə liderlər hələ də eyni yolla irəliləyirlər. Halbuki, əsl həqiqətdə heç bir liderlik mütləq olmadığından, siyasi hakimiyyəti həyata keçirənlərin ideya və vəzifələrinin nəzərə alınması yalnız hakimiyyəti təşkil edən azlığın maraqlarına xidmət etmiş olur. Burada xalq hakimiyyətinin demokratik cəmiyyətdə necə həyata keçirilməsinə və çoxunluq hakimiyyətinin xalq hakimiyyətindən necə fərqlənməsinə qısa da olsa aydınlıq gətirməyə ehtiyac duyuram. Qeyd etmək lazımdır ki, *demokratik hakimiyyət siyasi hakimiyyətlə vətəndaş cəmiyyəti hakimiyyəti arasında bölgü ilə reallaşdırılır və ümumxalq hakimiyyəti vətəndaş cəmiyyəti institutları ilə dövlət hakimiyyəti institutlarının harmonik mövcudluğunu tələb edir.* Bunun əksinə, bəzi cəmiyyətlərdə siyasi hakimiyyətlə xalq hakimiyyətini eyniləşdirmək cəhdləri «*totalitar demokratiya*» deyilən vəziyyəti yaradır. Bu gün neototalitarizm tərəfdarlarının ən çox irad tutduqları Qərb demokratiyasının qüsurları da məhz totalitar demokratiyanın qüsurları kimi təzahür edir. F.A.Hayek «Demokratiya nə zaman və niyə böhrana düşüb» adlı məqaləsində bu suala cavab olaraq aşağıdakıları göstərir: «Demokratik idealın düşməsi; qrup maraqlarının dolaşıqlığı; qanunlarla direktivlərin müxalifəti; qanun və hakimiyyətin özbaşınalığı; pis davranışdan özbaşınalığa keçid; və s». Birincisi, göründüyü kimi, müasir inkişaf etmiş *Qərb demokratiyasında böhranın əsas səbəbləri demokratiya ilə yox, yalnız hakimiyyətdəkilərin qüsurları ilə bağlıdır.* Bu qüsurların aradan qaldırılması ilk növbədə idarə edənlərə azadlıq verilməsini yox, onların fəaliyyət azadlıqlarını qanunla məhdudlaşdırılmasını tələb edir. Hakimiyyətdəkilərin azadlıqlarının məhdudlaşdırılması bir tərəfdən səlahiyyətlərin həcminin, digər tərəfdən səlahiyyət müddətlərinin məhdudlaşdırılması ilə həyata keçirilir. Belə ki, bir məmurun və ya komandanın uzun illər ardıcıl olaraq hakimiyyətdə qalması onların öz maraqları ilə dövlət maraqlarını bir-birinə birləşdirməyə imkan verir. Başqa sözlə, «dövlət hakimiyyəti özəlləşdirilir». Hakimiyyətdəkilərin vəzifələrindən sui-istifadə edərək Konstitusiyaya və qanunlara zidd rəsmi əmrlər, sərəncamlar və ya şifahi göstərişlərlə dövləti idarə etməsi demokratiyanı məhv edir və ölkədə «siyasi sifarişlə idarəetmə» vəziyyəti yaranır. O zaman ki, hakimiy-

yətdəkilər siyasi sifarişlə işləyir, onda qanunlar öz gücünü itirir və «*qanun şahdır*» prinsipi «*şah qanundur*» prinsipi ilə əvəz olunur. İkincisi, demokratiyanın hakimiyyətdən qaynaqlanan ciddi qüsurlarından biri də *«imtiyazların» və «toxunulmazlıq statusunun» genişləndirilməsinin* müstəbidliyə yol açmasıdır. *İmtiyaz azadlıqların boğulmasından yaranır.* Həqiqi demokratik cəmiyyətdə imtiyazlar demək olar ki, olmur, toxunulmazlıq isə çox məhdud bir çərçivədə və dar hakimiyyət dairəsi üçün müəyyən edilir. *Toxunulmazlıq statusunun daha geniş dairədə hakimiyyətdəkilərə verilməsi «cinayət azadlığı»na gətirib çıxarır.* Bu qısa şərhdən göründüyü kimi, «xalq hakimiyyətini həyata keçirənlər» demokratikləşmək üçün real təhlükə mənbəyi olduğundan və inkişaf etmiş demokratik ölkələrdə demokratik geriləmələrə gətirib çıxardığından, hakimiyyəti həyata keçirənlərin fərdi ideyaları və rəsmi vəzifələri onların fəaliyyətinin qiymətləndirilməsində və onlara qanuni münasibətdə nəzərə alınmamalıdır. Demokratiyanın əsas vəzifələrindən biri də insanlar qanun qarşısında bərabər olduğundan, *heç bir xüsusi imtiyazı və toxunulmazlığı olmayan sadə vətəndaşların azadlığı ilə xüsusi imtiyaza və toxunulmazlığa malik hakimiyyətdəki vətəndaşların azadlıqlarını tarazlaşdırmaqdır.*

Sadə vətəndaşların azadlığı ilə hakimiyyətdəki vətəndaşların azadlığı biri-birindən necə fərqlənir və hakimiyyətdəki vətəndaşların «insan hüquqları» necə təmin olunmalıdır? Bu problemin həlli siyasi fəlsəfənin əsas məsələlərindəndir və bunun effektli həlli ilə bağlı bu günədək çoxsaylı metod və üsullar meydana çıxmışdır. Bura *qarşılıqlı asılılıq* və *nəzarət* üsulu, vətəndaş cəmiyyəti ilə dövlət hakimiyyəti arasında *tarazlığa* nail olmaq, *məsuliyyətin* artırılması ilə *səlahiyyətlərin* həcminin azalması, eyni zamanda onun sahəsinin daralması və s. daxildir. Demokratiyanın beşiyi başında durmuş mütəfəkkirlər də bizdən yüz il qabaq eyni problemlərlə üzləşmişlər və bu gün bizim üçün də keçərli olan düzgün yollar müəyyənləşdirmişlər. Bu baxımdan A.Tokvilin baxışları diqqətəlayiqdir və haşiyəyə çıxım ki, Qərb demokratiyası da məhz bu yolla getmişdir. Tokvilə görə, «siyasi institutlar sferasına – burada «insan hüquqları»nın bir çox mətnləri ön plana çıxır – demokratiyanın özü-özünü iflic edən

təsirini minimuma endirmək üçün siyasi hakimiyyəti çoxlu sayda və müxtəlif əllərə vermək lazımdır».

Hakimiyyətdəkilərin «azadlığı» məsələsi həm də fəlsəfi məna kəsb edir. Belə ki, hakimiyyətin əsas işi *«dövlət məcburetməsini»* həyata keçirməkdir. Dövlət məcburetməsi vətəndaş azadlıqları ilə əkslik təşkil etdiyindən, məmur azadlığı da vətəndaş azadlığının əksi kimi meydana çıxır. Beləliklə, *məmurlar nə qədər öz vəzifələrində «azadlaşırlarsa», cəmiyyətdə vətəndaş azadlıqları bir o qədər boğulur.* Əksinə, məcburetməni həyata keçirən məmurların azadlığı qanunla nə qədər məhdudlaşdırılırsa, vətəndaş azadlıqları bir o qədər genişlənir və təminat altına alınır. Bütün bunlar iki bir-birinin əksinə olan prinsiplərin meydana çıxmasına səbəb olmuşdur: Vətəndaşlar «*qanunla qadağan edilməyənləri etmək azadlığına*», məmurlar «*yalnız qanunla icazə verilənləri etmək azadlığına*» malik olmalıdırlar. Məmurların «qanunla qadağan edilməyənləri» etməsi vətəndaşların «qanunla qadağan edilmişləri» etmələrinə ekvivalent nəticələr doğurur. Buna görə də vətəndaşlar hakimiyyətin müəyyən etdiyi qaydalara uyğun, hakimiyyətdəkilər isə ona bu qaydaları təyin etməyə imkan verən xalqın verdiyi səlahiyyətlər çərçivəsində fəaliyyət göstərməlidir. Beləliklə də, siyasi hakimiyyəti həyata keçirənlərin heç bir şəxsi və xüsusi ideyası və vəzifələrindən doğan əlahiddə imtiyazları ola bilməz və bunlar yalnız totalitar cəmiyyətlər üçün xarakterikdir. Demokratik cəmiyyətdə yalnız bir halda «hakimiyyəti həyata keçirənlərin ideya və vəzifələri nəzərə alına» bilər ki, hakimiyyəti həyata keçirənlər azad seçkilərdə öz ideyalarını xalqa çatdırıb, onları həyata keçirmək üçün ondan səs alaraq dövlət vəzifələri tutduqdan sonra, buna uyğun fəaliyyət göstərsinlər və bu zaman hakimiyyətdəkilər yalnız qanuni səlahiyyətləri çərçivəsində vəzifələrini yerinə yetirsinlər.

Beləliklə, hakimiyyətdə məsuliyyət və səlahiyyət məsələsi müstəsna əhəmiyyət kəsb etdiyindən və hakimiyyət gücünün monopoliyaya alınmasının, yəni totalitar cəmiyyət yaranmasının qarşısının alınması üçün demokratik cəmiyyətdə *hakimiyyətin ayrılması, bölünməsi və paylanması* həyata keçirilməlidir. Bu məsələ ilə bağlı fikirlərim tərəqqinin fəlsəfəsinə həsr etdiyim və çapa hazırladığım

«İlahi Siyasət» kitabımda olduqca geniş şərh edildiyindən burada qısa şəkildə aşağıdakıları şərh etməyi vacib hesab edirəm. Hər şeydən öncə qeyd edim ki, *hakimiyyətin ayrılması* - siyasi hakimiyyətin dövlət hakimiyyətindən və buna paralel dövlət hakimiyyətini həyata keçirənlərin – dövlət başçısının, (prezidentin) - siyasi hakimiyyətdən, hökumətin siyasi hakimiyyətdən, siyasətin *hakimiyyətdən* ayrılmasını tələb edir.

Haşiyə: Birincisi, dövlət hakimiyyəti bilavasitə Konstitusiya və onun icrasına nəzarət edən dövlət başçısı tərəfindən həyata keçirildiyindən, *dövlət başçısının siyasi hakimiyyətlə birləşməsi onu dövlətin yox, ən yaxşı halda idarəedən siyasi azlığın başçısı səviyyəsinə endirir* və siyasi hakimiyyət dövlət başçısına və dövlət başçısı da siyasi hakimiyyətə qarşılıqlı xidmət edir. Bu məqam «*yuxarıdan başlanan totalitarizm*» üçün xarakterikdir. Beləliklə, postsovet dövlətlərində *dövlət başçılarının paralel olaraq ali icra hakimiyyətinə və hakim partiyaya rəhbərlik etməsi totalitarizmə yol açmışdır.* İkincisi, neototalitar liderlərin hakimiyyətin və çoxluqda olan partiyanın başçısı rolunda çıxış etmələri, onları yerdə qalan böyük çoxluğun, yəni digər siyasi partiya tərəfdarlarının və bitərəflərin təmsilçisi olmaq imkanlarından məhrum edir. Bu bir tərəfdən dövlət başçısının bütün xalqın təmsilçisi kimi legitimliyini aradan qaldırır, digər tərəfdən formal çoxluğun maraqlarına xidmət etməsinə səbəb olur. Neototalitar cəmiyyətlərdə formal çoxluq öz maraqlarını daha geniş və uzun müddətli qorumaq üçün günbəgün dövlət başçısının səlahiyyətlərinin genişlənməsində və uzun müddət hakimiyyətdə qalmasında maraqlı tərəf kimi çıxış edir. Bu gün neototalitar dövlətlərin demək olar ki, hamısı üçün konstitusiyalarındakı prezidentlik müddətinin məhdudlaşdırılması ilə bağlı *konstitusion demokratiyanın* ən vacib şərtlərindən biri haqqında bəndin aradan qaldırılması xarakterikdir. Bu hal liderlərlə yanaşı həm də daha çox hakimiyyəti monopoliyaya almış formal çoxluq rolunda çıxış edən qüvvələrin maraqlarına xidmət edir və bu da *hakimiyyətdən başlanan totalitarizmə* təkan verir. Buna görə də liberallaşma siyasi hakimiyyətlə dövlət hakimiyyətinin əlaqəsinin məqsədə müvafiq qaydada sərhədli olmasını önə çəkir. Con Kin «Demokratiya və vətəndaş cəmiyyəti» adlı kitabında ya-

zır: «Liberalizm, dövlət və hökumət hakimiyyətinin bərabər olaraq onları qanunverici, icra və məhkəmə hakimiyyəti kimi zəruriliyini yalnız o ölçüdə etiraf edir ki, bu hakimiyyət hansısa konkret məqsədə, məhz vətəndaş cəmiyyətində şəxsi azadlıqlarının təsdiqinə xidmət edir. Buna görə də siyasi rəhbərlərin xüsusi öz məhdud səlahiyyətlərində tiraniya kimi istənilən çıxışı liberallar tərəfindən şər və ədalətsizlik kimi pislənir». Bir qayda olaraq, neototalitar liderlərin hakimiyyət səlahiyyətlərinin genişləndirilməsi və hakimiyyətdə qalma müddətlərinin uzadılması inkişaf etmiş bəzi Qərb dövlətlərinin, xüsusən ABŞ-ın təcrübəsi ilə əsaslandırılır. Bununsa heç bir məntiqi əsası yoxdur. Belə ki, bu ölkələrdə ya ABŞ-da olduğu kimi federativ və ya parlamentli respublika formaları mövcuddur. Paralel olaraq bu ölkələrdə prezident hakimiyyəti digər hakimiyyət qollarının və vətəndaş cəmiyyətinin hakimiyyəti ilə elə tarazlaşdırılıb ki, mütləqiyyətə keçid təhlükəsi yox dərəcəsindədir. Neototalitar cəmiyyətlərdə isə bu şərtlərin heç biri olmadığından, liderlərin səlahiyyətlərinin artırılması və hakimiyyətdə qalma müddəti üzərindən məhdudiyyətlərin götürülməsi onları tiraniyaya aparır.

Hakimiyyətin idarəetmədən, hökumətin məmurlardan ayrılması: Bu şərt *idarəetmə bürokratiyasının – dövlət qulluqçularının* siyasi hakimiyyəti həyata keçirən siyasi elitadan ayrılmasını tələb edir. Bir çox ölkələrdə *məmurların partiyasızlaşdırılması* və siyasətlə məşğul olmalarını qadağan edən qanunlar bununla bağlı meydana çıxmışdır. Məmurların siyasətlə məşğul olması siyasi hakimiyyətlə idarəetmənin birləşməsinə gətirib çıxarır. Bu, bir tərəfdən məmurların qüsurlarını hakimiyyət vasitəsi ilə bütün dövlətə sirayət etdirir, digər tərəfdən hakimiyyət cinayətlərinə münbit şərait yaradır. Bununla bağlı C.Kin yuxarıda adını çəkdiyim kitabında yazır: «Bürokratik hakimiyyətə və davam edən iqtisadi rekonstruksiyaya istinad – demokratikləşmədə yeganə əngəl deyil. Bu iki faktor üçüncü ilə – cəlbedici dövlət orqanlarının milli, regional və yerli hakimiyyətlərin ekspansiyası ilə müşayət olunur. Bürokratik hissələr arasında kəskin konfliktlər riskinin artması hökumətdaxili təzyiqi onunla artırır ki, onlar öz siyasətlərini strateji nöqteyi-nəzərdən daha az əhəmiyyətli başqa sahənin hesabına bir sahəni dəstəkləməyə rasionallaşdırsın-

lar». Bu yalnız «bürokratiya və siyasi inkişaf» üzərində həyata keçirilən siyasi hakimiyyətin fəsadı deyil, həm də *dövlət hakimiyyətini şəxsi maraqlara tabe etdirmək üçün neototalitar dövlətlərdə məqsədyönlü şəkildə bürokratiyanı siyasiləşdirmək, onu nəzarətdə saxlamaq və onun vasitəsi ilə dövlət büdcəsini müəyyən bir sahəyə yönəltməklə dağıtmaq məqsədilə həyata keçirilən siyasətin nəticəsidir*. Neototalitar cəmiyyətlərdə *məmurların siyasiləşməsi ilə seçkilərin saxtalaşdırılması və korrupsiya arasında sıx əlaqə vardır və bürokratiya burada körpü rolunu oynayır*. Bununla bürokratiya bir tərəfdən korrupsiyada, digər tərəfdən seçkiləri saxtalaşdırmaqda siyasi hakimiyyətin əlində alətə çevrilir. Neototalitar ölkələrdə buna görə bürokratiya məqsədəyönlü ifrat siyasiləşdirilir. Bəzi dövlətlərin büdcələrində birtərəfli qaydada ayrıca bir sektora, məsələn, tikinti sektoru kimi korrupsiya riski böyük olan xüsusi sektorlara - nəhəng pay ayrılması bunun nəticəsi kimi meydana çıxır.

Hakimiyyətin siyasətdən ayrılması ilk növbədə totalitarizmin qarşısını almaq üçün müəyyən edilmiş prinsipdir. Siyasi leksikonda *hakimiyyətin ideologiyasızlaşdırılması* kimi ifadə olunan bu anlayış hər hansı bir ideologiyanın hakimiyyət ideologiyasına çevrilməsinin qarşısını almağa xidmət edir. Hansı ki, ideologiyanın hakimiyyətlə birləşməsi totalitarizmi təmin edir.

Haşiyə: Qeyd etmək lazımdır ki, ideologiyasızlaşdırma ideyasızlaşma kimi başa düşülməməlidir. Neototalitar cəmiyyətlər üçün xarakterik olan hakimiyyətin ideologiyalaşdırılması fonunda *hakimiyyətdəkilərin ideyasızlığı ən təhlükəli siyasi qüsurlardandır*. İdeyalaşma hakimiyyət daşıyıcılarının eyni zamanda *dəyər daşıyıcıları* kimi çıxış etməsinə səbəb olur. Bu, həm də hakimiyyətdəkiləri qiymətləndirərkən konkret şəxslərə yox, onların ideyalarına qiymət verilməsi ilə əvəzlənir. Nəticədə bir tərəfdən hakimiyyətin içində *şəxsi simpatiya* və *antipatiyadan* asılı olmayaraq eyni ideyalıların komandası yaranır, digər tərəfdən cəmiyyətdə şəxsi maraqlardan doğan «ögey-doğma» münasibətləri inkişaf etmir. Bundan fərqli olaraq hakimiyyətin ideologiyalaşması qapalı siyasi sistem və ya rejim yaratmaqla nəticələnir. Nəticədə hakimiyyət dəyişilmələri sistemin dəyişilməsi ilə müşayət olunur. Bu da dövlətçiliyin varislik prinsipini zəiflədir. Belə ki, hər

bir yeni qüvvə öz ideoloji sistemini yaratmaqla dövləti sosial-siyasi eksperimentlər sahəsinə çevirir ki, bu da «*siyasi bananlaşma*» yaradır. Qeyd etmək lazımdır ki, ideologiyanın siyasiləşməsi ilk növbədə totalitarizm tələb edir. Yəni sistem yaradan hakimiyyət konstitusiya normalarından tutmuş sosial həyatın bütün sahələrində – əmək, din, incəsənət, mədəniyyət və s. - öz qaydalarını müəyyənləşdirir. Bu da cəmiyyətin birtərəfli inkişafı ilə nəticələnir. Siyasətin hakimiyyətdən ayrılması plüral siyasi cəmiyyətdə ən müxtəlif ideoloji qurupların hakimiyyətə gəlməsi şərtində dövlət və hakimiyyət formasının sabit qalmasını təmin edir. Bunun əksinə, siyasətin ideologiyalaşması ilə plüral cəmiyyətdə dövlət və hakimiyyət forması tez-tez dəyişməyə məhkumdur. *İdeologiyanın siyasətdən ayrılması dövlət hakimiyyətinin siyasi hakimiyyət dəyişilmələrindən sığortalayan yeganə dövlət prinsipidir.* Hakimiyyətin siyasətdən ayrılması bir tərəfdən də *iqtisadiyyatın siyasətdən ayrılmasını* tələb edir. Dövlət və iqtisadiyyat münasibətləri siyasi iqtisadiyyatın əsas məsələlərindəndir. Bu, siyasi iqtisadiyyatda LAISSEZ – FAIRE sistemi və ya «müdaxilə etməmə prinsipi» kimi müzakirə olunur. Bəzi siyasi iqtisadçılar dövlətin iqtisadiyyata total müdaxiləsini vacib hesab etmişlər. Dövlətin iqtisadiyyata müdaxiləsi isə son nəticədə totalitar cəmiyyətlərin yaranması ilə qurtarmışdır. Bundan fərqli olaraq bəzi alimlər, o cümlədən C.S.Mill problemə fərqli yanaşır. C.S.Mill «Siyasi iqtisadiyyatın əsasları»nda yazır: «Hökumət xalqın müdafiə etdiyi baxışları seçməlidir və çap olunmuş şəkildə yayılmasına imkan verməmək və ya təqdir olunmuşlardan başqa siyasi, əxlaqi, hüquqi və ya dini təlimlərin kütləvi yayılması haqqında baxışlar demək olar ki, ümumi qəbul edilmiş tezis kimi tam inkar edilir. İndi yaxşı başa düşürlər ki, belə rejim istənilən inkişaf üçün, hətta iqtisadi inkişaf üçün məhvedicidir. Belə ki, qanun qarşısında və ya ictimai rəydən qorxudan ən mühüm problemlərə münasibətdə özünün qabiliyyətlərini azad aşkarlamaq imkanından məhrum insan ağılı ümumi apatiyaya və gücsüzlüyə düşür, hansı ki, müəyyən səviyyəyə çatdıqdan sonra onu hər hansı əhəmiyyətli tərəqqi üçün hətta adi məişət işlərində qabiliyyətsiz edir. Daha yüksək səviyyədə isə əvvəllər əldə edilmişlərin tədricən itirilməsinə səbəb olur…Hökumətin müdaxiləsi xüsusi

şəxslərin azad fəaliyyətinə nəzarətin müəyyən edilməsinədək yayıla bilər. Bütün bunlar – hökumətin direktiv müdaxiləsidir…Dövlət müdaxiləsinin əleyhinə olan digər bir təsəvvür isə onunla bağlıdır ki, hökumətin üzərinə qoyulmuş istənilən əlavə funksiya onun gücünü artırır… Digər bir əsas bundan ibarətdir ki, hətta əgər hökumət millətin ən ağıllı və enerjili adamlarını dövlət strukturlarına yığsa belə, ictimai işin böyük bir hissəsinin maraqlı adamların əlində olması arzu ediləndir… Qısası, laissez – faire ümumi qayda olmalıdır, hansısa nəhəng xeyirə xidmət etməyən ondan istənilən geriləmə aydın şər olacaqdır». Dövlətin iqtisadiyyata müdaxiləsinin ən təhlükəli şəri isə totalitar cəmiyyətin yaranmasıdır. Siyasətin iqtisadiyyatla birləşməsi və ya hakimiyyətin iqtisadiyyata ardıcıl müdaxiləsi bir çox sosial qüsurlarla müşayət olunur. Birincisi, mafiyalaşma, korrupsiya, monopoliya və s. kimi ciddi dövlətçilik qüsurları məhz iqtisadiyyatın siyasiləşdirilməsi nəticəsində yaranır. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində dövlət məmurlarının bizneslə məşğul olması, iqtisadi fəaliyyətdə məqsədlərin seçilməsinə hakimiyyətin müdaxiləsi, iqtisadi planlaşdırma və s. həm iqtisadiyyata, həm də ictimai inkişafa ağır zərbə vurur. Neototalitar cəmiyyətlərdə bütün bunlar hakimiyyətin iqtisadi cinayətkarlığa qarşı mübarizə aparmamasına gətirib çıxarır. İkincisi, neototalitar cəmiyyətlərdə iqtisadi cinayətkarlığa qarşı mübarizə adı altında görülən tədbirlər əslində *iqtisadiyyat üzərində total siyasi nəzarətə* gətirib çıxarır. Halbuki, bazar iqtisadiyyatında biznesə nəzarət yalnız və yalnız maliyyə nəzarəti kimi həyata keçirilir. Hakimiyyət isə yalnız dövlətin maliyyələşdirdiyi sektora sərt nəzarət edir. Üçüncüsü, mülkiyyətin müxtəlif formaları arasında bölgüdə konyukturaya əl atılması neototalitarizmin iqtisadi əsasını təşkil edir. Əslində, *siyasətin iqtisadiyyatdan ayrılması mülkiyyətin dövlətdən ayrılmasını tələb edir.* Bunun əksinə, dövlət nə qədər çox mülkiyyətə sahib olursa, vətəndaşlar bir o qədər iqtisadi azadlıqdan məhrum olur. Bu isə son nəticədə siyasi asılılığa – siyasi azadlıqların boğulmasına və ya vətəndaşların ondan könüllü imtina etməsinə səbəb olur. Dördüncüsü, iqtisadiyyatın siyasiləşməsi nəticəsində iqtisadi və siyasi maraqlar birləşir. Nəticədə hər iki sferada eyni prinsiplər tətbiq olunur. *Siyasiləşmiş iqtisadiyyatın*

əsas bəlası iqtisadi monopoliya olduğu kimi, monopollaşmış iqtisadiyyatın da bəlası siyasi monopoliyadır. Belə iqtisadi sistemdə fəaliyyət göstərən *hakimiyyətin monopoliyaya* alınması, yəni totalitar cəmiyyətin yaranması qaçılmazdır.

Hakimiyyət bölünməsi haqqında orta əsrlərdən başlayaraq ən müxtəlif ideyalar meydana çıxmışdır və hakimiyyətin bölünməsi prinsipi *başlanğıc demokratiya* üçün xarakterikdir. Lakin tarixi təcrübə göstərir ki, *istənilən totalitar cəmiyyətlər belə formal hakimiyyət bölgüsü ilə mövcud ola bilər*. Keçmiş SSRİ-də, müasir Çində, teokratik İranda da formal hakimiyyət bölgüsü həyata keçirilmişdir. Amma bu cəmiyyətlərdə vətəndaş cəmiyyəti institutları yaranmadığından, *demokratik totalitarizm* meydana çıxmışdır. Demokratik totalitarizmin meydana çıxmasının digər bir səbəbi formal hakimiyyət bölgüsü şərtində hər hansı bir hakimiyyət qolunun digərlərinə görə *ifrat «demokratikləşməsi»* - daha geniş hüquq və səlahiyyətlərə malik olmasıdır. Belə bir tərəfli demokratiya da son nəticədə anarxiyaya və ya avtoritarizmə yol açır. A.Tokvil yazır: «Anarxiya – demokratik ölkələrdə baş verən ən pisi yox, ən azıdır». Belə «az»dan fərqli olan ən pislərinə korrupsiya, dövlət terrorizmi, rüşvətxorluq və s. aiddir.

Haşiyə: Totalitarizm siyasi iradənin monopoliyası nəticəsində yaranır. Bu məsələdə parlament xüsusi əhəmiyyət daşıyır. Prezident hakimiyyətini bir nəfər təmsil etdiyindən, Ali icrada plüralizm meydana çıxmır, amma parlament hakimiyyətində təmsilçi çox olduğundan, plüralizmə şərait yaranır, bu isə totalitarizmlə ziddiyyət təşkil edir. Ona görə də neototalitarizm tərəfdarları parlament çoxluğunu istənilən üsulla, o cümlədən qeyri-qanuni yollarla əldə saxlamağa cəhd edirlər. Ali icra hakimiyyətinin parlament çoxluğunu antidemokratik yollarla nəzarətdə saxlaması *neototalitar uzurpasiyanın* ənənəvi formasına çevrilmişdir. Parlament çoxluğunun icraya nəzarət edən gücün əlinə keçməsi ilə icranın qüsurları dövlət səviyyəsinə qalxır. E.Hobsbaum yazır: «Harda ki, hakimiyyət parlament çoxluğu əldə edir, korrupsiya ilə parlamentin qeyri-stabilliyi öz aralarında əlaqəlidir». Əlavə şərh etmədən parlamentin arifmetikası ilə korrupsiyanın əlaqəsini Azərbaycan nümunəsində görmək olar.

Dünya Bankının hesabatlarında Azərbaycanda kölgə iqtisadiyyatı ümumi iqtisadiyyatın 60 faizini, müstəqil ekspertlərə görə isə bir qədər də çoxunu təşkil edir. Uzun illərdir ki, Azərbaycanda parlamentdə hakimiyyət çoxluğu da formal olaraq elə bu faizi təşkil edir. Buradan da demokratik prosedurların dövlətçilik üçün nə qədər önəm daşıdığı və «niyə seçkilər saxtalaşdırılır» sualının cavabı aydınlaşır. Başqa sözlə, hakimiyyətin hər hansı bir qolunun tam hökmranlığı, digər hakimiyyət qollarından və vətəndaş cəmiyyətinin təsirindən kənarda qalması totalitar demokratizmə gətirib çıxarır. F.A.Hayek hakimiyyət qollarının birtərəfli azadlıq əldə etməsi – *məhdudlaşdırılmayan demokratiya* ilə bağlı yazır: «Sadəcə demokratiya yox, heç bir şeylə məhdudlaşdırılmamış demokratiya bu günün problemidir… Əsrlərlə icra hakimiyyətinin məhdudlaşdırılmasına cəhd edilib, nəticədə tədricən bu, konstitusiyanın inkişafına səbəb olub. Sonra nədənsə qərara gəliblər ki, hakimiyyətin fəaliyyətinə çoxluq tərəfindən seçilmiş nümayəndələr tərəfindən nəzarət digər bütün nəzarətləri yersiz edib, beləliklə, əsrlərlə yaradılmış konstitusion nəzarət tədbirləri sıradan çıxıb. Çoxluğun nümayəndələrinin ağlına gələn hər şeyi qanun adlandırmaq, məmurların verdiyi direktivləri hakimiyyət tərəfindən qanunaltı qəbul etmək gülünc şeydir. Söhbət özbaşınalığın hakimiyyətindən gedir. Qeyri-məhdud demokratiya istənilən tiraniyadan heç nə ilə fərqlənmir. Qanuna tabe olan hakimiyyət və çoxluğun təmsilçiliyinin qeyri-məhdud hakimiyyəti – iki bir araya sığmaz anlayışlardır». Bu gün neototalitar dövlətlərdə *çoxluğun təmsilçiliyi adı altında qeyri-məhdud hakimiyyətin yaranması demokratikləşmənin qarşısında duran ən ciddi problemlərdəndir.* Bu problemin həlli *hakimiyyətin paylanması* prinsipindən keçir. Hakimiyyətin paylanması dedikdə hər hansı bir hakimiyyət qoluna xas hakimiyyətin vəzifə ierarxiyası üzrə şaquli istiqamətdə bürokratiya arasında paylanmasını nəzərdə tutur. Bu gün neototalitar dövlətlərdə hər hansı bir nazir müavini nazirin xəbəri olmadan bilavasitə öz vəzifə səlahiyyətinə aid olan işlərlə məşğul olmaq hüququna və imkanına malik deyil. Eləcə də nazir prezidentin xəbəri olmadan qanunla ona verilmiş səlahiyyətləri birbaşa həyata keçirə bilmir. Hətta Ali İcranın nəzarətində olan parlamentlər dövlət başçılarının

«icazəsi» olmadan qanunvericilik fəaliyyətiylə məşğul olmur. Siyasi hakimiyyətdə *icazə prinsipi* qanuni səlahiyyətlərin icrasının əlavə şərti kimi neototalitarizmin idarə mexanizmlərindəndir. Halbuki, icazə prinsipi ləğv edilmədikcə və hakimiyyətin paylanması – dövlət başçısından kiçik dövlət məmurlarınadək tətbiq edilmədikcə, hər hansı bir cəmiyyətin demokratikləşməsini gözləmək əbəsdir. Səlahiyyətlərin icazə prinsipi ilə icrası ilk növbədə *icraya görə cavabdehlik hissini* heçə endirir. Belə ölkələrdə korrupsiya və rüşvətin dövlət səviyyəsinə qalxmasının da səbəbi budur. *Neototalitarizm sosial əyintiləri leqallaşdırır, dövlət siyasəti səviyyəsinə qaldırır.* Digər tərəfdən, qeyri-məhdud hakimiyyəti mənimsəmiş hakimiyyət qolu digərlərini gücsüzləşdirərək onların formal fəaliyyət göstərməsinə səbəb olur. C.Kin yazır: «Total cəmiyyətdə vətəndaş cəmiyyətinin süqutu parlamentarizmin klassik liberal formasını ləğv edir, o «boş aparat»a çevrilir… total cəmiyyətdə vətəndaş cəmiyyətinin məhv olması – dövlətin vətəndaş cəmiyyətinin qarantı və xidmətçisi olması haqqında liberal illüziyanı məhv edir». Beləliklə, *vətəndaş cəmiyyətinə hücuma paralel parlamentin səlahiyyətsizləşdirilməsi ilk növbədə dövlətçilik şüuruna qəsddir, eyni zamanda vətəndaşları dövlətdən və milli mənafelərdən uzaqlaşdırmaqdır.* Məhz elə buna görə də 2005-ci il parlament seçkiləri ilə bağlı ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanda parlamentin real siyasi gücə malik olmaması xüsusi ilə qeyd edilmişdir. Bu da məhz C.Kinin qeyd etdiyi kimi, vətəndaş cəmiyyətini məhv edən totalitarizmin əlamətlərindən biri və ən təhlükəlisi kimi bu ölkədə demokratikləşməyə imkan vermir.

Demokratikləşmə *iradə bildirməklə bağlı olduğundan,* qısa da olsa vətəndaşların siyasi iradəsi ilə siyasi hakimiyyət arasındakı əlaqəyə aydınlıq gətirmək istəyirəm. F.Tyennis «Birlik və cəmiyyət» adlı kitabında iradə ilə bağlı yazır: «İnsan iradəsi bir-birinə münasibətdə çoxformalı münasibətdə olur. Hər bir belə münasibət özündə hansısa qarşılıqlı təsiri təqdim edir, hansı ki, bir tərəfdən meydana gəlir və ya icra olunur, başqası tərəfindən dözülür və ya qəbul edilir. Belə təsir elədir ki, başqa iradəni ya bədəni saxlayır, ya da məhv edir, təsdiqedici və ya inkaredici olur…qarşılıqlı təsdiqedici münasibət hansısa birliyi çoxluqda və ya çoxluğu birlikdə təqdim

edir». Hakimiyyət iradəsi vətəndaşların iradəsinə təsirdə qəbul edilən, təsdiqedici olduqda və vətəndaşların iradəsinin saxlanmasına yol verdikdə demokratikləşmə başlayır. Əksinə, hakimiyyət iradəsi vətəndaşların iradəsini məhv etdikdə, vətəndaşlar belə iradəyə dözdükdə, totalitarizm başlayır. Neototalitarizmin totalitarizmdən fərqi vətəndaşların iradələrini məhv etmək yox, deformasiya etmək məqsədi güdülməsidir. Ümumiyyətlə, iradə özü də iki cür təzahür edir. F.Tyennis iradəni – *mahiyyət iradəsinə və seçici iradəyə* bölür. O, yazır: «Mahiyyət iradəsi – hər bir insanın özünü tamda – vətəndaşın cəmiyyətdə – əlaqəsini qəbul edir, özünün təkliyini, hisslərini, meyllərini real və təbii çoxformalılıqdan aşkarlayır. Düşüncə olan iradə – mahiyyət iradəsidir. Bunun əksinə, düşüncədə iradə olanda seçici iradə meydana çıxır. Seçici iradə düşüncənin doğduğudur və həqiqiliyin daşıyıcılarından asılıdır». Beləliklə, *mahiyyət iradəsi təbii hüquqların, seçici iradə isə siyasi hüquqların əsasında durur.* Klassik totalitarizmdə hər iki iradə hakimiyyətdən asılıdır, neototalitar cəmiyyətlərdə isə mahiyyət iradəsi nisbətən azad, seçici iradə asılıdır. Yəni insan öz düşüncəsinə görə yox, hakimiyyətin düşüncəsinə uyğun hərəkət etməyə məcbur edilir. Neototalitar cəmiyyətlərdə hakimiyyətdə olanlar da seçici iradədən məhrum edilir. Belə hakimiyyətlə demokratikləşmə ziddiyyət təşkil edir. Başqa sözlə, hakimiyyətdə demokrat insanlar olduqda demokratikləşmə başlayır. Məhz hakimiyyətdəkilərin tutduğu vəzifələrdən sui-istifadə edərək öz maraqlarına xidmət edən xüsusi ideyalarını reallaşdırması vəzifə cinayətkarlığına yol açır ki, demokratiya da məhz hakimiyyətin bu qüsurunu aradan qaldırmaq üçün onu həyata keçirənlərin öz xüsusi ideyasını və öz maraqlarını təmin etmək vəzifələrini nəzərə almamağı tələb edir və qanun qarşısında bərabərlik prinsipini üstün hüquqi gücə malik norma kimi qəbul edir. Beləliklə, demokratikləşmənin birinci şərti hakimiyyətdə demokratların olmasıdır. Hakimiyyətdə demokratların olmadığı cəmiyyətlərdə yalnız cəmiyyətdəki demokratların azadlıq istəyi ən yaxşı halda *vətəndaş qarşıdurmasına* səbəb ola bilər. Raymon Aron «Demokratiya və totalitarizm» adlı əsərində yazır: «Hakimiyyətin aliliyi qanuniliyi ilə bağlıdır». Başqa sözlə, hakimiyyətdəkilər qanuna uyğun fəaliyyət göstərdikcə toxu-

nulmaz ola bilərlər. *Qanunu pozan hakimiyyət öz toxunulmazlığını faktiki olaraq özü aradan qaldırdığından, beynəlxalq hüquqda vətəndaşlara «hakimiyyətin özbaşınalığına üsyan hüququ» demokratik norma kimi meydana çıxıb.* Məhz buna görə *vətəndaşın vəzifəlilərin öz qeyri-qanuni ideyalarını rəsmi dövlət vəzifələrində həyata keçirmələrinə müqavimət hüququ var* və belə müqavimət istənilən dövlətçiliyin təməlində durur. Bu, hər şeydən əvvəl ilahi bir prinsipdir. «Qurani-Kərim»də, Bəqərə surəsinin 194-cü ayəsində buyrulur: «Sizə qarşı həddini aşanlara siz də həmin ölçüdə həddi aşın». Bu, beynəlxalq hüquqda «aqressiyaya qarşı müqavimət» kimi, cinayət hüququnda «zəruri özünü müdafiə həddi» kimi müəyyən olunub. Amerika demokratiyasının banilərindən biri olan Medisson da belə hesab edirdi ki, «vəzifəli şəxslərin düşünülmüş cavabdehliyi bu şəxslərin səlahiyyətinin əhatə etdiyi məqsədlərin dairəsi ilə məhdudlaşdırılmalıdır». Beləliklə, hakimiyyət vəzifəsi tutmuş adamların ictimai nəzarətdən kənarda saxlanılması, onlara xüsusi imtiyazlar, toxunulmazlıq pərdəsi altında məsuliyyətdən yayınmalarına imkan verilməsi formal hakimiyyət bölgüsünün demokratlarsız həyata keçirilməsi ilə müşayət olunur ki, Qədim Roma dövlətində respublikanın məhv olmasının səbəblərindən biri də bu olmuşdur. Medisson 2 fevral 1788-ci ildə deyirdi: «Respublikada xalqın hüquqlarını idarə edənlərin əsarətindən qorumaq vacibdir, eyni dərəcədə izləmək lazımdır ki, cəmiyyətin bir hissəsinin hüququ digərinin üzərində dayanmasın».

Strategiyada Azərbaycanda demokratikləşdirmənin yubadılması belə əsaslandırılır: «Sabitlik olmayan yerdə demokratiya və vətəndaş cəmiyyəti barədə hər hansı söhbətin mənası yoxdur». Əslində bu fikrə etiraz etmək düzgün olmazdı. Amma burada əsas mübahisəli məsələ «sabitlik» anlayışının necə anlanılmasıdır. Neototalitar anlama görə, insanların dövlət və cəmiyyət həyatında passiv mövqe tutması, hər cür sanksiyalaşdırılmamış güclə tərəf müqabillərinin susdurulması, təzyiq və repressiyalarla vətəndaşların ölkəni tərk etməsi ilə respublikada etiraz səslərinin kəsilməsi - sabitlikdir. Lakin demokratiyaya görə, eləcə də bütün dünyada qəbul edilən sabitlik - idarə edənlərlə idarə olunanların bir-birini qəbul etməsi, hamının qanun qarşısında bərabərliyi, rəsmi dövlət orqanlarının xalq

qarşısında hesabatlılığı, ictimai münasibətlərin qanunvericilikdə əks olunması və ictimai güclərin ictimai dəstəyə uyğun hakimiyyətdə təmsil olunması, nəhayət, hakimiyyət dəyişilmələrindən və islahatlar nəticəsində dağılmadan sığortalanmış möhkəm dövlət strukturlarının mövcudluğudur. Başqa sözlə, sabitlik həqiqi vətəndaş cəmiyyətinin əsas əlamətlərindəndir. Vətəndaş cəmiyyəti isə vətəndaşsız olmur. Buna görə də demokratikləşmə teatrının baş aktoru ilk növbədə dövlətin *vətəndaşlarıdır. «Vətəndaş» ifadəsi boş bir söz deyil və hər şeydən öncə rəiyyətdən, təbəədən, hümmətdən məhz demokratiya daşıyıcısı, hüquqi subyekt olması ilə fərqlənir və dövlətlə yalnız vətəndaş sazişi-hüquq və vəzifələr əsasında əlaqələnir.* Vətəndaş bu mənada dövlətlə təklikdə tərəf müqabil kimi çıxış edən sosial-siyasi *vahiddir,* hansı ki, özündən sonrakı vətəndaş cəmiyyəti və dövlət üçün bazis rolunu oynayır. Bəs kim və necə vətəndaş ola bilər, başqa sözlə, necə demokrat, yəni vətəndaş olmaq olar?. F.Fukuyama «Tarixin sonu və sonuncu adam» əsərində yazır: «Demokratsız, başqa sözlə, demokratiya arzulayan və onu formalaşdıran, özü də onunla formalaşan xususi demokrat insansız demokratiya yoxdur». Bəs kimdir bu demokrat, onu necə tanımaq olar, onu iqtidarlar yetişdirə bilərmi? Bu sualların cavabını Fukuyama yuxarıdakı fikirlərində belə dəqiqləşdirir: *«Demokratlar - demokratiya arzulayan, onu formalaşdıran və onunla formalaşan insanlardır».*

Haşiyə: Birincisi, neototalitarizm – məhz demokratiya arzulamayanların və onu formalaşdırmaqdan imtina edənlərin və bununla da vətəndaşları da bu prosesdən imtinaya məcbur edənlərin hakimiyyətidir. İkincisi, neototalitar cəmiyyətlərdə «demokrat» adını hakimiyyətin icazəsi və razılığı ilə daşımaq olur. Başqa sözlə, neototalitar cəmiyyətlərdə hakimiyyətlərin beynəlxalq ictimaiyyətə təqdim etdiyi «demokratlar və vətəndaş cəmiyyəti institutları» siyasi hakimiyyətin seçimi ilə müəyyənləşir. Real demokratlar isə ən müxtəlif adlar altında inkar edilir. Belə qüvvələrlə əməkdaşlıq edən beynəlxalq təşkilatlara düşmən münasibəti bəslənir. Biz bunun bariz nümunəsini Türkiyəyə pənah aparmış özbək demokratları ilə bağlı Özbəkstanın Türkiyədən elçilərini geri çağırması və bu ölkə ilə bütün əlaqələrini birtərəfli dondurması faktında görə bilərik.

Aydındır ki, kiməsə demokrat vəzifəsi və ya müxalifətçilik funksiyası verməklə demokrat yetişdirmək olmaz. «Demokratiya arzulayan» insan kimdir və biz onu necə tanıya bilərik? Bu sualın cavabını Hegelin cəmiyyət həyatında insanın başlıca istəyi və onun tələbləri ilə bağlı, başqa sözlə, ictimai mübarizənin səbəbləri haqqında fikirlərində tapmaq olar. Hegelə görə, insanın başqalarından, cəmiyyətdən və dövlətdən bir tələbi var - «başqaları tərəfindən tanınma, özü də insan kimi tanınma» və o, bu tələbi naminə ictimai mübarizədə iştirak edir. Hegel hətta cəmiyyət tiplərinin yaranmasını da məhz bu cür tanınma tələbi ilə izah edir. O, iki cür tanınma – *izotomiya və meqalotomiya* ayırd edir. Hegelə görə, «izotomiya başqaları ilə bərabər olmaq, meqalotomiya – onun hakimiyyətinin tanınmasını və onu Bethovenin ən yaxşı interperatoru kimi qəbul edilməsini istəyir». İzotomiya demokratiyanın, meqalotomiya avtoritarizmin əsasında durur və bir qayda olaraq vətəndaşlar izotomiyaya, hakimiyyətdəkilər isə meqalotomiyaya cəhd edir. Neototalitar liderlərin özünü dövlətin ən yaxşı idarə edəni kimi təqdim etməsi məhz meqalotomiya əlamətidir. Bu baxımdan, *tanınma uğrunda - hüquq bərabərliyi və azadlıq uğrunda mübarizə aparmayan demokrat ola bilməz.* Demokrat olmaq üçün, Hegelin dediyi kimi, «yalnız həyatla risk etməklə azadlıq əldə etmək olar», nəinki iqtidarların planları və göstərişləri əsasında. Üçüncüsü, neototalitarlar özlərinin demokratikləşməyə başlamamalarına və ya ona müqavimət göstərmələrinə əsas arqument kimi «xalqın demokratiya üçün hazır olmadığını» göstərirlər. Xalqın demokratiya üçün yetişməsini gözləməklə demokratikləşməyə nail olmaq olarmı? Bu sual ona görə aktualdır ki, bir çoxları, hətta qərbli «demokratlar» «xalqlar demokratiyaya hazır olandan sonra demokratiyaya keçmək olar» kimi heç bir məntiqi əsası olmayan ideyalarla çıxış edirlər. Əvvəla, xalq necə və hansı yolla demokratiyaya hazırlaşa bilər? Xalqı demokratiyaya planlı şəkildə hazırlamaq mümkündürmü? Karl Yaspers «AFR hara gedir?» adlı məqaləsində yazır: «Xalq demokratiya üçün öz siyasi aktivliyi prosesində yetişir… xalqa siyasi fəaliyyətdə iştiraka imkan verməyəndə onun yüksəlməsi üçün heç bir üsul qalmır. Siyasi yetkinlik öz-özünə baş vermir». Bəs hər hansı bir aktivliyi amansızcasına yatır-

maqla, xalqı siyasi fəaliyyətdən kənarda saxlamaqla, konstruktiv konfliktləri boğmaqla, rəqabətdən qaçmaqla, iqtisadi və siyasi monopoliya yaratmaqla postsovet respublikaları hara gedir? Həqiqətən də xalqın siyasi aktivliyi demokratiyaya keçiddə bir çox problemlərlə, bəzən qarşıdurmalarla müşayət olunur. Amma əksər mütəfəkkirlər bu fikirdədir ki, «insanlığın tarixi, konfliktlərin və ixtilafların tarixidir» (E.From) Elə Karl Marksın ictimai fikir tarixində ən böyük kəşfi və marksizmin əsas müddəası tarixin «siniflərin mübarizəsi tarixindən» ibarət olmasıdır. Bu baxımdan cəmiyyətdə sakitlik təkcə demokratiyaya mane olmur, həm də xalqı öz tarixini yaratmasından kənarda saxlayır. Bir qayda olaraq avtoritar rejimlər sakitliyi önə çəkərək zorakılığa, gücə, polisə və orduya üstünlük verirlər. Belə şəraitdə *apolitik vəziyyətə* düşmüş cəmiyyətdə demokratlar meydana çıxmır və xalq bütünlüklə demokratiyaya hazırlaşmır. Buna görə də proseslərin xaosa səbəb olmasının qarşısını almaq çərçivəsindən kənarda cəmiyyətdə siyasi aktivliyin hər hansı ad altında qarşısının alınması milli maraqlara ziddir. Qərbin və ABŞ-ın demokratikləşmə yolu bir daha göstərir ki, cəmiyyətlər məhz bu yolla demokratikləşə bilər. *Dördüncüsü, demokratikləşmə yalnız hər bir fərdin spontan və avtonom ictimai fəallığı ilə bağlıdır* və bu, siyasi məsələdən daha çox *psixoloji və mənəvi məsəlidir*. Belə ki, insan yerdə qalan bütün canlılardan fərqli olaraq, yalnız bilavasitə *özüöyrənməklə* həyat və yaşam təcrübəsi əldə edir. E.Fromm «Azadlıqdan qaçış» kitabında uşaqların formalaşması ilə bağlı yazır: «Uşaq ətraf mühiti bilavasitə öz fəaliyyəti ilə mənimsəyir». Eləcə də, *insanlar demokratiyanı müstəqil mənimsəməklə demokratlara çevrilə bilər*. Birbaşa iştirakçılıqla mənimsəmə arasındakı əlaqəni strukturalizmin qabaqcıl nümayəndələrindən Tomas Hoyrupun «Həyat modelləri» adlı əsərində yazdıqlarından da görmək olar. O, yazır: «Həyat obrazı məntiqi – insanın ətraf mühiti bilavasitə öz təcrübi fəaliyyəti ilə dərk etməsi, buna görə də dünyanın necə olması haqqında nöqteyi-nəzərin mövcud olmaması - struktur mühakiməsinə əsaslanır». Əgər «ətraf mühiti yalnız öz fəaliyyəti ilə mənimsəmək» mümkündürsə, onda vətəndaşlar siyasi həyatda bilavasitə iştirak etməməklə, hətta onların iştirakı olmadan yaradılmış, demokratik mühiti necə mənimsəyə bilər-

lər? Beşincisi, demokratiyanın qüsurlarını qabardaraq demokratikləşmənin əleyhinə getmək neototalitar idarəçilik üçün xarakterikdir. Strategiyada Saymon Çennisin məqaləsindən aşağıdakı sitat gətirilir. «Görünür, demokratiya bu gün heç də yaxşı vəziyyətdə deyil. Demokratiya həmişə qeyri-mükəmməl olmuşdur. «Özünü idarə» anlayışı «özünü» sözü ilə qırılmaz əlaqəsini itirdiyi andan həmişə müxtəlif ölkələrə və xalqlara uyğunlaşdırılmışdır». Bu fikirlə tamamilə razılaşaraq öncə qeyd etmək istəyirəm ki, vətəndaşları ictimai fəallıqdan kənarda saxlamaqla istənilən *«milli demokratik model»* hazırlamaq mümkündür ki, neototalitar dövlətlər üçün belə milli model yaratmaq əsas hədəfdir. Saymonun dediyi kimi, *«özünü idarə»* olmadan xalq demokratikləşə bilməz. Qeyd edim ki, yalnız «özünü idarə» demokratikləşmə üçün yetərli deyil və azad cəmiyyət həm də öz iradəsi, öz rəhbərliyi, öz iştirakı, özünütəşkil, özfəaliyyət və özünənəzarət tələb edir. Mən bu baxımdan demokrat adamı *HOMO PERPETUUM* adlandırıram. Homo perpetuum da «perpetuum moble» kimi kənardan ciddi sərt təsir olmadan müstəqil pozitiv fəaliyyət göstərən insan deməkdir. Nəyə görə insan üçün həyatda və fəaliyyətdə «özünün» iştirakı bu qədər vacibdir? Bu, demokratiyanın əsasından *iştirakçılıq* prinsipini meydana çıxarıb. Strategiyada Çar Rusiyasının maliyyə naziri S.Vittenin belə bir fikri sitat gətirilir: «Dövlət yaratmaqdan daha çox təkmilləşdirilir, əsl yaradıcılar isə bütün vətəndaşlardır… müstəqilliyi pəncəsinə keçirmək yox, onu inkişaf etdirmək və ona hər vasitə ilə kömək etmək lazımdır». Mən də bu fikirlərin altından böyük məmnuniyyətlə öz imzamı atardım. S.Vittenin fikirlərindən görünür ki, dövlətin təkmilləşdirilməsində bütün vətəndaşlar iştirak etməlidir. Başqa sözlə, dövlət hər hansı bir qüvvə tərəfindən və ya bu qüvvənin formalaşdırdığı ayrı-ayrı süni qurumlar tərəfindən yox, vətəndaşların spontan və avtonom özfəaliyyəti nəticəsində yaradılmalıdır, onların *özfəaliyyəti və özünütəşkil, özünüidarə* yolu ilə yaratdıqları təşkilatlar vasitəsi ilə təkmilləşdirilməlidir. Özfəaliyyətin spontan və avtonom şəkildə qurulması demokratikləşmək üçün hava-su kimi lazımdır. Buna görə də vətəndaşları belə fəaliyyətə səfərbər etmək vacibdir. K.Manheym müasir dövrdə demokratik geriləmələr haqqında yazır:

«Biz demokratiyanı yaşatmaq istəyiriksə, o döyüşkən olmalıdır». Nə üçün demokratiya döyüşkən olmalıdır? Manheym bunu belə əsaslandırır ki, «istənilən ölkədə diktaturanın döyüşkən ruhu öz vətəndaşlarının ümumi dəyərlər sistemini sarsıdır və ona sosial barışdırıcı köynəyini geyindirmək istəyir». Beləliklə, diktatura meylləri gücləndikcə vətəndaşlar spontan və avtonom şəkildə ona qarşı durmalıdırlar. *Demokratiya döyüşkən olmadıqca iqtidarlar diktaturanın köynəyini zorla da olsa xalqa geyindirəcəklər.* Dövlətlə bağlı olan demokratiya təkmilləşmədir, təkmilləşdirmə yox, yaranmadır, yaradılma yox. Və demokratlar cəmiyyətdə plana uyğun şəkildə yox, cəmiyyət güclərinin spontan və avtonom fəallığı ilə yaranır. Neototalitar dövlətlərin iqtidarlarının vətəndaş cəmiyyəti yaratmaq iddiaları ən pis *sosial mühəndislik* nümunəsidir. Hansı ki, bunun acı meyvələrini milyonlarla keçmiş SSRİ vətəndaşı öz şəxsi talelərində bilavasitə dadmışlar. Digər tərəfdən, Vittenin qeyd etdiyi kimi, «dövlətin təkmilləşdirilməsi»nə yalnız iqtidarın təyin etdiyi və seçdiyi kimsələr yox, bütün vətəndaşlar azad şəkildə dövlətin yaradıcıları kimi çıxış etməlidir. S.Smayls «Özüinkişaf» adlı kitabında yazır: «Özünüinkişaf digər müstəqil işlər kimi əqli, gücü və xarakteri möhkəmləndirir». Hansı ki, bunlar demokrat insan üçün ən vacib pozitiv keyfiyyətlərdir. Qeyd edim ki, yalnız insan bu qanunauyğunluğa tabe deyil, hətta ən yırtıcı heyvanlar belə, zoopark, sirk şəraitində və ya vəhşi təbiətdən təcrid olunmuş vəziyyətdə olduqca zəif və bacarıqsız məxluqlara çevrilirlər və onların reabilitasiyası – yenidən öz vəhşi təbiətlərinə qayıtması üçün böyük səy və vaxt tələb olunur. Bu baxımdan «*sosial zoopark*», «*sosial sirk*» şəraitində qapalı cəmiyyətlərdə kimsə öz insani təbiətini tam həcmdə qoruyub saxlaya bilməz. İnsanlar cəmiyyətdə yalnız dövlətin təsiri altında deyil, eyni zamanda istənilən cəmiyyətdə, hər bir vətəndaş sonsuz sayda xarici təsir altındadır və müasir dünyada – internet əsrində - kimsə buna mane ola bilməz və çoxtərəfli təsirə məruz qalan insanın isə yeganə xilaskarı yalnız o özü ola bilər. S.Smayls yazır: «İnsan şəxsiyyəti sonsuz sayda şərtlərin təsiri altında formalaşır… amma bu təsirlərin əhəmiyyəti nə qədər çox olsa da öz həyatına özü rəhbərlik etməlidir və başqalarının dəstəyindən imtina etmədən yalnız

özü-özünə arxayın olmalıdır». Qeyd edim ki, yalnız təkcə dövlət təsirində olan şəxs və ya xalq apolitik vəziyyətə düşür, dövlətin və cəmiyyətin həyatında iştirakdan yayınır, digər tərəfdən, istənilən zərərli xarici təsirlərə immunitetini itirir. Bu baxımdan neototalitar dövlətlərin vətəndaşları yalnız dövlətin nəzarəti altında saxlamaq cəhdi demokratikləşmənin və dövlətçiliyin qarşısında duran ən ciddi problemdir. Altıncısı, *demokratiya yaşam tərzi olmaqla yanaşı, həm də düşüncə tərzidir.* Əsl həqiqətdə demokrat həqiqi sağlam müstəqil düşüncəyə malik şəxsiyyətdir. Bu baxımdan vətəndaşlarda həqiqi düşüncənin və ya *psevdodüşüncənin* yaranması ilə demokratiya arasında sıx əlaqə vardır. E.Fromm psevdodüşüncə haqqında yazır: «Xüsusi psixi fəaliyyətin, öz şəxsi düşüncəsinin məhsulu olmadan düşüncə – psevdodüşüncədir». Bu gün istər neototalitar iqtidarların, istər Qərbin demokratik institutlarının, istərsə də demokratik müxalifətin *siyasi passiv halda vətəndaşlara demokratik düşüncə aşılamaq cəhdi ən yaxşı halda onlarda psevdodüşüncə formalaşdırır,* hansı ki, bu düşüncə altında vətəndaşlar bir qayda olaraq ictimai maraqlara zidd fəaliyyətə üstünlük verir və ya da demokratiyaya *nihilistik* yanaşırlar. Məhz buna görədir ki, 17 ildir müstəqillik əldə etmələrinə və guya demokratik kurs götürmələrinə baxmayaraq, hələ də postsovet məkanının vətəndaşlarında demokratik düşüncə ümumi keyfiyyətə çevrilməmişdir. Unutmaq olmaz ki, psevdodüşüncə ilə heç bir xalq heç vaxt demokratiyaya keçə bilməz. Nə üçün demokratikləşmə üçün planlı inkişaf yolverilməzdir və demokratikləşmə yalnız hər bir fərddən spontan və avtonom fəaliyyət tələb edir? Nə üçün insan yalnız özü demokrat ola bilər, başqaları onu demokrat edə bilməz? Bu suala cavab kimi Leonard Hobhaus «liberalizm» adlı kitabında yazır: «İdeal cəmiyyətdə hər biri özünə xas inkişaf edən və öz təbiətinə görə başqa hissələrin sonrakı inkişafına öz təbiətinə uyğun olaraq bütünlükdə cəhd edən, öz hissələrinin harmoniyasının böyuməsi ilə yaşayan və çiçəklənən tam kimi çatmaq olar». Başqa sözlə, hər bir fərd, qrup, təşkilat ayrılıqda, müstəqil, özünə xas, özünüidarə ilə ictimai həyatda iştirak edərək özü kimi belə keyfiyyətlərə malik digər qruplarla bir tam kimi əlaqələndikdə demokratikləşmə baş tutur. Qeyd etmək lazımdır ki,

demokratiya yalnız pozitiv insan keyfiyyətlərinə əsaslanan siyasi vəziyyətdir. İnsanların təbiətində olan rasional və irrasional keyfiyyətlər isə yalnız onların özləri tərəfindən üzə çıxarıla bilər. Təbii ki, sual doğa bilər, əgər siyasi fəallıqda insanlar həm də irrasional keyfiyyətlərini – aqressivlik, destruktivlik və s. kimi keyfiyyətlərini də üzə çıxarırsa, onda hakimiyyət azadlıqlara necə yanaşmalıdır? Məhz bu sualın cavabı *«azadlıq və məcburetmə»* kimi biri-biri ilə əkslik təşkil edən qarşılıqlı mübarizədə və vəhdətdə olan hakimiyyət anlamlarının total mənasındadır. L.Hobhaus yazır: «Azadlıq və məcburetmə bir-birini qarşılıqlı tamamlayan funksiyalardır və özünü idarə edən dövlətdə eyni zamanda fərdin özünü idarə etməsidir». Bu o deməkdir ki, vətəndaş özü-özünü pozitiv keyfiyyətləri ilə, dövlət isə onun neqativ keyfiyyətləri ilə onu idarə etməlidir. Başqa sözlə, *dövlət yalnız fərdin öz fəaliyyəti ilə zərurətə çevirdiyi məcburetməyə əl ata bilər. Amma belə məcburiyyətə əl atılmasına əsas verməyənlərin özünü idarəetməsinə dövlətin müdaxiləsi və onlara məcburiyyət tətbiq etməsi totalitar və avtoritar dövlətlərə xasdır* və belə dövlətlər üçün azadlıqların boğulması xarakterikdir. Məhz buna görə də liberalizmə görə, «dövlətin vəzifəsi – normal, sağlam vətəndaşların özünü təsdiqi üçün şərait təmin etməkdir». Özünü təsdiq həm ictimai, həm siyasi sferada təmin edildikdə həqiqi məna kəsb edir. Bu baxımdan siyasi hakimiyyət uğrunda və dövlətin idarə olunmasında vətəndaşların özünü təsdiqinə şəraitin yaradılmaması və ya onların belə cəhdlərinin qarşısının alınması qüsurlu dövlət təcrübəsindən xəbər verir. Beləliklə, azadlıq şəraitində özünü cinayətkar kimi təsdiq edənlər - dövlət tərəfindən cəzalandırılmalı, özünü vətəndaş kimi təsdiq edənlərin - dövlətdə və ictimai həyatda azad iştiraklarına şərait yaradılmalıdır. Bunun əksinə, *bütün vətəndaşlara total məcburetmənin tətbiq edilməsi hamını cinayətkarlarla bir sıraya qoyur.* Psevdodüşüncədən və antidemokratiyadan qaçmaq, yalnız fəaliyyət azadlığının yox, həm də düşüncə azadlığının təmin edilməsini tələb edir. Azad düşüncə yalnız öz-özündə düşünmək imkanı kimi yox, öz düşüncələrini başqalarının diqqətinə çatdırmaq azadlığını – fikir və söz azadlığını tələb edir. Bu barədə aşağıda bir qədər geniş şərh verəcəyik.

Strategiyanın digər bir paradiqması «siyasi aktorların bərabər iştirak edə biləcəyi yeni siyasi məkanın yaradılmasıdır». Siyasi məkan – ictimai mühit və bu mühitdə iştirak edən strukturlardan ibarətdir. Bu baxımdan demokratik cəmiyyətin siyasi məkanı dedikdə, yalnız *vətəndaş cəmiyyəti* nəzərdə tutulmalıdır. Yəni, demokratikləşmə vətəndaş cəmiyyəti ilə sıx bağlıdır. Tarixin və ictimai həyatın ən mühüm xüsusiyyətlərindən biri nümunə əsasında inkişaf etməkdir. Tarixin başlanğıcında insanlıq təbiəti, tarix yaranandan sonra isə «öz əvvəlki təcrübəsini və özgələrin təcrübəsini» nümunə götürməklə inkişaf edib. Siyasiləşmə prosesində də *nümunə seçmək* olduqca vacib məsələdir. İqtidar strategiyasında seçim haqqında – Azərbaycanın hansı nümunə əsasında inkişaf etdirilməsi ilə bağlı aşağıdakı fikirlər yer alıb: «Bütün demokratik normalara riayət etməklə özümüzün tarixi, geosiyasi və başqa xüsusiyyətlərimizi nəzərə almaqla azadlıq və demokratiya prinsiplərinin reallaşdırılmasını təmin edəcəyik… demokratik inkişafımızın daha mükəmməl və yeniləşməsinə ehtiyac var və biz etiraf edirik ki, demokratik inkişafımızın daha mükəmməl və davamlı olması üçün daha da irəli getməliyik. Son illərdə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin bütöv bir kompleksi həyata keçirilmişdir. Onlar bir tərəfdən gələcək vətəndaş cəmiyyəti bazisini formalaşdırmağa, digər tərəfdən *MİLLİ DEMOKRATİYA MODELİNİ* Azərbaycan cəmiyyəti üçün səmərəli və məqbul etməyə imkan verir… ölkənin öz mədəni orientasiyasının olmaması, Qərbin basmagəlib qaydalarına kor-koranə riayət edilməsi labüd olaraq millətin öz simasını itirməyə gətirib çıxarır». Stategiyadakı bu fikirlər Azərbaycanın dövlət başçısı İ.Əliyevin 22 oktyabr 2007-ci il tarixdə Nazirlər Kabinetinin iclasındakı nitqindən aşağıdakı fikirlər sitat gətirilməklə konkretləşdirilir: «Prioritet Qərb dünyasının müsbət cəhətləri nəzərə alınmaqla suveren inkişafın əsası olan lokal sosiomədəni nümunələrə söykənməlidir. Azərbaycanda vətəndaş cəmiyyəti Qərb nümunələrini olduğu kimi tətbiq etməklə qurula bilməz».

Haşiyə: *Ümumiyyətlə, vətəndaş cəmiyyətinin real məzmunu onun hansı nümunəyə əsaslanmasından çox asılıdır.* Qeyd etmək lazımdır ki, insanlıq bir xalqın yaratdığından, kəşf etdiyindən istifadə

etməklə və onu təkmilləşdirib başqasına verməklə inkişaf edir. Bu baxımdan siyasi quruluşlar da başqa-başqa sivilizasiyalar tərəfindən yaradılıb. Başqa sözlə, biz bu gün necə Qədim Romada yaradılmış respublika quruluşunu qəbul ediriksə və dünyada respublika dedikdə hamı məhz eyni siyasi sistemləri başa düşürsə, demokratikləşmədə də eyni yol izlənməlidir. Bu baxımdan Qədim Roma dövləti bizə nümunə olduğu kimi, *Qərbin demokratik cəmiyyətləri də bizim cəmiyyətin prototipi olmalıdır.* Atalar demişkən, «dostunu mənə göstər kim olduğunu söyləyim». Neototalitar inkişaf məhz *«MİLLİ DEMOKRATİYA MODELLƏRİ»* əsasında getdiyindən bununla bağlı bir qədər geniş şərhə ehtiyac var. Birincisi, demokratiya universal proses olduğundan, onun milli forması nonsensdir. Demokratiya universal insan hüquq və azadlıqları əsasında yarana biləcəyindən, onun hər hansı bir milli forması ola bilməz. Əvvəla, artıq Avropada bir-birinin ardınca milli dövlətlər öz atributlarından – pulundan, sərhədlərindən, gömrük nəzarətindən, hətta Konstitusiyasından imtina etmək istiqamətində inkişaf etdiyi bir vaxtda keçid ölkələrində dövlət atributlarının və suverenliyin mütləqləşdirilməsi, «milli demokratiya» modeli yaratması əslində müasir dövrün demokratiya teatrının üçüncü aktorlarının – inkişaf etmiş demokratik ölkələrin rəsmi dairələrinin, qeyri-dövlət təşkilatlarının, beynəlxalq təşkilatların, beynəlxalq hüququn və ayrı-ayrı demokratların öz ölkələrində demokratikləşmədə iştiraklarına yol verməmək məqsədi güdür. Əgər iqtidarlar bütün bəşəriyyətin keçdiyi yolla özlərinin də keçməli olduğunu qəbul edirsə, onda milli demokratikləşmə konsepsiyasından birmənalı imtina edilməlidir. Bu termin vaxtilə leninizmin sovet xalqalarını əsarətdə saxlamaq üçün müəyyən etdiyi «formaca milli, məzmunca sosialist mədəniyyəti» yaratmaq ideyasının demokratiyaya tətbiqindən başqa bir məna ifadə etmir və «milli demokratikləşmə»də məqsəd xalqı demokratikləşmədən çəkindirmək üçün düşünülmüş konsepsiyadan başqa bir şey deyil və həmin yol SSRİ-də necə qurtarıbsa, postsovet respublikalarında elə qurtaracaq. İkincisi, müasir elmi və politoloji ədəbiyyatda işlənən «milli» sözü dövlət sözünə sinonim kimi işlənir. Məsələn, milli pul dedikdə, talışların, ləzgilərin və ya yalnız Azərbaycan türklərinin pulu

yox, Azərbaycan dövlətinin pulu başa düşülür. ABŞ-ın Milli Demokratiya İnstitutu da amerikalıların yox, ABŞ dövlətinin QHT-si kimi fəaliyyət göstərir. Haşiyəyə çıxım ki, *kifayət qədər sağlam ideyaların əvvəlinə «milli» sözü qoymaqla bəşəriyyətin necə bəlalara düçar olduğunun şahidiyik* və nümunə kimi alman nasional-sosialistlərinin (milli sosializm) bəşəriyyətə və ilk növbədə öz xalqlarına verdikləri «töhfə»nin nədən ibarət olduğunu yaxşı bilirik. Üçüncüsü, bu gün postsovet cəmiyyətlərin «Milli Demokratiya Modeli» ideyası ilə üzləşməsi, yüz illər öncə demokratikləşmə yolu tutmuş ölkələrin, eləcə də bu gün də bu yolu tutmağa cəhd edən digər xalqların qarşısına çıxan «demokratikləşmə və milli dövlət quruculuğu» dilleması ilə üzləşməsinin təkrarıdır. Bu problem, siyasi elm tarixinə *«vesternizasiya» - Qərbin nümunəsində yenidənqurma»* - kimi məlumdur. Vesternizasiyadan imtina yolu ilə kapitalizmə keçidə Braziliyada, Hindistanda, Türkiyədə, Meksikada və s. ölkələrdə cəhd edilib. Elə Çin yenidənqurmasının memarı Den Syaopin də «biz Qərbi kopiyalaşdırmamalıyıq» fikirlərində anti-vesternizasiya mövqeyində durduğunu açıqca sərgiləmişdir. Vesternizasiyadan imtina ciddi siyasi məsələdir və konkret tarixi şərtlərlə bağlı meydana çıxıb. Bunu qısa şəkildə Hindistan və Türkiyə nümunəsində şərh etmək yerinə düşər. Mahatma Qandi Hindistanı İngilis imperiyasından azad etdikdən sonra ölkədə real vətəndaş müharibəsi və dövlətin parçalanması təhlükəsi ilə üzləşmişdi, eyni zamanda Qərb nümunəsində yenidənqurma bu coğrafiyada çox dəhşətli hadisələrlə nəticələnə bilərdi. Bir tərəfdən artıq Qandinin sağlığında Hindistanda dini və etnik zəmində qarşıdurmalar müşahidə edilirdi. Qandi öləndən sonra bir-birinin ardınca Pakistan, Şri-Lanka, Banqladeş və s. kimi ölkələr də müstəqillik yolu tutdu, digər tərəfdən kasta sistemi Qərb nümunəsinin tətbiqini istisna edirdi. Üçüncü tərəfdən sənayeləşmənin baş verməməsi Hindistanda Qərb nümunəsi üçün zəmin yaratmamışdı. Dördüncüsü, Qərbin uzun əsrlik əsarətindən çıxmış bir xalqın yenidən Qərbin nümunəsinə əsaslanması psixoloji problem idi. Vaxtilə Roma imperiyasının əsarətində olmuş digər Avropa xalqları uzun illər vannada yuyunmaqdan ona görə imtina etmişdilər ki, məhz bu cür yuyunmaqla romalıların yaşam tərzindən ta-

nış olmuşdular. Yəni, bu xalqlarda romalılara nifrət yuyunmağa da nifrət yaratmışdı. Təbii ki, hindlilərin də belə kompleksi dəf etməsi üçün uzun illər lazım idi. Amma bu şərtlər nə qədər obyektiv olsa da vesternizasiyadan imtina bu gün də Hindistanın demokratikləşməsinə imkan verməmişdir. Vesternizasiyadan imtinanın digər bir klassik nümunəsi Türkiyə Cümhuriyyətinin yaradılmasında meydana çıxmışdır. Cümhuriyyətin başlanğıc onilliklərində - Osmanlı imperiyasının dağılması kiçik Asiyada türklərin mövcudluğunu təhlükəyə saldığı bir vaxtda ölkənin ənənəvi İslamın son xilafətinin varisi olması və Türkiyədə də Hindistan kimi sənayeləşmə başlamadığından altyapısız vesternizasiyaya getmək məqsədə müvafiq olmazdı. Lakin əsası ötən əsrin 90-cı illərində Özal tərəfindən qoyulmuş islahatlar nəticəsində bu günkü Türkiyə tam gücü ilə vesternizasiyaya cəhd edir. Türkiyənin bir-birinin ardınca Avropa Birliyinin şərtlərinə əməl etməsi Özalın iqtisadiyyatda başlatdığı islahatların – vesternizasiyanın siyasətdə davamıdır. Nəzərə alsaq ki, vesternizasiyadan imtina ilə heç bir dövlət həqiqi demokratiyaya qovuşmayıb, onda müasir neototalitar dövlətlərdə iqtidarlar tərəfindən zaman-zaman ictimai fikrə ötürülən «vesternizasiyadan imtina» demokratiyadan imtina kimi qəbul edilməlidir və «Milli Demokratik Model»lə heç bir dövlət demokratikləşə bilməz. Bəzi bədnam Qərb dairələrinin, o cümlədən rusofillərin vesternizasiyadan imtinanı təşviq etməsi isə merkantilizmin təzahürüdür və siyasi həqiqətlə heç bir əlaqəsi yoxdur. Üçüncüsü, Qərbdən gələn hər şey heç də demokratiya adına və ya müstəqil milli dövlətlər naminə gəlmir. Elə bəzi mühafizəkar Qərb demokratlarının «demokratiya xristian mədəniyyətinin məhsuludur, digər inanclardan olanlar demokratikləşə bilməz» kimi fikirləri də bu qəbildən olan əsassız fikirlərdəndir. Bəs demokratikləşmə ilə milli mənliyin saxlanması dillemasını necə həll etmək lazımdır? Bu sualın cavabını kapitalizmin tarixinin araşdırıcısı Erik Hobsbaumun «Kapital əsri» kitabında yazdığı fikirlərdə tapmaq olar. O, yazır: «Qeyri kapitalist dünyasının ən siyasi təşkil olunmuş xalqları problemi ağ sivilizasiya ilə təmasdan qaçmaqla yox, onun təsirini lazımi qaydada qarşılamaqla həll edə bilirlər, onu kopiyalaşdırmaq, onun təsirinə müqavimət göstərmək, və

ya hər iki üsulla fəaliyyət göstərmək». Bizcə, düzgün yol bir tərəfdən vesternizasiyaya cəhd, digər tərəfdən bunun mənfi nəticələrinə qarşı tədbirlərin görülməsidir. Dördüncüsü, qeyd etmək lazımdır ki, müasir dövrdə əlavə bir yol xüsusən Qərblə merkantil maraqlarını təmin edənlər üçün xarakterik olan bir yol meydana çıxıb. Bu da imitativ *demokratiyadır.* Demokratiyanın imitasiyası iki formada – *totalitar demokratiya və formal demokratiya* modeli kimi təzahür edir. Totalitar demokratiyada demokratikləşmə yalnız *yuxarıların əmri* ilə və dövlət institutları formasında cəmiyyətə enmədən, vətəndaş cəmiyyəti institutları olmadan həyata keçirilir. Formal demokratiyada isə demokratik forma, demokratik məzmundan, mahiyyətdən qoparılmaqla reallaşdırılır. Son nəticədə forma mahiyyətlə vəhdət təşkil etməli olduğuna görə forma məzmuna uyğun gəlmədikdə dağılır. Elə 1877-ci ildə T.Eriksin Mey də bu təhlükəni bizdən 150 il qabaq görərək yazıb: «Avropa ənənələrini imitasiya, riskli mənimsəmə sənəti də daxil olmaqla, son vaxtlar fəaliyyətə keçib, amma Şərq hökumətlərinin əlində Qərb sivilizasiyası qeyri-məhsuldardır və onun əvəzinə tərəddüd edən dövlətlərin bərpası onun tezliklə dağılma təhlükəsini yaradır». Bəzi neototalitar dövlətlərdə Qərbin imitasiyası qarışıq formada – totalitar demokratiya və formal demokratiyanın simbiozu kimi həyata keçirilir ki, bu da dövlətin dağılma riskini artırır. Məncə, postsovet ölkələrinin demokratikləşmə əvəzinə təhlükəli bir yolla irəliləməsi də məhz «milli demokratikləşmə» tezisi altında gizlənmiş niyyətlərdən qaynaqlanır. Beşincisi, çox vaxt demokratiyanın xalqların milli mentaliteti ilə uyğun olmaması ilə bağlı fikirlərə rast gəlirik. Başqa sözlə, demokratiyadan yayınmanın bəhanələrindən biri də *milli mentalitet* və buna uyğun olaraq da milli demokratikləşmə modelidir. Bu cür iddiaların əsassızlığını neototalitar ölkələrin vətəndaşlarının miqrasiyası zamanı meydana çıxan problemləri təhlil etməklə cavablandırmaq daha düzgün olar. Belə ki, bu gün postsovet respublikalarının vətəndaşları müxtəlif səbəblərdən iki istiqamətə – demokratik Avropa və keçmiş SSRİ respublikalarına, xüsusən Rusiyaya miqrasiya edirlər. Rusiyaya köçən vətəndaşlar əsasən kriminallaşır, yerli xalqlarla qarşıdurma vəziyyətində yaşayır və kollektiv zorakılığın meydana çıx-

masına səbəb olur. Lakin Avropaya gedənlər qısa müddətdə Avropa dəyərlərini qəbul edir, sürətlə bu cəmiyyətlərlə inteqrasiya olunur, demokratik düşüncənin daşıyıcıları kimi çıxış edir və fəaliyyət göstərirlər. Bunun əksinə, demokratik ölkələrin vətəndaşlarının neototalitar dövlətlərdə, o cümlədən Azərbaycandakı davranışları öz ölkələrindəki davranışlarından çox fərqlənir. Misal üçün, demokratiyanın beşiyi sayılan ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Eskudero Azərbaycanda fəaliyyət göstərərək, vətəndaşlarımıza qarşı ən pis hakimiyyət məmurundan da çirkin münasibət göstərir və ya öz ölkəsində hər hansı bir vətəndaşa «gözün üstə qaşın var» deməyə cəsarəti olmayan ingilis iş adamı Azərbaycanda işlətdiyi fəhləni hamının gözü qabağında döyür və ya da öz ölkəsinin bayrağı naminə can verməyə hazır olan digər bir ingilis Azərbaycanın dövlət bayrağı ilə ayaqqabısını silir. Bu fakt göstərir ki, demokratikləşmənin milli mentalitet problemi yoxdur və vətəndaşın kimliyi onun milli mənsubiyyəti ilə yox, yaşadığı siyasi mühitlə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, *hər bir insan millətindən və dinindən asılı olmayaraq demokrat kimi doğulur, düşdüyü şəraitdən, düşüncə tərzindən və fəaliyyət azadlığından asılı olaraq ya azad qalır, ya da köləyə çevrilir.* Bu baxımdan insanların düşüncə və fəaliyyət azadlığına qəsd etməklə onlararı köləyə çevirməyin milli mentalitetlə heç bir əlaqəsi yoxdur. Altıncısı, neototalitar rejimlərdə «demokratikləşmənin milli modeli»ni yaratmaq üçün *ictimai və fərdi şüurla manipulyasiya* edilir. Belə manipulyasiyalardan biri də əyləncədir. *Bu gün iqtidarlar insanların siyasi azadlıqlarını boğmaq müqabilində ölkəni total ucuz əyləncə məkanına çevirməkdədir.* Con Dyuyi «Cəmiyyət və onun problemləri» adlı əsərində yazır: «Əyləncələrin ümumi sayının və müxtəlifliyinin artırılması, onların ucuzlaşdırılması siyasətdən yayındırmağın güclü formuludur». Bu cür əyləncə məkanında heç bir demokrat yetişə bilməz. Belə əyləncələrlə yalnız Çingiz Aytmatovun yaratdığı «manqurt» obrazına oxşar fərdlər yaratmaq olar. S.Smays yazır: «Cavan adam üçün həmişə həzz almaq fikrindən məhvedici heç nə ola bilməz». Tarixdə bunun çoxlu nümunələrinə rast gələ bilərik: Məlumdur ki, tarixi inkişaf prosesində demokratiya bir formadan başqa formaya keçməklə inkişaf etmişdir. Sosio-

logiyada demokratiyanın başlanğıc forması kimi ibtidai cəmiyyətdə mövcud olmuş «hərbi demokratiya» deyilən forma qəbul edilir. Hərbi demokratiya Roma quldarlıq quruluşu yaranandan sonra öz yerini respublika demokratiyasına verərək tarixdə yalnız hərbi işin mahiyyətində qorunub saxlanmış və bu günə gəlib çıxmışdir. Hərb tarixini öyrənənlər yaxşı bilirlər ki, onun zirvəsi qədim dövrdə özlərindən on dəfələrlə böyük dövlətləri əsarət altına salmış, kiçik xalq olmasına baxmayaraq böyük imperiya yaratmış, 300 nəfər döyüşçü ilə Daranın 1 milyonluq qoşununun qarşısında günlərlə davam gətirib əfsanəyə çevrilmiş spartalılar olmuşdur. Spartalıların bu cür nailiyyəti nə ilə bağlı olmuşdur? Digər xalqlardan fərqli olaraq spartalılar *hərbi lager cəmiyyəti* yaratmış, oğlan uşaqlarına incəsənəti öyrənmək, musiqiyə qulaq asmaq qadağan edilmiş, pul yığmağa pis baxılmış, ticarət qadağan edilmiş, sərvətə və cah-cəlala hərbi nizamı pozan hal kimi baxılmış, kişilərin yalnız dövlət mülkiyyətində işləməsinə yol verilmiş, ticarət, sənətkarlıq və xüsusi mülkiyyətdə işlər isə qullara həvalə edilmişdir. Spartalılar ticarətin, incəsənətin, sənətkarlığın, sərvətin çox yüksək səviyyədə inkişaf etdiyi və özlərindən on dəfələrlə böyük qonşu Afina dövləti ilə 27 illik müharibə apararaq onu məğlub etmiş və böyük Sparta imperiyası yaratmışlar. Amma çox keçməmiş Afina pulunun Sparta hakimlərinə təsiri və korrupsiya Sparta həyat tərzini məhv etmişdir və bir qədər sonra çox kiçik bir şəhər dövlət olan Fiva ilə müharibədə spartalılar məğlub olaraq tarix səhnəsindən getmişlər. Bu gün neototalitar dövlətlərdə *gənclərin musiqiyə, pula hərisliyə, ticarətə təşviq edilməsi və dövlət səviyyəsində bu cür halların qarşısının alınmaması onları nəinki demokratiya uğrunda mübarizəyə səfərbər etmir, həm də xarici düşmənin qarşısında tərksilah duruma salır. Kasıbçılıq və aşağı şüur səviyyəsi neototalitar insanları istənilən təbliğat üçün açır, buradan da destruktiv qruplar – terrorçular, radikal dinçilər müvəffəqiyyətlə bəhrələnir. Unutmaq olmaz ki, neototalitar adam yalnız öz cəmiyyəti üçün yox, həm də daha çox başqaları üçün təhlükə mənbəyidir.* Təəssüf ki, siyasi məqsədlərlə ölkə gəncliyini əyləncə və şou dünyasının əsirinə çevirən iqtidarlar, nəinki başqalarının, hətta narkomaniya, alkoqolizm, əxlaqsızlıq girdabına yuvarlanan öz

övladlarının da acı taleyindən dərs götürmək istəmirlər. Barlarda vətəndaşların yetişməyəcəyinin fərqinə varmadıqca postsovet respublikalarında nəinki demokratikləşmə, heç totalitar cəmiyyət də yaratmaq mümkün olmayacaq. Yeddincisi, demokratiyada *tərbiyyə probleminin* kəskin şəkildə üzə çıxmasıdır. Qeyd edim ki, insanların tərbiyəsi onların kimliyini müəyyən edən mühüm vasitədir. Psixotarixin banisi L.Moz belə hesab edir ki, «Tarixin səbəbini anlamaq üçün real bazis nə iqtisadi, nə də sosial sinif deyil, uşağın tərbiyə üsuludur». Bu mənada demokratikləşmə problemlərinin səbəbini vətəndaşların tərbiyə üslubunda axtarmaq lazımdır. Tərbiyə probleminə növbəti fəsillərdə daha geniş şərh verəcəyik.

Demokratik cəmiyyətin strukturu və demokratiyanın digər bir aktoru *demokratik institutlar* – kollektiv «demokratlar» - siyasi qruplar, siyasi partiyalar, siyasi hərəkatlar, KİV-lər və QHT-lərdir. Bu sırada, yalnız demokratikləşmə üçün yox, bütünlükdə hər bir şüurlu insan və tərəqqidə olan cəmiyyət üçün həyati əhəmiyyətə malik dördüncü hakimiyyət - KİV öndə durur.

Haşiyə: Demokratikləşmədə söz və fikir azadlığının, o cümlədən toplaşmaq azadlığının zəruriliyi lap çoxdan sosioloqların diqqətini çəkib. 1896-cı ildə (oxucuların bu tarixə xüsusi diqqət etməsini tövsiyə edirəm) Amerikada çap olunan sosioloji jurnalların birində yazılıb: «O mühümdür ki, müasir dünyəvi dövlətlərin heç biri kütləvi tədbirlər keçirməkdən və yığıncaqlara imkan yaradan milli bayramların keçirilməsindən imtina etməsinlər». Bu fikirlər çap olunan vaxtlarda dünyada kütləvi aksiyalar adında demək olar ki, heç bir fakt yox idi və hətta sosioloqlar belə, «sərbəst toplaşmaq» haqqında baxışlarında «xalq bayramlarında kütləvi tədbirlər keçirmək»dən uzağa gedə bilməsələr də bir yerə toplaşmağın ictimai həyat üçün nə qədər əhəmiyyətli olduğunu başa düşmüşdülər. Qeyd edim ki, *«sərbəst toplaşmaq» ilk növbədə informasiya almağın tarixi formalarından biridir* və ibtidai cəmiyyətdən başlayaraq insanlar fikir mübadiləsini məhz toplantılar vasitəsilə həyata keçirməyə başlayıblar. KİV isə bu məqsədə xidmət edən müasir ən əlverişli vasitədir. Başqa sözlə, *minlərlə insanı bir yerə yığıb bir fikri çatdırmaq işini KİV elə bir o qədər insana tək-tək bir araya yığmadan*

çatdırır. Buna görə də mən burada düşünülmüş şəkildə *sərbəst toplaşmaqla söz və fikir azadlığını* eyni bir hüququn iki aspekti kimi şərh edirəm. Təbii ki, söz və fikir azadlığı ilə sərbəst toplaşmanın həm də bir-birindən fərqli ictimai funksiyaları var. Daha sonralar sərbəst toplaşmaq hüququnun yaranması ilə cəmiyyətin inkişafında yığıncaqların rolu artıb. Sərbəst toplaşmaq xalqın bilavasitə siyasi hakimiyyətə öz sifarişini, etirazını, dəstəyini, arzularını, gözləntilərini çatdırmaq vasitəsi kimi demokratikləşmənin ən əsas atributlarından birinə çevrilib. İndi postsovet respublikalarında, XXI əsrin əvvəllərində XVII əsrdən də geri düşüncə ilə, sərbəst toplaşmağın əhəmiyyətini başa düşməmək və ya buna qarşı çıxmaq, təkcə dövlətçilik üçün yox, bütünlükdə ictimai və fərdi inkişaf üçün böyük qüsurdur. E.Hobsbaum yazır: «Demokratik prosedurları pozmaqla yaradılan «əyləncə qurğuları» demokratiyaya gedən «siyasi ekspressi» yalnız yubada bilər, amma onun qarşısını saxlamaq gücündə deyil». Ümumiyyətlə, fikir və söz azadlığı da özfəaliyyət kimi ikili təbiətlidir. Hamının söz azadlığına malik olması və ya hamının fəallığı demokratiyanın adına yazılan qüsurlardan deyil. Q.D.Rudjero yazır: «Demokratiyanın qüsuru – sayın təntənəsi yox, pis keyfiyyətin təntənəsidir». Bu baxımdan dövlətin vəzifəsi sayı azaltmaq – qəzetləri bağlamaq, azad fikirli jurnalistləri neytrallaşdırmaq və s. yox, hərtərəfli azadlıq şəraitində düşüncənin və vətəndaşların ictimai fəaliyyətinin keyfiyyətinin yüksəldilməsindən ibarət olmalıdır. *Saya qarşı istənilən mübarizə monopoliya, bu da öz ardınca qaçılmaz olaraq qapalı sistem yaradır.* Bunun dövlət forması da totalitarizmdir. *Fərd düşünə-düşünə idrak sferasında, fəaliyyət göstərə-göstərə cəmiyyətdə şəxsiyyətə çevrilir.* «Liberalizm nədir?» əsərinin müəllifi bununla bağlı yazır: «Liberalizm belə bir faktı dərk edir ki, insan şəxsiyyətinin yaranması azadlığın məhsuludur». Bundan fərqli istənilən fəlsəfə insan cəmiyyətini demokratikləşmədən uzaqlaşdırır, şəxsiyyəti məhv edərək köləyə çevirir. Sual oluna bilər, cəmiyyətdə insanların istənilən cür düşünməsi və düşündüklərini ifadə etməsi cəmiyyət və dövlət üçün təhlükə törətmirmi? Vaxtilə XIV Lüdoviq deyirdi: «Mən ictimai rəyi ona görə öyrənirəm ki, ona riayət etməyim. Amma ona əməl etməməyim üçün onu bilməyim

vacibdir». Bundan fərqli olaraq mütəfəkkirlər söz və fikir azadlığının zəruriliyini onunla əsaslandırmışlar ki, dövlət vətəndaşların necə səhv düşündüklərini öyrənsin və onların düzgün düşünməsi üçün lazım olan tədbirləri görsün. *Susan insanın nə düşündüyünü bilmək mümkün olmadığı kimi, nə edəcəyini də proqnozlaşdırmaq mümkün deyil.* Buna görə də söz və fikir azadlığı həm də hakimiyyətdəkilərin idarə etdiklərinin davranışlarını proqnozlaşdıra bilməsi üçün, başqa sözlə, cəmiyyəti gözləyə biləcək təhlükələrdən vaxtında xəbərdar olmaları üçün zəruridir. Bu bir həqiqətdir ki, qəsd, terror və çevriliş hazırlayanlar heç vaxt öz fikirlərini aşkar ifadə etməyə cəhd etmirlər. Belə cəhd vətəndaşların səhv və ya düz olaraq yalnız xoş məram izlədiyindən xəbər verir və buna görə də onların qarşısını almaq olmaz. Karl Manheym yazır: «İnsanın yenidən əmələ gəlməsində ən əhəmiyyətlisi – düşüncə qabiliyyətinin yenidən qurulması və öz iradəsini ifadə etməsidir». Demokratiyanın bel sütunu insan faktoru olduğundan və siyasi inkişafa düşüncənin dəyişməsi ilə nail olunduğundan, hələ ki, insan cəmiyyətində *söz və fikir azadlığı düşüncə qabiliyyətinin yenidən qurulmasında yeganə vasitə olaraq qalır.* Karleyl obrazlı olaraq yazır: «Demokratiyanı geridönməz etmək üçün çap dəzgahı kəşf etmək kifayətdir». Bu baxımdan iqtidarlar həqiqətən demokratikləşməyə nail olmaq istəyirlərsə, daha çox çap dəzgahı almalı və daha çox müstəqil mətbuatın çap olunmasına çalışmalıdır. Belə azadlığı olmayan heç bir cəmiyyət demokratikləşə bilməz. Digər tərəfdən, söz və fikir azadlığı pozitiv düşüncəyə neqativ yanaşan iqtidar mənsublarının ifşa olunması və onların düşüncələrinin ictimai təzyiq altında yenidən qurulması üçün zəruridir. Məhz bu cür müxtəlif düşüncə formalarının düşüncə sferasında mübarizəsi nəticəsində ictimai sferada sabitlik, düzgün ictimai şüur və ya *sivilizasiya yaradan milli şüur* yarana bilər. Bununla bağlı K.Manheym yazır: «Müxtəlif formalı düşüncə sosial sabitlik dünyagörüşünün daxili birliyinin əsasına və təminatına xidmət etdikcə problem ola bilməz». KİV yalnız söz və fikir azadlığı vasitəsi deyil. Hər şeydən öncə vətəndaşların «məlumat almaq və azad məlumat yaymaq» hüququnun vasitəsidir. Artıq müasir dövrdə məlumat bir çox ciddi sosial-siyasi funksiya yerinə yetir-

məkdədir. Birincisi, məlumatla *özünüidarə* biri-biri ilə sıx bağlıdır. J.Lipovetski «Boşluq erası» adlı kitabında yazır: «Özünüidarə – bu, mobilizasiya və informasiyanın bütün mənbələrindən optimal istifadədir. Hər bir fərdin mütəmadi olaraq ötürücü və qəbuledici olan məlumatların ümumdünya bankının yaradılmasıdır; bu cəmiyyətin siyasi məlumatlandırılmasıdır». İnformasiya qıtlığında fərd özünüidarə imkanlarından məhrum olmaqla, başqalarının total idarəetməsinə tabe olur. Belə vəziyyətdə vətəndaşlar nəinki siyasi hakimiyyətin, həm də istənilən ictimai təhlükəli qrupların hakimiyyəti altına düşür və onlar tərəfindən asanlıqla idarə olunurlar. İkincisi, məlumat – iqtidar fəaliyyətinə *ictimai nəzarət* və iqtidarın *xalq qarşısında hesabatlılığı* üçün mühüm vasitədir. Məhz totalitar cəmiyyətlərdə məlumatsızlıq şəraiti yaratmaqla hakimiyyətdəkilər öz hakimiyyətlərinin ömrünü uzadır və hakimiyyətdən sui-istifadə edirlər. Üçüncüsü, məlumatsızlıq və ya dezinformasiya beynəlxalq öhdəliklərdən yayınan iqtidarlar üçün ifşa olunmaqdan qurtulmaqda əlverişli vasitədir. Dördüncüsü, informasiya ictimai rəydə *siyasi simpatiyanı* müəyyən edən vasitə kimi çıxış edir. *İnformasiya axınının sürəti* ilə insanların ona reaksiyası arasında sıx əlaqə vardır. Belə ki, həddən artıq sürətli və həddən artıq yavaş informasiya axını insanların bu məlumatlara reaksiya verməsinə xidmət etmir. Nəticədə, *informasiya apatiyası* yaranır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə bu vəziyyət *informasiya bolluğundan* və informasiyanın iti sürətindən, neototalitar cəmiyyətlərdə isə *informasiya qıtlığından* və ya aşağı sürətindən əmələ gəlir. İnformasiyaya laqeydlik inkişaf edərək *siyasi apatiyaya* – seçkilərdən yayınmağa, iqtidarların fəaliyyətinə nəzarətdən imtinaya, öz taleyinə biganəliyə keçir. Bunun nəticəsində inkişaf etmiş ölkələrdə demokratiyanın böhranı yaranır, demokratiyaya keçidə hazırlaşan ölkələrdə isə keçid baş vermir. Beşincisi, məlumat öz təbiətini insanların təbiətinə köçürür. J.Lipovetski yazır: «Postmodern cəmiyyətlərində informasiya inqilabı ilə yanaşı «daxili inqilab» - «şüurun nəhəng hərəkətini», özünüdərkin və özünütəkmilləşdirmənin misli olmayan artımını dərk edir». Eləcə də informasiya durğunluğu insanlarda *mənəvi durğunluq* – özünüdərkin zəifləməsi, təkmilləşmədən qalma,

şüurun yavaşıması ilə şəxsin cəhalətə yuvarlanmasını – yaradır. Məhz belə mənəviyyata malik insanlardan təşkil olunmuş cəmiyyətlər neototalitarizmə keçiddə heç bir problemlə üzləşmir. Altıncısı, məlumat bərabərlik, azadlıq və ədalət kimi sosial dəyərlərlə sıx bağlıdır. *Məhz məlumat almaq azadlığı insanları sosial və siyasi həyatda azad edir. Məlumat almaq hüququ onları bərabərləşdirir, obyektiv informasiya insanları ədalətli mövqe tutmağa sövq edir.* J. Lipovetski bununla bağlı yazır: «Əşyalar dünyası, informasiya və qedonizm «şəraitin bərabərliyinə» təminat verir, kütlənin həyat və mədəni səviyyəsini yüksəldir…irerarxik fərqliliklər dayanmadan hamarlaşır, bərabərliyin indifferent dünyasına yol verir». Əksinə, əşya və məlumat qıtlığı insanların istehlak qabiliyyətinin aşağı düşməsi ilə ierarxik fərqlilikləri dayanmadan gücləndirir, cəmiyyəti sərt təbəqələşməyə məruz qoymaqla totalitarizmə aparır. Yeddincisi, məlumat hakimiyyət yaradır, məlumatsızlıq isə tabeçilik. Bu baxımdan neototalitarizmin tərəfdarları məlumat üzərində birtərəfli hakimiyyət əldə etməklə bütünlükdə insanlar üzərində total hakimiyyətə nail olurlar. Fransız filosofu J.Bodriyyar «Mass-mediaya rekviyem» adlı kitabında yazır: «Mass-media indiki vaxtda ondan öz xeyrinə istifadə edən hakim siniflərin hakimiyyəti altındadır. Mass-medianın strukturu isə «mahiyyətinə görə eqalitar» olaraq qalır, məhz inqilabi təcrübə kapitalist qurluşu ilə təhrif olunmuş mass-mediada olan potensial imkanları azad etməlidir. Belə deyək: mass-medianı azad etməli, onlara onların açıq kommunikasiya sosial təyinatını və sərhədsiz demokratiya mübadiləsini qaytarmalıdır». Səkkizincisi, kütləvi informasiya ideologiyanın yayılmasında müstəsna rol oynayır. Müasir dünyada kütləvi informasiya vasitələri olmadan heç bir mütərəqqi ideya özünə kütləvi tərəfdar toplaya bilməz. Bu gün dinlər belə, kütləvi informasiya vasitələrinə ənənəvi dini təbliğatın üsul və vasitələrdən daha böyük önəm verməkdədir. J.Bodliyyar yazır: «Mass-media marketinq və merçbandsinq kimi hakim ideologiyadır…mass-media – əmsal yox, ideoloji operatordur». Doqquzuncusu, birtərəfli informasiya *dialoqu* istisna etdiyindən əslində informasiya üzərində birtərəfli hakimiyyət *siyasi monoloqa və diktanta* xidmət edir. Bununla bağlı J.Bodliyyar yazır: «Mass-

medianın bütün müasir arxitekturası özündə həmişə cavabı qadağan olunmasını, mübarizənin mümkünsüzlüyünü təqdim edir və onun həqiqi abstraksiyası bundan ibarətdir. Məhz sosial nəzarət və hakimiyyət bu abstraksiyaya əsaslanır». Bu baxımdan müstəqil mass-media cavab tribunası kimi çıxış etdiyindən, sosial nəzarət və total hakimiyyət yaratmaq üçün postsovet respublikalarında *«cavab mətbuatı»* susdurulur. Nəticədə, informasiya diktantı yaradılır. Xüsusən, elektron informasiya bu sahədə daha təsirli vasitəyə çevrilmişdir. J.Bodliyyar televiziya ilə bağlı yazır: «TV öz mövcudluğu ilə özü öz üzərində sosial nəzarəti təqdim edir. TV – insanların artıq öz aralarında danışmayacağına, onların tam təcrid olunmasına inamdır – sözün qarşısında cavabdan məhrum olmaqdır». Qeyd edim ki, müasir dövrdə mass-media *əksinqilabi vasitə* kimi demokratiyanın əleyhdarlarının əlində güclü vasitə kimi işləyir və istənilən hakimiyyət bu güclə cəmiyyətdə istədiyi neqativ sosial dəyişilmələri ictimai müqavimət olmadan asanlıqla həyata keçirə bilir. Bu baxımdan postsovet respublikalarında mass-medianın susdurulması neototalitarizmə keçiddə müstəsna rol oynamışdır.

Demokratikləşmədə cəmiyyətinin əsas aktorlarından birini təşkil edən III sektor – *vətəndaş cəmiyyəti institutlarıdır.* İqtidar strategiyasında vətəndaş cəmiyyəti institutları ilə bağlı həyata keçirdikləri siyasət haqqında yazılır: «Demokratik nümayəndəli təsisatların incə diferensasiya edilmiş, tənzimlənmiş sisteminin yaratdığı ictimai konsolidasiya, sosial və siyasi aktorların idarə edilməsi və qarşılıqlı fəaliyyətin optimallaşdırılması imkanı inkişaf etmiş demokratik cəmiyyətin ən mühüm amili olan bazarın daha səmərəli işləməsinə şərait yaradan vəziyyəti xeyli dərəcədə möhkəmləndirir… indi Azərbaycanda məqsədyönlü və planauyğun şəkildə vətəndaş cəmiyyətinin təməli qoyulur. Konsolidasiya olunmuş demokratiyaya qarşıdakı tranzitin mahiyyəti məhz bundan ibarətdir. 2007-ci ildə Azərbaycan Respublikasının prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması ölkədə öz oyun və davranış qaydalarını diktə edən qrant verənlər üçün zəruri olan siyasi qərarların qeyri-hökumət sektorunun fəaliyyəti vasitəsi ilə qəbul edilməsinə təsir göstərilməsi diaqanalı yaratmağa çalışaraq xarici sponsorlardan

asılı olmayan, fəaliyyət qabiliyyətli və səmərəli «üçüncü sektor» yaradılması yolunda mühüm mərhələ oldu».

Haşiyə: Birincisi, neototalitar tərəfdarları öz ölkələrinin demokratlarını daxildə sıxışdırmaqla kifayətlənmir, həm də onlara hər hansı bir xarici maddi və mənəvi dəstəyin verilməsinin qarşısını almağa cəhd edirlər. Əgər vətəndaş cəmiyyəti institutlarının qrant alması, konservatorların iddia etdiyi kimi, «qrant verənlərin siyasi qərarlarını qəbul edilməsinə» gətirib çıxarırsa, onda məntiqlə, iqtidarın maliyyələşdirdiyi QHT-lər yalnız və yalnız iqtidarın siyasətinin qəbul edilməsinə yardımçı olacaq. Bunun isə demokratiya ilə heç bir əlaqəsi yoxdur. İkincisi, qeyd edim ki, dövlət və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı münasibəti də demokratikləşmənin ən ciddi problematik məsələlərindəndir və bu məsələdə «ya və ya» mövqeyi tutmaq düz deyil. Mən həbsxanada olarkən çap etdirdiyim «İnsanlar və adamlar» adlı kitabımda hakimiyyətlə bağlı belə bir aforizm yazmışdım: «Hakimiyyət elə atəşdir ki, ondan çox uzaq olsan donarsan, ona çox yaxın olsan yanarsan». Bunun bir tərəfi hakimiyyətdəkilərə, digər tərəfi də vətəndaş cəmiyyəti institutlarına aiddir. Misal üçün, müxalifətdə olanlar hakimiyyətdən «çox uzaqda» olduqlarına görə «donur», hakimiyyətdəkilər hakimiyyətə yiyələnmək imkanlarına «çox yaxın» olduqlarından «yanırlar». Üçüncüsü, ümumiyyətlə vətəndaş cəmiyyəti ilə bağlı iki qüsurlu münasibət mövcuddur, onlardan biri vətəndaş cəmiyyətini *«hakimiyyətə işlətməkdir»*, digəri müstəqil *vətəndaş cəmiyyətinin missiyasına kölgə salmaqdır*. C.Kin yazır: «Dövlət və vətəndaş cəmiyyəti bir-birinin şərti olmalıdır… dövlətin vətəndaş cəmiyyətini nə çox, nə də az idarəetməsi tələb olunur… plüralistik və dövlətdən asılı olmayan özünütəşkil vətəndaş cəmiyyəti – demokratiyanın vacib şərtidir… dövlətlə vətəndaş cəmiyyətini birləşdirmək demokratik inqilabı təhlükəyə salır. İctimai arakəsmələr olmayanda dövlət hakimiyyəti despotiyaya yol açdığından, həmişə qorxuludur və arzuolunmazdır… Dövlətin effektliliyi korporativ formada ictimai həyata müdaxilə etməklə onu tənzimləmək və nəzarət etmək cəhdinin genişlənməsidir. Müxtəlif dövlət orqanları daha böyük həcmdə vətəndaş cəmiyyətinin ən yaxşı təşkilatlanmış işbaz dairəsi ilə vasitəçilik həyata keçirməyə

cəhd edərək onları ictimai hakimiyyət qruplarından «xüsusi maraq hakimiyyətinə» çevirirlər». Nümunə kimi, bu gün Azərbaycanda QHT-ın bir ittifaqda birləşib dövlət orqanları ilə sıx əməkdaşlıq etməsi, redaktorlar şurasının hakimiyyətlə sıx əməkdaşlığı, bəzi QHT-lərın Daxili İşlər Nazirliyi ilə birgə layihələr həyata keçirməsi onları vətəndaş cəmiyyəti institutlarını, III sektoru - *«maraqlar hakimiyyəti»nə* çevirmişdir. Bu strukturlar və dövlətlə sıx əlaqədə olan onların rəhbərləri, nəinki vətəndaş cəmiyyətinə xidmət etmir, əksinə, bu ölkələrdə vətəndaş cəmiyyəti imitasiyası yaradaraq totalitarizmin bərqərar olmasına dolayısı ilə xidmət göstərirlər. Digər postsovet respublikalarında da eyni proseslər getməkdədir. Bəzi kənarda qalan müstəqil vətəndaş cəmiyyəti institutlarını isə başqa aqibət –*«qrant yeməklə xaricə işləmək», «xalq düşməni»* ittihamları gözləyir. C.Kin yazır: «Neokonservatorlar dövlət orqanları ilə vətəndaş cəmiyyəti arasında sərhədin başqa cür çəkilməsinə diqqət ayırırlar. Onlar olduqca qarşılıqlı əlaqədə olan siyasi həyatla ictimai həyatı və vətəndaş cəmiyyətinə xas olan xeyirxahlıqlar haqqında təsəvvürləri təhrif etməyə, populyarlaşdırmağa cəhd edirlər». Belə təbliğat həm KİV və siyasi partiyalara, həm də beynəlxalq təşkilatların nümayəndələrinə, həm diplomatik nümayəndələrə, həm də ümumi şəkildə beynəlxalq təşkilatlara qara piar formasında aparılır və bütün bunlar, onların xalq arasında nüfuzunu sarsıdaraq öz ictimai vəzifələrini effektli yerinə yetirmələrinə mane olur və hər iki hal dövlətçiliklə bir araya sığmayan proseslərə gətirib çıxarır.

Demokratikləşmənin digər bir aktoru da *siyasi partiyalardır*, xüsusən müxalif siyasi partiyalar. Bəri başdan qeyd edim ki, iqtidar strategiyasında müxalifət anlayışı da hissəvi qəbul edilir. Müasir qlobal dövlətlər sistemində demokratik cəmiyyətlərdə *müxalifət dedikdə siyasi partiyalar, qeyri-hökumət təşkilatları, ictimai xadimlər, təşkilatlanmamış narazı elektorat – yəni ayrı-ayrı vətəndaşlar, beynəlxalq sərhədsiz ictimai təşkilatlar, beynəlxalq rəsmi təşkilatlar olan ATƏT, Avropa Şurası, Avropa Birliyi, NATO, BMT və demokratik dövlətlərin rəsmi təmsilçiləri nəzərdə tutulmalıdır və buna görə də iqtidarın müxalifət əleyhinə bütün fikirləri və addımları eyni zamanda bütünlükdə bu qüvvələrin hamısına qarşı birlikdə cəbhə açır.* İqtidar

strategiyasına həsr olunmuş məqalədə Azərbaycanın demokratikləşməsinin diskusiya amilinə çevrilmədiyi təəssüflə qeyd olunur. Mən də buna haqq qazandırıram, amma eyni vaxtda sual verirəm, iqtidar öz tərəfindən belə diskusiyalar təşkil edib ölkədəki nüfuzlu siyasi qüvvələri buna cəlb edibmi? Axı ictimai şüurun inkişafı iqtidarların əsas məqsədlərindən biri, dövlətin isə bilavasitə vəzifəsi olmalıdır. İqtidar strategiyasında «yeni siyasi məkanın formalaşdırılması siyasi elitanın əsas vəzifələrindən biri» hesab edilir və ənənəvi hüquqi postulat – J.J.Russonun *məşhur «başqalarının hüquqları qurtaran yerdə bir insanın hüquqları başlanır»* fikri diskurs edilir. Birincisi, demokratiyanın adi tələblərindən biri olan bu postulat cəmiyyətdə yaşayan insanların qarşılıqlı münasibətlərini tənzimləməyin əsas şərtidir və yalnız vətəndaşlararası münasibətə yox, həm də vətəndaş cəmiyyətində dövlətlə vətəndaş arası münasibətlərə şamil edilməlidir və buna görə də *«dövlətin hüququ vətəndaşın hüququ başladığı yerdə qurtarır»* prinsipini qəbul etməyi tələb edir. Strategiyada haqlı olaraq yazılır ki, «perspektivdə yeni siyasi məkan dövlətin və cəmiyyətin inkişafı naminə iqtidarla-müxalifətin qarşılıqlı fəaliyyətinin mümkünlüyünü eyniləşdirəcəkdir». Bununla etiraf olunur ki, indi «dövlətin və cəmiyyətin inkişafı naminə iqtidarla müxalifətin qarşılıqlı fəaliyyəti qeyri-bərabərdir». Onda sual doğur, belə hakimiyyətlər iqtidar-müxalifət münasibətlərini hansı vasitələrlə və nəyin naminə tənzimləyirlər?! Postsovet iqtidarlarının müxalifətlə bağlı dəbdə olan taktikası «yeni müxalifət»in – iqtidarın müəyyən etdiyi çərçivədə fəaliyyət göstərən və yaxud özlərinin ailə üzvlərinin rəhbərlik etdiyi «siyasi partiyalar»ın yaradılması təşəbbüsüdür. Qazaxstanda Nazarbayevin qızının və Özbəkstanda Kərimovun qızının və s. «müstəqil» siyasi partiyalara başçılıq etməsi bununla bağlıdır. Məqalədə də bu məsələ belə qoyulur: «siyasi məkanın daim yeniləşməsinə ehtiyac var və biz etiraf edirik ki, demokratik inkişafımızın daha mükəmməl və davamlı olması üçün daha da irəli getməliyik». Bu irəliləmə meyli postsovet respublikalarında özündə nəyi ifadə edir?

Haşiyə: *Birincisi, cəmiyyətin iqtidar və müxalifət olaraq ikiyə bölünməsi, onun əsasından çox-çox yuxarıdan başlamalı və zirvəsindən çox-çox aşağıda qurtarmalıdır və bu demokratik cəmiyyətlərin*

mövcudluq şərtidir. Neototalitar cəmiyyətlərdə müxalifətçilik dövlətin birinci şəxsindən başlayır və hər bir sadə vətəndaşda başa çatır. Kuli Çarl Horton «İnsan təbiəti və sosial nizam» adlı əsərində yazır: «Həyat necə var – ümumi mənşə ilə və ümumi mövcudluq prinsipləri ilə əmələ gəlmiş bir böyük tamdır, ailədir. Biz ən azı başqa hissələrlə necə əlaqələndiyimizi ümumi şəkildə görməyənədək onda bizim iştirakımız aydın olmayacaq... Cəmiyyət hər bir canlı kimi, tam kimi inkişaf edən stabilliyin və dəyişkənliyin harmonik birliyini, həmcinsliyini və daxili heterogenliyini tələb edir». Bu gün neototalitar cəmiyyətlərdə cəmiyyətin hissələri kimi iqtidarla müxalifətin necə əlaqələndiyini ən ümumi şəkildə özümüz üçün təsəvvür etməyənədək bizim demokratikləşmədə iştirakımız və hər bir tərəfin uğursuzluqlarının məsuliyyətini dərk etməyəcəyik. Bu anlamda *iqtidar stabilliyin, müxalifət dəyişkənliyin daşıyıcıları kimi harmonik birliyə nail olmasa və bu zaman öz daxili hetrogenliklərini qoruyaraq həmcins çıxış etməsə, postsovet respublikalarında demokratikləşmədən heç vaxt danışmaq mümkün olmayacaq.* İkincisi, demokratik cəmiyyətdə siyasi partiyalar Konstitusiya və qanunlardan sonra *cəmiyyəti nizamlayan* sosial faktorlardır. Amerika sosioloqu E.Bern «Lider və qrup» adlı kitabında qrupların rolu haqqında yazır: «Hər dəfə qrup yaranarkən dünyada qaydaların sayı artır və hər dəfə qrup təxribat və parçalanma nəticəsində dağılanda dünyada qaydaların sayı azalır». Siyasi partiyalar da qrupdur və hər bir real *siyasi partiya bir nizamın mənbəyidir.* Onların fəaliyyətləri qanunla tənzimlənir, beləliklə, öz üzvləri üçün qanunlarla yanaşı qaydalar müəyyənləşdirir ki, bu da cəmiyyətdə həm qanunun gücünü artırır, həm də cəmiyyət nizamını möhkəmləndirir, bununla da cəmiyyəti xaosdan sığortalayır. Siyasi partiyaları yalnız dar mənada hakimiyyətə iddia edən tərəf kimi qəbul etmək onların sıradan çıxarılması ilə müşayət olunur ki, bu da dövlətin hüquq sisteminin zəifləməsinə və sıradan çıxan partiyaların ictimai funksiyasını polisin üzərinə qoymağa və polis rejimi yaratmağa gətirib çıxarır ki, postsovet respublikalarında hərbi-polis rejiminin təşəkkülü bununla bağlıdır. Bu gün Azərbaycanda beş nəfərin küçəyə çıxmasının sabitliyi poza biləcəyindən çəkinənlər, 1989-cu ildə bir milyon ada-

mın Azadlıq meydanına toplanıb, həftələrlə orda qalmasına baxmayaraq, asayişin pozulmasının heç bir faktının müşahidə olunmamasının səbəblərini araşdırsa, bunun səbəbini o vaxtkı AXC-nin gücündə, bu günün səbəbini isə hökumətin məqsədyönlü və planlı şəkildə müxalifəti zəiflətmə siyasətində tapacaqdır. Demokratsız demokratiya olmadığı kimi, *siyasi partiyalarsız, yəni siyasi plüralizm olmadığı yerdə demokratiyadan danışmaq olmaz.* Üçüncüsü, siyasi plüralizm qaçılmaz olaraq iqtidar-müxalifət cəbhələşməsini və onlar arasında bərabər, ədalətli və vicdanlı mübarizəni tələb edir. Bu mübarizə həm hakimiyyət, həm qarşılıqlı etiraf, həm də öz ideyalarını yaymaq müstəvilərini əhatə edir. Demokratikləşmənin və siyasi inkişafın mühüm göstəricilərindən biri «*güclü iqtidar*», «*güclü müxalifət*»*dir. Güclü müxalifət, zəif iqtidar - anarxiya, zəif müxalifət güclü iqtidar - avtoritarizmdir.* Bəs neototalitar dövlətlərdə bunların hansı mövcuddur? Strategiyada yazılır: «Partiyaların və başqa siyasi təşkilatların mövcudluğuna və fəaliyyətinə sosial sifariş aşağı səviyyədə olduğuna görə, onlar cəmiyyətdə qaynayıb qarışmağa və yaxud latent şəkildə aradan qalxmağa başlamışdır. Birliklər, ittifaqlar və bloklar hakimiyyət uğrunda mübarizədə rəqabət aparmaq iqtidarında olmayan müxalifətçi siyasi təşkilatların zəifliyini ört-basdır edən prosesin fasad hissəsinə çevrilmişdir». Bəzi postsovet respublikalarında isə əvvəldən siyasi partiyalaşmanın başlanmasına imkan verilməmişdir. Bu məsələ demokratikləşmənin – siyasi inkişafın kardinal problemlərindən olduğundan növbəti fəsillərdə geniş şərh verəcəyik. Burada isə qısa şəkildə müxalifətin rəqabət imkanını saxta seçkilərdə əldə edilən nəticələrə əsaslanaraq iddia edildiyini bir kənara qoyub, formal nəticələrin ictimai rəyi necə əks etdirməsi əsasında cəmiyyətin demokratikləşməsi ilə həmin nəticələr arasında əlaqəni qısa şərh etmək istəyirəm. Mən belə hesab edirəm ki, *seçkilərdə səslərin iqtidar müxalifət arasında paylanması fərqi* demokratikləşmənin göstəricilərindən biri kimi qəbul edilməlidir. Tutaq ki, Azərbaycanda seçici səsləri iqtidarla müxalifət arasında real olaraq 90:10 nisbətində paylanır. ABŞ-ın demokratik təcrübəsi isə göstərir ki, orada son onilliklər boyu iqtidarla müxalifət arasında seçici səsləri ən çox 1-2 faiz fərqlə paylanır. Onda belə sual doğur,

Azərbaycanda, yoxsa ABŞ-da olan hakimiyyət güclü və nüfuzludur? Qeyd edim ki, hakimiyyətin gücünün və nüfuzunun dövlətin ölçüləri və xalqın sayı ilə heç bir əlaqəsi yoxdur. Əgər belə olsaydı, onda gərək Norveçin, Belçikanın, Hollandiyanın beynəlxalq nüfuzu və bu ölkələrin gücü Hindistan, Rusiya, Çin, bəzi Cənubi Amerika dövlətlərinin nüfuzundan aşağı olmalıydı. Amma reallıqlar bunun tam əksini sübut edir. Beləliklə, iqtidar-müxalifət arasında səslərin demək olar ki, *bərabər paylanmasına paralel olaraq ABŞ-da dünyada ən güclü hakimiyyət mövcuddur*. Güclü hakimiyyət olan yerdə nə üçün müxalifət də güclü olur və əksinə? Məsələ burasındadır ki, demokratikləşmənin ictimai effektliliyi cəmiyyətdə rəqabət vəziyyətində olan qüvvələrin mövqelərini bir-birinə yaxınlaşdırmaqla qeyri-sabitliyin, xaosun, vətəndaş qarşıdurmasının və nəhayət, inqilabların qarşısını almaqla vətəndaş həmrəyliyinə və ictimai inkişafa nail olunmaqla müəyyənləşir ki, belə vəziyyətdə dövlət güclənir. Buna görə də hər hansı bir ölkədəki iqtidarla müxalifət arasında seçici səsi onda kəskin fərqlənir ki, həmin cəmiyyətlər siyasi inkişafdan qalır və orada qeyri-sabit siyasi şərait hökm sürür. Bu fərq yüz faizə çatanda isə Yaxın Şərq ölkələrində olduğu kimi monarxiya bərqərar olur. Bu gün bütün postsovet respublikalarında keçirilən seçkilərin nəticəsində iqtidarlar özlərini 80-90 faiz səs üstünlüyü ilə qalib gəldiklərini elan edirlər. Bu da həmin cəmiyyətlərin faktiki olaraq monarxiya quruluşuna yaxınlaşmasından xəbər verir. Müxalifətin aradan qalxması labüd şəkildə demokratikləşmənin dayanması, demokratların siyasi fəallıqdan uzaqlaşması, ya ölkəni tərk etmələri, ya da yaranmış şəraitə uyğunlaşmaları ilə müşayət olunur. Strategiyada bunun günahı xalqın üzərinə qoyulur və bunun səbəbləri sırasına *sosial sifarişin olmaması* aid edilir. Əgər postsovet respublikalarında həqiqətən siyasi partiyalara sosial sifariş yoxdursa, onda deməli, xalqın demokratikləşməyə də sifarişi yoxdur. O zaman iqtidarların sözdə iddia etdikləri demokratiyaya keçid strategiyası kimin sifarişi ilə müəyyən olunub? Və həqiqətən siyasi partiyalara sosial sifariş yoxdursa, onda hakimiyyət partiyaları hansı sosial tələblərə uyğun günbəgün «böyüyür»? Əgər müxalifətin rəqabət qabiliyyəti yoxdursa, onda iqtidarlar seçkilərdə kimlərə qalib gəlir-

lər və nədən iqtidarlar azad rəqabətdən qaçırlar? Onda iqtidarların yaratmağa cəhd etdikləri «yeni müxalifət» hansı sosial sifarişin nəticəsi kimi meydana çıxır? Bütün bu ritorik suallar bir daha «demokratlarsız demokratiya olmur» fikrinin düzgünlüyünü sübut edir. Dördüncüsü, etiraf edək ki, neototalitar cəmiyyətlərdə müxalifət bir çox obyektiv və subyektiv səbəblərdən zəifləyir və ya heç yaranmır. Subyektiv səbəblər - müxalifətin özündən qaynaqlanır. Bu səbəblərə *inteqrasiya qabiliyyətinə malik olmamaq, qarşılıqlı etirafdan imtina, vəzifələrin prioritetliyini düzgün müəyyənləşdirə bilməmək, davamlı beynəlxalq dəstəyə nail olmamaq, demokratik dəyərləri tam mənimsəməmək, mənəm-mənəmlik, siyasi qərarları xalqın gedə biləcəyi yolla bağlı verməmək, iqtidar-müxalifət münasibətlərini qeyri-konstruktiv qurmaq və ya ümumi cəbhənin maraqlarına zidd birtərəfli sazişçiliyə meyl və s.* göstərmək olar. Obyektiv səbəblərə - *dövlət orqanlarının qanunda nəzərdə tutulmuş qaydada siyasi partiyaların fəaliyyətinə təminat verməməsi* – bura dövlətdən maliyyələşməməni, qərargahların ayrılmaması, siyasi fəaliyyətə real hüquqi təminatın olmaması, müxalifət liderlərinin təhlükəsizliyinin təmin edilməməsi, siyasi rəqabətdə iqtidarın dövlət resurslarından sui-istifadəsi, aşırı güc tətbiq etmə, təzyiq və repressiyalar, demokratik proseduraların rəsmi dairələr tərəfindən ardıcıl olaraq pozulması, partiyaların siyasi həyatda rolunu heçə endirən addımların atılması – proporsional seçki sisteminin ləğvi, qanunların mürtəceləşməsi, KİV-ə total dövlət nəzarətinin yaradılması və s. aiddir. Beşincisi, ümumiyyətlə, siyasi partiyaların «gizlicə aradan qalxması» cəmiyyətə nə vəd edir? Medisson yazır: «Cəmiyyət nə qədər azsaylıdırsa, bir o qədər az müxalif partiyalar və onu təyin edən maraqlar var, nə qədər az partiya və maraqlar varsa, daha tez-tez çoxluq bir partiyadan təşkil olunacaq, çoxluğu təşkil edən adamlar nə qədər az və dairələri kiçik olsa, azlığı əsarətdə saxlamaq üçün birləşmək bir o qədər asan olacaq». Neototalitar ölkələrin əksəriyyəti – Rusiya istisna olmaqla - azsaylı olduğundan və real müxalif partiyalar zəif olduğundan, kiçik bir azlığın xalqı əsarətdə saxlamaq şansı böyükdür. Məhz bunun üçün neototalitar dövlətlərdə siyasi partiyalar xalqı əsarətdə saxlamaq istəyən qüvvələrin qarşısında yeganə güc kimi mövcudldur.

Altıncısı, əgər iqtidarların partiyalaşmaya ümumi yanaşması universal olsaydı, artıq başqa mətləblərdən danışmaq lazım gələrdi. Amma müxalif siyasi partiyalara münasibətin əks tərəfində hakimiyyət partiyalarına 180 faiz diametral əks münasibət mövcuddur. Adam Ferqyusonun belə bir fikri var ki, «adamlar bir partiyadan xilas olmağa cəhd edəndə onun rəqibinin qucağına düşürlər». *Totalitar cəmiyyətdə müxalifət partiyalarından müxtəlif təzyiq və sıxışdırmalarla və ya ələ almalarla vətəndaşların uzaqlaşdırılması həm də onları hakim partiyaya doldurmaq məqsədi güdür.* Neototalitar cəmiyyətdə iqtidarların müxalifət partiyalarına qarşı apardığı siyasətin bir hədəfi budur və vaxtilə müxalif siyasi partiyalarda olmuş üzvlərin sıxışdırılması nəticəsində onların demək olar ki, əksəriyyəti hakim partiyaya üzv olmağa məcbur olur. Yeddincisi, neototalitar cəmiyyətlərdə müxalif güclərin sıxışdırılmasında əsas məqsəd de-fakto bütün totalitar fəlakətlərin baş aktoru kimi çıxış edən *təkpartiyalı siyasi sistem* yaratmaqdır. Təkpartiyalı sistemdə isə *sezaristik partiya* oliqarxiyası yaranır. *Oliqarxik partiya* sosial hərəkat naminə yox, onun hesabına yaşayır, nəticədə iqtidar ictimai inkişafa yalnız və yalnız özünün şəxsi və qrup marağı prizmasından yanaşır və sosial inkişaf bu maraqlara uyğun aparılır və onunla məhdudlaşır. Buradan da iqtisadiyyatda maliyyə oliqarxiyası doğur. Təkpartiyalılar sıx birləşməyə, yaxşı inzibati və icbari nizamlanmaya, yüksək ideoloji hazırlığa cəhd edirlər və opponentləri olduğu dövləti kopiyalaşdırırlar. Başqa sözlə, keçmiş kommunist partiyası tipində *təsərrüfat partiyası* yaradırlar. Bunun üçün bürokratiya və dövlət məmurları yalnız bir partiya üzvlərinin imtiyazına çevrilir, ya da dövlət məmurları kütləvi şəkildə inzibati təzyiq vasitələri ilə hakim partiyaya «üzv» yazdırılır. Səkkizincisi, müxalifətin sıxışdırılmasının bir səbəbi də dövlətin siyasi məsələlərini hakim partiya rəhbərlərinin monopoliyaya alması, onların yüksək dövlət vəzifələrinə nüfuz etməsi, hər bir vətəndaşa sərt nəzarət həyata keçirməsi, partiya hegemonluğu, həmişə, o cümlədən retrospektiv qiymətləndirmədə özünü haqlı hesab etməsi, keçmişi, indini və gələcəyi ideoloji simvollaşdırmaqla vətəndaş cəmiyyətini boğması, yalnız hər kəsə öz qapalı dairəsində etiraza imkan yaratmaqla onun kütləvi ifadəsinə imkan

verməməsi, vətəndaşlardan nizamlı, ehtiyatlı olmağı, iqtidardakılara xüsusi hörmət, özünə senzura tələb etməsi, əxlaqi passivlik – «*nə bil, nə düşün*» vəziyyəti - yaratmasıdır. Bütün bunlar istənilən cəmiyyətdə artıq neototalitarizmin əsasında duran təkpartiyalı cəmiyyətin yaradılmasından xəbər verir. Doqquzuncusu, hətta müxalifətin təbii gücsüzlüyü belə, demokratikləşmə həyata keçirənlərə analoji siyasət aparmağa əsas vermir və müxalifətin gücsüzləşdirilməsi siyasətinin də totalitarizmə xidmət etdiyini hamı başa düşür, Qərb məhz buna görə ardıcıl olaraq neototalitar dövlətləri qınayır. *Demokratiya tələb edir ki, dövlət öz siyasi bazasını təşkil edən siyasi sistemin – onun hər bir elementinin, o cümlədən müxalifətin qeydinə qalsın.* C.Kin adıçəkilən əsərində yazır: «Dövlət demokratiyanın və xüsusi kapitalist bazarının indi strukturlaşdırdığı əlaqələrin kəsilməsinin nəticələrinə qarşı yeni forma sosial həmrəylik, xüsusən, ən azı hakimiyyətdən ayrılmış vətəndaşlarla (bizim anlamda müxalifətlə – S.C.) arasında qoyulmalıdır. Bunda «köklərin itməsi»nin müasir təhlükəsi dərk edilir və çoxlu vətəndaşın hiss etdiyi vətəndaş cəmiyyətinin «kök atmaq» tələbatı keçmiş haqqında yaddaşı saxlayan indikində stabillik yaradır və gələcək əlaqələrdə müəyyən gözlənti saxlayır. Müxtəlif assosasiyalar vasitəsi ilə burada təsvir olunan qısa siyasi tədbirlər ən azı hakimiyyətlə ayrılmış vətəndaşlara daha çox səlahiyyətlər vermək işində yerli təşəbbüslərin strateji əhəmiyyəti haqqında fikrə gətirir… vətəndaş cəmiyyəti daha güclülərin daha zəiflərin azadlıqlarını əlindən aldıqları döyüş meydanında doğulmaq zərurətindədir… fövqəladə vəziyyətdə vətəndaş cəmiyyəti tamamilə məhv ola bilər. Məhz buna görə də, vətəndaş cəmiyyətini saxlamaq və inkişaf etdirmək üçün qəti siyasi təşəbbüslər, maliyyə dəstəyi və hüquq təminatı lazımdır». Bu həm də *cəmiyyətdə revanşizmin və gələcəkdə siyasi intiqamçılığın qarşısını alan yeganə yoldur.* Bu baxımdan partiyaların maliyyələşməsi yerli qrant layihələrini həyata keçirmək, qanunvericiliyi vətəndaş cəmiyyətinin iştirakı ilə onun inkişafı istiqamətində təkmilləşdirmək lazımdır.

Müxalifət demokratik prosedurların məhsulu və eyni zamanda onun ayrılmaz tərəfidir. Belə prosedurlar olmadıqca demokratik

müxalifət yarana bilməz və ya demokratik prosedurların pozulması müxalifətin zəiflədilməsi məqsədi güdür. Müxalifət dörd cür zəifləyir: ya qeyri-demokratik yol tutur, ya iqtidarın tərəfinə keçir, ya siyasi pasiivləşir, ya da ölkəni tərk edir.

İqtidar strategiyasına həsr olunmuş məqalədə demokratik prosedurlara münasibət aşağıdakı kimi ifadə olunur: «Tarixi təcrübə sübut edir ki, demokratik rejim yalnız o halda möhkəm rejim kimi qalır ki, ümumi seçki hüququ adambaşına ÜDM-nin müəyyən səviyyəsinə çatdıqda yaranmış olsun. Bu səviyyədə ölkə əhalisinin əksəriyyəti məsul qərarlar qəbul etmək və seçki bülletenləri alan lümpenlərin təsirini bitərəfləşdirmək üçün kifayət qədər güclü olur. İnkişafın daha aşağı səviyyələrində ümumi seçki hüququnun tətbiq olunması cəhdləri ya bu hüququn tezliklə ləğv edilməsinə, yaxud da onun heç bir məna kəsb etməyən prosedura gətirib çıxarır». Hayekin «Köləlik zəncirində» adlı əsərindən gətirilən belə bir sitat bu fikirlərin əsassızlığını sübut edir. «Özlərini yedirə biləcəyinə əmin olmayan insanlarda müstəqil ağıla və güclü xarakterə nadir halda rast gəlmək olar…həqiqi azadlığın zəruri şərtləri sırasında bədnam «iqtisadi azadlıq» ilə yanaşı tez-tez və böyük əsasla iqtisadi baxımdan müdafiə olunmağın da adını çəkirlər. Bu, müəyyən mənada düzgündür».

Haşiyə: Birincisi, neototalitarizm tərəfdarları «özlərini yedirə biləcəyinə əmin olmayan insanlarda müstəqil ağıla və güclü xarakterə nadir rast gəlmək olduğunu» əsas götürüb planlı şəkildə öz ölkələrinin əhalisini lümpenləşdirirlər və bununla da ağılsız və zəif xarakterli insanların cəmiyyətini yaradırlar. Məhz neototalitarizm belə cəmiyyətlərdə asanlıqla inkişaf edir. İkincisi, əgər həqiqətən də neototalitar liderlər planlı şəkildə öz ölkələrində avtoritar rejim yaratmağa cəhd etmirsə, əvəzində səmimi şəkildə demokratikləşmə və siyasi inkişafa nail olmaq istəyirsə, onda demokratikləşmədə düçar olduqları nailiyyətsizliyin səbəblərini araşdırmalıdırlar. Burada hər şeydən öncə *psevdodüşüncə* problemi üzə çıxır. Yenidən yuxarıda şərh etdiyimiz suala qayıdaq. Nə üçün psevdodüşüncədən qaçmaq özfəaliyyətlə - həm də spontan və avtonom özfəaliyyətlə birbaşa bağlıdır?. K.Manheym yazır: «Sosial elmlər sahəsində işlə-

mək üçün sosial prosesdə iştirak etmək vacibdir». Demokratikləşmə ilə bağlı hər hansı bir elmi məqalə, əsər yazmaq və ya doktrina hazırlamaq üçün demokratik proseslərdə iştirak etmək zəruridir. Neototalitar dövlətlərin təmsilçiləri demokratikləşməyə tələsmirlərsə və buna görə də onlar heç bir demokratik prosesdə şəxsən iştirak etməyiblərsə, onlar necə demokratiya ilə bağlı siyasət həyata keçirə bilərlər? Əgər hətta alimlərə elmi fəaliyyət üçün və ya elmi düşüncə üçün sosial prosesdə iştirak etmək vacibdirsə, onda təcrübi siyasətçilərin və o cümlədən, hər bir vətəndaşın demokratik düşüncəni mənimsəməsi üçün demokratik proseslərdə iştirak etməsi vacibdir. Demokratik proseslər - demokratik prosedurlarla baş verir və *demokratik prosedurların pozulması vətəndaşlarda demokratik düşüncənin korlanmasına, demokratik proseslərin dayanmasına səbəb olur.* Qeyd edim ki, demokratlar yalnız spontan və avtonom fəaliyyətdə yetişir. *Demokrat olmaq üçün mütləq demokratik prosedurlarda formalaşmaq lazımdır.* Üçüncüsü, «lümpenlərdən demokrat olmaz» fikrinə əsaslanan neototalitar iqtidarlar məqsədyönlü şəkildə əhalini lümpenləşdirərək seçki prosedurunun və digər demokratik prosedurları «heç bir məna kəsb etməyən» və ya «ləğv edilməsi zəruri olan» proseslərə, vətəndaşları isə «müstəqil ağılı və güclü xarakteri olmayan» sürüyə çevirirlər. *Neototalitar dövlətlərdə əhalinin var-yoxdan çıxması ilə lümpenləşmə, bununla vətəndaşların ağlı və xarakteri sonuncu ilə seçki saxtakarlıqları xüsusən, ölkədə seçkili orqanlarının sayının günbəgün azaldılması - arasında əlaqəni görmək çətin deyildir.* Dördüncüsü, bu cür yanaşma 10 dekabr 1947-ci ildə BMT tərəfindən qəbul olunan «İnsan Hüquqları Deklarasiyası»nın tələblərinə, o cümlədən bu ölkələrin konstitusiyalarına daban-dabana ziddir. Əgər lümpenlər də insandırlarsa, onlar da digər təbəqələrin nümayəndələri kimi seçki hüququna malik olmalıdırlar və onların səsinin gücü ilə elitanın səsi arasında fərq yalnız o mənada qoyula bilər ki, məhz lümpenlərin səsi əsas götürülərək cəmiyyətin inkişaf strategiyası müəyyən edilsin. Bunun əksini belə bir fakt da sübut edir ki, *olduqca kasıb ölkələrdə, məsələn, əhalisinin böyük əksəriyyəti lümpenlərdən ibarət olan Hindistanda demokratik prosedurlar – xüsusən, seçkilərin səviyyəsi heç də inkişaf etmiş ölkələrdən geri qalmır.* Hət-

ta aclıq və səfalət içində yaşayan müasir Afrika ölkələrində seçkilərə nə qədər önəm verilməsi demokratik prosedurların necə həyati əhəmiyyət daşıdığını göstərir. Problemə bu cür yanaşma olsa-olsa özünə bəraət qazandırmadır. Nəzərə almaq lazımdır ki, demokratik prosedurlar «demokratiya muskulları»nı şişirdən məşqlərdir. Bütün demokratik ölkələrdə demokratik prosedurlara demokratiyanın özündən çox önəm verilir. *Demokratiya - məqsəd, demokratik prosedurlar - vasitədir*. Vasitə məqsədə uyğun olmadıqda, məqsədə aparmır. Vaxtilə Mahatma Qandi deyirdi: «Demokratik Hindistan uğrunda qeyri-demokratik yollarla mübarizə aparmaq olmaz». Cəmiyyətin inkişafı və stabilliyi də yalnız demokratik prosedurların mövcudluğu ilə təmin edilə bilər. Harda ki, demokratik prosedurlar pozulur, orada sabitliyin və inkişafın pozulması qaçılmazdır. Beşincisi, burada bir suala cavab vermək lazım gəlir ki, kim - *dövlət və ya hakimiyyət, yoxsa vətəndaşlar və ya xalq insan azadlıqlarının qorunmasında söz sahibi olmalıdır*? Bu sual bütünlükdə həm də cəmiyyətin tipini və dövlətin formasını müəyyənləşdirmək baxımından əhəmiyyət kəsb edir. Bu sual vaxtilə Makiavellinin də diqqətini çəkib və suala cavab kimi yazır: «Kim ki, müdrikcəsinə respublika yaradıb, (ən vacib məsələ) azadlıqların qorunmasını təşkil etməyi hesab etmişlər… nə zaman ki, azadlıqların qorunması xalqa həvalə edilir, o daha çox onun haqqında qayğı göstərir, özünün azadlığını uzurpasiya etmək, imkanı olmayacağından, başqalarına da buna imkan verməyəcək… ». Bundan fərqli uzurpasiya imkanı olanlara, xüsusən, hakimiyyətə azadlıqların qorunması kimi müqəddəs bir işi tapşırmaq olmaz və müasir dünyada azadlıqların qorunması universal dəyərlər kimi yalnız beynəlxalq təşkilatlara və hər bir vətəndaşa həvalə olunmuşdur. Bu isə demokratik prosedurlar tələb edir. Hər hansı iqtidarın insan azadlıqlarına, o cümlədən demokratik prosedurlara hər hansı müdaxiləsi cəmiyyət üçün ağır nəticələrə gətirib çıxarır və müasir neototalitar dövlətlərdə də eyni mənzərə müşahidə olunur.

«Demokratlarsız demokratiya olmur» postulatı qlobal dövlətlər sistemində yeni məna kəsb edir və *beynəlxalq demokratlar* hər hansı bir ölkədə demokratikləşmənin vacib aktorları kimi çıxış edir. *Qeyd etmək lazımdır ki, müasir dövrdə artıq ayrı-ayrı suveren dövlətlər qlo-*

bal dövlətlər sisteminin tərkib hissələri və ya altsistemləri kimi çıxış edir və bu sistemlərdə baş verənlər bütünlükdə qlobal dövlətlər sistemini təhdid etdiyindən, qlobal güclərin altsistemlərə müdaxiləsi qaçılmaz olur. Buradan da Qərbin və ABŞ-ın rəsmi və qeyri-rəsmi demokratik institutlarının, ayrı-ayrı siyasi xadimlərin müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın demokratikləşməsində rol alması zərurəti yaranır. İqtidar strategiyasında qlobal güclərin Azərbaycanın siyasiləşməsində iştirakı ilə bağlı belə bir fikir yer tapıb: «Demokratik ənənələrin tarixən yabançı(?!) olduğu cəmiyyətlərdə milli-tarixi, mədəni və sosial-siyasi özünəməxsusluq amilləri və ictimai şüurun dəyişməsi nəzərə alınmadan birdən-birə yeni davranış normaları formalaşanda dünyanın bu və ya digər regionunda demokratiya vasitəsi ilə xarici siyasətin əsas vəzifələri gerçəkləşdirilir və gündəlikdəki məsələlər formalaşdırılır».

Haşiyə: Bu bir həqiqətdir ki, *cəmiyyətlər nə qədər demokratiyadan uzaqdırsa, bir o qədər xarici demokratların müdaxiləsinə ehtiyac yaranır.* Qlobal demokratik güclərin, ayrı-ayrı dövlətlərin demokratikləşməsində iştirakı bir neçə yolla: müşahidələr şəkilində – seçkiləri, mitinqləri, həbsxanaları iqtidarın və müxalifətin davranışlarını heç bir müdaxilə etmədən kənardan dövri olaraq müşahidə etməklə; öyrətməklə – treninqlər təşkil etməklə; maliyyələşdirməklə – qrantlar ayırmaqla; beynəlxalq təşkilatların və demokratik dövlətlərin dəyərləndirməsi ilə – hesabatlar şəklində; təşkilatlandırmaqla – beynəlxalq təşkilatlara üzvlüyə cəlb etməklə; nəhayət, tənzimləməklə – demokratik dövlətlərin siyasi liderlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin rəsmi bəyanatları, səfərləri və diplomatik xəbərdarlıqları şəklində həyata keçirilir. Qlobal demokratik güclərin suveren dövlətlərin demokratikləşməsində iştirakçılığı – iki formada həyata keçirilir: Bilavasitə iştirakçılıq – bu hər hansı bir ölkədə nümayəndəlik yerləşdirməklə, bilavasitə demokratikləşmədə iştirak – MDİ, BRİ, İFES, AŞ, ATƏT, AB-nin ofisləri, diplomatik korpuslar və s kimi. Dolayı iştirakçılıq – xaricdə yerləşən beynəlxalq institutların müraciətləri, bəyanatları, səfərləri və s. kimi baş verir. *Hətta rejim humanitar fəlakətə səbəb olan siyasət apardıqda, xarici hərbi intervensiya qaçılmaz olur.* Sosilalist cəbhəsi dağılandan sonra

NATO-nun nizamnaməsinə edilən ən ciddi dəyişiklik bu təşkilatın dünyanın istənilən regionunda təhlükəsizliyin təmin edilməsində və demokratikləşmədə iştirakına yol açmışdır. Bu iştirak NATO rəhbərlərinin zaman-zaman müxtəlif ölkələrdə demokratiyanın vəziyyəti ilə bağlı mövqelərini bildirməsi ilə müşayət olunur. Hələ 1877-ci ildə S.T.Erskin Mey deyirdi: «Nə qədər ki, proqressiv cəmiyyətlərdə demokratiya ümumi sosial inkişafın nəticəsidir, böyük həcmdə siyasi hakimiyyətə malik olan dövlətlər demokratiyanın artıqlığından qorunmağa çalışacaqlar. Əgər hardasa bu sonuncu üstünlük əldə edəcək, az bir vaxt ərzində onları əzmək lazımdır». Antiterror koalisiyasının İraqa, Əfqanıstana, Yuqoslaviyaya intervensiyaları da bununla bağlıdır. Artıq bir çox neototalitar dövlətlər də bunun sərhədlərinə gəlib çıxıb. İkincisi, neototalitar dövlətlərdə demokratiyanın boğulmasına Qərbin və ABŞ-ın «dözüm» nümayiş etdirməsi iqtidarlara «onlar bizdən qorxurlar və enerji daşıyıcılarına görə bizdən asılıdırlar», xalqda və bəzi müxalif güclərdə isə «onlar neftə satılıblır» kimi fikirlər formalaşmasına səbəb olurlar. Bəs əsl həqiqətdə Qərbin qlobal demokratikləşmə strategiyasına paralel müxalifətlə yaxından intensiv əlaqə saxlamaması və hökumətə inadlı təzyiq etməməsi nədən xəbər verir? Bütün bunlar Eriksin Meyin ideyaları ilə birbaşa bağlıdır. Vaxtilə ABŞ-ın İraqdakı səfirinin Səddam Hüseyni Küveytə hücum etməyə necə və niyə təşviq etdiyini xatırlamaq kifayətdir. Məhz Küveytin işğalından sonra Səddam rejiminin demontajı başladı. 2005-ci il parlament seçkilərindən sonra ABŞ Dövlət Departamentinin hesabatında «Azərbaycan xalqı konstitusion yolla hakimiyyəti dəyişdirmək imkanını itirib» fikri əks olunmuşdu. Son illər «Freedom House» kimi nüfuzlu hüquq müdafiə təşkilatı ardıcıl olaraq Azərbaycanı azad olmayan ölkələr sırasına salıb, «Beynəlxalq Böhran Qrupu» Azərbaycanda «ayrı-ayrı nazirliklərin tabeçiliyində hərbi güclərin mövcudluğunun hakimiyyət uğrunda mübarizədə ciddi təhlükəyə çevriləcəyi» haqqında hesabat yayır. Bundan əlavə ABŞ-ın sabiq Dövlət katibi Kondaliza Raysın «neft ölkələrinin liderləri neft gəlirlərindən istifadə edərək, demokratiyadan üz döndərməklə ciddi səhvə yol verirlər» bəyanatı da problemin miqyasından xəbər verir. Qlobal böhranın başlaması ilə

neft faktoru özünün müstəsna əhəmiyyətini itirib, neft sektorunu təmsil edən siyasətçilər siyasətdən gedib, amma hələ Qərb və ABŞ iqtidara «gözün üstə qaşın var» demir və müxalifətlə də ciddi işləmir. Bəs Qərb nə edəcək? Sualın cavabı Eriksin doktrinasındadır. «Xiyar əyri bitirsə, qoy bitsin!». Artıq biz Qərbin keçmiş SSRİ dövlətlərinin neototalitar cəmiyyətlərinə geniş «səlib yürüşü» edəcəyini asanlıqla proqnozlaşdıra bilərik. Bunun ilk siqnalı ABŞ prezidentliyinə namizəd Makkeynin hücumçu demokratiya çağırışı oldu. Artıq neft və neft üzərində bərqərar olan bütün totalitar cəmiyyətlər dəyişilmə ərəfəsindədir. Elə ABŞ - da prezident seçkilərinin SON qalibi Obama da dünyaya məhz belə müraciət etdi: *«Dünyanın ucqarlarında olanlar, məni eşidin, dəyişilmə erası başlayır». Ya totalitar rejimlər dəyişiləcək, ya da dəyişdiriləcək. Üçüncü yol yoxdur.* Üçüncüsü, nə üçün milli dövlətlərdə daxili işlərdə xarici demokratlar iştirak etməlidir? Beynəlxalq təşkilatların və xarici demokratların demokratikləşmədə iştirakı iki mühüm amillə bağlıdır. Corc Qruel yazır: «Səni totalitarizmin pozğunlaşdırmasından ötrü heç də totalitar ölkədə yaşamağın vacib deyil». *Dünyada totalitar cəmiyyətlərin mövcudluğu ciddi şəkildə demokratik cəmiyyətləri təhdid etməkdədir və bu ölkələrdəki neototalitarizm* ilk növbədə demokratik ölkələrin vətəndaşlarını korlayır. Ən azı onları korrupsiyaya bulaşdırır, onlara azad cinayət mühiti təqdim edir, mənəvi düşkünlüklə nəticələnəcək şərait yaradır. Makoley Qərb dünyasına xəbərdarlıq edir ki, «insanlığın sivil hissəsi vəhşi hissəsi tərəfindən devriləcək və sivilizasiyanın bətnində onu məhv edəcək, xəstəlik yaranacaq». Düzdür, bu fikir radikal olsa da, totalitar cəmiyyətlərin demokratik cəmiyyətlərə təhlükəsi kifayət qədər ciddidir. Hər şeydən əvvəl bu rejimlərin törəməsi olan terrorizmin, narkoticarətin, insan alverinin, qlobal kriminalların başlıca hədəfi demokratik cəmiyyətlərdir. Dördüncüsü, *demokratiya müasir qloballaşmanın siyasi bazisidir*. Bu baxımdan qlobal dövlətlər sistemində problemlərin yaranmaması və qloballaşmanın genişlənməsi demokratiyanın bütün dünyada müdafiə olunmasını tələb edir. Beşincisi, hər bir ideologiyanın *etik* tərəfi mövcuddur. Əslində demokratiyanın bir fəlsəfi mənası da *insani həmrəylikdir*. Belə ki, vaxtilə kommunistlərin «Bütün ölkələrin

proletarları birləşin!» şüarı altında dünyanın hər yerində mövcud olan kommunist partiyalarını maddi və mənəvi cəhətdən dəstəkləməsi nəticəsində 20-ci əsrlərin axırlarında dünyada – Asiyada, Afrikada, Cənubi Amerikada onlarla sosializmə keçid dövlətləri meydana çıxmışdır. Buna görə də xarici demokratlar həmrəylik naminə etik bir davranış kimi bütün dünyada demokratiyanı dəstəkləməyə, onlarla həmrəy olmağa cəhd edirlər və çox təəssüf ki, hələ bu cəhdlər yetərli deyil. K.Ç.Horton adıçəkilən əsərində yazır: «Özününkü və yad bir-birini inkar edən sosial fakt deyil». *Eyni ilə də xarici demokratla daxili demokrat bir-birini inkar edən iki sosial fakt ola bilməz.* Belə ki, *xarici ölkələrin demokratlarının iştirak etmədiyi ayrıca bir ölkədə demokratiya mümkün deyil.* Bu baxımdan postsovet iqtidarlarının beynəlxalq qeyri-hökumət təşkilatlarına münasibəti də bir daha göstərir ki, müasir dövrün demokratikləşməsinin məntiqi onlar tərəfindən mənimsənilməyib. Müasir qlobal dövlətlər sistemində demokratik dövlətlərin başqa alternativləri varmı? Onlar son günlər Rusiyanın Gürcüstanı işğal etdiyi kimi, antidemokratik üsullarla xarici siyasət yeridilməlidir?! Və ümumiyyətlə, iqtidarlar öz xarici siyasətlərini demokratiyadan başqa daha hansı vasitələrlə reallaşdıra bilərlər? Beşincisi, demokratiyanın radikal-total anlamına həm də hüquq dövləti anlayışı daxildir. *Hüquq dövləti - daxili və xarici siyasətində yalnız hüquqa əsaslanan dövlətdir.* Belə dövlətin xarici siyasəti daxili siyasətin məntiqi davamı olduğundan, onun qanunları beynəlxalq hüquqla üst-üstə düşməlidir. Beynəlxalq hüquq isə ilk növbədə milli dövlətlərə *öhdəliklər* müəyyənləşdirir. F.Fukuyamanın qeyd etdiyi kimi, «Beynəlxalq hüquq böyük miqyasda yazılmış daxili hüquqdur». Demokratik dövlətlərdə *«özünəməxsusluq»* nəzərə alınmır. Demokratiyanın hüquqla eyni mənalı olmasını hamı qəbul edir. Beləliklə, daxili hüququ nəzərə almayan hər bir iqtidar beynəlxalq münasibətlərdə də ardıcıl olaraq beynəlxalq hüququ pozur. Nəticədə Rusiya kimi güclü olanlar zorakılıqla, kiçiklər isə milli maraqları qurban verməklə xarici siyasəti həyata keçirməyə və ya özünə lazım olan gündəliyi formalaşdırmağa cəhd edir. Qeyd etmək lazımdır ki, bu səbəbdən bu günədək postsovet respublikaları öz xüsusi problemlərini beynəlxalq hüquq çərçivəsi-

nə çıxara bilmir. Altıncısı, xarici güclərin daxili administrasiyada iştirak məsələsi dövlətləşmənin inkişafının istiqaməti ilə bağlıdır. F. Fukuyamanın «Tarixin Sonu» konsepsiyası da məhz həm cəmiyyətin, həm dövlətin, həm də fərdlərin *universallaşmasına* əsaslanır. Beləliklə, neototalitar hakimiyyətlərin qarşısında iki yol qalır: Ya qloballaşma ilə özünəməxsusluqdan imtina, ya da özünü təcrid etməklə özünəməxsusluğu qoruma. Birinci insanlığın izlədiyi, ikinci *yubanan sivilizasiyaların* getdiyi yoldur. Yeddincisi, müasir iqtisadi əlaqələrin *yeni müstəmləkəçiliyə* gətirib çıxarması ilə bağlı neototalitarizm tərəfdarlarının fikirlərini bölüşdürmək lazım gəlir. Amma xatırlatmaq istəyirəm ki, yeni müstəmləkəçilik o ölkələrdə yaranır ki, yerli iqtidarlar qabaqcadan xalqı belə müstəmləkəçiliyi qəbul edəcək vəziyyətə salırlar. Nə üçün neft ərəb ölkələrində beynəlxalq iqtisadi əlaqələrdə müstəmləkəçiliyə, kiçik Norveçdə isə dövlət müstəqilliyinin möhkəmlənməsinə və vətəndaşların azadlıqlarının genişlənməsinə səbəb olur? Bu gün dünyada öz xalqına hörmət edən heç bir iqtidarın xarici əlaqələri yeni müstəmləkəçiliyə səbəb olmayıb. *Yalnız öz xalqını özü əzənlər həm də onun ikiqat istismarına yol açır, çünki, xalq nə qədər çox və müxtəlif qüvvələr tərəfindən istismar olunur, bir o qədər itaətkar olur, nəticədə də bir hakimiyyət o qədər uzun müddət hakimiyyətdə qalır. Səkkizincisi*, *bəşəri idrak* hər cür arxeotiplərdən uzaqlaşmağı, universallaşmağı və bir istiqamətli bütün dünyanın getməli yola - F.Fukuyamanın obrazlı ifadə etdiyi kimi – liberallaşmaya keçiddə və bu zaman qlobal amilləri nəzərə almağı tələb etdiyi bir vaxtda neototalitar dövlətlərin iqtidarları əks istiqamətə üz tutur və nəticədə iqtidarların iddia etdiyi kimi, öz ölkələrini «yeni metodlarla idarə edir»lər. Onda belə bir sual meydana çıxır, əgər neototalitar iqtidarlar ölkələrini *universal demokratik metodlarla* yox, *yeni milli metodlarla* idarə edirlərsə, bu metodlar hansı rejimlərə xasdır və əgər bu ölkələrdə demokratlar yoxdursa, demokratik institutlar zəifləyərək sıradan çıxırsa və demokratik prosedurlar stabilliyə və inkişafa görə ikincilidirsə, xarici demokratlar da iqtidarı «birmənalı» dəstəkləyirlərsə, onda yüksək kürsülərdən hansı demokratiyadan danışılır və nə üçün demokratiyaya keçid strategiyası elan olunur? Bu sualların cavabı kimi təhlil etdiyimiz

strategiyadan gətirdiyimiz aşağıdakı sitat kifayətdir: «Yalançı demokratik ibarələrdən istifadə edənlərin çoxu keçmişin geri qayıtmasını istərdi. Bəziləri ümummilli sərvətləri cəzasız oğurlamaq, insanları və dövləti qarət etmək üçün, başqaları ölkəni iqtisadi və siyasi müstəqillikdən məhrum etməkdən ötrü, üçüncülər isə öz ambisiyalarını həyata keçirmək üçün!!». Görəsən, bu təsnifata görə demokratikləşmə ilə bağlı diskusiyaya qoşulanlar hansı qrupa aiddir!? Bu sualı nə üçün verirəm? Çünki demokratiya uğrunda mübarizə aparan və ya yüksək beynəlxalq tribunalardan demokratiyadan danışanlar o cümlədən cəmiyyətdə demokrat rolunda çıxış edən hər bir siyasətçi bilməlidir ki, öz seçimində səhv etmir ki? Axı Hamilton 27 oktyabr 1787-ci il tarixdə ABŞ Konqresində çıxışında dediyi kimi, «Biz gələcək rolumuzun seçilməsində səhvlərimizi bütün insanlıq üçün fəlakət kimi dərk etməliyik». *Məncə, hər bir demokrat dünyanın demokratikləşməsində şəxsi rolu ilə bağlı özünə bu sualı verməli və onun cavabını öz mövqeyində axtarmalıdır.*

IV FƏSİL

DEMOKRATİYA İLƏ AVTORİTARİZMİN ARASINDAKI «BOZ ZONA»

«Böyük dəyişikliklər yalnız ideyalarla yaranmır: amma ideyalarsız da mümkün olmur»
Leonard Hobhaus

"O şeyi ki, etmək olmaz, onu yaxşı eləməyə dəyməz"
A.Maslou

«Cənnətdən çıxan yolda Adəm Həvvaya demişdir: «Mənim səadətim, biz keçid dövrünü yaşayırıq».
U.İnqe

Neototalitar cəmiyyətlər keçid dövrü yaşayan ölkələrdə meydana çıxdığından təbii yolla yaranan klassik totalitar cəmiyyətlərdən fərqlənir. Başqa sözlə, *neototalitar cəmiyyətlərin formalaşması keçid dövrünün xüsusiyyətləri ilə şərtlənmişdir.* Eyni start xəttində olan Baltikyanı respublikalarda demokratiyaya keçid qısa müddət ərzində, böyük sürətlə və itkisiz baş vermişdir. Amma digər postsovet respublikalarında bundan fərqli olaraq antidemokratik rejimlər yaranmışdır. Belə fərqli inkişafın əsas səbəbləri bu ölkələrin iqtidarlarının keçid dövründə həyata keçirdikləri cari siyasətlə bağlıdır. Buna görə də keçid dövrünü təhlil etmədən neototalitarizmin əsl mahiyyətinə varmaq, onu yaradan səbəbləri öyrənmək mümkün deyil.

Təhlil etdiyimiz strategiyada bir çox hallarda «transformasiya» ifadəsi «keçid» ifadəsinə sinonim kimi işlədilir. Bu da baş verən prosesləri elmi şəkildə anlamaqda ciddi dolaşıqlıq yaradır.

Haşiyə: Ümumiyyətlə, belə terminoloji qüsur qlobal xarakter almış, demək olar ki, bütün dünya keçmiş sosialist regionunda baş verənləri «keçid» termini ilə ifadə etməyə adət etmişdir. Baş verən hadisələrə belə hissəvi yanaşma isə prosesləri anlamaqda çətinlik yaradır.

Vaxtilə SSRİ-nin dağılmasına həsr etdiyim «Böyük aprel keçidi» adlı məqaləmdə SSRİ dağılandan sonra üç vektorlu inkişaf yolu keçməli olduğumuzla bağlı öz fikirlərimi şərh etmişdim. Burada bir qədər geniş şərhə ehtiyac duyuram. Əslində müstəqillik əldə etdikdən sonra «sabiq sosialistlər» üç müxtəlif proseslə – *retransformasiya* – sosializmdən kapitalizmə qayıtma, *keçid* - kapitalist dünyası ilə birləşmə və *dəyişilmə* – transformasiya, kapitalist dünyasının *modernləşməsi* ilə üzləşmiş və hər üç vektor üzrə problemləri həll etmək məcburiyyətində qalmışlar. Bu problemlərin həlli hər şeydən əvvəl terminoloji aydınlıq tələb edir. Çünki problemin düzgün aşkarlanması və effektli həlli üçün onun universal adının tapılmasından sonra istər tarixi və istərsə də çağdaş dünya təcrübəsindən istifadə edərək onu həll etmək olar. Qeyd edim ki, terminoloji dolaşıqlıq öz növbəsində şüurun və ictimai rəyin dolaşıqlığına səbəb olduğundan həqiqətin aşkarlanma prosesinə mənfi təsir göstərir. Bu barədə İ.Vallerstayn «Dünya sistemlərinin analizi» adlı kitabında yazır: «Nəhəng dolaşıqlıq belə bir faktla bağlı yaranır ki, bir və eyni termin üç müxtəlif təzahürü ifadə edir və bununla da sosial dəyişilmələr prosesinin tarixi interpretasiyasını təhrif edir».

Bu gün neototalitar dövlətlərdə «keçid» termini də ən müxtəlif mənalarda və bir-birindən mahiyyətinə görə fərqli prosesləri adlandırmaq üçün istifadə edilir ki, bu da təcrübəni dərk etməkdə dolaşıqlıq yaradır. Bu baxımdan təhlil etdiyimiz iqtidar strategiyasında da eyni problemlə üzləşirik. Strategiyada Azərbaycanda baş verən dəyişilmələrdə paralel olaraq həm «keçid», həm də «transformasiya» terminləri ilə ifadə olunur.

Haşiyə: Əvvəlcə həm beynəlxalq səviyyədə, həm də neototalitar dövlətlərdə baş verənləri ifadə edən «keçid» termininə və onun radikal-total anlamına aydınlıq gətirmək yerinə düşər. İ.Vallerstayna görə, «keçid» sözü üç müxtəlif məna daşıyır, keçid sözünün – birinci mənasına Feodal Avropanın kapitalist iqtisadi dünyasının yenidən formalaşmasını aid etmək olar. İkinci məna – kapitalizmdən kənardakı sistemləri, zərurətə görə, kapitalist iqtisadi dünyasına daxil etməyi ifadə edir. Üçüncü məna – kapitalizmin öz daxilində əməyin proletarlaşması, torpaq istifadəçilərinin kommersiyalaşdırılmasını ifadə edir. Beləliklə, göründüyü kimi, sosializmdən kapitalizmə qayıtmağın sosial elmlərdə işlənən «keçid» termini ilə heç bir əlaqəsi yoxdur. Biz yalnız neototalitar cəmiyyətlərdə gedən prosesləri – bu ölkələrin qloballaşma prosesinə daxil olmasını keçid termini ilə, onun ikinci mənasında, adlandıra bilərik. Amma bundan öncə sosializmdən kapitalizmə qayıdış prosesinin terminoloji dəqiqləşdirilməsinə ehtiyac var. Mən bu prosesi *retransformasiya*, yəni əvvələ qayıtma və ya təkrar çevrilmə kimi ifadə etməyi düzgün hesab edirəm. Çünki yüz il bundan əvvəl kapitalizmdən sosializmə *transformasiyaya*, yəni ictimai formasiya dəyişikliyinə nail olmuş postsovet respublikaları, bu gün həmin prosesin 180 faiz tam əks istiqamətində inkişafı, yəni retransformasiyanı həyata keçirmək vəzifəsini yerinə yetirməyə cəhd edir. Bəlkə də oxucular bu məsələyə xüsusi diqqət ayırmağıma təəccüblənə bilərlər, lakin bilmək lazımdır ki, bu gün postsovet cəmiyyətlərdə baş verənləri düzgün dərk etmək üçün bu məqam müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan, biz baş verən dəyişilmələri transformasiya kimi adlandıra bilmərik, belə ki, «transformasiya» *gələcək istiqamətində baş verən yeni çevrilmələri* ifadə edir, çünki sosialist istehsal üsulu kapitalist istehsal üsulundan sonrakıdır, gələcəkdədir və biz baş tutmamış sosializmdən yenidən kapitalizmə təkrar qayıtmağı – sosialist istehsal üsulunun yenidən kapitalist istehsal üsulu ilə əvəzlənməsini retransformasiya adlandırsaq, daha məntiqi olar. Təbii ki, bu proses – tarixdə ilk dəfə baş verən, analoqu və təcrübəsi olmayan, ən vacibi isə nəzəri bazası və ideologiyası hazırlanmamış bir proses olduğundan, xaotik bir proses kimi meydana çıxmış, keçmiş sosialist ölkələrində hər bir hakimiyyət

retransformasiya prosesini özünə məxsus *orijinal yollarla* reallaşdırmağa cəhd etmişdir. Öncə biz transformasiya ilə retransformasiya arasında prinsipial fərqləri ayırd etməliyik. Birincisi, transformasiya *təbii-irrasional tarixi inkişaf prosesidir,* bundan fərqli olaraq retransformasiya süni – *rasional inkişaf prosesi* kimi təzahür edir. İkincisi, rasional inkişafın forması müxtəlif olsa da, onun mahiyyəti qaçılmaz olaraq *universaldır* və buna görə bəşər tarixi universallaşma istiqamətində inkişafdadır. Müqəddəs kitabımız «Qurani-Kərim»də yazılanlar, eləcə də F.Fukuyamanın və digər filosofların əsərləri də bunu bir daha sübut edir. Amma retransformasiya pozitiv proses olduğundan, *insan iradəsindən, şüurundan və hakimiyyətlərin maraqlarından* asılı olaraq orijinal istiqamətlərdə inkişaf edir. Beləliklə, sosializmdən kapitalizmə çevrilmədə cəmiyyətlərin, Marksın təbirincə desək, onun «vəhşi forma»sına, bazar iqtisadiyyatına, feodalizmə, quldarlığa – təbii ki, onun müasir formasına və çoxukladlığa keçid variantları və sosializmdə ilişib qalmaq – «deformasiya olunmuş sosializmə» retransformasiyası mümkündür. Bu baxımdan öncə «keçmiş SSRİ respublikaları hara retransformasiya edir» sualına cavab tapmaq lazım gəlir. Burada da yenə terminoloji dolaşıqlıq çaşqınlıq yaradır.

Təhlil etdiyimiz iqtidarın strategiyasında sosializmdən retransformasiyaya sinonim kimi kapitalizmə və bazar iqtisadiyyatına transformasiya ifadəsi işlədilir və ən ciddi problem məhz buradan qaynaqlanır. Növbəti fəsillərdə bununla bağlı ayrıca şərh verəcəyimdən burada haşiyəyə çıxaraq, terminlərin əhəmiyyətini sübut edəcək bir faktı xatırlatmaq istəyirəm. Vaxtilə Azərbaycan Respublikası Milli Məclisində bazar iqtisadiyyatına keçidlə bağlı müzakirələri yekunlaşdıran dövlət nümayəndələrindən biri «Bazar iqtisadiyyatına keçirik, ona görə də bazarları təmir etmək lazımdır» demişdi və bundan sonra Respublikanın bütün ərazisi, o cümlədən, Bakının bütün küçələri bazara çevrilmişdi. Bazar iqtisadiyyatının bilavasitə ticarətlə, o cümlədən kolxoz bazarı ilə heç bir əlaqəsinin olmaması anlaşılandan sonra iqtidar Bakı küçələrindən çərçiliyi yığışdırdı, amma bazar tikmək və işlətmək hələ də dövlətin iqtisadi inkişaf konsepsiyasında prioritet olaraq qalmaqda davam edir. Beləliklə, biz transformasiya

ilə retransformasiya, buna paralel, vəhşi kapitalizmlə bazar iqtisadiyyatı terminləri və bu terminlərin ifadə etdiyi həqiqətlər arasındakı fərqi anlamadıqca postsovet respublikalarında baş verənlərə düzgün qiymət verə bilməyəcəyik. Retransformasiya üçün hazır reseptlər, siyasi-iqtisadi nəzəriyyələr və dünya təcrübəsi olmadığından, postsovet respublikaları yeganə məntiqi yoldan - kapitalizmdən sosializmə keçidi təmin etmiş metodlara əks metodlardan istifadə etmək məcburiyyətində qalmışdır. Məlumdur ki, kapitalizmdən sosializmə keçid iqtisadi sahədə – *kapitalist sinfinin məhv edilməsi,* çoxukladlığın, o cümlədən *xüsusi mülkiyyətin ləğvi* və xüsusi mülkiyyətin yerində dövlət və ictimai mülkiyyətin yaradılması, plansız təsərrüfat sisteminin *planlı təsərrüfat sistemi ilə əvəzlənməsi,* tənzimlənməyən bazar iqtisadiyyatından *sərt dövlət tənzimlənməsi həyata keçirilən iqtisadi sistemə* keçidlə; siyasi həyatda – çoxpartiyalılıqdan *təkpartiyalı siyasi sistemə* keçidlə, burjua demokratiyasının *proletar demokratiyası* ilə, kapitalist dövlət formalarının *proletar diktaturası* – fəhlə-kəndli hakimiyyəti ilə əvəzlənməsi; mənəviyyat sahəsində - dindarlıqdan *ateizmə* keçidlə, millilikdən *proletar beynəlmiləlçiliyinə,* fərdiçilikdən universal *sovet adamına,* müxtəlif xalqlılıqdan sovet xalqına keçidlə; sosial sahədə – milli burjua dövlətlərindən *hamı dövlətə,* azadlıqların boğulması ilə qeyri-eqalitar unitar etatizmdən *federativ eqalitar sovet dövlətinə* keçidlə müşayət olunmuşdur. Bu baxımdan retransformasiya iqtisadi sahədə – çoxukladlıqdan keçməklə *kapitalist istehsal üsulunu onun tərəfləri ilə birlikdə yenidən bərpa etməyi,* dövlət və ictimai mülkiyyəti *xüsusi mülkiyyətlə* əvəz etməyi, planlaşdırılmayan iqtisadi inkişafı, *xaotik bazar münasibətləri*ni, iqtisadiyyata *dövlət müdaxiləsinin minimuma endirilməsini,* eqalitarizmdən imtina ilə *azadlıqların genişlənməsini;* siyasi sahədə – *çoxpartiyalı siyasi sistemin* yaradılmasını, *liberallaşmanı, xalq hakimiyyətinin bərpasını, etatizmdən imtinanı;* mənəvi həyatda – *dinə qayıdışı,* xalqçılıq, humanizm, *fərdiyyətçilik;* sosial sahədə – *hamı dövlət ideyasından imtinanı, qeyri-eqalitar azad cəmiyyət* quruculuğunu həyata keçirməyin məcmusunu özündə ifadə etməlidir.

Kapitalist istehsal üsuluna keçid və xüsusi mülkiyyətin bərqərar olması sosialist mülkiyyət formalarının ləğvindən yarandığından,

xüsusi mülkiyyətin yaranmasına qayıdış ilk növbədə onu əvvəlki həqiqi *sahibinə qaytarmağı,* sovet dönəmində yaradılmış ictimai və *dövlət mülkiyyətini xüsusiləşdirməyi* və buna paralel *yeni xüsusi mülkiyyətin yaradılmasını* tələb edir. Buradan da *restitusiya, özəlləşdirmə* və *iqtisadi stimullaşdırma* kimi iqtisadi metodların tətbiq olunması zərurətə çevrilir. Restitusiya ilə bağlı hələ sovet hökuməti dağılmamışdan yazdığım məqalədə bunun əhəmiyyətinə diqqəti cəlb etməyə çalışmışdım. Restitusiyanın zamanını istənilən qədər uzatmaq onu nəzərə almamaq kimi qüsurlu olduğundan, bu barədə qanunda hədlər müəyyənləşməlidir. Restitusiyanın əsas funksiyası dövlətin hüquq sisteminin mülkiyyət münasibətləri üzərində nəzarəti həyata keçirməsindən ibarətdir. Postsovet respublikalarının əksəriyyətində reketçiliyin inkişafı, adam oğurluğu və digər təhlükəli cinayət yolları ilə mülkiyyətin sahibinin zorakılıqla dəyişdirilməsinin inkişaf etməsi məhz bu siyasi məkanda restitusiya ilə bağlı sərt qanunların olmaması ilə bağlıdır. Bu respublikalarda azadlıqların məhdudlaşdırılması və demokratikləşmənin sonrakı mərhələyə saxlanılması yeni bir problem – *mülkiyyətin qeyri-qanuni yollarla əldə edilməsinə* geniş yol açmışdır. Restitusiya termini «mülkiyyətin həqiqi sahibini müəyyənləşdirmək və onu özünə qaytarmağı» özündə ifadə edir. Məhz bu qanunun olmaması mülkiyyətin cinayət yolu ilə əldə edilməsinə şərait yaradır. Unutmaq olmaz ki, *restitusiyadan keçmədən həm də heç bir özəlləşdirmə qanuni və ədalətli ola bilməz.* Beləliklə, özəlləşdirmə elə mülkiyyət münasibətləri çərçivəsində həyata keçirilə bilər ki, öncə mülkiyyətin həqiqi sahibi və ya sahibləri müəyyənləşsin. Postsovet respublikalarında retransformasiya dövründə bu problem düzgün həll edilmədiyindən, yaranan mülkiyyət qeyri-qanuni və qeyri-müəyyəndir. Bu da sonradan siyasi proseslərə refleksiya edərək neototalitarizmə yol açmışdır.

Postsovet respublikalarında iqtidarların digər bir ciddi qüsuru ümumiyyətlə özəlləşdirmənin fəlsəfəsinə vara bilməmələri olmuşdur. Bazar iqtisadiyyatının ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, kapitalizmdən fərqli olaraq *mülkiyyətin ötürülməsinin varislik yoluna ikinci dərəcəli əhəmiyyət verilir və ictimai mənafelər naminə az rentabelli müəssisənin rentabelliyini artırmaq məqsədi ilə onun üzə-*

rində mülkiyyət hüququnun qanunla dəyişdirmə funksiyası dövlətə həvalə edilir. Burada mülkiyyət sahibinin iradəsi və mülkiyyət hüququ iqtisadi zərurətlə – iflasla, borclarla və ictimai maraqlara təhlükə ilə məhdudlaşdırılır. Bu, bir-birinə əks iki proseslə – *özəlləşdirmə* və *milliləşdirmə* ilə tənzimlənir. Amma özəlləşdirmənin qüsurlu həyata keçirilməsi və milliləşdirmə siyasəti aparılmadığından postsovet respublikalarında iqtisadiyyatın klassik kapitalist tənzimlənməsi həyata keçirilmir.

Neototalitar cəmiyyətlərdə digər ciddi iqtisadi qüsur *xüsusi mülkiyyətlə şəxsi mülkiyyətin* qanunla sərhədlərinin ayrılmamasıdır ki, belə şəraitdə aparılan özəlləşdirmə, əslində postsovet məkanında SSRİ dönəmindən qalma iqtisadiyyatın tamamilə məhv edilməsi ilə nəticələnmişdir. Belə ki, dövlət və ictimai mülkiyyəti dəyər-dəyməzinə özəlləşdirənlər, ona şəxsi mülkiyyət statusunda yanaşmış və müəssisənin rentabelliyini yüksəltmək əvəzinə ya onun profilini öz bildiyi kimi dəyişmiş, ya da tamamilə dağıdıb yerində ev, restoran, şadlıq evləri tikmişlər. Nəticədə yüzlərlə zavod, fabrik dağıdılmış – işçilər işdən, dövlət büdcəsi gəlirlərdən, dövlət isə iqtisadi inkişafdan qalmışdır. Əslində bu, mülkiyyətə Roma hüququndan yanaşma ilə bağlıdır və bu hüquqa görə, «mülkiyyət hüququ – ondan istifadə və hüququn mənasının imkan verdiyi qədər sui-istifadədir». Bazar iqtisadiyyatı isə bundan fərqli qanunlarla işləyir və mülkiyyətdən sui-istifadəni qanunla qadağan edir. Vaxtı ilə Qennenek deyirdi ki, «Mülkiyyət əməyin qızıdır, indikilər və gələcəkdəkilər yalnız qanun altında istifadə edilə bilər». Xüsusi mülkiyyətin şəxsi mülkiyyət kimi anlaşılmasının həm də çox ciddi mənəvi tərəfləri vardır. Bu gün Qərbdə yüz, iki yüz illik firmalar var ki, həmin firmaların olduğu dövlətlər məhz onlara görə dünya bazarında sabitqədəmdir. «Boş» bunun ən klassik nümunəsidir. Keçən əsrin əvvəllərində kustar üsulla işləyən kiçik bir firmanı sonradan nəhəng istehsal sahəsinə çevirməyə nail olmuş Boşun «mənim üçün adım puldan qiymətlidir» sözləri müasir biznes aləminin əxlaq kodeksinə çevrilib. Azərbaycanda hətta əsası inqilabdan qabaq qoyulmuş və dünya markası olmaq şansı olan və hətta kommunistlərin belə, dağıtmağa əlləri gəlmədiyi, minlərlə qadının işlədiyi, H.Z.Tağıyevin tikiş fabri-

ki kimi müəssisələr tamamilə məhv edilmişdir. Pyotr Montin adına zavod sovet dönəmində dünyanın 90 ölkəsinə neftçıxarma maşınları və avadanlıqları satdığı halda, bu gün bu zavodun harada yerləşməsi belə, yaddan çıxıb. Dünya şöhrətli Simenslərin, Nobellərin və s. məhz Azərbaycandan yüksəlmələri də yaddan çıxa bilməz. Bu gün guya iqtisadi inkişafda olan Azərbaycanın inqilaba qədərki dünya şöhrətini yaxalayacağı sual altındadır. Digər postsovet respublikaları da bu məsələdə istisna təşkil etmir. Burada bir xüsusi halı qeyd etmək istəyirəm. Bu problem həm də sosial sahədə özünü göstərir. Belə ki, bazar iqtisadiyyatı ölkələrinin təcrübəsinə nəzər salsaq görərik ki, sosial sahənin problemləri xüsusi mülkiyyətin güclü dəstəyi və birbaşa iştirakı ilə həll olunur. Elə götürək qardaş Türkiyəni. Türkiyənin ən böyük muzeyləri, universitetləri, məktəbləri, xəstəxanaları, kitabxanaları, reabilitasiya mərkəzləri, ictimai yardım fondları məhz xüsusi mülkiyyətçilərin xeyriyyə tədbirləri nəticəsində əldə edilən vəsaitlə yaranıb və fəaliyyət göstərirlər. Bu gün də bu proses davam edir. Neototalitar dövlətlərdə isə bir tərəfdən dövlət və ictimai mülkiyyət demək olar ki, tam özəlləşdirilib, digər tərəfdən qüsurlu vergiyə cəlbetmədən kənar, kimsə infrastrukturun inkişafında könüllü iştirak etmək istəmir.

Haşiyə: Qeyd etmək lazımdır ki, neototalitar dövlətlərdə özəlləşdirilən müəssisələrlə bağlı özbaşınalıq cinayət olmaqla yanaşı bazar iqtisadiyyatı ilə də heç bir əlaqəsi yoxdur. Əslində dövlət özəlləşdirilən müəssisələrin profilinin dəyişdirilməsinə, dağıdılmasına ciddi reaksiya verməli, dərhal müdaxilə etməlidir, yalnız yeni müəssisələrin yaradılmasında *iş adamlarının azad seçiminə* hörmətlə yanaşmaq lazımdır. Çünki başlanğıc şərt, yeni təşəbbüslərin iqtisadi mənası özəlləşdirmədən fərqlidir və bazar iqtisadiyyatı yeni təşəbbüslərdə məqsədlərin azad seçimini tələb edir. Özəlləşdirmədə iştirak edən subyekt isə artıq konkret sahəni özəlləşdirdiyi üçün həmin sahədən asılılığı könüllü qəbul etmiş olur və buna görə də *azad məqsəd seçmək hüququndan istifadə edə bilməz.* Bu baxımdan Hayek yazır: «Bazar qaydaları bizim hansısa hərəkət etməyimizdən ötəri olan məqsədlər üçün yaradılmayıb. Bazar istehsalın tempini və məhsulun keyfiyyətinə nəzarəti yeniləşdirmək perspektivləri

açır». *Özəlləşdirmə də məhz iqtisadi tempin və keyfiyyətin artırılması məqsədilə bazar iqtisadiyyatının əsas dəstəklərindən biridir.* Postsovet iqtidarların özəlləşdirilən müəssisələrin dağıdılmasına məhəl qoymaması iqtisadiyyatın azad şəkildə dağıdılması ilə sonuclanmışdır. Belarus və Özbəkistan isə «iqtisadiyyatın dağıdılmaması naminə» özəlləşdirməni və bazar iqtisadiyyatına retransformasiyanı ləngitməklə əslində keçmiş sosialist istehsal üsulunu saxlamışdır. Postsovet respublikalarında milliləşdirmə bir tərəfdən müəssisələri iflasdan qorumaq, digər tərəfdən iqtisadi cinayətkarlığa qarşı mübarizə kimi həyata keçirilməli və iqtisadi inkişafın dövlət tənzimlənməsində rol oynamalı idi. Amma bu günə qədər rəsmən heç bir milliləşmənin həyata keçirilməməsi, ölkədə iqtisadi inkişafın getmədiyini və tənzimlənmədiyini sübut edir. Halbuki, qlobal iqtisadi böhranla bağlı elə bu yaxınlarda dünyanın bir çox yüzillik bankları və sənaye sahələri onları xilas etmək naminə dövlətin nəzarətinə alınmışdır. Beləliklə, qısa şəkildə verdiyimiz şərhi yekunlaşdıraraq deyə bilərik ki, *postsovet respublikalarının əksəriyyətində retransformasiya iflasa uğramış və bu ölkələr iqtisadi sahədə nəhəng itkilərə məruz qalmışdır.*

Yuxarıda qeyd etdiyim inkişafın ikinci vektoru keçid prosesindən ibarətdir. Keçid prosesi retranformasiyadan istiqamətinə və xarakterinə görə fərqli prosesdir. Əgər retransformasiya geriyə – keçmişə iqtisadi hərəkətdirsə və restitusiya ilə özəlləşdirmə həyata keçirməklə inkişafa başlanırsa, keçid indiyə, müasirliyə – kapitalist dünyası ilə çulğalaşma istiqamətində üfüqi hərəkətdən, genişlənmədən ibarətdir. Burada əsas metod iqtisadi stimullaşdırmadır. Başqa sözlə, keçid artıq kapitalist istehsal üsuluna yiyələnmiş – ya sosializmdən geriyə qayıdan, ya da feodalizmdən irəli gedən - *dövlətlərin kapital dünyasının yaratdığı dünya iqtisadiyyatına inteqrasiyanı ifadə edir.* Bu baxımdan keçid birinci mənada təbii inkişafla bağlı olduğundan, retranformasiyadan fərqli olaraq on illər, hətta bəzi ölkələrdə yüz illər vaxt tələb edir. Keçid - feodalizmin kapitalizmlə əvəzlənməsində təbii inkişaf nəticəsində, insan ağlının və siyasi hakimiyyətlərin iradəsindən asılı olmayaraq, baş verən prosesdir. Biz, burada keçid dedikdə, onun ikinci mənasında – *kapitalist iqtisadiyyat dünyasına bir tam milli iqtisadi vahid kimi* daxil olmağı

və ya *cəlbolunmanı* nəzərdə tuturuq. Bu pozitiv proses, yəni qeyri-təbii proses və insan iradəsindən asılı olduğundan, on illərlə vaxta ehtiyac yoxdur və prosesin surəti bir qayda olaraq iqtidarların siyasi iradəsindən asılıdır. Məhz postsovet liderlərin demokratikləşmədən imtina etməkdə bəhanə gətirdikləri «zamana ehtiyac» tezisinin arxasında keçid prosesini qəsdən, məqsədyönlü ləngitmək istəkləri durur. Digər bir məsələ isə kapitalist iqtisadi dünyasına cəlbolunmağın, Marksın dediyi kimi, *«bir və yeganə yol»a* malik olmasıdır. Neototalitar liderlərin *«öz milli yolumuz olmalıdır»* tezisi məhz bu baxımdan havadan asılı qalır. Çünki cəlbedən tərəf öz şərtlərini cəlbedilənə diqtə edir. Bu isə hər cür «milliliyi» istisna edir. Biz, bəzi məsələlərdə, məsələn, imtiyazların ləğvi, idarəçiliyin sadələşdirilməsi, bir sözlə, çox vaxt vətəndaşların mənafeyinə zərbə vuran məqamlarda iqtidarların beynəlxalq biznes dairələrinin, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının və s. bütün şərtlərini sözsüz yerinə yetirməsinin şahidi oluruq. Amma onlar öz qrup maraqları ilə ziddiyyət təşkil edən məqamlarda, o cümlədən demokratikləşmə ilə bağlı tələblərdə prosesi ləngitməyə və beynəlxalq təzyiqlərə müqavimət göstərməyə cəhd edir. *Cəlbetmə* ilə bağlı problem K.Marks, A.Smit və V.Zombartın iqtisadi inkişaf nəzəriyyələrində öz geniş həllini tapdığından əlavə şərhə ehtiyac görmürəm. Amma unutmaq olmaz ki, kapitalist iqtisadiyyatının genişlənməsi – ekspansiya kimi zorla olduqda *imperializm*, könüllü olduqda - *effektli əməkdaşlıq* kimi təzahür edir. Postsovet respublikaları kapitalist iqtisaiyyatının genişlənməsinə müqavimət göstərmək yolu seçdiklərindən, özlərinə xarici intervensiya üçün yol açırlar. İqtisadi həyat zaman və məkan asılılığındadır. Məkan asılılığı - bir tərəfdən inkişafda yeni əraziləri əhatə etmək istiqamətində inkişafın üfüqi istiqamətdə – *kapitalist dünyasının genişlənməsini* və kapitalın qlobal konsentrasiyasını, zaman asılılığı – konkret iqtisadi sferanın şaquli istiqamətdə *genişlənməsini, müasirləşməni, modernizasiyanı* tələb edir. Bu gün OPEK və s. kimi bu qəbildən olan qurumlar *dünya iqtisadiyyatının operatorları* kimi çıxış edir və qlobal iqtisadiyyatda milli dövlətlərin siyasi rolu demək olar ki, yoxdur və milli dövlətlər bu məsələdə yalnız sosial ədalət probleminin

həlli ilə bağlı təşəbbüslərlə çıxış edə bələrlər. Bu baxımdan əslində keçid – bundan əvvəlki fəsildə şərh etdiyim vesternizasiyanı qəbul etmək prosesini özündə ifadə edir.

Haşiyə: Vesternizasiya kapitalın genişlənmə formasıdır ki, bundan fərqli heç bir iqtisadi inkişaf buna imkan vermir. Buna görə də kapitalizmin tarixçilərindən Erik Hobsbaum «İmperiya əsri» adlı kitabında yazır: «Bütün ölkələrin hakimiyyətləri və hakim sinifləri müstəqillik əldə etmək və ya itirmək təhlükəsi qarşısında başa düşməlidirlər ki, ya «vesternizasiya»nı qəbul etməli, ya da siyasətdən getməlidirlər». Yuxarıda qeyd etdik ki, keçidin bir elmi mənası da kapitalizmin öz içərisində inkişaf edib daxildə - bir fazanın digərini əvəzləməsini ifadə edir. Müasir dünyada bütün ənənəvi kapitalist ölkələrində klassik kapitalizmdən bazar iqtisadiyyatına keçid baş vermişdir. İqtidarların həm kapitalizmin, həm də bazar iqtisadiyyatının hissəvi anlamı çox vaxt bu iki bir-birindən fərqli fazanı eyni bir faza kimi qəbul etməsinə gətirib çıxarıb ki, bu da həm postsovet cəmiyyətlərin inkişafında, həm də bu inkişafı dəyərləndirmədə ciddi çaşqınlıq yaradıb. Bundan sonrakı fəsillərdə bazar iqtisadiyyatı ilə klassik kapitalizmin fərqlərini geniş şərh edəcəyimdən, burada qısa şəkildə qeyd etmək istəyirəm ki, bazar iqtisadiyyatı klassik *konkret kapitalist dəyərlərinin mücərrədləşməsi* ilə meydana çıxır və bununla cəmiyyətləri klassik kapitalizmin qüsurlarından qoruyur. Bu baxımdan da neototalitar dövlətlərdə vəhşi kapitalizmin yaranması bir tərəfdən xalqın istismarına yol açdığından, digər tərəfdən bazar iqtisadiyyatı ölkələri ilə - Qərb və ABŞ-la inteqrasiyaya əngəl olduğundan, səhv yoldur və xalqları müasir dünyanın inkişafından kənarda qoymaqla həm də milli dövlətlərdə totalitarizmə meyllənmə yaratmışdır. Müasir dünya iqtisadiyyatında – kapitalın konsentrasiyası və müəssisələrin böyüməsi, azad rəqabətin ixtisara düşməsi, sistematik rasionallaşdırma, iqtisadi plüralizm, iqtisadiyyatın siyasətlə birləşməsi - söhbət siyasi iqtisadiyyatdan yox, sadəcə iqtisadi siyasətdən gedir - hansı ki, dövlət iqtisadiyyatın nəticələrindən cəmiyyətin inkişafı naminə istifadə etdiyindən, onun inkişafını stimullaşdırır və bu zaman ona nəzarət etmir, yalnız təzyiq siyasəti aparır, hökumət və dövlət sektorunun liberallaşması, texniki inqilab və s. kimi meyl-

lər aparıcı yer tutur, hansı ki, neototalitar dövlətlərin iqtisadi siyasətində bu meyllər müşahidə olunmur.

Bir qayda olaraq postsovet respublikaları suverenlik pərdəsi altında özlərini dünya demokratiyasından qorumaq üçün «faissez-faire» prinsipini rəhbər tuturlar və bu zaman beynəlxalq ictimaiyyətin dözüm nümayiş etdirməsini özlərinin güclü və haqlı olması kimi təqdim edirlər. Halbuki, neototalitar dövlətlərdə baş verənlərlə bağlı Qərbin və ABŞ-ın sərt mövqe ortaya qoymamasının bu ölkələrin iqtidarlarının güclü olması ilə heç bir əlaqəsi yoxdur və beynəlxalq aləmdə kiçik dövlətlərin şıltaqlığına ən yaxşı halda «uşaq dəcəlliyi» kimi baxırlar. Amma «uşaq əndazəsini aşanda da kötəkləməkdən» qalmırlar. ABŞ hərbçilərinin Panama prezidentinin iqamətgahına girərək onu qandallayaraq ABŞ-a aparmaları və bu günədək Amerika həbsxanalarında ömürlük həbsə məhkum edilməsi, Səddamın yaxınları ilə birlikdə edam edilməsi belə «kötəkləmə»nin çox qısa leqal siyahısıdır. Bu barədə xəbərdarlığa isə 1870-ci ildə S.B.Kayenin aşağıdakı fikirlərində rast gəlirik. O, yazırdı: «Allahın sözü heç bir hakimiyyətə insan həyatı üçün müasir incəlik vermir… Zəruridir ki, bütün Şərq ölkələrində hakimiyyət qarşısında (Ümumdünya hakimiyyəti nəzərdə tutulur, müasir dildə ABŞ və Beynəlxalq Təşkilatlar nəzərdə tutula bilər - S.C.) qorxu və itaət yaradılsın. Onda və yalnız onda onun xeyrini qiymətləndirəcəklər».

Postsovet dövrünün inkişafının üçüncü vektoru K.Manheymin təbirincə desək, inteqrasiya edilməsi nəzərdə tutulan dünyanın özündə gedən *yenidənşəkillənmə* – gələcəyə istiqamətlənmiş proses kimi - *modernizasiyadır.* Dünyanın yenidən şəkillənməsi ikiqütblülüyün ləğv olunması ilə sürətlənib. Sosialist iqtisadiyatının məhsullarının həcminin dünya bazarında minimuma enməsi, əksinə, kapitalist istehsalının həcminin bir neçə dəfə genişlənmə şansı, dünyanı yenidən iqtisadi və siyasi şəkildəyişmə ilə üz-üzə qoyub. Manheym dünyadakı çağdaş şəkildəyişmədə iki mühüm meyl haqqında yazır: «Birinci meyl – köhnə ilə yeninin müştərək iştirakı ilə tənzimlənmə, ikinci meyl – «laissez-faire» - «nə istəyirsən, onu et» prinsipinin mövcudluq planlarının olması iqtisadiyyatı və siyasəti ciddi kolliziyalara aparması». Postsovet respublikalarında məhz

ikinci meylin üstünlük əldə etməsi həmin dövlətlərdə «məcburetmə» prinsipinin geniş şəkildə tətbiq edilməsini şərtləndirmişdir. Postsovet dövlətlər yeni dünya ilə inteqrasiya edərkən nəzərə almırlar ki, artıq «özüm bilərəm, nə istəyirəm onu da edirəm» erası başa çatmış və bu cür davranmağa görə Səddam Hüseyn kimi cəzalanma ehtimalı böyükdür. Unutmaq olmaz ki, qlobal dövlətlər sistemində dünya iqtisadiyyatına qoşulmaqla *«milli iqtisadiyyat»* prinsipləri ilə dövləti idarə etmək həm iqtisadiyyatı, həm də dövləti məhvə aparır. Postsovet respublikaların liderlərinin tez-tez regional və milli xüsusiyyətləri önə çəkməklə «milli inkişaf» cəhdi nəzəri olaraq uğursuzdur və təcrübədə də çox ciddi mənfi nəticələr verməkdədir və əslində neototalitarizmə əsas hazırlamağa xidmət edir. Bu baxımdan modernləşməyə cəhd edən iqtidarlar, inkişafın digər vektorları üzrə siyasi-iqtisadi islahatları tam həyata keçirmədiklərindən və ya qüsurlu həyata keçirdiklərindən millətin və dövlətin gələcəyini sual altında qoyurlar. Bununla bağlı Hayek xəbərdarlıq edir ki, «dəyişilmələri bilavasitə bilən adamlara həvalə etmək vacibdir və son qərarları nəyə necə reaksiya vermək lazım gəldiyini bilən adamların verməsinə imkan yaratmaq lazımdır». Beləliklə, bütünlükdə SSRİ dağılandan sonra başlamış üç vektorlu inkişaf modelində həyata keçirilməsi zəruri olan dəyişilmələri qısa şəkildə belə ifadə etmək olar: Sosialist istehsal üsulundan və siyasi sistemindən bazar iqtisadiyyatına və demokratik cəmiyyətə, oradan dünya iqtisadiyyatına və qlobal dövlətlər sisteminə, oradan isə liberalizmə və modernləşməyə. Bəs postsovet respublikaları necə, hara və hansı templə keçmişdir?!

Haşiyə: Qeyd etmək lazımdır ki, postsovet respublikaları beynəlxalq dövlətlər sistemində özlərini ərköyün dövlət kimi aparmaları vesternizasiyadan inadlı imtinanın bir forması olan hegemonluq kimi təzahür edir. İ.Vallerstayn hegemonluq haqqında yazır: «Dövlətlərarası sistemdə hegemonluq anlayışı elə situasiyaya aid edilir ki, «böyük dövlət» adlandırılan tərəflər arasında elə balanslaşdırılmamış rəqabət aparılır ki, həqiqətən bir dövlət bərabərlər arasında birinci olur, başqa sözlə, ayrıca bir dövlət əhəmiyyətli dərəcədə öz qaydalarını və arzularını iqtisadi, siyasi, hərbi və hətta mədəni sfe-

ralara diqtə edə bilər». Hegemon dövlətlər qlobal liberalizmə qarşı öz modellərini qoyurlar. Hegemonluq bir qayda olaraq *nəhəng iqtisadi və insan resursları* ilə bağlıdır. Bununla yanaşı bəzən *situasiya ilə bağlı hegemonluq* meydana çıxır, belə ki, beynəlxalq şərait və ya başqa iqtisadi, geopolitik maraqlar bəzi kiçik dövlətlərin «nə istəyirəm, onu da edirəm» prinsipi ilə davranmasına müvəqqəti də olsa şərait yaradır. *Buradan da «kiçik dövlətlərin hegemonluğu»* yaranır. Bu cür hegemonluq real potensialı imkan verməsə də kiçik dövlətlərin yalnız müvəqqəti yaranmış situasiyadan sui-istifadə edib qlobal diqtələrə qarşı çıxmasında təzahür edir. Əslində hegemonluq qısa müddətli təzahürdür. Nümunə kimi Rusiyanın beynəlxalq səviyyədə davranışlarını götürək. Qlobal böhrandan öncə Putin Rusiyası dünyaya öz şərtlərini diqtə etmək yolu tutmaqla beynəlxalq ictimaiyyətin onunla razılaşmasını tələb edirdisə, qlobal böhrandan sonra Medvedev Rusiyası daha yumşaq xətt tutmaqla, hətta Ukrayna ilə dil tapmaqla «qaz» böhranından çıxmağa cəhd etdi. Göründüyü kimi, Rusiyanın hegemonluğu müvəqqəti xarakter daşımışdır. Ümumiyyətlə, hansısa hakimiyyət beynəlxalq münasibətlərdə uzun müddət hegemon davrana bilmir. Biz *kiçik postsovet iqtidarlarının nümunəsində kiçik dövlət hegemonluğunun klassik nümunəsini görürük* və bunun tezliklə onların özünə ağır nəticələr verəcəyini də proqnozlaşdıra bilərik.

Nümunə kimi təhlil etdiyimiz strategiyada keçid probleminin vektorları kimi - bir tərəfdə ənənəvi demokratik baxışlar, digər tərəfdə bəşəri idrakın formalaşmasını müşahidə edən qlobal demokratikləşmə, üçüncü tərəfdə demokratiyaya keçid təhlil edilir və belə mürəkkəb təhlilin nəticəsində bizim razılaşmadığımız və səhv hesab etdiyimiz bəzi nəticələrə gəlib çıxılır. Strategiyada Nitşenin «indi elə bir dövr başlanır ki, siyasət başqa məna kəsb edir» fikri postsovet respublikalarında aparılan orijinal siyasətə haqq qazandırmaq üçün sitat gətirilir.

Haşiyə: Demokratiya əleyhdarlarının məşhur mütəfəkkirlərin demokratiya ilə bağlı fikirlərini ümumi konteksdən çıxararaq hissəvi təqdim etmələri xarakterikdir. Nitşenin fikirlərinə istinadda da eyni yol seçilmişdir. Birincisi, Nitşenin demokratiya ilə bağlı hər

hansı bir ümumi qəbul edilmiş ideyası yoxdur və onun ideyaları Vaqnerin musiqisi, Lambrazonun antropoloji təlimi ilə yanaşı alman faşizminin mənəvi qaynaqlarından biri olmuş, özü isə bütün ömrü boyu şizofreniya xəstəliyindən əzab çəkmişdir. İkincisi, Nitşeyə istinad ediriksə, onda baxaq görək onun dövlət və siyasət haqqında baxışları necədir? Nitşe özünün «İnsani, hədsiz insani» adlı əsərində siyasi partiyalar haqqında yazır: «Demoqogiya xarakteri və kütləyə təsir etmək niyyəti müasir dövrdə bütün siyasi partiyalara xasdır: Onların hamısı adı çəkilən məqsəd naminə öz ideyalarını böyük axmaqlıqlara çevirərək divarlara yazmağa məcburdurlar». Nitşenin nöqteyi-nəzərindən istər neototalitar cəmiyyətlərdə iqtidarın, istərsə də müxalifətin şüarçılıq siyasəti eyni demoqogiyanın iki müxtəlif üzü kimi dəyərləndirilməlidir. Üçüncüsü, Nitşe nihilist filosof olduğundan və onu avtoritet kimi qəbul etmədiyimdən, digər mütəfəkkirlərin siyasətə baxışlarına nəzər salmağı daha məqsədə müvafiq hesab edirəm. Hələ antik dövrdə Aristotel insanı «siyasi heyvan» adlandırırdı və belə hesab edirdi ki, «bir Allahların, bir də heyvanların siyasətə ehtiyacı yoxdur». Sonralar siyasətin vəzifələrini müəyyən etmək istəyən mütəfəkkirlər ən müxtəlif məqsədləri siyasi vəzifə elan etmişlər. Monten «Təcrübələr» əsərində Teymurləngin Hindistanı işğalı zamanı baş vermiş bir hadisədən söz açır. Teymurləng Hindistanın istilasına uzun müddət müqavimət göstərən hindlilərin müqavimətini qırdıqdan sonra cəzalandırmaq üçün divan qurur və növbə ilə müqavimət hərəkatının rəhbərlərini mühakimə edərək onları cəzalandırır. Növbəti ahıl bir şəxs Teymurləngin qarşısına gətirilir. O, Teymura xitabən deyir: «Əgər cəlladsansa bizi şaqqala, əgər tacirsənsə bizi qul kimi sat, əgər həqiqətən hökmdarsansa bizi xoşbəxt et». Əslində əksər filosoflar da siyasəti *xalqı xoşbəxt etmək sənəti* kimi dəyərləndirmişlər. Napoleon «Siyasət taledir» deməklə onun məzmununu obrazlı olaraq konkretləşdirmişdir. Əgər siyasət haqqında olan bu fikirləri birlikdə ifadə etsək, deyə bilərik ki, *«demokratiya xalqı xoşbəxt edənlərin taleyidir»* və bizcə bütün dövrlərin öz xalqına xidmət edənlərin siyasəti də bundan ibarət olmuşdur. Buna görə də müasir siyasət də bundan fərqli məna kəsb etməməlidir.

Etiraf etmək lazımdır ki, olduqca mürəkkəb və məsuliyyətli bir dövr olduğundan keçid dövrünün bütün çatışmazlıqlarını yalnız iqtidarların ayağına yazmaq və bütün uğursuzluqların məsuliyyətini iqtidarların çiyninə qoymaq ədalətsizlik olardı. Lakin indiki dövrdə baş verən bir çox neqativ hallara görə iqtidarlar bilavasitə məsuliyyət daşımalıdır. Hər şeydən öncə qeyd etməliyəm ki, neototalitar dövlətlərin iqtidarlarının kadrlarının mənəvi keyfiyyəti keçid dövrünün tələblərinə cavab vermir. Təcrübə göstərir ki, postsovet respublikalarının hamısı üçün eyni problem – traybalizm və regionçuluq xasdır. Bu da dövlətdə düzgün kadr siyasəti həyata keçirməyə imkan vermədiyindən, bu ölkələrin iqtidarları «təsadüfi kadrlar»dan təşkil olunub. S.Nirinq «Azadlıq; vədlər və təhlükələr» adlı əsərində yazır: «…əgər keçid dövründə siyasəti eqoist, tamahkar və uzaqgörən olmayan adamlar həyata keçirirlərsə, əgər bu adamlar kobud səhvlərə yol verirsə, əgər onlar şəxsiyyətə pərəstiş və ya tiraniya yaradırlarsa, əgər daxili vəziyyətdəki ziddiyyətlərdən qaçmaq üçün xarici hamiyə arxalanırlarsa, onda vəziyyət ağır olacaq, ölkə daxilində mübarizə kəskinləşəcək və daha uzun çəkəcək, daxili siyasətdə azadlıq – zərurət (məhdudiyyətlər) balansında ağırlıq mərkəzi əvvəlki kimi icbariliyin üzərinə düşəcək». Əgər neototalitar dövlətlərdə keçid dövrü artıq 17 ildir ki, davam edirsə, əgər iqtidar-müxalifət münasibətləri getdikcə kəskinləşirsə, əgər icbarilik yeganə vasitəyə çevrilibsə və bu ölkələrdə hərbi-polis rejimi yaradılıbsa, onda neototalitar dövlətlərin iqtidarlarının daxili və xarici siyasətinə və bu siyasəti həyata keçirən adamlara necə qiymət vermək olar? Tez-tez neototalitar iqtidarlarında təmsil olunan yüksək dövlət postu tutmuş şəxslərin cinayətkarlığı ilə bağlı aşkarlanan faktlar göstərir ki, bu ölkələrdəki vəziyyətin ağırlığı məhz keçid dövründə iqtidarları təmsil edən *kadrların dövlətçiliyə bağlı olmaması, tamahkarlığı, kobud səhvləri, şəxsiyyətə pərəstiş meylləri və kriminal təbiətləri* ilə bağlıdır.

Haşiyə: Postsovet ölkələrdə keçid dövrünün problemlərinin bir çox obyektiv səbəbləri də var. E.Töffler «Üçüncü dalğa» kitabında yazır: «Bir çox ölkə eyni vaxtda iki və üç müxtəlif dəyişilmə dalğasının təsirini hiss edir. Onların hamısı müxtəlif sürətlə hərəkət edir və özündə müxtəlif gücləri aparır». Postsovet respublikaları da məhz

üç cür dəyişilmə dalğasının təsiri altındadır və bu dalğaların sürəti arasında fərq yaranan problemlərdə obyektiv səbəblər kimi qiymətləndirilməlidir.

Strategiyadakı SSRİ dağılandan sonra baş vermiş keçid prosesinin vektorları ilə bağlı fikri bölüşürəm və həm də qeyd etmək istəyirəm ki, postsovet mərhələsində «sosial-iqtisadi qurluşun dəyişilməsini və ictimai-siyasi təsisatlarda intensiv islahatların baş verməsini» digər amillərlə yanaşı *streotiplərin dəyişilməsi* prosesi müşayət edir və bu sonuncu digər vektorlardan ləng inkişafa, əvəzində isə çox mühüm əhəmiyyətə malik olduğundan, hansı streotiplərin iqtidarı təmsil etməsi ən mühüm məsələyə çevrilir, necə deyərlər, «kadrlar hər şeyi həll edir».

Haşiyə: Elə demokratiyanın ən mühüm ölçülərindən biri insan göstəriciləri və onun yeganə faktoru *insan faktorudur.* A.N.Uaytxed «Fəlsəfə üzrə seçilmiş əsərlər»ində yazır: «Keçid dövrü özünü tam aydınlığı ilə göstərəndə, onda keçmişə gedən insan təcrübəsi nümunələri və onu əvəz etməyə gələn adətlərin yeni sistemi iştirak edir». Əgər neototalitar cəmiyyətlərdə keçid dövründə baş verənləri təhlil etsək «keçmişə gedən insan təcrübəsi nümunələrinin» «onu əvəz etməyə gələn adətlərin yeni sistemindən» üstün gücə və meylə malik olduğunu görməmək mümkün deyil. Burada «keçmişə gedən insan təcrübəsi nümunələrinin» daşıyıcısı olan keçmiş kommunist və komsomol məktəbinin yetirmələrinin keçid dövründə postsovet respublikalarının iqtidarlarında da təmsil olunması ilə keçmiş təcrübənin əvəzləyəcək gələcək proseslərin demokratikləşmə ilə bağlı olduğunu qəbul etsək, onda bu iki tərəfin bir-birini inkar etməsi məncə, yeni sistemin – demokratiyanın bu ölkələrdə oturuşmasının qarşısının alınmasının başlıca səbəblərindən olduğu aşkarlanır. Neçə ki, streotiplər dəyişməyib, demokratiyaya doğru atılan heç bir addım, edilən hər hansı bir cəhd heç bir nəticə verməyəcək.

Strategiyaya həsr olunmuş məqalədə, bundan qabaq da digər postsovet liderlərinin fikirlərindən də tanış olduğumuz, «Qorbaçov demokratikləşməsi»nə verilən tənqidi qiymətlə də mübahisə etmək olar. Birincisi, Qorbaçov demokratiyaya keçiddən daha çox Rus sovet imperiyasının modernləşməsinə cəhd etmişdir və bu məqsədlə

iqtisadi islahatlar yolu tutmuşdur. SSRİ-nin isə totalitar dövlət olduğundan, istənilən islahatlardan dağılacağını, M.Ə.Rəsulzadə və Başqırdıstan xalqının liderlərindən olan Vəlědi Toğana hələ 50 il öncə yazdıqları məqalələrində elmi şəkildə əsaslandırmışdılar. Əslində bəzilərinin Qorbaçova hücumu onun imperiyanı qoruya bilməməsi, dağıtması ilə bağlıdır. Halbuki, müstəqil milli dövlət qurmaq istəyənlərə məhz Qorbaçov islahatları bu fürsəti vermişdir və bizdən fərqli olaraq «şər imperiyası»nın dağılmasında müstəsna xidmətlərinə görə Qərb onu Nobel mükafatı ilə ödülləndirmişdir. Qorbaçovun siyasətindən bir xalqın digərindən daha səmərəli və effektli bəhrələnməsinin günahını isə onda yox, istiqlalçılıq şüuru zəif olan öz kommunistlərimizdə axtarmaq daha düzgün olar.

Strategiyaya həsr olunmuş məqalədə işarə edilən SSRİ dağılandan sonra hakimiyyətə gəlmiş «demokratların uğursuzluqları» ilə bağlı geniş şərh vermədən yalnız onu qeyd etmək istərdim ki, bu uğursuzluqlar vaxt çatışmazlığı, təcrübəsizlik, beynəlxalq dəstəyin olmaması, nəhayət, revanşist qüvvələrin ciddi müqaviməti nəticəsində baş vermişdir.

Təhlil etdiyimiz strategiyada iqtidarın demokratikləşmə ilə bağlı siyasəti *demokratiyaya mərhələli keçid* və bu zaman mərhələlər üzrə formalaşmaqda olan demokratik institutların mövcudluğu iqtidarın ən ciddi nailiyyətlərindən biri hesab edilir. Strategiyaya həsr olunmuş məqalədə yazılır: «Müasir dünyada bu və ya digər mənada demokratik sistemin nəzəri baxımdan qurulmasında iki anlayış mühüm rol oynayır – «demokratiyaya keçid» (transition) və «demokratik sistemin möhkəmlənməsi» və ya «demokratiyanın bərqərar olması» (consolidation). Birinci proses «demokratik hökumət qurulmasına doğru», ikinci proses «demokratiyanın bərqərar olmasına» və ya «demokratik rejimin səmərəli fəaliyyətinə» doğru aparır». Bu anlayışlar demokratikləşmə prosesinin yalnız ümumi şəkildə təsvirinə imkan verir və özündə daha mürəkkəb ara prosesləri və ya keçidləri ehtiva etmir.

Haşiyə: Klassik totalitarizmdən demokratiyaya mərhələli keçid necə baş verir? Əsas məsələ də məhz bununla bağlıdır. Postsovet neototalitar cəmiyyətlərdə demokratik sistemə keçid - *transition*

baş veribmi? Bu, nəzəri məsələ kimi əhəmiyyətli olduğundan, «demokratiyaya mərhələli keçid» ifadəsi özündə nəyi ehtiva etdiyini bir qədər ətraflı şərh etməyə ehtiyac duyuram. SSRİ dağılandan və onun yerində müstəqil dövlətlər yaranandan sonra daha ağrılı problemlərlə üzləşməmək üçün dünyada postsovet cəmiyyətlərin demokratikləşməsi ilə bağlı müxtəlif proqramlar, bir çox nəzəriyyələr meydana çıxmışdır. Bu nəzəriyyələrdən biri də şərti olaraq *«demokratiyaya mərhələli keçid»* adlanır, hansı ki, bütün neototalitar dövlətlər məhz bu yolla inkişaf etdiyini sübut etməyə cəhd edir. «Demokratiyaya mərhələli keçid» nəzəriyyəsinə görə, bu proses üç fazadan ibarətdir. Birinci faza – ön faza adlanır. Bu fazada *avtoritar hökumətin daxilində sərt və yumşaq yanaşmanın tərəfdarları arasında parçalanma baş verir. İkinci fazada - yumşaq yanaşma tərəfdarları müxalifətlə sazişə girərək yeni demokratik rejim yaratmaq istiqamətində yol açmağa cəhd edirlər.* Üçüncü faza *konsolidasiya mərhələsi* adlanır. Bu mərhələdə sərt xətt tərəfdarları neytrallaşdırılır və demokratik nizamın dayağı olan institutlar yaradılır. Bunu *institusional demokratiya* adlandırırlar.

Müxtəlif tribunalarda və məclislərdə tez-tez neototalitar dövlətlərdə mərhələli demokratiyaya keçidin reallaşdırılmasından və indi onların institusional demokratiyaya qədəm qoymalarından söz açılır. Bununla razılaşmaq olarmı? Bu suala cavab vermək üçün bu ölkələrdə demokratiyaya mərhələli keçidin hər bir fazasının necə baş verdiyinə nəzər salmaq lazım gəlir. İndi postsovet respublikalarında ardıcıl 17 illik hakimiyyətdə olan qüvvələr zaman-zaman yumşaq xətt tərəfdarlarına divan tutmuşlar. Türkmənbaşının Türkmənistanda, Nazarbayevin Qazaxıstanda hakimiyyət həvəsinə düşdüklərinə görə hətta ən yaxın adamlarını, qohumlarını və ailə üzvlərini repressiya etmələri buna əyani sübutdur. Neototalitar liderlərin fəxr etdiyi kimi, postsovet respublikalarının hakimiyyətləri, repressiyalar hesabına olsa da, sədaqətli üzvlərdən ibarət öz *komandalarının monolitliyini* qorumuş və bu gün də bu dövlətlərin hakimiyyətində yalnız *sərt xətt tərəfdarlarının* iradəsi hakimdir. Beləliklə, əgər iqtidarlarda, ümumiyyətlə, yumşaq xətt tərəfdarı yoxdursa, hətta qeyri-leqal olaraq, iqtidarda kimsə müxalifətlə hər hansı bir sazişə girməmişsə və

bu gün hakimiyyətdəkilər müxalifətlə siyasi dialoqdan belə, imtina yolu tutubsa, onda bu ölkələrdə demokratiyaya mərhələli keçidin birinci və ikinci fazasının baş tutmamasının xüsusi sübuta ehtiyacı qalmır. Əgər belə bir keçidin birinci və ikinci fazası baş tutmamışdırsa, onda neototalitar respublikalar necə üçüncü fazaya – consoliation mərhələsinə – demokratiyanın bərqərar olmasına qədəm qoya bilər? Bizcə haqlı bir sual meydana çıxır. Əgər bu dövlətlərdə demokratiyaya mərhələli keçid başlamayıbsa, onda bəs nə baş verib? Bu suala Tomas Karozersin aşağıdakı fikirləri ilə aydınlıq gətirmək olar. O, demokratiyaya keçidin baş tutmadığı ölkələr haqqında yazır: «Bəzən keçid cəmiyyətləri demokratiyaya doğru hərəkət etməyə bilər və avtoritarizmlə demokratiya arasında boz zonada qala bilər». Təəssüflə qeyd etməliyəm ki, 17 ildir ki, postsovet cəmiyyətlərinin əksəriyyəti də məhz belə «BOZ ZONA»ya düşmüşdür. Başqa sözlə, *bu respublikalar totalitarizmdən çıxmış, amma hələ də demokratiyaya çatmamışdır.* Heç bir cəmiyyət uzun müddət qeyri-müəyyənlikdə – Boz Zonada qala bilmədiyindən və postsovet respublikaları da təhlil etdiyimiz strategiyaya həsr olunmuş məqalədə qeyd edildiyi kimi «…keçid dövrünün məsələlərini həll etmişdir (?!) və indi bu mərhələdən çıxır. Onlar elə bir həddə çatmışlar ki, iqtidarlar ölkəni artıq yeni metodlarla idarə edir». Bəs onda Postsovet dövlətlərdə cəmiyyətlər keçid mərhələsindən hansı yolla çıxır və hara gedir və bu cəmiyyətlərin yeni metodlarla idarə olunması hansı siyasi rejimləri yaradır? Elə növbəti fəsildə bu məsələyə həsr olunub.

V FƏSİL

AKSİOM: YALNIZ PARALEL XƏTLƏR KƏSİŞMİR

İnqilab mənəvi olacaq, ya da olmayacaq.
Peqi
Əgər siz qalxanlardan deyilsinizsə, deməli, enənlərdənsiniz.
Stiven Potter
«İctimai inkişafı hər hansı bir aspektə görə, cəmiyyətə tətbiq etmək yalandır».
Reymon Aron

Hər hansı bir siyasi rejimin mahiyyəti onun həyata keçirdiyi islahatların xarakterindən və həyata keçirilmə ardıcıllığından asılıdır. Təhlil etdiyimiz strategiyada həyata keçirilən və keçirilməsi nəzərdə tutulan inkişafla bağlı paradiqmalar xətti ardıcıllıqla belə sıralanmışdı: Etatizm-Stabillik-Qloballaşma-İqtisadi inkişaf-Siyasiləşmə-Modernizasiya. Göründüyü kimi, strategiyada həm keçid dövründə, həm də bu mərhələdən çıxdıqdan sonra, gələcək inkişafın *«xətti modeli»nin* tətbiq edilməsi etiraf olunur.

Haşiyə: Birincisi, inkişaf xətti ilə bağlı anlamın hissəvi olması ictimai inkişafın radikal-total anlamına ziddir və təbii bu ziddiyyət bütünlükdə ictimai inkişafda ciddi təhlükələrin yaranması ilə müşayət olunur. İkincisi, ictimai inkişaf modeli ilə bağlı strategiya həm təcrübi, həm də elmi baxımdan kifayət qədər mübahisəli məsələlərdəndir. Üçüncüsü, sosiologiya və politologiya elmində bu gü-

nədək ictimai inkişaf və «inkişaf xətti» ilə bağlı əksər mütəfəkkirlərin qəbul etdiyi bəlli bir mövqe yoxdur və bu məsələdə çoxlu fikirlər vardır. Belə ki, bəzi Qərb mütəfəkkirləri belə hesab edir ki, həyatın məqsədi olmadığından *inkişafın istiqaməti və xətti də yoxdur*. Bəziləri əksinə, insanlığın tarixi məqsədinin olduğunu və inkişaf xəttinin də həmin məqsədə apardığını göstərir. Bəzi mütəfəkkirlər inkişafı pozitiv proses – yəni insan ağlına və iradəsinə tabe olan proses kimi qəbul edərək *inkişafın modelləşdirilməsini* mümkün hesab edirlər, bəziləri isə inkişafı neqativ proses kimi – yəni təbii hadisə kimi qəbul edir və *inkişafın modelləşdirilməsinin mümkünsüzlüyünü* iddia edirlər. İnkişafın məqsədli olduğunu iddia edənlər də, öz növbəsində *inkişaf xəttinin sayı və forması* haqqında fərqli fikirlərdədir. Elə yaxın tariximizin uğursuz lideri V.İ.Leninə görə, *inkişaf spiralvaridir*. Hegelə görə, inkişafda həm irəliləmə, həm də yüksəlmə istiqamətində *iki istiqamətli düzxətli hərəkət* baş verir, İ.Q.Fixte, S.Fure və sair mütəfəkkirlər əsası Platon tərəfindən qoyulmuş inkişafı *dairəvi hərəkət* kimi təsəvvür edir və buradan da «tarix təkrarlanır» kimi nəticəyə gəlib çıxırlar. J.Buske yazır: «Sosial hərəkətlərin müxtəlif aspektləri dalğavaridir, ritmikdir onların intensivliyi azalıb və ya artdığı dövrlərdə qeyri-dəyişkən deyil və ya dəyişkəndir». Mən özüm də tarixi inkişaf xəttinın *«üçlü istiqamətdə və üçlü formada»* olması ilə bağlı orijinal konsepsiya hazırlamışam və bu konsepsiyanı tərəqqinin fəlsəfəsinə həsr etdiyim triologiyada geniş şərh etmişəm. Burada isə məsələyə bir qədər dar çərçivədə, inkişafın modelləşdirilməsinin mümkünlüyü nöqteyi-nəzərindən yanaşmağa cəhd edəcəyəm. Dördüncüsü, ümumi şəkildə qeyd edim ki, insan varlığı və cəmiyyət mürəkkəb quruluşlu olduqlarından, *mürəkkəb sistemlərin - sinergizmin* qanunlarına tabedirlər. Mürəkkəb sistemlərdə isə inkişaf *alternativli* olduğundan, ictimai inkişafın alternativsizliyini və ya bu inkişafı birxətli olmasını qəbul etmək absurddur.

Digər vacib məqam - *inkişaf xəttində ardıcıllığın müəyyən edilməsidir*. Strukturalizmin tanınmış nümayəndələrindən Lui Elmsley yazır: «Hər bir ardıcıllıq sistemə uyğun olmalıdır, hansı ki, analiz etməyə imkan versin və məhdud sayda mühakimələrlə ardıcıllığı təsvir etmək mümkün olsun». Bu baxımdan inkişaf xəttində etatizm

prinsipinə birinci, ikinci, üçüncü və ya dördüncü ardıcıllığa uyğun yanaşma ən müxtəlif dövlət tiplərini yaradır. Eləcə də iqtisadiyyata birincili və ya ikincili yanaşma cəmiyyətin açıq və ya qapalılığı ilə bağlı problemi doğurur.

Haşiyə: Neototalitar cəmiyyətlərdə iqtisadi inkişafın siyasi inkişafdan önə çəkilməsinin ideoloji əsasları haqqında digər bir fəsildə geniş şərh edəcəyimizdən burada yalnız ümumi yanaşma ilə kifayətlənirəm. Birincisi, əgər söhbət dövlətin inkişaf konsepsiyasından gedirsə, onda paradiqmaların ardıcıllığı onların *dövlət həyatında tarixi əmələgəlmə ardıcıllığına*, *dövlət səviyyələrinin əhəmiyyətinə* və gələcəkdə yaradılması nəzərdə tutulan *siyasi sistemə uyğunluğuna* görə seçilməlidir. Dövlətdə və demokratikləşmədə siyasət birincidir, birincilidir, iqtisadiyyat ikinci və ikincilidir. Bu baxımdan strategiyada paradiqmaların ardıcıllığının müəyyən edilməsi baxımından iqtisadiyyatın siyasətdən əvvəl qoyulması sistem nəzəriyyəsinə zidd olduğundan, dövlətin və demokratikləşmənin əleyhinə işləyəcəyi qaçılmazdır. İkincisi, paradiqmaların ardıcıllığı qaçılmaz olaraq inkişafda hər hansı bir sferanın inkişafında *boşluq* yaradır. Neototalitar cəmiyyətlərdə iqtisadi inkişafla siyasi inkişaf arasında növbəliliyin müəyyənləşməsi *«boşluq effekti»* yaratmışdır. Uillenn belə hesab edir ki, «iqtisadi tarixlə sosial tarix arasında *no mans land – boş yerin olmasını* bir anlıq da düşünmək olmaz». Belə boşluğun olması Parkinsonun *«boşluq qanunu»na* görə digər sahələrin güclərinin bu boşluğa sorulmasına və həmin boşluğu doldurmalarına səbəb olur ki, bu da öz növbəsində təhlükəli tendensiyalara yol açır. Qəbul etsək ki, təbiətdə «boşluq tutma» ümumi qanunauyğunluqdur, onda hər hansı bir sosial sahədə müvəqqəti və daimi yaranmış və ya şüurlu şəkildə yaradılmış boşluğun başqa sahələrin gücləri tərəfindən zəbt edilməsi qaçılmazdır. Məhz xətti inkişaf nəticəsində siyasətlə iqtisadiyyatın arasında yaranmış boşluğa cinayətkarların, xarici güclərin və s. sorulması baş verir. İqtisadiyyatda oliqarxiyanın yaranması, iqtisadi inkişaf fonunda siyasi inkişafda yaranan boşluğu iş adamlarının zəbt etməsi ilə *siyasi oliqarxiyaya* təkan verir. Eynilə cinayətkar meyllərin siyasi boşluqda inkişafı nəticəsində korrupsiya günbəgün artır və mafiyalar formalaşır. Neototalitar cəmiyyətlərdə millət və-

killərinin, hakimlərin, hüquq mühafizə orqanları əməkdaşlarının iqtisadiyyata «sorulması» və ya cinayətkar elementlərin dövlət idarəçiliyinə və ya parlamentə, məhkəmələrə sirayət etməsinin yeganə səbəbi «siyasi boşluq effekti» ilə bağlıdır. Belə boşluq yaradan inkişaf - dövlətin hüquq, sosial və s. sferalarında cavabı olmayan çoxlu suallar doğurur. Üçüncüsü, xətti inkişaf modelinin qüsurlu olması *spesifikanın ierarxiyalaşması* ilə müəyyən olunmasıdır. Başqa sözlə, ardıcıllıqdakı paradiqmalara ümumiyyətlə birinin digərinə görə üstünlük verilməsidir. Strukturalizmə görə, spesifikanın ierarxiyasını müəyyən etmək olmaz. Spesifikanın ierarxiyalaşması sistemlərdə bir-biri ilə əkslik təşkil edən çoxlu tərəflər – subyektivizmlə obyektivizm, determinizmlə volyuntarizm və s. olduğundan onlar arasındakı ziddiyyəti barışdırmaq mümkün olmadığından, siyasi inkişaf *model yaradıcılığı cəmiyyəti və dövləti ciddi risk altında qoyur*, belə risklərsə cəmiyyət həyatında ağır nəticələr verə bilər.

Biz bu kitabda iqtisadi siyasətlə bağlı fikirlərimizi ayrıca fəsildə şərh edəcəyimizdən iqtisadiyyata siyasətə nisbətən prioritetlik verilməsinin bəzi ən ümumi fəsadlarından danışacağıq. Qeyd etmək lazımdır ki, *dünyada mövcud olmuş bütün totalitar cəmiyyətlər eyni və bir prinsiplə yaranıb.* Con Hikson yazır: «Bazis iqtisadi tələblərə uyğun olaraq həmişə sosial nizam kifayət qədər birformalı qurulmuşdur». Bu o deməkdir ki, birtərəfli iqtisadi inkişafa əsaslanmaq heç vaxt *plüralizmə* gətirib çıxara bilməz və həmişə və hər yerdə olduğu kimi postsovet respublikalarında da *birformalı sosial nizama – neototalitarizmə* gətirib çıxarmışdır. Əslində inkişaf modelinin müəyyənləşməsi bir şeyə – mövcud *status-kvonun* saxlanmasına xidmət edir. Xətti inkişaf *proqnozlaşdırılan* və *səlis məntiqə* uyğun olduğundan çox vaxt bu aldadıcı inam əslində cəmiyyəti nizamlı vəziyyətdən *xaosa* doğru aparır. Cəmiyyət qeyd etdiyimiz kimi, mürəkkəb quruluş olduğundan burada nizam və xaosun təzahürü sadə quruluşlardakından fərqlənir. İ.Priqojin və İ.Stengers yazırlar: «Bir və eyni qeyri-xətlilikdən elementar proseslərdə xaosdan nizam yarana bilər. Amma başqa vəziyyətlər həmin nizamı dağıtmağa və son nəticə də yeni koqeretliyə gətirib çıxarır… Fluktasiyadan keçmişdə yaranan nizam bizim qarşımızda qeyri-dayanıqlı dünyanı ya-

radır, hansı ki, kiçik səbəblər böyük nəticələr doğurur… nizamın mənbəyi qeyri-tarazlıqdır. Qeyri-tarazlıq xaosdan nizamın doğduğudur… Tarazlıq vəziyyətindən qeyri-tarazlıq vəziyyətinə keçiddə biz təkrarlanan ümumidən unikal və spesifik olana keçirik… Tarazlıq qanunları yüksək ümumiliyə malikdir, onlar universaldır». Bəs «dünyada analoqu olmayan» orijinal işlər görən iqtidarlar bunu tarazlıqla necə izah edirlər? Başqa xalqlar kimi universal inkişafda olmayan istənilən xalq, o cümlədən dövlət *qeyri-tarazlıq vəziyyətinə* düşür. Göründüyü kimi, iqtisadiyyatla siyasətin tarazlaşdırılmış inkişafı yüksək ümumiliyə malik universal qanunların meydana çıxmasına səbəb ola bilərdi ki, tarix məhz belə universallara görə yaranır. Amma postsovet respublikalarında «əvvəl iqtisadiyyat, sonra siyasət» paradiqması bu dövlətlərin müxtəlif sferaları arasında ictimai tarazlığı pozduğundan, *orijinal* və eyni zamanda olduqca *sərt xüsusiliyə malik qanunların* meydana çıxmasına səbəb olub. Belə qanunlarsa yeni tarixin yaranmasına və inkişafına imkan vermir.

Haşiyə: İnkişafın xətti modeli ilə bağlı bir çox əlavə suallar yaranır. Birincisi, inkişaf paradiqmalarında iqtisadiyyata birincilik verilməsində bilavasitə iqtisadi inkişafda iştirak etməyən vətəndaşların gəlirləri haradan yaranır və necə artır? İkincisi, dövlətin icbari qaydada həyata keçirdiyi islahatlara paralel *könüllü ictimai islahatlar* həyata keçirmək mümkündürmü, əgər mümkündürsə onu kim və kimlər həyata keçirə bilər? Üçüncüsü, iqtisadi inkişafla digər sahələrin inkişafları arasındakı ziddiyyəti necə həll etmək olar? Dördüncüsü, iqtisadi inkişaf nəticəsində yaranan fərdi qeyri-bərabərlik və ictimai disproporsiyanın nəticələrini necə aradan qaldırmaq olar? Qeyd edim ki, iqtisadi inkişafın müvəffəqiyyəti əhalinin *neçə faizini* əhatə etməsi ilə sıx bağlıdır. Neototalitar cəmiyyətlərdə *proteksiya* yalnız *«hakim zümrə»nin* inkişafına şərait yaradır və cəmiyyətdə kəskin təbəqələşmə baş verir. Bu da demokratikləşməyə mane olur. İqtisadi inkişafın müvəffəqiyyətli olması həm də iqtisadi sahədə əyintilər bitərəf güclər tərəfindən aşkarlanmasından, iqtisadi fəaliyyətə ictimai nəzarətdən və qanunla tənzimlənməsindən asılıdır.

İnkişafın təbiətinə görə, ictimai inkişafın hər hansı qaydada planlaşdırılması olduqca risklidir, çünki ictimai inkişaf ikili – rasional

və irrasional təbiətlidir. Buna görə də inkişaf nəzəriyyəsinin banisi İqnasi Saks da təsdiq edir ki, «heç bir aprior planlaşdırmanı qəbul etmək olmaz». Bir qədər aydın olsun deyə fikirlərimizi Azərbaycanda neft sənayesinin inkişafı ilə izah etmək istəyirəm. Neft sənayesinin inkişafı neft yataqlarının məhz Azərbaycanda da olması, həmin yataqların ehtiyatı və bu yataqların istismar potensialı ilə bağlıdır. Neft yataqlarının Azərbaycan ərazisində olması və onların ehtiyatı təbii haldır və iqtidarın siyasətinin belə yataqların Azərbaycanda olub-olmamasına heç bir təsiri yoxdur. Digər tərəfdən isə, bu yataqların *səmərəli və effektli istismarı* yalnız iqtidarın düşüncəsindən asılıdır. Başqa sözlə, həmin yataqların necə, nə qədər, kiminlə istismar edilməsi iqtidarın qərarlılığından asılıdır. İndi əgər biz Azərbaycanda neft sənayesinin inkişafını planlaşdırırıqsa, onda hökmən məsələnin təbii tərəfini, neft yataqlarının ehtiyatını, onların istismarının ekologiyaya təsirini və s. nəzərə almalıyıq. Baxmayaraq ki, bunun əksinə olaraq, təbiətdə baş verənlər bizim planları nəzərə almır. Məsələn, təbii fəlakətlər tez-tez nəhəng iqtisadi itkilərə səbəb olur. Buradan da *rasionallıqla irrasionallıq arasında disproporsionallıq* meydana çıxır ki, K.Manheym müasir dövrdə hətta inkişaf etmiş Qərb cəmiyyətlərini də təhdid edən təhlükənin buradan doğduğunu sübut edir. K.Manheym disproporsionallığın iki formasını ayırd edir. 1) Texniki və təbiətşünaslıq elmi əxlaqi gücü və ictimai tərəqqinin dərk edilməsini üstələyir, onda *insan qabiliyyətlərinin inkişafında ümumi disproporsionallıq* yaranır; 2) Hər hansı bir mürəkkəb cəmiyyətdə tərəqqi üçün zəruri olan əxlaqi və ağıllılıq bütün qruplara və təbəqələrə bərabər çatmırsa, insan cəmiyyətində *rasional və əxlaqi qabiliyyətlərin «sosial disproporsionallığı»* meydana çıxır. K.Manheym belə hesab edir ki, (bizdə bununla tam şəriklik və postsovet respublikalarının təcrübəsi də bunu göstərir) «müasir cəmiyyətlər disproporsionallığın hər iki formasına uzun müddət dözə bilməzlər».

Beləliklə, *bir tərəfdən təbii güclərin kortəbii və xaotik inkişafı ilə ictimai güclərin plana uyğun nizamlı inkişafı arasında təbii disproporsionallıq, digər tərəfdən iqtidarın xətti və birtərəfli inkişaf strategiyasından doğan tərəqqi üçün zəruri olan resursların hamıya bərabər paylanmamasından yaranan sosial və ya süni disproporsionallıq cə-*

miyyətə təhlükə yaratdığından, ictimai inkişafı planlaşdırmaq olmaz və bunu nəzərə almamaq cəmiyyət həyatını çox ciddi şəkildə təhdid edir. Buradan da K.Manheym özünün müasir inkişafla bağlı üç tezisini müəyyənləşdirmişdir. «1) Bütün insanların və ayrı-ayrı fərdlərin *rasional özünəsahibliyi texniki tərəqqilə ayaqlaşmasa,* müasir cəmiyyətlərin qəzaya uğraması qaçılmazdır; 2) Rasionallıq təsadüfi deyil və ayrı-ayrı adamın işi, qabiliyyəti deyil, *ictimai strukturun qoyduğu vəzifələrdən* asılıdır; 3) Bütün əvvəlki cəmiyyətlər rasionallığın və əxlaqi gücün disproporsionallığına imkan veriblərsə, onlar məhz *despotizm* üzərində bərqərar olublar. Despotun ağalıq etdiyi cəmiyyət ona görə funksiyalaşır ki, cəmiyyət üzərində ağalıq maksimal anlama və təşəbbüs despota məxsus olur, bütün qalan insanlar təşəbbüsdən və anlamadan məhrum qul və asılı adamlar olurlar». Göründüyü kimi, *yalnız bir halda disproporsionallıq müvəqqəti də olsa cəmiyyəti idarə etməyə imkan verir ki, cəmiyyətdə despotizm bərqərar olsun.* Bizim müşahidələr göstərir ki, inkişafın xətti modelini həyata keçirən cəmiyyətlər istəməsə də, addımbaaddım despotizmə meyllənməyə məcbur olur. Bu isə cəmiyyətə başqa bir sürpriz vəd edir. Birincisi, əgər əvvəlki cəmiyyətlər yalnız qapalı sistemlərdə despotizm yarada bilirdilərsə, müasir qlobal dövlətlər sisteminin açıqlığı şəraitində klassik mənada despotik idarəçilik yaratmaq mümkün deyil. Buna görə də bu yolda olan sistemlərdə *cəmiyyətin qəzaya uğraması* öz aktuallığını sürəkli olaraq saxlayır.

İkincisi, birtərəfli iqtisadi inkişaf siyasəti *korrupsiya* və cəmiyyətdə *mənəvi aşınmalarla* müşayət olunur. Bunun səbəbi insanın təbiəti ilə bağlıdır. İnsan bir tərəfdən bədəndən gələn təbii tələbatların, digər tərəfdən ruhdan gələn mənəvi tələbatların təsirinə tabe olur. Bu tələbatların hər ikisinin inkişafı isə cəmiyyətin tipindən asılıdır. Buna görə də birtərəfli inkişaf modelində fərd bir tərəfli inkişaf edir. Xüsusən iqtisadiyyatın birinciliyində irrasional keyfiyyətlər – pul qazanmaq ehtirası, bədxərclilik, sərvət toplamaq yarışı, vəhşi rəqabət və s. inkişaf edir. Digər tərəfdən, demokratikləşmə ilə bağlı olan mənəvi güclər – özünüələalma, özünənəzarət, xeyirxahlıq, ictimai maraqlara tabeçilik, avtonom və spontan iştirakçılıq kimi keyfiyyətlər inkişafdan qalır. Belə insanın yeganə istinadı pul və sərvət

olur. *Pul və sərvət itirmək qorxusu onu hətta Allah qarşısında mənəvi qorxudan və qanun qarşısında məsuliyyətdən azad edir* və insan Teymurləngin dediyi kimi, «*qudurmuş canavardan betər*» olur.

Neototalitar dövlətlərin rəhbərləri marksizm ideologiyasının təsiri altında iqtisadi inkişafa təyinedilən kimi yanaşır, halbuki, «istehsal və istehsal gücləri özünütəyin edəndir». Başqa sözlə, istehsal öz daxilindən gələn xüsusi təkanlarla irəliləyir. Eləcə də işçi qüvvəsinin tabe olduğu öz xüsusi qanunauyğunluqları vardır. Belə ki, kimsə işləmək istəməsə, dövlətin nə qədər iş yeri açmasının mənası yoxdur və ya hansısa texnologiya məhsuldar deyilsə, hökumətin həmin texnologiyaya necə üstünlük verməsi inkişafa təsir etmir. Buna görə də iqtisadi inkişafı təyin etmək mümkün olmadığından, bununla bağlı planlar da qurmaq mümkün deyil.

Haşiyə: Proseslərin xətti inkişafı və onların təsviri yalnız konkret, sadə və qapalı - statik sistemlər üçün keçərlidir. Sadə sistemlər bilavasitə səlis məntiqlə anlanılandır. Məsələn, kimya və fizika kimi sadə sistemləri öyrənən elmlər öz nailiyyətlərini yalnız səlis məntiqlə qazanıblar. Fərd və onun yaratdığı insan cəmiyyəti isə abstrakt, açıq, dinamik və mürəkkəb olduğundan, onu səlis məntiqlə anlamaq mümkün deyil. İ.Priqojin və İ.Stengers «Xaosdan nizama» adlı kitablarında yazırlar: «Təkamülün hansısa sərt və müəyyən sxemi mövcud deyil… nə bioloji, nə ekoloji və ya sosial hərəkatları biz müəyyən çoxluqda qarşılıqlı fəaliyyət göstərən vahidlərin və ya bu vahidlərin müəyyən çoxsaylı yenidən əmələ gəlməsini saya bilmərik, bu o deməkdir ki, müəyyən sayda sistemlər təkamülün gedişində modifikasiya olunmalıdır». Birincisi, *təkamülün sərt sxemi olmadığından, kimsə belə sxem üçün dəqiq xətt müəyyən edə bilməz.* İkincisi, cəmiyyət də bu qanunauyğunluğa tabe olaraq, *həm despotizmə, həm totalitarizmə, həm də demokratiyaya modifikasiya edə bilər.* Amma sərt təkamül sxemində modifikasiya baş vermir. Buna görə də konkret niyyətlərdən asılı olmayaraq totalitarizm yaranır. Üçüncüsü, xətti inkişaf *səlis məntiqin* məhsuludur. Səlis məntiqə yalnız şüurun məhsulları tabe olur. Cəmiyyət təbii sosial hadisə olduğundan, səlis məntiqlə inkişafın istiqaməti haqqında mühakimə aparmaq və inkişafı proqnozlaşdırmaq olmaz.

Təhlil etdiyimiz strategiyaya həsr olunmuş məqalədə iqtidarın fəaliyyətinin başlıca istiqaməti haqqında belə yazılıb: «İqtidarın əsas konsepsiyası *güclü iqtisadi bazanın formalaşmasından* ibarətdir. Bu konsepsiya *kütləvi şüuru* (?!) cəmiyyətin sosial-mədəni bazasının mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaratmalıdır».

Haşiyə: Birincisi, sosial-siyasi dəyişilmələr *reallıqdır* və buna görə də insanın *subyektiv arzularına, istəklərinə, niyyətlərinə* tabe olmur. Məhz bu səbəbdən iqtidarların ictimai-siyasi inkişafla bağlı ən xoş arzuları elə arzu olaraq qalır. İkincisi, iqtisadi inkişafın demokratiyaya gətirəcəyi ilə bağlı mühakimə cəmiyyətin və insanın təbiəti ilə əsaslandırılmamış müddəadır, elmilikdən uzaq və təcrübi təsdiqi yoxdur. F.Fukuyama da təsdiq edir ki, «inqilabi vəziyyətin iqtisadi göstəricilərlə heç bir əlaqəsi yoxdur» və Fukuyamanın qeyd etdiyi kimi, «demokratiya qaçılmaz olaraq inkişaf etmiş cəmiyyətin siyasi təsərrüfat forması deyil». Buna görə də demək olar ki, dünyanın heç bir ölkəsində iqtisadi inkişaf mütləq və qaçılmaz olaraq *permanent demokratik dəyişilmələrə* gətirib çıxarmadığından, postsovet respublikalarında da iqtisadi inkişaf qaçılmaz olaraq demokratiyaya gətirib çıxara bilməz. Üçüncüsü, cəmiyyətin iqtisadi və siyasi tərəfi biri-biri ilə sıx bağlıdır və yalnız onların paralel inkişafı cəmiyyəti irəli apara bilər. E.Töffler yazır: «Sərvətin yeni sistemi yeni həyat tərzisiz mümkün deyil… sosial yeniliklərin heç də hamısı demokratiya, sivilizasiya və qeyri-zorakılığın tərəfdarları deyillər». Beləliklə, postsovet respublikalarında keçmiş *sovet dönəmində yaranan sərvətdən fərqli sərvətin yaranması cəmiyyəti sovet dönəminə xas totalitar üsulla idarəetmədən imtinanı tələb edir,* bu isə siyasi inkişafla mümkündür. Dördüncüsü, iqtisadi inkişaf *latent demokratik dəyişilmələrə* gətirib çıxarmayacaq. İ.Vallerstayn «Dünya sistemlərinin analizi» adlı əsərində yazır: «İnsanlıq tarixinin hər bir növbəti fazasının əvvəlkindən daha proqressiv olacağını təminat altına alan uzunmüddətli qaçılmaz xətti yoxdur. Biz çoxlu aydın hallarla tanışıq ki, növbəti sistemlər əvvəlki ilə bərabər olub, bəzənsə bir çoxları tamamilə reqressiv olub». Beləliklə, postsovet cəmiyyətlər siyasi inkişafın iqtisadi inkişafdan sonraya saxlanılmasının itkilərini iki yolla ödəyə bilər,

ya keçmiş *sosialist cəmiyyətinə uyğun həyat tərzinə qayıtmaqla*, ya da ondan da pis *reqressiv rejimə* keçməklə. Bütün təhlillər göstərir ki, postsovet respublikalarının əksəriyyəti ikinci yolla – sosialist totalitarizmindən fərqli – neototalitarizm yolu ilə hərəkət edir. Biz bu arqumentimizi aşağıda cəmiyyətin təbiəti ilə əsaslandırmağa cəhd edəcəyik. Burada isə yalnız bunu qeyd etmək kifayətdir ki, Qərbin iqtisadi inkişaf təcrübəsi də bunu bir daha sübut etmişdir. A.Tokvill Qərbdə kapitalizmin inkişafı ilə bağlı yazır: «XX əsrdə inqilablardan ümumi nəticə kimi iki cərəyan çıxmışdır; birincisi, insanları azadlığa, demokratik institutlara, ikincisi, mütləqiyyətə aparıb». Beləliklə, sosial inqilabsız və ya *siyasi islahatlarsız iqtisadi inkişaf mütləqiyyətə aparır* və iqtidarların «əvvəl iqtisadi inkişaf, sonra siyasiləşmə» kursunun postsovet respublikalarını totalitarizmə gətirib çıxaracağı qaçılmazdır. Beşincisi, iqtisadi inkişafın *latent* və təbii şəkildə demokratikləşməyə gətirib çıxarmayacağını sonsuz sayda fakt və nəzəriyyələrlə sübut etmək olar. Burada yalnız T.Hoyrupun fikirləri ilə qısa münasibət bildirməyi yetərli hesab edirəm. O, yazır: «Dövlətin vətəndaş cəmiyyəti ilə intensional məntiqi əlaqəsi göstərir ki, istehsal üsulu nəzəriyyəsi öz-özlüyündə yaradılan elmi nəzəriyyəyə təqdim edilən tələbatı ödəyə bilməz. Vətəndaş cəmiyyətinin quruluş forması nəzəri çıxış nöqtəsi qəbul edilə bilməz, belə ki, onların özü xüsusi dövlət formasının elementidir, istehsal üsulu nəzəriyyəsinin təsdiq etdiyi kimi deyil». Göründüyü kimi, demokratikləşmə dövlətsizləşmə istiqamətində gedən proses olduğundan, dövlətləşmə istiqamətində gedən iqtisadi inkişafla əkslik təşkil edir və təcrübədən də görünür ki, *dövlət iqtisadi və siyasi həyata nüfuz etdikcə demokratikləşmə geriləyir və ləngiyir*. Prosesin dinamikasının artması – iqtisadi inkişaf tempinin siyasi inkişaf tempindən daha sürətli olması isə demokratiyanı məhv edir.

«İqtisadiyyat siyasətdən əvvəldir» paradiqması postsovet respublikalarında yalnız fərdi rifah uğrunda mübarizə gedən qeyri-azad, qeyri-eqalitar cəmiyyətlərin yaranmasını şərtləndirib. Dünyada bu günədək mövcud olmuş və müasir dövrdə də mövcud olan istənilən totalitarizm məhz bu paradiqmadan istifadə etməklə yaranıb. Bu əsasda həm alman faşizmi, həm də Cənubi Amerika xuntaları

bərqərar olmuşdur. A.Hitler «Mənim mübarizəm» adlı kitabında yazır: «Milli dirçəliş ideyaları istiqamətində kütləni əldə etməkdən ötəri heç bir sosial itki bir o qədər böyük deyil, geniş xalq kütlələrini milli ruhda tərbiyə etmək yalnız onların *sosial vəziyyətini yüksəltməklə* mümkündür, məqsədə çatmaq üçün ən qəti şəkildə, ən faktik və ən *birtərəfli şəkildə* məhz bu məqsədlərə cəmləşmək lazımdır, xalq ruhunu əldə etmək üçün öz mübarizəmizi bizim məqsədlərin əleyhinə olan rəqibləri məhv etməklə birgə aparmalıyıq». Hitlerin fikirlərindən görünür ki, *«xalq kütlələrini milli ruhda tərbiyə onların sosial vəziyyətini yüksəltməklə mümkündür və birtərəfli şəkildə diqqət buna yönəlməlidir»,* digər bir vəzifə isə *«bizim məqsədlər əleyhinə olan rəqibləri məhv etmək mübarizəsinin paralel aparılmasıdır».* İndi neototalitar təcrübə yaşayan postsovet respublikalarında iqtidarların müxalifətlə bağlı mövqeyi fonunda xalq kütlələrinin sosial vəziyyətini yüksəltmək siyasətinin nəyə gətirib çıxaracağını söyləmək bir o qədər də çətin deyil. Elə Pinoçet də Çilidə iqtisadi vəziyyətin pisləşməsi fonunda dövlət çevrilişi yolu ilə hakimiyyətə gəldi, 15 il ərzində Çilini Cənubi Amerika ölkələri içərisində inkişaf etmiş dövlət səviyyəsinə qaldırdı, amma Çilidə demokratiya yox, xunta yarandı.

Nə üçün düzxətli inkişaf cəmiyyəti mütləq totalitarizmə gətirib çıxarır? Marksizmi təhlil edən T.Hoyrup «Həyat modelləri» adlı əsərində yazır: «Həyat modelləri ideologiyası daha böyük dərəcədə ayrı-ayrı siniflərin nümayəndələrinin onların öz xüsusi maraqlarına baxışları ilə bağlı onların obyektiv maraqlarına aid həqiqi dərk edilən hüquqlarla aydınlaşır, nəinki Marksın baxışları ilə». Eyni ilə postsovet respublikalarının inkişaf ideologiyası iqtidarın baxışlarına əsaslandığından və cəmiyyəti təşkil edən ayrı-ayrı vətəndaşların öz xüsusi maraqlarına əsaslanmadığından, marksizmə tabe olaraq demokratiyaya əks olan proseslərə təkan verir.

Bəs postsovet dönəminin inkişafının xətti modeli ilə bağlı ideyaların qaynağı və «əvvəl iqtisadiyyat, sonra siyasiləşmə» paradiqması nəyin məhsuludur?

Haşiyə: Birincisi, daha geniş şərh etmədən birmənalı demək olar ki, bu, keçmiş sovet ənənələrinə söykənən *konservatizmin* əlamətidir. K.Manheym reformalar haqqında yazır: «Konservativ re-

formizm – sistemin ayrı-ayrı detalları ilə məşğul olur, proqressiv reformizm sistemin tam dəyişdirilməsi ilə … bizim ölkənin tarixi missiyası məhz ondan ibarətdir ki, demokratiya əsasında yeni ideal «azadlıq naminə planlaşdırma» işarəsi altında yaşayan, köklü islahatlar aparan cəmiyyət yaradaq». Postsovet respublikaları da yalnız iqtisadiyyatın inkişafı naminə yox, azadlıq naminə planlaşdırma aparılması ilə demokratiyaya keçmiş olardı. *Postsovet sterotiplərdə daha çox konservativ şüur olduğundan, öz əsaslarını keçmiş sovet rejiminin idarəçilik və inkişaf prinsiplərindən əxz etmişdir.* T.Hoyrup həyat modellərinin yaradılmasında zaman faktoru ilə bağlı yazır: «Bizim cəmiyyətimiz və həyat modelimiz tarixin məhsuludur. Bizim tarixə baxışımız indini necə dərk etməyimizlə təyin olunur… indi keçmişdə, eləcə də keçmiş indidə mövcud olur». Beləliklə, «postsovet keçmiş» marksist ideologiya əsasında totalitar cəmiyyət olduğundan «keçmiş»in indi də mövcud olması məhz «əvvəl iqtisadiyyat, sonra siyasət» paradiqmasını üzə çıxarmışdır. F.Brodel keçmiş təcrübənin indiyə təsirini sübut edərək, iqtisadiyyata tarixi təcrübənin təsiri haqqında yazır: «Hansısa iqtisadiyyat, hansısa cəmiyyət sivilizasiya və ya siyasi icma üçün keçmiş asılılıq vəziyyətindən birdəfəlik qurtarmaq çətindir». İkincisi, postsovet respublikalarda keçmişin asılılığından xilas olmağa aydın cəhd yoxdur, əksinə, biz zaman-zaman *keçmişin xiffətinin yaşantılarının ideologiyalaşdırılmasının* şahidi oluruq. *Şəxsiyyətə pərəstiş, repressiya, hüquqi nihilizm, polis rejimləri və s, bütün bunlar yaşanmış təcrübənin yenidən geriyə qayıtmasını göstərir.* Üçüncüsü, inkişafın xətti olması və iqtisadiyyatın əvvəl, siyasətin sonra olması bütünlükdə həm iqtisadiyyatın, həm insanın, həm cəmiyyətin və həm də dövlətin təbiətinə ziddir. İqtisadiyyatın tarixçilərindən F.Brodel yazır: «İqtisadiyyat heç vaxt təcrid olunmuş olmur, onun məkanı eyni bərabərlikdə dayanmadan iqtisadiyyata müdaxilə edən, ya ona kömək edən, ya da eyni müvəffəqiyyətlə ona qarşı duran digər nahiyyələrin – mədəni, sosial, siyasi – məskunlaşdığı və yaşadığı mühit, məkandır». Başqa sözlə, fərdin müxtəlif tələbatları, cəmiyyətin müxtəlif qrupları və dövlətin müxtəlif sferaları ilə eyni zaman və məkan şərtlərində funksiyalaşdığından və biri digərindən müstəqil və azad mümkün

olmadığından, *onların inkişafı da yalnız paralel aparıldıqda ümumi inkişafa gətirib çıxara bilər.* Əslində iqtisadiyyat dövlətin üç mühüm səviyyəsindən – siyasi, iqtisadi, ideoloji – biridir. Həmin səviyyələr bir-biri ilə əlaqəli, amma biri-birindən müstəqil xüsusi funksiyalar daşıyır. Belə ki, siyasi səviyyə dövlətin məqsədi kimi *iradənin formalaşmasını* təmin edir, iqtisadi səviyyə bunun üçün zəruri olan vasitələr təmin edir, ideoloji səviyyə *nizamı təmin* edir. Bu baxımdan siyasət məqsəd, iqtisadiyyat vasitə olduğundan, səbəb – nəticə əlaqəsinə görə, əvvəl məqsəd, sonra vasitə ola bilər və bu əlaqədə *məqsəd vasitəni müəyyən edəndir,* nəinki əksinə. T.Hoyrup da təsdiq edir ki, «həyat modeli və istehsal üsulu özüəmələgələn, özüçıxan, özü-özündən doğan olmadığından və həmişə özüəksedən subyektin – dövlətin təcrübəsində element və vasitədir». Dördüncüsü, inkişafın birtərəfli «iqtisadi inkişaf, sonra siyasi inkişaf» paradiqması aksioloji baxımdan da özünü doğrultmur. Belə ki, cəmiyyətdə dəyərlər müxtəlif olduğundan, adətən bir maraqlara uyğun inkişaf digər dəyərlərin *frusturasiyası* ilə müşayət olunur. Bir qayda olaraq, *frusturasiya - inqilablarla, qarşıdurmalarla, sosial amortizasiyalarla nəticələnir.* Beləliklə, iqtisadi inkişafda yalnız bir sahəyə prioritet verilməsi *ikiqat birtərəfliliyə* gətirib çıxarır. Belə ki, neototalitar dövlətlərdə inkişaf birtərəfli inkişaf modelinə əsaslandığından, digər sahələrin böhranı və süqutu ilə nəticələnir ki, bunun ənənəvi fəsadlarından biri kimi neft respublikalarında yaranan «Holland sindromu»nu göstərmək olar. Beşincisi, birtərəfli iqtisadi inkişaf həm də iqtisadiyyatın üzə çıxardığı və ya onunla sıx bağlı olan problemlərin daha ciddi xarakter almasına səbəb olur. F.Brodel yazır: «Yeni dövrün başlanması ilə iqtisadiyyatın başçılığı getdikcə daha çox çəkili olur, o istiqamətləndirir, tarazlığı pozur, digər qaydalara təsir edir, o hədsiz olaraq qeyri-bərabərliyi artırır, kasıbçılıq və varlılıq yaradır». Beləliklə, *varlılıq, kasıbçılıq şəraitində iqtisadiyyat cəmiyyəti demokratiyaya doğru istiqamətləndirə bilməz, çünki demokratiya ilk növbədə sosial ədalətin mövcudluğunu tələb edir.* Birtərəfli iqtisadi inkişaf kursu siyasi və sosial tarazlığı da pozduğundan sosial və siyasi qarşıdurmaya aparır. Larosfuko yazır: «Bizə nailiyyət əldə etmək azdır, həm də lazımdır ki, dostlarınız iflasa uğrasın». Bu,

birtərəfli inkişafın yeganə həqiqi məntiqidir. Çünki dostlarınızın başqa sahələrdə qələbəsi sizin qələbənizə kölgə salacağından narahat olursunuz. Belə inkişaf yolu ilə heç bir ictimai və siyasi inkişafa nail olmaq olmaz. C.Kin yazır: «Neokonservatistlərin iqtisadi siyasəti kobud darvinist metodu sabitliyə, iqtisadi artıma və arzu olunan normaları məhv etməklə məşğulluğa nail olmaq şansı yoxdur… demokratiya adına xalqlar onun rifahını təmin edən və azadlıqlardan məhrum edən dövlət hakimiyyətini ələ keçirirlər». Beləliklə, göründüyü kimi, *real birtərəfli iqtisadi inkişafda məqsəd yalnız və yalnız hakimiyyəti ələ almaq və ya onu mümkün qədər çox əldə saxlamaqdır.* İqtisadiyyatın siyasətlə birgəliyi və bu zaman siyasətin iqtisadiyyata görə birinciliyi ilə bağlı O.Spenqler «Avropanın qürubu» adlı əsərində yazır: «İqtisadi düşüncə və fəaliyyət həyatın müstəqil forması kimi baxılmağa başlandığı andan düzgün işıqlandırılmayan həyatın bir tərəfidir… iqtisadiyyatda heç bir sistem yoxdur, fizonomiya var… istənilən iqtisadi həyat mənəvi həyatın ifadəsidir… iqtisadiyyat və siyasət – bu, bir canlı və keçici mövcudluğun iki tərəfidir. Hər ikisində nəsillərin ardıcıllığı ilə ayrı-ayrı fərdlər tərəfindən tutulan kosmik cərəyanlar açılır… onlar bir-birini örtür, bir-birini müdafiə edir, bir-biri ilə mübarizə edir, amma siyasi məqam sözsüz birincidir… acından ölmək, ya qəhrəmancasına ölmək… iqtisadiyyat yalnız dərk edilən varlığın bu və ya başqa cür əsasıdır». Altıncısı, birtərəfli inkişaf modelinin digər bir təhlükəsi inkişafın öz məntiqi ilə bağlıdır. Adətən modellər *başa düşə biləcəklərimizlə başa düşə bilməyəcəklərimizin məcmusu* kimi yarandığından, modelləşmə məntiqinə ziddir və bu inkişafın proqnozlaşdırılmasına imkan vermir. Xüsusən, ideologiyalaşmış həyat modellərinin iştirakçıları digərlərin problemlərini başa düşmürlər. Həyat modelləri çərçivəsində qeyri-adi düşüncə üsulu tələb olunur. Məsələn, *sadə mal* istehsalçısı ilə *kütləvi mürəkkəb mal* istehsalçısı heç bir ortaq dəyəri bölüşdürə bilməz. Eləcə də işsizlə işi olan, kasıbla varlı, iqtidarda olanla müxalifət eyni bir modelin dəyərlərini bərabər və ortaq şəkildə bölüşdürə bilməz. Bir ölçülü model birölçülü varlığı və ya hadisəni modelləşdirməkdə keçərli ola bilər. Bu gün iqtisadi inkişafdan bəhrələnən az bir qrup vətəndaşın bu inkişafdan bəhrələnməyənləri

və ya bu inkişafda iştirak etməyənləri başa düşməsi mümkün deyil. Bu isə artıq ictimai şüurun formalaşmasında və ümumi maraqlar ətrafında xalqı birləşdirməkdə problem yaradır. Neototalitar cəmiyyətlərdə heç bir milli problem ətrafında *siyasi dialoqun* olmaması məhz birtərəfli inkişafın ideologiyalaşması ilə bağlıdır. Yeddincisi, inkişafın düzxətli və iqtisadi inkişafın siyasətdən əvvəl olması məsələsi həm də *bəşəri idraka* ziddir. Fransua Perri qlobalizasiya ilə iqtisadiyyatın əlaqəsi haqqında yazır: «İqtisadiyyatda təcrübənin reallığı» «reallığın reallığı» - qlobal tamlıqdır». Başqa sözlə, müasir iqtisadiyyatın yeganə həqiqi reallığı bundan ibarətdir ki, *iqtisadi inkişaf lokal yox, qlobal çərçivədə mümkündür.* İqtisadi inkişafın mahiyyəti əslində iqtisadiyyatın məkantutma qabiliyyətinin artmasından ibarətdir. Qlobal tamlıq qlobal dövlətlər sisteminin yaratdığı *dünya iqtisadiyyatı* kimi təzahür edir. Qlobal dövlətlər sistemində dünya iqtisadiyyatının bir hissəsi kimi çıxış edən *milli iqtisadiyyatda inkişaf sıx şəkildə ekzogen faktorlarla bağlı olduğundan, ayrıca bir milli iqtisadiyyatda müstəqil iqtisadi inkişafa nail olmaq mümkün deyil.* Qeyd etmək lazımdır ki, milli bazarın başlanğıcında *mərkəzləşdirilmiş siyasi iradə* durmuşdur. Amma artıq XIV əsrdə milli dövlətlə sərvət arasında parçalanma baş verir. Nəticədə milli dövlətdən ayrılmış sərvət dünya bazarının əsasını qoyur. Dünya bazarı isə öz növbəsində milli dövlətlərin mərkəzləşdirilmiş siyasi iradəsinə təsir edərək, onları dünya iqtisadiyyatından asılı *qlobal siyasi iradəyə* tabe etdirir. Çarlz Tilli də təsdiq edir ki, «Dövlətlər o dərəcədə sistemlər yaradır ki, onlar müntəzəm olaraq qarşılıqlı bir-birinə bu təsirin hər bir dövlətin davranışına təsir etdiyi qədər təsir edir». Qlobal dövlətlər sistemində dünya iqtisadiyyatının necə işləməsini anlamamaq və ya bunu qəbul etməmək öz ölçülərinə görə ağıla gəlməyən təhlükələr törədə bilər. F.Brodel dünya iqtisadiyyatı ilə milli iqtisadiyyatların əlaqəsi haqqında yazır: «Dünya miqyasında əmək bölgüsü istənilən vaxt yenidən baxılaraq bərabər tərəfdaşlar tərəfindən razılaşdırılır. Bu, tədricən biri digərini müəyyən edən asılılıq zənciri yaradır». Dünya iqtisadiyyatının tabe olduğu prinsiplər milli iqtisadiyyatın prinsiplərindən fərqlənir. Həmin prinsiplərə əsasən aşağıdakılır aiddir: *Polyarizasiya* – iqtisadiyyatın müxtəlif

ərazilərdə ierarxiyalaşması; *İqtisadi mərkəzin dəyişkənliyi* ilə *regional inkişaf;* bir *iqtisadi aləmin sərhədlərinin başqa iqtisadi aləm başlayan yerdə qurtarması;* dünya iqtisadiyyatının *idarəolunan iqtisadiyyat* olması; iqtisadi aləmin geniş *deqradasiyası* – konyuktur böhran; *ekzogen səbəblərin təkanları; qiymətlərin strukturu; əsrlik böhran* və s. Belə qarşılıqlı asılılıq şəraitində birtərəfli inkişafın qlobal dövlətlər sistemində ən ciddi təhlükəsi F.Brodelin qeyd etdiyi kimi, «dünya dövlətləri tərəfindən milli dövlətlərin udula bilməsi»dir. Digər *bir problem inkişaf etmiş dövlətlərin inkişaf etmişlərdən ifrat iqtisadi və siyasi asılılığıdır.* Vaxtilə kəndli fəhləyə tabe olduğu kimi, dünya əmək bazarında *aqrar ölkələr sənaye ölkələrinə tabe olur.* Eləcə də intellektual əməyin həcmi böyük olan demokratik dövlətlər digərlərini – totalitar dövlətləri özünə tabe etdirir. Səkkizinci, *vaxt itkisi* - neototalitar dövlətlərin getdikcə daha çox xarici borclanma siyasəti fövqündə ölkədə borcları qaytarmağa imkan verən iqtisadi proqramların həyata keçirilməməsi, yeni istehsal sahələrinin yaradılmaması və iqtisadi inkişafı yalnız bir sahədə aparması onları defoltun sərhəddinə gətirib çıxarır. Qeyd etmək lazımdır ki, birtərəfli iqtisadi inkişaf nəticəsində yol verilən vaxt itkisi dünya iqtisadiyyatında postsovet respublikalarının öz yerlərini tutmağa mane olur və birtərəfli inkişafla əldə edilən mövqe də müvəqqəti xarakter alır. Doqquzuncu, birtərəfli inkişaf cəmiyyətdə *disproporsiyanın* meydana çıxmasına və *asinxronluğa* səbəb olur ki, bu, dövlətin ayrı-ayrı sferaları və strukturları arasında təhlükəli tendensiya, xüsusən də bir hakimiyyət qolunun digərini üstələməsinə gətirib çıxarır. Biz bunun acı nəticəsini neototalitarizmin doğulmasında görürük. Belə ki, inkişafda ardıcıllığa uyğun hakimiyyət qolları önə çıxdığından, iqtisadi inkişaf bilavasitə icra hakimiyyətinin fəaliyyət sahəsi olduğundan, «əvvəl iqtisadiyyat, sonra siyasət» tezisi dövlətdə və vətəndaşlarda *«əvvəl icra hakimiyyəti, sonra qanunvericilik hakimiyyəti»* fikrinə gətirib çıxarır. Birtərəfli inkişafda vətəndaşların diqqəti də prioritet dövlət fəaliyyətinə cəlb olunduğundan, digər hakimiyyət qollarının fəaliyyətinə dəyər verilmir. Keçmiş sosialist ölkələrində, eləcə də digər totalitar cəmiyyətlərdə *məhkəmə və qanunverici hakimiyyətlərin formal mövcudluğu* da məhz bununla bağlıdır.

Yuxarıda inkişafın ikili təbiətini şərh edərkən disproporsionallıqla bağlı ümumi şərh vermişdik. Burada birtərəfli iqtisadi inkişaf siyasətinin digər sosial-siyasi nəticələri haqqında bir az geniş şərhə ehtiyac duyuruq. K.Manheym «insan qabiliyyətlərinin disproporsionallığı, bizim motiv və impulusumuz başqalarına təsir edirmi» sualını cavablandırarkən yazır: «Cəmiyyətin disproporsional inkişafı – insan qabiliyyətləri qeyri-bərabər, bir-biri ilə uyğun olmayaraq inkişaf edən və insan qruplarının məhvinə səbəb olur». Və ya deyə bilərik ki, *disproporsionallıqla iqtidarlar digər qrupları məhv etməyə şans qazanırlar* və postsovet respublikalarının təcrübəsində müxalifətin məhv edilməsi bunu sübut edir. İkinci ciddi fəsad cəmiyyətin *feodallaşdırılmasıdır*. Yenə də bununla bağlı K.Manheymin şərhinə müraciət edək. O, yazır: «Bizim sənaye cəmiyyətində passiv rol oynayan tələblər aktivləşir, ümumi qarşılıqlı asılılıq prosesi gedir… aparatın əlində, Marksın və Veberin dediyi kimi, istehsal vasitələrinin istənilən konsentrasiyası, həmçinin siyasi və hərbi hökmranlıq özündə aktivləşmənin dinamik prinsipinin artan dərəcəli təhlükəsini gizlədir və kapitalizmdə həm də siyasi azlığın hakimiyyətini məhv edərək feodalizasiya yaradır». Başqa sözlə, disproporsionallıq hakimiyyətin özündə keyfiyyət dəyişilməsinə səbəb olur və latent şəkildə *çoxluğun hakimiyyətindən azlığın hakimiyyətinə keçid* baş verir. Bu proses keçmiş SSRİ-də və müasir totalitar rejimlərin hamısında demək olar ki, eyni mexanizmlə baş vermişdir. İnkişafda disproporsionallıq xalqın təbiətində də ciddi neqativ dəyişikliklər yaradır. Bunun səbəbi *psixologiyanın plastikliyi* ilə bağlıdır. K.Manheym xəbərdarlıq edir ki, «yaxın vaxtlarda texnika sahəsində əldə etdiyimiz iki mühakimə mənasını itirib - «xalq xarakterinin» davamlılığı haqqında inam və «ağlın tarixdə inkişafının» tədriciliyinə inam, xalq xarakterində inkişaf zəif gedəndə dəyişilmir, ağlın inkişafı və bizdə xaotik başlanğıc o vaxta qədər saxlanmır ki, ictimai quruluş müəyyən şərait yerinə yetirir və müvafiq güclə bu istiqamətdə fəaliyyət göstərir». Beləliklə, bir tərəfdən birtərəfli inkişafı ümumi inkişafı ləngitdiyindən, *xalqın xarakteri gələcək siyasiləşməyə uyğun dəyişmir*, bu isə demokratikləşmənin bir nömrəli problemidir. Digər tərəfdən, iqtidar birtərəfli inkişaf strategiyası izlədiyindən *ictimai şüur xaotikliyini saxlayır*. Bu da

ona gətirib çıxarır və elə şərait yaradır ki, xalq heç bir milli problem ətrafında birləşə bilmir və ya ictimai hərəkatlarda, xüsusən xaotik təhlükə qarşısında *xaotik davranış* nümayiş etdirir. Bu da *xalqı səfərbər etməyə* imkan vermir. Onuncu, iqtisadi inkişafın xətti modeli həm də iqtisadiyyatın öz təbiətinə ziddir. Ümumiyyətlə, iqtisadiyyatın tabe olduğu qanunauyğunluqlar uzun müddətli iqtisadi inkişaf paradiqmasının əsassızlığını sübut edir. Haşiyəyə çıxım ki, Çizxolmun ikinci qanununa görə, «işlər yaxşı getdiyi vaxt nəsə yaxşı olmayan ən yaxın vaxtlarda baş verməlidir». Bəlkə də iqtisadiyyat qədər bu qanuna tabe olan ikinci bir sahə yoxdur. İqtisadçılar hələ də iqtisadi inkişafın ən yüksək tempində birdən-birə dərin böhranların yaranması səbəbləri ətrafında baş sındırırlar. Məşhur iqtisadçı alim A.Marşal yazır: «Uzunmüddətli iqtisadi analizin mənası yoxdur». Marşalın belə fikrə gəlməsi, hər şeydən öncə kapitalist iqtisadiyyatının təbiəti ilə bağlıdır. Kapitalist iqtisadiyyatı iqtisadiyyatın təbii inkişaf qanununa əsaslanır. Təbii inkişaf qanunları təbii amillərlə, o cümlədən insan təbiəti ilə, xüsusən sinergetikanın təsdiq etdiyi kimi, «insanların bütün həyatı fluktasiyaya məruz qalır, dövrü hərəkətlərin yaratdığı sonsuz təkanlarla yırğalanır» qanunauyğunluğu ilə əlaqələnir. Bu isə *sosial-siyasi həyatın bütün sahələrində dalğalanma* yaradır. Məhz insan həyatının dövrü xarakteri iqtisadiyyatda dövrlər yaratmışdır və iqtisadi inkişafda bir çox tsikllər meydana gəlmişdir. İlk öncə kənd təsərrüfatı ilə bağlı *fəsli tsikli* göstərmək lazımdır. Məlumdur ki, kənd təsərrüfatının inkişafı fəsillərə və ilin necə gəlməsinə bağlıdır, nəinki hökumətlərin iqtisadi proqramına. Fəsli tsikl digər iqtisadi sahələrdə bu və ya başqa tsikllərə təkan verir. İqtisad elminə Kituçin *3-4 illik,* Juqların *6-8 illik,* Zabrusun *10-12 illik,* Kondratevin *yarım əsrlik tsiklləri* və *trend-yüzillik tsikllərin* olması məlumdur. Bu baxımdan, hər hansı bir iqtisadi inkişaf taktikası bu tsikllərin gec-tez iqtisadiyyatda gözlənilənin əksinə böhranlar yaradacağını nəzərə almalıdır. Təəssüf ki, kapitalist istehsalında tsikllərin və dövrü böhranların qanunauyğunluqlarını nəzərə almayan postsovet iqtidarlar sosialist istehsal üsulunun qanunauyğunluğuna əsasən kapitalist iqtisadi inkişaf konsepsiyasına söykənir ki, bu da *iqtisadi avantüradan* başqa bir şey deyil.

Qeyd etmək lazımdır ki, birtərəfli iqtisadi inkişaf guya iqtisadi inkişafın yalnız iqtisadi səbəblərlə bağlı olması ilə əsaslandırılır. Bu məsələ dünya ictimai fikrində olduqca geniş müzakirə olunub. Mən həmin fikirləri təhlil etmədən M.Veberin aşağıdakı fikirlərini oxucuların diqqətinə çatdırmağı kifayət hesab edirəm: «İnsan dəyərləri istehsal münasibətlərinin dəyişilməsinə səbəb ola bilər». İqtisadiyyat ictimai həyatın digər sahələrindən fərqli olaraq daha ciddi «kəmiyyətin keyfiyyətə keçmə qanunu»na tabe olur. Bu qanun əsasında demək olar ki, *birtərəfli inkişaf vətəndaşlarda birtərəfli keyfiyyət dəyişilmələri yaradır.* F.Brodel belə hesab edir ki, «pul sosial nizamın və fəaliyyətin müstəsna rahatlığını yaradır». Eyni ilə əks cəbhədə *pulsuzluq narahatlığı və narazılığı artırır.* İqtidarın iqtisadi qanunlardan yan keçərək iqtisadi inkişaf konsepsiyası hazırlaması cəmiyyətin demokratiyaya keçidində ciddi əngəl yaradır. H.Hobsbaum «Kapital əsri» adlı kitabında yazır: «Əxlaqın prinsiplərinə, qanunçuluğa, ənənəyə və ya iqtisadiyyatın pozulmaz qanunlarına inanan dövlət təcrübədə nəhəng güc, nəzəriyyədə isə sadəcə xalq iradəsinin aləti olur». Əksinə, əxlaqa məhəl qoymayan, qanunçuluğu mənasız söz yığnağı hesab edən, iqtisadi qanunlara məhəl qoymadan iqtisadi siyasət həyata keçirməyə cəhd edən dövlət ciddi məğlubiyyətə düçar olaraq gücsüzləşir, təcrübədə isə öz fəaliyyətinin qüsurlarını ört-basdır etmək və məsuliyyətdən qaçmaq üçün xalqı özünə alət edərək, öz siyasi iradəsinə tabe etdirməyə cəhd edir ki, bu da totalitarizmdən başqa bir şey deyil və *postsovet cəmiyyətlərdə birtərəfli iqtisadi inkişaf konsepsiyası əslində neototalitarizmin yaranmasına xidmət etmişdir.*

Birtərəfli iqtisadi inkişafın ən ciddi zərbəsi siyasi sferaya dəyir. Xüsusən, yaradıcı insan üçün cəmiyyətin birtərəfli inkişafı qədər dözülməz şərait yoxdur. Məhz belə şəraitin ucbatından neototalitar cəmiyyətlərin məhsuldar qüvvələri ölkəni tərk edib mühacirətdə yaşamağa üstünlük verirlər. İqtisadi inkişafın insanların keyfiyyətcə birtərəfli inkişafına səbəb olması həm də onların qabiliyyətlərini reallaşdırmağa imkan vermir. S.Smayls yazır: «Dövlətin iqtisadi çiçəklənməsi ayrı-ayrı bacarıqlı şəxslərin enerjisindən asılıdır, nəinki rəsmi dövlət strukturlarından». Doğrudan da bu gün inkişaf etmiş

sənaye ölkələrində demək olar ki, inkişafın daşıyıcısı qeyri-dövlət brendləridir.

Haşiyə: Bəs əksinə, dövlət həyatının digər sahələrinin iqtisadiyyata görə ikincili inkişaf etdirilməsi və ya onların inkişafının sonraya saxlanılması iqtisadiyyata nə verir və iqtisadi inkişafa necə təsir edir? Bu sual iqtisadi inkişafın birinciliyi paradiqmasına qiymət vermək üçün kifayət qədər əhəmiyyətlidir. Birincisi, *demokratikləşmənin zəifləməsi iqtisadi problemlərin həllini çətinləşdirir.* J.Lipoveçki «harada ki, demokratiya tormozlanır, orada iqtisadi çətinliklər ölçüsüz olaraq artır və yaxşı halda dilənçiliyə, pis halda bonkrota gətirib çıxarır». Beləliklə, siyasiləşmənin ləngidilməsinin birinci nəticəsi dövləti bonkrota aparmasıdır. İkincisi, işsizliyin, kasıbçılığın artması və sosial ədalətin kobud pozulmasıdır ki, bu da vətəndaş qarşıdurmasının başlıca səbəblərindəndir. Biz iqtisadi inkişafın işsizliyə və kasıbçılığa gətirib çıxarması paradoksu ilə bağlı növbəti fəsildə geniş şərh verəcəyik. Burada yalnız onu demək istəyirəm ki, kapitalist iqtisadiyyatının tsiklik inkişafı və dövrü böhranlar *siyasiləşmə olmadıqda mənəvi böhrana keçir.* Bunun necə acı nəticələr verə biləcəyini isə 1936-cı ildə ABŞ-da müşahidə edilmiş böyük depressiyada baş verən hadisələr sübut edir. Hətta bu günlərdə qlobal iqtisadi böhranla bağlı öz iş yerini itirdiyinə görə 5 uşağını, arvadını və özünü öldürmüş amerikalı haqqında çap olunmuş məlumat da olduqca ciddi təhlükəli bir dövrə qədəm qoyduğumuzdan xəbər verir. Bazar iqtisadiyyatında məhz bunu nəzərə alaraq siyasiləşmə iqtisadiyyatdan önə çəkilir və iqtisadi böhranın mənəvi və siyasi böhrana səbəb olmasının qarşısı alınır. Üçüncüsü, iqtisadi inkişafın birinciliyi insanların varlanması ilə guya onların pozitiv keyfiyyətlər qazanacağı ilə əlaqələndirilir. Məhz strategiyada da iqtisadi inkişafın latent pozitiv keyfiyyət dəyişilmələrinə gətirəcəyi ilə bağlı inam ifadə olunur. Amma *heç bir sərvət istedad yaratmaq gücündə deyil.* Sərvət yalnız istedada yardımçı ola bilər. S.Smayls yazır: «Pul mübahisəsiz böyük gücdür». Amma ağıl istənilən fəaliyyət və yüksək əxlaqi keyfiyyət – bu da gücdür və daha xeyirxah gücdür. Etiraf etmək lazımdır ki, bir çox hallarda böyük nailiyyətlər kasıb adamlar tərəfindən həyata keçirilib». Böyük biznesmen və biznes tarixini öyrənən Hovard Minz «Pul və hakimiy-

yət» adlı kitabında yazır: «Paralel siyasi inqilab – siyasi seçim azadlığı qaçılmaz olaraq öz arxasınca azad iqtisadiyyatı gətirib… özünüidarə hüququ və iqtisadi özünütəyin… iqtisadi güc siyasi hakimiyyətin möhkəmlənməsinə kömək edib, biznes isə siyasi tendensiyadan geri qalıb».

Təhlil etdiyimiz strategiyada «bazar strukturuna malik iqtisadi məkanın» yaradıldığını sübut etməyə cəhd edilir. Bu məsələdə də razılaşmaq çətindir. Bunun üçün iqtidar strategiyasında müəyyən edilmiş «iqtisadiyyatdan demokratiyaya doğru» paradiqmasına nəzər salmaq kifayətdir. Bu paradiqmaya Pol Maratdan sitat gətirməklə haqq qazandırıldığından, mən də elə Maratdan sitat gətirməklə fikirlərimi şərh etmək istəyirəm. P.Marat «Köləlik zənciri» adlı əsərində yazır: «Əksər dövlətlərdə onların qüsurları dövlətin sadə böyüməsindən inkişaf edir və yalnız yeganə hadisələrin gedişində qaçılmaz olaraq xalqı köləliyə aparır… Bir şəxsə həvalə edilmiş icra hakimiyyətindən dəhşətli bəlalar meydana çıxır». Bəs neototalitar dövlətlərdə durmadan böyüyən və inhisarlaşan iqtisadi məkan bizə nə vəd edir və ya doğrudanmı ümümiyyətlə iqtisadi inkişaf labüd olaraq demokratiyaya gətirib çıxaracaq?! Əlbəttə, bu paradiqmaya haqq qazandıran F.Fukuyamanın belə bir fikrinə istinad etmək olar ki, «iqtisadi artım bütün cəmiyyətlərdə, onların çıxış sosial quruluşlarından asılı olmadan, bir sıra eyni formalı dəyişilmələr törədib». Amma bu dəyişilmələrin mütləq şəkildə məhz *demokratik dəyişilmələrdən* ibarət olmasını nə Fukuyama, nə də digər alimlər iddia etmir. Əksinə, bu cür inkişaf etmiş iqtisadiyyatda tərəflərin bir-birini əzməməsini və mülkiyyətin qanuni əldə edilərək ötürülməsini yalnız demokratikləşmə təmin edə bilər. F.Fukuyama da təsdiq edir ki, «yalnız demokratiya müasir iqtisadiyyatın yaratdığı qarşılıqlı maraqların mürəkkəb torunda vasitəçi ola bilər». Deməli, *iqtisadi inkişaf yalnız demokratiyanın genişlənməsi fonunda baş verdikdə stabilliyin qarantı ola bilər*. Əks halda demokratiyanın vasitəçilik missiyası zorun, hiylənin, özbaşınalığın əlinə keçir. Biz bu gün saysız-hesabsız mülkiyyət hüququnun pozulması faktlarında məhz bunun şahidi oluruq. Bu baxımdan ən güclü iqtisadi inkişaf və vətəndaşların rifah müqabilində azadlıqdan imtinası demokratiyaya xidmət etmir.

Herbert Markuze «Bir ölçülü insan» adlı əsərində yazır: «İnkişaf etmiş sənaye sivilizasiyasının rahat, sakit, mötədil demokratik qeyri-azadlıqları, hakimiyyətin texniki tərəqqisinin süqutu kimi repressiv hakimiyyətin əli altında bütöv bir hüquq və azadlıqları hökmranlığın fəaliyyət alətinə çevrir». *Başqa sözlə, iqtisadi inkişaf hesabına öz sosial-iqtisadi rahatlığına qovuşan vətəndaşın buna görə də özünün hətta könüllü imtina etdiyi hüquq və azadlıqları son nəticədə onun özünə qarşı hakimiyyətin əlində repressiv alətə çevrilir.*

İqtisadi inkişafa paralel siyasi islahatların aparılmaması nə üçün mütləq totalitarizmlə nəticələnir? Bu sualın cavabı sərvətdə və *sərvətlərin paylanma qaydasındadır*. Q.Markuze yazır: «Nağd resurslar insan tələbatının keyfiyyət dəyişilməsinə səbəb olur». Əgər bir fərd kasıbçılıqda yalnız çörəkpulu qazanmağı hədəfləyirsə, M.Veberin qeyd etdiyi kimi varlananda artıq onda hakimiyyətə əzm yaranır. *Qeyri-məhdud varlanma qeyri-məhdud hakimiyyət əzmi yaradır*. Bu da *mütləqiyyətə cəhdlə* müşayət olunur. Buna görə də bazar iqtisadiyyatında iqtisadi gəlirləri tənzimləyən sosial və siyasi institutlar bu bəlanın qarşısını almaq üçün gəlirləri tənzimləyir, sərvətin ictimai münasibətlərin reqressiv istiqamətdə inkişafının qarşısını alır. Rolz Con «Ədalət nəzəriyyəsi» adlı əsərində yazır: «Bütün sosial sərvətlər - azadlıq və əlverişli imkan, gəlir, var-dövlət, özünə hörmətin sosial əsasları paylanmalıdır, bu sərvətlərdən istənilən biri və ya hamısı qeyri-bərabər paylandıqda hər adama üstünlük verilir… nəzəri olaraq fundamental azadlıqların bəzilərindən imtina edən insanlara kifayət qədər onların sosial və iqtisadi gəlirlərini kompensasiya edir… ədalətin ümumi konsepsiyası ona məhdudiyyət qoymur ki, hansı növ qeyri-bərabərlik yol verilməzdir… o tələb edir ki, bu vəziyyətdə onların hamısı yaxşılaşdırılsın». Beləliklə, hətta iqtisadi inkişaf vətəndaşların rifahının yüksəlməsi (əslində iqtisadi inkişafla fərdi rifah arasında xətti əlaqə yoxdur və bir qayda olaraq iqtisadi inkişaf rifah vəziyyətinin pisləşməsinə səbəb olur. Bu barədə növbəti fəsildə elmi şərh verəcəyik) naminə onların hüquq və azadlıqlarının imtinasına gətirib çıxarırsa, bu, ədalətli deyil və *sosial sərvətlər ədalətli paylanmadıqda, maddi sərvətlərin ədalətli paylanması belə, cəmiyyəti totalitarizmə yuvarlanmaqdan xilas edə bilməz*. Sosial dəyər

kimi bərabərlik məhz iqtisadi inkişafın əlamətlərindəndir. Belə ki, F.Fukuyama yazır: «İqtisadiyyat müəyyən növ bərabərliyi o de-yure meydana çıxmadan de-fakto yaradır». Əgər həqiqətən də *de-fakto bərabərlik yoxdursa, deməli, iqtisadi inkişaf da yoxdur.*

Haşiyə: «İqtisadi inkişaf mütləq demokratiyaya xidmət edəcək» kimi dünyada yayılmış fikirlərin heç bir elmi və təcrübi əsası yoxdur. Razılaşmaq lazımdır ki, demokratik inkişaf rifahla birbaşa əlaqəlidir və cəmiyyətdə *orta təbəqənin genişlənməsi*, bir tərəfdən iqtisadi inkişafın, digər tərəfdən *demokratiyanın genişlənməsinin,* üçüncü tərəfdən *rifahın ədalətli bölünməsinin* yeganə göstəricisi kimi göstərilə bilər. Bu gün neototalitar dövlətlərdə orta təbəqə varmı, varsa, bu, ölkə əhalisinin neçə faizini təşkil edir? Əyani olsun deyə, Azərbaycanın nümunəsində təhlil edək. Strategiyaya həsr olunmuş məqalədə etiraf edilir ki, «ölkədə yoxsulluğun azalması daha mühüm göstəricidir. Çünki ÜDM-nin səviyyəsi hələ o demək deyil ki, bu imkandan hamı bəhrələnmişdir. Yoxsulların sayı 2003-cü ildə 50%-dən 2007-ci ildə 20%-ə qədər azalmışdır». Azərbaycan iqtidarı özünün iqtisadi nailiyyətlərini bir qayda olaraq ÜDM-nin artması ilə sübut edir. Digər tərəfdən isə, ölkədə hələ də 20% yoxsulun olmasını etiraf edir. Müstəqil ekspertlər, elə iqtidar nümayəndələri də zaman-zaman etiraf edir ki, hər il xaricə gedən Azərbaycan vətəndaşları ölkəyə bir neçə milyard dollar pul göndərir. Bu göndərilən pul da iqtidarın iqtisadi fəaliyyəti nəticəsində yox, xaricdən göstərilən yardım hesabına Azərbaycanda yoxsulluğu xeyli azaldır. Bu, bir daha sübut edir ki, Azərbaycanda mütəmadi artmaqda olan ÜDM-dən hamı bərabər əsasda bəhrələnmir. Əgər hamı ÜDM-dən bəhrələnə bilmirsə, onda bu artım necə bölünür və ya necə deyərlər, «gəlirlər hara gedir»? Bu sualın cavabını tapmaq üçün Azərbaycanda günbəgün inkişaf edən təbəqələşmə haqqında beynəlxalq təşkilatların və ölkənin müstəqil ekspertlərinin rəylərinə nəzər salmaq kifayətdir. Dünya Bankının keçən ilki hesabatında Azərbaycanda kölgə iqtisadiyyatının 60 faiz təşkil etdiyi göstərilir. Dövlətlərin korrupsiyalaşma dərəcəsində isə beynəlxalq hesabatlarda Azərbaycan həmişə birinci onluğa daxil olur. Əslində demokratiyanın genişlənməsini müşayət etməyən *sürətli iqtisadi inkişafın* təhlükəli sosial nəticələr vermə-

sini əksər alimlər öz tədqiqatlarında sübut etmişlər. S.Hantinqton «Dəyişən cəmiyyətlərdə siyasi nizam» adlı əsərində yazır: «Hədsiz sürətləndirilmiş sosial-iqtisadi modernləşdirmə siyasi inkişafı ötə bilər, zorakılığın və qayğısızlığın səbəbi ola bilər». Nə qədər acı olsa da, etiraf etməliyik ki, bu gün *neototalitar cəmiyyətlərdə hər addımda siyasi zorakılığa əl atılması, pul və mülkiyyət sahiblərinin dövlətin və cəmiyyətin problemlərinə laqeydliyinin və qayğısızlığının qaynaqlarından biri də «hədsiz sürətləndirilmiş iqtisadi inkişafdır».*

«Əvvəl iqtisadiyyat, sonra siyasət» paradiqmasının ən ağır fəsadlarından biri də neototalitar dövlətlərdə *pulun hakimiyyətinin* yaradılmasıdır. Hələ Bibliya insanlığı xəbərdar edirdi ki, «pula məhəbbət şərin mənbəyidir». Çox maraqlıdır ki, min illər sonra müasir qlobal iqtisadi böhran Roma Papası tərəfindən «Allahın iqtisadiyyata birincilik verən insanlığa xəbərdarlığı kimi» dəyərləndirilmiş və pula, sərvətə hərisliyin təhlükəli nəticələr verəcəyini bir daha elan etmişdir. Bu gün postsovet respublikalarında istehsalın yox, hasilatın hesabına ÜDM-nin artması və Milli gəlirin ədalətsiz bölünməsi korrupsiya yolu ilə pulun ayrı-ayrı adamların əlində toplanmasına gətirib çıxarmışdır. Qeyd etmək lazımdır ki, hasilat nəticəsində ÜDM-nin artmasının iqtisadi inkişafla heç bir əlaqəsi yoxdur. İqtisad elminə görə, *iqtisadi inkişaf - iqtisadi resursların effektli istifadə edilməsi, dövlətin iqtisadi siyasəti isə iqtisadi məqsədlər sisteminin və cəmiyyətin yeniləşməsi, inkişaf strategiyası vəzifələrini həll etməsini təmin edən tədbirlərdən ibarətdir.* Göründüyü kimi, resursların effektli istifadə edilməməsi heç də iqtisadi inkişafın baş verdiyini şərtləndirmir. Pulun hakimiyyətinin demokratiyanı necə təhdid etməsi ilə bağlı Amerikada «Milli Bank Haqqında Akt» qəbul edildikdən sonra 25 fevral 1865-ci ildə A.Linkoln öz çıxışında deyirdi: «Pulun hakimiyyəti ölkəni sülh zamanı qarət edir, ağır vaxtlarda sui-qəsdlər təşkil edir, o monarxiyadan daha despotikdir, mütləqiyyətdən daha təkəbbürlüdür, bürokratiyadan daha çox özünə vurğundur. Mən yaxın gələcəkdə böhranın başlayacağını görürəm. Bu mənim sakitliyimi əlimdən alır və ölkəmin təhlükəsizliyi üçün ehtiyatlı olmağa məcbur edir. Korporasiyalar taxta çıxır, korrupsiya erası gəlir və pul hakimiyyəti öz hökmranlığını uzatmağa çalışacaq, xalqın düşüncəsi-

nə o vaxta qədər təsir edəcək ki, pul az bir adamın əlində toplansın və respublika məhv olsun». Məncə şərhə ehtiyac yoxdur. Belə bir vəziyyətdə ölkədə parlamentin, qanunların, məhkəmə hakimiyyətinin olması da bir məna daşımır. Məşhur Amerika milyarderi Meyer Rotşild deyirdi: «Mənə pulla ölkəni idarə etməyə imkan verin, qanunları kimlərin verməsi ilə işim yoxdur». Pullanan adamın qanun çərçivəsində yaşamaq istəməməsi də başqa bir sosial problem doğurur. Bu gün neototalitar dövlətlərin iqtidarlarının iqtisadi inkişaf strategiyasında pul-kredit siyasəti ölkədə nəinki demokratiyaya əsas yaradır, əksinə, onları həm də əcnəbi kreditorların, bununla da xarici ölkələrin köləsinə çevirir. Amerikanın «Mid-Lond» Bankının sədri Reqinald Mc Kenn banklar haqqında deyir: «Ölkəni kreditlərlə idarə edənlər hökumətin siyasətlərini istiqamətləndirir və xalqların taleyini öz əllərində saxlayır». Bu gün beynəlxalq banklardan milyardlarla dollar kredit alan iqtidarlar bir tərəfdən öz siyasətlərini donorların istiqamətləndirməsinə əsas verir, digər tərəfdən xalqları bu bankların girovuna çevririr. Bu, dünyada qəbul edilmiş bir həqiqətdir ki, *«Milli borc borcluları qul edir»*. Bu gün neototalitar dövlətlərin xarici borcu elə həddə çatmışdır ki, nəinki bu günkü, hətta gələcək bir neçə nəsil qul kimi doğulacaq. Qullar isə heç vaxt demokratiya qura bilməzlər. Postsovet respublikalarında bank sisteminin qüsurlu inkişafı bu ölkələrdə demokratiyanın qarşısında duran ən ciddi əngəllərdən biridir. Dövlət nəzarətindən kənarda fəaliyyət göstərən banklar nəinki milli dövlətləri, hətta bütün dünyanı təhdid edir. Amerika dövlətinin banilərindən biri T.Ceferson 1816-cı ildə J.Taylora məktubunda yazırdı: «Mən belə hesab edirəm ki, banklar daimi ordulardan daha çox bizim azadlıqlarımız üçün təhlükəlidir. Onlar artıq pul aristokratiyasını yaradıblar və heç bir vəchlə hökumətə imkan verməyəcəklər». Nəzərə alsaq ki, postsovet respublikalarında banklar bu və ya başqa formada hökumət məmurları ilə bilavasitə bağlıdır, onda Cefersonun dediklərini bu dövlətlərin reallıqları üçün belə ifadə edə bilərik: *«Bankları olan hökumət məmurları heç vaxt öz ölkələrində demokratiyaya imkan verməyəcəklər»*. Bütün bunlar «iqtisadi inkişafdan demokratiyaya keçid» paradiqmasının nə qədər səhv olduğunu öz-özlüyündə sübut edir.

İqtisadi inkişafın digər bir problemi tarixi şəraitin və beynəlxalq münasibətlərin diqtəsi altında baş verən *yeniliklərin siyasiləşdirilməsidir.* Fukuyama yazır: «Yeniliyin siyasiləşdirilməsi qaçılmaz olaraq bütünlükdə iqtisadi artımda olan duruma təsir edəcəkdir». Nə yazıqlar ki, iqtidarın transmilli lahiyələrlə bağlı işləri siyasiləşdirməsi və hakimiyyətin qorunması naminə istifadə etməsi digər sahələrlə yanaşı iqtisadi inkişafa da ciddi zərbələr vurmuşdur. Postsovet neft ölkələrində bundan qabaq başqa neft ölkələrinin yaşadığı «Holland sindromu»nun yaranması bununla bağlıdır. «İqtisadiyyatdan demokratiyaya keçid» paradiqması siyasətdə sovet ənənələrinin hələ də güclü olmasını sübut edir. Belə ki, cəmiyyətdə yalnız *bir siyasi gücün inkişafı və həmin gücün ictimai vəzifələri ierarxiyalaşdırılması birbaşa cəmiyyətin azad olmadığını sübut edir.* Nobel mükafatı laureatı iqtisatçı alim A.Hayek «İdrak, rəqabət və azadlıq» adlı əsərində yazır: «Azad cəmiyyət üçün ümumi qəbul edilmiş məqsədlərin ierarxik olmaması xarakterikdir». Bunu həndəsi dildə obrazlı olaraq belə ifadə edə bilərik ki, yalnız paralel xətlərin kəsişməməsi aksiomdur. Yerdə qalan bütün variantlarda paralel olmayan müxtəlif xətlərin kəsişməsi qaçılmazdır. Bu baxımdan neototalitar dövlətlərdə iqtisadiyyata paralel inkişaf etməyən demokratikləşmə siyasəti son nəticədə kəsişməyə gətirib çıxarır və bu kəsişmə nöqtəsində güclənmiş iqtisadiyyatda baş verən neqativ tentensiyalar demokratiyanın genişlənməsinin qarşısını alır.

Haşiyə: Neototalitar liderlərin müxtəlif kürsülərdən beynəlxalq ictimaiyyətə ünvanlanmış çıxışlarında həqiqətən də iqtisadi inkişafla demokratiyanın genişlənməsinin paralel aparılmasının vacibliyini bildirirlər. Xaricə ünvanlanmış çıxışlardakı mövqe ilə daxildə aparılan siyasətin biri-biri ilə belə diametrial ziddiyyəti necə izah etmək olar? Məqalədə iqtidar strategiyasının səhv olduğunu sübut edən «Demokratiyanın nəzəriyyəsi və təcrübəsi» əsərindən belə bir tezisə müraciət edilir: «Modernləşmənin mərkəz tezisi ondan ibarətdir ki, təsərrüfatın tərəqqisi mədəni, ictimai və siyasi həyatda paralel şəkildə aparılan, özü də müəyyən dərəcədə prqnozlaşdırıla bilən dəyişiklikləri şərtləndirir». Əgər bu tezis qəbul ediləndirsə, onda iqtisadi inkişafa paralel genişlənməyən demokratik şəraitdə moder-

nləşməni həyata keçirmək mümkündürmü? Əgər mümkündürsə, onda bu tezisi modernləşmənin mərkəzi tezisi kimi qəbul etmək olarmı? Strategiyaya həsr olunmuş məqalədə birbaşa göstərilir ki, məhz postavtoritar keçidin ölkələr və regionlar üzrə xüsusiyyətinin nəzərə alınması «iqtisadiyyat siyasətdən əzəldir» strategiyasına üstünlük verilməsini müəyyən edir. Əslində iqtisadi inkişafla demokratiya yalnız o halda bir-biri ilə qarşılıqlı uyuşa və eyni bir siyasi məkanda mümkün ola bilər ki, məqalədə diskurs edilən sosioloq Seymur Martin Lipsetin dediyi kimi, «Zəngin ölkələrdə demokratiyanın sabitliyini təmin edən səbəblərdən biri ondan ibarətdir ki, müxtəlif sosial mexanizmlər vasitəsi ilə sərvət bölgü ilə əlaqədar münaqişələrin kəskinliyini azaltmağa imkan verir… Millət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları bir o qədər yüksəkdir». Bu gün neototalitar cəmiyyətlərdə real pozitiv siyasi və hüquqi inkişaf olmadığından, sərvət bölgüsü ilə əlaqədar münaqişələrin kəskinliyini azaltmağa imkan verən heç bir sosial mexanizm mövcud deyil, yalnız zor və polisdən başqa. Postsovet respublikalarında həyata keçirilən islahatların düzgün olmadığını sübut edən digər bir fakt ondan ibarətdir ki, eyni postavtoritar keçidi yaşayan Ukrayna, Gürcüstan, Baltikyanı, Şərqi Avropa ölkələri sərvətlərinə görə neototalitar dövlətlərdən – Rusiyadan, Belarusdan, Özbəkistandan, Türkmənistandan və Azərbaycandan qat-qat kasıb və iqtisadi inkişaf tempinə görə geridə qalsalar da, demokratikləşmə sahəsində xeyli qabağa getmişlər. Belə ki, bu ölkələrdə ya demokratiya inkişaf etməkdədir, ya da ən azı demokratiyaya keçid başlamışdır.

Strategiyada iqtisadi inkişafın siyasi dəyişilmələrə gətirib çıxarmayacağını təsdiq edən F.Fukuyamanın belə bir fikri diskurs edilir: «Kapitalizmlə demokratiya arasında münasibətlər düzxətli xarakter daşımır. Özlüyündə kapitalizm demokratiyanın xeyrinə birbaşa təzyiq yaratmır, o avtoritarizmin bir çox forması ilə çox gözəl uyuşur və hətta qeyri-demokratik ölkələrdə də tərəqqi edə bilər». Bu baxımdan, neototalitar dövlətlərdə iqtisadi inkişafla demokratiyanın hər hansı bir əlaqəsini tapmaq mümkün deyil və demokratiyanın olmadığı hallarda iqtisadi inkişaf avtoritarizmin bir çox halları ilə

çox gözəl uyuşur. Burada bizə yalnız neototalitar dövlətlərdə indiki iqtisadi inkişafın avtoritarizmin hansı forması ilə uyuşduğunu təyin etmək qalır. Strategiyaya həsr olunmuş məqalədə demokratiya əleyhinə elə köklənilir ki, Amerika politoloqu RDaçın «Keçmişdə bazar iqtisadiyyatı demokratik təsisatlardan daha əvvəl yaranırdı» fikirini əsas götürərək belə bir nəticəyə gəlinir ki, «bəzən bizə eyni vaxtda həm demokratiyaya, həm də bazar iqtisadiyyatına keçidi zorla qəbul etdirmək səyləri, iqtisadi və siyasi dəyişikliklər arasında əsrlər boyu yaranmış qarşılıqlı əlaqələr modelini dəyişmək cəhdi tarixi presedentləri olmayan bir eksperiment deməkdir» fikrinə gəlinir. Əvvəla, istər-istəməz sual doğur. Postsovet respublikalarının iqtidarları nə üçün demokratiyaya zorla keçməyə məcbur edilir? Nə üçün xalqlarının xoşbəxtliyini nəzərə alıb sivill dünyada digər azad cəmiyyətlərlə bir sırada durmaq üçün xoşluqla demokratiyaya keçmək istəmir və nə üçün onlar eyni zamanda həm iqtisadi inkişafa, həm də demokratiyanın genişlənməsinə nail olan Baltikyanı, Ukrayna, Gürcüstan, Polşa və s. kimi dövlətlərin təcrübəsinin tarixi presedentlərini görmək istəmirlər.

Strategiyaya həsr olunmuş məqalədə belə bir inam ifadə olunur ki, «ölkənin iqtisadi cəhətdən güclənməsi və vətəndaşların maddi rifahlarının təmin edilməsi vasitəsi ilə cəmiyyətin mərhələli demokratikləşməsindən və keçid demokratiyasından möhkəmlənmiş, yəni konsolidasiya olunmuş məkana transformasiyası barədə danışmaq olar».

Haşiyə: Xətti inkişaf modellərində müşahidə edilən digər ciddi qüsuru müxtəlif paradiqmaların müəyyənləşməsində onların bir-biri ilə ziddiyyət təşkil etməsidir. Birinci qüsur *qlobal dünya sisteminin subyektinə çevrilmək istəyən iqtidarların əski sovetlərdən qalma iqtisadiyyatın planlaşdırılması ideyasından hələ də əl çəkmədiyini* açıq-aşkar sərgiləmələridir. F.Fukuyama «Amerika yol ayrıcında» adlı əsərində yazır: «İqtisadi planlaşdırma dəbdən düşüb. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə indi azad bazara və qlobal iqtisadi inteqrasiyaya üstünlük verilir». Bu, obyektiv qanunauyğunluqdur. Belə ki, qlobal iqtisadi əlaqələrə girən heç bir tərəf öz *milli iqtisadiyyatını birtərəfli planlaşdıra bilməz*. Müasir qlo-

bal iqtisadi böhran qarşısında ayrı-ayrı dövlətlərin Milli çərçivədə həyata keçirdikləri antiböhran siyasətinin iflasa uğraması bunu bariz nümayiş etdirir. Bu baxımdan neototalitar dövlətlərin iqtidarları ölkədə iqtisadi inkişaf paradiqması ilə qlobal iqtisadi inkişaf paradiqmasını uzlaşdıra bilmir və nəticədə nə ölkədə iqtisadi inkişafı planlaşdıra, nə də qlobal iqtisadi əlaqələrdən milli iqtisadiyyatın inkişafı üçün istifadə edə bilir. İkinci qüsur inkişafın nəticələrini qiymətləndirmədə tələskənliyə yol verilməsidir. İqtidar strategiyasına həsr olunmuş məqalədə olduqca tələsik nəticələr çıxarılır. Belə ki, Azərbaycanda sənayeləşmənin başlanmamasına baxmayaraq, məqalədə yazılır: «Ölkənin iqtisadiyyatı sabitləşmiş sənaye cəmiyyətindən postsənaye cəmiyyət müstəvisinə transformasiya üçün real bazis yaradır». Əgər həqiqətən də ölkənin iqtisadiyyatında sabitləşmiş sənaye mövcuddursa, onda nədən 2009-cu ilin dövlət büdcəsi lahiyəsində neft sektorundan birbaşa və dolayı daxilolmalar 60 faiz təşkil edir? Sənaye sektorundan daxilolmalar isə 5 faizdən artıq deyil. Halbuki, Azərbaycandan fərqli olaraq postsənaye dövrünə keçməyə hazırlaşan dövlətlərdə xammal hesabına büdcəyə daxilolmalar yox səviyyəsindədir. Sənayedən daxil olmalar isə 70-80% təşkil edir. Üçüncü qüsur *sosial mühəndisliklə* – iqtisadi inkişafın nəticələri əsasında süni təşkilatlanmanın yaradılması ilə bağlıdır. Strategiyaya həsr olunmuş məqalədə yazılır: «İqtisadi modernləşmə, bazarın sabitliyi, orta sinfin formalaşması və ölkənin ÜDM-də özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə izləyərək onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir». Bu fikirlə razılaşmaq mümkün deyil. Bunu Çinin nümunəsində daha asan izah etmək mümkündür. Bizdən çox-çox qabaq, bütün dünyanı heyrətə salan müasir Çin iqtisadiyyatında modernləşdirmənin banisi Den Syaopin Çin Kommunist Partiyasının 12-ci qurultayında deyirdi: «Xaricilərin Çində iqtisadi sabitliyi görməsi mühümdür. Modernizasiyanı həyata keçirərkən Çinin reallığından çıxış etməliyik. Yad təcrübəni və yad modeli kor-koranə köçürmək heç vaxt nailiyyət gətirməyib». Və Çində nəhəng modernləşmə nəinki şüurun latent yönlənməsinə səbəb oldu, əksinə, Pekinin mərkəzi meydanında minlərlə demokratiya istəyən gəncin tanklar altında məhv edilməsi

ilə nəticələndi. Beləliklə, dünya təcrübəsi sübut edir ki, *iqtisadiyyatın birtərəfli modernizasiyası latent keçid yolu ilə müxtəlif totalitar cəmiyyətlərin meydana çıxmasına səbəb olur*. Modernizasiya ilə paralel demokratiyanın boğulması və ya onun iqtisadi inkişafdan sonrakı mərhələyə saxlanılması bütün dünyanı təhdid edən ən təhlükəli rejimlər – kommunist, faşist, xunta və s. yaradıb. İqtisadi inkişafa paralel olaraq demokratiyanın məhdudlaşdırılması nə deməkdir? Benito Mussolini «Faşizm doktrinası» adlı əsərində yazır: «Sosializmdən sonra faşizm demokratik ideologiyanın bütün sisteminə hücum edir, onun həm nəzəri, həm də təcrübi tətbiqini inkar edir». Bu gün neototalitar dövlətlərdə iqtidarı təmsil edən ayrı-ayrı nümayəndələrin «milli mənafelər» adı altında demokratiyanın genişlənməsinə aşkar müqavimət göstərməsi, demokratik ideyalara qarşı çıxış etməsi, bu ölkələrdə faşizmin inkişaf etməyəcəyinə və ya ən yaxşı halda Çində hələ də saxlanılan kommunist rejiminə aparmayacağına necə təminat vermək olar? Artıq Rusiyada gənclər arasında *rus şovinizmi* hərəkatı Rusiya hakimiyyətini fakt qarşısında qoyub. Belarus isə hələ də sovet ənənələrini yaşatmaqdadır.

Postsovet respublikaları totalitarizmə keçiddən sığortalanıbmı? Çox təəssüf ki, bu suala müsbət cavab vermək çətindir. Birincisi, postsovet ölkələrində demokratiyaya keçidlə bağlı dövlət proqramları həyata keçirilmir, yalnız proseslərin öz-özünə latent - gizli dəyişikliyinə ümid edilir. Hələ ötən əsrin əvvəllərində P.L.Lavrov «Tarixi məktublar»ında yazırdı: «Şəxsiyyətin fiziki, əqli və mənəvi inkişafı həqiqətin və ədalətin ictimai formasında cəmləşmiş münasibətlər, tərəqqi hesab edilən hər şeyi əhatə edən formuladır». Tərəqqiyə bu baxımdan yanaşdıqda «İqtisadiyyat əvvəldir» paradiqmasının tərəqqiyə xidmət etmədiyi və bununla da demokratikləşməyə keçidi stimullaşdırmayacağı aydın olur. Buna görə də postsovet liderlər hələ yad və alternativ fikirlərin aşkar ifadə olunmasını qəbul edə bilmir. Böyük mütəfəkkirlər söz və fikir azadlığının vacibliyini yalnız onunla əsaslandırıblar ki, belə şəraitdə vətəndaşların öz fikirlərini azad ifadə edərkən dövlət onların səhv düşündüklərini görüb, onları məqsədə doğru yönəldə bilsin. Əgər iqtidar ictimai şüurun dəyişilməsinin gizlin getməsini məqbul hesab edirsə, onda bu dəyi-

şilmələrin səhv və ya düz istiqamətdə getdiyini necə təyin edəcək? Bu hələ problemə bu cür səhv yanaşma ilə qurtarmır. Məhz belə yanaşma nəticəsində ictimai şüurda baş verənləri aşkarlamaq vəzifəsini yerinə yetirən azad mətbuat təbii olaraq artıq bir şeyə çevrilir və çox vaxt arzuolunmaz institut kimi dərk edilir, nəticədə ona qarşı «səlib yürüşü» elan edilir. İngilislər demişkən: «Bir yalanı ört-basdır etmək üçün ən azı iki yeni yalan lazımdır». Neototalitar hakimiyyətlərin azad mətbuata qarşı mövqeyində ilk baxışda haqlı olan məqam mətbuatın neqativ halları şişirtməsidir. Lakin unutmaq olmaz ki, elə azad mətbuatın iqtidar mətbuatından fərqi də bu olmalıdır. Nitşe yazır: «Böyük çoxluğun fərq etməsi naminə ictimai şəri şişirdilmiş təsvir etmək xeyirlidir». Etiraf edim ki, mən özüm də bəzən şüurlu şəkildə iqtidarın qüsurlarını və sosial əyintilərini qəsdən elə şişirdilmiş təsvir etməyə cəhd edirəm ki, bütün bunlar haqqında həm geniş xalq kütlələri, həm də iqtidar eşidə bilsin. Elə demokratik cəmiyyətdə müxalifətin də vəzifəsi məhz bundan ibarətdir.

Haşiyə: Postsovet respublikalarında iqtisadiyyatın inkişafda əsas paradiqma qəbul edilməsi, marksizmin iqtisadi münasibətlərin bazis olması nəzəriyyəsinə əsaslanır. Birincisi, bu gün heç bir inkişaf etmiş demokratik cəmiyyətdə Marksın ənənəvi baxışları – iqtisadi münasibətlərin bazis olması *ehkam* kimi qəbul edilmir. İkincisi, Marksın özündə də inkişaf etdirilməmiş elə fikirlər var ki, bu fikirlər marksizmin öz əleyhinə işləyir. Marks «Hüququn Hegel fəlsəfəsinin tənqidi» adlı əsərində yazır: «Demokratiyada insan qanun üçün yox, qanun insan üçün mövcuddur: burada qanun insan varlığıdır, başlıca quruluş formalarında insan qanunla müəyyən olunan varlıqdır». Əgər qəbul etsək ki, iqtisadiyyat insan bədəninin *proekonomikasının ekstrapolyasiyasıdır,* onda ictimai inkişafın əsası insan mahiyyəti ilə müəyyənləşməlidir. Hansı ki, bütün dövrlərin mütəfəkkirləri insanın dəyərini və mahiyyətini azadlıqla ölçmüşdür. Marks yazır: «Azadlıq çarlığı həqiqətən yalnız orda başlayır ki, xarici məqsədəyönlülüyün diqtə etdiyi iş dayandırılsın». Bu gün postsovet respublikalarının vətəndaşlarının yaşam uğrunda mübarizəsi və əhalinin *iqtisadi inkişaf ətrafında cəmləşdirməyə cəhd məhz xarici məqsədəyönlülük yaratmağa* əsaslanır. Elə iqtidarların *iqtisadi inkişafı demokratiyadan fərqli ola-*

raq məqsədəyönlülük elan etməsi əslində vətəndaşları belə məqsədəyönlülüyün təsirində saxlamaqla, son nəticədə azadlıqlardan məhrum etməkdir. Başqa sözlə, vətəndaşların kütləvi şəkildə «hakimiyyətin qəzəbinə tuş gəlməmə prinsipinə» tabe olmasına xidmət edir. Bu da son nəticədə azadlıq çarlığını süquta gətirib çıxarmışdır. Üçüncüsü, qeyd etmək lazımdır ki, Qərb iqtisadi məktəbləri bu və ya başqa şəkildə marksizmmn bəzi müddəalarını qəbul edirlər. Bunun başlıca səbəbi sosializmlə demokratiyanın qohumluğuduır. İlk baxışdan Habillə Qabil kimi əkiz görünən demokratiya ilə sosializm elə onlar kimi bir-birinin əksinə olan iki qütbdür. Biri köləliyə, digəri azadlığa aparır. Demokratiyanın böyük tədqiqatçılarından biri olmuş A.Tokvil yazır: «Demokratiya ilə sosializmin bir sözdə bərabərlikdən başqa heç bir ümumi tərəfi yoxdur. Demokratiyada bərabərliyə azadlıqda, sosializmdə bərabərliyə köləlikdə və məhdudiyyətlər üzərində nail olurlar». Dördüncüsü, demokratiyanın məhdudlaşdırılması ilə aparılan iqtisadi inkişaf strategiyası sosializmdən yan keçəcəyi təqdirdə bu ölkələri qaçılmaz olaraq avtoritarizmin müxtəlif formalarına gətirib çıxaracaq.

Məqalədə iqtidar strategiyasının düzlüyünü sübut etmək üçün Hayekin «Köləliyə aparan yol» adlı kitabından gətirilən sitatla sübut etməyə və «iqtisadiyyat siyasətdən əzəldir» formulunun düzgün olduğunu qəbul etməyə cəhd edilir.

Haşiyə: Birincisi, Hayek həmin sitatda «bu müəyyən mənada düzgündür» yazmaqla öz fikrinin nisbi olduğunu göstərməklə həm də nəzərə çatdırmaq istəyir ki, bu, heç də həmişə düzgün deyil. Dünya şöhrətli iqtisadçı iqtisadi baxışları ilə bağlı yuxarıda adını çəkdiyimiz «İdrak, rəqabət və azadlıq» adlı kitabında konstruktivizm haqqında yazır: «Yalnız ideyalara malik və bu ideyalarla fəaliyyət göstərən fərdlər mövcuddur… cəmiyyət və *sivilizasiya yaradan insan onu özünə görə dəyişdirmək gücünə malik olmalıdır ki,* o, özünün arzularını ən yaxşı təmin etsin. Əgər biz sosial nizamı yaxşılaşdırmaq istəyiriksə, kobud söhbətlər etməkdənsə, *mürəkkəb strukturların məntiqini* izləməyi öyrənməliyik». Göründüyü kimi, Hayekin iqtisadi nəzəriyyəsində ideyalara malik fərd və bu fərdin cəmiyyəti dəyişdirmək imkanı və gücünün olması əsas şərt kimi qoyulmuşdur.

Bunun əksinə, *sinəsiz insanlardan* ibarət və demokratik yolla dəyişilməyən cəmiyyətlərdə iqtisadiyyat köləliyin ən müxtəlif formalarına aparır. İkincisi, Hayekin sosial nizamı yaxşılaşdırmaq istəyinin mürəkkəb quruluşların məntiqi ilə izlənməsi özündə nəyi ifadə edir? Artıq sinergizm (mürəkkəb strukturlar haqqında elm) dəqiq elmlərdən sosial elmlərə keçmişdir. İndi dünyada insana və cəmiyyətə sinergetik baxışlardan yanaşılır. Sinergizm mürəkkəb sistemlərin belə bir qanunu kəşf etmişdir: *«Mürəkkəb sistemlərdə inkişaf alternativlidir və müəyyən paradiqmaların daxil edilməsi və ya kənarlaşdırılması ilə çıxış nöqtəsindən asılı olmayaraq inkişafın gedişində proses başqa meyllər əldə edə bilər»*. Bu qanunauyğunluğu F.Engelsin belə bir fikri ilə təsdiq etmək olar: O, yazır: «Öz inkişafının sonuna yaxınlaşmamış hər hansı tarixi proses haqqında dəqiq fikir söyləmək mümkün deyildir». Belə ki, inkişaf düzxətli baş vermədiyindən və böhranlı mərhələlərlə inkişaf etdiyindən, böhran nöqtələrində – fuluktasiyalarda baş verən dəyişilmələr inkişafı yeni alternativ istiqamətlərə sala bilər. Üçüncüsü, dünyanın siyasi təcrübəsində də biz bu cür alternativ inkişafın acı nəticələrinin şahidiyik. Ərəb sosialist inqilabının liderindən biri Səddam Hüseynin diqtatora çevrilməsi, BƏS (Ərəb Ölkələri Birliyi) ideyasının müəlliflərindən biri olmasına baxmayaraq Küveyti işğal etməsi, digər Ərəb dövlətləri ilə düşmənçilik siyasəti aparması, İranla müharibəyə başlaması, ölkəsində şiə və sünni təriqətinə görə öz xalqını qarşıya-qarşıya qoyması, nəhayət, öz vətəndaşlarına qarşı kütləvi qırğın silahını tətbiq etməsi dediklərimizin canlı sübutudur. Elə bəzi islahatların vətəndaş müharibəsinə səbəb olması, Qorbaçovun SSRİ-ni möhkəmləndirmək məqsədi ilə elan etdiyi «Yenidənqurma»nın SSRİ-ni dağıtması da bu qəbildən olan hadisələrdəndir və bütün bunlar yalnız mürəkkəb sistemlərin məntiqi ilə izah oluna bilər. Bu gün neototalitar dövlətlərdə baş verənlərin düzlüyü və bu ölkələrdə həyata keçirilən iqtisadi inkişaf planlarının onları hara aparacağını əminliklə söyləmək də mürəkkəb sistemlərin məntiqinə ziddir. Təhlil etdiyimiz strategiyada yazılır: «Özlüyündə demokratikləşmə milli inkişaf strategiyasını müəyyən edən amil və vahid sosium çərçivəsində birgə mövcud olmağın mühüm komponentidir». Əgər həqiqətən belədirsə, onda milli inki-

şaf, o cümlədən bu inkişafın bir hissəsi olan iqtisadi inkişaf necə demokratiyadan önə keçə bilər? Əgər milli inkişafda demokratikləşmə təyinedicidirsə, onda necə təyinedən təyinolunandan sonra yarana bilər? Əvvəl ata, sonra oğul, ya əksinə, əvvəl oğul, sonra ata doğulur? Əslində demokratiya, yoxsa iqtisadi inkişaf birinci olmalıdır və ya «iqtisadiyyat siyasətdən əvvəldir», və ya da «siyasət iqtisadiyyatdan əvvəldir» sualları qarşılıqlı determinə edən hallara aiddir və bunun ən geniş yayılmış *başsındırmalarından biri də «toyuq yumurtadan, yoxsa yumurta toyuqdan əmələ gəlir?» sualıdır. Bu sualın cavabını yalnız təkamül prosesi əsasında vermək mümkündür.* Elə yuxarıda siyasət və iqtisadiyyatla bağlı sualın cavabını da nəzəri mülahizələrdən çox, tarixi təcrübələrə istinadən vermək mümkündür. Bundan fərqli olaraq rasional praqmatik düşüncə «toyuq-yumurta» əlaqəsini belə bir sual formasında qoyar: «Konkret olaraq bu toyuq yumurtlaya bilirmi və ya konkret olaraq bu yumurtadan cücə çıxarmı?» Yəni «iqtisadiyyat əzəldir, yoxsa siyasət» dillemmasını, konkret bu cür - «iqtisadi inkişaf demokratikləşməyə xidmət edirmi?» kimi qoyduqda və ya «demokratikləşmə başlasaydı, iqtisadi inkişaf baş verərdimi?» suallarına cavab tapmaqla həll etmək olar. Demokratiyanın iqtisadi inkişafı stimullaşdırmasını diskusiya etmək belə, nonsensdir. Ən azı ona görə ki, dünyanın bütün inkişaf etmiş ölkələri məhz bu inkişaf üçün demokratiyaya borcludur. Amma iqtisadi inkişafın demokratiyanın inkişafına stimul verəcəyini birmənalı demək olmaz. Tarixi təcrübə də bunu sübut edir. Nümunə üçün 30-cu illərin Almaniyasını götürmək olar. Həmin illərdə Almaniya Avropa ölkələri arasında ən zəif inkişaf etmiş, müxtəlif torpaqlar arasında ziddiyyətlərə məruz qalmış, əraziləri Fransa tərəfindən işğal olunmuş bir vəziyyətdə idi. Hitlerin liderliyi ilə nasional sosialistlər hakimiyyəti ələ aldıqdan sonra Bundestaqı yandıraraq ölkədə geniş siyasi repressiyalara başladılar, siyasi partiyaları bağladılar, azad mətbuatı susdurdular, bir çox xalqlara qarşı genosid siyasəti apardılar, repressiyalar yolu ilə alman kommunistlərini, sosialistlərini məhv etdilər, əvəzində qısa müddət ərzində sözün həqiqi mənasında dünyada analoqu olmayan nəhəng iqtisadi sıçrayışa, təpədən-dırnağadək silahlanmış ordu yaratmağa nail oldular. Bütün bunların nəticəsində Almaniya demo-

kratiyaya yox, faşizmə keçdi və belə iqtisadi inkişaf almanlara 5 milyon, bütünlükdə isə, müxtəlif xalqların nümayəndələrindən ibarət 50 milyon qurban bahasına başa gəldi. Elə Pinoçet də Çilidə sosial-demokrat Salvador Alyendeni ölkədəki iqtisadi tənəzzül bəhanəsi ilə silahlı yolla devirdi. 15 il ərzində Çili Cənubi Amerikanın inkişaf etmiş ölkəsinə çevrildi. Amma Pinoçetin demokratiyanı ardıcıl məhdudlaşdırması Çilidə xunta hakimiyyətinin meydana çıxması ilə nəticələndi. Vaxtilə Stalin tərəfdarları, çox təəssüf ki, müasir dövrdə də ona haqq qazandıranlar, onun hətta müharibədən sonra belə, qısa müddət ərzində SSRİ-də iqtisadi inkişafa nail olması arqumentinə söykənirlər. Kütləvi represiyalarla müşayət olunan onun apardığı daxili siyasətə haqq qazandırırlar. Bəs SSRİ-də baş verən «iqtisadi inkişaf» son nəticədə demokratiyaya gətirib çıxardımı? Birmənalı şəkildə qeyd etmək lazımdır ki, *demokratik məhdudlaşmalarla aparılan istənilən iqtisadi inkişaf mütləq totalitarizmlə nəticələnir.*

Strategiyada vətəndaş cəmiyyətinin formalaşması ilə bağlı belə bir riyazi bərabərlik müəyyən edilir: İqtisadi modernləşmə + demokratikləşmə = vətəndaş cəmiyyəti. Bununla yanaşı başqa bir formulanı belə ifadə etmək olar: iqtisadi modernləşmə + etatizm + total nəzarət + zorakılıq = totalitarizm. Bu formullara diqqət etsək, postsovet reallıqlarının yalnız ikinci formula uyğun gəldiyini söyləmək mümkündür. Bu formulla totalitarizmin yaranmasını SSRİ nümunəsində daha aydın izləmək mümkündür. Kütləvi repressiyalarla müşayət olunan kollektivləşmə, mədəni inqilab, elektrikləşmə, sənayeləşmə, kimyalaşma və s. adlar altında SSRİ-də həyata keçirilən və on milyonlarla insanın həyatı bahasına başa gələn «islahatlar» geridə qalmış aqrar çar Rusiyasını SSRİ formasında Avropanın yox, bütün dünyanın supergücü səviyyəsinə qaldırdı. İkinci dünya müharibəsinin nəticəsində isə SSRİ-ni dünyanın bir qütbünə çevirdi. Amma SSRİ demokratikləşə bilmədi. Bunun köklərini «iqtisadiyyat siyasətdən əvvəldir» tezisini qəbul edən marksizmin ən müxtəlif nümayəndələrinin əsərlərində tapmaq mümkündür. Rus inqilab şurasının rəhbəri və onun intellektual siması Lev Davidoviç Trotski «Oktyabrın dərsləri» adlı əsərində yazır: «Demokratiya fəhlə-kəndli koalisiyası yetişməmiş, həqiqi hakimiyyət formasına

qalxmamış forma – meyl kimidir, amma fakt deyil. Hakimiyyət istiqamətində sonrakı hərəkətdə demokratiya örtüyünün cırılması, kəndlilərin böyük əksəriyyətinin fəhlələrin arxası ilə getmək zərurəti qarşısında qoymaq proletara sinfi diktaturasını yaratmaq imkanı vermək və bununla da gündəliyə tam və amansız radikal ictimai münasibətlərin demokratikləşməsi məsələsini qoymaq, fəhlə dövlətinin kapitalist mülkiyyəti hüququna xalis sosialistik müdaxiləsi qaçılmaz olmuşdur. Kim ki bu şəraitdə «demokratik diktatura» formulundan yapışmaqda davam edib, işdə hakimiyyətdən imtina edib və inqilabı döngəyə aparıb». Bu gün də *postsovet respublikalarında hakimiyyətdə təmsil olunmaq demokratiyadan imtina etməklə şərtləndirilib.* Beləliklə, totalitarizmə keçiddə «demokratik örtüyün cırılması», «demokratik diktaturadan imtina» əslində bir sinfin, bir partiyanın, bir elitanın hakimiyyətinin bərqərar olması üçün kifayət etmişdir. Əgər bu formulanı müasir formada «xalq demokratiyaya hazır deyil», «elita dövləti» kimi ifadələrlə əvəzləndiyini qeyd etsək, onda iqtidarların heç demokratik örtüyə belə ehtiyacı olmadığını və ardıcıl olaraq bu formal örtüyün cırılmasına cəhd edildiyini qeyd edə bilərik. Bu da artıq postsovet məkanında neototalitarizmin tam formalaşdığını bir daha sübut edir.

Bu gün dünya öz tarixində ilk dəfədir ki, bu miqyasda qlobal iqtisadi böhranla üzləşmişdir. *İnkişaf etmiş ölkələrin inkişaf etməmiş və ya inkişafda olan ölkələrlə beynəlxalq əlaqələrində iqtisadi maraqlara prioritet verməsi, yəni «əvvəl iqtisadiyyat, sonra demokratiya» paradiqmasını qəbul etməsi də məhz ictimai inkişafın alternativli inkişaf meyli ilə ziddiyyət təşkil etdiyindən, müasir qlobal iqtisadi böhranın yaranmasına, təkan verməklə digər cəbhədə çoxlu sayda neototalitar cəmiyyətlərin formalaşmasına gətirib çıxarıb .*

VI FƏSİL

«ÖLÜ XALQ»IN DİRİLƏN İDEYASI – DÖVLƏTİN BİRİNCİLİYİ

«Böyük dövlətlərdə totalitarizm ayrı-ayrı kiçik dövlətləri və bütünlükdə bəşəriyyəti, kiçik dövlətlərdə ayrı-ayrı vətəndaşları və bütünlükdə xalqı təhdid edir».

Sərdar Cəlaloğlu

Neototalitar dövlətlərin hamısı demək olar ki, eyni başlanğıcdan - etatizmdən – dövlətləşmənin ifratlaşdırılmasından yaranır. Bu paradiqmanın geniş şərhinə keçmədən qeyd edim ki, uzun müddət öz müstəqil dövləti olmayan xalqlar müstəqillik əldə etdikdən sonra bir ifratçılıqdan digərinə düşürlər. Postsovet respublikalarının xalqları da uzun illər müstəqil dövlətsiz yaşadıqdan sonra müstəqillik əldə etdiyindən, digər bir ifrata – ifrat dövlətləşməyə – etatizmə meyl edirlər. Etatizm dövlətsizlik qədər xalq üçün acı nəticələrə gətirib çıxara bilər və biz bu fəsildə bu problemin bəzi aspektlərinə toxunmağa cəhd edəcəyik.

Haşiyə: İnkişafda heç bir proses uzun müddət eyni bir vəziyyətdə qalmadığından, boz sahəyə düşmüş cəmiyyətlər də uzun illər həmin sahədə qərarlaşa bilmir və keçid dövründəki cəmiyyətlər bir-birinə əks olan iki istiqamətdən biri ilə irəliləməyə başlayır. Birincisi, geriyə – keçmişə doğru, digəri gələcəyə – irəliyə doğru. Makiavelli «Hökmdar» adlı əsərində yazır: «Kifayət qədər azadlıq enerjisi olmayan xalqlar azadlıq uğrunda mübarizəyə qalxanda daha ağır şərtlərlə kö-

ləliyə düçar olur». Nə qədər acı olsa da, etiraf etməliyik ki, neototalitar cəmiyyətlərdə yaşayan xalqların azadlıq enerjisi və azad olma təcrübəsi onlara tam azad olmağa kifayət etmir. Bu cəmiyyətlərdə dövlətin azadlığına nail olunsa da, *xalqın və fərdin azadlığına* nail olunmamışdır. Məhz buna görə, postsovet respublikalarında yaşayan insanlar keçmiş sovet dönəmindəkindən daha ağır şərtlərlə əsarətə düşmək istiqamətində hərəkət edir. Bu ölkələrdə yeni mütərəqqi cəmiyyətə keçid üçün nə *siyasi iradə,* nə *ictimai güc,* nə də *münbit daxili* və *beynəlxalq şərait* olmadığından, onlar bir dövlət və cəmiyyət kimi irəliyə yox, geriyə hərəkət etməyə başlamışdır. Başqa sözlə, bu toplumlar təkamül və tərəqqinin dayanması nəticəsində «çıxış nöqtəsinə - başlanğıc yerə qayıtma» kosmik qanuna tabe olaraq, artıq milli çərçivədə, keçmiş totalitarizmə istiqamətlənib və iqtidarlar hətta özləri bunu istəməsələr də, məhz bu istiqamətdəki prosesləri özündə əks etdirən doktrinalar ortalığa qoyublar. Nə üçün mən «özləri istəməsə də» sözünü xüsusi ilə vurğulayıram. Strategiyanı şərh edən məqalədə yazılır: «Demokratik inkişafın müvafiq yeri və Azərbaycan reallıqları üçün məqbul olan modeli elmi baxımdan müəyyən edilmədiyi şəraitdə siyasi rəhbərlik çox vaxt həm nəzəri, həm də praktik məsələləri həll etməli olur, halbuki, diskusiyalar məkanı çox genişdir və bu milli intellektualların disputa çox fəal qoşulmasını tələb edir. Dövlətimizin başçısı həmin məsələləri dəfələrlə qaldırmışdır və bu nəzəri problemlərin həlli üçün ölkənin elmi potensialından geniş istifadə olunmasını zəruri sayır». Beləliklə, cəmiyyətə təqdim olunan iqtidar strategiyasını mən məhz bu anlamda axtarışın və bu axtarışda *çaşqınlığın* və *tərəddüdlərin* nəticəsi kimi qəbul etdiyimdən, «biz hara gedirik» sualına elmi-siyasi mülahizələrimi hər cür siyasi konyukturadan uzaq bir formada bildirmək istəyirəm.

Postsovet respublikaları inkişafın məntiqinə zidd olaraq, tələb olunandan daha uzun müddət keçid şəraitində qaldıqlarından *durğunluğa* düçar olublar. Bu ölkələrin iqtidarlarının bir-birinin ardınca həyata keçirdiyi islahatlar, yaratdığı beynəlxalq iqtisadi-siyasi əlaqələr, daxili və xarici siyasətdə sərgilədiyi davranışlar, nəhayət, müasirləşmə ilə bağlı hazırladığı strategiyanın paradiqmaları, tezisləri, ictimai inkişafa konseptual yanaşması belə bir su-

ala cavab verməlidir, bu cəmiyyətlər hara gedir? Strategiyaya həsr olunmuş məqalədə keçid dövrünün başa çatması ilə bağlı yazılır: «Azərbaycan keçid dövrünün məsələlərini həll etmişdir və indi bu mərhələdən çıxır… iqtidar ölkəni yeni metodlarla idarə edir». Eyni tarixi-siyasi taleni bölüşdürən postsovet respublikaları keçid dövründən hara çıxır və bu ölkələrin iqtidarları xalqları hansı metodlarla idarə edir?

Haşiyə: Birincisi, məntiqin əsas prinsiplərindən biri belədir ki, «bir-birini inkar edən iki fikirdən hansının daha düz olmasını yalnız üçüncü tərəfin fikri müəyyən edə bilər». Bu ölkələrdə iqtidarla müxalifət bir-birini qarşılıqlı inkar vəziyyətində olduğundan, kimin fikirlərinin düz olmasını müəyyənləşdirməkdən ötəri yalnız bu ölkələrdəki vəziyyət, cəmiyyətin inkişaf istiqamətinin dəyişilmə meyilləri ilə bağlı üçüncü tərəfin – beynəlxalq təşkilatların mövqeyi, müstəqil ekspertlərin fikri və dünya təcrübəsi əsas götürülməlidir. İkincisi, həqiqətin aşkarlanma üsullarından biri də onu digər həqiqətlərlə tutuşdurmaqdır. Biz də öz fikirlərimizi bir tərəfdən beynəlxalq təşkilatların, müstəqil ekspertlərin mövqeyi, digər tərəfdən elmi-fəlsəfi qaynaqlara və dünya təcrübəsinə söykənməklə sübut etməyə cəhd edəcəyik. İstər beynəlxalq təşkilatlar – Avropa Şurası, Avropa Birliyi, NATO, ATƏT, istər beynəlxalq vətəndaş cəmiyyəti institutları – «Fredom Hous», «Human Rays Wotç», «Helsinki Komitəsi», «Sərhədsiz Reportyorlar» Təşkilatı, istərsə də ayrı-ayrı dövlətlərin rəsmi strukturları, istərsə də beynəlxalq avtoritetə malik liderlər dəfələrlə postsovet respublikaların demokratikləşmə istiqaməti götürmədiyini ifadə edən rəsmi bəyanat, hesabat və müraciətlərlə çıxış ediblər. Əgər bu ölkələr həqiqətən demokratikləşmə istiqamətində getmirsə, onda onların inkişaf istiqaməti haradır? Üçüncüsü, bundan əvvəl qeyd etdiyimiz kimi, ictimai inkişafın hər hansı konkret modelinin olmaması ilə bağlı çoxsaylı nəzəriyyələr mövcuddur amma əksinə, konkret bir istiqamətli inkişaf xətti ilə bağlı heç bir fikir və ya ideya yoxdur. F.Engels də belə hesab edirdi ki, inkişaf bir neçə vektorial inkişafın məcmusu kimi baş verir.

Nümunə kimi təhlil etdiyimiz strategiyada gələcək inkişafla bağlı «xətti inkişaf modeli»nin, «Etatizm – Stabillik – Qloballaşma

- İqtisadi inkişaf - Demokratikləşmə» xəttinin birinci paradiqması *etatizmdir.* Strategiyaya həsr olunmuş məqalə belə başlayır: «Ötən əsrin ortalarında H.Əliyev Azərbaycanda müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin möhkəmləndirilməsi məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı… bu dövr qətiyyətli etatist yanaşmasının əsası… modernləşmənin prioritet komponenti kimi realpolitik kimi çıxış etmişdir». Bəlkə, 90-cı illərdə Azərbaycanda dövlətləşmə prosesinin prioritetliyindən danışılsaydı və qətiyyətli etatist yanaşmanın bu dövr üçün vacib olduğu deyilsəydi, hardasa bununla razılaşmaq olardı. Amma 16 illik hakimiyyət təcrübəsinin sonunda gələcək inkişafla bağlı yeni dövr üçün müəyyən edilən vəzifələrin sırasında *«milli ideyanın əsas aspekti hər bir azərbaycanlının həyatında ən mühüm amil olan dövlətin birinciliyinin olması»* kimi təqdim edilməsi olduqca ciddi məqsədlərdən xəbər verir.

Haşiyə: Birincisi, ictimai həyatda «birincilik» məsələsi taleyüklü məsələ olub, cəmiyyətin tipini və dövlətin formasını müəyyən edən *bazis ideyanı* özündə təqdim edir. Belə ki, faşizmə görə birincilik *millətə,* sosializmə görə *proletariata,* monarxiyaya görə *nəsilə,* avtoritar rejimlərə görə *diktatora,* demokratiyaya görə *xalqa,* liberalizmə görə *şəxsiyyətə* verilir? Bəs hansı siyasi sistemdə və ya dövlət formasında dövlətə birincilik verilib. Qeyd etdiyim kimi, çağdaş dünyada dövlətə birincilik verən heç bir pis və ya yaxşı siyasi sistem yoxdur. Yalnız tarixdən məlumdur ki, bu prinsip indi «ölü xalq» kimi tanınan *latınlara* məxsus olmuşdur. Tarixdən məlumdur ki, latınlar bizim eradan əvvəl indiki İtaliyanın ərazisində yaşamış və bir tərəfdən İtaliya ərazisindəki *şəhər dövlətlərin,* digər tərəfdən *Roma imperiyasının* əsasını qoyaraq digər xalqlarla qarışaraq tarix səhnəsindən silinmişlər. Bəs latın prinsipi nəyə xidmət edir? Bu suala bir az sonra cavab verəcəyik. İkincisi, doğrudanmı dövlətə birincilik vermək olar və «dövlətə nəyə və kimə görə birincilik vermək lazımdır» sualına cavab verməyə cəhd edək. Dövlətin birinciliyi onun fərdə, ailəyə, xalqa və bütün ittifaqlara görə üstünlüyünü nəzərdə tutur. Qeyd edim ki, dövlətin mahiyyəti ilə bağlı baxışlar *quldarlıq dövrünün fəlsəfəsinə* əsaslanır. C.Dyui dövlətin rolu haqqında yazır:

«Aristotelə gedib çıxan mülahizələrə görə, dövlət – birgə və harmonik həyatın ali təzahürünü təqdim edir. Başqa baxışlara görə dövlət – çoxsaylı institutlardan biri kimi məhdud, amma əhəmiyyətli funksiya – müxtəlif tərəflər arasındakı konfiliktlərdə arbitraj rolunu oynayır. Dövlət özü məqsəd ola bilməz. Onun təyinatı və məqsədi formaldır. Orkestrin ifaçılarını biri-biri ilə əlaqələndirən dirijor funksiyası kimi, hansı ki, özü müstəqil ifa etmir, amma müstəqil rəhbərlik edir». Dövlətə digər bir baxış *ona təşkil olunmuş istismar aparatı* kimi baxılması ilə bağlıdır. Bəzi mütəfəkkirlər də dövlətə istismarçı və parazit kimi baxır. Dövlətə digər bir baxış isə, insanları hədsiz qaynar *qarşıqlığından saxlayan kobud alət* kimi baxılmasından ibarətdir. Bu cür dəyərləndirilən və özündə şər ifadə edən dövlət fərdə görə birincili ola bilərmi? Platon dövlət haqqında yazır: «Dövlətdə və ayrıca bir adamda bir və eyni başlanğıc var və onların sayı eynidir». Əgər hər bir adamda olduğu kimi, dövlətdə də bir və eyni başlanğıc varsa və dövlətdə fərddən fərqli və ondan üstün heç bir başlanğıc yoxsa, onda dövlət fərddən necə birincili ola bilər? Suverenliyin tarixi inkişafı da göstərir ki, dövlət fərdə görə birincili ola bilməz. Belə ki, Ali suverenlik ayrı-ayrı fərdlərdən – monarxlardan dövlət institutlarına, oradan xalqa, oradan da fərdə doğru tarixi inkişafdadır və bu cəmiyyətlərin monarxiyadan demokratiyaya, oradan da liberalizmə inkişafının əsasında durur. Bu baxımdan *dövlətin fərdə görə birinciliyi liberalizmdən əks istiqamətə inkişafa təkan verir.* Əslində dövlətin fərdə görə birinciliyi guya fərdin mənafeləri naminə müəyyən edilir. Belə ki, Le-Sapele qanunu kimi tanınan «dövlətlə vətəndaş arasında heç bir sərhəd yoxdur» formulu dövlətin fərdə görə birinciliyinə haqq qazandırır. E.Mune yazır: «Dövlətlə vətəndaş arasında heç bir sərhəd yoxdur» elan etmək fərdi bütün həyat köklərindən məhrum edir, onun bilavasitə proroqativlərini ləğv edir. Fərdlə dövləti birgə maraqlar naminə birləşməyə imkan vermək olmaz, bu müasir totalitar rejimlərə yol açır... özünə qapanmaq, cəmiyyəti parçalamaq, şəxsi istedadı hissiyyatla əvəzləmək – etatizm – dövlətin siyasi formasından asılı olmayaraq bütün müasir cəmiyyətlərin bətnində inkişaf edən bədxassəli şişdir». Göründüyü kimi, nəinki dövlətin fərdə görə birinciliyi, *hətta fərdlə dövlətin bə-*

rabərliyi belə, cəmiyyəti totalitarizmə sürükləyir. Biz bu gün gənclərin gecə-gündüz əyləncələrə cəlb edilməsinin, «bizim və sizin» kimi ictimai güclərə münasibətin arxasında məhz etatizmin ağır xəstəliyinin durduğunu görməliyik. Dövlətin güclü olması ilə vətəndaş maraqları eyni mənalı deyil. Rus dövlət-hüquq nəzəriyyəçilərindən biri Nikolay Mixayloviç Korkunov «Rus dövlət hüququ» adlı əsərində yazır: «Təbəələrin dövlətə tabeçiliyi özündə ona yönəlmiş buyuruqları passiv yerinə yetirməkdən daha çox şey özündə əks etdirir. Təbəələr o zaman dövlət hakimiyyətini öz üzərlərində dərk edirlər ki, heç bir dövlət hakimiyyəti orqanı onları yönləndirə bilməz… əgər vətəndaşlar dövlətə tabeçiliyi yalnız tək bir ona hökm edilmiş buyruqları icra etməyə əsaslanırsa, onda mövcud ola bilməz, qaçılmaz olaraq dağılar». Beləliklə, özünü fərdə görə birinci elan edən, ondan *bütün buyuruqlarını* sözsüz qəbul etməyi tələb edən dövlət - əslində həm də intihara əl atmış olur. Dövlət həm də ona görə fərdə görə birincili ola bilməz ki, E.Faqenin yazdığı kimi, «dövlət insanlığın şərh etdiyi əsərdir. O, fərdi sıxışdırır, onu zəncirlə qandallayır, ona təzyiq edir». Belə bir keyfiyyətinə görə dövlətə birincilik vermək birmənalı şəkildə onun fərdi istədiyi kimi məhv etmək hüququ vermək demək olardı. Dövlət *ailəyə görə* birincili ola bilərmi? Politologiyada və siyasi fəlsəfədə hamıya məlum belə bir fikir mövcuddur ki, *ailə dövlətin prototipidir.* F.Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» adlı əsərində də sübut edir ki, dövlət ailədən əmələ gəlmişdir. Nodenə görə, dövlətin proobrazı özündə dövlət elementləri saxlayan «ailədir». Bu baxımdan, *əgər dövlət ailədən əmələ gəlmişsə və dövlət ailənin özündə saxladığı elementlərdən təşkil olunursa, onda ailə dövlətə görə birincilidir* və dünyada elə bir sistem yoxdur ki, dövlətin ailəyə görə birinciliyini qəbul etsin. Dövlət xalqa görə birincili ola bilərmi? Bu suala cavab verməmişdən öncə orta əsrlərdən başlayaraq Avropa mütəfəkkirləri tərəfindən irəli sürülmüş və dünya ictimai fikirində kök salmış «Xalq dövlət üçün yox, dövlət xalq üçündür» fikrinin dövlətin birinciliyi ideyası ilə kəskin ziddiyyət təşkil etdiyini qeyd etmək lazım gəlir. Amma məsələnin əhəmiyyətini nəzərə alaraq bu barədə bir qədər geniş şərh verməyi məqsədəuyğun hesab edirəm. Postsovet

xalqlarına K.Marksın fikirləri daha çox tanış olduğundan və marksizmin uzun illər hakim ideologiyalardan biri kimi bir çox xalqlar tərəfindən mənimsənildiyindən, öncə ondan başlayaq. K.Marks «Hüququn Hegel fəlsəfəsinin tənqidi» adlı əsərində yazır: «Demokratiya bütün dövlət quruluşlarının tapmacasıdır… demokratiyanın xüsusi fərqi odur ki, burada dövlət quruluşu ümumiyyətlə özündə xalqın mövcudluğunun momentini təqdim edir. Siyasi quruluş özü-özlüyündə dövləti təşkil etmir. Necə ki, din insanı yox, insan dini yaradır, eləcə də buna bənzər dövlət xalqı yaratmır, *xalq dövləti yaradır.* Demokratiyadan fərqli bütün dövlət formaları, qanunlar dövlət quruluşunun hökmranlıq momentidir». Beləliklə, əgər Marksın fikirlərini qəbul etsək, onda yaradılan yaradana görə necə birincili ola bilər? Əslində dövlətə fərdə, ailəyə, xalqa görə birincilik vermək totalitar cəmiyyətlər üçün xarakterikdir. K.Marks «Qota proqramının tənqidi» adlı məqaləsində yazır: «Azadlıq dövlətin cəmiyyətin üzərində duran orqandan bütünlüklə bu cəmiyyətə tabe olan orqana çevrilməsindən ibarətdir». Bunun əksinə, *dövlətin xalqa görə birinciliyi və ya dövlətin cəmiyyət üzərində duran orqana çevrilməsi köləlik yaradır.* Dövlətə birincilik vermək onu cəmiyyətin nəzarətindən çıxarmağa səbəb olur ki, bu da dövlətin və *idarə edənlərin qüsurlarının qeyri-məhdud inkişaf etməsinə* və cəmiyyətin məhv olmasına gətirib çıxarır. Əksinə, xalqın dövlətə görə birinciliyi ilə bağlı siyasi fəlsəfədə kifayət qədər əsaslandırılmış fikirlər mövcuddur. Lüdviq fon Haller yazır: «Xalqsız dövlət yoxdur, dövlət xalqın təzahür formasıdır, xalq yalnız o zaman təkmilləşir ki, həmin forma orda təmiz və tamamlanmış ifadəsini tapır». Dövlətin birinciliyi paradiqmasında isə əksinə, dövlət özünün xalqda tamamlanmış ifadəsini tapır. Buna görə də, dövlətin xalqa görə birinciliyini qəbul edən cəmiyyətlərdə *dövlət idarəçiliyinin qüsurları qaçılmaz olaraq xalqı pozğunlaşdırır, onu öz kökündən, mentalitetindən, ənənələrindən, xarakterindən uzaqlaşdırır.* Əgər dövlət formaca xalq mahiyyətlidirsə, onda forma mahiyyətdən asılı olmalıdır və başqa sözlə, xalqın dövlətə görə birinciliyi qəbul edilməlidir. Xalqın və ya dövlətin – hökmranlığın birinciliyi məsələsi orta əsrlərdə bütün Avropa krallarının qınağına məruz qalmış Alman kralı Böyük Fridrixin fikirlərində

daha aydın ifadə olunmuşdur. O, deyirdi: «İstənilən dövlət xalqdan yaranmışdır və yeganə məqsədi xalqın rifahıdır». M.A.Deborin ictimai fikir tarixini araşdıraraq sonda belə bir nəticəyə gəlmişdir ki, «Dövlət cəmiyyətə münasibətdə ikincilidir və keçici əmələgəlmədir» Beləliklə, dövləti xalq yaratdığından, xalq dövlətdən əvvəl yarandığından, xalq – əbədi, dövlət - keçici olduğundan, nəhayət, dövlətin əsas vəzifəsi xalqa xidmət olduğundan, *xalq dövlətə görə birincilidir.* Xalqın birinciliyi, həm də dövlətə güc verməsi, onun təminatçısı kimi çıxış etməsi ilə də sıx bağlıdır. Orta əsr filosoflarından K.A.Helvetsiy yazır: «Dövlət yalnız öz millətinin gücü ilə güclüdür, millət isə yalnız idarə edənlərin müdrikliyi ilə güclüdür». Buna görə də deyə bilərik ki, dövlətin cəmiyyət həyatında yerinin müəyyənləşməsi hər şeydən əvvəl həm də idrak problemidir.

Dövlət üzv olduğu *ittifaqlara görə* birincili ola bilərmi? Federativ və konfederativ quruluşlar, eləcə də müasir dövrdə mövcud olan dünya nizamına görə *beynəlxalq hüququn subyektləri olan dövlətlər universal hüquqa* tabedir. Elə postsovet respublikalarının konstitusiyalarında da beynəlxalq hüquq normalarının daxili hüquqdan üstünlüyü öz əksini tapıb. Konstitusion normaların beynəlxalq hüquqa uyğunlaşdırılması isə *beynəlxalq öhdəliklərin* sırasına daxil edilib. II dünya müharibəsindən sonra təhlükəsizlik prinsipləri ilə bağlı beynəlxalq hüququn *imperativ normalarının* dövlətlərin daxili hüququndan birincili olması qəbul edilib və heç bir ölkə bu normaları poza bilməz, pozduqda isə onları çox acı aqibət gözləyir. İttifaqların dövlətə görə birinciliyi dövlətin dialektikası ilə bağlıdır. Spenser yazır: «Siyasi vahidin artımı ailədən dövlətə və ittifaqa doğru təkamül edir». Bu baxımdan, *təkamül prosesində dövlətə ittifaqlara görə birincilik vermək onu təkamüldən saxlayır.* Beləliklə, dövlət təkamül prosesində *aralıq forma* kimi meydana çıxır və nə əvvəldən, nə də sondan birincili ola bilməz. Dövlətin birincili olması imkan verir ki, hər bir dövlət öz prinsiplərində ifrata varsın. Bu isə nəinki fərdi azadlıqlar və xalqın mövcudluğu üçün təhlükəlidir, həm də Durantin dediyi kimi, «hər bir dövlət forması öz əsas prinsiplərinin ifrata varması ucbatından məhv olduğundan» ilk növbədə dövlətin mövcudluğu üçün təhlükə mənbəyidir.

Neototalitar dövlətlərdə dövlətin birinciliyi onun gücləndirilməsi zərurəti ilə əsaslandırılır. Dövlətin gücü nədən yaranır və o kimdən və nə üçün güclü olmalıdır.? Dövlətin fərddən güclü olması fərdi köləyə çevirir, xalqdan güclü olması tiraniya yaradır, ittifaqdan güclü olması dünya düzənini təhdid edir. Qeyd etmək lazımdır ki, dövlətin güclülüyü kimi onun zəifliyi də fəlakət mənbəyidir. Fərdlə dövlət arasında güc tarazlığının düzgün müəyyən edilməsi siyasətin bir nömrəli məsələsidir. Çünki *dövlət güclü, vətəndaş zəif olanda diktatura, dövlət zəif, vətəndaş güclü olanda anarxiya, yalnız hər ikisi güclü olanda həqiqi demokratiya yaranır*. Buna görə, demokratikləşmə tələb edir ki, paralel olaraq həm vətəndaş, həm də dövlət güclü olsun. Nə üçün dövlətlə vətəndaşın güclənməsi harmonik olmalıdır? Vətəndaş necə güclənir və ya gücsüzləşir? Hər bir varlıq yaranışından onun üzərində ilahi hakimiyyətini özündə refleksiya edən konkret *hakimiyyət əzmi* ilə mövcud olur. Qeyri-üzvi aləmdə bu əzm *passiv*, hərəkətsiz, şeyin sərhədləri daxilində qalandır və özünü *ətalət qanununda* ifadə edir. Təbiətdəki canlıların hakimiyyət əzmi bundan fərqli olaraq *dinamikdir*, fərdin sərhədlərindən kənara çıxır, kortəbiidir və özünü *həyat uğrunda mübarizə qanununda* göstərir. İnsanlarda həm özündən əvvəlki varlıqların hakimiyyət əzmi, həm də yalnız onun özünə xas şüura tabe olan, *iradəvi hakimiyyət əzmi* vardır. Cəmiyyət həyatında meydana çıxan insanın hakimiyyət əzmi *tanınma uğrunda mübarizə* qanununda ifadə olunur. Buna paralel, insan ictimai varlıq olduğundan, onun hakimiyyət əzmi həm *fərdi – daxili,* həm də *kollektiv – xarici* olmaqla iki formada təzahür edir. *Dövlət hakimiyyəti - xarici hakimiyyət əzminin mərkəzləşdirilmiş Ali formasıdır*. Dövlətin tipi daxili hakimiyyət əzmi ilə xarici hakimiyyət əzmi arasındakı nisbətlə müəyyənləşir. *Totalitar dövlət şüurlu insana mənsub olan daxili və xarici hakimiyyət əzmini monopoliyaya alaraq gücsüzləşdirilmiş hakimiyyət əzmindən məhrum fərd üzərində hökmranlığı təmin edir.* Demokratik dövlət formasında dövlət yalnız xarici hakimiyyəti monopoliyaya alır və bu zaman onu fərdlərin daxili hakimiyyəti ilə harmonik halda həyata keçirir. Beləliklə, dövlət totalitar olanda fərdlər gücsüzləşir, dövlət demokratik olanda isə fərdlər ictimai güc kimi mövcud olur. Belə dövlətin əsas istinadgahı

güclü vətəndaş və onun təşkil etdiyi *vətəndaş cəmiyyətidir.* Vətəndaşı zəif olursa, güclü dövlət necə dayanıqlı olur? Bu sualın cavabı da iqtidarın strategiyasına yanaşmada çıxış nöqtələrindən biridir. A.Ulman yazır: «Dövlət özünəkifayətdir, öz sərhədlərini və öz qanununu özü özündə tapır. O abırlılığa yox, xeyirliliyə və effektliliyə əsaslanır. Ona görə onun atributları gücündə konsentrasiya olunur. Zəiflik onun başlıca günahıdır. Bu, hakimiyyətin «maksimumluğunu» tələb edir. Onun əsas institutu təmsilçilik və ya nəzarət yox, polisdir». Göründüyü kimi, *güclü dövlət anlayışı əslində özündə hər hansı ictimai nəzarətdən kənarda qalan, ictimai güclərin real nisbətinə görə yox, yalnız polisin gücünə dayanan «maksimum hakimiyyət» niyyətini bildirir ki, bu da totalitarizmin zəruri şərtidir.*

Haşiyə: Ümumiyyətlə, cəmiyyət həyatında nəyəsə birincilik vermək təhlükəlidir. E.Mune yazır ki, «Üstünlük elan edənlərin hamısı arasında sərhədlər itir». Nümunə üçün millətin birinciliyini elan edən faşizmlə sinfin üstünlüyünü elan edən sosializmi müqayisə edək. Hər iki rejimdə əleyhdarlar məhv edilib - faşistlər kommunistləri, kommunistlər menşevikləri. Hər ikisi ölüm düşərgələri - konslaqerlər yaradıb - kommunistlər «kulak»lar üçün, faşistlər başqa xalqlar üçün. Hər ikisi xalqları deportasiya edib - faşistlər - yəhudiləri, slavyanları, kommunistlər - benderləri, qafqazlıları, latışları və s. Hər ikisi repressiya aparatı yaradıb, faşistlər SS, kommunistlər «NKVD», «KQB» və s. Bu siyahını istənilən qədər uzatmaq olar. Bu baxımdan, niyyətdən asılı olmayaraq, *hər hansı bir cəmiyyətdə dövlətin birinciliyini elan etmək, son nəticədə həmin cəmiyyətlə digər totalitar cəmiyyətlər – faşizm və ya sosializm - arasında sərhədlərin itməsinə səbəb olur və onu totalitarizmə gətirib çıxarır.* Bu fəlakətdən qaçmağın yeganə yolu dövlətin cəmiyyətdə yerini düzgün müəyyənləşdirməkdən keçir və bu gün bunun ən ideal təzahürü xalq hakimiyyətidir. A.Tokvil yazır: «Hər şeyin əmələ gəldiyi və sonra hər şeyin ona qayıtdığı, hər şeyin əvvəli və sonu kimi, necə Allah dünya üzərində çarlıq edir, demokratik düşüncə ilə xalq bütün dövlət həyatı üzərində elə çarlıq edir». Bir tərəfdən xalqın dövlət üzərində çarlığı, digər tərəfdən dövlətin xalqı idarə etməsi yalnız dövlətin *nizam yaratma vəzifəsi* ilə məhdudlaşmalıdır. Karl Smit «Siyasi teologiya» kitabında

yazır: «Dövlət başlanğıc hakimiyyət gücüdür, bununla o hər hansı bir güc tərəfindən nizamın hakimiyyətidir, «xalq» həyatının forması istənilən məcburiyyət deyil». Bu baxımdan da dövlətin gücü məcburetmə imkanında yox, yaratdığı ictimai nizamla bağlıdır. İndi bir çoxları dövlətin və hakimiyyətin gücünü *zorakılıq və repressiya* kimi təsəvvür edirlər. Əslində, dövlətdə zorakılıq və güc onun əmələ gəlməsinin ibtidai və qeyri-təkmil formalarında yaranmışdır. F.Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində yazır: «Dövlət yaratmaq yolunda ilk təşəbbüs qəbilə əlaqələrinin qırılmasından ibarət idi… dövlətin mühüm əlaməti xalq kütləsindən ayrı olan kütləvi hakimiyyətdən ibarətdir… Afina dövləti *polissiz yaşaya bilməzdi…* Germanlarda kral hakimiyyətinin meydana gəlməsinə bir təsisat – *drujinalar* kömək etmişdir». Göründüyü kimi, ibtidai dövlətlər ilk növbədə *patriarxal əlaqələrin qırılması* ilə yaranıb və yalnız tarixin başlanğıcında – *quldarlıq dövlətində* və *feodal dövlətlərdə* uyğun olaraq ya *polisə, ya da drujinaya* – proorduya istinad edib. Bu gün *hakimiyyətdə tayfa əlaqələrini yenidən dirçəltmək, hakimiyyəti polis və ya ordunun gücü ilə saxlamaq dövlətin ibtidai təbiətindən xəbər verir və belə dövlətə birincilik vermək yolverilməzdir.*

Dövlətin birinciliyi və onun güclü olması nə üçün lazımdır? Neototalitar dövlətlərdə xətti inkişaf modelində etatizm stabilliyin, iqtisadi inkişafın və demokratikləşmənin bazis şərti kimi götürülmüşdür. Digər fəsillərdə bu arqument ətrafında geniş şərh verdiyimdən burada yalnız qısa şəkildə qeyd etmək istəyirəm ki, stabillik hakimiyyət uğrunda mübarizə aparan güclərin qarşılıqlı münasibəti ilə bağlıdır, həm güclü, həm də zəif dövlətlərdə bu münasibətlərin düzgün qurulması ilə təmin edilir. Dövlətin iqtisadiyyatla da birbaşa əlaqəsi yoxdur və onun iqtisadi inkişafla əlaqəsi birmənalı deyil.

Haşiyə: İqtisadiyyat dövlətin çoxlu sferalarından biridir və digər sferalara görə iqtisadiyyatda dövlətə üstünlük vermək yanlışdır və belə halda dövlət iqtisadi inkişafa mənfi təsir göstərə bilər. F.Engels belə hesab edir ki, dövlət iqtisadi inkişafa ikili təsir göstərə bilər. O, Konrat Smitə 27 oktyabr 1890-cı il tarixli məktubunda yazır: «Dövlət hakimiyyətinin iqtisadi inkişafa əks təsiri üç cür ola bilər: a) dövlət hakimiyyəti eyni istiqamətdə təsir göstərə bilər – onda inkişaf sürət-

lənir; b) iqtisadi inkişafın əleyhinə təsir edə bilər – bu hakimiyyət bir müddətdən sonra iflasa uğrayır; v) dövlət hakimiyyəti iqtisadi inkişafa müəyyən istiqamətlərdə maneçilik göstərib, onu başqa istiqamətlərdə irəlilədə bilər. İkinci və üçüncü halda siyasi hakimiyyət iqtisadi inkişafa çox böyük zərbə vura bilər. Və külli miqdarda qüvvə material itikisinə səbəb ola bilər». Nəzərə alsaq ki, iqtisadiyyatın liberallaşması onu dövlət nəzarətindən və monopoliyadan çıxarılmasını tələb edir, onda güclü dövlət ideyası ilə iqtisadi inkişaf arasında məntiqi əlaqənin olmadığını aşkarlamaq olar. Bu baxımdan E.Munenin fikirləri diqqətə layiqdir. O, adını çəkdiyimiz kitabında yazır: «Dövlət-millət iqtisadiyyatla birləşir, kapitalı müdafiə edir və ya onun əleyhinə çıxır, demokratiyanı müdafiə edir və ya onun əleyhinə çıxır – (hər iki halda – S.C.) ən dəhşətli təhlükə olaraq qalır». Beləliklə, *iqtisadiyyatla əlaqələnmiş dövlət hətta demokratiyanı müdafiə edəndə belə, öz dəhşətli təhlükəliliyini qoruyub saxlayır.* Tarix iqtisadiyyatla birləşmiş dövlətlə üç siyasi rejimlə – Almaniyada, İtaliyada kapitalı müdafiə edən faşizmlə, SSRİ-də bolşevik demokratiyasını müdafiə edən sosializmlə və həm kapitalı və həm də bolşevik demokratiyasını müdafiə edən qarışıq iqtisadi-siyasi qurluşu olan müasir Çinlə və hər üç rejimin totalitar mahiyyətinin insanlığa necə zərbələr vurduğuyla tanışdır.

Dövlətin birinciliyi və güclü dövlət ideyasının demokratikləşmə ilə də birbaşa əlaqəsi yoxdur. Əksinə, demokratiya vətəndaşı gücləndirərək onu dövlətlə tərəfmüqabil və bərabər güclü etməyi ön görür. Hansı ki, dövlətin zorakılığından və şərindən fərdi qorumaq məqsədi güdür. Onda dövlətin birinciliyi və güclü dövlət ideyası öz arxasında nəyi gizlədir? Təhlil etdiyimiz strategiyada açıq şəkildə elan edilir: «Ölkədə demokratik transformasiyanın və vətəndaş cəmiyyəti qurulmasının əsası hərtərəfli azadlıq – güclü hakimiyyət formulunun başa düşülməsinə əsaslanır».

Haşiyə: Bu tezisi şərh etmədən Volterin hakimiyyət haqqında bir fikrinə müraciət etmək istəyirəm. O, «Təbiətin fenomenləri haqqında» əsərində yazır: «İdarəetmənin taundan daha yolxucu qüsurları var və Avropa üçün bir ucundan o birinədək özü ilə qaçılmaz fəlakət daşıyır». Və güclü hakimiyyətlər də özündə cəmiyyət

üçün daha güclü və yolxucu fəlakətlər daşıyır. Əslində dövlətin birinciliyi və ya dövlətin gücü adı altında onun hissəvi anlamı kimi *hakimiyyətin gücü və birinciliyi* qəbul edilir. P.A.Kropotkin «Dövlət və onun tarixdə rolu» adlı əsərində yazır: «Dövlət və hakimiyyət iki müxtəlif anlayışdır». Digər Rus mütəfəkkiri N.M.Kornikov isə «Rus dövləti hüququ» əsərində yazır: «Hakimiyyətin yeganəliyi dövlət orqanlarına bir istiqamətdən iradə tabeçiliyini özündə əks etdirir». Başqa sözlə, dövlətə birincilik verməklə bütün hakimiyyətlər özlərinə *xalq üzərində xüsusi üstünlük* təmin edirlər. Əsl həqiqətdə isə, güclü dövlət heç də yalnız güclü hakimiyyət deyil. Hakimiyyətin gücü bir çox hallarda onun uzunömürlülüyü və digər iddiaçıları əzmək imkanı kimi dərk edildiyindən, güclü dövlət anlayışı uzunmüddətli *qeyri-məhdud repressiv hakimiyyət* anlayışı ilə assosasiya olunur. Unutmaq olmaz ki, hər bir dövlətin gücü onun atributları – milli sərvətləri, coğrafi mövqeyi, əhalisinin sayı və xarakteri, ordusunun təkmilliyi, idarəetmə sisteminin kamilliyi ilə bağlıdır, nəinki polis zorakılığına istinad edən hakimiyyət gücündən, əksinə, bir qayda olaraq, *hakimiyyətlərin totalitar cəmiyyətlərdə güclənməsi dövlətin rəsmi atributlarının zəifləməsinə, resurslarının talan edilməsinə, əhalisinin istismarına gətirib çıxardığından, dövləti zəiflədir və son nəticədə onu məhv edir.* Güclü hakimiyyətin hissəvi anlamı onun *məqsədi* ilə birbaşa əlaqəlidir. İqtidar strategiyasına həsr olunmuş məqalədə güclü dövlət və güclü hakimiyyət anlamına demokratiya və fərdi azadlıqlar anlamına görə prioritet verilir. Lakin siyasi tarix əyani şəkildə sübut edir ki, dövlət güclü, vətəndaş zəif olanda totalitarizm qaçılmazdır. Hamilton 27 mart 1787-ci il Amerika Konstitusiyası ilə bağlı müzakirələrdəki çıxışında deyirdi: «Azadlığı qorumaq üçün güclü hakimiyyət lazımdır… təhlükəli şöhrətpərəstlik daha çox xalq hüququna qayğının xeyirxah maskası altında güclənir… tarix öyrədir ki, belə qayğıkeşlik despotizmə aparır, güclü dövlət tərəfdarları nə qədər sərtdirsə, respublikanın azadlıqlarını bu adamların sırasından olanlar daha çox tapdalayır. Bunlardan çoxu öz yolu ilə gedib, hiyləgərcəsinə xalq qarşısında əyilib: demoqoqlar başlamış, tiranlar qurtarmışdır». Bu gün *postsovet respublikalarında dövlət maraqları adı altında demokratiyanın əleyhinə və güclü dövlət*

lehinə demoqoq çıxışlar neototalitarizmə meyl yaradır. Güclü dövlət adətən fərd və ya bütövlükdə üzərində xüsusi *total nəzarəti* həyata keçirən hakimiyyət kimi qavranılır. Səddam Hüseyn də İraqda belə «güclü şəxsi hakimiyyət» yaratmışdı. Amma İraq dövləti ABŞ-ın hücumuna heç bir müqavimət göstərə bilmədi və bir neçə günə təslim oldu. Eləcə də keçmiş SSRİ-dəki «güclü hakimiyyət» bu dövləti süqut etməkdən xilas edə bilmədi. ABŞ və digər inkişaf etmiş ölkələrdə isə hakimiyyətlər güclü deyil, çox asanlıqla istefaya gedirlər, xalqın tələbləri qarşısında duruş gətirmirlər. Fransada və Yunanıstanda bir müddət öncə olduğu kimi, hakimiyyətin gənclərin ixtişaşlarla müşayət olunan etirazlarını asanlıqla yatırmağa «gücləri çatmır». Bu, hələ məsələnin bir tərəfidir. Bəs əsl həqiqətdə güclü iqtidar nə deməkdir? Birincisi, güclü iqtidar möhkəm legitimlik qazanmaqla yaranır. Başqa sözlə, hər hansı bir iqtidar nə qədər geniş ictimai dəstəyə, hakimiyyətin qanuni əsasına və beynəlxalq təqdir qazanırsa, bir o qədər güclü olur. Nümunə üçün Gürcüstan hakimiyyətinə baxaq. Saakaşvili demokratik qüvvələrin başında duraraq seçkilərdə böyük səs çoxluğu qazandıqdan sanra Qərbin və ABŞ-ın dostuna çevrildi və güclü dostları olduğundan, özü də güclü hakimiyyət əzmi nümayiş etdirərək Acarıstanı ram etdi. Amma çox keçməmiş idarəçilikdə yol verdiyi qüsurlar, antidemokratik meyllər, xüsusən, parlament seçkilərinin saxtalaşdırılması, müxalifətin mitinqlərinin zorakılıqla dağıdılması sürətlə onun nüfuzunu aşağı saldı, bununla onun hakimiyyəti zəiflədi. Nəticədə Osetiyaya müdaxiləsi Acarıstan kimi müvəffəqiyyət qazanmadı, əksinə, ciddi məğlubiyyətə uğradı, ən mühümü isə Qərbin birmənalı dəstəyindən məhrum oldu. İndi Saakaşvili kifayət qədər zəif hakimiyyətə malikdir. Ukraynada isə Yuşşenko ardıcıl xalqın dəstəyini qazanmaq və digər qüvvələrlə, xüsusən müxalifətlə dil taparaq hələ də öz hakimiyyətinin gücünü qoruyur. İkincisi, legitimliyi zəif olanlar dövlətin güclülüyü ilə onu kompensasiya etməyə cəhd edirlər. Aristotel «Politika?»sında yazır: «Ən yaxşı dövlət orta olanlarla yaxşı quruluşu olandır… dövlət onda davamlı olur ki, orta təbəqə güclü olur». Bu yolla hakimiyyəti gücləndirmək istəməyən və ya bunu bacarmayan iqtidarlar ikinci bir yolu (-) cəmiyyətdə insanların *hakimiy-*

yət əzmini öz əlində cəmləşdirmək və *monopoliyaya* almaq yolu tuturlar. Bu necə baş verir? Burada qısa da olsa yuxarıda qeyd etdiyimiz «xarici hakimiyyət» anlamına bir qədər geniş şərh verməyə ehtiyac var. İnsan bir varlıq kimi ikili təbiətə – bir tərəfdən *təbii,* digər tərəfdən *sosial hakimiyyət əzminə* malikdir. Təbii hakimiyyət əzmi - daxili, sosial hakimiyyət əzmi - xarici hakimiyyət forması kimi təzahür edir. Bir qayda olaraq, xarici hakimiyyət *dövlət hakimiyyəti formasında,* daxili hakimiyyət *insan azadlıqları formasında* meydana çıxır. O cəmiyyətdə ki, insan azadlıqları məhdudlaşdırılır, orada daxili hakimiyyət meydana çıxmır. *Daxili hakimiyyət xarici hakimiyyəti neytrallaşdıran və fərdin zəruri, sosial məcburetməni könüllü qəbul etməsi üçün vacibdir.* Belə hakimiyyət olmadığı təqdirdə xarici hakimiyyət *total xarakter* alır və fərdi həyatın bütün sahələrinə *nəzarət* etməyə cəhd edir. Bu da müxtəlif növ forma totalitarizmi meydana çıxarır. Müasir Qərbdə demokratiyanın geriləməsi fərdlərin daxili hakimiyyətdən qaçmaları, bizdə isə demokratikləşməyə keçməmənin və xarici hakimiyyətin buna imkan verməməsi ilə bağlıdır. Nəticə eyni olsa da, səbəblər fərqlidir. Ona görə də müxtəlif səbəblərə fərqli yanaşma tələb olunur. Bu baxımdan dövlət tərəfindən tətbiq edilən ifrat *məcburetmə neqativdir.* Bununla bağlı E.Fromm yazır: «Xarici məcburetmənin ləğvi nəinki vacib, həm də kifayət qədər sərt olub, arzulanan məqsədə – hər bir adamın azadlığına çatmaq üçün lazımdır». Bu isə sonda dövlətin ləğvinə gətirib çıxaran prosesdən keçir. Əslində dövlətin vəzifəsi xarici hakimiyyətlə daxili hakimiyyətin elə proporsiyasını tapmaqdır ki, demokratikləşmə başlasın. Əgər *xarici hakimiyyət total xarakter alırsa, totalitarizm, daxili hakimiyyət total xarakter alırsa, anarxiya baş verir.* Yalnız hər ikisinin düzgün proporsiyada tətbiqi demokratiyaya gətirib çıxarır. Beləliklə insan azadlıqlarının dağıdıcılığa səbəb olacağını bəhanə gətirib azadlıqların məhdudlaşdırılması, əvəzində xarici məcburetmənin gücləndirilməsinə cəhd səhvdir. Psixologiya elmi sübut edir ki, *dağıdıcılıq - yaşanmamış həyatdır.* Bu nə deməkdir? Yaşanmamış həyat, azad yaşanmamış həyat mənasını verir. Buna görə də azadlıqların genişlənməsi yox, əksinə, məhdudlaşdırılması fərdlərdə yaşanmamış həyat psixologiyasını formalaşdırır və dağıdıcılığa səbəb

olur. Korrupsiya, kriminallaşma və s. kimi sosial neqativlər azad cəmiyyətdə azad insanlar tərəfindən yox, qapalı cəmiyyətdə əsarətdə olanlar üçün xarakterikdir. Xarici və daxili hakimiyyət öz növbəsində azadlığın iki mühüm forması ilə sıx bağlıdır. İsayey Berlin «Azadlıq haqqında konsepsiya» adlı əsərində azadlığın iki formasını – *neqativ* və *pozitiv azadlığı* ayırd etmişdir. İ.Berlinə görə, «pozitiv azadlıq – fərdin özü-özünün sahibi olmaq azadlığı və ya tabe olduğu sosial nəzarətdə iştirak etməsidir. Neqativ azadlıq – sosial nəzarətdən asılı olmadan kənarda qalmalı olan azadlıqdır». Beləliklə, neqativ azadlıq - daxili hakimiyyətin, pozitiv azadlıq - xarici hakimiyyətin şərti kimi mövcud olmadıqca, heç bir demokratikləşmədən danışmaq olmaz. Nə üçün dövlət hakimiyyəti, xarici hakimiyyət, azadlıqlarla – daxili hakimiyyətlə – balanslaşdırılmalıdır və tədricən ikinci birinciyə nisbətən prioritet təşkil etməlidir? Hansı ki, iqtidar strategiyasında bu məsələ tamamilə əksinə qoyulmuşdur. Bu məsələyə növbəti fəsildə daha geniş şərh veriləcəyindən burada yalnız *demokratiyadan qaçışla* bağlı aspektə toxunmaq istəyirəm. F.Fukuyama «Tarixin sonu və axırıncı adam» kitabında yazır: «Xalqla dövlət arasında (o cümlədən fərdlə dövlət arasında – S.C.) tam uyğunluq olmadığından, liberal demokratiya hər yerdə olmur və həmişə sabit qalmır. Dövlət – süni siyasi forma, xalq – mövcud əxlaqi birlikdir. Dövlət çarlığı siyasi çarlıqdır. İdarəetmə rejimin əlverişli şüurlu seçimidir». Buradan görünür ki, hər hansı bir rejimin idarəetmə forması seçməsi özünə əlverişli olması ilə bağlıdır. Eyni ilə dövlətin birinciliyi paradiqması da xalqa və fərdə qayğıdan yox, hakimiyyətin öz maraqlarına uyğun şüurlu seçimindən xəbər verir. Bu baxımdan, pozitiv azadlıqlarla neqativ azadlıqlara paralel olaraq xarici hakimiyyətlə daxili hakimiyyət bir-biri ilə daimi ziddiyyətdədir. *Bu ziddiyyətin dövlətin xeyrinə həlli totalitarizm, xalqın xeyrinə həlli demokratiyaya gətirib çıxarır.*

Bütün qeyd etdiklərimizi xülasə etsək, deyə bilərik ki, güclü dövlət və dövlətin birinciliyi yalnız totalitarizmə keçidə xidmət edir. Bəlkə də bəziləri postsovet ölkələrində gedən müəyyən proseslərlə qədim İtaliyada yaşamış – tiraniya yaratmış şəhər dövlətlərinin və diktaturanın əsasını qoymuş, Roma imperiyasının yaradılmasında

iştirak etmiş latınların dövlətin birinciliyini qəbul etməsi arasında oxşarlıq görmür. Amma bizcə bu faktlar arasında nəinki oxşarlıq, hətta eynilik vardır. Onlardan yalnız biri – ölkənin boşaldılması səbəbləri haqqında F.Engels Roma dövlətinin əmələ gəlməsi dövrü haqqında yazarkən qeyd edir ki, «Roma respublikasının bütün tarixi və vəzifələrə yol tapmaq uğrunda, dövlət torpaqlarından istifadə olunmasında iştirak etmək uğrunda, patrislərlə plebeylər arasındakı bütün mübarizənin tarixi inkişaf edir, nəhayət, patris əyanlar iri torpaq sahiblərini və pul magistratlarından ibarət yeni bir sinif içərisində əriyib ona qarışır… bunlar var-yoxdan çıxmış kəndlilərin torpaqlarını ələ keçirmişlər, bu yolla əmələ gələn malikanələri qulların əli ilə becərirlər… İtalyanı adamsız qoymuşdular». Latın prinsipinin yenicə qəbul edildiyi dövrün bu acı mənzərəsi müasir neototalitar dövlətlərdə «pul magistratlarının» regionlarda torpaq əkmək imkanı olmayan vətəndaşlardan dəyər-dəyməzinə torpaqları alıb Çindən, Əfqanıstandan və digər ölkələrdən gələn mühacirlərin - qul statusunda olanların əli ilə torpağı becərmələri bütün ölkəni boşaltmaqdadır. Latın prinsipi ilə yaranmış dövlətlərdə terror, dövlət çevrilişləri özünün zirvəsinə çatmışdır. Neototalitar dövlətlərdə də eyni proseslər az və ya çox müşahidə edilmiş və vəziyyətin dəyişməyəcəyi təqdirdə müşahidə edilməkdə davam edəcək.

Latın prinsipinin digər fəsadı dövlətin və cəmiyyətin digər sistemlərinin sıradan çıxmasıdır. Bu proses Klipşteyn qanunu əsasında baş verir. Həmin qanuna görə, «etibarlığı təmin edən sistem başqa sistemləri sıradan çıxarır». Texnikanın əsas qanunlarından olan bu qanun sosial həyatda da keçərlidir. Qədim Romada dövlətin birinciliyi tiraniya və diktaturanı şərtləndirdiyindən, Sezar yeganə gücə çevrildi, qısa müddətdən sonra senat öz əvvəlki mövqeyini itirdi, Romada hakimiyyət uğrunda mübarizə seçkilər yox, artıq uzurpasiya yolu ilə baş verməyə başladı. Müasir neototalitar dövlətlərdə də ayrı-ayrı dövlət sistemləri guya etibarlılığı təmin etmək məqsədilə qəbul edilən dövlətin birinciliyi ilə demək olar bir-birinin ardınca dağılmaqdadır. Qeyd edim ki, quldarlıq dövründə meydana çıxmış dövlətin birinciliyi prinsipi feodalizmə keçiddə təkallahlı dinlərin yaranması, dövlətin dinlə birləşməsi və bu zaman Allahın birinci-

liyinin qəbul edilməsi ilə orta əsrlərdən artıq ictimai fikirdən çıxmış və uzun illərdən sonra yalnız neototalitar iqtidarların doktrina və strategiyalarında özünün çılpaqlığı ilə yenidən boy göstərməyə başlamışdır. Nəzərə alsaq ki, dövlətin birinciliyi prinsipi bütün maraqların dövlətdən keçməklə təmin olunmasını şərtləndirir, onda dövlət hakimiyyəti uğrunda mübarizə də birincilik qazanır və bu zaman hakimiyyət hərisliyi vətəndaşların yeganə keyfiyyətinə çevrilir, bu da ilk növbədə hakimiyyətdəkilərin və sonra da cəmiyyətin faciəsidir. Dövlətin birinciliyini qəbul etmiş Qədim Romada Sezarın qətlə yetirilməsi ilə başlayan hakimiyyət uğrunda qanlı mübarizə bunu bir daha sübut edir. Məhz buna görə, dövlətin birinciliyi və etatizm tiraniya və diktaturaya apardığından, demokratikləşmə ilə heç bir əlaqəsi ola bilməz.

Haşiyə: Dövlətin birinciliyi prinsipinə bəraət qazandıranlar məhz belə şəraitdə *səmərəli dövlət quruculuğu* sahəsində ciddi nailiyyətlər qazanmağın mümkünlüyündən söz açırlar. Bu sadalanan nailiyyətlərin reallığı ilə bağlı mübahisə etməmək mümkün deyil. Birincisi, *səmərəlilik* məsələsinin də hissəvi anlamı burada özünü göstərməkdədir. Bu ölkələrdə səmərəli dövlətçilik haqqında danışarkən onun nə dərəcədə dövlətin klassik vəzifələrinə cavab verməsinə nəzər salmalıyıq. Dövlət nəzəriyyəçiləri dövlətin iki klassik funksiyasını müəyyən ediblər: Vətəndaşları *xarici təhlükələrdən qorumaq;* Vətəndaşların *daxili təhlükəsizliyini – hüquqi, siyasi, iqtisadi və sosial təhlükəsizliyini təmin etmək.* Etiraf etmək lazımdır ki, nəhəng təbii resurslara, üstün geosiyasi mövqeyə, ciddi siyasi vasitələrə baxmayaraq, postsovet dövlətlər hələ də dövlətin klassik vəzifələrinin öhdəsindən gələ bilmir və ya gəlmək istəmir. Belə ki, SSRİ dağılandan sonra bu respublikaların bir çoxu mövcud olan ərazilərini işğaldan azad edə bilməmişdir. Rusiyadan asılı olmadan ciddi xarici siyasət apara, Avropa ilə bütünləşə bilmirlər, yeni xarici təhlükələrə qarşı davamlı immunitet yaradılmamışdır. Qərbin maliyyə və texniki yardımı olmadan milli sərvətlərini xalqlarının mənafeyinə uyğun hasil və ixrac edə *bilmirlər. Vətəndaşlarda dövlətçilik şüuru, dövlətin isə beynəlxalq nüfuzu zəifdir.* Bu da iddia edildiyi kimi, səmərəli dövlət quruculuğunun həyata keçirildiyini şübhə altına alır. Bunun

əsas təsdiqi isə bu dövlətlərin vətəndaşlarının iqtisadi və siyasi səbəblərdən kütləvi şəkildə ölkələrini tərk etmələridir. BMT-nin *öz ölkəsində yaşamaqdan imtina edən vətəndaşların* sayı ilə bağlı yaydığı illik hesabatlarında postsovet respublikalar ön sıraları davamlı olaraq zəbt edirlər. Nəzərə alsaq ki, vətəndaşların yaşamağa üstünlük verdiyi dövlətlər, məhz həmin dövlətlərin səmərəliliyi ilə bağlıdır, onda əlavə şərhə ehtiyac qalmır.

Latın prinsipi ilə bağlı şərhimizi E.Munenin aşağıdakı fikri ilə bitirmək doğru olardı. O, «Personalizmin manifesti»ndə yazır: «Dövlət mənəvi birlik deyil, sözün həqiqi mənasında kollektiv şəxsiyyətdir. O nə vətəndaşdan, nə millətdən, nə də xüsusən şəxsiyyətdən üstün durmur. O cəmiyyəti təşkil edənlərin alətidir, onlar vasitəsi ilə və əgər zəruridirsə, onlara rəğmən şəxsiyyətə xidmət edəndir. Bu, adamların süni yaratdığıdır, amma zəruri deyil» və buna görə də *zəruri olmayan birincili ola bilməz.*

VII FƏSİL

NİZAMLA XAOSUN VƏHDƏTİ VƏ YA SABİTLİKLƏ SAKİTLİYİN ƏKSLİYİ

«Susdurulan insan danışan insandan təhlükəlidir»

«İnsanların susması demokratiya olsaydı, onda yalnız lallar həqiqi demokrat olardı».
Sərdar Cəlaloğlu

Təhlil etdiyimiz strategiyanın xətti inkişaf modelinin ikinci paradiqması kimi sabitlik götürülmüşdür. Strategiyada sabitlik iqtisadi-siyasi inkişafın əsas şərti kimi qəbul edilir və iqtidarın nailiyyətləri cərgəsinə uzun illər ərzində əldə edilmiş *sabitlik* də daxil edilir. Strategiyada sabitliklə bağlı yazılır: «Demokratiyanın inkişafınının həlledici amili səmərəli hüquqi və siyasi sistem yaradılmasıdır. Lakin demokratik prosedurların inkişafının dəyəri istər hüquqi qaydaya, istər bu qədər çətinliklər bahasına əldə edilmiş sabitliyə, istərsə də ölkədə həyata keçirilən iqtisadi xəttin davamlığına zidd olmamalıdır». Göründüyü kimi, strategiyada sabitlik amili heç də birmənalı şəkildə demokratiyaya keçidin şərti deyil, demokratiyaya görə prioritet vəzifədir və əsas məqsəddir. Bütün neototalitarizm yolu tutmuş postsovet respublikaları üçün «sabitlik» xarakterik əlamətdir. Bəs onda belə sabitlik nə üçündür, postsovet iqtidarlarına görə sabitlik necə anlanılır və ölkədə sabitlik naminə ardıcıl olaraq demokratik prosedurlardan imtina onları hara aparır?

Haşiyə: Müasir dünyada neototalitar cəmiyyətlərin yaranmasına dünyanın demokratik güclərinin *tolerant* yanaşması ən ciddi problemlərdən biridir. Bir tərəfdən II Dünya müharibəsindən sonra formalaşmış əski ikiqütblü dünya nizamına uyğun Qərb dövlətlərinin və ABŞ-ın xarici siyasət kursu *«uzun müddətli stabilliyin»* təmin olunmasına indeksləşdiyindən, dünyada demokratiyanın yayılması və genişlənməsi aşkar şəkildə geriləmişdir. Digər tərəfdən isə, antidemokratik cəbhənin neototalitar dövlətlərin hesabına güclənməsi demokratik cəbhə üçün yeni təhdidlər – xüsusən terror, radikalizm, narkoticarət, çirkli pulların yuyulması, insan alveri, silah qaçaqmalçılığı və s. kimi problemlər doğurmuşdur. Çox təəssüf ki, hələ də çağdaş dünyada demokratiya stabilliyə qurban verilir və neototalitarizm tərəfdarları da bundan müvəffəqiyyətlə bəhrələnirlər. Təbii ki, dünyanın təhlükəsizliyi bir nömrəli məsələ olmalıdır və buna görə böyük dövlətlərdə stabilliyə demokratiyaya görə prioritet verilməsi bəlkə də başa düşüləndir. Amma nəinki dünya, hətta regional təhlükəsizlik baxımından xüsusi çəkisi olmayan dövlətlərdə də demokratiyanı stabilliyə güzəştə gedilməsi, əslində totalitar cəbhənin güclənməsinə və böyük totalitar güclərin dünyanın təhlükəsizliyini təhdid etməsinə xidmət etdiyindən yolverilməzdir. Bu bir həqiqətdir ki, ayrılıqda götürülmüş *birtərəfli stabillik* heç də təhlükəsizliyə xidmət etmir, əksinə, təhlükələrin gizlənməsinə və qəfləti üzə çıxması ilə daha ciddi nəticələr verməsinə gətirib çıxarır.

Sabitlik paradiqmasını təhlil etmədən qısa şəkildə *sabitliyin fəlsəfəsinə* şərh vermək yerinə düşər. Sosial və təbii qaydalara tabe olan cəmiyyət paralel olaraq təkamül-inkişaf və tərəqqi prosesindədir. K.C.Horton yazır: «Tam kimi inkişaf etmiş cəmiyyətin stabilliklə dəyişkənliyin harmonik birliyinə ehtiyacı var». İnkişaf müxtəlif kateqoriyalarla xarakterizə olunur və sabitlik də inkişaf kateqoriyalarından biridir. Amma inkişafda önəmli məsələ *səbəbdir*. Fəlsəfə öyrədir ki, inkişafın mənbəyi «*əksliklərin vəhdəti və ziddiyyətidir*». Bu mənada siyasi inkişaf yalnız siyasi ziddiyyətlərin - iqtidar-müxalifət əksliyindən və onların arasındakı vəhdətdən ziddiyyətlərin həllində baş verə bilər. Ziddiyyət – əksliklərin təzahür formalarından biridir və öz növbəsində ictimai həyatda sosial *konfliktlər* formasında

aşkarlanır. Öz növbəsində siyasi inkişaf konfliktlərin həll olunması ilə baş verir. Siyasi konfliktlər müxtəlif yollarla həll edilir. Bu yollara – konfliktlərin *mexaniki yatırılması*, razılaşmalar-*konsensus*, *siyasi dialoq*-ziddiyyəti yumşaldan qeyri-ziddiyyət sferasında əməkdaşlıq və s. aiddir. *Sabitlik - dayanıqlı münasibətlər çərçivəsində konfliktlərin dağılmağa gətirib çıxarmadığı inkişafın vəziyyətidir.* Əslində konfliktli vəziyyətlə sabitlik vəziyyəti bir-birini inkar edən sosial faktlar deyil. Əksinə, biri-biri ilə sıx bağlı və inkişafın iki tərəfini – sabitlik inkişafın keyfiyyətinin, konflikt onun davamlığının – kəmiyyətinin göstəricisidir. Sabitliklə konfliktin bir-birini inkar edən iki vəziyyət kimi qəbul edilməsi inkişafın məntiqinə ziddir və sabitliyin, elə o cümlədən, konfliktlərin hissəvi anlamı ilə bağlı meydana çıxan yanılmadır. Əgər sabitlik naminə konfliktlərin qarşısı alınırsa və ziddiyyətlərin həllinin digər alternativ yollarından istifadə olunmursa, onda ziddiyyətlər həll olunmur. Belə halda ya ziddiyyətlər barışmaz xarakter alır və *«inkarı-inkar qanunu»* işə düşür, ya da ziddiyyətlər arasında *mübarizə baş vermir* – inkişafda durğunluq yaranır. Beləliklə, konfliktsiz ziddiyyət, ziddiyyətsiz əksliklərin mübarizəsi, əksliklərin mübarizəsi olmadan inkişaf olmadığından, *inkişafla sakitliyin birbaşa və xətti əlaqəsi yoxdur* və bu əlaqə əksinədir, yəni konfliktlər vasitəsi ilə dolayıdır. İnkişaf əksikləri, əksliklər ziddiyyəti, ziddiyyətlər konfliktləri, konfliktlər iqtidar-müxalifət cəbhələşməsini və bu cəbhələr arasında mübarizənin nəticəsi olaraq siyasi dəyişilmələri tələb edir. Bəşər tarixi quldarlıqdan başlayaraq yalnız bu yolla inkişaf etmişdir və kimsə bu günədək bunun əksini sübut edə bilməmişdir. Beləliklə, demək olar ki, bu, *fəlsəfi aksiomadır*.

Sabitlik anlayışı müxtəlif prosesləri və institutlaşmanı xarakterizə edən keyfiyyət kateqoriyasıdır və onun kəmiyyətlə – «nə vaxta qədər», «nə qədər» və s. kimi təyini yoxdur və ona görə də *uzunmüddətli sabitlik anlayışı boş konstruksiyadır.* Sabitlik anlayışı işlənmə yerinə görə müxtəlif mənalar verir. Məsələn, dövlətin sabitliyi – hakimiyyətlərin dəyişilməsindən dövlətin dağılmasının sığortalanmasını, hakimiyyətin sabitliyi – liderin və ayrı-ayrı vəzifəlilərin dəyişilməsindən siyasi hakimiyyətin davam etməsini, cəmiyyətin sabitliyi – rəqabət aparan güclərin mübarizəsindən cəmiyyətin xao-

sa sürüklənməklə dağılmadan müdafiə olunmasını, iqtisadi sabitlik – iqtisadi islahatların həyata keçirilməsində iqtisadi sistemin dayanıqlığını, siyasi sabitlik – hakimiyyət dəyişilmələrinin qanunla həyata keçirilməsinin real mövcudluğunu və hakimiyyət uğrunda mübarizədə idarəetmə mexanizmlərinin saxlanılmasını, demokratik sabitlik – onun yalnız qanuni yollarla əldə edilməsini, demokratiyanın sabitliyi – ictimai inkişafın demokratiyanın genişlənməsi ilə nəticələnməsini ifadə edir. Bundan fərqli olaraq total «sabitlik» ifadəsi sakitlik və ya durğunluq vəziyyətlərini adlandırmaq üçün işlədilir və buna görə də bu anlayış sabitlik anlayışının total radikal anlamından fərqli mənanı ifadə edir.

Neototalitar anlama görə sabitlik- konfliktlərin aşkar təzahür etməməsi vəziyyətidir və sabitliyin bu cür anlamı ona gətirib çıxarır ki, sabitliyə nail olmaq siyasi konfliktlərin istənilən yolla qarşısının alınması - onların mexaniki yatırılması kimi anlanılır. Konfliktlərə belə münasibət isə hər şeydən əvvəl konflikt anlayışının hissəvi anlamına səbəb olur. Neototalitar tərəfdarlarına görə siyasi konflikt - inkişafa mane olur, dövləti zəiflədir, ictimai asayişi pozur, vətəndaşların Konstitusiya ilə qorunan hüquqlarını təhdid edir və ölkəyə iqtisadi ziyan vurur. Bütün bunlar demokratik prosedurlardan qaçan neototalitarizmin əsas tezislərinin və zaman-zaman onun daşıyıcılarının yerli KİV-də və beynəlxalq missiyalarla görüşlərində ölkədəki məhdudiyyətlərin və məcburetmələrin səbəblərinin izah etmək üçün gətirdikləri arqumentlərin məcmusunu təşkil edir. Neototalitarlar sabitlik dedikdə, iqtidar-müxalifət konfliktlərinin mexaniki yolla saxlanması, ictimai həyatda sakitliyin bərqərar olması və opponentlərin istənilən üsulla, o cümlədən zorla susdurulması kimi anlayır və çox təəssüf ki, demokratiya naminə kifayət qədər qurban verən qərblilər də bununla razılaşaraq bu siyasi coğrafiyada gedən proseslərə yanlış mövqedən yanaşırlar.

Haşiyə: Konflikt termini, sosioloqların *sosial dəyişilmələrin analizində* istifadə etdikləri başlıca *izahedici kateqoriyadır*. Bu faktın özü göstərir ki, konfliktlərin aşkar və ya gizli mövcud olmadığı məkanda sosial analiz aparmaq mümkün deyil və başqa kateqoriyalarla post-sovet respublikalarının inkişafını şərh etmək isə sadəcə qeyri-elmi

və heç bir məna ifadə etməyən *taftoloji* yanaşmadır. Konfliktlərin əhəmiyyəti haqqında dünyanın ən məşhur sosioloqlarından bəzilərinin fikirlərini oxucuların diqqətinə təqdim etməklə onun ictimai inkişafda oynadığı rol haqqında bir az geniş təsəvvür yaratmaq yaxşı olardı. Amerika sosioloqlarından biri K.C.Hortona görə, «istənilən forma konflikt – cəmiyyət həyatının və tərəqqinin öz başlanğıcını, öz xüsusi xeyir ideyasını reallaşdırmaq istəyən qüvvələrin mübarizəsindən götürməsindən yaranır», Rossa görə, «aşkar qarşıdurma cəmiyyəti saxlayır», Parka görə, «konflikt – inteqrasiyaya, konfliktdə olan qrupları qaydalaşmaya və stabilliyə gətirir», L.Kozerə görə, «konflikt həmişə sistem münasibətlərində disfunksional deyil, çox vaxt sistemi saxlamaq üçün zəruridir», alman sosioloqu M.Veberə görə, «dünya konfliktlərin formasının dəyişilməsindən, konfliktdə olan tərəflərin əvəzlənməsindən və nəhayət, seçim imkanlarından başqa bir şey deyil», digər alman sosioloqu və bizə yaxşı tanış olan K.Marksa görə, «tarix – sinfi mübarizə tarixindən ibarətdir», alman sosioloqu Q.Zimmelə görə, «konfliktlərin yaranması hakimiyyətin legitimləşmə üsuluna və statuslar sisteminə təsir edir» və s. Əksinə sosiologiyada sosial konfliktlərin vacibliyinin əleyhinə bir fikir belə, tapmaq mümkün deyil. Bu baxımdan razılaşmaq lazımdır ki, konfliktlərin ictimai inkişafın yeganə yolu olması fikrinin alternativi yoxdur və ola da bilməz.

Sosial dəyişilmələrin digər bir izahedici kateqoriyası *sabitlikdir*. Bu iki kateqoriyanın qarşılıqlı əlaqəsi isə siyasi işin mahiyyətini təşkil edir. *Sabitlik – əsl həqiqətdə münasibətlərin möhkəmliyində, konfliktlərin aşkar təzahür etməsində sistemin dayanıqlı olduğunu göstərir.* Başqa sözlə, sabitlik istənilən prosesin, o cümlədən konfliktin vəziyyətidir. Əgər proses yoxdursa, onun vəziyyəti də ola bilməz. Bu baxımdan konfliktsiz sabitlik olmur. Bəs konfliktsiz yaranan sosial vəziyyət nədir və belə vəziyyət hansı ictimai-siyasi nəticələr doğurur? Bu sual sabitliyin əhəmiyyətini anlamaqda xüsusi açar rolu oynayır. Q.Zimmel bununla bağlı yazır: «Möhkəm olmayan münasibətlər hissi onları istənilən qiymətə azaltmağa məcbur edir… istənilən mümkün konfliktdən prinsipial qaçmaq üçün münasibətlərin mexaniki saxlanmasına cəhd edilir». Beləliklə, *aşkar konfliktlərsiz*

«sabitlik» münasibətlərin mexaniki saxlanmasıdır və sabitliklə heç bir əlaqəsi yoxdur. Konfliktləri mexaniki saxlamaqla neototalitarlar demokratiyadan imtina edir və dünyanın gözü qarşısında açıqca neototalitarizmə keçirlər. Konfliktlərdən qaçmanın birinci səbəbi azad rəqabətə davamsızlıqdır. Q.Zimmel qeyd edir ki, «münasibətlərdə konfliktlərin olmaması onların dərin stabilliyinə şəhadət vermir… əgər münasibətlər elədir ki, iştirakçılar onların konfliktlər nəticəsində dağılmasından qorxur, onda onları boğmağa və ya ədavət hisslərini əvəzləməyə cəhd edəcəklər». Bu gün postsovet respublikalarının əksəriyyətində *konfliktlərin boğulma vəziyyəti* mövcuddur və hakimiyyətdəki qüvvələr məhz bu vəziyyəti stabillik kimi təqdim edirlər. Unutmaq olmaz ki, həll olunmamış konflikt öz mövcudluğunu başqa formada *gizli* və daha *destruktiv* formada davam etdirməyə meyllənir ki, bu da aşkar konfliktlərdən daha dağıdıcı və təhlükəlidir. Konfliktlərə rasional yanaşma, onun total təzahürünün mənfi nəticələrindən yayınmaq üçün yeganə düzgün yol kimi, *konfliktlərin seqmentar təzahürünə* cəhd etməyi tələb edir. L.Kozer bununla bağlı yazır: «Çoxsaylı ən müxtəlif qruplardan təşkil olunmuş cəmiyyət çoxsaylı kəsişən konfliktlərdən yalnız udur, buna görə də konfliktlər qeyri-stabilliyin göstəricisi deyil, əksinə, iştirakçıların seqmentar cəlb olunması maraqların balanslaşdırılmasına xidmət edir». Məsələn, *iqtidarlar küçə konfliktlərindən qaçmaq üçün müxalifətlə parlamentdaxili konfliktə üstünlük verdikdə demokratik seçkilər reallığa çevrilir.* Cəmiyyət isə küçə ixtişaşlarından sığortalanır. Qeyd etmək lazımdır ki, «münasibətlərin mexaniki saxlanması» mövcud problemlərin həll edilməsinə imkan verməməklə yanaşı, bir çox əlavə sosial problemlər yaradır. Birincisi, susdurulmuş real konfliktlərin yerini *qeyri-realist konfliktlər* tutur. Qeyri-realist konfliktlər yalnız antaqonist münasibətdə olan bir tərəfin öz gərginliyini boşaltmaq məqsədi güdür. Hər hansı ölkədə aşkar real konfliktlər olmadığı şəraitdə iqtidarın müxalifətə birtərəfli hücumu qeyri-realistik konfliktlərin klassik nümunəsidir. Burada məqsəd iqtidardaxili mərkəzdənqaçmanın qarşısını almaq və iqtidardaxili ziddiyyətlərin yaratdığı gərginliyi boşaltmaq, o cümlədən, problemlərin həllində iqtidarların gücsüzlüyünü ört-basdır etməkdir. Müxalifət tərəfindən isə bəzi qə-

rarlar və addımlar «xüsusi tələbatların münasibətləri çərçivəsində ödənmədiyindən və iştirakçılar gözlənilən xeyiri əldə edə bilmədiyindən» qeyri-realistik konflikt kimi təzahür edir və nəticədə hər iki tərəfin başlatdığı konflikt cəmiyyətə və ictimai inkişafa heç bir xeyir vermir.

Neototalitarizmin istifadə etdiyi ən populyar vasitələrdən biri də *xarici konfliktlərdir.* Hələ vaxtilə Platon diktatorun təkrar hakimiyyətə qayıtması ilə onun atacağı addımlarla bağlı fəlsəfi şərh verərkən göstərirdi ki, «ikinci dəfə hakimiyyətə qayıdan diktator ölkə müharibə vəziyyətindədirsə (xarici konfliktin aktiv forması kimi – S.C.) heç, yoxsa dərhal qonşu dövlətlərlə müharibə başladır, sonra həmin müharibənin gedişində atəşkəs elan edir və əhalini «müharibə yenidən başlayar» qorxusu altında özünə tabe etdirir». *Neototalitar cəmiyyətlərdə də xarici münaqişələrə – konfliktlərə – «hakimiyyət məsələsi» kimi baxılır.* Hakimiyyətdə qalmaq münaqişələrin uzanmasına mütənasib olduğundan, hakimiyyətini uzatmaq istəyən güc münaqişələri dondurur. Onların həllində təşəbbüskarlıq və rasionallıq nümayiş etdirmirlər. İstər daxili, istər xarici konfliktlər ictimai inkişafla bağlı sıx əlaqəli məsələlər olduğundan, xarici konfliktlərlə daxili sabitlik arasında əlaqələrə şərh vermək lazım gəlir. Birincisi, unutmaq olmaz ki, *qısa müddətli konfliktlərlə uzun müddətli xarici konfliktlər* bir-birindən fərqli təsirlərə malikdir. Q.Zimmel uzunmüddətli konfliktlərin iç münasibətlərə təsirini şərh edərkən belə qənaətə gəlir ki, «xarici düşmənlə uzunmüddətli mübarizə daxildə başqa cür düşünənlərdə dözümsüzlük yaradır». Bu da öz növbəsində daxili münasibətlərin mexaniki saxlanmasında özünü göstərir. Əslində müharibə vəziyyətinin iç siyasətə müsbət təsiri qısa müddətdə sosioloji qanunauyğunluqdur. A.Tokvil müharibələrin nəticələri haqqında yazır: «Müharibə vətəndaş hakimiyyətinin hakimiyyətini artırır». Bunun əksinə olaraq iddia edə bilərik ki, münasibətlərin mexaniki saxlanması daha çox sanksiyalaşmamış hakimiyyət gücü tələb etdiyindən, hərbi hakimiyyəti artırır və məhz buna görə belə vəziyyətdə *hərbi-polis rejimi* yaranır. Əslində qısamüddətli xarici konfliktlər bir qayda olaraq daxili münasibətlərdə müsbət tendensiyaların yaranmasına səbəb olur. M.Veber yazır ki, «müasir

milli bürokratiya müharibələrin nəticəsində əmələ gəlib». Amma uzunmüddətli konfliktlər postsovet respublikalarında *milli bürokratiya* əvəzinə istismarçı «ögey» bürokratiyanın yaranmasına gətirib çıxarıb. Bunun əsas səbəbini Q.Zimmelin aşağıdakı fikirlərindən aşkarlamaq olar. O, yazır: «Xarici konfliktlər daxili həmrəyliyi möhkəmləndirir». Amma əksinə, ölkə daxilində konfliktlərin mexaniki saxlanması daxili həmrəyliyin yaranmasına imkan vermir. Nəticədə iki ciddi təhlükə yaranır. Bir tərəfdən sosioloqların qeyd etdiyi kimi, «müharibələrdə daxili həmrəyliyin olmaması despotik rejimin yaradılmasına stimul verir», digər tərəfdən «sosial həmrəyliyi olmayan sosial sistemlər müharibələrdə dağılır». Ərazisində münaqişə olan neototalitar dövlətlərdə hakimiyyətlərin atəşkəs rejimini saxlamaqda maraqlı olması və ya bu problemin həll edilməsində tərəddüd etməsinin bir səbəbi də məhz *daxili həmrəyliyin* kifayət qədər zəif olmasının aktiv hərbi şəraitdə dövlətin dağılması ilə nəticələnəcəyindən qorxmaları ilə bağlıdır. Biz bunun ağır nəticələrini Səddam Hüseyn rejiminin süqutunda da gördük. Daxildə opponentlərinə, hətta öz yaxın qohumlarına qarşı amansızlıq edən və hakimiyyətdə olduğu dövrlərdə xalqın etirazını kütləvi qırğın silahı ilə yatırmaqdan belə, çəkinməyən Səddam ABŞ-la başlanan müharibədə demək olar ki, müdafiəsiz qaldı və İraq dağıldı. Eyni ilə Əfqanıstanda da neçə ki, Əfqan xalqı daxili həmrəyliyi təmin etmişdi, heç bir xarici qüvvə onu diz çökdürə bilmədi, amma daxildə etnik və dini təfriqə başlayan kimi bir neçə həftəyə Əfqanıstan işğal edildi. Bunu Çeçenistanla bağlı da söyləyə bilərik. Daxili həmrəyliyin olmaması müharibə vəziyyətinin davam etməsi şəraitində bir qayda olaraq müvvəqqəti də olsa daxildə *despotiyay*a təkan verir ki, biz bunun ayrı-ayrı əlamətlərinə regional konfliktlərə cəlb edilmiş siyasi rejimlərdə rast gəlirik.

Neototalitar rejimlər klassik totalitar dövlətlərdən onunla fərqlənirlər ki, onlar demokratik dövlətlərlə əməkdaşlığa can atır və bu zaman özündə *«sabitliklə» demokratiyadan qaçma arasındakı mövqeni* əks etdirən *«xarici tarazlaşdırma» siyasəti* aparırlar. Bu da bu ölkələrdə demokratikləşməyə mənfi təsir göstərir. Xarici tarazlaşdırma siyasətinin neototalitarizmə xidmət etməsi ilk baxışdan

paradoksal görünsə də bu arqument elmi şəkildə çoxdan təsdiq olunub. F.Fukuyama belə hesab edir ki, «xarici siyasətdə status-kvonun saxlanması dünyanın təhlükəsizliyini təhdid edir». Beləliklə, hamıya eyni vaxtda dost olmaq, eyni vaxtda heç kimlə dost olmamaq kimi meydana çıxır. Daxili dayaqları zəif olan neototalitarların xarici düşmənlərə dostcasına yanaşmalarının arxasında «dinc hakimiyyət» ehtirasları durur. Bununla da xarici konflikt daxili həmrəyliyi gücləndirdiyindən, onda heç bir «xarici düşməni» olmamaq determinik olaraq *daxili həmrəyliyi zəiflədir*.

Sosioloqların hamısının razılaşdığı ortaq məsələlərdən biri də məhz budur ki, «bizimki» və «bizimlə», daxili qruplarla yad xarici qruplar arasında fərq konfliktdə və konfliktlərdən əmələ gəlir. Amma neototalitar cəmiyyətlərdə konfliktlərin mexaniki saxlanması «bizimkilər»lə «yadlar» arasında fərqi aradan götürdüyündən, daxili həmrəyliyin zəifləməsi fonunda daxildə siyasi qüvvələr biri-birinə düşmən münasibəti bəsləyir ki, bu da demokratikləşmə üçün vacib olan azad rəqabət şəraitinin yaranmasına imkan vermir. Hətta xarici güclər belə, neototalitar cəmiyyətlərin əks cəbhədə duran güclərini bir masa arxasında əyləşdirməkdə çətinlik çəkirlər.

Bəs sakitlik - münasibətlərin mexaniki saxlanması, konfliktlərin zorakılıqla boğulması mənasında işlətdiyimiz ifadə hansı məqsədlər daşıyır və bunun hansı ümumi sosial nəticələri vardır? Birincisi, əvvəlki fəsildə qeyd etmişdik ki, strategiya, doktrina hazırlamaq hər şeydən öncə *hakimiyyəti monopoliyaya* almağın əlamətidir. Raymon Aron «Demokratiya və totalitarizm» adlı kitabında yazır: «Hakimiyyəti monopoliyaya alan partiya hədsiz uzağa gedən planlar qurur». Strategiya, xüsusən gələcəyin strategiyası belə uzağa gedən planlardan ibarət olduğundan, hakimiyyətin monopoliyaya alınması cəhdi kimi meydana çıxır. Bu, bir tərəfdən antimonopoliya qanununa görə cinayətdir. Digər tərəfdən, sabitlik naminə demokratik prosedurlardan imtina hakimiyyətin qeyri-konstitusion yolla mənimsənilməsi və ya onun legitimsizləşməsi deməkdir ki, bu da Konstitusiyaya görə xalqa qarşı ən ağır cinayət hesab edilir. R.Budan adını çəkdiyimiz kitabında yazır: «Monopoliya qapalı prosesə gətirib çıxarır, qapalı prosesləri planlaşdırırlar. Qapalı vəziyyətdə davranışlar determina-

siya edən və öncədən ehtimal edilən olur». Buradan da, «*stabilliyin*» *əsas məqsədlərindən birinin məhz vətəndaşların davranışlarının arzuedilən istiqamətdə determinasiya etməsinə nail olmaq və onların davranışlarının proqnozlaşdırılması mümkün olan şəraitin yaradılması olduğu aydın olur.* İkincisi, sakitlik inkişafın təbiətinə zidd olub, mürəkkəb sistem qanunlarının kobud surətdə pozulmasına gətirib çıxarır. İ.Priqojin, İ.Stenqers «Xaosdan nizama» adlı kitablarında mürəkkəb sistemlər üçün belə bir qanunauyğunluq aşkarlamışlar ki, «sistem təkamülə məruz qalaraq *bifurkasiya* nöqtəsinə çatanda deterministik təsvir yararsız olur». Bu nə deməkdir? Qeyd edim ki, inkişaf - hər hansı bir sistemi və ya halı, bizim nümunəmizdə cəmiyyəti bir səviyyədən başqa səviyyəyə qaldıracaq proseslərin məcmusu kimi fiziki, kimyəvi və ya sosial-siyasi hərəkətdir. Bifurkasiya köhnə halın yeni halla əvəzlənmə nöqtəsidir. Beləliklə, mürəkkəb sistemlər dəyişilmələrin bir-birinin əvəzləmə nöqtəsində hadisələrin deterministik təsvirinin mümkün olmadığını sübut etdiyindən, deyə bilərik ki, monopoliya və «stabillik» yaratmaqla hadisələrin determinant olmasına çalışan iqtidarlar öz məqsədlərinə çata bilməzlər. Üçüncüsü, neototalitarlar tərəfindən sakitlik həm də iqtisadi proseslərin deterministik təsvirinə xidmət edən faktor kimi qəbul edilir. Yuxarıda qeyd etdiklərimiz iqtisadi inkişafla sabitliyin birbaşa əlaqəsinin olmadığını üzə çıxarır. İmmanuel Vallerstayn «Dünya sistemlərinin analizi» adlı kitabında yazır: «Kapitalizm – tarixən bir neçə bir-birinin ardınca gələn iqtisadi reformalar yox, sadəcə «təbii baş verənlər»dən ibarətdir». Bu baxımdan hakimiyyətin monopoliyaya alınması həm də iqtisadi davranışları determinə edən, proqnozlaşdırıla bilən edir ki, bu da kapitalizmin təbii inkişaf qanunauyğunluğuna ziddir. Başqa sözlə, iqtisadi inkişafla bir araya sığmazdır. Dördüncüsü, sakitlik – iqtisadiyyatın və vətəndaşların davranışlarının öncədən proqnozlaşdırılması mümkün olan vəziyyətin yaradılması ilə nəticələnir. Qeyd edim ki, belə «stabillik» yalnız əks cəbhədə yox, həm də iqtidar cəbhəsində məmurların davranışlarında öncəgörmə yaratdığından, hər bir məmur öz davranışlarını yuxarının iradəsinə uyğun qurmağa cəhd edir. Bunu bacarmayan və etməyən sistemdışı edilir. Belə bir mühitdə fəaliyyət göstərən

siyasi elita marqinallaşır. Müstəqillik əldə etdikdən sonra postsovet respublikalarında hakimiyyətin demək olar ki, eyni şəxslər tərəfindən idarə olunması belə marqinallaşmanın əlamətidir. Bəs elitanın marqinallaşması öz arxasınca hansı ictimai fəsadları gətirir? R.Budon iqtisadi inkişaf nəzəriyyəsi ilə bağlı yazır: «Marqinallaşmış elita həmişə innovasiyaya istiqamət götürmür…əhalinin kapital toplaması imkanı kiçik olanda investisiyalaşdırma prosesi mümkün olmur… xaricdən kömək inkişafın yeganə mənbəyi olur…zəif inkişaf etmiş cəmiyyətdə elita hədsiz resurslara malik olur, bu, onu istehlaka sərf etməyə meylləndirir, nəinki investisiyalaşmaya…onlara xas olan «nümayiş» effekti gücünə məhz bu effekt dizaynı məcbur edir ki, «varlı» ölkə modelini qəbul etsin». Bu deyilənlər postsovet respublikalarının elitaları üçün də xarakterikdir. «Varlı ölkə» modelinin qəbul edilməsi həm hakimiyyətlərin həyata keçirdikləri proyektlərdə, layihələrdə, dövlət tədbirlərində, həm də onun ayrı-ayrı təmsilçilərinin həyat tərzlərində olduqca qabarıq üzə çıxır. Bu ölkələrə bahalığı ilə bütün dünyada seçilən firmaların ayaq açması da bunun nəticəsidir. Türkmənistanda Türkmənbaşının buz şəhər yaratmaq ideyası, Azərbaycanda küçə və meydanların bahalı mərmərlərlə üzlənməsi, Qazaxıstanda çox nəhəng dövlət saraylarının ucaldılması və s. bu ölkələrdə dövlət səviyyəsində «varlı ölkə» modelinin tətbiq edildiyini bir daha sübut edir. Beşincisi, sakitlik şəraitində meydana çıxan monopoliya ölkə həyatının bütün sahələrini *deformasiyaya* uğradır. Bunu Merfinin Termodinamika qanununu ilə izah etmək olar. Bu qanuna görə «Təzyiq altında hər şey pisləşir». Bu mənada təzyiq altında mövcud olan sakitlik şəraitində hər şey - ictimai və fərdi həyatın bütün tərəfləri pisləşir. Ən çox və ən tez ziyan çəkən isə mənəviyyat olur. Dirçəliş və reformasiya nümayəndələrindən olan Touni iqtisadi fəaliyyətə etik baxışlar haqqında yazır: «İqtisadi maraqlar ikincilidir və həqiqi insan həyatına ruhun xilas olmasına tabe olmalıdır və iqtisadi davranış şəxsi davranışın tərəflərindən biri olduğundan, davranışın başqa tərəflərinə olduğu kimi, ona da əxlaq şamil edilməlidir». Lakin iqtisadi inkişaf «stabillik»lə əlaqələndikdə, stabillik isə fiziki təzyiq altında təmin edildikdə, əxlaq iqtisadiyyata şamil edilmir. Bu gün korrupsiya, rüşvət və digər iqtisadi cinayət-

karlıq hər şeydən əvvəl məhz əxlaqın iqtisadiyyata yayılmamasını göstərir. *Neçə ki, postsovet respublikalarının vətəndaşları korrupsiyanı və rüşvəti əxlaqsızlığın bir forması kimi dərk etməyib, heç bir inzibati yolla onlara qarşı effektli mübarizə aparmaq olmaz.* Əksinə, o durmadan çiçəklənəcək və neototalitar dövlətlərdə baş verənlər də məhz bunu bir daha sübut edir. Göründüyü kimi, *mənəviyyatın deformasiyası sırf mənəvi sahə ilə sərhədlənmir, əksinə, ictimai inkişafın bazisinə birbaşa təsir edir.*

Bəs sakitliyi təmin etmiş cəmiyyətlərdə insanlarda *zorakılığa xüsusi* meyl nədən qaynaqlanır? Birincisi, sabitliklə zorakılıq tərs mütənasibdir və buna görə də *sabitliyə arxayın olmayan qüvvə zorakılığa əl atmağa məcbur olur.* Qeyd etmək lazımdır ki, konfliktli situasiyadan iki yolla çıxmaq mümkündür, *zorakı və qeyri-zorakı yolla.* Konfliktlərdən zorakı yolla çıxma *sakitlik,* qeyri-zorakı yolla çıxma isə sözün həqiqi mənasında əsl sabitlikdir. Neototalitar cəmiyyətlərdə birinci yol tutulub, ona görə də yaranmış vəziyyət yalnız sakitlik kimi dəyərləndirilə bilər. Əslində iqtidarların iddia etdiyi «analoqu olmayan iqtisadi inkişaf»la bu ölkələrdəki konfliktli vəziyyətin dərinləşməsi arasında sıx əlaqə var. Nə üçün bu gün inkişaf etmiş Yunanıstanda gənclər Afinanı dağıdır, nə üçün eyni qarşıdurmalar digər inkişaf etmiş ölkələrdə, məsələn, Fransada üzə çıxır? Amma heç bir iqtisadi inkişaf olmayan ölkələrdə qəbirstanlıq sükutu hökm sürür? Təcrübə göstərir ki, inkişafla konfliktlər düz mütənasib asılılıqdadır. Yəni inkişaf *sürətləndikcə konfliktli vəziyyət dərinləşir.* R.Hiqqins «Yeddinci düşmən. Qlobal böhranda insan faktoru» adlı əsərində bəşəriyyəti gözləyən fəlakətlərin dörd müxtəlif yoldan əmələ gəldiyini və onlardan birinin də *sürətli dinc reformalar* yolu olduğunu göstərir. Bunu sübut etmək o qədər çətin deyil. Bir qayda olaraq, *iqtisadi inkişafla siyasi inkişafın inkişaf tempi müxtəlif olduğundan, onlar arasında disproporsiya yaranır.* Belə ki, iqtisadiyyat sürətli, siyasi həyat isə ləng inkişaf edir. Nəzərə alsaq ki, neototalitar iqtidarlar həm də məqsədyönlü şəkildə «əvvəl iqtisadi, sonra siyasi inkişaf» paradiqmasını əsas götürüb, onda bu ölkələrdə iqtisadi inkişafla siyasi inkişaf arasında təbii fərqə həm də iqtidarların məqsədyönlü şəkildə yaratdığı süni fərq əlavə olunur. İkincisi,

iqtisadiyyatla siyasətin inkişafı arasındakı fərqdən isə *siyasi ətalət* yaranır. R.Hiqqinsə görə, «siyasi ətalət gücü bütün vaxtlarda milləti aldadaraq dar məhəlləciyin bataqlığına gətirir…siyasi ətalət – idarəedənlərin və idarəolunanların fərdi korluğudur». *Dar məhəlləcilik bataqlığı isə elmi mənada cəmiyyətin sakitlik vəziyyətidir.* Üçüncüsü, sakitlik konfliktli vəziyyətdə *hakimiyyətin zorakılığı* ilə sıx əlaqəlidir və neototalitarların siyasi təcrübəsində də məhz belədir. Hüquq mühafizə orqanlarının rəhbərlərinin, ayrı-ayrı dövlət funksionerlərinin, hətta millət vəkillərinin və dövlət başçısının rəsmən *polis zorakılığına* haqq qazandırması bu cəmiyyətlərdə yaranmış vəziyyətə adekvatdır və başqa cür də ola bilməz. Qeyri-zorakılıq nəzəriyyəsinin banisi Lan del Vasto yazır: «Sakit həyatda qeyri-zorakılıq təzahür etmir…mübahisə etməyən insanların qeyri-zorakılıqda yaşamasını demək absurddur». Başqa sözlə, sakitlikdə yalnız və yalnız istər iqtidarın, istər müxalifətin münasibətlərində zorakılıq qaçılmaz keyfiyyət kimi təzahür edir. Dördüncüsü, zorakılıq insan təbiətinin qaçılmaz keyfiyyətlərindən biridir və psixologiya elmində bu *daxili aqressivlik* adlandırılır. C.Dyui daxili aqressivlik haqqında yazır: ««Mən»-in aqressivliyi mahiyyət etibarı ilə şüurun döyüşkən tərəfidir, hər bir fəaliyyət üçün xarakterik olanı stimullaşdırıcıdır, baxmayaraq ki, döyüşkənlik xarici ola bilər və aydın formada təzahür etməz, o həmişə mental funksiya kimi mövcuddur». Göründüyü kimi, aqressivlik mental səviyyədə kök salıb və onu insanın təbiətindən çıxarmaq mümkün deyil. Bir qayda olaraq azad cəmiyyətdə insanın aqressivliyinin boşaldılmasının elə üsul və vasitələri tətbiq edilir ki, bir tərəfdən daxili aqressivlik azalır, digər tərəfdən belə aqressivlik ictimai münasibətlərə ziyan vurmur. Bir qayda olaraq idman yarışları, səyahətlər, məşğulluq, siyasi sferada seçki yarışları bütün digər məqsədlərlə yanaşı həm də aqressivliyin boşaldılmasına xidmət edir. Burada xüsusən *əmək* və *seçkilər* müstəsna rol oynayır. Məhz buna görədir ki, işsizlik və seçkilərin saxtalaşdırılması və ya seçkilər keçirilməyən ölkələrdə ictimai zorakılığın müxtəlif formalarının artması müşahidə olunur. Əksinə, məşğulluğun artması, seçkilərin demokratik keçirilməsi zorakılığı azaldır. Beşincisi qəflətilikdir. Sakitlikdə stabillikdən fərqli olaraq hadisələrin qəfləti baş vermə-

si xarakterikdir. J.Semlen «Zorakılıqdan qaçış» əsərində yazır: «Sakit vəziyyətdə zorakılıq konfliktlərin olmaması təssüratını yaradır. Amma qəflətən tirana qarşı mübarizədə çoxdan yatmış konflikt üzə çıxır». Belə qəfləti oyanmanın birinci qurbanı zorakılıqla konfliktləri mexaniki saxlamaqla sakitlik yaradanlar olur. Beləliklə, deyə bilərik ki, *sakitliklə sabitlik, zorakılıqla qeyri-zorakılıq bir-birini inkar edən əksliklərdir və birincisi inkişafı dayandırır, digəri inkişafa xidmət edir.*

Yuxarıda qeyd etdik ki, konfliktlərin inkişafla əlaqəsi həm də fəlsəfi məsələdir və fəlsəfənin üç ümumi qanunundan birinə tabe olduğundan, konfliktlərin əhəmiyyətinin əleyhinə heç bir tezis məntiqi ola bilməz. Bəs konfliktlər hansı vəziyyətdə üzə çıxdıqda inkişafa səbəb olur? J.Semlen yazır: «Qeyri-zorakılıqdan yalnız konfliktli vəziyyətdə danışmaq olar». Buradan da iki sual doğur. Konfliktlər mütləq zorakılığa gətirib çıxarırmı? Hansı hallarda konflikt zorakılığı qaçılmaz edir? Bu sualın düzgün cavabı ölkədə sakitlik və ya sabitlik yaratmağın vacibliyinə işıq salmaq üçün lazımdır. Sabitlik, yoxsa sakitlik effektlidir? Konfliktlərin zorakılıqla əlaqələnməsinin birinci səbəbi *saydır*. Hökumət nə qədər az ictimai dəstəyə malikdirsə, liderlərin imici nə qədər aşağıdırsa, ölkə nə qədər avtoritar idarə olunursa, müxalifətin tərəfdarları nə qədər azdırsa, tərəflər nə qədər milli və insani dəyərlərdən, o cümlədən demokratiyadan uzaqdırsa, siyasi strukturun yox, ayrı-ayrı şəxslərin əleyhinə mübarizə gedirsə, siyasi effektlik nə qədər azdırsa, nailiyyətsizlik sindromu nə qədər dərindirsə, çıxış yolları, mübarizə üsulları nə qədər məhduddursa, hər iki tərəfdən zorakılığa meyl bir o qədər güclü olacaq. Başqa sözlə, *zorakılıq zorakılığa əl atanın zəifliyindən qaynaqlanır*. Məhz buna görə Qandi deyirdi ki, «qeyri-zorakılıq yalnız güclülərin silahıdır». İkinci səbəb qarşı tərəfin etiraf edilməməsi və hər fürsətdə onun *şəxsiyyətini alçaltmaq* cəhdidir. Əslində siyasi mübarizədə fərdin *sosial mövqeyi* ilə onun *qrupdaxili mövqeyi* eyni olmur. Bu iki mövqe eyni cür yanaşma *vulqar siyasiləşmənin* nəticəsində meydana çıxır ki, bu da yalnız *fərdi maraqlar sferasında* özünü doğruldur. Yəni hər hansı bir fərdin - istər iqtidar, istərsə də müxalifət olsun - mənsub olduğu cəbhənin mövqeyindən çıxış etdiyinə görə ona qarşı *fərdi mübarizə aparılması* gec-tez zorakılığı doğurur. Hakimiyyətlər tərəfindən

isə qrup mövqeyinə görə fərdə yanaşma *siyasi təqibin* əsasında durur. Əslində bu məsələ bir-biri üçün *streotip* yaratmaqla müşayət olunur. Başqa sözlə, «İqtidarda filankəs pis, filankəs yaxşıdır» kimi və «müxalifətdəsənsə düşmənsən» kimi yanaşma zorakılığa səbəb olur. Üçüncü səbəb qarşı tərəfi tamamilə məhv etmək niyyətidir. Bunun problemin həllinə aidiyyatı olmadığından belə üsul bir tərəfdən qarşılıqlı düşmənçiliyi artırır, digər tərəfdən problemləri bir az da düyünə salır. Zorakılığa aparan yol dialoqdan imtinadan, qeyri-zorakılıq isə problemin dialoq yolu ilə həll edilməsindən keçir. Dördüncü səbəb etika məsələsidir. Etika ictimai münasibətlərin mənəvi qanunudur, *siyasi etika* da siyasi oyun qaydalarıdır. Siyasi mübarizədə etik çərçivə tərəfləri zorakılıqdan sığortalayır. Buna görə də qarşılıqlı hörmətlə aparılan mübarizə qeyri-zorakılığa səbəb olur. Məhz buna görə qeyri-zorakılıq fəlsəfəsinin yaradıcılarından biri L.Kinq deyirdi: «Öz düşmənini sev». Sevgisiz mübarizədə zorakılıq yalnız rəqibə istiqamətlənmir, zorakılığın çox asanlıqla və eyni amansızlıqla öz tərəfdarlarına qarşı tətbiqinə gətirib çıxarır. Hitlerin və Stalinin öz tərəfdarlarına qarşı tutduqları qanlı divan bunu bir daha sübut edir.

Qeyri-zorakılığın əsas səbəbi *avtonom fəaliyyətdir*. Əslində cəmiyyətdə sakitlik yaratmağın arxasında hər hansı müstəqil və avtonom fəaliyyəti qadağan etmək niyyəti durur. Avtonomluğun rolu ondan ibarətdir ki, fərdin zorakı və ya qeyri-zorakı yola düşməsi onun şüurunda baş verdiyindən, rəqibin bunda heç bir rolu yoxdur. Bu baxımdan sakitlik şəraitində guya «vətəndaşları zorakılıqdan uzaqlaşdırmaq olar» kimi fikrin elmi əsası yoxdur. Sakitlikdə *konformizm* yaranır. Sabitlik isə *nonkonformizmə* səbəb olur. K.C.Hortona görə, «Nonkonformizm – öz şəxsi özünəməxsuzluğundan başqasını qəbul etməmək…daha aktiv insan şüurunun vəziyyətinə uyğundur». Göründüyü kimi, nonkonformizm hər şeydən əvvəl aktiv şüurun – azad şüurun nəticəsidir. Vətəndaşlar nə qədər konformizmə məruz qalırlarsa, onlarda bir o qədər passiv şüuri vəziyyət yaranır. Passiv şüur isə köləliyə səbəb olur. Bir qayda olaraq istismar və ya təzyiq fərdi şüurda tabeçiliklə hakimiyyətə müqavimət arasında konflikt yaradır və fərd üç yoldan birini – ya *tabe olmağı*, ya

uyğunlaşmağı, ya da *müqavimət göstərməyi* seçir. Bu seçimdə yenə də rəqibin rolu yoxdur. Jak Semlen yazır: «Özünü müstəqil hesab etməyən fərd əsil həqiqətdə tələyə düşür. Fərdlər onları sosial statusla, iş yeri ilə, mənzillə və ailəsi ilə şantaj edən dövlətin tam tabeçiliyinə keçir». Dövlətin tələsinə düşən fərd *naməlum şəxsə* çevrilir, o öz içində zorakılıq meylini hifz edir və onu qeyri-müəyyən gözlənilməz və qəfləti formada üzə çıxarır. Karen Lebak naməlumluğu «Allah rolunda çıxış etmək» kimi dəyərləndirir və həqiqətən davranışları naməlum, gözlənilməz və qəfləti olan özünü Allah rolunda görür və ağlına gələni edir. Avtonomiya isə öz-özünə öz hüququnu dərk etmək, öz fəaliyyətini qeyri-zorakı qurmağın yeganə yoludur. *Avtonom şəxs məlum şəxsdir*. Onun davranışları qabaqcadan elmi təhlilə uyğun olur. Belə insan özü-özünə sahiblik edir. J.Semlenə görə, «avtonomiya özü-özünə cavabdehlikdir». Zorla tabe etdirilən insanın davranışlarına cavabdehliyi tabe etdirən daşıdığından, sakitlik vəziyyətində fərd cavabdehlik hissindən məhrum olur və belə fərd istənilən zorakılığa - terrordan tutmuş qəsdə qədər hər şeyə hazır olur. Məhz terroristlərin hazırlanması da buna görə əvvəlcə möhkəm tabeçiliklə başlayır. Bu yol bütün *destruktiv kultlar* üçün xarakterikdir. Nə üçün avtonomiya cavabdehlik yaradır? Məsələ burasındadır ki, «fəaliyyətlə özünü şəxsiyyət kimi dərk etmək arasında didektiv rabitə vardır, özünü dərk artıq fəaliyyətdir, fəaliyyət insanı şəxsiyyət kimi yüksəldir». Şəxsiyyət isə qeyri-zorakılıqda funksiyalaşdığından, qeyri-zorakılığa cəhd edir. Bu baxımdan *ifrat tabe etdirilmiş fərd fəaliyyət azadlığından, fəaliyyət azadlığı olmayan özünü şəxsiyyət kimi dərk etməkdən, şəxsiyyət kimi özünü dərk etməyən isə qeyri-zorakılıqdan imtina etmiş olur*. Yəni qeyri-avtonom şəxs zorakılığa, avtonom, azad şəxs qeyri-zorakılığa meylli olur. Bu baxımdan bundan əvvəl «demokrat necə yetişir» məsələsi ilə bağlı yazdığımız fərdin avtonom və spontan fəaliyyətinin nə üçün birbaşa demokratikləşməyə səbəb olması aydınlaşır. Xüsusilə bir məsələyə diqqət etmək lazımdır. İstər iqtidar, istərsə də müxalifət qeyri-zorakılığı hakimiyyət uğrunda mübarizədən imtina kimi dəyərləndirirlər, digərləri isə qeyri-zorakı yolu «*sifətin itirilməsi*» kimi başa düşür. Bu fikirlərin hər ikisi köklü şəkildə yanlışdır. Jak Semlen bununla bağlı

yazır: «Qeyri-zorakılıq hakimiyyətdən imtinaya gətirmir, mərkəzləşmə hakimiyyət yaradır, vətəndaşlara imkan verir ki, özü cəmiyyəti idarə etsin…kimin ki, daxili təməli yoxdur, ekstremal vəziyyətdə insanlıq sifətini itirir, istismarçının qarşısında alçalır, əxlaqı deqradasiya olunur və gec-tez fiziki məhv olur». Beləliklə, yalnız mənəvi və ideoloji hazırlığı olmayanlar qeyri-zorakılığa keçəndə özlərini itirirlər. Bu baxımdan bütün kultlar yalnız zorakılıqda öz tərəfdarlarını «qoruyub saxlaya bilirlər».

Yuxarıda postsovet respublikalarında gedən inkişaf meylinin qaçılmaz olaraq iqtisadi və siyasi monopoliyaya gətirib çıxardığını qeyd etmişdik. Bunlar isə son nəticədə *zorakılığın monopoliyalaşmasına* gətirib çıxarıb.

Haşiyə: Əslində dövlət monopoliya və konsentrasiya prosesinin məhsuludur və dövlətdə monopoliya ilk növbədə zorakılığın monopoliyaya alınması ilə başlayır. M.Veber zorakılıqla dövlət arasındakı əlaqə haqqında yazır: «Zorakılığın qanunla monopolyallaşması dövlətin əsas anlayışıdır». Dövlətin zor aparatı olması haqqında mövcud ictimai fikir də bunu təsdiq edir, amma zorakılığın necə və hansı məqsədlə monopoliyaya alınması, dövlət həyatında və idarəetmədə onun rolu və yeri artıq ciddi siyasi məsələdir və cəmiyyətin tipini, dövlətin formasını müəyyən edir. Digər bütün cəmiyyətlərdən fərqli olaraq *zor yalnız demokratik cəmiyyətdə və demokratik dövlətdə ən axırıncı instansiya kimi çıxış edir, cəmiyyətdə zorakılığın məhdudlaşdırılması və sərt qaydada sanksiyalaşdırılması – qanunla monopoliyalaşdırılması həyata keçirilir.* Dövlətdə sanksiyalaşmamış zorakılıq o qədər mənfi əhəmiyyət kəsb edir ki, Monten orta əsr Fransasında baş vermiş bir hadisəni bütün hökmdarlar üçün nümunə gətirir. Həqiqətən olmuş və orta əsr səlnamələrinə düşmüş həmin hadisə haqqında Monten «Təcrübələr»ində yazır: Orta əsrlərdə Fransada kral hakimiyyətində uzun illər Delomonlar nəsli cəlladlıq vəzifəsini tutmuş və kralın əmri ilə edam cəzalarını icra etmişlər. Bir dəfə kralın əmri ilə bir zadəganın başını vurduqdan sonra delomonlardan olan cəllad krala xoş gəlmək üçün kəsilmiş başın yanağına bir şillə vuraraq - «krala ağ olanların sonu belə olur» demişdir. Edam prosesinə şəxsən tamaşa edən kral cəlladın bu hərəkətindən qəzəblənə-

rək «mən sənə onun başını kəsməyi əmr etmişəm, ona şillə vurmağı yox» deyib həm cəlladı ağır cəzalandırmış, həm də bütün Delomonlar nəslini cəlladlıq vəzifəsindən məhrum etmişdi. Bu hadisə sanksiyalaşdırılmamış zorakılığın nə qədər bağışlanmaz olduğunu və hakimiyyətdəkilərin belə hərəkətlərə necə sərt reaksiya vermələrinin lazım gəldiyini göstərir. Amma *təzyiq altında əldə edilən stabillik şəraitində dövlət məmurlarının sanksiyalaşmamış zorakılığı adi hala çevrilir.* Məhz buna görədir ki, indi neototalitar cəmiyyətlərdə vətəndaşların qeyri-qanuni polis zorakılığına, işgəncəyə, qeyri-insani rəftara məruz qalması geniş yayılıb.

Təzyiq altında əldə edilmiş «stabillik» həm iqtidarı, həm müxalifəti, həm də onlar arasındakı qarşılıqlı münasibətləri durmadan pisləşdirir. Sanksiyalaşmamış zorakılıq dövlətdə *destruktiv kultun,* müxalifətdə *kollektiv mobilizasiyanın* yaranması ilə müşayət olunur. İqtidarda destruktiv kultun yaranması ilə *monopoliya ideologiyalaşdırılır*. Qeyd etmək lazımdır ki, monopoliyanın bir obyektiv səbəbi də dövlətin əsas anlayışlarından olan *mərkəzləşmənin ifratlaşması* ilə sıx bağlıdır. Amerikan filosofu Durant yazır ki, «hər bir dövlət öz prinsiplərini ifratlaşdırması ilə məhv olur». Amma dövlət özü məhv olmamışdan qabaq prinsiplərinin ifratlaşması ilə cəmiyyəti və insanları məhv edir. F.Engels «Mərkəzləşmə və azadlıq» adlı məqaləsində yazır: «Mərkəzləşmə – dövlətin mahiyyəti və həyati siniridir, yalnız bununla o bəraət qazanır. Hər bir dövlət zərurətə görə mərkəzləşməyə cəhd etməlidir, hər bir dövlət mütləq monarxiyadan respublikalaradək mərkəzləşmişdir. Mərkəzləşdirilmiş mahiyyət o demək deyil ki, onun mərkəzi mütləq monarxiyada olduğu kimi, bir və yeganə şəxs olsun, yalnız odur ki, mərkəzdə, respublikada prezident olduğu kimi, ayrıca bir adam olsun. Unutmaq olmaz ki, burada başlıcası mərkəzdə dayanan şəxsiyyət yox, mərkəzin özü olsun». Mərkəzləşmənin ifratlaşdırılması dövlətin həm də fərdə, xalqa, siyasi partiyalara, QHT-lərə və s. aid olan hüquqları özünə götürməsi ilə baş verir. Mərkəzləşmə prinsipinin ifratlaşması isə ona gətirib çıxarır ki, *ayrıca bir şəxs mərkəz elan olunur*. Beləliklə, bir tərəfdən monopoliya, digər tərəfdən mərkəzləşmə prinsipinin ifratlaşması hakimiyyətdə *destruktiv kultun* yaranmasını şərtləndirir və

postsovet respublikalarının demək olar ki, hamısında artıq *destruktiv kult* yaranmış və bu proses günbəgün daha ifrat şəkildə inkişaf etməkdədir. Monopoliyanın bazislə birbaşa əlaqəsi olmadığından, istər kapitalist istehsal üsulunda, istərsə də sosialist istehsal üsulunda bütün ölkələrdə totalitarizm yaradır. Belə ki, istər faşizm, istər sosializm məhz monopoliyanın nəticəsi kimi yaranıb. K.Manheym yazır: «Faşist nöqteyi-nəzəri və marksizm anlamı, son nəticədə mif olan, tarixə, iqtisadiyyata və quruluş qarşılıqlı əlaqələrinə də sosial faktor kimi baxır». Monopoliyanın *reaksion quruluşlar* doğurması vaxtilə hətta V.İ.Leninin də diqqətini çəkmişdir. O, «Marksizmə karikatura» adlı məqaləsində yazır: «Yeni iqtisadiyyat üzərində siyasi üstqurum demokratiyada siyasi reaksiyaya doğru dönüşdür. Azad rəqabət demokratiyaya xasdır. Monopoliya siyasi reaksiyaya uyğundur». Başqa sözlə, iqtisadi inkişafı monopoliyalaşdırmaq öz arxasınca siyasi həyatın monopoliyaya alınmasını – opponentləri məhv etməyi, narazıları müxtəlif üsullarla susdurmağı, hakimiyyəti ən müxtəlif yollarla əlində saxlamağı tələb edir. Bu da, destruktiv kultun əsas fəaliyyət istiqamətlərinə çevrilir. Faşist Almaniyasında Hitlerin, SSRİ-də Stalinin və Kambocada Pol Potun yaratdığı destruktiv kult da məhz bu yolla yaranmışdır. Beləliklə, təzyiq altında sabitlik, monopoliya, mərkəzləşmənin ifratlaşması birlikdə totalitarizmin anatomiyasını təşkil edir. Unutmaq olmaz ki, *münasibətlərin mexaniki saxlanmasının totalitarizmə gətirib çıxarması subyektiv yox, obyektiv qanunauyğunluqdur və demokratiyaya görə sabitliyə birincilik verən istənilən cəmiyyətin qaçılmaz sonluğudur.*

Nə üçün təzyiq altında nəyin bahasına olursa-olsun «sabitlik» totalitarizmi doğurur? Birincisi, inkişaf əksliklərin ziddiyyəti və vəhdəti qanununa tabe olur. Əgər əkslik birtərəfli inkişaf edirsə, vəhdətdən məhrum olur. Nəticədə inkişaf dayanır, yaranmış durğunluqda reaksiya inkişaf edərək cəmiyyəti totalitarizmə aparır. Halbuki, dialektikanın qızıl qanunu əksliklərin vəhdətdə inkişafını tələb edir. İqtidar-müxalifət münasibətləri də siyasi inkişafın əsasında duran əksliklərin tərəfləridir və onlardan birinin digərindən fərqli şərtlərdə inkişafı siyasi durğunluğa səbəb olur. Məşhur amerikan sosioloqu U.C.Mak-Qayr «İn və Yanın tərəqqisi» adlı nəzəriy-

yəsində əksliklərin inkişafında yeddi prinsipin rəhbər tutulmasının vacibliyini qeyd edir. Haşiyəyə çıxım ki, «in» və «yan» özündə mənfi və müsbət, xeyir və şər, iqtidar və müxalifət kimi ikililiyin qədim Çin simvollarıdır və istənilən əkslikləri simvolizə edir. Mak-Qayr nəzəriyyəsində birinci prinsip – *hipotez prinsipi* adlanır və hər hansı hipotezin üç fazadan – formalaşma, yoxlama və yaradıcı fazalardan keçərək yoxlanılmasını ön görür. Neototalitar ölkələrdə iqtidarlar yalnız özlərini haqlı və hüquqlu hesab edərək cəmiyyət inkişafının bütün sahələrində, heç kimlə məsləhətləşmədən proqramlar həyata keçirirlər. Hətta bəzən ifrata vararaq fərdi inkişafı da nəzarətə alırlar. Lakin bu hipotezin formalaşması, xüsusən onun yoxlama fazası əksliklərin tərəqqisi nəzəriyyəsinə ziddir. Neototalitarlar «parnik müxalifəti» yaratmaqla, guya onlarla birgə proqramlar hazırladıqlarını bəyan etməklə vəziyyətdən çıxmağa cəhd etsələr də əsl həqiqətdə işin mahiyyəti dəyişmir. Mak-Qayr nəzəriyyəsinin ikinci prinsipi – *xaosda həqiqəti tapmaqdır*. Neototalitar cəmiyyətlərdə stabillik hər hansı xaosa yol verilməmək anlamında qəbul edilir və buna görə də iqtidardakılar ictimai inkişafın həqiqətinə vara bilmir. Xaos haqqında G.Ellis yazır: «Tərəqqi adlandırılan hər şey özündə bir xaos sayılanın başqası ilə dayanmadan əvəzlənməsidir». Məhz buna görə xaosun qarşısının alınmasına prioritetlik verən heç bir cəmiyyət inkişaf etməyib. Qeyd etmək yerinə düşər ki, iqtidarların xaosu hissəvi anlaması və xaosa aparan konfiliktləri təzyiq altında saxlamasına və bu zaman ifrata vararaq hətta *konstruktiv konfliktləri* də sıradan çıxarmaq cəhdinə səbəb olur. Birincisi, xaos stabillik qədər cəmiyyət həyatı üçün vacibdir və stabilliyin əksi olduğundan, əksliklərin tərəqqisi qanununa görə, *xaosun da tərəqqi haqqı* var və bizim istəyib-istəməyəcəyimizdən asılı olmayaraq istənilən cəmiyyətdə xaos qaçılmaz olaraq inkişaf edir. Xaosun tərəqqi haqqına malik olmasının bariz nümunəsi kapitalizmdə *dövrü böhranların baş verməsidir*. İkincisi, xaos sadəcə olaraq tərəqqi haqqına malik deyil, o həm də stabillikdən fərqli olaraq cəmiyyətin növbəti inkişafı üçün *radikal ideyaların* doğulmasını stimullaşdırır. E.Töffler və X.Töffler «İnqilabi sərvət» adlı kitablarında yazırlar: «Xaos – həqiqətin hissəsidir və xaosun özü yeni ideyalar hazırlayır». Üçüncüsü,

xaos yalnız yeni ideyalar hazırlamır, həm də cəmiyyətdə *yeni nizam mənbəyi* kimi çıxış edir. Belə ki, sinergetik sistemlərin qızıl qanununa görə, ilkin xaosdan əbədi kosmik qanunların yaranması baş verib. Başqa sözlə, xaosla nizam qarşılıqlı determinasiya vəziyyətindədir. Xaosun olmaması səbəb kimi yeni nizamın da ortalığa çıxmasına imkan vermir. Dördüncüsü, əslində xaos *azadlıqların* yol yoldaşı olduğundan, stabillik yaratmaq xaosla birgə azadlıqların boğulmasını şərtləndirir. *Xaos nizamsız-irrasional azadlıq vəziyyətidir.* Məhz nizamın yaranması ilə xaosdan rasional azadlıq doğur. Xaosun azadlıqla əlaqəsini dünyanın ən nəhəng imperiyası – Roma imperiyasının nümunəsində Makiavelinin məşhur «Hökmdar» adlı kitabında yazdığı fikirlərdən görmək olar. O, yazır: «Harada ki, material korlanmayıb, ixtişaşlar və başqa çəkişmələr heç bir ziyan gətirmir, o zaman ki, o korlanıb, hətta yeni qanunlar da kömək etmir. Pozğun xalq azadlıq əldə etsə də, azad qalması olduqca çətindir… Əyanlarla Plebeylərin arasındakı Romada baş verən ixtişaşlar azadlıqların saxlanmasının başlıca səbəbi olub. Kim ki, Roma ixtişaşlarını tədqiq edib, aşkar edib ki, onlardan ümumi rifaha ziyan vuran sürgün və zorakılıq yox, ictimai azadlıqları möhkəmləndirən qanunlar meydana çıxıb». Buna görə də, Makiavelli hökmdarlara ixtişaşları yatırmağı yox, xalqın materialının yaxşılaşdırılmasını məsləhət görür, hansı ki, sakitlik şəraitində həmin material tamamilə korlanır. Roma imperiyasının süqutunda məhz nəhəng güc hesabına Roma cəmiyyətində yaradılmış sakitliyin vətəndaşları pozğunluğa düçar etməsi olmuşdur və hətta hakimiyyətə Heron, Kaliqula və s. kimi dünyada misli görünməmiş əxlaqsızların gəlməsini stimullaşdırmışdır. Tərəqqinin tənəzzüllə əvəzlənmə qanunu da kimsənin tənəzzülü və bundan doğan xaosu dayandırmağı bacarmayacağını sübut edir. Əksinə, iqtidarlar xaosu qarşılamaq və idarə olunmasını öyrənməklə, bunu bacarmaqla inkişafı təmin edə bilərlər. Bu dediklərimiz bir daha xaosdan həqiqəti tapmaq prinsipinin düzlüyünü sübut edir. Amma xaosdan həqiqəti tapmaq üçün xaos, xaos üçün əksliklərin ziddiyyəti, bunun üçün isə *yumşaq sabitlik* tələb olunur. Bu o demək deyil ki, azadlıq üçün və ya ictimai nizam naminə mütləq günü şəkildə xaos yaradılmalıdır. Buradan çıxan nəticə odur ki, *cəmiyyə-*

tin və dövlətin inkişafını ləngitmək əvəzinə təbii inkişafa nail olmaq, bu zaman isə yaranan xaosdan həqiqəti taparaq cəmiyyəti yeni nizama, azadlıqlara, mənəvi kamilləşməyə çıxarmağa cəhd etmək lazımdır. Məhz rasionalizm də bundan ibarətdir. Mak-Qayr xaosdan həqiqət tapmaq prinsipi ilə bağlı yazır: «Bizim kornitiv və sosial sistem mürəkkəbdir, proseslərin sadə xətti modelləri bu mürəkkəb sistemi təhlil edən everestika xeyirli olmamağa başlamışdır». Bu baxımdan gələcək inkişafı ilə bağlı xətti modelin tətbiqi nəinki xeyirli deyil, əksinə, dövlət və cəmiyyət üçün olduqca ziyanlıdır. Bu həm də iqtidar-müxalifət əksliyinin mövcud olduğu məkanın – demokratiyanın məntiqinə və əksliklərin tərəqqisinə uyğun deyil. Tərəqqi nəzəriyyəsinin digər bir prinsipi *müşahidə obyekti* ilə bağlıdır. Mak-Qayr nəzəriyyəsi deyir ki, «müşahidə edin, amma göstəriciləri yox, insanları». Neototalitar liderlərin öz siyasətlərinin düzlüyünü sübut etmək üçün göstərdikləri arqumentlər əsasən iqtisadiyyatda müşahidə edilən göstəriciləri – ÜDM-nin artımı, yoxsulluğun azalması, adambaşına düşən gəlirlərin artması, əməkhaqlarının və təqaüdlərin yüksəlməsi, işsizlik həddinin aşağı salınması, milli gəlirlərin çoxalması, tikinti bumu və s. kimi göstəricilər təşkil edir. Amma bu göstəricilərin arxasından bu coğrafiyada yaşayan insanların real həyat şərtləri - ölkəni tərk edən milyonların taleyi, fahişəliyin artması, cinayətlərdə baş verən keyfiyyət dəyişilmələri, cinayətkarlığın dövlət orqanlarına sirayət etməsi, taleyin ümidinə buraxılmış kimsəsizlər ordusu, sürətlə radikal qüvvələrin alətinə çevrilən gənclər, evsizlər, dilənçilər və s. kimi ürək ağrıdan insan taleləri gizlədilir. Bütün bu göstəricilərin mənəvi, siyasi inkişafa, başqa sözlə, insan göstəricilərinə necə təsir etməsi haqqında isə kimsə düşünmür. Əksliklərin tərəqqisi nəzəriyyəsinin digər bir prinsipi *«gələcəyi indidə gör, keçmişi indidə axtar»*maqdan ibarətdir. Saydığımız insani fəlakətlərin içərisindən gələcək necə görünür, doğulmamışdan xarici borclanan, gələcəkdə enerji daşıyıcılarının qıtlığından, ağır şərtlərə düşəcək ekoloji və mənəvi problemlərin məngənəsində təkbətək qalacaq gələcəyi indidən görmək çətin deyil. Niyə bunlar baş verir? Bu sualı «keçmişi indidə tapmaqla» cavablandırmaq olar. Uzun illər Çar və Sovet Rusiyasının əsarətində qalaraq

milli kimliyini unudan, totalitar cəmiyyətdə yaşamaqla azadlığı yadırğamaq, milli həmrəylik əvəzinə qrup və tayfa maraqlarından çıxış etmək indinin faciələrinin əsasında durur. Əgər tərəqqi istəyiriksə, köhnə mirasdan – totalitarizmdən, əsarətdən, sərvət hərisliyindən, xüsusən materializmin iti caynaqlarından azad olmalıyıq. Postsovet cəmiyyətlərində insanlar sərvəti birinci yerə qoymaqla, əslində evlərinin qapılarını taybatay şərin üzünə açmışdır. Əksliklərin tərəqqisi nəzəriyyəsinin digər prinsipi – «*Yoxsulların sərvətidir*» - bu prinsip cəmiyyətin «enerjinin itməməsi» qanununa tabe olduğuna əsaslanır. Əgər sərvəti sosial enerjinin başlıca mənbəyi kimi götürsək, onda yoxsullaşan təbəqələrin itirdiyi sərvət yox olmur, o bir formadan başqa formaya çevrilərək varlıların sərvətini təşkil edir. Qeyri-adi bahalı avtomobillər, xaricdə və daxildə nəhəng yığımlar, dünyada analoqu olmayan bahalı həyat məhz neototalitar cəmiyyətlərin yoxsullarının sərvətindən başqa bir şey deyil. Bu da bilavasitə sakitlik məsələsi ilə bağlıdır. Əgər cəmiyyətdə orta təbəqənin mövcudluğunu sabitliyin və ictimai ədalətin göstəricisi kimi qəbul ediriksə, onda neototalitar cəmiyyətlərdəki kimi ifrat təbəqələşmiş cəmiyyətdə hansı sabitlikdən danışmaq olar? Neçə ki, postsovet respublikalarında ədalətsiz yoxsulluğa qarşı mübarizə, ədalətsiz varlanmaya qarşı mübarizə ilə birlikdə getmir, heç vaxt həqiqi sabitliyi təmin etmək mümkün olmaz. Bu da bir daha əksliklərin tərəqqisi ilə bağlıdır. Əksliklərin tərəqqisi nəzəriyyəsinin bir prinsipi də «*böyük həqiqətin əksində həmişə həqiqət var*»dır. Həm də bəzən *kiçik həqiqətin əksində böyük həqiqət* var. Məhz buna görə həqiqəti öyrənmək naminə ən qanlı diktatorlar, tiranlar və despotlar belə, əks tərəfi dinləməyə cəhd etmişlər. Demokratiya isə tələb edir ki, tərəflər daim bir-birini dinləsinlər və hər tərəf əks tərəfdə olan həqiqəti bilsin. Amma total sakitlik şəraitində opponentlərin susdurulması ilk növbədə iqtidarı əks tərəfdə olan həqiqətləri öyrənməkdən məhrum edir. Nəticədə iqtidar istər-istəməz hissəvi həqiqətə malik olur ki, əvvəlcədən də qeyd etdiyimiz kimi, həqiqətin hissəvi dərki iqtidarları süni sosial mühəndislik yoluna salır və bu da digər ölkələrdə olduğu kimi totalitarizmə gətirib çıxarır. Unutmaq olmaz ki, bu cəmiyyətlərdə fəaliyyət göstərən müxalifətin də iqtidar tərə-

fində olan həqiqəti bilməməsi siyasi reallıqların hissəvi anlamına səbəb olaraq onları səhv yola salır. Bu baxımdan da həqiqət naminə iqtidar-müxalifət dialoqu vacibdir. Göründüyü kimi, əks tərəfin həqiqətini bilməmək və ya onu qəbul etməmək hər iki tərəfi zəiflədir. Əksinə, *tərəflərin bir-birinin həqiqətini bilməsi hər ki tərəfi gücləndirir.* Müasir inkişaf etmiş Qərb demokratiyası məhz bu yolla getdiyi üçün inkişaf etməkdədir. Əksliklərin vəhdətdə olduğu bir vəziyyətdə «güclü iqtidar, güclü müxalifət» modeli yaranır. Total sakitlikdə isə «güclü iqtidar, zəif müxalifət» meydana çıxır ki, müxalifətin zəifliyi son nəticədə iqtidarın daxili aşınmasına səbəb olaraq onun süqutu ilə nəticələnir. Keçmiş SSRİ-də hakim partiyanın hər hansı müxalifətinin olmaması onun dağılmasının başlıca səbəbi olmuşdur. Bunun elmi şəkildə sinergetik sistemlərin qanunauyğunluğu ilə izah etmək olar. Q.Haken «Sinergetika. Özünütəşkil edən sistemlərdə və quruluşlarda qeyri-tarazlığın ierarxiyası» adlı kitabında yazır: «Nizamlanmış vəziyyətdə müxtəlif tip tərəddüdlər (dövrü tərəddüdlər) eyni tezliklə və ya bir neçə tezliklə (kvaziodövrü tərəddüdlər) əmələ gələ bilər. Sistem həmçinin təsadüfi hərəkət edə bilər (xaos)». Göründüyü kimi, əgər sabitlik zəruri hərəkətliliyin – müxalifətin planlı hərəkətlərinin qarşısını alırsa, onda sistem qanunauyğunluğuna əsasən cəmiyyət təsadüfi hərəkət edəcək, yəni xaos yaranacaq.

Sakitliyin əksliklərin tərəqqisini nəzərə almadan təmin edilməsinin yeganə yolu *polis rejimi* yaratmaqdan keçir ki, indi neototalitar cəmiyyətlərdə müxalifət zəiflədiyindən, tərəqqi birtərəfli baş verdiyindən və iqtidar-müxalifət razılaşması olmadığından, başqa yolla sakitliyə nail olmaq mümkün deyil. Polis rejiminin yaradılması da yuxarıda qeyd etdiyimiz destruktiv kultun yaranması ilə bağlıdır. Sosioloq Stiven Hassen «Psixoloji zorakılıqdan azadlıq» adlı kitabında destruktiv kultun əmələgəlmə səbəbləri haqqında yazır: «Lider qeyri-məhdud hakimiyyətə malik olanda qrup destruktiv olur». Haşiyəyə çıxım ki, demokratiyadan kənarda qalan bütün siyasi sistemlərdə istisnasız olaraq liderlər qeyri-məhdud hakimiyyətə cəhd edirlər. Hassen destruktiv kultun gördüyü işlər haqqında daha sonra yazır: «Destruktiv kultun yaranması ilə bir nəfər avtoritar idarə edən

qrupun öz həmvətənləri üzərində tam nəzarəti ələ alır, öz tərəfdarlarını ətrafında saxlamaq üçün şüurun üzərində nəzarətə cəhd edir, düşüncəyə nəzarəti – müstəqil düşüncəni məhv etmək yolu tuturlar, davranışa nəzarət edirlər, insanların fiziki varlığını tənzimləyirlər, öz doktrinalarını mütləq həqiqət kimi qəbul etdirirlər, informasiyaya nəzarət yaradırlar, özünüdərki zəiflədir – hissi diapazonu daraldırlar». Birincisi, *psixoloji zorakılıq* haqqında. Psixoloji zorakılıq müxtəlif növ *psixi travma* nəticəsində yaranan psixoloji vəziyyətdir. Belə vəziyyətə həm xarici faktorlar, məsələn, yaşanan hadisələr, sosial mühit, həm də daxili faktorlar - daxili travmatik xəstəlik və ya funksional pozğunluqlar səbəb olur. Psixoloji zorakılıq – *şüur səviyyəsində zor tətbiq etməyə hazırlanmaq və qeyri-adekvat cavab reaksiyası* kimi xarici hadisələrdə iştiraka meyldən ibarətdir. Bu baxımdan neototalitar cəmiyyətlərdə iqtidarların önləyici tədbirlər kimi, mütəmadi olaraq, KİV-dən asayişi pozmağa cəhd edən – yəni hakimiyyət uğrunda razılaşdırılmamış aksiyalar keçirməyə cəhd edənlərin ünvanına aşkar hədələyici çıxışlar etməsi onlarda dərin psixoloji zorakılığa hazırlığın getdiyini sübut edir. Belə psixoloji hazırlıq vəziyyətində olanlar isə hətta rəqabətdən kənar münasibətlərdə də zorakılığa əl atmağa meylli olurlar. Postsovet respublikalarındakı siyasi passivlik fonunda belə davranışların müşahidə olunması heç də doğrudan-doğruya müxalifətdə *kollektiv mobilizasiyanın* mövcudluğunu yox, iqtidardakılarda psixoloji zorakılığın formalaşmasını sübut edir. Psixoloji zorakılığın mövcudluğu zorakı siyasi mübarizəyə zəmin yaratdığından, qeyri-zorakılığın ideoloqlarından məşhur Amerika sosioloqu Şarp altı prinsip müəyyənləşdirmişdir ki, onlardan biri də məhz «*psixoloji səviyyədə zorakılıqdan imtinadır*». Neototalitar dövlətlərin iqtidarlarının davranışları birmənalı şəkildə artıq onlarda destruktiv kultun yarandığını sübut edir. Bu da total sakitliyin ən ağır sosial nəticələrindən biri kimi iqtidarlı-müxalifətli bütün cəmiyyəti təhdid edir. Destruktiv kultdan iki yolla xilas olmaq olar – fərdləri öz güclərinə inandırmaqla, şəxsi inkişaflarına səy etmələrinə nail olmaqla, qlobal birliklərlə qarşılıqlı asılılığı gücləndirməklə. Lakin neototalitarların xarici siyasətində qlobal güclərlə qarşılıqlı asılılığın əleyhinə olan xətt götürülməsi bu imkanı sıfıra endirir. Beləliklə, uzun-

müddətli total sakitlik şəraitində bir tərəfdə müxalifətdə və xalqda - kollektiv mobilizasiyanın inkişaf etməsi, digər tərəfdə, iqtidarda - destruktiv kultun formalaşması əksliklərin harmonik tərəqqisinin pozulması nəticəsində *konfliktlərin eskalasiyasına* gətirib çıxarmışdır. Konfliktlərin eskalasiyası isə konfliktologiya elminin sübut etdiyi kimi, *humanistsizləşmə*, gücə haqq qazandırmaq, *özüşəxsizləşdirmə effekti* – aqresiyaya yol açan keyfiyyətlərin yaranması ilə nəticələnmişdir. Bu da siyasi münasibətlərdə ən müxtəlif zorakılıq formaları – terror, repressiya, sui-qəsd, işgəncə, qeyri-insani rəftar və s. təzahürləri adi hala çevirir. 11 sentyabr olayından sonra bütün dünya qəbul edir ki, *terrorun başlıca səbəbi uzunmüddətli total sakitliyin hökm sürdüyü antidemokratik ölkələrdir,* hansı ki, terrora qarşı mübarizə bu ölkələrin müstəqilliyini və suverenliyini nəzərə almamağa əsas verir. Məhz buna görə suveren İraq işğal olundu. Bu baxımdan sabitlik paradiqması həm də neototalitar dövlətlərin müstəqilliyi və suverenliyi üçün real təhlükələr vəd edir.

Total sabitliyin nəticəsində yaranan *repressiv-aqressiv münasibətlər* sistemində *şəxsi məsuliyyətdən qaçma* və qanun qarşısında cavab verməkdən yayınma *hücumçu rəqabət* strategiyasını şərtləndirir. Belə strategiya izləyən iqtidar həbsxanaların sayını, ordakı insanların kütləsini və orda insanlara qarşı qeyri-insani davranışları stimullaşdırır. Həbsxanaların yaradılması öncə psixoloji səviyyədə başlanır. Kult nəzarətinin həyata keçirilməsində mühüm rol oynayan *psixoloji həbsxanalar yaratmaq* destruktiv kultun bir nömrəli vəzifəsidir. Psixoloji həbsxanada fərd həqiqi şəxsiyyətindən ayrılaraq qrupdan, mənsub olduğu partiyadan və hakimiyyət komandasından asılı olan yeni şəxsiyyətlə əvəzlənir. Bəzi adamların adi halda bir cür, hakimiyyətdə başqa cür düşünməsi və davranışı onun psixoloji həbsxanaya düşməsini göstərir. Psixoloji həbsxanadan qaçanlar və ya oraya düşmək istəməyənlər, buna aktiv müqavimət göstərənlər isə *real həbxanalara* doldurulur. *Elə bir totalitar rejim mövcud olmayıb ki, öz siyasətini həbsxanalarsız həyata keçirsin.* Qeyri-repressiv rejimlərdə məhbusların sayının az olması, qeyri-insani davranışlara yol verilməməsi də buradan qaynaqlanır. Sabitliyin mexaniki saxlanması şəraitində hər şeydən əvvəl *iqtidar qrupu sərtləşir*. Belə

«sərt təşkil olunmuş qrupda düşmən axtarmaqla məşğul olur, belə qrup real olmayan xarici təhdid hissi ilə fəaliyyət göstərir». Vaxtilə Çin lideri Maoszedun deyirdi ki, *«düşməniniz varsa heç, yoxsa, dostlarınızdan birini düşmən elan edin və onunla mübarizə aparın»*. Əslində bütün totalitar cəmiyyətlər üçün xarakterik olan belə yanaşma konfliktlərin mexaniki saxlanma vəziyyətində də meydana çıxır. Belə ki, müxalifətdən real təhdid olmayanda iqtidarlar «xəyali təhdid» düşünüb tapırlar, onu təhdidedici güc kimi təqdir edirlər. Neototalitar cəmiyyətlərin liderlərinin öz ölkələrində təhlükəli *radikal qüvvələrin* olması ilə bağlı bəyanatlarının və ya süni yollarla müxalifəti təxribata cəlb edib onları destruktiv, qeyri-konstruktiv güc kimi təqdim etmələrinin arxasında da məhz bu amil durur. Bəs bu vəziyyətdən çıxış varmı? Günbəgün artan narazılıq şəraitində konfliktlərin aşkarlanmasına – iqtidar-müxalifət mübarizəsinin qanun çərçivəsində aparılmasına imkan vermək nə kimi sosial nəticələr verə bilər? Birincisi, konfliktlər qarşı tərəfin gücünü ölçmək üçün yeganə meyardır. İqtidarlar məhz aşkar konfliktlərlə narazı kütlənin həcmini öyrənib öz siyasətində düzəliş edir. Kommunikasiyadan, yəni müxalifətlə istənilən davamlı əlaqədən imtina konfliktlərin əsas səbəblərindən biri olduğundan, *kommunikasiyaların yaradılmasına cəhd edilməlidir*. Biz bunun yolu kimi siyasi dialoqu görürük. Konfliktlərin mövcudluğu şəraitində ictimai konsolidasiyaya nail olmaq üçün konfliktlərin bir aspektinə xüsusi diqqət etmək və onu həll etmək lazımdır. Bu həm də konfliktlərin eskalasiyasını azaldır, həm də sosial həmrəyliyə yol açır. İkincisi, konfliktlərin *şəxsləşdirilməsinə imkan verməmək*. Sosiologiya sübut edir ki, şəxsi elementin əsas götürülməsi konflikti kəskinləşdirir. Konfliktlərin obyektivləşdirilməsi, yəni konkret problemin önə çəkilməsi birləşdirici element kimi çıxış edir. Bu baxımdan regional münaqişələr, ciddi iqtisadi böhran əslində Allahın milli həmrəylik yaratmaq üçün bu cəmiyyətlərə verdiyi fürsətdir. Üçüncüsü, konfliktləri yatırmadan onları öz-özünə aradan qaldıracaq *yeni qaydaların yaradılması* zəruridir. Bundan başqa kompromis, razılaşma, məğlubun uda biləcəyi qələbəyə cəhd etmək, əks tərəfə öz iradəsini sırımaqdan imtina, problemin həllində hər iki tərəfin iştirakını təmin etmək, qarşı tərəfi tam

məhv etmək ideyasından çəkinmək və s. istinası. Zorakılığın qarşısını almaqda təsiri vasitələrdir. Bu gün neototalitar cəmiyyətlərdə həqiqi real stabilliyin olmaması, həm iqtidarın, həm də müxalifətin ölkədaxili konfliktlərdə heç bir kompromisə hazır olmaması, hətta milli problemlərin həllində razılaşmaya meyl etməmələri, məğlubun həzm edə bilməyəcəyi və onda revanş hissi yaradacaq qələbəyə cəhd edilməsi, əks tərəfə öz iradəsini zorla sırımaq, konfliktə səbəb olan problemlərin həllində birgə iştirakdan imtina ilə bağlıdır və bu vəziyyətdə *gizli konfliktli situasiyanın* inkişafı neototalitar cəmiyyətlərə yeni-yeni təhlükələr vəd etməklə yanaşı ictimai inkişafa və bu ölkələrin azad dünya ilə inteqrasiyasına imkan vermir. Buna görə də zahiri sakitlik aldadıcı olduğu qədər də təhlükəlidir.

VIII FƏSİL

QLOBALLAŞMA: MİLLİ ŞÜURDAN BƏŞƏRİ İDRAKA KEÇİD VƏ YA DEMOKRATİYADAN LİBERALİZMƏ DOĞRU

«İnsanın elə bir dövrü olub keçmişdir ki, o xatırlanmağa layiq bir şey olmamışdır».

«Qurani-Kərim: Əl-insan və ya Əl-Dəhr surəsi, 1-ci ayə.

«Yalnız vahid tarix var, çünki vahid insanlıq vardır».

E.Mune

«İnsanlığın ümumi gələcəyinə uyğun birgə planlaşdırma ümumi maraqlara uyğundur və buna alternativ - sadəcə hər hansı gələcəyin tamamilə olmayacağıdır».

Purello Peççei

XIX əsrin başlanması ilə dünya qloballaşma mərhələsinə qədəm qoyub. Bu gün dünyada ümumi planda və ayrı-ayrı cəmiyyətlərdə baş verənlər qloballaşma nəzərə alınmadıqda anlaşılan deyil. Təhlil etdiyimiz strategiyada qloballaşma paradiqması ilə bağlı yazılmışdır: «…Geostrateji və geoiqtisadi məsələlər kompleksini həll etmək, ölkənin beynəlxalq münasibətlərinin obyektinə deyil, bu münasibət-

lərin subyektinə çevirmək lazım idi… Yeni Dünya Nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycanın qlobal proseslərdə iştirakının təmin edilməsi son dərəcə zəruridir. Bu həqiqəti başa düşmək baxımından ölkənin siyasi elitası inteqrasiya təşəbbüslərində Azərbaycanın iştirakının təmin edilməsi üçün mühüm amilə çevrilmiş, bir sıra taleyüklü layihələr həyata keçirilmişdir».

Haşiyə: Qeyd etmək lazımdır ki, demokratikləşmənin məkanı da zamanı qədər mühüm məsələdir və tarixin müxtəlif dövrlərində müxtəlif məkanlarda baş vermiş demokratikləşmə fərqli prinsiplər və qanunauyğunluqlarla meydana çıxmışdır. Məhz buna görə də qədim Roma demokratiyası və ya quldarlıq Amerikasının demokratikləşmə qanunauyğunluqları ilə müasir qlobal demokratikləşməni şərh etmək mümkün deyil və belə cəhdlər ciddi səhvdir. Alman sosioloqu K.Manheym müasir dünyada demokratik böhrandan çıxmaq üçün yeni prinsiplərin müəyyən edilməsini zəruri hesab etmiş və öz növbəsində bir çox prinsiplər təklif etmişdir. Bu baxımdan öz ölkələrində demokratikləşmənin XVIII əsr və ya bundan da qabaqkı demokratiya haqqında baxışlara əsaslanaraq qloballaşma prosesinə daxil olan iqtidarların müasir dünya düzənində davranışları da mübahisəli və problematikdir. Birincisi, bu gün qloballaşma nə qədər qarşısıalınmaz ümumdünya tarixi prosesi olsa da, hazırlıqsız bu proseslərə ölkənin qapılarını taybatay açmaq səhvdir. Strategiyaya həsr olunmuş məqalədə də F.Listin belə bir fikri diskurs edilir ki, «Daha çox inkişaf etmiş sənaye cəmiyyətinin daha az inkişaf etmiş sənayeləşmədən əvvəlki və ya yetərincə sənayeləşməmiş cəmiyyətlə toqquşması zamanı… daha çox inkişaf etmiş vəziyyətdə olan sektor daha da inkişaf edəcək və «geridə qalan» iqtisadi sistem daha da miskinləşəcək, deqradasiyaya uğrayacaqdır…daha çox modernləşmiş, daha zəngin hissənin əvvəlkindən də varlı, daha az inkişaf etmiş hissə isə əvvəlkindən də yoxsul olmasına gətirib çıxarır». Əslində məhz bu səbəbdən çağdaş dünyada antiqlobalist hərəkatlar getdikcə güclənir və bir qayda olaraq bu hərəkatlar daha çox hələ sənayeləşmə başlamamış və ya yenicə sənayeləşməyə başlamış kasıb ölkələrdə inkişaf edir. Listin iqtisadi təlimindən çıxış etsək, belə

bir suala cavab vermək lazım gəlir. Postsovet respublikalarının ABŞ, İngiltərə, Fransa, Yaponiya, Almaniya və s. kimi inkişaf etmiş ölkələrlə əməkdaşlıq etməsi və həm də özündə iqtisadi inkişafa – sənayeləşməyə nail olmadan onlarla çulğaşması hansı sosial-siyasi və iqtisadi nəticələr verir? Qabaqcadan məlum idi ki, bu əlaqələr nəticəsində postsovet ölkələr daha da yoxsullaşmalı idi və yoxsullaşdı da. Məsələn, biz dünyanın nəhəng transnasional şirkətləri ilə neft kontraktları imzalandıqdan sonra Azərbaycanda həyat səviyyəsinin aşağı düşməsi ilə bağlı məlumatlara beynəlxalq hesabatlarda tez-tez rast gəlirik. Bu da inkişaf modelində – sənayeləşməyə nail olmadan qlobal iqtisadi əlaqələrə girmə strategiyasında paradiqmaların ardıcıllığının düzgün müəyyən edilmədiyini və bunun milli mənafelərə zərbə vurduğunu sübut edir. Ən azı bəzi inkişaf etmiş Avropa dövlətlərinin qloballaşmaya necə ehtiyatla yanaşmalarından nəticə çıxarmaq lazımdır. Bu ölkələrin iqtidarlarının qlobal proseslərdə iştirakını təmin etmək cəhdinin nəticəsində ilk növbədə onlarda rəqabətə davamsız, təcrübəsiz və təşəkkül mərhələsində olan milli burjuaziya ölü doğulmuşdur və xarici kapital bu dövlətlərin nəinki iqtisadi, hətta siyasi həyatına da tam nəzarəti ələ almışdır. Bu da neototalitarların arzuladığı «iqtisadiyyatın xarakterini keyfiyyətcə dəyişən milli istehsalçının rolunun və əhəmiyyətinin artması» məqsədinə çatmağa ciddi əngəl törətmişdir. Bu gün bu ölkələrdəki az-çox rentabelli olan müəssisələrin əksəriyyətinin əcnəbilərə və ya ən azı əcnəbilərlə şərik olanlara məxsus olması da bunu əyani sübut edir. Əlbəttə, bu heç də o demək deyil ki, postsovet respublikaları özünü dünyada gedən proseslərdən təcrid etməli və dünya təcrübəsindən bəhrələnməməli idi, əksinə, Hayeklə tam razıyıq ki, «cəmiyyətin iqtisadi problemi ondan ibarətdir ki, fərdi qaydada ayrı-ayrı adamlara məxsus bilgilərdən yox, insanlığa məxsus bilgilərdən necə istifadə etsin». O cümlədən müasir dövrdə iqtisadi problemləri həll etmək üçün ayrı-ayrı xalqların bu sahədəki təcrübəsindən istifadə etmək zəruridir. Amma iqtidarların hazırlıqsız qloballaşmaya daxil olması ilə bağlı səhv siyasətlərinin faturası qanuna uyğun olaraq xalqlarına çıxmışdır və qloballaşmaya cəhd edən iqtidarların günahları ucbatından artıq dünyaya gələn hər bir postsovet vətəndaşı xarici

borcla doğulur. İkincisi, neototalitarların qloballaşma strategiyasının digər ciddi bir qüsuru bəşəri idrakı mənimsəmədən, müasir dünya düzəninin məntiqinə varmadan, mühafizəkar milli şüurla bu prosesə qoşulmasıdır ki, bu da son nəticədə bu dövlətlərlə qlobal institutlar və tərəfdaşlar arasında ciddi problemlər yaratmışdır. Hayek yazır: «İnsanlıq məqsədlərinə həqiqətən yalnız o zaman çatmaq olar ki, dünya nizamını mənisəmək və qəbul etmək müyəssər olsun». Bəs müasir dünya nizamı necədir və neototalitar iqtidarlar bu nizamı necə mənimsəyib və necə qəbul edir? P. Peççei «İnsani keyfiyyət» adlı kitabında yeni humanizmin üç aspektini ayırd edir: Qloballaşma hissi, ədalətə məhəbbət və zorakılığa dözümsüzlük. Bu baxımdan ədalətsizlik və zorakılığa meyllə qloaballaşma hissi bir araya sığmazdır.

Qlobal güclərin neototalitar cəmiyyətlərdə yeni humanizmlə bir araya sığmayan baş verənlərə yanaşması ilə bağlı iqtidarların beynəlxalq tərəfdaşların iradlarına iki ənənəvi cavabları var. «Suveren dövlət olduğumuzdan kimsə daxili işimizə qarışa bilməz, bu münasibətlər qərəzlidir və ya həqiqətə uyğun deyildir». Son vaxtlar üçüncü bir arqument də meydana çıxıb. «O biri dövlətdə bizdən daha çox qüsur var, deməli, bizə ondan daha ciddi qınaqda ikili standartla yanaşılıb». Əslində sonuncu arqument daha ciddi təsir bağışlayır. Çünki həqiqətən də beynəlxalq münasibətlər sistemində ikili standart nəinki geniş tətbiq edilir, hətta son vaxtlar belə ikili standartlarla yanaşmanın elmi-nəzəri əsaslandırılmasına cəhd edilir. «Qərəz»lə bağlı arqumenti qeyri-ciddi hesab etdiyimdən, yalnız digər arqumentlərlə bağlı fikirlərimi bölüşmək istəyirəm. Birincisi, «daxili iş» arqumenti. Nə üçün beynəlxalq təşkilatlar və demokratik dövlətlər Azərbaycanda gedən proseslərlə - zaman-zaman iqtidarın «daxili iş» hesab etdiyi problemlərlə bağlı - qıcıqlandırıcı mövqe sərgiləyir və ardıcıl olaraq iqtidarın siyasətini tənqid edir və hətta müəyyən addımlar atmaq üçün ona müxtəlif təzyiqlər edir? Əgər iqtidar doğrudan-doğruya yeni dünya nizamını mənimsəyib və qəbul edibsə, onda bir həqiqəti qəbul etməlidir ki, qlobal dünya sisteminə daxil olan heç bir dövlət suverenlik pərdəsi arxasında gizlənə və öz səhv daxili siyasətini suverenliklə əsaslandıra bilməz. F.Fukuyama «Amerika yol ayrıcında»

adlı kitabında yazır ki, «rejimin daxili xarakteri ölkənin beynəlxalq arenada davranışı üçün əhəmiyyətlidir». Beləliklə, qlobal proseslərdə «beynəlxalq münasibətlərin subyektinə çevrilmək» strategiyasını izləyən iqtidarlar qabaqcadan bilməliydilər ki, bu münasibətlərdə onların iştirakı və nə dərəcədə səmimi, ardıcıl olması ilk növbədə onların özlərinin daxili davranışları ilə ölçüləcək və qlobal münasibətlərdə «daxili iş» anlayışı qəbul edilməyəcək. Ən azı ona görə ki, ikinci dünya müharibəsindən sonra ikiqütblü dünyada təhlükəsizliyi və ya dinc yanaşı yaşamanı təmin edən «daxili işlərə qarışmama» prinsipi artıq köhnəlmişdir və yeni dünya düzəni yeni davranış normaları və yeni prinsiplər meydana çıxarmışdır. Bununla bağlı F.Fukuyama yazır: «Dünya düzəninin müstəsna olaraq suveren milli dövlətlər arenasında qurulmasının beynəlxalq əlaqələrdə köhnə realistik sxemi, artıq dünya üçün əlverişli deyil və bizim gözümüzün qarşısında və gələcəkdə legitimliyi və beynəlxalq səviyyədə effektiv fəaliyyəti təmin edə bilməz». Bu baxımdan beynəlxalq əlaqələrin yeni realistik sxemi dünya düzənini bir-biri ilə uzlaşan və universal dəyərləri bölüşdürən və öz suveren hüquqlarının bir qismini dövlətüstü qurumlara deleqə edən dövlətlərdən təşkil olunması tələb olunur. Bununla bağlı F.Fukuyama yazır: «Universal prinsip və qanunlar sadə mexaniki toplu deyil. Liberal demokratiya – xalqlar və dövlətlər arasında müəyyən dərəcədə razılaşma tələb edir». İkincisi, müstəqillik arqumenti Potsovet iqtidarlarının «müstəqil dövlət» anlayışını «azad dövlət» anlayışı kimi başa düşməsi bu dövlətlərin Beynəxalq öhdəlikləri yerinə yetirməkdən imtina etmələri ilə nəticələnir. Suverenliyin özünü «azad dövlət» elan edən avtoritar rejimlərin qalxanı olması yeni bir məsələ deyil. Hələ F.Engels 18-28 mart 1875-ci il tarixdə A.Bebelə ünvanlamış məktubunda «azad dövlət» anlayışı haqqında yazırdı: «Azad dövlət elə bir dövlətdir ki, burada dövlət öz vətəndaşlarına münasibətdə azaddır, yəni müstəbid hökuməti olan bir dövlətdir». Engels ümumiyyətlə öz arxasında hər cür şəri gizlədən dövlət anlayışına elə nifrət edirdi ki, «dövlət» sözünün əvəzinə «kommuna» sözünün işlədilməsini məqsədə müvafiq hesab edirdi. Bu gün postsovet respublikalarında da «azad dövlət» ideyası müstəbid hakimiyyətin yaradılması üçün şirma rolunu oy-

nayır. Üçüncüsü, legitimlik problemidir. Roma klubunun təsisçilərindən və dünyanın qlobal problemlərini öyrənən məşhur İtalyan alimi P.Peççei yazır: «Necə ki, ayrı-ayrı dövlətlər çərçivəsində siyasi quruluşlar öz daxilində əhəmiyyətli yenidənqurma etməyəcək, yeni dünya nizamı haqqında söhbət olmayıb və olmayacaq». Buna görə də yeni dünya düzənində hakimiyyətlərin legitimliyi anlayışına yeni paradiqmalarla yanaşılır. Belə ki, artıq Maks Veber tərəfindən müəyyən edilmiş klassik legitimlik anlayışı köhnəlmiş, müasir qlobal əlaqələrə və yeni dünya nizamına cavab vermədiyindən, digər başqa anlayışlar kimi legitimlik anlayışı da öz məzmununu bir az da dolğunlaşdırıb və əlavə çalarlar əldə edib. Ümumiyyətlə, legitimliyi zəruri edən səbəblərlə bağlı F.Fukuyama yazır: «Dövlət hüququn hakimiyyətini təmin etmək qabiliyyətinə malik yeganə güc mənbəyi olaraq qalır. Amma bu gücün effektli olması üçün ona legitim baxılmalıdır». Müasir dövrdə qlobal sistemdə legitimlik daxili və xarici şərtlər olmaqla, iki qrup amillərlə dəyərləndirilir. Birinci qrupa - daxili legitimlik şərtlərinə - hakimiyyətin mənbəyi, idaretməsi və dəyişilməsi qaydası aiddir. Xarici legitimliyə isə kollektiv səylərdə iştirak, beynəlxalq hüquqa hörmət və beynəlxalq əlaqələrdə effektivliyi aid etmək olar. a) Daxili legitimlik şərti respublika quruluşlarında bərabər, azad, ədalətli seçkilərlə hakimiyyətin əldə edilməsini nəzərdə tutur; b) Ən demokratik qaydada hakimiyyətə gələn qüvvə ölkəni qabaqcadan müəyyən edilmiş qanunlarla idarə etmirsə, təkrar legitimsizləşir. F.Fukuyama yazır: «Dövlətin legitimliyinin yeganə mənbəyi – insan kimi adamların istifadə etdikləri hüquqları qoruma və mühafizə etmə qabiliyyətinin olmasıdır». Bu baxımdan iqtidarların legitimliyini müəyyənləşdirmək üçün dünyada daxili hüququn tərkibinə çevrilmiş universal insan hüquqlarının qorunmasına nəzarət edən bir çox beynəlxalq qeyri-dövlət təşkilatları yaradılmışdır. Bu təşkilatların neototalitar cəmiyyətlərdə insan hüquqlarının vəziyyəti ilə bağlı verdiyi bəyanatlara bu dövlətlərin iqtidarlarının reaksiyası onu göstərir ki, postsovet liderlər qlobal dünya nizamını birmənalı qəbul etmir; v) Legitimlik həm də hakimiyyət dəyişilmələri ilə sıx bağlıdır. Belə ki, seçkili orqanların səlahiyyət müddətlərinin düşünülməmiş uzadılması, ömürlük prezidentlik hakimiyyəti və s.

kimi ideyalar artıq seçkilərin necə keçirilməsindən asılı olmayaraq hakimiyyəti legitimsizləşdirir.

Müasir qlobal dövlətlər sistemində legitimliyin xarici şərtlərinin yaranması ilk növbədə, qlobal sistemin xarakteri ilə bağlıdır. Belə ki, sistem nəzəriyyəsinə və sinergetizmə görə, sistemi təşkil edən altsistemlərdə baş verən dəyişilmələr bütünlükdə ümumi sistemin normal funksiyalaşmasına mənfi təsir edir. P.Peççeiyə görə «Bizim sonrakı stabil inkişafımızın artımı üçün maneə – bizim dünyada mövcud olan cəmiyyətlərin konqlemeratlarının (mili dövlətlərin - S.C.) sosial-siyasi strukturları və fəlsəfi əsasıdır». Buna görə də qlobal sistemə daxil olan bütün dövlətlərdə gedən proseslər ümumi iş kimi qəbul edilir. İkincisi, zəif dövlətlərin güclülərə problem yaratması: Əgər əvvəllər yalnız güclü dövlətlər güclü dövlətlərə və ya güclü dövlət zəif dövlətlərə problem yarada bilərdilərsə, qloballaşmış dünyada əksinə, zəif dövlətlər güclülərə problem yaradır. F.Fukuyama yazır: «Bütöv bir sıra zəif və baş tutmayan dövlətlərin meydana çıxması dünya problemlərinin mənbəyi kimi çıxış edir». Üçüncüsü, beynəlxalq hüquqa riayət edilməsi. Dövlətin hüquqa münasibəti onun azadlıq dərəcəsini müəyyən edir. Bu gün dövlətlərin azadlığının beynəlxalq kriteriyaları müəyyən edilib və ABŞ-ın «Azadlıq Evi» təşkilatı özünün illik hesabatlarında bu kriteriyalar əsasında azad olmayan dövlətlərin siyahısını elan edir və dünyaya hansı dövlətlərdən təhlükə gələ biləcəyini müəyyənləşdirir. Postsovet respublikaları son 17 ildə demək olar ki, azad olmayan və yarım azad ölkələr sırasında davamlı qərarlaşıb. Bu da onlarda hakimiyyətin legitimliyinin xarici şərtlərindən birinin zəif olduğunu göstərir. Bu, həm də xarici güclərin ölkəyə təzyiq etməsi üçün qanuni əsas verir. Beynəlxalq hüquq dünya düzəninin konstitusiyası kimi nəzərdə tutulub. Vaxtilə Kantın dünya düzəni ilə bağlı müəyyən etdiyi birinci definitiv müddəaya görə, «beynəlxalq sistemi təşkil edən ölkələr respublika olmalıdır»; ikinci definitiv müddəaya görə, «beynəlxalq hüquq azad dövlətlərin federalizminə əsaslanmalıdır». Azad dövlətlərin federalizmi ideyası hər bir suveren dövlətin həm də ümumi beynəlxalq hüquqla idarə olunmasını və konstitusiya istisna olmaqla beynəlxalq hüququn suveren dövlətin qanunlarından üstün hüquqi

qüvvəyə malik olmasını tələb edir. Dördüncüsü, beynəlxalq təşkilatlarla əməkdaşlıq, onlar qarşısında hesabatlılığın qəbul edilməsi: Beynəlxalq hüquq öz arxasınca bu hüququ müəyyən edən və onun icrasına nəzarət edən təşkilatların yaradılmasını stimullaşdırmışdır. F.Fukuyama yazır: «Möhkəm legitimlik daha yüksək dərəcədə millətlər arasında institutlaşma tələb edir». Bu gün BMT, ATƏT, AŞ, NATO, GUAM və s. kimi beynəlxalq təşkilatların meydana çıxması bununla bağlıdır. Beləliklə bu institutlara üzv olmadan, onlar qarşısında konkret öhdəliklər götürərək, icra etmədən möhkəm xarici legitimlik əldə etmək mümkün deyil. İqtidarın Avropa Şurası və digər beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməməsi də onun legitimliyinin xarici şərtlərini xeyli zəiflədir. Beşincisi, *xarici nəzarətin etiraf qəbul edilməsi*: Qeyd etdiyimiz kimi, hər bir hakimiyyətin legitimliyinin birinci əlaməti onun daxili və beynəlxalq hüququn hakimiyyətini təmin etmək gücüdür. Əgər dövlətdə hüququn hakimiyyəti yoxdursa və ardıcıl olaraq hüquq pozuntuları meydana çıxırsa, həmin dövlət hüququn legitimliyinin mənbəyi kimi çıxış edə bilməz. Qeyd etdiyimiz kimi, qlobal dünyaya inteqrasiya beynəlxalq hüquqla tənzimləndiyindən, üzv dövlətlərin beynəlxalq hüququ icra etmələrinə nəzarət funksiyasının zərurəti yaranmışdır və buradan da hakimiyyətlərin xarici nəzarətə və təsirlərə açıq olması legitimliyin xarici şərti kimi çıxış edir. Luman Niklos «Polis dövlətindən hüquqi dövlətə doğru» adlı əsərində yazır: «Sistemin anatomiyasını sadəcə avtonom məqsəd saymaq kimi başa düşmək olmaz… mütləq hakimiyyət istisnadır. Kim hakimiyyət almaq istəyirsə, özünü təsirlərə açmalıdır». Altıncısı, *iqtisadiyyatın, qloballaşmasının siyasəti qloballaşdırması:* Belə ki, beynəlxalq iqtisadi əlaqələr xarici təsirlərə açılmanı tələb edir. Xüsusən iqtisadi modernləşmə siyasəti aparan postsovet respublikaları üçün bu olduqca vacibdir. Çinin modernləşdirilməsinin ideya rəhbəri Den Syaopin 1982-ci ildə çıxışlarının birində deyirdi: «Dünyada heç bir ölkə hansı siyasi sistemə malik olursa-olsun, modernləşdirməni bağlı qapı siyasətində aparmamışdır». Yeddincisi, *dövlətin qlobal sistemdə fəaliyyətinin effektliliyi:* Qlobal sistemdə legitimliyin xarici şərtlərindən biri də effektivlik - beynəlxalq iqtisadi əlaqələrdə tərəf müqabillərinin

nə dərəcədə qarşılıqlı effektiv fəaliyyət göstərməsi ilə müəyyən olunur. Neototalitar dövlətlərin öz korporativ maraqları naminə olsa belə, transnasional layihələrə qoşulmaları onların effektivliklə bağlı legitimliyini xeyli gücləndirmişdir. Lakin bu ölkələrin iqtisadiyyatında korrupsiyanın həcmi effektivliyə ciddi təsir etdiyindən, getdikcə bu amilin də tədricən zəiflədiyi müşahidə olunur. Səkkizinci, *kollektiv səylərdə iştirak:* Legitimliyin xarici şərtlərindən biri də kollektiv səylərdə iştirakdır. Neototalitar dövlətlərin antiterror koalisiyasına daxil olması, İraqda və Əfqanıstanda beynəlxalq güclərin tərkibində hərbi əməliyyatlarda iştirak etmələri onların xarici legitimliklərini xeyli gücləndirmişdir. Qeyd etmək lazımdır ki, bu gün dünyanın demokratik dövlətləri və beynəlxalq təşkilatlar beynəlxalq əlaqələrdə effektiv fəaliyyətinə və kollektiv səylərdə iştirakına görə legitimliyinin daxili əsasları zəif olmasına baxmayaraq tərəfdaş dövlətlərə dözümlü yanaşır və onların hakimiyyətini legitim qəbul edir. Məhz beynəlxalq güclərin neototalitar dövlətlərə dözümlü yanaşmaları həm də buradan qaynaqlanır.

Neototalitar liderlərin «heç kim bizə təzyiq edə bilməz» kimi bəyanatları ilk növbədə onların yeni dünya düzənini mənimsəmədiyini göstərməsi ilə yanaşı həm də hakimiyyətlərini legitimsizləşdirir. Müasir dünya düzəni hökumətlərin nüfuz əsasında qlobal dünya sistemində özünə layiq yer tutmasını tələb edir. Dövlətin nüfuzu ilə bağlı vaxtilə Medison yazırdı: «Hər bir ayrıca adamda olduğu kimi, özünə hörmət etməyi bacarmayan hökumətə arxayın olmaq olmaz ki, ona uzun müddət həqiqi mənada hörmət edəcəklər. Buna isə o vaxta qədər nail olmaq olmaz ki, hakimiyyətdə nizam və sabitlik yaradılmasın». Beləliklə, məmur özbaşınalığı, korrupsiya və rüşvət, çiçəklənən hüquqi nihilizm dövlətin nüfuzunu azaldaraq onun beynəlxalq sistemdə layiqli yer tutmasına imkan vermir.

Xarici təsirlərə açılma və beynəlxalq nəzarətlə razılaşma ilk növbədə beynəlxalq əlaqələrin və beynəlxalq hüququn cavabdehlik etikasını meydana çıxarmasıdır. K.Manheyn «Bizim vaxtın diaqnozu» adlı kitabında cavabdehlik etikası haqqında yazır: ««Dünya» keyfiyyətində sosial əlaqələrin bəziləri öncəgörmə üçün əlçatardır. Bu mərhələdə aşağıdakılardan ibarət cavabdehlik etikası yaranır: Biz

yalnız öz imkanlarımızla fəaliyyət göstərmirik. Həm də bu fəaliyyətin təyin oluna biləcək ölçüdə mümkün nəticələrini nəzərə almalıyıq; Bizim öz inamlarımız tənqidi təkrar edilməyə məruz qalmalı və zorakı, kor-koranə fəaliyyətdən determinatı təmizləməlidir». Doğrudan da, əgər neototalitar iqtidarların fəxr etdikləri iqtisadi layihələr xarici şirkətlərin, beynəlxalq maliyyə fondlarının kreditləri, yardımları, investisiyaları, texniki və texnoloji yardımı ilə həyata keçirilirsə, başqa sözlə, əldə edilmiş nailiyyətlər heç də mütləq şəkildə yalnız iqtidarlardan asılı deyilsə, onda kimdən daha çox asılıdırsa, onların qarşısında da iqtidar cavabdehlik daşımağa məcburdur. Bu hələ hakimiyyətin xarici legitimliyi üçün kifayət etmir, həm də beynəlxalq tərəfdaşların təkliflərinə, onların təyin etdiyi qaydalara uyğun öz inamlarına, dünyagörüşünə yenidən baxıb dəyişməyi və kor-koranə, zorakı hərəkətləri cəmiyyətin inkişafının səbəb-nəticə əlaqəsindən kənarlaşdırmağı tələb edir. Bu baxımdan neototalitar dövlətlərin rəsmi nümayəndələrinin «biz heç kəsə hesabat verməli deyilik və öz dəyərlərimizə uyğun dövlət quracağıq» kimi bəyanatları beynəlxalq əlaqələrdə cavabdehlik etikasına ziddir. Müasir qlobal dünya sistemini demokratik dövlətlər təşkil etdiyindən və neototalitar dövlətlərin xarici partnyorları əsasən demokratik ABŞ və Qərb dövlətləri olduğundan, cavabdehlik etikası tələb edir ki, onlar ABŞ və Qərbin demokratik dəyərlərini bölüşdürsün. Qloballaşmaya daxil olarkən bir çox «milli» olanlardan – mentalitetdən, xarakterdən, adətlərdən, tarixi ənənələrdən, təsərrüfat formalarından, idarəetmə fəlsəfəsindən, bir sözlə, köhnə və qədim orjinal nə varsa, ondan bəhanə kimi istifadədən imtina etmək tələb olunur. F.Fukuyama yazır: «Əgər tarix heç vaxt təkrarlanmırsa, onda hansısa daimi fəaliyyətdə olan və eyni formalı mexanizmlər olmalıdır… bunlar həm də özünə degenerasiyanı daxil etməlidir, hansı ki, əvvəlki nailiyyətləri başa düşməyi tam silə bilər. Buna görə tam tarixi unutqanlıq olmadan heç bir yeni yaradıla bilməz». Bu, təkcə tarixin problemi deyil. Həm də insanın və cəmiyyətin problemidir. Demokratikləşmənin bel sütunu yeni tip insan faktorudur. İnsan təbiətində heç bir keyfiyyətin əbədi fiksə olunmaması onun kamilləşməsinin yeganə mənbəyidir. Hegel də yazır ki, «universal tarix insanın fiksə

olunmamış təbiətinin dəyişilməsini tələb edir». Bəs insanların, o cümlədən iqtidar təmsilçilərinin şüuru, davranış motivləri, maraq dairələri, həyata baxışları dəyişilmədən postsovet respublikalarında dəyişilmələrə, o cümlədən siyasi inkişafa nail olmaq olarmı? Bu cür dəyişilmələr olmadan bəşəri idraka yiyələnmək mümkündürmü?

Təhlil etdiyimiz strategiyaya həsr olunmuş məqalədə Azərbaycanın liberalizm istiqamətində inkişaf etdirilməsi iqtidar strategiyasının əsas paradiqmalarından biri kimi təqdim edilir.

Haşiyə: F.Fukuyama liberal dövlət haqqında yazır: «Liberal dövlət universal dövlət olmalıdır». Bu baxımdan neototalitar dövlətlərin qloballaşmaya daxil olmaqla, özlərinin milli əlahiddəçiliyini saxlamaq cəhdi ziddiyyət yaradır. Bu baxımdan postsovet liderlərinin «milli demokratikləşmə» konsepsiyaları bəşəri idrakla qətiyyən uzlaşmır. Birincisi, qlobal əlaqələrdə xarici güclərin daxili işlərdə iştirakının qəbul edilməsi mühüm şərtdir. Nə üçün suveren dövlətlər xarici güclərin iradəsini nəzərə almalıdır və nə üçün bəzən xarici güclər daxili legitimliyi zəif və şübhəli olan gücləri qəbul edirlər? Hər iki məsələ eyni yanaşma ilə bağlıdır. F.Fukuyama müasir dünyada formalaşmış yanaşmanı belə ifadə edir: «Dünya düzəni üçün dövlətin daxilində baş verənlər əhəmiyyət daşıyır». Bu, başlanğıcda qlobal ekoloji problemlərdə kəskin şəkildə öz təsdiqini tapıb. Məsələn, Çernobıl AES-də baş verən qəza bütün Avropanı təhlükəyə saldı. Bundan sonra əhali artıqlığı, iqtisadi məkanın genişlənməsi və inteqrativ meyllərin zərurəti meydana çıxdı. Bu da öz növbəsində milli dövlət sərhədlərini nisbi və keçirici olmasını, idarəetmənin şəffaflığını, suverenliyin isə məhdudlaşdırılmasının və xarici güclərin təzyiqlərinin qəbul edilməsinin vacibliyini gündəmə gətirir. Bu gün bütün dünyanın İranda atom tədqiqatları ilə bağlı həyəcanı və İrana təzyiqləri də bununla bağlıdır. 1977-ci ildə Londonun Kemdentaun metrosunun divarında belə bir yazı yazılmışdır: «Dünya kövrəkdir, ona dua ilə yanaşın». İkincisi, tarix göstərir ki, dünyaya meydan oxumaqla ona yanaşma dünya müharibələrinə gətirib çıxarmışdır. Beləliklə, qlobal sistemdə milli hakimiyyətlərin xarici gücü könüllü qəbul etməsi, suverenliyin müəyyən edilməsində nəzərə alınmaqdadır. T.Karozers yazır: «Ayrılmış suverenlər modeli dünyada o vax-

tadək geniş qəbul edilməyəcək ki, idarəetmə funksiyalarında xarici tərəfin iştirakı legitim qəbul edilməyəcək». Bu nə deməkdir? Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür və bu təşkilatlar qarşısında könüllü və ya imperativ qaydada öhdəlik götürüb. Əgər həmin öhdəliklər yerinə yetirilmirsə və ya dövlət xarici administrativ funksiyanı qəbul etmək istəmirsə, onda legitimsizləşir və belə hakimiyyətlər beynəlxalq ictimaiyyətin tələbi ilə hakimiyyətlə vidalaşmalı olur. Çağdaş dünyada bu cür nümunələr sonsuz saydadır. Elə bizim bölgədə qonşu Gürcüstanda Şevardnadzenin, Pakistanda Müşərrəfin, vaxtilə İndoneziyada Suxartonun, Çilidə Pinoçetin və sairlərinin hakimiyyətdən getməsi belə olmuşdur.

«Biz heç kəsə hesabat verməli deyilik» kimi fikirlər qloballaşmış dünyada ciddi səhvdir. İstər böyük, istər kiçik dövlətlər qarşılıqlı hesabatlı olmadıqca dünya real təhlükə ilə baş-başa qalır. Bu isə belə mövqe sahiblərinin qlobal dünya düzənini mənimsəmədiklərindən xəbər verir. Nə üçün suveren dövlətlər xarici güclər qarşısında hesabatlı olmalıdır? Əslində bu xalq hakimiyyətinin təbiəti ilə bağlıdır. Bir qayda olaraq mütləqiyyət rejimlərində monarxlar Allah qarşısında, respublika rejimlərində isə hakimiyyət onu seçənlərin qarşısında hesabatlı olur. 18 mart 1788-ci ildə respublika hakimiyyətinin yaradılması haqqında çıxışında Hamilton deyirdi: «Respublika anlamında təhlükəsizliyin tərkib hissəsi – xalqdan asılılıq və cavabdehlikdir və ya xalqa hesabatlı olmaqdır». Nəzərə alsaq ki, qlobal dünya sistemi özündə xalq hakimiyyətini daha iri miqyasda - insanlıq hakimiyyətini təmsil edir və beynəlxalq təşkilatlar dünya hakimiyyəti kimi çıxış edir, onda suveren dövlətlər qlobal təhlükəsizlik naminə beynəlxalq təşkilatlar qarşısında cavabdeh, asılı və hesabatlı olmalıdır. Əks halda, qlobal dünya anlamında təhlükəsizliyi təmin etmək mümkün olmaz. Dünyada xarici hesabatlılığı qəbul etməyən dövlətlərin sayının artması beynəlxalq təhlükəsizliyi təhdid edir və bəşəriyyət yeni dünya müharibələri riskinə girir. Buna görə də Fukuyama yazır: «Dünya biznesi effektiv qərarlar qəbul etməyi tələb edir. Suveren dövlətlərin qarşısında hesabatlılıq olan və onların göstərişləri ilə işləyən rəsmi təşkilatlar özlərinin qeyri-effektliliyi və müasir dünya biznesinin tələblərinə uyğunluğuna görə qabiliy-

yətsizliklərini və effektsizliklərini göstərmişlər. İqtisadi sahədə tətbiq edilən effektlilik naminə legitimliyə, şəffaflığa və hesabatlılığa münasibətdə kompromisə girmişik». Beynəlxalq təşkilatlar qlobal iqtisadi əlaqələrdə tərəfdaş ölkələrin, o cümlədən neototalitar dövlətlərdəki hakimiyyətlərin legitimliyi, hesabatlığı və şəffaflığında loyal-tolerant yanaşma nümayiş etdirir və bundan sui-istifadə edən iqtidarlar yalnız beynəlxalq biznesin tələblərini ödəməklə hələ ki, öz ölkələrinin daxilində demokratiyaya arxa çevirə bilib və hətta bu zaman demokratik ölkələrdən beynəlxalq dəstək də alıb. Amma artıq qlobal iqtisadi böhran tam çılpaqlığı ilə sübut etdi ki, bu cür yanaşma özünü doğrultmur və birqütblü dünya proseslərə birmənalı yanaşmağı tələb edir. Bununla bağlı F.Fukuyama yazır: «Müasir dünyada kollektiv aksiyaların legitimliyini əsaslandıra biləcək beynəlxalq institutlar yoxdur. Buna görə də yeni nəsil siyasətçilərinin birinci dərəcəli vəzifəsi legitimliklə effektivlik arasında optimal tarazlığa malik olmaq qabiliyyətində olan yeni institutlar yaratmaqdır». Maraqlıdır ki, təcrübədə Fukuyamanın fikirləri özünü çox gözlətmədi və bu yaxınlarda - 2008-ci il ABŞ-dakı prezident seçkilərində respublikaçı namizəd Makkeyn BMT-nin buraxılması, onun əvəzində yeni beynəlxalq institutun – Demokratik Dövlətlər Liqasının yaradılması və dünyada demokratiyanın genişlənməsinə – yeni dünya düzəninə müqavimət göstərənlərə qarşı «səlib yürüşü»nü təşkil etmək təklifi ilə çıxış etdi. Beləliklə, qlobal münasibətlər zəncirində suveren dövlətlərin effektliliyi və xarici administrativ funksiyanı qəbul etmələri vacib şərt kimi çıxış edir. Bunsuz liberalizmə keçid mümkün deyil. Qlobal əməkdaşlıq haqqında Fukuyama yazır: «Demokratik dövlətlərin birlikdə demokratiyanı və xalqlar arasında sülhü yaymaq zərurəti liberalizmin özü kimi qədimdir». Bu baxımdan demokratik dövlətlərin neototalitar dövlətləri demokratikləşməyə məcbur etməsi və bu ölkələrin demokratikləşməsində iştiraka birbaşa cəhdi ilk növbədə postsovet respublikalarının könüllü qlobal əlaqələrə girməsi ilə bağlıdır. Yadda saxlamaq lazımdır ki, xarici administrativ funksiyaya ciddi müqavimət göstərənlərin nəinki legitimliyi şübhə altına düşür, həm də son nəticədə belələrinin sonu Səddam Hüseynin sonu kimi olur.

Göründüyü kimi, qloballaşma hər şeydən əvvəl bəşəri idrakla qlobal dünya nizamını mənimsəməyi tələb edir. F.Fukuyama «Tarixin sonu və sonuncu adam» adlı kitabında yazır: «İnsanlıq tarixinə müxtəlif sivilizasiyaların varisliyi və maddi nailiyyətlərin səviyyəsi kimi yox, şüurun müxtəlif formalarının varisliyi kimi baxmaq lazımdır». Bu baxımdan, neototalitar dövlətlərin liderlərinin milli mentaliteti və ya milli sərvətlərin istismarından və talan edilməsindən gələn gəlirləri əsas götürüb, özlərinin «yeni tarix yaranadacaqlarını» ümid etməsinin heç bir elmi və təcrübi əsası yoxdur. O cümlədən, postsovet respublikalarının iqtidarlarının özlərini müasir dünyada gedən demokratikləşmə prosseslərindən kənarda saxlamaq cəhdi onların qloballaşma ilə bağlı siyasətlərinə ziddir və qloballaşmaya bəşəri idrakla yanaşılmaması, postsovet respublikalarında hakimiyyətlərin həmin paradiqmanın zamanlanmasını və həyata keçirilmə yolunu düzgün müəyyən etmədiklərini bir daha sübut edir.

IX FƏSİL

MARKSİZMDƏN NEOMARKSİZMƏ KEÇİDİN FƏSADLARI

«Bütün bəlaların kökü – birbaşa Allahın görünüşü ilə ziddiyyət təşkil edən təsərrüfat rabitəsizliyidir»

Şarl Füre

«Ölənlərdən bəziləri bizə necə yaxındır və yaşayanlardan çoxu necə də ölüdürlər»

Volf Birman

Müasir qlobal dünyada siyasətin effektivliyinin iqtisadi göstəricilərlə ölçülməsi ənənə halı almışdır və tərəddüd etmədən demək olar ki, *qloballaşmış dünyanın bütün problemlərinin əsasında da məhz iqtisadiyyatın dövlət həyatının digər sahələrinə görə prioritet qəbul edilməsi durur*. Təhlil etdiyimiz strategiyada da «iqtisadi inkişaf» bir nömrəli paradiqma kimi götürülmüşdür. Bu paradiqma strategiyaya həsr olunmuş məqalədə belə əsaslandırılır: «Unutmamalıyıq ki, tranzit ölkələrdə iqtisadiyyat inkişaf etdikcə cəmiyyət və dövlətin sosial və institusional strukturu dəyişir. Əhalinin alıcılıq qabiliyyətinin artması, eləcə də ölkəyə investisiyalar axını nəticəsində iqtisadiyyatın daha çox fəaliyyət qabiliyyətli və səmərəli olması, təsərrüfat həyatının mərhələli modernləşməsinə şərait yaradır. Bu öz növbəsində Karl Marksın bəhs etdiyi vəziyyətə gətirib çıxarır – ölkədə təsərrüfat modernləşəndə, kapitalizm möhkəmlənəndə və burjuaziya

yarananda siyasi sistemin transformasiyası labüddür. Marksın terminologiyası ilə desək, «bazisdə baş verən dəyişikliklər həmişə üstqurumda dəyişikliklərə səbəb olur»».

Haşiyə: Beləliklə, biz yenidən klassik formada olmasa da postsovet respublikalarında siyasi iqtisadiyyat təliminin siyasi səhnəyə qayıtmasına və klassik marksizmi yeni dövrə və yeni şəraitə uyğunlaşdırma cəhdinə şahid oluruq. Buna görə də qısaca da olsa bir neçə kəlmə neototalitarizmin siyasi iqtisad görüşlərinin əsasında duran *klassik marksizmin iqtisadi təlimi* haqqında: Qeyd etməliyəm ki, istər ayrı-ayrı dövrlərdə marksizmin hissəvi anlanılması və bu hissəvi anlamın mütləqləşdirilməsi bir çox yanlış iqtisadi sistemlərin, siyasi rejimlərin, *sosial mühəndislik* nümunəsi olan süni-sintetik cəmiyyətlərin və yanlış iqtisadi siyasi platformaların yaranmasına gətirib çıxarıb. Bunun bir çox səbəbləri vardır. Birincisi, *marksizmin hissəvi anlanılması və mütləqləşdirilməsidir.* Bunun ciddi səhv olduğunu ilk növbədə Marksın davamçısı və marksizmin bir dünyagörüşü kimi formalaşmasında misilsiz xidmətləri olan F.Engels dəfələrlə göstərmiş və bu yolu tutanları kəskin tənqid etmişdi. Marksizmin əsl mahiyyətinin nədən ibarət olması haqqında F.Engels 25 yanvar 1894-cü ildə V.Borqiusa məktubunda yazırdı: «Cəmiyyət tarixini müəyyən edən bazis hesab etdiyimiz iqtisadi münasibətlər dedikdə, biz müəyyən cəmiyyətdə insanların yaşayış vasitələrini istehsal etdiklərini və məhsulları bir-biri ilə mübadilə etdikləri üsulu nəzərdə tuturuq». İkincisi, *iqtisadi terminologiyadan düzgün istifadə etməməkdir.* Marksizm neototalitar tərəfindən qəbul edilmiş anlamdan fərqli olaraq iqtisadiyyatın inkişafı yox, *iqtisadi münasibətlərin və istehsal güclərinin tarixi üsulunun* inkişafını nəzərdə tutur. Bunun «təsərrüfatın modernləşməsi və ya kapitalizmin möhkəmlənməsi» ilə heç bir əlaqəsi yoxdur. Üçüncüsü, neototalitarların *hər şeyi sıfırdan başlamaq cəhdidir.* Kapitalizmə keçid marksizmə görə heç də mütləq deyil və tarix sübut etdi ki, bir çox cəmiyyətlər bir tarixi formasiyadan keçmədən digərinə keçə bilər və ya bütün cəmiyyətlər eyni formasiyanı eyni qaydada və eyni müddətə keçməyə məhkum deyil. Buna görə də postsovet respublikaları heç də kapitalizmin bütün mərhələlərini yenidən keçməyə məhkum edilməmişlər.

Əgər bunun əksini qəbul etsək, onda bu cəmiyyətlərin mütləq əvvəl quldarlıq, sonra feodalizm və sonra da vəhşi kapitalizm dövrünü yaşamaq zorunda olduğunu da qəbul etməliyik. Dördüncüsü, *kapitalizmin bütün qüsurları ilə birlikdə və qeyri-təkmil formada qəbul edilməsidir*. F.Engels «Karl Marks» adlı əsərində Marksın tarixi kəşfləri ilə bağlı yazır: «Marks kapitalla əmək arasındakı münasibətləri qəti surətdə aydınlaşdırmış, başqa sözlə desək, müasir cəmiyyətin daxilində mövcud kapitalist istehsal üsulu şəraitində kapitalistin fəhlələri nə yolla istismar etdiyini aşkara çıxarmışdır». Beləliklə, əslində neomarksistcəsinə kapitalizmə keçid «fəhlələri istismar yolu ilə» iqtisadi inkişaf yolu seçmək deməkdir. Beşincisi, *cəmiyyəti subyektiv baxışlar əsasında inkişaf etdirmək cəhdidir*. Marks və F. Engels sosial mühəndisliyin – cəmiyyətin subyektiv baxışlar əsasında formalaşdırılmasının qəti əleyhinə olsa da *bütün neototalitar cəmiyyətlər onların liderlərinin baxışları əsasında orijinal formalarda «inkişaf» etməyə məcbur edilir*. Engels «Sosializmin utopiyadan elmə doğru inkişafı» adlı əsərində Marksın siyasi iqtisadiyyat baxışlarına - Tarixin materialistcəsinə anlaşılmasını; kapitalistin istehsal sirrinin izafi dəyər vasitəsi ilə ifşa edilməsini; siniflərin kəşfini, istehsal metodlarında və mübadilə edilməsində baş verən dəyişikliklərin köhnə iqtisadi şəraitin ölçüsü ilə biçilib qurulmuş iqtisadi quruluşun daha buna uyğun gəlməməsini göstərərək yazır: «Buradan həmçinin belə nəticə çıxır ki, aşkara çıxarılmalı olan bəlaların aradan qaldırılması vasitəsi ilə az-çox inkişaf etmiş şəkildə dəyişilmiş istehsal münasibətlərinin özündə olmalıdır. Bu vasitəni insan öz başından uydurmamalı, əksinə, bunların köməyi ilə istehsalın mövcud maddi faktları kəşf edilməlidir». Göründüyü kimi, Marks iqtisadi inkişaf dedikdə məhz kapitalist istehsal üsulunun təbii yolla – təkamül prosesində dəyişilməsini nəzərdə tutmuşdur. Buna görə də iqtidarların subyektiv sosial-iqtisadi siyasəti ilə kapitalizmə keçmək cəhdləri bu ölkələri sürətlə uçuruma aparır. Altıncısı, neototalitarların *marksist iqtisadi baxışlara ehkam kimi yanaşmalarının onlara bütünlükdə iqtisadiyyat elminin bu günkü nailiyyətlərindən səmərəli istifadə etməyə imkan verməməlidir*. F.Engels ümumiyyətlə, marksizmə ehkam kimi baxılmasını bağışlanmaz səhv adlandırırdı. O, öz dövründə gənc

neomarksistlərlə bağlı 21 noyabr 1890-cı il tarixdə Bloxa yazdığı məktubunda qeyd edir ki, «K.Marks və qismən mən də təqsirkarıq ki, gənclər bəzən iqtisadi cəhətə lazım gəldiyindən artıq əhəmiyyət verirlər… tarixin materialistcəsinə anlaşılmasına görə tarixi prosesdə müəyyənedici cəhd nəticə etibarı ilə gerçək həyatın istehsalı və təkrar istehsalıdır. Nə mən, nə Marks heç zaman bundan artıq bir şey iddia etməmişik, əgər birisi bu müddəanı o mənada təhrif edirsə ki, guya iqtisadi cəhət yeganə müəyyənedici cəhətdir, onda bununla da həmin müddəanı heç bir şey deməyən abstrakt mənasız bir ibarəyə çevirmiş olur… Tarix elə yaradılır ki, son nəticədə həmişə ayrı-ayrı çoxlu iradələrin toqquşmasından alınır… Təəssüf ki, çox zaman belə güman edirlər ki, yeni nəzəriyyə tamamilə anlanılmışdır və əsas müddəa da mənimsənildikdə onu dərhal tətbiq edə bilərlər, bunda mən bir çox ən yeni marksistləri töhmətləndirə bilərəm, axı buna görə də heyrət ediləcək bir dolaşıqlıq meydana gəlmişdir». Yeddincisi, *ictimai həyatın digər sferalarının iqtisadiyyata təsirinin qəbul edilməməsidir.* F.Engels 14 dekabr 1893-cü ildə Frans Merinqə məktubunda yazır: «İdeoloqların mənasız təsəvvürü bununla əlaqədardır ki, tarixdə rol oynayan müxtəlif ideoloji sahələrin müstəqil tarixi inkişafını etiraf etməyimiz üçün biz bunların tarixdə hər cür təsir göstərmək imkanını da inkar edirik. Bunun əsasını səbəb və nəticənin daim bir-birinə əks duran iki qütb olması haqqındakı şablon, qeyri-dialektik təsəvvür təşkil edir, onların qarşılıqlı təsiri tamamilə nəzərdən qaçırılır. Bu cənablar çox zaman demək olar qəsdən unudurlar ki, *digər səbəblər son nəticədə iqtisadi səbəblər tarixi* hadisəni yaradan kimi o, dərhal öz növbəsində fəal amil olur, ətrafdakı mühitə, hətta onu yaratmış səbəblərə əks təsir göstərə bilir». Bununla da Engels üstqurumun, siyasətin – bazisə, iqtisadiyyata təsirinin heç də bazisin üstquruma təsirindən az olmadığını göstərmişdi. F.Engels 25 yanvar 1894-cü ildə V.Borjiyaya məktubunda bunu bir daha dəqiqləşdirərərək yazır: «Tarixi inkişaf iqtisadi şəraitdən asılıdır…siyasi, hüquqi, fəlsəfi, dini, ədəbi-bədii inkişaf iqtisadi inkişafa əsaslanır. Beləliklə, bunların hər biri iqtisadi bazisə təsir göstərir…iş qətiyyən elə deyil ki, guya yalnız iqtisadi vəziyyət səbəblərdən yalnız o fəaldır, yerdə qalan hamısı passiv nəticədir». Engelsin şərhindən

görünür ki, marksizmə görə tarixi inkişaf yalnız iqtisadiyyatdan yox, daha geniş məna ifadə edən iqtisadi şəraitdən – bu şəraitin azad və ya asılı olmasından asılıdır və bu asılılıqda bazis üstquruma təsir etdiyi kimi, üstqurum da bazisə təsir edir. Rusiya istisna olmaqla Avropanın sosialist inqilabından yan keçərək sosial rifah cəmiyyəti qurmalarının yeganə səbəbi də məhz bunda – üstqurumun, liberal ideyaların – bazisə, iqtisadi münasibətlərə təsiri olmuşdur.

Məncə, neototalitar dövlətlərin liderlərinin öz iqtisadi siyasətini marksizmlə şərh etməsi inkişafa neomarksist yanaşma olub, üstəlik bu dövlətlərin müxtəlif sferalarında çox ciddi dolaşıqlar yaranmasına gətirib çıxarıb. Qeyd edim ki, əgər baş verənlərə marksizm nöqteyi-nəzərincə yanaşırıqsa, onda postsovet respublikalarının sosializmdən kapitalizmə retrotransformasiyası - kapitalist iqtisadi münasibətlərini bərpa etmək - inkişaf yox, *reaksiya* kimi dəyərləndirilməlidir.

Tarixə marksistcəsinə yanaşma ilə retrotransformasiya özündə yalnız *sinfi cəmiyyətə keçidi* ifadə edir. F.Engels «Karl Marks» məqaləsində yazır: «Tarixdə olan bütün əvvəlki baxışlar əsas belə təsəvvürlərdən ibarət idi ki, bütün tarixi dəyişilmələrin nəticəsini nəticə etibarı ilə insanların dəyişilməkdə olan ideyalarında axtarmaq lazımdır… ən mühüm dəyişikliklər siyasi dəyişiklikdir… Karl Marks sübut etdi ki, bəşəriyyətin bütün əvvəlki tarixi siniflərin mübarizəsi tarixidir». «1891-ci il s-d proqramının tənqidi» adlı məqaləsində isə Engels yazır ki: «Fəhlə sinfinin azadlığa çıxarılması işi fəhlə sinfinin ancaq öz işi ola bilər». Neototalitar dövlətlər ona görə formalaşır ki, bir tərəfdən stabilliyi iqtisadi və siyasi inkişafın əsası kimi qəbul edirlər, digər tərəfdən isə iqtisadiyyata marksistcəsinə yanaşırlar, nəticədə bir tərəfdən sinfi mübarizə şəraiti yaradan dəyişikliyə cəhd etməklə, digər tərəfdən insanların sosial-iqtisadi tələblərlə bağlı siyasi fəallığının qarşısını alırlar. Çünki ictimai inkişafa marksistcəsinə yanaşsaq, onda fəhlə sinfinin azadlığı yalnız onun əlində olduğundan, dövlətin və hakimiyyətin burada rolu klassik kapitalizmdə olduğu kimi, istismar sistemini qorumaqdan ibarətdir ki, neototalitar dövlətlər də eyni işi görür. Sadəcə bu cəmiyyətlərdə kapitalist sinfini *ailələr və ya klanlar* əvəz edir.

Marksizmin hissəvi anlamı nəticəsində «iqtisadi inkişaf nəticəsində ictimai şüur latent inkişaf edəcək» fikri də ictimai şüur fəal olduğundan latent yox, əksinə, aşkar şəkildə bazisə təsir imkanı əldə edəndə inkişaf edə bilər. Məhz belə latent inkişafın nəticəsidir ki, yenicə müstəqillik əldə etdikdən qısa bir vaxt sonra postsovet respublikalarında milli və dövlət maraqlarına yad olan və hər iki marağa zidol «*istismarçı sinif*» meydana gəlmiş və iqtisadiyyatı məhv edən iqtisadi xəstəliklər – korrupsiya, rüşvət, mülkiyyətin qeyri-qanuni əldə edilməsi, ötürülməsi və istifadə edilməsi getdikcə çiçəklənməkdədir. Bu gün neototalitar liderlərin siyasiləşməni məqsədyönlü şəkildə inkişaf modelində islahatlar cərgəsində sonraya saxlamaq cəhdləri ona gətirib çıxarıb ki, *yeni liberal ideyaların cəmiyyətdə yayılmasının qarşısı alındığından bazisə, iqtisadi inkişafa təsir edə bilmir və bu dövlətlərdə istismarçı kapitalizm formalaşır, hansı ki, cəmiyyəti ifrat qütbləşməyə və bununla da sinfi çaxnaşmalara sürükləyir*.

Qeyd edim ki, Marksın iqtisadi baxışları inkişaf etmiş müasir demokratik ölkələrin heç birində tam qəbul edilmir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Marksın iqtisadi nəzəriyyəsi kapitalizmin başlanğıc mərhələsi ilə bağlı qəbul ediləndir və labüd olaraq sosialist inqilabını əsaslandırıb. Sosializmin ən nəhəng ölçüdə eksperiment edildiyi keçmiş SSRİ-də bu nəzəriyyənin nələrə səbəb olması isə hamıya yaxşı məlumdur.

Haşiyə: Marksizmlə müasir reallıqları anlamaq bir çox səbəblərdən yanlışdır. Birincisi, *siyasətin ideologiya ilə birləşməsi.* Belə birləşmə səhv tendensiyalar yaradır. Bu baxımdan marksizmin iqtisadi görüşlərini siyasi inkişafın əsasına qoymaq qaçılmaz olaraq ən yaxşı halda yenidən postsovet respublikalarını sosializmə qaytara bilər. Siyasətlə ideologiyanın birləşməsi istənilən cəmiyyətdə hər cür azadlıqları sıradan çıxarır. Karl Yaspers «Tarixin mənbələri və onun məqsədi» adlı kitabında yazır: «Siyasi azadlığın əlaməti siyasətin dünyagörüşündən ayrılmasıdır». Marksizm ideologiyasının demokratiyanı necə məhv etdiyini və marksizmin demokratiyanın əleyhinə olmasını Marksın və onun ardıcıllarının fikirlərindən aydın görmək olar. F.Engels «Mərkəzləşdirilmə və azadlıq» adlı əsərində yazır: «Mərkəzləşdirmə – dövlətin mahiyyəti və həyati siniridir və

bununla ona haqq qazandırmaq olar. Hər bir dövlət zərurətə görə mərkəzləşdirməyə cəhd edir. Mütləq monarxiyadan respublikaya qədər hər bir dövlət mərkəzləşdirilmişdir… Mütləq azadlıqla bərabər gücdə olan həqiqi subyektiv azadlıq özünün həyata keçirilməsi üçün dövlətdən başqa forma tələb edir». Beləliklə, Engelsə görə, *subyektiv azadlıqlar* yalnız dövlət formasından kənarda reallaşdırıla bilər. Belə olduğu halda etatik yol tutmuş iqtidarlar azadlıqları boğmaqdan başqa yol tuta bilərdimi? Elə sosialist inqilabınının baş ideoloqu və Marksın davamçısı V.İ.Lenin məhz bu baxımdan demokratiyaya yanaşaraq, demokratiya haqqında *siyasi demoqogiyanın* klassik nümunələrini yaratmışdır. Lenin demokratiya haqqında yazır: «Demokratiya çoxluğun hakimiyyətidir… demokratiya həmçinin əhalinin bir hissəsinin digər hissəsi üzərində ağalığı, həmçinin dövlətdir… Əsl həqiqətdə demokratiya azadlıqları inkar edir. İnkişafın dialektikası belədir: Mütləqiyyətdən burjua demokratiyasına; burjua demokratiyasından proletar diktaturasına; Proletar diktaturasından heç hansına… Demokratiya bərabərliyi bildirir… amma demokratiya yalnız formal bərabərliyi nəzərdə tutur… demokratiya dövlət formasıdır, onun növlərindən biridir və təbii olaraq o istənilən dövlət kimi insanlara təşkil olunmuş sistematik zorun tətbiq edilməsini təqdim edir… demokrat olmaq işdə çoxluğun maraqları ilə hesablaşmaq deməkdir, azlığın yox… seçkilərin forması, demokratik forma bir işdir, bu müəssisənin sinfi mahiyyəti başqa işdir. İstənilən demokratiya digər siyasi üstqurumlar kimi son nəticədə istehsala xidmət edir, cəmiyyətin istehsal münasibətləri ilə müəyyənləşir». Məncə, şərhə ehtiyac yoxdur. Leninin müxtəlif əsərlərindən gətirdiyimiz bu sitatlar bütünlükdə neomarksizmin mahiyyətini mənimsəməkdə olduqca mühüm əhəmiyyət kəsb edir. İkincisi, *demokratiya və insan azadlıqlarına marksist yanaşma.* Yuxarıda marksizmin banilərinin əsərlərindən gətirdiyimiz sitatlardan görünür ki, marksizm demokratiyanı yalnız dövlət forması, çoxluğun hakimiyyəti kimi qəbul edir. Demokratiyanın mahiyyətdən çox forma olması kimi baxışlar neototalitarizmin ideoloqlarının da başlıca tezislərdir. Lenin «Dövlət və inqilab» əsərində yazır: «Xalqın böyük çoxluğu üçün demokratiya və güclə yatırılmış demokratiyadan xalqı istismar edən istismarçı-

ları istisna etməklə kapitalizmdən kommunizmə keçiddə demokratiya şəkil dəyişməsidir. Demokratiya sədd deyil ki, keçməyəsən, feodalizmdən kapitalizmə və kapitalizmdən kommunizmə keçidin bir mərhələsidir». Demokratiyaya Lenin baxışı sovet totalitarizminin başlıca qaynağı olmuşdur. Marksistlər, faşistlər, nasionalistlər, bir sözlə, demokratiyanın düşmən cəbhəsində yer alan «izm»-lərin nümayəndələri bir həqiqəti anlamamışlar ki, demokratiya bəşəriyyətin çatmaq istədiyi elə bir məqsəddir ki, bütün formasiyalar, transformasiyalar və mərhələlər insanlığı məhz bu məqsədə doğru aparır, nəinki əksinə.

Qeyd etmək lazımdır ki, tarixi inkişafın başqa səbəblərdən yaranması ilə bağlı marksizmdən fərqli çoxlu müasir nəzəriyyələr var ki, onlar maksizmi hissəvi və ya total şəkildə inkar edirlər. Mən 90-cı illərdə «Marksizmin süqutu labüddür» adlı məqaləmdə marksizmin əsaslarının nisbi olması iddiası ilə çıxış etmişəm və həmin məqaləni... ildə çap olunan «Azadlığa məhkumuq» adlı kitabıma da daxil etmişəm. Burada isə marksizmin nisbi həqiqət olmasını sübut edən digər nəzəriyyələrə müraciət etməyə üstünlük verirəm.

Əslində marksizm həyat *uğrunda mübarizənin sosial həyatda refleksiyasının* nəzəriyyəsidir. Bu baxımdan digər təbii qanunların inkişafının sosial refleksiyasına həsr olunmuş nəzəriyyələrə diqqət etmək və bu zaman problemə *sinergizm fəlsəfəsindən* yanaşmaq məqsədə müvafiqdir. E.Fromm da belə hesab edir ki, tarixi düzgün anlamaq üçün üç şəxsin – Marksın, Freydin və Nitsşenin nəzəriyyələrinə birgə baxılmalıdır. Biz bu cür çoxlu sayda üçlü – bir-biri ilə səsləşən başqa mütəfəkkirlərin də fikirləri ilə tarixi düzgün anlaya bilərik. Mən də belə hesab edirəm ki, inkişafa eyni vaxtlarda müxtəlif istiqamətlərdən yanaşaraq, həqiqətən mürəkkəb varlıq olan fərdin və sinergetik sistem olan cəmiyyətin inkişaf məntiqini anlamaq olar. Başqa sözlə, biz həqiqətən transformasiya xətti tutmuşuqsa, onda baş verənləri paralel olaraq həm iqtisadiyyatın, həm fərdi inkişafın, həm də cəmiyyətin və nəhayət, ağlın inkişaf qanunauyğunluqlarından anlamağa və dəyərləndirməyə cəhd etməliyik.

Haşiyə: Marksizmin mütləq həqiqəti ifadə etməməsi, iqtisadiyyatın dövlət və cəmiyyət həyatında önə çıxarılmasının ziyanları

barəsində kifayət qədər elmi-fəlsəfi təlimlər mövcuddur. Burada antimarksistlərin nəhəng çoxluğunun fikir və ideyalarını şərh etmək məqsədim olmadığından, yalnız bir mövqeni oxucuların diqqətinə çatdırmağı məqsədə müvafiq hesab edirəm. T.Hoyrup «Həyat Modelləri» adlı kitabında yazır: «Sosial formasiya artıq aşağıdan götürülmüş birləşdirici elementlərin ərintisi nəzəriyyəsinə daxil olmur. Dövlət sistemi tərəfindən yaradılan və həyat modelləri ilə təyin olunan anlayışa çevrilir…sosial formasiya istehsal üsulundan asılı olmayaraq dövlət və protodövlət sərhədlərində siyasi, ideoloji və iqtisadi münasibətlərdən ibarətdir…sosial formasiya üç qarşılıqlı əlaqəli anlayışdan – öz xüsusi nəsil *ideoloji nəzəriyyə* formasından; öz xüsusi spesifik *iqtisadi nəzəriyyə* formasından; öz xüsusi spesifik *siyasi nəzəriyyə* formasından ibarət olur». Postsovet respublikalarında hansı həyat modelini yaratmağa cəhd edilməsi marksizmlə yox, məhz T.Hoyrupun dediyi qaydada izah edildikdə aydın olur ki, bu respublikaların götürdüyü strateji xətt heç də onları bütün bəşəriyyətin getdiyi tərəfə istiqamətləndirmir. Bəs postsovet respublikaları hansı sosial-iqtisadi sistemə keçir? Birmənalı şəkildə qeyd etmək olar ki, postsovet respublikalarında aparılan siyasət - iqtidarların sosial, siyasi və iqtisadi islahatları – bu respublikaları *feodalizasiyaya* aparır. Bunu bu ölkələrin iqtisadi inkişafının Marksın bəhs etdiyi vəziyyətə gətirməsi faktı da sübut edir. Belə ki, Marksın baxışları məhz feodalizmdən kapitalizmə keçidi şərh edir və postsovet liderlər də iqtisadiyyatda məhz Marksın bu fikirlərinə əsaslanırlar. Biz bu ölkələrin təcrübəsində iqtisadi sahədə feodalizasiyanın necə inkişaf etdirildiyini elmi şəkildə şərh etməyə cəhd edəcəyik.

Hələlik qısa şəkildə neototalitarların *iqtisadi siyasəti* haqqında. Neototalitar cəmiyyətlərdə həm iqtisadi inkişaf həm kapitalizm anlayışı marksizmin mənimsənilməsində olduğu kimi, hissəvi anlamda qəbul edilir və yalnız həm iqtisadi inkişafın, həm kapitalizmin və həm də marksizmin radikal-total anlamı ilə müqayisə aparmaqla bu ölkələrin iqtisadi inkişafı ilə bağlı paradiqmanın mahiyyətinə varmaq olar.

Haşiyə: Neototalitarizmin formalaşmasının iqtisadi əsasları bir çox səbəblərlə bağlıdır. Birincisi, *fərqli iqtisadi sistemlərin tabe oldu-*

qları qanunauyğunluqlara istinad edilməsi. İqtisadiyyatla bağlı təhlillərdə onun formasının nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir, çünki ayrı-ayrı iqtisadi sistemlərdə iqtisadi nailiyyətlər bir-birindən fərqli üsulla əldə edilir. Əgər oxucular diqqət edibsə, son onilliklərdə dünya iqtisadi leksikonda kapitalizm termini çox nadir hallarda işlənir və bir qayda olaraq iqtisadi islahatlardan və iqtisadi transformasiyalardan, o cümlədən, müasir qlobal iqtisadi sferada baş verənlərdən danışılarkən daha çox *«bazar iqtisadiyyatı»* termini işlədilir. Xüsusi ilə qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı kapitalizmin müasir mərhələsini təşkil edir və klassik kapitalizm ilə bazar iqtisadiyyatı arasındakı fərq az qala feodalizmlə kapitalizm arasındakı fərq qədərdir. Bazar iqtisadiyyatı da kapitalizmin son təkmil forması deyil və təcrübədə kapitalizm özünün son formasından o qədər uzaqdır ki, hətta Hayek belə hesab edir ki, «Biz kapitalizmin təmiz formasından mərkəzi planlaşdırmadan uzaq olduğumuz qədər uzağıq. Dünya bu gün – sadəcə intervensionstik xaosdadır». Qeyd edim ki, bazar iqtisadiyyatının özünə məxsus terminoloji bazası, xüsusi anlayışları, qanunauyğunluqları və öz xüsusi iqtisadi «şüuru» vardır və onu vəhşi kapitalizmin terminləri ilə şərh etmək olmaz. İkincisi, *nəzəriyyənin təcrübəyə tətbiqinin spesifikasını nəzərə almamaq.* Belə ki, iqtisadiyyat həm də təcrübi sahədir və təcrübi sahələrə xas qanunauyğunluqlara tabedir. Başqa sözlə, iqtisadi təcrübəni tam subyektiv düşüncə ilə həyata keçirmək olmaz. Alfred Uaythed yazır: «Bütün məşhur adamlar tərəfindən deyilən «nə etdiyimizi düşünməyə adət etməliyik» fikri ciddi səhvdir. Sivilizasiya mühüm vəzifələri yerinə yetirməyi artırmaqla irəliyə hərəkət edir, hansı ki, onlar haqqında düşünmədən yerinə yetirmək imkanımız var». Beləliklə, inkişafın təbii tempi ilə ağlın inkişaf tempi arasında disproporsiya həqiqətən bəzi yenilikləri anlamadan qəbul etməyimizi tələb edir. Xüsusən bazar iqtisadiyyatını XIX əsrdə meydana çıxmış və kapitalizmin ilkin mərhələsində baş verənləri izah edən nəzəriyyə ilə – marksizmlə tam anlamaq mümkün deyil və buna görə də əsas vəzifə iqtisadi inkişafı ideologiyalaşdırmaq yox, sadəcə dünya təcrübəsinə müraciət etməklə bazar iqtisadiyyatına keçmək olmalıdır. Təcrübə ilə elmin disproporsional inkişafı Con Styuart Milin də diqqətini cəlb

etmişdir. O, «Siyasi iqtisadiyyatın əsasları» adlı məşhur əsərinin əvvəlində etdiyi qeydlərində yazır: «İnsan fəaliyyətinin istənilən sahəsində təcrübə elmin inkişafını çox qabaqlayır: təbiətin güclərinin təzahürünün sistematik öyrənilməsi bu güclərin təcrübi məqsədlərlə istifadəsinə cəhdin uzun zəncirinin geridə qalmış nəticələri kimi çıxış edir». Üçüncüsü, *iqtisadi problemləri düzgün müəyyənləşdirməmək.* Əslində iqtisadi siyasətin birinci işi iqtisadi problemləri aşkarlamaq, onların yaranma səbəblərini öyrənmək, onların həlli yollarını müəyyənləşdirmək, bunun üçün əlverişli vasitələri təmin etmək və iqtisadi dəyişilmələri zamanlamadan ibarətdir. Bəs iqtisadi problem adı altında biz nəyi başa düşməliyik? Bununla bağlı A.F.Hayek yazır: «İqtisadi problem – vəziyyətin əsl olandan fərqli olsaydı biz necə etməliydik «yox, - biz»də olan resursları ən yaxşı istifadə problemidir». Postsovet respublikalarının iqtisadi problemi həm də yalnız real vəzifələri necə yerinə yetirmək yox, irreallıqları reallıqlar kimi təqdim edib, sonra həmin irreallıqlar ətrafında düşünmək və başqalarını da belə düşünməyə məcburetmənin problemidir. Əsl həqiqətdə isə bu ölkələrin iqtisadi problemi malik olduqları təbii sərvətləri - əlverişli siyasi coğrafiyanı, işçi qüvvəsini, əhalinin intellektual potensialını - hər bir vətəndaşın rifah vəziyyətinin yaxşılaşması, dövlətin qüdrətinin artırılması, dünya iqtisadiyyatına səmərəli inteqrasiyaya gətirib çıxaracaq qaydada istifadə etməkdən ibarətdir. İqtisadi düşüncə və iqtisadi biliklər isə həqiqi iqtisadi problemlərin həllinə xidmət etməlidir. Dördüncüsü, *şəxsi təşəbbüskarlığın boğulması.* Qeyd edim ki, «İqtisadi problem» termininin total-radikal anlamı hissəvi anlamından köklü fərqlənir. Hayekə görə, iqtisadi problem dəyişilmələr və onların nəticələri ilə bağlıdır. O, yazır: «Cəmiyyətin iqtisadi problemi «mövcud» resursların - əgər «mövcud» sözü sadəcə bu «mövcud» olanların qarşısında qoyulmuş hansısa bir ağılla verilmiş kimi başa düşülmürsə - yerləşdirilməsi problemi deyil. Bu daha çox, yalnız fərdə əhəmiyyəti məlum olan məqsəd üçün cəmiyyətin hər bir üzvünə məlum olan resursların istifadəsinin necə yaxşı təşkil olunması problemidir… bu problem hər kəsə tam həcmdə verilməmiş biliyin istifadəsidir». Başqa sözlə, iqtisadi problem arzuolunanın əldə edilməsi qarşısında dayanmış maneələri dəf etməklə həll olunur və bu zaman

vətəndaşların iqtisadi maariflənməsi, *iqtisadi biliyin mümkün qədər çox adama*, həm də hissəvi olaraq verilməsi və ölkənin *resurslarının necə, hansı qaydada istifadəsində şəffaflığın təmin edilməsi* zərurətə çevrilir. Buradan da, iqtisadi problemin həlli kütləvi iqtisadi biliklənmə, iqtisadi həyatda fərdi iştirakçılığın artması, yalnız dövlətin yox, hər bir vətəndaşın ölkənin resurslarının səmərəli istifadəsində söz sahibi olması ilə əlaqələnir. Hansı ki, postsovet respublikalarında bunun əksinə olaraq, iqtidarlar iqtisadi biliklərin yayılması istiqamətində heç bir səmərəli addım atmır və resursların istifadəsi ilə bağlı nəinki vətəndaşların tələbləri əsasında, hətta beynəlxalq təşkilatların tələblərinə əks olaraq şəffaflığı təmin etmirlər. Bu da ciddi iqtisadi problem kimi meydana çıxır. Burada elmin tərəqqi ilə əlaqəsi və bu iki prosesin birlikdə iqtisadi tərəqqi ilə bağlılığını C.S.Millin fikirləri ilə aydınlıq gətirmək istəyirəm. C.S.Mill yazır: «Tərəqqinin özü və təbiət haqqında biliklərin qeyri-bərabər bölünməsi sərvətin istehsalının və ya bölünməsinin vəziyyətinin bəzən səbəbi, bəzən nəticəsi kimi çıxış edir». Əlavə etsək ki, həm də cəmiyyət haqqında biliklər istehsal və bölgü ilə bağlı müxtəlif nəticələrin və səbəblərin meydana çıxmasına gətirib çıxarır, onda iqtisadi tərəqqini biliklənmədən, o cümlədən, maariflənmədən kənarda aparmağın mümkün olmadığı üzə çıxır. Postsovet respublikalarında isə biliyin səviyyəsi keçmiş SSRİ ilə müqayisədə çox nəhəng geriləməyə məruz qalmışdır ki, bu da belə şəraitdə iqtisadi tərəqqiyə nail olmağa heç vaxt imkan verməz.

Göründüyü kimi, postsovet respublikaları sosializmdən imtina etməklə ona xas istehsal üsulundan da imtina etmiş və onlar üçün yeni, amma dünya üçün kifayət qədər köhnə olan *kapitalist istehsal üsuluna* keçməyə cəhd edir. Klassik kapitalizm istehsal üsulu fəhlə əməyinin istismarına əsaslanan istehsal münasibətlərinin tarixi formasıdır və onun dövlət və xüsusi mülkiyyət münasibətlərinə əsaslanması da işin mahiyyətini dəyişmir. Kapitalizm istismara əsaslandığından təbii ki, bu istismarı təmin edən və onu getdikcə daha çox gücləndirən üstquruma – kapitalist cəmiyyətinə, kapitalist dövlət formalarına və kapitalist siyasi hakimiyyətinə əsaslanır. Postsovet respublikalarında məhz vəhşi kapitalist mərhələsi üçün

xarakterik olan cəmiyyətin formalaşması, totalitar dövlətin yaranması və istismarçı kapitalist siyasi hakimiyyətinin formalaşması bir daha sübut edir ki, bu cəmiyyətlər kapitalizmin başlanğıc dövrünə – vəhşi kapitalizmə qayıdır. Bu üç paradiqmanın hər birini geniş şərh etmədən qeyd edim ki, *klassik kapitalizmə qapalı, qeyri-azad və qeyri-eqalitar cəmiyyətlər xasdır*. Burada yalnız bir hüquq – hakim sinfin «xüsusi mülkiyyətinin toxunulmazlığı» hüququ – hakim olmuşdur və siyasi hakimiyyət qeyri-demokratik üsul və vasitələrlə – repressiya, sui-qəsd, terror və ictimai narazılığın istənilən formada boğulması ilə bu hüququ qorumaq vəzifəsini yerinə yetirmişdir. İnkişaf etmiş kapitalist dövlətləri isə yalnız kapitalist gəlirlərinin həcmi ilə biri-birindən fərqlənmişdir. Klassik kapitalizmin dövlət forması ya monarxiya – onun müstəbid formasında, ya da diktatura – onun totalitar şəklində mövcud olmuşdur. Postsovet respublikalarında da zaman-zaman monarxiya tərəfdarlarının meydana çıxması bir daha onların vəhşi kapitalizmə qayıtmaq istəklərindən xəbər verir. Tarixi inkişaf prosesində kapitalizmin inkişafı iki xətlə – istismarçı kapitalizmin ali mərhələsi kimi imperializm, yeni istehsal üsulu ilə fərqlənən sosializm istiqamətində getmişdir. Tarix göstərir ki, həm imperializm, həm sosializm totalitarizmə gətirib çıxarmışdır.

Bu gün postsovet respublikalarında bazar iqtisadiyyatı adlandırılan inkişaf yolu isə kapitalizmin tamamilə fərqli – üçüncü yolla inkişafı nəticəsində meydana çıxıb. Nümunə kimi təhlil etdiyimiz strategiyada bazar iqtisadiyyatı belə anlamda verilir: «Demokratiya, bazar təsərrüfatı və vətəndaş cəmiyyəti idealı tədricən cəmiyyətin inkişaf strategiyasının əsas səmtinə çevrilmiş, beləliklə də müasir milli dövlətin başlıca vəsilələri olmuşdur».

Haşiyə: Postsovet respublikaların liderlərinin iqtisadiyyatı təsərrüfatla eyniləşdirməsi, onu inkişaf strategiyasının əsas səmtinə çevrilməsini qəbul etməsi və nəhayət, milli dövlətin başlıca vəsiləsi olmasını qəbul etməsi bir çox ciddi problemlər doğurmuşdur. Bunun aşağıdakı səbəbləri vardır. Birincisi, *iqtisadiyyata etatik yanaşma ilə liberalizmdən imtina.* Qərbdə kapitalizmin tarixi inkişafının gedişində kapitalist istehsal üsulunun istismarçı mahiyyətini tədri-

cən azaltmaq və fəhləni də kapitalistlə birlikdə işlədiyi müəssisənin sahibinə çevirmək, bununla da «özü-özünü istismar» vəziyyətinə gətirmək üçün iqtisadiyyatın və sosial həyatın liberallaşması həyata keçirilmişdir. Başqa sözlə, bazar iqtisadiyyatında qeyri-eqalitar quruluşla azad cəmiyyət sintez edilmişdir. Təbii ki, buna uyğun üstqurumda da ciddi islahatlar baş vermişdir. Bu islahatların nəticəsində klassik kapitalizmdən fərqli olaraq sosial rifah dövləti, demokratik hakimiyyət meydana gəlmişdir. Kapitalist dünyasında mövcud monarxiyalar da öz növbəsində iki yolla demokratikləşmişdir. İngiltərədə feodal burjua inqilabı nəticəsində konservativ yol tutulmuş, konstitusiyalı monarxiya yolu ilə inkişaf davam etdirilmişdir. Fransada isə eyni inqilabın nəticəsində monarxiya quruluşu respublika quruluşu ilə əvəzlənmişdir. Kapitalist diktaturaları isə, faşist Almaniyasında olduğu kimi, müharibə və inqilablar yolu ilə məhv edilmişdir. Bazar iqtisadiyyatını klassik kapitalist iqtisadiyyatından fərqləndirən amil - bazar iqtisadiyyatında dövlətin iştirakçılığının minimuma endirilməsidir. Belə iqtisadiyyatda dövlət nə əmək münasibətlərində, nə də qiymətlər sisteminin formalaşmasında iştirak etmir. Bazar iqtisadiyyatı *katalaksiya* prinsipinə əsaslanır. Bu prinsiplə bağlı Hayek yazır: «Katalaksiya – spontan qaydalardır – xüsusi mülkiyyət normaları ilə fəaliyyət göstərən adamlar və bazarın qoyduğu qarşılıqlı öhdəliklərə görə müqavilə cavabdehliyidir». Cavabdehlik hüquqla tənzimləndiyindən, dövlət yalnız qanunçuluq çərçivəsində iqtisadi münasibətlərin hüquqi tənzimlənməsində iştirak edir. Neototalitar dövlətlərdə isə, tamamilə əksinə, dövlət istənilən iqtisadi fəaliyyətə müdaxilə edir, əvəzində qanunvericilik iqtisadi inkişaf tempindən ya geri qalır, ya da hüquqi nihilizm hökm sürür. İkincisi, *məqsədlərin seçilməsində azadlığın məhdudlaşdırılması.* C.S.Mill istehsalın məhsuldarlığına təsir edən amillər sırasında xüsusi olaraq *təhlükəsizliyə* yer ayırır. O, yazır: «Təhlükəsizlik adı altında mən, cəmiyyətin üzvlərinin hərtərəfli müdafiəsini düşünürəm. O, hökumət tərəfindən müdafiəni və hökumətdən müdafiəni özündə ifadə edir. Pis institutlar ölkənin istehsal resurslarından ən əlverişli istifadəsinə maneə yaratmışdır…möhkəm olmayan və təlatümlü vəziyyətdə olan cəmiyyətlərdə şəxsiyyət və

mülkiyyət minlərlə təhlükəyə məruz qalmışdır…müasir millətlərdə şəxsiyyətin və mülkiyyətin təhlükəsizliyi əhəmiyyətli dərəcədə özündə adətlərin və görüşlərin nəticələrini təqdim edir, nəinki qanunları». Hökumətdən müdafiənin zəif olduğu istənilən cəmiyyətdə iqtisadiyyata hökumətin özbaşına müdaxiləsi məhsuldarlığı aşağı salır, kapital yığımına marağı söndürür, istehsalı dayandırır. Hökumətdən müdafiə xüsusən məqsədlərin seçilməsində müstəsna əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatı ilə kapitalizmi fərqləndirən ən mühüm məsələlərdən biri də *məqsədlərin seçilməsi və iqtisadi planlaşdırmadır*. Kapitalizmdə məqsədlər iş adamları tərəfindən azad şəkildə seçilir. Dövlət yalnız öz monopoliyasında olan sahələrdə məqsədləri müəyyən edir. Postsovet respublikalarında heç bir sektorda məqsədlərin seçilməsi azad deyil. Bu bir tərəfdən *qeyri-qanuni monopoliya*, digər tərəfdən, kapitalizmlə bir araya sığmayan iqtisadi sferada *məcburetmələrin* hələ də qalması ilə bağlıdır. Bu cəmiyyətlər sosializm sistemindən qalma total planlaşdırmanın təcrübələrini hələ də özlərində daşımaqdadır. Qeyd edim ki, kapitalizmdə də planlaşdırma həyata keçirilir. A.Hayek iqtisadi planlaşdırma haqqında yazır: «Planlaşdırma kimə həvalə olunmalıdır – məhz «iqtisadi planlaşdırmanın» bütün mübahisələrinin mərkəzində o durur. Əsas məsələ planlaşdırmanın olub-olmaması deyil. Əsas məsələ odur ki, bütün cəmiyyət üçün bütünlükdə vahid hakimiyyətin mərkəzi planlaşdırması və ya çoxlu fərdə verilməsidir». Sosializmdə, eləcə də dövlət kapitalizmində planlaşdırma mərkəzləşdirilmiş qaydada, yalnız dövlət tərəfindən həyata keçirilir. Neototalitar dövlətlərdə bütünlükdə iqtisadi planlaşdırma hakimiyyətin monopoliyaya alınması ilə müşayət olunur. Bazar iqtisadiyyatı isə planlaşdırmanı müxtəlif mərkəzlərə, o cümlədən xüsusi sektora, fərdə verilməsi əsasında inkişaf edir. Beləliklə, əgər klassik kapitalizm iqtisadi sferada məqsədlərin azad seçiminə əsaslanırsa, bazar iqtisadiyyatı həm də iqtisadi planlaşdırmanın fərdi səviyyəyə keçməsinə – planlaşdırma azadlığına əsaslanır. Üçüncüsü, *milli iqtisadiyyat modelinə üstünlük verilməsi.* Bazar iqtisadiyyatı klassik kapitalist iqtisadiyyatından iqtisadiyyatın dövlətdən ayrılması, azad olması ilə və bununla da milli iqtisadiyyat kimi çıxış edə bilməməsi

ilə fərqlənir. Bu baxımdan yeni iqtisadi sistemə keçiddə milli iqtisadi düşüncə ilə çıxış etmək və milli iqtisadiyyatın planlaşdırılması bazar iqtisadiyyatı şəraitində mümkün deyil. Postsovet respublikalarında milli iqtisadiyyat baxışları hakim olduğundan, bazar iqtisadiyyatına keçə bilmirlər. Karl Byuxer yazır: «Milli dövlətlər dünya arasından iqtisadi münasibətləri «ərazi təsərrüfatı» kimi şərh edir». Elə yuxarıda strategiyada şərh etdiyimiz stitatda da «ölkədə təsərrüfat modernləşəndə» ifadəsi postsovet liderlərin müasir iqtisadiyyatı ərazi təsərrüfatı kimi anladığını sübut edir. Bazar iqtisadiyyatı ölkələrində mili bazarla mili dövlətin sərhədləri üst-üstə düşmür. Bu gün inkişaf etmiş, bazar iqtisadiyyatına keçmiş bütün milli dövlətlərin *daxili «bazarı» qloballaşma* nəticəsində beynəlmiləl xarakter almışdır. Əgər bazar beynəlmiləl xarakter alıbsa, onda artıq daxili bazarlar üçün xarakterik olan tələb-təklif prinsipi özünü doğrultmur və bazarın tənzimlənməsi milli dövlətin nəzarətindən çıxır. Dünya iqtisadiyyatı dünya dövlətinin nəzarətində olduğundan, hətta Amerika kimi nəhəng güclər belə, iqtisadiyyata milli dövlət nəzarəti həyata keçirə bilmirlər. Əsl həqiqətdə iqtisadiyyata milli dövlət nəzarəti *merkantilizmin* əsasında durur. F.Brodelə görə, «bəzən məkanda geniş yayılmış həcmli iqtisadiyyat «əraziləşmiş» kimi adlandırılan iqtisadiyyatla kifayət qədər əlaqələnir ki, hakimiyyət onu az-çox modelləşdirə və ya *manipulyasiya* edə bilər. Merkantilizm ölkə iqtisadiyyatının bütün məcmusu manipulyasiya etmək imkanının dərk edilməsidir». Göründüyü kimi, bir tərəfdən qlobal iqtisadiyyata inteqrasiya, digər tərəfdən iqtisadiyyata milli səviyyədən ərazi təsərrüfatı kimi baxmaq iki məqsəd güdür: iqtisadiyyatı monopoliyaya almaq və modernləşdirmək. Hər iki məqsəd birbaşa liberalizmə ziddir və inkişafa totalitar yanaşmadır. Dördüncüsü, *inteqrativ meyllərin məhdudlaşdırılması.* Bazar iqtisadiyyatının digər bir özəlliyi dünya iqtisadiyyatına mərkəzləşmədən qoşulma – yəni iqtisadi zonaların, mərkəzlərin dövlətə paralel, qlobal iqtisadiyyata müstəqil inteqrasiya etməsidir. Bazar iqtisadiyyatının əsas əlamətlərindən biri *azad iqtisadi zonaların* yaranmasıdır. Azad iqtisadi zona hər şeydən öncə dövlətsizləşməni tələb edir. Azad iqtisadi zonada nəinki dövlət iqtisadiyyata müdaxilə imkanını itirir, həm də

bu zonalarda öz suverenliyini həyata keçirməkdən könüllü imtina edir. Azad iqtisadi zonada siyasət tamamilə iqtisadiyyatdan ayrılır. Göründüyü kimi, milli iqtisadiyyatın iqtisadi anlayışları bazar iqtisadiyyatı anlayışlarına ziddiyyət təşkil edir. Bu baxımdan bazar iqtisadiyyatı ilə marksizm nəzəriyyəsinin istinad etdiyi kapitalizm arasında heç bir əlaqə və ya oxşarlıq yoxdur. Postsovet respublikalarında bazar iqtisadiyyatının məhz klassik kapitalizm anlamında qəbul edilməsi təbii ki, bu ölkələrdə klassik kapitalizmin yaradılmasına aparır ki, başlanğıc kapitalizmin bütün faciə və biabırçılıqları ilə bu gün üz-üzə qalmağımız bunu bir daha sübud edir. Beşincisi, *kapitalist ruhunun hakim olması.* Əgər postsovet respublikaları vəhşi kapitalizmə keçid siyasəti aparırsa, onda kapitalizmin yalnız xüsusi mülkiyyət subyektlərindən ibarət olmadığını, ilk növbədə feodalizmdən fərqli yeni istehsal münasibətləri yaradan insanlıqdan baş verən mənəvi dəyişilmələrdən ibarət olmasının mahiyyətinə varmalı idilər. Məşhur alman sosioloqu Maks Veber «Protestant etikası və kapitalizmin ruhu» adlı əsərində kapitalizmin bütün prinsiplərinin və məqsədlərinin əsaslandığı, kapitalist istehsal üsulunun bərqərar olduğu dəyərlərə aşağıdakıları aid edir: vaxt – puldur; kredit – puldur; pul yeni pul yaradır; kim ki pul kisəsini başqalarına açır cəmiyyətdə yer tutur; vicdanlılıq, təmizlik kredit artırır; vəzifə borcu öhdəlik yaradır; təbii iqtisadi seçim. Haşiyəyə çıxım ki, əgər biz Veberin nöqteyi-nəzərindən postsovet respublikalarında gedən prosesləri qiymətləndirsək, görərik ki, bu ölkələrin iqtidarlarında və onların iqtisadi inkişaf pardiqmasının əsaslandığı prinsiplərin heç birində kapitalist ruhu yoxdur.

İndi isə qısa şəkildə kapitalizm ruhunun hər bir dəyərinə postsovet iqtidarlarının yanaşması barədə:

a) «Vaxt puldur» dəyəri. Təhlil etdiyimiz strategiyada qeyd olunur ki, «bəzən bizə eyni vaxtda həm demokratiyanı həm də bazar iqtisadiyyatına keçidi zorla qəbul etdirmək səyləri…tarixi presedenti olmayan bir eksperiment deməkdir». Qeyd edim ki, bütün neototalitar dövlətlər məhz vaxt itkisi hesabına totalitarlaşa biliblər. Əgər onlarda kapitalist ruhu hakim olsaydı *«eyni vaxtlılığın»* fəlsəfəsinə varar və görərdilər ki, Qərb milli sərvətlərin istismarından gələn gə-

lirlərindən səmərəli istifadə edilməsi və vaxt itkisinin pul itkisinə səbəb olacağından bu ölkələri bütün istiqamətlərlə paralel islahatlar aparmağa tələsdirir. Postsovetlərdə isə kapitalizm ruhu olmadığından, belə tələsdirməyə neqativ yanaşılır.

b) «Kredit puldur» dəyəri. Postsovet cəmiyyətlərində kapitalist ruhu hakim olmadığından və kapitalist ruhunun bu dəyərinin düzgün anlanılmaması iqtidarların kredit siyasətində ciddi qüsurlara gətirib çıxarıb. Onlara görə milyardlarla ölçülən *xarici kreditlərin alınması* iqtisadi inkişafın əsas göstəricisidir. Halbuki, K.Marks «Kapital»ında *bankları yeni istismar vasitələri* kimi qiymətləndirir. İndi postsovet respublikalarının aldığı kreditlər onları qaytarma mərhələsində dövlətlərinə çox baha başa gəlir ki, bu da kapitalist ruhunun olmamasının nəticəsidir. Bu ölkələrdə demokratikləşmə gecikdiyindən və korrupsiya böyük həcmdə olduğundan, ucuz kreditorların ehtiyatlı mövqedə durmasına səbəb olub ki, əvəzində böyük faizlə kredit verənlər bu coğrafiyaya axışır, bu da iqtidarları böyük faizli kredit almağa məcbur edir ki, mili gəlirin böyük bir hissəsi də bu yolla xalqın əlindən çıxır. Halbuki, iqtisadiyyatda vaxtında sağlamlaşdırıcı tədbirlər – Qərbin tələsdirdikləri edilsəydi, indi biz başqa mənzərə ilə qarşılaşardıq.

d) Biz tez-tez əxlaq və siyasət mövzusunu diskusiya etsək də, əxlaq və iqtisadiyyat dilemmasını nəzərdən qaçırırıq. Touni yazır: «İqtisadi maraqlar ikinci dərəcəlidir və insana həyatının həqiqi işinə – ruhun xilasına xidmət etməlidir; ümumiyyətlə şəxsi davranışın tərəflərindən biri kimi iqtisadi davranışa da əxlaqı tələbat şamil edilir». Postsovet respublikalarında, eləcə də başqa ölkələrdə iqtisadi cinayətkarlığın, xüsusən, korrupsiya və rüşvətin əsasında əxlaq probleminin durduğunu görmək çətin deyil. Bu gün neototalitar cəmiyyətlərin vətəndaşları leqallaşmış və dövlət səviyəsinə qaldırılmış korrupsiya və rüşvət yolu ilə yaxşı dolanmağı az qala igidlik və bacarıq kimi dərk edir. Unutmaq olmaz ki, iqtisadiyyatda əxlaqlılıq ayaq açmadıqca heç bir inzibati tədbirlərlə vəziyyəti düzəltmək mümkün olmayacaq və cinayət təqibi yolu ilə rüşvətə qarşı mübarizə nəticə verməyəcək. Əxlaqsız iqtisadiyyat kapitalist ruhunu məhv edərək iqtisadi cinayətkarlığa yol açır.

q) Kölgə iqtisadiyyatı keçmiş SSRİ-dən qalma ağır miras kimi postsovet respublikalarını məhv etməkdədir. Kölgə iqtisadiyyatının inkişafının ağır nəticələrindən biri *sərvət toplama* kimi təzahür edir. Postsovet respublikalarında hətta kiçik miqyaslı cinayət təqibində ayrı-ayrı məmurlardan milyonlarla dolların aşkar edilməsi göstərir ki, vətəndaşların kapital yox, sərvət toplamağa meyllənməsi bu ölkələrin milli pullarını pul olmaqdan və pul gətirmək potensialından məhrum edib. Bu da bu cəmiyyətlərdə kapitalizm ruhunun «pul, pul gətirir» dəyərinin heç bir məna kəsb etmədiyini sübut edir.

d) Kapitalist ruhunun digər bir dəyəri *«pul kisəsini başqalarına açmaqdır»*. Bu həm, fərdə, həm də dövlətə aiddir. Postsovet respublikalarının əhalisində fərdi səviyyədə kapitalist ruhunun bu dəyəri *sələmçilik* formasında deformasiyaya uğramışdır. Qeyd edim ki, sələm İslam dinində haram buyrulmuş böyük günahlardandır. Təsadüfi deyil ki, fərdlərin bir-birinə sələm yolu ilə borc verməsi ailələrin dağılmasından, mülkiyyətin qeyri-qanuni əldə edilməsinədək, intiharlardan tutmuş şəxsiyyət əleyhinə ən ağır cinayətlərə qədər fəsadlara təkan vermişdir. Məhz sələmçilik öz ardınca *reketçiliyi* – mütəşəkkil cinayətkarlığın uzun müddət bu respublikalarda dəbdə olan formasını doğurmuşdur. Rusiyada bu problem bu gün də aktuallığını saxlamaqdadır. Dövlət səviyyəsində bu dəyərin qiymətləndirilməməsi isə postsovet respublikalarını milyardlarla əlavə gəlirdən və qlobal iqtisadiyyatda investisiyalarda iştirakdan məhrum etmişdir. Belə ki, milli sərvətlərdən gələn gəlirlərdən vaxtında *investisiya fondlarının* təşkil olunmaması bir tərəfdən bu dövlətləri nəhəng gəlirdən məhrum edib, digər tərəfdən onların saxlanması əlavə xərc tələb edir, üçüncü tərəfdən maliyyə vəsaitləri beynəlxalq böhranların riski altına düşüb və nəhayət bu ölkələrin beynəlxalq iqtisadi nüfuzunun aşağı olmasına səbəb olub. Halbuki, Yaxın Şərq ölkələri və Norveç məhz investisiya fondlarına neft pullarını axıtmaqla əlavə nəhəng iqtisadi səmərə götürüblər. Bir faktı qeyd edim ki, artıq Norveçin sosial büdcəsi milyardları ötüb keçib. A untmaq olmaz ki, mma milli sərvətlərdən, gələn gəlirlərin o cümlədən, neft gəlirlərinin fond şəklində toplanması qeyri-aşkarlıq şəraitində həmin pulların dağıdılması şansını artırır.

e) Ölkədə mülkiyyət münasibətlərində ciddi *intizamın* olmaması iş adamlarının, o cümlədən dövlətin də öz *öhdəliklərinin* yerinə yetirməməsi ilə müşayət olunur. Vaxtilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Türkiyənin bir firmasından aldığı borcu uzun müddət qaytarmadığına görə Azərbaycana məxsus təyyarələr Türkiyə tərəfindən girov götürülmüşdü. Eyni ilə kapitalizmə xas öhdəlik və vəzifə borcunun dərk edilməməsi iş adamlarının da bu yollara əl atmasına gətirib çıxarır ki, nəticədə iqtisadiyyatda cinayətkarlıq inkişaf edir. Bu da kapitalist ruhunun «vəzifə borcu» dəyərinin postsovet iqtisadi məkanında mənimsənilmədiyini sübut edir.

ə) Kapitalist ruhunun olmamasının ən ağır zərbəsi iş adamlarının təbii *iqtisadi seçim azadlığına* dəyir. Əgər biz bu gün «postsovet respublikalarının iqtisadiyyatını kimlər təşkil edir» sualına cavab axtarsaq, söhbətin tək-tək xüsusi imtiyaza malik ailələrdən və siyasi hakimiyyətə yaxın insanlardan gedəcəyinin şahidi olacağıq. Halbuki, bazar iqtisadiyyatının prinsiplərini şərh edərkən A.F.Hayek yazır: «Bazar iqtisadiyyatında oyun qaydaları yalnız qiymətlərin mücərrəd göstəricilərini istiqamətləndirməyə yol verir, burada şəxsi simpatiya və antipatiya öz rəqiblərinin xidmətlərini subyektiv qiymətləndirməyə yol vermir». Halbuki, neototalitar ölkələrdə mövcud olan monopoliya, əksinə, qiymətlərin konkret idarə edilməsinə səbəb olur ki, burada qaçılmaz olaraq *doğmalıq, yaxınlıq, simpatiya* və *xüsusi maraq* hər şeyi həll edir. Başqa sözlə, postsovet respublikalarının iqtisadiyyatında kimin «kapitalist» olmasını, kimin yüksəlməsini, kimin enməsini iqtisadi qanunauyğunluqlar yox, siyasi və hakimiyyət simpatiyası müəyyən edir ki, bu da kapitalist ruhuna ziddir. Kapitalizmin əsas canı iqtisadi seçim azadlığındadır. Belə ki, bazar iqtisadiyyatı *rəqabət şəraitində* funksiyalaşdığından, dövlət planlaşdırması ilə kapitalist ruhu ziddiyyətdədir. Bir qayda olaraq iqtisadiyyata dövlət müdaxiləsi planlaşdırma və nəzarətin guya iqtisadi anarxiyadan qaçma adına edirlər ki, bu da əksinə, ləngimə kimi təzahür edir. Belə ki, bazar iqtisadiyyatı haqqında Hayek yazır: «Plançıların bütün görüşləri liberallardan momentə müxtəlif qiymətlər verməklə fərqlənir. Çox vaxt bazar qaydalarını anarxiyada və ümumi məqsədləri etiraf etməməkdə ittiham edirlər. Həqiqətdə onun ən vacib xidmə-

ti də budur ki, hər kəs öz məqsədini özü seçir…qaydaların qlobal tipi böyük cəmiyyətlərdə mücərrəd qaydanın formalaşmasının təhlükəsizliyinə təminat verir ki, hər kəs öz xüsusi məqsədini izləsin». Göründüyü kimi, məqsəd seçimi azadlığı kapitalist ruhunun başlıca faktorlarındandır ki, kimin harda, nə qədər, necə istehsal etməsi yalnız və yalnız istehsalçının azad seçimi olmalıdır. İqtisadiyyatın tarixini öyrənən fransız alimi F.Brodel də belə qənaətə gəlmişdir ki, kapitalizmin başlıca imtiyazı seçim azadlığıdır. Bu, *əməyin kapitalist təşkili adlanır* ki, əməyin bundan fərqli təşkilinin kapitalizmlə heç bir əlaqəsi yoxdur.

Qeyd etmək lazımdır ki, kapitalist ruhunun maddiləşməsi və təcrübədə konkret forma alması *kapitalı* və *xüsusi mülkiyyəti* meydana çıxarıb. Bu baxımdan postsovet respublikalarında kapitalizmə keçidi mülkiyyət münasibətləri və kapital yığımının necə həyata keçirilməsi ilə də qiymətləndirmək olar. P.J.Prudon «Mülkiyyət nədir?» adlı kitabında yazır: «İnsandan fikirlərini, iradəsini, şəxsiyyətini almaq hüququ onun ölümü və həyatı üzərində hüquq deməkdir – deməli, insanı kölə etmək onu öldürməkdir…Mülkiyyət nədir? – mən deyərdim ki, oğurluqdur». Əslində anarxizmin banilərindən biri olan Prudon da daxil olmaqla kapitalizmin başlanğıcında mülkiyyətdən doğan faciə və cinayətlərdən qaçmaq istəyən anarxistlər iqtisadi inkişafın bazar iqtisadiyyatı istiqamətində liberallaşmasının mümkünlüyünün fərqinə varmadan, səhv olaraq, ailəni, dövləti və xüsusi mülkiyyətin ləğv edilməsinin vacibliyi fikrinə gəlib çıxmışlar. Marksizm bundan fərqli ikinci bir yanlış yolu izləmiş və sinfi mübarizədə siniflərin tarixi transformasiya və müvvəqqəti, keçici olmasını qabaqcadan görə bilməmiş, nəticədə bir sinfin – proletariatın, digər sinfin – kapitalistin qəbir qazanı elan etmiş və sosialist inqilabı nəzəriyyəsinə gəlib çıxmışlar. Beləliklə, biz bazar iqtisadiyyatının başlanğıc kapitalizmdə mövcud olan mülkiyyətdən nə ilə fərqləndiyini anlaya bilərik. Xüsusi mülkiyyət - insana hüquq və azadlıqlarsız oğurluq, insan hüquq və azadlıqları ilə birlikdə müqəddəs toxunulmaz ictimai rifah mənbəyidir. Bəs postsovet respublikalarında hansı mülkiyyət var? Aydındır ki, bu ölkələr Qərbin *«iqtisadi inkişafı demokratikləşmə ilə eyni vaxtda aparmaq»*

təzyiqlərinin əleyhinədirlər. Halbuki, vaxtilə C.S.Mill yazırdı: «Bəzən xalq varlı olduğuna görə azadlıq əldə edir, bəzənsə ona görə var dövlətə sahib olur ki, əvvəlcə azad olur». Göründüyü kimi, istənilən halda rifah azadlıqla birlikdə mümkündür və biri digərisiz mövcud olmur. Demokratikləşməsiz kapitalizmə keçid isə xüsusi mülkiyyəti oğurluğa, oğruları da «kapitalist»ə çevirir ki, postsovet məkanında iqtisadi sferada müşahidə etdiklərimiz də məhz bundan ibarətdir.

Neototalitar cəmiyyətlərin liderlərinin çıxışlarında və bəyanatlarında zaman-zaman kapitalizmə keçidin fəsadları haqqında və mili burjuaziya yaratmağın vacibliyi haqqında ənənəvi millətçi baxışlara da rast gəlirik ki, bu da bazar iqtisadiyyatına yox, vəhşi kapitalizmə keçidin siyasi üstqurumu kimi meydana çıxır.

Kapital yığımı kapitalist istehsalının əsas şərtidir. Eləcə də iqtisadi inkişafın kapitalist modelinin əsas paradiqmasıdır. C.S.Millə görə, kapital yığımı iki faktordan asılıdır: 1. Bu onunla təyin olunur ki, yığımın həyata keçirilməsinə real cəhd nə qədər güclüdür, konkret ərazidə yaşayan əhali hansı şəkildə öz gələcək maraqlarını indiki ilə müqayisədə qiymətləndirir? 2. İkinci faktor bir o qədər də yığımı həyata keçirmək arzusundan daha çox, onun istehsala tətbiqi meylinə, sənayedə istifadə olunan kapitalın təhlükəsizliyinə toxunur. Göründüyü kimi, kapital yığımı bir tərəfdən əhalinin ümumi dünyagörüşündən, digər tərəfdən dövlətin etibarlılığı təmin etməsindən asılıdır. Postsovet respublikalarının vətəndaşları uzun illər sosialist istehsal üsulu şəraitində yaşadığından və zaman-zaman kapital yığımına görə represiyalara məruz qaldığından, hələ də onlarda kapital yığımına meyl zəifdir və gələcəklə bağlı az düşünürlər. Dövlətdə möhkəm qaydalar olmadığından isə yığımı istehsala yönəltmək riskli olduğundan yığım, ən yaxşı halda *sərvət formasında* reallaşdırılır. Vallerstayn kapital yığımının əhəmiyyəti haqqında yazır: «Kim ki, kapitalın sonsuz yığımı ilə məşğuldur, bunu etməyənlərdən üstünlük əldə edib». Postsovet respublikalarında isə vətəndaşlar sərvət və əmlak əldə edilməsinə və toplanmasına üstünlük verir ki, bu da onları digər kapital yığıcılarından gücsüz vəziyyətə gətirib çıxarıb. Vətəndaşların, o cümlədən, dövlətin kapitala yox, əmlaka və sərvətə üstünlük verməsi bu ölkələrdə klassik kapita-

lizmin mənimsənilmədiyini göstərir. Postsovet respublikalarında kapital yığımının baş verməməsi son nəticədə vətəndaşların daha çox əyləncə və «istirahət»ə pul xərcləməsinə gətirib çıxarıb. S.C. Mill «Siyasi iqtisadiyyatın əsasları» adlı əsərində yazır: «Cəmiyyət bütünlüklə əmək məhsuldarlığının saxlanmasına məsrəflər nəticəsində və ona yardım etməklə varlı ola bilər. Amma resurslardan həzz xatirinə istifadə etməklə kasıb olur». Bu ölkələrdə kiçik bir qrupun eyş-işrətə sərf etdiklərinin həcmi ilə başqa böyük qrupların kasıbçılığının həcmi bir-birinə düz mütənasibdir. Kapital yığımı hər şeydən əvvəl *kapitalın konsentrasiyasını* tələb edir. Müasir kapitalizmin təcrübəsi göstərir ki, inkişaf etmiş kapitalist ölkələrinin hamısı demək olar ki, kapitalın konsentrasiyasına dövlət monopoliyası yolu ilə nail olublar. Daha sonra dövlət monopoliyasında olan mülkiyyət xüsusi mülkiyyətə verilib və buna uyğun monopoliyalaşdırma da ayrı-ayrı kapitalistlərin əlinə keçib. Postsovet respublikalarında kapitalın konsentrasiyası sosialist üsulu ilə həyata keçirilib və keçmiş SSRİ-də demək olar ki, *dövlət kapitalizmi* mövcud olub. SSRİ dağıldıqdan sonra dövlət kapitalının xüsusi mülkiyyətə verilməsində yol verilən siyasi səhvlər isə təəssüf ki, *kapitalın ixtisarına, məhv olmasına və onun qiymətsizləşməsinə* gətirib çıxarıb. Bu da kapitalın *alıcılıq qabiliyyətinə* mənfi təsir edib. Belə ki, uzun illərdir ki, bu ölkələrdə kapitalın alıcılıq qabiliyyəti – neft sektoru istisna təşkil etməklə, olduqca aşağıdır. T.Hoyrup kapitalın alıcılıq qabiliyyəti ilə bağlı yazır: «Bu və ya başqa kapitalın alıcılıq qabiliyyəti təcrübi olaraq odur ki, dövlət monopoliya edə bilsin». Postsovet respublikalarında isə əksinə, monopoliya ayrı-ayrı şəxslərə, bir çox hallarda iqtisadi münasibətlərdən bilavasitə kənarda olan dövlət məmurlarına və hətta, bəzi cinayətkar dəstələrə məxsus olduğundan, kapitalın alıcılıq qabiliyyəti sürətli olaraq aşağı düşür. Digər tərəfdən, hələ də bu ölkələrin qanunvericiliyi, dövlət monopoliyası haqqında təkmil qanunlar qəbul etmədiyindən, ümumiyyətlə dövlət monopoliyası kortəbii həyata keçirilir.

Kapital yığımında hansı qüsurlar aşkarlanır? S.C.Mill «Kapitalın artım qanunu» adlı əsərində yazır: «Bütün kapital yığımı bu gün gələcək naminə istehlakdan imtinanın məhsuludur. Kapitalın artması

yığıma meyl edən qüvvələrdən asılıdır…yığıma həqiqi cəhd edən qüvvə həm də ictimai quruluşun və sivilizasiyanın ümumi vəziyyətinə uyğun olaraq dəyişkəndir». Postsovet respublikalarının «iqtisadi inkişaf» strategiyası ilə Milin kapitala verdiyi tərifi tutuşdurduqda və təcrübədə baş verənləri təhlil etdikdə aşağıdakı nəticələr alınır: Birincisi, iqtidarlar milli sərvətlərdən gələn gəlirlərini iri layihələrə, daşınmaz əmlaka, qeyri-istehsal sahələrinə yönəltməklə ölkə iqtisadiyyatında dövlət monopoliyasında yığım imkanını minimuma endirir, başqa sözlə, yəni kapitalı məhv edir ki, kapitalsız kapitalizm də nonsensdir. İkincisi, istehsal sahələrinin inkişafına prioritet verilmədiyindən, postsovet respublikaları *istehlakçı dövlətlər* cərgəsindədirlər, bu da istehsalçı dövlətlərdən asılılıq yaradır. C.S.Millə görə, «milli müstəqilliyini saxlamaq üçün ölkənin yığımının artmasında öz qonşularından çox da geridə qalmaması mühüm əhəmiyyət kəsb edir». Milli sərvətlərdən gələn gəlirlərin son qəpiyinə qədər xərcləməyə cəhd və yeni istehsal sahələrinin yaranmasının payının burada sıfıra yaxın olması, postsovet respublikalarında klassik kapitalizmin yaranmasına imkan vermir. Təbii olaraq iqtisadiyyatda yığıma meylin zəif olması kapitalın yaranmasına əngəl yaradır. Bunun da səbəbi S.C.Mildən gətirdiyimiz sitatdan aydınlaşır. Belə ki, ictimai quruluşun və dünya sivilizasiyasının ümumi vəziyyətinə – demokratikləşməyə uyğun dəyişmək istəməyən iqtidarlar kapital yığımına meyl etmir və əksinə, kapitalizmə keçməyə müqavimət göstərirlər.

Postsovet respublikalarında kapitalizmə keçidin baş tutmamasını kapitalizmin ümumi inkişaf meyllərinin müşahidə edilməməsi də sübut edir. Erik Hobsbaum «Kapital erası» adlı əsərində kapitalizmin inkişaf meyllərinə aşağıdakıları aid edir: *yeni texnologiya, yeni enerji mənbələri; uzunmüddətli istehlak olunan mallar istehsalı; gəlirlərin paradoksal dəyişməsi – yəni varlanma və kasıblamada sürətli dəyişilmələr; inkişaf etmiş ölkələrin inkişaf etməmiş ölkələri idarə etməsi; dövlətin işinə xalq müdaxiləsi və xalq idarəetməsi.* Postsovet respublikalarında yeni istehsal sahələrinin yaradılmaması bir yana, köhnələr də məhv edilib, ölkə hələ də on doqquzuncu əsrdə kəşf edilmiş enerji mənbələrindən istifadə edir. Əvəzində külək, günəş, atom və bioenerji növlərindən istifadədən söz belə getmir, hələ

də postsovet iqtisadi məkanı mazut və qazla işləyən istilik elektrik stansiyalarının və su elektrik stansiyalarının ümidinə qalıb. Halbuki, enerji mənbələrinin təbiəti ilə iqtisadi inkişaf birbaşa əlaqəlidir. Bu ölkələrdə istehsal olunan bütün məhsullar qısa müddətli istifadə üçün yararlıdır. Uzun müddətli istehlak malları istehsal edən ağır və yüngül sənaye müəssisələri yoxdur. Bu ölkələrdə müstəqillik əldə etdikləri gündən kasıb kasıbdır, varlı varlıdır. Kapitalizm inkişaf etmədiyindən, təbii olaraq *gəlirlərin parodoksal yerdəyişməsi* də baş vermir. Bu ölkələrdə iri biznesdə kimsə iqtisadi qanunauyğunluğa görə bankrot olmur və ya kimsə kiçik və ya orta biznesdən iri biznesə keçə bilmir. İndi bu ölkələrdə orta və kiçik sahibkarlığın məhv olduğunu və oliqarxiyanın durmadan inkişaf etdiyini müşahidə edirik ki, bu da onlarda kapitalist inkişaf meyllərinin olmadığını göstərir. Bu ölkələr heç bir ölkəni asılılığa salmasalar da özləri nəinki inkişaf etmiş ölkələrdən, hətta inkişaf etməmiş ölkələrdən belə, asılıdırlar. Bu ölkələrdə xalqın dövlət işinə qarışmaq cəhdi isə dövlət çevrilişi kimi qəbul edilir və xalq idarəetməsinə yol verilmir. Bu da bir daha iqtidarların iqtisadi siyasətində kapitalizmə transformasiyanın iflasa uğradığını sübut edir. C.S.Mill kapital yığımını yaxşılaşdıracaq tədbirlərə idarəetmə formasının yaxşılaşdırılmasını, mülkiyyətin daha təkmil təhlükəsizliyinin təmin edilməsini, xalqın əqli inkişafına nail olmağı, xaricdən zəruri sahələrin gətirilməsini göstərir. Qeyd edim ki, idarəetmə yaxşılaşdırılmadan və xalqın əqli səviyyəsi yüksəldilmədən xaricdən yeni texnika və texnologiyanın gətirilməsi kapital yığımına müsbət təsir etmir, hansı ki, neototalitar dövlətlər buna cəhd edirlər.

Məlumdur ki, kapital *məhdudiyyət qanunauyğunluğuna* tabe olur. İ.Vallerstayn kapital yığımının mümkün nəhəng məhdudiyyətinə aşağıdakıları aid edir: *Dünyanın urbanizasiyası, sosial-iqtisadi qeyri-bərabərliyi və hakimiyyətin onun saxlanmasında rolunun gizlədilməsinin qeyri-mümkünlüyü; infrastrukturlar tikilməsi yolu ilə hakimiyyətin subsidiyaları artırması, siyasi şüurluq və məlumatlılığın ümumdünya xarakter alması*. Beləliklə, postsovet respublikaları qloballaşma prosesinə daxil olduqlarından, *daxili kapital yığımını məhdudlaşdıran digər bir səbəb də dünya iqtisadiyyatında baş verənlərdir*.

Qeyd edim ki, müasir dünyada antiqlobalistlərin əsas arqumenti də məhz qloballaşmanın milli iqtisadiyyatda kapital yığımını məhdudlaşdırması təhlükəsidir. Postsovet respublikalarında isə belə təhlükələr alqışlarla qarşılanmaqdadır.

İNKİŞAF, ARTIM, TƏRƏQQİ

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, inkişaf təbii proses olduğundan, onu planlaşdırmaq, insan ağlına tabe etdirmək mümkün deyil və keçmiş SSRİ-nin acı təcrübəsi də bunu bir daha sübut edir. Məşhur inkişaf nəzəriyyəçisi İqnasi Saks da təsdiq edir ki, inkişafda «heç bir aprior planlaşdırmanı qəbul etmək olmaz». İqtisadi inkişaf da eyni inkişaf qanunlarına tabe olur və buna görə də iqtidarların iqtisadi inkişafı planlaşdırması inkişafın məntiqinə ziddir. Digər tərəfdən, kapitalist iqtisadiyyatı öz mahiyyəti ilə qlobal iqtisadiyyatdır və bu iqtisadiyyatda aparıcı *ekzogen faktorlardır.* Bundan fərqli olaraq, milli iqtisadiyyat *endogen faktorlara* əsaslanır və endogen səbəblər qlobal iqtisadiyyata inteqrasiya etmiş iqtisadiyyat üçün nisbi əhəmiyyət kəsb edir. Postsovet iqtidarları üçün *iqtisadiyyata vulqar – volyuntarist yanaşma xasdır və belə yanaşma korrelyasiya ilə kompensasiya edilməyə cəhd olunur.* Ümumiyyətlə, iqtisadiyyatı dəyərləndirən ayrı-ayrı yüzlərlə müxtəlif korrelyantlar (statistik rəqəmlər) vardır ki, nəinki adi vətəndaş, bəzən hətta mütəxəssis iqtisadçılar belə, həmin korrelyantlara görə iqtisadi siyasətin nəticələrini tam obyektivliklə dəyərləndirə bilmir. Bu baxımdan iqtisadiyyatı xarakterizə edən və yalnız özünü təbliğat üçün əhəmiyyət kəsb edən üç ümumi kateqoriya var ki, həmin kateqoriyaların mahiyyətinə varmadan nəyin nə olduğunu aydınlaşdırmaq olmaz. Bu ümumi kateqoriyalar*a iqtisadi inkişaf, iqtisadi artım, iqtisadi tərəqqi* aiddir. Həmin kateqoriyalar iqtisadiyyatın keyfiyyət kateqoriyaları kimi çıxış edir. Kəmiyyətlə keyfiyyət qarşılıqlı bir-birinə keçmə qanununa tabe olduğundan, iqtisadiyyatda həm kəmiyyət, həm də keyfiyyət dəyişilmələrini paralel nəzərdən keçirmək lazımdır. Ayrılıqda nə statistik rəqəmlərlə, nə də hansısa keyfiyyət dəyişilmələri ilə iqtisadi inkişafı dəyərləndirmək səhv nəticələrə gətirib çıxarar.

Bir qayda olaraq, neomarksistcəsinə iqtisadi siyasət həyata keçirənlər iqtisadi inkişafla iqtisadi münasibətlərin inkişafı, iqtisadi artımla iqtisadi inkişaf, başqa sözlə, iqtisadi siyasətlə siyasi iqtisadiyyat anlayışları bir-birinə elə qarışdırırlar ki, nəticədə nəyin nə olduğunu anlamaq çətinləşir. Buna paralel, iqtisadi inkişaf anlayışı da hissəvi anlamda qəbul edildiyindən, iqtisadi inkişafı sübut edən bütün faktlar göydən asılı qalmır və bu faktlar nə ölkənin müstəqil ekspertləri, nə də beynəlxalq qurumlar tərəfindən inkişafın göstəricisi kimi qəbul edilir.

Haşiyə: Öncə «iqtisadi inkişaf» anlayışı haqqında. Dar mənada bu anlayışa iqtisadiyyatda baş verən miqdari artım mənasında, iqtisadiyyatda yeni texnika və texnologiyalar tətbiq etmək, investisiyalaşdırma, ölkə iqtisadiyyatına xarici kredit cəlb etmək, pul kütləsinin artırılması və s. kimi kəmiyyət dəyişilmələri nəzərdə tutulur, hansı ki, iqtidarın strategiyasında da iqtisadi inkişafın göstəricisi kimi ÜDM həcminin artması, xarici investisiyaların cəlb edilməsi, pul gəlirlərinin artması göstərilir və bu artımın gec-tez ictimai inkişafa səbəb olacağına inam nümayiş etdirilir. Heç bir şərh vermədən qeyd edim ki, nə nəzəri, nə də təcrübi olaraq bu inamın heç bir əsası yoxdur və iqtisadiyyatın bu cür dəyişilmələri dünyanın heç bir ölkəsində ictimai inkişafın digər sahələrə transformasiyasına gətirib çıxarmamışdır. Biz bunu 100 ilə yaxın neft hasil edən ölkələrin acı təcrübəsində də görürük. İqtisadi inkişafın total anlayışı isə daha çox özündə *hərtərəfli struktur dəyişilmələri* ilə müşahidə olunan keyfiyyət dəyişilmələrini ehtiva edir.

Məqsədimiz sırf iqtisadi təhlil aparmaq olmadığından, burada qısa şəkildə olsa da bir neçə ümumi iqtisadi göstəricini ÜMM – ümumi milli məhsul, ADM – adambaşına düşən məhsul, ADG – adambaşına düşən gəlir, ÜMG – ümumi milli gəlir, XMG – xalis milli gəlir kimi göstəriciləri müqayisəli nəzərdən keçirməklə kifayətlənirik.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatda üç mühüm ölçü vardır:

a) mal-dövlət – buradan milli gəlir yaranır;

b) milli sərvət – buradan adambaşına düşən gəlir meydana çıxır;

v) nəqd ehtiyatlar – buradan iqtisadi münasibətlər formalaşır.

Milli sərvət abstrakt və simvolik olduğundan, milli sərvətlə iqtisadi vəziyyəti dəyərləndirmək olmaz. F.Brodel milli sərvətin iqtisadiyyatda rolu haqqında yazır: «Milli sərvətin kəmiyyət göstəricisi yoxdur. Buna görə də milli sərvətlər iqtisadiyyatı təklikdə irəlilədə bilməz. Milli sərvətin investisiyalaşdırılması uğursuzdur». Postsovet iqtisadiyyatında əsas milli sərvətin kəmiyyət göstəriciləri ilə ifadə edilərək, onu iqtisadi inkişafın göstəricisi kimi təqdim etmək bu baxımdan düz deyil və deyə bilərik ki, iqtidarların strateji əgəhəmiyyətli sektorları investisiyalaşdırması uğursuz olmuşdur.

Milli gəlir təbii sərvətlərdən daha çox *iqtisadi effektivlikdən* asılıdır. Yenə C.S.Millin «Siyasi iqtisadiyyatın əsasları»na müraciət edək. O, yazır: «Təcrübə göstərir ki, təbiətin üstünlükləri çətin ki, bütünlükdə cəmiyyətə, eləcə də sərvət, məşurluq – ayrıca adama xeyir gətirsin. Belə xeyiri onların təbiəti və qabiliyyəti gətirə bilər… belə təbii zənginliklərə malik xalqlar çox nadir hallarda möhkəm siyasi institutların yaradılması kimi uzunmüddətli vəzifələri yerinə yetirmək meylini aşkarlayırlar». Məhz buna görədir ki, zəngin neft yataqları olan ərazidə yaşayan xalqların olduqca zəif dövlətləri və primitriv siyasi institutları vardır. Postsovet respublikalarının bir çoxu da məhz belə zəngin təbiətə, amma zəif siyasi institutlara və neototalitar cəmiyyətə malikdirlər. Buna görə də nəhəng təbii sərvətlərə malik dövlətlərdə qeyri-effektiv iqtisadi siyasət nəinki insanların həyat səviyyəsini yüksəltmir, əksinə, vəziyyəti bir az da ağırlaşdırır. *Müasir dövrdə bəzi neft ölkələrində neftdən effektli istifadə edilməməsi həmin dövlətlərin əhalisini dilənçi vəziyyətinə salmış, dövlətlər isə totalitarlaşmışdır*. Hətta artıq dünyada belə bir fikir formalaşmışdır ki, «neft milli sərvət yox, milli faciədir». Bu təkcə neftə aid deyil. İstənilən milli sərvət effektli istifadə edilmədikdə millətin öz faciəsinə çevrilir.

Beləliklə, iqtisadiyyatda inkişaf iqtisadi strukturda baş verənləri ifadə etdiyindən və daha çox keyfiyyət dəyişilmələri ilə müşahidə olunduğundan, iqtisadi inkişafla vətəndaşların həyat səviyyəsi arasında bu baxımdan birbaşa əlaqə yoxdur. Əgər diqqət iqtisadi inkişafa verilirsə, təbii ÜMM artır. Amma, bu ADG artımı ilə üst-üstə düşə də bilər, düşməyə də. Əksər inkişaf etmiş Avropa ölkələrində

ÜMM ADM ilə üst-üstə düşür, bu isə iqtisadi inkişafın iqtisadi artımla müşayət olunduğunu göstərir, hansı ki, insanların həyat səviyyəsinin yüksəlməsinə xidmət edir. Postsovet respublikalarında ÜMM artımı ilə ADM artımı üst-üstə düşmədiyindən, vətəndaşların həyat səviyyəsi pisləşməkdə davam edir. Çünki ÜMM ADM-yə uyğun gəlmədikdə iqtisadi artım baş vermir, başqa sözlə, ÜMM-nin artımı insanların həyat səviyyəsinə müsbət təsir etmir. Buna görə də iqtisadi inkişaf hətta iqtisadi sferada staqnasiya və geriləmə ilə müşayət oluna bilər. Yüksək iqtisadi inkişaf tempi olan kapitalist ölkələrində tsiklik böhranlar, o cümlədən, müasir qlobal iqtisadi böhran buna parlaq nümunədir. Bu ölkələrin iqtidarlarının iqtisadi inkişaf siyasətinin ölkələrinin iqtisadiyyatında geriləmə və *staqnasiya* yaratmayacağına kimsə təminat verə bilməz və əslində bəzi ölkələr artıq iqtisadi staqnasiyanın astanasına gəlmişdir.

Bir qayda olaraq, iqtidarlar öz iqtisadi siyasətlərinin düzlüyünü və əldə etdikləri nailiyyətləri Ümumi Milli Gəlirin artımı ilə, konkret rəqəmlərlə sübut etməyə cəhd edirlər. Məlumdur ki, milli gəliri müxtəlif qaydada hesablamaq olar və üsulundan asılı olaraq ən müxtəlif nəticələr alınar. Ona görə də milli gəlirin həcmindən danışarkən onun hansı üsulla hesablanmasını nəzərə almalıyıq. Saymon Kuznesə görə, milli gəliri – *müəyyən vaxt ərzində bütün iqtisadi nemətlərin təmiz dəyəri, il ərzində millətin istehsal etdikləri* ilə hesablamaq lazımdır. J.K.Kolliyə və İ.Bernana görə isə milli gəliri – *milli resursların, xidmətin, rifahın müəyyən dövrdə yaradılmış məcmusu* ilə hesablamaq lazımdır. Əgər nəzərə alsaq ki, bazar iqtisadiyyatında qiymətlər dəyişkəndir, onda milli gəlirlə bağlı göstəricini yalnız məhdud dövr üçün dəyərləndirmək olar. Ümumiyyətlə, iqtisadçılar milli gəlirin hesablanmasında iqtisadiyyata müxtəlif tərəflərdən yanaşmaqla hesablamağı məqbul hesab edirlər. Müasir iqtisadiyyat elmində əsas üç prizmadan – istehsal, gəlir və ya xərclərdən yanaşma məqbul hesab edilir. Buradan da gəlirlərin təyin edilməsi, kapitalın istehsala daxil edilməsi və ya çıxarılması, istehsal və ya bazar qiymətlərinə üstünlük vermək kimi iqtisadi hərəkətlər meydana çıxır. Beləliklə, Ümumi Milli Gəlir = Xalis Milli Məhsul + Vergilər formulunu qəbul etsək, XMM =XMG – «xalis milli gəlir» olduğundan

onda öz növbəsində XMG = istehsal + əmanətlər bərabərliyi ilə hesablandığından, bu bərabərliklərdən istifadə edərək əvəzləmə yolu ilə ÜMG = istehsal + əmanətlər + vergilər formulunu almış olarıq. Buradan da görünür ki, ÜMG-in artırmağın üç üsulu mümkündür. Birincisi, *sabit vergilər və eyni həcmli əmanət qoyuluşu şərtində istehsalı artırmaqla,* ikincisi, *sabit istehsal və sabit vergilər* şərtində istehlakın dövlət və fərdi sferada məhdudlaşdırılması ilə əmanətləri artırmaqla, üçüncüsü, *istehsal və əmanətlərin sabit saxlanması şərti ilə vergiləri artırmaq.* Buradan görünür ki, iqtidarlar ya ÜMG artımı yükü öz üzərinə götürərək istehsalı artırmaqla, ya istehlakı ixtisara salan tədbirlər həyata keçirməklə əmanətlərin həcmini artırmaqla və ya da bütün ağırlığı vergi ödəyicilərinin – xalqın üzərinə yıxmaqla təmin edə bilirlər ki, postsovet respublikalarının əksəriyyətində ÜMG əsasən vergilərin artırılması ilə təmin olunur ki, bu da xalqın həyat səviyyəsini durmadan aşağı salır. Bu gün bütün dünyanı sarsıdan qlobal iqtisadi böhranla bağlı dövlətlər ağırlığı öz üzərinə götürərək, vergiləri azaltmaq yolu tutduğu bir vaxtda Azərbaycanda dövlətin fiksal təzyiqi azaldılmır, burada da məqsəd ÜMG-nin aşağı düşməsinin qarşısını almaq, yəni böhranın vurduğu zərbəni vətəndaşlara yönəltmək məqsədi güdür. Postsovet respublikalarında bir qayda olaraq ÜMG ya istehlakın ixtisarı ya da vergilərin artırılması yolu ilə təmin olunur. Bunu vergilərin artırılması ilə elan olunan ÜMG artımı arasındakı paralellikdən də görmək olar. İqtidarlar vətəndaşların iqtisadi biliksizliyindən sui-istifadə edərək çox vaxt ÜMM-nin artmasını özünün nailiyyəti kimi təqdim edir. Unutmaq olmaz ki, Xalis Milli Gəlirlə Ümumi Milli Məhsul fərqli iqtisadi kateqoriyalardır və sonuncu sərvətin aşağı səviyyəsini təşkil edir.

Milli iqtisadiyyatın digər bir göstəricisi ADG – adam *başına düşən gəlirdir*. ADG Ümumi Milli Məhsulun əhalinin ümumi sayına bölməklə əldə edilir. Bunu formul şəklində belə ifadə etmək olar. ÜMM : ƏS = ADG. Buradan da göründüyü kimi, milli iqtisadiyyatda ADG-nin iki yolla artması mümkündür. Birincisi, *sabit ÜMM istehsalında əhalinin sayının azalması* ilə, ikincisi - *əhalinin sayının sabit qalması şərtində ÜMM-nin artması ilə.* ÜMM-la əhalinin sayının paralel artımında və ya azalmasında ADG sabit qalır. Əhali artımı

ilə ÜMM tərs mütənasib asılılıqdadır. Belə ki, əhalinin sayı artanda, ÜMM sabit qalanda ADG azalır və ya ÜMM sabit qalanda əhalinin sayı azalanda ADG artır. Buradan da təbii artım və *miqrasiya* ilə *milli iqtisadiyyatın korrelyantları* arasında, xüsusən ADG arasında sıx əlaqə meydana çıxır. C.S.Mill yazır: ««Sivilizasiyalı» adlandırmağa adət etdiyimiz bütün millətlərdə əhalinin və istehsalın tədrici artımı baş verir». Qeyri-sivil ölkələrdə, o cümlədən müasir neototalitar dövlətlərdə əksinə əhalinin və istehsalın tədricən azalması müşahidə olunur. Buna görə də iqtidarlar heç bir iqtisadi inkişafa cəhd etmədən repressiya ilə ölkəni boşaltmaqla ADG-i artıra bilər ki, bir çox *repressiv rejimlər* bu yolu tutur. Bəzi ölkələrdə isə sabit iqtisadi inkişaf fonunda əhalinin artması ADG-nin azalması ilə müşayət olunur. Buna görə də həmin ölkələr əhali artımını tənzimləməklə və miqrasiyanı məhdudlaşdırmaqla ADG-nin azalma tendensiyasının qarşısını alır. Postsovet respublikalarından əhalinin ölkəni kütləvi tərk etməsi və əhalinin təbii artımında baş verən mənfi tendensiya adambaşına düşən gəlirin (ADG) artırılmasının yeganə səbəbidir və bu *proqressiv artım* deyil.

Məlumdur ki, kapitalist istehsal üsulunda inkişaf *kapitalizmin monopoliyası*, *kapitalın konsentrasiyası* ilə müşayət olunan *fərdi kapitalın ölçülərinin azalması*, *sənayeləşmə monopoliyası* ilə mümkün olur. Beləliklə, iqtisadi inkişaf keyfiyyət kateqoriyasına daxildir və heç bir rəqəmlə iqtisadi inkişaf xarakterizə oluna bilməz. Bu baxımdan iqtisadi inkişafla heç bir *rəqəmli dinamika* müəyyən etmək olmaz. F.Brodel belə hesab edir ki, «Rəqəmlər yalnız iqtisadi artımı ifadə edir». D.Nort, P.Tomas yazırlar: «Sənaye inqilabı müasir artımın mənbəyi deyil…artım – böyük vaxt gedişində təkamülün kompleks prosesidir». *Müxtəlif ölkələrdə iqtisadi inkişaf eyni səbəblərdən asılı deyil və iqtisadi inkişafdan danışarkən «nəyin hesabına» və ya «nəyin bahasına» suallarına cavab vermək lazımdır*. Birmənalı şəkildə iqtisad alimləri sübut edir ki, iqtisadiyyatın çiçəklənməsi *milli və beynəlxalq siyasətdən* asılıdır. Beləliklə, iqtisadi inkişafın səbəbləri sırasına həm də qeyri-iqtisadi səbəbləri də əlavə etmək lazım gəlir. Kapitalist istehsalının əsas xüsusiyyətlərindən biri də odur ki, qeyd etdiyimiz kimi, *iqtisadiyyatın inkişafının səbəbləri yalnız iqtisadi fak-*

torlarla bağlı deyil. Bunun təsdiqini Hoyrupun aşağıdakı fikirlərindən də görmək olar. T.Hoyrup yazır: «Bazar münasibətlərinə əsaslanmış vətəndaş cəmiyyətinin differensasiyası eyni vaxtda sənaye istehsalına məhsuldarlığın inkişafına imkan verir». Eləcə də demokratik seçkilər, dinc hakimiyyət dəyişilmələri, hakimiyyətlərin dünya düzənini mənimsəməsi, daxildə opponentlərlə qeyri-aqressiv davranış və s. kapitalist iqtisadiyyatına birbaşa təsir edən qeyri-iqtisadi səbəblərdəndir. Bundan başqa ekoloji durum, demoqrafik dəyişilmələr və s. kimi faktorlar da kapitalist iqtisadiyyatına bu və ya başqa cür təsir edir. Səbəblərdən asılı olaraq iqtisadi inkişafın müxtəlif tipləri meydana çıxır. İqtisadi inkişafın əsas səbəbləri sırasında ilk yerdə *işçi qüvvəsinin istismarı, xammal ixracatının artırılması, struktur dəyişilmələr, fondların qənaəti* durur. Xammal və işçi qüvvəsi təbii faktorlar olduğundan, iqtidarların iqtisadi siyasətinin effektivliyini qiymətləndirmək üçün yetərsizdir. Biz iqtidarların iqtisadi siyasətini yalnız struktur dəyişilmələrinin həyata keçirilməsi və əsas fondların qənaətinə görə qiymətləndirə və buradan çıxış edib postsovet respublikalarında iqtisadi inkişafın iqtidarın effektli və düzgün iqtisadi siyasəti ilə bağlı olub-olmamasını müəyyənləşdirə bilərik. Bu ölkələrin əsas istehsal fondlarının ehtiyatına görə iqtidarların iqtisadi siyasətini dəyərləndirmək olmaz, çünki beynəlxalq ekspertlərin hesabatlarından görünür ki, postsovet respublikalarında korrupsiya ehtiyat fondlarını dağıdır.

Bəs postsovet respublikalarında iqtisadi inkişaf struktur dəyişilmələr ilə baş verirmi? Oxucu üçün aydın olsun deyə, struktur dəyişilmələr dedikdə *artımın yeni ehtiyatlarını üzə çıxaran və elmi-texniki tərəqqinin stimulyasiyasının* nəzərdə tutulduğunu qeyd etmək istəyirəm. Struktur dəyişilmələr konkret faktorlarla bağlıdır və bu faktorların yetərsizliyi struktur dəyişilmələrdə böhran yaradır. İ.Vallerstayn dünya sisteminin struktur transformasiyasının problemlərinə ucuz işçi qüvvəsinin tükənməsi, orta təbəqənin sıxışdırılması, ekologiyada böhranlı vəziyyət, demoqrafik partlayışları ayırd edir. Milli iqtisadiyyatda da struktur dəyişilmələrinin özünəməxsus problemləri vardır. Başqa sözlə, E.Töfflerin təbirincə desək, yeni sərvət *elm tutumludur* və yalnız elm tutumlu struktur dəyişilmələr

real iqtisadi inkişafa və artıma səbəb ola bilər. Azərbaycan reallığına nəzər salaq. 2007-ci il dövlət büdcəsində elm xərcləri büdcənin təxminən 0,7%-ni təşkil edib. Bu ayırma Azərbaycanda iqtisadiyyatda ciddi struktur dəyişilmələrinə imkan verə bilərmi? Müqayisə üçün dünyanın müxtəlif vaxtlarda iqtisadi inkişafı təmin etmiş bəzi kapitalist ölkələrində inkişafı izləyən elm tutumlu xərclərə qısaca diqqət edək. İngiltərədə struktur islahatları ilə bağlı 1960-70-ci illərdə elmi tədqiqatlara ÜMM-un 2,7-2,8% ayrılıb, Yaponiyada elmi-texniki tədqiqatlara ayırmalar milli gəlirin 2%-ni təşkil edib. ABŞ-da 1964-65-ci illərdə elmi axtarışlara büdcə xərclərinin 13%-i, 1969-70-ci illərdə federal büdcədən elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə 21%, Fransada 1970-ci ildə struktur islahatlarını həyata keçirərkən elmi-texniki tədqiqatlara ayrılan xərclərin dövlət büdcəsində payı əvvəlki illərə nisbətən 71,5% artırılıb. Bununla yanaşı elmi-texniki işlərə regional büdcələrdən və xüsusi sektordan külli miqdarda vəsait ayrılıb. E.Töffler müasir Amerikanın iqtisadi gücünün yalnız biliklə, elmlə bağlı olduğunu xüsusilə qeyd edir. Hətta Yaponiyada 70-ci illərdən başlayaraq dünyada ilk dəfə olaraq texniki biliyin ticarəti - «nou-xau» - təşkil edilib. İkinci Dünya Müharibəsindən sonra AFR-in iqtisadi dirçəlişində də elm müstəsna rol oynayıb. Heç bir postsovet respublikalarında elmə xüsusi diqqət ayrılmadığından və sovet dönəmində formalaşmış elmi potensial dağıdıldığından, bu ölkələrdəki iqtisadi inkişaf yalnız milli sərvətlərin, xüsusən neft hasilatının artırılması, neftin xammal şəklində ixracatı hesabına təmin edilib. Bu isə davamlı və effektli iqtisadi inkişafla bilavasitə əlaqəli deyil.

İqtisadi inkişafı müşayət edən digər yanaşı göstərici *kreditlərin azaldılmasıdır*. Məsələn, Azərbaycanda iqtisadi inkişaf dövrü kimi xarakterizə olunan illərdə xaricdən kreditlərin alınmasında bum yaranmış və daxildə kreditlərin artırılması kapitalist iqtisadiyyatının qanunlarına uyğun gəlməmişdir və bu da iqtisadi inkişafın formal xarakter daşıdığını göstərir.

İqtisadi inkişaf mürəkkəb anlayışdır və bir çox fərqli paradiqmalardan asılı olduğundan tipoloji differensasiyaya məruz qalır. Beləliklə, biz kapitalist iqtisadi inkişafının müxtəlif tiplərini – işçi qüvvəsinin istismarı, xammal artımı, struktur dəyişilmələr – artı-

mın yeni ehtiyatlarını üzə çıxaran və elmi-texniki tərəqqini stimula edən dəyişilmələr, fondların qənaəti kimi dörd müxtəlif tipini ayırd edə bilərik. Postsovet respublikalarında iqtisadi inkişafın qarışıq tipindən ucuz işçi qüvvəsinin istismarı və xammalın artırılması tipindən danışmaq olar. İqtisadi inkişaf tipi öz arxasınca ölkənin gələcək inkişafında fərqli rol oynadığından, yalnız təbii amillərlə inkişafa nail olmaq qeyri-effektlidir.

Qeyd edim ki, inkişafın iki forması - *intensiv və ekstensiv* formaları vardır. Ekstensiv inkişaf məşğulluğun artması, kapital itkisi – əsas fondların effektivliyinin aşağı düşməsi ilə baş verir. İntensiv inkişaf elmi-texniki tərəqqinin hesabına struktur dəyişilmələri ilə mümkün olur. İnkişaf etmiş kapitalist ölkələrinin təcrübəsi göstərir ki, ümumiyyətlə, kapitalist iqtisadi inkişafı intensiv inkişaf formasında baş verir.

Yuxarıda qeyd etdim ki, ictimai həyat sferaları o qədər bir-biri ilə əlaqələnib ki, artıq iqtisadi inkişafın səbəbləri sırasında qeyri-iqtisadi faktorlar mühüm rol oynamağa başlayıb. İqtisadi inkişaf yalnız iqtisadi amillərlə bağlı deyil və müasir qlobal iqtisadiyyat təkcə ayrı-ayrı ölkələrin iqtisadi həyatını bir-birinə bağlamayıb, həm də iqtisadiyyatı dövlət həyatının digər sferaları - hüquq, siyasət, sosial sferalarla sıx əlaqələndirib. Buna görə iqtisadi inkişafın səbəblərinə siyasi vəziyyət, ekoloji amillər, sosial vəziyyət və s. ciddi təsir edir. *Azad insan kölədən daha yaradıcı, azad əmək daha məhsuldar olduğundan, azadlıq iqtisadi inkişafın başlıca səbəblərindən biri kimi çıxış edir*. Buna görə də dövlət yox, iqtisadiyyatla azad şəkildə məşğul olanlar iqtisadi inkişafı təmin edə bilərlər. Haken belə hesab edir ki, «İqtisadi qanunlarla iqtisadiyyatı izah etmək olar. İqtisadi inkişafın səbəbi başqa sahələrdədir. İş adamları təbəqəsi iqtisadi inkişafın səbəbidir». Təcrübə də bunu sübut edir. İnkişaf etmiş bütün müasir sənaye ölkələri öz tarixlərinin mürəkkəb dönəmlərində dövlət monopoliyasından imtina edib, özəl sektoru təşviq etdikləri andan iqtisadi inkişafa nail olublar. Postsovet məkanında azad iş adamları təbəqəsi hələ də formalaşmayıb. Bəzi respublikalarda meydana çıxan «milyonerlər» isə gəlirləri ilə bağlı hesabat verməyə belə, qadir deyillər. Təcrübə göstərir ki, bu iş adamlarının, xüsusən ən nəhəngləri daha

çox kriminal yollarla varlanıblar. Normal iş adamları təbəqəsi yaranmadığından, onların yerini *siyasi bürokratiyadan* asılı və ya onunla birləşmiş təbəqə tutur. İqtisadi inkişafa təsir edən qeyri-iqtisadi faktorlara daxili siyasət, beynəlxalq şərait və qlobal iqtisadiyyata inteqrasiya və s. aiddir. Bu baxımdan İkinci Dünya Müharibəsindən sonra AFR-də iqtisadi inkişafa səbəb olmuş amillər içərisində demokratikləşmə, fəhlə hərəkatları, ucqarlarda milli-azadlıq hərəkatları və dövlət monopoliyasının azaldılması olmuşdur. Polşa Avropa Birliyinin üzvü olduqdan sonra bu ölkənin infrastrukturunun Avropa standartlarına uyğun yenidən qurulmasına Avropa Birliyi 17 milyard avro pul ayırmışdır ki, ayrılıqda Polşanın milli iqtisadiyyatı üçün bunu təmin etmək sadəcə mümkün olmazdı.

Qeyd etmək lazımdır ki, iqtisadiyyat təbii əsaslara malik olduğundan və bilavasitə coğrafiya ilə bağlı təbiət qanunlarına tabedir. Təbiətin əsas qanunu enerjinin saxlanması və itməməsi qanunudur. İqtisadiyyat da bu qanuna tabe olur. Belə ki, iqtisadi inkişaf iş yerlərinin azalması ilə, işsizliklə, iqtisadi artım yoxsulluğun artması ilə, iqtisadi modernləşmə işçi qüvvəsinin və kapitalın xaricə axını – miqrasiya ilə düz mütənasibdir və hər sahədə əldə edilən tərəqqi başqa sahədə tənəzzül meydana çıxarır. Müasir Qərbdə gedən iqtisadi inkişafa görə belə proqnozlar meydana çıxmışdır ki, inkişaf etmiş ölkələrdə əhalinin üçdə biri işsiz olacaq. Əslində kapitalın təmərküzləşməsini ifadə edən iqtisadi inkişafın işsizlik yaratmasının başlıca səbəbi rəqabətdə kiçik və orta biznesin sıradan çıxması və yeni yüksək texnologiyanın işçi qüvvəsinini ixtisara salmağa imkan verməsidir. Müasir Qərb iqtisadçıları müəyyən edib ki, yalnız 50 nəfərdən az işçisi olan müəssisələr işsizliyi azaldır və ABŞ-da iş verən müəssisələrin 50+1 məhz belə kiçik müəssisələrdir. İqtidar isə təbii olaraq iqtisadi inkişafın nümayişi kimi böyük və modern müəssisələrin yaranmasına çalışır ki, bu da əsl həqiqətdə işsizliyi artırır. İqtisadiyyatın qeyri-qanuni monopoliyası isə kiçik və orta biznesin inkişafına imkan vermir. Bəzi postsovet iqtidarlarının guya iqtisadi inkişaf fonunda ölkədə işsizliyin azaldılmasının iddia edilmələri iki haldan birinə uyğundur, ya ölkədə iqtisadi inkişaf yoxdur, buna görə də işsizlik azalır, ya da həqiqətən iqtisadi inkişaf var və höku-

mətin işsizliyin azalması haqqında dedikləri yalandır və əksinə, işsizlik durmadan artır.

İşsizliyin strukturu da işsizlik problemini pərdələyən amillərdəndir. Beləliklə, «işsiz kimdir» sualı aktuallaşır. İşsizləri aşağıdakı qruplara bölə bilərik: a) istənilən işdə işləməyə hazır olan, amma iş tapa bilməyənlər – *mütləq işsizlik*; b) yalnız öz peşəsinə uyğun iş tapa bilməyənlər – *peşə işsizləri;* v) təklif edilən işin müqabilində ödənən əməkhaqqı ilə razılaşmayan və ya mövsümlə bağlı yaranan - *nisbi işsizlik*; q) işləmək üçün fiziki imkanı olmayanlar – *məcburi işsizlər*; d) nəhayət tüfeyli – iş sevməyən və işləmək istəməyənlər – *könüllü işsizlər*. Bu işsiz qruplarının hər birinin artım dinamikası fərqli səbəblərdən asılı olduğundan, sadəcə iqtisadi inkişafla işsizliyin bu ayrı-ayrı qrupları arasında xətti əlaqə ola bilməz. İqtisadi inkişaf ilk növbədə peşə işsizlərini artırır. Xidmət sahələrinin inkişafı isə mütləq işsizləri azaldır. Kənd təsərrüfatının inkişafı və əmək haqlarının yüksəldilməsi nisbi işsizliyi azalda bilər. Məcburi işsizlər mütləq dövlət himayəsinə alınmaqla xüsusi iş yerləri, o cümlədən evdə əməyin təşkili ilə onların sayını azaltmaq olar. Tüfeylilər isə klassik işsiz kimi qeydə alınmaya bilər, sadəcə dövlətin bu kateqoriya insanlara qarşı ciddi siyasəti olmalıdır. Əmək yalnız maddi məhsul istehsal üsulu deyil, həm də *tərbiyə* və cəmiyyət üçün xeyirli olmağı təbliğ edən vasitə olduğundan, digər tərəfdən tüfeylilik kriminallaşmanın sosial bazasını təşkil etdiyindən, ona qarşı mübarizə zəruridir. Bu qrupu əməyə cəlb etmək inzibati qaydaların tətbiqini tələb edir. Beləliklə, «iqtidar işsizliyi hansı sektorda, necə ləğv edib» sualı meydana çıxır və ayrı-ayrı işsiz qruplarının azaldılması ilə bağlı proseslər getmədiyindən, işsizliyin azaldığından danışmaq olmaz. Qeyd etmək lazımdır ki, kapitalist iqtisadiyyatında işçiləri bir sahədən digərinə yönləndirmək üçün *məşğulluğun şüurlu ixtisarı siyasəti* həyata keçirilir. Beləliklə, hətta işsizliyin məqsədyönlü artırılması dövlətin iqtisadi siyasəti ilə bağlı ola bilər. Postsovet respublikalarında məşğulluğun şüurlu ixtisarı olmadığından, bu amil də iqtisadi inkişafın baş vermədiyini sübut edir.

İqtisadiyyatın digər bir paradiqması *iqtisadi artımdır*. İqtisadi artımı ADG-ə görə müəyyən etmək olar. Hansı ki, birbaşa vətəndaşla-

rın həyat səviyyəsini müəyyən edir. Haşiyəyə çıxım ki, ümumiyyətlə, artım *bərabər və qeyri-bərabər səviyyəli* ola bilər. Bərabər və ya tarazlı artım – bütün sektorları eyni vaxtda daimi tərəqqiyə gətirməsinə əsaslanır və belə artımda inkişafın baş hərəkətvericisi *milli bazarın tələbatıdır*. Bundan fərqli olaraq, qeyri-tarazlı artım bir sektorda başlanır, sonra digər sektorlara keçir. A.Fanfaniyə görə, «qeyri-bərabər səviyyəli artım – iqtisadiyyatın volyuntarist tərəfini ilk sıraya çıxarır». Postsovet neft ölkələrində neft sektorunda qeyri-tarazlı artım da qeyri-bərabər səviyyəli artım formasına aid olub, iqtidarların iqtisadiyyata, yuxarıda qeyd etdiyim kimi, volyuntarist yanaşmalarının nəticəsidir və bu günədək neft sektorunun inkişafı digər sektorlara keçmədiyindən və təəssüf ki, indi qlobal iqtisadi böhran bu sektorda da inkişafı aşağı saldığından, bu ölkələrin iqtisadiyyatında ümumi artıma nail olunmayıb. Əslində qeyri-bərabər səviyyəli artım – xarici bazarda *fasilələr* yaradır, milli bazara çevrilməyə hazır olan ölkələrdə belə, daxili bazarı doldurmağa imkan vermir. Qeyri-tarazlı artım daha çox xarici bazara hesablandığından *dünya iqtisadiyyatında bumdan* asılıdır, *dramatik və fasiləlidir*. F.Brodel qeyd edir ki, «qeyri-bərabər səviyyəli artım – az və ya çox tezliklə daha çox sektorda dəstək tapmasa, tormozlanır». Qeyri-tarazlı artımda ölkə *xammal ixracatçısına və ya istehlak cəmiyyətinə* çevrilir. İstehlak cəmiyyətlərində isə *nizam* ən axırıncı yerdə durur, hansı ki, nizamsız heç bir demokratiyadan söhbət gedə bilməz. İstehlak cəmiyyətləri qeyri-stabilliyə meylli olduğundan, bir qayda olaraq polis rejimi – total nəzarət yaradılır ki, indi postsovet respublikalarında məhz bu baş verir. Bunun əksinə isə, bərabər səviyyəli inkişaf sənayeləşmənin bazisini yaradır. R.M.Hartuell obrazlı olaraq qeyd edir ki, «sənaye inqilabı bərabər səviyyəli artımın qızıdır». Qeyd edim ki, müasir artım öz təbiətinə görə ənənəvi artım tendensiyalarından fərqlənir. Ənənəvi artım fasiləlidir, yüksəlmə və dayanma ilə növbələşir və aşağı düşə bilir. Əslində birtərəfli artım ənənəvi artıma uyğundur, müasir artım isə fasiləsizdir, qiymətlərin yeknəsəkliyindən və ya qalxmasından asılı deyildir, hətta böhranlarda belə, azalmır. Qeyri-tarazlı artımın digər bir təzahürü qısa müddətli olmasıdır. Hansı ki, konyuktur təbiətlidir, təsadüfidir və daha çox ekzogen faktorlardan, beynəlxalq vəziyyət-

dən asılıdır. Müasir artım *estafet prinsipinə* əsaslanır, yəni bir sferada əldə edilmiş artımı başqa sfera davam etdirir. Amma yalnız birtərəfli artımda bir sferanın artımının digər sferaların artıma başlamasından sonra da davam etməsi estafet prinsipini pozaraq tormozlayıcı effekt yaradır. Azərbaycanda 16 il ardıcıl olaraq neft sektoru hesabına əldə edilmiş artım iqtisadi həyatın digər bütün sahələrində artımın qarşısını alaraq iqtisadi böhran yaratmışdır. Bir çox hallarda iqtisadi artım əmək bölgüsünün qarışdırılması nəticəsində konyuktur kimi meydana çıxır ki, bu da real iqtisadi artım kimi dəyərləndirilə bilməz. Ənənəvi artımda milli gəlirlə adambaşına düşən gəlir arasında fərq yaranır. Nəticədə Milli Gəlir artır, adambaşına düşən gəlir azalır. Bu da vətəndaşların həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur. Postsovet respublikalarında artım bu modelə uyğun baş verir. Buna görə də, əgər iqtidarların iqtisadi siyasətinin nə dərəcədə vətəndaşların maraqlarına uyğun gəldiyini qiymətləndirmək istəyiriksə, onda iqtisadi artımda ADG-də baş verən pozitiv dəyişilmələri nəzərə almaq daha məqsədə uyğundur. C.S.Mill artıma səbəb olacaq pozitiv dəyişilmələrə – insanın təbiət üzərində hakimiyyətinin artması, şəxsiyyətin və mülkiyyətin təhlükəsizliyini, insanlığın işlək hissəsinin qabiliyyətlərinin yaxşılaşdırılmasını, kooperasiyaya meylli olmasını aid edir. Təcrübə göstərir ki, postsovet respublikalarında bu deyilənlərlə bağlı nəinki konkret addımlar atılmır, hətta bu barədə düşünülmür.

Qeyd edim ki, iqtisadi artıma həm də *xərclər* təsir edir. Belə ki, xərclər azaldıqca iqtisadi artım yüksəlir, əksinə, xərclər artdıqca artım azalır, başqa sözlə, yüksək artım tempində həyat səviyyəsi aşağı düşür. Vergilərin artırılması və sosial xərclərin qiymətlərinin qalxması da artımı azaldır. Buna görə də, büdcənin xərclər hissəsinin azaldılması yolu ilə artıma nail olmaq mümkündür ki, bu da vətəndaşları sosial müdafiəsiz vəziyyətə salır. Azərbaycanın 2009-cu il dövlət büdcəsində xərclərin həcmi göstərir ki, iqtidar iqtisadi artıma cəhd etmir.

İqtisadi artım *yoxsulluqla* dialektik əlaqədədir və iqtisadi artım öz arxasınca kasıbçılığı artırır. Kasıbçılığın artması həm mütləq, həm də nisbi mənada artır. Nisbi mənada kasıbçılıq varlanmaya

tərs mütənasib inkişafla və digər inkişaf edən ölkələrlə müqayisədə təzahür edir. Bu gün postsovet respublikalarında *bir təbəqənin ifrat varlanması fonunda ölkə əhalisinin böyük çoxluğu dilənçi vəziyyətindədir.* Digər tərəfdən, ABŞ və Avropanın kasıbçılıq standartları ilə müqayisədə bu ölkələrdə nisbi kasıblaşma artır. Məsələn, ABŞ-da kasıb kimi illik gəliri 15 min dollara qədər olan insanlar nəzərdə tutulur və bu təbəqə bütün dövlət vergilərindən azad edilir. Beləliklə, amerikalı kasıbın aylıq gəliri 1000-1200 dollardır. ABŞ-la müqayisədə azərbaycanlı kasıbın aylıq gəliri minimumla götürsək və bütün fiksal təzyiqlə birlikdə 90 dollara yaxındır və kasıbçılığından asılı olmayaraq heç bir sosial təbəqə vergilərdən azad edilməmişdir. Əgər Azərbaycanda da kasıbçılığı ABŞ standartlarına uyğun qiymətləndirsək, onda ölkə əhalisinin aylıq gəliri 1000 dollara çatmayan hissəsi – bu da əhalinin 95%-i təşkil edir – kasıb hesab edilməlidir. Mütləq kasıbçılıq həqiqətən də real tələbatları minimum ödəmək imkanı olmayan insanları meydana çıxarır. Bu, sonuncu qiymətlərlə əmək haqqının arasında uçurumun yaranması ilə meydana çıxır. Postsovet respublikalarında kasıbçılığa qarşı real mübarizə aparılmır. Nəzərə alsaq ki, yoxsulluğun azalma yolu qiymətləri azaldıb, əmək haqlarını artırmaqla mümkündür, onda bu dövlətlərdə qiymətlərin qalxmasına ekvivalent olmayan əmək haqqının artırılmasının yoxsulluğu bir daha artırdığını söyləyə bilərik. Bu baxımdan da postsovet respublikalarında iqtisadi artım tendensiyasında həm nisbi, həm də mütləq kasıbçılıq durmadan inkişaf edir.

İqtisadi inkişafla iqtisadi artım bir çox hallarda tərs mütənasib olur. Məsələn, struktur yenilik, yəni iqtisadi inkişaf olmayan ölkələrdə ADG artır, buna paralel nə iqtisadi inkişaf, nə də iqtisadi geriləmə müşahidə olunur. Neft ölkələrinin əksəriyyəti buna uyğun iqtisadi siyasət aparır. Amma Azərbaycanda iddia edildiyi kimi, iqtisadi inkişaf siyasəti həyata keçirildiyindən, iqtisadi artım yoxdur və artımda geriləmə müşahidə olunur. Kapitalizmdə iqtisadi artım iki yolla təmin olunur. Birincisi, kapital məsrəflərinə görə – əməyə qənaət, ikincisi, kapitala qənaət – elmi-texniki tərəqqi, biliklər. Texniki tərəqqinin rolu ondan ibarətdir ki, onun müəyyən səviyyəsində rentabelli olan kapital qoyuluşu reallaşdırılır. Postsovet re-

spublikalarında iqtisadi artımda nə birinci, nə də ikinci yol müşahidə edilir.

İqtisadi sferanı xarakterizə edən digər bir paradiqma isə *iqtisadi tərəqqi* anlayışıdır. İqtisadi tərəqqi iki formada - *neytral və qeyri-neytral* olur. Neytral tərəqqi yalnız *təbii sərvətlərin istismarı* ilə bağlı olur. Qeyri-neytral tərəqqi iqtisadi *modernizasiyanın* məhsulu kimi yaranır. Postsovet respublikalarında iqtisadi inkişaf siyasəti təbii sərvətlərin, o cümlədən, neft hasilatı hesabına həyata keçirdiyindən, bu ölkələrdə neytral iqtisadi tərəqqi baş verir. Göründüyü kimi, iqtidarların həyata keçirdiyi iqtisadi dəyişilmələr heç də birbaşa vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarmır və əksinə, həyat səviyyəsinin müxtəlif formalarda pisləşməsinə səbəb olur. Yalnız bir halda – həm iqtisadi inkişaf, həm iqtisadi artım, həm də iqtisadi tərəqqi birlikdə baş verdikdə ölkədə sabit yüksələn həyat səviyyəsini təmin etmək olar ki, bu da heç bir postsovet respublikasında müşahidə olunmur. Bunun çoxlu səbəbləri arasında kardinal səbəb kimi kütləvi savadsızlığı, elmə və təhsilə yanlış münasibəti göstərmək olar. İqtisadi vəziyyəti dəyərləndirərkən *dövlət borcları* haqqında da danışmaq lazım gəlir. Qeyd etmək lazımdır ki, heç bir iqtisadiyyat borcsuz mövcud ola bilməz. Borclanmanın həcmi bu zaman müstəsna əhəmiyyət kəsb edir. İqtisadiyyat elmi borcun hətta ÜMM-dan ikiqat çox olmasına da normal yanaşır. Borcun az olması da çox olması kimi birmənalı effekt yaratmır. Belə ki, borc ÜMM az olanda təhlükə yaranır. Əgər borc ÜMM-dən çoxdursa və ictimai inamın itməsi, keyfiyyətsiz idarəetmə iqtisadi böhran yarada bilər. Bu baxımdan yalnız yüksək keyfiyyətli iqtisadi idarəetmə, o cümlədən iqtidarların artan daxili və xarici nüfuzu fonunda borclanma pis nəticələrə gətirib çıxarmaya bilər, hansı ki, postsovet respublikalarında bu şərtlər olmadığından, dövlətlərin borclanması da iqtisadi böhranı yetişdirir. Borclanma iqtidarların iqtisadi siyasətində mühüm yer tutmalıdır və bu zaman daxili borclanma ilə xarici borclanmanın elə düzgün proporsiyası tapılmalıdır ki, dövlət öz müstəqilliyini qoruya bilsin. Bu baxımdan da postsovet iqtidarlarının borc siyasəti dövlətlərin təhlükəsizliyinə cavab vermir.

İqtisadiyyatın siyasi konyukturasında meydana çıxan terminlər də ictimai rəydə çaşqınlıq yaradır. Belə ki, iqtisadiyyatda yuxarıda təhlil etdiyimiz üç mühüm iqtisadi termin – iqtisadi inkişaf, iqtisadi artım və iqtisadi tərəqqi özlüyündə konkret nəsə ifadə etmir və bu sahələrdə baş verənlərlə fərdi rifah arasında əlaqə tapmaq da kifayət qədər çətindir. Belə ki, bu üç proses həm birlikdə, həm də ayrı-ayrılıqda aktiv ola bilər. Bu baxımdan onların əlaqələnməsinin yeddi formasını ayırd etmək olar ki, həmin formaların hər biri cəmiyyətin və fərdin inkişafına öz ciddi təsirini göstərir. Bu formaları aşağıdakı kimi təsəvvür etmək olar: A. (+) iqtisadi inkişaf +(-) iqtisadi artım + (-) iqtisadi tərəqqi. B. (+) iqtisadi inkişaf +(-) iqtisadi artım +(+) iqtisadi tərəqqi. Q. (+) iqtisadi artım +(+) iqtisadi inkişaf + (-) iqtisadi tərəqqi. D. (+) iqtisadi artım +(+) iqtisadi inkişaf +(-) iqtisadi tərəqqi. E. (+) iqtisadi artım + (+) iqtisadi inkişaf +(+) iqtisadi tərəqqi. F. (+) iqtisadi tərəqqi +(-) iqtisadi artım +(-) iqtisadi inkişaf. L. (+) iqtisadi tərəqqi +(+) iqtisadi artım +(-) iqtisadi inkişaf. M. (+) iqtisadi tərəqqi +(-) iqtisadi artım + (+) iqtisadi inkişaf. Qeyd etmək lazımdır ki, bu modellərdən yalnız biri E – variantı, yəni inkişafın, artımın və tərəqqinin üst-üstə düşməsi sürəkli olaraq vətəndaşların həyat səviyyəsini yüksəldə bilər, sadə dildə desək, insanlar yaxşı yaşaya bilər. Digər variantlarda yaxşı yaşamaqla həmin dəyişilmələr arasında heç bir davamlı əlaqə yoxdur. Belə ki, iqtisadi inkişafda eyni ilə artım və tərəqqidə də ikili nəticələr yarana, həyat səviyyəsi kəskin pisləşə və ya da kəskin yaxşılaşa bilər.

İSTEHSAL

Neototalitarizmin yaranmasına gətirib çıxaran səbəblərdən biri də Marksın bazis hesab etdiyi iqtisadiyyat anlayışının hissəvi anlanılmasıdır. Postsovet liderlər bazis kimi yalnız iqtisadiyyatın inkişafı – hasilat və istehsal sahələrində baş verənlər kimi başa düşülür. Halbuki, marksizmə görə, iqtisadi bazis dörd iqtisadi paradiqmadan – *istehsal, bölgü, mübadilə və istehlakdan* ibarətdir. Neototalitarizmin bütünlükdə neomarksizmin törəməsi olduğunu nəzərə alaraq burada yalnız əsas, prinsipial əhəmiyyətə malik məqamlara toxunmaqla kifayətlənəcəyik.

İstehsal «nə, necə, nə qədər və kim üçün» suallarına cavab verməlidir. Bu gün müasir dünyada iki cür məhsul istehsal olunur – *konkret məhsul* – fiziki və zehni əmək nəticəsində yaranan məhsul və *abstrakt məhsul* – hissi əmək nəticəsində yaranan rəsm əsərləri, müsiqi, idman nailiyyətləri və s. Bu iki məhsuldan əmək nəticəsində meydana çıxan konkret məhsul təbii istehsalla bağlı olub özündə daha çox ümumi insani olanları daşıdığından, əslində abstrakt məhsuldan – xüsusi təbii istedadın yaratdığı məhsuldan cəmiyyət üçün daha önəmli və vacibdir. Başqa sözlə, iqtisadi siyasət konkret məhsul istehsalına yönəlməlidir və ona prioritet verilməlidir.

Haşiyə: Son illərdə bazarda abstrakt məhsulun konkret məhsula görə qiymətinin yüz min dəfələrlə artması müşahidə olunur ki, bu da bu gün dünyanı təhdid edən qlobal iqtisadi böhranın ən ciddi səbəblərindən biridir. Əgər konkret məhsulun gəliri təkrar istehsal üçün ayrılmırsa və abstrakt məhsul sferasına keçirsə, abstrakt məhsulun yararlılıq və təkrar istehsal stimulu olmadığından, konkret məhsul istehsalını sıxışdırır. Sadə dildə desək, belə şəraitdə fəhlə müğənni kimi çıxış etməklə çox qazanmaq şansı əldə etdikdə dərhal işi tərk edir və ya hər hansı bir futbolçu sərvət yaratmasa da yaradılmış ictimai sərvətin nəhəng bir hissəsinə sahib çıxır. Biz müasir dövrdə iqtisadiyyatda hissi əməyin istismar gücünün durmadan artdığının və istismarçıların hissi əmək sferalarına axışdığının şahidiyik. *Postsovet respublikalarında iqtisadi artıma, tərəqqiyə və inkişafa nail olmadan, bəzi inkişaf etmiş Qərb ölkələrində olduğu kimi, idmana və şou-biznesə artan diqqət və ayrılan vəsait iqtisadi tənəzzülün əsas səbəblərindən biri kimi dəyərləndirilməlidir.* İstehsalda hansı əməyin üstünlük təşkil etməsi də ölkənin iqtisadi inkişafı baxımından önəmlidir. Postsovet respublikalarında qeyri-peşəkar fiziki əməyin – qara işin həcminin intellektual və peşə əməyindən çoxluq təşkil etməsi bir tərəfdən əmək məhsuldarlığını aşağı salırsa, digər tərəfdən əhalinin mədəni səviyyəsinə mənfi təsir edir. Fiziki və zehni əməyin ictimai həyatda rolunun azalması və gəlirlərin bölüşdürülməsində ikincili rol oynaması yalnız ümumi əməyin həcmini azaltmır, həm də ictimai şüurun deformasiyasına və *cəmiyyətin amortizasiyasına* səbəb olur. Maks Veber bununla bağlı yazır: «Peşə fəaliyyətindən və dindən ya-

yındıran həyatdan inistinktiv həzz almağa cəhd idman oyunları və ya sadə vətəndaşın rəqs gecələrinə getməsi öz - təbiəti ilə rasional *askezə* düşməndir. Mədəniyyətin, o cümlədən idmanın xalis estetik dərk edilən olması üçün o pulsuz olmalıdır». Birincisi, müasir dünyada idmana, əyləncəyə hədsiz meyl məhsuldar əməyə marağı azaldaraq qlobal böhranı stimullaşdırmışdır. İkincisi, yüngül əyləncələrə və idmana hərislik insanın rasional özünü aktuallaşdırmasına imkan vermir. Bu baxımdan da postsovet iqtidarlarının idmana və şou-biznesə artan marağı ilə onların iqtisadi inkişaf konsepsiyaları ziddiyyət təşkil edir və ikinci birincini inkar etdiyindən, bu ölkələrdə iqtisadi inkişafa və artıma mənfi təsir göstərməkdədir. Üçüncüsü, idmanın və mədəniyyətin pullu olması onların estetik dərk olunmasına imkan vermədiyindən, belə vəziyyət milli mədəniyyətlərin inkişafına və onun geniş xalq kütlələri tərəfindən mənimsənilməsinə imkan vermir.

Postsovet ölkələrində aparılan iqtisadi siyasət həm də *əmək bölgüsündə* fəsadlar yaradıb. M.Veber peşə fəaliyyəti ilə bağlı yazır: «Peşə fəaliyyəti – fəaliyyətin məhdudlaşdırılmasını tələb edir – universallıq kapitalizmə ziddir». Bu barədə əvvəlki fəsildə siyasətin iqtisadiyyatdan ayrılması ilə bağlı şərh vermişdim. Burada yalnız onu qeyd etmək yerinə düşər ki, *peşə fəaliyyətinin məhdudlaşdırılmaması bir tərəfdən dövlət məmurlarının biznesə sızmasına, digər tərəfdən vəzifə cinayətlərinin artmasına gətirib çıxarır və bu da yeni iqtisadi sistemin yaranmasına imkan vermir.*

Qeyd etmək lazımdır ki, istehsal *əmək haqqı, işsizlik, məşğulluq və s.* kimi kateqoriyalarla təyin olunandır. Nəzərə almaq lazımdır ki, inkişafın hər bir dalğası xüsusi vəzifələrlə bir-birindən fərqlənir. E.Töfflerin təbirincə, birinci dalğa – aqrar təsərrüfatın inkişafı – məhsulların yetişdirilməsinə, ikinci dalğa – sənaye – onların istehsalına, üçüncü dalğa – xidmətə, düşüncəyə, biliyə və peşəkarlığa əsaslanır. Belə ki, iqtisadi siyasəti qiymətləndirərkən vəzifələrin düzgün müəyyən edilib-edilmədiyini bilmək üçün, «indi postsovet respublikaları hansı dalğanı yaşayır» sualına cavab vermək lazım gəlir. Əgər bu dövlətlərin büdcələrini təhlil etsək görərik ki, onlarda büdcə əsasən xammal ixracatından gələn gəlirlər hesabına formalaşır. İkinci və üçüncü dalğaya xas olan proseslər isə çox zəif inkişaf

edir. Bu isə postsovet respublikalarında *feodalizasiyanın* hələ də kifayət qədər güclü olduğunu göstərir.

İstehsal mərhələsinin əsas problemi *əmək haqqıdır*. Əmək haqqı necə və kim tərəfindən müəyyənləşir? İqtisadi siyasətin düzgün dəyərləndirilməsində əmək haqqının necə və kimlər tərəfindən müəyyənləşdirilməsi iqtisadi siyasətə nüfuz etməkdə açar rolu oynayır. Əmək haqqının kim tərəfindən müəyyənləşməsi - iqtisadiyyatın formasıyla, necə müəyyənləşməsi isə - birbaşa ictimai ədalətlə bağlıdır. Sosialist iqtisadiyyatında – əmək haqqı mərkəzləşdirilmiş qaydada, yalnız dövlət tərəfindən, klassik kapitalizmdə – dövlət, kapitalist və həmkarlar üçlüyü tərəfindən, bazar iqtisadiyyatında – dövlətin hər hansı qaydada müdaxiləsi olmadan iş verənlə işçi və ya onun təmsilçisi kimi, həmkarlar tərəfindən müqavilə əsasında müəyyənləşir. Amma istənilən iqtisadi sistemdə əmək haqqı müəyyənləşməsində onun *minimum həddi* dövlət tərəfindən müəyyən edilir. *Minimum əmək haqqı* elə həddir ki, bu həddən aşağı əmək haqqı işçinin yaşamasına və ictimai həyatda iştirakına imkan vermir. Bir qayda olaraq minimum əmək haqqı minimum əməklə ölçülür. Əksər ölkələrdə minimum əmək haqqı kimi əllə işləyən bənnanın əmək haqqı götürülür. Postsovet respublikalarının əksəriyyətində minimum əmək haqqı «qara fəhlə»nin əmək haqqından bir neçə dəfə az müəyyən edilib. Minimum əmək haqqının müəyyənləşməsi birbaşa *istehlak zənbili* ilə bağlıdır. İstehlak zənbili isə öz növbəsində *qiymətlərin hərəkəti* və *real əmək haqqı* ilə müəyyənləşir. *Əmək haqlarının qeyri-ənənəvi üsullarla ödənildiyi və qiymətlərin süni yolla tənzimləndiyi postsovet iqtisadi məkanında istehlak zənbilinin dəqiq qiymətini müəyyən etmək mümkün deyil.* Bunu müəyyən etmək mümkün olmadığından, minimum əmək haqqını da dəqiq müəyyənləşdirmək olmur. Bu sonuncu isə bütünlükdə əmək haqqı sistemində xaos yaradır ki, postsovet iqtisadi məkanında əmək haqqı sahəsində məhz bu cür xaos yaranmışdır. Qeyd etmək lazımdır ki, minimum əmək haqqı istehlak zənbilindən aşağı olduqda artıq insanlar *qeyri-qanuni gəlirlərə* – zəhmətsiz gəlirlərə və ya möhtəkirliyə əl atır. Belə ki, bəzi postsovet respublikalarında həkimlərin və müəllimlərin orta əmək haqqının istehlak zənbilindən qat-qat aşağı olması ilə bu iki sektor-

da rüşvətin kosmik surətdə artması buna görə məhz bir-biri ilə sıx bağlıdır. Postsovet respublikalarında iqtisadi göstərici kimi daha bir korrelyatdan – *orta əmək haqqı* anlayışından geniş istifadə edirlər. Orta əmək haqqı minimum əmək haqqından fərqli olaraq mücərrəddir. Məhz orta əmək haqqının mücərrəd olması iqtidarlara bu anlayışla geniş manipulyasiya, özlərinin iqtisadi siyasətinin uğursuzluğunu ört-basdır etməyə və xalqı aldatmağa geniş imkanlar açır. Digər tərəfdən isə ölkədə kəskin sosial təbəqələşmə problemini gizlədir. Orta əmək haqqı büdcənin ümumi əmək haqqı fondunun əhalinin ümumi sayına bölünməsindən alınır. Adətən qeyri-eqalitar cəmiyyətlərdə kiçik bir təbəqə hədsiz varlı, əhalinin böyük çoxluğu isə dilənçi vəziyyətində olur. Lakin vətəndaşların gəlirləri orta əmək haqqı ilə dəyərləndirildikdə artımın hansı təbəqəyə aid olması üzə çıxmır. Məsələn, 2500 manat əmək haqqı alanla 500 manat əmək haqqı alan iki nəfərin orta əmək haqqı – (2500+500):2=1500 manatdır. İndi 2500 manat alanın əmək haqqısı iki dəfə artsa, 500 manat alanın əmək haqqısı sabit qalsa, onların orta əmək haqqısı (5000+500:2=2750) alınır. Göründüyü kimi, orta aylıq əmək haqqı anlayışı bir tərəfdən gəlirlərin bölüşdürülməsində ədalətsiz qeyri-bərabərliyi gizlədir, digər tərəfdən konkret təbəqələrin həyat səviyyəsində baş verən dəyişilmələr haqqında heç bir məlumat vermir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı iqtisadi məkanda istehlak zənbili müxtəlif cür qiymətləndirilir ki, bu da həyat səviyyəsinin göstəricisi kimi çıxış edir. Başqa sözlə, istehlak zənbilinin qiyməti artdıqca həyat səviyyəsi yüksəlir, əksinə, istehlak zənbilinin qiyməti aşağı düşdükcə həyat səviyyəsi pisləşir. Postsovet respublikalarında bir tərəfdən istehlak zənbilinin qiyməti dünyanın əksər ölkələrindən aşağıdır, digər tərəfdən əhalinin böyük əksəriyyətinin rəsmi gəlirləri real istehlak zənbilinin qiymətindən aşağıdır. Bu isə həmin ölkələrdə gəlirlərin iqtisadi qanunauyğunluqlarla tənzimlənmədiyini göstərir. Bu postsovet ölkələrinə keçmiş SSRİ-dən qalma ən ağır miraslardandır. Əgər oxucuların yadındadırsa, hətta Sov. İKP-nin Baş katibi Brejnev bütün dünyanın gözü qarşısında müəssisələrdən işçilərin oğurluq etməsinə haqq qazandırırdı və özünün də vaxtilə kartof tədarükü zamanı kartof oğurladığını etiraf edirdi. Bununla da

Brejnev əmək haqlarının artırılmasındansa işçilərin oğurluq etməsini daha məqbul hesab etdiyini ortaya qoydu və həmin yığıncaqda iştirak edən SSRİ-nin siyasi elitası bunu sürəkli alqışlarla qarşıladı. Elə bir neçə il bundan əvvəl müstəqil Azərbaycanda da həkimlərlə müəllimlərin əmək haqlarının artırılması təklifi meydana çıxanda, «həkimlər xəstələrdən rüşvət alıb dolanırlar» arqumenti əsas götürülərək, yalnız müəllimlərin əmək haqlarının artırılmasına razılıq verildi. Bu gün bu siyasət hələ də davam etdirilir. Buradan belə bir sual doğur. Əgər postsovet dövlətlərində iqtisadi qanunların gücü yoxdursa, onda iqtidarların iqtisadi siyasətinin nə mənası var?

Əmək haqqı həm də cəmiyyətin tipindən xəbər verir. C.B.Klark «Sərvətin bölgüsü» adlı məşhur əsərində yazır ki, «Əgər cəmiyyət statik xarakterli, kapital artmayandırsa, onda əmək haqqı və faiz hazır məhsul istehsal edən qrupların xeyrindən ibarət olacaqdır». Beləliklə, *cəmiyyətdə dinamizm və sürəkli dəyişikliklər istehlakçıların xeyrinə, durğunluq və ətalətsə istehsalçıların xeyrinə olan əmək haqqı sistemini meydana çıxarır.* Postsovet respublikalarında bir tərəfdən iqtisadi durğunluğun, işsizliyin həcmi böyük olduğundan, əmək haqları istehsalçıların xeyrinə müəyyənləşir, nəticədə istehlakçılar kasıblaşır. Digər tərəfdən, bu ölkələrin müəlliminin və ya həkiminin əmək haqqı dünyada heç bir dövlətlə müqayisə olunmayan qədər aşağıdırsa, deməli bu dövlətlər *inkişaf etməmiş dövlətlər* sırasındadır. Çünki *əmək haqqının səviyyəsi bilavasitə inkişafın olub-olmamasını müəyyən edir*. Klarka görə, əmək haqqının dünya standartları inkişaf etmiş ölkələrdə yüksək, inkişaf etməmiş ölkələrdə aşağıdır. Əmək haqqı özündə həm də istehsalın təbiətində baş verənləri əks etdirir. Belə ki, dəyər dəyişəndə əmək haqqı artır, faiz azalır. Postsovet respublikalarında əmək haqqında artım olmadığından istehsal sahəsində dəyərin dəyişilmədiyi, bunun isə iqtisadi inkişafın baş vermədiyinin sübutu kimi dəyərləndirə bilərik. Əmək haqqından danışarkən unutmamalıyıq ki, iqtisadiyyatda nominal əmək haqqı ilə real əmək haqqının arasındakı fərq mühüm iqtisadi göstəricilərdəndir. Məlumdur ki, real əmək haqqı nominal əmək haqqından və vergilərdən asılıdır. Nominal əmək haqqı azaldıqca və ya vergilər artdıqca real əmək haqqı azalır. Nominal əmək haqqı illik artımın

yüksək həddini müəyyən etdiyindən, əmək haqlarında baş verən artımla nominal əmək haqqının artıb-artmadığını, yəni illik artımın olub-olmamasını müəyyənləşdirmək olar. Nominal əmək haqqı ilə real əmək haqqı arasındakı fərq istismarın göstəricisidir. Məsələn, 1956-69-cu illərdə İngiltərədə nominal əmək haqqı 106,7%, real əmək haqqı isə 34,3% artmışdı. Postsovet respublikalarında əmək haqqı nadir hallarda artdığından və artırılan cüzi məbləğ dərhal inflyasiya yeminə çevrildiyindən, deyə bilərik ki, bu ölkələrdə *nominal əmək haqqı artmır, yəni illik artım baş vermir*.

Məlumdur ki, istehsal ilk növbədə *kapital qoyuluşu* ilə sıx bağlıdır. Dövlətin bazar iqtisadiyyatında istehsal sahəsində əsas vəzifələrindən biri də *təşviq siyasətidir*. Təşviq siyasəti müxtəlif üsullarla həyata keçirilir. Təşviq siyasəti öncə qanunvericilik səviyyəsində həyata keçirilməlidir. C.S.Mill yazır: «Zorakılığın ağalıq elədiyi primitiv cəmiyyətlərdə kapitalı yığım edənlər yox, güclü olanlar və daha güclü olmağa məxsus olanlar bilavasitə oğurluq yolu ilə əldə edənlər sahiblənir». Neototalitar cəmiyyətlərdə isə kapital hakimiyyətdə olan zümrə tərəfindən oğurlanır. Buna görə də kapitalist istehsal münasibətlərini tənzimləyən qanunlar verilmir, islahatlar həyata keçirilmir. Belə tədbirlərdən biri iqtisadi subsidiyalardır. Kapitalist iqtisadi sistemində *iqtisadi subsidiyalar* – dövlət büdcəsindən əvəzi ödənilməz ödəmələr – ciddi tənzimləyici rol oynayır. Fransada kapital yığımının tarixi göstərir ki, Fransa hökuməti müharibədən sonrakı dövrdə iqtisadiyyatı dirçəltmək məqsədi ilə milliləşmiş və xüsusi müəssisələrlə yanaşı hətta ev təsərrüfatlarına və gəlirsiz təşkilatlara subsidiyalar vermişdir. Postsovet respublikalarında iqtisadiyyatda subsidiya siyasəti demək olar ki, həyata keçirilmir və ya konyuktur subsidiya siyasəti yürüdülür. Bu da bu dövlətlərin yanlış təşviq siyasəti yürütdüyünü göstərir.

İstehsal sferasında yalnız konkret yox, həm də *simvolik kapital* mühüm rol oynayır. P.Burde yazır: «Kredit simvolik kapitaldır». Əgər konkret kapital yığımı iqtisadi inkişafa səbəb olursa, simvolik kapitalın yığılması, yəni borclanma siyasi inkişafa mane olur. Borcluların həm də siyasi qərarların verilməsinə təsir etmələri iqtidarları idarə edir. Ona görə də, borc yaradan borcdan imtina etmək, gəlir

yaradan borc siyasətinə keçməyən postsovet respublikalarının kreditlərin infrastrukturlara və daşınmaz əmlaka yatırılmasına öncəlik vermək ciddi siyasi səhvdir və bu ölkələrə ağır iqtisadi nəticələr gətirəcək və belə borclanma borc yaradan olduğundan, bu dövlətləri iqtisadi asılılığa salacaqdır. Artıq bəzi postsovet respublikalarının Rusiyadan asılılığında bu faktor da rol oynamaqdadır.

BÖLGÜ, YOXSA XƏYALİ CƏNNƏT?

İqtisadi sferanın digər bir sahəsi bölgüdür. Bölgü elə iqtisadi aktivdir ki, bir tərəfdən sosial həyatda özündə siyasətlə iqtisadiyyatı, digər tərəfdən iqtisadi həyatda istehsalla istehlakı əlaqələndirir. Siyasətlə bölgünün əlaqəsi haqqında C.S.Mill yazır: «Bölgü bütünlüklə insan müəssisəsinin işidir…istehsalın qanunlarından fərqli olaraq, bölgünün qanunları hissəvi olaraq insanlar tərəfindən yaradılır, belə ki, hər bir cəmiyyətdə sərvətin bölünmə üsulu onda qanunların və adətlərin qəbul edilməsindən asılıdır». Buna görə də totalitar cəmiyyətlərdə bölgünün qanunları ədalətsiz, demokratik cəmiyyətdə isə ədalətlidir. İqtidarlar totalitarizmə meyl edərkən ilk növbədə bölgüdəki ədaləti pozurlar. Vaxtilə Prudon deyirdi: «Düşmən kimi qazanmalı, qardaş kimi bölməli». Məncə, *distrubtiv ədalətin* bundan yaxşı obrazlı ifadəsi ola bilməz. Bölgü çox mühüm iqtisadi rol oynayır. Klark yazır: «Kapitalın düzgün bölgüsü istehsalla istehlakı sinxron edir». Bunun əksinə, düzgün bölgü siyasəti aparılmadıqda iqtisadi həyatı tənzimləmək olmur və iqtisadiyyat dağılır. Bölgü həm də sosial-siyasi həyatı tənzimləyir. A.F.Hayek yazır: «Heç kəsin bölmədiyi yerdə distributiv ədalət yoxdur». Bölgü özünün ən dərin əsaslarında dövlətin və hakimiyyətin əmələ gəlməsini şərtləndirmiş və dövlət formaları bölgünün təbiətinə görə biri-birindən fərqlənmişdir. Bölgü *mərkəzləşdirilmiş* və ya *mərkəzsizləşdirilməmiş* qaydalarda meydana çıxır və bazar iqtisadiyyatı mərkəzsizləşdirilməmiş bölgü sisteminə əsaslanır. Hayek bununla bağlı yazır: «Fərdin öz hərəkətlərinə mənəvi cavabdehliyi əsl həqiqətdə mərkəzləşdirilmiş bölünmənin qlobal modelinin reallaşdırılması ilə bir araya sığmazdır». Postsovet respublikalarında dövlət tərəfindən bölgünün mər-

kəzləşdirilmiş forması həyata keçirilir ki, bu da bazar iqtisadiyyatına və bütünlükdə kapitalist istehsal üsuluna ziddir.

İqtisadi bazisin əsas paradiqmalarından olan bölgü iqtisadi siyasətdə istehsal qədər vacibdir və cəmiyyətin inkişaf meylini müəyyən edən bir nömrəli paradiqmadır. Bölgünün passiv və istehsaldan asılı paradiqma kimi qəbul edilməsi cəmiyyətdə ədalət problemi yaradır. Hansı ki, bazar iqtisadiyyatı məhz ədalətin bərqərar olduğu cəmiyyətdə funksiyalaşa bilər. Nə üçün bölgü iqtisadi siyasətdə müstəsna əhəmiyyət kəsb edir? Məsələ burasındadır ki, bölgünün prioritetliyi iştirakçıların antaqonizminə əsaslanır. Ona görə də antaqonist münasibətlərin mövcud olduğu yerdə bölgüdən, bölgünün olduğu yerdə antaqonist ziddiyyətlərdən danışmaq lazım gəlir. Bölgü cəmiyyətdə ədalət və bərabərliyi müəyyən edən siyasi-iqtisadi fəaliyyətdir, hansı ki, fərdi və ictimai inkişafın təbiətini müəyyən edir. Q.Markuze yazır ki, «Nəqd resurslar insanın tələbatlarının keyfiyyətcə dəyişməsinə səbəb olur». Bura həm rifaha, həm də mənəviyyata olan tələbatlar daxildir. Təhlil etdiyimiz strategiyada adambaşına düşən gəlirlə seçki hüququ arasında bağlılıq haqqında belə bir tezis öz əksini tapıb: «Tarixi təcrübə sübut etdi ki, demokratik rejim yalnız o halda möhkəm rejim kimi qalır ki, ümumi seçki hüququ adambaşına ÜDM-nin müəyyən səviyyəsinə çatdıqda yaranmış olsun». Məncə, distrubtiv funksiyanın bundan gözəl ifadəsini tapmaq çətindir. Amma unutmaq olmaz ki, adambaşına düşən ÜDM nə qədər artırsa-artsın, *əgər sağlam bölgü ilə o hər bir adama çatmırsa, onda bir tərəfdən seçki hüququ mənasızlaşır – vətəndaş hakimiyyətdə kimin olması ilə maraqlanmır, digər tərəfdən isə, iqtidarlar seçkiləri saxtalaşdırmaqla hakimiyyətdə qalır, xalq isə buna müqavimət göstərmir.* Bölgü təkcə seçki hüququnun yox, Konstitusiyada və beynəlxalq hüquqda nəzərdə tutulan bütün hüquqların real məzmun əldə etməsi üçün bazis şərtdir. Vətəndaşların hüquqa müraciəti onların həyat səviyyəsi ilə birbaşa bağlı olduğundan, əhali var-yoxdan çıxdıqca ölkədə *hüquqi nihilizm* yaranır. Postsovet respublikalarında total hüquqi nihilizmin hökm sürdüyünü nəzərə alsaq, qeyd etməliyik ki, bölgü ilə bağlı iqtidarların iqtisadi siyasəti qüsurludur. Türkmənbaşı hətta Pol Potun yolunu gedərək insanların geyiminə

belə, şəxsi qadağalar qoymaqdan çəkinməmişdi. Postsovet iqtidarlarının iqtisadi siyasətində ən mühüm qüsuru da məhz bölgüyə passiv amil kimi yanaşmaq, onun iqtisadi həyatda yerini düzgün qiymətləndirməməklə bağlıdır. Bölgü o qədər mühüm rol oynayır ki, bəzi mütəfəkkirlər onu istehsaldan önə çəkir. Əslində bölgü milli sərvətin paylanma üsulunu ortaya qoyur və cəmiyyətin ədalətliliyini göstərir. Sərvətin bölgüsünün kapitalist üsulu başlanğıcda quldurluq, quldarlıq, müharibə və cinayətlərə əsaslanı, hansı ki, tarix bu kimi halların aradan qaldırılması istiqamətində inkişaf edir və insanlıq sərvətin bölgüsünün ədalətli və qanuni yolunu kəşf etməklə klassik vəhşi kapitalizmdən onun «əhilləşmiş» formasına – bazar iqtisadiyyatına yol açmışdır. Bölgü siyasəti bilavasitə kapital yığımı ilə bağlı olduğundan, sağlam olmayan bölgü siyasəti postsovet respublikalarında kapital yığımına şərait yaratmamış, bu isə öz növbəsində kapitalist istehsal üsuluna keçməyə imkan verməməkdədir.

Məlumdur ki, Ümumi Milli Gəlirin bölgüsü *dövlət büdcəsi* vasitəsi ilə həyata keçirilir və birincisi, *büdcənin bütün qüsurları bölgünün qüsurları kimi meydana çıxır*. İkincisi, bölgünün qüsurları milli gəlirin təkrar bölgüsündə ortalığa çıxır ki, bu da *vergi siyasəti* ilə bağlıdır. Vergidə mütərəqqi sistemlərin tətbiq edilməməsi ilk növbədə eqalitarizmə ciddi zərbə vurur, digər tərəfdən dövlət büdcəsinə daxil olmaları azaldır. Məhz bölgüyə aydın münasibətin olmaması cəmiyyətdə korrupsiya mühitini yaratmışdır. Hələ də postsovet respublikalarında deklarasiya sistemi tətbiq edilmir, mütərəqqi vergilərlə ədalətsiz varlanmanın qarşısında səd qoyulmur.

Qeyd etmək lazımdır ki, kapitalizmin sosializmdən ciddi fərqlərindən, iqtisadi amillərindən biri də *ailə büdcəsidir*. Qeyd edim ki, öz təbiətinə görə kapitalist ailə büdcəsi sosialist ailə büdcəsindən köklü fərqlənir. Belə ki, kapitalist ailə büdcəsinin gəlirləri müxtəlif mənbələrdən – əmək haqqından, faizlərdən, istiqrazlardan, yardımçı təsərrüfatdan, lotereyalardan, ictimai istehsal fondlarından olan güzəştlərdən, pul ödəmələrindən, kompensasiya ödəmələrindən, dotasiyalardan, pulsuz xidmətlərdən və s. ibarət olur. Ailə büdcəsi cəmiyyətin rifah vəziyyətini, iqtisadi artım dinamikasını və onun struktur dəyişilmələrini əks etdirir. Müasir postsovet respublikala-

rının bir çoxunda ailə büdcəsi yalnız əmək haqqından, qismən isə yardımçı təsərrüfatdan təşkil olunur. Bu da kapitalist ailə büdcəsindən yarımçıqlığı ilə fərqlənir və ailə büdcəsinin təşkilinə görə bu ölkələrdə bir daha kapitalist cəmiyyətinin yaranmadığını və ədalətsizliyin hökm sürdüyünü deyə bilərik. Çünki bölgünün ədalətliliyi həm də ailə büdcəsi ilə sıx bağlıdır. Belə ki, siyasi konyuktura iqtisadiyyatında dövlət büdcəsi ailə büdcəsi hesabına, yəni dövlətin fiskal təzyiqi ilə doldurulur, əvəzində ailə büdcələri çökür. Bu baxımdan iqtidarların iqtisadi inkişaf konsepsiyalarında ailə büdcəsi ilə bağlı bir kəlmə də yoxdur və dövlət büdcəsinin artması müqabilində ailə büdcələrində hansı proseslərin getdiyi nəzərə alınmır. Qeyd etməliyəm ki, kapitalist iqtisadiyyatında ailə büdcələri dövlət büdcəsi qədər vacib iqtisadi amildir və iqtisadiyyatın tənzimlənməsi bir qayda olaraq bu iki büdcə arasında aparılan əməliyyatlarla həyata keçirilir.

İqtisadi tənzimləmədə əsas faktorlar - *rüsumlar, cərimələr, vergilər, ödəmələr və reqressiv iqtisadi* tədbirlər, o cümlədən aksizlərdir. Bu sahədə də iqtidarların iqtisadi siyasəti uğursuzdur və iqtisadi cinayətkarlığın inkişaf etməsinə səbəb olub. Əgər vergilər yüksək, cərimələr aşağıdırsa, onda qanunauyğun olaraq vergidən yayınma adi hal olacaq. Əgər cərimələr yüksək, vergilər yüksəkdirsə, iqtisadiyyat tənəzzülə uğrayacaq. Bəs iqtisadiyyat necə tənzimlənməlidir ki, iqtisadi inkişaf baş versin? Bunun düzgün yolu vergiləri, rüsumları azaltmaq, əvəzində cərimələri və ödəmələri yüksəltməkdir. Bu, bir tərəfdən vergidən yayınmanın qarşısını alar, digər tərəfdən iqtisadi artıma yardım edər, üçüncü tərəfdən vergi sahəsində rüşvətin aradan qaldırılmasına səbəb olar. Amma postsovet respublikalarında uzun illər vergilərin və rüsumların yüksək, cərimələrin isə aşağı olması bir tərəfdən vergidən yayınmaları stimullaşdırmış, digər tərəfdən vergi yığımında rüşvəti artırmışdır. Sonralar vergiləri və rüsumları azaltmadan, cərimələrin artırılması kiçik və orta biznesi sıradan çıxarmışdır. Bunun isə artıq bazar iqtisadiyyatı ilə əlaqəsi yoxdur.

Bölgü siyasətinin nəticəsində yoxsulluq və varlanma kimi kriteriyalar meydana çıxır. Neototalitar liderlər yoxsulluğun azaldılmasını təsdiq edən rəqəmlərə istinad etməyə meyllənirlər. Konkret

faktları şərh etmədən qısa şəkildə statistik iqtisadi rəqəmlər haqqında. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda rəqəmlər *korrelyasiya* ilə bağlıdır. Bu baxımdan ümumiyyətlə, iqtisadi vəziyyətlə iqtisadi göstəriciləri əks etdirən rəqəmlər arasında demək olar ki, birbaşa və möhkəm əlaqə yoxdur. Məhz bundan istifadə edərək iqtidarlar real iqtisadi vəziyyəti ört-basdır etməkdən ötrü *rəqəmlərlə manipulyasiya* edir və ya *konyukturaya* əl atırlar. Ernest Veqman «Dedektiv rəqəmlər» adlı kitabında rəqəmləri «həqiqəti axtaran dedektivlər» kimi təqdim edir. Amma iqtisadçı alimlər, sosioloqlar bu postulata heç bir inam nümayiş etdirmirlər və demək olar ki, rəqəmlərin dedektiv rolu oynamadığı sübut olunmuşdur. E.Veqmanla razılaşmayanlar əksinə, rəqəmləri yox, «onunla əməliyyat aparanları» - iqtisadi statistika ilə məşğul olanları - dedektiv hesab edirlər. Mən isə belə hesab edirəm ki, ciddi siyasi konyukturaya məruz qalmış iqtisadi sahədə rəqəmlər onunla illuzionist kimi oynayanların əlində virtual vasitələrdir. İlluzionist eyni vaxtda kağızı pula, pulu kağıza çevirib sonra onu yandıraraq ondan rəngbərəng lent aldığı kimi, rəqəmlərlə oynayan iqtidarlar xəyali cənnət haqqında istədiklərini uydura bilirlər.

Hər şeydən əvvəl qeyd edim ki, iqtidarın rəqəm siyasəti korrelyasiya problemi ilə sıx bağlıdır. Korrelyasiya bazis şərtlə bağlı rəqəmlərin seçilməsidir. Məsələn, hər hansı bir məsələyə mütləq yanaşanda bir, nisbi yanaşanda başqa rəqəmlər alınır və ya korrelyasiya olunmuş rəqəmlərin böyüməsi heç də həyat səviyyəsinin və ya adambaşına düşən gəlirin, yaxud iqtisadi artımın böyüməsi ilə düz mütənasib olmur. Elə təhlil etdiyimiz strategiyada Meksikada adambaşına düşən gəlirin 9000 dollara çatmasından sonra Meksikada demokratiyaya səbəb olduğu göstərilir. Lakin hamıya məlumdur ki, Meksika əhalisinin kaçıbçılığına və qeyri-sabit siyasi ölkə olmasına görə hələ də dünyanın təhlükəli zonalarından biri olaraq qalmaqdadır. Bütün bunlar iqtisadiyyatda rəqəmlərin diplomatik dillə danışmasından xəbər verir. «Diplomatlara isə dil yalnız fikirlərini gizlətmək üçün verilib». Beləliklə, iqtidarların iqtisadi inkişafla bağlı göstərdiklər rəqəmlərin arxasında bir qayda olaraq gizlətmək istədikləri reallıqlar durur.

İqtisadi korrelyasiyanı nəzərə almadan iqtisadi rəqəmlərin dilini anlamaq olmaz. Korrelyasiya iqtisadi kofisientlərin – əmsalların əsas götürülməsidir və iki cür - nisbi və mütləq kofisientlər mövcuddur. İqtisadiyyatda korrelyasiya bir rəqəmin digər rəqəmə dayaq olması kimi qəbul edilir. Bir qayda olaraq korrelyasiyaya əhalinin sıxlığı, dinamikası, miqrasiya və imiqrasiya, əhalinin iqtisadi sahələr üzrə paylanması, milli gəlirlə milli məhsul arasında 5:1 və 3:1 arasında dəyişən nisbət, (haşiyəyə çıxım ki, ən yüksək həyat səviyyəsi bu nisbətin əksinə olan ölkələrdədir) dövlət borcu ilə ÜMM arasındakı nisbət və s. təsir edir. Rəqəmlər yalnız və yalnız kəmiyyətdən xəbər verir. Nəzərə alsaq ki, iqtisadiyyat sadəcə riyaziyyat deyil, onda bu rəqəmlərlə yanaşı digər bir kriteriyanı – keyfiyyət kateqoriyasının da iqtisadi inkişafı dəyərləndirmədə necə müstəsna rol oynadığını qəbul etməliyik. Keyfiyyət isə vətəndaşların həyat səviyyəsində üzə çıxır. İqtisadiyyat elminin məşhur nümayəndələrindən A.Marşal da təsdiq edir ki, «sərvətin artımının statistik tarixi nadir şəkildə kasıb və aldadıcıdır».

Bölgünün əsas kateqoriyalarından biri *gəlirdir*. Gəlir iqtisadiyyatı stimulyasiya edən əsas faktorlardan biridir və bir çox hallarda çılpaq iqtisadi reallıqdır. Qeyd etmək lazımdır ki, iqtidarların iqtisadi siyasətində konkret «gəlir siyasəti» özünə müvafiq yer tutmamışdır. Bizdən fərqli olaraq, ənənəvi kapitalist ölkələrində kapital yığımını sürətləndirmək məqsədi ilə gəlir siyasəti həyata keçirilir. Nümunə üçün qeyd edim ki, iqtisadi inkişaf həyata keçirən İngiltərədə 1962-63-cü illərdə «gəlir siyasəti» gəlirlərin müvafiq olaraq 2-2,5% və 3-3,5% artırılmasını nəzərdə tutmuşdur.

Haşiyə: Ola bilsin ki, oxucular nə üçün mənim istinad etdiyim faktların 30-40 il bundan əvvəllə bağlı olduğuna təəccüblənə bilərlər. Məsələ burasındadır ki, mən analogiya apararkən kapitalizmin inkişafının bəzi göstəricilərinin və ya problemlərin postsovet respublikaları ilə oxşarlıq təşkil etdiyi dövrlərlə müqayisəli təhlili düzgün hesab edirəm. Əksinə, müasir inkişaf etmiş kapitalist dünyasında baş verənlərlə bu ölkələrdə baş verənləri müqayisə etməklə biz həqiqətə çata bilmərik və ədalətsizlik etmiş olarıq. Bundan fərqli olaraq, iqtidar təmsilçiləri bir az da keçmişi 100-150 il bundan qabaqkı döv-

rlərlə müqayisə aparılmasına cəhd edirlər ki, mən bunu da düzgün hesab etmirəm.

Gəlirləri müxtəlif cür hesablamaq mümkündür. Bir qayda olaraq iqtisadiyyatda ADG – *adambaşına düşən gəlir* əsas korrelyant kimi götürülür. İqtisadiyyat elmində ADG-nin hesablanmasının bir çox üsulları təklif olunmuşdur. Praktikada ADG ən çox zəruri bir və ya bir neçə məhsulun real qiyməti ilə hesablanır. Qeyd edim ki, nə qədər çox korrelyant götürülürsə, bir o qədər dəqiq ADG hesablamaq olar. ADG minimum əmək haqqı ilə də hesablanır. Bunun üçün minimum əmək haqqının 190 (bəzən 160 və ya 260) misli götürülür. Minimum əmək haqqı dövlət tərəfindən müəyyən edildiyindən və bundan aşağı əmək haqqının verilməsi qanunla qadağan edildiyindən, minimum əmək haqqı ilə ADG-nin hesablanması məqsədə müvafiqdir. Yuxarıda qeyd etdik ki, ADG həm də ÜMM-ni əhalinin sayına bölməklə müəyyənləşdirmək olar. Buradan da biz ÜMM-nin minimum əmək haqqı, minimum əmək haqqı ilə əhalinin sayı arasında iqtisadi əlaqələri müəyyənləşdirə bilərik. Buradan həm də real dövlət büdcəsinin həcmini tapmaq olur. Belə ki, RB (real büdcə) = MƏH (minmum əmək haqqı) 200 x ƏS (əhalinin sayı) formulu ilə hesablana bilər. Bu qayda ilə Azərbaycanda son 7 ildə baş verən iqtisadi dəyişilmələrin real büdcədə necə əks olunmasına baxaq. 2000-ci il Azərbaycan Statistika Komitəsinin rəsmi məlumatlarına görə, əhalinin sayı 8081000, minimum əmək haqqı 1,1 manat olmuşdur. Bu şərtlərdə real büdcə 1,7 miyard, 2007-ci ildə müvafiq olaraq əhalinin sayı 8532700 nəfər, minimum əmək haqqı 40 manat olmuşdur. 2007-ci ilin real büdcəsi 4,5 milyard manat olmalı idi. Amma statistikaya görə 2000-ci ildə dövlət büdcəsi 714,6 milyon manat, 2007-ci ildə 6006,6 milyon manat olmuşdur. Başqa sözlə, 2000-ci il dövlət büdcəsi real büdcədən 2,5 dəfə az, 2007-ci il dövlət büdcəsi isə əksinə, real büdcədən 0,7 dəfə çox müəyyənləşmişdir. (Görünür, iqtidar neft bumunu nəzərə alıb) Nəzərə alsaq ki, büdcə cari qiymətləri müəyyən edir, onda büdcənin ADG-yə uyğun olmamasını, qiymətlər sferasında xaos yaradacağını demək çətinlik törətmir ki, bu da kasıbçılığı artırır. Azərbaycan da bu gün dövlət büdcəsinin müəyyənləşməsində yol verilən konyuktura ölkənin qiymət sistemində xaos yaratmışdır.

Bölgünün nəticəsində *sərvət* meydana çıxır. Sərvət ictimai və fərdi olmaqla iki qrupa bölünür. Dövlətin gücü hər iki sərvətin həcmi ilə ölçülə bilər. Vətəndaşlara məxsus sərvətin ictimai sərvətdən böyük olması ilk növbədə *cəmiyyətin istismarçı* təbiətindən xəbər verir. Dövlətə məxsus sərvətin vətəndaşın sərvətindən böyük olması *iqtisadi diktaturanı* göstərir. Sərvət kapital *yığımı* ilə sıx bağlıdır və yığıma çevrilməyən sərvət əsas ictimai funksiyalardan məhrumdur. V.Veberə görə, «sərvət həzzi inkar edir, izafi istehlakdan imtinanı stimullaşdırır, nümayiş cah-cəlalından imtinanı tələb edir və nəhayət, tərbiyələndirici rol oynamalıdır». Postsovet respublikalarında sərvət öz ictimai təyinatına uyğun yaranmadığından, əksinə, insanları cinayətə və əxlaqsızlığa yuvarlandırır. Sərvət «həzz mənbəyinə çevrildiyindən», sərvət sahibləri bir əyləncədən digərinə qoşur. Qədim Romanı süquta uğradan əyyanların əyyaşlığı, əyləncələrdə israfçılığı eyni həyat tərzi yaşayan istənilən dövlət üçün xarakterikdir. Evində delfin, timsah, şir saxlamaqda yarışa girənlər nə etdiklərinin fərqində deyil. Hər bir məmurun yüzlərlə mənzilə, bağ evinə sahiblənməsi izafi istehlakdan xəbər verir və postsovet iqtisadi məkanında distrubutiv ədalətsizliyin hökm sürdüyünü sübut edir.

MÜBADİLƏ

Qeyd etmək lazımdır ki, iqtisadi bazisi təşkil edən digər bir iqtisadi paradiqma *mübadilədir.* Mübadilə o dərəcədə iqtisadi əhəmiyyətə malikdir ki, hətta C.S.Mill bununla bağlı yazır: «Bölgü siyasi iqtisadiyyatda o qədər mühüm və vacib yer tutur ki, bəzi alimlərin təsəvvürlərində onun sərhədləri elmin öz sərhədləri ilə birləşir». Hətta məşhur müəlliflərdən biri təklif etmişdir ki, siyasi iqtisadiyyat «katallaktika» və ya mübadilə haqqında elm kimi adlandırılsın».

Haşiyə: Bir qayda olaraq iqtisad elmi kapitalizmi belə formulə edir: *Kapitalizm = fərdi istehsal + azad mü*badilə.F.Engels «Antu-Dyurinq» adlı məşhur əsərində mübadilə haqqında yazır: «İstehsal və mübadilə münasibətlərinin dəyişilməsi nəticəsində hər yerdə xüsusi mülkiyyət əmələ gəlir…zorakılıq bu zaman heç bir rol oynamır…zorakılıq mülkiyyətin sahibini dəyişə bilər, amma mülkiyyət

yarada bilməz». Birincisi, postsovet dövlətlərində konkret və birmənalı istehsal və mübadilə münasibətləri yaranmadığından, iqtidarların iqtisadi siyasətində bununla bağlı aydın bir müddəa olmadığından, ilk növbədə klassik mənada *xüsusi mülkiyyətin yaranmadığını* qeyd etməliyik. İkincisi, mübadilə iqtisadiyyatın elə fundamental məsələsidir ki, iqtisadiyyatla siyasət ilk növbədə burada birləşir və *siyasi konyuktura sahəsi* yaradır. Mübadilə birinin istehsal etdiyi məhsulun və ya göstərdiyi xidmətin başqasının məhsulu və xidməti ilə elə dəyişdirilməsidir ki, hər iki tərəf yaşaya, təkrar istehsal edə, nəslini davam etdirə bilsin və mümkün olduqda yığım edərək əmlaka, təsərrüfata, mülkiyyətə və nəhayət, kapitala çevirə bilsin.

Mübadilə ən azı üç mühüm anlayışla – *dəyər, qiymət və ticarətlə* sıx bağlıdır və onlarla şərh olunan və mənimsənilən iqtisadi aktivdir. Hər şeydən əvvəl, ticarəti alverdən ayırmaq lazımdır. Ticarət alverdən daha ciddi iqtisadi sferadır. *Alver – ticarətin oğurluğudur.* Dünya biznes tarixini öyrənən Hovard Minz «Pul və hakimiyyət» adlı kitabında ticarətlə bağlı yazır: «İqtisadiyyatda hər şey əmələ gəlmələrinə görə ticarət daxilində inqilabi rol oynamış biznesin krallarına borcludur. Hələ insanlar onların taleyini məhdudlaşdıran və nəzarət edən monarxiyadan və təkpartiyalılıqdan azad olmağa başlamamış, kifayət qədər inkişafa və gəlirlər dalınca qaçmağa xüsusi stimul olmayıb». Bu nə deməkdir? Əgər postsovet cəmiyyətlər azad deyilsə, ticarətçilər rüşvət vermədən azad ticarət edə bilmirsə, ticarətdə ciddi monopoliya hökm sürürsə, vergilər ticarət ilə məşğul olmağı boş bir işə çeviribsə, nəhayət, ölkədə təkpartiyalılıq yaranıbsa, onda kim ticarətə meyl edər? Və belə ticarət nəticə olaraq, Minzin qeyd etdiyi kimi, digər əmələgəlmələrə, o cümlədən, sərvət və kapital yığımına necə yardımçı ola bilər? Postsovet ölkələrində ticarətin bu vəziyyətdə olmasını kimsə inkar edə bilməz və əgər reallıq budursa, onda kim bu vəziyyətdə iqtisadi inkişafda iştiraka həvəslənər? Əgər vətəndaşlarda gəlirlər və inkişaf dalınca qaçmağa stimul yoxdursa, onda iqtidarların iddia etdiyi iqtisadi inkişafın subyektləri kimlərdir? Təbii ki, indi postsovet respublikalarında məmurlar və xarici ölkələrin biznesmenlərindən başqa çox məhdud həcmdə yerli vətəndaş ticarətə meyl edir. Digər tərəfdən, postsovet respublikaları qlobal

dövlətlər sisteminin üzvü olduğundan Ümumdünya Ticarət Təşkilatına üzv olmağa meyl edirlər. Lakin təşkilata üzvlük liberallaşma tələb etdiyindən, heç bir postsovet respublikası hələ təşkilata üzv olmağa can atmır. Digər bir problem isə yenə də qeyri-qanuni şəxsi monopoliyadan qaynaqlanır. Ticarət sahəsində monopoliya, iri ticarət mərkəzlərinin yaranması kiçik və orta ticarəti məhv edir.

Mübadilə sahəsində digər bir mühüm məsələ *dəyərin* yaranmasıdır. Dəyər özü də iki formada – nominal-mütləq və rasional-nisbi formalarda meydana çıxır. Mütləq dəyər xammalla, işçi qüvvəsi və əmək alətləri ilə bilavasitə əlaqəli olduğundan, *təbiidir, obyektivdir* və istehsal sferasına daxildir, burada *pozitiv manipulyasiya minimumdur*. Nisbi dəyər vergilər, gömrük rüsumu, kommunikasiya, reklam, qablaşdırma, rüşvət və s. ilə bağlı olaraq bölgü sferasına daxildir və manipulyasiya olunandır. Postsovet respublikalarında nisbi dəyərin süni şəkildə artırılması, qeyri-qanuni ödəmələrlə bağlı onu mütləq dəyərdən qat-qat artırır. Hər bir məhsul satıcısı verdiyi rüşvəti də satdığı məhsulun üzərinə qoyur. Buna görədir ki, gömrük yolu ilə gətirilən əksər məhsulların nisbi dəyəri digər ölkələrdən qat-qat yüksəkdir. Dəyər də öz növbəsində fəal olduğundan, qiymətlərə təsir edir. Qiymət öz növbəsində eyni vaxtda nisbi dəyərin real və irreal ekvivalenti kimi çıxış etdiyindən, bilavasitə manipulyasiya, korrupsiya, monopoliya və s. iqtisadi cinayətlər üçün və iqtidarın siyasi və iqtisadi konyukturası üçün ən əlverişli iqtisadi amilə çevrilir. Bu baxımdan da iqtidarların iqtisadi siyasətində dəyər və qiymət siyasəti qüsurludur və vətəndaşların var-yoxdan çıxmasına səbəb olur.

Mübadilədən danışarkən ilk növbədə diqqət mübadilə vasitələrinə verilməlidir və bu baxımdan *pul* müstəsna iqtisadi amil kimi önə çıxır. C.S.Mill pulun dövlət həyatında rolu haqqında yazır: «Pul – hansısa konkret istehlak üçün yararlı olan hər hansı bir şeyə yox, ümumiyyətlə, istənilən istehlak olunana yararlı olan sərvətin yeganə formasıdır…bütün bu səbəblər həm ayrıca bir adamı, həm də hökuməti məcbur edir ki, onun sərəncamında olan sərvəti – həm nəqd (in esse), həm də potensial (nisyə pula – in posse) dəyərləndirərkən bu məqama müstəsna əhəmiyyət versin və bütün başqa şey-

lərin (onların resurslarının hissəsi kimi baxılan), - o yeganə olanlar ki, əldə edilən kimi ani olaraq arzulanan əşyalar üzərində sərhədsiz hakimiyyət verir əldə edilməsini praktiki olaraq hədsiz mürəkkəb vasitə hesab etsin». Məhz buna görədir ki, pul hökumətlərin əlində həm də iqtisadi siyasətlərinin qüsurlarını ört-basdır etmək üçün vasitəyə çevrilmişdir. Pul kütləsi ilə manipulyasiya qiymət və dəyərlər sistemində elə mürəkkəb dəyişikliklər yaradır ki, iqtidarın günahına görə vətəndaşlar cəzalanır. Beləliklə, mübadilə sferasında düzgün iqtisadi siyasət hər şeydən əvvəl zəruri pul kütləsinin düzgün müəyyənləşdirilməsini tələb edir. Belə ki, az pul kütləsi pulun, çox pul kütləsi isə məhsulların qiymətinin qalxmasına gətirib çıxarır. İqtisadiyyat elmində pul kütləsi milli sərvət, milli gəlir və büdcə ilə əlaqəli müəyyənləşir. Pul kütləsinin milli sərvətə 1:10 nisbətində olması məqsədə müvafiqdir. Təbii ki, bu nisbətdə milli sərvət artdıqca pul kütləsi də artmalı, əksinə, milli sərvət azaldıqca pul kütləsi də azalmalıdır. Bundan fərqli dəyişilmələr bahalaşma və inflyasiya kimi problemləri yaradır.

Mübadilə, mübadilə olunanlarla *mənəvi dəyərlərin transferini* reallaşdırır. O.Spenqler «Avropanın qürubu» adlı kitabında yazır: «Bazar məhsullarla düşünməni pulla düşünməyə çevirir». Buradan da *pul həm də düşüncə kateqoriyasına çevrilir*. «Hansı pulla», «nə qədər», «necə düşünmə» ictimai həyatda çox ciddi sosial və siyasi nəticələrə gətirib çıxarır. Pul düşüncəsi birbaşa pulun əldə edilmə qaydası ilə sıx bağlıdır. Cəmiyyətdə qeyri-qanuni pul əldə etmə imkanı böyük olduqca insanlar oğurluq pulla *oğrular kimi düşünür* və cəmiyyət oğrular dünyasına çevrilir. *Pul düşüncəsi iş adamlarını siyasətə, siyasətçiləri isə iqtisadi həyata təsir etməyə təşviq edir.* Halbuki, elə qanunlar qəbul edilməlidir ki, vətəndaşın nə qədər, necə və hansı pulla düşünməsi dövlət və cəmiyyət üçün təhlükə törətməsin. O.Spenqlerə görə, «Pul əldə edə bilən adam – pul düşüncəsinə malikdir və bütün mədəniyyətlərdə inkişaf belə gedib». *Pulun cinayət yolu ilə əldə olunması isə cinayətkarlar ordusu yaradır və heç bir cəmiyyətdə belə düşüncəli insanlar mədəniyyət yaradıcıları kimi çıxış etmir.* Postsovet ölkələrində mədəniyyətin tənəzzülünün bir səbəbi də budur. Pulun pozucu təsirini yalnız demokratiya aradan

qaldıra bilər, belə ki, O.Spenqlerin qeyd etdiyi kimi, «Demokratiya – pulla siyasi hakimiyyəti tam bərabərləşdirir». Bu baxımdan leqal pullanmanın baş verdiyi cəmiyyətdə pullular deputat olmağa, vəzifə almağa, başqa sözlə, siyasi hakimiyyəti monopoliyaya almağa cəhd eləmir. Postsovet respublikalarında isə əksinə, dövlət vəzifələri sərvət toplamanın yeganə yolu olduğundan, vətəndaşlarda hakimiyyət hərisliyi və hakimiyyət cinayətkarlığını artırır.

Pul siyasəti – «pul kimin əlində, necə toplanır, necə saxlanılır və necə istifadə olunur» kimi suallara cavab verməlidir. Bu sual iqtidarların iqtisadi siyasətinin mahiyyətini anlamaqda, ictimai şüuru başa düşməkdə və fərdi davranışları proqnozlaşdırmada çox vacibdir. *Rüşvət və korrupsiya yolu ilə əlinə pul toplamış insanlar potensial cinayətkar – ya icraçı, ya sifarişçidirlər. Postsovet məkanında sifarişli qətllərin geniş yayılmış təcrübəsi bundan qaynaqlanır.* Belə insanlar milli maraqlara da zidd fəaliyyət göstərirlər, hətta zaman-zaman düşmənlərə kömək edirlər. Belə adamların dövlət vəzifələri tutması isə siyasi iflasdır, həmin adamlar bir çox hallarda hətta xarici dövlətlərin agentləri kimi çıxış edirlər. Bakı aeroportunun təhlükəsizlik xidmətinin yüksək rütbəli məmurlarından birinin prezidentin danışıqlarına Rusiyanın xeyrinə qulaq asmaq üçün gizli qurğunu yerləşdirməsi və əldə etdiyi məlumatları yalnız Rusiyaya yox, o cümlədən özünə məlum mənbələrə ötürməsi də bununla bağlıdır.

Qeyd etməliyəm ki, iqtidarın pul siyasəti, xüsusən *pulun kursu* konyuktura ilə bağlıdır. Kapitalizm üçün fiksə olunmuş kursdan imtina xarakterikdir. Pulun kursunun süni yolla sabit saxlanması bazar iqtisadiyyatının məntiqi ilə bir araya sığmır. Konyuktura *qiymət seriyaları*, yəni eyni bir məhsulun qiymətinin tez-tez dəyişilməsi və qiymətlərin tarixinin yolunu müəyyən edir. İqtisadçılar arasında konyukturaya iki baxış – ingilis və fransız baxışı daha populyardır. İngilislərə görə, *milli proseslər və hadisələr hər biri özü üçün spesifik konyuktura yaradır*. Məsələn, hakimiyyətə kimin seçilməsi, yeni – vaxtından qabaq seçkilər, dövlət başçısının istefası, quraqlıq, müharibə, ixtişaşlar, aclıq, kredit biletlərinin kütləsi, pul dövriyyəsinin hərəkəti, ticarət dövrləri və s. kimi hadisələr qiymət sferasına dövlətin mütləq əl gəzdirməsini qaçılmaz edir. Fransızlar isə belə hesab edir

ki, *konyuktura yalnız xarici vəziyyətlə yaranan gücdür, insan işidir, müvafiq prosesləri müşayət edir.* Məsələn, monopolistlər qiymətlər üzərində nəzarəti ələ alıb, onları bazar tələbatlarına müvafiq dəyişilmələrinə imkan vermir və öz maraqlarına tabe etdirirlər. Məncə, qlobal iqtisadiyyatda konyuktura hər iki baxışın məcmusunu özündə əks etdirir. Çünki əsl həqiqətdə qiymətlər endogen və ekzogen faktorların məcmusu kimi meydana çıxır. Məhz postsovet respublikalarının təcrübəsi də bunu sübut edir. Məsələn, Azərbaycanda dünya bazarında neftin qiyməti qalxanda, hökumət milli bazarda da enerji daşıyıcılarının qiyməti qaldırdı. Bu, bilavasitə ingilis baxışına görə belə olmalı idi. Amma indi neftin qiymətinin enməsinə baxmayaraq, hökumət daxili bazarda enerji daşıyıcılarının qiymətini aşağı salmır. Bu isə artıq fransız baxışıdır. Göründüyü kimi, Azərbaycanda ikiqat konyuktura siyasəti aparılır. Bu siyasətin nəticəsində *beynəlxalq iqtisadi böhranın və iqtidarın yanlış siyasətinin nəticəsində dövlət büdcəsinin kəsiri bilavasitə ailə büdcələri hesabına kompensasiya olunur ki,* bunun nəticəsində vətəndaşlar var-yoxdan çıxır. Unutmaq olmaz ki, konyuktura siyasəti qısamüddətli effektlidir və dərhal da böhrana düşür. Konyuktur böhran isə kasıbları bir az da kasıblaşdırır, varlıları isə daha da varlandırır, nəticədə ictimai ədalət sarsılır və cəmiyyət ifrat təbəqələşmə ilə sosial qarşıdurmaya sürüklənir. Postsovet iqtidarlarının pulla bağlı konyuktur siyasəti də bu baxımdan qüsurludur və ictimai ədalətlə bir araya sığmır. Postsovet iqtisadi məkanında demək olar ki, heç bir respublikada konyuktur siyasətində *indeksasiyanın* həyata keçirilməsi ilə bağlı aydın siyasi xətt yoxdur. Xüsusən, iqtisadi inkişaf və artım olan bir yerdə indeksasiya qiymətlərin qalxması şərtində əmək haqqının buna müvafiq qaldırılmasını tələb edir. Əslində indeksasiya inflyasiyanı artırır, amma əvəzində vətəndaşların həyat səviyyəsini sabit saxlayır, bir çox hallarda isə yaxşılaşdırır. İqtidarların indeksasiya siyasəti olmadığından, *qiymətlərin latent yüksəlməsində* vətəndaşların həyat səviyyəsinin pisləşməsinin qarşısını ala bilmir və ya bunu istəmir.

Postsovet hakimiyyətlərin *kredit siyasəti* də qüsurludur. Kredit kapitalizmdə yüksək gəlirli istehsalı təşkil etmək üçün geniş tətbiq olunur və yuxarıda da qeyd etdiyim kimi, kredit kapitalist ruhunun

əsas əlamətlərindəndir. Amma bunun əksinə, *daxili iqtisadi uğursuzluqları ört-basdır etmək və ya korrupsiya yolu ilə mənimsəmək və hətta infrastrukturun yaradılmasına, o cümlədən daşınmaz əmlaka sərf edilməsi, yəni borc yaradan kreditlərin alınması kapitalizmin ruhuna və dövlətin maraqlarına ziddir.* İqtidarların kredit siyasəti gəlirli istehsal sahələrinin yaradılmasına və ya struktur dəyişilmələrə sərf edilmədiyindən, qüsurludur və xarici borclanmanı artırmağa – xarici asılılığa gətirib çıxarır.

Bölgünün ən mühüm nəticəsi dövlətin *maliyyə vəsaitlərinin* yaradılmasıdır. Maliyyə ictimai məhsulun birgə bölgüsünü, milli gəliri, maddi əməyi – ÜDM və ÜMG əlaqəsini ifadə edir. Maliyyə o zaman yaranır və artır ki, pulun hərəkəti müstəqilləşir. Pulun hərəkətini isə birjalar təmin edir. Bazar iqtisadiyyatında maliyyə birjalarsız funksiyalaşa bilməz. Birjalar yalnız maliyyələşdirmənin aksioner səhmdar forması deyil, həm də qiymətli kağızlarla birlikdə kapitalın dinamikasını və sahibini dəyişdirir, vətəndaşların davamlı olaraq siniflərə bölünməsinin qarşısını alır və sinifləşməmiş kapitalizmi – bazar iqtisadiyyatını meydana çıxarır ki, bu da cəmiyyəti sinfi mübarizələr müstəvisindən çıxarır. Bu gün postsovet məkanında ciddi məhsul birjasının olmaması bir tərəfdən istehsalı proqnozlaşdırmayan vəziyyətə gətirərək məhsulun kortəbii mübadiləsinə səbəb olur, bu da *xaotik qiymətlər sistemini* yaradır, digər tərəfdən monopoliyanın yaranmasına zəmin hazırlayır. *Birjaların yaranmaması monopolistlərə bazar qiymətlərini nəzarət altında saxlamağa və bazarın tələbatı ilə deyil, öz maraqlarına uyğun qiymətlər müəyyən etməyə imkan verir*. Bunun da nəticəsindən daha çox sadə xalq kütləsi əziyyət çəkir.

Bazar iqtisadiyyatında bölgü vasitəsi kimi yalnız pul yox, həm də *qiymətli kağızlar* müstəsna rol oynayır. C.S.Mill belə hesab edir ki, «Dövlətin qiymətli kağızları milli sərvətin hissəsi hesab edilə bilməz». Qiymətli kağızlar əslində abstrakt kapitalın daşıyıcısı olduğundan, çox vaxt konkretləşmədə məhv ola və ya dəyərini azalda bilər. Keçmiş SSRİ zamanı buraxılmış qiymətli kağızların SSRİ dağılan kimi heç bir dəyər ifadə etməyən kağıza çevrilməsi faktı bunu bir daha sübut edir. Digər tərəfdən, qiymətli kağızlar – borc

yaratdığından, onların həcminin artması borcun artmasını stimullaşdırdığından, ən yaxşı halda qiymətli kağızlar özləri ilə gətirdikləri borcları silməkdə əhəmiyyət kəsb edə bilər. Qiymətli kağızlar bütün çatışmazlıqları ilə yanaşı həm də müsbət iqtisadi rol oynayır. Xüsusən, *qiymətli kağızlardan düzgün istifadə kapitalizmin mahiyyətində köklü dəyişikliklər etmişdir*. Belə ki, qiymətli kağızlar bir tərəfdən fiktiv kapitalın yaranmasını şərtləndirir, digər tərəfdən iqtisadi bürokratiyanı yaradır. *Qiymətli kağızlar bazarı olmadan bazar iqtisadiyyatına keçmək mümkün deyil.* Fiktiv kapital olmayan yerdə *azad iş adamları* təbəqəsi meydana çıxmır, başqa sözlə, iqtisadi inkişaf baş vermir. Fiktiv kapitalın yaranması ilk növbədə *kapitalı şəxsizləşdirir, kapitalisti kapitaldan, sonuncunu da funksiyasından ayırır, daha çox vətəndaşa kapital sahibi olmaq imkanı verir, kapital üzərində nəzarəti təmin etməyə, kapitalın yaratdığı imtiyazları ləğv etməyə, kapitaldan şəxsi məqsədlər naminə sui-istifadənin qarşısını almağa şərait yaradır.* Bununla da kapitalın istismar vasitəsi olması aradan qalxır. Fiktiv kapital yaranmadıqca, postsovet respublikalarında kapital təsərrüfat və əmlak funksiyası daşımağa meyl edəcək ki, belə kapitalın artımı və inkişafı isə nonsesdir. Fiktiv kapital *avtoinvestisiyalaşdırmaya* təşviq edəcək və nəticədə xarici kreditlərə tələbat azalacaq, bu da öz növbəsində xarici borclanma ilə bağlı problemlərin yaranmasının qarşısını alacaq. Qeyd edim ki, fiktiv kapital ailə büdcəsinə faiz şəklində gəlirlərin daxil olmasına imkan verdiyindən, daha layiqli ictimai yük daşıyır.

İqtidarların xarici borca üstünlük verib, daxili borclanma yaratmaması da çox ciddi iqtisadi və siyasi nəticələrə səbəb olur. Belə ki, səhm və dövlət istiqrazının olmaması bir tərəfdən dövləti xarici kreditorlardan asılı vəziyyətə salır və nəhəng maliyyə vəsaitini xaricilərin əlinə keçirir, digər tərəfdən *vətəndaşların daxili kapital əldə etmə və bütünlükdə kapital yığımı imkanını məhdudlaşdırır.*

Qiymətli kağızlar bazarı həm də çox ciddi sosial və siyasi nəticələr doğurur. Bu günümüzün ən geniş yayılmış sosial xəstəliyi rüşvətdir. *Rüşvət - idarəetmə bürokratiyasının xəstəliyidir.* Əgər ölkədə *alternativ bürokratiya* yoxdursa, onda idarəetmə bürokratiyasına axın güclənir və bürokratikləşmənin özünün rüşvətlə for-

malaşması prosesi yaranır ki, bu da rüşvətin normaya çevrilməsinə səbəb olur. Əksinə, *iqtisadi bürokratiyanın yaranması idarəetmə bürokratiyasında resursların artması ilə bağlı gərginlik azalır və bu iki bürokratiya arasında yaranan rəqabət şəraitində isə rüşvət böyük həcmdə azalır.*

Mübadilə öz arxasınca *əmlak* yaradır. Əmlak özündə pul vəsaitlərinin, çeklərin, veksellərin, akreditivlərin məcmusunu ifadə etdiyindən, eyni zamanda potsovet respublikalarında çeklər, veksellər geniş istifadə olunmadığından, əmlakın yaranmasında da məhdudiyyətlər əmələ gəlir. Qeyd etmək lazımdır ki, əmlak mülkiyyətə, o da öz növbəsində kapitala çevrilməklə kapital yığımında xüsusi rol oynayır. Amma proses əks istiqamətdə, kapitalın əmlaka və mülkiyyətə çevrilməsi və ya mülkiyyətin formalaşmasının zəifləməsi - kapital yığımını ləngidir. Ona görə də inkişaf etmiş dövlətlərdə bu istiqamətdə əmlakın məhdudlaşdırılması ilə bağlı zaman-zaman konyuktur siyasət həyata keçirilir. Postsovet respublikalarında isə əksinə, əhali əmlak əldə etməyə təşviq edilir.

İSTEHLAK

İstehlak istehsalın əksliyi kimi meydana çıxır və sadə dildə desək, *istehsal yaradır, istehlak tükəndirir*. Bu iki iqtisadi paradiqma biri-biri ilə sıx bağlı olduğu kimi, eyni zamanda bir-birindən fərqli yanaşma tələb edir. İstehsal kollektiv olduğundan, ya monopolist dövlət, ya da xüsusi şəxslərin *təşkiledici funksiyasını* tələb edir. Bundan fərqli olaraq, istehlak fərdidir və təşkil olunmayandır. İstehlak dolayısı ilə istehsalla əlaqəli olduğundan, yalnız dolayısı ilə təşkil oluna bilər. Bu baxımdan, iqtisadi bazisin digər bir aktivi istehlak hesab olunmalıdır. İstehlak iqtisadiyyatda istehsal qədər aktiv və bir o qədər də əhəmiyyətli məsələdir. Əslində istehlak iqtisadi inkişafın məqsədlərindən biridir və istehlak sahəsində irəliləyiş yaratmayan heç bir iqtisadi proses təqdir oluna bilməz. İstehlak o qədər mühüm iqtisadi məsələdir ki, hətta bəzi alimlər iqtisadi inkişafı, artımı və tərəqqini istehlaka görə müəyyən edirlər. İstehlakın dəyərləndirilməsi minimum əmək haqqı, istehlak zənbili və həyat səviyyəsi ilə həyata ke-

çirilməlidir. Ölkədə iqtisadi inkişaf vətəndaşların həyat səviyyəsini yüksəltmirsə, belə inkişafı pozitiv dəyərləndirmək olmaz.

İstehsal öz xüsusi qanunları olan *nizamlı* prosesdir. İstehlak heç bir qanunauyğunluğu olmayan *xaotik* prosesdir. İstehsal yığımla bağlıdır və onun artımından asılıdır. İstehlak əksinə, yığımı azaltdığından kapitalla tərs asılılıqdadır. Dövlətin iqtisadi inkişafda əsas vəzifəsi məhz istehsalla istehlak arasında əlaqəni tənzimləməkdən ibarətdir. Qeyd edim ki, əslində istehlak görünüşündən daha ciddi sosial funksiyalara malikdir. C.B.Klark «Sərvətin bölüşdürülməsi» kitabında yazır: «İnsan sərvəti, sərvət insanı yaradır – iqtisadi proses bundan ibarətdir, insanlıq – təbiət münasibətləri (istehsal – S.C.) aktiv və aqressiv münasibətdə, ikinci hissə (istehlak – S.C.) passiv qəbuledici münasibətdədir». Beləliklə, dövlət öz iqtisadi siyasətini müəyyən edərkən nəyə əsaslanmalıdır və ümumiyyətlə, dövlətin istehlak siyasəti olmalıdırmı?

Haşiyə: İstehlak sahəsi yalnız rifahın tükəndirilməsi sferası deyil, həm də istehlak nəticəsində istehsal zamanı *məhsulda kodlaşdırılmış dəyərlərin* mənimsənilmə yeridir. Bu baxımdan, xalqın nə istehlak etdiyi və necə istehlak etdiyi iqtisadi siyasətin hədəfi olmalıdır. *Keyfiyyətsiz və aşağı zövqlü məhsul istehlakçını «keyfiyyətsizləşdirir» və onun zövqünü korlayır, əhalinin sağlamlıq vəziyyətinə mənfi təsir edərək nəhəng iqtisadi xərclər tələb edir.* Özündə aqressivlik enerjisi daşıyan məhsul istehlakçını da aqressivləşdirir. Birmənalı şəkildə qeyd etməliyəm ki, *fərdi rifahı yüksəltməyən və fərdi inkişafa səbəb olmayan heç bir proses tərəqqi mahiyyəti daşımır.* Bu fikir liberal fəlsəfənin əsasına qoyulmadıqca, dünyada real ədalətli rifah cəmiyyəti qurulmayacaq.

Fərdi rifah hər bir fərdin istehlakının məcmusundan ibarətdir. İstehlak birbaşa həyat səviyyəsi, kaçıbçılıq, varlanma, bir sözlə, cəmiyyətin və ayrı-ayrı fərdlərin rifah vəziyyəti ilə sıx bağlıdır. Həyat səviyyəsi hər bir vətəndaşın hansı dərəcədə rifahla təmin olunmasını göstərir. Burada üç mühüm amil – əmək haqqı, gəlir və qiymətlər həyat səviyyəsinə təsir edən iqtisadi fəallar kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, *qiymət* çox mühüm iqtisadi amildir və cəmiyyətin forması ilə sıx bağlıdır. Mən düşünülmüş şəkildə qiymət

məsələsini istehlakla bağlı təhlil edirəm. Çünki qiymət mübadiləyə aid olsa da nəticəsinə görə istehlaka daha yaxındır. Bazar iqtisadiyyatında qiymət kapitalist iqtisadiyyatından və ya digər totalitar cəmiyyətlərdən necə fərqlənir? Hayek yazır: «Əvvəllər ayrılmış məlumat axını indi sayı artan insanların sərəncamına verilib. Onların simvolik forması bazar qiymətləri adlandırılır». Buradan da statistikanın və şəffaflığın yeni ölçüləri meydana çıxır. Qiymət yaratma funksiyası çoxmənbəlilik əldə edir. Bazar iqtisadiyyatında daimi və konkret qiymətlər olmur və buna müvafiq olaraq vətəndaşlardan fərqli əxlaqi davranış tələb olunur. *Qiymətlə əmək haqqı arasındakı əlaqə özündə istehsalla istehlak, istehsalçı ilə istehlakçı arasındakı münasibətləri əks etdirir*. Dövlətin bu əlaqələrə müdaxiləsi ilə bu təbii münasibətlər pozulur. Əmək haqqı ilə qiymət arasındakı təbii əlaqə siyasi iqtidarların əlində ciddi siyasi alətə çevrilir. A.F.Hayek yazır: «Mərkəzləşdirilmiş bilgilərin sosial sistemində yalnız bilavasitə qiymətlərlə çoxlu sayda adamın avtonom fəaliyyətini koordinasiya etmək olar…qiymət sistemini informasiya vasitəsi ilə istənilən sosial dəyişilməni qeyd etmək üçün mexanizm kimi başa düşmək lazımdır. Dondurulan qiymətlər şəraitində dəyişikliklər yaradan güclər təzahür etmir». Keçmiş SSRİ-nin təcrübəsində qiymətlərin uzun illər dondurulması dəyişikliklər yaradan güclərin yetişməsinə imkan vermədiyindən, bu dövlət inkişafdan qaldı və sonra da labüd olaraq dağıldı. İndi postsovet respublikalarında vətəndaşların *avtonom fəaliyyətini koordinasiya* etmək məqsədi ilə analoji siyasət aparılır. Belə sosial eksperimentlər isə dövləti gec-tez dağılmağa gətirib çıxaracaq. Qiymət idarəetmə vasitəsi kimi çıxış etmə imkanına malik olduğundan, *totalitar cəmiyyətdə qiymətlər istehlakçıların idarə olunması vasitəsi kimi çıxış edir*. Bazar iqtisadiyyatında isə daha çox istehsalçı qiymətlər vasitəsi ilə idarə olunur. Hayek yazır: «Qiymətlər dərhal istehsalçıya istehsal prosesində hansı vasitədən istifadə etməyi tələb edir – qiymət istehsalçını idarə edir…bazar qiymətləri oyunlarında bilavasitə hər bir adam üçün şansların artması ilə cəmiyyətin çiçəklənməsi və rifah vəziyyətinin artmasına səbəb olur». Qeyd etmək lazımdır ki, qiymət sistemi cəmiyyətin tipindən asılıdır. Dövlət monopolist kapitalizmdə qiymətlər daha çox istehsalçıların,

sosializmdə istehlakçıların, bazar iqtisadiyyatında hər ikisinin xeyrinə müəyyənləşir. Bundan fərqli olaraq, milli dövlətin qiymət sistemi qlobal iqtisadi əlaqələrdə eyni qaydalarda müəyyənləşmir. Hayekə görə, «əgər məhsul, insanlar və pul dövlətlərarası sərhədi azad keçirsə, ayrıca bir dövlət müxtəlif malların qiymətlərinə təsir etmək imkanlarını itirir». Amma qeyri-azad iqtisadi münasibətlərdə dövlət gömrük və vergi mexanizmlərindən istifadə edərək *konyuktur qiymətlər* müəyyən etməyə cəhd edir ki, postsovet respublikalarının əksəriyyətində də mövcud qiymətlər məhz konyukturaya məruz qalmışdır. Qiymətlərə həm istehsal, məsələn, məhsuldarlıq, həm də istehlak qabiliyyəti təsir edir. Klarka görə, «qiymətlərin müəyyən edilməsində istehlak zənbilinin son artımı həlledici rol oynayır». Qiymətlərin sabit qalmasında, amma gəlirlərin azalmasında istehlak zənbili bahalaşır ki, bu da vətəndaşların əleyhinə işləyir.

Həyat səviyyəsi əmək haqqının qiymətə nisbətində, gəlir isə pulun alıcılıq qabiliyyətində üzə çıxır. Bu nisbətdə bir çox variantlar üzə çıxır. Birincisi, əgər pulun alıcılıq qabiliyyəti sabit qalırsa, amma əmək haqqı qiymətlərlə birgə artırsa, onda həyat səviyyəsində dəyişilmə baş vermir, sadəcə inflyasiya artır. İkincisi, əgər qiymətlər qalxır, əmək haqqı sabit qalırsa, onda həyat səviyyəsi pisləşir. Üçüncüsü, əmək haqqı qalxır, qiymətlər sabit qalırsa və ya sabit əmək haqqı şəraitində qiymətlər enirsə, həyat səviyyəsi yaxşılaşır. Postsovet respublikalarının heç birində son 16 ildə ya qiymətlər qalxıb, əmək haqqı sabit qalıb, ya qiymətlər əmək haqqı ilə birgə qalxıb və bu zaman əmək haqqı artımı qiymət artımından həmişə aşağı olub. C.S.Mill yazır: «Qiymətlərin ümumi və daimi artımı və ya başqa sözlə, pulun dəyərdən düşməsi kiməsə yalnız başqalarının hesabına xeyir gətirə bilər». Məhz bu hal zəhmətsiz gəlirə meyl edənləri pulun qiymətdən salınması ilə bağlı tədbirlərə əl atmağa sövq edir. Bu günədək bir dəfə də olsun qiymətlərin əmək haqqına görə enməsi və ya əmək haqlarının qiymətə görə qalxması müşahidə olunmayıb, bu isə o deməkdir ki, bu siyasi coğrafiyada son 16 ildə heç vaxt vətəndaşların həyat səviyyəsi yüksəlməyib. Bu həm iqtisadi inkişaf, həm də tənnəzzül dövrlərində belə olub. Həyat səviyyəsi yüksəlmədiyindən, istehlak da artmayıb. Unutmaq olmaz ki, pul siyasəti

bazarın tələbinə uyğun tez-tez dəyişməlidir. İnflyasiyanın qarşısını almaq üçün «bahalı pul» siyasəti həyata keçirilməlidir.

Dövlət monopoliyasında olan müəssisələrin məhsulları ilə xüsusi monopoliyada olan məhsulların qiymətləndirilməsi eyni prinsiplərə tabe olmur. Fransada müharibədən sonrakı iqtisadi inkişaf təcrübəsi göstərir ki, məhsullara qiymət dövlət monopoliyasında olan müəssisələrdə iqtisadi mülahizələrlə yox, əksinə, cari siyasətlə bağlı qoyulmuşdur. Amma bunun əksinə, xüsusi monopoliyada olan məhsullara qiymət məhz iqtisadi mülahizələrə əsaslanmışdır.

Unutmaq olmaz ki, istehlakın artması yalnız həyat səviyyəsini yüksəltmir, həm də *mədəni səviyyəni* yüksəldir, *demokratikləşməni genişləndirir* və cəmiyyəti *yeni tarixi mərhələyə* hazırlayır.

Bir qayda olaraq, istehlak sahəsində baş verənlər digər sahələrdəki vəziyyəti də az-çox özündə ifadə edir. Belə ki, əgər istehlak artmayıbsa, onda ÜDM-də artmayıb. Hətta ayrılıqda ÜDM artsa belə, bu həyat səviyyəsinin yüksəlməsinə səbəb ola bilməz. Bunun üçün həm də ADG artmalıdır. Burada digər əlavə bir faktor var ki, həmin faktor nəzərə alınmayanda ÜDM artması və ADG çoxalması həyat səviyyəsini artırmır. Bu da əhalinin kütləsidir. Belə ki, hətta ÜDM azalanda əhalinin azalması həyat səviyyəsinin yüksəlməsinə səbəb olub. Bəzi postsovet ölkələrində çox qısa zaman kəsiyində vətəndaşların həyat səviyyəsinin nisbi yüksəlməsi kütləvi imiqrasiya ilə – Rusiya və Avropaya köçlə bağlı olmuşdur. İndi səhv miqrasiya siyasəti nəticəsində bu ölkələrə Afrikadan və Asiya ölkələrindən – xüsusən, Çin, Hindistan və Pakistandan əcnəbilərin axını başlayıb ki, bu da bu ölkələrdə həyat səviyyəsini günbəgün aşağı salır.

C.Dyui «Cəmiyyətin problemləri» adlı kitabında yazır: «-iqtisadi gücə «təbiilik» xasdır və «təbii hüqüqün» təzahürü kimi və siyasət iqtisadiyyatdan bununla fərqlənir. Siyasi institutlar insan tərəfindən yaradılır». Yuxarıda qeyd etdim ki, iqtidar strategiyasında siyasi-iqtisadi baxışlar iqtisadi siyasəti müəyyən edir. Belə ki, strategiyada qeyd edilmiş K.Marksın «Ölkədə təsərrüfat modernləşəndə, kapitalizm möhkəmlənəndə və burjuaziya yaranda siyasi sistemin transformasiyası labüddür» fikri feodalizmdən kapitalizmə keçidi izah edir. Lakin, Marksın da ağlına gəlməyən və dünyada analoqu

olmayan *sosializmdən kapitalizmə keçid tamamilə fərqli siyasi transformasiyalar yaradır ki,* bu istiqamətlərdən biri də heç şübhəsiz totalitarizmə keçiddir. Marksın özü kapitalizmin başlanğıc dövrünü «vəhşi kapitalizm» adlandırmışdı. Çünki feodalizmdən kapitalizmə keçiddə ictimai rifahın ədalətli paylanma mexanizmləri yaranmadığından, hakimiyyətlər şəffaf olmadığından, ən vacibi isə hüquq və azadlıqlar dərk və qəbul edilmədiyindən, bu keçid qanlı müharibələr və cinayətlərlə müşayət olunmuşdur. Dövlət isə fəhlə əməyinin istismarında kapitalistin əlində zor aparatı kimi çıxış etmişdir. Müasir dünyada müharibələrin qarşısını alan beynəlxalq institutlar mövcud olduğundan, transformasiya mərhələsinə qədəm qoyan ölkələrdə ən çoxu lokal münaqişələr meydana çıxır. Amma ilkin kapital yığımını müşahidə edən cinayətkar yol öz aktuallığını saxlayır. Bu gün müasir postsovet respublikalarında müşahidə etdiyimiz mənzərə də ilkin kapital yığımı dövrünə uyğundur. Hansı ki, Qərb yalnız bu dövrün problemlərindən yüz ildən sonra azad ola bilmişdir. *Postsovet məkanında sərvət uğrunda mübarizə formaca müasir olsa da, mahiyyətcə vəhşi kapitalizmin klassik üsulları ilə həyata keçirilir.*

Nəhayət, sonda kapitalist iqtisadiyyatının digər bir qanunauyğunluğu haqqında danışmaq lazım gəlir. Kapitalist iqtisadiyyatının əsas qanunauyğunluqlarından biri onun dövrü olaraq *böhrana* düşməsidir. Kapitalizm böhranı müxtəlif formalarda meydana çıxır. Bu günlər bütün dünyada ciddi problem yaradan qlobal böhran da daxil olmaqla kapitalizmin əsas böhranlarından biri kredit böhranıdır. *Kredit böhranı* borcların müəyyən təhlükəli həddə kimi artmasından yaranır. Borclar həm xüsusi sektorda, həm də dövlətdə yarana bilər. Bir qayda olaraq dövlətin xarici borclanması, daxildə isə xüsusi sektorun borclanması böhran yaradır. Borcların kredit böhranı yaratması həmin borcların müddəti ilə bağlıdır. Belə ki, qısa müddətli və uzun müddətli borclar mövcuddur. Qısa müddətli borcların böhran yaratmasını proqnozlaşdırmaq bir o qədər çətin deyil. Amma uzun müddətli borclarda mənzərə dəyişir. Kredit böhranı ilk növbədə kredit sistemində deqradasiya və dağılmaya səbəb olur. Bunun nəticəsində bank sistemi çökür. İkincisi, səhmlərin kursu kəskin şəkildə aşağı düşür, nəticədə də faizlər aşağı düşür. Faizlə-

rin azalması ilə istehsal sferasında maliyyələşmə problemi üzə çıxır. Böhran qanunauyğunluq təşkil etdiyindən, böhrandan çıxmanın da öz qanunauyğunluqları vardır. Belə ki, kredit böhranında ilk növbədə gəlir vergiləri azaldılır, minimum vergi tətbiq olunur, kreditlərin həcmi artırılır, «ucuz pul» siyasəti həyata keçirilir.

Kapitalizmin digər bir böhranı *xroniki struktur böhranlarıdır*. Ona görə də iqtisadi inkişafın ayrılmaz yol yoldaşı olan struktur dəyişilmələri həyata keçirilərkən bu amil nəzərə alınmalıdır. Burada vaxt yenidən kapitalizm ruhunun əsas dəyəri kimi meydana çıxır. Belə ki, *struktur dəyişilmələrdə əsassız olaraq ləngimələr və əsassız olaraq vaxtın uzadılması və ya struktur dəyişilmələri vaxtında həyata keçirməmək, o cümlədən hər hansı bir strukturun daxilində problemlərin vaxtında həll edilməməsi nəticəsində xroniki struktur böhranlar yaranır.*

Kapitalizmin digər bir böhranı da *istehsal və təkrar istehsal böhranıdır*. AFR 1966-67-ci illərdə məhz təkrar istehsal böhranını yaşamışdır. Təkrar istehsal böhranı istehlak qabiliyyətinin aşağı düşməsi ilə bağlıdır. Əslində korrupsiyanın iqtisadiyyata vurduğu ən böyük zərbəsi də məhz istehlak qabiliyyətinə mənfi təsir göstərməsi ilə bağlıdır. Kapitalist böhranı həm də iqtisadi doktrinanın böhranı, dövlətin iqtisadi siyasətinin böhranı və ənənəvi sahələrin böhranına aid etmək lazımdır. Qeyd edim ki, bazar iqtisadiyyatının klassik kapitalizmdən bir fərqi də dövlətin kapitalist böhranlarından xalqın sosial rifahının kəskin pisləşməsinin qarşısını alan önləyici tədbirlər görməsidir. Bu qısa təhlildən də görünür ki, postsovet dövlətlərin iqtidarlarının iqtisadi siyasəti eyni vaxtda sürəkli davam edən *polimorf böhranın* yaranmasına şərait yaradır və böhranlı dövrlərdə vətəndaşların sosial müdafiəsinə yönəlmiş bəlli bir siyasət olmadığından, xalq və dövlət ciddi təhlükə qarşısında qalmışdır. Buna görə də bu ölkələrdə iqtisadi böhrandan çıxmaq üçün ya iqtidarlar, ya da onların iqtisadi siyasəti təcili dəyişilməlidir.

X FƏSİL

«POSTSOVET»LƏR HARDADIR?!

«İnsanları Allah idarə etməyəndə, onda onları tiranlar idarə etməlidir».

Vilyam Penn

«Meşşan (ictimai görüş dairəsi olmayan və öz maraqları ilə yaşayan) – şeytan onun boğazından yapışanda da fərqinə vara bilmir».

Höte

«Harda olmağınızın sizin üçün fərqi yoxdursa, deməli, siz azmayıbsınız».

Runun qanunu

Nümunə kimi təhlil etdiyimiz iqtidar strategiyasının xətti inkişafının növbəti və sonuncu paradiqması siyasiləşmə kimi təqdim olunur.

İqtidar strategiyasına həsr olunmuş məqalədə siyasət anlayışına da hissəvi yanaşılmış və əslində bu cür yanaşma siyasətin total-radikal anlamından ciddi fərqləndiyindən, eyni yanaşma ilə postsovet respublikalarında siyasiləşmə sahəsində ciddi böhranlı vəziyyət yaranmışdır. B.Rassel «Hakimiyyətin sosial analizi» adlı əsərində «idarəçiliyin pələng kimi qorxunc olmaması üçün nə etmək lazımdır» sualına cavab olaraq yazır: «Tarixi və insan təbiətini öyrənənlər üçün aydındır ki, demokratiya problemi tam həll etməsə də onun

ən azı həllinin əsasıdır. Problemin tam həlli ondan ibarətdir ki, siyasətdə dolaşıqlıqdan qaçasan». Buna görə də biz hansı anlayışdan istifadə ediriksə, mütləq onun total-radikal anlamından çıxış etməliyik. Xüsusi ilə qeyd etməyi lazım bilirəm ki, ictimai inkişafın bütün problemləri məhz şüurun dolaşıqlığından meydana çıxır. Bir qayda olaraq iqtidarlar düşünülmüş şəkildə ictimai şüuru dolaşıqlığa salmağa cəhd edirlər, çünki bir məşhur məsəldə deyildiyi kimi, bulanıq suda balıq tutmaq asandır. Məlumdur ki, siyasi leksikonda işlədilən terminlər ya orijinaldakı kimi, ya da onun yerli dildəki sinonimləri ilə əvəzlənməklə işlədilir. Azərbaycan siyasi leksikonunda siyasət sözü «politika» sözünə sinonim kimi işlənir. Amma «politika» siyasət anlamının yalnız dar mənalarından biridir. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun hazırladığı və 1985-ci ildə nəşr etdirdiyi Ərəbcə-Farsca lüğətində ərəb dilindən bizim dilimizə keçmiş siyasət sözünün dörd cür mənası qeyd olunur: 1. Məmləkəti idarə edən və beynəlxalq münasibətlər sahəsində hər hansı bir dövlətin fəaliyyəti; 2. Bir dövlətin, partiyanın, idarə heyəti və ya şəxsin öz işində tutduğu müəyyən istiqamət; 3. Hiylə, kələk; 4. Cəza, cəzalandırma; Tarixin müxtəlif dövrlərində müxtəlif rejimlər məhz siyasətin çoxmənalılığından istifadə edərək repressiv idarəçilik formaları yaratmağa nail olmuşlar.

M.Veber «Siyasət, peşə və ad» adlı əsərində siyasətin istənilən rəhbərlik kimi başa düşüldüyünü qeyd edir. Amma biz siyasiləşmədən danışarkən burada Veberin təbirincə desək, yalnız «dövlət rəhbərliyi» haqqında məsələyə münasibət bildirəcəyik.

Haşiyə: Ümumiyyətlə, anlayışların dəqiq və yerində işlədilməsi, onların hər cür ikimənalıqdan uzaq universal mənalarına üstünlük verilməsi siyasiləşmənin ən mühüm problemlərindəndir. F.A.Hayek bununla bağlı yazır: «Bizim üzləşdiyimiz çətinliklər sadəcə ondan ibarət deyil ki, mövcud siyasi terminlər bilə-bilə ikimənalılıqla fərqlənir, hətta onda da deyil ki, müxtəlif qruplar üçün bir və eyni anlayış bir-birinə əks məna ifadə edir. Daha əhəmiyyətlisi odur ki, bir və eyni sözün işlədilməsi həqiqətdə bir araya sığmayan və bir-biri ilə düşmən olduğuna inanan insan birliyi üçün təsirli təsəvvür yaradır». Qeyd etmək istəyirəm ki, ictimai fikirdə dolaşıqlıq-

dan qaçmaq naminə müxtəlif sferalarda işlənən terminlərdə həm də eyni mənalılıq – paralellik prinsipi - rəhbər götürülməlidir. Belə ki, əgər siyasətdə liberalizmdən danışırıqsa, iqtisadiyyatda bazar iqtisadiyyatından, əgər klassik kapitalizmdən danışırıqsa, buna uyğun siyasətdə totalitarizmdən – iqtisadiyyatda dövlət və qeyri-qanuni monopoliyadan danışmalıyıq.

İqtidarın siyasəti strategiya haqqındakı məqalədə belə təqdim edilir: «Demokratik inkişafın müvafiq yeri və Azərbaycan reallıqları üçün məqbul olan modeli elmi baxımdan müəyyən edilmədiyi bir şəraitdə siyasi rəhbərlik çox vaxt həm nəzəri, həm də praktik məsələləri həll etməli olur».

Haşiyə: Məsələnin bu şəkildə qoyulması hər şeydən öncə siyasətin mahiyyətini müəyyən edən, politologiyada uzun əsrlərdir müzakirə olunan siyasi etika məsələsini önə çıxarır. Politologiyanın banilərindən Byörk yazır: «Filosofun vəzifəsi – dövlətin həqiqi məqsədini göstərmək, siyasətçinin vəzifəsi – bu məqsədə çatmaq üçün vasitələri tapmaq və onlardan səmərəli istifadə etməkdir. Siyasi etika isə hər iki məsələdə kök salıb». Bu baxımdan strategiyada qeyd edildiyi kimi, iqtidar həm alimlərin və filosofların əvəzinə nəzəri məsələlərlə və həm də siyasi qüvvə kimi, praktik məsələlərlə paralel məşğul olursa, onda iqtidar strategiyası siyasi etikanın obyektinə çevrilir və biz də siyasi etika baxımından iqtidar strategiyasına qiymət verməK məcburiyyətindəyik. İqtidarlar hər şeydən öncə nəzəri sahədə siyasiləşmə – demokratikləşmə ilə bağlı, xüsusən, demokratiyanın başqa dövlət formalarından fərqli, həqiqi məqsədini müəyyənləşdirməli, bu məqsədə çatmaq üçün düzgün vasitələr tapmaq vəzifəsini həll etməli və təcrübədə səmərəli fəaliyyət göstərməyə cəhd etməli idi. Postsovet respublikalarının siyasi hakimiyyət mənsubları üçün ümumi qüsur demokratikləşmə siyasətinin nəzəri əsasları, aydın demokratik məqsədi və bu məqsədə aparacaq effektli vasitələri haqqında aydın mövqenin və hərtərəfli nəzəri bazanın olmamasıdır. Düzdür, biz iqtidar təmsilçilərinin tez-tez klassik demokratiyanın ayrı-ayrı tezislərinə müraciət etməsinin, hətta demokratik prinsipləri şüarlar şəklinə salaraq küçələrdən asmasının şahidi oluruq, amma bütün bunlar bir tərəfdən iqtidarların siyasi təcrübəsi

ilə əlaqələndirilmir, digər tərəfdən isə, bəzən bu tezislərdə demokratiyanın elə ibtidai və ya ikimənalı anlayışlarına istinad edilir ki, həmin anlayışlar ictimai şüurda çaşqınlıq yaradaraq xalqı demokratiyanın əleyhinə kökləyir. Qeyd etmək lazımdır ki, demokratiyanın ibtidai anlayışı ilə onun müasir anlamı arasında fərq elə demokratiya ilə totalitarizm arasındakı fərq qədərdir. Hətta müasir inkişaf etmiş demokratik ölkələr belə, demokratiyanın kamil formasından o qədər uzaqdır ki, demək olar ki, müasir demokratiya C.Dyuinin qeyd etdiyi kimi, «təşkilatlanmamış döl vəziyyətindədir» demokratiya prosesdir və buna görə də demokratiyaya proseslərin tabe olduğu ümumi qanunauyğunluqlardan yanaşmaq lazım gəlir. Başqa sözlə, konkret hallar, bir-biri ilə rabitəsi olmayan faktlar, demokratik proses haqqında heç bir məna ifadə etmir. Hər bir proses hər şeydən öncə meyllərlə xarakterizə olunur. Bütünlükdə demokratik inkişafın üç tarixi meyli vardır – genişlənmə, dərinləşmə və yayılma. Genişlənmə üfüqi xətt üzrə demokratik prinsiplərin ictimai və dövlət həyatının müxtəlif sahələrini əhatə etməsini ifadə edir. Əgər başlanğıcda, Qədim Roma quldarlıq respublikasında demokratiya yalnız quldarların – azad insanların – siyasi həyat tərzini ifadə edirdisə və yalnız dövlət idarəetməsinin məhdud sferaları ilə bağlı idisə, indi demokratikləşmə dövlətin və cəmiyyətin ən intim sahələrini və bütün sosial təbəqələrini əhatə edir. Məsələn, orduda həmkarlar təşkilatlarının yaradılması, dövlət sirri anlayışının nisbi məna daşıması, rəsmi dövlət idarəçiliyinin formal mahiyyət kəsb etməsi, ən müxtəlif azlıqların çoxluqla bərabər hüquqlar əldə etməsi, müxtəlif funksiyaların əlaqələnməsi və əks qüvvələrin birgə əməkdaşlığı, rəsmi ilə qeyri-rəsminin bərabərliyi və s. kimi sahələrdə baş verən dəyişilmələr bu qəbildəndir. Buradan da iqtisadiyyatın, siyasətin, cəmiyyətin, fərdin, dövlətin paralel liberallaşması ilə bağlı tələb meydana çıxır. Demokratiyanın dərinləşməsi şaquli xətt üzrə demokratik prinsiplərin, dəyərlərin, prosedurların dəqiqləşdirilməsi, onların məzmununun dolğunlaşdırılması, təkmilləşdirilməsi və s. kimi prosesləri özündə ifadə edir. Bu gün Platonun və ya Aristotelin demokratiya haqqındakı baxışları əslində öz dövrü üçün nəhəng inqilabi yenilik hesab edilsə də, müasir dövr üçün uşağın dünya haqqındakı təsəvvürləri qədər metafizik

və bir o qədər də bəsitdir. İndi demokratiya anlayışı müasir elmlərdən – psixologiyadan, kibernetikadan, siyasi antropologiyadan, geopolitikadan və s. bu kimi elmlərdən əldə edilmiş yeni elmi nəticələr əsasında daha da dolğunlaşmış, özünün fəlsəfi mənasına yeni elmi və empirik çalarlar əlavə etmişdir. Demokratiyanın yayılması meyli özündə qlobalizasiya prosesinin ideoloji bazası kimi çıxış etməsi ilə bağlıdır və bu proses nəticəsində demokratiya özünü dünyaya qapamağa cəhd edən bütün xalqları, ölkələri və kontinentləri bir-birinin ardınca fəth edir. Məhz buna görə də, yaxın keçmişimizin aparteid Afrikası bu gün demokratik seçki mübarizəsinin episentrlərindən birinə çevrilib. Yaponlar və ingilislər kimi dünyanın ən mühafizəkar xalqları demokratikləşmədə başqa xalqlara nümunə olmaqdadır.

Beləliklə, biz bu fəsildə demokratikləşmənin postsovet cəmiyyətləri ilə bağlı bəzi spesifik problemlərini qısa da olsa şərh etməyə cəhd edəcəyik.

Siyasətin ictimai və siyasi həyat üçün müstəsna əhəmiyyətini nəzərə alaraq, qısa da olsa «siyasət nə deməkdir» sualına şərh verməyi lazım bilirəm. Hələ Aristotel öz dövründə insanı siyasi varlıq kimi qəbul edirdi. Hətta insana «siyasi heyvan» kimi qiymət verərək insanın heyvandan yalnız siyasi həyat tərzinə görə fərqləndiyini qeyd edən mütəfəkkirlər də vardır. Buradan da biz siyasətin fəlsəfəsini insanı heyvandan fərqləndirən fəaliyyət sahəsi kimi təyin edə bilərik. Amma unutmaq olmaz ki, siyasət həm də insanı heyvana çevirən, bəzi hallarda isə, insan psixologiyasının plastikliyinə görə, onu heyvandan da aşağı vəziyyətə salan bir fəaliyyət sahəsidir. Bu baxımdan siyasi inkişaf dedikdə, biz fərdi daha da insan edən, onu həqiqətən bütün yaranışların əşrəfi səviyyəsinədək kamilləşdirən rasional ictimai prosesləri nəzərdə tuturuq.

Qeyd etmək lazımdır ki, strategiyaya həsr olunmuş məqalədə demokratikləşmə termini ilə siyasiləşmə bir-birinə sinonim kimi işlədilir. Amma əsl həqiqətdə siyasiləşmə ilə demokratikləşmə eyni mənalı deyil. Buna görə də biz həmin məqalədə siyasiləşmə ilə bağlı paradiqmanı «demokratikləşmə siyasətini» ifadə etdiyini qəbul edirik. Burada biz, problemə bu konteksdən – postsovet iqtidarlarının fəaliyyətinə demokratikləşmə siyasəti konteksindən yanaşmağa

cəhd edəcəyik. Qeyd edim ki, bu zaman həm nəzəri, həm təcrübi həqiqətlərə müraciət etmək lazım gəlir. Çünki iqtidar strategiyasına həsr olunmuş məqalədə etiraf edildiyi kimi, əslində iqtidar da eyni məcburiyyətlə üz-üzədir.

Haşiyə: Siyasət rasional fəaliyyət olduğundan, ağlın səviyyəsi, hakimiyyətdəkilərin şəxsi marağı, siyasi elmin inkişafı, cəmiyyətin maariflənməsi və s. kimi məsələlərlə bilavasitə bağlıdır. Nə üçün siyasət insanı heyvanlardan ayırmaq və ya onu yenidən heyvana çevirmək potensialına malikdir? Birincisi, insan ictimai varlıqdır, başqa sözlə, onun insanlığı yalnız düşdüyü ictimai mühitdə – cəmiyyətdə təzahür edə bilər. Paralel olaraq, cəmiyyət də öz növbəsində onu təşkil edən fiziki fərdlərdən asılıdır və buna görə də fərdlərsiz cəmiyyət, cəmiyyətsiz insan yoxdur. K.C.Horton «İnsan təbiəti və ictimai nizam» adlı kitabında bu qarşılıqlı asılılıqla bağlı yazır: «Cəmiyyətdə təklənmiş fərd və ya eləcə də fərddən ayrılmış cəmiyyət – abstraksiyadır, təcrübədə qeyri-müəyyənlikdir». İkincisi, fiziki fərd fiziki bədənlə şərtlənmiş varlıqdır və insanın fərd kimi başqalarının fiziki varlığından heç bir asılılığı yoxdur və buna görə də fərdilikdə insanlıq təzahür etmir. Beləliklə, məlum olur ki, insan onu heyvanlardan fərqləndirən təbiəti ilə ictimai, onu heyvanlarla bərabərləşdirən tərəfi ilə fərdidir. Sonuncu onun təbii funksiyalarına – qidalanmasına, nəsil verməsinə və s. kimi mövcudluğun sadə başlanğıclarına aiddir. Amma fərd insanlaşdıqca bir tərəfdən bu başlanğıclar sadədən mürəkkəbə və ibtidaidən aliyə doğru inkişaf edir, digər tərəfdən isə tamamilə yalnız insana aid olan yeni başlanğıc – sosiallaşma işə düşür. Üçüncüsü, fərdlə cəmiyyətin bir-birindən bu cür qarşılıqlı asılılığı təbii və sosial hakimiyyət əzmini onlar arasında məqsədə müvafiq bölünməsini tələb edir. Belə asılılıq - sosiologiyada ikiqat səbəblik adlanır. Amerika sosioloqu K.C.Horton ikiqat səbəblik haqqında yazır: «İkiqat səbəblik – hakimiyyətin fərdlə cəmiyyət arasında bölünməsinə iki bir-birindən asılı olmadan fəaliyyət göstərən səbəb kimi baxılmasıdır». İkiqat səbəblikdə cəmiyyətə məxsus hakimiyyət rəsmi-siyasi, fərdə məxsus hakimiyyət - qeyri rəsmi-ictimai formada meydana çıxır. Birincisi dövlət hakimiyyətinin – siyasi hakimiyyətin, ikincisi insan azadlıqlarının – fərdin dövlətin hakimiyyətindən kə-

narda qalan özəl hakimiyyətinin mənbəyidir. Buradan da ilkin siyasi anlayışlar – məhdudiyyətlər və azadlıqlar yaranır.

Beləliklə, bir tərəfdən fərdsiz cəmiyyət ola bilmədiyindən, dövlət hakimiyyətinin fərdin fiziki mövcudluğunun sərhədində məhdudlaşdırılması, cəmiyyətsiz fərd olmadığından, fərdin azadlığının cəmiyyətin sərhədində – hakimiyyət məhdudiyyətlərinin işə düşdüyü yerdə sərhədlənməsi tələb olunur. Fərdin özü-öz üzərində başqalarına, o cümlədən, dövlətə vermədiyi hakimiyyəti siyasətdə təbii hüquq anlayışını üzə çıxarmışdır və demokratiyanın ən sadə anlayışlarından biri də bununla bağlı olub, şəxsi həyata müdaxilənin yolverilməzliyini – təbii hüquqların toxunulmazlığını özündə ehtiva edir. Lakin fərd cəmiyyətdə mexaniki aqreqasiya kimi çıxış etmir, o cəmiyyətdə başqaları ilə, o cümlədən, müxtəlif qrup və sosial institutlarla əlaqələnərək şəxsiyyət kimi çıxış edir. Şəxsiyyət fərddən onunla fərqlənir ki, o cəmiyyətdə başqaları ilə sıx bağlanır və onun bununla şərtlənmiş sosial tərəfi təzahür edir. C.Dyuiyə görə, «şəxsiyyət cəmiyyət agentidir, onu təqdim edir, cəmiyyət isə yalnız onunla fəaliyyət göstərir».

Haşiyə: Ümumiyyətlə, totalitarizm fərdin ictimai gücə çevrilməsinə imkan verməmək üçün onu təkləməyə – başqalarından və qruplardan ayırmağa, bir sözlə, onu sosial atoma çevirməyə, bununla da onu təbii vəziyyətə – özünün heyvani başlanğıcına qaytarmağa cəhd etməklə yaranır. Demokratik cəmiyyət isə əksinə, fərdi daha çox sosial həyata bağlamağa, bununla da onun özünün sosial gücə – şəxsiyyətə çevrilməsinə çalışır. Totalitar cəmiyyətdə şəxsiyyət sadəcə imitasiya edilir. Fərd təbii və ictimai güclər qarşısında köməksiz vəziyyətinə düşdüyündən, o, öz xilasını bütləşdirmədə görür. Büt insanın özünə köməkçi kimi yaratdığı irreal abstrakt güc rolu oynayır. Sosial həyatda bütü ayrıca bir şəxsin uydurulma, irreal obrazı əvəzləyir. Ona görə də bütün totalitar cəmiyyətlərdə bütpərəstlik – şəxsiyyətəpərəstlik meydana çıxır. K.C.Hortona görə, «bütpərəstlik (və ya şəxsiyyətə pərəstiş – S.C.) rəqabət hissindən və ziddiyyətdən yox, itaətçilik hissindən doğan şəxsiyyətin imitasiyasıdır». Bu gün postsovet respublikalarında, eləcə də digər neototalitar cəmiyyətlərdə vətəndaşlarda xürafata meyl, iqtidarda isə «milli lider» obrazı

formalaşdırmaq cəhdi bütpərəstlik yaratmaqla insanlarda itaətçilik hissi aşılamaq niyyətləri müşahidə olunur.

İqtidar strategiyasına həsr olunmuş məqalədə iqtidarın nailiyyətlərinə yeni storetiplərin, yeni davranış normalarının yaradılması da aid edilir.

Haşiyə: Birincisi, hər bir siyasi rejim müəyyən sterotiplərin mövcudluğu şərtində formalaşa bilər. Bununla da sterotipləri müəyyənləşdirməklə rejimin təbiətini, rejimin təbiətindən çıxış etməklə sterotipləri müəyyən etmək olar. Totalitar cəmiyyət xüsusi sterotiplərin – ictimai həyatda passiv, irrasional qorxu içində yaşayan, ədalətsiz, insani dəyərlərə laqeyd, fərdiyyətçi, yalnız indisi ilə yaşayan, seyrək ictimai əlaqələrə meylli, maddiyatçı, özünə qapalı, düşüncə və fəaliyyətdə tənbəl, aza qane olan, haqqı tanımayan, əqidəsiz, inamsız, imansız insanların cəmiyyətidir. Buna görə də totalitarizmə meyl edən siyasi hakimiyyətlər məhz vətəndaşlarda bu keyfiyyətləri aşılamağa cəhd edirlər. Postsovet respublikalarında beynəlxalq təşkilatların tənqidinə məruz qalan bütün neqativ hallar da bu istiqamətdə həyata keçirilən daxili siyasətlə bağlıdır. İkincisi, bir çox hallarda innovasiya iqtidarların sosial xəstəliyi kimi təzahür edir və paralel olaraq vətəndaşlarda sosial xəstəlik yaratmaq üçün istifadə edilir. Buna görə də istənilən yenilikdən həm də reaksion məqsədlər üçün istifadə edilir. Bu baxımdan postsovet respublikalarında sürətli yeniləşmə siyasəti ciddi neqativ nəticələrlə müşayət olunur. Hər hansı yeniliyə uyğunlaşma baş vermədən onun tələm-tələsik cəmiyyətə tətbiqi insanları passivləşdirir, onlarda innovasiya xəstəliyi və ya ən yaxşı halda yenilikdən qaçma sindromu yaradır. Əslində neototalitarizmə keçid süni sürətlənmə fonunda baş verir. Belə ki, hər hansı yeniliyin nəticəsi uzaq olduqca həmin nəticəni görmək üçün vətəndaşlar gözləmə mövqeyi tuturlar. İqtidarlar isə vətəndaşları gözləmə mövqeyində saxlamaq məqsədi ilə süni surətdə sürəkli yeniləşmə siyasəti aparırlar. Belə ki, ölkə paytaxtının köçürülməsi, nəhəng və uzunmüddətli iqtisadi layihələr, konstitusiya və qanunlarda tez-tez həyata keçirilən dəyişilmələr, eyni yerdə müxtəlif işləri ya təkrar, ya da fərqli qaydada görmək dediklərimizin cüzi əlamətlərindəndir, hansı ki, bütün bunlar postsovet respublika-

larını demokratiyaya keçiddən saxlayan innovasiyalardan ibarətdir. Üçüncüsü, dəyişilmə istiqamətli olduğundan, həm də reaksiyalar yenilik kimi təqdim edilir. Bu gün postsovet respublikalarında sovet təcrübəsinin yeni formada cəmiyyətə təqdim olunması yenilik kimi təbliğ edilir və insanlar belə yeniliklərlə hesablaşmaqla neototalitarizmin caynaqlarına keçirlər. Dördüncüsü, yenilik insanlardan nihilizm tələb edir. Bu mənada postsovet respublikalarında vətəndaşlarda aşkar və kütləvi müşahidə olunan hüquqi nihilizmi qeyd etmək olar. Bu gün bu cəmiyyətlərdə hətta rus imperiyası dövründə müşahidə edilməmiş hüquqi nihilizm hökm sürür. Təcrübədə bu məhkəmələrin asılılığında, məmurların özbaşınalıqlarında, idarəçiliyin şəxsi iradəyə əsaslanmasında üzə çıxır. Hüququn əhəmiyyəti haqqında P.A.Holbaxın dediyi «Hüquq dövlətin qanıdır, o, dövr etmədikdə dövlət ölür» fikri ilə postsovet respublikalarına yanaşsaq, biz bu dövlətlərin, hələ ölməsə də, can verdiklərini söyləyə bilərik. Elə burada Pol Maratın başqa bir əsərinə - «Köləlik zəncirində» adlı əsərinə müraciət etmək yerinə düşür: «Hökmdarların azadlıqlara vurduğu birinci zərbə qanunları kobud surətdə pozmaları, sonra isə ümumiyyətlə, onları unutdurmalarıdır». Neototalitar cəmiyyətlərdə hüquqi nihilizm bir tərəfdən dövləti zəifladir, digər tərəfdən sürəkli olaraq vətəndaş azadlıqlarının pozulması ilə müşayət olunur. Beşincisi, yenilik adı altında «milli lider» simasında yeni şəxsiyyətə pərəstişliyin yaranmasıdır. Türkmənbaşı az qala özünü peyğəmbər elan etmişdi və yazdığı cəfəng «Ruhnamə» adlı kitabının «Quranu Kərmi»ə eyni səviyyədə qəbul edilməsini tələb edirdi. Digər respublikalarda da yeni şəxsiyyətə pərəstişliyin ən müxtəlif formaları yaranmaqdadır. Öz liderini ucaltmaqda heç bir qəbahət yoxdur, amma bunun fövqündə başqalarını alçaltmaq qəbahətdir və postsovet respublikalarında hakimiyyətlərin öz opponentlərini alçaltması, onlara işgəncə verməsi, onlarla qeyri-insani davranış daimi tendensiyaya çevrilmişdir. Bunun səbəbi haqqında Nitşe yazır: «Ayrıca bir adamı insanüstü yerə qaldırmaq cəhdi olan hər bir yerdə xalqın bütöv bir təbəqəsini əsl həqiqətdə olandan daha kobud və aşağı səviyyədə təsəvvür etməyə meyl yaranır». Bu gün postsovet respublikalarında müxalifətin yerli-yersiz aşağılanmasının, xalqın özünü öz gözündə

kiçiltməyə yönələn cəhdlərin arxasında məhz iqtidarların öz liderini insanüstü sferaya yüksəltmək cəhdi durur. Altıncısı, totalitarizm insan materialının korlanması ilə yarandığından, bütün totalitar və neototalitar cəmiyyətlərdə daxili siyasət məhz xalqın materialının korlanmasına yönəlib. Uzun müddət hüquqi nihilizm şəraitində, ucuz və mənasız əyləncə məkanında yaşamaq, zərərli vərdişlərin – alkoqolizmin, narkomaniyanın, fahişəliyin kütləvi hal alması xalq materialının korlanmasının əlamətlərindəndir. Materialı bu cür korlanmış xalq siyasi həyatda passiv və müti olur. Bu isə totalitarizmə keçiddə vacib şərtlərdən biri kimi çıxış edir. Xalqın materialı korlandıqca insanlar «qanunsuz» yaşamağa öyrəşirlər. Məhz belə şəraitdə, K.S.Luisin obrazlı ifadə etdiyi kimi, «sinəsiz insanlar» ordusu meydana gəlir. O, belə insanlar haqqında yazır: «Sinəsiz insanlar yalnız arzu və dərrakədən ibarət olan, amma özünü təsdiqə məğrurluğu olmayan insanlardır». Bu gün postsovet respublikalarının vətəndaşlarının dövlətin və cəmiyyətin həyatında passiv iştirakı məhz bu cür «sinəsiz insanlar»ın çoxluğu ilə bağlıdır. Yeddincisi, siyasi arxeotiplərin təzahür etməsi neototalitarizmin əsas səbəblərindəndir. Bu gün postsovet respublikalarının siyasi hakimiyyətlərinin əksəriyyətinin kadr bazasının əsasını təşkil edən sterotiplər komsomol, kommunist məktəbini keçənlərdən ibarətdir. Elə özünü «yeni qüvvə» adlandıran müxalifətdə də - «sovet adamı» obrazı az qala hər addımda özünü göstərməkdədir. Unutmaq olmaz ki, sterotiplərin dəyişilməsi şüarçılıqla mümkün deyil və uzun vaxt və məqsədyönlü sosial-iqtisadi və siyasi islahatlar tələb edir. Vaxtilə 30-cu illərdə Azərbaycan Sosial Demokrat firqəsinin Moskvanın təzyiqi ilə Kommunist Partiyasına çevrilməsi haqqında bunun necə baş verdiyini soruşanlara Azərbaycan Sosial Demokrat Partiyasının liderlərindən biri - Ağamalıoğlu zarafatla demişdi: «Biz axşam sosial-demokrat kimi yatdıq, səhər kommunist kimi oyandıq». Bu cür ildırım sürətli transformasiya onunla nəticələndi ki, bir gecəyə kommunist olanların hamısı çox keçməmiş elə bir gecədə xalq düşmənləri kimi kütləvi şəkildə məhv edildilər. İndi də «axşam kommunist kimi yatıb, səhər demokrat kimi oyananların» yeni sterotipləri təşkil etməsini demək absurddur. Sterotiplərin dəyişilməsi elə ciddi bir prosesdir ki, vaxti-

lə Sokrat deyirdi ki, dünyanı yerindən tərpətmək istəyən ilk növbədə özünü yerindən tərpətməyi bacarmalıdır. Əgər etiraf etsək ki, bu gün postsovet insanları «dünyanı yerindən tərpətmək» iddiası ilə çıxış etmək fikrində deyil, onda sovet sterotiplərinin transformasiyaya məruz qaldığını tələm-tələsik elan etmək qeyri-ciddi səslənir. Beləliklə, tam əminliklə demək olar ki, neototalitarizmin yaranmasının və bu cəmiyyətlərdə müşahidə olunan ictimai-siyasi həyatın bütün sahələrində baş verən əksər problemlərin kökündə də məhz köhnə sterotiplər – totalitar insan tipi durur.

Sosiologiya elmi fərdin bir keyfiyyəti kimi meydana çıxan sosial tərəfini sosial qabiliyyət kimi qiymətləndirir. İnsanın sosial qabiliyyəti təbii qabiliyyətlərindən fərqli olaraq ikincili qazanılmadır və bu qabiliyyətlər cəmiyyət həyatı ilə müəyyən olunandır. Cəmiyyət həyatında insan təbii varlıqdan sosial varlığa çevrilir və bu çevrilmə vətəndaşlarda fərdi yenidənqurulma kimi təzahür edir. E.Mune insanın yenidənqurulması haqqında yazır: «İnsanın yenidənqurulması insanın özünün o tərəfində baş verir. İnsanın mənasına o zaman çata bilərik ki, yenə də universumun mənasına çataq. Universumu hissələrə bölmək onun mənasını harmoniyadan məhrum edir…məxsus olduğun cəmiyyətdən başqa özgələri də vardır. Hər şey insanlıqdır».

Haşiyə: İnsanın yenidənqurulması cəmiyyətin yenidənqurulması ilə sıx bağlıdır. Əgər təbii qabiliyyət anadangəlmə, başqalarından fərqli, orijinal və sonradan qazanılması mümkün olmayan və cəmiyyətdən, o cümlədən dövlətdən asılı olmayan keyfiyyətdirsə, sosial qabiliyyət bundan fərqli olaraq qazanılma, inkişafa meylli, cəmiyyətdən və dövlətdən asılı və universal keyfiyyətdir. Sosial qabiliyyətlə fərdi qabiliyyətin əlaqəsi də siyasiləşmə üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, heç bir sosial qabiliyyət insanda təbii qabiliyyət yaratmır, amma fərdi qabiliyyət insanda sosial qabiliyyətin meydana çıxmasında rol oynayır. Belə qarşılıqlı əlaqədə sosial qabiliyyət fərdi qabiliyyəti boğa, onun təzahürünə imkan verməyə bilər və eyni zamanda fərdi qabiliyyətin üzə çıxmasında, reallaşmasında ona yardımçı ola bilər. Buradan da demokratiyanın ikinci qrup anlayışları – şəxsiyyətin sosial tərəfinin inkişafına dövlətin müdaxiləsinin məhdudlaşdırılması və əvəzində onun üzərinə bu qabiliyyə-

ti inkişaf etdirilməsi üçün fərdə yardım etmək borcunun müəyyənləşməsi meydana çıxır. Demokratiya sadəcə olaraq abstrakt şəkildə dövlətin üzərinə fərdə sosial qabiliyyətini inkişaf etdirmək üçün borc qoymur, həm də onu konkretləşdirir. Buna görə də demokratiyanın tarixi inkişafı deyərkən məhz bu bloka daxil edilən məsələlərin kəmiyyət və keyfiyyət baxımından artırılmasını nəzərdə tuta bilərik. Qabriel Kortizan da «Siyasi kontroverzlərdə fəlsəfənin hüququ» adlı əsərində məhz tarixi belə qiymətləndirərək yazır: «Tarix «təbii vəziyyətdən» çıxıb istənilən qiymətlə yaradılan hüquqi dövlətin yaradılması ilə realizə olunan «vətəndaş vəziyyətinə» keçid cəhdini özündə ifadə edir».

Demokratiya şəxsiyyəti öz iradəsi olan, quruculuğa qabiliyyətli, cəmiyyət üçün yararlı iş bacarığı olan, seçim üçün tələb olunan şüura malik, ən vacibi isə konkret missiyası olan fərd kimi müəyyən edir. Buradan da iradə azadlığı, fəaliyyət azadlığı, düşüncə azadlığı və nəhayət, təşəbbüs və iştirakçılıq azadlığının vacibliyi meydana çıxmışdır. K.C.Horton iradənin rolu haqqında yazır: «Həyat yaradıcılıq prosesidir, biz həqiqətən nəsə yeni qururuqsa, insan iradəsi onu yaradanın yaradıcı enerjisinin hissəsidir. Hər kəsin bunda öz payı var və ondan başqa kimsə bunu edə bilməz». Buradan da şəxsi missiyanın yerinə yetirilməsi ilə şəxsin iradə azadlığının sıx əlaqəsi olduğu üzə çıxır.

Haşiyə: İradə anlayışı təmsilçiliklə birbaşa əlaqəli olduğundan, fərdi və cəmiyyəti kimin və necə təmsil etməsi də onun tipini müəyyən edir. C.Dyuiyə görə, «iradə ifadəsi ilə – fərd cəmiyyəti təmsil edir. Təmsilçilik bütün cəmiyyətlər üçün xasdır – sadəcə cəmiyyət maraqlarını nə dərəcədə ifadə etməyə hazır olmağı ilə bir-birindən fərqlənir». Dövlətə xidmət etmək istəyən hər kəsin belə xidmət üçün zəruri olan iradə azadlığı olmalıdır. Totalitar cəmiyyətlərdə isə insanların iradəvi azadlığı boğulduğundan, hətta idarə edənlərdə belə, iradə azadlığından danışmaq mümkün deyil. Buna görə də başqalarını kölə edərək özündən asılı edənin özü də ondan asılı vəziyyətə düşməsiylə bağlı Hegelin məşhur fikirləri doğulub.

Hər bir insanın özünə xas missiyası olsa da, unutmaq olmaz ki, onun missiyası həm də başqalarının missiyasının hissəsini təşkil

edir. Necə ki, arı və qarışqa ailəsində vəzifə bölgüsü əsasında müştərək həyat var, insan cəmiyyətində də belə müştərəklik, yəni başqaları ilə birləşərək birgə fəaliyyət göstərmək zərurəti var. Buradan da fəaliyyət azadlığı anlayışı meydana çıxır. Horton yazır: «Azadlıq – qarşılıqlı əlaqədə başqaları ilə əməkdaşlıq etməkdir». Dövlət bu məsələdə vasitəçi və ya məhdudlaşdırıcı rolda çıxış etdikdə birgə missiya ilə bağlı fəaliyyət məhdudlaşır, bu da ictimai həyatda müşahidə edilən problemlərin yaranmasına səbəb olur. Neototalitar cəmiyyətlərdə iqtidarla müxalifət arasında bu gün də ciddi siyasi dialoqun olmaması bir çox səbəblərlə yanaşı ilk növbədə cəmiyyətdə azadlıqların olmaması ilə bağlıdır.

Haşiyə: «Qarşılıqlı əlaqədə başqaları ilə əməkdaşlıq etmək» «başqaları ilə birləşmək» hüququnu meydana çıxarıb. Bu hüququ reallaşdırmaq üçün hər şeydən öncə insan iradəvi varlıq kimi seçim imkanına malik olmalıdır. Əslində seçim də təbii keyfiyyət kimi canlılarda doğuluşundan var. Belə ki, heyvanlar anadan olan andan xarici təhlükə, qidalanma, fəaliyyət, əks cins haqqında bütün zəruri biliklərlə birgə doğulur. Amma insan heyvanlardan fərqli olaraq həm də qazanılma seçim qabiliyyətinə malikdir və belə sosial seçimlə şəxsiyyətini və cəmiyyəti inkişaf etdirir. Bu baxımdan insan heyvandan fərqlənir. Seçimin anadangəlmə olması heyvanlarda əhilləşməni məhdudlaşdırır və buna görə əhilləşmə ilə heç bir heyvan insana yaxınlaşa bilmir. Amma insan seçimlə sosial qabiliyyət qazandığından, ona seçim imkanı verməməklə və ya səhv seçimə yönəltməklə, təlqinlə onu heyvana yaxınlaşdırmaq çox asandır. Təlqin - başqasının sənin əvəzindən düşünməsi və ya sənin başqasının düşüncəsinə uyğun davranış vəziyyətini yaradır.

Bir qayda olaraq insan hüquq və azadlıqlarından söz düşərkən həmişə idarə olunanların hüquq və azadlıqlarından danışılır, demokratiyada bunun önəmi irəli çəkilir və bunu onlara lazım olan dəyərlər kimi baxılır. Halbuki, insan hüquq və azadlıqları hər şeydən əvvəl hakimiyyətdəkilərin özünə lazımdır. Belə ki, vətəndaşın azad düşüncəsinin səhv və ya düz olması birbaşa yalnız onun maraqlarına toxunursa, hakimiyyətdə olanların düşüncə səhvi bütün vətəndaşların hər birinin ayrı-ayrılıqda və hamısının birlikdə ümumi

maraqlarına toxunduğundan, önəm kəsb edir. İ.Kant düşüncənin üç maksimumunu müəyyən edib: a) müstəqil düşüncə; b) özünü başqasının yerinə qoyaraq düşünmə; v) həmişə özü-özüylə razılıqda düşünmə; Birinci maksimum fikir azadlığının bir komponentini təşkil edir və kənar təsir olmadan vətəndaşın azad əldə etdiyi informasiyalar əsasında müəyyən fikrə gəlməsini bildirir. İkinci maksimum başqalarının maraqlarını dərk edərək düşünməni bildirir ki, bütün demokratik cəmiyyətlərdə hakimiyyətdəkilər yalnız özlərini vətəndaşların yerinə qoymaqla düşünməyə üstünlük verirlər və hakimiyyətdəkilər nə dərəcədə vətəndaş kimi düşünə bilirlərsə, bir o qədər vətəndaşların maraqlarını qoruyurlar. Üçüncü maksimum dövlət məmurlarının müstəqil düşünməsini ifadə edir. Dövlət məmurları nə dərəcədə belə düşüncədən məhrum olursa, bir o qədər «öz rəhbəri ilə razılıqda» düşünməyə meyl edir ki, bu da avtoritarizmin əsas əlamətlərindəndir.

Haşiyə: Bir qayda olaraq totalitar cəmiyyətlərdə dövləti idarə edənlər «vətəndaşların beyni» olmağa cəhd edirlər. K.C.Hortona görə, «millət təhtəlşüur, elita şüuraltı, hökumət şüurdur». Əksinə, o yerdə ki, rəhbər şüur, hökumət şüuraltı, millət isə şüursuzluq kimi çıxış edir, onda totalitarizm yaranır. Buna görə də müasir totalitar cəmiyyətlərdə idarə edənlər məhz insanların ağlında manipulyasiya etməklə məqsədlərinə çatırlar. Psixoloji təcrübələrdə insana onun istənilən heyvan olduğunu aşılamaq və hipnoz yuxusunda həmin heyvan kimi davranmağını təmin etmək mümkündür. Məhz siyasi hakimiyyətlər də siyasi vasitələrlə, o cümlədən siyasi hipnoz yolu ilə vətəndaşlara istənilən mövcudluq keyfiyyətini təlqin edə bildiklərindən, demokratiya seçim hüququnu zəruri hesab edir. K.C.Horton yazır: «Təlqin və seçim – bir sıranın aşağı və yuxarı pilləsidir». Burada təlqin aşağı – heyvana yaxın, seçim yuxarı – şəxsiyyətə yaxın pillədir. İnsanlara seçim imkanı verməmək və ya seçimə müdaxilə insanı heyvana çevirmək və ya ona şəxsiyyət olmağa imkan verməməkdən başqa bir şey deyil. Seçim sadəcə bir prosedur deyil, hər şeydən əvvəl insanı heyvandan fərqləndirən ağılla sıx bağlıdır. Lamartin deyib ki, «ölülərin külü vətəni yaradır». Bu fikrə uyğun obrazlı deyə bilərik ki, «dirilərin ağılı dövləti ya-

radır». Məncə, vətənlə dövlətin fərqini də məhz burda axtarmaq olar. Ona görə də müdriklər deyir ki, «azadlıqlar boğulanda dövlət vətənə çevrilir». Seçim demokratiya üçün bütün dəyərlərdən üstündür, çünki «seçim yaradıcılığın həm səbəbi, həm də nəticəsidir». Seçimsiz nə insanın fəaliyyətinin nəticəsi var, nə də insan hər hansı məqsədəyönlü fəaliyyətə cəhd edir. Buna görə də seçim imkanı olmayan xalqlar apolitik vəziyyətə düşür. Bu da bütünlükdə dövlətin özü üçün təhlükədir. Seçimlə təlqin və ağıl arasındakı əlaqəni K.C.Horton belə təsəvvür edir: «Seçim əqli fəaliyyətdir. Təlqin köhnə materialdan sintez olunandır». Beləliklə, təlqin hər şeydən əvvəl insanı köhnəyə, keçmişə onun heyvani mənşəyinə yaxınlaşdırmanın əqli sintezi ilə, seçim isə düşüncə prosesinin axtarışları və gələcəyə yönlənmə ilə müşayət olunur. İnsanın heyvani təbiəti – təbiətə, sosial tərəfi – cəmiyyətə bağlı olduğundan, seçim yalnız azad sosial mühitlə, təlqin isə dövlətin zorla müəyyən etdiyi şərtlənmiş mühitlə bağlı meydana çıxır.

Hər bir fərd cəmiyyətlə əlaqələnərkən onda ikili şüuri vəziyyət yaranır. Belə ki, bir tərəfdən insan – fərdi, orijinal şüura, digər tərəfdən mənsub olduğu qrupun, cəmiyyətin, xalqın ümumi, kollektiv universal şüuruna malik olur və onunla idarə olunur. Buradan da kollektiv şüurun necə formalaşması problemi aktuallaşır.

Haşiyə: Kollektiv şüurun formalaşması cəmiyyətin tipi ilə bağlıdır və onun əsas göstəricisi ictimai rəy kimi təzahür edir. İctimai rəy – kollektiv şüur - necə yaranır? Haqen yazır: «İctimai rəyin formalaşması kollektiv təzahürdür». Totalitar cəmiyyətlərdə kollektiv şüur dövlət tərəfindən, xüsusən siyasi hakimiyyət tərəfindən fərdi qaydada formalaşdırılır, birmənbəli olduğundan, plüral olmur. Neototalitar cəmiyyətlərdə ictimai rəy bir tərəfdən dövlət tərəfindən formalaşdırılır, digər tərəfdən kortəbii formalaşan ictimai rəydə manipulyasiyalar edilir. Belə ki, yalançı rəy sorğuları hazırlayıb yaymaq və ya seçkilərin nəticələri saxtalaşdırıldığı kimi ictimai rəy sorğularının nəticələrini saxtalaşdırmaq, real ictimai rəyin aşkarlanmasının qarşısını almaq, sifarişli ictimai rəy nəticələri əldə etmək və ya əldə edilmiş ictimai rəyin nəticələrini yanlış dəyərləndirmək belə manipulyasiyalardandır. Bundan fərqli olaraq, demokratiya kollektiv şüu-

run formalaşmasında müxtəlif fərdi şüurların iştirakını tələb edir və ictimai rəyin formalaşmasında nə qədər çox fərdi şüur iştirak edirsə, cəmiyyət bir o qədər demokratik hesab edilə bilər. Buradan da demokratiya fikir azadlığını irəli sürür. Fikir azadlığının əhəmiyyəti ondan ibarətdir ki, o azad olduqda onun səhvləri cəmiyyətə heç bir halda ziyan gətirmir. Amma istənilən qeyri-azad fikir – kənardan, o cümlədən dövlət tərəfindən təlqin edilən fikir, psevdodüşüncə yaratdığından, istənilən halda o, hətta düz olduqda belə, cəmiyyətə ziyandır və ona heç bir xeyir vermir. Lakin heç bir azad, amma gizli fikrin də əhəmiyyəti olmadığından, demokratiya həm də fikrin və ideyaların yayılmasını, aşkar ifadə edilməsini vacib hesab edir. Buradan da azad mətbuat anlayışı doğur.

Əslində demokratiya ilə dövlət biri-birini gücsüzləşdirməyə cəhd edən iki sosial təzahürdür. Belə ki, əgər dövlət birgə yaşayış şəraitində fərdlərin biri-birinə təhlükə yaratmasının qarşısını almaq zərurətindən yaranıbsa, demokratiya fərdləri hakimiyyətdən gələn təhlükələrdən qorumaq zərurətinin məhsuludur. Məhz buna görədir ki, qüsurlu fəaliyyət göstərən bütün hakimiyyətlər, o cümlədən xalqlara təhlükə yaradan iqtidarlar birmənalı şəkildə demokratiyanın əlehdarları kimi çıxış edirlər. Sual oluna bilər, əgər demokratiya dövlətlə ziddiyyət təşkil edirsə, onda həm dövlətçiliyi, həm də demokratikləşməni birlikdə necə reallaşdırmaq olar və niyə dövlətin əleyhinə olan demokratiyanın inkişafına dövlət özü cəhd etməlidir? Məsələ burasındadır ki, demokratiya cəmiyyətdə dövlətin əhatə etmədiyi və ya edə bilmədiyi, eyni zamanda dövlətin vəzifələrinə daxil olmayan, xalqların özünütəyininə buraxılmış sahədə və dövlətin qüsurlu fəaliyyətindən boy verir, bununla dövləti gücləndirir, ona yardımçı olur və sonra tədricən dövlət həyatının digər sahələrini, artıq bu dəfə dövlətə məxsus vəzifələri biri-birinin ardınca onun əlindən alıb xalqa qaytarır. Bu baxımdan Lord Akton belə hesab edir ki, «həqiqi demokratik prinsip heç kəsin xalq üzərində hökmranlıq edə bilməməsi o deməkdir ki, kimsə onun hakimiyyətini məhdudlaşdıra bilməz və onun hakimiyyətindən kənara çıxa bilməz».

Haşiyə: Hər bir yeni köhnənin böhranından doğur. Buna görə də özündən əvvəlki cəmiyyətin böhranının dərslərindən nəticə çı-

xarmadan və köhnənin ətalətindən imtina etmədən yenini qurmaq olmaz. Bu nəzərə alınmadıqda cəmiyyətdə çox vaxt nəinki böhrandan əvvəlki, hətta ondan da qabaqkı köhnəni qurmağa cəhd yaranır. Müasir kapitalist cəmiyyətində baş verən böhranlar və keçmiş sosializmin süqutunun səbəbləri postsovet respublikalarında dövlət quruculuğunu necə qurmaq lazım gəldiyini göstərə biləcək yeganə həqiqi qaynaqlardır. K.Manheym kapitalist cəmiyyətində baş verənlərlə bağlı yazır: «Böhran təcrübəsindən öyrənmək lazımdır, insan problemi və onun dəyişkənliyi son illərin hadisələrində meydana çıxıb. İki mühakimə – «xalq xarakterinin» davamlığına və ağlın «tarixdə proqresinin tədriciliyinə» inam birdən itmişdir, Qəflətən aydın olmuşdur ki, bizim gündəlik elmi psixologiyamızın böyük bir hissəsi şüuraltı olaraq konsolidasiya olunmuş cəmiyyət haqqında mühakimələrdən istifadə edir. Aydın olmuşdur ki, fərdin və kütlənin ən diqqətlə öyrənilməsi belə, əgər o onun əsasına xidmət edən, aqreqatın hazırki vəziyyətinə və cəmiyyətin quruluşuna diqqət ayırmırsa, düzgün olmayan obraz yaradır»». Buna görə də mən belə hesab edirəm ki, postsovet məkanında baş verənləri daha aydın və düzgün dərk etmək üçün demokratiyanı həm fərdlərin, həm də hakimiyyəti təmsil edənlərin öyrənməsi, digər tərəfdən buna paralel müasir cəmiyyətimizin vəziyyətinə və quruluşuna diqqət etməsi lazımdır. Məhz bu zaman biz, «postsovet respublikaları, o cümlədən Azərbaycan müasir qlobal siyasi coğrafiyada hardadır» sualına, başqa sözlə, bu ölkələrdə baş verənlərin demokratikləşməyə nə qədər uyğun olub-olmamasına aydınlıq gətirə bilərik.

Demokratikləşmə nədən və necə başlamalıdır? Belə ki, yuxarıda da qeyd etdik ki, inkişafın mərhələlərinin, onun paradiqmalarının ardıcıllığının düzgün müəyyənləşməsi taleyüklü məsələdir. Və sadəcə ardıcıllığın düzgün müəyyənləşdirilməməsi demokratikləşmənin hər hansı bir formada başlanmasına imkan vermir. Demokratiya iki bir-biri ilə əlaqəli və eyni zamanda biri-biri ilə ziddiyyət təşkil edən faktordan – azadlıqlardan və nizamdan asılıdır. Demokratiya nizamsız mövcud ola bilməz. Totalitar cəmiyyətdə nizam müstəsna olaraq dövlət işidir və azadlıqlarsız təmin edilir. Demokratiyada isə nizam həm də vətəndaşların işidir və buna görə azadlıqlarla birbaşa

bağlıdır. Belə ki, demokratik cəmiyyətdə vətəndaşlar özününizamlama yolu ilə azadlıqlara cəhd edir. Peyn demokratiya haqqında deyirdi: «Əsas demokratik prinsip – hər şey həyatın, azadlığın və günahsızlığın xeyrinə həll edilir». Azadlıq olan yerdə nizam müstəsna əhəmiyyət daşıyır, azadlıqsız nizam totalitarizm, nizamsız azadlıq anarxiyadır.

Haşiyə: Qeyd edim ki, hakimiyyətlər məhz nizamsız azadlığın təhlükələrini əsas götürüb nizam yaratmaq bəhanəsi ilə azadlıqları çox asanlıqla, həm də xalqın özünün alqışları altında boğurlar. Buna görə də totalitar cəmiyyətlər planlı şəkildə nəzarət olunan nizamsızlıq yaradır. Postsovet təcrübəsində, eləcə də bundan əvvəl mövcud olmuş klassik totalitar cəmiyyətlərin təcrübəsində təxribatçı qrupların köməyi ilə kütləvi aksiyaları qeyri-qanuni müstəviyə sürükləməklə, sonradan kütləvi repressiya aparılması ilə bağlı çoxlu faktlar mövcuddur. Reyxstaqı yandıraraq kommunistlərə divan tutan hitlerçilərin məşhur hərəkətləri buna bariz nümunədir. Bu gün neototalitar iqtidarların kütləvi tədbirlərdə sərbəst toplaşmaq azadlığını məhdudlaşdırmasının da yeganə əsası özünün yaratdığı nəzarət olunan nizamsızlıqdır. Nizam yaratmaq - dövlətin vəzifəsi və borcudur, başqa sözlə, nizam dövlət işidir və dövlətlər biri-birindən nizamına görə güclüdür və nizamın yaradılma qaydası dövlətin tipini müəyyənləşdirir. Totalitarizmdə nizama tabe etdirmə – məcburiyyət prinsipinə əsaslanır və hamının hakimiyyətə sözsüz tabe olmasını tələb edir. Demokratiyada isə nizam vətəndaşların şüurluluğuna əsaslanır. Məcburetmə - yuxarıda qeyd etdiyimiz kimi, psevdodüşüncəni yaratdığından, məcburetmə şəraitində demokratik nizam yaratmaq olmaz. Buna görə də demokratiya vətəndaşlarda həqiqi düşüncə naminə onların azad və avtonom fəaliyyətinə cəhd edir. İnsanlar nə qədər avtonomlaşırsa, bir o qədər həqiqi düşüncə tərzinə yiyələnir və daxili istəklə, könüllü, nizama tabe olurlar. Beləliklə, deyə bilərik ki, totalitar nizam - psevdonizamdır və belə nizamlı şəraitdə vətəndaşlar onu pozmaq üçün istənilən fürsətdən istifadə edirlər. Buradan da totalitar nizamın eybəcərlikləri – rüşvət, korrupsiya, saxtakarlıq, özbaşınalıq, kriminallaşma və s. kimi sosial əyintilər meydana çıxır. Totalitar cəmiyyətdə həm də nizam bir-birindən fərqli və

orijinal prinsiplərlə yaradılır və buna görə belə nizam ədalətsizliyi şərtləndirir. Halbuki, F.Hayekin də qeyd etdiyi kimi, «fərdiyyətçilik sisteminin başlıca prinsipi ondan ibarətdir ki, bir neçə ümumi qəbul edilmiş universal prinsipdən ictimai işdə nizam yaratmaq üçün istifadə edirlər». Bundan başqa, totalitar cəmiyyətdə nizamlanma sahəsi qeyri-məhdud olduğundan, sadəcə, dövlətin belə geniş nizamlama üçün resursları və potensialı olmadığından, belə nizam zəif olur və ona dövlət nəzarətini həyata keçirmək çətinləşir. Nəticədə dövlət idarəetmənin həcmini böyütməyə, bununla da hipertrofiq dövlət aparatı yaratmağa məcbur olur, ya da belə nizama vətəndaşlar könüllü riayət etmədiyindən, məcburetmənin artırılması və zorakı vasitələrə əl atılması lazım gəlir. Nəticədə hərbi polis rejimi meydana çıxır. Buna görə də totalitarizm polis rejimi olmadan mövcud ola bilmir. Bu gün postsovet respublikalarında az qala hər bir nazirliyin xüsusi hərbi birləşməsinin olması, ən müxtəlif nəzarət orqanlarının mövcudluğu, dövlət müəssisələrinin hərbiləşdirilmiş müdafiəsi və s. məhz buna görə yaranmışdır. Totalitar nizamın əsas prinsipi məqsədyönlülükdür. Məhz buna görə də totalitar dövlətdə məhz məqsədyönlülük vəziyyəti yaradan nizama cəhd edilir. Bu nə deməkdir? Totalitar cəmiyyət insanları iş yeri, əmək haqqı, imtiyaz, mükafat və ədalətsiz cəzalandırma və s. kimi faktorlarla idarə edir. İnsanlar iş yerini itirməmək, əmək haqqı almaq, imtiyaz əldə etmək, haqsız cəzadan qaçmaq və layiq olmadığı mükafat almaq istiqamətində fəaliyyət göstərməyə məcbur edilir. Belə nizam ən pis nizamdır. Hayek də təsdiq edir ki, «prinsiplərin yox, məqsədyönlülüyün idarəetməsi axmaqlıqdır». Qeyd edim ki, həm də məqsədyönlülük idarə olunanları axmaqlara çevirir. Bu gün neototalitar cəmiyyətlərin hamısında məhz məqsədyönlülüyə əsaslanmış nizam yaranmışdır. Belə ki, bir tərəfdən polis dövlət həyatında tələb olunandan artıq mövqe tutmuş, digər tərəfdən vətəndaşlar öz hüquqlarını müdafiə edərkən həyati vasitələrdən – işindən, əmək haqqından, azadlığından və s. məhrum olmaq təhlükəsi qarşısında öz hüquqlarından könüllü imtina edirlər. Çox vaxt «nə üçün ölkədəki ictimai haqsızlığa susursan, öz hüquqlarını tələb etmirsən» sualına vətəndaşların cavabı birmənalı olur – işdən qovarlar, əmək haqqımı kəsərlər, günahsız yerə tu-

tarlar və s. Məhz buna görə postsovet respublikalarında müxalifətdə leqal təmsil olunanlarla cəmiyyətdəki narazı elektorat - qeyri-leqal müxalifət arasında nəhəng say fərqi mövcuddur və bu uçurum cəmiyyətdə üsyankarlığın nəhəng potensialından xəbər verməklə yanaşı, vətəndaşların məqsədyönlülük prinsipi ilə yaşadığını göstərir ki, bundan da uduzan hamı, o cümlədən müstəqil dövlətlər və xalqlardır.

Əslində nizam və azadlıq paradiqmalarının ardıcıllığının müəyyən edilməsi demokratikləşmə probleminin mühüm aspektlərindəndir. Azadlıq özündə cəmiyyətin demokratikləşməsini, nizam dövlətləşməni ifadə edir. Beləliklə, belə bir sual doğur, əvvəl güclü dövlət hakimiyyəti, sonra demokratiya, ya əvvəl demokratiya, sonra güclü dövlət hakimiyyəti yaradılmalıdır? Yəni azadlıq, sonra nizam, yoxsa nizam, sonra azadlıq olmalıdır? Dünya tarixində dövlətləşmə ilə demokratikləşmənin ardıcıllığının iki tarixi nümunəsi mövcuddur. Onlardan biri İngiltərə nümunəsidir. İngiltərədə feodal-burjua inqilabından sonra monarxiya rejimi ləğv edilmədi, sadəcə onu konstitusiya çərçivəsinə saldılar, demokratikləşməyə imkan verən hakimiyyət yaradıldı, yalnız bundan sonra monarxiyanın iştirakı və müdaxiləsi olmadan ingilis xalqı demokratikləşmə prosesinə başladı. İngiltərənin əksinə, Fransada – əvvəl demokratikləşmə başlamış, monarxiya rejimi ləğv edilmiş, insan hüquq və azadlıqları ön plana çıxarılmış və bundan sonra həmin demokratik dəyişilmələr əsasında konstitusion hakimiyyət yaradılmışdır.

Haşiyə: Monarxist rejimlər konstitusiya təcrübəsinə kütləvi siyasi partiyalarsız və ümumi seçkilər olmadan bir qayda olaraq inqilabi yolla keçmişdir. Postsovet respublikalarının hansı yolla inkişaf etməsi hələ də qeyri-müəyyəndir. Qeyd etdiyimiz bu dəyişilmələri qanun və hüquq konteksindən də şərh etmək olar. Demokratikləşmə hüququn nizamsa qanunun inkişafını özündə əks etdirir. Buna görə də siyasiləşmənin mahiyyəti hüquq siyasəti ilə sıx bağlı olduğundan, 26 avqust 1789-cu ildə Fransa Milli Məclisinin insan hüquq və azadlıqları haqqında qəbul etdiyi deklarasiyada deyilir: «İnsan haqlarından xəbərsizlik, onları yaddan çıxarmaq, onlara nifrət etmək ictimai fəlakətlərin və hökumət qüsurlarının yeganə səbəbidir».

Demokratiya sosial axtarış sahəsi olduğundan, heç də həmişə bu sahədə mütləq həqiqəti kəşf etmək mümkün olmur. O cümlədən, heç bir siyasi qüvvənin və siyasi hakimiyyətin ictimai axtarışı da mütləq düz hesab edilə bilməz. Buna görə də sürəkli olaraq cəmiyyətdə düz olanla düz olmayanın bir-birindən ayırd edilməsi problemi üzə çıxır. Demokratiya bu problemin həlli üsulu kimi rəqabəti yeganə vasitə kimi təklif edir.

Haşiyə: Rəqabət həm də azadlığın rəhnidir. S.C.Makiaveli yazır: «Əyyanlarla pleybeylər arasındakı Romada ixtişaş və çəkişmələr azadlıqların saxlanmasında başlıca səbəb olub». Bundan qabaqkı fəsillərdə Hayekin rəqabət haqqında fikirləri ilə oxucuları tanış etmişdik. Xatırlatmaq istəyirəm ki, rəqabət çoxluğu azlığın tapdığı, amma əvvəl çoxluğun getmədiyi düz yola salmaq vasitəsidir. Buradan da demokratiya azlığın mövcudluğunun zəruriliyini, əhəmiyyətini və azlıqla uzlaşmanın – konsensusun təxirəsalınmazlığını irəli sürür. Postsovet respublikalarında azad rəqabət şəraitinin olmaması, uzun illərdir heç bir məsələdə, hətta bu, iqtidarların öz maraqlarına xidmət etsə belə, müxalifətlə konsensus əldə etmələri onları yanlış yolla irəliləməyə məhkum etmişdir.

Çoxluğun azlıqla razılaşması iki hisslə – vicdan və rəqabətin doğurduğu ədavətlə sıx bağlıdır. Hər iki hiss fərdin aşkarladığı həqiqətin və özünün, həm də başqalarının fərdi davranışına verdiyi qiymətin hissi ölçüsü kimi meydana çıxır. Həqiqətin aşkarlanması yanılmalardan ayrılmazdır, belə ki, məhz yanılmaları düzəltməklə insan həqiqətə istiqamətlənir. Yanılma insanın təbii qabiliyyətindən doğur. Bu baxımdan yanılmalar elmi və ictimai proseslərdə həqiqət kimi mühüm əhəmiyyət kəsb edir. Yanılma olmadan həqiqəti aşkarlamaq olmaz. Vaxtilə Çörçil deyirdi ki, «həqiqət elə qiymətlidir ki, yalanlar ona cangüdənlik etmədən mövcud ola bilməz». Fəlsəfə iki cür yanılma ayırd edir. Əqli yanılma – insanın azad düşüncəsi ilə kəşf etdiyi həqiqətin alternativi olan – təbii yalan. Etika belə yalana görə insanın qınanmasını yolverilməz hesab edir. Çünki məhz belə təbii yalanları düzəltməklə həqiqəti tapmaq olur. Belə yanılmada olan onu təkzib edən fikri məmuniyyətlə qəbul edir və onu təkzib edənlə birlikdə həqiqət axtarışını davam etdirir. Beləliklə də əqli ya-

nılma əməkdaşlığa yol açır. İkinci forma yanılma - əxlaqi yanılmadır. Bu yanılma həqiqət axtarışında yox, şəxsi maraqların təmin edilmə prosesində «kəşf» edilən yalandır, yəni həmin yalanı uyduran bilir ki, dedikləri həqiqət deyil, amma şəxsi maraqları tələb etdiyindən, özünü guya ona inanmış kimi göstərir və inadlı olaraq öz mövqeyini müdafiə edir. Və onu təkzib edəni qəbul etmir, onunla əməkdaşlıqdan qaçır və onu özünün şəxsi düşməni elan edir. Məhz buna görə də etika əxlaqi yanılmanı qınayır. Çünki əxlaqi yanılma axtarışa imkan vermir, cəmiyyəti həqiqətin xeyrindən məhrum edir, yalnız məhdud bir qrupun bəhrələnməsinə şərait yaradır. Əqli yanılma əməkdaşlıq şəraitində birgə həqiqət axtarışını stimullaşdırırsa, əxlaqi yanılma əksinə, düşmənçilik və ədavətlə hər hansı razılaşmanı, iş birliyini, uzlaşmanı, konsensusu rədd edir. Məhz əqli yanılmadan vicdan hissi, əxlaqi yanılmadan düşmənçilik hissi baş qaldırır. Bu baxımdan neototalitar cəmiyyətlərdə iqtidar-müxalifət arasındakı düşmənçilik tərəflərin əxlaqi yanılmada olduğunu birbaşa sübut edir və bu hissi qızışdıranlarsa ən çox əxlaqi yanılmalarda olanlardır. Unutmaq olmaz ki, düşmənçilik daxili həmrəyliyə imkan vermədiyindən, həm də ictimai təhlükə mənbəyinə çevrilir.

Artıq vicdan müasir demokratik prinsiplərdən biri kimi qəbul edilir. Vicdan özü-özü ilə daxili müxalifətçilik, insanın fərdi maraqları ilə ictimai maraqların ziddiyyətində düzgün mövqe tutmasının yeganə prinsipidir. Vicdan iç mübarizənin əlamətidir. Özü-özü ilə daxili mübarizə aparmayan insanda vicdan olmur və belə insan haqq uğrunda ictimai mübarizəyə qalxmır. Vicdan həm də sosial azadlığın təzahürlərindəndir. Azadlıqsız vicdanlılıq, vicdansız azadlıq yoxdur. K.C.Horton vicdanla azadlığın əlaqəsi haqqında yazır: «Azadlıq – düzgün, vicdanın verdiyi həyatın proqressiv ideallarına uyğun inkişaf etmək imkanıdır». Vicdan fərdi və sosial tərəfin harmoniyasından doğulur. Kimdə ki, belə harmoniya yoxdur, onda vicdan da ola bilməz. Vicdan daxili nizamın mənbəyidir. Beləliklə, azadlıq – xarici ictimai vicdanla, ictimai nizamla daxili fərdi vicdanın sərhədində demokratik şəxsiyyəti üzə çıxarır.

Haşiyə: Vicdanın bir siyasi kateqoriya kimi qəbul edilməsinin bariz nümunəsini ATƏT-in 2005-ci il parlament seçkiləri ilə bağlı

yaydığı hesabatda Azərbaycanda keçirilən seçkilərin həm də vicdanlılıq prinsipinə cavab verməməsini qeyd etməsində görmək olar. Vicdan nədir? Biz bunun ən geniş və rəngarəng cavablarını verə bilərik. Burada məqsədimiz demokratikləşmə prosesini şərh etmək olduğundan, vicdanın demokratiya ilə əlaqəsi məsələsinə diqqət verməyi məqsədə müvafiq hesab edirəm. K.C.Horton vicdanla bağlı yazır: «Səhv və ya düz haqqında qərarı müəyyən edən hiss – vicdandır. Fərd üçün öz davranışları üzərində düşünmək, onun vicdanı – yeganə rəhbər prinsipdir və başqalarının prinsipindən fərqlənsə də onun üçün həqiqətin son instansiyasıdır, onu dəyişmək mənəvi intihardır». Yuxarıda qeyd etdik ki, səhv və düz arasında fərqi aşkarlamaq yalnız rəqabətlə mümkündür. Beləliklə, rəqabətin istənilən formada boğulması vicdansızlıq kimi təzahür edir. Vicdansızlıq kənardan təlqin edilən prinsiplə öz davranışını başqalarınınkı ilə üst-üstə düşməsinə cəhd etmə formasında qiymətləndirmədir. Vicdansız insan bir gündə on dəfə prinsiplərini dəyişə bilər və hətta biri-biri ilə daban-dabana zidd olan iki hərəkətə eyni qiymət verə və ya eyni olan iki hərəkətə bir-birinin tam əks iki fərqli qiymət verə bilər. Məhz bu keyfiyyət totalitarizmin də əsas əlamətlərindən biridir. Öz hərəkətini dəyişkən prinsiplə qiymətləndirmə insanı düzlə əyri arasında seçim etməyə imkan vermir. Beləliklə, ya seçimi ləğv etmək, ya insanlarda təlqinlə onlara davranış prinsipləri aşılamaq eyni mənalı bir hərəkətin iki tərəfidir və totalitarizm hər iki yoldan istifadə edir.

Vicdan məsələsi həm də daha fundamental sosial məsələlərlə – xeyir və şərlə sıx bağlıdır. Fəlsəfədə belə bir fikir hamılıqla qəbul olunur ki, xeyirlə şəri biri-birindən ayıra bilməyən və ya onlara fərqli yanaşa bilməyən heç bir xalq böhrandan çıxa və ya inkişaf edə bilməz. İnsanların səhv və ya düz haqqında mövqeyi nəyə görə demokratiya üçün bu qədər qiymətlidir? Bunun iki fundamental səbəbi var. 1. Demokratiyada hakimiyyət gücü ağıldır. Ağılın vəzifəsi həqiqəti aşkarlamaqdan ibarət olduğundan, düzü tapmaq demokratikləşmə demək olur. 2. Şəxsiyyətin səhv və ya düz haqqında təsəvvürlərinin korlanması ilə o deqenerata, yəni inkişaf etməmiş varlığa çevrilir. K.C.Horton deqeneratlar haqqında yazır: «Deqenerat – şəxsi

keyfiyyətləri ümumi qəbul edilmiş qrupun əxlaqi standartlarından əhəmiyyətli dərəcədə aşağı olmaqdır…şəxsiyyətin deqenerasiyası vicdanla müəyyənləşən düz və ya səhv haqqında məsələnin formalarından biridir». Deqenerasiya anadangəlmə və ya qazanılma ola bilər. Qeyri-demokratik rejimlər anadangəlmə deqenerasiyanı qazanılma sosial deqenerasiya yaratmaq məqsədi ilə istifadə edirlər. Deqenerat nə özü, nə cəmiyyət, nə də tarix üçün heç bir rol ala bilmir. Belə deqeneratlardan ibarət cəmiyyət nəinki məhvə məhkumdur, həm də bütünlükdə bəşəriyyətin inkişafı qarşısında ciddi əngəllərdən biridir. Dünyanın taleyində və bəşəriyyətin həyatında şəxsiyyətin rolu haqqında P.Peccei yazır: «Başlıcası – insan şəxsiyyətdir, o bütün işlər və ideal üçün vacibdir, belə ki, bütün bunlar insansız, bərabər ölçüdə heç nədir…insan şəxsiyyətinin tamlığı və onun imkanları, dünyanın birliyi və insanlığın tamlığıdır». Vicdansız insan isə nəinki başqaları ilə, hətta özü-özü ilə tamlıq təşkil edə bilmir. Postsovet rejimlərində milli həmrəyliyin zəif olmasının bir səbəbi də bununla bağlıdır.

Düşmənçilik hissi rəqabəti müşayət edən və vicdanla əkslik təşkil edərək onunla mübarizə aparan hissdir. Əksliklərin tərəqqisinə uyğun, paralel inkişafda olmayan, vicdandan ayrılmış ədavət - düşmənçilikdir və rəqabət şəraitini istisna edir.

Haşiyə: Əslində ədavətlə düşmənçilik rəqabət tərəfinə münasibətlə bağlıdır. Toro yazır ki, «Siz, sizi sarsıdanla cəlbedici yaxınlığınız olmasa, sarsıntı hiss edə bilməzsiniz». Beləliklə, insan tanımadığına və ya ünsiyyətdə olmadığına şəxsi hislər bəsləyə bilmədiyi kimi, rəqabətdə hansısa səviyyədə bir-birinə bağlı olan, amma biri-biri ilə əlaqəli mövcud ola bilməyən və bir-birinin roluna mənən girə bilməyənlərdə ədavət düşmənçiliyə çevrilir. K.C.Horton ədavətlə bağlı yazır: «Ən həssas simpatiya belə, düşmənçilik hislərindən müdafiə olunmayıb…ədavətin funksiyası – inkişafa və özünü saxlamaya yalnız fəaliyyətin emosional motivizasiyası gücləndirmək, mübarizə enerjisi oyandırmaqdır…ədavətin ali funksiyası – şəri əzməkdir, bunun üçün o ədalət idealları ilə idarə olunmalıdır… rəqabətin cəmiyyətə xeyirli olması üçün onu nizamlamaq və təsirli etmək lazımdır». Beləliklə, ədalətsiz ədavət düşmənçilikdir, onun

funksiyası xeyiri əzməkdir. Düşmənçilik nizamlanmayan proses olduğundan, cəmiyyət üçün yaxşı heç nə verə bilməz. Məhz burada – hissi sferada – demokratiya ilə antidemokratiya bir-birindən fərqlənir. Antidemokratiyada tərəflər biri-biriləri ilə heç bir bağlılıq görmürlər, bir-birinin rolunu oynaya biləcəklərini ağıllarına belə gətirmirlər, nəhayət, nizamlı rəqabətdə uduzmaq qorxusundan nizamsız rəqabətə üstünlük verirlər. Demokratiyada rəqib səninlə birlikdə həqiqət axtarışında iştirak edən şəxsiyyət olduğundan, fikir fərqliliklərinə baxmayaraq, onun qayğısına qalmağı, onun inkişafını stimullaşdırmağı tələb edir. Əksinə, antidemokratiya rəqibinin heç bir sosial rolunu qəbul etmədiyindən, onun fiziki məhv edilməsinədək sıradan çıxarılmasını tələb edir. Qeyd edim ki, siyasi rəqabətdə ədavətin yaranması tərəflərin bir-birinin kim olduğunu bilməsi ilə sıx bağlıdır. K.C.Hortonun dəliliklə cinayətə insanların fərqli yanaşmasının səbəblərini izah edərkən yazır: «Cinayətlə dəliliyə münasibətimiz arasında kontrast onunla bağlıdır ki, biz bilirik cinayət nədir, ona öz narazılığımızı bildiririk, amma dəliliyin nə olduğunu bilmirik, ondan ya iyrənirik, ya yazığımız gəlir, ya da maraqlanırıq». Müxalifətçilik həyatı yaşamamış və ya hakimiyyətdə olmamış vətəndaşların iqtidara və müxalifətə münasibətləri dəliliyə göstərilən münasibət kimidir, əksinə, hakimiyyətdə olmuş müxalifətin və ya müxalifətdə olmuş iqtidarın bir-birinə olan münasibəti cinayətkara olan münasibət kimidir və ədavət məhz belə anlanılmanın qaçılmaz əlaməti kimi doğur. Hakimiyyət dəyişilmələri olmayan siyasi məkanda siyasi opponentlərin, o cümlədən vətəndaşların iqtidara, iqtidarın müxalifətə və xalqa münasibəti dəliliyə olan münasibətə yaxın olur. Vətəndaşların, o cümlədən müxalifətin iqtidara münasibət bildirməməsi, yəni onların apolitik vəziyyətə düşməsi məhz dəliliyə olan münasibət kimidir, yəni bu gün postsovet cəmiyyətlərinin vətəndaşları ya iqtidardan iyrənirlər, ya da dedi-qodu səviyyəsində maraqlanırlar, amma narazılıq ifadə edə bilmirlər. Eynilə iqtidar mənsubları da müxalifətə anoloji hiss bəsləyirlər. Rəqabətdə olan hər bir tərəf təbii olaraq tərəfdaşlarını artırmağa cəhd edir, bu da cəmiyyətdə ədavətin artması ilə müşayət olunur. Belə ədavət yalnız nizamlanmadıqda cəmiyyətə ziyan verir, yerdə qalan bütün

hallarda cəmiyyətin inkişafı üçün mühüm rol oynayır. Qeyd edim ki, siyasi ədavətin ədalətlə əlaqəsi onu şəxsi düşmənçilikdən və kinlilikdən ayırır. Əslində ədalət – başqalarının səndən qaynaqlanan şərə münasibətinə verdiyin qarşılığın adekvat və düzgün olmasıdır. Bunun əksinə, səndən qaynaqlanan şərə görə, sənə qarşı çıxanı düşmən elan etməyin ədavəti şəxsi düşmənçiliyə çevirir ki, bunun da siyasi forması kimi totalitarizm meydana çıxır.

Əvvəlki fəsillərdə iqtidarın strateji ardıcıllığına uyğun hər bir paradiqmanın təhlilində təkzibolunmaz dəlillərlə sübut etdik ki, xətti inkişaf modelini tətbiq edən hakimiyyətlər öz cəmiyyətlərində totalitarizmin yaranmasına gətirib çıxarmışdır. İndi bu fəsildə – postsovet respublikalarında formalaşmış siyasi həyatı bir qədər geniş şərh etmək istəyirəm. Şərhə keçməzdən öncə belə bir suala aydınlıq gətirmək istəyirəm. Cəmiyyətin və ya dövlətin siyasi mahiyyətini şərh edə biləcək universal kriteriyalar mövcuddurmu? Bu sual ona görə ortaya çıxır ki, orijinal kriteriyalarla eyni bir fakta yanaşdıqda fərqli nəticələr alınır, amma bu fərq özlüyündə heç bir şey ifadə etmir və həqiqətin aşkarlanmasında xüsusi əhəmiyyət kəsb etmir.

Haşiyə: Bu bir həqiqətdir ki, iki canlı eyni zamanda və eyni məkanda bir yerdə olduqda, mütləq onlar arasında həyat uğrunda mübarizə yaranır. Bu mübarizədə hər bir fərd özünü qorumağa və nəsli davam etdirməyə instiktiv istiqamət götürür. Cəmiyyət həyatında həyat uğrunda mübarizəyə həm də yaşam uğrunda mübarizə əlavə olunur. Yaşam uğrunda mübarizə – həyatı davam etdirməyə yardım edən sosial ətrafın imkanları uğrunda mübarizəni özündə ifadə edir. Sinfi mübarizələr, hüquq və azadlıqlar uğrunda mübarizə özündə insanların yaşam uğrunda mübarizəsini ehtiva edir. İnsan ictimai varlıq olduğundan, yaşam uğrunda mübarizə ilə yanaşı həm də cəmiyyətdə qrup həyatı uğrunda mübarizə gedir. Qeyd edim ki, bu mübarizələr müvafiq sosial dinamikalara uyğun yaranır. Belə üçlü cəhd üçlü dəyərlərlə tənzimlənir. Məncə, siyasiləşmə ilə bağlı təhlildə də məhz bu üç mühüm dəyər – azadlıq, bərabərlik və ədalət əsas götürülməlidir. Əslində tarix göstərir ki, bu üç paradiqma eyni zamanda tarixin yaranmasında da əsas rol oynayıb. Biz fərdi davranışları da məhz bu üç paradiqma ilə qiymətləndirsək, daha düzgün

nəticəyə gələ bilərik. Qeyd edim ki, bu üç prinsip həm də ən müxtəlif səviyyələrə görə şərh edildikdə müxtəlif nəticələr alınır. Biz burada yalnız cəmiyyət-fərd qarşılıqlı asılılığında bu üç prinsipin necə tətbiq olunmasına şərh verməklə kifayətlənəcəyik. Beləliklə, insanı, cəmiyyəti, dövləti, inkişafı və dövlətlə-şəxsiyyət, idarəedənlə-idarəolunan arasında münasibətləri eyni vaxtda şərh etməyə imkan verən bu üç kriteriya ilə siyasiləşməyə şərh vermək yerinə düşərdi.

Azadlıq nədir? Ümumiyyətlə, ictimai fikir tarixində bu üç prinsiplə bağlı sonsuz anlayışlar mövcuddur. Hər bir fəlsəfi təlimin, hər bir tarixi dövrün, hər bir xalqın özünəməxsus azadlıq anlayışı, buna uyğun azadlıq ideyası vardır. Haşiyəyə çıxım ki, vaxtilə «Alma» qəzetində «Azərbaycanlılarda azadlıq ideyası» adlı silsilə məqalələrimdə xalqımızın azadlıq ideyasının köklərini geniş şərh etmişəm. Həmin məqalə bu kitaba daxil edildiyindən, burada məsələyə başqa aspektdən yanaşmağı lazım bilirəm.

Qeyd etdik ki, insan çoxölçülü varlıqdır. E.Fromm, R.Xurai «İnsanın təbiəti» antologiyasına ön sözdə insan təbiəti ilə bağlı yazırlar: «Nə vaxtdan ki, insan insan olub, onda nə isə həmişə olan var – təbiət; amma həm də insana çox nəhəng çoxsaylı dəyişən faktorlar xasdır, onu yeniləşməyə, yaradıcılığa, quruculuğa və tərəqqiyə qabiliyyətli edir». Məhz siyasiləşmənin mahiyyəti insan təbiətində həmişə olmayan, dəyişən və cəmiyyətin tipindən asılı olaraq təzahür edən, təbiətinə münasibətlə bağlıdır. Totalitar cəmiyyət insanın dəyişən təbiətini neqativ istiqamətə, demokratik cəmiyyət pozitiv istiqamətə dəyişir. Bəs, insanın dəyişən təbiəti azadlıqla necə bağlıdır? Məlumdur ki, hərəkət materiyanın mövcudluq üsuludur. Təbiətdə hökm sürən irrasional azadlıq ətalətdir, yəni xarici təsir olmadan cismin öz daxili sükunət və ya hərəkət halını saxlamasıdır. İnsan varlığında hərəkətin sosial forması fəaliyyət kimi təzahür edir və azadlıq da öz növbəsində bu fəaliyyətin forması kimi çıxış edir. Beləliklə, sosial azadlıqda sosial ətalət – xarici təsir olmadan fərdin öz dəyişən keyfiyyətlərini inkişaf etdirə bilməsi imkanıdır. Fiziki hərəkət yalnız daxili enerjidən doğur, amma sosial fəaliyyət bundan əlavə həm də iradədən, şüurdan və məqsədyönlülükdən asılıdır. İradə, məqsədəyönlülük, cəhd, ağıl məqsədə istiqamət yaradır, azadlıq şüura və məqsədyönlülüyə görə

fəaliyyəti nizamlı sosial hərəkətə çevirir. Təbiətdə heyvanların həyatında məqsəd və şüur olmadığından onların azadlığı xaotiklik yaradır. Beləliklə, rasional azadlıq təbii kortəbiliyi, xaotikliyi, şüurlu nizamlı fəaliyyətə çevirən sosial mexanizm kimi meydana çıxır. Qeyri-azadlıq fərdə yalnız irrasional azadlığa yol açdığından, bundan fərqli olaraq xaotiklik yaradır. Azadlıq – fərdin cəmiyyətin mövcudluğunu təhdid edənə qədərki sosial məsafədə özünün təbii və sosial qabiliyyətlərinin müstəqil, kənar təzyiq və təsir olmadan, könüllü inkişaf etdirməsinin sosial vəziyyətidir. C.Dyui azadlıq haqqında yazır: «Azadlıq – şəxsiyyətin potensialının üzə çıxmasının etibarlı üsuludur». Beləliklə, azadlıq fəaliyyətdə təzahür edir və iqtidarların vətəndaşların fəaliyyətlərini məhdudlaşdırması azadlıqları boğur. Həqiqi azadlıq şəxsin öz azadlığını başqalarının azadlığı ilə nə dərəcədə harmoniya halına gətirilməsində üzə çıxır. Başqa sözlə, azadlıq fərdin başqalarına, o cümlədən, cəmiyyətə ziyan vermədən, istədiyi kimi davranmaq, fəaliyyət göstərmək, düşünmək – yəni fərdin səhvə və ya düzə müstəqil yanaşma imkanıdır. Belə ki, azadlıq fərdin səhvi və ya düzü yalnız öz idrakı ilə, xarici təsirin – başqa adamların və ya dövlətin məcburetməsi, təlqini olmadan müəyyənləşdirməsidir. Azadlıq insanın fəaliyyətini öz vicdanının səsi ilə qurmasıdır. Siyasi azadlıq insanın fərdi neqativ qabiliyyətinin qanunla qarşısının alınması əvəzində onun pozitiv tərəfinin inkişaf etdirilməsinə dövlətin borcunu özündə əks etdirir. C.Dyuiyə görə, «Azadlıq nizamın daha rasional və inkişaf etmiş formasını tələb edir». Burada nizam həm fərdə, həm də dövləti təmsil edənlərə aiddir. Siyasi cəmiyyətdə hər hansı bir tərəfin nizamsızlığı azadlıqların boğulmasına yol açır.

Demokratiya vərdiş tələb edir. Tez-tez demokratiyanın pozulması onu adətə çevirməyə imkan vermir. Hansı ki, D.Cemsin qeyd etdiyi kimi, «yalnız adətlər bizi nizam çərçivəsində saxlayır». Adət halını almamış azadlıq nizamsızlığın mənbəyidir və buna görə də irrasionaldır. Təbii vəziyyətdə cəmiyyətdən kənarda yalnız irrasional azadlıq yaranır. Buna görə də istənilən rasional azadlıq yalnız cəmiyyət həyatı ilə bağlı meydana çıxır. Azadlığın ictimai həyatda rolu haqqında K.C.Horton yazır: «İnsan nə ilə məşğul olursa olsun, əgər onda azadlıq ruhu yoxsa və onun ruhu gündəlik məqsədlərə

qərq olubsa, o, tamamilə normal və ya insani ola bilməz». Buna görə də azadlıq rifahla əlaqələnir, kasıb ölkə demokratik, yoxsul insan isə demokrat ola bilməz. Neototalitar cəmiyyətlərdə «planlaşdırılmış yoxsulluq» vəziyyəti yaradılır ki, insanlar gündəlik qayğılara qərq olaraq azadlığı unutsunlar. Azadlıq fərdi mövcudluğun – dövlətdən, cəmiyyətdən və başqalarından asılı olmama statusunun legitim vəziyyətidir.

Qeyd etmək lazımdır ki, azadlıq nəzarət funksiyası ilə sıx bağlıdır. Azadlıqda məqsəd rentabellilik, nizamda effektivlik olduğundan, C.Kinə görə, «Rentabellik və ya effektivlik vətəndaşla dövlət maraqlarının toqquşduğu sahədir». Azadlıq bu sahədə meydana çıxır. Totalitarizm maksimum rentabellik naminə fərdin iştirakı olmadan onun həyatı üzərində total dövlət nəzarətinə əsaslanır. Demokratiya bundan fərqli olaraq effektivlik baxımından şəxsi həyata dövlət nəzarətini istisna edir, dövlət nəzarətinin fərdin öz iştirakı ilə, hissəvi qaydada, yalnız ictimai fəaliyyət sahəsində həyata keçirilməsini ön görür və dövlətə vətəndaş nəzarətini tələb edir. C.Kin belə hesab edir ki, «Azadlığın differensasiya olunmamış konsepsiyasından imtina etmək lazımdır, belə ki, sosial və siyasi həyat haqqında olduqca bayağı təsəvvür yaradır…Azadlıq ictimai-siyasi həyatda daimi təşəbbüsdə olmaq qabiliyyətidir».

Azadlıq yalnız fərdi xüsusi ictimai gücə çevirmir, həm də bununla cəmiyyətin özünü də böyüdür. Hayek azadlığın ən böyük əhəmiyyəti haqqında yazır: «Cəmiyyət – yalnız azad olduqca insandan daha böyük olur». Azadlıq olmayan yerdə insan cəmiyyətdən böyük olduğundan, hətta sayca nəhəng cəmiyyətlər belə, bir despotun idarəçiliyinə tabe olurlar. Xüsusən bu mənada azadlıq kiçik cəmiyyətlər üçün hava-su kimi lazımdır. Çünki azadlıqların boğulması kiçik cəmiyyətləri o qədər kiçildir ki, o nəinki insandan kiçik olur, həm də fərd üçün belə cəmiyyət heç bir məna ifadə etmir.

Azadlıq bərabərlik prinsipi ilə sıx bağlıdır. L.Hobsbaum «İmperializm əsri» adlı kitabında yazır: «Müasir dövlət unikal sivilizasiyanın məhsuludur…azadlıq bərabərliyi nəzərdə tutur…qanunun aliliyi azadlığa ilk addımdır. Gücə, istənilən tiraniyaya qarşı durmaq liberalizmin mahiyyətini təşkil edir». Totalitar cəmiyyətlər bir qayda

olaraq total azadlığı ayrı-ayrı hissəvi azadlıqlarla, xüsusən iqtisadi azadlıqla əvəzləyir. Amma unutmaq olmaz ki, bərabərlik və azadlıq olmayan yerdə iqtisadi azadlıq və bərabərlik ola bilməz. Əslində azadlıqla bərabərlik birlikdə demokratiyanı təyin edən iki anlayışdır. C.Kin demokratiya haqqında yazır: «Demokratiya azadlıq şəraitində maksimal bərabərliyə nail olmaqdır». Bərabərlik ən müxtəlif məsələlərdə meydana çıxa bilər. Əsas üç cür ictimai bərabərlikdən – əmlak, hüquq və inanc bərabərliyindən danışmaq olar. Təbiətdə bərabərlik varlığın daxilində, ilahi tərəfindən onun planına qabaqcadan daxil edilmiş, növünün xüsusiyyətlərindədir. İnsan bundan fərqli ictimai varlıq olduğundan, onun bərabərliyi həm də xaricidir və cəmiyyətdən asılıdır. Bu baxımdan hər bir cəmiyyətin özünəməxsus bərabərlik fəlsəfəsi vardır. Məsələn, C.Kin yazır: «Neokonservatorların etatik konsepsiyasında bərabərliyə neqativ azadlıqlar qarşı qoyulur». Müasir postsovet respublikalarında da iqtidarlar azadlıqları boğarkən bərabərlikdən, bərabərliyi pozarkən azadlıqdan sui-istifadə edir və onları bir-birinə qarşı qoymaqla «güclü dövlət» ideyasını reallaşdırırlar.

Bərabərlik – cəmiyyətin hər bir adama öz azadlığını təmin etmək üçün öz əlində olan və kollektiv qaydada yaradılmış, bütün ümumi vasitələrdən və resurslardan – iqtisadi, siyasi, sosial, hüquqi vasitələrdən – başqa insanlarla bərabər istifadə etmək və özünün təbii qabiliyyətlərini nə dərəcədə sosial qabiliyyətləri ilə harmonik inkişaf etdirmək imkanı tanıması və əldə edilən kollektiv nailiyyətlərdən istifadə etmək imkanıdır. Dyuiyə görə, «bərabərlik – hər bir adamın birgə fəaliyyətinin nəticəsindəki payıdır». Bərabərlik həm də milli sərvətlərdən istifadədə millətin hər bir fərdinin payını ifadə edir. Buna görə də milli sərvətin bir qrup tərəfindən talan edilməsi ən böyük bərabərsizliyi meydana çıxarır və ya iqtidarlar belə talan üçün cəmiyyətdə müxtəlif vasitələrlə qeyri-bərabərlik vəziyyəti, xüsusən, qanun qarşısında qeyri-bərabərlik vəziyyəti yaradırlar. Bərabərlik – fərdin öz azadlığını başqası ilə müqayisədə, onlarla birlikdə harmonik təmin etmək vəziyyətidir. Bərabərliyin sosial funksiyası ictimai həmrəylik yaratmaqdır. Nə qədər cəmiyyətdə qeyri-bərabərlik inkişaf edir, cəmiyyətdə vətəndaş həmrəyliyi bir o qədər zəif olur. Bə-

rabərlik həm də müxtəlif rasional azadlıqlar arasındakı tarazlıqdır. Bərabərlik hər şeydən öncə bölgüdə təzahür edir və fərdi marağın ictimai maraqla nə qədər üst-üstə düşməsində üzə çıxır. Bərabərlik həm də fərdin öz səhvlərini düzəltmək və ya öz həqiqətlərini müdafiə etmək üçün başqaları ilə eyni imkana malik olmasıdır. Bərabərlik dövlətin fərdlərə eyni əmələ görə eyni cəza və ya eyni mükafat verilməsini özündə əks etdirir. Bərabərlik anlayışının hissəvi və radikal-total anlamı bir-birindən fərqlənir. Buna görə də bölgüdə, hüquqda, əmlakda bərabərlik kimi xüsusi bərabərlik anlayışları bir qayda olaraq qeyri-bərabərlik yaratmaq üçün istifadə edilir. Devi bərabərliyin rolu haqqında yazır: «Güclərin və sərvətin qeyri-bərabər bölgüsü, Yer kürəsi xalqlarının həyat şəraiti arasındakı nəhəng fərq, müasir dünyada ixtilafların mənbəyində, onun ən böyük təhlükəsi onun gizli əxlaqi hökmündədir». Bərabərlik ilk növbədə üç ölçülü insanın tərəflərinə bərabər baxılmasını tələb edir. İnsana və cəmiyyətə birtərəfli yanaşma fərdi və cəmiyyəti parçalayır. Belə parçalanma həm fərdi, həm də cəmiyyəti gücsüzləşdirir. Belə parçalanmış fəaliyyəti azadlığından qoparılmış fərd zombi və ya manqurt kimi çıxış edir. Təbii qeyri-bərabərliyin zorakı üsullarla pozulması ilə zorakı sosial bərabərlik yaradılması da insan cəmiyyətində eyni nəticələr verir. Zorakı qeyri-bərabərlik köləliyə səbəb olduğu kimi, A.Tokvilə görə, «məcburi bərabərlik də köləlikdir». Sosializm vaxtı ilə bu yolu tutaraq totalitar cəmiyyətin yaranmasına və bütün vətəndaşların köləyə çevrilməsinə səbəb olmuşdur. Neototalitarizm də insana birtərəfli yanaşma ilə meydana çıxır. Sosializm insanın iqtisadi tərəfinə, kapitalizm sosial tərəfinə məhəl qoymur, yalnız bazar iqtisadiyyatında insan həm iqtisadi, həm də sosial tərəfləri ilə çıxış edir.

İnsanların azadlığının və bərabərliyinin ölüçüsü ədalət prinsipidir. Rasional azadlığın irrasional azadlıqdan, rasional bərabərliyin irrasional bərabərlikdən fərqi və rasional azadlığın rasional bərabərliyə uyğunluğu ədaləti yaradır. Belə ki, əgər rasional azadlıq rasional bərabərliklə təzahür edirsə, ədalət, rasional azadlıq irrasional bərabərliklə və ya əksinə, irrasional azadlıq rasional bərabərliklə üzə çıxırsa, ədalətsizlik yaranır. Spenser «Mütləq siyasi etika»sında yazır: «Vətəndaşların fəaliyyətinə qanunla qoyulan xeyirli məhdu-

diyyətlər – qanunlar sisteminə etik bəraət qazandırır…vətəndaşların azadlıqlarını əsassız məhdudlaşdırmaq qeyri-etikdir». Beləliklə, ədalət cəmiyyətin qanun və əxlaqında təzahür edir. Qanun özündə ictimai şüuru əks etdirdiyindən, ədalət nə dərəcədə qanunların ictimai şüura uyğun gəlməsində üzə çıxır. Beləliklə, azadlığı və bərabərliyi kəmiyyət kimi qəbul etsək, onda ədalət keyfiyyət kimi çıxış edəcək. Beləliklə, azadlıq və bərabərliyin genişlənməsi kəmiyyətin keyfiyyətə keçmə qanununa tabe olaraq, cəmiyyətdə ədaləti gücləndirir və əksinə, azadlıq və bərabərlik azaldıqca, cəmiyyətdə ədalət də azalır. Ədalət cəmiyyət və dövlət resurslarında yalnız fərdi qabiliyyətə uyğun sosial qabiliyyəti inkişaf etdirmək üçün başqaları ilə bərabər əsasda ictimai və siyasi – vəzifə, həyat səviyyəsi, sosial ranq, sosial rol, imtiyaz, toxunulmazlıq və s. – pay almasını ifadə edir. Ədalət həqiqətə çatmaq dərəcəsini göstərir. Beləliklə, azadlıq - həqiqətə yanaşma vəziyyətini, bərabərlik - həqiqət axtarışında iştirakda münasibəti, ədalət isə - həqiqətə nə dərəcədə çatıldığını müəyyənləşdirir. Ədalət prinsipi ictimai şüurun bütün formalarının diqqət ayırdığı, azadlıq və bərabərlikdən daha çox əhəmiyyət verdiyi prinsipdir. Aristotelə görə, ədalət «əxlaqilik, qanunçuluq, düzgün bölgü, ortaqlıq, proporsionallıq, qənaətcillik, həqiqət, ağıllılığı ağılsızlıqdan ayırmaqdır». Aristotelin ədalət anlayışı metafizikdir. Bizcə, ədalət müstəqil deyil, o bərabərlik və azadlıqla sıx bağlıdır və mənası da bu bağlılıqdan yaranır. Rasional azadlıq və bərabərliyin olmadığı yerdə ədalətli siyasi toxuma yaranmır?

Neototalitar cəmiyyətlərdə ədalət ən çox bölgüdə pozulur. Bölgü sərvətin əmələgəlmə üsulu və qaydası ilə sıx bağlıdır. Prudon bölgü ilə bağlı yazır: «Düşmən kimi qazanmalı, dost kimi bölməli». Amma düşmən kimi qazananda dost kimi bölmək çətin olduğundan, qazanmaqla bölmək eyni prinsiplərə tabe olanda ədalət üzə çıxır. Aristotelin dövründə sərvətin yaradıcısı qul əməyi olsa da, qula tərəf kimi baxılmadığından, onun bölgüdə rolu nəzərə alınmırdı və bu, Aristotelə görə ədalətli idi. Aristotel bölgünün yalnız azad insanlar arasında ədaləti üzə çıxardığına inanırdı. Əslində bərabərlər arasında qeyri-bərabər bölgü, qeyri-bərabərlər arasında bərabər bölgü qədər ədalətsizdir. Amma bərabərlik nədə olmalıdır – istehsalda, ya

istehlakda? Bu sual da ədalətin məzmununa daxil olur. İstehsalda bərabərlik azadlıqla, istehlakda bərabərlik sosial nizamla – ədalətlə bağlı və ədalət isə rasional təzahür olduğundan, həm istehsalda, həm də istehlakda gözlənilməlidir.

Haşiyə: Əslində bu üç prinsipin bir çox anlayışları üst-üstə düşür, bu da təbiidir. Çünki hər üç prinsip eyni bir obyektə yanaşmanı şərh edir. İnsan ikili – sosial və təbii varlıq olduğundan, təbii və sosial azadlıq, bərabərlik və ədalət prinsipinin hansına üstünlük verilməsi məsələsi də önəm daşıyır. Ədalət həm təbii, həm də sosial tarazlığın şərti olduğundan, həm təbiətdə, həm də cəmiyyətdə eyni funksiyanı yerinə yetirir. Ona görə də deyə bilərik ki, təbiətdə olan ədalət cəmiyyətdə olan ədalətlə ziddiyyət təşkil etmir. Bu baxımdan ədalət həm azadlığın, həm də bərabərliyin ölçüsü ola bilər. Sosial ədalət əməllə ona verilən ictimai qiymətin məqsədəmüvafiqliyini özündə əks etdirir. İnsan şüuru ilə təbii olanlara müdaxilə etmək imkanına malik olduğundan, başqalarının azadlığına və bərabərliyinə təsir etmək imkanı qazanır. Buradan da şüurla müəyyən olunan sosial azadlıq və bərabərlik meydana çıxır. Sosial azadlıq və bərabərliyin nə dərəcədə təbii azadlıq və bərabərliyə uyğunluğunu isə ədalət müəyyənləşdirir. Tutaq ki, söhbət qanunlardan gedir. Əgər qanunlar vətəndaşların ümumi razılığı ilə qəbul olunubsa, onda bu qanun çərçivəsində baş verənlər ədalətlidir və qanunun istənilən pozğunluğu ədalətsizlikdir. Postsovet respublikalarında qanunlar bu baxımdan ədalətə xidmət etmir.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı cəmiyyət tipləri və dövlət formaları bu üç prinsipin fərqli kombinasiyalarda təcrübəyə tətbiqi ilə yaranıb. İbtidai icma quruluşunda hər üç prinsip irrasional formada cəmiyyətin təşkilində və idarə olunmasında əsas olub. İnsanlar təhtəlşüur olaraq təbiətdə hökm sürən əbədi ədalət, vəhşi azadlıq və təbii qeyri-bərabərlik qanunlarına riayət ediblər. Quldarlıq quruluşunun yaranması təbiətin sosial dillə anlanılması ilə fərqlənib və həmin vaxtdan başlayaraq insanlar təbiətdən ayrılmaqla yanaşı, təbiətin mahiyyətində olan universal nizamı da biri-birindən ayırıb, onları fərqli nisbətlərdə və fərqli təbəqələrə fərqli qaydada tətbiq etməyə başlayıblar. Quldarlıqda təbii azadlığa çox yaxın olan sosial azadlıq ya-

ranıb. Təbii qeyri-bərabərlik sosial qeyri-bərabərliklə əvəzlənib, ədalət öz əbədiliyini və ilahiliyini itirib, onun yerini bəşəri ədalət tutub. Bu cəmiyyətdə azadlıq yalnız quldarlara şamil edilib və yalnız azad insanlar bərabər hesab edilib. Qullar isə dəyər daşıyıcılığından məhrum edilib. Feodalizmə keçiddə artıq ədalət axtarışı yenidən aktuallaşıb, nəticədə təkallahlı dinlərin hər biri ədalət axtarışı ilə Allaha üz tutub. Bu cəmiyyətdə qeyri-bərabərlik, qeyri-azadlıq ilahi ədalətə əsaslanıb. Feodalizmin yaranması və ilahi ədalət prinsipi cəmiyyətdə rüşeym halında olsa da sosial ədalət institutunun – məhkəmə hakimiyyətinin yaranması ilə müşahidə olunub. Ədalət ilahi təbiətli qəbul edildiyindən, məhkəmələr də qeyri-dünyəvi olub. İnsanların sosial mövqeyi azadlığı qradiasiyaya uğradıb. Bərabərlik subyektə yox, obyektə aid olduğundan, rasional yox, irrasional bərabərlik meydana çıxıb və bu da yalnız əmlakla müəyyənləşib. Kapitalizmin yaranması ilə əvvəlki formasiyalardan fərqli olaraq müxtəlif cəmiyyət tipləri yaranıb. Belə ki, kapitalizmin başlanğıcında – vəhşi kapitalizmdə qeyri-bərabərlik, qeyri sosial azadlıqla müşayət olunan təbii azadlıq yalnız mülkiyyətə əsaslanıb, ədalət prinsipi ikinci dərəcəli rol alıb. Vəhşi kapitalizmdən çıxışda cəmiyyət iki istiqamət götürüb. a) qeyri-azadlıq + ədalətin hissəvi anlamı + sosial bərabərlik = sosializm; b) azadlıq + ədalət + təbii bərabərlik = bazar iqtisadiyyatı. Bunun yarım variantı kimi; azadlıq + sosial bərabərlik + radikal-total anlamda qəbul edən ədalət = sosial dövlət.

Utopik sosializm ibtidai cəmiyyətdə olduğu kimi, hər üç prinsipin ideal bərqərar olduğu cəmiyyət kimi təsəvvür edilir. Liberalizm öz mahiyyətinə görə utopik sosializmə yaxınlaşır, lakin təbii qeyri-bərabərlik sosial bərabərliklə kompensasiya olunmuş şəkildə meydana çıxır. Ədalət bərabərliyin, bərabərlik azadlığın ölçüsüdür. Bu prinsiplərin hər hansı birinin pozulması istənilən ölkədə demokratikləşməyə zərbə vurur. Bunu nəzərə alaraq K.Manheym yazır: «Yeni sosial nizamın müvəffəqiyyətlə funksiyalaşması üçün nəinki demokratiyanın abstrakt prinsipini saxlamaq lazımdır, ona yeni forma vermək lazımdır, həm də yeni sosial nizamın fəaliyyətini təminat altına almaq istəyiriksə sosial ədalətə nail olmaq lazımdır». «Post-sovet respublikaları hardadır?» sualına cavab verərkən bu üç dəyə-

rin bu ölkələrdə necə bərqərar olmasına nəzər salmaq lazım gəlir. Neototalitar yolu ilə inkişaf edən bütün postsovet respublikalarında azadlıqların məhdudlaşdırılması rəsmi dövlət siyasətinin aşkar tərəfidir və iqtidarlar bunu müxtəlif bəhanələrlə izah edir. Nəzərə alsaq ki, hər hansı bir cəmiyyətdə dəyərlərə rəsmi münasibəti müşahidə edən şəxsi qeyri-rəsmi münasibət də meydana çıxır, dövlətin rəsmi məhdudiyyətlərinə məmurların özbaşınalığı nəticəsində sanksiyalaşmış məhdud azadlıqlar da demək olar ki, formal məna alır. Postsovetlərin sosializmdən rəsmən imtina eləməsi və qanunların işləməməsi qeyri-bərabərliyin təbii formasına yaxın qeyri-bərabərliyə gətirib çıxarıb. Nəhayət, ədalətin nə dünyəvi, nə də ilahi anlamı hər hansı bir formada özünü göstərmir. Bununla da biz deyə bilərik ki, postsovet respublikalarında qeyri-qanuni yolla kapital toplaması ilə müşayət olunan vəhşi kapitalizmlə, son illər xüsusi inkişaf etmiş və siyasi xarakter almış tayfaçılıqla müşayət olunan feodalizasiya arasında qarışıq formalı cəmiyyət bərqərar olub.

Siyasiləşməni xarakterizə edən digər bir kriteriya plüralizmdir. Demokratiya dinamik proses olduğundan, əksliklərin olması və onlar arasında qarşılıqlı ziddiyyət qaçılmazdır. Amma belə ziddiyyətlərin dağılmaya gətirib çıxarmaması üçün konsensus – əks tərəflə mütəmadi uzlaşma plüralizmi müşayət etməlidir. Heç bir cəmiyyətdə konsensussuz xalq hakimiyyəti yarana bilməz və bunsuz plüralizm cəmiyyət üçün xeyirli ola bilməz. K.Manheymə görə, «bütün dövlətlərin struktur probleminə, milli birliyə nail olmaq, xalqın idarəetmədə iştirakı, dövlətin dünya iqtisadi nizamına daxil olması, sosial problemləri həll etmək aiddir». Demokratik dövlətin struktur probleminin həll yolları totalitar dövlətdən kəskin fərqlənir. Əgər demokratiyada milli birliyə konsensusla nail olunursa, totalitar dövlətdə zorakılıqla total tabeçilik yaranır, əgər demokratiyada xalq özü seçkili orqanlarda dolayısı ilə və vətəndaş cəmiyyəti institutlarında birbaşa iştirakla idarəetmədə həm tabe edən, həm tabe olunan rolunda çıxış edirsə, totalitar cəmiyyətdə xalqın iştirakı passivdir. O yalnız tabe olan rolunda çıxış edir.

Haşiyə: Ümumiyyətlə, demokratiyanın başlıca şərti iştirakçılıqdır. İştirakçılıq hər bir fərdin həm öz şəxsi taleyi ilə bağlı məsələ-

lərdə, həm də cəmiyyətin taleyinə aid məsələlərdə iştirak etməsidir. İştirakçılığın vacibliyi hər şeydən əvvəl fərdi missiya ilə bağlıdır. K.S.Horton yazır: «Əsl həqiqətdə bizim mənəvi həyatımız fərdi və kollektivdir…onu tam və harmonik etməyə cəhd edirik, hər bir adam bunu özünə xas şəkildə edir, amma bütün insanlar birlikdə insani təbiəti bütünlüklə yaradır və hər bir fərd ümumi işə öz töhfəsini verir». Vətəndaşların iştirakçılığı yalnız daxili münasibətlərdə yox, həm də beynəlxalq münasibətlərdə önəmli rol oynayır. Demokratik ölkədə azad sahibkarla dövlət birlikdə ən müxtəlif sahələrdə dünya iqtisadiyyatına inteqrasiya edirsə, totalitar dövlətlərdə xarici əlaqələrdə partnyor yalnız dövlətdir və o yalnız məhdud sahədə dünya iqtisadi nizamına daxil olur. Çünki total dünya iqtisadi nizamı bütünlükdə ölkədə total demokratik nizamı tələb edir. Ümumdünya Ticarət Təşkilatının üzv ölkələr qarşısında demokratiya ilə bağlı qoyduğu tələblər bununla bağlıdır. Demokratik cəmiyyətlərdə vətəndaş cəmiyyəti institutları beynəlxalq əlaqələrdə, o cümlədən xalq diplomatiyasında dövlətə bərabər iş görür. Totalitar dövlətdə sosial ədalət dövlət işi, demokratik dövlətdə isə həm də vətəndaşların öz işidir. Cəmiyyətdə iştirakçılıq birbaşa təmsilçiliklə həyata keçirilir. Təmsilçiliyin yaranması fərdin ikili təbiəti ilə bağlıdır. Belə ki, hər bir adam bu ikili təbiətinə görə daxili konfliktdə yaşayır. Şəxsiyyətdə daxili konflikt bir tərəfdən öz şəxsi maraqlarını təmin etmək, digər tərəfdən siyasi rolun onun üzərinə qoyduğu maraqları təmin etmək arasındakı ziddiyyətin meydana çıxmasından yaranır. Məhz fərdin daxili konfliktli vəziyyətini yumşaltmaq üçün təmsilçilik meydana çıxmışdır. Başqa sözlə, demokratik cəmiyyət fərdin iki tərəfindən biri – siyasi və sosial rolun onun üzərində qoyduğu öhdəliyi başqasına həvalə etməklə onu fərdi maraqların pozucu təsirindən qoruyur. Totalitarizmdə hər iki maraq totallaşır və ictimai öhdəliklər şəxsi maraqlara xidmət edir. C.Dyui təmsilçilik institutu haqqında yazır: «Daxili konfliktin minimuma endirilməsi institutların tətbiq edilməsi ilə təmsilçilik institutları yaranır». Demokratiyada təmsilçilik ikili – vasitəli, seçkili və vasitəsizdir. Totalitarizmdə təmsilçilik uzurpasiya ilə həyata keçirilir. Nə üçün seçkili təmsilçilik uzurpasiyadan cəmiyyət üçün xeyirlidir? «Biri var sən öz üzərinə öhdəlik

götürəsən, biri var sənin üzərinə öhdəlik qoyulsun». İkinci konkret gözləntilərlə müşayət olunduğundan, cəmiyyətə daha çox xeyir verir. Təmsilçilikdə hakimiyyətə təsadüfi adamların gəlməsinin qarşısı alınır, şəxsi maraqlara xidmət məhdudlaşdırılır. Təmsilçilik həm də hesabatlılıq yaratdığından, məmurları hakimiyyətin pozucu təsirindən qoruyur.

Demokratikləşmədə digər mühüm problem - hakimiyyət yüküdür. Təbiətdə bütün varlıqlar bəlli hakimiyyət əzmi ilə mövcuddur və hər bir varlıq öz hakimiyyət əzminə uyğun mövcudluğunu davam etdirir. Hakimiyyət əzmi varlığın üzərinə həyat üçün zəruri olan nümayiş etdirmə öhdəliyi qoyur. Belə öhdəliyi yerinə yetirə bilməyən varlıq məhv olur. Cəmiyyətin yaranması ilə təbii hakimiyyət əzminin konsentrasiyası baş verir, nəticədə siyasi hakimiyyət yaranır. Siyasi hakimiyyət – təbii fərdi hakimiyyət əzmlərinin məcmusu kimi meydana çıxır və nə dərəcədə siyasi hakimiyyət əzmi fərdi hakimiyyət əzmlərini cəmləşdirirsə, fərd bir o qədər hakimiyyət əzmindən – başqa sözlə, həyat və yaşam üçün zəruri olan öhdəlikləri yerinə yetirmə azadlığından məhrum olur. Mövcudluq üçün zəruri olan hakimiyyət əzmindən məhrum edilmə və konsentrasiya olunmuş siyasi hakimiyyətin fərdin üzərinə çoxlu öhdəliklər qoyması hakimiyyət yükü yaradır. Bu yük nə qədər ağırdırsa, insan bir o qədər kölə və zəifdir. Onun həyat və yaşam uğrunda rəqabət qabiliyyəti bir o qədər aşağıdır. Buna görə də insanın azadlığı onun üzərinə qoyulmuş hakimiyyət yükü ilə sıx bağlıdır. Məlumdur ki, bir insanın başqasının imkanlarından istifadə etməsi və başqasına çatacaq şeyi əldə etməsi üçün sosial həyatda hakimiyyət qədər əlverişli vasitə yoxdur və ona görə də siyasi hakimiyyət – şəxsi maraqları təmin etmək məqsədi güdən ən müxtəlif qrupları özünə cəzb edir. Digər tərəfdən, cəmiyyət üzərində paralel hakimiyyət vasitələrinə və hüququna malik qüvvələr, bir qayda olaraq, siyasi hakimiyyətlə simbiozlaşaraq vətəndaşlar üzərində hakimiyyətin idarəetmə gücündən qat-qat artıq olan hakimiyyət yükü yaradırlar. Demokratikləşmə özündə həm də hakimiyyət yükünün azaldılmasını özündə təqdim edir. Beləliklə, neototalitarizmin yaranma səbəblərindən biri də hakimiyyət yükünün durmadan artmasıdır. Bu

necə baş verir və başqa tip cəmiyyətlərdə buna oxşar nələr olur? İbtidai cəmiyyətdə siyasi hakimiyyət təzahür etməmiş və kahinliklə siyasi hakimiyyət rüşeym halında birlikdə meydana çıxmışdır. Quldarlıq cəmiyyətində siyasi hakimiyyətin əmələ gəlməsi ilə ictimai güclər arasında həm differensasiya, həm də inteqrasiya başlamışdır. Belə ki, bu dövrdə hərbi güc dövlətlə birləşmişdir, feodalizmdə ordunun yerini kilsə, hərbi gücün yerini dini inam tutmuşdur, kapitalizmə keçiddə din dövlətdən ayrılmış, kapital dövlətlə birləşmişdir, bazar iqtisadiyyatında kapital dövlətdən ayrılır, onun yerini elm tutur. Hakimiyyət yükünün həcmi və təbiətinə görə də biz cəmiyyətin siyasiləşmə qradiasiyasını müəyyənləşdirə bilərik. Qeyd etmək lazımdır ki, hakimiyyət yükü rəsmi və ya qeyri-rəsmi yollarla formalaşır. Postsovet məkanında dövlətlə qeyri-rəsmi nə birləşmişdir? Bu sualın cavabı paralel olaraq «postsovetlər hardadır?» sualının cavabıdır. Müasir dünyada din ədalətin yanında olduğundan, ədalətsizlik dövlətdən qaynaqlandığından, din cəmiyyətə ilahi nəzarət həyata keçirdiyindən, dövlətdən ayrılmış və bir qayda olaraq onun qarşısında mövqe tutmuşdur və ən azı siyasətə bitərəf qalmışdır. Beləliklə, əgər din hakimiyyətin qarşısında deyilsə, deməli ya yanında, ya da arxasındadır. Neototalitarizmə keçmiş bütün postsovet respublikaları üçün keçmişdən qalma ənənə üzrə dindən siyasi məqsədlər üçün – xalqı itaətdə saxlamaq, siyasi fəallığın qarşısını alaraq xürafata meylləndirmək, dinin pozitiv tərəflərindən cəmiyyətin bəhrələnməsinin qarşısını almaq xarakterikdir. Başqa sözlə, bu ölkələrdə din qeyri-rəsmi şəkildə dövlətin yanındadır və din xadimləri öz dünyəvi maraqlarını hakimiyyətdəkilərin maraqları ilə birləşdirmişdir. Hətta din xadimləri bunu açıqca elan etməkdən belə, çəkinmirlər. Dinin dövlətə xidməti müqabilində də dövlət də dinə xidmət edir. Cəmiyyətdə mövcud dini lider, təriqətlərə rəqib olan liderlər və təriqətlər rəsmi dövlət vasitələri ilə neytrallaşdırılır. Yuxarıda qeyd etdik ki, din yalnız feodalizasiyada dövlətlə – siyasətlə birləşir. Postsovet respublikalarında dövlət məmurlarının iqtisadiyyata nəzarət etməsi, qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olması, fiktiv kapitalın yaranmaması, müəyyən dərəcədə kapitalın dövlətlə bütləşməsinə gətirib çıxarıb. Beləli-

klə, postsovet respublikalarında qeyri-rəsmi olaraq din və kapitalın dövlətlə birləşməsi qeyri-demokratik hakimiyyət yükü yaratmışdır. Bundan başqa zaman-zaman hakimiyyətin müxtəlif səviyyələrində kök salmış təhlükəli cinayətkar qrupların aşkarlanması göstərir ki, bu ölkələrdə hakimiyyət yükünün ağırlaşmasında kriminallar da iştirak edir. Beləliklə, yuxarıda şərh etdiklərimizə əsasən postsovet respublikalarının əksəriyyətində yarımfeodal, yarımbaşlanğıc kapitalizmin formalaşdığını iddia edə bilərik.

Haşiyə: Qeyd edim ki, demokratiya da hakimiyyətin yüklənməsindən sığortalanmayıb. Xüsusən, müasir inkişaf etmiş demokratik ölkələrdə lobbilər və massonlar hakimiyyət yükünü ağırlaşdırır. Vətəndaşları hakimiyyət yükündən azad etmək demokratikləşmənin başlıca vəzifəsi və onun mahiyyətidir. Bu problem yalnız suverenliyin hərəkəti ilə həll edilə bilər. Totalitar cəmiyyətlərdə suverenlik hərəkətsizdir və yalnız idarəedənlərə məxsusdur. Yalnız demokratikləşmə ilə suverenlik hərəkətlilik əldə edir. Cəmiyyətin siyasiləşməsinin digər bir göstəricisi də məhz suverenliyin hərəkətidir. Suverenlik - Ali sərəncam hüququdur. Siyasi teologiyaya görə, Ali suverenlik yalnız Allaha, monarxiyada tək bir fərdə - monarxa, demokratiyada ümumi şəkildə xalqa, liberalizmdə pozitiv insani keyfiyyətlərə malik şəxsiyyətə məxsusdur. Suverenlik nə qədər fərddən uzaqdırsa, hakimiyyət yükü bir o qədər ağırdır. Beləliklə, hakimiyyətin suverenliklə əlaqəsində meydana çıxan fakt budur ki, liberalizmdə fərd özü-öz üzərində, demokratiyada başqaları ilə birlikdə öz üzərində, buna paralel, başqaları ilə birlikdə başqaları üzərində, totalitarizmdə insan üzərində başqalarının zorakı, despotiyada başqalarının özbaşınalıq hakimiyyəti, anarxiyada isə fərdin özbaşınalıq hakimiyyəti meydana çıxır. Bu baxımdan çoxluğun heç bir hakimiyyəti mütləq suverenliyə əsas vermədiyindən, xalqın, o cümlədən azlığın hakimiyyətdə iştirakının qeyri-ənənəvi formaları yaranır. Məsələn, demokratiyada KİV-nin ictimai nəzarəti həyata keçirməsi rəsmi dövlət nəzarəti qədər əhəmiyyət kəsb edir. Suverenliyin formasından asılı olaraq, vətəndaşlar ya siyasi hakimiyyətlə razılaşır – demokratiyada belə olur, ya könüllü qəbul edir – monarxiyada olduğu kimi, ya razılaşmır, amma dözür – totalitarizmdə

olduğu kimi. Neototalitar rejimlər vətəndaşların siyasi hakimiyyətə dözümü üzərində bərqərar olur.

Hakimiyyət yükü onun həyata keçirilmə üsul və vasitələri ilə birbaşa əlaqəlidir. Bu baxımdan hakimiyyət vasitələri də siyasiləşmənin ən ciddi elementlərindən biridir. Tarixən hakimiyyət fiziki gücə, sərvətə, şərəfə, hiyləyə və nəhayət, ağıla əsaslanıb. Bütün diktaturalar, despotiyalar və totalitar cəmiyyətlər yalnız kobud fiziki gücə və hiyləyə əsaslanır. Ordu və polis bu quruluşların yeganə dayağına çevrilir. İqtisadi potensial sərvət formasında mövcud olur. Belə idarəçilik forması feodalizasiya üçün xarakterikdir. Demokratiyanın meydana gəlməsi ilə ağıl idarəetmədə yeganə hakimiyyət gücü kimi çıxış edir. Ağıl istisna olmaqla digər hakimiyyət vasitələri vətəndaşlar üçün hakimiyyəti anlaqsız edir. Buna görə də belə cəmiyyətlərdə yaşayan insanlar hakimiyyətdən «başçıxara» bilmirlər. Ağlın müasir inkişafı ilə demokratik inkişaf yaşıddır. Bundan əvvəlki bütün cəmiyyətlərdə despotiya ilk növbədə həmin dövrlərin ağıl səviyyəsinə uyğun olub. E.Faqe yazır: «İnsan qul kimi doğulub, despotizm insan cəmiyyətinin təbii formasıdır». Nəzərə alsaq ki, insan həm də şüursuz doğulur və yaşa dolduqca ağıllanır, deyə bilərik ki, köləlik - siyasi şüursuzluq vəziyyətidir. Bundan fərqli olaraq, demokratiya sosial formadır yalnız təkmilləşmə və inkişafla müşayət olunan ağıllanmanın nəticəsidir. Xüsusən, elmin dövlətlə birləşməsi ağılı idarəetmə vasitəsinə çevirir. Ağlın idarəetmədə rolu hələ qədim dövrlərdən bəlli idi. Belə ki, Platon effektli siyasi hakimiyyət haqqında deyirdi ki, «ya filosoflar dövləti idarə etməlidir, ya da hökmdarlar filosofların məsləhəti əsasında dövləti idarə etməlidirlər». Bu yanaşma ilə qədim dövrlərdə, eləcə də orta əsrlərdə alim və filosoflar hakimiyyət gücünü təmsil edən faktorlar kimi çıxış edib. Müasir dövlətlərin təcrübəsində alimlərin siyasi işə cəlb edilməsi və ya hakimiyyətin elmi nailiyyətlər əsasında idarə olunması geniş şəkildə təcrübədən keçirilməkdədir. Demokratiya bu istiqamətdə cəmiyyətə daha çox imkan tanımaqdadır. Demokratiya cəmiyyətin həqiqi təbii sosial formasıdır. Həqiqət isə yalnız elm vasitəsi ilə aşkarlandığından «demokratiya – həqiqət – elm» xətti əlaqəsi yaranır. Ağıl öz-özlüyündə elm və təhsillə birbaşa əlaqəli olduğun-

dan, demokratiya üçün elm və təhsil dövlət siyasətinin əsasını təşkil etməlidir. Qeyd etmək lazımdır ki, elmin ictimai həyatın müxtəlif sahələri ilə əlaqəsi inkişafın təbiətini müəyyən edir. Əslində elm siyasətlə birlikdə hərəkət edir. Buna görə də R.L.M.Şellinq «Ruhun rahatlığından ötəri elm» adlı əsərində yazır: «Elm və siyasət baş verən bütün pisliklərə ümumi cavabdehlik daşıyırlar və eyni zamanda hər şeyin yoluna qoyulması onlardan gözlənilir». Bu, sosiologiyada alimin cavabdehliyi kimi ifadə olunur. O cəmiyyətdə ki, hətta hakimiyyətdə iştirak etməsə də, alim hakimiyyətin qüsurlarına görə özünü cavabdeh bilmir və buna görə də siyasi proseslərdən kənarda durur, o alim həqiqi alim deyil və belə alimlərin olduğu cəmiyyət heç vaxt demokratikləşə bilməz. Tarixi inkişaf prosesində zaman keçdikcə siyasət hətta ikinci dərəcəli rol alır, əvəzində elm önə çıxır və rifahın yaradılmasında mühüm rol oynayır. E.Töffler ABŞ-ın dünya liderliyinə gətirib çıxaran müasir nəhəng gücünün və potensialının məhz istehsalın intellektual tutumu ilə əlaqəli olduğunu qeyd edir. Demokratiya üçün elm iki mənada zəruridir. Birincisi, demokratik rifah özünün həcminə və xarakterinə görə özündən əvvəlki cəmiyyətlərdəki rifahdan fərqləndiyindən, yeni rifahın və həm də tələb olunan həcmdə yaradılması elmin inkişafından asılıdır. İkincisi, demokratiyanın mənimsənilməsi məhz biliklə bağlı olduğundan, elm tələb edir. Beləliklə, demokratiyada elm bir tərəfdən demokratiyanın mənimsənilməsinin və inkişafının vasitəsi, digər tərəfdən demokratik rifahın yaradılma vasitəsi kimi çıxış edir. Əslində tərəqqi prosesini bütünlüklə siyasi hakimiyyətin elm tutumluluğu ilə qiymətləndirmək daha düzgün olar. Əgər tarixə nəzər salsaq görərik ki, feodalizm elmə müharibə elan etmiş, kapitalizm elmi özünə əsir edərək özünün bütün inkişafını onunla reallaşdırmışdır. Yalnız demokratiyada – bazar iqtisadiyyatında - elm siyasi hakimiyyətə paralel inkişaf etmiş və hakimiyyət vasitəsindən hakimiyyətin şərikinə və onun məqsədinə çevrilmişdir. Göründüyü kimi, demokratiyada elm yeganə hakimiyyət yükü kimi çıxış edir. Qeyd edim ki, elmin hakimiyyətlə birləşməsi digər birləşmələrdən fərqli olaraq hakimiyyətin ağırlığını yüngülləşdirir. Elmi siyasət nəticəsində hakimiyyət şəffaflaşır və vətəndaşlar tərəfindən anlaşılan,

başa düşülən vəziyyətə keçir. Başqa sözlə, elmin bütün müsbət keyfiyyətləri siyasi hakimiyyətə keçir. C.Bernal «Cəmiyyət tarixində elm» adlı kitabında yazır: «Elmdə tərəqqi məkan və zamanda yalnız yeknəsağlıqdan fərqli hər şeydir». Elm öz təbiətinə görə daim dəyişən və inkişaf edən olduğundan, elmi yükü olan hakimiyyət də daim dəyişkən və inkişaf edən olur. Bu, həm hakimiyyətdə baş verən keyfiyyət dəyişilmələrində, həm də hakimiyyəti təmsil edənlərin dəyişilmələrində özünü göstərir. Demokratik cəmiyyətdə elmlə cəmiyyət o dərəcədə biri-biri ilə sıx bağlanır ki, elmi inkişafın hər bir mərhələsi hansısa sosial və ya iqtisadi yenidənşəkillənməyə uyğun gəlir, başqa sözlə, hər hansı bir cəmiyyətdə həqiqətən inkişaf gedirsə, bu ilk növbədə elm sahəsindən başlayır və ya elmin həqiqi inkişafı mütləq cəmiyyətin inkişafı ilə nəticələnir. C.Bernal da təsdiq edir ki, «Elm bizim sivilizasiyanın sürətlə yenidən qurulmasının vasitəsidir». Məhz iqtidarların hər cür islahatlardan qaçmaq, cəmiyyəti durğunluqda saxlamaq cəhdləri ilk növbədə elmə ikinci dərəcəli rol ayırmalarından keçir. C.Bernal yazır ki, «Elmin istehsala tətbiqi istehsalı və siyasi tarazlığı pozur». Totalitar cəmiyyətlərin liderləri bunu başa düşür və buna görə də elmin qarşısına sədd çəkirlər. «Stabilliy»ə verilən xüsusi önəm də yalnız bununla bağlıdır.

Haşiyə: Bu gün postsovet respublikalarında iddia olunan iqtisadi inkişafın nəyin hesabına və hansı vasitələrlə baş verdiyi açıq şəkildə izah edilmir. Müasir dünyanın iqtisadi inkişafı göstərir ki, elmi inkişafdan başqa iqtisadiyyatı başqa vasitələrlə inkişaf etdirmək vasitəsi yoxdur. Elmlə iqtisadi inkişaf arasındakı əlaqə haqqında C.Bernal yazır: «İstehsalın texniki vasitələrindən asılı olan istehsal münasibətləri istehsal vasitələrinin özündə dəyişilmələrin zəruriliyini şərtləndirir və bu elmin inkişafına səbəb olur. Heç bir cəmiyyət istehsal güclərinin funksiyalaşması üçün zəruri olan elmi biliklərin məcmuusuz ötüşə bilməz. Elm yalnız iqtisadi inkişafı müəyyən etmir, hər şeydən əvvəl elm ictimai dəyişilmələrin, o cümlədən, siyasi inkişafın yeganə vasitəsi olaraq qalır…elmin daxilində yenidənşəkillənmə ictimai hadisələrə görə baş verir, daha artıq dərəcədə isə cəmiyyətin yenidənşəkillənməsi elmin inkişafına görə baş verir…ictimai sferada mühüm fəaliyyət seçmək elmin əmələgəlmə-

si özündə bütün insanlıq tarixində həlledici və dəfedilməz addımı təqdim edir». Əslində bəlkə də elmə xüsusi diqqət ayrılmağa postsovet respublikaları qədər ehtiyacı olan cəmiyyətlər demək olar ki, azdır. Elmsiz güclü dövlət yaratmaq, xalqı yoxsulluqdan xilas etmək olmaz. P.M.S.Blekket «Zəif inkişaf etmiş ölkələr və elmlər» adlı kitabında yazır: «Elmdə və texnikada sərvətə açar var, amma istehsal və rifah bölgüsü – bu, artıq çoxnaxışlı siyasi parçanın əsasıdır». Rifah bölgüsündə qeyri-bərabərliyə can atan iqtidarlar isə elmi sıxışdırmağa cəhd edir, buna görə də ağlın ictimai həyatda roluna əhəmiyyət vermirlər. K.Manheym yazır ki, «Konservatorlar ağılı tarix, həyat və millətlə əvəzləyirlər və həyatın irrasionallığını deduktiv meylə qarşı qoyurlar». Beləliklə, insanların başını gündəlik qayğı ilə qarışdırmaq, bu günü yox, yalnız uzaq keçmişi araşdırmaq və təbliğ etmək, ayrı-ayrı fərdlərin konkret maraqlarını yox, ümumi millətin abstrakt maraqlarına prioritet verilməsi konservativ cəmiyyətin, eləcə də totalitarizmin əsas elementlərindəndir. Postsovet respublikalarının siyasiləşməsi də bu yolla baş verir.

Demokratikləşmə ziyalı problemi ilə sıx bağlıdır və demokratiya ziyalı insanların nailiyyətidir. Ziyalı kimdir? Bu sual köhnə olduğu qədər də aktualdır. Postsovet insanlarında ziyalı, hansı yolla əldə edilməsindən asılı olmayaraq, hər hansı bir sahədə diplomu olan, hakimiyyətin təbliğatçısı kimi çıxış edən, xalqın hakimiyyətə tabe etdirilməsində xidmət göstərən kütlədən ayrılmış və təcrid olunmuş vətəndaşların ümumi həyat səviyyəsindən fərqli yaşam tərzinə malik insanlardır. Məhz buna görədir ki, keçmiş sovet ənənələrinə uyğun ziyalıya belə qiymət hələ də postsovet məkanında rüşvətlə diplom almaq, formal ali təhsilli olmaq, hakimiyyətin tapşırıqlarını qul kimi sözsüz yerinə yetirmək, xüsusən hakimiyyət cinayətlərində iştirak xarakterikdir. Neototalitar cəmiyyətin ziyalısı – hakimiyyət qarşısında gözükölgəli, günahkar, müdafiəsiz, xalqdan ayrı düşmüş, ictimai maraqlara yadlaşmış, siyasi inkişafa laqeyd qalanlardır. Əsl həqiqətdə isə ziyalı – xüsusi təhsili olmasa da, cəmiyyətin nizamlanmasında və inkişafında aktiv iştirak edən, xalqla eyni taleyi bölüşən, özünü sosial əyintilərin təsirindən qoruyan, elmə, mədəniyyətə hamilik edən insanlardır.

Haşiyə: Bu gün postsovet cəmiyyətlərində də ən passiv təbəqə məhz ziyalı adı daşıyan - alimlər, mühəndislər və s. bu qəbildən olanlardır. Bunun bir çox səbəbi var. Birincisi, məktəb məsələsidir. Yuxarıda qeyd etdiyim kimi, sovet məktəbi mütəxəssisləri zombi kimi yetişdirmişdir, istər alim, istər mühəndis özünü dərkdə həmişə fəhlədən də aşağı saxlanmışdır. İkincisi, formal statusla real məzmunun uyğunsuzluğudur. Yəni, alim və mühəndislərin əksəriyyəti bu adı daşımağa layiq deyil. Rüşvətlə hər şeyin həll olunduğu cəmiyyətdə alim olmağın da qeyri-ənənəvi yolu genişdir. Üçüncüsü, seçim imkanının məhdudluğudur. Cəmiyyət qapalı olduğundan alimlər və mühəndislər iş yerlərindən asılı vəziyyətdədir. Dördüncü səbəbsə xaricdən mütəxəssis gətirilməsinə üstünlük verilməsidir. Qeyd edim ki, dövlət müstəqilliyinə xaricdən mütəxəssis gətirilməsinə üstünlük verilməsi qədər zərbə vuran ikinci bir hərəkət yoxdur. U.A.Lyuis yazır: «Hər bir ölkə öz proqramlarına lazım olan sayda xarici mütəxəssisləri təmin etməyə arxayın ola bilməz və öz müstəqilliyini təmin etmək üçün elmi-texniki kadrlarını yaratmalıdır». Neototalitarlar daxildə ziyalılığa qarşı müharibə elan etdiklərindən, xarici mütəxəssislərdən asılı vəziyyətə düşürlər ki, bu da ilk növbədə müstəqilliyin tədricən zəifləməsinə gətirib çıxarır.

Dövlət həyatında elmin əhəmiyyəti həm də dövlətin beynəlxalq əlaqələrinin yaradılmasında və onun mövqeyinin möhkəmlənməsində üzə çıxır. Q.Lizzet bununla bağlı yazır: «Bizim dövrün böyüklüyü ondan ibarətdir ki, bütün istedadlıların, elmin bütün ehtiyatlarını zəif ölkələrdə sosial və iqtisadi problemlərin həllini tapmaq üçün səfərbər etməyə imkan verir…insanlığın qorunması vəzifəsi xalqların həmrəyliyini və ölkələr arasında əlaqələrin möhkəmlənməsini tələb edir». Başqa sözlə, ziyalılar xalq diplomatları rolunda çıxış etməlidirlər. Müasir dövrdə mövcud konfliktlərin həllində ziyalıların iştirakının təmin edilməməsi və onların özlərinin passiv mövqe tutması siyasilərin apardığı işi hələ də nəticəsiz qoymaqdadır.

Demokratik həyat tərzi öz mahiyyətinə görə alimin və ya ziyalının həyat tərzi ilə eynidir və buna görə də cəmiyyətin ziyalılaşması onu demokratikləşdirir. M.Qoldsmit və A.Makkey belə fikirdədirlər

ki, «elm – bizim həyat tərzimizi formalaşdıran həlledici və bizim gələcəyimizi müəyyənləşdirən əsas faktorlardandır». Elm həm də sosial əyintilərə qarşı ən yaxşı mübarizə vasitəsidir. Hətta elmli adamın cinayətkarlığı da nadanın cinayətkarlığı qədər cəmiyyət üçün ağır nəticələr vermir. Elm qəlbi incəldir. İnsandan qabalığı və zorakılığı uzaqlaşdırır. Hətta bir-birinə düşmən xalqların alimləri belə, düşmənçilikdə iştiraka meyl etmir. Qemfri Devi elmin təmizləyici rolu ilə bağlı yazır: «Tez-tez belə fikir bildirirlər ki, dəqiq elmlərin və texnikanın inkişafı, siyasi sarsıntılar yalnız ona görə yaranır ki, sosial elmlər geri qalır. Əgər texnikanın inkişafının sosial təsirləri həcminin cəmiyyətin öz problemləri ilə eyni tam obyektivliklə öyrənilsəydi, onda necə ki, çoxları təsdiq edir, siyasətdə çirkdən və qeyri-müəyyənlikdən əhəmiyyətli dərəcədə qaçmaq olardı». Neototalitar cəmiyyətlərdə elmə xüsusi diqqət ayrılmadığından, bu cəmiyyətlər «çirkli cəmiyyətlər» kimi meydana çıxır.

Elmin digər bir rolu yenidənqurmada üzə çıxır. F.V.Y.Şellinqə görə, «Hər bir insan dünyaya gəlməklə özü ilə yanılmalar gətirir və o, məhz bu yanılmaları dəf etməlidir». Lakin elmsiz insan nəinki anadangəlmə yanılmaları dəf edə, əksinə, çoxlu sayda qazanılma yanılmalara düçar ola bilər. Elm fərdin inkişaf yolunu işıqlandırmadıqca kimsə irəliyə doğru addım ata bilməz. Qeyd etmək lazımdır ki, elm fakt kimi birbaşa cəmiyyətin və fərdin yenidənqurulmasında iştirak etmir. Hər hansı elmi nailiyyət geniş kütlələrin malı olmadıqca elmin əhəmiyyəti olmur. Ona görə də elmlə bağlı dövlət siyasəti elmi kütlələrə yaymaq olmalıdır ki, demokratikləşmədə məhz buna görə təhsilə xüsusi önəm verilir.

Demokratiya, elm və təhsil qarşılıqlı əlaqədədir. Birincisi, elm təhsil yolu ilə əldə edildiyindən, demokratiyada təhsil və təhsilin demokratikləşməsi mühüm problemlərdən biri kimi çıxış edir. İkincisi, demokrat üçün vacib olan ictimai davranışların uşaqlara aşılanması da demokratik təhsilin vəzifəsinə çevrilir. Təhsilin vəziyyəti isə öz növbəsində məktəbin cəmiyyət həyatında yerindən və iqtidarın təhsil siyasətindən asılıdır. Məktəb cəmiyyətin bir neçə tərbiyə müəssisəsindən biridir və digər müəssisələrin təbiətini özündə refleksiya edir. Unutmaq olmaz ki, inkişaf etmiş bütün dövlətlərdə

məktəb dövlət gücünü təmin edən müəssisə kimi fəaliyyət göstərir. Məhz Qardaş Türkiyə dövləti də məhz ordusuilə bərabər həm də mükəmməl təhsil sisteminə görə ayaq üstədir.

Haşiyə: Totalitar cəmiyyətin məktəbi kölə insanların yetişməsinə xidmət edir. Birincisi, məktəbin idarə edilməsi demokratik olmadıqca, məktəb demokrat yetişdirə bilməz. Məktəbdə seçki və şagirdlərin iştirakı ilə idarə olunması demokratik təhsilin elementlərindən biri olmalıdır. İkincisi, demokratik idarəetmə əməkdaşlıq, birgəfəaliyyət, rəqabət və yarışı özündə ifadə edir. Məktəbdə həm şagirdlər, həm müəllimlə şagirdlər arasında əməkdaşlıq sahələri yaradılmalıdır. Üçüncüsü, məktəb demokratik sterotiplərin yetişməsini təmin etməlidir. Bu gün postsovet məkanında hakimiyyətdəkilər demək olar ki, bütünlüklə sovet təhsil sisteminin yetişdirmələridir və çox təəssüf ki, bir çoxu yalnız həmin sistemin eybəcərliklərini yaxşı mənimsəyiblər. Bu da postsovet məkanında ciddi sterotip problemini yaratmışdır. Dördüncüsü, məktəb demokratik cəmiyyət tipi modeli kimi formalaşmalıdır və bu modeldə uşaqlar demokratiyanı eksperimentdən keçirməlidir. Xüsusən, seçki vərdişləri vətəndaşlarda məktəb yaşlarından aşılanmalıdır. Dərslərin və müəllimlərin seçilməsi şagirdlərdə seçim vərdişləri aşılamaqla onları gələcək siyasi seçimə hazırlaya bilər. Beşincisi, məktəb istiqamətləndirici rol oynamalıdır. Hər şeydən öncə məktəb rəhbərliyə istiqamətlənmə probleminin əsasını qoyur. İnsana eyni vaxtda iki cür rəhbərlik – xarici və daxili rəhbərlik hökm edir. Məktəb şagirdlərdə daxili rəhbərliyə – vicdana, borca, məsuliyyətə, öhdəliyə, başqa sözlə, özü-özünə rəhbərliyə istiqamətlənməni öyrətməlidir. Digər tərəfdən, demokratik təhsil – uşaqları mənəvi dəyərlərə, ictimai maraqlara, totalitar təhsil - şəxsi maraqlara və maddiyata istiqamətləndirir. Əşya özü istiqamətləndirici gücə malik olduğundan, məktəb əşyaya düzgün istiqamətlənməni öyrətməlidir. Postsovet məkanında təhsil bilavasitə «yaxşı – asan və zəhmətsiz yaşamağ»ın yolu kimi dərk edilir. Belə təhsil heç bir demokratik vəzifə yerinə yetirə bilməz. Təhsilin merkantilcəsinə mənimsənilməsi cəmiyyətdə merkantillər ordusu yetişdirir və təhsil sferasını bazara çevirir. Beləliklə, uzlaşma, konsensus, ictimai həmrəylik kimi demokratik dəyərlərin uşaqlara aşılanması

cəmiyyətdə vətəndaşların həmin dəyərlərə istiqamətlənməsinə səbəb olur. Müəllimləri və öz yoldaşları ilə birgəfəaliyyət məktəblilərin gələcəkdə cəmiyyət həyatında həmrəyliyə və əməkdaşlığa meylin əsasını qoyur. Tədris prosesində şagirdlər arasında bilik əldə etmədə rəqabətin və yarışın ən müxtəlif demokratik formalarını inkişaf etdirmək lazımdır. Altıncısı, dünya qloballaşır, buna görə də məktəb qlobal dünyada yaşayacaq və işləyəcək insan hazırlamalıdır. Şagirdlərə bəşəri idrak və qlobal düşüncə tərzi aşılanmadıqca, yeni dövlətlərin dünyaya inteqrasiyası problemli qalacaq. Bunun üçün şagirdlərdə sosial uyğunlaşma qabiliyyəti inkişaf etdirilməlidir. Qeyd edim ki, mühitə uyğunlaşmanın demokratik və totalitar formaları vardır. Totalitar forma adətlərə uyğunlaşma kimi xarici dəyişilmə ilə həyata keçirilir. Belə halda daxillə xaricin uyğunsuzluğu mənəvi konflikt yaradır. Belə konfliktli şəxs zorakılığa, destruktivliyə meylli olur. Əksinə, demokratik uyğunlaşma daxili dəyişilmə ilə mümkün olur. Belə halda fərd öz inkişafında maraqlı olur. Xarici dəyişilmələrə mənəvi yüksəliş və inkişafla cavab verir. Bu, insanda mübarizlik, iştirakçılıq və təşəbbüskarlıq yaradır. Yeddincisi, təhsil demokratik şəxsiyyətin yetişməsinə xidmət etməlidir. Sosial həyat müxtəlif sferalardan təşkil olunduğundan, hər bir sfera cəmiyyətdə fərdi bir tərəfə dartaraq «parçalayır». Nəticədə şəxsiyyətin parçalanması onu deqradasiyaya uğradır. Məktəb belə bir şəraitdə daxili tamlığın, bütövlüyün qorunması qabiliyyətini aşılamalıdır. Səkkizincisi, məktəb uşaqlarda sosial əyintilərə immunitet yaratmalıdır. Təhsilin funksiyasına proqnozlaşdırılan mühitdə yaşamaq, sosial mühitin mənfi tendensiyalarından qorunmaq, məhdudluqdan qaçmaq, daha geniş dairələrlə ünsiyyətə girmək cəhdini öyrətmək daxil olmalıdır. Demokratik cəmiyyətdə sosial mühit dəyişkən olur, sabit mühitdə yaşamaqla dəyişkən mühitdə yaşamaq fərqli keyfiyyətlər tələb edir. Hər bir cəmiyyətdə sosial əyintilər var və onlar yolxuculuq qabiliyyətinə malikdir. Məktəb uşaqlarda sosial xəstəliklərə qarşı immunitet yaratmalıdır. Demokratik təhsil, təhsil alanları məhdud çərçivələrdən – cinsi, milli, yaş, regional məhdudiyyətlərdən çıxarmalı, onu universal şəxsiyyətə çevirməklə qlobal dünya ilə ünsiyyətə hazırlamalıdır. Açıq cəmiyyət açıq şəxsiyyət, açıq şüur tələb edir. Qa-

palı şəxsiyyət, məhdud şüur yalnız qapalı cəmiyyətə – totalitarizmə xidmət edə bilər ki, postsovet respublikalarının məktəbləri buna xidmət edir.

Təhsilin təşkili məsələsi də prinsipial əhəmiyyət daşıyır. Totalitar cəmiyyətdə təhsili yalnız dövlət təşkil edir. Etatik təhsil bu baxımdan siyasiləşir. Demokratik təhsilin təşkilində bir neçə güc, o cümlədən xüsusi sektor və cəmiyyət iştirak etdiyindən, özəl təhsil sisteminin həcmi əhəmiyyət daşıyır. Məktəb iki işi – qabiliyyəti və yaradıcı enerjini üzə çıxarmağı bacarmalıdır. Əslində təhsil prosesinin fəlsəfəsi bundan ibarətdir. Nəhayət, təhsil prosesində şagirdlər və müəllimlər arasında yaranan həmrəylik ictimai həmrəyliyin əsasında durmalıdır. Uşağın qüsurları özü ilə bərabər böyüyüb cinayətə çevrildiyi kimi, məktəbin qüsurları da cəmiyyətə keçərək onu eybəcərləşdirir.

Təhsil həm də nəsil problemi ilə bağlıdır. Əgər totalitarizm keçmişə ünvanlanırsa, demokratiya gələcəyə yönəlik proses kimi meydana çıxır. Postsovet cəmiyyətlərdə tarixə münasibət demokratikləşmə ilə bağlı ciddi problemlər yaradır. Qeyd edim ki, insanlarda tarixə münasibətdə iki meyl müşahidə olunur: rekapitulyasiya – ibtidai şüura qədər geri qayıtma; retrospeksiya – keçmişdən dərs almaq. Məktəb hər şeydən öncə şüurun rekapitulyasiyasının qarşısını almalı, retrospeksiyada yalnız pozitiv hallardan dərs götürmək qabiliyyətini aşılamalıdır. C.Dyui yazır: «İnsanın öz keçmişi böyük resursdur, o həyata yeni ölçülər təklif edir». Lakin öz keçmişimizdə həyatın ölçülərini kifayət qədər daraldan məqamlar da var. Buradan da «demokratiya – gələcək – gənclik – dəyişilmə – təhsil» xətti inkişafı meydana çıxır.

Təhsilin insan üçün əhəmiyyətinin kökləri təbiətin özündədir. C.Dyui «Demokratiya və təhsil» adlı əsərində yazır ki, «canlı varlığın cansızdan əsas fərqi birincinin daim yeniləşməsidir. Bu yeniləşmədə bütün canlılar həyat təcrübəsinin mühitin dəyişilmələrinə uyğunlaşmaqla iştirak edir». Sosial həyat təbii həyatdan həm də tarixi təcrübənin olması ilə fərqlənir və insan tarixi təcrübəni öyrənməklə sosial mühitə uyğunlaşır. Amma insan həm də bundan fərqli olaraq, sosial mühiti dəyişdirməyə meyl edir. İstər tarixi təcrübə, istər so-

sial mühiti şüurlu dəyişdirmə hər şeydən öncə zəruri biliklər əldə etməklə bağlı olduğundan, təhsilin cəmiyyətdəki rolu aktuallaşır.

Haşiyə: Təhsil düşüncə problemi ilə də bağlıdır. Qeyd etdik ki, neototalitarizm yalnız psevdodüşüncə – iqtidarların vətəndaşlara təlqin etdiyi düşüncə – hesabına formalaşır. Heyvanları əhilləşdirməklə onlarda yeni vərdişlər aşılamaq mümkün olduğu kimi, siyasi təlqin yolu ilə hakimiyyətlər xalqları neototalitarizm üçün əhilləşdirirlər. Məhz təhsil və elm siyasi təlqinlə ziddiyyət təşkil etdiyindən, totalitar cəmiyyətlərdə təhsil ya məqsədyönlü inkişaf etdirilmir, ya da siyasiləşdirilir.

Hər bir fərdin üç tərəfi – fiziki bədəni, hissi emosional sferası və şüuru olduğundan, idman, incəsənət və təhsil insanın ayrı-ayrı tərəflərini həm ayrılıqda, həm də birlikdə inkişaf etdirir. Bu üsullardan hər hansı birinin birtərəfli inkişafı siyasi konyukturaya tabe olur. Müasir dövrə qədər yaşamış olimpiya oyunları Qədim Yunanıstanda, yalnız dinc dövrlərdə əyanların hakimiyyət uğrunda mübarizəsinin qarşısını almaq məqsədi ilə düşünülüb və min illər keçməsinə baxmayaraq idmanlaşma eyni siyasi məqsədə xidmət edir. Eyni ilə bundan əvvəl qeyd etdiyimiz kimi, ucuz əyləncə də eyni məqsədə – vətəndaşları siyasətdən kənarda saxlamağa xidmət edir. Yalnız təhsil ağlın müstəqil inkişafına təkan verdiyindən, bütün cəmiyyətlərdə təhsilli adamların sırasından xilaskarlar meydana çıxıb.

Təhsilin üç əsas mənbəyi var – təbiət, sosial effektivlik və mədəniyyətə meyl. Təbiət dəqiq elmlərin inkişafının mənbəyidir, amma müasir dövrdə artıq təbiət bir çox siyasi və sosial elmlərin də əsasında durmaqdadır. Siyasi antropologiya və siyasi coğrafiya təbiətlə cəmiyyətin paralel öyrənilməsinin nəticəsində yaranıb. Sosial effektivlik siyasi rejim tərəfindən təhsilin qarşısına qoyduğu vəzifədən çıxır. Siyasi rejim məktəbdə «vətəndaş, yoxsa kölə» yetişdirmək istəyir? Təhsil siyasəti bu sualın cavabı kimi müəyyənləşir. Məktəbin qüsurları cəmiyyətə, cəmiyyətin qüsurları məktəbə sirayət etdiyindən, totalitar cəmiyyətin məktəbi də totalitar olur. Totalitarizm inkişafdan sığortalanmaq üçün keçmişə baxmağa – keçmişi bütləşdirməyə üstünlük verir. Bundan fərqli olaraq, demokratiya inkişafda olduğundan, gələcəyi prioritet seçir, nəticədə totalitar cəmiyyətlərdə yaşlı

nəsil və ya köhnə ideyalar, demokratiyada gənc nəsil və ya ən yeni ideyalar önəm daşıyır. Təhsil mənəvi yenidənqurma vasitəsi olduğundan, yeni nəsli necə yetişdirmək siyasətin problemidir. Məktəb sadəcə icraçıdır. Demokratiya və demokratik təhsil hər şeydən öncə təhsili icraçılıqdan, siyasi hakimiyyətin aləti olmaqdan azad edir. Bu gün heç bir inkişaf etmiş ölkədə məktəb siyasi prosedurların həyata keçirildiyi yer deyil, müəllim isə təhsil sahəsi istisna olmaqla, başqa heç bir fəaliyyətə cəlb olunmur. Totalitar cəmiyyətlərdə məktəb və müəllim siyasi hakimiyyətin sifarişlərini yerinə yetirən müəssisədir. Buna görə də neçə ki, postsovet respublikalarında seçki məntəqələri məktəblərdən, müəllimlər komissiya üzvlüyündən, siyasi iqtidarın təbliğatçıları rolundan azad edilməyib, təhsil azad olmayacaq. Azad olmayan təhsil isə yalnız kölə istehsalı ilə məşğul olacaq.

Təhsil interaktiv prosesdir və yalnız bilgilərin yox, həm də mənəviyyatın müəllimdən tələbəyə, gələcək vətəndaşa transformasiya olunduğu yerdir. Avropa ölkələrində aparılan tədqiqatlar belə nəticəyə gətirib çıxarıb ki, bəzi məktəblərdə qadın müəllimlərin çoxluq təşkil etməsi məktəbli oğlan uşaqları arasında cinsi orientasiyaya ciddi təsir edir. Bu fakt göstərir ki, müəllim «imic-insan» rolu oynayır. Ədalətsiz, rüşvətxor, zalım, zora əl atan müəllim özünün mənfi keyfiyyətini şagirdə ötürməklə cəmiyyətə cinayətkarlar ordusu hazırlayır. Buna görə də təhsildə rüşvət yığışdırılmadıqca cəmiyyətdə rüşvətxorluq və korrupsiya inkişaf edəcək. Totalitar cəmiyyətdə hakimiyyət təhsili bu fəlakətdən qurtarmaqda maraqlı ola bilərmi? Təbii ki, yox. Nə üçün? Birincisi, hakimiyyət öz siyasi maraqları naminə müəllimi cinayətə sövq edirsə, necə onu başqa cinayətlərdən çəkindirə bilər? İkincisi, müəllim təmizləndikcə, saf vətəndaş yetişməyə başlayır. Saf vətəndaş isə totalitar cəmiyyət üçün təhlükəlidir. Totalitar cəmiyyətdə müəllimin əmək haqqı ən aşağı səviyyədə ona görə saxlanılır ki, müəllim şagirddən rüşvət almağa meyllənsin. Halbuki, hələ Adam Smit yüz il bundan qabaq əmək haqqı və gəlirlərdə təbii qeyri-bərabərliyin səbəbini izah edərkən, əmək haqqının insanın cəmiyyətdəki rolu ilə sıx əlaqədə olduğunu göstərmişdir. O, belə hesab edirdi ki, həkimlərin və müəllimlərin əmək haqları ona görə yüksək olmalıdır ki, insan onlara ən qiymətli şeylərini –

sağlamlığını və mənəviyyatını etibar edir. Buna görə demokratik ölkələrdə müəllimlərin və həkimlərin əmək haqqı digər qruplarla müqayisədə kifayət qədər yüksəkdir. Hətta ABŞ-da bəzi universitet professorlarının orta aylıq əmək haqqı prezidentin əmək haqqına yaxındır. Ona görə də Qərb məktəblərində rüşvətə demək olar ki, rast gəlinmir. Unutmaq olmaz ki, təhsilə rüşvətin yol tapması uşaqlarda əla oxumaq üçün rəqabət hissini də öldürür. Neototalitarizm keyfiyyəti korlanmış insanlar tələb etdiyindən, məktəbin qarşısında da belə bir vəzifə qoyulur – mənəviyyatı korlamaq.

Məktəb vətəndaş və mütəxəssis istehsal edir. Beləliklə, cəhənnəm həlqəsinə düşmüş postsovet cəmiyyətləri nə cəmiyyətin, nə də təhsilin onun qarşısına qoyduğu vəzifəni yerinə yetirə bilməz. Demokratiyada ictimai həyatın ayrı-ayrı sahələrində baş verən inkişafın, artımın mənbəyi fərdi inkişaf və tərəqqidir. Məhz təhsilin qarşısında duran vəzifə də fərdi inkişafa, artıma və tərəqqiyə nail olmaqdır. Uşağın böyüməsi inkişafın əlamətidir. Belə inkişaf intellektual artımla müşayət olunmalıdır. Təhsil elmin və texnikanın inkişaf tempinə uyğun inkişaf etməlidir. Beləliklə, cəmiyyətin, fərdin və təhsilin harmonik inkişafı olmadan demokratikləşmə ola bilməz. Buna görə də tam əminliklə deyə bilərik ki, demokratiya məktəbdən başlayır.

Təhsil həm də gəncləri əməyə hazırlamalıdır. Demokratik əmək öz mahiyyəti ilə totalitar əməkdən kəskin fərqlənir. Birincisi, demokratik əmək ictimai rifah yaradır, əmək muzd almaq üçün yox, özünü insan kimi realizasiya etmək vasitəsi kimi dərk edilməlidir. Totalitar əmək yalnız həyatı saxlamağa xidmət edir. İkincisi, demokratiyada əmək şəxsiyyətin çiçəklənməsinin yeganə vasitəsidir və əmək əsas əyləncə, zövq mənbəyidir. Totalitar əmək əzab mənbəyi olduğundan, onu kompensasiya üçün başqa formada, əməkdən kənar həzzə ehtiyac yaranır. Nəticədə insanlar ucuz əyləncəyə meyl edir. Əyləncə isə siyasiləşmənin qarşısını alır. Növbəti fəsildə əməyin demokratikləşməsi ilə bağlı məsələyə geniş şərh veriləcəyindən, burada yalnız onun təhsillə bağlı tərəfinə diqqət ayırmağı məqsədə müvafiq hesab edirəm. Məktəb özündə cəmiyyətin mini istehsal sahəsini təqdim etməlidir və edir. Əslində məktəb əmək vasitələrinin, o

cümlədən, işçi qüvvəsinin təkrar istehsalı ilə məşğul olur. Ona görə də demokratik əmək hazırlığı təhsil sahəsində prioritet vəzifələrdən olmalıdır. Şagirdləri əməyin fəlsəfəsinə yiyələndirmək, əməyə demokratik meyl yaratmaq və əmək vərdişlərinə yiyələndirmək vacibdir. Beləliklə, əməkdən zövq almaq bacarığı, əməyə mənəvi tələbatın yaradılması, nəhayət, əməyə meyllənmənin demokratik motivizasiyası təhsilin vəzifələrinə daxil edilməlidir.

Demokratikləşmə prosesində həyat tərzi xüsusi əhəmiyyətə malikdir. Həyat tərzi xalq fəlsəfəsinin təcrübəyə yansıması nəticəsində meydana çıxır. Başqa sözlə, hər bir xalq həyata necə baxırsa, elə də yaşayır. Demokratikləşmə hər şeydən öncə milli çərçivəyə salınmış həyat təcrübəsindən imtina etməyi tələb edir. Başqa sözlə, cəmiyyətdə unitar həyat tərzi plüral həyat tərzi ilə əvəzlənmədikcə demokratikləşmə baş vermir. Bunun üçünsə emprik xalq yaşam fəlsəfəsi öz yerini müxtəlif siyasi-fəlsəfi dünyagörüşlərinə verməlidir.

Totalitar cəmiyyətlərin vətəndaşları üçün ədalətli, passiv inkişafdan və dəyişilmələrdən qorxu hissi xarakterikdir. Qorxu totalitarizmdə insanlara məişət həyatı, bundan fərqli olaraq, qorxmazlıq demokratiyada onlara siyasi həyat yaşamağı təlqin edir. Demokratiya axtarışda olmağı, fəallığı, iştirakçılığı, rəqabəti tələb etdiyindən, tənbəlliyə yer qoymur. Amma totalitarizmdə qorxu şəraitində insanlar fəallıqdan çəkinir və tədricən tənbəlləşir. Belə cəmiyyətin vətəndaşları öz hüquqlarını qorumağa belə, ərinirlər. Qorxu bir məqsədə – «bundan da pisi ola bilər» fəlsəfəsi ilə insanları sosial vəziyyətlə barışdırmağa, onları düşdükləri acınacaqlı vəziyyətə uyğunlaşdırmağa xidmət edir. Qorxaq adam azad düşüncədən məhrum olur. Onun düşüncəsi hər cür xurafatla dolur. Hakimiyyət vətəndaşlara necə düşünməyi yox, həqiqətin nədən ibarət olduğunu aşıladığından, totalitar cəmiyyətdə psevdodüşüncə hakim olur. Belə cəmiyyətlərdə insanlar müəyyənlik istəyir. Bunun üçün artıq hər şeyin başa çatmış vəziyyətini təqdim edən keçmişə ünvanlanmaya üstünlük verir. Bu isə günahkarın mühakimədən sonra ən ağır cəza almasına baxmayaraq, rahatlamasına oxşar rahatlıq yaradır. Gələcək isə keçmişdən fərqli olaraq qeyri-müəyyənlik vəd edir. Qeyri-təşəbbüskar, qeyri-mübariz, axtarış etməyən insan üçün həqiqətən belə vəziyyət

dözülməzdir. Belə insanlar üçün İranda məşhur olan deyim - «mən eşşəyəmsə, palanın nə fərqi» fəlsəfəsi xarakterikdir. «Mən kiməm» kimi özünü kiçiltməklə başlayan şəxsiyyətin deqradasiyası «mən heç kiməm» kimi özünü alçaltma ilə başa çatır. Belə adam «ağrımayan başıma buz bağlamaram» fəlsəfəsi ilə «başağrıdan ideya və fikirləri» yaxına buraxmır. Tənbəllik yalnız fəaliyyətdə yox, düşüncədə kök salır. Nəticədə insan «düşünməkdənsə əylənmək yaxşıdır» qənaətinə gəlir. Əylənən adam isə müdafiəsiz və zəif olur.

Haşiyə: Totalitar cəmiyyətlərdə qorxu dövlət zoru ilə yaradılır. K.C.Horton yazır ki, «kiçik uşaqlarda qorxu – qaranlığın, təkliyin, kəskin səsin və s. hissi yaşantılarla bağlıdır». Böyüklərdə sosial qorxu eyni ilə başqalarından təcrid olunmuş vəziyyətdən, hadisələrdən müstəqil baş çıxara bilməməkdən və məlumatsızlıqdan doğur. Ona görə də totalitarizm ilk növbədə vətəndaşları informasiya blokadasına alır, azad mətbuatı susdurur, siyasi təşkilatları dağıdır, vətəndaşların birləşməsinin qarşısını alır. Digər tərəfdən Hortona görə, «Sosial qorxu utanmaqdan doğur. Əsgər ona görə ölüm qorxusundan qaçmır ki, utanır». Totalitar cəmiyyətdə məmurların vətəndaşlarla qeyri-etik davranışlarının yeganə məqsədi də budur - utandırmaqla siyasi fəaliyyətdən uzaqlaşdırmaq. Postsovet cəmiyyətlərdə bu məqsədlə siyasi aktiv qadınlara qarşı xüsusi həyasızlıq halları müşahidə olunur. Eyni ilə gəncləri də təhqir edərək, siyasətdən uzaqlaşdırma təcrübəsi geniş yayılıb. Bu ölkələrdə siyasi hakimiyyət uğrunda mübarizəni qeyri-etik elan etməklə siyasi hakimiyyət uğrunda mübarizədən vətəndaşlar çəkindirilir. Bunu yaxşı başa düşən totalitarizmin tərəfdarları hər şeydən əvvəl qarşı tərəfdəkilərlə təhqiramiz davranmaqla onları utandırmağa cəhd edirlər. Qorxu zora əsaslandığından, totalitarizm formulunun digər bir həddi sanksiyalaşmış və ya sanksiyalaşmamış zorakılığın siyasi idarəetmə vasitəsinə çevrilməsidir. İstər SSRİ-nin DTK-i, istər faşistlərin SS təşkilatı, istərsə xunta hakimiyyətlərində ordu, istərsə də yeni totalitar cəmiyyətlərə meyl edən dövlətlərdə iqtidarlar idarəetmədə zoru siyasi vasitəyə çevirmişdir. Nə üçün totalitarizm kobud gücə istinad edir və ya nə üçün kobud güc qaçılmaz olaraq totalitarizm yaradır? Muzes Lyudviq «Klassik ənənələrdə liberalizm» əsərində yazır: «Demokratiya

elə siyasi quruluşdur ki, hakimiyyət idarə etdiklərinin arzularına qeyri-zorakı mübarizə yolu ilə uyğunlaşır». Totalitar cəmiyyətlərdə isə hakimiyyətlər idarə etdiklərini zorakılıqla öz arzularına uyğunlaşdırmağa cəhd etdiklərindən, zorakılıq totalitarizmin başlıca istinadgahına çevrilir. Totalitar cəmiyyətdə zor həm də hakimiyyətin əldə edilməsində, saxlanılmasında və ötürülməsində iqtidarın yeganə silahıdır. Karl Yaspers «Tarixin mənbələri və onun məqsədi» adlı əsərində yazır: «Ayrıca adamı zorakılıqdan müdafiə etmək, hamını ayrıca adamın hakimyyətindən müdafiə etməsinə uyğundur, hətta dövlətin qarşısında nəhəng xidmətləri fərdin hakimiyyətinin toxunulmazlığına belə, əsas vermir». O cəmiyyətdə ki, ayrı-ayrı vətəndaşlar zorakılıqdan müdafiə olunmur, bu, bütünlükdə ayrıca bir adamın hakimiyyəti altında olmağa gətirib çıxarır. Belə şəxslərin hakimiyyətinin toxunulmazlığı onlara imkan verir ki, istənilən növ zorakılığa istinad edərək, cəmiyyəti öz maraqlarına uyğunlaşdırsın. Bu isə artıq totalitarizmdir. Buna paralel, istənilən fərdi hakimiyyətin toxunulmazlığına edilən cəhd də totalitarizmə səbəb olur. Məhz buna görə də demokratiya fərdi hakimiyyətin toxunulmazlığını qanunla məhdudlaşdırır və istənilən növ zorakılığı qadağan edir. Eyni zamanda insanların hüquqlarını, onu hakimiyyətin qeyri-qanuni zorakılığından qorumağı tələb edir. Bu baxımdan beynəlxalq hüquqda öz əksini tapmış işgəncələrin və qeyri-insani rəftarın qadağan edilməsi də məhz demokratiyanın fundamental əsaslarından biri kimi meydana çıxmışdır. Postsovet respublikalarında ayrı-ayrı vətəndaşların zorakılığa məruz qalmasının adət halı alması və hakimiyyətin bunun qarşısını almaması, əsl həqiqətdə xalqı ayrıca bir adamın hakimiyyətinə tabe etdirməyə xidmət edir ki, bunun da adı totalitarizmdir.

Siyasiləşmənin ən mühüm problemi institutlaşmadır. Demokratiyanı insanların subyektiv kimliyinə ümid etməklə qurmaq mümkün olmadığından, o institutlaşma tələb edir. Qeyri-hökumət təşkilatlarının hakimiyyəti dövlət hakimiyyətindən yarandığından, demokratiya hər şeydən öncə dövlətin mərkəzləşdirdiyi hakimiyyətin mərkəzsizləşdirməsini tələb edir. Cəmiyyətdə nə qədər hakimiyyət mərkəzləri yaranır, bir o qədər mərkəzləşmə zəifləyir. De-

mokratiyanın tələbinə əsasən, dövlətlə vətəndaş cəmiyyətə qarşılıqlı nəzarət həyata keçirməlidir. Dövlət vətəndaş cəmiyyəti institutlarının hüquqdan sui-istifadəsinə, vətəndaş cəmiyyəti məmurların hakimiyyətdən sui-istifadəsinə nəzarət etməlidir. Bunun üçün hər iki tərəfin bərabər əsasda nəzarət mexanizmləri və vasitələri olmalıdır. Bu da müstəqil KİV-in mövcudluğunu və dövlətin ona dözümlü yanaşmasını tələb edir. K.C.Hortona görə, «İnsan enerjisinin effektli istifadə üsulu təşkilolunma rəqabətidir». Məhz insanı heyvandan fərqləndirən və onun özündən qat-qat güclü vəhşi təbiət üzərində hakimiyyətini təmin edən də təşkilatlanma qabiliyyəti olmuşdur. Cəmiyyətin təşkili qaydası onun tipini müəyyən edir. Cəmiyyət tipləri də bir-birindən institutlaşma qaydasına və həcminə görə fərqlənir. Bu baxımdan postsovet respublikalarında siyasiləşmədə yerini təyin etmək üçün təşkilatlanma sferasında baş verənlərə diqqət etmək lazım gəlir. Bir qayda olaraq, totalitar cəmiyyətlər yalnız rəsmi siyasi institutlardan ibarət təşkilata malik olur. Demokratik cəmiyyətlərdə isə, buna paralel, qeyri-rəsmi təşkilatlar yaranır və siyasi hakimiyyət həmin təşkilatlar arasında bölünür və ya müştərək həyata keçirilir. Bu baxımdan vətəndaş cəmiyyəti institutları ilə rəsmi dövlət orqanları arasındakı münasibət demokratikləşməni dəyərləndirməkdə əlverişli vasitədir. C.Kin demokratikləşmədə iki vacib istiqaməti ayırd edir: «a) dövlətlə vətəndaş cəmiyyəti sərhədlərini saxlamaq; sosial bərabərliyi genişləndirmək, azadlığın, restrukturlaşdırmaqla dövlət orqanlarının demokratikləşməsi; b) dövlət orqanlarının vətəndaş cəmiyyəti qarşısında hesabatlı olması». Dövlət totalitarizmin vasitəsi olduğundan, yalnız rəsmi dövlət təşkilatlarından ibarət olan istənilən cəmiyyət totalitardır. Eləcə də hesabatlı olmayan bütün hakimiyyətlər avtoritardır. Vətəndaş cəmiyyəti institutlarının yaranmasının dörd mühüm səbəbi vardır: 1. Cəmiyyət inkişaf etdikcə idarəetmə sferası genişlənir, orijinallaşır və rəsmi dövlət institutlarının məhdud və universal idarəetmə imkanı ilə idarəetmədə genişlənmə arasında uçurum yaranır. Dövlət belə dəqiq, orijinal və nəhəng idarəetməni həyata keçirə bilmir. C.N.Fiqqis yazır: «İndi bizə dövlətdən fərqli cəmiyyətin azad və özünü inkişaf imkanını təmin etmək lazımdır». 2. Cəmiyyət həyatında elə funksiyalar meydana çıxır ki, həmin funk-

siyaları rəsmi qaydada icra etmək mümkün olmur. Bu imkanı yalnız vətəndaş cəmiyyəti institutları yarada bilər. M.Veber də təsdiq epdir ki, «dövlət hər iş görə bilər, amma bütün işlər ona aid deyil». Həm də dövlət gördüyü bütün işləri heç də eyni dərəcədə tam keyfiyyətli görə bilmir. 3. Dövlət hipertrofiya olduqca vətəndaş üzərində əzici təsirə malik olur və fərdi dövlətin belə təsirindən xilas etmək, siyasi hakimiyyətin fərdin təbii hakimiyyətini mənimsəməsinin qarşısını almaq lazım gəlir. Burada vətəndaşlar özfəaliyyət və özünütəşkil yolu ilə vətəndaş cəmiyyəti institutları yaradırlar. 4. Əvvəlki fəsillərdə qeyd etmişdik ki, dövlət vətəndaşları xoşbəxt etmək vəzifəsini yox, onlara xoşbəxt olmağa imkan yaratmaq vəzifəsini yerinə yetirməlidir. Bütün insanlar üçün xoşbəxtlik eyni mahiyyət daşımadığından, onun müxtəlif formalarına uyğun, vətəndaşların özlərinin-özlərini xoşbəxt etməsi üçün özü kimilərlə birlikdə fəaliyyət göstərməsi lazım gəlir. Adam Seliqman «Vətəndaş cəmiyyəti ideyası» adlı kitabında vətəndaş cəmiyyəti konsepsiyasının mahiyyətini «dövlətdən asılı olmayan kollektiv bir qrum formasında mövcud olan» cəmiyyət kimi şərh edir və vətəndaş cəmiyyəti problemini «fərdi və sosial istəkləri birləşdirmək, eyni zamanda öz fərdi üzvlərini təmsil edə biləcək bir cəmiyyət modelini tərtib etmək problemi» kimi müəyyənləşdirir. Göründüyü kimi, vətəndaş cəmiyyəti - dövlətin iştirakı olmadan vətəndaşların öz istəklərini öz imkanları reallaşdırmaq məqsədinə xidmət edir. Buradan da vətəndaş cəmiyyəti bir tərəfdən dövlətə köməkçi rolu oynayır, həm də lazım gələndə ona opponentlik edir. Tərəqqi prosesində cəmiyyət həyatı təbii həyata nisbətən birincilik əldə edir və vətəndaşların təbii həyatı sosial forma alır. Hər bir fərd başqalarından fərqli təbii həyat yaşadığından, dövlət isə yalnız kollektiv həyat üzərində hakimiyyət həyata keçirdiyindən, cəmiyyətdə yeni elə sahələr yaranır ki, həmin sahələr dövlətin səlahiyyətindən və diqqətindən kənarda qalır. Sumpeter Yozef də «Kapitalizm, sosializm, demokratiya» adlı əsərində təsdiq edir ki, «siyasi maşın ayrı-ayrı problemləri diqqətə almaya bilər». Başqa sözlə, kollektiv həyat inkişaf etdikcə dövlətə ehtiyac azalır. Məhz buna görədir ki, totalitar cəmiyyətlərdə kollektiv fəaliyyət məhdudlaşdırılır, fərd ətrafdan məhrum edilərək dövlətlə təkbətək qoyulur, digər tərəfdən dövlətin cəmiyyət

həyatında rolu şişirdilir və ona prioritetlik verilir. Postsovet respublikalarında dövlətə birincilik verilməsi də bununla bağlıdır. Beləliklə, dövlət özünə aid olmayan işlər gördükdə və ya hər işə müdaxilə etdikdə totalitarlaşır, əksinə, dövlətə aid olmayan işləri görmək üçün qeyri-hökumət təşkilatlarının yaranması ilə demokratikləşir. Dövlət hər işi görə bilər, amma bütün işləri hər bir vətəndaşı xoşbəxt edə biləcək qaydada görə bilməz. Hətta demokratik xalq hakimiyyəti belə, hər bir fərd üçün həqiqi hakimiyyət kimi çıxış etmək imkanında deyil. Ona görə də demokratiya hər bir vətəndaşın dövlətin əhatə edə bilmədiyi maraqlarını təmin etmək üçün özü kimilərlə birləşib, dövlətin iştirakı olmadan, öz marağını təmin etməsi də vətəndaş cəmiyyəti institutlarının yaranmasını tələb edir.

Dövlətin əsas əlaməti zordur və buna görə də Marks dövləti «zor aparatı» adlandırırdı. M.Veber də belə hesab etmişdir ki, «legitim fiziki gücün monopoliyası – müasir dövlətin vasitəsidir…zorakılıqda yeganə hüquq dövlətindir» və dövlətin zora əl atması qanunla müəyyən edilir. İfrat dövlətləşmiş cəmiyyətdə fiziki güc ifrat səviyyəyə qalxır və fərdlər bu fiziki gücün qarşısında məhv olmaq təhlükəsi ilə üz-üzə qalır. Fiziki gücün zəiflədilməsinin bir yolu da dövlətsizləşməyə cəhdlə mümkündür. Vətəndaş cəmiyyəti dövlətsizləşən sferanı idarə etmək üçün yaranır. Bu baxımdan demokratikləşmə rəsmi dövlət təşkilatlarına paralel qeyri-hökümət təşkilatlarının – vətəndaş cəmiyyəti institutlarının mövcudluğunu, onların biri-biri ilə rəqabətini, eyni problemlərin həllində əməkdaşlığını nəzərdə tutur. Postsovet respublikalarında dövlət tərəfindən zorakılığın – repressiyaların, işgəncələrin və vətəndaşlarla qeyri-qanuni rəftarın çiçəklənməsi, bu siyasi coğrafiyada hələdə normal vətəndaş cəmiyyətinin yaranmadığını birbaşa sübut edir.

C.Kinə görə, «dövlətdən asılı olmayan vətəndaş cəmiyyəti demokratiyanın vacib şərtidir…dövlətlə vətəndaş cəmiyyəti biri-biri üçün demokratikləşmənin şərtlərini təşkil edirlər». Vətəndaş cəmiyyəti dövləti tarazlaşdırma gücü o zaman yarana bilər ki, vətəndaş cəmiyyəti institutlarına da dövlət təşkilatlarına yanaşılan kimi yanaşılsın. Buna görə onlar eyni prinsiplə yaranmalıdır. Q.Haqen «Sinergetika. Özütəşkilolunan sistemlərdə və quruluşlarda qeyri-tarazlığın ierar-

xiyası» adlı kitabında yazır: «Ən müxtəlif formalı özünütəşkil hadisələri bir və eyni prinsiplərə tabe olur». Bu baxımdan dövlətlə qeyri-dövlət təşkilatları eyni prinsiplərdən yarandığından, demokratiya onlara eyni yanaşmanı tələb edir, sadəcə dövlətin rəsmi tərəfi onun rəsmi resurslardan istifadə hüququnda meydana çıxır və bununla da dövlət vətəndaş cəmiyyətindən öz üstünlüyünü saxlayır. Buna paralel, dövlətin qarşısında vətəndaşın inkişafına yardım öhdəliyi yaranır. Buna görə də demokratik cəmiyyətdə «qanunvericiliyin hazırlanmasında yalnız qanunverici iştirak etməməlidir» prinsipi rəhbər götürülür. Dövlətin cəmiyyətin idarə edilməsində xüsusi imtiyaza malik olması, dövlət resurslarından sui-istifadə edərək üstünlüyə cəhd, dövləti vətəndaş cəmiyyətindən üstün vəziyyətə salır və bu andan totalitarizm başlayır. Qeyri-hökumət təşkilatlarının mövcudluğu hakimiyyətdən gələn təhlükələrin qarşısını almaq, hakimiyyət qüsurlarının aradan qaldırılmasına nail olmaq, hakimiyyət yükünü azaltmaq və rəsmi hakimiyyətin səlahiyyətlərinə aid olmayan sosial vəzifələri yerinə yetirmək vəzifəsi daşıyır. C.Kin «Demokratiya və vətəndaş cəmiyyəti» adlı kitabında yazır: «Demokratiya – vətəndaş cəmiyyəti və dövlətin iki vacib elementi kimi funksiyalaşma meyllərinə malik xüsusi tip siyasi sistemi, hakimiyyətin həmişə müzakirə, kompromis və razılaşma predmeti olduğu yerdə həm ayrılıqda, həm də birləşərək qarşılıqlı fəaliyyətdə sistemin daxili üzvlərə bölünməsidir».

Haşiyə: Adından da göründüyü kimi, vətəndaş cəmiyyəti hər şeydən öncə «vətəndaş» anlayışı ilə bağlıdır. Əvvəlki fəsillərdə «vətəndaş kimdir» sualına cavab vermişəyə çalışmışdıq. Burada bir daha xatırlatmaq yerinə düşər ki, vətəndaşlıq - fərdi hüquqlara malik, dövlətin fərdin qarşısında bu hüquqların reallaşmasında konkret öhdəliyi və fərdin isə bunun müqabilində dövlətin qanunlarına könüllü tabe olmaq borcu olan siyasi vəziyyətdir. Hüquqsuz heç bir insan vətəndaş ola bilməz və yalnız fərdlərin qanuna əməl etmə öhdəliyi olan cəmiyyət totalitar cəmiyyətdir. Buna görə də vətəndaş cəmiyyəti institutlarının vəzifəsi vətəndaş-dövlət qarşılıqlı münasibətlərində dövlətin qarşısında gücsüz vəziyyətə düşən vətəndaşı gücləndirmək və onun dövlətlə bərabər tərəf kimi çıxış etməsinə

nail olmaqdır. Dövlətə tərəf kimi çıxış edə bilməyən heç bir fərd vətəndaş hesab edilə və o, azad insan adı daşıya bilməz. Totalitar cəmiyyətlərdə isə əsas vəzifə fərdi dövlət qurumları qarşısında təkləmək və onu hakimiyyət maraqlarına xidmət etməyə məcbur etməkdir. Demokratiya kollektiv «mən»in doğulması ilə sıx bağlıdır. Ona görə də totalitar cəmiyyətlər bir qayda olaraq vətəndaşlarda fərdi «mən»in möhkəmlənməsinə çalışırlar. Bunun üçün fərdi təkləyərək, onu başqalarından ayırmaq və dövlətlə təkbətək üz-üzə qoymağa cəhd edirlər. Buna görə də totalitarizmin başlıca mənbələrindən birini cəmiyyətin atomlaşdırılması hesab etmək olar. Başqa sözlə, fərdi kollektiv fəaliyyətdən qoparmaq, onu dövlətlin zor aparatı ilə təkbətək üz-üzə qoymaq və başqalarının müdafiəsindən məhrum etmək totalitarizmə cəhdir. Bu məqsədlə totalitar cəmiyyətlərdə siyasi partiyalar, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları zəiflədilir, qadağan, təqib və məhv edilir. Totalitarizm istənilən cəmiyyətdə ilk növbədə atomlaşdırmadan başlayır. Belə ki, «güclü dövlət, zəif vətəndaş» totalitarizmin əsas formuludur. Belə cəmiyyətdə fərdləri istənilən məqsədlərlə, hətta özlərinin əleyhinə belə, fəaliyyət göstərməyə məcbur etmək çox asan olur. Arend Xanna «Totalitarizmin başlanğıcı» əsərində yazır: «Totalitar hərəkatlar demokratik azadlıqlardan bədxah niyyətlə istifadə edir ki, onları məhv etsin… totalitar hərəkatlar kütləvi cəmiyyətin struktursuzluğundan daha çox atomlaşdırılmasından asılıdır… Sinfi sistemin dağılması avtonom olaraq partiya sistemini iflasa uğradır – totalitar hərəkat – tədric olunmuş, atomlaşdırılmış fərdlərin kütləvi təşkilatlanmasıdır. Totalitarizm heç vaxt xarici vasitələrin köməyi ilə idarəçiliyə razılaşmır, məhz dövlət və zorakılıqla idarəçiliyə üstünllük verir». Buradan da «totalitar cəmiyyətlər nə üçün təşkil olunmuş əməyə meyl etmirlər» sualına cavab tapılır. Təşkil olunmuş əmək sinfi sistem yaratdığından, bu isə sinfin nümayəndəsini gücləndirdiyindən, onlar siniflərin formalaşmasına imkan verməmək üçün əməyin ən primitiv formalarına üstünlük verir. Mövsümçülük, müvəqqəti iş yerləri, qeyri-peşəkar qara əməyin üstünlüyü totalitarizmin əsas əlamətlərindəndir. Postsovet respublikalarında siyasi partiyaların zəiflədilməsi və yenilərinin yaranmasına yol verilməməsi, vətəndaşların

siyasi partiyalara qarşı qoyulması, sinifsizləşdirən əmək özlüyündə totalitarizmin başlanmasından xəbər verir.

Demokratikləşmə vətəndaş cəmiyyəti ilə dövlət təşkilatları arasında mübarizədə birincinin qələbəsi nəticəsində baş verir. Dövlətin vətəndaş cəmiyyəti üzərində qələbəsi isə totalitarizmdir. Beləliklə, neototalitar cəmiyyətlərdə hakimiyyət vətəndaş cəmiyyətini ya tam sıradan çıxarmağa, ya öz tərəfinə çəkməyə, ya formal vəziyyət almalarına nail olmağa, ya da nüfuzdan salmaqla vətəndaşla onun arasında sədd çəkməyə cəhd edir. C.Kin neokonservatorların bu istiqamətdə apardıqları siyasətə – dövlətlə vətəndaş cəmiyyətinin sərhədlərinə başqa cür diqqət ayırmağı, sosial sferanı siyasi sferadan ayırmağı və xeyirxah əməllər haqqında təhrif olunmuş təsəvvür yaratmağı, vətəndaş cəmiyyəti üzərində total dövlət nəzarətini təmin etməyi, idarəetmə dövlətini suveren dövlətə çevirmək cəhdini, iqtisadi siyasəti darvinist metoda əsaslandırmağı, tam məşğulluğu təmin etməyi, daxili qarşıdurmaya meyllənməni, özlərinin təsdiq etdiyi liberal dəyərləri həyata keçirə bilmələrini, kapitalist istehsal üsulu ilə güclü dövlət anlayışını əlaqələndirməyi, bərabərliyin etatik konsepsiyasını neqativ azadlığa qarşı qoymağı, differensasiya olunmuş azadlıq anlayışından imtina etməməni, müxtəlif vətəndaşlara müxtəlif azadlıq təmin etməyi və s. aid edir. Beləliklə, neokonservatorlar vətəndaş cəmiyyəti institutlarını dövlətin yardımçı təsərrüfatına çevirirlər. Bu gün postsovet cəmiyyətlərdə çoxlu sayda qeyri-hökumət təşkilatları var ki, onlar rəsmi dövlət təşkilatlarından daha ifrat şəkildə demokratikləşməyə mane olur. Vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin rəsmi dövlət hakimiyyətində təmsil olunması həmin institutların mahiyyəti ilə ziddiyyət təşkil etdiyindən, bu gün postsovet dövlətlərin parlamentində təmsil olunanlar və ya icra hakimiyyəti nümayəndələrinin həm də vətəndaş cəmiyyəti institutlarında təmsil olunması demokratikləşmənin qarşısını kəsən ən ciddi əngəllərdəndir. Vətəndaş cəmiyyəti institutlarının hətta ən kiçik nailiyyətlərinin yalnız sosial sahədə üzə çıxmasına imkan vermək və heç bir siyasi nailiyyətə imkan verməmək cəmiyyətdə nailiyyətsizlik sindromu yaratmaqla, həm vətəndaş cəmiyyəti institutlarının daxilində intriqalara yol açılır, həm də vətəndaşların onla-

ra olan inamı sarsıdılır. Vətəndaş cəmiyyətini maliyyələşdirmək və qrant üzərində nəzarəti təmin etmək, əslində vətəndaş cəmiyyəti üzərində dövlət nəzarəti yaratmağa xidmət edir. «Pulu kim verir, musiqini o, sifariş edir» məsəlində olduğu kimi, iqtidarın yaratdığı vətəndaş cəmiyyəti əslində cəmiyyət üçün yeni təhlükə mənbəyinə çevrilir.

Yuxarıda qeyd etdik ki, totalitar cəmiyyətin əsas sipəri suverenlik prinsipdir. Əslində indi qlobal dövlətlər sistemində suverenlik nisbi hüquqi gücə malikdir və kimsəni öz əməllərinə görə cəzalanmaqdan azad etmək gücündə deyil. Suverenliyə arxayınçılıq Səddam Hüseyni hətta dar ağacına qədər azğınlaşdırdı. Suverenlik pərdəsi neototalitar cəmiyyətlərə öz vətəndaşlarını beynəlxalq müdafiədən məhrum etmək məqsədi güdür. Belə ki, öz ölkəsinin vətəndaş cəmiyyətinin gücündən yararlanmayan vətəndaş beynəlxalq güclərdən dəstək almaq imkanı ona dövlətlə bərabər tərəf kimi çıxış etməyə imkan verdiyindən, totalitar cəmiyyətlər suverenlik prinsipi ilə vətəndaşla xarici demokratik institutlar arasında sədd çəkməyə çalışırlar.

Totalitar cəmiyyətdə təkamül prinsipi ilə iqtisadi inkişafı həyata keçirməkdə yeganə məqsəd gəlirlərin bölünməsinə nəzarət etməkdir. Totalitar cəmiyyət o qədər iqtisadi inkişafa cəhd edir ki, bu onun hakimiyyət maraqlarına cavab versin, bundan artığı vətəndaş cəmiyyəti institutlarını inkişaf etdirdiyindən, əksinə, iqtisadi inkişafın qarşısı alınır. Bunun üçün inkişaf məhdud və birtərəfli qaydada həyata keçirilir. Ölkə iqtisadiyyatında yeni sahələrin yaranmasına və dünya iqtisadiyyatına inteqrasiyanın yalnız dövlət vasitəsi ilə dolayı olmasına üstünlük verilir. İşsizliyin ləğv edilməsi adı altında tam məşğulluq vətəndaşların ictimai həyata vaxt və vəsait ayırmalarına imkan verməmək məqsədi güdür. Adamlar iş yerlərində həbs edilirlər və iş yerləri vasitəsi ilə dövlət idarəetməsi həyata keçirilir. Totalitar cəmiyyət üçün daxili intriqa və daxili münaqişə prioritet təşkil edir. Hətta xarici düşmənlə üz-üzə qalmaq belə, iqtidarı daxili həmrəyliyə meylləndirmir. Əslində daxili qarşıdurmada yeganə məqsəd vətəndaş cəmiyyəti subyektlərini çıxdaş etmək, bu təşkilatları adamsız qoymaq məqsədi güdür.

Totalitarizmin digər şərti müxtəlif adlar altında həyata keçirilən nəzarətdir. F.Fukuyama «Tarixin sonu və axırıncı adam» əsərində yazır: «İstər sağ, istər sol avtoritar rejimlər dövlət hakimiyyətindən şəxsi həyata nüfuz etmək və ona müxtəlif məqsədlərlə – hərbi gücü artırmaq, eqalitar ictimai quruluş yaratmaq və ya kəskin iqtisadi artıma nail olmaqla – nəzarət edirlər».

Haşiyə: Əslində siyasətin ən mühüm funksiyalarından biri də nəzarət funksiyasıdır və öz sərhədləri daxilində ümumi nəzarəti həyata keçirə bilməyən dövlət öz mövcudluğunu qoruya bilməz. İstər demokratik, istər antidemokratik cəmiyyətlərdə ən müxtəlif həcmdə dövlət nəzarəti həyata keçirilir. Bəs onda necə olur ki, bir cəmiyyətdə nəzarət totalitarizmə, digər cəmiyyətdə isə demokratiyaya xidmət edir? Rusiyanın keçmiş siyasi xadimlərindən Boris Nikolayeviç Çiçerin «Siyasətin məsələləri» adlı əsərində yazır: «Dövlət bir tam kimi ali hakimiyyət tərəfindən idarə olunan xalqın ittifaqıdır. Ona fəaliyyətin hissəvi sferaları və onun sərhədlərində mövcud olan hissəvi münasibətlər tabedir… Dövlətin tərkibinə daxil olanlar, vətəndaş kimi onlara məxsus hüquqlardan tamamilə asılı olmadan öz xüsusi məqsədlərini izləmək üçün azad insanlar kimi qalırlar». Beləliklə, yalnız vətəndaşların və cəmiyyətin həyatına hissəvi nəzarət dövlətin hüququdur və bu hüquq çərçivəsində nəzarət demokratiyaya xidmət edir. Bunun əksinə, fərdə və cəmiyyətə total nəzarət və bütün münasibətlərin hakimiyyətə tabe etdirilməsi artıq totalitarizmin əsasını qoyur. F.Fukuyama yazır: «Totalitarizm vətəndaş cəmiyyətini tam məhv etmək, öz vətəndaşlarının həyatı üzərində tam «total» nəzarəti müəyyən etmək məqsədi güdür». Neototalitar liderlərin müxtəlif bəhanələrlə «cəmiyyətə tam nəzarət həyata keçirilməlidir» kimi bəyanatları rəsmən totalitarizmə çağırışdan başqa bir şey deyildir. Total nəzarət olan yerdə heç bir demokratiyadan, o cümlədən liberalizmə keçiddən danışmaq olmaz. Baxmayaraq ki, təhlil etdiyimiz strategiyaya həsr olunmuş məqalədə yazılır: «Ümumən ölkənin iqtisadiyyatı sabitləşmiş sənaye cəmiyyətindən postindustrial cəmiyyət müstəvisinə transformasiya üçün real bazis yaradır… «İqtisadiyyat siyasətdən öncədir» strategiyası şərti liberalizasiyanın bazisini və vətəndaş cəmiyyətinin formalaşmasını yaradır».

Lakin unudulur ki, liberalizmlə total nəzarət bir araya sığmazdır. Elə Fukuyama da öz əsərində bunun əksinə olaraq qeyd edir ki, «Siyasi liberalizm sadəcə belə təyin edilə bilər; qanunla idarə olunma, hər bir adamın hüquq və azadlıqlarını etiraf etmək və ya hökumət nəzarətindən azad olmaq». Diqqət etdikdə «hökumət nəzarəti» adamların hüquq və azadlıqlarının etiraf edilməsinin əksi kimi meydana çıxır. Buna görə də total nəzarət yalnız insanların hüquq və azadlıqlarının total pozulması ilə həyata keçirilir. Qanunla idarə olunma tələb edir ki, hər bir adamın hüquq və azadlıqları başqaları tərəfindən, ilk növbədə isə dövlət tərəfindən tanınsın. Hayek də «Köləliyə aparan yol» əsərində yazır: «Demokratik quruluş tələb edir ki, şüurlu nəzarət orda olsun ki, orda həqiqi razılaşma olsun, qalanları təsadüflərin öhdəsinə buraxmağa məcburuq – demokratiyanın ödənci budur». Total nəzarətlə totalitarizmin əlaqəsi istər faşist, istərsə də xunta rejimlərində birmənalı şəkildə öz əksini tapır. Vaxtilə Leninin ardıcıl olaraq təhqiramiz ifadələrlə söydüyü və «xain Kautski» adlandırdığı Karl Kautski «Erfurt proqramı» adlı əsərində yazır: «Sosialistik despotizm bütün insanı, yerdə qalanlar isə onun bir tərəfini əsir saxlayır». Buna insanın dünyagörüşü, şüuru, maraqları, tələbatları və s. aiddir. Bu gün insanların sosial-iqtisadi qayğıları adı altında həyata keçirilməyə cəhd edilən nəzarət hansı məqsəd daşımasından asılı olmayaraq, insan azadlıqlarının, başqa sözlə, demokratiyanın əleyhinə çıxış edir.

Neototalitarizm ənənəvi totalitarizmdən qlobalizasiya fonunda yaranması ilə fərqlənir. Əgər klassik totalitar cəmiyyətlər ikiqütblü dünyada öz prinsiplərini aşkar və birmənalı ortaya qoyurdularsa və özlərinə qapanırdılarsa, indi neototalitar cəmiyyətlər xaricdə bir dillə, daxildə başqa dillə danışmağa, demokratik dəyərlərə öz anlayışlarını verməyə və ya mövcud anlayışları hissəvi mənimsəməyə, yaxud həmin dəyərlərin xüsusi və birtərəfli tətbiqinə imkan verməklə yaranırlar. «Biz azadlıqdan imtina etmirik, amma…» bəhanəsi ilə azadlıq aşkarcasına boğulur, demokratikləşmədən imtina edilir. Nümayiş effektinə xidmət edən «azad insanlar», «müstəqil partiyalar» bolluğu yaradılır, bunun arxasında isə rəqabətə və plüralizmə müharibə elan olunur. Cəmiyyət «şitilxana» prinsipinə uyğun ya-

şayır. İqtisadiyyatda retransformasiya prosesində özlərinə lazım olan kapitalı toplamaq, başlanğıc kapitalizm yaratmaq üçün kapitalizmlə etatizmi əlaqələndirib, vətəndaş cəmiyyətindən yüz il keçmişə gedən despotik cəmiyyətlər yaradırlar. A.Tokvil yazır ki, «müasir millətlər üçün başlıca təhlükə şəxsi maraqların yaratdığı konfliktlər və ixtişaşlar yox, dövlətin seçdiyi yeni forma despotizmdir». Yeni növ despotizm, həm də neototalitarizmin əsas bəlalarındandır.

Demokratik cəmiyyətin əsas əlamətlərindən biri siyasi plüralizmdir. C.Kin plüralizmlə bağlı yazır: ««İnsan hüquqları» - demokratiyanın özünü iflas edən fəaliyyətini minimuma endirmək üçün onu daha çox ələ vermək lazımdır»». Plüralizm nədir? Siyasi fərqlilik şəraitində uzlaşmanın olması plüralizmdir. R.Arona görə, «plüralistik rejim prinsipi – iki hssi – qanuna hörmət və kompromis hissi birləşdirir». Postsovet respublikalarında nə qanuna hörmət var, nə də kompromis hiss hakimdir. Siyasi plüralizm - vətəndaşın mövcud idarəetmə ilə razılaşmamağı və onu daha rasionalı ilə əvəz edilməsi uğrunda mübarizəsini özündə ifadə edir.

Haşiyə: Siyasi plüralizmin əsas elementi siyasi partiyalardır. Siyasi partiyalar siyasi müxtəlifləşmənin nəticəsində yaranır. Siyasi müxtəlifləşmə isə siyasi dəyişilmə prosesindən doğur. Q.Haqen mürəkkəb quruluşlarla bağlı yazır: «Əvvəlki vəziyyət qeyri-tarazlıq olduqdan sonra yaranan quruluşlar müxtəlif tipli ola bilər». Beləliklə, cəmiyyətdə tarazlığın mütləq qorunması şərtində müxtəlifləşmə baş vermədiyindən, plüralizm yaranmır. Demokratikləşmə çoxluqla azlığın hakimiyyət əzminin eyni siyasi məkanda və eyni zaman çərçivəsində reallaşdırılma sferasının yaradılmasını özündə ehtiva edir. Qeyd etmək lazımdır ki, partiyalı demokratiya digər demokratik rejimlərdən fərqlənir. C.Kin yazır: «Demokratik siyasətin mərkəzində partiyaların qeyri-demokratik cizgiləri və demokratik potensialı durmalıdır». Qeyd edim ki, siyasi partiyalar müasir demokratiyanın doğulması ilə siyasi səhnəyə çıxmışdır. Partiyalaşma 1885-ci illərdə yaranmış və inkişaf edərək bütün dünya ölkələrini fəth etmişdir. Totalitar cəmiyyətlərin heç biri real siyasi partiyaların olmasına dözmür. Hətta öz partiyalarını belə, siyasi səhnədən sıxışdırır, ya onları təsərrüfat partiyasına, ya da formal quruma çevirirlər.

M.Dyuverje də «Siyasi partiyalar» adlı kitabında təsdiq edir ki, «partiyaların inkişafı demokratiyanın inkişafı ilə bağlıdır». Ona görə də postsovet respublikalarında siyasi partiyaların formalaşmasının və artıq formalaşmış partiyaların zəifləməsinin arxasında bu ölkələrdə demokratikləşmənin zəifləməsinin durduğunu qeyd etməliyik. Anri Allen Tarja hələ 1868-ci ildə partiyalaşmanın və demokratikləşmənin yenicə başladığı vaxtlarda xəbərdarlıq edirdi ki, «burjuaziya bilməlidir ki, ikinci imperiya vaxtından demokratik güclər yetişir…o bu gücləri tapacaq…belə dərin kök saldığından ona qarşı müharibə başlatmağa cəhd edəcək». Bütün totalitar cəmiyyətlər də məhz buna görə partiyalılığa müharibə elan edir.

Partiyaların mövcudluğunu şərtləndirən ictimai şüurdur. Totalitar cəmiyyətlərdə ictimai şüur daha çox idarəedənlərin şüuruna yaxınlaşaraq, fərdi şüura xas keyfiyyətlər əldə edir. Demokratiyada isə ictimai şüurun formalaşma mənbəyi çox və müxtəlifdir. Siyasi plüralizm həm də sıx surətdə hakimiyyət bölgüsü ilə bağlıdır. Dyuverje təsdiq edir ki, «hakimiyyət bölgüsü partiya sistemindən asılıdır, nəinki konstitusiyada yazılanlardan…partiyaların daxili strukturu hakimiyyət bölgüsünə və konsentrasiyasına təsir edir». Məhz buna görə də bir partiyanın süni surətdə sayca şişirdilməsi hakimiyyətin konstitusiyada tələb edildiyi qaydada bölünməsinə imkan vermir və postsovet respublikalarında da formal konstitusion quruluşla təcrübi siyasətdə faktiki vəziyyət arasında üçürüm vardır. Formal olaraq Konstitusiya demokratik olsa da, real vəziyyət totalitardır. Dövlət həyatının bəzi sahələrində baş verən sosial əyintilər demokratikləşməyə mane olduğu kimi, partiyalaşmada baş verən qüsurlar da siyasiləşməyə əngəldir. Partiyalaşmada üç mənfi tendensiyanı – süni partiya çoxluğunu, partiyaların qısaömürlülüyü və təkpartiyalığa cəhdi göstərmək olar. Çoxpartiyalılıqla çoxlu partiyanın olması bir və eyni şey deyil və öz ölkəsində demokratikləşməyə əngəl olanlar məhz çoxpartiyalılığı partiya çoxluğu ilə əvəz etməyə cəhd edirlər. Dyuverje çoxpartiyalılıq haqqında yazır: «Çoxpartiyalılıq çox vaxt partiyaların olması ilə qarışdırılır. O ölkədə ki ictimai rəy qısa müddətli çox yerə parçalanıb, ölkədə həqiqi partiyalar olmur». Çoxlu partiya hakimiyyətə ictimai rəyi və bütünlükdə müxalifətdə

manipulyasiya üçün lazımdır. Əgər köhnə totalitar cəmiyyətlərdə başqa partiyalar aşkar şəkildə məhv edilirdisə, neototalitar cəmiyyətlərdə partiyaların formal mövcudluğu, bu rejimlərin beynəlxalq rəydə manipulyasiya üçün lazım olduğundan, hətta siyasi partiyalar haqqında qanun və partiyaların ara-bir cəmiyyətə görsənməsi lazım gəlir. Bunun fonunda isə rəsmi dövlət resursları hakim partiyanın güclənməsinə və bununla da faktiki təkpartiyalılığın yaradılmasına sərf olunur. Təkpartiyalılıqla totalitarizm bir medalın iki üzüdür. Dyeverje yazır: «Ölkədə bir partiyanın olması hakimiyyətin hakimiyyətini artırır…birpartiyalı rejimdə xarici müxalifət olmur». Təkpartiyalılıq demokratiyaya keçid mərhələsində partiya ənənələrinin möhkəmlənmədiyi, çoxpartiyalılığın alt yapısının olmadığı və siyasi mübarizədə oyun qaydalarının ardıcıl və kobud pozulması zamanı meydana gəlir. Siyasi partiyaların məşhur tədqiqatçısı Dyuverje bununla bağlı yazır: «totalitar partiya çoxpartiyalılıqda meydana çıxır… dövlətin əsaslarına görə mübarizə totalitar partiyanı və rejimi meydana çıxarır…oyun qaydalarına əməl etmək totalitar partiyaya yaddır». Beləliklə, totalitarizmi meydana çıxaran siyasi oyun qaydalarını və ölkənin qanunlarını ardıcıl pozmaqla, dövlətin əsasları ilə bağlı məsələləri ardıcıl gündəmə gətirməklə iqtidarlar postsovet dövlətlərdə totalitar cəmiyyət yaratmağa nail olub. Təkpartiyalığın mövcudluğu yalnız öz ölkələri üçün yox, bütünlükdə bəşəriyyət üçün təhlükəlidir. Dyuverje xəbərdarlıq edir ki, «totalitar partiyanın əmələ gəlməsi üçün əlverişli siyasi vəziyyət yaranması rejim üçün ciddi təhlükə yaranır…nə vaxta kimi demokratik rejimlər öz totalitar partiyalarını polis yolu ilə yox, iqtisadi və mənəvi strukturlarını yenidənqurma yolu ilə stabilləşdirib və zəiflədə bilmirlərsə, onlar faşizm kimi partiyaların qarşısında gücsüz qalacaq». Totalitar partiyanın meydana çıxmasının digər bir səbəbi iqtidarların yanlış idarəetmə nəticəsində itirilmiş ictimai nüfuzlarını hakim partiyanın ölçüsü ilə kompensasiya etmək cəhdidir. Məsələ burasındadır ki, Dyuverjenin qeyd etdiyi kimi, «partiyanın strukturu, uyğun ölçüləri və alyanslar hökumətin avtoritetinə təsir edir». Partiyaların sərt davranışları ilə onların totalitarlığı arasında da əlaqə vardır. Əslində həqiqi çoxpartiyalı siyasi rejimdə partiyalar ölçülü və yumşaq davranmağa meyl

edir. Bunun əksinə, təkpartiyalılıqda bir partiya özünü cəllad kimi aparmaqdan çəkinmir. Totalitar partiyaların əsas işi həmişə «qalib» gəlməyə cəhd olduğundan «qalibləri mühakimə etmirlər» düşüncəsi ilə istənilən yanlış və hətta cinayətkar hərəkətlərə yol verirlər. ABŞ-da prezident seçkilərində Bill Klintona alternativ respublikaçı namizəd Doul Kemp çıxışlarının birində deyirdi: «İri partiyaların vəzifəsi başqa partiyalara qalib gəlmək deyil. Vəzifə ondan ibarətdir ki, yaxşı ideya verilsin, prinsipial rəhbərlik irəli sürülsün və qarşıya əsaslandırılmış vəzifə qoyulsun». Təkpartiyalılıqda isə «iri partiya» başqa partiyaları məhv etmək üçün siyasi alətə çevrilir. Qeyd edim ki, normal və təbii təşkilatlanmada heç bir cəmiyyətdə heç bir partiya başqalarından hədsiz böyük ola bilməz. Partiyalaşma təbii proses kimi getdiyindən, rəqabət prosesində təqribən bərabər güclər formalaşır. Amma totalitar cəmiyyətlərdə azad rəqabət olmadığından və partiyalaşma süni şəkildə getdiyindən, hakim partiya başqalarından yüz dəfələrlə «iri» ola bilir. Buna baxmayaraq, belə partiyaların iriliyi ilə gücü tərs mütənasib olur. Yaxın keçmişdə SSRİ-nin Kommunist Partiyasının 17 milyona yaxın üzvü var idi və ölkədə heç bir digər partiya mövcud deyildi. Amma bu partiya özünün hakimiyyətdən getməsinə, SSRİ-nin dağılmasına heç bir müqavimət göstərə bilmədi. İndi postsovet respublikalarında hakimiyyət partiyalarını azad rəqabətdən kənar, nəhəng «iri» partiyaya çevirmək cəhdi əslində bu partiyaları gücsüzləşdirmişdir. Belə gücsüz partiya isə özünün hakimiyyət elitasına nəzarət imkanını itirdiyindən, bu ölkələrdə neototalitarizm yaranır.

Haşiyə: Çoxpartiyalı sistemin birinci əlaməti partiyaların biri-birinə əkslik təşkil etməsidir. Amma totalitar cəmiyyətlərdə bundan fərqli olaraq, digər «partiyalar» da hakim partiyanın maraqlarına xidmət edir. Çin Xalq Respublikasında hakim Kommunist Partiyasından başqa daha altı siyasi partiya vardır. Həmin partiyaların hamısının nizamnaməsində məqsədlərinin Çin Kommunist Partiyasının proqramının həyata keçirilməsinə yardımçı olmaq qeyd olunub. Postsovet respublikalarında da onlarla «siyasi partiya» var ki, yalnız hakimiyyət partiyasının maraqlarına, həm də onlardan daha radikal və həyasızcasına xidmət edirlər. Totalitar cəmiyyətlərdə formal

çoxpartiyalılıq bir tərəfdən də siyasi partiyalarla cəmiyyət arasında səddin çəkilməsi ilə bağlı yaranır. Demokratiya xalqın iştirakını tələb etdiyindən, xalqın iştirakçılığına qarşı istənilən addım demokratiyanı məhv edir. Postsovet respublikalarında siyasi partiyalarla xalq arasında iqtidarın məqsədəyönlü yaratdığı sədd bir tərəfdən xalqın siyasiləşməsinin qarşısını alır, digər tərəfdən siyasi partiyaların demokratikləşməsinə mənfi təsir göstərir. Bundan əvvəl xatırlatdığım Afinada gənclərin xüsusi destruktivliyi ilə fərqlənən və uzun müddət davam edən ixtişaşlarla bağlı televiziyada çıxış edən Afinanın meri rəsmi surətdə bəyan etdi ki, «düzdür, gənclərin hərəkəti ölkənin imicinə, ictimai asayişə və iqtisadiyyata ciddi ziyan vurur, amma buna baxmayaraq, onlara qarşı heç bir zor tətbiq olunmayacaq». Bu fakt iştirakçılığın demokratiya üçün stabillikdən və dövlətin nüfuzundan nə qədər önəm daşıdığını əyani sübut edir. Postsovet respublikalarında isə hətta gələcək siyasi proseslərdə, ehtimal olunan siyasi fəallıqla bağlı hüquq mühafizə orqanlarının rəhbərlərinin hər cür təhdidedici, çəkindirici çıxışları bu ölkələrin hakimiyyətlərinin xalqın siyasi həyatda iştirakının əleyhinə olduğunu sərgiləyir.

Totalitar cəmiyyətlərdə hakimiyyət resursları hakimiyyət uğrunda mübarizədə iqtidardakı qüvvə üçün yeganə vasitəyə çevrilir, xalq isə siyasi mübarizədə tamaşaçı rolu oynayır. Reymon Aron «Demokratiya və totalitarizm» adlı kitabında çoxpartiyalı sistemdə partiyaların vəzifələri haqqında yazır: «Məqsəd hakimiyyətin realizasiyası yox, bunda iştirakdır…müxalifətin qanuniliyi prinsipi…dinc rəqabət…hakimiyyətin qanun çərçivəsində realizasiyası…hakimiyyətin qanun çərçivəsində realizasiyasında rejimin mahiyyəti qanuni hakimiyyət daşıyıcılarını təyin etmək üsuluna uyğun deyil».

Haşiyə: Demokratikləşmədə iqtidar–müxalifət tandemi ayrılmazdır və hər iki gücün paralel inkişafı demokratikləşmə üçün eyni dərəcədə əhəmiyyətlidir. Buna görə də hər iki tərəfin güclü olması şərtdir. Bir qayda olaraq demokratik cəmiyyətlərdə iqtidar-müxalifət mübarizəsində dövlətdə funksionerlər və liderlər partiyalararası mübarizədən üstə durur, totalitar cəmiyyətlərdə isə hakimiyyət partiyaları məhdudlaşdırır, mübarizəyə yox, tabe et-

dirməyə meyl edir. Qeyd etmək lazımdır ki, siyasi partiyalar yalnız cəmiyyətdə hakimiyyət uğrunda mübarizədə siyasi prosesdə iştirak etməməlidirlər, hər şeydən əvvəl partiyadaxili mübarizə olmadan nə siyasi partiyalar yeniləşə bilər, nə də siyasi partiyalar cəmiyyəti yeniləşdirmək üçün güc qazana bilər. Beləliklə, unutmaq olmaz ki, siyasi partiyaların və vətəndaş institutlarının zəiflədilməsi qaçılmaz olaraq totalitarizmə gətirib çıxarır. Siyasi partiyalar cəmiyyət həyatında müstəsna rola malikdir və geniş azadlıqlar şəraitində cəmiyyətdə nizam yaradılmasında iştirak edir. E.Bern «Lider və qrup» adlı kitabında yazır: «Hər dəfə qrup yaranarkən dünyada qaydaların sayı artır və hər dəfə qrup təxribat, məhv etməklə və ayrılma nəticəsində dağılarkən dünyada qaydaların sayı azalır». Bu baxımdan real siyasi partiyaların sayının artması ölkədə siyasi nizamın artmasına, əksinə, siyasi partiyaların müxtəlif yollarla sıradan çıxması siyasi xaosun yaranmasına gətirib çıxarır ki, bütün totalitar cəmiyyətlər də məhz xaosdan qaçma adı altında meydana çıxır. Siyasi partiyaların güclənməsi bütünlükdə xalqın siyasi hakimiyyətinin məcmusu gücünü artırır.

Siyasi partiyalarla vətəndaş azadlıqları biri-biri ilə sıx bağlıdır. V.N.Çiçerin «Xalqın tam hakimiyyətliliyi haqqında təlim» adlı əsərində yazır: «Partiyalar ictimai rəyin əsasında yaranır…partiyalar nə qədər davamlıdırsa, azadlığa əsaslanmış siyasi həyat bir o qədər düzgün davam edir. Yalnız siyasi azadlıqlarda həqiqi partiyalar yarana bilər».

Haşiyə: Postsovet respublikalarında iqtidar nümayəndələrinin verdikləri bəyanatlara, eləcə də təhlil etdiyimiz iqtidar strategiyasına həsr olunmuş məqalədəki «siyasi partiyalar gücsüzləşir, siyasi partiyalar getdikcə sıradan çıxır və kütləyə qarışır» fikirlərinə inansaq - təəssüf ki, bu fikirlərdə müəyyən qədər həqiqət də vardır - onda həm də postsovet respublikalarında siyasi azadlıqların aradan qalxdığını etiraf etməliyik, yəni «bu varsa, o da var, bu yoxsa, o da yoxdur». Moris Dyuverje yazır: «Partiyalar müstəsna olaraq siyasi problemlərlə məşğul olur, doktrinalar və ideologiyalar çox az rol oynayır, partiya məxsusluğu maraqlar və ənənələrə əsaslanır». Postsovet məkanının siyasi partiyaları elan etdikləri dəyərləri yox, öz liderləri-

ni daha çox müdafiə etməsi, ideoloji mübarizənin aparılmaması partiyalar arasında fərqi silir, bu da homogen çoxpartiyalılıq yaradır ki, bu da əslində təkpartiyalılığın eybəcər forması kimi təzahür edir.

Dövlətin siyasi partiyalarla münasibəti də cəmiyyətin demokratikləşmə probleminə daxildir. Dövlət siyasi partiyaların yalnız qeyri-demokratik cizgilərinə, siyasi partiyalar yalnız hakimiyyətin həyata keçirilmə qaydasına nəzarət etməlidir. Polis qanunların icrasına, yerli nəzarət isə polisin öz vəzifəsini yerinə yetirməsinə nəzarət etməlidir. Demokratiyada hakimiyyətin hüququndan yox, yalnız öhdəliyindən danışmaq olar. Ona görə də dövlət qeyri-hökumət təşkilatları qarşısında hesabatlı olmalıdır. Bunun üçünsə dövlətin fəaliyyəti şəffaflaşmalıdır. Neototalitar cəmiyyətlər üçün xarakterik olan dövlət sirri dövləti cinayətləri ört-basdır etmək kimi təqdim edilir. Göründüyü kimi, siyasiləşmədə dövlətin yerinin düzgün müəyyən edilməsi həyati əhəmiyyətə malikdir.

İqtidar strategiyasına həsr olunmuş məqalədə iqtidarın digər bir nailiyyəti kimi davamlı siyasi sistemin yaradılması göstərilir.

Haşiyə: Davamlı siyasi sistem əslində neototalitar rejimin hissəvi anlamını özündə ifadə edir. Belə ki, postsovet respublikalarında iqtidarların davamlı hakimiyyəti yaradılmışdır. Amma bunu davamlı siyasi sistem kimi təqdim etmək düz olmazdı. Birincisi, bu sistemlərin daxilində heç bir dəyişilmə və inkişaf baş verməmişdir. Bircə onu qeyd edim ki, məmurların eyni vəzifələrdə uzun illər qalması, yalnız keçmiş sovetlər üçün xarakterik olan bu hal, siyasi sistemin dayanıqsızlığının əlaməti kimi meydana çıxır. İkincisi, dövlətin yalnız bir qüvvənin hakimiyyətində dayanıqlı olması təmin edilmişdir. Bunu həm də belə bir fakt təsdiq edir ki, tez-tez hakimiyyət təmsilçiləri «bizdən başqa kimsə bu sistemi qoruya bilməz, bu hakimiyyət olmasa dövlət çökər, hakimiyyət dəyişikliyi qeyri-sabitlik yaradar» və s. kimi şüarlar, bu istiqamətdə atılan ardıcıl addımlar həm də onu göstərir ki, mövcud sistemlər qeyri-rasional və qeyri-universaldır. Bundan başqa yalnız bir siyasi qüvvənin hakimiyyətində dayanıqlı ola bilən siyasi sistem potensial qeyri-sabitliyin mənbəyi kimi çıxış edir. ABŞ dövlətinin və demokratiyasının banilərindən biri Medisson yazırdı: «Şəxsi ləyaqətindən asılı olmayaraq vəzifəli şəxslərin

tez-tez əvəzlənməsinə görə xalq hakimiyyətində baş verən dəyişiklik yalnız orqanların xüsusi möhkəmliyi ilə fərqlənən hakimiyyətdə belə müəssisələrin məsələlərin olması zəruriliyini göstərir». Beləliklə, postsovet respublikalarında hətta ləyaqətsiz məmurların uzun illər dəyişdirilməməsi bu ölkələrdə «xüsusi möhkəmliyi ilə fərqlənən müəssisələrin» olmadığını sübut edir. Bu da iqtidarların əslində səmərəli dövlətçilikdə ciddi nailiyyət qazanmadığını göstərir. Üçüncüsü, xalqın hərbi-polis gücü ilə idarə olunması səmərəli dövlətçilikdən, davamlı siyasi sistemdən danışmağa əsas vermir və bunun demokratiyanın genişlənməsinə, yəni siyasi inkişafa heç bir aidiyyatı yoxdur. Postsovet ölkələrində nə üçün bu gün polis peşəsi digər peşələrdən daha dəbdədir, nə üçün polislərin əmək haqları müəllimlərin, həkimlərin əmək haqlarından dəfələrlə çoxdur? Nə üçün hüquq-mühafizə orqanlarında kriminallaşma təhlükəli həddə çatıb? Nə üçün ölkədə kriminal vəziyyət durmadan ağırlaşdığı bir vaxtda polis generallarının sayı günbəgün artır və heç bir polis şefi səlahiyyətləri çərçivəsində baş verən cinayətlərə görə cavabdehlik daşımır? Cavab çox sadədir və bu, siyasi sistemin dayanıqlığında polisin rolu ilə bağlıdır. F.Fukuyama «Tarixin sonu və sonuncu adam» əsərində yazır: «Totalitarizmin başlıca məğlubiyyəti fikirlərlə idarəetmək qabiliyyətinə malik olmamasıdır». Əlavə etmək istəyirəm ki, yalnız kobud güc və zorakılıqla idarəetməyə məcbur olmasıdır. Bu isə zəifliyin əlamətidir. Özümə kumir kimi qəbul etdiyim Mahatma Qandi qeyri-zorakılıq haqqında deyirdi: «Qeyri-zorakılıq – güclülülərin silahıdır. Həqiqət və qeyri-zorakılıq mənim üçün bir medalın iki üzüdür». Yalnız demokratiyanın cəmiyyəti fikirlərlə idarə etməyə imkan yaratdığını nəzərə alsaq, iqtidar strategiyasında məhz demokratiyanın iqtisadi inkişafdan sonrakı mərhələyə saxlanılmasının idarəetmədə zorakılığı və polisi başlıca aktyorlara çevirmdiyni görərik. Dördüncüsü, səmərəli dövlətçilik və davamlı siyasi sistem demokratiya ilə eyni mənalı deyil. Dünya təcrübəsi də göstərir ki, hətta bəşəriyyəti təhdid edən güclü dövlətlərin bir çoxunda demokratiyadan əsər-əlamət olmamışdır. Bunun səbəbini yenə də F.Fukuyamanın aşağıdakı fikirlərində tapa bilərik. O, yazır: «Siyasi inkişaf demokratiyanın genişlənməsidir… Demokratiya əldə

etməkdən ötrü öncə dövlətə malik olmaq lazımdır. Amma dövlət quruculuğunun vəzifəsi hissəvi olaraq demokratiyanın tətbiqi vəzifəsi ilə üst-üstə düşmür». Bu baxımdan məhz demokratiyanın tətbiqi hissəvi olaraq qeyri-dövlət strukturlarının və müxalifətin vəzifəsi kimi meydana çıxır ki, bu vəzifələri yerinə yetirməyə imkan verməyən iqtidar birbaşa demokratiyanın genişlənməsinə və siyasi inkişafa mane olur. Siyasi inkişaf olmayan yerdə isə səmərəli dövlətçilikdən danışmaq olmaz. C.Kin yazır: «Demokratikləşmə nə dövlətin açıq düşməni, nə də sözsüz dostudur». Totalitar dövlət isə özü tərəf kimi çıxış edir və bir qayda olaraq hakimiyyət dövlət çulğulaşmasında dövlət-hakimiyyət simbiozu rəsmi resursların verdiyi üstünlükdən istifadə edərək istənilən gücdən üstün olur. Əslində, quldarlığın kəşf etdiyi dövlət həm də eyni zamanda, quldarlıq vasitəsi olmuşdur və vətəndaş cəmiyyəti institutları olmayan hər bir yerdə bu günə kimi ya daxili, ya xarici münasibətlərdə quldar rolunu oynamaqda davam edir.

Qeyd etmək lazımdır ki, dövlətin tipi, onun siyasi sistemi öz qarşısına qoyulmuş vəzifə ilə birbaşa bağlıdır. T.Hoyrup iki cür dövlət modeli – hərbi və hərəkətli dövlət modellərini ayırd edərək yazır: «Hərbi dövlətdə siyasi, iqtisadi və ideoloji anlayışlar müvafiq müdafiə modeli ilə birbaşa bağlıdır. Hər iki dövlət modellərində iqtisadi və ideoloji konseptual münasibətlər müdafiənin vətəndaş cəmiyyətindən ayrılmasını elə şəkildə düşünür ki, dövlət müdafiə və xarici siyasət üçün lazım olan vəsaiti toplaya bilsin. Bu dövlətdə vətəndaş cəmiyyəti onun subyektinin hərəkətli mülkiyyətinə bazalaşır. Bu hərəkətin iki aspekti var: 1. Vətəndaş cəmiyyətinin resursları və vasitələri real mülkiyyət kimi funksiyalaşır. 2. Hərbi dövlət öz təbiətinə görə totalitar, hərəkətli dövlətlər demokratikdir». Bu bölgüdən yanaşdıqda postsovet dövlətlərin hərbi dövlət modelinə uyğun gəldiyini və təbiətinə görə də totalitar olduğunu deyə bilərik.

L.Hobsbaum «İmperializm əsri» adlı əsərində yazır: «Xalqın narazılığı nə qədər azdırsa, demokratiyanı öyrənmək bir o qədər asandır…kütlənin siyasi mobilizasiyası qlobal xarakterdə olub…barışmaz güclərin artan qarşıdurmasında hökumətlər məcburiyyətə əl atır…kapital əsri, beynəlxalq standartlaşma XIX əsrin sonlarından

iqtisadi və texnoloji çərçivədən çıxıb». Postsovet respublikalarında isə hər şeyi iqtisadi və texnoloji çərçivəyə salmağa cəhd edilir ki, bu da bu ölkələri XIX əsrdən əvvələ – feodalizasiyaya sürükləyir.

Haşiyə: Müasir postsovet cəmiyyətlərin feodalizmə qayıtması ilə bağlı fikirlər ilk baxışdan mübahisəli görünə bilər. Bunun başlıca səbəbi feodalizm terminin hissəvi anlanılmasıdır. Feodalizm iqtisadi sahədə – əməyin fiziki xarakter daşıması, onun xüsusi təşkil olunmaması, sənayeləşmənin geniş vüsət almaması, insanlarda sərvət yığımına meyl, təmtərağa üstünlük verilməsi, aqrar ruhun hakim kəsilməsi; sosial sahədə – sosial təminatın təkmil dövlət formasının yaranmaması, elm və təhsilin zəif inkişafı, elmin təqib olunması; siyasi sahədə – dinin dövlətlə birləşməsi, idarəetmənin ordu və polisə əsaslanması, millətləşmənin baş verməməsi, hakimiyyətin dəyişilməsinin qanuni mexanizmlərinin olmaması, hüquqi nihilizm, cəzalanmanın siyasi iradəyə əsaslanması, beynəlxalq inteqrasiyanın yaranmaması, dövlətin hakimi-mütləq olması, dövlətin fərd üzərində hökmranlığı və onun qarşısında heç bir öhdəlik daşımaması; ictimai sahədə – patriarxal əlaqələrin güclü olması və s. aiddir. Neototalitar dövlətlərin XXI əsrdə yaşadığını və bəzi məsələlərin müasirliklə pərdələnməsini nəzərə alsaq, bu əlamətlərin hamısı postsovet respublikaları üçün xarakterikdir. Buna görə də istər-istəməz biz postsovet respublikalarında feodalizasiya prosesi getdiyini etiraf etməliyik.

Demokratikləşmə istiqamətində dövlətsizləşmə – dövlətin cəmiyyətin həyatında getdikcə daha dar sahələrdə iştirakını və funksiyasının dəyişilməsi ilə bitərəf güc kimi çıxış etməsi tələb olunur. Buna görə də cəmiyyətdə dövlət nahiyəsinin düzgün müəyyən edilməsi ciddi siyasi məsələyə çevrilir. C.Dyui dövlət nahiyyəsi haqqında yazır: «Dövlət nahiyyəsi – dar, qapalı və intim asossasiyalarla bir-birindən o qədər uzaqda duran və aralarında nadir və təsadüfi kontaktlar olan asossasiyalar arasındadır». Başqa sözlə, dövlət nahiyəsi ailə ilə vətəndaş institutları arasındakı boşluqda olmalıdır. Bu boşluq nə qədər genişlənirsə, cəmiyyət bir o qədər totallaşır. Dövlət nahiyəsi həm də dövlətin vəzifəsi ilə bağlıdır. Dyuiyə görə, «dövlət ədaləti təmin edəndə ədalətli olur». Deməli, dövlət ədalətsizliyin

olduğu nahiyədə olmalıdır. Totalitar cəmiyyət bütünlükdə ədalətsizlik məkanına çevrildiyindən, dövlət hər yerdə olur və bu zaman ədaləti təmin etmək əvəzinə öz yerini genişləndirmək naminə ədalətsizliyə dəstək verir. Dövlətlə əks qütbdə duran cəmiyyət arasında konkret sərhədlər olmalıdır, hansı ki, dövlət bu sərhədlərdə dayanmalıdır. C.Kinə görə, «ictimai arakəsməsi olmayan dövlət təhlükəlidir və despotizmə yol açır».

Haşiyə: Cəmiyyət həyatında ictimai ədalətsizlik dövlətə ehtiyac yaradır, totalitar cəmiyyətlər bu ehtiyacı kəskinləşdirmək və artırmaq məqsədi ilə ədalətsizliyi məqsədəyönlü şəkildə artırırlar. Əslində totalitarizm dövlətin ömrünü qısaltdığından, demokratiya isə dövlətin gücünü və ömrünü uzatdığından, mütərəqqi cəmiyyətlər demokratiyanı seçir. C.Kin bununla bağlı yazır: «Siyasi hakimiyyətin despotik dövlətdə – o, zəif, qeyri-populyar, qeyri-təbii olduğundan – qəzaya uğraması vaxt məsələsidir». Totalitarizmə meylin əsasında idarəedənlərin qabiliyyətsizliyi durur. Belə ki, totalitarizm planlaşdırmaya, proqnozlaşdırmaya imkan verdiyindən, belə cəmiyyəti idarə etmək asan olur. Amma demokratiya hamı üçün gözlənilməzlik vəd etdiyindən, vətəndaşların davranışı və ictimai həyat planlaşdırmaya və proqnozlaşdırmaya tabe olmur. Ona görə də demokratiyada idarəedənlərdən dərin bilik, yüksək əxlaq, idarəetmə səriştəsi və şəxsi nüfuz tələb olunur. Demokratik idarəçilik hər bir konkret an, situasiya üçün xüsusi yanaşma tələb edir. Beləliklə, demokratiya dinamik siyasi texnologiya, idarəedənlərdən isə daim axtarış tələb edir. Demokratiyada məmurların diqqəti və vaxtı cəmiyyət həyatına sərf olunduğundan, boş əyləncəyə vaxt qalmır. Totalitarizmdə isə bir siyasi texnologiya bütün vaxtlar, bütün hallar və vəziyyətlər üçün keçərli olduğundan, idarəedənlərin külli miqdarda «boş vaxtı» qalır, belə cəmiyyətlərdə rəsmi dairələr üçün əyləncə adi həyat tərzinə çevrilir. Bu isə rasionallığı məhv edir.

Dövlət məsələsi həm də hakimiyyətlə sıx bağlıdır. Hakimiyyət hər şeydən öncə idarə etdiyi xalqın təbiətinə uyğun olur. S.Smayls qeyd edir ki, «istənilən millətin hökuməti onun xarakter xüsusiyyətlərinin məhsuludur, hər bir xalqın azadlığı nə qədər siyasi xüsusiyyətlərindən asılıdırsa, bir o qədər də ənənəvi xüsusiyyətlərindən

asılıdır…azadlığın ictimai təhlükəsizliyinin və tərəqqinin ən davamlı təminatı fərdi xarakterdir». Digər tərəfdən isə hakimiyyət dövlətin siyasi rejiminin əlamətlərinin daşıyıcısıdır. F.Fukuyama «Amerika yol ayrıcında» adlı kitabında yazır: «Rejim siyasi həyatın mahiyyətinə varmaq üçün açardır». Totalitar cəmiyyətlərdə hakimiyyət vətəndaşın gözünə girir, evinə soxulur və şəxsi həyatına müdaxiləyə cəhd edir. Bunun əksinə, demokratiyada hakimiyyətin sadəcə mövcudluğu kifayət edir. P.Burde yazır: ««Legitim hakimiyyət» - özünü hakimiyyət kimi göstərməyən hakimiyyətdir». Postsovet respublikalarında hakimiyyətlərin totalitar mahiyyəti bir tərəfdən yerli xalqların xüsusiyyətləri ilə, digər tərəfdən isə xalq materialının korlanmasına xidmət edən qüsurlu idarəetmə ilə sıx bağlıdır.

Haşiyə: Neototalitar cəmiyyətlərdə hər addımda hakimiyyət nümayəndələrinin vətəndaşların gözünə girməyə cəhd etməsi bu hakimiyyətlərin legitimlik defisiti ilə bağlıdır. Belə ki, hakimiyyətlər qeyri-legitim olduqları qədər özlərini xalqa nümayiş etdirməyə cəhd edirlər.

Demokratikləşmədə kadrlar hər şeyi həll etməsə də, çox şey onlardan asılıdır. M.Veberə görə, insanlar iki formada siyasətlə əlaqələnir – təsadüfə görə və peşəyə görə. Cəmiyyətdə hər bir vətəndaş təsadüfə görə siyasətlə əlaqələnir, bundan fərqli olaraq müəyyən bir qrup peşəyə görə siyasətə daimi bağlanır. Veber bu qrupu da iki yerə ayırır: Siyasət hesabına yaşayanlar – siyasətə yaşam mənbəyi kimi baxanlar; Siyasət naminə yaşayanlar – siyasətə ideyalarını reallaşdırmaq vasitəsi kimi yanaşanlar. Bir qayda olaraq rəsmi dövlət vəzifələri tutanlar da iki yerə bölünür: Məmurlar və siyasi rəhbərlər. Burada siyasi rəhbərlər siyasət naminə yaşamalı, məmurlar isə siyasət hesabına yaşamalıdır.

Haşiyə: Birincisi, demokratik cəmiyyətdə siyasət hesabına yaşamaq qanunla müəyyən olunur, leqal əmək haqqı formasında meydana çıxır. Totalitar cəmiyyətdə isə siyasət hesabına yaşamağın qeyrileqal yolları – korrupsiya, rüşvət, kriminal və s. kimi yollar yaranır. İkincisi, demokratik cəmiyyətlə totalitar cəmiyyət həm də onunla fərqlənir ki, totalitar cəmiyyətdə hamı siyasət hesabına yaşayır, demokratiyada isə əksinə, vətəndaşlarda siyasət naminə yaşamağa

cəhd üstünlük təşkil edir. Demokratik dövlətdə hökumət müzdlu işçi kimidir. C.Dyuiyə görə, «dövlət – insan qulluqçu tutan kimi hökumətə malik olur – hakimiyyət qüsurlarından dövlət sığortalanır». Üçüncüsü, totalitar dövlətdə hakimiyyətlə dövlət eyniləşdirilir və özəlləşdirilir. Belə cəmiyyətdə hakimiyyət ağadır. Başqa sözlə, totalitar dövlət formulu «dövlət = hakimiyyət = məmurlar» kimidir. Buna görə də iqtidarların kadr siyasəti demokratikləşmədə müstəsna rol oynayır. Dördüncüsü, demokratik cəmiyyətdə meritokratiya – ləyaqətli insanların hakimiyyəti yaranır. Belə ki, dövlət vəzifələri vətəndaşlara cəmiyyət qarşısında göstərdikləri xidmətə və bu zaman malik olduqları imicə uyğun mükafat kimi verilirsə, totalitar dövlətdə gələcəkdə göstərəcəyi şəxsi sədaqətə görə pay kimi verilir. Buna görə də məmur nə qədər sədaqətlidirsə, bir o qədər hakimiyyətdə qalır. Halbuki, demokratik cəmiyyətlərdə xalqın yeni xidmətçiləri meydana çıxdıqca, dövlət onları mükafatlandırmaq üçün dövlət vəzifələrini mütəmadi boşaltmağa məcburdur. Məhz C.Dyui də siyasi demokratiyanı belə dəyərləndirir. O, yazır: «Siyasi demokratiya – məmurların ümumi seçkisi, hakimiyyətdə qısa müddətdə qalma, tez-tez keçirilən seçkilərdir». Beləliklə, siyasi demokratiya kadr seçimi və dəyişiklikləri ilə bağlıdır. Özü seçilməyənin seçimi bir qayda olaraq şəxsi maraqlara əsaslanır. Beləliklə, hakimiyyətin seçkili olması ilə kadrların seçilmə prinsipi bir-birindən ayrılmazdır. Demokratiya bürokratiya və siyasi rəhbərliyin bir-birindən ayrılması ilə siyasi müəssisələşmədir. Totalitarizm isə bunun əksinə, bürokratiyanın siyasiləşməsi ilə siyasi müəssisələşmədən imtinadır. C.Kin bütün bunları nəzərə alaraq yazır: «Daha demokratik cəmiyyəti dövlətlə qurmaq olmaz…sərtlik demokratiya üçün yumşaldılmalıdır».

Hakimiyyətin dinc ötürülməsi demokratiyanın başlanğıc əlamətidir. Hakimiyyətin dinc dəyişilməsi baş verməmiş dünyanın heç bir ölkəsində demokratikləşmə başlamayıb. K.Manheym yazır: «Müasir totalitar dövlətdə bütün aparat bir yeganə partiyaya məxsusdur və onun bürokratik sisteminə, onların hakimiyyəti kiməsə verməsinin şansı azdır». Bu baxımdan ABŞ Dövlət Departamentinin son illər yaydığı illik hesabatlarda «Azərbaycan xalqının dinc yolla hakimiyyəti dəyişdirmək şansının olmamasını» qeyd etməsi diplomatik dillə

ABŞ-ın Azərbaycanda totalitar cəmiyyət olduğunu təsdiq etməsindən xəbər verir.

Demokratikləşmə bütünlükdə anarxiyadan sığortalanmağı tələb edir ki, bu zaman güclü dövlət önə çıxır. Dövlətin və hakimiyyətin gücü nə anlamda qəbul edilə bilər? Bu sual cəmiyyətləri differensasiya etməkdə mühüm rol oynayır. Qeyd edim ki, totalitar dövlətin gücü demokratik dövlətin gücündən keyfiyyətcə fərqlənir. Totalitar dövlətin gücü – polis, məhkəmə və zorakılıqdır. Emil Faqe «Liberalizm» adlı kitabında yazır: «Kiçik ölkələr üçün polis və məhkəmələr – dövlət işidir». Demokratiyada mülki rəhbərliyə üstünlük verilir. DİN, DTK və Müdafiə Nazirliyinə mülki şəxslər rəhbərlik edir, hərbiçilər və polis şefləri ictimaiyyətin qarşısına mülki paltarda çıxırlar. Bu, hakimiyyətin gücdən imtinasını simvolizə edir. Postsovet ölkələrində hətta mülki məmurlar belə, hərbi forma geyməyə meyl edir, hərbi və polis mundirində hüquq mühafizə orqanlarının televiziyada hədə-qorxu ilə çıxış etmələri adət halına salınıb. Bundan fərqli olaraq, demokratik dövlətin gücü – qanun, hüquq, nüfuz və etimaddır. Demokratik cəmiyyətdə hakimiyyət uğrunda mübarizə nüfuz uğrunda mübarizə müstəvisində gedir. Bunun əksinə, bütün hallarda bilavasitə hakimiyyət uğrunda mübarizə hakimiyyət ehtirasları ilə bağlı olub, totalitarizmə xidmət edir. Məhz nüfuzunu itirmək qorxusu demokratik cəmiyyətdə hakimiyyətdəkiləri qanuna tabe etdirir. Onları qüsursuz fəaliyyətə sövq edir. Demokratiyada yalnız seçkilərdə uduzmaqda yox, həm də nüfuzdan düşdükdə qüvvələr hakimiyyətdən əl çəkir. Totalitar dövlətlərdə hakimiyyətdəkilər nüfuzdan düşdükcə zora, etimadlarını itirdikcə yalana əl atmağa məcbur olur. Hər iki hal isə totalitarizmin əsasını qoyur. Demokratiyada güclü dövlətin funksiyası vətəndaş cəmiyyətini gücləndirməkdir. C.Kin tamamilə haqlıdır ki, «dövlət funksiyası olmadan azadlığı və bərabərliyi saxlamaq olmaz», amma unutmaq olmaz ki, yalnız dövlətə də azadlıq və bərabərlik kimi dəyərləri etibar etmək olmaz. Əslində totalitarizm dövlətin fərdlə yadlaşması, demokratizm isə dövlətin fərdlə doğmalaşmasıdır. Doğma dövlət öz vətəndaşlarına bir gözlə baxdığından, bərabərlik yaranır, vətəndaş onun üçün təhlükə olmadığından, onun azadlığına da qısqanmır.

Haşiyə: Demokratikləşmə hakimiyyət qolları arasında səlahiyyət və məsuliyyət bölgüsü ilə sıx bağlıdır. Birincisi, istənilən cəmiyyətdə istənilən hakimiyyət qolu və ya şəxs ölçüsüz səlahiyyət daşıdıqda onun fərdi kimliyindən asılı olmayaraq totalitarizm yaranır. J.P.Marat yazır: «Nə zaman ki, hökmdar qeyri-məhdud hakimiyyət əldə edir, xalq maraqlarından söhbət gedə bilməz». İkincisi, idarəedənlərin səlahiyyətləri nə qədər genişdirsə, bir o qədər nüfuz qazanmaq şansı yaranır. Səlahiyyətin nüfuzla uyğunluğu yalnız məsuliyyətlə müəyyənləşə bilər. Dövlətdə məsuliyyətin və səlahiyyətin mənbəyi nədir? M.Veber siyasətçinin üç keyfiyyətinin olmasını zəruri hesab edir: Ehtiras – işin mahiyyətinə istiqamətlənmək; Göz ölçüsü – daxili yığcamlıq, reallıqların təsirini sakit qarşılamaq; İnsanlara və şeylərə məsafə saxlamaq – məsafənin olmaması istənilən siyasətçinin məhvedici günahıdır, özü-özü ilə məsafə saxlamaq, təkəbbürdən uzaqlaşmaq, cavabdehlik; cavabdehlik məsuliyyətin, ehtiras isə səlahiyyətin mənbəyidir». Üçüncüsü, rəhbərlərlə məmurların məsuliyyətinin fərqliliyi. Veberə görə, liderin məsuliyyəti məmurun məsuliyyətindən başqa prinsipə əsaslanmalıdır. Eləcə də vətəndaşın məsuliyyəti ilə hakimiyyətdəkilərin məsuliyyətinə fərqli yanaşma tələb olunur. Belə ki, məmurlar icraya, liderlər qərarlara görə məsuliyyət daşımalıdırlar. O yerdə ki, qərarla icra arasında səlahiyyət bölgüsü yoxdur, orada heç vaxt məsuliyyətdən söz gedə bilməz.

Postsovet respublikaları bu yerə necə gəlib və ya gəlməyə bilərdimi və ya kimdir günahkar və biz bu vəziyyətdən əlavə ərazilər itirmədən, vətəndaş qarşıdurması olmadan, dövlətin süqut etməməsini təminat altına almaqla çıxa bilərikmi? Demokratikləşmənin bir aspekti də məhz bu sualların cavabları ilə bağlıdır. Məncə, hər şeydən əvvəl postsovet respublikalarında keçid dövrünün süni surətdə uzanması ilə əlaqəli yaranmış durğunluq dövründə latent şəkildə gedən və bunu aşkar müşayət edən iqtidarların apardığı cari siyasətin demokratikləşməyə təsirlərini təhlil etməliyik.

Haşiyə: Neototalitarizmin yaranma səbəblərini sadalamadan, öncə hakimiyyətdən qaynaqlanan subyektiv səbəbləri təhlil etmək yerinə düşər. Demokratikləşmə prosesində «sosial əyintilər və demokratikləşmə» problemi olduqca ciddi əhəmiyyət kəsb etdiyindən,

burada qısa da olsa şərhə ehtiyac var. Demokratikləşmə özündə həm iqtisadi, həm də mənəvi sahədə baş verən rasional dəyişilmələri göstərir. İnsan irrasional varlıqdan – təbii varlıqdan sosial varlığa məhz demokratikləşmə nəticəsində çevrilir. Bu dəyişilmənin baş verməsi üçün insan açıq sistemə, yəni fərddən şəxsiyyətə keçir. C.Dyui yazır: «Ayrıca adamın fərdiliyi kütlədə, siyasi mitinqlərdə, səhmdar cəmiyyətlərin fondlarında və seçki prosesində pozulur». Məhz həmin proseslərdə fərdin həm də xarici təsirlərə müqaviməti demək olar ki, itir, fərd «kollektiv mən»də əriyir və yenidən öz fərdiliyinə qayıdarkən «kollektiv mən» vəziyyətində əldə etdiyi yeni keyfiyyətlərə qayıdır. Ona görə də demokratikləşmə üçün sərbəst toplaşmaq, KİV azadlığı, bazar iqtisadiyyatına xas səhmdar fondlar və nəhayət, demokratik prosedurlar həyati əhəmiyyət daşıyır. Ayrıca adam «trans» vəziyyətində şəxsiyyətə çevrilmədə, öz fərdiliyini itirdiyi vəziyyətdə, sosial əyintilərin təsirinə daha asan məruz qalır və insan şərlə yoluxur. Buna görə də demokratikləşmə prosesində sosial neqativlər fərdi daha çox deqradasiyaya məruz qoyur. Sosial əyintilərin pozucu təsiri demokratikləşmənin mərhələləri ilə sıx bağlıdır. Qeyd edim ki, demokratikləşmə istənilən inkişaf prosesinə xas olan qaydada – mərhələli inkişaf edir və bu prosesi dörd mərhələyə ayırmaq olar: 1. Demokratikləşməyə hazırlıq mərhələsi; 2. Demokratikləşməyə keçid; 3. Demokratiyanın formalaşması; 4. Demokratikləşmənin geridönməz xarakter alması – inkişaf etmiş demokratiya. Bu dörd mərhələ qarşıda duran problemlər, vəzifələr və inkişaf meylləri baxımından və sosial əyintilərin təsirinə məruz qalmağına görə bir-birindən ciddi şəkildə fərqləndiyindən, onlar arasında analogiya aparmaq səhvdir. Sosial əyintilərin demokratikləşmə prosesinin müxtəlif mərhələlərində müxtəlif nəticələr verməsi fiziki inkişaf qanunlarına tabe olur. Fiziki inkişafın dörd əsas qanunu vardır: 1. Hər hansı bir quruluş (istər canlı, istər cansız, istər sosial, istərsə də siyasi) əmələ gəlmənin başlanğıcından ona edilən xarici təsir nəticəsində əmələgəlmə prosesinə daxil ola bilmir; 2. Hər hansı bir quruluş əmələgəlmə prosesinin başlanğıcında, tam formalaşmamış, kənar təsirlərə məruz qaldıqda eybəcərləşmə yaranır və normal formadan fərqli inkişaf yoluna düşür; 3. Hər hansı bir quruluş strukturlaşmasını başa çatdırıbsa,

xarici təsir yalnız onun normal funksiyalaşmasına təsir edir; 4. Hər hansı bir quruluş struktur və funksional baxımından inkişafı başa çatdırıbsa, xarici təsir iz buraxmır və ya inkişaf tempini ləngidir. Beləliklə, biz demokratiyanın ayrı-ayrı mərhələlərini fiziki inkişaf qanunları ilə uzlaşdırsaq, məlum olar ki, demokratiyaya hazırlıq fiziki inkişafın birinci, demokratiyaya keçid ikinci, inkişafda olan demokratiya üçüncü, inkişaf etmiş demokratiya isə dördüncü qanuna tabe olur. Buradan da bizim üçün vacib əhəmiyyət kəsb edən belə bir həqiqət meydana çıxır ki, eyni sosial qüsurlar demokratikləşmənin müxtəlif mərhələlərində olan cəmiyyətlərə müxtəlif təsir edir. Belə ki, eyni bir qüsur, məsələn, korrupsiya və ya seçki saxtakarlıqları demokratikləşməyə hazırlaşan cəmiyyətdə proseslərin başlanmasına imkan vermir, demokratiyaya keçiddə olan cəmiyyətdə demokratiyanı eybəcərləşdirir, formalaşmış demokratik cəmiyyətlərdə demokratik institutların funksiyalaşmasında bəzi problemlər yaradır, inkişaf etmiş demokratik cəmiyyətlərdə isə heç bir təsir etmir və inkişafın tempini cüzi dərəcədə aşağı salır. Bu qanunauyğunluğu nəzərə almayan bəzi qərbli dostlarımız da postsovet respublikalarında baş verən sosial əyintilərin demokratik ölkələrdə də rast gəldiyini əsas götürüb, həmin əyintilərin postsovet respublikalarının demokratiyaya keçidinə təsirini adekvat qiymətləndirmirlər və bunu eyni problemlərin Avropa və ABŞ-da olması və o qədər də ağır sosial fəsadlar verməməsi ilə izah edirlər. Amma qeyd etdiyimiz kimi, inkişafın müxtəlif mərhələlərində olan postsovet respublikalarında - eyni problemlər heç vaxt demokratikləşmənin müxtəlif mərhələlərində olan cəmiyyətlərdə eyni nəticə vermədiyindən - bu mühakimələrin heç bir elmi və fəlsəfi əsası yoxdur və belə səhv yanaşma nəticəsində 17 ildir ki, bu ölkələr hələ də demokratiyaya keçid edə bilmir. Postsovet respublikalarında demokratikləşməyə keçidə imkan verməyən iki mühüm əyinti – demokratik prosedurların saxtalaşdırılması və iqtisadiyyatda korrupsiya ABŞ-da və digər Qərb dövlətlərində meydana çıxdıqda bəzi demokratik proseslərə sadəcə müvəqqəti olaraq ləngidici təsir edirsə, potsovet ölkələrində demokratiyanı «beşiyindəcə boğub». Bu baxımdan iqtidarların öz ölkələrində total xarakter almış sosial əyintilərə «ABŞ-da da var» kimi bəraətinin heç bir məntiqi əsası yoxdur.

Unutmaq olmaz ki, Amerikaya təsir etməyən səhvlər və qüsurlar demokratiyaya keçid etməyə cəhd edən dövlətləri məhv edə bilər. Məhz buna görə də iqtidarların fəaliyyətindəki əyintilər demokratikləşməyə keçiddə durğunluq yaratmışdır. Əvvəlki fəsillərdə qeyd etmişdik ki, inkişafda durğunluq uzunmüddətli ola bilməz. İnkişaf istiqamətli prosesdir və sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru dialektik inkişaf qanununa tabe olur. Əgər inkişaf bu istiqamətdə getmirsə, onda geriyə başlanğıc vəziyyətə doğru proses başlayır ki, bununla bağlı reaksiyanın yaranması qaçılmaz olur. Əgər biz bunu siyasi inkişafa aid etsək, onda keçid dövrünün durğunluğundan postsovet respublikalarının siyasi hərəkətin çıxış nöqtəsi olan sosializm və ondan qabaqkı vəziyyətlərə – feodalizasiyaya və ya quldarlığa istiqamət götürdüyünü deyə bilərik. Burada üçüncü bir həqiqət yoxdur və ola da bilməz. Başqa sözlə, postsovet siyasi məkanında inkişaf irəli – demokratikləşmədən keçməklə liberalizmə doğru getmədiyindən, geriyə - yenidən feodallaşmaya və ya eybəcərləşmiş sosializmə doğru inkişaf etməkdədir. Bunu siyasi – sosial atavizm kimi də adlandırmaq olar və təbiətdə bu cür əvvələ qayıtmaqla hər cür eybəcərliklərin yarandığını müşahidə etmək olar. İnkarı inkar qanununa əsasən heç bir proses öz əvvəlki vəziyyətinə olduğu kimi qayıda bilmədiyindən, təkrar sosializmə və feodalizmə doğru inkişafda da ortalığa çıxan sosial-siyasi vəziyyət klassik feodalizasiya və mövcud olmuş sosializmin sovet formasından fərqlidir və bu neo-vəziyyətdir. Bunu nəzərə alaraq mübahisəsiz demək olar ki, postsovet respublikalarında neo-totalitarizmə keçid baş verməkdədir.

Qeyd edim ki, postsovet respublikalarında siyasiləşmənin – demokratikləşmənin problemləri həm də demokratiyanın özündən qaynaqlanır və həmin qüsurlar da totalitarizmə şüurlu cəhd edən qüvvələrə yardım edir. Biz burada onlardan bəzilərinə xüsusi əhəmiyyətinə görə diqqət ayırmağı məqsədə müvafiq hesab edirik.

Haşiyə: Birincisi, demokratiyanın başqa-başqa planlı inkişafdan əsaslı fərqi gözlənilməzlik və təhlükələrə açıqlığıdır. Bunun bariz nümunəsini biz dünyada baş verənlərdə də görürük. Belə ki, demokratik ölkələrin yaratdığı şərait – insan azadlıqları – beynəlxalq terroristlərə asanlıqla həmin ölkələrə sızmağa və orada qanlı təxribat-

lar törətməyə əlverişli şərait yaradır. Məhz demokratiyanın zəif kimi görünən tərəfləri iqtidarların əlində totalitar cəmiyyət yaratmaq üçün göydəndüşmə bəhanə olur. C.Kin yazır: «Həqiqi demokratiya qanunauyğun olaraq gözlənilməz və çox vaxt təhlükəli nəticələrin yaranacağını nəzərə almalıdır. Bununla belə, nəticələri pərdəarxası oyunlarla – ələ almaqla, sui-qəsdlər, kütlənin diktatorcasına tərbiyyəsi, terror və s. yollarla əzməyə zorlamamalıdır». İkincisi, demokratikləşmədə digər bir qüsur – demokratiyanın iqtidarlar tərəfindən imitasiya olunmasıdır. Demokratik imitasiya formal şəkildə demokratik prinsiplər nümayiş etdirilməsinə əsaslanır. Demokratik imitasiya iqtidarların siyasətindən qaynaqlanır və formal demokratiyanın meydana çıxmasına səbəb olur. Üçüncüsü, demokratiyadan sui-istifadə. Bü qüsur vətəndaşların günahlarından qaynaqlanır və avtoritar demokratiyaya yol açır. Bu xüsusən plüralizmə münasibətdə özünü göstərir. Bir qayda olaraq, demokratikləşməyə hazırlaşan cəmiyyətlərdə, uzun müddət partiyalaşmadan kənarda qalmış vətəndaşlarda partiya yaratmaq ehtirası baş qaldırır. Zəruri siyasi biliyin və təcrübənin yetərsizliyindən səhnəyə çoxlu sayda partiya adı daşıyan, ictimai rəyi çaşdıran və iqtidarın manipulyasiya imkanını genişləndirən «partiyalar» doğulur. Əslində belə siyasi partiyaların olması heç də siyasi plüralizmin olmasına dəlalət etmir. C.Kinə görə, «nəzəriyyəsiz təcrübədə iştirak – partiyaların fərqini itirir». Siyasi plüralizm isə təcrübədə yalnız partiya fərqliliyi kimi təzahür etdiyindən, konkret nəzəriyyəyə əsaslanmayan partiya çoxluğu demokratikləşməyə ziyan vurur. Dördüncüsü, partiyalaşma prosesinin qüsurların, siyasi partiyalaşmada qeyri-bərabər inkişaf nəticəsində bir partiyanın digərlərinə nisbətən qeyri-adi ölçüdə böyümək imkanı yaranır. Partiyalar birtərəfli qaydada böyüdükcə faktiki təkpartiyalılıq və bundan doğan fəsadlar meydana çıxır. Bu fəsadların başında avtoritarizm gəlir. R.Mixelsə görə, «Liderlərin hakimiyyəti partiyaların genişlənməsinə proporsionaldır». Məhz nəhəng partiyalar öz liderlərinə qeyri-məhdud hakimiyyət verdiyindən, belə partiyaların hakimiyyəti despotiyanın yaranmasını qaçılmaz edir və ya da avtoritar idarəçiliyə meyl öz partiyasını qeyri-adi ölçülərədək böyütməyə cəhd yaradır. Beşincisi, aşkarlıqla – xarici təsirlərə açılmamaqla bağ-

lıdır. Başqa sözlə, əgər siyasi mübarizə nəticəsində müxalifət və ya fundamental insan hüquqlarının qorunması və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq təşkilatlar iqtidara təsir edə bilmirsə, onda demokratikləşmə baş vermir. Bu mürəkkəb sistem qanunlarına əsasən belə olur. İ.Priqojin və İ.Stenqers sinergetik sistemlərlə bağlı yazırlar: «Əgər sistem yeni vahidlərin nisbi müdaxiləsinə struktur davamlıdırsa, onda yeni rejimin funksiyalaşması baş vermir, yeni vahidlər isə məhv olur». Bu gün postsovet respublikalarında demokratik institutların yaranmaması və artıq yaranmışların bir-birinin ardınca sıradan çıxmasına məhz iqtidara xarici təsirin olmaması və ya belə təsirlərin effektsizliyi səbəb olmuşdur. Müasir dünyanın heç bir demokratik ölkəsində rejimlər özlərini xarici təsirlərdən müdafiə etməklə məşğul olmur və onları dəyişdirmək istəyən qüvvələrə reaksiya nümayiş etdirmirlər. Hətta ABŞ kimi super güc beynəlxalq qınaqları nəzərə alaraq, bu və ya başqa sahədə öz siyasətinə yenidən baxır və iradları nəzərə alır. O yerdə ki, iqtidarlar idarə etdiklərinin arzularına və beynəlxalq demokratik güclərin təsirlərinə qeyri-zorakı razılaşmır, orada demokratikləşmə və ictimai inkişaf baş verə bilməz. Biz postsovet respublikalarının nümunəsində də bu faktla üz-üzəyik. Altıncısı, nailiyyətsizlik sindromu. Hər hansı demokratik institut necə formalaşırsa formalaşsın, necə mübarizə aparırsa aparsın, ortalığa cüzi də olsa ictimai-siyasi nailiyyət çıxarmırsa, məhvə məhkumdur. Belə ki, demokratiya yalnız sürəkli olaraq əldə edilən tədrici nailiyyət əsasında inkişaf edir və siyasi mübarizədə nailiyyətsizlik sindromu istənilən qüvvəni məhv edir, demokratikləşmə prosesini mənasızlaşdırır, sonda demokratiyaya keçidi dayandırır. Qeyd edim ki, seçki proseslərində və ya demokratik aksiyalarda iqtidarların öz opponentlərinin heç bir qələbəsini və tələbini rəsmən etiraf etməməsi demokratiyaya ciddi zərbə vurur və nailiyyətsizlik sindromu yaratmağa xidmət edir.

Demokratiyanın qüsuru həm də xalqın özündən – onun xarakterindən, ənənələrindən, adətlərindən və yaşam fəlsəfəsindən qaynaqlanır. Mühafizəkar xalqlar bir qayda olaraq dəyişkənlik vəd edən demokratiyaya meyl etmirlər. Geopolitologiya sübut edir ki, dəniz sahillərində yaşayan xalqlar sürəkli iqlim dəyişkənliyinə mə-

ruz qalaraq, dəyişkən xarakterə malik olduqlarından, sürəkli ictimai dəyişilmələr tələb edən liberalizmə daha çox meyl edirlər. Əksinə, quru dövlətlərində yaşayan – açıq sularla sərhədi olmayan və ya sabit iqlimli olan ərazilərdə yaşayan xalqlar daha mühafizəkardırlar və liberalizmə – sürətli dəyişən həyat tərzinə meyl etmirlər. Bütün postsovet məkanı Baltikyanı respublikalar istisna olmaqla quru dövlətlərə aiddir və buna görə də bu ölkələrdə demokratikləşmənin xalqlardan qaynaqlanan ciddi obyektiv problemləri mövcuddur. Əhalinin passivliyi, xüsusən siyasi apatiya, demokratikləşmənin qarşısını kəsən başlıca problemdir. Belə ki, demokratikləşmə prosesində zorakı hakimiyyət gücünə qarşı müxalifətin qeyri-zorakı mübarizəsi yalnız və yalnız geniş xalq kütlələrinin iştirakı ilə effektli ola bilər. Əks halda demokratikləşmə demoqogiya ilə əvəzlənir ki, indi xalqın iştirakçılığı zəif olduğundan, postsovet məkanında istər iqtidarların, istər müxalifətin mübarizəsi siyasi demoqogiya xarakteri daşımağa başlayıb. C.Dyui yazır: «Siyasi apatiya ənənəvi aparatın real təcrübəyə uyğunlaşması nəticəsində yaranır, seçicilərin özlərini müəyyən problemlərlə eyniləşdirə bilən qabiliyyətləri ilə bağlıdır». Postsovet respublikalarının vətəndaşları öz kasıbçılıqlarını, hüquqsuzluqlarını, gələcəyə ümidsizliklərini nəinki siyasi hakimiyyətlə, hətta dövlət həyatı ilə əlaqələndirə bilmir. Bu gün postsovet dövlətləri ilə bu dövlətlərin vətəndaşları bir-birinə yadlaşmışdır. Məhz buna görə də xalq iqtidarların istənilən fəaliyyətinə, o cümlədən, dövlətin zəiflədilməsi ilə bağlı proseslərə laqeyd qalır. Demokratikləşmənin ciddi qüsurlarından biri də siyasi tərəflərin demokratikləşmədə qeyri-bərabər iştirakı və ya bir tərəfin passivliyidir. Passivliyin əksliyi iştirakçılıqdır. İştirakçılıq demokratiyanın əsas vətəndaş keyfiyyətləri - təşəbbüskarlıq, məsuliyyət, cavabdehlik kimi keyfiyyətlərlə eyni əhəmiyyətlidir. İştirakçılığı zəif olan kimsədən məsuliyyət tələb etmək və ya onun üzərinə öhdəlik qoymaq mənasızdır. Bu keyfiyyətlərin məcmusu isə vətəndaş azadlığıdır. C.Kin yazır: «Azadlıq – ictimai və siyasi işdə daimi təşəbbüs qabiliyyətidir». İştirakçılıq demokratiyanın əsas əlamətidir. Demokratikləşmədə nə üçün hər bir vətəndaşın siyasi fəallığı zəruridir? Məsələ burasındadır ki, azadlıq mənəvi nailiyyətdir və yalnız onun uğrunda

mübarizədə yaranır. Azadlığı kimsə kimə verə bilməz. Hətta quldarlığın ləğvindən sonra azadlıq vərdişləri və istəkləri olmayan qulların böyük əksəriyyətinin yenidən ağalarının yanına qayıtması və onlara könüllü qul olmaq istədikləri iştirakçılıqla azadlıq arasındakı əlaqənin nə dərəcədə əhəmiyyətli olmasını nümayiş etdirir. Demokratikləşməyə əngəl olmaq istəyənlər bir qayda olaraq siyasi fəaliyyəti hakimiyyətlə əlaqəsi olmayan fəaliyyət sahəsi kimi təqdim etməyə və ya siyasi hakimiyyət uğrunda mübarizənin mənasını təhrif edərək vətəndaşlarda siyasi fəallığa ikrah hissi yaratmağa cəhd edirlər. Keçmiş SSRİ-də imperialist güclər milli respublikaların sakinlərini siyasətdən uzaq saxlamaq üçün onların qeyri-siyasi keyfiyyətlərini xüsusi şəkildə qabardır, təbliğ edir və inkişaf etdirirdilər. Sovet dövrünün rəhbərləri hər bir milli respublikanın əhalisini bir qeyri-siyasi keyfiyyət əsasında tərbiyyə etməyə cəhd edirdilər. Hətta milli respublikalara «daşlar ölkəsi», «odlar ölkəsi», «günəşli ölkə» kimi, xalqlara «şair xalq», «müğənni xalq», «sakit xalq», «dözümlü xalq», «zəhmətkeş xalq» və s. kimi epitetlər verərək onları siyasətdən uzaq saxlayırdılar. Təbii ki, belə təbliğat nəticəsində az qala hər bir adam istedadı oldu-olmadı «şair», «müğənni» və s. olmağa cəhd edirdi və ya insanlar ən ağır şərtlərdə ağır fiziki əməyə meyllənirdi. Amma heç kəsin ağlına gəlmirdi ki, nə üçün onları «siyasi xalq», «diplomatik xalq», «mübariz xalq», «azadlıqsevər xalq» və ya «intellektual xalq» adlandırmırlar. Postsovet respublikalarında eyni siyasət milli çərçivədə aparılaraq vətəndaşları siyasi həyatdan və hakimiyyət uğrunda mübarizə müstəvisindən uzaqlaşdırmağa cəhdlər edilir ki, bu cəhd nəticəsində xalqların müqavimətsizliyi şəraitində neototalitarizm sürətlə inkişaf edir. «Bizim xalq demokratiyaya hazır deyil», «demokratiya bizim xalqa yaddır», «bizim xalq rahatlıq istəyir» və s. kimi epitetlər ancaq və ancaq xalqı siyasi həyatdan, o cümlədən, demokratikləşmədən kənarda saxlamağa xidmət edən neototalitar təbliğatdır və nə yazıqlar ki, belə təbliğata uyan xalqlar indi kütləvi şəkildə mahnı oxumağa, rəqs etməyə, idmançı olmağa meyl edir. İstənilən totalitar cəmiyyətdə iştirakçılıq qeyri-siyasi müstəviyə yönəldilir. Yalnız demokratiya iştirakçılığı siyasi hakimiyyətlə əlaqələndirir. M.Veber iştirakçılıqla bağlı yazır: «Siyasətdə iştirak haki-

miyyətin siyasi quruluş daxilində bölünməsində iştirak etməkdir». Beləliklə, iştirakçılıq vətəndaşların siyasi hakimiyyətin müəyyən edilməsində və onun bölünməsində fəal iştirakından başqa heç nəyi özündə ifadə etmir.

Unutmaq olmaz ki, demokratiya arzulamaqla demokratiya olmur. Demokratiya onun uğrunda mübarizə apardıqda reallaşa bilər. Xüsusən unutmaq olmaz ki, cəmiyyətdə yalnız idarəolunanların mübarizəsi demokratiyaya gətirib çıxarmır, buna paralel iqtidarların özlərinin də demokratiyaya cəhd etməsi lazımdır. K.Manheym yazır: «Öz dövrünün kor aləti olmaq istəməyən müasir insan özünün ictimai və tarixi vəziyyətinin zirvəsində olmağa nail olmalıdır». Dövrümüzün vəziyyətinin zirvəsi demokratiya olduğundan, bunun üçün həm iqtidardakı, həm də müxalifətdəki «öz dövrünün kor aləti olmaq istəməyənlər» bu zirvəyə yorulmadan cəhd etməlidirlər. Əslində birtərəfli siyasi mübarizə ilə heç bir cəmiyyətdə dinc yollarla demokratikləşmə baş verə bilməz və ən yaxşı halda olsa-olsa inqilab ola bilər.

Bütün bu qüsurlarına baxmayaraq demokratiya totalitarizmdən fərqli olaraq səhvlərin etiraf edilməsi yolu ilə onlardan qaçmağın imkanını saxlayır. Halbuki, totalitarizmdə istənilən halda özünü haqlı hesab etmək meyli keçmiş səhvlərdən nəticə çıxarmağa imkan vermir. K.Manheym də təsdiq edir ki, «keçmişin demokratik səhvlərindən qaça bilməyimiz bizdən asılıdır, hansı ki, bu əsas meyllərin bilgisizlik gücünə diktaturanın qarşısını ala bilərik».

Biz bu fəsildə məqsədəyönlü şəkildə siyasiləşmənin klassik problemlərinə xüsusi yer ayırmadıq. Çünki bu məsələlər gündəlik siyasi polemikanın ənənəvi mövzularıdır. Burada yalnız ilk baxışdan bir o qədər də siyasi görünməyən məsələlərin əhəmiyyətini qeyd etmək istədik. Mövcud durum elədir ki, göründüyü kimi, postsovet respublikalarında siyasiləşmə sahəsində iqtidarların siyasi kursu dəyişilməyəcəyi təqdirdə bu ölkələr nəinki demokratiyaya doğru istiqamət götürə bilməyəcək, həm də öz müstəqilliklərini qoruya bilməyəcək. Çünki özü azad olmayan xalqın dövləti də müstəqil və azad ola bilməz.

XI FƏSİL

MODERNLƏŞMƏNİN FƏLSƏFƏSİ VƏ TƏCRÜBƏSİ

«Xeyir və şərin qanunu: İstənilən yaxşı istənilən pisə xidmət edə bilər, amma heç bir pis heç bir yaxşıya xidmət edə bilməz».
Sərdar Cəlaloğlu

Sərvət insan üçündür, insan sərvət üçün deyil.
Müqəddəs Antonii

Pis pullar (məsələn, çirkli pullar – S.C.) yaxşı pulları dövriyyədən sıxışdırır.
Qreşem qanunu

Nümunə kimi təhlil etdiyimiz iqtidar strategiyasının xətti inkişaf modelində sonuncu paradiqma iqtidarın fəaliyyət istiqaməti ilə bağlıdır və bu istiqamət *modernləşmə* kimi təqdim edilir. Bu termin də özündə bir çox mənaları ifadə etdiyindən, strategiyada onun hansı anlamda qəbul edildiyi mühüm əhəmiyyət kəsb edir. Geniş şərhə keçmədən qeyd edim ki, bütün strategiya üçün ümumi qüsur olan «anlayışların hissəvi anlamı» modernləşmə paradiqması üçün də xarakterikdir. Strategiyaya həsr olunmuş məqalədə modernləşmə ilə bağlı yazılır: «Ölkədə demokratikləşmənin və onun ardınca gələn liberallaşmanın ilkin şərtləri iqtisadi modernləşmə + mərhələli demokratikləşmə = vətəndaş cəmiyyətinin formalaşması prose-

sinin başlanğıc sxeminin reallaşdırılmasını təmin edən mühüm iqtisadi dəyişikliklər nəticəsində yaranır…ölkədə vətəndaş cəmiyyəti iqtisadiyyatın modernləşməsi, ictimai həyatın demokratikləşməsi, milli məkanın sistemli liberallaşması paradiqması gerçəkləşdikcə formalaşacaqdır…modernləşmənin mərkəzi tezisi bundan ibarətdir ki, təsərrüfatın tərəqqisi mədəni, ictimai və siyasi həyatda paralel şəkildə aparılan, özü də müəyyən dərəcədə proqnozlaşdırıla bilən dəyişiklikləri şərtləndirir…çox modernləşmiş təsərrüfat sisteminin daha az modernləşmiş təsərrüfat sistemi ilə birbaşa təması daha çox modernləşmiş, daha zəngin hissəsinin əvvəlkindən də varlı, daha az inkişaf etmiş hissənin əvvəlkindən yoxsul olmasına gətirib çıxarır. Bu yoxsul zonada iqtisadi sektor qeyri-mütənasib qaydada inkişaf etdiyinə görə, həmin zona xammal əlavəsinə çevrilir və mahiyyət etibarı ilə müstəmləkələşmə baş verir». İqtidar strategiyasına həsr olunmuş məqalənin modernləşmə ilə bağlı şərhinin mətnindən məntiqlə başa düşülən budur ki, iqtidar modernləşmə anlayışını «*postsənaye cəmiyyətinə keçid*», vətəndaş cəmiyyətinin yaradılması üçün ön şərt və *dövlət müstəqilliyinin möhkəmləndirilməsinə* xidmət edən və *proqnozlaşdırıla biləcək dəyişikliklərə* səbəb olacaq islahat kimi anlayır və qəbul edir. Halbuki, müasir inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, məhz vətəndaş cəmiyyəti yarandıqdan sonra iqtisadi modernləşməni həyata keçirmək olar. Ən azı ona görə ki, modernləşmə yalnız bazar iqtisadiyyatı institutlarının yardımı ilə reallaşdırıla bilər. Aşağıda bu şərti geniş şərh edəcəyik. Burada yalnız onu qeyd etmək istəyirəm ki, modernləşmənin ümumi inkişafda yeri və onun funksiyası ilə bağlı iqtidar strategiyasında qəbul edilmiş anlam heç bir elmi əsasa söykənmədiyindən, ehtimal edilən nəticələri verə bilməz.

Haşiyə: Modernləşmə siyasəti ilə bağlı geniş təhlil etmədən öncə, bu terminin siyasi leksikonda müccərrəd istifadə edildiyini, xüsusən postsovet məkanının geniş xalq kütlələri üçün bir o qədər də tanış anlayış olmadığını və müasir dünyada bu terminin çoxmənalı işlədildiyini nəzərə alıb ümumiyyətlə «modernləşmə nədir» sualına bir qədər geniş – terminin radikal-total anlamından şərh vermək istəyirəm. Qeyd edim ki, əksər hallarda modernləşmə ter-

mini hissəvi anlamda «*müasirləşmə*» termininə sinonim kimi işlənir. Amma sözün radikal-total anlamı özündə bundan daha geniş mənanı ifadə edir. Qeyd etmək lazımdır ki, *insanların zövqləri onların sosial həyatına və siyasi görüşlərinə ciddi təsir etdiyindən, bəzən incəsənətin başlatdığı yol siyasətdə iz açır*. Bu mənada Avropada ilk dəfə incəsənət aləmində meydana çıxmış və sonradan həm siyasi, həm də iqtisadi anlayışa çevrilmiş modernizmin fəlsəfəsi məşhur İspan filosofu Xose Orteqa Qasset tərəfindən yaradılmışdır. Əgər bir sözlə modernizm terminini qısaca izah etmək istəsək, onda deyə bilərik ki, modernizm özündə – *köhnədən bütünlüklə imtina etməyi* ifadə edir. Köhnə dedikdə həm klassik düşüncə tərzi, həm mövcud iqtisadi-siyasi münasibətlər – klassik kapitalist istehsal üsulu və onun üstqurumu olan çoxunluq demokratiyası və həm də ənənəvi estetik yanaşma nəzərdə tutulur. İncəsənətdə modernizm – inkişafda *fasiləliyi və çəkişmələri* qəbul edən, *ənənələri inkar edən*, *yenilik kultunu və dəyişmələri* qəbul edən cərəyandır. Əslində modernizm keçmişlə bizi bağlayan varislikdən imtinanı tələb edir. *Modernləşmə üsyankar ruhun təcallasıdır və bütün normalara qarşı qiyamdır*. Modernizm öz xüsusi şəxsiyyət kultunun – mərkəzində «*mən*» olan mədəniyyətin yaradılmasıdır. Qərb təcrübəsi göstərir ki, incəsənətdə meydana çıxmış modernizm çox böyük sürətlə inkişaf edərək iqtisadi və siyasi həyata transfer etmişdir. Buna görə də ictimai həyatın digər sahələrində – iqtisadiyyatda, siyasətdə, sosial həyatda modernləşmə də modernizmin fəlsəfəsinə əsaslanır. İctimai-siyasi baxışlarda modernləşmə *klassik liberalizm* dünyagörüşünə, iqtisadiyyatda *postsənaye dövrünün* iqtisadi münasibətlərinə uyğundur. Azərbaycanda son illər modernizmin az və çox dərəcədə incəsənətdə, son bir neçə ildə təşkilatlanmış, «Azad yazarlar birliyi» üzvlərinin əsərlərində meydana çıxmışdır. Haşiyəyə çıxım ki, bu təşkilata münasibətin özü bir daha sübut edir ki, iqtidar heç də modernizmin fəlsəfəsini mənimsəməmişdir.

Bir qayda olaraq, modernləşmə postsovet iqtidarlarının strategiyasında inkişafın gələcək istiqaməti kimi müəyyənləşdiyindən, təcrübədə modernləşmə istiqamətində hələ ciddi və konkret addım atılmadığından, bilavasitə modernləşmə siyasətinin təcrübi nəti-

cələri ilə bağlı təhlil aparmaq absurd olardı. Biz burada yalnız modernləşmə paradiqması ilə bağlı nəzəri təhlilə və modernləşmənin dünya təcrübəsinə müraciət etməklə postsovet respublikalarının iqtisadiyyatında, siyasətində, ictimai düşüncəsində «modernləşmə özündə nəyi ehtiva etməlidir» və ya «modernləşmə lazımdırmı», sualına aydınlıq gətirməyə cəhd edəcəyik.

Yuxarıda qeyd etdik ki, iqtidar iqtisadiyyatda və siyasətdə modernləşmə anlayışını «postsənaye cəmiyyətinə keçid» kimi anlayır və qəbul edir. Əslində həqiqətən də modernləşmə sənayeləşmənin başa çatdığı, liberal dəyərlərin geniş vüsət aldığı və cəmiyyətin *demokratiyadan liberalizmə keçidində* meydana çıxıb. J.Lipoveçski «Boşluq erası» adlı kitabında yazır: «Mahiyyətinə görə modernizm demokratikdir… modernləşmə kontrastlara, fərqliliklərə və antinomiyaya imkan verən sosial və ideoloji məntiq nəticəsində yarana bilər». Beləliklə, hər cür siyasi konfliktlərə dözümsüzlük nümayiş etdirən iqtidarların «kontrastlara, fərqliliklərə və antinomiyaya imkan verən» modernləşmə istiqaməti seçməsi bir-biri ilə ziddiyyət təşkil edir. Halbuki, modernləşmənin altyapısı kimi cəmiyyətin demokratikləşməsi zəruridir və buna görə də *qeyri-demokratik cəmiyyətlərdə modernləşmə həyata keçirmək olmaz.*

Haşiyə: Biz iqtisadi, siyasi, sosial modernləşmə dedikdə məhz siyasətdə *demokratiyadan liberalizmə keçidi*, iqtisadiyyatda *effektliliyə* və eqalitarizmə əks – *qeyri-eqalitar iqtisadi sistemin* yaradılmasını nəzərdə tuta bilərik. Postsovet iqtisadi məkanında bir çox səbəblər modernləşmə aparmağa imkan vermir. Birincisi, qeyd edim ki, modernləşmə fəlsəfəsi köhnə ilə əlaqələrin tam və inqilabi qoparılmasını tələb etdiyindən, iqtisadi modernləşmə də eyni işi görməlidir. Başqa sözlə, əslində iqtisadi modernləşmə paradiqması çox nəhəng iqtisadi dağıdıcılığı özündə ifadə edir. Y.Şumpeter yazır: «İqtisadi inkişaf köhnəni məhv edən, yeniliyə yol açan adi dəyişikliyi – «yaradıcı dağıdıcılıq partlayışı» tələb edir». Hər hansı yeni iqtisadiyyat isə ilk növbədə *milli sərvətin yeni ölçülərlə* qaldırılması məqsədinə xidmət etməli olduğundan, milli iqtisadiyyatların isə özlüyündə belə potensialı olmadığından, *milli iqtisadiyyat çərçivəsində modernləşməyə əl atmaq mənasızdır.* İkincisi, modernləşmə *demokratik hüquq sistemi-*

nin olmasını tələb edir. Bu mənada iqtisadi tarixi araşdıran Tom Bettlin Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun əməkdaşlarının qarşısında xüsusi mülkiyyətlə iqtisadi inkişaf arasındakı əlaqə ilə bağlı söylədiyi fikirlər maraqlıdır: «Əgər ölkələr ABŞ-ın və bir sıra ölkələrin inkişaf səviyyəsinə çatmaq istəyirlərsə, onlar mülkiyyətin müdafiəsini təmin edən hüquqi rejimi qəbul etməlidirlər. Təsəvvür etmək olar ki, hansısa ölkə öz ənənələrini saxlamağa üstünlük verir və ya azad bazar sisteminə müraciət edərək fasiləsiz sarsıntıları istəmir. Amma onlara məqsəd və vasitələr haqqında aydın təsəvvür lazımdır. Əgər onlara istehsalda artım və modernləşmə lazımdırsa, onda makroiqtisadi siyasətin dəstəkləri ilə vurnuxması – bura fiksal stimulları, pul məhdudiyyətlərini bir qədər artırmağı əlavə etmək olar – onlara kömək etməyəcək. Onlar özlərinin hüquqi və siyasi sistemlərini Qərb dünyasında mövcud olanlara oxşar etməlidirlər». Beləliklə, *Qərb modelini qəbul etmədən heç bir ölkə modernləşmə apara bilməz,* çünki modernləşmə məhz Qərb modelinin ixtirasıdır və yalnız bu modeldə effektli ola bilər. Üçüncüsü, Qərb modelini qəbul etmək üçün bu modelin əlifbasından başlamaq lazımdır. Qərbin iqtisadi siyasi inkişafını araşdıran bütün alimlərin gəldiyi nəticə budur ki, Qərb məhz *mülkiyyətə yanaşma tərzinə* görə digər cəmiyyətlərdən fərqlənir. Burada mülkiyyətlə bağlı bir qədər geniş təhlil aparmağı zəruri hesab edirəm. Çünki bir tərəfdən postsovet cəmiyyətlərin vətəndaşlarında xüsusi mülkiyyət haqqında bir o qədər də aydın təsəvvür yoxdur, digər tərəfdən postsovet respublikalarında xüsusi mülkiyyət klassik formada formalaşmayıb. Dördüncüsü, iqtisadi modernləşmə *mülkiyyət münasibətlərində* inqilabi dəyişikliklər tələb edir. Tarixi iqtisadi formasiyaları təhlil etdikdə aydın olur ki, əslində bu formasiyalar ilk növbədə istehlak mənbələrinə görə biri-birindən fərqlənir. Belə ki, ibtidai cəmiyyətdə yığıcılıq dövründən başlayaraq istehlak mənbəyi kimi «*yığım*» çıxış edir. Quldarlığın əmələ gəlməsi ilə «*sərvət*» əsas istehlak mənbəyinə çevrilir. Feodalizmdə istehlakın mənbəyi «*əmlak və təsərrüfat*» forması alır. Feodalizmdə insanlar rəiyyət statusunda, bütünlükdə monarxın mülkiyyəti kimi çıxış etdiyindən, bu dövrdə yaranan mülkiyyət bir formalı olub differensasiyaya məruz qalmadığından, proqressiv rol

oynamayıb. T.Betll «Mülkiyyət və çiçəklənmə» adlı kitabında feodal mülkiyyəti ilə bağlı yazır: «Feodal təsərrüfat, çox nadir hallarda gediş edilən şahmat taxtası kimi düşünülür; mülkiyyət krallar, kraliçalar, yepiskoplar və cəngavərlər tərəfindən idarə olunur». Belə mülkiyyət primitiv səviyyədə *feodalizasiyaya məruz qalmış mülkiyyətdir*. Yalnız monarxiya devrildikdən və ya konstitusiya ilə ictimai sferada iştirakı məhdudlaşdırıldıqdan sonra insanlar azadlıq əldə edir və monarxın suverenliyində olan mülkiyyət bir neçə suverenin – dövlətin, kollektivin, cəmiyyətin və ya ayrı-ayrı adamların əlinə keçərək kapitalist istehsal üsulunda əsaslı rol oynayır. Tarix sübut edir ki, kapitalizm mülkiyyətin – xüsusən *xüsusi mülkiyyətin* yaranması ilə paralel inkişaf etmişdir. Kapital özü isə məhz gəlir gətirən mülkiyyət forması kimi çıxış edir. Hətta müasir antropoloqlar belə hesab edir ki, dünyada mülkiyyət normaları bilməyən heç bir cəmiyyət olmamışdır. Mülkiyyət nəinki cəmiyyətin əsasını təşkil edir, həm də onun vəziyyətini müəyyənləşdirir. Nobel mükafatı laureatı, iqtisadçı alim Milton Fridman belə hesab edir ki, «cəmiyyət xüsusi mülkiyyət olmadan azad ola bilməz». Azad olmayan cəmiyyət isə inkişaf edə bilməz. Məhz buna görədir ki, Qərbin inkişaf strategiyasında iki mühüm paradiqma – *azadlıq və xüsusi mülkiyyət* paralel olaraq mühüm yer tutur. T.Betll mülkiyyətin rolu haqqında yazır: «Mülkiyyət hüququnun olmadığı yerdə digər hüquqlar heç nə ifadə etmir və ya heç nədir. Xüsusi mülkiyyət – bizim qeyri-məhdud iradə ilə cəhdimizlə başqalarının oxşar arzuları və hüquqlarını etiraf etməyimiz arasındakı kompromisdir. Hüquq – dövlətdən müdafiə, mülkiyyət isə – dövlət hakimiyyəti əleyhinə nəhəng dayaqdır. Sosial ədalət artıq mövcud rifahın paylanması kimi başa düşülür. Xüsusi mülkiyyət institutları cəmiyyətdə ədalətin bərpasında həlledici rol oynayır…mülkiyyət – ən sülhsevər institutdur. Xüsusi mülkiyyət dövləti hissələrə bölməklə bizi onun zorakılığından qoruyur…azad bazar iqtisadiyyatı yalnız xüsusi mülkiyyət üzərində bərqərar ola bilər». *Postsovet respublikalarında vətəndaşlara mülkiyyət hüququnun verilməməsi onları dövlət zorakılığı qarşısında tərksilah etmişdir. Bundan istifadə edən hakimiyyətlər cəmiyyəti ictimai müqavimət olmadan asanlıqla neototalitarizmə istiqamətləndirməyə nail olublar.*

Hər hansı bir dövlətin iqtisadi inkişafı sadəcə mülkiyyətin mövcudluq faktına əsaslana bilməz. Mülkiyyətin müxtəlif formaları arasındakı nisbət siyasi rejimin formalaşmasında müstəsna rol oynayır. T.Betllə görə, «Mülkiyyətin bölünməsi fəaliyyətlə nəticə arasındakı uyğunluğu və ya proporsionallığı təmin etmişdir». Postsovet respublikalarında iqtisadi siyasət mülkiyyətin bölünməsinin qarşısını almağa yönəlmiş və ölkələrin əhalisinin böyük çoxluğu mülkiyyətsizdir. Mülkiyyət ya dövlətdə, ya da iqtidarı təmsil edənlərin nəzarəti altında onların yaxınlarında cəmləşib. Bu nisbətdə dövlət mülkiyyətinin həcmi artdıqca cəmiyyətdə totalitarizm güclənir. Bununla bağlı T.Betll yazır: «Əgər dövlət orqanları özləri mülkiyyət imtiyazlarına malikdirsə, mülkiyyət faktiki olaraq məhv olur…hakimiyyətin mərkəzləşdirildiyi, mülkiyyətin isə milliləşdirildiyi ölkələrdə insanların çoxu düşüncəsiz alətə çevrilir və buna görə bu ölkələrdə tiraniya rejimləri yaranır – dövlət insanların təbii meyllərinə qarşı çıxış edir…xüsusi fəaliyyət və razılaşma dövlət nəzarətinin və cəzalandırmanın obyektinə çevrildiyi vəziyyətdə mülkiyyət olur». Dövlət yalnız mülkiyyəti öldürmür, o bununla həm də hakimiyyətin alternativlərini və cari siyasətə müxalif olanları məhv etməyə geniş perspektivlər açır. Rus inqilabının rəhbərlərindən biri Lev Trotskiy yazır: «İş verənin yalnız dövlət olduğu ölkədə müxalifətdə olmaq, tədrici aclıq ölümü deməkdir… «kim işləmir, o, yemir» köhnə deyimi yeni – «kim tabe olmur, o, yemir» deyimi ilə əvəz olunub». Beşincisi, postsovet iqtisadiyyatında *eksternaliya* probleminin modernləşmə ilə ziddiyyət təşkil etməsidir. «Eksternaliya – ətrafdakıların, onların razılığı olmadan, kompensasiya və ya mükafat ödənilmədən, üzərlərinə qoyulmuş iqtisadi xeyir və gəlirlərdir». Neototalitar cəmiyyətlərdə eksternaliya həm rəsmi dövlət orqanları tərəfindən qeyri-müəyyən xüsusi mülkiyyətə qarşı yürüdülən ədalətsiz siyasətdir, həm də ayrı-ayrı kriminal elementlərin istifadə etdiyi üsuldur. Eksternaliya feodal töycü və quldarlıq bac-xəracının müasir formasıdır. Eksternaliyanın tüğyan etdiyi məkanda normal iqtisadiyyat funksiyalaşa bilməz. Postsovet respublikalarında bu gün eksternaliya rəsmi şəkildə dövlət, həm də qeyri-rəsmi olaraq dövlət məmurlar tərəfindən tətbiq edilir. Müxtəlif adlar altında iş adamlarından vəsa-

it toplanması və ya əvəzi ödənilmədən, əvəzi real dəyərindən aşağı ödənilməklə mülkiyyətin sahibinin dəyişdirilməsi və s. eksternaliyanın təzahürləridir. Qeyd edim ki, postsovet məkanında eksternaliya həm də qeyri-qanuni *kapital yığımının* əsas üsullarındandır. Altıncısı, ümumi – *ictimai mülkiyyətdən* doğan qüsurların modernizasiyaya imkan verməməsi. Qeyd edim ki, ictimai mülkiyyətin həcmi də ölkənin iqtisadi inkişafında önəmli rol oynayır. Ümumi və ya ictimai mülkiyyətin ən qədim formalarından biri tayfa quruluşunda mövcud olmuşdur. *Tayfa mülkiyyəti* ilə bağlı T.Betll yazır: «Mülkiyyət hüququnun dəqiq müəyyən olmadığı, həyatın kollektiv təşkili stimulu eybəcərləşdirir və hətta yaxşı əxlaqi əsasa malik insanlarda belə, tamahkarlıq, eqoizm, israfçılıq, şübhəlilik və ədalətsizlik hissi yaradır…kollektiv mülkiyyətin problemi nə üçün tayfa qurluşunun həmişə və hər yerdə iqtisadi geri qalmasını izah edir. Tayfa – ailə münasibətlərinə yaxın, amma onun liderinin sərt nəzarətinin onun yaxın dairələrinə yayılmamasından ötrü kifayət qədər geniş münasibətlərlə bağlı olan istənilən qrup hesab edilə bilər». Məhz buna görədir ki, siyasi iqtidarların iqtisadiyyat üzərində nəzarəti tayfa qurluşuna uyğun iqtisadi həyat tərzi formalaşdırdığından, belə dövlətlərdə heç bir real inkişaf baş vermir. *Mülkiyyətin bütünlüklə dövlətə məxsus olması və ya dövlətin mülkiyyət üzərində sərt nəzarəti təkcə iqtisadi inkişafa mane olmur. İlk növbədə də demokratiyaya böyük zərbə vurur.* Tayfa mülkiyyəti olan ölkələrdə klassik iş adamları meydana çıxmır, onları hakimiyyət əlaqələrindən istifadə edərək gəlir əldə edən xüsusi bir təbəqə əvəz edir. Bu cür cəmiyyətlərdə meydana çıxan «biznesmenləri» obrazlı olaraq nəqliyyatda gedən biletsizlərə oxşadırlar və onlara iqtisad elmində «*biletsizlər*» adı verilmişdir. T.Betllə görə, «biletsiz problemi mülkiyyət hüququ dəqiq müəyyən edilmədikdə yaranır…biletsiz problemi – insan təbiətinin əlavə məhsuludur». Postsovet məkanında iş adamlarının böyük bir hissəsi belə biletsizlərdən ibarətdir və yalnız mülkiyyətin dəqiq müəyyən edilməməsi hesabına «iş adamları»na çevriliblər. Belə ki, ya rəsmi dövlət vəzifəsi tutan məmurlar və ya onların yaxınları dövlət nəzarətindən kənarda qalaraq, ölkənin resurslarından, başqaları ilə müqayisədə xüsusi üstünlük verən «imtiyazlardan» istifadə edə-

rək, daha sürətlə və daha asanlıqla varlanırlar. Biletsizlərin aqibəti isə elə dəqiqləşdirilməmiş mülkiyyətin aqibəti kimi olur. Postsovet hakimiyyətlərdə yüksək dövlət postu tutaraq nəhəng mülkiyyətə sahiblənənlər, hakimiyyətlə münasibətləri pozulan andan hər şeydən məhrum olunurlar. İctimai və dövlət mülkiyyətinin belə imkanlarından istifadə etməklə postsovet iqtidarları cəmiyyəti həm də mülkiyyətlə idarə edirlər ki, bu da klassik totalitarizmdə geniş tətbiq olunan üsullardandır. Vaxtilə SSRİ-də sovet rejiminə müxalif ola biləcək insanların «kulak» elan edilərək kütləvi repressiyalara məruz qoyulması da məhz mülkiyyətin imkanlarından dövlətin sui-istifadə etməsinin bariz nümunələrindən idi. Ona görə də cəmiyyətdə kollektiv mülkiyyətin bütün formaları, o cümlədən, mülkiyyətə kollektiv baxış inkişafa əngəl olduğundan, ağıllı şəkildə məhdudlaşdırılmadıqca demokratikləşmə və effektli iqtisadi sistem yaratmaq mümkün deyil.

Yuxarıda qeyd etdik ki, kapitalizmin inkişafının əsas mənbəyi xüsusi mülkiyyətdir. Xüsusi mülkiyyətin iqtisadi inkişafda rolunu əyani şəkildə ABŞ-da fəaliyyət göstərən «Azadlıq Evi»nin 1995-96-cı illər üçün yaydığı hesabatından görmək olar. Həmin hesabata görə, dünyada cəmi 27 ölkə iqtisadi azadlığa (qanunla müəyyənləşmiş xüsusi mülkiyyətin olduğu iqtisadi sistem – S.C.) malikdir. Həmin ölkələrdə dünya əhalisinin yalnız 17 faizi yaşayır, buna baxmayaraq dünya istehsalının 81 faizi həmin ölkələrin payına düşür. Bəs, xüsusi mülkiyyət nə üçün müasir Qərb sivilizasiyasının və inkişafının əsasında durur? Məlumdur ki, kapitalizmə qədər insanlar yalnız təbiətin imkanlarından istifadə etməklə rifah yaratmışdır. Kapitalizmdə artıq təbiətin imkanları cəmiyyətin rifaha artan tələbatı ödəmədiyindən, yeni mənbələr axtarılmış və belə mənbələrdən biri kimi *insan və onun qabiliyyətlərinin inkişafı* əsas götürülmüşdür.

Haşiyə: Hələ orta əsrlərdən başlayaraq ictimai fikirdə insanın cəmiyyətdəki yerinə yeni baxışlar meydana çıxmışdır. Belə mütəfəkkirlərdən biri U.Qodvin olmuşdur. Qodvinə görə, insan təkmilləşməyə və sosial institutları təkmilləşdirməyə məhdudiyyətsiz qabiliyyətlidir. Lakin unutmaq olmaz ki, fərdin qabiliyyəti spontan inkişaf etmir və xüsusi mülkiyyət insanın inkişafını stimullaşdırmaq potensialına

görə müstəsna üstünlüklərə malik olduğundan, Qərb xüsusi mülkiyyət institutuna üstünlük verib və bu günkü tərəqqiyə nail olub. Qodvinlə eyni dövrdə yaşamış Maltus yazır: «Necə ki, insanın fiziki və əxlaqı konstitusiyası bizim indi müşahidə etdiyimiz kimi, eyni qalacaq, xüsusi mülkiyyət sistemindən başqa heç nəyin, indiki dövrdə bir çox ölkələrdə müşahidə etdiyimiz kimi, belə böyük və artan əhalini mövcudluq vasitələri ilə təmin etmək şansı olmayacaq».

Beləliklə, xüsusi mülkiyyət insan təbiətinin dərin qatlarındakı yaradıcı potensialı üzə çıxararaq *yeni rifahın* yaradılmasında müstəsna rol oynayır. Məhz T.Betllin belə bir fikri də bunu təsdiq edir ki, «xüsusi mülkiyyət insanları inadlı əməyə oyandıran yeganə ölçüdür…xüsusi mülkiyyətin nəhəng üstünlüyü ondan ibarətdir ki, o böyük ölçüdə insan fəaliyyətinin onun özündə nəticələrinə əsaslanır. İctimai mülkiyyət haqqında bunu demək olmaz». Əslində mülkiyyət özündə insan bədənini refleksiya etdiyindən, bir çox mütəfəkkirlər mülkiyyətlə insanın fiziki varlığı arasında bərabərlik işarəsi qoyurlar. Mülkiyyətin insan üçün əhəmiyyəti haqqında fransız iqtisadçısı Fredrik Bastia yazır: «Mülkiyyət – insan təbiətinin zəruri nəticəsidir, insan sözün birbaşa mənasında mülkiyyətçi kimi doğulur, belə ki, o, təmin edilməsi həyat üçün vacib olan tələbatlarla, həmçinin bu ehtiyacları təmin etmək üçün zəruri olan orqanlar və qabiliyyətlərlə doğulur. Qabiliyyətlər sadəcə insanın davamı kimi təzahür edir. Mülkiyyət isə – qabiliyyətlərin davamından başqa bir şey deyil. İnsanı qabiliyyətlərindən məhrum etmək – onu ölümə məhkum etmək deməkdir. İnsanı onun qabiliyyətlərinin məhsulundan məhrum etmək də onu ölümə göndərməkdir». Beləliklə, əgər postsovet respublikaları müasir inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmaq istəyirsə, iqtidarlar mütləq mülkiyyət məsələsində aydınlıq yaratmalı, mülkiyyət formaları arasında düzgün proporsiyanı tapmalıdırlar. Qeyd edim ki, modernləşmə məhz mülkiyyət münasibətlərində ciddi dəyişikliklər yaradaraq, onun iqtisadiyyatda klassik rol oynamasını arxa plana keçirir.

Haşiyə: Modernləşmə həyata keçirərkən azad olmuş nəhəng insan enerjisinin sadəcə dağıdıcılığa səbəb olmaması üçün ciddi təminat mexanizmləri yaradılmalıdır. Unutmaq olmaz ki, modernləş-

mə ilk növbədə özündə keyfiyyət dəyişilmələrini ifadə etdiyindən, heç də artımla müşayət olunmur. Bu baxımdan *kasıb cəmiyyətlərdə modernləşmə bir az da əhalini müflis edəcəyindən, öncə sərvət bolluğu yaradılmalı, daha sonra həmin bolluğun keyfiyyətini yüksəltməyə cəhd edilməlidir*. Modernləşmə köhnə sərvətdən fərqli yeni *inqilabi sərvət* yaratmağa xidmət edir, hansı ki, cəmiyyətdə inqilabi dəyişiklik edərək onu tərəqqinin növbəti pilləsinə qaldırır. E.Töfflerə görə, «sərvətin inqilabi olması üçün miqdarı münasibətdə yox, onun necə yaradılması, yığılması, dövr etməsi, xərclənməsi, saxlanması və investisiya olunmasının transformasiyasına münasibətdə yanaşılmalıdır». Beləliklə, *iqtisadi modernləşmə sərvətin tamamilə yeni üsullarla yaradılması, yığılması, dövr etməsi, saxlanması və investisiya olunmasını təmin etməlidir*. Bəs, postsovet respublikalarında bu gün ümumiyyətlə sərvətin yaradılması, yığılması, dövr etməsi, xərclənməsi, saxlanması və investisiya olunması qaydası inqilabi keyfiyyət daşıyacaq modern iqtisadiyyata keçməyə əsas verirmi? Cavab birmənalıdır – yox! Əksinə, postsovet məkanında sərvət qeyri-qanuni yollarla, bir çox hallarda, vaxtaşırı ABŞ Dövlət Departamentinin çirkli pulların yuyulması ilə bağlı yaydığı hesabatlardan da göründüyü kimi, cinayət yolu ilə əldə edildiyindən, belə sərvət *reaksion – əksinqilabi sərvətdir* və olsa-olsa belə sərvət yalnız cəmiyyəti geriyə apara bilər. Reallıqda da bu baş verir – postsovet respublikaları böyük sürətlə feodalizasiyaya məruz qalır.

Qeyd etmək lazımdır ki, modernləşmə məsələsi müccərəd şəkildə anladıldığından iqtidarların hansı forma modernləşməni həyata keçirmək niyyətində olması da qaranlıq qalır. İ.Vallerstayn «Dünya sistemlərinin təhlili» adlı kitabında müasirliyin iki anlamı ilə bağlı yazır: «1. Qabaqcıl texnologiya, texniki tərəqqi, sürəkli yeniləşmə – cari müasirlik. Belə müasirlik formasına görə materialdır və bu günün müasirliyi sabah üçün köhnədir. 2. İrəliyə istiqamətlənmə kimi maddi yox, ideoloji döyüşkən müasirlik. Belə müasirlik azadlıq, mahiyyətli demokratiya, insanın özünü reallaşdırması – modernləşmədir. Bu əbədi müasirlikdir». Göründüyü kimi, cari müasirlik yalnız özündə struktur dəyişilmələrini, elmi-texniki tərəqqiyə əsaslanan, *yeni texnika və texnologiyaların* tətbiqini ifadə edir. Müa-

sir dünyada texnika və texnologiya sahəsində yeniləşmənin sürəti o qədər artmışdır ki, artıq yenilik nisbi məna kəsb etmişdir. Bu baxımdan, iqtidarlar modernləşməni *cari müasirlik* anlamında həyata keçirməyə cəhd etsələr, belə modernləşmə müvəqqəti olacağından effektli ola və ölkəyə nəsə verə bilməz. İ.Vallerstaynın şərhindən göründüyü kimi, modernləşmənin müasir radikal-total elmi anlamı hansısa istehsal sahəsinin texnoloji yeniləşməsi yox, cəmiyyətin bütün güclərinin azad inkişafını özündə ifadə edir.

Haşiyə: Cari müasirlik bir tərəfdən daxildə elmin xüsusi inkişafı, digər tərəfdən dünyada başqa xalqların əldə etdiyi texnoloji yenilikləri mənimsəməklə, üçüncü tərəfdən isə, qlobalizasiya prosesi ilə sıx əlaqəlidir və buna görə də cari müasirləşmə *elmə xüsusi diqqət ayrılmasını*, onun sürətli inkişafını və Qərblə hərtərəfli *elmi əməkdaşlığı*, qlobal iqtisadiyyata hərtərəfli *inteqrasiyanı* tələb edir. Bu gün postsovet iqtidarlarının uzunmüddətli strateji *elm siyasəti* demək olar ki, yoxdur və dövlət büdcələrindən elmə ayırmaların həcmindən də görünür ki, iqtidarlar elmin inkişafında maraqlı deyil. Bundan başqa cari modernləşmə – maddi müasirləşmə yeni elmə – *mürəkkəblik elminin – sinergizmə* əsaslanmağı tələb edir. Biz iqtidar strategiyasını tənqid edərkən bu strategiyanın sadə sistemlərin elmlərinə əsaslandığını dəfələrlə diqqətə gətirmişik və əvəzində öz təhlillərimizdə məhz sinergetizmə əsaslanmışıq. Qərblə əlaqələrə gəldikdə bunun ən ağrısız yolu Avropa Birliyinə, Ümumdünya Ticarət Təşkilatına və s. beynəlxalq iqtisadi birliklərə üzvlükdən keçir. Amma ayrı-ayrı vaxtlarda postsovet liderlərin rəsmi səviyyədə bəyanatlarından görünür ki, bu ölkələr Avropa Birliyinə üzv olmağa tələsmir və Ümumdünya Ticarət Təşkilatının tələblərini yerinə yetirmək istəmir. Belə mövqe də cari modernləşmə ideyası ilə ziddiyyət təşkil edir. Cari müasirlik bilavasitə iqtisadi sfera ilə bağlı olduğundan, biz bunu *iqtisadi modernləşmə* kimi qəbul edə bilərik. İqtisadi modernləşmə özündə modern prinsipləri əks etdirir. Modern iqtisadiyyatın ənənəvi iqtisadiyyatdan köklü fərqi ondan ibarətdir ki, *modern iqtisadiyyat iqtisadi ideyalara əsaslanmır*. Yəni siyasi iqtisadiyyatın müəyyən etdiyi qanunlara tabe olmur. Bu vəziyyət müxtəlif təsirlərdən – hipnoz və ya narkotiklərin təsirindən fərdin trans

vəziyyətinə düşməsinə oxşayır. Trans vəziyyəti məqsədsiz fəaliyyətdir. Biz trans vəziyyətinin klassik nümunəsi kimi sosializm ideyası məhv olduqdan sonra bir çox ölkələrdə hələ də sosializmin yaşamaqda davam etməsini göstərə bilərik. Bu gün bəzi keçmiş SSRİ respublikaları və keçmiş sosialist ölkələri - Kuba, Şimali Koreya *transsosializm* vəziyyətini yaşayırlar. Bu dövlətlərdə hansı eybəcərliklər və ya bəşəriyyət üçün təhlükələrin doğmasını isə şərh etməyə ehtiyac duymuram. Modern iqtisadiyyatı - iqtisadi ideyalardan ayrılmış, amma cəmiyyətin inkişafında iştirakda davam edən iqtisadiyyatı - məşhur müasir fransız filosofu Jan Bodriyyar *transiqtisadiyyat* adlandırır. O, «Şərin şəffaflığı» adlı kitabında müasir Qərbin iqtisadi-siyasi sistemində baş verənlərlə bağlı yazır: «Əgər mənə şeylərin müasir vəziyyətinə ad vermək lazım gəlsəydi, mən deyərdim ki, bu – orqiyadan sonrakı vəziyyətdir. Orqiya – müasir dünyada hər bir partlayış anıdır, bu hansı sfera olursa-olsun, azadlıq anıdır. Siyasi və seksual azadolma, istehsal və dağıdıcı güclərin, qadınların və uşaqların, təhtəlşüur impulsların, incəsənətin azadlığıdır». Məhz iqtisadi modernləşmə da iqtisadiyyatda partlayış yaradaraq siyasi və iqtisadi azadlıqların elə ölçüsünü təqdim edir ki, bu ölçülərdə hər şeyin ideyası artıq tam reallaşmış və *konkret sferalar ideyasız inkişaf edir*. Başqa sözlə, *modern iqtisadiyyat siyasi iqtisadiyyat ideyalarından və iqtisadi siyasətin təsirlərindən ayrılmış şəkildə formalaşdırılır*. J.Bodriyyara görə, müasir azadlıq şeylərin, işarələrin öz ideyalarından və konsepsiyalarından, mahiyyətindən və dəyərlərindən, məntiqindən və təyinatından azad olmasıdır. İqtisadi modernləşmə də iqtisadiyyatın ideyalardan ayrılmasının təzahürü kimi *transiqtisadiyyatı* meydana çıxarır. Bodriyyar transiqtisadiyyatın başlıca keyfiyyətləri ilə bağlı yazır: «Nə ki, azad olur, qaçılmaz olaraq sonsuz dolaşıqlara məruz qalır, bununla da qeyri-müəyyənlik və müvəqqətilik artır…istehsalın təqdim etdiyi sərvət ideyası itir, istehsal isə ən yaxşı şəkildə həyata keçirilir…öz mahiyyətini itirən hər şey xaosa qərq olur və onda itir, proletariat özünü sinif keyfiyyətində inkar etməyə müyəssər olur və bununla sinfi cəmiyyəti ləğv edir…sərvət orbital, dövrü xarakter alır, bir bankın dairəsindən digərinə, bir ölkədən digər ölkəyə yer dəyişdirir…burda iştirak

edən dövriyyə kapitalı və neqativ sərvət hansısa anda birjalarda boy verir... o qədər şey istehsal edilib və yığılıb ki, onlar sadəcə öz xidmətlərini göstərə bilmirlər…ənənəvi inflyasiya və işsizlik artımın səviyyəsinə daxil olaraq dəyişkənliyi təşkil edir…işsizlik mənasını dəyişir, bu artıq kapitalın strategiyası, sosial münasibətlərdə tənqidi faktor deyil…işsizlik də süni «sputnik»in növlərindən biri olur, iqtisadiyyat müasir həyatda məhz irrasional oyunların qeyri-müəyyən nəticələrinin xüsusi effekt arenasından ibarət olur». Göründüyü kimi, transiqtisadiyyatda konkret *məqsəd* olmur. Belə iqtisadiyyat sərvətin yeni ölçüsünü üzə çıxarmır, sadəcə özü yeni ölçülərdə təzahür edir. J.Bodriyyara görə, «transiqtisadiyyat – fiktiv iqtisadiyyatla real iqtisadiyyat arasında uyğunsuzluğun nəticəsi kimi meydana çıxır. Məhz bu dissonans bizi real məhsuldar iqtisadiyyat fəlakətlərindən qoruyur». Fiktiv kapital məhz bazar iqtisadiyyatının əsas elementlərindən olduğundan, onunla real kapital arasındakı uyğunsuzluq əhalinin həyat səviyyəsinə mənfi təsir edir. Transiqtisadiyyatda xüsusi mülkiyyət də öz ideyasından ayrılır. Nəticədə dövlətin xüsusi mülkiyyətlə manipulyasiya imkanı yaranır. Bu mərhələdə dövlət müxtəlif yollarla xüsusi mülkiyyətə müdaxilə edir. Bu ya antimonopoliya qanunu, ya ictimai ehtiyaclar adı ilə, ya ətraf mühitin qorunması adı altında olsa da iqtisadiyyatda ciddi dəyişiklik yaradır. Transiqtisadiyyatda mülkiyyətlə bağlı baş verənləri T.Betll mülkiyyətin *təkrar feodalizasiyası* kimi dəyərləndirir. Məlumdur ki, xüsusi mülkiyyət hüququ insanlara *imtiyaz* verir və bunun müqabilində onların üzərinə qanunla müəyyən olunmuş konkret *öhdəliklər* qoyur. Kapitalizmin başlanğıcında xüsusi mülkiyyətin verdiyi imtiyazlar siyasiləşir və dövlət xüsusi mülkiyyəti qorumaq vəzifəsini yerinə yetirir. Xüsusi mülkiyyət isə dövlət aparatının xərclərini öz üzərinə götürür. Lakin inkişafın müəyyən mərhələsindən sonra kapitalist dövlət içində dövlətə çevrilir və rəsmi dövlət siyasətinə təsir imkanı əldə edir. Bu xüsusi mülkiyyətin əsas qanunauyğunluğuna – *başqalarının anoloji imtiyazlarını etiraf etmək prinsipi* ilə ziddiyyət yaradır. Nəticədə dövlət qanun qarşısında bərabərlik yaratmaq məqsədi ilə hipertrofiya olmuş xüsusi mülkiyyətə ətraf mühiti qorumaq, sosial proqramlarda iştirak etmək, xeyriyyəçilik işləri görmək və

sponsorluq etmək kimi *əlavə öhdəliklər* qoyur, hansı ki, feodal cəmiyyətdə eyni qaydada monarx mülkiyyət üzərinə istədiyi öhdəliyi qoyurdu. Bu feodalizmdə müşahidə olunan ilkin feodalizasiyadan fərqli daha ali səviyyədə feodalizasiyadır. T.Betll müasir iqtisadiyyatda baş verənlərlə bağlı yazır: ««Feodal» sözü ABŞ-da mülkiyyət hüququnda baş verən dəyişilmələri dəqiq ifadə edir. Belə hesab edirlər ki, hakimiyyət ierarxiyasında kral əvəzinə dövlət durur… torpaq sahibləri tədricən öz mülkiyyətlərində dövlətin rəhminə görə idarəçilərə çevrilib…qrupa məxsus olmaqla, Qərb hüququ üzərində nəhəng zəfər çalmaqla haqlı hüquqi imtiyazlar bərpa olunur. Qanun qarşısında bərabərliklə birləşmiş vətəndaşların vahid sinfinin əmələ gəlməsi ilə – təhdid edir, bu bərabərlik bütün imtiyazları məhv edir, amma kim ki, Amerika siyasətinə təsir etmək imkanına malikdir, onları bərpa etməyə cəhd edir. Adətən genlərlə, cinslə və etnik mənşə ilə verilən yeni status – əhəmiyyətli hüquqi nəticələr yaradır. Mülkiyyətin təbiəti mühafizə ilə tənzimlənməsinin nəticələrini onun ictimai ehtiyaclara götürülməsi müqayisə etməkdə məna vardır. Sonuncu halda mülkiyyət aşkar götürülür və mülkiyyətçi kompensasiya alır, birinci halda isə mülkiyyətçi formal olaraq mülkiyyətçi kimi qalır, amma onun hüququ kəskin şəkildə məhdudlaşdırılır, bu gün mübarizə mülkiyyətin məhv edilməsi uğrunda yox, onu çoxlu məhdudiyyətlərlə sıxışdırmaq uğrunda gedir. Mülkiyyətin feodalizasiyası – daha realistik layihədir və daha aşkar parazitlikdir». Göründüyü kimi, postsovet respublikalarında bir tərəfdən transformasiya prosesində baş verən aşağı səviyyəli feodalizasiya modernləşmə nəticəsində yaranacaq ali səviyyəli feodalizasiya ilə birləşir. Nəticədə *ifrat ikiqat feodallaşma* meydana çıxır. Belə feodallaşmanın üstqurumu isə *traybalizmdir,* hansı ki, postsovet respublikaları üçün xarakterikdir. Beləliklə, postsovet respublikalarında azad bazar iqtisadiyyatına keçmədən ilk baxışdan rasional görünən modernləşmə haqqında düşünmək cəmiyyəti feodalizmə qaytarmağa xidmət edən ideyalardandır.

Modernləşmə *əmək münasibətlərində* də inqilabi dəyişikliklər edir. Hər şeydən öncə, iqtisadi modernləşmə *əməyin dövlətdən, fərdin əməkdən ayrılmasına* xidmət edir. Bununla insan təbiətdən ayrı-

lır və süni sivilizasiyaya keçir. Qeyd edim ki, modernləşmə sərvətin mahiyyətində baş verən inqilabi dəyişilmələr nəticəsində meydana çıxmışdır. E.Töffler «İnqilabi sərvət» kitabında sərvətin üç müxtəlif dalğasının olması haqqında yazır: «Sərvətin birinci dalğası – aqrar sivilizasiya yaradıb, ikinci dalğa – kütləvilik sivilizasiyasını yaradıb, üçüncü dalğa – istehsalı, bazarı və cəmiyyəti azad edir». Haşiyəyə çıxım ki, postsovet respublikalarında sərvət əsasən *aqrar sivilizasiya* ilə *kütləvilik sivilizasiyasının* qarışıq sərvət formasındadır. Bu baxımdan da postsovet respublikalarının iqtisadiyyatı hələ ikinci dalğanın sərvət yaratmaq vəzifəsini həll etmədiyindən, sərvətin üçüncü dalğasını yaratmağa cəhd etmələri iqtisadi avantüradır.

Haşiyə: İqtisadi modernləşmə sərvətin üçüncü dalğasını yaratmağa xidmət etdiyindən, özündə *əməyin, bazarın və cəmiyyətin paralel azad olması* ilə mümkün ola bilər. Bu məsələ *həyat modeli* problemi ilə sıx bağlı olduğundan, biz həm də həyat modellərini qısa da olsa təhlil etməli və «modernləşmənin həyat modeli necə olmalıdır» sualına aydınlıq gətirməliyik. Çünki yalnız uyğun həyat modelində uyğun islahatlar keçirmək rasionaldır. Qeyd edim ki, həyat modelləri fərdin *vaxtının bölünmə* qaydası ilə müəyyən olunur. Belə ki, əmək prosesinə daxil olmuş hər bir adamın vaxtı *işə və azad vaxta* bölünür. İqtisadiyyatla siyasət isə fərdi həyatın işə və azad vaxta bölünməsini özlərində refleks edərək, müvafiq həyat modelini yaradırlar. Bu bir həqiqətdir ki, *fərdin iş vaxtı nə qədər uzun, azad vaxtı qısadırsa, onun ictimai-siyasi azadlığı bir o qədər məhduddur* və bir o qədər də köledir. T.Hoyrup istehsal münasibətlərinə görə üç cür həyat modeli ayırd edir: 1. Birinci modeldə – əmək haqqı onunla haqq qazanır ki, o gəlirləri təmin edir, iş qeyri işə – heç nə başqasına əks qoyulmur. Bu modelin ideoloji münasibəti belədir ki, fərd bütün həyatı boyu özünü kölə hesab edir, *əmək istismar mənbəyidir*. 2. İkinci modeldə - işə vasitə kimi baxılır. Azad vaxt işin məqsədidir. İşlə azad vaxt bir-birinə əks qoyulur – gün işə və azad vaxta bölünür. Bu modelin ideoloji münasibəti – *özünüistismardır*. 3. Üçüncü modeldə – işin aydın anlayışı yoxdur. Fəaliyyət həm də gəlirlərin mənbəyidir – məqsəd və vasitələr aydın deyil. Modelin ideoloji münasibəti əməyə *hobbi kimi baxılmasıdır*. Əmək insanlararası yaxın münasibət yaratmaq vasitə-

sidir». Göründüyü kimi, modernləşmə üçüncü forma həyat modeli üçün xarakterikdir və iqtisadi modernləşmə məhz belə həyat modelinə malik cəmiyyətlərdə həyata keçirilə bilər. Başqa sözlə, iqtisadi modernləşmə siyasi və sosial modernləşmə ilə birlikdə aparıldıqda effektli ola bilər. Postsovet respublikalarının indiki reallıqları isə bu ölkələrin modernləşmədən hələ çox uzaq olduğunu göstərir.

İqtisadi modernləşmə bir qayda olaraq *sənayeləşmə mərhələsindən sonrakı dövrdə* aparılır. F.Brodel də təsdiq edir ki, «modernləşmə sənayeləşmədən daha geniş anlayışdır. Artım sahəsinin genişlənməsi – tarixi bütünlüklə əhatə edir». Göründüyü kimi, iqtisadi modernləşmə əməyə, işə, istehsal münasibətlərinə, gəlirlərə, məşğulluğa və s. iqtisadi anlayışlara ənənəvi baxışdan tamamilə köklü fərqli yanaşan, regional çərçivələrdən çıxmış, tarixi *qlobal iqtisadi sistemin* yaradılması üsullarındandır.

Modern iqtisadiyyat üç əsas terminlə - *əmək-vətəndaş cəmiyyəti və sivilizasiya* terminləri ilə sıx bağlıdır və onlarla şərh olunandır. Burada əmək sivilizasiyanın yaradıcısı, vətəndaş cəmiyyəti onu tənzimləyən tərəfi kimi çıxış edir. Modern iqtisadiyyatda həm istehsala, həm bölgüyə, həm mübadiləyə, həm də istehlaka yeni baxış tələb olunur. Modern iqtisadiyyatda *istehsalın və mübadilənin mədəniləşməsi,* vətəndaşlarda *mehriban davranış sferasının formalaşması, bölgünün dövlətsizləşməsi* baş verir. Modernləşmənin vəzifəsi cəmiyyəti təbiətdən qoparmaqla, *süni sivilizasiyaya* keçidi təmin etməkdir. Təbiətlə sıx əlaqəsi olan kapitalist iqtisadiyyatı ilə modern iqtisadiyyat həm də bununla fərqlənir ki, *modern iqtisadiyyat qeyri-tarazdır*. Əksinə, təbiətdən asılı təbii sivilizasiya tarazdır və buna görə də proqnozlaşdırılandır. Beləliklə, iqtidarların iqtisadi inkişafı planlaşdırma cəhdi ilə cari modernləşmə ideyası biri-biri ilə ziddiyyət təşkil edir. Xüsusən *təbii sərvətlərin istismarına əsaslanan iqtisadi inkişafın getdiyi «sivilizasiya»lar taraz və proqnozlaşdırılandır.* E.Töffler də təsdiq edir ki, «əgər iqtisadiyyat təbiətə uyğun və homostatikdirsə, o tarazlığa cəhd etməlidir». Modern iqtisadiyyat insanın təbiətlə əlaqəsini minimuma endirdiyindən, onun belə bir tarazlığa ehtiyacı yoxdur. Postsovet respublikaları bu gün hələ də aqrar sivilizasiya dalğasını başa vurmayıb və bundan əvvəlki fəsillərdə qeyd etdiyimiz

kimi, feodalizasiyanın son mərhələsindədir. Ona görə də bu ölkələrdə taraz iqtisadi prinsip keçərlidir ki, bu da modernləşmə ilə bir araya sığmazdır. Beləliklə, *sənayeləşməyə keçmədən modernləşməyə cəhd mümkün ola bilməz.*

Haşiyə: Modern əmək özündən əvvəlki əmək formalarından mahiyyətcə prinsipial olaraq fərqlənir. Qeyd edim ki, ümumiyyətlə *əmək özündə işin təşkil olunması üsullarından biridir* və klassik əmək – *iş yeri*, digərlərinin işi ilə əlaqələnmə – kollektivçilik və ya əməyin təşkili, *iş vaxtı* – eyni vaxtda işin görülməsi, işin haqqının ödənilməsi – *əmək haqqı* və s. amillərlə xarakterizə olunur. Modern iqtisadiyyatda işin əmək formasında görülməsi arxa plana keçir. Bununla da əmək münasibətlərində fundamental dəyişilmə baş verir. Qeyd etdiyimiz kimi, klassik kapitalizmdə istehsal münasibətləri özündən bir-birindən ayrılmış dörd müxtəlif funksiyadan – istehsal – bölgü – mübadilə – istehlakdan ibarət olur və kapitalist iqtisadiyyatında əmək məhz birinci fazada – istehsalda rol alır. *Modern iqtisadiyyatda əmək funksiyası istehsalçıdan istehlakçıya keçir.* E.Töffler «İnqilabi sərvət» adlı kitabında bunu protrebleniye – adlandırır. Protrepleniya – *könüllü «biyar əmək»* formasıdır və bu gün inkişaf etmiş sənaye dövlətlərində əməyin haqqı ödənilməyən, nəhəng həcmdə xüsusi fəaliyyət sahəsi yaranmışdır və bu sahənin verdiyi ictimai xeyir milyardlarla dollar həcmində qiymətləndirilir. Könüllü biyar azad vaxt tələb etdiyindən, modern iqtisadiyyatda iş vaxtının qısaldılması iqtisadi səmərəni aşağı salmır. İnsanlar nə qədər az muzdlu işə vaxt sərf edirlərsə, bir o qədər biyar işləməyə imkan qazanırlar. Muzdlu işə iş vaxtından asılı olmayaraq eyni əmək haqqının ödənilməsində itirilənlər biyar əməklə kompensasiya olunur. Başqa sözlə, modern iqtisadiyyatda muzdlu işçiyə az əməyinə görə çox əmək haqqı verilməsi onun heç bir əmək haqqı ödənilmədən əməyinin verdiyi fayda ilə əvəzlənir. Digər tərəfdən, haqqı ödənilən əməklə haqqı ödənilməyən əməyin bərabərləşməsi bundan əvvəl boş vaxtlarda hobbi kimi yerinə yetirilən işlə muzdla yerinə yetirilən işi eyniləşdirir və onu da hobbiyə çevirir. Yəni insan işə *hobbi* kimi baxır, sadəcə bir halda hobbisinə görə muzd alır, digər halda muzd almadan işləyir. Beləliklə, modern iqtisadiyyatda

fəhlələri əmək haqqı tələb etməyən işçilər ordusu – *volenterlər* – xidməti müqabilində əmək haqqı istəməyən könüllü – istehsalçılar əvəz edir. Bu gün artıq volenterlər qlobalizasiya prosesinə uyğun, *sərhədsiz təşkilatlar* yaradaraq milli çərçivələrdən çıxmış və onların əməyinə ehtiyacı olan dünyanın ən uzaq guşələrində fəaliyyət göstərirlər. Postsovet respublikalarında həbsxanalarında ağır vərəmli xəstələrə qulluq edən və qaçqınların problemləri ilə məşğul olan və ya əsirlərə yardım edən avropalılar həmin - volenterlər ordusunun nümayəndələridir.

Modern iqtisadiyyat həm də kapitalist bazarının tələb-təklif qanunundan fərqli olaraq, *«təklifin məhdudluğu qanunu»* ilə fəaliyyət göstərir. Belə ki, modern iqtisadiyyat kapitalist kütləvi mal istehsalından fərqli olaraq *fərdi mal istehsalı* – ayrı-ayrı nüsxələrin istehsalı ilə məşğul olur. Digər tərəfdən, əgər kapitalist istehsalında məhsuldarlıq istehsalçıdan asılıdırsa, modern iqtisadiyyatda artıq məhsuldarlığa istehlakçı daha ciddi təsir edir.

Modern iqtisadiyyatda işin təşkilinin yerlə klassik əlaqəsi aradan qaldırılır. Artıq iş konkret yerdə görülmür və *işçilər iş yerlərindən azad olur*. E.Töffler «Gələcəyin şoku» adlı kitabında yazır: «İnsanlar yaşayış və iş yerinin əlaqəsi bu günkü qədər kövrək və qısa müddətli olmayıb…insan üçün yerin əhəmiyyəti itir». İş yerinin əhəmiyyətinin itməsi insanın konkret coğrafiyadan asılılığını da azaldır, bu isə *sosial və siyasi yerdən azad olma* ilə müşayət olunur. İş yerindən azad olma insanları iqtidarların məqsədəyönlülük siyasətindən azad edir. Artıq insanlar iş yeri qayğısından, iş yerini itirmək qorxusundan və işin itirilməsinin rifah problemi yaratmasından azad olur. E.Töffler daha sonra yazır: «Bağlanmış sosial yerdən azad olmaq o dərəcədə coğrafiyadan bağlanmaqdan azad olma ilə əlaqədardır ki, supersənaye insanı görəndə ki, həyat şəraiti onu sıxır, onun ilk işi iş yerini dəyişmək olur». İşləyənlərin iş yerlərindən azadlığı insanlarda böyük dinamizm yaradır. İnsanların hərəkətliliyi öz ardınca modern iqtisadiyyatda *hərəkətli kapitalın* yaranmasını şərtləndirir. Dünya yeni *qlobal köç* problemi ilə üz-üzə qalır. Modern iqtisadiyyatda insanlar həm də öz ölkələrini – vətəndaşlıqlarını dəyişirlər. Nəticədə *milli siyasi hakimiyyətdən azad olma* imkanı yaranır. Modern iqtisa-

diyyatda iş yerinin nisbi məna daşıması bütünlükdə insan üçün yerin əhəmiyyətini heçə endirir. Artıq insanlar iş yerləri ilə yanaşı yaşam yerlərindən asılılıqdan azad olur. Bu da siyasi coğrafiyanı nisbi edir. Beləliklə, siyasi modernləşmədə daimi vətəndaşlıq öz klassik rolunu itirir. Fərd dövlət seçməkdə azadlıq əldə edir, bununla da siyasi rejim seçimi azadlığı yaranır. Modern iqtisadiyyatda yerin əhəmiyyətinin itməsi ilə suveren dövlət sərhədləri nisbi məna kəsb etdiyindən, *suverenlik dövlətdən fərdə keçir*.

Modern iqtisadiyyatın digər mühüm xüsusiyyəti iş vaxtının *asinxron* olmasıdır. Klassik kapitalist istehsalı, Marksın qeyd etdiyi kimi, «müəyyən sayda adamın, müəyyən yerdə, müəyyən vaxt ərzində kollektiv əməyin təşkili» ilə xarakterizə olunursa, modern iqtisadiyyatda, əksinə, iş qrafiki asinxron olur. Vaxtilə sovetlərdə əllinci-altmışıncı illərə qədər sənaye şəhərlərində zavod fitləri ilə hamının eyni vaxtda işə çağırılması məhz sinxron işlə bağlı idi. E.Töffler bununla bağlı yazır: «Həyat qrafiki o qədər fərdiləşib ki, ailə üzvləri və dostlar demək olar ki, üz-üzə görüşmürlər». Modern iqtisadiyyatda sinxronluq pozulduğundan, eyni bir müəssisədə işləyənlər də nadir hallarda qabaq-qabağa gəlir və ya bir yerdə işləmələri haqda məlumata malik olurlar. Bununla da artıq *klassik kapitalist əmək münasibətləri pozulur*.

Haşiyə: Modern iqtisadiyyatda əmək haqqı və pulun qiyməti vaxtdan asılı olmur. «Çox işləyən çox qazanır» kapitalist prinsipi öz əhəmiyyətini itirir. Başqa sözlə, modern iqtisadiyyatında az işləmək çox qazanmağa mane olmur. Bəs onda istər-istəməz sual doğur. Volenterlərin gəlirləri haradandır? Hər şeydən əvvəl modern iqtisadiyyatda mülkiyyət investisiya olunan kapitala çevrilir və bu da sərvətin yeni formasını – bilavasitə əmək haqqı kimi əldə edilən sərvətdən fərqli formasını – yaradır. Bu da insanların gəlir mənbələri kimi əmək haqqından asılılığını aradan qaldırır. Digər tərəfdən, modernləşmə elə texnoloji yeniliklər edir ki, istehsalın effektivliyi kosmik ölçüdə artır. Beləliklə, işçilərin əmək prosesindən çıxması nəinki effektivliyi azaltdığından onların həyat səviyyəsini aşağı salır, əksinə, *işçini əvəz edən yeni texnologiya cəmiyyətdə daha çox rifah yaradaraq həyat səviyyəsini durmadan yüksəldir.*

Modern əməkçi öz *çoxfunksionallığına* görə fərqlənir. Belə ki, işçi eyni vaxtda müxtəlif işləri və ya ardıcıl olaraq müxtəlif funksiyaları yerinə yetirir. Beləliklə, çoxprofillik modern iqtisadiyyatın işçisinin əsas keyfiyyətinə çevrilir. Bununla da *peşənin əmək prosesində ənənəvi rolu* azalır. İş yerinin və görülən işin profilinin dəyişkən və müvəqqəti olması işçi üzərində *iqtisadi komandanlıqda* müvvəqqətilik yaradır. E.Töffler «İnqilabi sərvət» adlı kitabında yazır: «Bütün iqtisadiyyat üzrə tez-tez müvəqqəti vəzifələri yerinə yetirmək üçün müvəqqəti komandalar veriləcək». Cari modernləşmədə bu komanda yalnız kənardan yox, həm də daxildən, fərdin özü tərəfindən verilir.

Modern əməyin forması da klassik əmək formasından köklü surətdə fərqlənir. Əgər klassik əməyin iki forması – *fiziki və zehni əmək forması* mövcuddursa, artıq modern iqtisadiyyatda üçüncü növ əmək – *hissi əmək* meydana çıxır və «hiss iqtisadiyyatı» iqtisadi modernləşmədə daha böyük həcmə və əhəmiyyətə malik olur. Klassik əmək – fiziki güclə əqli gücün, modern əmək – əqli güclə hissi gücün simbiozluğuna əsaslanır. E.Töffler «Gələcəyin şoku» adlı kitabında yazır: ««Psixologiyaziya» supersənaye inqilabının əsas istiqamətlərindən biridir…proqramlaşdırılmış «hiss» sənayesi inkişaf edir». Modern iqtisadiyyatda konkret məhsul, hissi iqtisadiyyatın *abstrakt məhsulu* ilə rəqabətdə uduzur.

Haşiyə: Modern iqtisadiyyatda sərvətin mənbəyi fiziki əmək yox, intellektual əmək olduğundan, iş yeri ilə işləyənlərin sayı arasında ənənəvi kapitalist əlaqəsi pozulur. Stanislav Lem «Texnologiyanın məcmusu» adlı kitabında yazır: «Adi sivilizasiyanın taleyi təbiətin tənzimləyici əks təsiri ilə müəyyən olunur». Amma bundan fərqli olaraq, modern cəmiyyət süni sivilizasiya yaratdığından, tənzimləyici təsir elmi kəşflər və yeniliklər tərəfindən baş verir. Bu gün dünyada iqtisadi modernləşmə elə həddə çatıb ki, əmək özü intellektuallaşıb. S.Lemə görə, işlər belə getsə, 50 ildən sonra Yer kürəsinin hər bir sakini alim olacaq və daha bir neçə 10 ildən sonra alimlik etmək üçün Yer kürəsinin əhalisinin sayı azlıq edəcək. *Modern iqtisadiyyatda intellektin çəkisinin artması ilə zehni əmək fiziki əməkdən, insan özü isə tədricən hər iki əməkdən ayrılır*. S.Lem yazır: «Hər dəfə çatılan azad-

lıq nisbi azadlıq olacaq – sintetik sivilizasiyada insan fəaliyyəti bütün sahələrdən kənarlaşacaq». Başqa sözlə, əmək özü-özünü idarə edən yeni texnologiyaya həvalə olunacaq. Bunun ardınca insan təbiətdən - süni texnoloji sivilizasiyaya, əmək sahəsindən - elm sahəsinə fəaliyyətə keçir. Yəni E.Töfflerin qeyd etdiyi kimi, «biliyə əsaslanmış sərvət sistemində daha çox adam işləyəcək, amma daha az iş yeri olacaq». Bununla da modern iqtisadiyyatda *məşğulluq* öz klassik anlamını dəyişəcək. Qeyd edim ki, məşğulluq problemi modern iqtisadiyyatda klassik kapitalizmin məşğulluq problemindən onunla fərqlənir ki, modern iqtisadiyyatda məşğulluq hakimiyyətin və cəmiyyətin problemi yox, yalnız işsizlərin mənəvi borcudur. Modern iqtisadiyyat, əksinə, tam məşğulluqdan imtina edir. Çünki *tam məşğulluq muzdlu əmək cəmiyyəti yaradır* ki, bu da yuxarıda qeyd etdiyimiz birinci həyat modelinə uyğundur. Modern iqtisadiyyatda əmək üzərində totalitar cəmiyyətlərə xas dövlət nəzarəti ləğv edilir. Unutmaq olmaz ki, *modern əməyin təşkili milli çərçivələrdə mümkün deyil,* o yalnız *dünya əmək bazarında* mümkündür və bu zaman milli dövlətlərin vəzifəsi dünya əmək bazarını işçi ilə təmin etməkdən ibarətdir. *Klassik əməyin problemi iş, modern əməyin problemi işçi tapmaqdır.* Klassik əməkdə peşə əsas rol oynayır və təkpeşəlik monofunksionallığa səbəb olur. Bir iş yerində bir sahənin ixtisarı işsizliklə nəticələnir. Modern əmək çoxpeşəliliyə əsaslandığından çoxfunksionallıq imkan verir ki, *iş yeri çərçivəsində baş verən dəyişilmələr işsizlik yaratmasın.* Modern əməkdə elm tutumu əsas rol oynayır. İşçi eyni zamanda həm fəhlə, həm alim, həm də konstruktor kimi çıxış edir. Modern məşğulluq fasiləliklə xarakterizə olunur. Fasiləli əmək elə iqtisadi sferada meydana çıxır ki, işçi qüvvəsinin axıcılığı istehsal prosesinə təsir etmir. Başqa sözlə, modern əməkdə *vaxt iqtisadi faktor olmaqdan azad olur*, o artıq yalnız həyatın əsas faktoruna çevrilir. Modern istehsal fasiləli istehsaldır. Başqa sözlə, istehlaka uyğunlaşmış istehsaldır. Buna görə də belə istehsal istehlak böhranlarından azad olur.

Modern əmək seçimə əsaslanır. İş yerinin, əmək növünün, əmək haqqının, istehsal sahəsinin, kollektivin və s. seçim imkanı yaranır. Başqa sözlə, məhsul bolluğu seçim bolluğunu şərtləndirir. Bu da demokratik cəmiyyətin yaranmasını tələb edir. Modern əməyin in-

tellektuallaşması işçinin sosial statusunu dəyişir. Modern işçi özü-özünün hüquqlarının qoruyucusu kimi çıxış edir. A.F.Hayekə görə, «düşüncənin ümumi strukturunun mövcudluğu bizim bir-birimizlə ünsiyyət imkanına şərait yaradır, o bizim iqtisadi həyatda, hüquqda, dildə və alətlərdə olduğu kimi, mürəkkəb strukturlar interpretasiyasının əsasını təşkil edir».

Məlumdur ki, *işsizlik* iqtisadiyyat sferasının əsas anlayışlarındandır. İşsizlik iqtisadi problemdir və ayrı-ayrı iqtisadi sistemlərdə bu problemin əmələ gəlməsi və onun həll edilməsi fərqlidir. Maltuzun nəzəriyyəsindən çıxış etsək, deyə bilərik ki, işsizlik həm də təbii problemdir. Belə ki, doğulanların sayı ilə yeni iş yerlərinin açılması ayrı-ayrı qanunauyğunluqlara tabe olur. Digər səbəb işin olmaması ilə bağlı yaranan işsizlikdir. Kapitalist iqtisadiyyatında belə *işsizlik yoxsulluqla birləşdikdə lümpenləşmə* yaradır.

Haşiyə: Kapitalizmdə meydana çıxan *cəmiyyətin sinfi qurluşu* modern iqtisadiyyatda dağılır. Modern iqtisadiyyatda *əməyin sinfi bölgüsü* nisbi xarakter alır. İşsizlər hər hansı bir daimi sinif təşkil etmirlər və işləyənlər də bir-biri ilə sıx bağlanmırlar. Başqa sözlə, modern iqtisadiyyatda fəhlə sinfini *təşkil olunmamış siniflər* əvəzləyir. Modern iqtisadiyyatda fəhlə sinfinin daxilində də dezinteqrasiya baş verir. Modern iqtisadiyyatın işçi təbəqəsi üç yerə ayrılır: Daimi işi olanlar – *fəhlə aristokratiyasını* təşkil edirlər. Bu təbəqə sosial-iqtisadi dəyişilmələrin keçiriciləri kimi çıxış etmir, çünki iş yerlərini itirməkdən qorxurlar. Daimi işsizlər – zaman-zaman əmək bazarına qayıdırlar. Bunlar *yoxsulluğun və cah-cəlalın əsirləridir*. «Müvəqqəti fəhlələr» hər iki təbəqənin arasında qalır – bunlar sürətlə artır – yalnız modernləşmə nəticəsində azala bilər. Bununla yanaşı «*fəhlələrin təşkil etmədiyi sinif*» - bu, kapitalizm cəmiyyəti üçün ənənəvi olmayan sinifdir. Və ondan qeyri-həmcinsliyi, qeyri-mütəşəkilliyi və təşkilatlanmamasına görə fərqlənir. Bu sinif kapitalizmin əleyhdarlarıdır. Onlar muzdlu əməyə nifrət edirlər. Muzdlu əməyi kənardan qoyulan öhdəlik kimi qəbul edirlər, əmək bazarında azadlıq yox, bazardan kənar azad fəaliyyət naminə muzdlu əməkdən imtina edirlər. Bu qrupa daxil olanlar sinfi istiqamətli siyasəti və istehsal üzərində fəhlə nəzarətində maraqlı deyillər. Sosial hakimiyyətsiz siyasi

marginallar kimi təhlükəlidirlər. Sinif yaratmayan qeyri-fəhlələr iki siyasi seçim edirlər: a) Avtoritar dövləti tənzimləyən kapitalizm – *yarımcan kapitalizm yaratmaq;* b) *Demokratik postkapitalizm* yaratmaq. Beləliklə, demək olar ki, modern iqtisadiyyatda fəhlə sinfi öz yerini keyfiyyətcə yeni konqlemerativ quruluşlu, ideologiyalaşmamış və təşkil olunmamış qeyri-siyasi sinfə verir. *Fəhlə öz sinfi həbsxanasından azad olur və sinfi mənsubiyyətin itməsi liberallaşmanı sürətləndirir.* Modern iqtisadiyyatda məşğulluqla işsizlik harmonik şəkildə cəmiyyətə xidmət edir. C.Kin erkən modern dövrdə meydana çıxan işsizliklə bağlı yazır: «İşsizlik modern dövrdə vətəndaş cəmiyyətinin funksiyalaşması ilə bağlıdır, hansı ki, ona görə ziddiyyət – burjuaziya vətəndaş cəmiyyəti yaranır və hansı ki, həm işsizlərin hesabına yaşayır, həm də onu aradan qaldıra bilmir». Burada işsizliklə işləməyəni bir-birindən ayırmaq lazım gəlir. *Klassik işsizlik - işləməyə mənəvi və iqtisadi tələbi olan, amma fərdin özünə iş tapa bilməməsidir.* İşləməyən, iş olduqda belə, işləməyə məcbur olmayan və ya o işi bəyənməyən, könüllü işləməkdən imtina edən və ya müvəqqəti olaraq işləməyi təxirə salan, amma istədiyi vaxt dərhal işə qayıtmaq imkanı olan insanlar nəzərdə tutulur. Modern iqtisadiyyatda əmək zərurətə çevrilmədiyindən, işləməyənə pis baxılmır. Modern işsizlik klassik işsizlikdən işin olmaması ilə yox, *işinin olmaması* ilə fərqlənir. Modern iqtisadiyyatda işsizlik yalnız əmək haqqı ilə ödənilən muzdlu işlə məşğul olmamanı bildirir, bunun əvəzində isə haqq almadan iş insanların əsas məşğuliyyətinə çevrilir. Kapitalist sistemində iki cür – *aşkar işsizlik və gizlin işsizlik* mövcuddur. Bir qayda olaraq, totalitar cəmiyyətlərdə gizlin işsizlik aşkar işsizliyi gizlədir. Modern iqtisadiyyatda isə işsizliyin ləğvi dövlətin vəzifəsi olmadığından, onun gizlədilməsində maraqlı olmur və buna görə də gizlin işsizlik meydana çıxmır. Öz növbəsində aşkar işsizlik isə idarəetməyə təzyiq yaratmır. Dediklərimizi ümumiləşdirərək demək olar ki, «müvəqqəti işsizlər» daimi işsizliyə ona görə keçmir ki, cəmiyyət qapalı haldan açıq hala keçir. Yuxarıda qeyd etdim ki, modern iqtisadiyyatda dövlət ölkə daxilində işsizliyin ləğvi ilə məşğul olmaq əvəzinə dünya əmək bazarının təşkilində iştirak edir. 1960-cı illərdə Hollandiya Türkiyədən 100 min fəhlə, eləcə də Almaniya bir

neçə milyon işçi qəbul edib. Bunun nəticəsində Türkiyədə işsizliyin yaratdığı təzyiq azalıb. Eləcə də ABŞ hər il bu ölkədə yaşamaq və işləmək istəyənlər üçün bir neçə milyon işçi üçün lotoreya buraxır. Xüsusilə işsizlik böyük həcmdə olan ölkələrdən işçi qəbul etməklə həmin ölkələrdə işsizlikdən doğan problemlər həll edilir və bu zaman əsas işi də işçilərin mənsub olduqları milli dövlətlər yox, məhz iş təklif edən inkişaf etmiş mühacir dövlətlər görür. Modern iqtisadiyyatda insanların daimi məşğulluğu əvəzinə bir və ya bir neçə müstəqil seçilmiş fəaliyyət forması – pul xatirinə yox, maraq və ya həzz və ya faydalılığa görə fəaliyyət sahələri yaranır.

Modern iqtisadiyyatın əsas əlamətlərindən biri də əmək münasibətlərində *müqavilədir*. Qeyri-müqavilə qeyri-moderndir. Belə iqtisadiyyat qarşılıqlı öhdəliklər yaradan fərdi və xüsusi müqaviləyə əsaslanır. Ümumi əmək məcəlləsi olmur. Hər şey fərdi müqaviləyə əsaslandığından, modern iqtisadiyyatda *əmək haqlarının* müəyyən edilməsində və əmək şəraitinin müəyyənləşməsində dövlətin iştirakına yol verilmir. Bir qayda olaraq, bazar iqtisadiyyatında əmək haqlarının müəyyənləşməsində üç tərəf – *iş verən, dövlət və azad həmkarlar* iştirak edirsə, modern iqtisadiyyatda fərd və iş verən öz aralarında razılıq əldə edirlər. Dövlət sadəcə tərəflərin razılaşdığı müqavilə öhdəliklərinin pozulmasına görə *ümumi qanun nəzarətini* həyata keçirir. Modern iqtisadiyyatın birinci və həlledici aktoru *həmkarlardır*. Muzdlu işçi cəmiyyəti *azad həmkarlar* olmadan modern iqtisadiyyata keçmir və dövlətin iqtisadiyyatda yerə qoyduğu vəzifələri məhz həmkarlar öz üzərinə götürür. Buna görə də tətil hərəkatları modernləşmənin əsas əlamətlərindəndir, dövlət maraqlarına belə tətillər ziyan vurmur və buna görə də dövlətin tətillərə müdaxiləsinə yol verilmir.

Modern iqtisadiyyatın əsas elementlərindən biri də *əmək bazarıdır*. Modern iqtisadiyyatda işçi qüvvəsi paralel olaraq üç müxtəlif bazarı – *ümumi qlobal əmək bazarını, milli əmək bazarını və vətəndaş cəmiyyətinin əmək bazarını* təşkil edir. C.Kin əmək bazarı haqqında yazır: «Muzdlu əmək cəmiyyətinin modern dövrdə əmələ gəlməsi böyük kütlə qadın və kişinin gündəlik həyatının çoxunu əmək bazarının (institutlaşması, formalaşması, tərtib edilməsi) keçirmələrinə

məcbur olur və əmək bazarı vətəndaş cəmiyyətinin həyati əhəmiyyətli komponentinə çevrilir». Beləliklə, əmək bazarı məşğulluqla işsizliyi tənzimləyən əsas yerə çevrilir. Əmək bazarının yaranması ilə *azad əmək* meydana çıxır.

Haşiyə: Modern iqtisadiyyatda əməyə münasibət də klassik kapitalizmdən köklü fərqlənir. Protestant etikasına görə, «işləmirlər ki, yaşasınlar, yaşayırlar ki, işləsinlər və bu Allaha ibadətin bir formasıdır» prinsipi modern iqtisadiyyatda əməyin əsas məzmununu təşkil edir. Əslində yuxarıda haqqında söz açdığım volenter əmək – biyar əmək - klassik formada məhz xristian dünyagörüşünün məhsullarındandır. Amma ümumi biyar əmək az qala insanlıqla yaşıddır. Belə ki, quldarlıq qurluşu bütünlükdə biyar *qul əməyinə* istinad edib. Feodalizmdə biyar əmək *təhkimçi kəndlinin* fəaliyyətində meydana çıxıb. Kapitalizmdə biyar gizli formada təzahür edir və *əməyin istismar olunan tərəfini* təşkil edir. Sosializmdə biyarın bir forması kimi – *kommunist iməcilikləri,* ictimai mülkiyyətin yaradılması yollarından biri kimi təcrübədən keçirilirdi. Bütün tarixi inkişaf prosesində «biyar əmək» fərdə yox, başqalarına - ya xüsusi şəxslərə, ya da abstrakt ictimai maraqlara xidmət etmişdir. Yalnız *modern iqtisadiyyatda biyar əmək fərdin şəxsi inkişafına və maraqlarına xidmət etdiyindən, modern iqtisadiyyatda biyar əmək mənəvi tələbata çevrilir.* Biyar əməyin təbiətində baş verən keyfiyyət dəyişilməsi onun təbiətindən məcburetmənin yox olması ilə bağlıdır. Məcburetməni həyata keçirən dövlət əmək sahəsindən çəkildiyindən, artıq biyar əməyinin təbiətində keyfiyyət dəyişilmələri baş verir və məcburetmə azadlıqla əvəzlənir. Yalnız əməkçi yox, həm də *əməyin özü azadlıq əldə edir*. Beləliklə, azadlıqlar genişləndikcə biyar işləyənlərin sayı artır, məşğulluq muzdlu əmək sahəsindən volenter əmək sahəsinə keçir. Əmək cəbhəsinin işsizləri vətəndaş cəmiyyətində məşğulluq əldə edir. Məşğulluğun artması ilə işsizlik azalır. Əmək inamla sinonim kimi dərk edildiyindən, totalitar cəmiyyətdə işsizlər radikallaşır, modern iqtisadiyyatda isə «ibadət»ə üstünlük verilir - mənəvi tərəfin inkişafının qayğısına qalınır. Digər tərəfdən, modern iqtisadiyyat sosial müdafiəni elə güclü təşkil edir ki, işsizlik fərdi tələbatların ödənilməməsinə, o da sosial etirazlara səbəb olmur.

Bunun üçün *sosial siyasət dövlətdən ayrılır və sosial təminat sahəsi müstəqil ictimai sfera kimi funksiyalaşır.*

Əgər birinci və ikinci həyat modellərində əmək məqsədə çatmaq üçün vasitələr əldə etməyə xidmət edirsə, modern iqtisadiyyatda əmək özü bilavasitə məqsədə çevrilir. Buna görə də modern iqtisadiyyatda işdən qaçmaq, yayınmaq, keyfiyyətsiz məhsul istehsalı, pripiska və s. birdəfəlik yoxa çıxır. İnsanlar əməklə əldə etdiklərindən yox, əməyin bilavasitə özündən zövq alır. Əgər əvvəlki həyat modellərində insanlar əmək haqqı naminə işləyirsə, modern iqtisadiyyatda əmək mənəvi tələbata çevrilir və əmək haqqı ikinci dərəcəli yer tutur.

İş vaxtının qısaldılması və işçinin iş yeri ilə ənənəvi davamlı əlaqələrinin pozulması *müvəqqəti iş və müvəqqəti işçiləri* meydana çıxarır. Nəticədə bir iş günündə əvvəllər bir nəfərin gördüyü işin eyni vaxt ərzində bir neçə adamın görməsi üçün imkan yaranır, bu da aşkar işsizliyin ləğv olunmasına perspektivlər açır. Modern iqtisadiyyatda dövlət iqtisadi yox, sosial siyasəti monopoliyalaşdırır. Modern iqtisadiyyatda işləyənlərin aldığı əmək haqqı ilə işsizlərin aldığı yardım arasında böyük fərq olmur. İşləyən işləməyəndən yalnız mənəvi ehtiyacının ödənilməsi ilə fərqlənir. Modern iqtisadiyyatda evdəki fəaliyyət də – uşağa baxmaq, xəstəyə qulluq, bir sözlə, hətta evdarlıq da rəsmi iş hesab edilir və əmək haqqı ödənilən muzdlu iş kimi qəbul olunur. Modern iqtisadiyyatda *məqsədə görə əmək haqqı ödənilməsi rəsmi elan olunmuş iş hesab edilir* və bu da onu özündən əvvəlki iqtisadiyyatdan fərqləndirir.

Yuxarıda qeyd etmişdim ki, modern iqtisadiyyatda əmək forması özündən əvvəlki əmək formalarından əlavə yeni əmək forması – hissi əmək forması ilə fərqlənir. Artıq birləşmiş fiziki əməklə zehni əmək, zehni əməklə birləşmiş hissi əmək rəqabət aparır. İndi dünyada idmanın və şou-biznesin gəlirləri milyardlarla ölçülür. *Hissi əmək işçinin təkrar əməyə hazırlanmasında xüsusi rol oynayaraq əmək məhsuldarlığının və effektivliyin artmasında iştirak edir.* Qeyd edim ki, hissi əməyin tarixi inkişafı iki yolla getmişdir. Birinci yol – *əyləncə bazarının* yaradılması yoludur. Əyləncə iqtisadiyyatı insanları siyasətdən və ictimai həyatdan kənarda saxlamaq, onları mə-

nəvi deqredasiyaya məruz qoymaq və zəhmətsiz gəlir əldə etmək məqsədi daşımışdır. Belə «əyləncə əmək» həm iqtisadiyyata, həm də demokratiyaya, o cümlədən, şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. C.Corc bununla bağlı yazır: «Müharibədən sonrakı «əyləncə sənayesinin» yaranması və onunla manipulyasiya etmək imkanı antikapitalistdir və demokratik potensialı dəyərsizləşdirir». Ona görə də inkişaf etmiş sivil cəmiyyətlərdə hissi əməyin əyləncə formasının qarşısı alınır. Hissi əməyin digər inkişaf yolu isə – işçi qüvvəsinin məhsuldarlığına və işin effektivliyinə müsbət təsir edən, kapitalist iqtisadiyyatının qanunlarına tabe olan və insanlarda yeni ruh tərbiyə etməklə, onları demokratiyaya hazırlamaqda xüsusi rol oynayan – *psixologiyaziya supersənayesinin* inkişaf yoludur. Modern iqtisadiyyatda ucuz əyləncə sənayesi öz yerini hissi istehsal sahəsinə verir. Artıq ucuz əyləncə yerləri iş yerləri kimi öz aktuallığını itirir. Bununla da əyləncənin cəmiyyətin inkişafına mənfi təsiri aradan qaldırılır.

Modern iqtisadiyyatda yalnız əmək və işçi müvəqqəti deyil, həm də *məhsulun yararlığı* da müvəqqəti xarakter daşıyır. Belə ki, daimi, uzun müddətli kütləvi istehlak üçün nəzərdə tutulmuş məhsul *birdəfəlik və individual istehlak malları* ilə əvəzlənir. Birdəfəlik məhsul istehsalı isə insanı daha bir iqtisadi asılılıqdan – məişətin və əşyaların asılılığından xilas edir. E.Töffler yazır: «Şeylər bizim varislik və ya onlardan qopma hisslərimizə təsir edir. Onların situasiyalarda öz rolu var və bizim şeylərə münasibətimizin dərəcəsi həyatın gedişini sürətləndirir. Bizim şeylərə münasibətimiz əsas dəyər kriteriyalarını əks etdirir…daimiliyə əsaslanan cəmiyyətlə müvəqqətiliyə əsaslanan sürətli formalaşan cəmiyyət arasındakı fərqə müxtəlif yanaşma tələb olunur…birdəfəlik istifadə insanın şeylə əlaqəsinin davamlılığını qısaldır». İnsanın şeylə asılılığının aradan qalxması həm də *kirayə sisteminin* yaranması ilə mümkün olur. E.Tötflerə görə, «kirayə sisteminin inkişafı insanı *mülkiyyətin ağırlığından* azad edir və ona enerjisini başqa səmtə yönəltməyə imkan verir». Beləliklə, modern iqtisadiyyatda kapitalist iqtisadiyyatından fərqli mülkiyyət öz hakim mövqeyini itirir. Bununla da cəmiyyətdə gərginlik yaradan mülkiyyət uğrunda mübarizə və bundan doğan nəti-

cələr zəifləyir. Mülkiyyətin rolunun azalması da insanın azadlığına xidmət edir. U.Ceyms bununla bağlı yazır: «Mülkiyyət əldə etməyə cəhd edən insanlar iş görənlərdən və yaşamaq istəyənlərdən daha az azaddırlar».

Modern iqtisadiyyatda investisiya da muzdlu əmək cəmiyyətindən fərqli vəzifələr yerinə yetirir. Muzdlu əmək cəmiyyəti məşğulluğun artmasından böyüyür. Modern iqtisadiyyatda investisiya daha çox mövcud sahələrin müasirləşməsinə xidmət edir. Modern iqtisadiyyatda hərəkətverici güc texnika və texnologiyadır. Texnoloji dəyişikliklər ildırım sürəti ilə işsizliklə yanaşı cəmiyyətin sosial-iqtisadi strukturunu da dəyişdirir.

Haşiyə: Modernləşmə *qlobalizasiya* prosesini qaçılmaz edir və özü də qlobalizasiyanın əlamətlərindən biri kimi meydana çıxır. Dünya pulunun yaranması qlobalizasiya prosesini xeyli sürətləndirir. E.Töffler də təsdiq edir ki, pulun məkanı zəbt etmək qabiliyyəti var və buna görə də qlobal iqtisadiyyata təsir edir. Beləliklə, biz «hər hansı bir ölkədə ayrılıqda iqtisadi modernləşməni həyata keçirmək mümkündürmü» sualı ilə üz-üzəyik. Bu sualın cavabını Marksın «Avropa Birləşmiş Ştatları» əsərindəki məntiqi ilə izah etmək olar. Vaxtilə Marks kapitalizmdən sosializmə keçid üçün maddi texniki bazanın vacibliyini qeyd edirdi və buna görə haqlı olaraq belə hesab edirdi ki, yalnız ən inkişaf etmiş və bir neçə ölkə birlikdə sosializmə keçə bilər. Eyni ilə *modernləşmə də inkişaf etmiş sənaye cəmiyyətində, həm də paralel, bir neçəsində eyni vaxtda həyata keçirilə bilər.* Müasir inkişaf etmiş Avropanın sənaye ölkələrində modernləşmə məhz belə həyata keçirilmişdir. Buradan da modern iqtisadiyyatın yalnız qlobal dünya iqtisadiyyatı ilə sıx əlaqələnməsindən və güclü bazar iqtisadiyyatı formalaşdırdıqdan sonra reallaşdırıla biləcəyini deyə bilərik. Qlobal inkişaf isə öz növbəsində özündə paralel olaraq iqtisadi, siyasi, mədəni, sosial institutların yenidən qurulmasını tələb edir. Buna görə də neçə ki, siyasətdə iqtisadiyyatın inkişaf istiqamətinə zidd proseslər gedir, heç bir nəticə əldə etmək olmaz. Əslində postsovet respublikalarında *mimetuk modelə* – sənaye cəmiyyətlərinin getdiyi yoldan imtina modelinə – üstünlük verildiyindən və sənaye cəmiyyətinə keçmədən onun yeni mərhələsi olan modernləş-

məyə keçmək mümkün olmadığından, iqtidarların modernləşmə ilə bağlı ideyaları boş konstruksiyaya çevrilir. F.Brodel də təsdiq edir ki, ««üçüncü dünya» yalnız dünya düzənini dağıtmadan proqresivləşə bilər». Postsovet respublikalarının öz milli yoluna üstünlük verməsi dünya düzəninə zidd olduğundan, həm də müasir dünya düzəni bu ölkələrin iqtisadiyyatının ayrılıqda modernəşməsinə imkan verməyəcək.

Qeyd edim ki, modernləşmə iqtisadi inkişafın məqsədi yox, onun başlanğıc səbəbi və ya vasitəsi ola bilər. Nümunə üçün Fransa iqtisadiyyatını götürək. II Dünya müharibəsindən sonra Fransa iqtisadiyyatının dirçəldilməsi məqsədi ilə bir-birinin ardınca altı plan həyata keçirilmişdir. 1947-1953-cü illərdə modernləşmə və təchizat, 1954-1957-ci illərdə keyfiyyətin yüksəldilməsi, elmi tədqiqatlara həvəsləndirmə, yüngül sənayenin inkişafı, 1958-1961-ci illərdə proteksionizmdən və regional inkişafdan imtina, 1962-1965-ci illərdə koloniyal imperiyanın dağıdılması və ondan sonrakı dövrdə xüsusi kapitalın konsentrasiya və mərkəzləşmə planı və hər yerdə bazar şəraitinin yaradılması. Fransız təcrübəsindən göründüyü kimi, modernləşmə iqtisadi inkişafdan sonrakı yox, əksinə, iqtisadi inkişafa qədər həyata keçirilməsi zəruri olan islahat kimi çıxış edir. Əgər hər hansı bir ölkədə modernləşmə olmadan iqtisadi inkişafa nail olunubsa, onda modernləşmənin nə kimi əhəmiyyəti ola bilər?

Haşiyə: Uzun illər Qərb ölkələri, o cümlədən ABŞ geridə qalmış ölkələrin iqtisadiyyatını modernləşdirmək üçün çox nəhəng maliyyə vəsaitləri xərcləmişlər. Lakin bu ölkələrdə nəinki iqtisadi artım baş verməyib və bu ölkələr vesternizasiyanı qəbul edib, əksinə, Qərbin belə yatırımları son nəticədə onun öz əleyhinə yönəlib. Bunun bariz nümunəsi kimi qonşu İran dövlətində baş verənləri göstərmək olar. İranda baş verənləri təhlil edən T.Betll yazır: «İran, xeyirxah niyyətli amerikalılara hər şeydən daha parlaq nümayiş etdirdi ki, ölkənin hüquqi və mədəni xüsusiyyətlərini araşdırmadan həyatı yaxşıya dəyişmək üçün dollardan istifadə etmək nə qədər təhlükəlidir. Amerika mətbuatı şahı proqressiv hökmdar kimi təsvir edirdi». Amma Qərbin köməyi ilə İran şahının həyata keçirmək istədiyi modernləşmə siyasəti nəticəsində İranda elə özbaşınalıq başladı ki,

1976-cı ildə İrandakı bütün xarici kənd təsərrüfat korporasiyaları özlərini müflis elan etdi. Bundan bir qədər sonra isə İran islam İnqilabı qələbə çaldı. Buradan da iqtisadi inkişafda siyasi institutların rolu xüsusi ilə diqqət mərkəzinə gəldi. Məhz bu siyasi modernləşmə ideyası ilə sıx bağlı məsələdir.

Qeyd edim ki, modernləşmənin digər bir forması - *ideoloji döyüşkən müasirlikdir*. İdeoloji döyüşkən müasirlik – daha çox özündə *siyasi modernləşməni* təqdim edir. İ.Vallerstaynın şərhindən göründüyü kimi, siyasi modernləşmə total-radikal anlamda *azadlıq, mahiyyətli demokratiya,* insanın *özünü reallaşdırması* kimi üç mühüm dəyişilməni özündə birləşdirir. Buna görə də siyasi modernləşmə vətəndaş cəmiyyətinin bərqərar olmasına gətirib çıxarır. Burada sosial institutlar və iqtisadi inkişaf arasında əlaqələrin aktuallığı önə çıxır.

Haşiyə: Əməyin və kapitalın istehsalda rolu məlumdur. Amma «əmək və kapital hansı halda daha effektiv ola bilər» sualının cavabında hamı eyni fikirdə deyil. Bir çox iqtisadçılar belə hesab edirlər ki, əmək və kapital öz mahiyyətini *institusional vakkumda* da saxlayır. Bu yanaşma əsasında geridə qalmış ölkələrdə müvafiq institutlar formalaşmadan nəhəng maliyyə yardımları edilir. Amma təcrübə göstərir ki, bu ölkələrdə ciddi iqtisadi inkişaf baş verməmişdir. Buradan da iqtisadi inkişafda siyasətin rolu önə çıxmışdır. T.Betll yazır: «Vaxtı gəldikcə Qərb dövlətlərinin xadimlərinə aydın olmuşdur ki, həm də siyasi ehtiyatlılıq lazımdır. Kapital, planlaşdırma və ekspert rəyləri kifayət etmir. Müəyyən edilmişdir ki, çatışmayan element demokratiyadır. Təcrübə göstərir ki, bəzi ölkələrdə səthi səsvermə olur və istənilən konstitusion rejim tam kifayət etmir». Bu gün Qərb ölkələrinin liderlərinin iqtisadiyyata prioritet verib, demokratiyanın boğulmasını görməməzliyə vurması nə ilə bağlıdır? Latın Amerikasının siyasi institutlarının araşdırması ilə məşğul olan Ernando de Soto «Başqa yol» adlı kitabında yazır: «Amerikan bazar sisteminin nailiyyətini və amerikalıların ölkənin idarə olunmasında effektiv iştirakını təmin edən institutlar 200 il bundan əvvəl yaradılmışdır. Bu proses tamamilə qeyd edilmədən keçmişdir və onun müddətini nəzərə alaraq amerikalılar bu institutların əhəmiyyətini anlamaq qabiliyyətini itirmişlər və onu özlərinin xarici siyasətinin hissəsi edə

bilməyiblər. Qərb öz təkamülünün çertyojlarını itirib». Bu gün post-sovet respublikalarında da mövcud institusional vakkumda Qərb investisiyası nəinki kapitalizmi inkişaf etdirmir, əksinə, vaxtilə İranda və Latın Amerikasında müşahidə olunmuş proseslərə təkan verir.

Özlüyündə vətəndaş cəmiyyəti institutları işləməyənlərdən təşkil olunduğundan əslində tam məşğulluq vətəndaş cəmiyyəti ilə əkslik təşkil edir. İqtisadi modernləşməni texnika və texnologiyanın tətbiqi ilə çoxlu sayda işçini əmək sahəsindən azad edərək vətəndaş cəmiyyətinə göndərir. Andre Qors «Əlvida proletar» adlı kitabında «muzdlu əməyin vətəndaş cəmiyyəti üzərində hakimiyyətini və əmək haqqı ödənən əmək tam iş günündə «azad» vətəndaş cəmiyyətinin əsasıdır» kimi ortodoksal fikirləri tənqid edərək demokratik cəmiyyətdə yeni əmək münasibətləri haqqında yazır: «Demokratik vətəndaş cəmiyyəti tam məşğulluğa əsaslana bilməz, hansı ki, digər ictimai-siyasi fəaliyyəti sıxışdırır…demokratiya tələb edir ki, hər bir adamın əmək bazarında dövri olaraq ora bir daha heç bir vaxt qayıda bilməmək riski olmadan çıxmaq hüququ olsun».

Haşiyə: Qeyd edim ki, modern iqtisadiyyatda *tam məşğulluq* anlayışı qəbul edilmir və cəmiyyətdə işsizlik bazar iqtisadiyyatından fərqli qaydada aradan qaldırılır. Modern iqtisadiyyatda dövlətlər tam məşğulluğa nail olmaq üçün dolayısı ilə prosesdə iştirak edirlər. Dövlət yalnız həmkarların kollektiv müqavilələrinin bağlanmasında iştirakını təmin edirlər və dövlət siyasətini hazırlayarkən vətəndaşların sosial ehtiyaclarını - təhsil, səhiyyə, nəqliyyat və s. öyrənir və həll etməklə məşğul olurlar. Müasir Avropada buna 20 il ərzində nail olunub. Modern iqtisadiyyatda işsizlərin işə qaytarılması heç bir siyasi qüvvənin vəzifəsinə daxil olmur. Hökumətin işsizliyi ləğv etmək problemi yaranmır və ümumiyyətlə, işsizlik, cəmiyyət problemi kimi meydana çıxmır. Əksinə, əmək sferasından çıxanlar *vətəndaş institutlarını* təşkil edirlər. Nümunə üçün qeyd edək ki, bu gün Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş minlərlə qeyri-hökumət təşkilatları vardır. Real olaraq hər bir təşkilat 10 nəfərlə öz fəaliyyətini qura bilirsə, yalnız qeyri-hökumət təşkilatları bununla on min nəfərə iş yeri açmış olur. Halbuki, elə qeyri-hökumət təşkilatları vardır ki, o yüzlərlə insanı öz fəaliyyətinə əməkdaş kimi cəlb edir. Digər

tərəfdən, vətəndaş cəmiyyəti xarici qrantlar əsasında fəaliyyət göstərdikdə ölkəyə əlavə vəsait cəlb etməklə milli çərçivədə maliyyə çatışmazlığından axsayan sahələri inkişaf etdirirlər. *Tam məşğulluq isə vətəndaş cəmiyyətini kadrsız qoyur*. Digər tərəfdən, ifrat etatizm dövlətin ona aid olmayan vəzifələri də öz üzərinə götürməsi ilə vətəndaş cəmiyyətini işsiz qoyur. Göründüyü kimi, *tam məşğulluq və etatizm modern ruha ziddir*. Bu gün postsovet iqtidarlar özlərinin ən böyük uğurlarından biri kimi məhz məşğulluq sahəsində əldə etdikləri nailiyyətləri göstərirlər ki, bu da onların modernləşmənin fəlsəfəsini mənimsəmədiklərini göstərir. Con Ouensom «Tam məşğulluqdan sonra» adlı kitabında yazır: «Tam məşğulluq diplomatik fikirlər doğurur və keçmiş dövrə nostalgiya və siyasi iradənin üstünlüyünə inamı bərpa edir». Tam məşğulluq *məqsədyönlülük* yaratmaqla totalitarizm yaradırsa, modern iqtisadiyyatda bundan fərqli olaraq, iş yerini itirmək qorxusu insanları idarə etmir. İnsan əməkdən, sözün həqiqi mənasında, asılılıqdan azad olur. Xüsusən totalitar cəmiyyətlərdə insanların iş yerlərini itirmək qorxusu onları öz hüquqlarından imtinasına və hakimiyyətdən total asılılığına gətirib çıxardığından, modern iqtisadiyyatda iş itirmək insan üçün təhdid vasitəsi rolu oynamır. Digər tərəfdən, modern iqtisadiyyat yeni texnologiya tələb etdiyindən və bu texnologiya işçiləri kütləvi şəkildə işin təşkilindən uzaqlaşdırdığından modernləşmə ilə məşğulluq biri-biri ilə ziddiyyət təşkil etmiş olur. Bununla bağlı Qorc belə hesab edir ki, «neotexnologiya ilə bağlı dövlətin tam məşğulluğu təmin etmək üçün siyasi proqramı öz imkanlarını itirib». Göründüyü kimi, *modernləşmə insanı hər şeydən öncə əməkdən və işdən və bununla da iqtidarın məqsədyönlülük siyasətindən azad edir.*

Tam məşğulluq siyasəti əslində dövlətin vətəndaş üzərində üstünlüyünü saxlamağa, onu hakimiyyətdən asılı vəziyyətdə saxlamağa xidmət edir. İqtidarlar məhz tam məşğulluqla məşğul olduqları qədər avtoritar idarəçilik yaratmağa müvəffəq olurlar. Məhz bu da öz növbəsində dövlətin yenidən vətəndaşın həyatına müdaxiləsinə yol açır. Beləliklə, *tam məşğulluq şüarı keçmişə qayıtma – totalitarizmin və siyasi hakimiyyətin yenidən hipertrofiyasına gətirib çıxarır.* Eyni ilə tam məşğulluğu təmin etmək istəyi totalitarizmə ke-

çidi müşayət edir. Modern cəmiyyət tam məşğulluğu təmin etməsə də, o bunun əvəzində yeni bir problemi – işsizliklə bağlı böhranın həllində yeni qeyri-ortodoksal ideyalar və strategiya hazırlamağı həll etməklə üz-üzə qalır.

Yuxarıda qeyd etdik ki, modern iqtisadiyyatda vaxt kapitalizmin iş vaxtı anlayışından fərqlənir. Hər şeydən əvvəl modern iqtisadiyyat gecə və gündüz həyatı arasındakı ənənəvi təbii bölgünü ləğv edir. Fasiləsiz əməyin təşkili çoxnövbəliliyi yaradır. Artıq bununla cəmiyyətdə iş yeri ümumi olaraq iki dəfə artır. İkinci, istehsaldan azad olmuş vaxt boş-boşuna yox, *«sivilizasiya istehsalına sərf olunur»*.

Unutmaq olmaz ki, modern iqtisadiyyatda zaman-zaman yenidən dövlətə ehtiyac yaranır. C.Kin vətəndaş cəmiyyətində dövlətin zəruriliyi haqqında yazır: «Vaxtdan maksimum azad istifadəni təmin edən yarımmərkəzləşdirilmiş və özünü idarə edən vətəndaş cəmiyyəti dövlət institutlarının iştirakı olmadan ötüşə bilmir…dövlətin zəruriliyi aşağıdakılardan qaynaqlanır; – a) *«ictimai zəruri» işləri* birdəfəlik və həmişəlik ləğv etmək mümkün olmadığından, bu işlər dövlət hakimiyyəti tələb edir; b) texniki vasitələrin verdiyi imkanlar effektiv olmadıqda *böyük dövlət müəssisəsi* yerinə yetirə bilər; v) *sosial konfliktləri tənzimləyən* institutlar kimi qalır; q) *vətəndaşlara azadlıq verməsinə* görə qalmalıdır». Beləliklə, modernləşmədə dövlət vətəndaş əlaqələri yeni müstəvidə qurulur. Bir tərəfdən dövlət fərdlərin öz azadlıqlarını aktuallaşdırdığı vətəndaş cəmiyyətinə yardım edir, digər tərəfdən ictimai zəruri işin təşkili, xüsusi sektorun öhdəsindən gələ bilmədiklərini görməklə, eyni zamanda konfiliktləri tənzimləməklə azadlığa və birbaşa fərdlərin azadlıqlarına xidmət edir. Bununla da dövlət modernləşmə üçün zəruri olan – vətəndaşların siyasi azadlığına yardımçı olur. İqtisadiyyatda yeni zonalar – *azad iqtisadi zona, binasional zonalar* yaranır. Başqa sözlə, modern iqtisadiyyat qlobal iqtisadiyyat keyfiyyətində meydana çıxır və özü ilə qlobalizasiyanın prinsiplərinin tətbiq edilməsini tələb edir. Siyasi zonalar iqtisadi zonaların tələblərinə uyğunlaşır, nəticədə *«bipatriotluq»* və ya *polipatriotluq* yaranır.

Modernləşmə özündə eyni zamanda paralel olaraq xalqın, şəxsiyyətin, cəmiyyətin suverenliyinə əsaslanmış, irqi ierarxiya və

ənənələrin zorakılığından azad, şəxsiyyət kultundan imtina etmiş, özü-özü üçün yaşayan fərdiyyətçilik cəmiyyətini meydana çıxarır. L.Lipovetski modernləşmə haqqında yazır: «Modernləşmə sekulyarizasiya prosesinin bir küncüdür…modernizm kontrastla, müxtəlifliklə antinomiyaya yer verən sosial və ideoloji məntiq nəticəsində yarana bilər». Siyasi həyatda modernizm azadlıq, bərabərlik və inqilabi ideyalara əsaslanır. Əslində incəsənətdə modernizm məsafə ölçüsünün ləğv edilməsinə xidmət etdiyindən, siyasətdə də göz ölçüsünün, imtiyazların və toxunulmazlıqların ləğv edilməsini tələb edir. Artıq bu gün mövcud olan hakimiyyətlərin xarici əlaqələrdə effektiv əməkdaşlıq siyasəti modernləşmə prosesində öz əhəmiyyətini itirir. İnduvidalizm o dərəcədə önə çıxır ki, dövlət nəinki fərdlə tərəf müqabili kimi çıxış etmir, əksinə, bir çox hallarda fərd dövlətdən daha üstün mövqeyə malik olur. Modernizmdən fərqli olaraq artıq postmodernizm bir az da irəli gedərək *siyasi ekstremizmə* yol açır.

Haşiyə: Siyasi modernləşmənin ciddi tələblərindən biri də «hamı dövlət» formulundan imtinadır. Modern siyasətdə fərdlə dövlət cavabdehliyi bölüşdürür. Artıq dövlət fərdin qarşısında birtərəfli xüsusi cavabdehlik daşımır, fərd də dövlətdən tam asılı olmur. Hər iki tərəfin sosial cavabdehliyi artır. Dövlət sadələşir, nəticədə *ierarxik pillə ixtisara düşür*, dövlət cəmiyyətdən ayrılır və Marksın dediyi kimi, «insanları idarə etməkdən istehsalı idarəetməyə» keçir, dövlət şəxsiyyət kultuna uyğunlaşır, başqa sözlə, hər bir adamın nazı ilə oynamağa məhkum olur. Modern cəmiyyətdə ya rəylər olmur, ya da demək olar ki, qohum rəylər olur. Otto Hinse modern dövrün siyasi həyatı ilə bağlı yazır: «Bizim dövrümüzdə təmsilçilik sistemləri dövlət idarəçiliyinin respublika forması ilə asossasiya edirlər. Başlanğıcda bu monarxiyaya, monarxa əks durmaq – dövlətin vahidliyini nümayiş etdirən, əyanlara xüsusi maraqları təqdim edən həmişə bir tam kimi çıxış edirlər. Bu dualizm təmsilçilik idarəçiliyinin əsasını təşkil edir». Modern dövrün siyasi həyatı həm «dövlət» və «cəmiyyət», həm də insan maraqlarının birliyi və müxtəlifliyinin əksliyi kimi çıxış edir. Burada birlik – milli maraqları, müxtəliflik – qrup və şəxsi maraqları ifadə edir.

Siyasi modernləşmədə siyasi sferada dövlətlə vətəndaş arasında əlaqələr tamamilə fərqli qurulur. Əgər kapitalizmdə insanlar iş yerlərindən, iş yerləri isə dövlətdən asılıdırsa, artıq modern cəmiyyətdə bu asılılıq öz mərkəzini dəyişir. E.Töfflerə görə, «yeni iqtisadi reallıqlar hakimiyyət münasibətlərinin mövcud olduğu köhnə sərhədlərə uyğun gəlmir…indi insanlar sosial strukturlar qarşısında yox, mobil strukturlar qarşısında (korporasiyalar, həmkarlar, dostluq cəmiyyəti və s.) qarşısında öhdəlik hiss edir». Başqa sözlə, müstəqil dövlətlərin vətəndaşları onlara iş yeri təklif edən «transmilli şirkətlərin vətəndaşları»na çevrilirlər. Dövlətin vətəndaş qarşısında götürdüyü bir çox öhdəliklər bununla korporasiyalara keçir. Dövlət durmadan sadələşir və hakimiyyət daha az səlahiyyətə malik olur.

Hər bir dövlət öz *həyat tempinə* uyğun təşkilatların yaranmasını tələb etdiyindən, modernləşməyə daxil olan təşkilatların inkişaf tempi özündən əvvəlkilərdən qat-qat sürətlənir. Nəticədə fərdlər təşkilatlara bağlılıqdan azad olur. Siyasi modernləşmənin nəticələrini ümumiləşdirərək deyə bilərik ki, modern cəmiyyətdə *fərd dünya dövlətinin vətəndaşına çevrilir və insanlığın – Yeni Humanizmin daşıyıcısı kimi çıxış edir*. Modernləşməyə əl atmaqla milli dövlətlər özlərini artıq elan etmiş olur.

Haşiyə: Bir neçə kəlmə də iqtisadi modernləşmənin ziyanları barəsində. Qeyd etmək lazımdır ki, modernləşmə ideyası heç də yeni bir ideya deyil və bir çox ideyalar kimi Qərbdə meydana çıxmışdır. Ona görə də bu ideyanı elə qərblilərin nöqteyi-nəzərindən dəyərləndirmək düzgün olardı. Birincisi, artıq bu ideya bəzi Qərb ölkələrində reallaşdırılmış, mümkün xeyirini verərək, öz yerini postmodernə buraxmışdır və həmin ideyanın postsovet respublikalarında da eyni effekt verəcəyinin heç bir elmi və təcrübi əsası yoxdur. Buna görə də iqtidarların bu ideyanı strateji istiqamətləri kimi seçmələrini rasional hesab etmək olmaz. Məşhur İngilis filosofu Uaythed «İdeyaların macəraları» adlı əsərində bir ərazidə və ya tarixin müəyyən dövründə qələbə çalmış ideyaların sonradan başqa ərazilərdə və zamanlarda yenidən gündəmə gətirilməsinin yanlış olduğunu qeyd etmiş və bu cür ideyaları – *avara ideyalar* adlandırmış, belə ideyaların bir daha təkrar xeyir verməyəcəyini bildirmişdi.

Eyni fikri bölüşdürən C.Kin «Demokratiya və vətəndaş cəmiyyəti» adlı kitabında yazır: «Öz həqiqətlərinin gücünü qurtardıqdan sonra hər bir ideologiya təsadüflərin hakimiyyətindən qaçmağa və dünya üzrə hərəkət edərək qarşısına çıxanı məhv etməyə cəhd edir». Qeyd etməliyəm ki, iqtisadi modernləşmə ideyası da eyni ilə «öz həqiqətinin gücünü qurtaran» belə «avara» ideyalardandır və çox güman ki, bu ideya postsovet respublikalarında həyata keçiriləcəyi təqdirdə «qarşısına çıxan hər şeyi məhv etmək» təhlükəsi yaradacaq. İkincisi, kapitalizmin tarixi təcrübəsi göstərir ki, *milli iqtisadiyyat çərçivəsində* həyata keçirilən iqtisadi modernləşmə ziyanlı olmuşdur. E.Hobsbaum «Kapital əsri» adlı kitabında modernləşmə haqqında yazır: «Cəmiyyəti təşkilati modernləşmənin köməyi ilə birləşdirmək cəhdi müvəffəqiyyətsizliyə uğrayıb, buna görə də iqtisadi müstəqillikdə dəstək tapa bilməz». Qeyd etmək lazımdır ki, *eləcə də iqtisadi modernləşmə öz növbəsində siyasi müstəqillikdə dəstək tapa bilməz.* Çünki bu, *yeni müstəmləkəçiliyə* aparır. Vaxtilə Avropanın bütün müstəmləkələri də məhz bu prinsiplə meydana çıxmışdır. Avropa dövlətlərinin müstəmləkəçilik siyasətini şərh edən Adam Smit «Xalqların sərvətinin səbəbləri və təbiəti haqqında tədqiqatlar» adlı məşhur əsərində Avropanın müstəmləkəçilik siyasəti ilə bağlı yazır: «Sivil millətlərin geniş ölkələri əhatə edən müstəmləkələrində yerli əhali elə seyrək məskunlaşır ki, onlar asanlıqla öz yerlərini yeni gələnlərə verir, gəlmələr isə sərvət və güc yolu ilə cəmiyyətin digər üzvlərindən daha sürətlə hərəkət edirlər. Müstəmləkəçilər özləri ilə vəhşi və varvar xalqların arasında əsrlər boyu müstəqil inkişaf edəcək bilgilərdən üstün olan kənd təsərrüfatı bilgilərini, başqa xeyirli peşələri, həmçinin öz ölkələrində mövcud olan davamlı hakimiyyət haqqında təsəvvürləri, tabe olmaq adəti, onu müdafiə edən qanunlar və mütəmadi həyata keçirilən ədliyyə sistemi gətirirlər. Amma vəhşi və varvar xalqlarda onların müdafiəsi üçün zəruri ölçüdə qanun və hakimiyyət müəyyənləşəndən sonra təbii inkişaf peşələrin inkişafından daha zəif inkişaf edir». Beləliklə, nəzərə alsaq ki, postsovet respublikaları öz daxili potensialları ilə iqtisadi modernləşmə həyata keçirə bilməyəcək, onda onlar Avropadan yeni texnika və texnologiya idxal etməklə iqtisadi modernləşməyə

başlamalı olacaq. Nəzərə alsaq ki, bu ölkələrdə siyasiləşmə iqtisadi inkişafdan sonrakı mərhələyə saxlanılır yeni texnika və texnologiyadan istifadə edəcək yerli mütəxəssislər yox dərəcəsindədir, onda yerli mütəxəssislər öz yerlərini yeni gələnlərə verməli olacaq və bu ölkələrin vətəndaşlarının ümumi inkişafı iqtisadi inkişafdan kifayət qədər geri qalacaq, onda bu qaçılmaz olaraq postsovet respublikalarını yeni müstəmləkəçiliyə gətirib çıxaracaqdır. Artıq biz bunun ilk əlamətlərini görməkdəyik. Belə ki, «Əsrin kontraktı» əsasında Azərbaycanın təbii sərvətlərinin istismarına, zəruri siyasi inkişafa nail olmadan, xarici şirkətlər buraxılmış və Azərbaycan neft sənayesinin modernləşməsi nəticəsində yeni texnika və texnologiyanı istimar etmək üçün dünyanın müxtəlif ölkələrindən 10 minlərlə mütəxəssis Azərbaycana gətirilmişdir. Bunun əvəzində yerli mütəxəssislər bu sahədən uzaqlaşdırılmışdır. Neft sənayesində gəlmələrlə yerlilər arasında münasibətlər haqqında KİV-də zaman-zaman çap olunan məlumatlar bir daha göstərir ki, bu münasibətlər məhz klassik müstəmləkəçilik münasibətləridir. Belə ki, yerlilərlə xaricilərin əmək haqlarındakı fərq, hətta onların yeməkxanalarının bir-birindən ayrılması, gəlmələrin Azərbaycan dövlətinin ənənə və atributlarına aşkar hörmətsizliyi, gəlmələrin yerlilərlə qeyri-insani rəftarı, o cümlədən zorakılıq hərəkətləri 200 il bundan qabaq avropalıların müstəmləkəyə çevirdiyi ölkələrdəki davranışları ilə eynidir. Üçüncüsü, iqtisadi modernləşmə qlobalizasiyanı müşayət etdiyindən, qlobal dövlətlər sistemində dövlətlər qarşılıqlı təsir edərək bir-birini dəyişdirir. Beləliklə, S.Lemin təbirincə desək, «istənilən sivilizasiya cəmiyyətin cəhd etdiyindən və heç kəsin düşünmədiklərindən ibarət olduğundan» iqtidarların cəhd etmək istədiyi iqtisadiyyatın modernləşdirilməsi onların və heç kəsin düşünmədiyi nəticələr verəcək. Bu nəticələrin sırasına postsovet respublikalarının müstəqil unitar dövlət kimi tarix səhnəsindən çıxması da daxildir. Dördüncüsü, cəmiyyət həyatının *birtərəfli cari modernləşməsi* xüsusi ilə təhlükəlidir. Belə ki, iqtisadiyyatda baş verən modernləşmə siyasətin dəyişilməsini tələb və məcbur edir. Qeyd etmək lazımdır ki, modernləşmədə sosial və siyasi sferalar arasında köhnə ilə yeni arasında baş verən inqilabi dağıdıcılığı işə salır. E.Töffler cə-

miyyətlə iqtisadiyyatın əlaqəsi haqqında yazır: «Proqressiv iqtisadiyyat – proqressiv cəmiyyət tələb edir, istənilən iqtisadiyyat hər şeydən öncə onu yaradan cəmiyyətin məhsuludur və onun əsas institutlarından asılıdır…əgər ölkədə iqtisadi tərəqqini sürətləndirmək mümkün olacaqsa, amma əsas institutlar geri qalacaqsa, bu dissonans milli sərvətin yaranması imkanını məhdudlaşdıracaq». Bunu Töffler «*uyğunluq qanunu*» adlandırır. Uyğunluğun əsas problemi ictimai və siyasi sferalar arasında dəyişilmə tempinin müxtəlifliyidir. Yəni cəmiyyəti təşkil edən sosial institutlar ölçülərindən, yaranma tarixindən, ardıcıllığından və funksiyalarından asılı olaraq fərqli inkişaf edir. E.Töffler «İnqilabi sərvət» adlı kitabında ABŞ-da ayrı-ayrı sosial institutların dəyişilmə tempinin şərti sürətini belə müəyyənləşdirir. Tutaq ki, yüz faizli şkala əsasında inkişaf gedirsə, ABŞ-da biznes saatda 100 km, vətəndaş cəmiyyəti 90 km, ailə 60 km, həmkarlar 30 km, hökumət və qanunvericlik 25 km, təhsil 10 km, qlobal rəhbərlik 5 km, siyasi strukturlar 3 km, hüquq 1 km sürətlə hərəkət edir. Nəticədə bu sahələr arasında *asinxronluq* yaranır. Fərd bütün bu sferalarda paralel iştirak etdiyindən, fərdi həyatda da asinxronluq baş verir. Belə asinxronluq isə ciddi problemlər yaradır və bir sahənin geri qalması başqasının inkişafına imkan vermir. Fərdi inkişafın ayrı-ayrı sahələrdəki asinxronluğu qaçılmaz olaraq onu rejimlə ziddiyyətə gətirir və son nəticədə bu sosial qarşıdurmalar və gərginliklərlə müşayət olunur. Bunu biz digər inkişaf xətlərində də görürük. Belə ki, dünya təcrübəsi göstərir ki, feodalizasiya sənaye cəmiyyətinin yaranmasına imkan vermir və bu gün Yaxın Şərq və bəzi Asiya, Afrika ölkələrində baş verənlər buna əyani sübutdur. Elə postsovet məkanında da gedən feodalizasiya nəinki modern iqtisadiyyata, heç klassik bazar iqtisadiyyatına keçidə imkan verməyəcək. Beşincisi, modern iqtisadiyyatın klassik kapitalist iqtisadiyyatından digər bir fərqi modern iqtisadiyyatda *siyasi iradənin* rol oynamamasıdır. Belə ki, modern iqtisadiyyatda korporasiyaların həyatı və ölümü *elmi innovasiyalardan* asılı olur. Yeniliklərin meydana çıxması modern iqtisadiyyatda ciddi dalğalanmaya səbəb olur və bu zaman siyasi iradə heç bir təsirli rol oynamır. İqtisadiyyat isə cari modernləşmənin yaratdığı dalğalardan çökmə riski altına

düşür. Altıncısı, yuxarıda da qeyd etdik ki, cari müasirlik – modern iqtisadiyyat yüksək *nonotexnologiyaya* əsaslanır. İqtisadiyyatda yeni texnologiyaların tətbiqi texnoloji cəmiyyətin – *texnotron cəmiyyətin* yaradılmasının əsasını qoyur. Artıq Qərb sosiologiyasında texnoloji cəmiyyətin problemləri elmi şəkildə öyrənilməkdədir. Qeyd edim ki, bizdən öncə modernləşməyə əl atmış Qərb ölkələri bunun çox ağır nəticələri ilə üz-üzə qalıb. E.Fromm «Ümidlərin inqilabı» adlı əsərində yazır: «Texnotron cəmiyyət gələcəyin cəmiyyəti ola bilər, amma onun vaxtı hələ gəlməyib. Onun inkişafı üçün zəmin artıq var, amma hələ çox adam onun təhlükəsini dərk etməyib». Froma görə, yeni texnoloji müasirləşmə insanlara çox ciddi təsir edərək onlarda ağır fiziki və ruhi pozğunluqlar yaradır. Bunların sırasına o insanın homo consumensə – total istehlakçıya – faydasız insana çevrilməsini, *inertliyi, özünü cəmiyyətdən yadlaşdırmağını, konformizmə məruz qalmanı,* ağılla emosiyaların arasında qopmanın *xroniki şizofreniyaya* səbəb olmasını, xüsusi sferanın və fərdi insani *kontaktların itməsini* göstərir. Qeyd etmək lazımdır ki, yalnız yeni texnologiya yox, həm də bu texnologiyanın yeni məhsulları da istehlakçılara ağır fiziki və ruhi zərbələr vurur. Artıq bu gün bizdə dəbdə olan genetikası dəyişdirilmiş məhsulların istehlakı Qərbdə qadağan edilməkdədir. İndi yeni dərman preparatlarının sağalmaqdan daha çox yeni xəstəliklər yaratması məlum olur. E.Fromm yeni texnoloji cəmiyyəti – cari müasirləşməyə məruz qalmış cəmiyyətin – ən böyük bəlası kimi *humanistsizləşməni* qeyd edir. Yeddincisi, iqtisadiyyatın modernləşməsi *texniki inqilablar* tələb edir, hansı ki, bunsuz modernləşməni həyata keçirmək mümkün olmaz. Burada digər bir problem inqilabi proseslərin proqnozlaşdırılmasının mümkün olmamasıdır. İqtisadiyyatın tarixində insanlıq eyni problemlə – sənayeləşmə inqilabı zamanı da üz-üzə gəlmişdir. Beləliklə də kapitalizmin inkişafında müstəsna rol oynamış sənaye inqilabının təbiətindən çıxış edib, elmi-texniki inqilabın mahiyyətinə aydınlıq gətirmək mümkündür. Fillis Din yazır: «Sənaye inqilabını kortəbii hadisə hesab etmək qəbul olunub. Heç bir hökumət genişlənmiş mürəkkəb sənayeləşmə prosesini «düşünülmüş planlaşdırmaq» imkanında deyil». Nəzərə alsaq ki, modernləşmə sənayeləşmədən daha mürək-

kəb prosesdir və mahiyyətcə proqnozlaşdırılmayan islahat kimi təzahür edir, onda iqtisadi modernləşmənin ölkəyə nə verəcəyini kimsə proqnozlaşdıra bilməz. Eyni ilə bu gün də kimsə iqtisadi modernləşməyə imkan verəcək elmi-texniki inqilabın düşünülmüş planlaşdırmasını həyata keçirmək imkanında deyil. İnqilabların proqnozlaşdırılmasının mümkünsüzlüyünün digər bir problemi onun başqa sahələrdə yaratdığı fəsadlarla bağlıdır. Artıq elmi şəkildə sübut olunub ki, texniki tərəqqi bioloji reqressiya ilə müşayət olunur. Beləliklə, iqtisadi modernləşmə özü ilə nəhəng bioloji problemlər gətirəcək. Con Daybolda görə, «indi yaşadığımız texniki inqilabın nəticələri əvvəlki hiss etdiyimiz hər hansı sosial dəyişilmələrdən daha dərin olacaq». Səkkizincisi, iqtisadiyyatın modernləşməsi həm də *dəyərlər sfrasında* dağıntı yaradır. Yeni texnologiya yalnız iqtisadiyyatı modernləşdirmir, həm də S.Lemin qeyd etdiyi kimi, «həyat səviyyəsinin sürətli dəyişilməsi müasir dünyada adətlərin və normaların homostatik sisteminin formalaşmasına təsir edən faktorlardır». İqtidarların Qərb əleyhinə tutarlı arqumenti Qərb cəmiyyətlərinin əxlaqının bu xalqların ənənəvi əxlaqına zidd olmasıdır. Məhz modernləşmə milli əxlaq sistemini kökündən dəyişdirərək onu «*Qərb əxlaqı*» ilə əvəzləməsini stimullaşdıracaq. Doqquzuncusu, modern iqtisadiyyatın hərəkətverici gücü olan texnika və texnologiya özünə xas şüur formasını – *texnokratik şüuru* meydana çıxarıb. C.Kinə görə, «texnokratik şüur – demokratiyanın hiyləgər və alçaq düşmənidir». Beləliklə, cari modernləşmə ilk növbədə demokratiyaya ciddi ziyan vurur. Əslində hissəvi cari modernləşmə bir sahənin inkişafına, digər sahənin geri qalmasına səbəb olaraq ictimai inkişafda *sinxronluğu və harmoniyanı* pozur. Nəticədə modernləşməyə məruz qalanlarla qalmayanlar arasında azadlıq fərqi yaranır. İstənilən qeyri-bərabərlik kimi *azadlıqda da qeyri-bərabərlik demokratiyanı zəiflədir.* Onuncusu, modernləşmənin hansı həcmdə həyata keçirilməsi də ciddi məsələdir və burada düzgün hesablama aparılmaması iqtisadi inkişafı dayandıra bilər. Artur Luis yazır: «Heç bir ölkə davranış manerasını öz institutları və texnikasını bir dəfəyə transformasiya edə bilməz – onda yığımın səviyyəsi artmasına görə – yavaş dəyişilmələr baş verir». On birincisi, əbədi

modernləşmə yeni sivilizasiyanın yaradılması, bu isə öz növbəsində cəmiyyətdən nəhəng yaradıcı ictimai güc tələb edir. Siyasətdə modernləşmə – demokratiyanın əsasını təşkil edən və qarşılıqlı fəaliyyətdə olan dövlətlə vətəndaş cəmiyyətinin, fərdlə siyasi qrupların, dövlət sferalarının bir-birindən ayrılması, hər birinin müstəqil və avtonom fəaliyyət göstərməsi ilə xarakterizə olunur. D.Bellə görə, «ideya və formalar ya qəbul edilən, ya da inkar ediləndir. Əvvəlki ideya və formalar özünə xas orijinallıqda doğulur». Beləliklə, siyasətdə cari modernləşmə *konsensusu vətəndaş həmrəyliyini* arxa plana keçirir, öndə «ya və ya» prinsipi hökm sürür. Heç kim heç kimlə razılaşmır. Əslində *siyasətdə hərtərəfli düşünülməmiş iqtisadi modernləşmə yeni növ anarxiyaya yol aça bilər*. On ikincisi, insanların hərəkətliliyi modern cəmiyyətdə digər bir yeni keyfiyyət *-ictimai münasibətlərin müvəqqətiliyi və qısalığını* şərtləndirir. Nəticədə ənənəvi «nuklear ailə» əlaqələri, milli köklə bağlılıq, nəhayət, milli mənlik şüuru arxa plana keçir. Modern fərd *kosmopolit* kimi çıxış edir. On üçüncüsü, qeyd etmək lazımdır ki, iqtisadi modernləşmə kökdən ayrılmanı, fundamental dəyişilmələri, nəhən dağıdıcılığı tələb etdiyindən, stabillik şəraitində həyata keçirilə bilməz, hansı ki, postsovet iqtidarlarının əsas məqsədi nəyin bahasına olursa, stabilliyi saxlamaqdır. İ.Vallerstayn da təsdiq edir ki, «suverenlik və siyasi dəyişilmələr – modernləşmə – hər ikisi partlayıcı gücə malikdir».

Qeyd etməliyəm ki, müasir inkişafın məntiqi tələb edir ki, cəmiyyətlər *əbədi modernləşmə naminə cari müasirlikdən imtina etsin.* Biz bunun zəruriliyini müasir qlobal böhranların əlaqəsində və ardıcıllığında görürük. Belə ki, qlobal iqtisadi böhrandan öncə bütün dünya kürəsəl istiləşmə kimi ekoloji böhranın təhlükələri ilə üzləşmişdir. Ekoloji böhranın səbəblərini araşdırarkən ilk növbədə diqqət son texnologiyalara cəmləşir. Ekoloji böhran öz arxasınca iqtisadi böhranı stimullaşdırmışdır. Artıq verilən proqnozlar belədir ki, dünya bu qlobal iqtisadi böhrandan tamamilə yeni siyasi dünya düzəni ilə çıxacaq, əks halda bəşəriyyət total məhv olmadan xilas ola bilməyəcək. İ.Vallerstayn «Dünya sistemlərinin analizi» adlı kitabında yazır: «Müasir dünya düzəni sona yaxınlaşır və 50 ilə yeni

dünya sistemi formalaşacaq». İndi yeni dünya düzəninin yeni modelləri müzakirə olunmaqdadır. Eyni qanunauyğunluq milli səviyyədə də özünü təsdiq edir. Buna görə də qəbul etmək lazımdır ki, postsovet respublikaları tezliklə mövcud düzəndən fərqli düzənə keçməsə, məhvə məhkumdur və çox güman ki, dünyanın bir parçası kimi xoşluqla bu yolu getməsələr, böyük itkilər bahasına onu getməyə məcbur olacaqlar. Bu ölkələrdə yeni düzən cari müasirləşmə ilə yox, yalnız ideoloji döyüşkən əbədi müasirləşmə – modernləşmə ilə mümkündür. Bəs həqiqətən postsovet respublikalarında daimi müasirləşmə xətti seçilibmi? Nəzəri təhlillər və siyasi reallıqlar bu sualın cavabında «yox!!» deyir.

NƏTİCƏ: Postsovet respublikalarının nümunəsi əsasında apardığımız təhlillərdən çıxış edərək neototalitarizmin anatomiyasını aşağıdakı kimi tezisləşdirmək olar:

- *neototalitarizm* – hakimiyyəti qeyri-legitim, mülkiyyəti qeyri-müəyyən, idarəetməsi zorakılığa əsaslanan, sakit, statik, dəyişilmələrdən sığortalanmış cəmiyyətlərin müasir formasıdır;

- *neototalitar dövlət* – beynəlxalq öhdəliklərin yerinə yetirilməsindən ardıcıl imtina edən, milli sərvətlərin kiçik bir qrupun əlində cəmləşdiyi, ictimai münasibətləri feodalizasiyaya məruz qalmış, traybalizm və tayfabazlığa əsaslanan, klassik dövlət funksiyasını yerinə yetirməyi bacarmayan, özünü beynəlxalq sferada «nadinc uşaq» kimi aparan, təbii resurslarına görə beynəlxalq əhəmiyyətlilik qazanmış avtoritar dövlət formasıdır;

- *neototalitar hakimiyyət* – destruktiv kult yaratmış, xalq qarşısında hesabatsız, administrativ funksiyaların icazə prinsipi ilə yerinə yetirildiyi, şəxsi iradənin kollektiv iradədən üstünlüyünə əsaslanan, ideyasız insanların hakimiyyət formasıdır;

- *neototalitar cəmiyyət* – yalnız rəsmi dövlət institutlarından təşkil olunmuş, atomlaşdırılmış fərdlərdən ibarət, hüquq və azadlıqlardan məhrum, hakimiyyətin məqsədyönlülük siyasəti ilə idarə olunan, kütlə psixologiyası ilə hərəkət edən, öz taleyinə laqeyd, total nəzarət altında saxlanılan insanların təşkil etdiyi cəmiyyətdir;

- *neototalitar insan* – eqoist və ya eqosentrik, bəşəri dəyərlərə və insan hüquqlarına laqeyd, nihilist, məhəllidünyagörüşlü, psevdod-

üşüncəli, passiv, nadan, praqmatik, maddiyatçı, fərdiyyətçi, «indi və burada» prinsipi ilə yaşayan, təlqin və şayiələrlə idarə olunan, özünü düşünən, yalnız indisi olan, keçmişdən dərs almayan, gələcəyə istiqamətlənməmiş, tarixilik hissindən məhrum, tənha, zəif sosiallıq keyfiyyətinə malik, köməksizlik kompleksi daşıyan, tabeçiliyə meylli, xarici təsir və təzyiqlərə müqavimətsiz, özünü kiçildən, bütpərəst fərddir.

MƏQALƏLƏR

AZADLIQ PROBLEMİ

«Azadlıq – elə gözəl sözdür ki, hətta o düz işlənilməsə də biz onsuz ötüşə bilmərik»
Hote

«Azadlıq – başqalarına verməyə hazır olmadıqca əldə edə bilməyəcəyiniz yeganə şeydir»
Ralf Epperson

Allahın insan üçün ən böyük lütfü ona heyvanlardan fərqli olaraq yaşam təcrübəsi qazanmaq şansını verməsidir. İnsan heyvandan fərqli olaraq konkret dəyərlərə söykənərək belə təcrübə qazana bilər. Heyvanlar bundan məhrumdur. Onlar yalnız irsiyyətlə müəyyən olunanları reallaşdırmaq haqqına malikdirlər. Azadlıq universal insanlıq dəyərləri sferasında ən mühümü və birincisidir. *Azadlığa can atmayan insan insanlıq adı daşımağa layiq deyil.* İnsan üçün Vətən, qeyrət, ləyaqət, şərəf kimi dəyərlər də azadlıqdan başlayır. Azad olmayanın vətəni, qeyrəti, şərəfi, ləyaqəti ola bilməz. Yaradan «Qurani-Kərim»də buyurur: «Mən sizi azad yaratdım. Siz özünüzü kölə etdiniz» «Mən fironu sıradan sizin kimi insan yaratdım, siz onu Allaha çevirdiniz». Deməli, *köləlik insanlığın şəxsi nailiyyətidir, azadlıq isə yaranışından ona verilmiş paydır.* İnsan azad olmadıqca nə şəxsiyyət kimi, nə xalq kimi, nə millət kimi, nə dövlət, nə də vətəndaş kimi mövcud ola bilməz. *Azadlıq insanlığın qapısıdır. Ondan keçmədən insan olmaq olmaz.*

Biz nə üçün azad ola bilmirik? Hər şeydən əvvəl ona görə ki, biz azadlığın nə olduğunu bilmirik. Bizim onun haqqında ya məlumatımız yoxdur, ya bu məlumatlar yarımçıqdır, ya da bu məlumatlar təhrif olunmuş formadadır. Unutmaq olmaz ki, azadlıq *şüurun*

vəziyyətindən yaranır. Həm də ona görə azad ola bilmirik ki, bizim hər birimizdə az qala özünəməxsus azadlıq bilgisi vardır. Biz yalnız azadlıq haqqında bilgisiz deyilik, həm də ümumiyyətlə az bilirik. Bizlərdən kimlərsə çox şey billə bilər, amma bizim bildiklərimizin çoxunun bilməyimizə ehtiyac yoxdur. *Bizim savadsızlığımız bilgilərimizin azlığından yox, bilməyimizin zəruri olduqlarını az bilməyimizdən qaynaqlanır.* Biz özümüzü lazım olmayan bilgilərlə yükləməklə vacib olan bilgiləri əldə edə bilmirik.

Biz öz *biliklənməmizə sponsorluq* edə bilmirik. Biz ən qiymətli şeyləri havayı əldə etməyə meyl edirik.

Bizim başqa xalqların azadlıq təcrübəsi haqqında bilgilərimiz də yox dərəcəsindədlir. Biz bilmirik ki, ABŞ-ın bu günkü azadlığı naminə 20 milyon insan öz həyatını qurban verib. Çox vaxt belə təcrübələri özümüz üçün yadlaşdırırıq və beləliklə, azadlığa da yad oluruq.

Bizim ümumiyyətlə, başqa dəyərlər haqqında da biliklərimiz çox azdır. Həm də azadlıq haqqında bilgilərimizə kömək edəcək əlavə bilgilərimiz də yoxdur.

Biz həm də kollektiv formada hamımız üçün eyni olan azadlıq bilgisinə malik deyilik. Biz azadlığın nə olduğunu bilməyə-bilməyə onu necə əldə edə bilərik?! Azadlıq onun haqqında ən elementar həqiqi bilgidən başlayır. Azadlığın nə olduğunu bilmədiyimizdən, onun uğrunda mübarizə aparanda bir qayda olaraq köləliyə xidmət edirik, necə ki, rusların köləliyindən xilas olmağa cəhd edərkən daha ağır şərtli köləlik yaratdıq. Azadlığın nə olduğunu bilmədiyimizdən köləliyi azadlıq adına alqışlayırıq. Azadlığı azadlıq naminə tapdalayırıq, azadlıq yolunu azadlıq adı ilə bağlayırıq. Biz azadlığın nə olduğunu bilmədiyimizdən, onu haradan, kimdən alacağımızı da bilmirik və çox vaxt başqa insanların da azadlığına qəsd edirik. *Biz köləlik məktəbində azadlıq dərsi alacağımıza inanırıq.* Azadlıq haqqında bilgilərimiz o qədər qarmaqarışıq və əhəmiyyətsizdir ki, çox vaxt «azadlıq boş şeydir» qənaətinə gəlirik. Biz köləliyi azadlıq adına qəbul edərək, azadlığa nifrət edirik. Biz özümüz azadlıq haqqında bilgilərin axtarışına çıxmırıq, başqalarının öyrəndiklərindən öyrənmək istəyirik. *Bizi öyrədənlərin bizə azadlıq adına köləlik dərsi keçdiklərinin fərqinə varmırıq.* Biz anarxiyanı, özbaşınalığı, ağalıq et-

məyi azadlıq kimi qavradığımızdan köləyik. Məsələn, biz bilmirik ki, söz azadlığı yalnız danışmaq azadlığı deyil, həm də *susmaq azadlığıdır.* Söz azadlığı həm də *ağıllı sözünü dinləmək azadlığıdır.* Unuduruq ki, *dinlənilməyən sözün azadlığı yoxdur.* Söz azadlığı həm də sözün özündə azadlığın daşıyıcısı, yayıcısı kimi çıxış etməsidir. Söz azadlığı həm də sözü başa düşmək azadlığıdır. Dinləyə bilmiriksə, başa düşə bilmiriksə, sözümüzdə azad ola bilmərik. Azadlığı köləliyin əksliyi kimi öyrənməliyik. Onda gərək köləliyin də nə olduğunu bilək. Əgər yalnız «azadlıq nədir» sualına cavab verə biliriksə, amma köləliyin nə olduğunu bilmiriksə, onda azad ola bilmərik. Azadlıq yalnız köləliklə azadlığın seçimində əldə edilə bilər. Azadlıq vəziyyəti insanı azad etmir. Başqaları da insanı azad edə bilməz. Azadlıq şəraitində kölə azadlıq səadətinə qovuşmur. Şərait insanı azad etmir, insan şəraiti azad edir. Biz azad olmağı bacarmırıq, çünki *azadlıq vərdişlərimiz* azdır. Tarixi ənənələrimiz kifayət qədər deyil və ya azadlıq üçün yararsızdır. Biz Babəkdən dindən azad olmağı, Koroğludan varlılardan azad olmağı öyrənmək istəyirik. Amma unuduruq ki, azadlıq nə dinlə, nə sərvətlə bağlı deyil. Biz Atilladan, Teymurləngdən, İldırım Bəyaziddən, Baburdan ilham alırıq. Amma unuduruq ki, onlar azadlıq problemini həll etməyi hədəf seçməmişdilər. Biz tarixdən tarixdə qalanları olduğu kimi mənimsəməyə cəhd edirik. Amma Atillanın, Teymurləngin, Bəyazidin, Baburun müasir atom və kompyuter əsrində hansı üsullarla, hansı sferada böyük fəthlər edəcəyini və bu dövrdə hansı işlərə üstünlük verəcəyini müəyyənləşdirə bilmirik. Bakı küçələrində «Mersedes» markalı maşında hərəkət edən Atilla nə düşünərdi, Teymurləng Qarabağı necə azad edərdi, Babur yenə də mühacirətə gedərkən Hindistanamı üstünlük verərdi? *Biz tarixdən azad ola bilmirik,* ona görə də vaxtın nəbzini tuta və onunla hərəkət edə bilmirik. Bizim azadlıq istedadımız yoxdur. Biz azadlığı daha çox əldə etmək, daha çox haqqa malik olmaq, istədiyini etmək, başqalarına hökm etmək kimi başa düşürük. Unuduruq ki, qul ağadan nə qədər asılıdırsa, ağa da quldan bir o qədər asılıdır. Çoban qoyunlarla bir yerdə yaşamağa məhkumdur. Qul qulu azad edə bilməz, yalnız ağa ilə qul birlikdə azad ola bilər. Spartak bir qul idi. Üsyan qaldırdı, qələbə çalmadı.

Amerikada quldarlığın ləğvində hərəkatın başında şimallı quldarlar dayanmışdı və qələbə quldarlığın ləğvi ilə başa çatdı. *Qulla ağanın həmrəyliyinə nail olmadan köləliyi ləğv etmək olmaz.* Qulların üsyanında yalnız bir ağanın yerinə başqası, bir kölənin yerinə başqası meydana gələ bilər. Biz özü kölə olandan azadlıq gözləyirik. Biz öz-özümüzün köləsiyik, biz öz şüurumuzun köləsiyik, *həyata necə baxırıqsa, həyat da bizə elə baxır.* Biz dünyaya qul gözü ilə baxanda, dünya da bizi qul edir.

Qorxmazların köləliyi?! Qorxaqların azadlığı!!

Azadlıq problemi fərddən qaynaqlanır və fərdin özü ilə bağlıdır. Azadlıq xarici yox, daxili mənəvi problemdir. Ona görə də azadlıqdan qaçışın, azadlıqdan imtinanın, köləliyin səbəblərini həm də mənəviyyatda axtarmaq düzgün olar. Bunu nəzərə alaraq azadlığı ilk növbədə öz mənəvi aləmimizdə əldə etməliyik, başqa sözlə, azadlığa ilk öncə özümüzdən başlamalıyıq. Özünü dəyişdirmək, özünə qarşı çıxmaq istər fəlsəfi, istərsə də əxlaq baxımından ən ciddi problemdir. Sokrat deyirdi: «Dünyanı yerindən tərpətmək istəyən insan, ilk öncə özünü yerindən tərpətməyi bacarmalıdır». «Qurani-Kərim»də də deyilir ki, «Biz öz halını dəyişməyə cəhd etməyənlərə kömək etmərik». Bu baxımdan biz yalnız *özümüzdən azad olduqdan sonra,* başqalarından azad ola bilərik. *Özünə kölə olan - hamının köləsidir.* Azadlıq fərdidir, fərdin azadlığı bütün azadlıqların rəhnidir. Bəs hansı fərdi keyfiyyətlər bilavasitə azadlıq üçün zəruridir?

İnsan yalnız şüurunun yox, həm də hislərinin köləsidir. İnsanı kölə və ya azad edən, onu insanlıqdan uzaqlaşdıran və ya insanlığa qovuşduran, onu özündə həbs edən və ya özündən azad edən iki mühüm hiss – qorxmazlıqla qorxaqlıq daim qarşılıqlı ziddiyyətdə və vəhdəddə mövcuddur.

Rasional qorxaqlıq azadlığa açılan qapı, irrasional qorxmazlıq kölənin qandalıdır.!

İrrasional qorxmazlıq heyvanlara, şizofreniklərə, iblis xislətli insanlara, o cümlədən, cinayətkarlara xas olan qorxmazlıqdır. Belə qorxmazlıq hər cür qorxu hissinin itməsi və ya başlanğıcdan qorxu

hissindən məhrum olmaqla bağlıdır. Belə qorxmazlıq insanı hətta kölə ola biləcəyi ilə də qorxutmur və insan irrasional qorxmazlığı sayəsində köləyə çevrilir.

Heyvanlar təbiətdə «azad»dırlar. Bu azadlıq insani azadlıqla əkslik təşkil edir və insan özünün heyvani təbiətindən uzaqlaşdıqca – təbii azadlıqdan imtina etdikcə, sosiallaşdıqca həqiqi azadlıqlar sferasına daxil olur. Heyvanların azadlığı iradəvi yox, instiktivdir. Maşınlar onları idarə edənlərdən asılı olduğu kimi, heyvanlar da instiklərlə eləcə idarə olunur və yalnız idarə edənlər azad olduğundan və *idarə olunanlarda azadlıq haqqı olmadığından, heyvanlarda azadlıq yoxdur.* Azadlıq seçim imkanı ilə bağlıdır. Köləlik öz iradəsini onu idarə edənlərə könüllü şəkildə verməyən insanın məcburi vəziyyətidir. Bundan fərqli olaraq öz iradəsini könüllü şəkildə digərinə vermək azadlığın əlamətidir. Heyvanların bir qayda olaraq əhilləşməyə müqavimət göstərməyi də bununla bağlıdır. Heç bir heyvanı istənilən səviyyədək əhliləşdirmək mümkün deyil. Heyvanların vəhşilşiyi də bundan qaynaqlanır. İnsan isə psixologiyanın plastikliyinə görə istənilən səviyyədə əhliləşdirilən varlıqdır və o, *heyvandan* Allaha qədər bütün varlıqların keyfiyyətinə yiyələnə bilir. *İnsan heyvan istiqamətində əhliləşəndə kölə, Allaha doğru əhliləşəndə azad olur.* Heyvanlar hətta instikləri seçmədə də azad deyil. Öz fərdi həyatları təhlükəyə düşəndə balalarını belə, qurban verməyə hazır olurlar. İnsanda hevani instinklər şüura tabe etdirilib və heyvanlardan fərqli onda əlavə «sosial instinktik» movcuddur. Sosial instinkt insanı sosiallaşmaya məcbur edən xüsusi insani təzahürdür və bu instinkt həm də azadlıq instinktidir. Təbiətdə hər bir heyvan ya ov, ya ovçudur və hər bir canlının öz qurbanı var. Heyvanlar qurban tələb edən varlıqlardır, özünə qurban tələb etmək, başqasına qurban getməklə əlaqələnib. Heyvanlardan fərqli olaraq *azad insan qurban tələb etmir, əksinə, özündən qurban verir* və insan cəmiyyət həyatında verdikləri qədər almaq haqqına malikdir. Ona görə də *insan başqalarına və cəmiyyətə nə qədər xeyir verirsə, onun müqabilində bir o qədər azadlıq əldə edir.* İnsanın özünü şüurlu qurban verməsi həm onun *azadlığı, həm də qəhrəmanlığıdır. Qəhrəmanlıq azadlığın zirvəsidir.* Heyvanlar heç vaxt qəhrəman ol-

mur. *İnsan da özünə qurban tələb edəndə heyvana çevrilir, kölələik heyvani vəziyyətdir.*

Şizofreniklərdə ağıl parçalandığından, kiçildiyindən onlarda təhlükəni hiss etməmək, stiuasiyanı düzgün dəyərləndirməmək, məqsədsiz fəaliyyət göstərmək, özü-özü ilə ziddiyyətə girmək və s. kimi keyfiyyətlər inkişaf edir. *Ağılsız cəsarət dəlilik, cəsarətsiz ağıl qorxaqlıqdır.* Ruhi xəstələr irreal aləmdə yaşadıqlarından ətraflarında baş verən hadisələrin mahiyyətinə vara bilmir, illüziyalardan, halsunasiyalardan (hal aparma) çıxış edirlər. Bəzi psixi normal insanlarda şizofrenik tip şüura rast gəlmək olur. Şizofreniklərə şüurun parçalanması, xaotik fəaliyyət, vasitə ilə məqsəd arasında əlaqənin olmaması və s. kimi keyfiyyətlər xarakterikdir. Şizofrenik tip şüura malik olan sağlam adamlar da qeyri-ardıcıl məntiqlə çox asanlıqla ağıllarının ucbatından və qorxmazlıqlarından köləliyə düşürlər. Belə kölələik əqli yanılmalardan yaranır. *Azadlıq-nizamlılığın, kölələik-xaotikliyin təzahürüdür.* Şizofreniklərin azadlığı xaotik olduğu qədər destruktivdir. Öz məqsədi olmayan, *başqasının məqsədinə xidmət edən insan şizofreniklər kimi kölə insandır.* İnsan edilməsi düzgün olanı könüllü edəndə və ya edilməsi düzgün olmayandan könüllü imtina edəndə azad olur. Şizofrenik tip insanların edilməsi düzgün olmayanı etməməyə iradələri çatmır. Hər şeyi etmək azadlığı həm dəlilik, həm də kölələikdir.

İblis şüuru şüurun formalarından biridir. Belə şüur yalnız şərə xidmət edir. Azadlıq xeyirin təzahürüdür, *xeyirə xidmət etməyən insan azad deyil.* Ona görə də iblis şüurlu insanlar kölədirlər. İblis şüuru daim düşmən axtarışındadır. Hamıya düşmən kimi baxır və hətta özü-özünə düşmən olur. Belələri mazoxistlər ordusunu təşkil edirlər. Özlərinə əzab verilməsində aktiv iştirak edirlər. Beləleri həm də başqalarının əsarətə salınmasına yardımçı olurlar. Heç bir heyvanda düşmənçilik hissi yoxdur. Qəhrəmanlıq kimi düşmənçilik də insana məxsusdur. Düşmənçilik köləliyin qaynaqlarından biridir. Şərin qəhrəmanları olan Hitler, Pol-pot, Pinoçet, Stalin və dünyanının irili-xırdalı «ümumilli lider»ləri iblis şüurunun daşıyıcılarıdır və onlar başqa insanlara, başqa xalqlara və bütün insanlığa düşmənçilik elan etmiş insanlardır. Onlar da dahidir, amma şərin xidmətçiləridir,

iblisdən ilham alanlardır. *İblisin nökərləri, insanların ağalarıdır.* Tarixə də buna görə düşürlər, bəşəriyyətin ibrət alması üçün.

Cinayətkarlar iblis şüuruna malik şərin əsgərləridir, onlar özlərini fərdi qaydada cəmiyyət qarşısında məsuliyyətdən, cavabdehlikdən, borcdan azad elan etmiş, edilməsi düzgün olmayanı etməyə şüurlu cəhd edənlərdir. Onların azadlığı başqalarının azadlığının inkarı üzərində qurulduğundan, *bir insan başqasının azadlığından aldığı qədər köləyə çevrildiyindən, cinayətkarlar da öz əməllərinin köləsidirlər.*

İnsan rasional qorxmazlıqla azad ola bilər. Rasional qorxmazlıq irrasional qorxmazlıqdan fərqli olaraq idrakın vəziyyətindən, insanın əqidəsindən, dünyagörüşündən, elmindən, əxlaqından və mədəniyyətindən qaynaqlanır. İnamdan doğan qorxmazlıq insan azadlığının başlıca şərtidir. İnsan biləndə ki, Allah yeganə və böyük gücdür və heç bir güc onunla müqayisə oluna bilməz, ölüm və həyat haqqında sərəncam vermək yalnız Allaha məxsusdur və biləndə ki, «*İnsan Allahdan qorxanda, heç nədən qorxmur, Allahdan qorxmayanda hər şeydən qorxur*», onda yalnız Allah qarşısında qorxu hissi ilə fəaliyyət göstərir. Belə insan ideal azad insandır. Elm özü də insanı qorxmaz edir. Alimin qorxmazlığı onun gücündən, sərvətindən, imkanlarından, imtiyazlarından yox, yalnız *həqiqətə yaxınlığından* doğur. Həqiqət yeganə güc olduğundan belə gücə malik insan qorxmaz olur. Buna görə də elm insanı köləlikdən azad edir. Elmsiz insan qeyri-müəyyən insandır. Qeyri-müəyyənlik insanın əzab çəkdiyi ən ağır vəziyyətidir. Köləlik qeyri-müəyyənlik vəziyyətidir. *İnsan müəyyənləşdikcə azadlığa qovuşur.* İdrak azadlığın yoludur. Yalnız bu yolla azadlığa çıxmaq olar. Mədəniyyət də öz növbəsində insanı qorxmaz edir, mədəniyyət xüsusi yaradıcı gücdür. Yaradıcı insan öz hakimiyyət əzmini yaratdıqlarına keçirən, yaradıcılıq prosesində başqasının iradəsini qəbul etməyən, dünyanı gözəlləşdirməyə cəhd edən insandır. *Gözəllik azadlıq duyğusu yaradır.* İbtidai insan mədəni olmadığından azad olmamışdır, onun üçün gözəllik anlayışı boş konstruksiya olmuşdur. Bütün tarixi dövrlərdə böyük mədəniyyətə malik xalqlar azad, zəif mədəniyyətə malik xalqlar kölə olub. Sveyk belə hesab edir ki, «Silahlı adam silahsızın ağasıdır». Məncə, mədə-

niyyətlə silahlanmış insan isə istənilən silahlıdan daha güclüdür.

Etikanın və fəlsəfənin ittiham etdiyi irrasional qorxaqlıq köləliyə, amma təqdir olunan özündə səbrliliyi, təmkinliyi ifadə edən rasional qorxaqlıq isə azadlığa xidmət edir. *İrrasional qorxu bütün insani naqisliklərin anasıdır.* İrrasional qorxaqlıq təbiət gücləri qarşısında acizlikdən, dərk edilməzlikdən, insan bədənin təlabatlarından və ehtiraslarından, başqa adamlarla düzgün olmayan ünsiyyətdən, əşyabazlıqdan meydana çıxır. İnsan təbiət sirrlərini öyrənmədikcə, təbiət güclərini idarə edə bilmədikcə, təbiətin quluna çevrilir. İnsan bədəni də təbiətin bir parçası olduğundan, o həm də öz bədəninin tələbatlarına, ehtiraslarına, ehtiyaclarına qul olur. İnsan öz içinə həbs olunur. *İnsanın arzuları, istəkləri, iddiaları imkanlarına uyğun gəlmədikdə, o, arzularının köləsinə çevrilir.* Vulkan, zəlzələ, sunami insanı necə vahiməyə salırsa, şəhvət, hərislik, malpərəstlik də insanı daim qorxuda – itirmək qorxusunda saxlayır. Maddi itirmək qorxusu - irrasional qorxudur. Həyatı itirmək, imtiyazları itirmək, mal-mülkünü itirmək, övladını itirmək qorxusu qarşısında insan geri çəkilir və o qədər geri çəkilir ki, köləliyin sərhəldlərinə ayaq basır. Böyük humanist Höte deyirdi ki, mən əşyalarımdan asılı olmadığım qədər azadam. Əşyalardan asılılıq əşyabazlıqdan doğur, amma *insan malik olduqlarının sahibkarına çevriləndə əşyanın köləsindən onun ağasına çevrilir,* başqa sözlə, əşyanın əsirinə çevrilən qul, əşyaya sahib olan isə azad olur. İnsan maddiyata tərəf getdikcə köləyə çevrilir, mənəviyyata tərəf getdikcə azad olur. İrrasional qorxu həm də başqaları qarşısında özünü kiçilməkdən, öz missiyasını dərk etməməkdən yaranır və insan «mən adi adamam, mən kiməm ki» düşüncələri altında köləyə çevrilir. İnsan başqaları qarşısında bəzən özünü inkara qədər kiçildir. *Mənliyi olmayanın mənəviyyatı da olmaz.* İnsan mənən böyüdükcə azad olur. Kiçiklik, zəiflik, köməksizlik, asılılıq yaradır. Heç bir körpə himayədarsız yaşaya bilmədiyi kimi, özünü aciz və kimsəsiz hesab edən insan da ağasız yaşaya bilməz.

İnsan rassional qorxaqlıqla azad olur. Rassional qorxu itirmək hissindən, *məsuliyyətdən, cavabdehlikdən, öhdəlikdən və borcdan* yaranır. İnsan namusunu, şərəfini, mənliyini, vicdanını, ləyaqəti-

ni itirməkdən qorxanda azad olmanın şərtlərindən birini də əldə etmiş olur. Cavabdehlik hissi də insanda rasional qorxu yaradır. İnamlı insanlar Allah qarşısında cavab vermək qorxusundan bütün pis əməllərdən imtina edir, xeyir işlər görməyə cəhd edirlər. Xeyir azadlığa xidmət etdiyindən, xeyirin daşıyıcıları öz əməlləri ilə azad olurlar. Hər bir insan öz xeyir əməlləri ilə insanlığa xidmət edir. İnsan yaradan tərəfindən vəzifələndirilmiş varlıqdır. Bu vəzifə onun insanlığa xidmət etməsi ilə şərtlənmişdir. İnsanın ayrı-ayrı fərdlər qarşısında cavabdeh olması onu köləyə çevirirsə, ailə, kollektiv, xalq cavabdehliyi onu azad edir. Rassional qorxaqlıq həm də *məsuliyyət hissindən* doğur, məsuliyyət hissi olmayan insan kölə insandır. Uşaqlar, dəlilər və heyvanlar hər cür məsuliyyətdən uzaqdırlar, ona görə də «qorxmaz»dırlar. İnsan fəaliyyətinin və imkanlarının başqalarına vura biləcəyi ziyan qarşısında məsuliyyət hiss etdikdə və bu məsuliyyət onu yalnız edilməsi düzgün olanları etməyə məcbur edəndə azad olur. İnsan öhdəlikli varlıqdır, o hər şeydən əvvəl onu yaradanın və ona *ruh verən* Allahın qarşısında öhdəlik götürür - *insan olmaq öhdəliyi.* İnsanın valideynləri qarşısında öhdəliyi var, ona *can verdiklərinə* görə. İnsanın cəmiyyət qarşısında öhdəliyi var – ona *hüquq verdiyinə* görə. Beləliklə, əsl insan, əsl vətəndaş kimi yaşamaq öhdəliyi olan insan azad insandır. İnsan həm də borcdan doğan qorxaqlıqla azad olur. Hər bir insanın öz xalqının adət-ənənələrini yaşatmaq, mədəniyyətini inkişaf etdirmək, ictimai rifaha xidmət etmək borcu var və insan borclu varlıq kimi yaradılmışdır. Ona ruh verdiyinə görə Allahına, can verdiyinə görə valideyninə, hüquq verdiyinə görə cəmiyyətə borcludur. Hər bir insan borcunu qaytara bilməmək qorxusu altında və borcunu qaytarmaq naminə yaşadıqda azad olur.

Tənhalıqda, təklikdə azadlıq yoxdur. Azadlıq kollektiv yaşam təcrübəsinin məhsuludur. Ona görə də heç bir insan təklikdə azad ola bilməz. Bir insanın azadlığı başqa bir insanın azadlığının rəhnidir. Başqasının azadlığına cəhd etməyən, yalnız özü azad olmağa cəhd edən azad ola bilməz. Ona görə də hər bir insan öz haqları ilə yanaşı başqalarının da haqqı uğrunda mübarizə aparanda azad olur.

Beləliklə, irrasional qorxmazlıqla irrasional qorxu birlikdə insanı kölə, rasional qorxmazlıqla rasional qorxu birlikdə azad edir. *Azadlığı itirmək qorxusu və azadlıq əldə etmək naminə qorxmazlıq nümayiş etdirən insanlar həqiqi azad insanlardır.*

Özünüdərk azadlığın rəhnidir

İnsan öz təbiəti etibarı ilə sinergetik varlıqdır. O, həm cismə, həm cana, həm də ruha məxsus keyfiyyətlər daşıdığından, insan azadlığı da sinergetik təbiətlidir. Azadlıq haqqında müxtəlif fikirlərin, hətta biri-birinə zidd fikirlərin meydana çıxması da insan azadlığının belə, təbiəti ilə izah edilə bilər. İnsanda cismə və cana məxsus *irrasional azadlıq meyli* və yalnız ruha məxsus *rasional azadlıq meyli* aşkar etmək olar.

Rasional azadlıq ruhun halıdır və yalnız özünü insan kimi dərk edən fərd rasional azadlıq haqqını qazanır. Hələ bizdən bir neçə min il bundan qabaq qədim yunanların məbədlərinin portalına yazdıqları «Ey insan! Özünü dərk et, özünü dərk etdikdə dünyanı və allahları da dərk etmiş olarsan» kəlamı çox düşündürücüdür. İnsanın özünüdərketməsi nəyə lazımdır və nə deməkdir? Və nə üçün insan özünü dərk etməklə Allahını da dərk edə bilər?! Doğrudanmı insanın mahiyyəti Allahın mahiyyəti ilə eynidir, yoxsa özünüdərketmək bilavasitə Allahı dərk etməkdən çətindir və ya Allahı dərk, özünü dərkdən keçir?! Bəlkə, Allah öz varlığının sirlərini insan təbiətinin ən dərin qatlarında yerləşdirmişdir?! Bəlkə də insan özünü dərk etdikcə addımbaaddım onu yaradanı da dərk edir? Bəlkə elə dərketmə prosesinin özündədir bu sirlər?! Məncə, Allah insanı bütün varlıqlardan fərqli yaradaraq, özünəməxsus bəzi sifətlərini ona vermişdir və özünüdərk prosesində insan həmin sifətlərin mahiyyətinə vardıqca Allahını da dərk etmiş olur. İnsan özünün və özü kimilərin Allahdan fərqli varlıq olduğunun fərqinə varanda yer «bütlər»inin ağalığından azad olur, özü kimilərindən birini Allah elan etməkdən çəkinir, Allahlıq iddiasına düşənlərlə barışmır. Allah «mən özüm yaratmaq istədim, yaratdım»; «mən sizi hürr yaratdım» deyir. Bu o deməkdir ki, Allahın ən mühüm sifətlərindən

biri Azadlıqdır. İstəməkdə azadlıq, yaratmaqda azadlıq, məhv etməkdə azadlıq. Ona görə də həyat və ölümün yeganə sərəncamçısı da Allah özüdür. Allah bütün varlıqların üzərində Ali suverendir. *Suverenlik azadlıq hüququdur.* Bu baxımdan İlahi sifətləri özündə yaşada bilən, fəaliyyətində suveren olan – faili – muxtar insan azad insandır.

Allahın ədaləti bütün yaratdıqlarına azadlıq verməsində özünü göstərir. Cisimlərin və heyvanların azadlığı təbii-irrasional azadlıqdır. Təbiətdəki cansız varlıqlar cisim kimi mövcuddur. Cismin mövcudluq üsulu öz nəsnəsi ilə bağlıdır. Ona görə də bütün cisimlərin daxili gücləri yalnız öz nəsnəsini saxlamağa istiqamətlənmişdir. Onun mövcudluğu ətalətini saxlamaq gücündən asılıdır, yalnız birtərəfli qaydada məkanla şərtlənmişdir və bütün daxili hərəkətlənmələr onun varlığını təhlükəyə salır. Cisimlərin baş qanunu *ətalətdir.* Ətalət cisim azadlığının təzahürüdür. Cisimlərin hərəkəti xaricidir, onların ətalətini dəf edən xarici güclərdən asılıdır. Cisimlərin azadlığı öz mövcudluğunu saxlamaqla təzahür edir. Hər bir varlıq öz mövcudluğunu saxladığı qədər azaddır. Ona görə də cisim azadlığını varolma azadlığı kimi adlandırmaq olar və insan öz fiziki varlığını saxlamaq uğrunda mübarizədə yalnız cisim azadlığına nail ola bilər. Cisimlərin azadlığının mənbəyi yalnız yaradıcının iradəsindən asılıdır və özlərindən kənardadır. Belə azadlıq neqativ azadlıqdır və yalnız passiv müqavimət göstərmək gücündə meydana çıxır. Cisim azadlığı substansiyaldır, yəni mövcudluqdan ayrılmazdır və bütün varlıqların əsas şərtidir. Belə azadlığı itirmək mövcudluq aktının dayanmasına səbəb olur. İnsan da bir cisim kimi cisim azadlığına malikdir və insanın irrasional azadlığı özünüsaxlama cəhdlərində üzə çıxır. Amma insan şüurlu varlıq olduğundan, cisimlərdən fərqli olaraq öz iradəsi ilə substansiyal azadlığına müdaxilə edə bilir. Nəticədə pozitiv cisim azadlığı meydana çıxır və buna görə də insanın pozitiv azadlığı *aksidensiv* xarakter alır. Yəni neqativ cisim azadlığı insandan ayrılan, qoparılan və itən keyfiyyətə çevrilir. Bunun qarşılığında konpensasiya olaraq insana yaranışından rasional azadlığa çatma meyli, imkanları və bacarıqları verilmişdir. İnsan digər cisimlərdən fərqli olaraq öz enerjisini istiqamətləndirə bilir. Hər hansı

bir cisim ona hərəkət verən xarici qüvvənin istiqamətindən asılıdır. İnsan isə ona hərəkət verən xarici gücə əks istiqamətdə fəaliyyət göstərmək imkanına malikdir. Bu qabiliyyətinə, yəni xarici hərəkəti dəf etmək imkanına görə, insan öz cisim azadlığını dəyişdirə bilmiş və insanın bütün azadlıqları onun hərəkət azadlığı ilə şərtlənmişdir. Cisimlərin zamana görə hərəkəti yoxdur. Onların zamanla əlaqəsi yalnız yaranma və məhvolma anında meydana çıxır. İnsan cismi bundan fərqli olaraq anların zənciri ilə zamanla sürəkli əlaqəyə girən həyat əldə edir. İnsan dəyişkən varlıqdır və bu dəyişkənlik prosesində o mütəmadi olaraq dəyişkən situasiyalara düşür və özü də situasiya yaradan varlığa çevrilir. Zamanla bu cür əlaqələnmə canın və ya həyatın mənbəyidir. Bütün canlıların düşə biləcəkləri situasiya haqqında məlumat və həmin situasiyada ən düzgün davranış kodeksi yaradıcı tərəfindən qabaqcadan onların planlarına daxil edilmişdir. İnsan isə bundan fərqli olaraq daim dəyişən təbii və ya özünün yaratdığı orijinal situasiyalara düşür və hər bir situasiyaya uyğun öz xüsusi reseptini hazırlamağa məcburdur. Buna görə də situsiyaya adekvat davranış insan azadlığının şərtinə çevrilir. İnsanın bütün həyatı *seçim halqalərindən* ibarət bir zəncir kimidir və istənilən səhv seçim bu zənciri qırır və insan köləyə çevrilir.

Can azadlığı ətrafla şərtlənmiş azadlıqdır və ətraf şərtlər dəyişmədikcə canlılar da yaşamaq azadlıqlarını saxlayırlar. Canın azadlığı irsi informasiyanın reallaşma imkanı kimi təzahür edir. Can azadlığı spontan və avtonomdur, iradə və şüura tabe deyil, təbii ətraf şərtlərdən asılıdır. İnsan şüurlu varlıq olduğundan, canla ətraf əlaqələrinə təsir etmək, süni ətraf yaratmaqla canın azadlığını qorumaq və ya dəyişdirmək imkanlarına malikdir.

Ruhun azadlığı cismin və canın azadlığından tamamilə fərqlənir. Belə ki, ruh məkanda, həm də zamanda müxtəlif istiqamətlərdə hərəkət etmək imkanına malikdir və onun azadlığı hərəkətinin bu xüsusiyyəti ilə sərhədlənmişdir. Ruhun azadlığı canın, canın azadlığı cismin azadlığının inkarı əsasında meydana çıxır və özünüdərkin məğzi də bundan ibarətdir. *Yəni insan özünü cisimlərdən və digər canlılardan fərqli bir varlıq olduğunu anladıqda, rasional ruhi azadlığa qovuşur.*

Hər bir insan hər bir an həm «mən», həm «sən», həm də «o»dur və «sən»ə görə «mən», «mən»ə görə «sən», «mən»lə «sən»in birliyinə görə «o»dur və beləliklə, insan eyni vaxtda özünün həm «mən», həm «sən», həm də «o» olduğunu anladıqda özünü dərk etmiş olur. Beləliklə, heç bir insanda konkret real «mən» yoxdur. İnsan real «mən»dən çıxmış, ideal «mən»ə doğru hərəkətdə olan və bu zaman həm də «sən» və «o» olaraq ideal «mən»ə çatmamış vəziyyətdə olan varlıqdır. İnsan konkret olaraq ayrıca ya «mən»ə, ya «sən»ə və ya «o»na çevriləndə azadlıqdan məhrum olur və köləyə çevrilir.

Hər bir insan özünüdərk prosesində özündə müxtəlif «mən»lər aşkarlayır. Hər bir adamın bilavasitə öz bədəninə münasibət ilə bağlı spontan aşkarlanan fərdi «mən»i vardır. Fərdi «mən» məkan ölçülərində dərkedilən «mən»dir. Fərdi «mən» orijinaldır, xüsusidir, tənhadır və insan mahiyyətlərinin müştərək ifadəsidir, yəni eyni vaxtda həm cismin, həm canın, həm də ruhun «mən»idir. Bu cür «mən» ümumiyə-cəmə-insanlığa xas olan azadlığı özündə əks etdirmə gücündə deyil. Bundan fərqli olaraq özünüdərk prosesində hər bir insan həm də özündə müxtəlif kollektiv «mən»lər aşkarlamaq imkanlarına malikdir. Konkret qrup, xalq, millət inanc «mən»ləri kimi meydana çıxan insan öz kollektiv «mən»ini əldə etmək üçün xüsusi səy göstərir. Kollektiv «mən»lər yalnız fərdi «mən»dən fərqlənməni dərk etdikdə meydana çıxır. *Hər bir insan özünün fərdi «mən»indən uzaqlaşdığı qədər kollektiv «mən» əldə edə bilər. Kollektiv «mən»i olan insan əsl azad insandır.*

İnsan həm də müxtəlif mahiyyətli mürəkkəb varlıq olduğundan, onun azadlığı öz mahiyyətləri arasındakı sazişdən meydana çıxır. Özü ilə sazişə girmədən və bu sazişdə bədənin və cismin ruha tabe etdirilməsinə nail olmadıqca insan azadlıq əldə edə bilmir. Özü ilə saziş, özünütəşkil, özünütənzim və özünənəzarət tələb edir. Hər bir insan özünüreallaşdıran varlıqdır və *heç bir insan özünüreallaşdırma prosesini düzgün təşkil edə bilmədən, özünütənzimləmədən və özünə nəzarət edə bilmədən özündə azadlıq situasiyası* yarada bilmir.

Özünüdərk prosesində insanın özünüyadlaşdırması və özündən uzaqlaşdırması ilə kollektiv «mən»ə doğru hərəkəti yaşam dinami-

kaları kimi təzahür edir. Əsasən özü naminə yaşama, doğmalar naminə yaşama və abstrak insanlıq naminə yaşam dinamikaları mövcuddur. İnsanın azadlığı məhz onun hansı yaşam dinamikasına meyl etməsi ilə bağlıdır. Hər bir yaşam dinamikası özünəməxsus prinsiplərə söykənir.

Cisimlərin yaşam dinamikası *eqoizm prinsipinə* əsaslanır. Eqoizm «indi» və «burda» prinsipinə əsaslanır. Eqoist «yalnız mən varam, sonra digərləri mövcuddur» şüarı ilə yaşayır. Eqoistə görə ictimai əlaqələr öndə o olmaqla düzxətlidir və hamı onun arxasındadır.

Canın yaşam dinamikası *eqosentrik prinsipə* əsaslanır. Eqosentrikin imperativi «yalnız mərkəzdə mən və çevrəmdə doğmalarım vardır» şüarından ibarətdir. Eqosentrik özü və özü ilə bilavasitə əlaqəsi olanların müştərək həyatları naminə yaşayır. Belə əlaqələr qan, torpaq, irsiyyətlə sərhədlənmişdir, «dünən» və «burda» prinsipinə əsaslanır.

Ruhun yaşam dinamikası *alturizm pinsipinə* əsaslanır. Alturizm «real olaraq «mən» yoxam, «biz» varıq, «mən», «mən»dən uzaqlarda olanlar üçün varam» şüarı ilə yaşayır. Alturizm – özünüunutmaq, özünüyadlaşdırmaq, yalnız başqaları naminə – insanlıq naminə yaşamaq prinsipidir və bu prinsip «hər an» və «hər yerdə» kimi ifadə edilə bilər. Alturizmin məkanı bütün bədənlər, zamanı isə «dünən, indi və sabah»dır. Yalnız bu prinsiplə fərd özünün *insanlıq «mən»inə* çatır və belə «mən»ə malik insan ideal azadlıq əldə edir.

Özünüdərk prosesi həm şüuri, həm əxlaqi prosesdlir. İnsan şüurunun dialektikası bir səviyyədən başqa səviyyəyə, bir düşüncə «mağarasından» başqa düşüncə «mağarasına» keçməklə baş verir və son nəticədə şüur öz «mağaralarından» çıxaraq əvvəl konkret ərazini, sonra abstrakt məkanı, sonra bütünlüklə kainatı, daha sonra isə zamanı fəth edir. İnsan mağara şüurundan uzaqlaşdıqca azadlığa çıxır. Düşüncə «mağaralarına» qapanmış insanın azad olması mümkün deyil. «Mənim bədənim», «mənim ailəm», «mənim mülkiyyətim», «mənim xalqım» belə «mağaralardandır». Belə «mağaralar»a girən insanlar köləliyin labirintlərində azıb qalır.

İnsan yalnız ağlı ilə yox, həm də əxlaqı ilə mövcuddur və insan əxlaqi varlıqdır. Əxlaq insan davranışlarının motivlərinin qaydalaş-

dırılmasıdır. İnsanın yaşam dinamikaları da onun əxlaqi vəziyyəti ilə şərtlənmişdir. Azad insan ali əxlaqi keyfiyyətlərə malik insandır və özünüdərk prosesində özünüyadlaşdırma, özündənuzaqlaşma və özündənimtina insandan yüksək insani keyfiyyətlər, iradə və güc tələb edir. *Köləliyi itirməyən insan azadlığı qazana bilməz,* köləlik fərdi «mən»in, azadlıq kollektiv «mən»in özünüdərkidir. İnsanın özünü dərk prosesində həyatdan imtinaya hazır olması intihar prosesindən onunla fərqlənir ki, intihar edən şəxs özünü bütün dünya ilə yadlaşdırır və özü ilə həyatın qurtardığını qəbul edir. Amma azadlıq naminə həyatdan imtinaya hazır olan şəxs bundan fərqli olaraq *tarixi hisslə* yaşayır və həyatının ölümlə başa çatmadığını və ölümündən sonra da yaşayacağını anlayır. Başqa sözlə, *köləlik ölümlə başa çatan həyat, azadlıq ölümdən sonra da davam edən həyatdır.*

Nəhayət, insan özünü dərk edərkən Allahı necə dərk etmiş olur? Hər şeydən əvvəl insanın özünü dərk etməsi o deməkdir ki, o, özünün və digər insanların Allah olmadığını başa düşür, başqa sözlə, özünüdərk prosesində insanı varlığın digər növlərinin əksliyi kimi dərk edilir və bu əksliklə yanaşı onlarla vəhdətdə olduğunu anlayır. İnsan özünü dərk edərkən həm də özünün yalnız cisim və candan ibarət olmadığını, onlardan fərqli olaraq zaman və məkan çərçivələrini ötüb-keçmək imkanlarına malik və başqalarının həyatında yaşamaqda davam edəcək ruha malik olduğunu anlayır. Bu hiss onu öz bədən sərhədlərindən çıxarır və insan bununla zamanın və məkanın şərtlərindən azad olur. İnsan özünüdərk prosesində həm də necə və nə üçün yaradıldığını və bu yaradıcılıq prosesinin təbiətini anlamış olur. Beləliklə, insan özünüdərk prosesində özünün azadlıqlar toplusu kimi yaradıldığını və bu azadlıqları reallaşdırmaq missiyası daşıdığını anlayır və bütün bunlara görə yaradan qarşısında öz məsuliyyətini dərk edir. *İnsan Allahlıq iddiasından uzaqlaşdıqca və özü kimi insanları Allah qəbul etmədikcə, Allahın göstərdiyi və istədiyi kimi yaşadıqca* azadlıq əldə etmiş olur. Beləliklə, özünü və Allahı dərk edən İNSAN başlıca insani keyfiyyətinin azadlıq olduğunu anlamış olur və bütün şüurlu həyatını ona həsr edir.

Azadlıq hakimiyyət əzmidir

Azadlıq problemi bilavasitə hakimiyyət problemi ilə birgə meydana çıxır. Hakimiyyət geniş mənalı məhfumdur və onun bir mənası da azadlıqla eyni mahiyyət daşıyır. Bəs hakimiyyət nədir, onun azadlıqla nə kimi əlaqəsi var?

Təbiətdə hər bir varlığın öz mövcudluğunu saxlamaqda, başqa varlıqlar tərəfindən onun mövcudluğuna törənən təhlükələri dəf etməkdə, onlara müqavimət göstərməkdə, hərəkətdə olanı sükunətə gətirməkdə, sükunətdə olana hərəkət verməkdə və s. üzə çıxan güclərin məcmusu hakimiyyət gücünü təşkil edir. *Hakimiyyət gücü mövcudolmada azadlığın vasitəsidir.* Hakimiyyət mövcudluq aktı, varlığın xassə və keyfiyyətləri, ölçü və sürəkliliyi, hərəkət formaları və s. kateqoriyalarla sıx bağlıdır. Hakimiyyət əzminə maksimum genişlənmə, müxtəlif formalar alma və mövcudluğu əbədilik istiqamətində davam etdirməyə cəhd kimi keyfiyyətlər xasdır.

Mövcudluq aktı hakimiyyət aktıdır. Hakimiyyəti olmayanın fərdi mövcudluq aktı da ola bilməz. Başqa sözlə, hakimiyyət varolmanın üsuludur. Ona görə də hər bir varlığın bütün daxili gücləri yalnız hakimiyyət əldə etməyə istiqamətlənib. Hakimiyyətin sərhədləri mövcudluq aktının sərhədləri ilə üst-üstə düşdüyündən, hər bir varlıq öz mövcudluq sferasını genişləndirmək məqsədi ilə öz hakimiyyətini genişləndirməyə cəhd edir. Hakimiyyətin genişlənməsi fərdi mövcudluq aktından başlayır, sonra başqa varlıqların mövcudluq aktlarını əhatə etmə istiqamətində xüsusidən ümumiyə doğru davam edir. Hər bir varlıq öz mövcudluq aktının məkanını sonsuz olaraq genişləndirməyə və zaman üzrə əbədiyyətə qədər uzatmağa cəhd edir. Paralel olaraq bu cür cəhddə olan başqa varlıqların hakimiyyətinə müqavimət göstərir. Öz sərhədlərindən kənarda hakimiyyət əzmini bərqərar etmək cəhdi başqa varlıqların mövcudluqlarının hissəsindən başlayır və onu bütöv şəkildə öz təsiri altına almaqla qurtarır. Cisim dünyasında başqa varlıqları hakimiyyət altına alma cəhdi bir cismin başqa bir cismin müstəqil varlığına son qoymaqla – ya onu

özünə birləşdirməklə, ya da onu məhv etməklə sona çatır. Beləliklə, fiziki hakimiyyət məkan şərti kimi meydana çıxır. Hər bir mövcudluq məkanda müəyyən həcm tutur və başqa mövcudluqdan həm də tutduğu daxili həcmə görə fərqlənir. Varlıqlar konkret həcmlərindən başqa həm də onları bir-birindən ayıran, üzərində hər hansı bir varlığın konkret hakimiyyətinə mənsub olmayan və yalnız öz keyfiyyətlərini təzahür etdirdikləri boşluq - *xarici həcm* üzərində hakimiyyət əldə etməyə cəhd edirlər. Bu sfera bütün varlıqlar üçün müştərək olduğundan, bir varlığın öz hakimiyyətini birtərəfli qaydada bu sahə üzərində bərqərar etməsi başqasının mövcudluq haqqını məhdudlaşdırır və onun özünü təsdiq edən keyfiyyətlərin üzə çıxmasına imkan vermir. Varlıqlar öz mövcudolma aktından başqa hər şeyi mübadilə etməyə meyllidir və cisim hakimiyyəti varlığın öz mövcudluq aktını dəyişdirməyə müqavimət göstərməsi və ya dəyişdirmək imkansızlığı kimi təzahür edir. Yəni, heç bir varlıq öz mövcudluq aktını hissəvi və ya tam olaraq başqasına güzəşt etmir və ya bu aktdan başqaları ilə müştərək istifadə edə bilməz. Bir varlığın başqa bir varlığın mövcudluq aktını əldə etmə cəhdi xarici təzyiqdir və hər bir varlıq belə təzyiqə müqavimət göstərmək gücünə malikdir. Varlığın mövcudluq aktını başqaları tərəfindən əldə edilməsinə göstərdiyi müqavimət də hakimiyyət əzminə daxildir. Varlıqların bir-birinin hissəvi və ya tam olaraq öz hakimiyyəti altına salma cəhdi müxtəlif qarşılıqlı münasibətlər – cisimlərdə qarşılıqlı təsirlər, canlılarda *həyat uğrunda* mübarizə, insanlarda isə *yaşam uğrunda* mübarizəni meydana çıxarır. Hakimiyyət münasibətlərində həm də tanınma – hüquq və azadlıqları olan insan kimi tanınma - təzahür edir.

Hər bir varlığın yeganə məqsədi öz mövcudluq aktını mümkün qədər çox davam etdirməkdir və bu cəhd əbədiyyətə istiqamətlənib. İnsanda da cisim hakimiyyəti var, amma o qeyri-üzvi aləmdəki cisimlərdən fərqli qanunauyğunluqlara tabedir. İnsanda cisim hakimiyyəti həm qeyri-şüuri, spontan və avtonom olaraq ümumi kosmik qanunlar çərçivəsində, həm də şüuri olaraq insanın fiziki gücü və onun bədəninin simvolik davamı olan sərvət və mülkiyyətlə meydana çıxır. Sərvətin hakimiyyət əzmi yaratması bununla bağlıdır.

Alman sosioloqu Maks Veber də bunu təsdiq edərək belə hesab edir ki, *sərvət hakimiyyətə cəhd yaradır.*

Cisimlərdən fərqli olaraq canlıların hakimiyyəti həm də zaman üzrə genişlənməyə meyllidir. Canlıların hakimiyyətinə təhlükə dəyişkənlik, hərəkətlilik, böyümə, artma və s. kimi bioloji proseslərdən meydana çıxır və bunlar varlığın zaman əlaqəsini ifadə edir. Böyümə, artma canın zaman üzrə hakimiyyət əzmini təzahür etdirir. İnsanlarda da cana xas hakimiyyət əzmi təzahür edir və digər canlılardan fərqli olaraq bu həm instinktiv, həm də şüuri qaydada – əks cins, ailə, övlad üzərində hakimiyyət və ya şəxsi münasibətlər kimi meydana çıxır. İnsan həyatında cisim və can hakimiyyəti ruhi hakimiyyətlə sublimasiya olunaraq qarışıq formalarda təzahür edir. Russo icra hakimiyyətini ərə, qanunverici hakimiyyəti arvada bənzədərək, bu hakimiyətlər arasındakı münasibəti ər-arvad münasibətlərinə uyğun şərh etmişdir. İngilis sosioloqları belə bir nəticəyə gəlmişlər ki, kasıb ailələrdə ər-arvad münasibəti daha çox sinfi istismar münasibətləri kimi meydana çıxır. İstismar münasbətləri sinfi cəmiyyətin təzahürü olduğundan istismar bioloji hakimiyyətlə sinfi hakimiyyəti birləşdirmiş olur.

Yalnız insana xas olan siyasi hakimiyyət əzmi məkanda genişlənmə, zamanda əbədiyyətə cəhd ilə yanaşı həm də formasını dəyişdirməyə meyllidir. Siyasi hakimiyyətin meydana gəlməsi insanların təbii qeyri-bərabərliyindən qaynaqlanır. Belə ki, dövlət hakimiyyətinə qədərki dövrdə insanlar eyni gücdə, eyni intellektual səviyyədə, eyni istedadda olmadıqları üçün güclü gücsüzün, ağıllı axmağın, istedadlı istedadsızın üzərində təbii hakimiyyət əldə edir. Lakin cəmiyyət inkişaf etdikcə, dövlət təşəkkül tapdıqca təbii hakimiyyət siyasi hakimiyyətlə əvəzlənir və təbiətdən fərqli olaraq cəmiyyətdə güclü gücsüzün, axmaq ağıllının, istedadsız istedadlının üzərində hakimiyyət əldə etməyə müvəffəq olur. Cəmiyyətdə ümumi hakimiyyət fərdi hakimiyyətlərin hissələrindən yaranır və fərdi hakimiyyətdən imtina dərəcəsində insan cəmiyyətdə azadlıq əldə edir. Öz fərdi hakimiyyətini bütünlükdə siyasi hakimiyyətə vermiş fərdin heç bir azadlığı olmur. Azadlıq fərdi hakimiyyət əzminin reallaşma forması və onun ölçüsüdür. İnsan ayrılıqda fərd kimi təbiət gücləri

qarşısında acizdir. Buna görə də o, digərləri ilə birlikdə xüsusi kollektiv güc yaratmaqla öz acizliyini dəf edir. Bu gücün iradəvi ifadə forması siyasi hakimiyyətdir. Siyasi hakimiyyət ya legitim qaydada həmin hakimiyyət altında birləşmiş insanların iradələrinin məcmusu kimi, ya da uzurpasiya qaydasında - həmin birliyə daxil olan bir fərdin öz şəxsi iradəsi ilə başqalarının razılığı olmadan, öz iradəsini kollektiv iradə kimi ifadə etməsi ilə meydana çıxır. Birinci formada siyasi hakimiyyət bütün fərdlərin iradəvi gücünün təmsilçisi kimi, ikincidə uzurpatorun kollektiv iradə ilə sublimasiya olunmuş fərdi iradəsinin gücü kimi təzahür edir. Cəmiyyətdə siyasi hakimiyyətdən başqa həm də qeyri-siyasi hakimiyyət formaları meydana çıxır. Hər bir fərdin öz cismi üzərində, öz nəsli üzərində, öz yaratdığı hər bir əsər üzərində hakimiyyət əzmi qeyri-siyasi, fərdi və orijinaldır. Belə hakimiyyət başqa varlıqların mövcudluğuna təhlükə yaratmır. İnsan ictimai varlıq olduğundan, ona konkret, fərdi, orijinal mövcudluq aktı ilə yanaşı, həm də buna paralel olaraq abstrakt kollektiv mövcudolma aktı xasdır. Hər hansı fərdin öz fərdi hakimiyyətini kollektiv mövcudluğun üzərində bərqərar etməsi siyasi hakimiyyəti yaradır. İnsan fərdi hakimiyyət əzmini nümayiş etdirməyəndə və ya onunla razılaşanda, yəni siyasi hakimiyyətə aktiv müqavimət göstərməyəndə, özünü başqalarının mütləq hakimiyyətinə tabe etdirəndə tam şəkildə siyasi hakimiyyətin əsarətinə düşür və beləliklə, fərdi hakimiyyətdən məhrum olur. Uşaqlarda, anormal və xəstə insanlarda, ağıl qüsuru olanlarda hakimiyyət əzmi zəif olduğundan, onlar tam şəkildə başqalarının hakimiyyəti altında olmağa məcburdurlar. Eyni ilə sağlam insanların da belə zəif hakimiyyət əzmi nümayiş etdirməsi onları başqalarının hakimiyyətindən asılı vəziyyətə salır. Hakimiyyət əzmi nümayiş etdirməyən insan kölədir və onun əşyadan, uşaqdan, xəstədən heç bir fərqi yoxdur. Bu səbəbdən quldarlıq Romasında qullar «canlı alətlər» kimi səciyyələndirilmişdir və quldarın əşyası statusunda olmuşdur. Ona görə də quldarlar onları satmaq, başqasına bağışlamaq və əmlakın başqa növləri ilə mübadilə etmək hüququna malik idilər.

Hakimiyyət əldə etmə cəhdi cəmiyyətdə siyasi mübarizəni meydana çıxarmışdır. Platona görə, «siyasi mübarizə o zaman meydana

çıxır ki, insan seçmədiyi və özündən ləyaqətsiz hesab etdiyi şəxsin tabeçiliyində yaşamaq istəmir». Beləliklə, hakimiyyətə o adam müqavimət göstərmir ki, ya o, öz ləyaqətini dəyərləndirə bilmir, ya da o sadəcə ləyaqətsiz insandır. Ləyaqət fərdi hakimiyyət əzminin özünüdəyərləndirmə kimi təzahürüdür. Bəs insan nə üçün istənilən mütləq hakimiyyətə müqavimət göstərməyə məhkum edilib? Yuxarıda qeyd edildiyi kimi, istənilən siyasi hakimiyyət genişlənməyə, öz formasını dəyişdirməyə meyllidir. Müqavimət göstərilməyən siyasi hakimiyyət həm hüdudlarını hədsiz genişləndirmək imkanı əldə edir, həm də qeyri-siyasi forma alaraq fərdi mövcudluq aktını təmin edən fərdi hakimiyyəti dəf edir. Cəmiyyət həyatında siyasi hakimiyyətlə qeyri-siyasi hakimiyyət formaları arasında fərdlərin özünü reallaşdırması üçün xüsusi sfera mövcud olmalıdır. Bu sahəni *fərdi azadlıq sferası* adlandıra bilərik. Bu sfera nə qədər çox daralırsa, insan azadlığı da bir o qədər məhdudlaşır. Siyasi hakimiyyət məhz bu sahədən keçərək fərdi hakimiyyət üzərində bərqərar olduğundan, bu sahə həm də hakimiyyət uğrunda mübarizə sahəsi kimi meydana çıxır. Siyasi hakimiyyətin qeyri-siyasi hakimiyyət forması alması azadlığın məhdudluq dərəcəsini göstərir. Siyasi hakimiyyət tarixində siyasi hakimiyyətin qeyri-siyasi hakimiyyəti əhatə etməsinin çoxlu acınacaqlı nümunələri vardır. Qədim Romada Neron, Kaliqula vətəndaşların intim həyatına dövlət nəzarəti yaratmış, ölkədə rəsmi fahişəlik yarışları təşkil etmiş, bakirəliyi cinayət hərəkəti kimi təqib etmişlər. Müasir dövrdə Kampuçiyanın lideri Pol-Potun hakimiyyəti dövründə kişilərlə qadınlar bir-birindən ayrı yaşamağa məcbur edilmişdir. Bəşər tarixi həm də insanların həyat və ölüm üzərində sərəncam hüququnu konkret adamların əlinə keçməsinə razılaşmaları ilə zəngindir. Göründüyü kimi, hakimiyyətlə azadlıq eyni bir problemin iki tərəfidir. Azadlıqsız hakimiyyət əzmini ifadə etmək mümkün olmadığı kimi, hakimiyyətsiz də azadlıq meydana çıxmır. Cəmiyyətdə azadlıq uğrunda mübarizə hakimiyyət uğrunda mübarizədir. Buna görə də hakimiyyət uğrunda mübarizə aparmayan insan azad ola bilməz.

Azadlıq ideyası

Azadlıq problemi həm də ideya problemidir. Hər hansı bir fərd və ya xalq konkret ideyaya sahib çıxmadıqca şəxsi və milli azadlıqlar uğrunda mübarizəyə qalxa bilməz və ya belə bir mübarizəyə qalxsa da, ciddi nəticələr əldə edə bilməz. Azadlıq ideyası konkret olaraq fərdin şəxsi həyatının və ya xalqın tarixinin məqsədlərindən doğur və bu ideya uğrunda mübarizə həmin məqsədlərə çatmağa xidmət edir. İnsanlığın tarixi inkişafında azadlıq ideyasının bir çox klassik nümunələri yaranmışdır ki, biz burada müqayisəli təhlil yolu ilə azadlığın Azərbaycan ideyasını şərh etməyə çalışacağıq.

Avropada azadlıq ideyası uğrunda zəngin mübarizə tarixi olan xalqlardan biri fransızlardır. Fransızların azadlıq ideyasının əsasında *kralın və kilsənin mütləq hakimiyyətinə qarşı yenicə yaranmaqda olan burjuaziyanın üsyanları* dayanmışdır. Fransız burjuaziyası istənilən mütləq hakimiyyəti qəbul etməmiş, eyni zamanda öz maraqlarını maarifçi elmlərin və fəlsəfənin tələbləri əsasında təmin etməyə cəhd etmişdir. Beləliklə, bir tərəfdən kilsə və kral hakimiyyətini zəiflətmək, digər tərəfdən *maarifçi elmlərin və fəlsəfənin inkişaf etdirilməsi azadlığın fransız ideyasının əsasını təşkil etmişdir.* Nəticədə bir-birinin ardınca bir neçə respublika qurmuş fransızlar həm də dünya ictimai fikrinə Russo, Monteskyö, Füre, Ouen, Robespiyer, Bekon və s. kimi mütəfəkkirlər bəxş etmişdir. Fransızların azadlıq savaşı kral və kilsə hakimiyyətinin zəiflədilməsi və yeni burjua münasibətlərinə keçidlə nəticələnmişdir. Zəifləyən güclü kral hakimiyyətinin yerində *xalq təmsilçiləri hakimiyyəti* və liberal dəyərlərin daşıyıcıları olan *vətəndaş institutu* meydana çıxmışdır. Quldarlıq Romasından sonra Avropada yaranmış vətəndaşlıq institutunu fransa inqilabının nailiyyəti kimi qiymətləndirmək olar.

Azadlığın ingilis ideyası üç tərkibdən - İngiltərədə *feodal-burjua inqilabının* ruhundan, *fərdi puritan möminliyi* və *müstəqil kilsə* ideyasından ibarətdir. İngilislər katolik Roma kilsəsinin asılılığından azad olmaq naminə öz müstəqil kilsələrini yaratmaq uğrunda mübarizəyə qalxaraq, Avropada ilk olaraq Romadan dini suverenlik əldə

etmiş, eyni zamanda feodal-burjua inqilabı nəticəsində parlamentli monarxiya qurluşuna keçmişlər. İngilislər azadlıq mübarizəsində bir tərəfdən öz müstəqil protestant kilsəsini yaradaraq, katolik Roma kilsəsinin asılılığından, digər tərəfdən yeni dini qaydalar əsasında möminləri ümumiyyətlə kilsənin asılılığından, eyni zamanda vətəndaşları kralın mütləq hakimiyyətindən azad edərək yeni cəmiyyət quruculuğuna başlaya bilmişlər.

Avropanın digər bir xalqı - almanların azadlıq ideyası da fərqli xüsusiyyətlərə malikdir. Belə ki, alman azadlıq ideyası *fransızların nəzəriyyəsindən, ingilislərin təcrübəsindən* bəhrələnmişdir və bunlardan fərqli olaraq həm də *alman mütəfəkkirlərinin,* xüsusən Hegel, Fixte, Feyerbax və s. *filosoflarının dövlət və tarix haqqında idealist nəzəriyyələri əsasında dövlətin və kilsənin roluna yenidən baxmağı tələb edən ideyaları* özündə ehtiva edir. Almaniyada kilsə islahatçıları, eləcə də «Kral xalqın xidmətçisidir» kimi siyasi baxışları bölüşdürən kralların meydana çıxması dövlət ideyasını ilahi ideyadan dünyəvi ideyaya, onun cəmiyyətüstü qurumdan cəmiyyətiçi quruma çevrilməsini təmin etmişdir.

Amerika Avropadan axışan insanların vətəninə çevrildikcə azadlığın amerikan ideyası meydana çıxmağa başlamışdır. Amerikada ingilis və fransızlar üstünlük təşkil etdiyindən, azadlığın amerikan ideyası da özündə *ingilis və fransız inqilablarının nailiyyətlərini* əks etdirirdi. Lakin onlardan fərqli olaraq Amerika özünün *zəngin və geniş ərazisi ilə insanlara hakimiyyət mübarizəsindən kənarda hər bir fərdə tükənməz həyat imkanı verməklə hakimiyyət imtiyazlarına can atmayan liberal ruhu doğurmuşdur.* Nəticədə hakimiyyət üçün köhnə tarixi güclərə tələb hiss edilməmiş və gözlənilməz vəziyyətlərdən çıxmaq üçün hərbi üsullara ehtiyac qalmamışdır. Beləliklə, Amerikan azadlıq ideyası *antietatizmin* – dövlətsizləşmənin liberal ideyalarından ibarət olmuşdur ki, bu da nəticədə Amerikada mütləq mərkəzləşdirilmiş hakimiyyət əvəzinə *federal hakimiyyətin* yaradılmasına gətirib çıxarmışdır.

Qısa şəkildə şərh etdiyimiz azadlığın fransız, ingilis, alman və amerikan ideyaları özündə bir neçə ümumi prinsipləri – mütləq hakimiyyətə etiraz, kilsənin təsirinin zəiflədilməsi, onun dövlətdən

ayrılması və fərdin dövlətlə bərabər tərəf olması ideyasını ehtiva etmişdir. Xüsusən, *rifahın dövlətdən asılı olmadan müstəqil təmin edilməsinin perspektivi bütünlükdə fərdi azadlıq ideyasının əsasını təşkil etmişdir* və hakimiyyət uğrunda mübarizəni vətəndaş münasibətlərinin fokusundan çıxarmışdır.

Qeyd etdiklərimizdən göründüyü kimi, azadlıq ideyaları həm də müxtəlif səviyyəli ictimai münasibətlərlə bağlı - ayrı-ayrı fərdlərin şəxsi ünsiyyətdə hiss etdikləri fərdi azadlıq və dövlətin dövlətlə münasibətlərində xalqın özünütəyin hüququ kimi meydana çıxıb. Azadlığın amerikan ideyasında dövlətin iştirakı olmadan *fərdin fərdlə* münasibətlərində, azadlığın fransız ideyasının nümunəsində *fərdin dövlətlə* münasibətində, azadlığın ingilis ideyasında isə *dövlətin başqa bir dövlətlə* münasibətində azadlıq istəkləri daha qabarıq təzahür etmişdir.

Bəs azərbaycanlıların azadlıq ideyasının əsasını nə təşkil edir?! Yuxarıda qeyd etdik ki, azadlıq ideyasının mahiyyətini anlamadan insanlarda nə azadlıq hissi, nə də azadlıq uğrunda mübarizə ruhu meydana çıxa bilməz. Əslində azadlıq ideyası yeni *avtonom insan ruhunun* sərhədlərini müəyyən edir və müasir Azərbaycan vətəndaşının kimliyi də onun daşıdığı azadlıq ideyası ilə müəyyən oluna bilər. Bizcə, azadlığın Azərbaycan ideyası dörd əsas mənbədən qaynaqlanır. Azadlığın Azərbaycan ideyasının bünövrəsinin xalqımızın *köçəri həyat tərzi* təşkil edir. Məlumdur ki, köçəri həyat tərzi keçirən xalqlarda mütləq institutlaşmış dövlət hakimiyyəti və dini institutlar tam formalaşmır. Köçəri ruh oturaq ruhdan fərqli olaraq mövhümatı və əsarəti qəbul etmir. Təbiətlə daim təklikdə üz-üzə qalan köçəridə *özünəinam güclü* inkişaf edir. Nəticədə köçəri insanın *fərdi azadlıq ruhu* güclü olur. Azadlığın Azərbaycan ideyasının ikinci mənbəyini İslam dininin azadlıq haqqındakı ideyaları təşkil edir. İslama görə, Allahdan başqa kimsə mütləq gücə, iradəyə və hakimiyyətə malik deyil. İnsan Allah tərəfindən *azad və faili-muxtar* yaradılıb. *Allah qarşısında hamı bərabərdir,* şahla nökərin heç bir fərqi yoxdur və hamı eyni qaydada Allah qarşısında cavabdehdir. Beləliklə, İslam iki mühüm dəyəri – bütün insanların azad yaradıldığını və bütün insanların bərabər yaradıldığını bəyan edir və heç bir mütləq

dünyəvi hakimiyyəti qəbul etmir. «Qurani-Kərim»də özünü Allah elan etmiş Firona münasibət bu mənada gözəl nümunədir. İslamda cihad fəlsəfəsi də yalnız yadelli işğalçılara müqavimətlə yox, həm də fərdi hüquqların müdafiəsi ilə bağlı meydana çıxır. Başqa dinlərdən fərqli olaraq İslamda «Allahla bəndə arasında vasitəçi yoxdur» ehkamı da *insanın insana görə üstünlüyünü* inkar edir. Heç təsadüfi deyil ki, İslamda dini münasibətlər başqa dinlərdə olan münasibətlərə nisbətən daha azad şəkildə qurulur. Azadlığın Azərbaycan ideyasının üçüncü mənbəyi *qaçaqçılıq hərəkatıdır.* Təəssüf ki, bu günə qədər qaçaqçılıq hərəkatının fəlsəfəsi və ideya-siyasi mahiyyəti lazımi səviyyədə politoloji anlamda təhlil edilməyib. Burada biz qaçaq hərəkatının azadlıq ideyası ilə bağlı məqamına toxunmaq istəyirik. Azərbaycanda qaçaq hərəkatı fərd-dövlət münasibətləri səviyyəsində dünyada misli görünməmiş ictimai-siyasi fenomendir. Hətta qədim Romada Spartakın qul üsyanı, orta əsrlərdə Rusiyada Puqaçovun kəndli üsyanları belə, özünün *oxlokratik* və *kortəbii mahiyyəti* ilə qaçaq hərəkatından çox-çox kiçik hadisələr hesab edilə bilər. Qaçaq hərəkatı fərdin təklikdə dövlətlə mübarizəsinin və *fərdi rühun üsyanın* nümunəsidir. Və çox maraqlıdır ki, qaçaq hərəkatında iştirak edənlərin əksəriyyəti dövlətlə mübarizədən qalib kimi çıxıb və xalq ruhunda *qəhrəmanlıq nümunələrinə* çevrilib. Qaçaq hərəkatı özündə liberal ruhun klassik nümunəsi kimi meydana çıxır. Azadlığın Azərbaycan ideyasının dördüncü tərkib hissəsi Səttarxanın İranda parlamentli monarxiya uğrunda apardığı mübarizə və qüzeydə 1918, 1991-ci illərdə müstəqillik hərəkatları təşkil edir. Əgər Səttarxan hərəkatı şahlığın mütləq hakimiyyətinə qarşı yönəlmişdisə, respublika uğrunda hərəkatlar milli müqqədəratı təyin etmək uğrunda mübarizənin parlaq nümunələri olub.

Qeyd etmək lazımdır ki, uzun müddət azərbaycanlıların milli dövlətlərinin olmaması bir tərəfdən onlarda milli azadlıqların boğulması ilə müşayət olunubsa, digər tərəfdən yad dövlət azərbaycanlılarda dövlətə qarşı tarixi şübhə ilə yanaşma hissi yaratmış və azərbaycanlılar *dövləti özlərinə yadlaşdırmışlar,* nəticədə liberal ideyanın əsasında duran antietatizm tarixi zərurət kimi meydana çıxmışdır. Digər tərəfdən, Azərbaycanda *zəngin təbii resursların* ol-

ması vətəndaşlara hakimiyyət mübarizəsindən kənarda fərdi rifahı təmin etmək imkanı verdiyindən, azadlığın amerikan ideyasında olduğu kimi, dövlət hakimiyyəti uğrunda mübarizə fərdlər üçün xüsusi məna daşımamışdır və təəssüf ki, bu gün də vətəndaşlar öz rifahları uğrunda mübarizələrini dövlət hakimiyyəti uğrunda mübarizədən kənarda aparırlar. Beləliklə, bir tərəfdən dövlətin yadlaşdırılması, digər tərəfdən dövlətin rolu olmadan fərdi rifahı təmin etmək azadlığın Azərbaycan ideyasının fundamental səbəblərindən biri kimi qeyd olunmalıdır.

Azərbaycanlılarda tarixən fərdi azadlıq bəzi xalqlarla müqayisədə daha geniş olmuşdur. Belə ki, Rusiyada təhkimçilik hüququ, Türkiyədə əşirət ənənəsindən fərqli olaraq Azərbaycanda *kəndli azad olmuşdur.* Azərbaycanlılar uzun illər imperiya sərhədlərində yaşadıqlarından və milli dövlətləri olmadıqlarından, eyni zamanda dövlət idarəçiliyindən kənarda saxlandıqlarından təbii olaraq *dövlətçilik hissi də zəif* inkişaf etmiş, nəticədə fərd dövlət asılılığı da zəif olmuşdur.

Milli müqqədaratı təyin etmə cəhdləri qeyd etdiyimiz kimi müasir Azərbaycan Respublikasının elan edilməsi ilə yekunlaşsa da hələ də vətəndaşlarda dövlətlə yadlaşma qalmaqdadır. Yeri gəlmişkən, avropalıların azadlıq ideyalarının səviyyələrindən fərqli olaraq azadlığın Azərbaycan ideyasının başqa bir səviyyəsini də qeyd etməliyik. Bu da kürəsəlləşmədə *fərdin kürəsəl güclərdən azadlığı problemidir,* hansı ki, özünü milli sərvətlərin və milli mədəniyyətin qorunması, dünyaya inteqrasiya və s. kimi ideyalarda göstərir. Kürəsəlləşmə rəqabət sferasını genişləndirmiş və paralel olaraq rəqabət şəraitini ağırlaşdırmışdır. Artıq fərd yalnız öz ölkəsinin yox, həm də *adsız və abstarkt tərəf müqabilləri* olan – bütün dünyanın insanları ilə rəqabət şəraitinə düşmüşdür. Belə bir şəraitdə yarış və mübarizə ruhu fərddən xüsusi bilik, fəallıq və bacarıq tələb edir. Beləliklə, qloballaşma fərdi ruhun sərhədlərinin Yer kürəsi ölçüsündə genişlənməsini tələb edir və bu genişlənmə azadlığın yeni aspekti kimi meydana çıxır.

Qeyd edilənlərə əsasən deyə bilərik ki, *azadlığın Azərbaycan ideyası xalqımızın tarixi keçmişi, həyat tərzi, təsərrüfat ukladı, dünya-*

ya baxışı və mentaliteti ilə bağlıdır və həmin dəyərləri təbliğ etməklə vətəndaşlarda azadlıq ruhunu gücləndirmək olar.

Nəzərə almaq lazımdır ki, azadlığn Azərbaycan ideyasında bir çox yanlışlıqlar müşahidə olunur. Belə ki, bizim xalqın varlı təbəqəsi və əlində hakimiyyət səlahiyyətləri olanlarda belə bir ideya formalaşıb ki, azadlıq ideyası yalnız kasıblara və hakimiyyət imtiyazlarından kənarda qalanlara məxsus ola bilər. Bu da Azərbaycan xalqını daxili və xarici təhlükələr qarşısında tərksilah edən çox ciddi problemdir. Nəzərə almaq lazımdır ki, *xalq bir vahid şəxsiyyət kimi eyni ideyalara yiyələnmədikcə* azadlıq mübarizəsində ciddi nəticələr əldə etmək mümkün deyil. Unutmaq olmaz ki, azadlıq sinfi, təbəqə, tayfa və ya regional dəyər yox, bəşəri dəyərdir və millət bütünlükdə həmin ideyaya yiyələnmədikcə azad olmayacaq. Azadlığın ümumdünya tarixi təcrübəsi sübut edir ki, *həqiqi azadlıq ideyası varlı və imtiyazlı təbəqələrdən doğulanda xalq real azadlıq əldə edir.* Yoxsulların və hakimiyyətdən kənardakı qüvvələrin azadlıq uğrunda təklikdə mübarizəsi isə sinfi xarakter alaraq ən yaxşı halda sosial inqilablarla nəticələnir. İngiltərədə burjua inqilabına varlı təbəqələr başçılıq edirdi, nəticədə həm kral hakimiyyəti saxlanıldı, həm də burjuaziyanın inkişafı üçün şərait yaradıldı və bütün İngiltərə vətəndaşlarının rifah halı yüksəldi. ABŞ-da quldarlığın ləğvində ilk növbədə quldarlar ayağa qalxmışdır, sonralar torpaqlar və sərvətlər elə paylandı ki, hakimiyyət uğrunda mübarizə maddi maraq sferasına düşmədi və Amerika cəmiyyəti sosial inqilablardan və dövlət çevrilişlərindən sığortalandı, Fransada və İngiltərədə azadlıq mübarizəsi yalnız fərdi azadlıqlara gətirib çıxarmadı, həm də bu dövlətləri Romanın asılılığından xilas etdi. Buna görə də azadlıq ideyasına yiyələnmiş xalqların hamısında *dövlət, cəmiyyət və fərd* paralel olaraq azadlıq əldə etmişdir.

Azad olmaq asandırmı?!

İnsanlar azadlığı asan iş hesab etdiklərindən, köləyə çevrilirlər. Çünki bütün asanlıqlar köləliyə aparır. Azadolma çətin işdir və insandan nəhəng enerji səfərbərliyi tələb edir. Makiavelli yazırdı ki,

azadlıq enerjisi yetərincə olmayanların azadlıq uğrunda mübarizəsi onları daha ağır şərtlərlə köləyə çevirir. İnsanın azadlıq naminə atdığı *uğursuz addımları, zəif cəhdi və səhvləri* də onun köləliyini əvvəlki şərtlərdən daha ağır vəziyyətə salır.

Azadlığa gedən yol çoxmu vaxt tələb edir?! *Zaman azadlığın daimi və mühüm aspektidir.* Belə ki, azadlıq əbədiyyət istiqamətində ona doğru hərəkətdə daim uzaqlaşan və ideal məqsəd kimi görünən dəyərdir. Azadlığa qovuşma insandan ardıcıl, qətiyyətli və məqsədyönlü mübarizə tələb edir. Bunun əksinə olaraq qısamüddətli və ya fasiləli azadlıq mücadiləsi həmin dəyərə yiyələnməyə imkan vermir. Məhz bu səbəbdən *insanın azadlıq uğrunda mübarizəsi həyatının sonunadək, xalqın azadlığı isə bütün tarixi boyu davam etmədikcə reallığa çevrilmir.* İlahi zaman və məkanı özünün hürr iradəsi ilə yaratdığından, onların hər ikisi də azadlıqla şərtlənmişdir. Bu baxımdan zaman azadlıqdan asılıdır və azadlıq olmayan yerdə zaman heç bir məna kəsb etmir. Zaman azadlığın mahiyyətindədir və zaman başa çatmadıqca mütləq azadlığa çatmaq olmaz. *Azadlıq yeganə dəyərdir ki, vaxtdan qiymətlidir və öz vaxtını azadlığa qurban verməyən köləyə çevrilir.* Hər bir azadolma aktı zaman tələb edir.

Köləlik əşyalardan, məkan şərtlərindən və başqa varlıqlardan asılı olduğu kimi zaman şərtlərindən də asılıdır. Öz vaxtını bölərkən azadlığa vaxt ayırmayanın və ya azad olmağa vaxt tapmayanın azadlığı da ola bilməz. Vaxt asılılığından azad olmayan insan ümumiyyətlə azadlığa qovuşa bilməz. Vaxt çatışmazlığından insan köləlikdən tam azad ola bilmir və ya azad insan tədricən köləyə çevrilir. Hər bir işdə vaxta qənaət etmək təqdirəlayiq olsa da, azadolmada vaxta qənaət qüsur sayılmalıdır. «Hər şeyin zamana ehtiyacı var», *zamanın isə azadlığa ehtiyacı var.*

Azadlığı qorumaq onu əldə etməkdən də çətindir. İnsan bəzən təsadüfən, öz xüsusi səyi olmadan da azadlıq vəziyyətinə düşə bilər, amma təsadüfün ortaya qoyduğu bu vəziyyət axıradək davam edə bilməz. Nə üçün azadlığı qorumaq onu əldə etməkdən çətindir? Kölənin hakimiyyət əzmi olmadığından, o heç vaxt rəqabət hədəfinə çevrilmir. Kölə müqavimətsiz, iradəsiz, ideyasız insandır. Mübarizə

müqavimət, iradə, ideya olan yerdə baş verir. Azad insan iradəlidir və onda köləliyə müqavimət gücü vardır, o, konkret ideya daşıyıcısıdır və öz ideyası uğrunda məqsədyönlü fəaliyyətdədir. Sosial həyat əbədi yaşam uğrunda mübarizə meydanıdır və bu meydanda müqavimət gücü olanla mübarizə aparırlar. Ona görə də, azad insan kölədən fərqli olaraq daha çox müxtəlif güclərin hədəfinə çevrilir və o, daim öz azadlığına qarşı yönəlmiş gücləri dəf etmək zorunda qalır. Hədəfdə olan insan azadlığını qoruya bilmədikdə başqalarının köləsinə çevrilir.

Azadlıq əldə olunan andan ona qarşı təhlükələr artır. Azadlıq genişlənməyə meyl etdiyindən, hər bir genişlənmə yeni problemlər, yeni vəziyyətlər meydana çıxarır. Bu genişlənmə istiqamətində bir insanın azadlığı başqasının azadlığına təhlükə yaradır. Ona görə də hər kəs öz azadlığını başqalarından qorumağa məhkumdur. *Tənhalıqda bəşəri azadlıq yoxdur,* çünki tənha insan rəqabətdən məhrumdur. Rəqabət azadlığın mənbəyidir. Azad olmaq üçün insan daim fəal şəkildə ictimai həyata müdaxilə etməlidir.

Azadlıq rahatlıqdırmı? İnsanların fiziki rahatlığa və rifaha meyli onları daim kölə vəziyyətinə salır. Rahatlıq ruhu tədricən passivləşdirir. Passiv ruhu isə ram etmək asandır. Ona görə də azadlıq daim narahatlıq, əzab və gərginlik tələb edir. İnsan yalnız o halda bütün varlıqların əşrəfi hesab oluna bilər ki, o özündə başqa varlıqlardan fərqli olaraq hansısa «ilahi sifət» tapa bilsin. Azadlıq ən mühüm ilahi keyfiyyət olduğundan, azadlığa yiyələnmiş insan ilahi təbiətli olur və bunun naminə çəkilən əzab və əziyyətlər yaşamağın dəyərini yüksəldir. Məhz bu səbəbdən İsa peyğəmbər Allaha yaxın olmaq üçün insanlara *əzabdan zövq almağı* tövsiyyə etmişdir.

Azad olmaq həm də ona görə çətindir ki, azadlığı insana hədiyyə kimi vermirlər. Azadlıq mübarizədə qələbənin mükafatı kimi əldə edilir. Belə mükafat fəal, təşəbbüskar, yaradıcı insanlara qismət olur. Tənbəllik, passivlik isə köləliyə aparır. Azadlıq əldə etmə özü bir peşədir. Hər bir peşə müxtəlif vərdlişlər, davranış normaları, bacarıqlar və istedad tələb etdiyi kimi, azadlıq da insandan xüsusi vərdiş, bacarıq və istedad tələb edir. Azadolma insanın əsas peşəsi-

nə çevrilmədikcə o, kölə vəziyyətindən çıxa bilmir. Azadlıq sürəkli proses olduğundan, az bir zamanda çatılası mənzil yox, daim gediləsi yoldur. Azadlıq həyat tərzinə çevrildikcə, o vərdiş formasını alır. Azadolma istedadı və vərdişi olmayan insan çox asanlıqla azadlığını itirir.

Qazanılmamış azadlıq itirilmiş azadlıqdan daha yaxşıdır. Belə ki, insan üçün azadlığın itirilməsindən yaranan köləlik anadangəlmə köləlikdən daha dözülməzdir. Çünki qazanılmamış azadlıq üçün insanda azadlıq potensiyası saxlanılır, itirilmiş azadlıq isə artıq reallaşmış potensiyadır. Öz azadlığını itirmiş xalqın onu əldə etməsi heç vaxt azad olmayanın onu əldə etməsindən çətindir. Digər tərəfdən *azadlığın şirinliyini dadmış insan üçün köləlik daha acıdır*. Azadlıq hər bir insandan qazanmaqdan çox, itirmək tələb edir. Başqa sözlə, azadlığı qazanmaq, çox şeyi itirmək deməkdir. Özündən qurban verməyən insan azad ola bilməz. Azadlıq o qədər qiymətli dəyərdir ki, azad olmaq istəyən öz imtiyazlarından, sərvətindən, ailəsindən və hətta həyatından məhrum olmağa hazır olmalıdır. «*İmtina edə bildiklərin və qurban verə biləcəklərin qədər azad ola bilərsən*» şüarı azadlığın baş qanunudur.

Azadlıq mənəvi sərvətdir. Azadlıqdan maddi yararlanmaq və faydalanmaq cəhdi insanı gücsüzləşdirir. Tamahkar insan azad ola bilməz. Azadlığın gətirdiyi əzabdan həzz almağı bacarmayan, köləlikdən əzab çəkməyə məhkumdur. Azadlığın əzabını qəbul etməyən insan kölə olmağa məhkumdur. Maddiyyat mənəviyyatın inkarıdır. Ona görə də maddi olan mənəvi olanı inkar edir. Azadlıq vicdan, qeyrət, namus kimi mənəvi dəyərlərin bünövrəsini təşkil edir. *Azadlıq namuslu, vicdanlı, qeyrətli insanın sosial vəziyyətidir*. Mənən təmiz olmayan insan azad ola bilməz. Oğru, paxıl, xain, bədxah, natəmiz insanın azad olması bütövlükdə təhlükə mənbəyinə çevrilir. Ona görə də başqalarına təhlükə törətməyən insanın azadlığı həqiqi azadlıq hesab edilə bilər.

Azadlıq fərdi nailiyyətdir. Hər bir adam özünün qazandığı qədər azad ola bilər. Azadlıq mübarizəsində tamaşaçı rolunda çıxış edən və ya başqalarının mübarizəsi nəticəsində azad olacağına ümid edənlər kölə olaraq qalır. İnsanı kölə etmək istəyən qüvvələr həmi-

şə və hər yerdə hazırdır, amma azadolmada insan öz mənəvi aləmində təkdir. *Azad insanın rəqibi hamı və hər şey, köləninsə düşməni yalnız özüdür.* Düşməni çox olanın gücü də çox olmalıdır. Gücsüz insan azad ola bilməz.

İnam azadlığın lokomotividir. İnsan azad olacağına inandığı andan azad olmağa başlayır. Azadlığı təklikdə əldə edirlər, amma ondan kütləvi bəhrələnirlər. Yalnız özünə xeyir gətirən azadlıq həqiqi azadlıq hesab edilə bilməz. Həqiqi azadlıq yalnız kollektiv mənafeyə xidmət edən azadlıqdır. Azadlıq imtiyazdan daha çox vəzifə, səlahiyyətdən daha çox məsuliyyətdir.

İnsan azadlığı insana məxsusdur. *İnsan olmağı bacarmayan azad olmağı da bacarmaz.*

Azadlıq məhəbbətdir - azad insanlara, azadlıq mübarizəsinə, azadlıq vəziyyətinə olan məhəbbət. İnsan azad insana rəğbət bəsləməklə, başqalarının azadlıq mücadiləsinə dayaq olmaqla və azadlıq vəziyyətini alqışlamaqla özü də azad olur. *Köləliyə nifrət və azadlığa məhəbbət bəsləmədən azad olmaq çətindir.*

DEMOKRATİKLƏŞMƏNİN BƏZİ ASPEKTLƏRİ HAQQINDA MÜLAHİZƏLƏR

Xalqların antidemokratik seçkilərdə iştirakı diktaturaların köklərini möhkəmləndirir.
C.Soros

Azərbaycan cəmiyyətinin qarşısında duran əsas vəzifə bu gün dünyada gedən ümumi ictimai-siyasi hadisələrlə ayaqlaşmaqdır. Gənc dövlətimizin müstəqilliyini qorumaq nə qədər vacibdirsə, onun dünya ailəsinə inteqrasiyası bir o qədər vacibdir. Bu yalnız Avropa standartlarına uyğun məhsul istehsal etmək və ya Avropa təşkilatlarına üzv olmaqla məhdudlaşmır. Ən vacib olanı ictimai münasibətlərimizi Avropanın demokratik dəyərləri əsasında yenidən qurmaqdır. Əgər xalqımız zamanın bu günki diqtəsinə uyğun yenidən qurulmasa, çox güman ki, azadlıq naminə verdiyimiz bütün qurbanlara baxmayaraq, böyük öndərimiz M.Rəsulzadənin dediyi kimi mütləq başqa xalqlara "yem olacağıq". Daha təhlükəli olan isə budur ki, Azərbaycan dövlətinin və millətinin mövcudluğu böyük sual altına düşəcəkdir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, hər bir siyasi cəmiyyətin özünə xas olan dəyərlər toplusu vardır, hansı ki, cəmiyyət qanunları əsasında duraraq cəmiyyət həyatında ictimai münasibətləri tənzimləyir. Demokratik cəmiyyət də bu mənada istisna təşkil etmir. Biz, bu məqalədə demokratik dəyərlərin hər birindən xüsusi halda danışmadan birbaşa *ümumdemokratik dəyərlərə münasibət* haqqında fikirlərimizi oxucularla bölüşmək istəyirik.

K.Manheym "Bizim dövrün diaqnozu" əsərində demokratiya şəraitində dəyərlərin planlaşdırılmasında aşağıdakı prinsiplərin rəhbər tutulmasını zəruri hesab edir:

1. Dəyərlərdə özünün tam *qeyri-maraqlı olmağından imtina*. Biz dəyərlərə münasibətdə mövqe seçməkdə qorxmamalıyıq .

2. Dəyərlərin demokratik siyasətini həyata keçirmək üçün hər bir vətəndaşın şüuruna o faktı çatdırmaq lazımdır ki, demokratiya yalnız onda irəliləyə bilər ki, *demokratik özününizam konkret problemlərdə insanların fikirləri detallarda üst-üstə düşməsə də onları ümumi işin xeyrinə razılaşma əldə etmək üçün oyandımaq dərəcəsində güclü olsun*.

3. Demokratik siyasətdə konfliktləri yumşaltmaq və uyğunlaşma mexanizminin pozulmasını düzəltmək vəzifə deyil, ondan sonra onlar aydın fakta çevrilirlər. Bu siyasət cəhd etməlidir ki, əsas məsələlər üzrə *razılaşdırılmış dəyərlərə* çatılsın.

Manheymin müəyyən etdiyi prinsiplərin Azərbaycanın çağdaş demokatik siyasətində necə reallaşmasına qısa nəzər salaraq ölkəmizdə baş verənlərin səbəblərini aşkarlaya və milli çərçivədə dəyərləri, xüsusən demokratik dəyərləri planlaşdıra bilərik. Əvvəla, bu gün demokratik dəyərlərə münasibətdə cəmiyyətdə birmənalı mövqe yoxdur. Biz demokratik dəyərlərə mövqeyinə görə vətəndaşları üç ümumi qrupa bölə bilərik: a) demokratiyanın *aşkar əleyhdarları;* b) demokratiya uğrunda *aktiv mübarizə aparanlar;* v) demokratik dəyərlərə *biganə olanlar*. Hər üç qrupun həcmi və hakimiyyətə münasibəti konkret ölkədə demokratiyanın taleyini həll edir. Belə ki, demokratiyanın aşkar əleyhdarları və ya demokratiyaya laqeyd olanların çoxluq təşkil etdiyi cəmiyyət heç vaxt demokratikləşmir, yalnız demokratiya uğrunda mübarizə aparanlar fəal və güclü olduqda çoxluq təşkil etdikləri cəmiyyəti demokratikləşdirirlər. İdealist demokrat olmadığımızdan çoxumuz demokratik dəyərləri istənilən uydurma *subyektiv mülahizələrə* qurban veririk. Bir çox məqamlarda qrup marağımızı rəhbər tuturaq, ümumdemokratik proseslərə təhlükə yaradan hadisələrə münasibət bildirmirik. Bəziləri isə özlərinin millətçi və ya solçu baxışlarına ləkə düşməsin deyə, demokratik dəyərlərin tapdanmasına göz yumur.

Demokratikləşmə üçün ikinci mühüm məsələ cəmiyyətdə *konsensusun əldə olunmasıdır*. Konsensus demokratiyanın iki mühüm prinsipindən biridir. Hansı ki, demokratikləşmənin dərəcəsini cə-

miyyətin buna nə dərəcədə hazır olması ilə müəyyən etmək olar. Bu gün Azərbaycan siyasətində konsensusa iki cür yanaşma müşahidə olunur. Biriləri bunu demokratik mövqelərdən geri çəkilmə kimi, digərləri *başqası üzərində mütləq üstünlük əldə etmək* kimi dərk edir. Konsensusun mahiyyəti ondan ibarətdir ki, hətta *ən güclü tərəf belə, şüurlu şəkildə öz açıq üstünlüklərinə baxmayaraq, siyasi qərarlarında zəif tərəflə hesablaşsın*. Burada məqsəd təzəcə yaranmış və ya rüşeym halında *olan yeninin perspektiv inkişafına* zəmin yaratmaqdır. Konsensusa çatmaq üçün ən böyül milli maraqlardan və ən ümdə prinsiplərdən başlamaq və demokratikləşmə inkişaf etdikcə tədricən kiçik maraqlara və xüsusi prinsiplərə doğru irəliləmək lazımdır. Bunun üçün razılaşmaya əngəl olan bütün ziddiyyətlər gündəmdən çıxarılmalı, yalnız əməkdaşlığa imkan verənlər saxlanılmalıdır. Unutmaq olmaz ki, *konsensus prinsiplərdən, ideyalardan, məsləkdən güzəşt yox, yalnız xüsusi maraq və mənafelərdən, ümumi maraq və mənafelər naminə güzəştdir.*

Azərbaycan cəmiyyəti keçid dövrünü yaşayır. Bu dövr totalitar cəmiyyətdən demokratik cəmiyyətə keçidlə xarakterizə olunur. Keçid dövrünün özü isə konkret hər hansı bir cəmiyyəti ifadə etmir. Keçid dövründə baş verən proseslərin tendensiyası bu proseslərdə iştirak edən hər bir vətəndaşın, liderin və ya qrupun şəxsi mövqeyindən asılıdır. İnsan cəmiyyəti mürəkkəb sistemlərə aid olduğundan, istənilən keçid mərhələsi *alternativli yollarla* inkişaf etmək perspektivinə malikdir. Azərbaycan hansı yolu seçib? Neçə ki, cəmiyyət keçid dövründədir, bu suala cavab vermək çətindir. Azərbaycanda indi ən müxtəlif cəmiyyətlərə keçid üçün müxtəlif tendensiyalar mövcuddur. Bunların hansının qalib gələcəyi isə Azərbaycan siyasətçilərinin hansı mövqedən çıxış etməsindən asılıdır. Bir-birini inkar edən mövqe ilə demokratiyaya nail olmaq, demokratiyanın başlaması üçün diqtə edilən yox, razılaşdırılan dəyərlərlə irəliləmək lazımdır. Demokratik təcrübəsi olmayan cəmiyyətlərdə bütün demokratik dəyərlərin hamısını eyni vaxtda və eyni dərəcədə reallaşdırmaq mümkün olmadığından, milli güclər zaman və məkan şərtlərini, ölkənin resurslarını – insan, maliyyə və s. eləcə də xalqın hazırlıq səviyyəsini və beynəlxalq vəziyyəti nəzərə alaraq demokra-

tik dəyərlərin planlaşdırılmasına seçmə qaydasında yanaşmalıdırlar. Unutmaq olmaz ki, heç bir ideal demokratik prosedurun və ya dəyərin qəbul edilməməsindənsə, hər hansı razılaşdırılmış prosedur və dəyər cəmiyyət üçün böyük fayda verə bilər.

Demokratiya üçün *sterotip* vacib amildir. Demokratiyada hər şeyi *insan faktoru* həll edir. S.Nirinq özünün "Azadlıq; vədlər və təhdidlər" əsərində keçid dövrünün xüsusiyyətlərini şərh edərkən yazır: "O zaman ki, transformasiya dövrü son mərhələsinə qədəm qoyur, əsrin cəmiyyətinin sosial təşkilatlarının gücü elə səviyyəyə çatır ki, nəzarət və idarəetmə, stabillik və təhlükəsizlik erasının gəlməsindən xəbər verir, onda istənilən ictimai razılıq siyasətdə məcburiyyətdən azadlığa tərəf dönüş baş verir. Əgər transformasiya dövründə siyasət eqoistik, tamahkar və uzaqgörən olmayan adamlar tərəfindən həyata keçirilirsə, əgər bu adamlar kobud səhvlərə yol verirsə, əgər onlar şəxsiyyətə pərəstiş və tiraniya yaradırlarsa, əgər onlar daxili vəziyyətdəki ziddiyyətlərdən qaçmaq üçün xarici hamilərə söykənirlərsə, vəziyyət ağırlaşacaq, ölkə daxilində mübarizə kəskinləşəcək və daha uzun vaxt davam edəcək, daxili siyasətdə azadlıq-məcburiyyət balansında ağırlıq mərkəzi əvvəki kimi məcburiyyətin üzərinə düşəcək." İndi hər bir ölkə vətəndaşı Azərbaycanda insan hüquq və azadlıqlarının pozulmasından əzab çəkir. Beynəlxalq ictimaiyyət Azərbaycanı *repressiv cəmiyyət* kimi tanıyır, insan hüquqlarının vəziyyətini əsas götürərək Azərbaycan bir çox sanksiyalara məruz qalır. Səbəb isə sadədir. Azərbaycan insanı – ölkə siyasi səhnəsində fəallıq göstərənlər - burnundan uzağı görə bilməyən adamlardır. Siyasi münasibətlərdə eqoizm qabarıq şəkildə özünü göstərir. Siyasi liderlər siyasi situasiyalardan baş çıxara bilmir, qəbul edilmiş qərarlar reallığa uyğun olmur, kobud səhvlər bir-birini əvəzləyir, merkantilizm və praqmatizm bəzi siyasi dairələrin həyat prinsiplərinə çevrilmişdir. İqtidar dövlət başçısı ətrafında şəxsiyyətə pərəstiş kultu yaradır. Müxalifətdə də avtoritar liderlər yetişməkdədir. Bəzi siyasi liderlər üzünü xalqa tutmaq əvəzinə, xarici ölkələrdə dayaq axtarır. İqtidar isə ölkə problemlərinin həllini öz üzərinə götürməkdənsə, xalqın sərvətinin talanması hesabına xarici hamilərə üz tutur. Ölkədə total böhran günbəgün

dərinləşir. Gizli qarşıdurma vətəndaş qarşıdurmasına doğru inkişaf edir. Ölkə siyasi azadlıqlar və qanunlarla yox, inzibati amirlik üsulu və qadağalar əsasında idarə olunur. Keçid dövründə siyasi qüvvələrin bu keyfiyyətdə çıxış etməsi Azərbaycanı *feodalizasiyaya* məruz qoymaqdadır.

Demokratiyadan danışarkən *demokratik prosedurların*, xüsusən, *seçkilərin* əhəmiyyətini xüsusi ilə qeyd etmək lazımdır. Hər bir siyasi partiyanın ümdə vəzifəsi seçkilərə hazırlaşmaq və paralel olaraq xalqı seçkilərə hazırlamaqdır. *Seçkilər - demokratik cəmiyyətdə inqilabları əvəz edən və inqilabi dəyişikliklərə gətirib çıxaran demokratik prosedurlardandır.* Amma çox təəssüf ki, Azərbaycanda hər dəfə seçkilərə start veriləndə cəmiyyət belə bir dilemma qarşısında qalır: seçkiyə qatılmaq, yoxsa onu boykot etmək? Hər iki mövqenin tərəfdarları öz mövqelərinin düzlüyünü sübut etmək üçün istənilən qədər "əsaslı arqumentlər" gətirə bilərlər. Amma "təcrübə həqiqətin meyarıdır" prinsipindən çıxış etsək, 1993-cü ildə Azərbaycanda keçirilən bir neçə seçkinin nəticəsindən görə bilərik ki, ölkədə totalitar rejim yaranmış və getdikcə möhkəmlənməkdədir.

Seçkilərin əsas problemi vətəndaşın seçkinin əhəmiyyətini düzgün anlamasıdır. 1998-ci il 11 oktyabr prezident seckiləri ilə bagli ATƏT-in hesabatında utancverici belə bir fikir əks olunmuşdu ki, "Azərbaycan seçicisi seçkinin nə olduğunu dərk etmir". Seçkiləri anlamayan seçicilərin çoxluq təşkil etdiyi və hakimiyyətlərin seçki yolu ilə formalaşmadığı cəmiyyətlərdə keçirilən müxtəlif səviyyəli seçkilərin nəticələrini təhlil edərkən üç qanunauyğunluğu aşkarlamaq mümkündür:

1. Əgər idarə edənlər demokratikləşmə istəmirlərsə - bunu *siyasi iradə* kimi də ifadə etmək olar - və hər cür üsullarla ölkədə totalitar rejimi saxlamağa cəhd edirlərsə, onda *xalqın demokratikləşməyə birtərəfli aşağıdan inadlı cəhdi rejimi dəyişmir, olsa-olsa cəmiyyəti vətəndaş qarşıdurmasına doğru aparır* və bu zaman sosial inqilab qaçılmaz olur. Biz bunu demokratikləşməyə cəhd edən olkələrin istər keçmiş, istərsə də müasir seçki təcrübələrində müşahidə edirik. Belə ki, Çilidə xunta yaratmış, silahlı yolla hakimiyyətə gəlmiş və xalqa qarşı ardıcıl repressiya siyasəti aparan Pinoçet rejiminin dəy-

işdirilməsi yalnız özünün ölkədə demokratik seçkilərin keçirilməsinə razılaşması və BMT tərəfindən seçkilərin keçirilməsinə icazə verdikdən sonra mümkün olmuşdur. Buna qədər Çilidə keçirilən seçkilər heç bir dəyişikliyə gətirib çıxarmamışdır. Eləcə də İspaniyada faşist diktator Franko ölənədək 40 il hakimiyyətdə qalmış, seçkilərin keçirilməsinə imkan verməmiş, yalnız ölənə yaxın demokratik seçki keçirilməsinə razılıq vermiş və elə ilk seçkidə də sosialistlərə uduzaraq hakimiyyətdən getmişdir.

2. Hər dəfə xalq kütlələri seçkilərə qatıldıqdan sonra onun nəticələri tam saxtalaşdırılırsa, *xalqın seçki yolu ilə cəmiyyətin dəyişilməsinə inamı sarsılır və o getdikcə apolitik vəziyyətə düşür.* Nəticədə növbəti seçkilərdə demokratik qüvvələr xalqı seçkilərə cəlb etmək üçün daha çox səy göstərməli olur. *Xalq nə qədər çox antidemokratik proseslərdə iştirak edirsə, onun demokratiya haqqında anlayışı və demokratiyaya inamı bir o qədər deformasiyaya uğrayır.* Digər tərəfdən, antidemokratik oyunlarda iştirak edən qüvvələr də demokratiyadan uzaqlaşmağa meyllənir. Beləliklə, *rejimin islah olunması əvəzinə, demokratik qüvvələrin deqredasiyası baş verir, nəticədə totalitarizm möhkəmlənir.*

3. Əgər diktatura şəraitində demokratik qüvvələr de-fakto hər hansı bir nailiyyət əldə edirsə və həmin nailiyyətlər sistemin dəyişilməsinə kifayət etmirsə, onda seçkilərdən sonra rejim tərəfindən repressiyalar şiddətlənir. Əldə edilən nailiyyətlərlə repressiyalar düz mütənasiblik təşkil edir. Məsələn, 1995-ci ildə Azərbaycanda keçirilən parlament seçkiləri yüzdə-yüz saxtalaşdırıldı, müxalifət de-fakto nailiyyətinin əlindən alınmasına müqavimət göstərmədi, bundan sonrakı dövrdə rejim ciddi repressiyalara əl atmadı. Amma 1998-ci il prezident seçkiləri zamanı demokratik qüvvələrin seçkilərin saxtalaşdırılmasına müqaviməti və seçkilərdə total saxtalaşdırmadan rejimi çəkindirmək cəhdi seçkilərdən dərhal sonra demokratik qüvvələrə qarşi kütləvi repressiyalarla müşayət olundu. Əlcəzairdə və Türkiyədə demokratik yolla islamçı qüvvələrin böyük çoxluq əldə etməsi heç də onların hakimiyyət arzularını reallaşdırmadı. Fələstində isə seçkilərdə kifayət qədər mandat qazanmış radikallar hakimiyyətə buraxılmadı. Bütün bunların səbəbi seçkilərin

nəticələrinə uyğun bu ölkələrdə siyasi rejimin dəyişdirilməsinin mümküm olmaması idi. Hətta Əlcəzairdə bir gecədə demokratik yolla seçilmiş müxalif insanlar kütləvi şəkildə terror edildi, eləcə də son illər ayrı-ayrı Afrika ölkələrində seçkilərin nəticəsi yeni *demokratik siyasi situasiya* yaratmır, əksinə, bir qayda olaraq vətəndaş qarşıdurması ilə nəticələnən hadisələrə səbəb olur. Qeyd edim ki, bu yazı işiq üzü görəndən çox-çox sonralar açıq cəmiyyət ideyasının alovlu tərəfdarlarından olan C.Soros da yuxarıda epiqraf seçdiyimiz fikrə gəlmişdir.

4. Seçkilər üçün *seçkiönü vəziyyət* müstəsna əhəmiyyət daşıyır. Məhz bu mərhələdə demokratik müxalifət seçkilərdəki qələbəsini reallaşdıracağı ölçüdə rejimi islah etməlidir. Bu vəzifəni yerinə yetirə bilməyən müxalifət yalnız seçki günü əldə etdiyi qələbə ilə heç bir fundamental dəyişikləyə nail ola bilməz. Başqa sözlə, *hakimiyyət dəyişilmələri seçkiyə qədər başlayır, seçkilərlə başa çatır*.

5. Beynəlxalq güclərin milli səviyyədə keçirilən seçkilərlə bağlı mövqeyi seçki saxtakarlıqlarının qarşısının alınmasında və seçkilərin nəticələrinin tanınmasında müstəsna əhəmiyyət kəsb edir. *Beynəlxalq demokratik güclərin aşkar müdaxiləsi, iştirakı, təzyiqi və təsiri olmadan dünyanın heç bir yerində və heç vaxt milli güclər həqiqi demokratiyaya - dinc hakimiyyət dəyişilmələrinə nail ola bilməz və ya demokratik seçkilər baş tuta bilməz*. Ukrayna və Gürcüstanda "məxməri inqilab"ların qələbəsi ilə digər postsovet respublikalarında seçkilərin heç bir nəticə vermədiyini müqayisə etsək, bu proseslərdə üçüncü tərəfin - dünya demokratlarının aktiv müdaxiləsinin necə rol oynadığını görə bilərik.

Antidemokratik rejimlərdə demokratik qüvvələrin əsas vəzifəsi *diktaturanın demokratiya ilə boyanmasının* qarşısını almaq olmalıdır. Məhz buna görə rejimin demokratik oyunlarından imtina etmək, onu "*ofsayd*" vəziyyətinə salmaq lazımdır. Bunun üçün boykot ən sınanmış üsullardandır. Hindistanın milli azadlıq hərəkatının təcrübəsi göstərir ki, boykot hər hansı silahlı mübarizədən daha güclü silahdir. Boykot siyasi mədəniyyətin məhsulu olub, siyasi qüvvələrdən *prinsipiallıq, ardıcıllıq, əqidəlilik və birlik* tələb edir. Məhz bunların çatışmazlığından transformasiya dövründə "daxili siyasətdə

azadlıqla məcburiyyətin balansında ağırlıq mərkəzi məcburiyyətin üzərinə düşür".

Demokratik dəyərlər içərisində ən mühüm prinsiplərdən biri *tolerantlıqdır*. Belə ki, *demokratiya - alternativlik, fikir plüralizmi şəraitində qarşılıqlı dözüm və cəmiyyətin təşkil olunmasıdır.* Diktatura mahiyyətli indiki iqtidar bir tərəfdən müxalif fikrə hər cür böhtanla cavab verir, digər tərəfdən isə, əlində cəmləşdirdiyi rəsmi və qeyri rəsmi güclərlə müxalif liderlərə və fəallara qarşi zorakılığa, qeyri-insani rəftarlara əl atır. Müxalifətin özündə də tolerantlıq zəifdir. Hər hansı müxalif lider və ya qrup haqqında deyilən tənqidi fikrə dərhal daha çox antidemokratik üsul və vasitələrlə cavab verməyə cəhd edir. Nəticədə eyni cəbhə daxilində qarşılıqlı tənqidi yanaşma *müxalifətdaxili qeyri-rasional konfliktlərə keçir.* Bu da cəmiyyətdə demokratrik qüvvələrin real inteqrasiyasına imkan vermir və bunu süni bloklaşma əvəz edir.

Demokratik dəyərlərin ictimai şüurda kök salmaması siyasi münasibətlərdə *traybalizm, yerlibazlıq və kriminal* münasibətlərin intişar tapmasına səbəb olmuşdur. Keçid dövrü yaşadığımız bu dövrdə bu cür meyllər cəmiyyəti nəinki irəli aparmır, əksinə, xalqı yenidən öz qaranlıq keçmişinə meylləndirir. Makiyavelli haqlı olaraq qeyd edir ki, "azadlıq enerjisi kifayət qədər olmayan xalqların azadlıq mübarizəsi onları daha ağır şərtlərdə köləliyə salır". Azərbaycanda da siyasi güclərin demokratik dəyər və prosedurlara kifayət qədər önəm verməməsi, demokratiyaya ardıcıl sədaqət və inam nümayiş etdirməməsi cəmiyyəti daha ağır antidemokratik məcraya yönəldir.

P.S. Məqalə "Qanun" jurnalının 1999-cu il (65) 9 saylı nömrəsində çap olunmuşdur.

QLOBAL BÖHRAN

Qlobal demokratik böhran

Bu gün dünya ilk dəfə olaraq qloballaşma böhranını yaşamağa başlamışdır. Kürəsəl istiləşmədən sonra qlobal iqdisadi böhran dünyanın iqdisadi sistemini təhdid etməkdədir. Hələ ki, qloballaşmanın bütün dünyanı əhatə etmədiyini, kifayət qədər geridönməz xarakter almadığını və buna baxmayaraq indiki böhranın kosmik ölçülərdə fəsadlar törətdiyini nəzərə alsaq, gələcəkdə bəşəriyyəti əhatə edəcək qlobal dəyişilmələrin böhranının da bütün dünyanı məhv edə biləcək gücdə olacağını proqnozlaşdıra bilərik. Bizcə qlobal böhran lokal va regional böhranlardan fərqli elmi yanasma tələb edir.

Hər şeydən öncə unutmaq olmaz ki, son vaxtlar bəşəriyyəti təhdid edən kürəsəl istiləşmə, qlobal idtisadi böhran və bütün dünya boyu insan göstəricilərinin pisləşməsi bir-biri ilə sıx əlaqəsi olan vahid bir proses kimi təzahür edir və bu istiqamətdə hər hansı bir sahədə böhrana qarşı mübarizə digər sahələri da əhatə etmədikcə ayrılıqda heç bir böhranın qarşısı alınmayacaq. Bu gün qlobal igtisadi böhrana qarşı bütün dünya boyu görülən tədbirlərin az nəticə verməsi və ya ən yaxşi halda müvəqqəti olaraq neqativ prosesləri zəiflətmək üçün yetərli olması dediklərimizi bir daha sübut edir.

Biz bu məqalədə qlobal iqtisadi böhranı müşayət edən ictimai inkişafın böhranı-qlobal demokratik böhran haqqında bəzi mülahizələrimizi oxucularla bölüşməyə çalışacağıq. İlk öncə qeyd etmək lazımdır ki, qlobal böhran lokal böhranlardan onunla fərqlənir ki, o ictimai həyatın digər sahələrində meydana çıxan böhranlı vəziyyətlərlə sıx bağlıdir və qlobal böhranı milli çərçivədə həll etmək mümkün deyil. Bu sonuncu isə elə universal beynəlxalq normalar

tələb edir ki, bu normalar çərçivəsində effektli tədbirlər görmək mümkün olsun. Hər şeydən əvvəl qeyd etməliyik ki, *qlobalizasiya demokratiyanın təzahürü kimi meydana çıxıb* və demokratiyanın genişlənməsi və yayılmasını tələb edir. Məhz buna görə qlobal iqtisadi böhranın bir səbəbini dünya demokratiyasında müşahidə edilən geriləmələrdə - demokratiyanın genişlənməsi və yayılmasında yol verilən səhvlərdə və antidemokratik proseslərin inkişaf meyllərində axtarmalıyıq.

Qlobal demokratik böhranın səbəblərini üç qrupa ayırmaq olar: *inkişaf etmiş ölkələrdə demokratik geriləmələr; demokratiyaya keçid dövrü yaşayan ölkələrdə baş verən neqativ tendensiyalar; demokratiyaya müqavimət göstərən qlobal güclərin fəaliyyəti.*

Heç şübhəsiz, demokratiyanın böhrana düşməsinə görə məsuliyyət ilk növbədə inkişaf etmiş demokratik *dövlətlərin* və xüsusən *könüllü olaraq demokratikləşmənin təminatçısı kimi çıxış edən dövlətlərin və demokratikləşməyə xidmət etməli olan və məhz buna görə təsis edilmiş beynəlxalq təşkilatların* üzərinə düsür. İnkişaf etmiş dövlətlərdən qaynaqlanan böhranın səbəblərinə daxili va xarici siyasətdə ardıcıl buraxılan siyasi səhvləri aid etmək olar. Belə ki, müasir dövrdə əksər dövlətlərin xarici və daxili siyasətində *rifah uğrunda mübarizə* dəyərlər uğrunda mübarizəni sıradan çıxarıb. Müasir dünya *dəyər nihilizmi* dövrünü yaşayır.

Rifah bolluğu şəraitində Qərbin inkişaf etmiş ölkələrində elmə, təhsilə maraq azalıb. Bu gün Böyük Britaniya kimi inkişaf etmiş böyük bir dövlətdə 10 milyondan cox savadsız, hətta ibtidai təhsili olmayan insan yaşayır. İngiliş hökümətinin savadsızlığın ləğvi ilə bağlı ayırdığı 4 milyard funtsterlinqin oxumaq istəyənlərin və dərs demək həvəsində olan müəllimlərin olmaması ucbatından xərclənməmiş qalması heyrət doğursa da, rəsmən etiraf olunmuş acı reallıqdır. Digər demokratik dövlətlərdə də təhsil sahəsində vəziyyət təxminən eynidir. Təhsilsiz demokratiya olmadığından, Qərb ölkələrində savadsızlığın artması vətəndaşların dəyərlərə istiqamətlənməsində də ciddi problemlər yaradır və bu proses sürətlə inkişaf etməkdədir. Unutmaq olmaz ki, *demokratiya uğrunda mübarizə ilk növbədə onun haqqında zəruri bilik əldə etməkdən* başlayır.

Digər mühüm bir problem iqtisadi inkişafla demokratik *inkişaf arasında disproporsiyanın* yaranmasıdır. Belə ki, bir qayda olaraq hakimiyyətdə olan Qərb liderləri üçün sosial-iqtisadi problemlərin həlli prioritet təşkil edir, əvəzində dəyərlərə münasibətə axırıncı məsələ kimi baxılır. Buna görə də Qərbin iqtisadi həyatı demokratik həyatından sürətlə inkişaf edir. Bu isə Qərb insanını *dissonnans* vəziyyətinə salır. Digər tərəfdən isə bu ölkələrdə demokratiyanın geridönməzliyinə inam onların liderlərində *arxayınçılıq* yaradıb.

Qeyd etmək lazımdır ki, demokratiyaya elmi-fəlsəfi baxiş da müasir cəmiyyətin inkişaf tempindən çox geri qalıb. Biz hələ də demokratiyaya baxışlarımızda Platonun baxışlarından çox da uzağa gedə bilməmişik. Hansı ki, həmin baxışlar yalnız *başlanğıc lokal demokratikləşmə* üçün həqiqət ola bilər. Başqa sözlə, qlobal demokratiyanın elmi-fəlsəfi şərhi va prosesləri istiqamətləndirəcək *ümumiləşdirici universal prinsiplər, yeni kriteriyalar hələ də* müəyyənləşməmişdir. Xüsusən qloballaşan demokratiyaya elmi yanaşma mövcud deyildir.

Qərb cəmiyyəti yalnız rifah bolluğunda hədsiz qidalanmadan yox, həm də durmadan artan *azadlıq bolluğundan-demokratik* "*OBİZETE*" dən əziyyət çəkir.

İnkişaf etmiş ölkələrdə işlək demokratik prosedurlara arxayınçılıq bir tərəfdən vətəndaşlarda passiv iştirakçılıq meyli yaradır, nəticədə *demokratlarsız demokratiya* yaranır, digər tərəfdən tədricən belə şəraitdə vətəndaşları mövcud dəyərlər sistemində güclə saxlamaq naminə inkişaf edən *avtoritar demokratiyaya* meyl müşahidə olunur. Yerli xalqların azadlıq uğrunda apardığı mübarizəsinə real dəstəkdən imtina etməsi Qərb dövlətlərini də avtoritar demokratiyaya sürükləyir. Avtoritar demokratiya isə demokratik dəyişilmələri imperativlər əsasında inkişaf etdirir və imperativlər dayandıqda proseslər də dayanmış olur.

Xarici siyasətdə demokratikləşmədə nailiyyətsizlik ilk növbədə prioritetlərin müəyyənləşməsində özünü göstərir. Bu gün heç kimə sirr deyil ki, istənilən Avropa dövləti, o cümlədən ABŞ üçün demokratiya məsələsi prioritetlər siyahısında ən yaxşı halda üçüncü yerdə durur. Nəticədə demokratiyanın dəstəklənməsi arxa plana keçir ki, bu da demokratiyanın genişlənməsinə mane olur.

Qərb dövlətlərinin qlobal demokratikləşməyə dəstək verməsində ən ciddi problemlərdən biri müasir beynəlxalq hüquqi prinsiplərdir. Məlumdur ki, II dünya müharibəsindən sonra yaranmış ikiqütblü dünyada dövlətlərarası münasibətləri tənzimləmək üçün bir çox prinsiplər, o cümlədən “dinc yanaşı yaşamaq” və “daxili işlərə qarışmamaq” prinsipləri qəbul edilmişdir. Bu prinsiplər demokratiyanı özünün iç işi hesab edən dövlətlərdə onu dəstəkləməyə imkan vermir və hətta bu prinsiplərə sədaqət siyası rejimlərin yaratdığı humanitar fəlakətlər şəraitində belə, bu dövlətlərə dözumlü yanaşmağa gətirib çıxarmışdır. Artıq bu gün dünyada sosialist sistemi iflasa uğradıqdan sonra meydana çıxan birqütblü dünya ilə əvvəllər mövcud olmuş və ikiqütblü dünya prinsipləri arasında ziddiyyət meydana çıxmışdır ki, bu ziddiyyətlər həll edilmədikcə demokratik dövlətlərin demokratiyanı yaymaq cəhdləri nəticəsiz qalacaqdır. Bu baxımdan 2008-ci ildə ABŞ-da prezident seçkilərində pespublikaçıların namizədi Makkeynin ideyaları təqdirəlayiqdir. O, təklıf edirdi ki, BMT kimi köhnəlmiş beynəlxalq institutlar buraxılmalı, onların əvəzinə demokratik ölkələrin birliyi yaradılmalı və bu birlik demokratiya istəyən xalqlara hər cür aşkar dəstək verməlidir. Biz də bu ideyanın qlobal demokratik böhrana qarşı mübarizədə təsirli olacağına inanırıq.

Bu gün Qərbdə hakim demokratik baxışları *vətəndaşlıq demokratiyası* kimi dəyərləndirsək, səhv etmərik. Qərb üçün artıq demokratiyaya baxış öz universallığını itirib, əvəzində demokratiyanın mudafiəsində seçim prinsipi özünə yer tutub. Başqa sözlə, *demokratiya universal dəyər olmaqdan çıxıb* və Qədim quldarlıq Romasında olduğu kimi, kiməsə insan olduğuna görə yox, hansı dövlətin vətəndaşı olduğuna görə demokratik dəyərlərdən yanaşılır. Nəticədə Asiya, Afrika, Simali Amerika ölkələrində mübarizə aparan demokratlar ciddi beynəlxalq dəstəkdən məhrum olublar.

Demokratikləsmənin qlobal böhranın digər səbəblərinə *demokratiyaya keçidlə* bağlı yaranan problemləri ayırd etmək olar. Demokratiyaya keçiddə meydana cıxan və geniş yayılmış tendensiya *demokratiyadan sui-istifadədir*.

Təcrübə göstərir ki, bir çox hallarda demokratik dəyişilmələrdə həqiqi azadlıq sevənlərlə C.Lambrozonun təbirincə desək, *təzahür*

etməyən cinayətkarlar çiyin-çiyinə mübarizə aparır və demokratikləşmə başlayanda həmin qruplar azadlıq sevənlərdən ayrılaraq öz real maraqlarına xidmət etməklə ümumi prosesə ciddi zərbə vururlar. Digər tərəfdən, *azadlıq təcrübəsi olmayanların* demokratikləşmədə iştirakı bir qayda olaraq sui-istifadə halları ilə muşayət olunur. Keçmiş sosialist məkanında demokratiyaya keçiddə yüzlərlə partiyaların, müstəqil qəzetlərin, fəaliyyətsiz QHT-lərin yaranması məhz bununla bağlıdır. Demokratiyaya keçid ölkələrində digər bir qüsür *siyasi və ictimai gücün paylanmasında* yaranan problemlərdir. Məlumdur ki, hakimiyyət bölgüsü siyasi gücün elə ədalətli paylanmasını tələb edir ki, heç bir güc vətəndaşı məhvedici imkana malik olmasın. Eləcə də ictimai güc elə paylanmalıdır ki, o yaradıcılığa təkan versin, mümkün qədər daha çox insan cəmiyyətin və dövlətin həyatında iştirak etsin və hər kəs üzərinə götürdüyü öhdəliyi yerinə yetirə bilsin. Bunun əksinə, ictimai gücün paylanmaması və ya bir neçə sosial funksiyanı eyni bir adamın icra etməsi ona gətirib cixarır ki, həmin gücü təmsil edənlər öz vəzifələrinin öhdəsindən gələ bilmir. Beləliklə, demokratiyaya keçiddə eyni bir şəxsin eyni vaxtda paralel olaraq həm siyasətdə, həm mətbuatda, həm də qeyri dövlət təskilatlarında təmsil olunması demokratikləşməni ləngidən ciddi səbəblərdən birinə cevrilir. *Azadlıqda ölçü hissinin itməsi* son nəticədə demokratiyanın böhranına səbəb olur.

Demokratiyaya keçiddə digər ciddi bir problem demokratiyanın imitasiyasının təzahürü kimi meydana çıxan *formal demokratiyaların yaranmasıdır.* Belə ki, tarixi təsadüfdən meydana çıxan və ya beynəlxalq güclərin təzyiqi altında zorən "demokratikləşməyə cəhd edən ölkələrdə kifayət qədər azadlıq enerjisi olmayan və ya *azadlıq uğrunda mübarizədən tez yorulan* xalqlarda demokratiyaya keçiddə yubanmalar formal demoktatiyanı meydana çıxarır. Formal demokratiya faktiki vəziyyətlə formal vəziyyətin bir-biri ilə ziddiyyət təşkil etməsindən yaranır. Belə rejimlərdə formal siyasi sistemdə demokratiya, təcrübədə isə avtoritarizm müşahidə olunur. Belə ki, siyasi partiyalar mövcud olur, amma *siyasi plüralizm* inkişaf etmir, azad mətbuat mövcud olur, amma *gizli və açıq senzura* tətbiq edilir, QHT-lər yaranır, amma onlara *dövlət nəzarəti* hayata keçirilir. Qeyd

etmək lazımdır ki, formal demokratiya avtoritar demokratiyanın yaranmasını müşayət edir və ikincinin nəticəsi kimi doğulur. Formal demokratiya həm də maraqların *demokratik şüarlarla pərdələnməsindən* qaynaqlanır. Belə ki, bəzi demokratik dövlətlər öz xarici siyasətlərini demokratiyanın müdafiəsi adı ilə apardıqda avtoritar rejimlər bundan bəhrələnərək formalizmə əl atırlar. Formal demokratiya həm də *demokratik qüvvələrə formal dəstək* zamanı daha sürətlə inkişaf edir. Qeyd etmək lazımdır ki, formal demokratiya aşkar avtoritarizmdən də təhlükəlidir.Vaxtilə J.J.Russo deyirdi ki, zahirən demokratiyaya oxşar diktatura diktaturalar içərisində ən pisidir.

Demokratiyaya keçiddə digər bir problem *təcrübəsizlik* və *Qərbin demokratikləşmə təcrübəsinə* səhv yanaşmasıdır. Burada iki təhlükəli *hüdudi* mövqe mövcuddur; Qərb demokratiyasını olduğu kimi *kopiyalaşdırma* cəhdi – vesternizasiya və ya hər şeyi *sıfırdan başlama – milli "demokratik model" yaratmaq*. Tarix öyrədir ki, xalqlar eyni yolu təkrar getməyə məhkum edilməyib, əksinə, bir xalqın təcrübəsi digərinin inkişafında örnək olur va bir xalq digərinin təcrübəsi üzərində yüksəlir. Digər tərəfdənsə ictimai proseslər xalqdan xalqa xüsusi əlamətlər qazanaraq inkişaf edir.

Demokratiyaya keçiddə digər bir problem *resurs çatışmazlığıdır*. Məlumdur ki, demokratikləşmə *insan faktoru* ilə sıx bağlıdır. *Demokrat olmadan demokratiyaya xidmət etmək olmaz.* Qapalı cəmiyyətlərdən açıq cəmiyyətə keciddə *əski sterotiplər* bu mənada çox ciddi problemə çevrilir. *Iqtisadi* resurslar da demokratikləşmədə insan faktorundan az rol oynamır. Belə ki, bir tərəfdən pozitiv hüquqların təmin olunması, digər tərəfdən demokratik institutların inkişafı nəhəng maliyyə resursları tələb edir. Buna görə də *resurs çatışmazlığı* kasıb ölkələrdə demokratik inkişafı ləngidir.

Demokratiyanın inkişafında tələb olunan digər bir zəruri resurs *vaxtdır.* Demokrtatik islahatların həyata keçiriliməsində *vaxtın catışmazlığı və ya tələskənlik* eyni dərəcədə demokratikləşmənin əleyhinə işləyir.

Demokratiyaya keçiddə digər bir problem isə bu ölkələrin *disproporsional inkisafı* və problemlərin həllində *növbəlilik prinsipinin tətbiq edilməsidir.* Belə ki, bir çox ölkələrdə "*əvvəl iqtisadiyyat, sonra*

demokratiya" kimi düşüncələr demokratikləşmədə gözləmə mövqeyi yaradır, əvəzində antidemokratik səraitdə inkişaf edən iqtisadiyyat kriminallaşır va sonda belə iqtisadi sistem öz-özlüyündə demokratikləşməyə əngəl olur. Bizcə, iqtisadi inkişaf demokratik inkişafla paralel getmədiyi halda demokratiya qurban verilir və bu gün demokratiyaya keçid ölkələrinin əksəriyyətində eyni problemlər yaşanır. Bəzi ölkələrdə rəsmi dövlət orqanlarının inkişafı ilə q*eyri hökumət təşkilatlarının* inkişafinda üzə çıxan disproporsiya da demokratikləşmədə öz mənfi izlərini buraxır. Başqa sözlə, bu prosesin nəticəsində qələbə çalan *etatizm* demokratiyanın düşməni kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, demokratikləsmədə proporsionallığın gözlənilməsi bütün sahələrdə izlənilməlidir. Ilk öncə *sosial ədalət prinsipi* demokratik inkişafın əsasında durmalıdır. Bu prinsipin pozulması potensialı böyük ölkələrdə daha ciddi problemlər yaradır. Təcrübə göstərir ki, kasıb ölkələr varlılara nisbətən daha stabil demokratikləşir. Xammalla zəngin olan ölkələrdə dövlət çevrilişləri, üsyanlar, inqilablar və s. kimi sosial kataklizmlər sürətlə inkişaf edir. Bu ölkələrdə adamların sərvət uğrunda mübarizəsi *demokratik dəyərlərə biganəlik* yaradır. Demokratiyanın *yoxsulluqla* bir araya siğmadığı hamıya məlumdur, çünki demokratiya yüksək mədəni və savadlı insanlar tələb edir. Bu mənada demokratiya uğrunda mübarizə yoxsulluğa qarşı mübarizə ilə paralel aparılmalıdır. Əhalinin *məşğulluq dərəcəsi* və *əməyin xarakteri də* demokratikləşmədə müstəsna rol oynayır. Bu günki Qərb demokratiyası məhz əməyin təbiətinin dəyişilməsinin məhsulu kimi meydana cıxıb. Bunu nəzərə alaraq zehni əməyin inkişafı, fiziki əməyin həcminin azaldılması ilə demokratikləşməyə kömək etmək olar. Unutmaq olmaz ki*, ticari ruh, ağır fiziki əmək demokratikləşmə üçün ciddi problemlər yaradır*. *Rifahın ədalətli bölünməsi ictimai ədalətin bazisidir*. Məhz ədalətsiz bölgünün nəticəsi kimi meydana cıxan cəmiyyətin təbəqələrə, siniflərə, kastalara bölünməsi öz arxasınca *imtiyazlılığı* gətirir ki, bu da demokratikləşmənin önündə ən ciddi sədd kimi çıxış edir.

Demokratiya sosiallaşmaya uyğun inkişaf etdiyindən sosial institutların, dövlət va qeyri hökümət təskilatlarının inkişafına diqqətin zəifləməsi bütünlükdə demokratikləşmədə əks olunur. Xüsusən

demokratik institutların inkişafı *institutlaşmış demokratiyanı* yaradır. Bu da demokratikləşmədə geridönməzliyi təmin edir. Buna görə də yuxarıda qeyd etdiyimiz kimi, hər iki sektorun inkişafına bərabər diqqət ayrılmalıdır. Unutmaq olmaz ki, *güclü dövlət, zəif vətəndaş cəmiyyəti diktaturaya, zəif dövlət, güclü vətəndaş cəmiyyəti anarxiyaya* sürükləyir.

Demokratikləşmə yalnız ictimai təzahür deyil, hər şeydən əvvəl siyasi prosesdir. Buna görə də demokratikləşmə hakim zümrənin *siyasi iradəsindən* çox aslıdır. Bu gün bir çox monarxiya rejimlərində demokratikləşməyə qarşı amansız müqavimətə rast gəlindiyi halda Nepal kralı qapı-qapı gəzib xalqdan parlamentli respublikaya keçid üçün referenduma səs verməyə çağırır. Əlbəttə, belə halda demokratikləşmənin inkişafı üçün ciddi daxili müqavimət meydana çıxa bilməz. Unutmaq olmaz ki, *yalnız aşağıların demokratiya istəməsi ancaq inqilabları yetişdirə bilər*. Demokratikləşmə üçün həm iqtidar, həm də xalq əlbir olmalıdır. Demokratik prosedurlar demokratiyadan üstün olduğundan və çox vaxt belə prosedurların taleyi hakimiyyətdən asılı olduğundan, demokratikləşməyə məsuliyyəti də hakimiyyətlər daşımalıdır.

Demokratikləşmə bir proses kimi siyasi münasibətlərdən başlayaraq məişət münasibətlərində qərarlaşır. Bu baxımdan *məişət səviyyəsinə enməmiş demokratiya real demokratiya hesab edilə bilməz. Demokratiya yalnız dövlət idarəçiliyində yox, həm də özfəaliyyətdə, qrup və şəxsi münasibətlərdə də dəyişiklik yaratmalı, həyat tərzinə çevrilməlidir. Ailə münasibətləri də bu mənada istisna təşkil etmir*. Buna görə də demokratikləşməni həm də şəxslərarası münasibətlərlə dəyərləndirmək düzgün olardı.

Demokratiya mədəniyyətin məhsuludur. Bu baxımdan fərqli mədəniyyətlərdə demokratikləşmənin gedişi, forması və inkişaf tempi fərqli olur, bu fərqləri nəzərə almadan bu ölkələrdə demokratikləşmədə ciddi nailiyyət əldə etmək çətindir. Buna görə də demokratiya ilə dini inanclar arasında ciddi bağlantılar aşkarlamaq olar. Tolerant dinlərin hamısı demokratiya üçün münbit zəmin yaradır. Bundan fərqli aqressiv və radikal təriqətlər demokratiyanın əleyhinə çıxış edir.

Qlobal demokratik böhranda demokratikləşməyə aktiv müqavimət göstərən güclərin mövcudluğunu və demokratikləşməyə keçiddə keçmişin qalıqlarının mənfi rol oynamasını xüsusi ilə qeyd etmək lazımdır.

Demokratiyaya ən ciddi müqavimət müxtəlif dini təriqətlərdən-qeyri tolerant radikal dini icmalar tərəfindən göstərilir. Xüsusən demokratik ölkələrdə azlıqların hüquqlarının qorunması adı altında azadlıqların genişlənməsində yaranan sosial problemləri bəhanə edən muhafizakar güclər demokratik dayişilmələrə qarşı çıxırlar.

Demokratiyanın düşmənləri sırasında *kriminal qruplaşmalar* getdikcə daha ciddi təhlükəyə çevrilməkdədir. Antidemokratiya kriminal fəaliyyət üçün münbit şərait yaratdığından, bir qayda olaraq qanunun aliliyini istəməyənlərlə qanuna qarşı çıxanlar birləşir. Müasir dövrdə kriminal qruplar getdikcə daha çox siyasi vasitələrdən istifadə etməyə cəhd edir. Digər tərəfdən, bəzi siyasilər hakimiyyət uğrunda mübarizədə kriminal üsul və vasitələrə əl atırlar, nəticədə siyasi terror inkişaf edir. Üçüncu tərəfdən, son dövrlər siyasi həyat cinayətkarları daha çox maraqlandırmağa baslamışdır və nəticədə siyasətlə çulğaşmış cinayətkarlıq yaranmışdır. Mafiyalar məhz belə əməkdaşlığın nəticəsində meydana cıxmışdır və onlar demokratikləşməyə mane olan ən nüfuzlu güc kimi bu gün də fəaliyyətdədirlər.

Demokratiyanın başlıca düşmənlərindən biri də *köhnəlikdir*. Yeniliklə köhnəlik arasında təbii rəqabət demokratikləşmədə daha qabarıq üzə çıxır. Bu qəbildən demokratiya ilə bir araya sığmayan köhnə adətlər böyük problemə çevrilir. Belə adətləri məhv etmədən və ya onları yeniləri ilə əvəz etmədən demokratiyaya keçid baş vermir. Bir tərəfdən də adətlərin siyasiləşməsi da demokratiyaya müqavimətin əsasında durur. Belə siyasiləşmə nəticəsində yaranan *traybalizm* demokratiyaya qarşı ciddi güc kimi çıxış edir. Köhnəliyin kök saldığı xalqlar üçün demokratiyadan qaçış xarakterikdir.

Cəmiyyətin ideologiyalaşması ilə demokratiyanın bir araya sığmadığı məlumdur. Xüsusən belə ideologiyalaşmada demokratiyaya düşmən ideyalar insanların beynini fəth etdikdə xalqlar daxili kon-

fliktlərə və qarşıdurmalara sürüklənir. Demokratiyaya düsmən ideologiyalar seperatizmə, terrorizmə, etnik əlahidəçilik kimi təşəbbüslərə təkan verərək beynəlxalq hüququn gücsüzləşməsinə gətirib çıxarır. Demokratikləşmənin hansı formada və ya hansı səbəbdən asılı olmayaraq ləngiməsi iqtisadiyyatda ciddi neqativ proseslərlə müşayət olunur.

Unutmaq olmaz ki, böhran qloballaşdıqca, onun həllində nəinki bütün dövlətlərin və həm də yalnız rəsmi siyasi güclərin və ya ayrı-ayrı iqtisadi qurumların yox, bütün insanların istirakı zərurətə çevrilir. Bu da bir daha qlobal böhranda insan faktorunun önəmini göstərir. İnsan faktoru isə "insan göstəricilərinin" - fundamental insan hüquq və azadlıqlarının qlobal səviyyədə qorunmasını və demokratikləşmənin dəstəklənməsini tələb edir.

P.S. Məqalə "Qanun" jurnalının
2008-ci ilin 11-ci sayında çap olunmuşdur.

Qlobal iqtisadi böhran

Artıq dünyada qlobalizasiya erası başlayıb və XXI əsr tarixə qlobalizasiya əsri kimi düşəcək. Nə qədər arzuolunmaz olsa da, qloballaşma prosesində neqativ proseslər pozitiv meyllərdən daha sürətlə inkişaf edir. Buna görə də hələ ictimai həyatın bütün sahələrini və dünyanin bütün ölkələrini əhatə etməyə macal tapmamiş qloballaşma artıq özünun ilkin böhranlarını yaşamaqdadır. Məhz bu böhranlar anti-qlobalist və reqlobalist hərəkatlara təkan verir. Bu hərəkatların nümayəndələri milli böhranların səbəblərini ümumi qloballaşmada axtarırlar. Bu apoloji təsəvvürlər ordan qaynaqlanır ki, qloballaşmanın böhranları milli böhranlarda əks olunsa da yalnız milli böhranlara təkan vermir, həm də qlobal böhran ona qədər mövcud olan milli böhranları dərinləşdirir və nəticədə qlobal əlaqələrdə olan ayrılıqda götürülmüş heç bir ölkə böhrandan xilas ola bilmir və ya nə dərəcədə effektli siyasət aparmasından asılı olmayaraq qlobal böhran istənilən milli dövlətdə böhran yaradır. Qlobal böh-

ranla milli böhran öz aralarında milli iqtisadiyyatın qloballaşmanın tələbləri əsasında yenidən qurulması ilə əlaqələnir. Artıq sosialist istehsal sistemi aradan çıxmış və onlarla dövlət yenidənqurma prosesinə daxil olmuşdur. Hər bir yenidən qurma köhnədən imtina tələb edir ki, bu da qlobal böhranda əks olunur. Tək bir Azərbaycanda sovet dönəmində fəaliyyətdə olan yüzlərlə zavod və fabrik yenidənqurma prosesində məhv edilmişdir. Qlobal böhranlar milli böhranlardan kəskin fərqlənir. Belə ki, qlobal mərkəzlərdə böhran aradan qalxsa belə, ucqarlarda böhran davam edir. Güclü dövlətlərə ciddi zərbə vuran qlobal böhranlar, kiçik dövlətləri məhv edir. Qlobal böhran ona qədər mövcud olan və ondan asılı olmadan yaranan milli böhranları daha da dağıdıcı edir. Digər tərəfdən ictimai həyatın bir sahəsində meydana cıxan qlobal böhran digər sahəni də böhrana salır, xüsusən qlobalizasiyanın alt yapısı olan iqtisadiyyatda baş verən böhranlar ictimai böhranlara – dəyərlər sferasının böhranlarına, oradan isə siyasi böhranlara gətirib çıxarır. Beləliklə, qlobalizasiya qlobal güclər tərəfindən təşviq edilir, onun cəzası isə milli çərçivədə verilir. Bu baxımdan milli böhranlarla mübarizə həm də qlobal böhranlarla mübarizə kimi meydana çıxır. Qeyd etmək lazımdır ki, qloballaşmaya daxil olmuş ölkələrdə milli problemləri həll etmək, qlobal problemlər aradan qalxmayana qədər mümkün olmayacaq.

Artıq xeyli müddətdir ki, ümumdünya iqtisadi böhranı başlamışdır və bu böhranın nə vaxt qurtaracağı, bir daha iri miqyasda təkrarlanmayacağı sual altındadır. Bu gün qlobal böhranı yaradan səbəbləri öyrənmədən həmin səbəbi aradan qaldırmağa yönəlik cəhdlər effektiv olmayacaq. Qlobal iqtisadi böhran həm iqtisadi, həm ekoloji, həm də sosial səbəblərlə bağlıdır. Bizcə, beynəlxalq iqtisadi böhranın qeyri-iqtisadi səbəblərinə aşağıdakıları aid etmək mümkündür.

Bu səbəblərə ilk öncə külli miqdarda maliyyə vəsaiti udan və bu vəsaiti dağıdıcılığa sərf edən uzun sürən xroniki *lokal müharibələr və münaqişələr* aid edilməlidir. Təkcə İraq müharibəsi bu günə kimi ABŞ-a 500 milyard dollardan artıq qiymətə başa gəlmişdir. Bu, dövlət büdcəsi 50 milyard olan 10 ölkənin və ya dövlət büdcəsi 10 milyard olan 50 ölkənin birlikdə illik büdcəsi qədərdir. Başqa sözlə, tək bir İraq müharibəsi bu cür 50 ölkənin iqtisadiyyatının çökməsinə

səbəb olacaq iqtisadi itkiyə səbəb olub. Bu da bu gün dünyada mövcud olan 250-yə yaxın irili-xırdalı dövlətin beşdə birini təşkil edir. Nəzərə alsaq ki, İraq müharibəsi İraq və Yaxın Şərq dövlətlərinin iqtisadiyyatına da külli miqdarda zərbə vurmuşdur, onda yuxarıda göstərilən rəqəmləri ikiyə vurmaq lazım gəlir. Yaxın Şərqdə yaşı yarım əsrə çatan müharibə, eləcə də Yuqoslaviyanın parçalanmasından sonra baş verən müharibələr də dünya iqtisadiyyatının tənəzzülündə az rol oynamamışdır.

II dünya müharibəsindən sonra *seperatizm* dalğası dünyanı bürüməkdədir. Seperatizm *beynəlxalq siyasi demoqogiyanın* klassik nümunəsi kimi meydana çıxıb və çox böyük müvəffəqiyyətlə demokratiya ilə pərdələnir. Seperatizm təkcə malik olduğu ərazidə deyil, bütün dünyada qarşıdurmaya yol açır. Seperatist hərəkətlər də qlobal krizə yol açan təzahürlərdəndir. Kiçik çaplı Qarabağ münaqişəsi bəzi hesablamalara görə Azərbaycan dövlət büdcəsinə 100 milyarddan artıq ziyan vurub və münaqişə davam etdikcə bu ziyan da artmaqda davam edəcəkdir.

Müharibələrlə yanaşı qlobal **terror** da dünya böhranının əsas səbəblərindən biridir. 11 sentyabr terrorunun nəticələri ilə bağlı Konqresdə hazırlanan hesabatda ABŞ-a dəyən zərərin 1 trilyon dollar olduğu göstərilib. Bu da 10 milyard dollar dövlət büdcəsi olan bir dövlətin 1000 illik və ya Azərbaycan potensialında olan 1000 dövlətin illik dövlət büdcəsi qədərdir. Bununla yanaşı antiterror əməliyyatlarına ayrılan vəsait də nəhəng ölçülərə çatır.

Məlumdur ki, iqtisadi inkişaf **mülkiyyətin sürətlə kapitala çevrilməsini tələb** edir. Lakin bu gün əks istiqamətdə də proseslərin getməsi qlobalizasiyanı böhrana salır. Bu mənada incəsənətlə idmanın birlikdə iqtisadiyyata vurduğu zərbə problemlərin önündə gedir. Bu gün incəsənətin, o cümlədən ucuz əyləncənin **«abstrakt» məhsulları** əməyin real məhsulunun dəyərindən, bəzən 100 min dəfələrlə baha satılır. Belə ki, dəyərlə qiymət, məhsulla yaradıcılıq arasında kəskin disproporsiya meydana çıxır. Bu gün nadir sənət əsərlərinin 70-80 milyona satılması, bir nəfər kolleksionerin 10-15 belə şəkil əldə etməsi az qala Azərbaycanın ötən əsrin 90-cı illərindəki dövlət büdcəsinə bərabər vəsait tələb edir və ya məşhur

müğənni və ya aktyorun bir konsertdən əldə etdiyi gəlir orta böyüklüyündə bir fabrik və ya zavodun illik gəlirinə bərabərdir. Dəyərin bu cür yerdəyişməsi də iqtisadi böhranın səbəbi kimi çıxış edir. Kapitalın sürətini azaldan səbəblərdən biri də **idmandır.** Futbol bazarında bir futbolçunun hətta 100 milyon avroya satılması, 10 belə futbolçunun Ermənistan və Gürcüstan kimi kiçik dövlətlərinin illik büdcələrinin yarısını təşkil edir.

Qlobal böhranın digər bir səbəbi *sərvətlə bilik arasında nisbətin* pozulmasıdır. Belə ki, məhsulda əməyin payının azalması, əksinə, biliyin payının artması beynəlxalq böhranı dərinləşdirir.

Bununla yanaşı istehlak sahəsində müşahidə edilən mənfi meyllər də böhrana xidmət edir. Hər şeydən əvvəl beynəlxalq böhranın əsas səbəblərindən biri kimi **izafi istehlakçılığı** göstərmək olar. Belə ki, İngiltərə statistikasına görə, hər il bu ölkənin əhalisi 47 milyard dollar dəyərində istifadə etməyəcəkləri lüzumsuz məhsul alır. Bu, bir tərəfdən həmin məhsula istehlak ehtiyacı olanlar ordusu yaradır, digər tərəfdən həmin məhsul tullantıya çevrilir. Beləliklə, hər il İngiltərə lüzumsuz əşyalara Azərbaycanın illik dövlət büdcəsindən 4 dəfə çox pul itirir. Beləliklə, belə dövlətlər azı 10 Ermənistan böyüklüyündə dövlətin büdcəsini məhv edir.

Bu proseslə yanaşı **rifah bolluğundan sui-istifadə** beynəlxalq böhranı sürətləndirir. Bu gün BMT-nin elan etdiyi kimi, dünyada 950 milyon insan aclıq çəkir. Təxminən iki bu qədər insan da rəsmi yoxsulluq həddində yaşayır. Bunun əksinə, ABŞ və Avropanın inkişaf etmiş demokratik dövlətləri **«OBEZİTE»** problemi ilə üzləşmişdir. Başqa sözlə, ifrat rifah bolluğundan sui-istifadə ABŞ və Avropa əhalisinin fiziki mövcudluğunu təhdid edən piylənmə probleminə gətirib çıxarmışdır. Problem o qədər ciddiyyət təşkil edir ki, ABŞ-ın keçmiş prezidenti C.Buş Amerika əhalisinə həddən artıq yeməmək üçün müraciət etmişdir. Qlobal müstəvidə bir dövlətin əhalisinin həddən artıq qidalanması digər ölkələrin əhalisinin normal qidalanmasına problem yaradır. Yeri gəlmişkən qeyd edim ki, ötən il amerikalılar antipiylənmə xərcdərinə 35 milyard dollar sərf etmişdir.

İstehlak və istehsal sahəsinin ən ciddi qüsurlarından biri **«lüzumsuz» məhsul istehsalıdır.** Belə ki, bu gün dünyada 10 min-

lərlə kompaniya istehlak dəyəri olmayan faydasız məhsul istehsalı ilə məşğuldur. Bu məhsullar da çox qısa müddətdə tullantıya çevrilir. Nəhəng maliyyə resursları aparan bu cür istehsal dünyanı qlobal böhrana aparan səbəblərdəndir.

İstehsal prosesində birbaşa məhsulla əlaqəsi olmayan sahələrə ayrılan vəsaitlərin payı get-gedə artmaqdadır. Bu gün elə müəssisələr var ki, gəlirlərinin 70%-ni reklama sərf etməklə kapital itkisinə məruz qalır və sonda müflis olur. Xüsusən məhsul qablaşdırması – tara - dünya iqtisadiyyatına ciddi zərbə vurur. Burada tullantıya xərclənən sərfiyyatı da nəzərə alsaq, mənzərə daha da aydınlaşar.

Dünya böhranının səbəblərindən biri də **cah-cəlaldır.** Bu gün milyonlarla vəsait tələb edən ad günləri, toylar və s. kimi tədbirlər böyük vəsait aparır. Nəticədə belə illik xərclər kiçik dövlətlərin büdcələri qədər vəsait udur.

Müasir dövrdə digər bir tendensiya isə **xidmət sahələrinin** istehsal sahələrinə nisbətən daha çox gəlir əldə etməsidir. Belə ki, bir restoran və ya kafenin bir zavoddan daha çox gəlir verməsi istehsala marağı azaldır.

Bölgü sahəsində baş verən neqativ meyllər də qlobal böhranı dərinləşdirir. Yuxarıda qeyd etdiyimiz kimi, qloballaşmada öncə neqativ meyllər daha sürətlə qloballaşır, bu, mənfiliklərin sosial virulentlıklərinin (yolxuculuq) yüksək olması ilə bağlıdır. Bu sırada bir nömrəli problem korrupsiyadır. **Korrupsiya bilavasitə** kapitalla əlaqəsi olmayan, onu sərvətə-mülkiyyətə çevirən, bununla da iqtisadi sistemə təsir edən beynəlxalq siyasi-iqtisadi cinayətdir. Korrupsiya milli sərvətin ədalətsiz bölünməsi ilə əhalinin böyük çoxluğunun **istehlak qabiliyyətini** aşağı salır. Bəzi ölkələrdə istehlak qabiliyyətinin aşağı düşməsi isə öz növbəsində bu ölkələrdə qlobal əlaqələrdə olan istehsalçı ölkələrdə istehsal qabiliyyətini zəiflədir və məhsul istehsalının həcmini aşağı salmağa məcbur edir. **Narkobiznes, insan alveri və s.** kimi nəhəng gəlirlər gətirən cinayətlərin qloballaşması qlobal iqtisadi böhranın ciddi səbəbləri kimi çıxış edir. Qlobal layihələrin həyata keçirilməsi və bu zaman yol verilmiş **qüsurlar** da qlobal problemləri dərinləşdirir, milli sərvətin ədalətsiz bölünməsi qlobal səviyyədə əks olunaraq, dövlətlərarası gəlirlərdə

disproporsiya yaradır, nəticədə eyni prosesdən kimlərsə qazanır, kimlərsə uduzur. Bu da siyasi qütbləşmə yaradaraq böhranın kollektiv həllinə imkan vermir.

Qloballaşma dərinləşdikcə məhsulun istehsal yerindən daha uzağa aparmaq ehtiyacı meydana çıxır. Beləliklə, **kommunikasiya** istehsal dəyərinin böyük bir hissəsini udur. Bunu ABŞ-ın təcrübəsində daha əyani görmək olar. ABŞ-da 4 milyon mil uzunluğunda olan yollarda 23 milyon avtomobil yük daşıyır və onların illik gəliri 600 milyard dollar təşkil edir. Bu da Azərbaycan dövlətinin 60 illik indiki dövlət büdcəsi qədərdir. Belə nəhəng vəsaitlərin kapital dövriyyəsindən çıxması böhrana yardım edir.

Bundan əlavə, zaman-zaman meydana çıxan **təbii fəlakətlər** – zəlzələ, vulkan, sunami, qasırğalar, kürəsəl isinmə nəinki qlobal krizə yol açır, hətta bəşəriyyətin özünün varlığını təhdid edir. Bu fəlakətlərin qarşısını almaq və ya nəticələrini aradan qaldırmaq üçün çox nəhəng vəsaitlər sərf olunur. Bu da kürəsəl iqtisadiyyatı zəiflədir.

Qeyd etmək lazımdır ki, istehsal üsulundan asılı olaraq məhsul istehsalına paralel **dəyər istehsal** edilir. Buna görə də istehsal üsulu ilə bağlı müxtəlif cəmiyyətlər və siyasi sistemlər meydana çıxır. Qlobal iqtisadi böhran ilk öncə dəyərlər sistemini erroziyaya uğradır. Çünki yaşam uğrunda mübarizə dəyərlər uğrunda mübarizəni arxa plana keçirir. Məhz buna görə də çox vaxt iqtisadi maraqlar «demokratiyaya görə» prioritet təşkil edir. Qeyd etmək lazımdır ki, qlobal əlaqələrdə təsir bir tərəfli deyildir, belə ki, yüksək ideallarıın daşıyıcıları öz ideyalarını yaymağa cəhd etdikdə əks ideyaların müqaviməti ilə üzləşirlər, nəticədə bəzən birincilər uduzur və ali dəyərlər sferası deformasiyaya uğrayır. İndi bəzi Avropa dövlətlərində terrorizmlə mübarizə adı altında **müharibə əhval-ruhiyyəsinin** yüksəlməsi passifizmi sıxışdırır, ictimai şüuru aqressivləşdirir, nəticədə müharibə hansı səbəbdən başlamasından asılı olmayaraq, onu başlayanları həm nüfuzdan salır, həm də əhalini zorakılığa meylləndirir. Bu ölkələrdə bir tərəfdən xarici təhlükə, digər tərəfdən daxildə terror qorxusu **tolerantlıq və plüralizm** kimi dəyərləri də arxa plana keçirir, nəticədə bu gün Avropada demokratiyanın sürətlə inkişaf edən

açıq-aşkar tənəzzülü meydana çıxır. Dini və etnik dözümsüzlük, xarici siyasətdə demokratiyanın prioritet təşkil etməməsi daxili siyasətdə **antidemokratiyaya dözümlülüyə** gətirib çıxarır. Transmilli əlaqələrdə antidemokratik tərəf müqabilinin şərtlərini qəbul etmiş demokratik ölkələrin liderləri demokratik dəyərləri unudur və bu cür şərtlərlə qurulan iqtisadi əlaqələr demokratikləşmənin əleyhinə işləyir. Nobel mükafatçısı A.fon Hayek sübut etmişdir ki, iqtisadi sistemlə siyasi sistem arasında ziddiyyət yarandıqda ikinci birincini məhv edir. Başqa sözlə, azad seçki olmayan avtoritar ölkələrdə «Azad bazar» münasibətləri formalaşa bilmir. Bu qlobal əlaqələrə də aiddir. Digər tərəfdən, qlobal layihələr nəinki demokratiyaya yardımçı olur, əksinə, özləri istəmədən də demokratiyanın əleyhinə işləyirlər. Bu proses əks qütbdə də **«demokratik avtoritarizm»** meydana çıxarır. Başqa sözlə, tərəf müqabili avtoritarlarla eyni dəyərləri bölüşməyə cəhd edən demokratik liderlər onlarla «avtoritar demokratik» dillə danışırlar. Nəticədə hər hansı bir ölkənin demokratikləşməsi xalqın suveren hüququ yox, avtoritar demokratiyanın iradəsinə tabe etdirilir, bu da dünyada demokratiyanın dəstəklənməsi əvəzinə «demokratiyanın paylaşdırılması» prinsipini meydana çıxarır və hansı ölkədə demokratiyanın nə vaxt başlanması avtoritar demokratiyanın planlarına uyğunlaşdırılır.

Dəyərlər sferasında baş verən böhran beynəlxalq hüquqda və beynəlxalq təşkilatlarda da böhran yaradır. Artıq BMT öz səlahiyyətlərini itirərək formal quruma çevrilmişdir. Eyni tale ATƏT və Avropa Şurasını da təhdid edir. K.Manheyn müasir demokratik prinsiplərdən biri kimi demokratik dəyərlərə laqeyd qalmamağı və prinsipial mövqe nümayiş etdirməyi zəruri hesab edir. Bu gün II dünya müharibəsindən qalma prinsiplərlə dünyanı idarə etmə iflasa uğrayıb. Vahid sistem çərçivəsində uzlaşmayan alt sistemlər eyni dəyərləri bölüşdürməlidir. ABŞ və Avropa tərəf müqabillərindən demokratik seçkilər, korrupsiyanın qarşısının alınmasını ciddi şəkildə tələb etmirlərsə, onda onların özlərinin bu problemlərlə üzləşməsi qaçılmazdır. Başqa ölkələrdəki antidemokratik tendensiyaya göz yummaq nəinki yaxşı heç nə vəd etmir, hətta digər dövlətləri də antidemokratiyaya təşviq edir, nəticədə antidemokratik cəbhə

günü-gündən genişlənir və möhkəmlənir, bu da universal dəyərlər əsasında ümumdünya qütbləşməsi yaradır ki, öz növbəsində qlobal böhranı stimullaşdırır. Necə deyərlər, «totalitarizmin səni korlaması üçün totalitar cəmiyyətdə yaşamaq heç də əsas deyil».

Müasir qlobal böhranı səhv «Dünya Dövləti» ideyasının böhranı kimi də dəyərləndirmək olar. Bir çoxları Dünya Dövləti ideyasını bir super gücün dünya ağalığı kimi başa düşür və bu gün inkişaf edən böhran da bu dünya görüşündən qaynaqlanır. Dünya Dövləti standart dəyərləri bölüşdürən, universal idarəçilik prinsiplərinə istinad edən və ümumi suveren hüquqların daşıyıcıları olan dövlətlər birliyi kimi meydana çıxa bilər. Başqa sözlə, Dünya Dövləti eyni dəyərləri bölüşdürən istənilən dövlətdir.

İndi qlobal böhranın qarşısını almaq üçün ən müxtəlif cəhdlərə rast gəlirik. Gah süni surətdə xammal ixracını tənzimləmək, gah dünya pulunun kütləsini artırmaq, gah da dövlətlər arasında məhsul istehsalını kvotalaşdırmağa, hətta əhalinin artımını nəzarətə alınmasına cəhd edilir. Lakin bu tədbirlər böhranı aradan götürmür və böhran davam edir və daha da dərinləşir. Bizcə, qlobal iqtisadi böhranın həlli qlobalizasiyanın sürətlə inkişaf etdirilməsi ilə mıümkündür. Bu istiqamətdə suverenlik maskası altında gizlənən və yeni dünya düzəninin tətbiq edilməsinə, Dünya Dövlətinin yaranmasına əngəl olan, bununla da qlobal böhranlara yol açan müasir dünya düzənindən imtina edilməlidir. Artıq Dünya Konstitusiyasının yaradılması və universal qanunvericiliyin tətbiqi erası başlamalıdır. İlk növbədə korrupsiya, seperatizm beynəlxalq cinayət elan edilməlidir və bu cinayətlərə qarşı beynəlxalq səviyyədə mübarizə aparılmalıdır. İnsan hüquq və azadlıqlarının pozulması vətəndaşlara qarşı yox, insanlığa qəsd kimi qiymətləndirilməli və bəşəriyyətin mütərəqqi hissəsinin gücü ilə bu cür rejimlərə qarşı ciddi sanksiyalar tətbiq edilməlidir. II dünya müharibəsindən sonra formalaşmış müxtəlif sistemlərin dinc, yanaşı yaşama prinsipindən əl çəkilməlidir. BMT buraxılmalı, Makkeynin təklif etdiyi Demokratik Dövlətlər Liqası (DDL) yaradılmalı və antidemokratik rejimlərə qarşı total mübarizəyə başlanılmalıdır. İstehsalın kvotalaşması ilə yanaşı, istehlakın kvotalaşması tətbiq edilməlidir. Demokratik dövlətlərin vahid iqtisadi sistemi

yaradılmalıdır. Məncə qlobal demokratikləşmənin dəstəklənməsi ilə qlobal iqtisadi böhranın qarşısını almaq və insanlığı yeni tərəqqi yoluna çıxarmaq olar.

P.S. Məqalə "Ekspert" jurnalının
2008-ci ilin 5-ci sayında çap olunmuşdur.

Qlobal istiləşmədə insan faktoru

Bəşəriyyət XXI əsrə qədəm qoyduqdan sonra bir-birinin ardınca bütün dünyanı təhdid edən iki qlobal böhranla – qlobal istiləşmə və qlobal iqtisadi böhranla – üz-üzə qalmışdır. Bəri başdan deyim ki, hər iki böhran özlərinin dərin qatlarında bir-biri ilə sıx səbəb-nəticə əlaqəsində olub, biri digərini stimullaşdıran proseslər zənciri kimi meydana çıxmışdır. Eyni zamanda hər iki böhran qlobal siyasi böhranla – demokratiyanın qlobal böhranı, fundamental insan hüquq və azadlıqları sahəsində, o cümlədən siyasi sistemlərin böhranları ilə sıx bağlıdır. Haşiyəyə çıxım ki, bu üç böhrana birgə baxılmadan və onların eyni zamanda paralel olaraq həllinə cəhd edilmədən, ayrılıqda bunların hər birinə qarşı aparılan mübarizə yetərsiz olacaq.

İstər qlobal istiləşmə, istərsə də qlobal iqtisadi böhranda insan faktoru və bəşəri idrakda baş verən dəyişilmələrin rolunun nəzərə alınması bu problemlərin həll edilməsində və bu qəbildən olan böhranların bir daha baş verməsinin qarşısının alınmasında olduqca vacibdir. Biz burada qlobal istiləşmə ilə qlobal demokratik böhran və hər iki böhranın ən mühüm amili olan insan faktoru arasındakı spesifik əlaqələrə aydınlıq gətirməyə cəhd edəcəyik.

Hər şeydən əvvəl Yer kürəsinin istilik balansı necə yaranır və necə tənzimlənir? Artıq elmi şəkildə sübut olunub ki, bizim planetin istilik balansı günəş şüalarının yer səthinə düşməsi və həmin şüaların müxtəlif enerjilərə çevrilməsi ilə tənzimlənir. Buna görə də kürəsəl istiləşmə ya Yer kürəsinin şüalanmasının artması, ya da Yer kürəsində bu şüalanmanın başqa enerjilərə çevrilməsində baş verən dəyişilmələrlə izah etmək mümkündür. Məşhur alim Şapleyə

görə, 20 milyard il ərzində Günəş əhəmiyyətli dərəcədə dəyişə bilməz. Əgər nəzərə alsaq ki, kürəsəl istiləşmə son yüzillikdə baş verir, onda bunu günəşdə baş verən dəyişilmələrlə bağlı izah etmək düz olmazdı. Belə olan halda kürəsəl istiləşmənin səbəblərini Yerin şüalanmasında və Günəş şüasının yerdə transformasiyasına təsir edən faktorlarda və həmin faktorlara insan fəaliyyətinin təsirində axtarmaq lazımdır.

Qeyd edim ki, Yer kürəsinin istilik balansı üç müxtəlif sferada - həm teosferdə, həm biosferdə, həm də noosferdə gedən proseslərlə bağlı olub, sinergetik təbiətlidir. İnsanın Yer kürəsinin istilik balansında iştirakı bir tərəfdən, teosferdə yaratdığı fiziki dəyişilmələrlə, digər tərəfdən bir canlı varlıq kimi biosferi təşkil etməsi ilə, üçüncü tərəfdən isə taksis yaratması – təbii kosmosdan fərqli olaraq süni mədəni ətraf yaratması ilə – noosferlə bağlıdır. Bu üç sfera bir-birindən fərqli, amma eyni zamanda bir-biri ilə sıx bağlıdır. Biz burada insanın hər bir sferadakı roluna ayrılıqda baxmağı lazım bilirik.

Məşhur Rus alimi V.İ.Vernadski «Biosfer və noosfer» adlı kitabında yazır: «Bizim planetdə, xüsusən, daha çox yer qabığı tərkibində, onun sərhədlərindən çıxan təzahürlər aşkarlanır…burada üç təzahür aşkarlamaq olar: a) dövrü sistemin elementlərinin xüsusi yerləşməsi; b) onların mürəkkəbliyi; v) onların qeyri-bərabər paylanması». Qeyd etmək lazımdır ki, digər canlılardan fərqli olaraq şüurlu insan öz iradəvi fəaliyyəti ilə yer qabığının tərkibində aşkarlanan təzahürlərə təsir edərək onları dəyişdirir. Vernadski yazır ki, «yer qabığında cüt atomlu elementlər nadir hallarda üstünlük təşkil edir». Nəzərə alsaq ki, insan öz bioloji və sosial həyatında – taksis yaradarkən ilk növbədə məhz cütatomlu elementlərdən – Ca, Ba, Fe, Ae, Mg, C, O və s. kimi elementlərdən daha çox istifadə edir, onda bununla da Yer qabığında təbii şəkildə nadir hallarda üstünlük təşkil edən cütatomlu elementləri min illər boyu bir qədər də tükəndirir, nəticədə yer qabığında təkatomlu elementlərin mütləq üstünlük təşkil etməsinə səbəb olmuşdur. Biz elementlərin atomlarının sayı ilə onların Yer kürəsinin istilik tənzimlənməsində rolu haqqında konkret elmi faktlara malik olmasaq da deyə bilərik ki, əgər Yer kürəsi-

nin əvvəlki istilik balansı məhz cütatomlu elementlərin «nadir hallarda üstünlük təşkil etməsi» ilə müəyyən olunubsa, onda müxtəlif atomlu elementlərin Yer qabığının tərkibindəki nisbətində baş verən dəyişilmə kürəsəl istiləşməyə təsir edir.

Yer qabığında elementlərin qeyri-bərabər paylanması da normada Yer kürəsinin böhrana qədər mövcud olan istilik balansına uyğun olmuşdur. Bu təzahür bir çox geofiziki hadisələrlə yanaşı Yer kürəsinin istilik balansının tənzimlənməsində də ciddi rol oynayır. İnsanın Yer kürəsi elementlərinin istismarı nəticəsində elementlərin təbii qeyri-bərabər paylanması pozulur. Belə ki, bu gün yer qabığının ayrı-ayrı sahələrində mövcud olan xammalın milyon və milyard tonlarla hasil edilərək, həmin ərazilərdən kənarlaşdırılması məhz həmin ərazilərin istilik tənzimlənməsində problemlər yaradır. Nəzərə alsaq ki, Yer kürəsinin heç də bütün səthi bərabər səviyyədə Günəş şüası almır və buna paralel yer qabığının heç də bütün səthi eyni həcmdə Günəş şüasının başqa enerjilərə çevrilməsində iştirak etmir, onda insanın teosferdəkı fəaliyyəti nəticəsində cütatomlu elementlərin yer qabığının konkret ərazisindən kənarlaşdırması və onların təbii qeyri-bərabər paylanmasını pozması Yerin istilik balansına ciddi təsir etdiyini qeyd etmək lazım gəlir.

İnsanın teosferə təsiri həm də yer qabığının statik təzahürlərini dinamik vəziyyətə – hərəkətə - gətirməsi ilə bağlıdır. Məsələ burasındadır ki, Vernadskinin qeyd etdiyi yer qabığının təzahürləri statik təzahürlərdir. Amma insan nəinki yer qabığında elementlərin təbii paylanmasını pozub, həm də ona hərəkət verərək yeni *dinamik təzahür* yaradıb. Bu gün dünyada mövcud olan avtomaşınların, qatarların, gəmilərin, təyyarələrin istehsalına sərf olunan materiallar, milyard tonlarla hərəkət edən elementlər, özlərinin statik hallarından fərqli transformatorlar kimi çıxış edirlər. Digər tərəfdən, məhz bu maşın və mexanizmlər, xüsusən daxili yanma mühərrikləri, eləcə də digər istehsal sahələri havaya milyon kubmetrlərlə ölçülən istilik qazı – karbon oksidi buraxır ki, bu da atmosferin tərkibində dəyişilmə yaradaraq, Günəş şüasının normadan artıq udulmasına və bununla da müxtəlif proseslərdə istilik enerjisinə çevrilərək kürəsəl istiləşməyə səbəb olur.

Yer qabığının digər bir mühüm təzahürü *həyatdır.* Yer qabığı həyat - canlı varlıqlar - üçün əvəzedilməz əsasdır. Vernadski yazır: «Həyat sıx şəkildə yer qabığının quruluşu ilə əlaqəlidir, onun mexanizmlərinə daxil olur və bu mexanizmlərdə fövqəladə rol oynayır ki, bunsuz mövcud ola bilməz». Bizcə, bu mexanizmlərdən biri də Yer qabığının Günəş şüasını müxtəlif enerjilərə çevirmə mexanizmidir ki, həyatın artımı və ya azalması bununla kürəsəl istilik balansına ciddi təsir edir. İnsan da bu həyatın bir hissəsi kimi mövcuddur, amma onun biosferə təsiri digər canlılardan fərqli olaraq daha mürəkkəb olub, ciddi nəticələrə gətirib çıxarır. İnsanın biosferdə iştirakı da özlüyündə ikili təbiətlidir. Bu iştirak bir tərəfdən bitki və heyvan aləmində yaratdığı dəyişilmələrlə, digər tərəfdən özünün biokütləsi – insan artımı ilə bağlıdır. Bu baxımdan insanın kürəsəl istiləşmədə rolu ilk növbədə biosferin təşkilatlanmasında yaratdığı dəyişilmələrlə ölçülə bilər. V.İ.Vernadskiyə görə, «biosferə kosmik şüalanmanı yer enerjisinə – elektrik, kimyəvi, mexaniki, istilik çevirən transformatorlarla tutulmuş Yer kürəsi qabığının nahiyəsi kimi baxıla bilər…Günəş şüası – kosmik enerji daşıyıcısı – nəinki onu kimyəvi enerjiyə çevirmək mexanizmlərini oyandıra, həm də canlı təbiət kimi bu transformatorların özünü yaradır». Buradan da bu transformatorlar arasında nisbətin pozulması, yəni Günəş şüalarını istilik enerjisinə çevirən transformatorların artması, əvəzində həmin şüaları kimyəvi, elektrik və digər enerji növlərinə çevirən transformatorların azalması kürəsəl istiləşmədə mühüm rol oynayır. İnsan isə özünün heyvanlar və bitkilər aləminə təsiri ilə bu prosesdə ikincili iştirak edir. Digər bir məsələ biosferi təşkil edən canlıların həyat fəaliyyəti ilə bağlı dolayı təsirlərdir. Vernadski haqlı olaraq qeyd edir ki, «əgər biosferin nadir hallarda bütün kosmik mexanizmin qurluşu ilə əlaqəsini nəzərdən qaçırsaq, onda baş verən təzahürlər anlaşıla bilməz». Bu əlaqələrdən birincisi fotosintez prosesidir. Məlumdur ki, bitkilər Günəş şüasını kimyəvi enerjiyə çevirərək oksigen istehsal edir. Oksigen isə digər təbii proseslərdə ozona çevrilərək xüsusi təbəqə təşkil edir və Yer kürəsini ifrat qızmadan və ziyanlı şüalanmadan qoruyur. Bitki örtüyünün azalması məhz dolayısı ilə ozon təbəqəsinin zəifləməsinə, bu isə Yer qabığının canlı

transformatorlarına məhvedici təsir edən şüalanmanın artmasına, sonuncu isə kürəsəl istiləşməyə gətirib çıxarır. V.İ.Vernadski həyat haqqında yazır: «Həyat Yer səthini təşkil edən materiyanın atomlarının əhəmiyyətli hissəsini tutur…biosferin kimyəvi təzahürlərində həyatdan asılı olmadan heç nə baş vermir». Qeyd etmək lazımdır ki, hər bir canlı növü yalnız biosenozda yox, həm də dünyanın istilik balansında özünəməxsus rol oynayır və ayrı-ayrı heyvan növləri müvafiq olaraq ayrı-ayrı istilik balansına malikdir. Canlıların bədəni isə özündə müəyyən qədər enerji toplayan «akkumulyator» kimi çıxış edir və hər bir növün xüsusi istilik tutumu vardır. Beləliklə, ayrı-ayrı heyvan növlərinin köklərinin kəsilməsinin də birbaşa kürəsəl istilik balansına təsir etdiyini söyləyə bilərik. Amerika alimləri insanın piylənməsi ilə kürəsəl istiləşmə arasında əlaqə müəyyən etmişlər. Belə ki, müəyyən olunmuşdur ki, atmosferin qızmasının konpensasiyası kimi insanlar kökəlməyə meyl edir. Məlum olub ki, atmosferdə istilik qazları artdıqca, insanlar kökəlməyə meyl edir, bununla da öz orqanizmlərinə daha çox karbonlu birləşmələr toplamaqla atmosferdəki karbon birləşmələri artıqlığını azaldırlar. Eləcə də insanlar nə qədər çox arıqlayırsa, onlardan azad olan bioloji enerji bir o qədər çox başqa enerji növlərinə çevrilir. İndi dünyada milyonlarla insanın aclıq çəkməsi atmosferin istilik balansına mənfi təsir edir. Qeyd edim ki, nəhəng bədənli canlı növlərinin sayı ilə atmosferin istiləşməsi arasında əlaqə vardır. Tədqiqatlar göstərir ki, son yüz ildə Yer kürəsində iri heyvanların – bizonların, balinaların, fillərin, begemotların, kərgədanların, çöl camışlarının və s. sayı milyonlardan on minlərə, hətta bir neçə yüzə enmişdir. Böyük bədənli heyvanların nəslinin kəsilməsi ilə kürəsəl istiləşmənin arasındakı paralellik göstərir ki, bu faktorlar heç də əhəmiyyətsiz deyil. Məncə, hətda min illər bundan öncə dinozavrların biosenozdan çıxmasıda Yer kürəsinin istilik balansına öz mənfi təsirini göstərmişdir.

Biosferdə ilk növbədə yaşıl bitki örtüyü Yer kürəsinin istilik mübadiləsində aktiv iştirak edir. Bu üç yolla olur: 1. Həyat: Canlılar yer qabığında Günəş şüasından istifadə edərək yeni kimyəvi birləşmələr yaradır – bu canlı orqanizmlərdə assimliyasiya və dissimliyasiya prosesləri ilə baş verir. Fotosintez məhz belə kimyəvi çevrilmə-

lərdəndir. Bu prosesdə həm quruda bitən, həm də dənizdə inkişaf edən yaşıl bitkilər aktiv iştirak edir. V.İ.Vernadski yazır ki, okeanın yaşıl protistləri Günəşin işıq enerjisini bizim planetin kimyəvi enerjisinə çevirən başlıca transformatorlardır. Okeanın qlobal çirklənməsi yaşıl protistləri məhv etdiyindən, işıq enerjisinin kimyəvi enerjiyə çevrilməsində ciddi problem yaradır. 2. Bilavasitə yaşıl bitkilərin kütləsində və qurluşunda baş verən dəyişilmələr onların transformasiya mexanizmlərində iştirakına təsir edir. Botanik İ.Vizner öz tədqiqatları nəticəsində belə qənaətə gəlib ki, «işıq – Günəş şüası – bitkilərin formasına istidən daha çox təsir edir». Beləliklə, Yer kürəsinə düşən şüanın bir hissəsini bitkilər öz formalarını dəyişməklə istilik balansından çıxarırlar. Belə bitkilər azaldıqca çevrilmə də zəifləyir.

İnsanın biosferdə mövcudluğu Yerin yaşıl örtüyünə ciddi təsir edir. Hər şeydən əvvəl yaşıl bitkilər heyvanlarla yanaşı insanın da əsas qida mənbələrindəndir. Təbii olaraq, insanın qidaya tələbatı artdıqca yaşıl bitkilər tükənməyə başlayır. Digər tərəfdən, bitkilər həm də sənaye üçün əlverişli xammal rolu oynayır və buna görə də ilbəil min hektarlarla meşə məhv edilir. Üçüncü tərəfdən, taksis genişləndikcə bitki arealları sıxışdırılır. İndi mövcud olan böyük şəhərlər, yollar, aerodromlar və s. keçmiş meşələrin yerlərində salınmışdır. İnsan bitkilərdən fərqli olaraq oksigen tükəndiricisidir. Beləliklə, bir tərəfdən oksigen istehsal edən bitkilərin azalması, digər tərəfdən insan artımının son 100 ildə iki dəfədən artıq çoxalması və buna müvafiq atmosferdə qaz mübadiləsində, xüsusən, oksigen mübadiləsində baş verən balansın pozulması nəticəsində onun atmosferin tərkibində azalması yerin istilik balansına ciddi təsir edir. Əlbəttə, insanlar heç də həmişə hər yerdə təbiətə müharibə elan etmir. Və artıq təbiətə vurulan zərəri kompensasiya etməyə yönəlik cəhdlər edilir. Lakin xammal hasilatının sürəti ilə təbii transformatorlarının bərpası və ya yeni transformatorların əmələ gəlmə tempi arasındakı fərq kürəsəl istilik balansının pozulmasının qarşısını almaqda hələ ki, yetərsizdir. Qeyd edim ki, biosferdç canlılar mənfi 253 dərəcə ilə müsbət 180 dərəcə sərhədində yaşayır. Beləliklə, biosferin istilik hüdudu 433 dərəcə ilə məhdudlaşır. Biosferdə canlılar

istiliyin müxtəlif dərəcələrində yaşayır və bu dərəcələr dəyişdikdə həyatlarını davam etdirə bilmirlər. Kürəsəl istiləşmə yerdə istiliyin sərhədlərinin dəyişilməsinə səbəb olduğundan, bəzi canlılar avtomatik olaraq biosferdən çıxır və bu canlıların istilik mübadiləsindəki rolunun itməsi nəticəsində istilik balansında rikoşet qaydasında bir daha disbalans yaranır. Qeyd etmək lazımdır ki, fərqli dərəcələrdə müxtəlif canlılar istilik mübadiləsində müxtəlif intensivlikdə iştirak edir. İnsan da bioloji varlıq kimi digər varlıqlardan fərqli enerji tükəndirdiyindən, insan kütləsinin artması da Yer kürəsində enerji mübadiləsinə təsir edir.

Qeyd edim ki, canlılar həm də öz cisimləri ilə fiziki cisim kimi istilik tənzimlənməsində iştirak edir. V.İ.Vernadski yazır: «Yer konsentratlarının əks etdirdiyi kimi canlı varlıqlar Günəş şüasını əks etdirir». Artıq elmi şəkildə məlumdur ki, ağ rəng şüanı qaytarır, əksinə, qara rəng şüanı udur. Qütblərdə, daimi buzlaqlarda və qarla örtülü ərazilərdə, o cümlədən qış fəslində Günəş şüasının başqa enerjilərə çevrilmədən böyük həcmdə geri qayıtması baş verir. Eləcə də canlı varlıqların bədən səthi də eyni qaydada optik qanunlara tabe olaraq Günəş şüalanmasını ya qaytarır, ya da udur. Bu iki qrup arasında miqdari dəyişilmələr keyfiyyət dəyişilmələrinə gətirib çıxarır.

Kürəsəl istiləşmədə insanın digər bir rolu onun şüuri fəaliyyəti, xüsusən, ekoloji şüur və cəmiyyətin tipi ilə sıx bağlıdır. Belə ki, ayrı-ayrı cəmiyyətlərin ekoloji tarazlığa təsiri fərqlidir. Qapalı cəmiyyətlər, qeyri-demokratik xalqlar təbiətə destruktiv yanaşdıqlarından, ekologiyaya daha böyük ziyan vururlar. İnsan digər canlılardan fərqli olaraq, bir tərəfdən Yer kürəsində aldığı enerjinin bir hissəsini taksisin – süni ətrafın yaradılmasına sərf edir. Digər tərəfdən isə, həmin enerjinin bir hissəsini psixi enerjiyə çevirir. Qeyd etmək lazımdır ki, psixi enerji öz təbiətinə görə digər enerji növlərindən daha böyük istilik effektinə malikdir. Başqa sözlə, psixi enerji çevrilmələri Yer kürəsinin istilik tutumuna ciddi təsir edir. V.İ.Vernadski yazır: «Son minilliklərdə canlı maddənin sərhədlərində yeni növ enerji yaranır və sürətlə artır. Bu enerji insan cəmiyyətinin həyat fəaliyyəti ilə bağlıdır. Bu yeni forma biokimyəvi enerji insan mədəniyyətinin enerjisi – mədəni biokimyəvi enerji adlandı-

rıla bilər». Enerjinin saxlanması qanununa görə, psixi enerji də heçdən yaranmır və heçnədən yox olmur, sadəcə bir formadan başqa formaya çevrilir. Bununla da bu yeni enerjinin digər enerjilərlə birgə enerji çevrilmələri zəncirinə daxil olmasını, onun kürəsəl istiləşmədə müstəsna rol oynadığını deməyə əsas verir. Psixi enerjinin utilizasiyası iki yolla – xarici yaradıcılıqla, daxili mənəvi yenidənqurma ilə reallaşır. Psixi enerjinin xarici sərfi mədəniyyətin yaranmasında reallaşır. Qeyd edim ki, mədəniyyətin və ya süni kosmosun – taksisin yaranması kürəsəl istiliyə müxtəlif yollarla təsir edir. Bu yollardan biri yer qabığının transformatorlarına və transformasiya mexanizmlərinə birbaşa təsiridir. Yuxarıda qeyd etdik ki, yer qabığı yalnız Günəş şüasının başqa enerjilərə çevrilməsində iştirak etmir, həm də yer səthi enerji transformatorlarının mövcud olduğu yeganə sahədir. Digər tərəfdən yer səthi həm də Günəş şüasının bir qismini udaraq torpağın enerjisinə çevirir, bir hissəsini geri qaytarır, digər bir hissəsi isə başqa enerjilərə çevrilir. İnsanlar yollar salmaq, şəhərlər tikməklə artıq yer səthinin əhəmiyyətli bir hissəsini transformatorların üzünə qapatmışdır. Buna paralel qayıdan şüalar udulan şüalardan həcmcə artır, yəni yer səthi Günəş şüasının daha az hissəsini udur, daha çox hissəsini isə qaytarır. Atmosferə qayıdan şüa isə təkrar istilik enerjisinə çevrilir. Nəticədə sanki atmosfer ikiqat şüalanmaya məruz qalır. Bu gün dünyada mövcud aerodromların, dəmir yollarının və asfalt yolların, o cümlədən şəhərlərin və digər yaşayış massivlərinin altında qalmış yer qabığının ümumi sahəsi ilə kürəsəl istiləşmə arasında sıx rabitə vardır. Burada yeni sintetik örtüklərin rolunu xüsusi ilə qeyd etmək lazım gəlir. Son illər dəbdə olan tikililərin yeni parıltılı materiallarla üzlənməsi sahəsi milyon hektarlarla ölçülə bilən «güzgü effekti» yaradır. Nəticədə atmosfer sanki iki Günəş tərəfindən şüalandırılır.

Artıq elmi şəkildə sübut olunub ki, texniki tərəqqi bioloji reqresiya ilə paralel inkişaf edir. Yəni insan nə qədər çox Yer kürəsini texniki dəyişdirir, bir o qədər həyatda geriləmə müşahidə olunur. Yuxarıda qeyd etdiyimiz kimi, həyat Günəş enerjisinin çevrilmələrində müstəsna rol oynadığından, həyat sahəsi daraldıqca, o artıq öz klassik rolunu yetərincə oynaya bilmir. İnsanın şüurlu fəaliyyətinin

kürəsəl istiləşməyə təsiri xüsusən texnologiya ilə əlaqəlidir. Artan insan kütləsi getdikcə daha yeni, amma ekoloji cəhətdən təhlükəli istehsal sahələrinin yaranmasını stimullaşdırır. Artıq yeni canlılar – genetik dəyişilməyə məruz qalmış bitkilər, yeni mikroorqanizmlər, ibtidailər sürətlə çoxalmaqdadır. Biz bu bitkilərin Yer kürəsinin istilik balansına təsirini hələ ki, bilmirik. Digər tərəfdən, havaya hallogen qarışıqları buraxan müəssisələr, o cümlədən məişət avadanlıqları – soyuducular, kondisionerlər və s. kosmik sürətlə artmaqdadır. Burada artıq «cəhənnəm həlqəsi» formalaşır. Kürəsəl istiləşmə daha çox soyuducu və sərinləşdirici tələbatını artırır, artan soyuducu və sərinləşdirici cihazlar daha çox atmosferə hallogenlər buraxaraq kürəsəl hərarətin artmasına səbəb olur. Bir-birini stimulə edən bu ikili asılılıq bəşəriyyəti real təhlükələrə doğru aparır.

İnsanın psixi enerjisinin daxili sərfi və bunun kürəsəl istiləşməyə təsirinin insan ağlı və onun atributları, xüsusən, ictimai münasibətlərlə əlaqəsi ən az öyrənilən və diqqət edilən sahədir. Bizcə, kürəsəl istiləşməyə səbəb olan faktorların hamısı birbaşa və ya dolayısı ilə insan ağlı – onun psixi enerjisi ilə sıx bağlıdır. Belə ki, insanın Yer kürəsinin qabığına, həyata və digər canlılara münasibəti hər şeydən öncə şüur məsələsidir. V.İ.Vernadski yazır: «Canlı orqanizm haqqında təsəvvürlərimiz hər addımda fəlsəfə və dini nailiyyətlərə və etiraflara fövqəladə təsir edir. Belə təsəvvürlər həm də siyasi şüura və idarəetmə fəlsəfəsinə təsirsiz ötüşmür». Burada belə təsəvvürlərin təsiri ilə müxtəlif fəlsəfi etirafların kürəsəl istiləşmədə müxtəlif rol oynadığını deyə bilərik. Belə ki, demokratik düşüncə insanı həyat və kosmosla vəhdətdə qəbul edilməsinə gətirib çıxardığından, demokratik şüurun birinci işi hər bir fərdin başqalarına və başqa canlıların etiraf edilməsini tələb edir. Bu gün bəzi antidemokratik ölkələrdə insan hüquqlarından söz getmədiyi bir vaxtda demokratik ölkələrdə artıq heyvan hüquqları tam ciddiyyəti ilə qüvvədədir. Hətta artıq Avropanın bəzi ölkələri cisim hüququ ilə bağlı müzakirələrə başlayıblar. Cisim hüququnun qəbul edilməsi ilə Yer qabığını təşkil edən hər şey – dağlar, dərələr, göllər, çaylar və s. bütünlükdə hüquq əldə etmiş olur ki, bununla da insan Günəş şüalarının transformasiyasında müstəsna rol oynayan Yer qabığını özünün məsuliy-

yətsiz müdaxiləsindən xilas etmiş olur. Amma dünyada demokratik və qeyri-demokratik ölkələrin say nisbəti hələ ki, antidemokratik ölkələrin xeyrinədir, buna görə də Yer qabığına insanın ağılsız hücumu davam etməkdə və kürəsəl istiləşmə də buna müvafiq sürətlənməkdədir.

İnsanın kürəsəl istiləşmədə rolu həm elmi, həm də siyasi düşüncə ilə sıx bağlıdır. Kiçik Tomas B.Koluelə görə, «İnsani dəyərlər – təbiətlə obyektiv müəyyən edilən ekoloji münasibətlərə əsaslanır». Beləliklə, biz insanın malik olduğu dəyərlərin həm də ekoloji tərəfi olduğunu qəbul etməliyik. V.İ.Vernadski noosferı dəyərləndirərkən yazır: «Elmi fikir və insan əməyinin təsiri altında biosfer yeni vəziyyətə – noosferə keçir…biosferin noosferə keçidi geoloji proseslərin tempini sürətləndirir. İndi biosferdə baş verənlər elmi fikir və insanlığın sosial fəaliyyəti ilə bağlıdır…elmi dünyagörüşü insan ruhunun yaratdığı və ifadəsidir, eyni işi dini dünyagörüşü, incəsənət, ictimai və şəxsi sosial həyat fəlsəfəsi, fikir görür…elmi dünyagörüşü insanın mənəvi həyatının digər sahələri ilə birgə inkişaf edir». Beləliklə, o cəmiyyətlərdə ki, insani dəyərlərə qiymət verilmir, həmiin ölkələrdə ekoloji münasibətlər qlobal istiləşmənin lehinə işləyir. Eləcə də müxtəlif azadlıqların – vicdan azadlığının pozulması, ictimai və sosial həyata müdaxilə, o cümlədən elmi inkişafın zəifləməsi Yer kürəsinin istilik balansına mənfi təsir edir.

Hər şeydən öncə əməyin nəhəng yaradıcısı olan insan özü Yer qabığında yeni transformator kimi çıxış edir. Başqa sözlə, əmək prosesində insan müxtəlif enerjiləri materialın işlənməsi üçün sərf edir. Amma zehni əməyin meydana çıxması, yeni texnika və texnologiyanın inkişafına paralel, artıq insan əmək sahəsində bir transformator kimi öz yerini başqa mexanizmlərlə işləyən texnikaya verir. Nəticədə yaranan nəhəng işsizlər ordusu, başqa sözlə, əməyin azalması kürəsəl istiləşməyə heç də az «töhfə» vermir. Texnoloji inkişafın tarixini öyrənən Stanislav Lemin «Texnologiyanın məcmusu» adlı kitabında yazdığı kimi, «adi sivilizasiyanın taleyi hər şeydən əvvəl onun təbiətlə əks əlaqədə tənzimləyici təsiri ilə müəyyən olunmadığından, yeni sivilizasiya təbiətin tarazlığını pozur» ki, bu da kürəsəl istiləşmə qəbilindən olan təhlükəli proseslərə təkan verir.

İnsanın şüur əldə etməsi və noosferin yaranması ilə Yer kürəsi yeni bir eraya qədəm qoymuşdur. Noosfer həm də Yer qabığının transformatorlarından ciddi şəkildə fərqlənən yeni transformatorlar və transformasiya proseslərini üzə çıxarmışdır ki, kürəsəl istiləşmədə məhz bu yeni qeyri-material transformatorların müstəsna payı vardır. Ç.Şuxert şüurlu insanın tarix səhnəsinə çıxması ilə başlanan dövrü «psixozoy erası» adlandırır. Psixozoy erası insanın şüurlu varlıq kimi mənəvi strukturlaşması ilə əlamətdardır. Mənəvi həyat tamamilə fərqli forma kimi meydana çıxsa da Qobbs,Spinoza, Leybniç kimi filosoflar belə hesab etmişlər ki, mənəvi həyatın prosesləri – bir münasibətdə xarici təbiətin, təbii həyatın prosesləri ilə tamamilə həmcinslidir, hansı ki, bir-biri ilə sıx bağlıdır. Buradan da insanın mənəvi sferasında baş verənlərin xarici təbiətə təsirini nəzərə almaq lazım gəlir. Hətta məşhur filosof Qarbart belə hesab edir ki, «mənəvi həyatın qanunauyğunluqları ulduz səmasının qanunauyğunluqları ilə tamamilə eynidir». Əgər belədirsə, bir sahədə baş verən qanunauyğunluqların pozulmasının digər sferaya da təsir etdiyini qəbul etməliyik. Onda insanlığın mənəvi pozğunlaşması ilə də kürəsəl istiləşmə arasında əlaqəni görməliyik.

Psixozoy erasının başlıca gücü elmi fikirdir. V.İ.Vernadski yazır: «Yeni geoloji güc, elmi fikir canlı maddənin biosferin təkamülünü artırır və bu artıma paralel kürəsəl istilik də artır». Qeyd etmək lazımdır ki, insan həm biokütlə kimi bədəndən, həm də ondan fərqli ruhdan ibarət olsa da, insan həyatı onun bütün fərqliliklərinə baxmayaraq ayrılmaz və vahiddir. Bunu Kosta Ben Luk belə bir fikri də sübut edir ki, «insan şüurunun vəziyyəti onun bədəninə təsir edir». Əgər bu həqiqəti qəbul etsək, hansı ki, psixologiya və digər bioloji elmlər də şüurun bədənə təsirini təsdiq edirlər, onda bütün insanlığın şüurunun materiyaya – insanın ikinci bədəni kimi mövcud olan təbiətə də təsir etdiyini qəbul etməliyik. Buna görə də məhz kürəsəl istiləşmənin səbəblərindən birini də insan şüurunda baş verən dəyişilmələrdə axtarmaq lazım gəlir. Beləliklə, məlum olur ki, insan şüurunun bir sahəsində baş verən dəyişilmələr digər sahələrdə də dəyişilmə yaradır. Nəzərə alsaq ki, insan ruhunun ayrı-ayrı fəaliyyəti fərqli enerji tələb edir, onda qəbul etməliyik ki, bir sahədə ruhi

fəaliyyətin məhdudlaşdırılması müəyyən enerjinin azad olması ilə nəticələnir. Demokratiyanın elm və təhsillə birbaşa əlaqəsi məlumdur. Eləcə də antidemokratiyanın elmi dünyagörüşünə mənfi təsir etməsi də aksiomdur. V.İ.Vernadski də təsdiq edir ki, «insan şüurunun hər hansı bir fəaliyyətinin məhv edilməsi və ya dayandırılması digərlərinə də boğucu təsir edir. İnsanın fəaliyyəti incəsənətdə, dində, fəlsəfədə və ya ictimai həyatda elmə ağrılı və ya məhvedici təsir etməyə bilməz». Bunu nəzərə alsaq, düşüncənin tipi ilə onun kürəsəl istiləşmədə rolu arasında birbaşa əlaqə olduğunu iddia edə bilərik. Düşüncənin tipi insanın azadlıq problemi ilə bağlıdır. Azad insan özü-özünə nəzarət edə bilən insandır. Özünə nəzarət nəhəng psixoloji güc və enerji tələb etdiyindən, insanlar azad olduqca mənəvi sferanın tənzimlənməsinə daha çox enerji sərf olunur. Bundan fərqli, qeyri-azad insan mənəvi sferada daha az enerji sərf edir, azad olan psixi enerji isə noosferə, oradan ya biosferə, ya da birbaşa teosferə daxil olur. Digər tərəfdən, azadlıq şəraitində insanlar kütləvi şəkildə quruculuqla məşğul olur. Amma qeyri-azadlıqda insanlar quruculuğa cəlb olunmadığından və daha böyük insan kütləsi dağıdıcı güc kimi çıxış edir. Quruculuq kosmik enerjini udur, dağıdıcılıq, əksinə, belə enerjini azad edir. Azad olmuş enerji müxtəlif transformasiya mexanizmləri ilə istilik enerjisinə çevrilir və kürəsəl istiləşməni sürətləndirir.

İnsan və bütünlükdə insanlıq Yer qabığının təşkilatlanmasında iştirak edir. Təşkilatlanma da özündə nəhəng enerji sərfi tələb edir. Buna görə də insan cəmiyyətində təşkilatlanma zəiflədikcə psixi enerji azad olur, bu da dolayısı ilə kürəsəl istiləşməyə təkan verir. V.İ.Vernadski yazır: «Təşkilolunmazlıq – fasiləsiz bərpa olunan vəziyyəti olan mexanizmlərdən fərqlənir». Kürəsəl istiləşmə isə fasiləsiz bərpaolunmanın pozulması ilə meydana çıxır, hansı ki, öz növbəsində təşkilatsızlaşma ilə əlaqəlidir.

Kürəsəl istiləşmə ilə insan cəmiyyətində baş verənlər arasında əlaqənin təsdiqini ilk növbədə fəlsəfədə tapmaq mümkündür. Bu mənada İspan filosofu X.Orteqa Qassetin fikirləri maraqlıdır. O, yazır: «XIX ərin ikinci yarısında bütün dünyada tarixi dövrdür, xalq kütlələrinin həyati maraqlarının əhəmiyyəti real və ideoloji olaraq

onlar və dövlət adamları üçün əhəmiyyət kəsb etməsi dünya tarixində birinci yerə çıxmışdır». Beləliklə, biz xalq kütlələrinin maraqları uğrunda mübarizə əsri ilə kürəsəl istiləşmə arasında paralellik aparsaq, bu mübarizəni kürəsəl istiləşmənin səbəbləri sırasına sala bilərik. Doğrudanmı ictimai-siyasi hərəkatlarla geoloji dəyişilmələr arasında əlaqə var? Məlumdur ki, ictimai-siyasi dəyişilmələr insanın özünü aktuallaşdırma prosesi ilə sıx bağlıdır. Abraham Qorold Maslau «İnsan psixikasının sərhədləri» adlı kitabında yazır: «İnsan imkanlarının tam aktuallaşması – cəmiyyəti tam kimi nəzərə aldıqda – yalnız bəzi «əlverişli şəraitdə» mümkündür…insanın yaxşı olması üçün onun yaxşı həyat şəraiti və yaxşı ətrafı olmalıdır…yaxşı cəmiyyət – insan imkanlarının tam inkişafına və aşkarlanmasına əlverişli şərait yaradandır…birinci və başlıca problem yaxşı adamın zəruri və mühüm təzahüründən ibarətdir». Beləliklə, göründüyü kimi, yaxşı adam – yəni kamil insan bir tərəfdən normal cəmiyyət, digər tərəfdən normal təbiət şərtlərində meydana çıxır. Əks əlaqə asılılığında pis adamın meydana çıxması əlverişsiz ictimai vəziyyətdən və təbiətdən asılı olur və əksinə, pis adam pis ətraf və pis cəmiyyəti yaradır, o cəmiyyətlər ki, xalq materialının durmadan pisləşməsinə səbəb olur, bu cəmiyyətlər həm də həmin pis adamın təbiəti korlamasına gətirib çıxarır ki, belə korlanmış təbiət kürəsəl istiləşmə ilə müşayət olunur. Doğrudanmı biz sosial proseslərlə geoloji proseslər arasında belə ikili təsirin mövcudluğunu iddia edə bilərik? Məşhur Amerika filosofu E.Töffler «Gələcəyin şoku» adlı kitabında yazır: «Sosial dəyişilmələr atmosferin tərkibində kimyəvi dəyişilmələrlə, iqlimin dəyişilməsi ilə torpağın məhsuldarlığı və başqa faktorlarla bağlıdır» İnsan fəaliyyətinin iqlimlə və başqa coğrafi faktorlarla bağlı olması haqqında müxtəlif dövrlərdə ən müxtəlif elm nümayəndələri kifayət qədər dəyərli fikirlər söyləmişlər. Bu sıradan C.Lambrozonun tədqiqatları xüsusilə maraqlıdır. O, cinayətkarlığın coğrafi amillərlə əlaqəsi haqqında «Cinayətkar insan» adlı məşhur kitabında yazır: «Bizim müxtəlif meyllərimiz istilikdən asılıdır…isti iqlimlərdə xalq ictimai həyatda heç bir rol oynamır…iqtisadi və siyasi şərait metroloji təsiri zəiflədir». Beləliklə, aydın olur ki, iqlimdə baş verənlər insan fəaliyyətinin fəallığına və istiqamətinə birbaşa təsir edir. Əgər

isti iqlim cinayətkarlığın artmasına səbəb olursa, yumşaq iqlim, əksinə, pozitiv ictimai fəaliyyətə səbəb olur. Əgər bu təsiri dönər proses kimi qəbul etsək, onda insanın cinayətkar fəaliyyətində ətrafa daha çox istilik verdiyini söyləyə bilərik. Lambrozonun «iqtisadi və siyasi şərait iqlimin təsirini azaldır» fikrini və kürəsəl istiləşmənin birbaşa yeni iqtisadi şəraitlə sıx bağlı olması ilə bağlı müasir birmənalı elmi rəyləri nəzərə alsaq, onda siyasi şəraitin də kürəsəl istiləşmədə müstəsna rol oynadığını qəbul etməliyik. Buradan da son 100 ildə dünyada müharibələrin, etnik və dini münaqişələrin və antidemokratik proseslərin kürəsəl istiləşmədə əhəmiyyətli rol oynadığını təsdiq edə bilərik. Artıq elmi şəkildə sübut olunub ki, inqilablar və ya nəhəng sosial dəyişilmələr baş verən ərazilərdə atmosferin kimyəvi tərkibində ciddi dəyişilmələr müşahidə edilir. Bizcə, belə dəyişilmələr təkcə kimyəvi tərkibdə yox, həm də atmosferin fiziki parametrlərində də baş verir. Həmin parametrlərdən biri də atmosferin istilik balansıdır.

İqlimin və sosial şəraitin qarşılıqlı təsirə malik olduğu digər bir sahə insan xarakterləridir. Xarakter müəyyən ideyanı gücə çevirmək imkanı kimi də qəbul edilə bilər. Xarakter özlüyündə sosial qurluşla sıx əlaqəlidir və sabit proses deyil, o iqlimdən və sosial şəraitdən asılı olaraq dəyişir, eləcə də əks təsir yolu ilə insan xarakteri iqlimi və sosial şəraiti dəyişir. Etnoqraf Malinovski yazır ki, «hər hansı bir yerin insanının xarakter fərqi sosial quruluş başqa cür olanda sürətlə dəyişir». Xarakter həm də real güc kimi çıxış edir. Məşhur psixoanalitik V.Rayx «Xarakteroanaliz» adlı kitabında yazır: «Xarakter strukturu müəyyən dövrün donmuş sosioloji prosesdir…cəmiyyətin ideologiyası yalnız o halda material güc ola bilər ki, o insanların xarakter strukturunu faktiki olaraq dəyişdirsin». Beləliklə, xarakter cəmiyyətin ideologiyasını real material gücə və bununla müəyyən olunan enerjiyə çevirən vasitə kimi çıxış edir. Sosial qurluşun digər tərəfdən iqlimlə əlaqəsini qəbul etsək, onda iqlimin xarakter və sosial qurluşla qarşılıqlı əlaqəsini qeyd edə bilərik. Bu əlaqədə insan xarakteri sosial quruluşa, sosial quruluş isə iqlimə təsir edir.

Qeyd etdik ki, noosferin enerjisi psixi enerjidən ibarətdir. Psixi enerji digər enerji növləri ilə müqayisədə az öyrənilsə də artıq

bu enerjinin geoloji enerjiyə təsir imkanlarından danışa bilərik. Psixologiya elmi sübut edib ki, insanın bir saat düşüncəsinə sərf etdiyi enerji bir stəkan suyu qaynatmağa yetər. Psixi enerji ilə bağlı məşhur Amerika alimi E.Bern «Məlumatsızlar üçün psixoanaliz və psixoterapiya» adlı kitabında yazır: «Psixi enerjinin böyük bir hissəsi heç bir şey etmədən, daha dəqiqi, hər hansı bir fəaliyyətdən saxlanmaq üçün sərf olunur…psixi enerji psixikada nizam saxlamaq üçün müəyyən ideyaların və emosiyaların ayrılmasına sərf olunur». Beləliklə, insan azad olduqda onun psixi enerjisinin böyük bir hissəsi seçimə – ideyaların və emosiyaların ayrılmasına sərf olunur. Əksinə, insan azad olmadıqda, onun psixi enerjisi akkumlyasiya olunur və bədənin digər fəaliyyətləri nəticəsində başqa enerjilərə – kimyəvi və istilik enerjisinə çevrilir ki, kürəsəl istiləşmədə də bu faktoru nəzərə almamaq səhv olardı.

Yuxarıda qeyd etdik ki, psixi enerjinin sərf olunduğu əsas fəaliyyət elmlə bağlıdır. V.İ.Vernadski elmi fikrin inkişafı ilə biosfer arasında baş verən dəyişilmələrlə bağlı yazır: «Elmi yaradıcılığın gedişi – insanın yaradıcılığı biosferi dəyişdirmək gücüdür…biosferi dəyişdirmək təzahürü elmi fikrin artımına uyğun qaçılmaz təzahürdür…biosferdə bu dəyişilmələr insan iradəsindən asılı olmayaraq baş verir – biosfer noosferə çevrilir…elmi fikirsiz geoloji effekt ola bilməz». Beləliklə, biz görürük ki, elmi inkişaf bizim iradəmizdən asılı olmayaraq, biosferdə dəyişilmələr yaradır. Yuxarıda qeyd etdik ki, biosferdə baş verən dəyişilmələr teosferdə ciddi dəyişilmələrlə müşayət olunur. Buradan da belə bir nəticə çıxır ki, elmi inkişaf geoloji dəyişilmələrə səbəb olur və belə geoloji dəyişilmələrdən biri də məhz kürəsəl istiləşmədir. Elmi fikir yalnız biosferi yox, ilk növbədə noosferi dəyişdirir. Noosferdə baş verən dəyişilmələrə taksisdə baş verən dəyişilmələr - cəmiyyətin qurluşunda və mənəvi sferasında baş verən dəyişilmələr aiddir. V.İ.Vernadski yazır: «Dövlət həyatında elmin əhəmiyyətinin artması ilə bağlı gec-tez dövlət qurluşunda başqa dəyişilmə – onun demokratik əsasının güclənməsi baş verir. Belə ki, elm daha dərinlikdə demokratikdir…elmi fikir biosferin qurluşunun hissəsidir». Beləliklə, elm bir tərəfdən biosferin, digər tərəfdən siyasi qurluşun hissəsi olduğundan, demokratikləşmə elmi,

o da öz növbəsində biosferin inkişaf etdirdiyindən, kürəsəl istiləşmədə demokratikləşmə amili ciddi əhəmiyyət kəsb edir. Yuxarıda apardığımız təhlil nəticəsində belə qənaətə gələ bilərik ki, kürəsəl istiləşmədə insan faktoru başlıca amildir. İnsan isə yaşadığı cəmiyyət və təbii ətrafla müəyyən olunduğundan, kürəsəl istiləşməyə qarşı mübarizə demokratiya uğrunda mübarizə ilə birlikdə aparılmadıqca effektli olmayacaq.

P.S. Məqalə «Qanun» jurnalının 2009-cu ilin 6-cı sayında çap olunmuşdur.

İNSANLIĞIN TARİXİ İNKİŞAFINDA YENİ ERA: PORNOKRATİYA

İnsanlar arasında üç təbii bərabərsizlikdən biri cinsi bərabərsizlikdir. Cinsi bərabərsizlik dedikdə qadınların məhz qadın olduqlarına görə kişilərdən gücsüz, imkansız və hüquqsuz olması nəzərdə tutulur. Qədim Romada ümumiyyətlə qadını insan hesab etmirdilər. İudizmdə qadına ibadət hüququ verilmir. Bəzi mədəniyyətlərdə qadının həyatı üzərində sərəncam hüququ onun ərinə verilmişdir. Nəzərə alsaq ki, təbii bərabərsizliklər sosial bərabərsizlikləri daha da dərinləşdirir, onda cəmiyyətdə insanlığın həll etməli olduğu ciddi problemlərdən biri cinsi bərabərsizliyin və onun bütün təzahürlərinin ləğv edilməsi hesab edilməlidir. Azərbaycan İslam mədəniyyəti və Türk mentaliteti sərhədlərində yerləşdiyindən, cinsi bərabərsizlik özünəməxsus problem kimi meydana çıxır.

Yaşanmış insanlıq tarixi demək olar ki, böyük üstünlüklə bir cinsin - kişilərin - yaratdığı tarixdir. Bu tarixi kişi ruhu yaratdığından - bu ruh isə destruktiv və döyüşkən olduğundan – qanlı-qadalı olmuş və insanlıqdan nəhəng qurbanlar tələb etmişdir. Kişi tarixi *qeyri- rasional* və *geyri-gənaətcildir*. Buna görə də bu tarix nəhəng sosial enerji itkisi ilə müşayət olunmuşdur. Tarixdə bir cinsin üstünlüyü həm də insanlığın enerjisinin böyük bir hissəsinin *cinslərarası mübarizəyə* sərf olunmasına səbəb olmuşdur. Kişilik tarixi əsasən insanın xarici güclərlə - təbii və sosial güclərlə - mübarizə zərurətindən yaranmışdır. Belə mübarizə *fiziki güc* tələb etdiyindən, kişi qadınlara nisbətən üstün təbii *kobud fiziki gücü* ilə qabağa çıxmışdır. Buna paralel fiziki güc həm də əmək cəbhəsində kişilərə üstunluk qazandıraraq qadınları istehsal munasibətlərindən kənarda saxlamışdır. Nəticədə qadın mulkiyyət hüququndan məhrum olmuş və özü də öz növbəsində kişi mülkiyyəti statusuna endirilmişdir. İnsa-

nın təbiət üzərində ağalıq əldə etməsi kişi tarixinin ən böyük nailiyyətidir. Həm də bu ənənəvi tarixin başa çatmasını şərtləndirir. Təbiət insana ram edildiyindən, insanı təhdid edən xarici güclərdən effektli müdafiə vasitələri yarandığından, artıq kişiliyin tarix yaratmaq zərurəti aradan qalxmaqdadır. Digər tərəfdən, texnika və texnologiya əmək prosesində insan əməyini - xüsusən fiziki əməyi minimuma endirdiyindən, fiziki güc tarixin və nemətlərin yaranmasında *lüzumsuz artığa* çevrilmişdir. İndi insanlığın qarşısında duran növbəti vəzifələri həll etmək üçün *intellektual və hissi əmək* xüsusi önəm daşımaqdadır. Bu isə ilk növbədə qadın ruhu ilə sıx bağlıdır. Artıq bəşər tarixinin yaranmasında *qadınlığın və uşaqlığın* potensialından istifadə etmək erası başlanır. Müasir tarixi keçid tarixi - kişi tarixinin qadın və uşaq tarixi ilə birgə ümuminsan həmrəyliyi tarixi kimi - adlandırsaq, səhv etmərik. Biz bu məqalədə yalnız qadınlığın ictimai-siyasi arenaya daxil olma problemləri ətrafında bəzi mülahizələrə yer verəcəyik.

Qadın ruhu kişi ruhundan fərqli olaraq *passivist* olduğundan bir tərəfdən *qurucu*, digər tərəfdən *tolerantdır*. Kişi ruhundan fəqli olaraq hakim qadın ruhu kişilərə dözüm nümayiş etdirir, nəticədə cəmiyyətdə *cinsi həmrəyliyin* əsası qoyulur. Bu baxımdan *qadınlığın tarixin yaranmasında iştirakı öncə siyasi məsələdir*. Əslində qadınlıq *-demokratik başlanğıcı*, kişilik - mahiyyət etibari ilə *avtoritar başlanğıcı* təqdim edir. Məhz buna görə *qadınlığın ictimai həyatda aktiv, kütləvi iştirak etmədiyi cəmiyyətlərdə demokratiya inkişaf etmir*. Totalitar cəmiyyətlərdə qadınlara sinfi münasibət mövcuddur və qadınlar kişilərin sinfi mübarizə subyektlərinə - kişi zorakılığının hədəfinə çevrilirlər. Belə cəmiyyətlərdə qadınlar ikiqat – həm hakimiyyətin, həm də əks cinsin - kişilərin istismarına məruz qalırlar. Unutmaq olmaz ki, *qadını azad olmayan heç bir cəmiyyət tam azad ola bilməz*.

Qadınlıq həm də özündə nəhəng *insanlıq potensialı* saxlayir. Qadınların tarixin yaranmasından kənarda saxlanması onları potensial yaradıcı ictimai *enerji deposuna* çevirmişdir. Növbəti tarix yalnız bu enerji hesabına yarana bilər.

Qadınlar həm də insanlığın kəmiyyət kateqoriyasına daxildir. Deмək olar ki, kişilərlə müqayisədə dünyada qadınlar çoxluq təş-

kil edir. *Qadınların çoxluq təşkil etdiyi dünyada tarixi yalnız kişilərin yazması bu tarixi qeyri-demokratik və geyri-legitim etmişdir*. Bu baxımdan çoxunluq demokratiyasının genişlənməsi qadınlığı böyük sürətlə siyasi səhnəyə çıxarır.

Qadınlığın problemləri - *gender* indi bütün dünyada elmi fəlsəfi araşdırma və ictimai-siyasi diskusiya obyektidir.

Genderin cəmiyyət münasibətlərində aktuallaşması tarixi-sosial problem kimi bu gün də öz həllini gözləyir. Gender münasibətləri bioloji-fizioloji fərqlərlə yanaşı, insanın özünüdərk, özünü təsdiqi ilə bağlı psixoloji problemlərdən ibarətdir. *Əslində insan psixologiyasında kişilik və qadınlıq bioloji ikicinsliliyin proyektiv təzahürüdür. Belə ki, erkəklik kişilikdə, dişilik qadınlıqda proyeksiya olunur. Buna görə də kişilik və qadınlıq yalnız psixoloji səviyyədə reallıqdır*. Hər bir cins özünəməxsus təbii keyfiyyətlərə malik olmaqla yanaşı, əks cinsinin təbii xüsusiyyətlərini də özündə potensial olaraq daşıyır. Buna paralel bəzən psixoloji proyeksiyalaşmada yerdəyişmə baş verir və bioloji-antropoloji cinsi fərqlilik əks psixoloji tipdə proyeksiyalaşır. Homoseksuallıq və leyzbianlıq bu səbəbdən yaranır. Belə əks proyeksiyalaşma bir çox faktorlardan - irsi keyfiyyətlərdən, hormonal pozğunluqlardan, sosial şəraitdən, tərbiyə stilindən, təhsil səviyyəsindən, mədəniyyət formasından, demoqrafik dəyişmələrdən, ictimai şüurun tarixi formasından və nəhayət, makrokosmosda baş verən proseslərdən asılıdır. Gender münasibətlərində yaranan problemlər ictimai həyatın müxtəlif sahələrində ictimai-siyasi və hüquqi fərqlər yaradır ki, bu da tarixi dövrlərdə cinslərin bir-birinə qarşı hüquq pozuntularına gətirib çıxarmışdır.

İctimai həyatda kişi-qadın fərqləri ilk növbədə onların ictimai davranışlarında üzə çıxır. Kişi həmişə *təşəbbüskar* rolunda çıxış edir. Qeyl Şıxi yazır: "Cinslər arasında daha dəqiq fərqlər onların davranışlarından ibarətdir (inisiasiya - başlanğıc) cinslərdən biri təşəbbüsü ələ alır, işi açır, öz arzusunu formalaşdırır və davranış stilini başqa adamların təlabatına və istəklərinə uyğun müəyyən edir. Heç bir xarakteristika yalnız bir cinsə aid deyildir. Ayrıca adamda iki daxili güc fəaliyyət göstərir: Daxili "mən"in iki hissəsi; axtaran və birləşdirən. Bizim cəmiyyətdə təşəbbüs gənc yaşlarında kişilərə

məxsusdur, eyni zamanda gənc qadınlar üçün bunun əksi təsdiq olunur". Beləliklə, təşəbbüs kişilərə məxsus olduğu kimi, *hökmranlıq hüququ* da onların əlinə keçmiş olur. İnsanlar təbiətin əsirindən onun ağasına çevrildiyi andan, *kişilər həm də qadınların ağasına çevrilmişdir.* Kişi-qadın təbiətindən gələn fərqlilikləri ictimai normalara çevirərək, onları həm də sosial həyatda qeyri-bərabər vəziyyətə salmışdır. İlk növbədə qadın-kişi münasibətlərindəki qeyri-bərabərlik onların təbii imkanlarına əsaslanan *əmək bölgüsündə* həyata keçirilmişdir. Bu gün qadına və qadın əməyinə münasibət kişi münasibətindən ibarətdir. A.Adler yazır: "Əmək bölgüsü, imtiyazlı qrupun məhz kişilərə müəyyən üstünlük verməsi ilə təmin edilir və nəticədə bu, onların qadınlar üzərində əmək bölgüsündə hökmranlığını təmin edir…bizim bütün institut, adət-ənənə, qanunlar, əxlaq onu göstərir ki, onlar imtiyazlı kişilər tərəfindən kişi hokmranlığı üçün verilmişdir… "Kişilik" və "Qadınlıq" xarakterinin cizgilərinin fərqlənməsinə haqq qazandırmaq olmaz. Hər iki xarakter ən çox hakimiyyətə cəhdi təmin etmək üçün istifadə edilir... "İnsan hakimiyyətə qadın xarakterinə tabe olmaq və barışmaqla da cəhd edə bilər"".

Qadın xarakteri qadın hökmranlığı qarşısında duran və qadın bədənindən qaynaqlanan ən ciddi maneədir. Qadınlıq hər şeydən əvvəl özünüdərkin psixoloji tipidir. Bu tip insan öz-özünü zəif, kişi himayəsinə möhtac hiss edir. Qadın gücsüzlüyü kişi himayəsinə meylləndikcə, qadın kişi hökmranlığına düşmüş olur.

Bədən qadın üçün yeganə silahdır ki, bədən başlanğıcı olan kişiyə qarşılıq verə bilsin. Ona görə də qadın özünütəsdiq prosesində öz bədənindən kişi hökmranlığına qarşı yeganə silah kimi istifadə edir. Qadın öz fiziki simpatiyasından kişidə yaratdığı hissi emosional effektə əsaslandığından, öz fiziki simpatiyasını reallıqdan fərqləndirməyə və arzuolunan hala gətirməyə cəhd edir. Qadın həm də davranışları ilə kişidə effekt yaratmaq üçün rola girir. Beləliklə, qadın kişi hökmranlığına qarşı *makiyaj-maskada aktyor* kimi çıxış edir. Qadınlarda insanlıq sanki maskalanmış vəziyyətdə təzahür edir. Fiziki simpatiyanın qadın psixologiyasında refleksiyası eyni ilə kişilərdə də gözəlliyin qadın psixologiyasını üzə çıxarır.

Cəmiyyətdə qadınlıq əsarətin bir forması kimi qəbul edilir. Qadın spesifik rol oynamağa - uşaq doğmaq və böyütmək vəzifəsini yerinə yetirməyə məhkum edildiyindən, o, öz şəxsi həyatını yarımçıq yaşayan və sosial həyatını həm kişisi ilə, həm də övladları ilə bölüşdürməyə məcbur olur. Beləliklə, qadınlıq *yarımçıq insanlığı* ekstensiya edir.

Bioloji konstruksiyasına görə erkəklik xaricə - ekstensiv, dişilik daxilə - intensiv istiqamətlənib, yəni belə istiqamətlənmə kişi və qadının psixoloji vəziyyətində əks olunaraq kişini açıqlığa - cəmiyyət həyatına, qadını qapalılığa - ailə ocağına meyl etdirir.

Kişilər özlərində həm özlərini, həm də qadınları təqdim etmək imkanlarına görə universaldırlar. Qadınlar bundan məhrumdur. Cəmiyyətdə formalaşmış rəqabət şəraitində qadın kişiyə onun universallığına görə məğlub olur.

Qadın daha çox forma, kişi mahiyyətdir. Forma məzmunla vəhdətdə olduğu kimi qadın-kişi ilə vəhdətdədir və təyinedici məzmundur - kişidir.

Beləliklə, qadın kişi münasibətlərində təbii-bioloji orqanik və funksional bərabərsizlik ictimai bərabərsizliyi doğuraraq insan cəmiyyətində kişi hökmranlığının əsasını qoymuşdur. A.Adler yazir: "İnsanlığın kişilərdən və qadınlardan ibarət olması faktı əmək bölgüsünün başqa növünü yaratmışdır. Bu əmək bölgüsü tamamilə təbii olaraq baş vermişdir. Əmək bölgüsünün məqsədi qadınları qadınlıqdan məhrum etmək və ya qadın-kişi təbii qarşılıqlı münasibətlərini pozmaq olmamışdır. İdealda bizim hamımıza imkan verilir ki, biz nəyə daha çox uyğunlaşa biliriksə, onunla məşğul olaq. Qabiliyyət, resurs və qadından sui-istifadəyə yol verən əmək bölgüsünü mühakimə etməyə bizim hüququmuz yoxdur. Kişilər öz ənənəvi vəzifə və işlərini qadınlara həvalə etsələr də, onlara müvafiq hakimiyyət səlahiyyəti tanımaqdan imtina edirlər". Bu, cəmiyyətdə kişi-qadın qarşıdurmasını şərtləndirir. Bu gün insanlıq hər iki cinsin hakimiyyətinə - pornokratiyaya hazırlaşır. Pornokratiya yalnız kişi-qadın qarşıdurmasının nəticəsində meydana çıxmır, hər şeydən əvvəl pornokratiya qloballaşmanın təzahürü kimi meydana çıxmaqdadır. Qadınların kişilərlə bərabər hökmranlığı üç yolla reallaşa bilər: Bi-

rincisi, məhəbbət oyunlarında hər iki cins özlərini ya əks cins kimi, ya da orta cins kimi dərk edirlər. Uzun müddətli cinsi həyat, hər iki cinsi amortizasiya edərək onları *ortaq cinsə* çevirir. Bu prosesdə kişilər özlərinin destruktiv enerjilərindən azad olurlar. Nəticədə qadın hökmranlığına müqavimət zəifləyir, yeni *cinsi tolerantlıq* yaranır. Sosioloji tədqiqatlar da sübut edir ki, həqiqətən cinsi əlaqə gərginliyin akumlasiya olunmasında mühüm rol oynayır. A.Adler belə bir faktı diqqətə çəkir ki, "Avropada cinayət törətmiş caniləri hadisədən sonra fahişəxanalarda axtarırlar. Orada həmin qatili, həm də başqa caniləri tapırlar. Cinayət törətdikən sonra yüngülləşmək və gərginliyi aradan qaldırmaq üçün və həm də özlərini bir daha təsdiq etmək üçün ora gedirlər". Gündəlik cinsi həyatla kişilər artıq cəmiyyətdə özlərini təsdiq etmiş və gərginliklərini boşaltmış halda qayıdırlar. Hakimiyyət kişini özünü təsdiqinin vəzəfəsi kimi arxa plana keçdiyi kimi, qadın hokmranlığına müqavimət gərginliyi də aradan çıxmış olur. Qadının hakimiyyətə yolu açılır. Beləliklə, qadınla kişinin cinsi yaxınlığı *qarşılıqlı qurbanvermə* ilə müşayət olunur. Qadın öz bədəninin istismarına razılıq verdiyi kimi, kişi öz hakimiyyətindən güzəştə gedir. İkincisi, kəbində və məhəbbətdə hər cür kişi eqoizmi kişi hökmranlığının əsas psixoloji məqamlarından olan altruizmlə əvəzlənir. Teodor Xendrik van de Velde yazır: "Kəbinin çiçəklənməsi üçün altruizmin onda əhəmiyyətli yer tutması vacibdir". Üçüncüsü, kişi-qadın yaxınlığında həm də qarşılıqlı təkmilləşmə baş verir. Xippelə görə, "Qadın kişinin, kişi də qadının təsiri ilə təkmilləşib". Bu proseslə hər iki cins öz təbii sərhədlərini keçərək psixoloji səviyyədə bir-birinə yaxınlaşırlar. Qarşılıqlı təkmilləşmədə qadın cəmiyyət həyatına daxil olmaq istiqamətində, kişi onun hakimiyyət iddialarını normal qəbul etmək istiqamətində təkmilləşir və bu iki proses ümumi ictimai təkmilləşmə ilə müşayət olunur. Ona görə də istənilən ictimai-siyasi dəyişmə cinsi həyatda öz möhürünü vurur və arxasınca *cinsi inqilab* gətirir. Sonda bu, cinsi psixoloji maneələri aşmaqda hər iki cinsə yardım edir. Nəticədə təkmil ər-arvadlıqda kişi qadını əldə etmir. Bu mərhələdən başlayaraq cinsi qarşıdurma *cinsi həmrəyliklə* əvəzlənir. Başqa sözlə, siyasi hakimiyyətin bölüşdürülməsi, yataqda vəzifələrin bölüsdürülməsinə uyğun dəyişilir. Qadın öz ça-

tışmazlığını kişi hesabına dəf etdiyindən, qadın tələb edən, kişi təmin edən rolunda çıxış edir. Buradan kişi cəmiyyətlə, qadın fərdlə refleksiya olunur. Hakimiyyət ictimai təzahür olduğundan, qadınlıq ondan məhrum olur. Erkək-dişi münasibətlərinin ictimai həyatda refleksiyası kişini "istehsalçı", qadını "istehlakçı" kimi təzahür etdirir. Bu da kişilərdə daha çox nizamlılıq, qadınlarda isə nizamsız həyat tərzi üzə çıxarır. Kişi yalnız nəslin başlanğıc materialını istehsal etmir, o, həm də maddi nemətlərin və universal dəyərlərin istehsalçısı kimi çıxış edir. Qadın isə əksinə, kişi "məhsullarının" tükəndiricisi kimi çıxış edir. Kişi öz istehsalı ilə həm də qadını təmin edir, həm də öz istehsal məhsulları ilə onu idarə edir.

Ekzistensial etikaya görə, insan öz təbiəti ilə radikal, mütləq və universal olaraq azaddır. İnsan həyatı onun özünün proyektidir. O, özü-özünü yaradır və özünün "kim olmağına" cavabdehdir. Qadın bu mənada azad deyil, qadın bir qayda olaraq kişisinin proyektidir. Başqa sözlə, klassik qadın-kişi hakimiyyətinin məhsuludur və o, öz-özünün kimliyinə cavabdehlik daşımır və kişi onu hakimiyyət hüququ olmadan proyektləşdirməyə cəhd edir. Buradan da qadınlıq bütünlüklə səlahiyyətsiz və təbii olaraq məsuliyyətsiz meydana çıxır.

Kişi mortido gücünü təqdim etdiyindən, daim həyat gücünə ehtiyac duyur və cinsi əlaqə ilə qadından libidoz enerjini özünə transfer edir. Bu prosesdə kişi tədricən qadını assimlasiyasıya edərək onu kişiləşdirir, kişinin qadının assimlyasiyası kişinin öz maraqlarına xidmət etsə də, qadını qadınlıqdan xilas edir.

Qadının kişi hökmranlığından xilas olmasının ikinci yolu inverziya ilə mümkün olur. Cəmiyyətdə ciddi kişi müqavimətinə rast gələn və hakimiyyətə cəhd edən qadın bunu öz cinsi üzərində həyata keçirməyə cəhd edir, *inverziya* - hər bir cinsin öz daxilində meyllənməsidir. İnverziya qapalı qadın cəmiyyətlərinin yaranması, qadınlar arasında qadın-kişi münasibətləri əsasında yeni sosial rol bölgüsünün həyata keçirilməsi ilə müşayət olunur. İnverziya kişi hakimiyyətindən qadını xilas etməklə, bütünlükdə ona hakimiyyət vermir. Əksinə, inverzator yalnız kişilərdən yox, həm də kişilərlə birgə olan qadın çoxluğundan ayrılır. Cəmiyyətdə azlığa çevrilir, hansı ki, bütün istənilən azlığın problemləri ilə üzləşir. Bir çox hallarda

inverzator qadın cəmiyyəti tərəfindən təklənir və təqib olunur. Amazonka cəmiyyəti özunəməxsus qadın mədəniyyətini yaradır. İnsan heyvanlardan fərqli olaraq öz cinsi meylini qeyri-cinsi üsullarla təmin etmək bacarığı əldə etdikdən sonra, qadın bu yola da kişi hökmranlığına müqavimət göstərir. Qadınların cah-cəlala marağının dərin qatlarında onun öz seksual enerjisini maddi şeylərdə reallaşdırmaq istədiyindən xəbər verir.

Qadının kişi hökmranlığından xilas olması və kişilərlə bərabər əsaslarda ictimai hakimiyyətə yiyələnməsi - pornokratiya erasının başlanmasından xəbər verir. Bu günkü insanlar padərşahlığın axırıncı şahidləri olmaqla yanaşı, yeni eranı qarşılayanların cərgəsindədirlər.

Simona de Bovuara görə, qadın öz bədənindən (daha doğrusu dişiliyindən – S.C.) ayrılmadan, cəmiyyəti tənqid edə bilmədiyi kimi, cəmiyyəti tənqid etmək hüququ qazanmayan qadın cəmiyyətin formasının və tipinin, o cümlədən, ictimai normaların formalaşmasında da iştirak edə bilməz və cəmiyyətin istənilən diqtəsinə boyun əyməyə məcburdur. Cəmiyyətin qadına münasibəti ilə qadının özünə münasibəti ziddiyət təşkil etdiyindən, cinsi qarşıdurma qadın-cəmiyyət qarşıdurması ilə əvəzlənir. İnsanlıq bu konflikti həll edərək pornokratiya erasına qədəm qoya bilər. Pornokratiya antropoloji səviyyədə yox, psixoloji səviyyədə baş verən dəyişiliklərlə təzahür edir. Düzdür, indi cinsi təcrübədə trans-seksuallıq inkişaf etməyə başlayıb. Bu problem *emansipasiyanın* xüsusi növü kimi təzahür edir. Cinslərin yaxınlaşması və onların qarşılaşması ümumi inkisafın məhsuludur və P.C.Prudona görə, pornokratiya bütün millətlər üçün ümumi təzahürdür.

Pornokrtaiya ilk növbədə cinsi qarşıdurmanın cinsi həmrəyliklə əvəzlənməsindən başlanır. Klassik qadın-kişi münasibəti öz yerini yeni münasibətlər silsiləsinə verir. Müasir texnika və texnologiya öz arxasınca yeni seksual mədəniyyət yaradır. Artıq qadın çatışmazlığı və gücsüzlüyü texnika və texnologiyanın köməyi ilə kompensasiya olunur. Qadın seçim azadlığı əldə edir. O, ana və ya vətəndaş olmaq vəzifəsini müstəqil seçir. Bu seçim qadına siyasi hakimiyyət seçimlərinə yol açmış olur.

Pornokratiyanın yaranması cəmiyyətin rifah halı, hakimiyyətin tipi və formasından asılıdır. Cinsi asılılıq bir çox faktorla yanaşı iqtisadi vəziyyətlə bağlıdır. A.Q.Maslou yazır ki, "İngiltərədə ailə və cinsi həyatın kasıb siniflərdə öyrənilməsi, həmin münasibətlərin istismarçı münasibət olduğunu üzə çıxarmışdır". Beləliklə, pornokratiya ilk növbədə istismarın istənilən formasının aradan götürülməsini tələb edir. Ona görə də kasıb ölkələrdə cinsi qarşıdurma sinfi qarşıdurmanın tərkib hissəsi kimi təzahür edir. Hakimiyyətin kollektivləşməsi və legitimləşməsi də pornokratiyaya yol açır. Q.Markuze kapitalizmdə hökmdarlığın artıq fərdi funksiya olmadığını yazır. Məhz kapitalizmdən başlayaraq hakimiyyət kollektiv mahiyyət alır ki, insan kollektivinin bir üzvü kimi qadın da hakimiyyətə yiyələnmək hüququ əldə edir.

Pornokratiya sosial rol və əmək bölgüsündə ənənələrin dağılması ilə müşayət olunur. Artıq qadın böyük sürətlə kişi əməyinə cəlb olunur və kişi rollarını oynamağa başlayır. Qadının bioloji rolu tədricən ictimai rolla əvəzlənir. Pornokratiya həm də kultroloji problemdir. Ənənəvi mədəniyyət qadına ənənəvi yer ayırır. Amma kapitalizmdə fərdlə onun mədəniyyəti arasında əlaqə zəiflədiyindən, ənənəvi qadın-kişi münasibətləri üzərində formalaşmış mədəniyyət hər iki cins üçün biganələşir və yeni pornomədəniyyət yaranır. Pornokratiya yeni eksistensial şəraitin yaranmasını tələb edir. Q.Markuze qeyd edir ki, "qeyri-repressiv quruluş yalnız o halda ola bilər ki, seksual instinkt xüsusi hərəkəti ilə dəyişmiş ekstensial və ictimai şəraitin yetkin individlər arasında başqa erotik münasibətləri yaratmağı bacarsın". Repressivliyin və destruktivliyin cəmiyyətdən kənarlaşması qadın hökmranlığına qarşı kişi müqavimətini zəiflədir.

Pornokratiya *emansipasiya hərəkatın* yaranması ilə müşayət olunur. Qadın-ruh, kişi-bədən başlanğıcının təzahürüdür. Bu mənada qadın həm kişidən, həm də öz bədənindən kişilərə nisbətən ikiqat şərtlənib. Amma bu şərtlənmə möhkəm təsbit olunmamış şərtlənmədir. V.Frankl qeyd edir ki, "insan ruhu qismən şərtlənmişdir. Bədən heç nəyə təsir etmir, o yalnız şərtləndirir, insan ruhunun bu şərtliyi insan ruhunun bədənə bağlılığından irəli gəlir". Beləliklə,

təbiət psixoloji tip kimi qadınlığın dişilik kimi bioloji bədəndən fərqlənməsinə və ondan fərqli hərəkətinə yer ayırıb. Pornokratiya istiqamətində inkişaf edən emansipasiya da məhz qadınlığın dişiliyə təsbit olunmasına görə yaranır. Otto Veyniniqer belə hesab edir ki, "cinslərin differensiyası, onların bölgüsü heç vaxt tamamilə qurtarmır. Kişi cinsinə məxsus xüsusiyyətləri ən zəif şəkildə olsa da, qadın cinsində tapmaq olar. Bütün qadın cinsi əlamətləri rudment halında kişilərdə də vardır". Göründüyü kimi, hətta öz bioloji əsasında da qadın cinsi mənsubiyyətinə möhkəm bağlanmamışdır. Beləliklə, təbiət hər iki cinsə öz cinsi mənsubiyyətinə yenidən baxmaq, hətta lazım gələrsə, öz sifarişi əsasında onu dəyişdirmək şansı verib. Müasir dövrdə kişi hökmranlığına qalib gələ bilməyən emansipator qadınların sırasından əks cinsə keçmək istəyi yaranır. A.Adler qeyd edir ki, "bizim mədəniyyət şəraitimizdə çoxlu qadın kişi olmaq istəyir". Qadınların kişi olması *inçestin* basqa bir forması kimi tabulaşdırılıb. Qadına münasibət özünün dərin qatlarında qadın-kişi fərqliliyinin aradan götürülməsi və cinslərin qarşılıqlı dəyişdirilməsinin mümkünsüzlüyündən meydana çıxıb və kişi eqoizminin təzahürü kimi qadının "kişi olmaq" imkanının onun əlindən alınmasını əks etdirir. Ona görə də bir çox qadınlar kişi olaraq hökmranlığa cəhd edirlər. Bu məsələdə də təbiət öz kömək əlini uzatmağa hazırdır. O, Veyninqerə görə, "elə bir canlı varlıq yoxdur ki, onu müəyyən mənada bu və ya başqa cinsə aid edəsən". Beləliklə, "kişi olmaq" qadının təbii imkanları çərçıvəsindədir.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, qadının ictimai bərabərliyi və pornokratiya əleyhinə heç bir təbii və sosial maneə yoxdur. Bütün mövcud maneələr *qadın passivliyinin və kişi eqoizminin qaldırdığı maneələrdir.*

Qadınların hökmranlığı onların kişi həyatında oynadığı roldan asılıdır. A.Loune görə, "qadınlar əks cinsin nümayəndələrinə münasibətdə dörd cür rol oynaya bilərlər; seksual obyekt, bacı, romantik-ideal və ana". Pornokratiyanın inkişafı qadının bu rollardan xilas olmasından və daha çox romantik ideal rol oynamasından asılıdır. Romantik-ideal rol qadını öz dişiliyinin sərhədlərindən çıxarıb, ona kişi həyatında bərabər tərəfdaş rolu oynamağı həvalə edir. Qadınla-

rın dişiliyin təbii sərhədlərində bağlanmaması onlara "kişi olmaq" və kişi hüququnda çıxış etmək imkanı verir. Qadının kişiyə çevrilməsi sadəcə kişi hökmranlığını gücləndirdiyindən, həqiqi pornokratiya qadının qadın olmaq imkanında meydana çıxır. Bununla bağlı O.Veyninqer qeyd edir ki, "emansipasiya özündə zahiri kişi ilə hüquqda eyniləşmə deyil. Bu problemin əsası onda qadın daxili olaraq kişi ilə müqayisə olunmağı arzulasın, onun mənəvi və əxlaqi azadlığına çatsın, onun maraqlarını bölüşdürsün və yaradıcılıq gücü əldə etsin". Əlavə olaraq qadın həm də kişi hakimiyyətini bölüşdürərək, həqiqi emansipasiyaya nail ola bilər.

Bəs kişilər emansipator qadını necə qarşılamalıdır? Bu gün nəhayət, kişilər özlərində cəsarət tapıb insanlığın təkmilləşməsi və inkişafı naminə çox nəhəng sosial enerji deposunun - qadın enerjisinin qarşısını açmalı və onu ictimai fəaliyyətə yönəltməyi bacarmalıdır. Bunun üçün o həm öz hakimiyyətini qadınla bölüşdürməyə, həm də hakimiyyəti istənilən formada reallaşdırmağa - xüsusən siyasi hakimiyyət əldə etməsinə kömək etməlidir. A.Adlerlə razılaşmaq lazımdır ki, "bizim qadın emansipasiyası hərəkatına qarşı çıxmağa əsasımız yoxdur. Bizim vəzifəmiz onlara azadlıqları və bərabər hüquqları uğrunda mübarizədə kömək etməkdir. Çünki son nəticədə insanlığın xoşbəxtliyi, bütünlükdə o şəraitin yaradılmasından aslıdır ki, qadınlar öz qadın rolları ilə barışır, kişilər isə onlara münasibətdə xoşbəxtlik və sakitliyə qovuşurlar". Bu, isə artıq pornokratiyanın yaranmasından xəbər verəcək.

P.S. Məqalə "Gender və insan hüququ" Araşdırma Birliyinin (GİHAB) "Azərbaycanda Gender" tədqiqatları adlı məqalələr toplusunda (Bakı 2002-ci il) çap olunmuşdur.

“MƏHƏLLİ MÜNAQİŞƏLƏR” QLOBAL SİYASƏTDƏ VASİTƏ KİMİ

İnsan azadlıqları və cəmiyyətlərin demokratikləşməsi qarşısında duran ciddi problemlərdən biri də *münaqişələrdir. Münaqişəli vəziyyət - iqtidarlara beynəlxalq öhdəliklərdən, demokratik və qanuni prosedurlardan imtina etməsinə, öz ölkələrində repressiyalar həyata keçirmələrinə kömək etdiyindən demokratik gündəmi dəyişmək üçün ən çox istifadə etdikləri faktorlardandır.* Münaqişələrin genişlənməsi və uzanması bu baxımdan avtoritar idarəçiliyə meyllənən qüvvələr üçün vacib olduğundan, belə rejimlər münaqişəli vəziyyət yaratmağa və ya münaqişələri həll etməməyə meyllidirlər. Bu baxımdan demokratiyanın genişlənməsi naminə münagişələrin beynəlxalq *vasitəçi tərəflərin iştirakı* ilə həlli təşəbbüsləri doğulmuşdur. Lakin təcrübə göstərir ki, münaqişələrin həllində vasitəçilik missiyası heç də həmişə effektli olmur, əksinə, bəzən münaqişənin uzanmasına və mürəkkəbləşməsinə, o cümlədən, *beynəlmiləlləşməsinə* səbəb olur. Münaqişələrin həll olunmasında ciddi problemlərdən biri bəzi münaqişələrlə bağlı *beynəlxalq hüquqda aydın normaların olmaması və ya beynəlxalq hüququn ikili standartlarla yozulmasıdır*. Biz bu məqalədə məhəlli münaqişələrin vasitəçilik missiyasının iştirakı ilə həllinə cəhddə yaranan problemlərə qısa şəkildə toxunacağıq.

İkinci cahan müharibəsindən sonra dünya yeni düzənə qədəm qoyduğu kimi, insanlığın əbədi yol yoldaşı olan münaqişələr də forma və xarakterinə görə yeni keyfiyyətlər əldə etmişdir. Bu yenilik özünü münaqişələrin məhəlli xarakter daşımasında və münaqişələrin həllinin totallaşmasında göstərir. Son yarım əsrdə baş verən məhəlli münaqişələr hansı səbəbdən – seperatizm, etnik-dini dözümsüzlük, tayfa davaları, sosial narazılıqlardan törənməsindən asılı olmayaraq, sonradan ümumi əlamətlər qazanmışdır. Belə ki,

əksər məhəlli münaqişələr xroniki hal almış, zaman-zaman onların həllinə daha çox vasitəçilər, bunun ardınca isə münaqişələrin həllini mürəkkəbləşdirən vasitəçi tərəflərin maraqları da qoşulmağa başlamış, nəticədə bu münaqişələr ilkin mahiyyətini dəyişərək qlobal siyasətin problemlərinə çevrilmişdir. Məhəlli münaqişələrin həllinin qloballaşması dolayısı ilə münaqişələrin özlərinin də pərdə arxasında qloballaşmasına gətirib çıxarmış, hərbi qarşıdurmalar onlardan çox-çox uzaq məkanlarda siyasi, diplomatik qarşıdurmalarla əvəz olunmuş və bir çox hallarda soyuq müharibə vasitəsinə çevrilmişdir. Bütün bunlar göstərir ki, məhəlli münaqişələrin həllindəki çətinliklər onların forma ilə məzmunu arasındakı uyğunsuzluqdan qaynaqlanır.

Məhəlli münaqişələrin dərin təhlili göstərir ki, bu münaqişələri bir qayda olaraq, münaqişələrdə iştirak edən tərəflər yox, ilk baxışdan nəzərə çarpmayan və pərdəarxası fəaliyyət göstərməyə üstünlük verən daha böyük qlobal güclər başlayır. Ona görə də bu cür münaqişələrin həlli heç də bilavasitə münaqişə edən tərəflərin iradə və güclərindən asılı deyil. Məhz bu gücsüzlük münaqişənin həllində münaqişələrdə maraqlı transmilli güclərin vasitəçi, müşahidəçi sifətində cəlb olunmasına gətirib çıxarır. Bu güclər bir qayda olaraq münaqişəyə səbəb olanların sırasından çıxır və qlobal problemlər məhəlli münaqişələrin fövqündə həll edilməyə başlanır.

Məhəlli münaqişələrin qloballaşmasının bir səbəbi də bu gün beynəlxalq hüququn qeyri-təkmil və beynəlxalq təşkilatların fəaliyyətinin müxtəlif güclərin monopoliyasına alınması ilə formalaşmış beynəlxalq hüquqi nihilizmlə bağlıdır. Məhz *beynəlxalq hüququn nihilizmindən* sui-istifadə edən bir çox güclər beynəlxalq təşkilatların adı altında ayrı-ayrı siyasi regionlara müdaxilə edir. *Beynəlxalq hüququn tətbiqində* də bir çox qüsurlar məhəlli münaqişələrin qloballaşmasına səbəb olur. Beynəlxalq hüquqa *ikili və bəzən üçlü standart prinsipinin* tətbiqi bu cür münaqişələrin tənzimlənməsinə imkan verir. Beynəlxalq hüquqda bir çox fəaliyyət və hərəkətlərin dəqiq *hüquqi qiyməti verilməmiş,* bir çox hərəkətlər üçün *normalar müəyyənləşdirilməmişdir.* Xüsusən acınacaqlısı budur ki, dünyada baş verən münaqişələrin böyük əksəriyyətinin əsasında duran *sepe-*

ratizm beynəlxalq hüquqda öz qiymətini almamışdır. Bu da münaqişəyə cəlb olunmuş tərəflərin əməllərinə qiymət verilməsində ədalətsizliyə gətirib çıxarır.

Məhəlli münaqişələrin həlli həmin münaqişələrə *yanaşma metodlarından* cox asılıdır. Təcrübə göstərir ki, münaqişələrin həllinin mürəkkəbləşməsi bir cox hallarda məhz bu metodoloji yanaşmadaki qüsurlarla bağlıdır. Belə ki, millətçilik, dini dözümsüzlük, xarici güclərin silahına çevrilmiş separatizm beynəlxalq hüquqla müdafiə olunan "milli müqəddəratı təyinetmə hüququ" uğrunda mübarizə ilə eyniləşdirilir. Nəticədə beynəlxalq təcrübədə arzuolunmaz presedent yaranır. Faciə ondan ibarətdir ki, bu cür münaqişələri yaradan super güclər müxtəlif siyasi, iqtisadi, hərbi, diplomatik məqsədlərinə çatdıqdan sonra bu münaqişələrin həllində məsuliyyət daşımır və münaqişə edən tərəflər daha ağır şərtlərlə və daha ciddi ziddiyətlərlə taleyin öhdəsinə buraxılır. Yaxın tariximizdə İran, Əfqanıstan və s. buna örnəkdir.

Qlobal siyasətdə məhəlli münaqişələrdən ilk növbədə *bölgədəki maraq dairələrinin bölüşdürülməsində* istifadə olunur. Belə ki, münaqişə həlqəsində fəaliyyət imkanı əldə edən güclər münaqişənin həllində öz maraqlarını qabardaraq, bu münaqişələri onların maraqlarına cavab verə biləcəyi səviyyədə *tənzimləməyə* çalışırlar. Beləliklə, məhəlli münaqişələr *geosiyasi məkana daxil olma, bölgə güclərinə təsiretmə* və bölgədə möhkəmlənmək üçün açar rolu oynayır. Münaqişələr vasitəçi güclərə münaqişə edən tərəflərin hər birinə öz şərtlərini diqtə etməyə şans verdiyindən, vasitəçilik missiyası böyük siyasi imkanlara çevrilir. Məhz buna görə vasitəçilərin məhəlli münaqişələrin həlli uğrunda mubarizəsi bir müddətdən sonra *vasitəçilik missiyası uğrunda mübarizə* xarakteri alır və bu da *münaqişənin uzanmasına* səbəb olur. Məhəlli münaqişələrin vasitəsilə həm də *bölgədəki güc balansının* tənzimlənməsi həyata keçirilir. Belə ki, strateji nöqteyi-nəzərdən gələcəkdə real gücə çevrilmə imkanına malik tərəf uzun müddət gücsüz rəqibi qarşısında məğlub kimi yaşamaq zorunda qalır.

Məhəlli münaqişələr qlobal güclərin münaqişədə iştirak edən dövlətlərin *suverenliyinə müdaxiləsinə,* xalqın iradəsi ilə müəyyən

olunmuş rejimlərin dəyişdirilməsinə və həmin dövlətlərdə arzuolunmaz iqtidarların hakimiyyətinə gətirib çıxarır. Bu da ümumdünya demokratikləşmə prosesində ciddi poblemlər doğurur.

Məhəlli münaqişələr, bir çox *beynəlxalq cinayətkarlığı* - silah alverini, narkobiznesi və s. çiçəkləndirir. Bir çox hallarda bu münaqişələr beynəlxalq səviyyədə *qeyri-qanuni maliyyə əməliyyatlarının* aparılmasına imkan yaradır. Məhəlli münaqişələr qlobal güclərə əlverişli və güzəştli iqtisadi mənfəət götürməyə, bir çox hallarda isə münaqişə bölgələrində yeni *iqtisadi müstəmləkəçilik siyasəti aparmağa* şans yaradır. Bu cür münaqişələr etnik, dini təəssübkeşlik üçün pərdə rolunu oynayır. Yeni zəmində zorakılığı təşkilatlandırır, fəallaşdırır, tarixi ədavətlər üzərində *qisasçılıq meyllərini* gücləndirir.

Bu gün dünyanın bir çox bölgələrində fəal münaqişə zonaları, iştirakçıların sayı və verilən itkilərin miqyası faktiki olaraq dünyada xüsusi əlamətlərə malik *növbəti dünya müharibəsi* aparıldığını göstərir. Olduqca mürəkkəb mexanizmlərlə həyata keçirilən bu müharibələrin qurtarması perspektivi demək olar ki, görünmür.

Təcrübə göstərir ki, məhəlli münaqişələrin fəal zonaları *müsəlman xalqlarının yaşadığı əraziləri, iqtisadi yüksəlişə cəhd edən ölkələri* və *yüksək əhali artımına malik olan xalqları* əhatə edir. Bu isə qlobal siyasətdə mövcud məhəlli münaqişələrdən əhali artımına zorakı nəzarət, iqtisadi asılılıq metodu və dini dözümsüzlük vasitəsi kimi istifadə olunduğunu sübut edir.

Təmsil etdiyim Azərbaycan on ildən artıqdır ki, məhəlli münaqişə ocağına çevrilib. Bu münaqişə çoxsaylı insan tələfatı, böyük iqtisadi itkilərlə müşayət olunur. Dünyaya Dağlıq Qarabağ (DQ) problemi kimi təqdim edilmiş münaqişə Azərbaycanın qarışıq millətlər yaşayan tarixi ərazisində baş vermişdir. SSRİ vaxtında DQ-nin Azərbaycandan qoparılıb Ermənistan respublikasına verilməsi ideyası o vaxtkı mərkəzi rəhbərliyə daxil olan dairələr tərəfindən irəli sürülmüş, keçmiş SSRİ rəhbərləri və dövlət orqanlarının yaxından iştirakı ilə bu məsələ məhəlli hərbi münaqişəyə çevrilmişdir. DQ münaqişəsinin hərtərəfli təhlili göstərir ki, məhəlli münaqişələr üçün xarakterik olan, yuxarıda qeyd olunmuş, bütün keyfiy-

yətləri özündə qabarıq əks etdirən bu münaqişə *iki dövlət arasında mövcud bir münaqişədən qlobal siyasətin predmetinə çevrilmişdir.* Bu gün DQ münaqişəsinin həllinə BMT, ATƏT, MDB, İslam Konfransı Təşkilatı və s. təşkilatlar cəlb edilmiş, dünyanın nəhəng dövlətlərindən olan ABŞ, Rusiya, Fransa münaqişənin həllində hakim rolunu öz üzərlərinə götürmüşlər. DQ münaqişəsi ilə bağlı BMT-nin qəbul olunan gündən unudulmuş və yerinə yetirilməmiş dörd qətnaməsi, ATƏT-in Lissabon Sammitinin Azərbaycanın suveren hüquqlarına zidd olan sənədi, bir çox beynəlxalq təşkilatların və xarici dövlətlərin məsələnin mahiyyətinə aid siyasi açıqlamaları vardır. DQ münaqişəsi məhəlli münaqişə olsa da, məhəlli dövlətlərdən Türkiyə, İran və Gürcüstan bu problemin həllindən kənarda saxlanılır. Münaqişədə vasitəçi və ATƏT-in Minsk qrupunun həmsədri kimi çıxış edən Rusiya Ermənistana bir milyard dollar dəyərində silah bağışlamaqla, Avropada adi silahlar haqqında konvensiyaya zidd olaraq birtərəfli qaydada münaqişədə iştirak edən bir tərəfin hərbi potensialını bir neçə dəfə artırmış, Azərbaycana qarşı isə zaman-zaman iqtisadi sanksiyalar, silah embarqoları tətbiq etmişdir və bu indi də davam etməkdədir. Ermənistanla hərbi müqavilə bağlayan Rusiya onun ərazisində hərbi bazalar yerləşdirməklə, əslində öz bitərəfliyini və vasitəçilik haqqını çoxdan itirmişdir.

Minsk qrupunda həmsədr olan Fransa Ermənistanı iqtisadi və mənəvi cəhətdən dəstəkləyərək, mədəni əlaqələr adı altında Parisdə DQ-ın nümayəndəliyini açmaqla DQ ermənilərinin separatçı hərəkətlərini birbaşa müdafiə etdiyini ortaya qoymuşdur.

Minsk qrupunun digər həmsədri ABŞ hökumətinin təklif etdiyi bütün planlar erməni lobbisinin iradəsini ifadə edir və bu ölkənin əksər qərarları Azərbaycanın mənafelərinə ciddi ziyan vurur. DQ münaqişəsinin həllinə məsuliyyət daşıyan ATƏT-in Minsk qrupu və bu qrupun həmsədrləri münaqişəni məhz bu cür davranışlarla həll etmək niyyətindədirlər. DQ münaqişəsi başladığı gündən Azərbaycanın ərazisinin iyirmi faizi işğal olunmuş, yüz minlərlə insan qaçqın vəziyyətinə salınmış, əlli mindən artıq insan həlak olmuş, iki milyona yaxın insan müvəqqəti emiqrasiya etmiş, Azərbaycan dövlətinə on milyard dollarla iqtisadi ziyan vurulmuşdur. Bütün

bunlar dövlətin iç siyasətində total böhranda əks olunur. Münaqişə başladığı gündən Azərbaycanda dəfələrlə qeyri-qanuni hakimiyyət dəyişmələrinə cəhdlər baş vermiş, Azərbaycan xalqının maraqlarına zidd iqtisadi müqavilələr və kontraktlar imzalanmış, ölkə yeni iqtisadi müstəmləkəçilik siyasətinin qurbanına çevrilməkdədir. İri dövlətlər Azərbaycanın suverenliyinə müdaxilə imkanları qazanmışlar.

Artıq bir neçə ildir ki, DQ münaqişə zonasında atəşkəs elan olunub. Söz yox ki, hər bir insan qan tökülməsinə qarşı çıxmalıdır. Azərbaycanın böyük şairi Hüseyn Cavidin təbirincə desək,

Kəssə kim tökülən qan izini,
Qurtaran dahi odur Yer üzünü

Lakin bu gün mövcud atəşkəs Azərbaycanın təslim olmasına xidmət etdirilir. Bu atəşkəs beynəlxalq təcrübəyə uyğun gəlmir. Münaqişə zonasında neytral tərəflərin nəzarətinin yoxluğundan atəşkəsin istənilən vaxt pozuldugu müşahidə olunur. Ermənilər bu şəraitdən sui-istifadə edib durmadan silahlanır, işğal olunmuş ərazilərin ilhaqına cəhd göstərirlər.

Bizcə, məhəlli münaqişələrin həllində ilkin addım kimi, həmin münaqişələrin qloballaşmasının qarşısı alınmalı, baş verən hadisələrə vaxtında, düzgün beynəlxalq hüquq çərçivəsində birmənalı qiymət verilməli, münaqişədə vasitəçilərin sayı minimuma endirilməli, məhəlli münaqişələrdə məhəlli dövlətlərin iştirakı xüsusi ilə təmin edilməli, məhəlli münaqişələr olan dövlətlərlə iri iqtisadi, hərbi, siyasi müqavilələr bağlanmasına qarşı qadağalar tətbiq olunmalıdır. Biz 1996-cı il 3 oktyabr tarixdə BMT-yə seperatizm cinayətkarlığı ilə bağlı beynəlxalq norma müəyyən olunması üçün müraciət etmişdik. Bu günkü konfrans həmin təşəbbüsü müdafiə edib, onun beynəlxalq hüquqi qüvvə almasına səy göstərərsə, gələcəkdə məhəlli münaqişələrin qarşısının alınmasına və onların düzgün həllinə kömək etmiş olar.

Məhəlli münaqişələr bu münaqişələrdə iştirak edən xalqların şüurunda, psixologiyasında olduqca ağır izlər buraxır. Uzun müddət zorakılıq şəraitində yaşayan insanlarda bəşəri dəyərlərə laqeydlik formalaşır, zorakılığa daxili tələbat meydana çıxır və zorakılıq dav-

ranış normasına çevrilir. Müharibələrə uyğunlaşan insanlar bu tipli münaqişələrin yaranmasında maraqlı olur və hətta bunlarda iştirak etməyə cəhd göstərirlər. Belə adamlar üçün münaqişələrin harada baş verməsi, kimlər arasında olması və nəyin naminə olması arxa plana keçir.

Professor Y.Şnayderin fikrincə "Bizi təhdid edən ən qorxulu fəlakət heç də Yerdə atom, istilik və buna bənzər variantlarla insanlığın fiziki məhvi deyil, daha çox antropoloji-insanlarda insanlığın məhvidir. İnsan həyatının şəxsi və ya ictimai olaraq qurulması eqoistik maraqlara xidmət edən ehtiraslar üzərində deyil, yalnız bəşəri dəyərlərin möhkəm mənəvi özülləri üzərində mümkündür. Qum üzərindən bünövrəsi qoyulan bina sözsüz uçar və öz uçuğu altında çoxlu günahsız insanı məhv edər".

Qlobal siyasətdə məhəlli münaqişələrdən vasitə kimi istifadə edən "vasitəçilər" "İnsanlığı məhv edilmiş insanlarla" qum üzərində nəhəng saraylar "tikməyə cəhd" edirlər. Bu cür nəhəng binaların uçqunları isə bütünlükdə insanlığı təhdid edir.

P.S. Məqalə 27-28 aprel 1998-ci ildə Tehranda keçirilmiş "Regional dövlətlərin konfliktlərin həllində və iqtisadi inkişafda rolu" adlı Beynəlxalq seminarda məruzə edilmiş və Azərbaycan Elmlər Akademiyası Ə.Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunun hazırldığı "Azərbaycanın sosial-siyasi fəlsəfi problemləri" adlı məqalələr toplusunda (Bakı-1999-cu il) çap olunmuşdur.

Qeyd: Müəllif dünyada mövcud olan çoxsaylı eyni mahiyyətli məhəlli münaqişələrin orijinal yollarla həll edilmə səylərinin effektivsizliyini, vasitəçilik yolu ilə belə problemlərin həllinə cəhddə münaqişələrin qlobal xarakter alma təhlükəsini və bütünlükdə bu günədək beynəlxalq hüquqda seperatist hərəkatlara hüququ qiymət verilmədiyini nəzərə alaraq, 1996-cı il 3 oktyabr tarixdə BMT-yə seperatizmə beynəlxalq hüquqi qiyməti özündə ifadə edən normaların işlənib hazırlanması və bu normalara riayət edilməsini tən-

zimləyən BMT-nin umumi qətnaməsinin qəbul edilməsi ilə bağlı müraciət göndərmişdir. Təkliflərin məhəlli münaqişələrin həllində əhəmiyyətini nəzərə alaraq həmin müraciətin mətni məqaləyə əlavə olunur.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQTİSADİ VƏ SOSİAL ŞURASININ "CİNAYƏTKARLIĞIN QARŞISININ ALINMASI VƏ CİNAYƏT MÜHAKİMƏSİ" KOMİSSİYASINA

SEPERATÇILIĞIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ YOLVERİLMƏZLİYİ HAQQINDA

İkinci dünya müharibəsindən sonra zaman-zaman beynəlxalq münasibətləri gərginləşdirən, bəşəriyyəti dəfələrlə yeni dünya müharibə təhlükəsi ilə üz-üzə qoyan, çoxlu insan tələfatına və külli miqdarda maddi ziyana səbəb olan, başlıcası dövlətlərin müstəqilliyi və cəmiyyətlərin demokratikləşməsinə mane olan qlobal problemlərdən biri də SEPERATİZMDİR

Roma klubunun dünyanın qlobal problemlərindən biri kimi beynəlxalq müzakirəyə təqdim etdiyi "suverenlikdən imtina" ideyası da məhz seperatist meyllərin dəf edilməsini və belə hərəkata baş vuran qüvvələrin tələblərinin rədd edilməsini tələb edir. Bu gün seperatizm Avropada (İngiltərə, İtaliya, Fransa, Yuqoslaviya, Türkiyə, İspaniya, Azərbaycan) Asiyada (Hindistan, Şri-Lanka, Çin, İran, Orta Asiya dövlətləri) Afrikada (Efiopiya, Sudan və s. ölkələr) münaqişə ocaqlarının, lokal müharibələrin yaranmasına cəbəb olmuşdur.

Bir çox ölkələr (Rusiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Almaniya, ABŞ və s.) seperatizmin potensial təhlükə törədə biləcəyi dövlətlərə çevrilir.

Seperatizm bir cinayətkar hərəkat kimi etnik və dini dözümsüzlüyə, diskriminasiya və şovinizmə, irqçilik və genosidə, terrorizmə səbəb olur, qanunsuz silah alverini, narkobiznesi, dövlət məmurlarının korrupsiya və rüşvətxorluğa qurşanmasını qidalandırır, dövlətləri militarizasiyaya, hərbi diktaturalara, xuntalara, anti-

demokratik rejimlərə doğru sürükləyir, milli azlıqların genefondunu təhlükəyə salır.

Seperatizm demokratik institutlara qarşı böyük təhlükədir.

Seperatist hərəkat olan ölkələrdə azad seçki hüququ, söz azadlığı, insan hüquqları təmin olunmur.

Seperatizmi stimullaşdiran əsas səbəblər:

- beynəlxalq hüquqa zidd olaraq dövlətlərin bir-birinin daxili işlərinə qarışması məgsədi ilə seperatist hərəkatlardan vasitə kimi istifadə etməsi;
- beynəlxalq normaların, xüsusən milli müqəddəratı təyinetmə prinsipinin qeyri dəqiqliyi, onun reallaşmasının dinc və beynəlxalq mexanizminin olmaması;
- neytral dövlətlərin seperatizmə ikili standartla yanaşması;
- bu hərəkata beynəlxalq huquqi qiymətin verilməməsi;
- seperatist hərəkatlara qarşı beynəlxalq səylərin birləşdirilməməsi;
- seperatizmə qarşı mübarizəni təşkil edən xüsusi beynəlxalq təşkilatların olmaması;

Bundan başqa, seperatizmin hüquqi-siyasi nəticələrinin aradan qaldırılmasında da beynəlxalq normalar müəyyən olunmamışdır.

Bütün bunları nəzərə alaraq, seperatizmin xüsusi təhlükəli qlobal cinayət kimi qiymətləndirilməsi, BMT-də müvafiq "seperatizm əlehinə qətnamə"-nin hazırlanması, seperatizmə qarşı beynəlxalq səylərin birləşdirilməsi zəruridir.

Göstərilənləri əsas tutaraq, BMT Ali Məclisinə təklif edirik:

- bu məsələ BMT-nin müzakirəsinə çıxarılsın;
- bir çox bəşəri cinayətlərə qarşı olduğu kimi, seperatizmlə bağlı beynəlxalq saziş imzalansın;
- beynəlxalq anti-seperatist təşkilat təsis edilsin, BMT-nin ümumi qərarı ilə seperatizmə maddi, mənəvi, hüquqi, siyasi dəstək qadağan olunsun;
- Seperatçıların himayə olunması, onlara sığınacaq verilməsi qadağan olunsun;
- seperatizmin təbliği dayandırılsın;

- seperatist hərəkatlar cərəyan edən ölkələrə hər cür yardımlar göstərilsin;
- bu hərəkatlara qarşı çıxış edən dövlətlərə hər hansı təzyiq qadağan olunsun;
- seperatist hərəkatların qarşısını almaq üçün beynəlxalq güc formalaşdırılsın;
- beynəlxalq anti-seperatist kampaniya, təbliğat və maarifçilik işi qurulsun;
- seperatizmin profilaktikası, meydana gəlməsi, xüsusiyyətlərini öyrənmək üçün BMT yanında elmi mərkəz yaradılsın;
- dünyadakı seperatist hərəkatlar haqqında informasiya mərkəzi təsis edilsin və dünya xalqlarına bu barədə obyektiv informasiyanın çatdırılması nəzarətə götürülsün.

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ BÖHRANIN ŞÜURİ PROBLEMLƏRİNİN ETİMOLOGİYASI

Şüuri proseslər insanı nəinki digər canlılardan fərqləndirən təzahürüdür, həm də insan cəmiyyətinin formalaşmasında və cəmiyyətdə baş verən ictimai-siyasi proseslərin gedişində mühüm rol oynayır. Tarixi təcrübə göstərir ki, müxtəlif cəmiyyətlərdə insan şüurunun müxtəlif tarixi formaları birgə mövcud olur. Bu da *şüuri problemlərin çoxformalığına* gətirib çıxarır. Hər hansı bir cəmiyyətin digəri ilə əvəzlənməsi şüuri dəyişmələrlə müşayət olunur. İnsanların yeni yaranmış sosial-iqtisadi şəraitə uyğunlaşması da ilk növbədə şüurun yeni forma və mahiyyət əldə etməsi ilə bağlıdır. Şüuri dəyişilmələr xeyli vaxt və məqsədyönlü dövlət siyasətinin aparılmasını tələb edir. Sosial-iqtisadi sistemlərin bir-birini əvəz etməsi mərhələsi keçid dövrü cəmiyyətin elə bir vəziyyətidir ki, insanlar bir dəyərdən imtina edir, əvəzində digər dəyərləri hələ tam mənimsəyə bilmir. Bu da cəmiyyətdə müxtəlif xarakterli böhranlar yaradır. Problemlərin qaynaqlandığı mənbələrin siyahısını dəyişən şüur parametrlərinin sayı müəyyən edir. Bu mənada keçid dövrünə qədəm qoymuş Azərbaycanda da mövcud sosial-iqtisadi böhranın əsasında duran şüuri transformasiyaların etimalogiyasını öyrənmək problemlərin effektli həlli üçün mühüm vəzifədir.

Müasir dövrdə Azərbaycanda dəyişikliyə uğrayan beş mühüm şüur parametrini ayırd etmək olar:

1. Kolonial və ya müstəmləkəçilik şüurundan müstəqillik şüuruna keçid. Qeyd etmək lazımdır ki, Azərbaycanda müstəqil dövlətin yaranmasını əhalinin şüurunda dövlətçilik hisslərinin tam hakim olmaması və müəyyən təbəqədə dövlətçilik şüurunun rüşeym halında olması müşayət edilməkdədir. Müstəqillik əldə etdikdən sonra "Sovet dövlətinin vətəndaşı" olan adamlarda dövlət, vətən, xalq anlay-

ışları coğrafi (məkan) ölçülərinə görə daralsa da, mahiyyət etibarı ilə həmin anlayışların dərkedilmə müstəvisi genişlənmişdir. Uzun illər milli dövlətçilik şüurundan məhrum olmuş vətəndaşlarımız üçün "müstəqillik" və "suveren dövlət" bir anlayış kimi yadlaşdırılmışdır. Azərbaycanda dövlət haqqında təsəvvürlər abstrakt olmuş, mərkəzi dövlətdən asılı olan direktiv idarəçilik aparatı dövlət kimi təqdim edilmişdir. Keçmiş sovet dövlətinin bir millətin hökmranlığı altında olması, üstəlik, həmin dövlətin müxtəlif millətləri də təmsil etməsi dövlətin mövcudluğu üçün *məsuliyyət hissinin* qeyri-müəyyən vəziyyətə düşməsi ilə nəticələnmişdir. Mərkəzi hökumətin atributları nəinki xalqlar üçün yad və anlaşılmaz olmuş, həm də həmin *atributların qəbulu zorakılığa istinad etmişdir*. Sovet dövlətinin quruluşu praktiki olaraq *regional prinsipə* əsaslanmış və regionlararası təcridə cəhd edilmişdir. O cümlədən, Azərbaycanda da müxtəlif regionlar 70 il ərzində bir-birindən təcrid edilmiş şəkildə saxlanmışdır. Bu da ayrı-ayrı regionların əhalisində spesifik mənəvi-psixoloji durumun formalaşmasına gətirib çıxarmışdır. Bundan başqa Azərbaycandan kənarda, ya da təcrid olunmuş ərazidə - anklavda məsələn, Naxçıvanda yaşamış azərbaycanlılarda yad millətlər əhatəsində və onların tabeçiliyində yaşamaqdan doğan xüsusi şüur formalaşmışdır ki, bu qrupdan olanların kütləvi şəkildə Azərbaycana köçməsi və ya deportasiya edilməsi nəticəsində ciddi şüuri problem yaratmışdır. Hətta bu qrupları fərqləndirən xüsusi epitetlərin - "yeraz" (Ermənistandan köçən azərbaycanlılara verilən ad), "qraz" (Gürcüstandan gələn azərbaycanlılara verilən ad) və s. yaranmasına səbəb olmuşdur. Beləliklə, müstəqillik əldə etdikdən sonra insanların dövlətçilik şüurunda əksi münasibətlər *dövlətin yadlaşdırılması,* dövlət üçün məsuliyyətin qeyri-müəyyənliyi, dövlətin zora istinadən qəbul etdirilməsi və nəhayət, *regional əyalətçilik şüuru* özünü göstərməyə başlamışdır ki, bu da indiki sosial-iqtisadi böhranın dərinləşməsində əsas faktorlar kimi mühüm rol oynayır.

2. Qapalı total şüurdan - açıq şüura kecid.

Azərbaycan xalqının qarşısında duran mühüm məqsədlərdən biri də qapalı, total sosialist cəmiyyətindən acıq, demokratik cəmiyyətə keçməkdir. Bu zaman vətəndaşların şüurunda total inzi-

bati şüurdan azad, yaradıcı şüura keçid baş verməlidir. Bu keçiddə müşahidə edilən əlamətdən biri vətəndaş şüurunun formalaşmaması nəticəsində vətəndaşlarda "hüquq və azadlıqlardan qaçma sindromu"nun özünü göstərməsidir. Adamlarımızın şüurunda keçmişdən qalma inzibati şüur, kollektiv fəaliyyət və dövləti nailiyyət təsəvvürləri güclüdür. Keçmiş SSRİ-də vətəndaşlarda təşəbbüskarlıq hissi söndürülür, konstitusion və beynəlxalq hüquqlardan total imtina müşahidə edilirdi. Qanundankənar yaşama vərdişi ölkədə *hüquqi nihilizmi* şərtləndirir. Nəticədə kriminal həyat çiçəklənir, hüquqi rejim formalaşması baş tutmur, dövlət və vətəndaşlar siyasi məkanda müvafiq siyasi vaxtda zəruri vəzifələri yerinə yetirə bilmir. Azadlıq və zərurət məsuliyyət və səlahiyyət məsələsində refleksiya olunmur. Siyasi hakimiyyətdəki səlahiyyətlərin formal bölgüsü öz arxasınca formal məsuliyyəti yaradır. Bu isə yuxarıdan "çiçəklənən" sosial əyintilərə təkan verir.

Cəmiyyətimiz özünütəşkilatlandırma mərhələsindədir. Təəssüf ki, azad şüura nisbətən *kriminal şüur* daha sürətlə təşkilatlanır. Bir çox məqamlarda təşkil olunmuş cinayətkar qruplar siyasi hakimiyyətin ayrı-ayrı qolları ilə çulğulaşır. "Hüquqi şüurun" formalaşması və milli mentalitet vətəndaşlar və vətəndaşla dövlət arasında hüquqi münasibətlərin formalaşmasını ləngidir. Xüsusən, iqtisadi münasibətlərdən şifahi sözləşmə geniş inkişaf tapdığından, buna uyğun "razborka" (araşdırma) praktikası çiçəklənir. Bu da qeyri-qanuni kapitalın yaranması üsullarından birinə çevrilir.

3. Keçid dövründə şüuri transformasiyanın digər bir istiqaməti *materialist şüurundan idealist şüuruna və ya çoxformalı qarışıq şüuri cəmiyyətə* keçiddir.

Bu gün Azərbaycanda marksist materialist şüurunun yerini böyük sürətlə mifoloji şüur formasından ən müxtəlif qədim və müasir şüur formalarınadək qarışıq ictimai şüur tutmaqdadır. Ölkə əhalisinin sayı ilə coxşüurluluq arasında böyük uçurum vardır. Cəmiyyətdə milli, sinfi, dini və liberal şüurun müxtəlif çalarları açıq rəqabətə qoşulmuşdur. Bu rəqabətdə hər hansı bir şüur formasının üstünlüyü müəyyənləşmədiyindən, sosial-iqtisadi həyatın tənzimlənmə mexanizmləri də qeyri-müəyyən qalmaqdadır. İnsanlarımız-

da açıq şüur üçün xarakterik olan azadlıq, ədalət, bərabərlik kimi böyük insani dəyərlərə qiymət verilmir. Bunun əvəzində şəxslər, maddi nemətlər, şəxsi maraqlar aparıcı bütlərə çevrilmişdir. Həyata materialistcəsinə baxış, vətən və millət, o cümlədən vətəndaşlıq məfhumlarının dərk edilməsini əngəlləyir. İnkişaf etməkdə olan xüsusi mülkiyyətçilik hissi şüurlarda gedən dəyişmələrə nisbətən sürətlidir. Dövlətin və cəmiyyətin maraqlarını gözləməyən bu sektor *parazitar kapitalizmi* formalaşdırır. Hüquqsuzluq və nəzarətsizlik şəraitində qeyri qanuni və natəmiz kapitalın yığımı prosesi gedir. Bu da cəmiyyətdə fahişəliyin, narkobiznesin, təşkil olunmuş cinayətkarlığın çiçəklənməsinə gətirib çıxarır.

Açıq şüur üçün xarakterik olan humanizim vətəndaşların şüuruna hakim kəsilmədiyindən, onların fəaliyyətini tənzimləmək gücünə malik deyil, nəticədə cəmiyyətdə antihumanist meyllər inkişaf edir. İslahatların ardıcıllığı və həmçinin düzgün müəyyən edilməməsi sosial təbəqələri passivləşdirir, təşəbbüskarlığı azaldır, əlabaxımlıq psixologiyasını gücləndirir. Beləliklə, cəmiyyətdə sosial təminata ehtiyaclı təbəqənin həcmi böyük surətdə genişlənir.

Bununla yanaşı konservativ şüur da zaman-zaman özünü göstərir, köhnə həyat tərzini saxlamağa va ya bərpa etməyə cəhd edənlərdə güclü *nostalgiya* baş qaldırır, bu da insanların pozitiv inkişafına mane olur və vətəndaşların yeni sosial-iqtisadi münasibətlərə həvəssiz girmələri ilə nəticələnir.

4. Məişət şüurundan siyasi şüura keçid: Məlumdur ki, fərdi şüur daha çox kütləvi şəkildə gündəlik şüur – məişət şüuru kimi təzahür edir. Belə şüura malik olanlar gündəlik məişət qayğıları ilə məşğul olmağa üstünlük verir. Belə şüura malik fərdlər ictimai və siyasi həyatda iştirakdan yayınır, öz hüquq və azadlıqlarından imtina edir, siyasi münasibətlərin müəyyənləşməsindən kənarda qalır. Ölkəni və dövləti təhdid edən xarici təhlükələrə reaksiya vermir. Gündəlik şüur insanlarda *"tarixi hissi"* öldürür, siyasi məsuliyyətin yaranmasına imkan vermir. Belə şüura malik olanlar meşşanlar ordusunu təşkil edir. Onların hakimiyyət əzmi sahib olduqları əşyaların üzərində yaranır. Buna görə də əşya uğrunda mübarizə digər bütün ictimai cəhdləri üstələyir. Əşya isə artdıqca öz sahibini özünün quluna çevi-

rir, nəticədə vətəndaşlar əşyalarından asılı olduğundan onları *məqsədəyönlülük* prinsipi ilə idarə etmək və yönləndirmək asanlaşır. Bunun əksinə siyasi şüur sosiallıq və tarixi hissi gücləndirdiyindən insanı öz taleyinin ağasına çevirir. Belə şüura malik fərdlər dövlətlə bərabər hüquqlu tərəf kimi çıxış etməyə cəhd edirlər. Bunun üçün aktiv siyasi mövqe tutur və ictimai həyatda iştirakçılığa cəhd edirlər. Vətəndaşlarda siyasi şüurun formalaşdırılması dövlətin əsası və onun birinci V bəzifəsidir. Siyasi şüuru olmayan vətəndaşların dövləti heç vaxt real suverenliyə malik ola bilməz.

5. Milli şüurdan bəşəri idraka keçid: Azərbaycan müstəqillik əldə etməsi ilə dünya dövlətləri sistemində özünə yer tutmaq məcburiyyətindədir. Bu, qloballaşmanın tələbidir. Dünya qloballaşdıqca şüurun bütün formalarının öz yerini bəşəri idraka verməsi - ayrı-ayrı xalqların, millətlərin yox, bütünlükdə bir tam kimi bəşəriyyətin tərəqqi prosesində yaratdığı siyasi fəlsəfənin qəbul edilməsi insanlığın ümumi, universal dünyagörüşünə keçməsi - tələb olunur. Bəşəri idrak fərdi və kollektiv şüur formalarından özünün universallığı ilə fərqlənir. Bəşəri idraka yiyələnmədən beynəlxalq dövlətlər sistemində yer tutmaq, insanlığın avanqard hissəsinin nailiyyətlərindən bəhrələnmək və öz növbəsində isə bəşəri tərəqqiyə öz payını vermək mümkün deyil. Bu proses bir-birini inkar edən iki əks istiqamətli meyli özündə birləşdirdiyindən çətin, amma əhəmiyyətli məsələdir. Bu meyllərdən hər hansı birinin üstünlük əldə etməsi – ya milli kimliyin itirilməsinə, ya da özünü təcrid etməklə sivil xalqların ailəsindən kənarda qalmağa səbəb olur ki, hər iki halda xalqa və dövlətə böyük zərbə dəyir.

Azərbaycanda indiki şəraitdə dövlət vətəndaşların şüurunun formalaşmasında və istiqamətləndirilməsində zəif çıxış edir. Xüsusən əhalinin elmi, siyasi, mədəni maarifləndirilməsi, xalqın tərbiyələndirilməsi işi qurulmamışdır. Bunun nəticəsində artan nadanlıq və mənəviyyatsızlıq cəmiyyətdə cəhalətin, rəzalətin, səfalətin yaratdığı problemləri üzə çıxarmışdır.

Mövcud sosial-iqtisadi problemlərin həlli ilk növbədə şüur proseslərinin tənzimlənməsi və inkişafı ilə bağlıdır. Buna görə də bu vəzifəni yerinə yetirmək üçün hər bir vətəndaş, o cümlədən ailə,

məktəb, məscid, ictimai-siyasi təşkilatlar və dövlət öz vəzifələrini dərk etməli və bu vəzifələri yerinə yetirmək üçün məqsədyönlü fəaliyyət göstərməlidir.

P.S. Məqalə Azərbaycan Elmlər Akademiyası Ə. Bəhmənyar adına İnstitutunun. "Azərbaycanın yeniləşmə prosesinin sosial-fəlsəfi problemləri" məqalələr toplusunda (Bakı-1998-ci il) çap olunmuşdur.

MƏSLƏHƏT GÖRÜLƏN ƏDƏBİYYAT

1. Аристотель. Сочинение в 4-х томах, М-1983.
2. Арон Р. Демократия и тоталитаризм. М-1993.
3. Баллер Э.А. Человек и Свобода. М-1972.
4. Бернал Дж. Науки в истории общества. М-1956.
5. Бетлл Т. Собственность и процветание М-2008
6. Блунчли И.К. История общего государственного права и политики. С-Петербург-1874.
7. Бодрийяар Ж. Прозрачность зла М-2006
8. Боэси Э.Д. Рассуждение о добровольном рабстве. М-1952.
9. Бродель Ф. Время Мира. М-2007.
10. Буопорроти Ф. Заговор во имя равенства. В 2-х томах, М-1963.
11. Валлерстайн И. Анализ мировых систем и ситуация в современном мире. С-Петербург-2001.
12. Вебер М. Избранное. Образ общества. М-1994
13. Вейтлинг В. Гарантии гармонии и свободы. М-1962.
14. Вольтман Л. Политическая антропология. М-2000.
15. Гердер И.Г. Идеи к философии истории человечества. М-1977
16. Глобальные проблемы общечеловеческие ценности. М-1990.
17. Годвин В. О собственности. М-1958.
18. Грин Р. 48 Законов власти. М-2000.
19. Гроции Г. О праве войны и мира. М-1954
20. Далъ Р. О демократии. М-2000.
21. Деборин А.М. Социально-политические учение нового и новейшего времени. В 3-х томах, М-1958.
22. Дезами Т. Кодекс общности. М-1956
23. Дугин А. Основы геополитика. М-1999.
24. Дъюи Дж. Демократия и образования. М-2000.
25. Дъюи Дж. Общество и его проблемы. М-2002.

26. Дюверже М. Политические партии. М-2000.
27. Калшед Д. Внутренний мир травмы. Екатеринбург-2001.
28. Канетти Э. Масса и власть. М-1997.
29. Кин Дж. Демократия и гражданское общество. М-2001.
30. Кларк Дж.Б. Распределение богатства. М-2000.
31. Клаузевиц К.Ф. О войне. В 2-х томах. Москва-С-Петербург-2002.
32. Козер Л. Функции социального конфликта. М-2000.
33. Лебон Г. Психология народов и масс. С-Петербург-1995.
34. Левинас Э. Время и другой. Гуманизм другого человека. С-Петербург-1998.
35. Лем С. Сумма технология. Москва-С-Питербург-2002.
36. Липовецки Ж. Эра Пустоты. Эссе о современном Индивидуализма. С-Петербург-2001.
37. Ломброзо Ч. Преступный человек. С.Петербург 2005.
38. Макиавелли Н. Избранные сочинения. М-1982.
39. Манхейм К. Диагноз нашего времени. М-1994.
40. Марат Ж.П. Избранные произведение. М-1956.
41. Маркс К. Капитал. В 4-х томах, М-1988.
42. Маркс К., Енгельс Ф, Ленин В.И. О демократии. М-1988.
43. Миллъ. Дж.С. Основы политической экономии М-2007
44. Моз Л. Психоистория. Ростов На Дону–2000.
45. Монтескье Ш.Л. Избранное Произведения. М-1955.
46. Мунье Э. Манифест Персонализма. М-1999.
47. Норта М. Теория Элит и политика. М-1978.
48. О Свободе. Антология мировой либеральной мысли (I Половина XX Века). М-2000.
49. Ниринг С. Свобода: Обещание и угроза. М-1956.
50. Парсонс .Т.О социальных системах М-2002
51. Печчеи А. Человеческие качества. М-1985.
52. Платон. Законы. М-1999]
53. Психология И психоанализ власти. Хрестоматия В 2-х томах, Самара-1999.
54. Поппер К. Открытое Общество и его враги. В 2-х томах. М-1992.
55. Поэтика и политика. Альманах. С.Петербург-1999.
56. Пригожин И., Стенгерс И. Порядок из хаоса. М-1986.
57. Прудон П.Ж. Что такое собственность? М-1998.
58. Руссо Ж. Ж. Трактаты. М-1969.

59. Рубин Дж, Пруйт К.М., Ким Х.С. Социальный конфликт: эскалация, тупик, разрежение. М-2002.
60. Сеннет Р. Падение публичного человека. М-2002.
61. Seliqman A. Vətəndaş cəmiyyəti ideyası Bakı-2005.
62. Смит А. Исследование о природе и причинах богатства народов М – 2009.
63. Смайлс С. Саморазвитие умственное, нравственное и практическое. Минск-2000.
64. Тойнби А.Дж. Постижение истории. М-1996.
65. Тоффлер Э. Метаморфозы власти. М-2001.
66. Тоффлер Э. Тоффлер Х. Революционное богатство М-2008.
67. Тоффлер Э. Третья Волна. М-1999.
68. Тоффлер Э. Шок Будущего. М-2001.
69. Уайтхед А.Н. Избранные работы по философии. М-1990.
70. Уолцер М. О терпимости. М-2000.
71. Уоррен Б., Герберт Ш. Теория группового развития. В Кн. Современные западное социальное психология. Текст. М-1984.
72. Финн К.В. Интеллектуальные системы и общество. М-2001.
73. Франкл В. Человек в поисках смысла. М-1990.
74. Франкл Дж. Неизведанное Я. М-1998.
75. Фромм Э. Анатомия человеческой деструктивности. М-1994.
76. Фромм Э. Бегство от свободы. М-1990.
77. Фромм Э. Революция надежды. С.Петербург-1999.
78. Фромм Э. Человек для себя. Минск-1998.
79. Фуко М. Надзирать и наказывать: Рождение тюрьмы. М-1999.
80. Фукуяма Ф. Конец истории и последний человек. Москва 2007.
81. Фукуяма Ф. Америка на распутье. Москва 2007
82. Хайек Ф.А. Познание, конкуренция и свобода. Пневма–1999.
83. Хайек Ф.А. Индивидуализм и экономическая порядок М-2000.
84. Хакен Г. Синергетика. Иерархии неустойчивости в самоорганизующихся системах и устройствах. М-1985.
85. Халъбвакс М. Социальные классы и морфология. С-Питербург-2000.
86. Хантингтон С. Столкновение цивилизаций М – 2003.
87. Хобсбаум Э. Век капитала. Ростов-На-Дону-1999.
88. Хойруп Т. Модели жизни. С-Петербург-1998.
89. Хортон К.Ч. Человеческая природа и социальный Порядок. М-2001.

90. Цвейг С. Совесть против насилия. М-1986.
91. Шибутани Т. Социальная психология. М-1969.
92. Шмитт К. Политическая теология. Москва-2000.
93. Штраус Л. Введение в политическую философию. М-2000.
94. Эпперсон Р. Невидимая рука. Введение во взгляд на историю как на заговор. С.Петербург-1999.
95. Ясперс К. Смысл и назначение истории. М-1994.
96. Шеллинг Ф. Система мировых эпох. Томск-1999.

SƏRDAR CƏLALOĞLU

TOTALİTARİZMİN METAMORFOZASI

Texniki redaktor: Rauf KƏRİMLİ
Bədii redaktor: Taliyət ƏLİISOY
Korrektor: Zülfüqar HÜSEYNZADƏ

Çapa imzalanmışdır: 01.07.2010
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 36,0
Sifariş: 22. Sayı: 1000 ədəd